# AZƏRBAYCAN

QƏZETİ

1918-1920

## IX CİLD

(İyun 1919)

**TRANSLİTERASİYA EDƏNLƏR**

**Mehdi Gəncəli**
Filologiya üzrə fəlsəfə doktoru

**Azad Ağaoğlu**
Filoloq, tərcüməçi

**ELMİ REDAKTOR**

**Teymur Kərimli**
Akademik

**ADA Universitetinin**
**təşəbbüsü və dəstəyi ilə nəşr edilir.**

# MÜNDƏRİCAT

**Ön söz**
**Oxucuların diqqətinə**
**Nömrə 192** (1 iyun 1919) ........ **1**
**Nömrə 193** (2 iyun 1919) ........ **27**
**Nömrə 194** (3 iyun 1919) ........ **53**
**Nömrə 195** (4 iyun 1919) ........ **81**
**Nömrə 196** (5 iyun 1919) ........ **109**
**Nömrə 197** (6 iyun 1919) ........ **137**
**Nömrə 198** (8 iyun 1919) ........ **163**
**Nömrə 199** (9 iyun 1919) ........ **189**
**Nömrə 200** (10 iyun 1919) ........ **209**
**Nömrə 201** (11 iyun 1919) ........ **227**
**Nömrə 202** (12 iyun 1919) ........ **247**
**Nömrə 203** (13 iyun 1919) ........ **267**
**Nömrə 204** (15 iyun 1919) ........ **287**
**Nömrə 205** (16 iyun 1919) ........ **313**
**Nömrə 206** (17 iyun 1919) ........ **333**
**Nömrə 207** (18 iyun 1919) ........ **351**
**Nömrə 208** (20 iyun 1919) ........ **371**
**Nömrə 209** (22 iyun 1919) ........ **391**
**Nömrə 210** (24 iyun 1919) ........ **411**
**Nömrə 211** (25 iyun 1919) ........ **431**
**Nömrə 212** (26 iyun 1919) ........ **451**
**Nömrə 213** (27 iyun 1919) ........ **471**
**Nömrə 214** (28 iyun 1919) ........ **491**
**Adlar göstəricisi** ........ **519**

# ÖN SÖZ

ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin orqanı olan "Azərbaycan" qəzetinin (1918-1920) tam külliyyatı ərəb qrafikalı əlifbadan latın qrafikalı müasir Azərbaycan əlifbasına köçürülərək, lüğət, izahlar, şərhlər və adlar göstəricisi əlavə edilməklə nəşrə hazırlanmaqdadır. Təəssüflə qeyd etmək lazımdır ki, bu istiqamətdə ayrı-ayrı təşəbbüslər olsa da (mərhum professor Şirməmməd Hüseynovun çalışmaları xüsusilə yada salınmalıdır), "Azərbaycan" qəzeti kimi mühüm bir nəşrin müasir oxucu üçün əlçatan olmasını təmin edəcək bu səviyyədə bir iş, 30 illik müstəqillik dövründə həyata keçirilməmişdir.

"Azərbaycan" qəzetindəki materiallar Azərbaycan Cümhuriyyətinin bilavasitə tarixini əks etdirir. Qəzetin səhifələrində Azərbaycan Hökumətinin qərarları, Parlament üzvlərinin çıxışları, paytaxtda və bölgələrdə baş verən hadisələrin təfərrüatları, müxtəlif təhlillər, xatirələr öz əksini tapıb. Günümüzdə xüsusi əhəmiyyət kəsb edən Qarabağ, Zəngəzur bölgələrinə dair materiallar oxucularda böyük maraq doğuracaqdır. Eləcə də, Azərbaycan Cümhuriyyətinin xarici dövlətlərlə münasibətləri, dövrün ab-havası müfəssəl şəkildə qəzetin səhifələrində əks olunub. Ümumiyyətlə bu qəzetin transliterasiyası Azərbaycan Cümhuriyyəti tarixşünaslığında yeni bir səhifə açacaq və gələcək tədqiqatlar üçün mühüm stimul olacaqdır.

İlk dörd nömrəsi Gəncədə, sonrakı nömrələri Bakıda nəşr edilən "Azərbaycan" qəzetinin 15 sentyabr 1918 – 28 aprel 1920 tarixləri arasında 443 nömrəsi çapdan çıxmışdır. Qəzetin redaktorları müxtəlif vaxtlarda Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli və

Xəlil İbrahim kimi dövrün qabaqcıl ziyalıları olmuşdur. Qəzet əksəriyyətlə 4 səhifə həcmində çıxsa da, bəzi nömrələrdə səhifələrin sayı fərqlilik göstərir. Hər səhifədəki sütunların sayı və səhifələrin ölçüsü, qəzetin çap olunduğu 19 ay yarımlıq müddət ərzində bir neçə dəfə dəyişmişdir.

"Azərbaycan" qəzetinin nüsxələri Azərbaycan Respublikasının Milli Arxiv İdarəsində, Azərbaycan Respublikasının Dövlət Arxivində, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda və Azərbaycan Milli Kitabxanasında pərakəndə halda saxlanmaqdadır.

Qəzetin müasir oxucu üçün əlçatan olması tariximizin Cümhuriyyət dövrü kimi zəngin səhifəsinin öyrənilməsi baxımından çox əhəmiyyətlidir. Azərbaycan xalqının tarixi mirasını qorumaq və gələcək nəsillərə ötürmək işinə töhfə verməkdən ADA Universiteti qürur duyur.

**Hafiz PAŞAYEV,**
**ADA Universitetinin Rektoru**



## OXUCULARIN DİQQƏTİNƏ

"Azərbaycan" qəzetini transliterasiya edərkən, mətnin orijinallığını qorumaqla birgə, materialların müasir oxucu üçün mümkün qədər anlaşılan olmasına çalışdıq. Bu səbəbdən, bəzi sözlərin imlasını müasirləşdirmək lazım gəldi. Məsələn, "çox" yerinə qəzetdəki kimi "çoq", "yox" yerinə "yoq", "etməyi" yerinə "etməgi", "kimi" yerinə "kibi", "nömrə" yerinə "numero" və s. yazmaq, oxucunun işini çətinləşdirməkdən başqa bir şeyə yaramayacaqdı. Üstəlik, bu sözlərin fərqli yazılışları qəzetdə bəzən eyni səhifədə yanaşı istifadə edilmiş, yəni imla birliyi prinsipi nəzərə alınmamışdı. Bu qəbildən olan sözlərin müasir yazılışına üstünlük verməyin, daha doğru bir addım olacağına inandıq.

Eyni zamanda, "teatro", "qəzetə", "böylə" kimi bəzi sözlərə toxunmadıq. Çünki əvvəla, bu sözlər qəzetdə həmişə eyni cür yazılmışdır; ikincisi də, mütaliəni çətinləşdirmədən dövrün ab-havasını saxlamağa xidmət edir.

Osmanlı türkcəsində və müasir Türkiyə türkcəsində indiki zaman şəkilçisi olan "-yor" qəzetdə qaydasız və pərakəndə bir şəkildə işləndiyi üçün (eyni cümlədə həm "-yor", həm "-ır, -ir, -ur, -ür" şəkilçisindən istifadə edildiyini görmək mümkündür) mətndən çıxarılmışdır. Şeir parçalarında vəznin pozulmasına yol verməmək üçün "-yor" şəkilçisinin saxlandığı istisnalar da var.

Yer adlarını, fərqli versiyaların işlənməsi baxımından (Bolqarıstan – Bolqariya, Lehistan – Polşa, Macarıstan – Venqriya və s.) qəzetdəki kimi saxladıq, fəqət yazılış baxımından müasirləşdirdik ("Bulqarıstan" yerinə "Bolqarıstan", "Kiyef" yerinə "Kiyev" və s.). Eləcə də, "Bakü" yerinə bugünkü kimi "Bakı" yazdıq. Soyadı sonluqlarını da ("-of", "-yef" və s.) müasirləşdirməyi ("-ov", "-yev" və s.) məqsədəuyğun hesab etdik.

Çətin anlaşılan söz və ifadələr üçün cildin sonuna lüğət əlavə etməyi münasib görmədik. Əvvəla, hər dəfə mütaliəni kəsərək lüğətə baxmaq oxucu üçün çətindir, ikincisi, bəzi sözlərin bir çox mənası içindən məhz hansının nəzərdə tutulduğunu təyin etmək barəsində oxucu tərəddüddə qala bilər. Çətin anlaşılan söz və ifadələrin necə başa düşülməli olduğunu mətnin içində kvadrat mötərizədə göstərdik. Bu halda, kvadrat mötərizədəki sözlər normal mətndən daha kiçik şriftlə verilmişdir. Məsələn: "...xəstəliklərin bittamam rəf'inə [tamamilə aradan qaldırılmasına] qədər..." Qəzetdəki mətndə səhvən buraxılan sözləri də kvadrat mötərizə içində əlavə etdik. Bu halda, kvadrat mötərizədəki sözlərlə normal mətnin şrifti eynidir. Məsələn: "...Xarici [İşlər] nazirinin..."

Hər nömrədən sonra əlavə edilən "Qeyd və şərhlər"də, oxucular üçün faydalı məlumatlar yer alır. Qəzetdəki mürəttib xətalarından bəziləri (xüsusilə əhəmiyyətli olanları) də burada göstərilmişdir. Əlbəttə, bütün xətaları göstərmək lazım və mümkün deyildi. Xüsusilə Birinci Dünya müharibəsində Qərb cəbhəsi xəbərlərində keçən toponimlər qəzetdə demək olar ki, həmişə səhv yazılmışdır. Bu toponimlər mümkün qədər bərpa edilmiş, eləcə də "Adlar göstəricisi"nə əlavə edilərkən, toponimin aid olduğu dildəki yazılışı da verilmişdir.

Şeir parçalarında rastlanan çətin anlaşılan söz və ifadələrin lüğəti də "Qeyd və şərhlər" bölməsində verilmişdir.

Cildin sonunda "Adlar göstəricisi" verilmişdir. Mətndəki bütün şəxs, yer, dövlət, xalq, qurum, idarə, təşkilat, şirkət və s. adları, hətta bəzi xüsusi terminlər "Adlar göstəricisi"nə daxil edilmişdir.

**Mehdi Gəncəli** **Azad Ağaoğlu**



آذربایجان

اعلان

آذربایجان حکومتنك قرارلرندن

حکومت امرلری

گنجه

Bazar, 1 iyun 1919-cu il, nömrə 192

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 2 ramazanül-mübarək sənə 1337. 1 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

**AUKSİON SALONU "ZARYA" VƏ KOMPANİYA**

Bu gün auksionnı torq [hərrac] təyin olunubdur. Çadrovı və Mariinski küçələrin küncündə, nömrə 195/42.

*8790*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Azərbaycan Cümhuriyyətinin Ziraət və Miri Əmlak Nəzarətindən [Əkinçilik və Dövlət Əmlakı Nazirliyindən]**

Mövcud olan torpaq və əmlakla dövlətin etdiyi yolda müamilə edə bilməsinə müşkülat çıxara biləcək alış-verişə yol verməmək qəsdi ilə indiki halda belə Azərbaycan üçün hökmünü saxlamaqda olan qərardad mövcibincə [əsasında] – ki onu Zaqafqaz Komissarlığı 1918-ci il fevralın 23-də ittixaz [qəbul] etmişdir – şəhər xaricindəki torpaq mülklərinə, meşələrə, sulara və yerin içinə sahiblik haqqı vəz etmək və ya bu haqqı özgəsinə nəql etmək, bunları rəhn və girov qoymaq və ya bunlara aid başqa hüquq təsis etmək üçün yapılacaq sənədat və qəbalələrin cərəyanı müvəqqətən təxir və tövqif olunmuşdur [dayandırılmışdır]. Bu qərardaddan murad o idi ki, torpağa və yuxarıda göstərilən o biri maməläklərə [sərvətlərə] təsərrüf [maliklik] haqqının bir əldən özgə ələ rəsmi sənəd və qəbalələrlə keçməsinə mane olmaqdan başqa, qeyri-mütəhərrik əmvalın [daşınmaz malların] xudmani yolda da [rəsmi dövlət nümayəndəsinin iştirakı olmadan, vətəndaşların öz aralarında imzaladıqları sənədlərlə] əldən-ələ keçməsinə mümkün dərəcədə mane olmaq.

Halbuki Ziraət və Miri Əmlak Nəzarətinə məlum olmuş ki, axır vaxtlarda Azərbaycanın kənd əqsamında [kənd yerlərində] mülk sahiblərinin öz mülklərini ya həmişəlik və ya müvəqqət surətdə kəndlilərə və ya başqa əşxasa [şəxslərə] qisim-qisim qeyri-rəsmi və xudmani sənədlər və müahidələr mövcibincə [müqavilələr əsasında] verdikləri kəsrət üzrə [əksər halda] vüqu bulmuşdur. Torpaqlara sahib olmaq haqqını özgəsinə nəql etmək üçün icra olunan bu müamilələr qanun hökmündən sovuşmaq qəsdi ilə yapılmışlardır. Bu növ müahidələr gələcək Müəssislər Məclisinin və hökumətin icraatının azadlığına hədd çəkəmməz və torpaq məsələsinin gələcəkdəki həlli za-

manında bu növlə intiqal edən [əldən-ələ keçən] torpaqlar üçün və ya müamilələrdə bulunmuş adamlar üçün heç bir imtiyaz vermədikləri halda, ancaq əhalini nəfsiz [faydasız] zərərlərə düçar eyləyər.

Yuxarıda bəyan olunan əhvallar Ziraət Nəzarətini ona sövq eyləyir ki, Azərbaycan kənd əhalisini mütənəbbeh [ayıq-sayıq] eyləsin, qəflətdən oyatsın ki, bunun-onun mülkü olan yerlərin satın almasından və ya uzun müddət üçün icarə eyləməsindən ictinab etsinlər [saqınsınlar] və kənd əhalisinə desin ki, onların həqiqi mənfəətləri onu təqaza [tələb] eyləyir ki, torpaq xüsusunda öz əhvallarının yaxşılaşacağına kamali-xatircəmliklə müntəzir olsunlar. Azərbaycanda torpaq tənzimatı [islahatı] icra olacaq və bu icra o yaxşılığı hüsula gətirəcəkdir. Bu tənzimatın tezliklə icrapəzir olması üçün dövlət təlaş etməkdədir.

*Ziraət və Miri Əmlak naziri:*
*[Aslan bəy] Qardaşov*

## TELEQRAF XƏBƏRLƏRİ

**İngiltərənin məlumati-rəsmiyyəsi**

İngilis aeroplanlarının Fort-Aleksandrovsk üzərində etdikləri kəşfiyyatdan anlaşılmışdır ki, mayın 25-də Fort-Aleksandrovskdan bolşevik flotu çəkilmişdir. Körpünün yanında bir torpedo və digər bolşevik gəmilərinin qərq edildiyi kəşf edilmişdir. Dərya kənarı yaxınlığında düşmənin üç müsəlləh [silahlı] ticarət gəmisi yandırılıb qərq edilmişdir. Bir az dəryanın dərin yerində digər iki paroxod qərq edilmişdir. Hərçənd aeroplanlar çox aşağıdan seyr edib bunları tanımaq istəmişsə də, amma bununla bərabər məlum olmamışdır. Mayın 26-da olan təkrari kəşfiyyatdan yuxarıda zikr edilən fəqərələr [hadisələr] təsdiq edilmişdir. Yəqinlik hasil etmək üçün aeroplanlar çox aşağıdan gəzirmişlər. Qərq edilmiş paroxoda bomba atmışlardır. Fəqət məlum olmuşdur ki, bu paroxodların həp komandası çıxmışdır. Müharibə zamanında iki ingilis gəmiləri yüngül surətdə zədələnmişlərsə də, fəqət dərhal müəmmər [təmir] edilib şimdi həman paroxodlar hərb halına gətirilmişlərdir.

Port-Səid - Süveyş kanalının əmələləri [fəhlələri] mayın 13-də tətil edib məvaciblərinin artırılması və iş müddətinin əskilməsini tələb etmişlərdir. Bu kanala əlaqəsi olan bütün müəssisələrin də əmələləri tətil etmişlərdir.

Kopenhagen - Latış dəstələri tərəfindən Riqa işğal edilmişdir. Orada olan bolşevik komissarlarının əksəri atılmaqla edam edilmişlərdir.

Kopenhagen - Peştədən xəbər verilir ki, rumınların yürüşü davam edir. Aprelin 29-dan bütün cəbhə boyu Tisadan Marosa qədər qoşunlar irəliləyirmiş. Gecə bolşeviklər tutduqları yerlərini təxliyə etmişlərdir.

**Bolşeviklər Sibiryada**

Vladivostokdan xəbər verilir ki, bolşeviklər Sibirya dəmiryolunun Krasnoyarskdan əlaqəsini kəsmək istəyirlər. Dəmiryolu Sibirya və çex qoşunlarının güclü dəstəsi tərəfindən mühafizə edilir. Teşed Və Qurt yanında müharibə davam edir.





Rotterdam - "Atreus" paroxodu ilə Çin məmləkətindən nəfy edilmiş [qovulmuş] olan birinci nemes qruppası varid oldu [gəldi]. Bunlar 270 nəfərdən ibarət olub, Almaniyaya əzimət edirlər [qayıdırlar].

- Murmanda bu yaxında bolşeviklər məğlub olduqlarına görə, onlar öz komandirlərini təbdil etmişlərdir [dəyişdirmişlər]. Dvina nəhri boyunda Müttəfiqlər əsir və bir neçə mitralyoz qənimət almışlardır. Vaqa cəbhəsində bolşeviklərlə Müttəfiqlər arasında olan müharibədə bolşeviklərdən külli əsir və bir çox silah qənimət alınmışdır.

- Fin qoşunları və Müttəfiqlər Petroqrad üzərinə hücum edirlər.

London - Əhvali-ümumiyyə yaxşılaşmışdır. Port-Səiddə tətil edənlər işə başlamışlardır. İskəndəriyyədə dəxi tətilçilərin işə başlayacaqları gözlənir.

## SÜLH ƏTRAFINDA

**Amerika və İtaliya**

İtaliya sülh mürəxxəslərinin [nümayəndələrinin] rəisi Orlando, Klemanso və Lloyd Corc naminə yazdığı məktubunda İtaliya mürəxxəslərinin Parisi tərk etdiklərini bəyanla deyir ki, İtaliya mürəxxəslərinin Konfransda çalışmaları artıq mümkün deyildir. Zira Vilson o zaman işə müdaxilə eylədi ki, italyanlar küdurətin qaldırılmasına var qüvvələri ilə çalışırdılar. İtalyanlar istəyirdilər ki, Amerika ilə sazişə gəlsinlər. Fəqət Vilsonun hərəkəti buna mane oldu.

Məktubda Orlando İngiltərə və Fransanın xeyirxahlığına qarşı izhari-məmnuniyyət edir.

Məktubun axırında əlavə edir ki, bu işdən hasil olacaq hər bir hadisəyə Vilson məsul olacaq. Amerika əhalisi Vilsonun İtaliyaya bağışladığı manifestə görə məsul tutulammaz, hər bir günah Vilsondadır.

**Kiao-Çao məsələsi**

Paris - Üçlər Şurası Kiao-Çao məsələsinin həllini Şərq işlərinə baxan komitənin mülahizəsinə vagüzar eyləmişdir [tapşırmışdır].

- Hərbiyyə Nəzarəti xəbər verir: Sülh müahidəsinə [sazişinə] almanların vəziyyəti naməlum olduğundan və nəticədə hərbin başlanacağı ehtimal tutulduğundan general Perşinq Fransadan çıxmayır. Ona görə də generalın London səfəri təxir edilmişdir.

- Almanlara verilmiş olan müahidənin eyni gələn həftə Avstriyaya təqdim ediləcəkdir.

- "Berliner taqeblatt" qəzetəsi yazır ki, alman Milli Məclisi məxfi heyəti bir əks-təklif hazırlayır. Bu təklifi mayın 27-də Versalda Müttəfiqlərə təqdim edəcəkdir.

- Çemberlen Avam Kamerasında demişdir ki, İngiltərə müharibənin ibtidasından [başlanğıcından] mart ayının 31-dək müharibəyə 1 milyard 700 milyon ingilis lirəsi sərf eyləmişdir.

## QƏZETƏLƏRDƏN

**Könüllülər Petrovskda**

Seşənbə [çərşənbə axşamı] günü "Feniks" paroxodu ilə Petrovskdan [Mahaçqaladan] varid olmuş [gəlmiş] bir şəxsin dediyinə görə, Petrovskda mülki işlər idarəsinə Könüllü ordu tərəfindən polkovnik İretski təyin edilmişdir. Əmələ hərəkatının başçıları həbs edilmişlərdir. Şəhər qoşunla doludur. Əhalinin bu günlərdə Könüllülər tərəfindən silah altına alınacağı şaye olmaqdadır [şayiəsi yayılmaqdadır]. Dağıstan hökumətinin agentləri bəziləri Şuraya, bəziləri isə başqa yerlərə əzimət etmişlərdir [getmişlər]. Könüllülərə heç bir mümaniət [müqavimət, maneçilik] edilməmişdir. Biləks [əksinə], onlara hər bir cəhətdən müavinət [kömək] edilmişdir.

- Mayın 29-da Aşqabaddan varid olanların [gələnlərin] rəvayətinə görə, Mərv şəhəri Şura qoşunları tərəfindən işğal edilmişdir. Mərvdə olan burjuylar var-yoxlarını buraxıb qaçmışlardır. Mərv yaxınlığında olan Tecen dəxi bolşeviklər əlindədir.

**Mərv və Kuşkanın işğalı**

Türküstanda Şura qoşunlarının başlamış olduqları hücumları müvəffəqiyyətli olmuşdur. 21 mayda şiddətli müharibədən sonra bolşeviklər Bayraməlini işğal etmişlərdir. Orada külli silah qənimət alınıb və bir çox əsir tutulmuşdur. Mayın 23-də isə Mərv şəhəri bolşeviklər tərəfindən işğal edilmişdir. Şura qoşunları müvəffəqiyyətli surətdə Aşqabad üzərinə yürüş edirlər. Şura qoşunları tərəfindən Kuşka mövqifi də [stansiyası da] işğal edilmişdir. Orada inqilab komitəsi təşkil edilmişdir. Beloqvardiya [Ağ qvardiya] qoşunları və sərvətlilər Seraxsa çəkilmişlərdir.

- Bolşeviklər Moskvada olan burjuylar üzərinə 2 milyon rublə təzminati-hərbiyyə qoymuşdur. Bu vaxta qədər burjuylar 900 min rublə bolşeviklərə vermişlərdir.

**Rusiya haqqında Dördlər Şurası**

Dördlər Şurasının bugünkü iclasında qərar qoyulmuşdur ki, Məclisi-Müəssisan çağırılmasına və təzə təşkil edilən hökumətlər üçün Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] tərəfindən təyin edilən sərhədlərin etirafına [qəbul və təsdiq edilməsinə] razı olub, bolşevik hökuməti olmayan hökumətlər təsdiq edilsin. Bu qətnamə hərbi müavinət tələb etməyib, onu rədd etməyir. Qəti tərzi-idarə bərpa edə biləcək Məclisi-Müəssisanın dəvətinə razı olan Kolçak və ya başqa hökumətin etiraf edilməsini tələb edir. Bu qətnamə, Parisdə olan Rus Siyasi Müşavirəsinin hazırladığı qətnamə həmçinin əksəriyyətin razılığına mütabiqdir [uyğundur].

## İSTANBUL XƏBƏRLƏRİ

On iki gün qabaq İstanbuldan çıxıb dünən Bakıya gələn bir türk xanımı mühərrirlərimizdən birinə aşağıdakı məlumatı vermiş:

- Kabinə düşürüldü. Təzə kabinənin müxtəlif firqələrdən təşəkkül edəcəyi ehtimalı qüvvətlidir.

- Əhməd bəy Ağaoğlu hələ dustaqdır. Dustaq olanların sayı gün-gündən artır. Dustaq edilmiş ittihadçıların mühakiməsi davam edir.

- İstanbulda fransızlar alçaq və adi rəftarda bulunurlar. İngilislər gedəcəklər. İtalyanlar özlərini yaxşı tuturlar. Əfkari-ümumiyyə [ictimai rəy] hökumətin əleyhindədir. Etilaf [Antanta] hökumətləri əleyhdarlığı isə gün-gündən şiddət etməkdədir.

- Rumlar İzmiri işğal edən gün İstanbul rumları da ikinci dəfə olaraq Ayasofya üzərinə hücum edib oranı zəbt ilə xaç qoymaq istədilər. Lakin Osmanlı və ingilis əsgərləri tərəfindən silah gücü ilə dəf edildilər. Hər iki tərəfdən tələfat var. Paytaxtın İstanbuldan köçürüləcəyi məlum deyil.

- Ənvər paşanın əmisi məşhur Xəlil paşa məiyyətindəki Məhəmməd Rza; Rauf və Əli bəylərlə bərabər Kağızxanədə edam edilmiş imiş. Edam məhəllində onlara hüsn-təvəccöh göstərən İsa bəy namında bir zabit də oradaca güllələnmiş imiş.

- Hicaz, Suriya və Bağdad ərəbləri oralardakı osmanlıların ingilislər tərəfindən böyük dərəcə təhqir edildiklərini çəkəmməyib, onlara qarşı izhari-nifrət və bunlara səbəb olan erməni propaqandaçılarını da məmləkətlərindən zorla dəf edirlər.

- İstanbulda çörəyin girvənkəsi 6 quruş, şəkərin 30-40 quruş. Çörək vəsiqə ilə 2 quruş. Özgə şeylər də əski qiymətlərinə görə çox-çox ucuzdur.

## MİSİR HADİSƏLƏRİ

Lordlar Kamerasında Misirdə vaqe olan hadisələr barəsində Rəisi-vükəla [Baş nazir] lord Kerzon məlumat verərkən demişdir:

Əvvəlkinə nisbətən Qahirədə xətrə [təhlükə] bir az yüngülləşmişdir. Qahirədə nümayişçilər vüsətsiz miqyasda idilər. Nümayişdə tələbələr iştirak etmişlərdi. Hakəza [eləcə də] üsyançılarla saldatlar arasında vaqe olan müsadimədə də [toqquşmada da] bunlar iştirak etmişlərdir. Fəqət ələlümum Qahirədə və İskəndəriyyədə sakitlik vardır. Biləks [əksinə], ətrafda dəhşətli üsyan əmələ gəlmişdir. Gərək Qahirənin, gərək [Misirin] yuxarı və gərək aşağı hissələrinin qaragüruh[u] müəyyən plan üzərinə hücum edirmiş. Və bundan anlaşılır ki, asilər əvvəlcədən hazırlanmışdırlar. Dəmiryolları təxrib edilib, teleqraf dirəkləri sındırılıb, bir neçə dəmir yol mövqifləri [stansiyaları] yandırılmışdır.

Hal-hazırda Qahirə ilə İskəndəriyyə arasında dəmiryol təraddüdatı [gediş-gəlişi] başlanmışdır. Əvvəlkinə nisbətən dəmiryol təraddüdünün təxiri azalmışdır. Qahirə ilə Tanta arasında teleqraf müxabirəsi [xəbərləşməsi, əlaqəsi] başlanmışdır. Fəqət Qahirənin yuxarı hissəsi ilə Qahirə arasında dəmiryol təraddüdatı kəsilmişdir. Zira Vasta və digər yerlərdə dəmiryol xətti təxrib edilmişdir. Poçta-teleqraf müxabirəsi aeroplan və simsiz teleqraf vasitəsilə işlənir.

Axırıncı nümayiş siyasidən ziyadə talan nümayişi idi. Tanta və Zəqaziqdə və digər yerlərdə asilər avropalıların evlərini talan etmişlərdir. Bəzi yerlərdə isə

kəndçilər mülkədarlara qarşı üsyan qalxızmışlardır. Üsyanlarda bəzi bədəvi hissələri iştirak etdiklərindən dolayı, üsyanlar dəhşətli bir rəng almışdır. Bunlar, yəni bədəvilər qanun tanımayan və daima qarət üçün iğtişaş salmaq istəyən ünsürlərdir. Bunlar son dərəcə gözəl təslih edilmişlərdir [silahlandırılmışlardır]. Məzuniyyətdən qayıtmış olan bir neçə ingilis afserlərini bunlar öldürmüşlərdir. Bu barədə təfsilat gözlənir.

Martın 19-da bədəvilər Fayyumda olan ingilis hissələrinə hücum etmişlərsə də, dəf olunmuşlardır. Şərqiyyədə olan Avstraliya qoşunları da bunların təcavüzlərinə məruz qalmışdır. Sudanda sülh və müsalimət [əmin-amanlıq] davam edir.

Bu üsyanı yatırtmaq üçün bir çox Misir məmurları, Avropa polis nəfəratı ciddi tədabir ittixaz etmişlərdir [tədbirlər görmüşlər]. Xüsusən axırıncılar çox çalışmışlardır. Şimdi anlaşılır ki, müsəlmanların ziyalıları və mədəniləri Misir hadisələrindən çox qəmgindirlər. Bizə dost olan müsəlmanlar bu üsyanın yatırılmasına ciddiyyən çalışırlar.

General Allenbi ali komissar təyin edilmişdir. Buna hərbi və mülki bir çox ixtiyarat verilmişdir. Misirdə asudəlik bərpa etmək üçün lazım gələn tədbirləri ittixaz edəcəkdir. Mən şübhə etməyirəm ki, yaxın bir zamanda o, öz vəzifəsini ifa edərək Misir qitəsini hər bir cəhətdən təmin edəcəkdir.

Mən bir mətləbi də sizə andırmalıyam, çünki bu mətləbin anlaşılmamazlığından bəzi sui-təfəhhümlər [anlaşılmazlıqlar] əmələ gəlir. Əlahəzrət kral hökuməti heç bir vaxt Misir vəzirlərindən Zühdü paşa və Adil paşanın İngiltərəyə gəlməsinə mümaniət [maneçilik] göstərməmişdir. Biləks [əksinə], onların İngiltərədə olması bizcə çox mətlubdur [arzuolunandır]. Mən bu iki dövlət xadimlərinə artıq qiymət qoyuram. Çünki onlar müharibə zamanında Misirə və İngiltərəyə böyük xidmətlər göstərmişlərdir. Keçən ilin axırında London səfərlərinin təxir edilməsi barəsində onlardan edilən rica ona görə idi ki, Sülh Konfransının ibtidalarında [başlanğıcında] Misir məsələsini qaldırmaq imkan xaricində idi. Mən yenə təkrar edə bilərəm ki, bu və digər Misir dövlət xadimlərinin İngiltərəyə gəlmələri əvvəldə də və indi də arzuedilən bir hal idi. Zira biz daima bunlarla birlikdə Misir ümuri-idarəsi [idarə işləri] xüsusunda və gələcəkdə Misirin İngiltərə himayəsi altında bulunması məsələsinə dair məşvərətdə bulunmuş[duq]. Fəqət Səid Zahidulla paşa məsələsi büsbütün başqa məsələdir. Hakəza [habelə] şimdiki üsyanı törədən şəxslərin məsələsi başqadır. Bu, dəvət olunmamış, müxtəlif təbliğatda bulunan və məqsədi də ingilisləri Misirdən qovmaq istəyən qeyri-məsul şəxslər şimdiki qəmli hadisəni törətmişlərdir.

Bu işlərdə iştirak edən və bu işlərin günahkarı olan şəxslərlə biz mənən məşvərətdə buluna bilməriz. Onların burada bulunması bütün Misir əhalisinə andırardı ki, guya biz Misir müqəddəratını onların özlərinə vagüzar ediriz [tapşırırıq] və Misir ümuri-idarəsindən bütün məsuliyyəti üstümüzdən atırız. Bundan əlavə, bunların İngiltərədə bulunması ingilislərlə əsil Misir nümayəndələri arasında olan müşavirəni də müşkül bir vəziyyətə salmış olardı.





**CÜMƏ GÜNKÜ**
**MÜHÜM XƏBƏRLƏR**

- İtaliya əvvəlki kimi Fiume barəsində öz tələbatında davam edir. Hal-hazırda bu məsələ xüsusunda üzləşməyə ümid azdır. Fəqət bu yolda işləyirlər. Mümkündür ki, bu girdabdan bir növ çıxıla.

- Helsinqforsdan [Helsinkidən] "Deyli meyl" qəzetəsinə teleqrafla xəbər verilir ki, Petroqradda dəhşətli yanğınlar və patıltılar əmələ gəlməkdədir. Əhali bolşevik hökuməti qarşısına üsyan qalxızıb, Petroqrad küçələrində hökumətlə əmələlər arasında qızğın müharibə gedir. Digər mənbələrdən bildirilir ki, Baltik qoşunları Riqanı almışlardır.

- Yekşənbə [bazar] günü Rantsaunun Parisə övdəti [qayıtması] gözlənir. Fransızlar zənn edirlər ki, nemeslər hər nə qədər Müttəfiqləri güzəştə məcbur etmək istəsələr də, nəhayət, müahidəni [sazişi] imza edəcəkdirlər.

- Londondan verilən məlumata nəzərən, mayın 16-da Baltik dənizində İngiltərənin "Kurakof" nam kruvazeri minaya toxunmuşdur.

Minsk - Polşa generalı Hallerin saldatları Rusiya cəbhəsinə getməkdən imtina edirlər. Bu yaxınlarda Polşada ümumi səfərbərlik elan ediləcəyindən kəndçilər və əmələlər üsyan etmişlərdir.

**NƏZARƏTLƏRDƏ**
**[NAZİRLİKLƏRDƏ]**

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Daxiliyyə Nəzarəti ilə etilafa [razılığa] gəlmişdir ki, qaçqınları şimdiki məhəllərində [yerlərində] sakin etsinlər. Zira, böyləliklə, onlar arazidən istifadə etməklə bərabər işsiz daha [dəxi] qalmayacaqlardır.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Qaçqınlar şöbəsinə elam etmişdir [bildirmişdir] ki, Nəzarət məmuru Quliyev kontrol Perşko ilə bərabər Ənzəliyə neft cövhəri [kerosin] aparıb bəzzaziyyə malı ilə mübadilə etsinlər [dəyişdirsinlər].

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Ermənistan islam qaçqınlarının fəna halda bulunduqlarına dair məlumat almışdır. Erməni hökuməti onların əhvallarının yaxşılaşdırılması uğrunda heç bir tədbir ittixazına [tədbir görməyə] başlamadığı kimi, başqa-başqa səbəblər göstərərək öz köylərinə köçməyə belə müsaidə verməyir. Müsəlmanlar tərəfindən buraxılmış köylər erməni hökumətinin binagüzarlığı [sərəncamı] ilə məskun edilirlər.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Şamaxı şəhərinin yenidən təmiri üçün lazımi miqdarda məccani [pulsuz] taxtaşalman buraxılması haqqında Ticarət və Sənaye Nəzarəti ilə etilafa [razılığa] gəlmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Şamaxı qəzasındakı məkatibin [məktəblərin] fəaliyyətinin təcdidi babında [bərpası haqqında] Maarif Nəzarəti ilə etilafa gəlmişdir.

- Kürdəmir mövqifi [stansiyası] ilə Şamaxı miyanındakı [arasındakı] post və teleqraf müxabiratının [rabitəsinin] layiqi dərəcədə olmadığından Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti müxabiratın təcdidi [bərpası] və nizama salınması haqqında Post-Teleqraf Nəzarəti ilə etilafa gəlmişdir.

- Şamaxı nahiyə müfəttişinə Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən əmr göndərilmişdir ki, təcili surətdə Göyçay qəsəbəsində darüleytam güşadı [yetimxana açılması] üçün lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Şamaxı qaçqınlarının mənzillərinin təmiri məsələsini Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti işbu məsələnin xüsusi komisyon tərəfindən həllinədək təxir et-mişdir. Komisyon yeni Şamaxı şəhəri tə-miri üçün yer seçməlidir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə xəbər verilir ki, Şamaxı qəzasında təcili surətdə əmanət kassası və müstəhliklər [istehlakılar] dükanları güşadına [açılmasına] böyük ehtiyac var.

- Şamaxı qəzasında xəstəxana məntəqələri və feldşerlərin artırılmasına dair Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində ərzi-hal alınmışdır.

- Şamaxı qaçqınları vaxtilə Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə müraciətən salamat qalmış mühimmat və əşyalarının sahiblərinə qaytarılması üçün təşəbbüsatda bulunmuşdular. Nəzarət məsələni müzakirədən sonra qaçqınların təşəbbüsatlarına əməl edilməsini təhtiqərara almışdır. Əşya Nəzarət nümayəndəsinin iştirak və kontrolu altında sahiblərinə qaytarılacaqdır.

## XALQ İSTƏYİR

Azərbaycan həyatında öylə anlar var ki, tarix səhifələrinə qeyd olunmağa layiqdir. Bilxassə bunlar yalnız Azərbaycan həyatında deyil, sair millətlərin də həyatında görülmüş şeylərdir. Tarixi-məşrutəyə [konstitusiyalı üsuli-idarənin tarixinə] baxıldıqda, adətən, iki böyük cərəyan müşahidə edilir:

1) Hürriyyət fikrinin ali siniflərdə doğu[lu]b da aşağı təbəqələrə yayılması;

2) Aşağı təbəqələrdə oyanıb da yuxarı sinifdən istənilməsi.

Burası da isbat olunmuş bir həqiqətdir ki, ayıqlığı aşağı təbəqədən başlanmış olan məmləkətlər daha məsud, daha azad və daha müasir bir həyata nail olurlar.

Xoşbəxtanə, Azərbaycan həyatında dəxi bu ikinci cərəyan bütün qüvvəsi ilə müşahidə edilməkdədir. Həyatımızda sevinclə qeyd olunacaq cərəyanlardan birisi də xalq arasında istiqlal fikri və istiqlalı mühafizə çarələrini düşünməkləri və camaatımızın əsgərlik məsələsinə nə nəzərlə baxmasıdır. Quru fəlsəfədən isə, fikrimizi dəlillərlə anlatayım.

Qazax qəzası türkləri sahibi-mənsəb bir zatın hüzuruna gələrək şikayət edirlər.

Aclıqdan mı, bahalıqdan mı?

Xayır!

Camaat şikayət edir ki, Azərbaycanın qoşunu azdır. Onların əsgərliyə yarayanlarını əsgər almayırlar. Əsgər əvəzinə onlardan pul istəyirlər.

"Əgər bizdən doğruluqla əsgər yığsalar, həpimiz gedəriz və dövlətimizin qüvvəsi neçə qat artar. Amma əsgər istəməyirlər, bədəl yığırlar!" – deyə məmurlardan şikayət edirlər.

İkinci bir şikayət: Suraxanı, Bülbülə, Əmirhacıyan və sair kəndlərin əhalisi kərratla [dəfələrlə] gəlib şikayət edirlər ki, onları əsgər almayırlar. Təqribən 100 nəfərdən 30-nu qəbul edib yerdə qalanlarını "sağ-salamat" olduğu halda buraxırlar ki, "get, sən yaramazsan". Kəndlilər təəccüb edirlər, mütəhəyyir [heyrətdə] qalırlar ki, dövlətimizə əsgər lazım olan bir zamanda nə üçün əxzi-əsgər [hərbi çağırış] idarələri böylə edirlər.

Şayani-qeyd fəqərələrin [qeyd edilməyə layiq hadisələrin] ən ümdəsi bunlar da deyildir. Əsil mətləb Bakı dükançılarının bir təşəbbüsündədir.

Neçə vaxt bundan əvvəl Bakı dükançıları məqami-aidinə [aidiyyətli quruma] müraciətlə bütün azərbaycanlıların əsgəri nizam bilməyə ehtiyacı olduğunu bəyanla, kəndiləri dəxi əsgər düşmədikləri halda nizam öyrənmək istədiklərini bildirmiş və onlara məşq vermək üçün müəllim zabitlər istəmişlərdi. Hərbiyyə idarəsi, əlbəttə, bu xahişə laqeyd baxa bilməzdi. Ona görə dükançıların istidasını [xahişini] qəbul edib müəllimlər vermişdir. Bu cümə günündən etibarən Salyan qışlasında [kazarmasında] dükançılar əsgəri məşq almağa başlamışlardır. Eşitdiyimizə görə, birinci gün məşqə 600 adam gəlmişdir və bütün alış-verişçilər hər cümə günü gəlməyə qərar qoymuşlardır. Gələn cümədən, şübhəsiz, bunların miqdarı minləri təcavüz edəcəkdir [keçəcəkdir]. Hətta dükançılar həftədə bir günü az hesab edərək danışırlar ki, mümkün olsa, qabaqdakı kimi hər gün günortadan sonra bir neçə saat dükanları bağlayıb məşqə getsinlər, tainki tez öyrənsinlər.

Bakı dükançılarının bu təşəbbüsü nə qədər gözəl, nə qədər şayani-təqdir [təqdirəlayiq] isə, millətin, camaatın böylə ayıqlığı hökumət məmurları üçün o qədər böyük bir ibrət dərsi olmalıdır.

Ayıqlıq, milli qeydkeşlik və müdafieyi-milliyyə hissinin camaatımızın aşağı təbəqələrində bu qədər geniş və açıq surətdə təzahür və ibrazı [özünü göstərməsi] istiqlaliyyət fikrinin əsil demokratiya [xalq] içərisində nə qədər möhkəm yerləşmiş, kök salmış olduğunu göstərməklə bərabər, istiqlalımızın əbədi payidar olacağına və millət tərəfindən hər vasitə və vəsilə ilə müdafiə və mühafizə ediləcəyinə əsaslı bir dəlildir.

Şayani-təqdir [təqdirəlayiq] odur ki, yazılanlar cümləsində cümə günü məşqdə 65 yaşında bir qoca kişi ilə on bir yaşında bir çocuq da varmış. Allah tövfiq [kömək] versin.

*X. İ.*

B. T.: Bu dəstəyə daxil olmaq istəyənləri qəbul üçün beş nəfərdən ibarət bir komissiya təşkil edilmişdir. Komissiyanın rəisi İsmayılzadə "Fani" olub, dəftərxanası Tserkovnı küçədə 70 nömrəli evdədir. Ehtiyat könüllü yazılmaq istəyənlər məzkur [adı çəkilən] dəftərxanaya səhər saat 9-dan 2-yə, axşam 4-dən 6-ya qədər müraciət edə bilərlər. Telefon nömrəsi 22-28-dir.

## KÖHNƏ XƏYANƏTLƏR

18 mart hadisəsindən sonra hüsula gələn anarşi və hökumətsizlik zamanında icra edilən bir çox cinayətlər və bir çox xəyanətlərin iras etdiyi [verdiyi] zərər və ziyan o qədər böyükdür ki, bunları bu gün deməmək, həqiqətən, pək böyük bir xəyanətlə əlaqədar olmaq deməkdir.

Bakının türklər tərəfindən istirdadından [geri alınmasından] sonra Gəncə, Şirvan, Şəki və sair bir çox yerləri gəzdim. Bolşevik əlləri ilə viran edilən məmurələrin qəlbimdə buraxdığı kədərlər, ələmlər qədər kəndi əlimizlə kəndi uyezdimizdə [qəzamızda] edilən xəyanətlər məni məyus etdi.

Möhtərəm qare [oxucu], bilirsiniz ki, anarşi mikrobu altında qalan uyezdlərdən biri də bədbəxt Quba idi. Quba qəzasında kain [yerləşən] Qusari, Şirvanski polkun qərargahı idi. Burada olan qışlalar [kazarmalar], xəstəxanalar, əsgəri depolar, qışlıq və yazlıq əbniyələr [binalar] Azərbaycanın bir çox yerlərində yox idi.

Nikolay hökuməti Dağıstanın qəlbgahını işbu nöqtə ilə daima təhdid edirdi.

Bir çox əsgəri mühimmat və ləvazimat burada olduğu qədər, əmin olunuz ki, Bakının Salyan qışlasında belə mövcud deyildi.

Elani-hürriyyətdə Qubanı buraxıb gedən əsgərlər buradan bəzi əşya çalmaq, götürmək istəmişdisələr də, əhaliyi-məhəliyyə [yerli əhali] tərəfindən şiddətli etiraza düçar olaraq vaz keçmişlərdi.

Bu böyük qışlalar bütün ləvazimatı ilə, bütün mühimmatı ilə millətə qalmışdı. Nə qərib taleyimiz vardır ki, əsgərlər tərəfindən alınıb millətə mal edilən bu qədər şeylərə millət sahib olammadı. Bütün qaranlıqları, bütün dərinlikləri dırnaqlayan xain əllər bilaxirə [axırda] özlərinə buralarını da cövlangah edindilər. İki-üç ay sonra qışlalar tam-taqır [bomboş] qaldı. Bu qədər şeylərin birdənbirə yox olması bir möcüz[ə] kimi nəzərə gəlir.

Yüzlərcə tüfənglər, minlərcə fişənglərdən, pudlarla barıtlardan, top-top mahudlardan, əsgəri araba və faytonlardan qışlada əsər qalmadı.

Təəccüb burasıdır ki, o vaxtın hökuməti bir dəfə olsun bunu aramadı.

Bu gün hər kəs bilir ki, Qusari qışlalarında 2 milyon rubləlikdən fəzlə bir xəyanət edilmişdir. Yerə girmədi, göyə çıxmadı, əcəba bəs bunlar nə oldu?

Bugünkü ləvazimati-əsgəriyyəyə olan ehtiyacımız göz önündədir. Burada uzunuzadı tədqiqat və tətəbböata [ətraflı tədqiq etməyə, araşdırmağa] da ehtiyac yoxdur. Ən qısa təriq [yol] ilə hökumətin bunu araması və əlaqədarandan [əlaqədar şəxslərdən] sual etməsi əlzəmdir. Xoşbəxtlik əsəri olaraq vaxtilə Qusari qışlasında çalışan zabitlərdən biri hələ Qubadadır. Qusari qışlasındakı cəhəti-əsgəriyyəyə aid əmval haqqında bir dərəcəyə qədər, əlbəttə, bir fikri ola bilər. Ondan sorulsun, o vaxt təşkil edilən Milli Komitə əzalarından [üzvlərindən] xəbər alınsın, təqib edilsin. Həm xainlər kəndi cəzayi-səzalarına [layiqli cəzalarına] çatsınlar və həm bu gün Qusaridə olan əsgərlərimiz bir çox ehtiyacdan qurtarsınlar.

*M.*

## VƏTƏN AYRILIĞI

Yaz idi. Qar yenicə getmişdi. Birinci göyərtilər ötədə-bəridə, daşmış çayların kənarında görsənirdi. Qar çiçəkləri ərimiş qarların altından başlarını qalxızmışlar. Havada yazın dumanlı iyisi hiss edilirdi. Sığırçınlar erkən kəndin ağacları üstündə fışqıraqlayıb ötürdülər.





Neçə gündür ki, mallar çölə çıxmışdılar. Əkin işlərinə baxmaq vaxtı idisə, ancaq kənddə hərəkət görünməyirdi. Deyəsən, bu il əkin əkməyə, birillik azuqələrini hazırlamağa bir kimsənin fikri yox idi. Hamı başqa bir işə məşğul idi, hamı düşüncəli və qüssəli arabaları düzəldirdi. Çöldə çobanların mahnısı eşidilməyirdi. Əvvəllərdə dağları, düzləri götürən, birinci quşlarla səs-səsə verən, qarlı yamaclara söykənib ney çalan çobanların səsi kəsilmişdi. Onlar çomaqlarını yerə tapdalaya-tapdalaya düşüncəli, qəmli gözləri ilə ətrafa baxırdılar. Keçmişlərdə yazın gəlməyinə sevinən qoruqçular bu il yasa batmışlardı. Bu il tək bu kənd üçün yox, başqalarına da böylə dərdli idi. Burada, bu mahalda daha yaşamaq mümkün olmaz. Burası onlara məlum olmayan səbəblərə görə sairlərinə verilib, onları əski yurdlarından, ata-baba torpaqlarından, sevgili vətənlərindən sürürlər, güclə qovurlar. Onların burada yaşamağa daha ixtiyarları yox. Bura başqalarınındır.

Hüseyn əmi erkən arabaları düzəldirdi. Oğlanları evin lazımlı şeylərini arvadlarla bağlayıb hazırlayırdılar. Hamı sakit, bir kimsə danışmır. Hamının ürəyi o birinin fikrini bilir. Hüseyn əminin xəyalını gələcək almışdı. Görəsən, harada yerləşəcəklər? Torpaq necə olacaq? Bu suallara cavab verə bilməyirdi. Ürəyi darılırdı. Çox istərdi qalsın, amma manedirlər. Bir kəlmə – köçməlidirlər. Yoxsa...

Günortada azan çağı camaat məscidə namaza toplaşdılar. Palçıqdan tikilmiş minarəli məscid kəndə görə qiymətli bir bina idi. Hamı namaza gəlmişdi. Hətta uşaqlar da namaza durmamışlarsa da, həyətdə səbirsiz gözləyirdilər. Minarədən qoca azançının səsi çöllərə və dağlara düşdü. Məscidin içində camaat namazının səsi eşidilirdi. Sonra bitdi.

Molla, ağsaqqallar məşvərət edirlər. Bir azdan sonra kəndin yaşlı qocalarından birisi ucadan üzünü camaata tutub dedi: "Sabah çıxmalıyıq. Ətraf kəndlər çoxdan köçüblər. Tək bir biz qalmışıq. Hərgah tezliklə hərəkət etməsək, halımız pis olacaq, süngü ilə çıxaracaqlar. Kim hazır deyilsə, tələsin."

Qoca sözünü bitirib başını aşağı saldı. Camaat sakit durmuşdu. Kimsə başını yuxarı qalxızmırdı. Bəli, sabah getməli. Kimsə yerindən tərpəşməyirdi. Hamı mücəssəmə [heykəl] kimi dayanıb nə isə gözləyirdilər. Ürəklərdə çox gizli fikirlər var idi. Kimsə söyləməyə cürət etməyirdi. Bu vaxtda məscidin səkisinə nurani, çox qoca, beli bükülmüş bir adam çıxdı. Əlindəki çomağına təkan verib başını döşünə saldı. Hamı təəccüblə başını qalxızıb ona baxırdılar. Bu, kəndin ən qoca, yaşlı sakini Məhəmməd idi. Bunu yaxşıca tanıyırdılar. Kənddə həmsinni [yaşıdı] yox idi. Yüzdən artıq yaşı var. Ömründə çox şeylər görmüşdü. Buralar öz millətinin əlində olduğu zaman Məhəmməd cavan idi. Sonra şimaldan sarı gavurlar gəldilər, vətəni əzib millətini avara qoydular. Onda çoxları cənuba, qərbə köçdülər. İndi isə bir başqa kənardan gəlmiş bir millət burada səltənət yapıb, onların burada yaşamağına mane olub, buradan indi məcburən köçməlidirlər. Bundan özünə ağır dərdli, çəkilməyən bir qüssə Məhəmməd əmi bilmədi. Necə ana yurdunu, istəkli vətəni buraxsın? Öylə iş olarmı? O burada yaşayıb, burada

böyüyüb. Bilməm kimsələr gəlib ona buradan köçməlisən deyirlər, təhdid edirlər. Burası tarixi...dir. Məhəmməd əmiyə bu çox ağır gəlirdi. O anlaya bilməyirdi, nə üçün burada yaşaya bilməz? Məgər bura ayrı dövlət olduqda başqa millətlər burada yaşaya bilməzlər? O, başını qalxızıb gözlərini ona dikmiş camaata yavaş, ancaq ürəyi yandıran, göz yaşı tökdürən sözlərlə xitab etdi: "Camaat yarın köçməlisiz. Yarın yüzillərlə ata-baba yurdunuzu sairlər üçün buraxıb bilmədiyiniz, görmədiyiniz yerlərə gedirsiz. Gedin. Tanrı sizi salamat yeni torpaqlara yetirsin. Mən, mən sizlə getməyəcəyəm. Mən burada qalmaq, burada ölmək istəyirəm. Burası kimin olursa-olsun, bura mənim vətənimdir. Bura mənim ata-babamın yurdudur. Elim getsə də, mən burada ondan sonra bir nişanə olaraq qalacağam. Dağılmış elimin yuvasında, boş qalmış məscidində minarəsinə çıxaraq bu qoca, yorulmaz səsimlə Allahu-əkbər deyib, Haqqı çağırıb insan ədalətsizliyini fəryad edəcəyəm. Gedin, mən qalıram!"

O susdu. Kimsə başını qalxızmadı. Hamı dərindən düşünürdü. Doğrudan da, ədalətsizlik! Ağsaqqallardan Məhəmməd əmini başa salmaq istədilər ki, burada qalmaq mümkün deyil. Qalsa, pis olar. Yox, məscidimdən, vətənimdən ayrı olmam, cavabını verib qaldı.

Sabahı gün erkən ala-qaranlıqlı Məhəmməd minarəyə çıxıb azan verdi. Batmış, qurumuş sinəsindən yavaşdan çıxan təranələr xamuş [susmuş, səssiz] kəndə və ətrafa yayılırdı. Sübhün bahar yeli bunları dağlara, daşlara və çöllərə yayırdı. Kəndin əhalisi çoxdan ayaq üstə idi. Hazırlanmış arabalar qoşulmuşdu. Camaat məscidə toplanıb yurdunda axırıncı namazı qıldılar. Məscidin içərisi, dişarısı arvadlar, kişilər, uşaqlar, qocalar, cavanlarla dolu idi. Namaz çox çəkmədi. Molla bismillah deyib dişarı çıxdı. Camaat da onun dalınca. Kimi Məhəmməd əmi ilə görüşmək istədisə, ancaq o, minarədən enmədi. "Salamat gedin, yeni yurdunuz Allah yuvası olsun" deyib gözləri yaşarmış, kənddən çıxan arabalara baxdı.

Birinci hərəkətdə arvadlar içində ağlamaq, bayatı səsi eşidildi. Getdikcə artırdı. Deyəsən, bütün kənd sevgili bir kimsəsini basdırdı. Kişilərdən bir neçəsi onlara acıqlanıb sakit olmağı söylədilərsə, ancaq özləri də onların halında idilər. Üzlərindən ara-sıra isti damcılar axırdı. Arvadların bayatısını və ağısını, kişilərin qəmlərini, gizli fəryadlarını ancaq buranın əhalisi, Tanrı və ətraf dağlar bildi. Günəşin birinci saçaqları, sərin yel bunları dağıdıb hər yana yaydı. Uzun karvan kənddən uzaqlaşmışdı. Məhəmməd əmi onlara baxıb göz yaşı ilə minarənin məhəccərinə qoyulmuş quru, arıq əllərini islatdı. Qoca yurdunda dağılmış, buraxılmış ocaqları görüb hönkür-hönkür ağlayıb fəryad edirdi.

Bəli, bura da (!) dağıldı. Bəs Məhəmməd əmi necə oldu? Söyləyirlər ki, "başqaları" ora gəldikdə onu zorla daşa basıb yurdundan qovmuşlar. Məhəmmədin istəkli məscidini kilsəyə təbdil edib [çevirib], onun azan verdiyi yerdən çan [kilsə zəngi] asmışlar. Ac, yurdsuz qalmış Məhəmməd ətraf dağlarda kənddən uzaq olmayaraq bir neçə gün dolaşıb həsrətlə ora baxaraq yenə də öz ana yurdunda acından, qüssəsindən öldü.

*Rəcəbli*





**İSTİQLAL BAYRAMI!**

Mayısın 27-də daha şəhər bayraqlarla müzəyyən edilmişdi [bəzədilmişdi]. Hər kəsdə bir təlaş görülməkdə idi. Paytaxtımızın yuxarı hissələrində belə alaqapılar qayırılırdı. Küçələr boyu məftullar çəkilərək əlvan fanuslar [fənərlər], rəngbərəng bayraqlar asılırdı.

Türk ətfalı [uşaqları] da işbu bayramın əzəmətini, hörmətini eyicə düşündüyündəndir ki, bir gün əvvəl "rəsmi-keçidə" hazırlanırdılar. Kağız papaqlar, taxta silahlar hazırlanır, dalanlarda təlimat yapılırdı.

Gözlənilən 28 Mayıs günəşi tülu etdi [doğdu]. Artıq paytaxtın bəzəyi on qat artmışdı. Soqaq boyu aşağı-yuxarı baxacaq evlərdən üçrəngli, hilallı, ulduz nişanlı bayraqların yellənməsi insanın qəlbində fərəh oyadırdı.

Yaşıllıqlarla müzəyyən balkonlardan asılmış qiymətli xalılar, ipək örtüklər, "Yaşasın istiqlal!", "Yaşasın Azərbaycan!" yazılı bayraqlar millətdə ruhu, vətən və millət məhəbbətini layiqincə göstərirdi.

Şamaxı küçəsində bütün ibtidai və başqa şəhər məktəblərinin mütəllimini [şagirdləri] təcəmmö edirdi [toplaşırdı].

Marşrut qərarı üzrə məkatib çocuqları buradan Məclisi-Məbusan qarşısına getməli idi. Bazar ipək parçalar, xalılar və rəngbərəng bayraqlarla müzəyyən edilmişdi.

Məclisi-Məbusan bir gün əvvəldən istiqlal libasına müləbbəs olmuşdu [bürünmüşdü]. Damında elektrikdən "Yaşasın istiqlal!" şüarı yazılmış, böyük qapısı üstündə məşhur türk nəqqaşı Əzim Əzimzadə tərəfindən yazılmış istiqlal embleması elektrik lampaları ilə bəzənmişdi.

İşbu rəsm olduqca mənalı və calibidiqqət [diqqətçəkən] idi. Bir gün əvvəl belə buradan keçənlər biixtiyar durub rəsmə baxır, gözəlliyini və mənidar [mənalı] olduğunu tanımadığı başqa bir tamaşaçıya söyləyirdi.

Rəsmdə bütün Azərbaycanın tarixi nümunələri mahiranə bir surətdə təcəmmö etmişdi [cəmləşmişdi]: Qız qalası üzərində üçrəngli Azərbaycan bayrağı, Suraxanıdakı tarixi Atəşkədə, Sentyabr müharibəsində xüsusiyyət almış Yanardağ, digər tərəfdə minarələrində ay-ulduz rəkz edilmiş [sancılmış] Xan məscidlərini tülu etmiş istiqlal günəşi işıqladır, zanbaq kimi istiqlal səmasında Vətən, istiqlaliyyət və məhəbbət nişanı (simvolu) mələk bütün Azərbaycan üzərində üçrəngli, hilal-ulduzlu, "Yaşasın istiqlal" şüarlı bayrağı tutmuş.

Həqiqətən, işbu rəsm şayani-təhsin [bəyənilməyə, alqışa layiq] idi.

Bələdiyyə İdarəsi bayraqlar içində idi. Üzərində bayraqlar, ətrafında bayraqlar, içərisində bayraqlar, bir söz – bayraqlar, bayraqlar. Yaşıl ot, əlvan parçalardan alaqapılar bəzənmişdi. Soqağa çıxan balkon elektriklə çıraqban edilmişdi. Şəhər bağı və bulvarda da Bələdiyyə İdarəsi tərəfindən alaqapılar bəzənib hesabsız milli bayraqlar asılmışdı. İçərişəhərdəki bütün məscidlərin minarələri başında milli bayraqlar rəkz edilərək [sancılaraq], elektriklə çıraqban edilmişdi. Xan sarayları üzərində də milli bayraqlar asılmış, məşhur Qız qalası çıraqban edilməmişsə də, üzərində iki böyük bayraq rəkz edilmişdi.

Təzəpir camesi çıraqban edilmiş, bayraqlar asılmışdı. Bütün paytaxtdakı mi-

narələr elektriklə tənvir [işıqlandırılmış], milli bayraqlarla təzyin edilmişdi [bəzədilmişdi].

Dövlət dairəsi, Nəzarətlər [Nazirliklər], xüsusən Daxiliyyə Nəzarəti olduqca qəşəng bəzənmişdi. Bulvardan Daxiliyyə Nəzarətinə baxdıqda ay-ulduza bürünmüş işıqlı, bəzəkli bir qala kimi gözə çarpırdı.

Bulvar qarşısındakı hesabsız bayraqlarla müzəyyən qayıqlar tərpənərək paytaxtı salamlayaraq böyük bayramla təbrik edirdilər.

Saat 9 radələrində Məclisi-Məbusan qarşısında izdiham, qələbəlik bir dərəcədə idi ki, artıq keçməyə yol tapmaq namümkün idi. Bütün o dairədəki evlərin damları, pəncərə və balkonları tamaşaçılarla dolmuş idi. Damda "qoşazurna" çalınır, qarşıdakı balkonda məşhur tarzən Şirin [Axundov], məşhur xanəndə Cabbar Qaryağdıoğlu çalıb-oxuyurdu.

Saat 10 radələrində Mədən dəvairindən [dairələrindən] "Müsavat" və "Hümmət" firqələri tərəfindən təşkil edilmiş fəhlələr bayraq və musiqi ilə gəldilər. "Hümmət" firqəsinin bir çox al və milli bayraqlarla bərabər embleması, "Müsavat"ın bir çox bayraq və embleması aralığı təzyin edirdi. Bir az keçmədən minlərlə məkatib şagirdanı [məktəb şagirdləri] havada kiçicik milli bayraqları yelləyərək "Yaşasın" sədaları ilə dairəyə gəldilər.

Ətfalın [uşaqların] səsləri asimana bülənd olurdu. İzdiham da çocuqların sədalarından cümbüşə gələrək "Yaşasın" deyə onlara qoşuldular. Tam 15 dəqiqə işbu kütleyi-əzim[in] [böyük kütlənin] "Yaşasın" sədaları, əl şaqqırtıları bütün ətrafı gumburdatdı.

Bələdiyyə İdarəsi qarşısından tutmuş Məclisi-Məbusan dairəsi, Parapet, bulvar, dövlət dairəsi tamaşaçılarla xıncaxınc idi. Dəstə-dəstə mini-mini çocuqlar "əntiq" qalpaqlarda, taxta silahlarla, "ağır topxanaları" ilə tam bir əsgər kimi marş oxuyaraq aralığı gəzirdilər.

Birinci Realnı məktəbinin şagirdanı üzərində ay-ulduz, Çingiz xanın oxu ipək ilə işlənmiş qiymətli bir bayraq ilə müsəlləh [silahlanmış] olaraq dairəyə gəldilər. Bunlar, həqiqətən, şayani-təhsin və təqdir [alqışlanmağa və təqdir edilməyə layiq] idi. Bunlarda artıq çocuqluq görülməyirdi. Qara gündə əsgər kimi meydanlara çıxacaqlarını bayraqları andırırdı.

Bir az keçmədən "Müsavat"ın bəzəkli avtomobili, türk mürəttiblərinin avtomobili dairəyə gəldi. Türk mürəttibləri, doğrudan da, "əntiqə" bəzəmişdilər. İçərisində iki hürufat [mətbəə hərfləri] kassası qoyulmuş, iki nəfər mürəttib iş əlbisəsində cümlə yığır, digərisi bağlayır, digərisi üzünü rəngləyir, daha digərisi çap edərək ətrafa atırdı.

Bu sırada "Yaşasın" sədaları əl şaqqırtılarına qarışaraq yenə ətrafı tutdu. Rəisi-vükəla [Baş nazir] həzrətləri Məhəmməd Əmin Rəsulzadə əfəndi ilə avtomobildə təşrif gətirdilər. Xalq bunları salamlayır, alqışlayırdı.

Bir az keçdikdən sonra Məclisi-Məbusan qarşısında Məhəmməd Əmin Rəsulzadə cənabları kürsiyi-xitabətə çıxaraq xalqın alqışları altında bir nitq irad edərək [söyləyərək] camaatı milli böyük bayram və bəxtiyarlıqla təbrik etdi:

*"Bizim düşmənlərimiz, azadlıq və istiqlaliyyətimizi gözləri görməyən rəqiblərimiz deyirlər ki, Azərbaycan istiqlaliyyətini xanlar, bəylər elan etmişlər, xalq onu istəməyir. İştə, camaat, bugünkü izdiham, bugünkü bəşaşət [şadlıq, şənlik]! İstiqlaliyyətin xanlar deyil, bəylər deyil, xalq tərəfindən elan edildiyini düşmənlərimiz artıq görsünlər."*

Xalqın alqışı altında nitqinə xitam verdi. Ondan sonra başqa natiqlər də nitq etdilər.

Mühərririn [yazıçılar, qəzetçilər] tərəfindən Xəlil İbrahim cənabları gözəl bir nitq irad edərək bayramın əzəməti, tarixi bir vaqeə olduğu üçün Azərbaycan tarixi səhifələrində xüsusi bir yer tutacağını qeydlə xalqı təbrik etdi.

Realnı məktəbi qarşısında qoyulmuş digər bir kürsüdən Əbilov cənabları fəhlə və kəndçilərə müraciətən nitq irad edərək, istiqlaliyyətimiz düşmənləri əleyhinə var qüvvə ilə getməyi təbliğdən sonra təbrik etdi.

Sonra Süleyman Nuri, Ağazadə və bir çox fəhlə nümayəndələri nitq irad etdilər.

Bu sırada Hacıbəyli müdiriyyəti Türk Aktyorları İttifaqı tərəfindən təşkil edilmiş əski türk tarixini müməssil [təmsil] edər bir heyət xalqın şiddətli alqışları arasında Məclisi-Məbusan dairəsi qarşısında əxzi-mövqe etdilər.

Ən qarşıda türklərin ulu saları [sərkərdəsi, başçısı] Çingiz xan, sonra Teymurləng, İran şahlarından Şah Abbas, ali-Qacardan [Qacar xanədanından] birinci Bakını fəth etmiş Ağa Məhəmməd şah Qacar, Bakı, Şəki, Gəncə, Quba, Şirvan xanları və qeyrə, atlar üzərində tarixi əlbisə və qrim ilə isbati-vücud [iştirak] edirdilər.

Bəzənmiş bir avtomobildə Azərbaycandakı qadın qiyafələrində aktrisalar xoru, digər bir avtomobildə aktyorlar xoru, vaxtilə Qafqaziyanı istila etmiş əski ərəb qiyafələrində müsəlləh [silahlı] atlılar və qeyrə... İşbu simalar miyanında [arasında] ən calibi-diqqət bir sima daha görülürdü. Bu sima bütün qafqaziyalıların qəlblərini qanla doldurur, mazini [keçmişi] bütün varlığı ilə mücəssəm edir, qadınları ağladır, gənclərin ruhlarını yüksəldir, onlarda arslanlıq, qəhrəmanlıq oyadırdı. Bu sima Qafqaziyanın hürr səmasının işıqlı ulduzu, məğrur, mütəkəbbir qalalarının gen qanadlı tərlanı Şeyx Şamil həzrətləri idi. Guya işbu simayi-müəzzəm [böyük sima] üzünü Azərbaycan Məclisi-Məbusanına, daha doğrusu, istiqlaliyyətini bayram edən ulu türk millətinə çevirərək kamali-hüzn ilə Dağıstanın qana boyanmasını, Çeçenistanın haydudlar çəngalında [quldurlar caynağında] çabalamasını, Balkarıstanın hürr aullarının yalovlar altında qalmasını göstərərək, qara geyinmiş Elbrusu, yasa batmış Kazbeki tamaşaçılar qarşısında mücəssəm edirdi. İşbu simayi-müəzzəm ulu türk millətini, qan dəryaları içində çapalayan çərkəz balalarını, üryan xəncərlər ilə sinəsini qaragüruhlar qurşunlarına arslan kimi qalxan etmiş inquş qəhrəmanlarını xalqa göstərərək qardaş müavinəti diləyirdi. Guya zəbani-hal [hal dili] ilə deyirdi: *"Ey Çingiz, Teymurun şərəfli övladı, ey Cavad xanların qəhrəman nəsli, ey İldırımlar, Qazilər, Bayəzidlər, Sultan Süleymanlar, Fatehlərin arslan əhfadı [nəvələri], Dağıstanın qarşınızda təməvvüc edən [dalğalanan] yeddi ulduzlu bayrağı qana batmış. Müavinət ediniz, ulu türk milləti."*

Artistlər tərəfindən Hüseynqulu Sa-

rabski cənabları nitq irad edərək canla-başla artistlərin vətən və istiqlaliyyəti mühafizə edəcəyini alqışlar altında söylədi. Sonra Teymurləngi təmsil edən Abbas Mirzə Şərifov cənabları müəssir [təsirli] bir şeir oxuyaraq xalqın şiddətli alqışına nail, digər bir avtomobildən məşhur Dərviş Ağadadaş xüsusi dərviş libasında, boynunda kəşkül, əlində təbərzin olduğu halda millət qəsidələri tərənnüm edirdi.

Məclis tərəfindən Həsən bəy Ağayev həzrətləri balkondan şiddətli alqışlar altında xalqı təbrik etdi. Bundan sonra musiqi və alqışlar altında Məclisi-Məbusanın təntənəli iclası Həsən bəy Ağayev həzrətləri tərəfindən güşad edilərək [açılaraq], müəssir bir nitqdən sonra təbrik teleqramları oxundu. Sədr həzrətlərinin təklifinə görə, istiqlaliyyət yadigarı olaraq şəhərin ən mötəna [əhəmiyyətli] yerində bir abidə rəkzi [heykəl qoyulması] təhti-qərara alındı. Bundan sonra təbriklər istema edildi [dinlənildi].

İclasdan sonra başda Heyəti-Rüəsa [Rəyasət Heyəti] və Hökumət rəisi olmaq üzrə Məclisi-Məbusan əzası [üzvləri] Hürriyyət meydanına rəsmi-keçid mərasiminə hərəkət etdilər.

Daha əvvəldən Hürriyyət meydanında ordudan müfrəz qitəati-müntəzəmə [ordudan ayrılmış nizami hərbi birliklər] (piyada qitəatı, Məclisi-Məbusan qorucu bölüyündən müfrəz [ayrılmış] qitə, Hökumət mühafizə qitəsi, milisiya təşkilatından bir qitə) dururdu.

Ətraf tamaşaçılarla xıncaxınc idi. Məbusan avtomobilləri yaxlaşdığı sırada müfrəzə komandanı yüzbaşı Xoyski cənabları əsgəri silah başına dəvət etdi. Azərbaycan istiqlaliyyətinin təşkilatını təmsil edən gənc Azərbaycan ordusunun gənc əqsamı [hissələri] dərhal gənclərə məxsus çeviklik və fəaliyyətlə və kamali-intizamla silah başına edib, ümumiyyətlə, əxzimövqe edildi. Bilaxirə, hökumət ərkanı [adamları] ilə və Məclisi-Məbusan əzalarından [üzvlərindən] bəzi zəvat [şəxslər] bərayi-təftiş [təftiş üçün] qitələr arasına gələrək, qılıq və qiyafətə nəzarətlə hər cüzü tam qarşısında əsgərə xitabən salam verib və yüksək səslərincə salamlarına müqabilə edirdilər.

Bilaxirə, bu məsələ xitam edilincə, Məclisi-Məbusan rəisi Həsən bəy Ağayev həzrətləri qısa və fəqət müfid [faydalı] bir nitq ilə yövmi-istiqlalın [istiqlal gününün] əhəmiyyət və azərbaycanilər üçün böyüklüyündən bəhslə, cümlə əsgəri təbrik etdilər. Mütəaqibən Rəisi-vükəla həzrətləri kəza [həmçinin] eyni halda qısa bir nitqlə Azərbaycan istiqlalının təmini-bəqası orduya bağlı olduğundan bəhs edərək, ordunun yövmi-istiqlaliyyətini təbrik etdilər.

Bilaxirə, ordu naminə general Yusifov qayət qısa və fəqət yenə [mənalı] bir nitq iradla, hökumət və millətin orduya qarşı bəyani-etimadından dolayı "Yaşasın hökumətimiz" deyə yüksək səslə hökumət və millətə bəyani-təşəkkürdə bulundular. Gənc ordumuzun həqiqətən şayani-təhsin olduğunu bu gün etiraf etməyən bir adam qalmadı.

Azəri türkləri babalarını yadlarından fəramuş etmədikləri [yadlarından çıxarmadıqları] gün kimi aşkar idi.

Gənc əsgərlərin hərəkatı bir elektrik qüvvəsi kimi idi, bir komanda verilərsə, bir təni-vahid kimi qitəat [hərbi hissələr]





komandanı qəbul edirdi.

Həqiqətən, ordudakı nizam türk xalqını sevindirdi. Bir çoxları şadlıqlarından ağlayırdılar, "Yaşasın qəhrəmanlarımız" sədaları asimana yüksəlirdi.

Bundan sonra rəsmi-keçid mərasiminə başlandı. Əsgəri musiqi qarşısında taqımlar kamali-nəzm və nizamla keçərək Rəisi-vükəlanın "Mərhəba, əsgər" müraciətinə qitəat bir səslə "Yaşasın" deyə cavabda bulunaraq qəhrəmanənə bir surətdə keçirdi.

Əsgərləri xalq qışlalara [kazarmalara] qədər təşye etdi [yola saldı].

Bundan sonra küçələrdə çalğı və mahnılarla dəstə-dəstə xalq dolaşaraq birbirlərini təbrik edirdilər.

Axşam şəhər xüsusi bir şəkil almışdı, nerəyə baxarsan çıraqban edilmiş, çalğı çalınırdı. Bulvarda musiqi tərənnüm edir, Dövləti Teatroda [Dövlət Teatrında] Hacıbəyli Qardaşlarının Müdiriyyəti tərəfindən "Leyli-Məcnun" opera tamaşası verildi. Tamaşadan əvvəl Piri Mürsəlzadə cənabları nitq irad edərək Füzuli həzrətlərinin əsərini təfsirlə, vətən və millətə olan məhəbbəti söylədi.

Fəhlə Klubunda "Hümmət" firqəsi tərəfindən mitinq konsert tərtib verilmişdi. Burada bir çox natiqlər nitqlər irad edərək fəhlələri müəzzəm bayramla təbrik etdilər.

Gecə sabaha kimi küçələrdən çalğı, "Yaşasın" kəsilməyirdi.

Camelərdə füqəraya ehsan verilirdi, nitqlər irad edilərək xütbələr oxunurdu.

Bugünkü bayramla bu gün yüz sənədən ziyadə başına qara örtmüş Şirvan xanlarının paytaxtı Bakı qaranı götürərək al duvaq örtdü.

* * *

Mayıs ayının 28-də Mirzağa Şükürovun sədarəti ilə və Yusif Quliyevin katibliyi ilə Posta və Teleqraf Xidmətçilərinin İttifaqında Azərbaycan hökumətinin səneyi-dövriyyəsi [ildönümü] münasibətilə vaqe olan iclasda kəsrəti-ara [səs çoxluğu] ilə qət olundu ki, bərvəchi-zir [aşağıdakı kimi] teleqraf göndərilsin:

*"Bakı, Rəisi-vükəlaya, surətləri Post və Teleqraf nazirinə və Parlaman rəisinə.*

*Bu gün Azərbaycanın səneyi-dövriyyəsi, yövmi-səadəti münasibətilə biz posta və teleqraf xidmətçiləri cənabınız başda olmaq üzrə bütün dindaşları təbrik etməklə bərabər, lüzumu gəldiyi zaman kəndi vəzifəmizin ifasından maəda [başqa], əldə silah olaraq hər bir denikinlərin və hökumətimizin başqa düşmənlərinin önünü almağa bir qətrə qanımız qalanadək hazır olmağımızı bəyan ediriz."*

Həman iclasda qət olunur ki, yuxarıdakı teleqrafdan maəda, sabiq Posta və Teleqraf naziri Aslan bəy Səfikürdlü cənablarına bir təbrik teleqrafı çəkilsin. Teleqrafın məzmunu böylə idi:

*"İşbu tariximizdə qayət qiymətli və mütəntən [təntənəli] gün münasibətilə zati-alilərinizi təbrik etməklə bərabər, cənablarınızın Posta və Teleqraf Nazirlik vəzifəsini ifa etdikləri zaman məzkur [deyilən] Nəzarətdə millət uğrunda göstərdiyiniz fəaliyyətlərdən naşi [ötrü], biz posta və teleqraf xidmətçiləri zati-alilərinizə səmimiyyət izhar edir və həzrəti-Haqdan cavan cümhuriyyətimizin başqa Nəzarətlərində sizin kimilərin misalının çox bulunmağını istirham [arzu] ediriz.*

*Azərbaycan Posta və Teleqraf Müsəlman Xidmətçiləri İttifaqı"*

**KÖNÜLLÜLƏR VƏ AZƏRBAYCAN CÜMHURİYYƏTİ**

Srağagün Dərbənddən Bakıya Dərbənddə olan Könüllü ordunun iki afseri varid olmuşlardır [gəlmişlərdir]. Bakıda qəzetə mühərrirlərindən birisi ilə bunlar müsahibə edərkən qəti surətdə bəyan etmişlər ki, Könüllü ordunun Azərbaycana qarşı heç bir təcavüzkaranə məqsədi yoxdur. Azərbaycan sərhədini könüllülər keçmişlər deyə şaye olan [yayılan] xəbərlərin həpsi yalan və böhtandır. Afserlərin sözünə görə, bu günlərdə Dərbənddə olan könüllü qoşunların komandanına Denikin tərəfindən qasid bir məktub gətirmişdir. General Denikin divani-hərbə [hərbi məhkəməyə] vermək, sair tənbehlər hədəsi ilə əmr edir ki, heç bir halətdə Azərbaycan ilə ixtilafa yol verilməsin. General Denikinin xüsusi heyəti ingilislərin iştirakı ilə Azərbaycanla Azərbaycandan bolşeviklərə qarşı istifadə edilməsi barəsində müzakiratda bulunacaqdır. General Denikin məktubun axırında deyir: İndiki şərait altında ruslarla məhəbbətkaranə bir surətdə rəftar edən Azərbaycan ilə yeni cəbhə açmaq əbədiyyən təhəmmül ediləcək [dözüləcək, qəbul ediləcək] şey deyildir.

**BAKI XƏBƏRLƏRİ**

- Bir neçə gün bundan əqdəm [qabaq] Mircəlal nam [adlı] bir şəxs qətl edilmişdi. Polis tərəfindən ittixaz edilmiş tədabir [görülmüş tədbirlər] sayəsində Əliverdi nam tövqif [həbs] edilmişdi. Srağagün məzkur [adı çəkilən] Əliverdi müfəttişlikdən aparıldığı vaxt üçüncü müfəttişlik dairəsində mühafizə milisiyalarından qaçmaq istərkən dörd qurşunla milisioner tərəfindən qətl edilmişdir.

- Dərbənddən yeni varid olmuşların [gələnlərin] dediklərinə məbni [əsasən], oraya gəlmiş 200-dək Könüllü ordu kazakları Dərbənddən çıxıb getmişlərdir.

**Vapor vürudu**

Srağagün Krasnovodskdan bir vapor qaçqınlar varid olmuşdur. Qaçqınların dediklərinə görə, bolşeviklərin Aşqabad üzərinə hərəkatı gün-gündən müvəffəqiyyət kəsb etməkdədir. Krasnovodskda əhali arasında həyəcan vardır.

**Elmi kinematoqraf**

Bakı İbtidai məktəblər mütəallimlərinə [şagirdlərinə] yardım edən Cəmiyyətin heyəti hər həftə səşənbə [çərşənbə axşamı] günləri "Rekord" teatrosu binasında elmi kinematoqraf tərtib verir. Səşənbə günü iyun ayının 3-də tamaşaya qoyulacaq: "İsti məmləkətlər".

Tamaşa başlanacaq: birinci növbə səhər saat 11-də, ikinci növbə saat 12-də.

Bilet qiyməti: uşaqlar 2 manat, böyüklər 3 manat, loja 20 manat.

**İtaliya heyətinin əziməti**

Pəncşənbə [cümə axşamı] günü mayın 29-da İtaliya heyəti İran şahı sarayındakı İtaliya səfiri-fövqəladəsi senyor De-Vitta başda olmaq üzrə "Evelina" paroxodu ilə Bakıdan Ənzəliyə hərəkət və əzimət etmişdir [yola düşmüşdür].





**Ticarət iskələsinin təslimi haqqında**

İngiltərə mənbələrindən bizə xəbər verirlər ki, Bakı Ticarət İskələsi bu yaxınlarda Azərbaycan Hökuməti ixtiyarına təhvil və təslim ediləcəkdir. İngiltərə ərkani-hərbi [qərargahı] bu barədə müəyyən qərara gəlmişdir.

**Mavərayi-Bəhri-Xəzər cəbhəsində**

"Evelina" paroxodundan alınan xəbərlərə görə, bu günlərdə Mavərayi-Bəhri-Xəzər cəbhəsində bolşeviklərin qoşunları hücuma keçərək cəbhəni yarmış və Könüllü ordunu ricətə [geri çəkilməyə] məcbur etmişdir. Bolşeviklərin irəliyə hərəkət etmələrinə mane olmaq üçün Staro-Tereçni mövqifindən [stansiyasından] Tazəşəhərə külli miqdarda könüllü dəstələri göndərilmişdir.

**Fəhlə Konfransı təşkili**

Siyasi dairələrdə qərardad edildiyinə görə, bu yaxınlarda Bakıdakı Fəhlə Konfransının yenidən təşkil edilməsinə lüzum görülmüşdür. Bununla Bakı və ətrafında yaşayan ümum fəhlələrin həman konfransda iştirak etmələrinə imkan veriləcəkdir.

**Yeni qəzetə**

Bu gündən etibarən Bakıda gündəlik "Bakinskaya jizn" ("Bakı həyatı") adında bir qəzetə intişara başlayacaqdır.

**Müsəlman xanımlarına məxsus vaqon**

Bakı ətrafı və Mədən dairəsində yaşayan fəhlələr Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" komitəsinə müraciətən rica etmişlər ki, Bakı-Sabunçu-Suraxanı dəmiryol qatarlarında müsəlman xanımlarına məxsus bir vaqon verilsin. Çünki çox vaxt vaqonlarda yer olmadığından, müsəlman xanımları böyük əziyyət və zəhmətə düşürlər.

**Könüllü orduya qarşı**

Balaxanı mərkəzi mədənlərin müsəlman əmələləri [fəhlələri] böyük bir mitinq tərtib edib Könüllü ordunun Dağıstan üzərində hərəkətini müzakirə nəticəsində qət etmişdir ki, hökumət tərəfindən bu barədə ciddi tədbirlər ittixaz edilməsi [tədbirlər görülməsi] və eyni zamanda İngiltərə komandanlığından həmin məsələdə kəndi mövqe və rəyinin müəyyən və bəyan edilməsi tələb edilsin. Bununla bərabər, əmələlər bütün qüvvələri ilə Azərbaycan istiqlaliyyətini son nəfəslərinə qədər müdafiə və mühafizə edəcəklərinə yəmin etmişlərdir.

**FƏHLƏ HƏYATI**

Mayın 24-də şənbə günü saat 3-də mədən dairələrində olan "Müsavat" firqəsinin idarəsində Sabunçu-Balaxanı və bütün ətraf məntəqələrin türk işçilərinin Mirzəağa Kərimzadənin sədarəti altında ümumi və izdihamlı iclası vaqe olub, zeyldəki [aşağıdakı] məsələlər müzakirəyə qoyuldu:

1) Naxçıvan və Şərur qəzalarının Ermənistana ilhaqı [birləşdirilməsi] xüsusunda;
2) 28 Mayıs bayramı;
3) Türk fəhlələri üçün gecə kursları;
4) Tətil əyyamı [günləri] məvacibləri;
5) Kollektiv məsələsi;

6) Parlaman üzvlərinin iclaslara gəlməmələri barəsində;

7) Bakı Neft Cəmiyyəti mədən əmələlərinin nümayəndəsi yoldaş Yaqub Abidinzadənin məruzəsi.

1) Birinci məsələ haqqında qərar alınır ki, "Azərbaycan" türkcə qəzetə vasitəsilə elan olunsun ki: *"Arazboyu şimalında və şimal-şərqində bulunan Şərur və Naxçıvan qəzalarında yaşayan 1 ½ milyona baliğ [çatan] türk-islam kütləsi zənciri-əsarətdən yenicə xilas olub azadə nəfəs almağa başlamış ikən əvvəlinci əsarətdən daha qatı bir əsarət zəncirinə məhkum etmək, açıq təbirlə xunxar [qaniçən] və cəlladların qanlı xəncərlərinə tövdi etmək [tapşırmaq] siyasətinə bütün Sabunçu və Balaxanı mədənləri türk əmələləri etiraz edir və Zaqafqaziyada olan Müttəfiq komandanlığın nəzəri-diqqətini bu kimi aşkar bir ədalətsizlik nəticəsindən törənə biləcək sui [mənfi] hallara cəlb ediriz."*

2) İkinci məsələ barəsində bayram xüsusunda qərar qoyulur ki, hökumətin binagüzarlığına tabeən [sərəncamına tabe olaraq] "Müsavat" firqəsinin Mərkəzi Komitəsi vasitəsilə iki gün əvvəl düsturüləməllər [təlimatnamələr] tələb etmək.

3) Türk əmələləri üçün gecə kursları açmaq barəsində qərar qoyulur ki, "Müsavat" mərkəzi idarəsi vasitəsilə Maarif Nəzarətinə müraciət edib, 9 nisan [aprel] tarixi ilə verilmiş ərizədə göstərilən məhəllərdə [yerlərdə] tezliklə fəhlələr üçün kurslar açılması istidasında [xahişində] bulunmaq.

4) 6 mayda elan olunan siyasi tətildə müsəlman fəhlələrinin iştirakı olmadığından, məvaciblərinin verilməsi üçün Məsai Nəzarətindən [Əmək Nazirliyindən] mədənçilərə icrayi-nüfuz etməyi təkrar tələb etmək.

5) Kollektivnı doqovorun [Kollektiv müqavilənin] qəbul edilmiş maddələrini qəzetələrdə elan etməyi Məsai nazirindən tələb etmək.

6) Məbus əfəndilərin Parlaman iclaslarında hazır olmadıqlarını nəzərə alaraq, "Azərbaycan" qəzetəsi vasitəsilə məbuslara zeyldəki [aşağıdakı] surətdə müraciət etmək qərara alındı:

*"Möhtərəm məbuslarımız! Bu kimi nazik [həssas] bir mövqedə azəri-türk millətinin müqəddəratını zimmənizə [öhdənizə] aldığınız halda, şu müqəddəratı iki saatlıq bir həvayi-nəfsə [nəfsinizin həvəsinə] fəda etməniz şayani-yəs və təəssüf [məyusluq və təəssüf doğuran] bir haldır. Öhdəvar olduğunuz məsuliyyətə nəzəri-diqqətinizi cəlb ediriz."*

7) Bakı Neft Cəmiyyəti əmələləri tərəfindən Yaqub Abidinzadənin; məzkur mədənlərində bulunan rus əmələləri müsəlman əmələlərinə madam ki, siyasi tətillərdə ruslarla iştirak etməyəcək olarlarsa, onların əleyhinə iqdamatdan [addımlar atmaqdan] çəkinməyəcəklərini ittila birlə [xəbər verməklə], komisyon möhürlərini, sandıqçalarındakı müştərək paranı, iki ədəd hürriyyət bayrağı aldıqlarına dair məruzəsini eşidib qərar qoyur ki, bu əhvalatı təsdiq edib, Mərkəzi "Müsavat" firqəsinə müraciət etməsini özünə həvalə edirlər.

## AZƏRBAYCANDA

### Yaylağa köçmək

Yevlaxdan teleqrafla xəbər verirlər ki, mayın 26-da 500 evdən ibarət Alpout





Boyəhmədli camaatı Maraçan, Qaradağlı, Həsənrza yolu ilə ixtilafsız, kamali-asudəliklə yaylağa keçib getmişlər. Məhəlli [yerli] polis məmurları ilə ingilislər tərəfindən mühafizə tədbirləri görülmüşdür. Ermənilər tərəfindən heç bir mümaniət [maneçilik] hərəkəti olmamışdır. Köçəri işlərinə baxmaqdan ötrü Cavanşirdə Qabəyov xüsusi vəkil təyin edilmişdir. Hacıbəyov isə şura üzvüdür.

*Naçalnik vəzifəsini ifa edən*
*general-qubernator*
*[Xosrov bəy] Sultanov*

## İZHARİ-TƏŞƏKKÜR

Möhtərəm müdirimiz Firidun bəy Köçərli həzrətlərinə.

Bu ildə Qori şəhərində olan darülmüəlliminin [seminariyanın] müsəlman şöbəsini xristianların şöbəsindən ayırıb Qazax qəzasında elm nuru saçmaq məqsədilə darülmüəllimin bina olundu. Qazax əhalisi darülmüəlliminin gəlməsinə artıq dərəcədə xoşhal olub, bacardıqları hörməti əsla müzayiqə etməzdilər [əsirgəməzdilər].

Firidun bəy cənabları darülmüəlliminin intizamı [təşkili] və güşad olunması [açılması] xüsusunda artıq zəhmət, səy və kuşiş edərək [çalışaraq], şu məktəbi ali bir məqama çatdırdı və hər əsbabi-tədrisiyyəsini [tədris materiallarını] hazır etdirib, yeni təşkil olunmuş hökumətimizin öz ana lisanımız və milli ruhumuzda müsəlman köylərindən və şəhərlərindən çocuqlar toplanıb yavaş-yavaş dərs verilməyə qərar qoydular. Böylə ki, şu darülmüəllimində 60-a qədər mütəəllim [şagird] təlim və tərbiyə almağa başladı. Bundan sonra get-gedə həmin darülmüəlliminin güşad olunması xəbəri hər tərəfə yayıldı.

Biz darülmüəllimin şagirdlərini şimdiki zamanımıza müvafiq pansionda tərbiyə verib bəsləmək maddi cəhətincə çox müşkül olan məsələlərdən biri idi. Həqiqət, bu illərdə hər bir yerdə pansion saxlamaq çox ağır olan işlərdən hesab olunur. Çünki həpimizə məlumdur ki, neçə illərdir işimiz çox fəna və çətin keçir və hər bir ailə öz yemək azuqəsini min cürə məşəqqətlə əxz edir [əldə edir]. Fəqət bu ildə darülmüəlliminin leylisi Qazaxda saxlanıldı. Bu sənədə Qazaxda darülmüəlliminin bu tövr saxlanılmağına möhtərəm Firidun bəy cənablarının çalışmağı səbəb oldu.

Həmin may ayında mütəəllimləri yay tətilinə buraxanda Firidun bəy həzrətləri biçiz [yoxsul] şagirdlərə yol parası verib, artıq məmnuniyyətlə yola saldı. Bu xüsusda müşarünileyh [haqqında danışılan] Firidun bəy Köçərli həzrətlərinə səmimi təşəkkürümüzü ərz ediriz.

*Qazax Darülmüəlliminin*
*mütəəllimlərindən:*
*Məhəmmədzadə Feyzulla*

## İDARƏYƏ MƏKTUB

Möhtərəm müdir əfəndi! Sevgili cəridənizin [qəzetinizin] bir guşəsində işbu məktubumun dərcini acizanə rica edirəm.

Bu gün paytaxtımızda təhsil edən türk mütəəllimlərinin [şagirdlərinin] maddi cəhətcə keçirdikləri halı dərxəvatir etsək

[yada salsaq], şübhəsiz, bunların ən ağır və ən fənası Sənaye məktəbində oxuyan türk mütəəllimlərinin halı olduğu anlaşılar. Bunu nəinki məktəblilər, hətta ziyalılarımız dəxi bilirlər, zənnindəyiz. İşbu məktəblilərin biçizliyi [yoxsulluğu] və əksərən fəqir ailələrə mənsub olmaları dəfələrlə qəzetələr vasitəsilə və başqa vasitələrlə lazımi yerlərə elam edilmişdirsə [bildirilmişdirsə] də, fəqət, məəttəəssüf [təəssüf ki], bu sözləri kimsə eşitməyib və əgər eşidibsələr də, laqeyd keçib getmişlər. Deməli, xaricdən işbu fəqirlər heç bir müavinət görməyirlər.

Doğrudur, cəmiyyətlərimizdən Nicat Cəmiyyəti hər sənə fövqəlzikr mütəəllimlərin [haqqında danışılan şagirdlərin] qaç [neçə] nəfərinə kömək edirsə də, fəqət verdiyi para tamamilə məktəbin haqqi-tədrisinə gedir. İştə, bundan dolayıdır ki, bu axır vaxtlarda onların çox yarısı məktəbi atıb dolanacağını təmin etmək üçün müxtəlif qulluqlara girmişlərdir. Fəqət şükür olsun ki, bu hal bəzi səbəblərdən məktəbə davam edən arxadaşlar tərəfindən düşünülərək, tezliklə bu fəna işin qabağını almaq üçün çarələr aramaq təşəbbüsatında bulundular və birincisi, işbu fəqirlərin nəfinə [xeyrinə] bir müsamirə [konsert] verilməsi qət olundu.

Həmin müsamirə keçən mart ayının 26-da ümum yoldaşların iştirakı ilə mütəntən [təntənəli] bir surətdə oynanıldı. Yoldaşların söylədiyindən, 10-15 min manat para hasil olmuşdur. Bu cümlədən möhtərəm Bəşir bəy Aşurbəyov cənabları 500 manat və İsa bəy Aşurbəyov cənabları 200 və başqa şəxslər ianələr vermişlərdir. Fəqət nədənsə, şimdiyədək müsamirə heyəti kəndi fəaliyyətindən hesab verməyir və müavinətdən ötrü onlara müraciət edilirsə də, hasil olan paranın həpsi heyətin sədri Ələsgər Ələkbərzadədə qalmışdır deyirlər. Ola bilsin ki, sədr əfəndi buna etirazla, hesab vermək üçün 2-3 dəfə iclas çağırıb, kimsə gəlməyib desin. Fəqət cavab olaraq deyirəm ki, siz istəyirsiniz gündə iclas çağırınız, heç kimsə gəlməyəcək, çünki indi məktəbdə olanların imtahan vaxtıdır, hazırlaşırlar və məktəbi atanlar da hər biri öz qulluğundadır, gəlmək bittəb [təbii ki], onlara mümkün olmayacaqdır.

Məncə, müsamirədə yoldaşlarımız özləri iştirak etdiklərindən nə xərc, məxaric olubsa, gözəlcə məlumdur. Onlara hesab verməyin də ona görə bir əhəmiyyəti yoxdur. Əgər onları gözləsəniz, olsun ki, heç vaxt hesab verə bilməyəsiniz. Bu işin də bittəb, məktəbi atanlar üçün nə qədər zərər olmağı bəllidir. Ona görə yaxşı olardı ki, heyət qəzetə vasitəsilə kəndi hesabını bildirsin.

Arxadaşlarımızın halını nəzərdə tutub heyətdən bu işin tezliklə əmələ gətirilməsini arzu ediriz.

*Bir sənətçi*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*8798*



**İtibdir**

İskəndər Məşhədi Paşa oğlunun adına verilmiş əsgərlik şəhadətnaməsi, metrik şəhadətnaməsi və pasportu itibdir. Etibardan saqitdir [etibarsızdır].

*8800*

**Şüvəlanda**

Bağ icarəyə verilir. 2 mərtəbəli 7 otaq balkonu ilə bərabər, Xan bağının yanında. Xahiş edənlər bu adresə rücu [müraciət] etməlidirlər:

Melniçni küçədə, nömrə 6. Məhəmmədov.

*10203*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Diş həkimi R. S. Fuks**

Qəbul edir: 9-dan 10-a dək; 5-dən 7-yə dək. Ünvan: Mariinski, nömrə 18. Ferdinandın aptekası ilə bərabər. Telefon nömrə 34-15.

*10202*

Moskvada təcrübə görmüş diş həkimi **K. S. Kolandskaya-Sanuxat** kabinə açmışdır. Müalicə edir, dişləri doldurur, süni dişlər qayırır və dişləri ağrısız çəkir. Qiymət münasibdir. Qəbul edir: Hər gün səhər saat 9-2-yədək; aşxam saat 5-7-yədək. Adres: Bazarnı və Suraxanski küçələrin küncündə, nömrə 112.

*8795*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

Diş müalicəxanası və süni diş laboratoriyası. Adres: Sisyanovski (Ləzginski) və Çadrovı küçələrin küncündə nömrə 41. Telefon 22-07. Qəbul edir səhər saat 6-dan 8-ədək; səhər saat 11-dən 2-yədək; axşam saat 4-dən 8-ədək. Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır.

*8779*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

Doktor **M. M. Kərimov** göz naxoşlarını və diş həkimi **A. Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Doktor M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. “606” və “914” müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

**Zəhmət (məsai) bürosu**

Bakı Şəfqət Bacıları İttifaqı şəfqət bacılarını gecə işlərinə, iynə vurmağa, masaj etməyə müərriflik edir [tövsiyə edir, zəmanət verir]. İttifaq öz işçilərinin işlərinə cavabdehdir. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Budaqovski və Malakanski küçələrin küncündə, nömrə 16/22, mənzil 6. Konkanın mənzili. Telefon nömrə 14-08. Büro bütün gün açıqdır.

*8755*

Batumdan xarici məmləkətlərə yun yollamağı və xarici məmləkətlərdə komisyon təriqi [yolu] ilə satmağı **İ. V. Denisovun** bankir kontorası qəbul edir. (Velikoknyajeski, nömrə 1).

*8799*

Bəhramovun toy məclisində İsgəndər Həsənov bir bumajnik içində 1500 manat pul, Batum polis idarəsindən verilmiş pasport, Şuşa Əxzi-əsgər [Hərbi çağırış] şöbəsi rəisi tərəfindən əsgərlikdən azad olma şəhadətnaməsi, 1888-ci ildə təvəllüd etmək barəsində metrik şəhadətnaməsi itibdir. Tapan şəxsdən acizanə təvəqqe edirəm, pulları özü götürüb, şəhadətnamələri isə Aleksandro-Nevski cərgə Həsənovların mağazası, nömrə 25, telefon nömrə 29-53, yaxud “Azərbaycan” qəzetəsi idarəsində qoymaları təmənna olunur.

*10201*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bununla elan edir ki, 1919-cu ildə iyun ayının 3-də səhər saat 10-da Ticarət, Sənaye və Ərzaq Nəzarətində (Olqinski caddə, sabiq “Natsional” mehmanxanası, 11 nömrəli otaq) 187 yarımtar, 186 ruminok və 300-ə qədər girvənkəlik qablarda ənvai əmtəə xülasələrinin və işlənmiş balıq qablarının müzayidəsi [hərracı] olacaqdır.

Satılacaq qablar Ərzaq Nəzarətinin anbarındadır (“Vulkan” anbarı 30-cu pristan [körpü] ilə rubəru [üzbəüz]). Qablara bayram günlərindən başqa, hər gün saat 9-dan 12-ə qədər baxmaq olar. Qablara baxmaq istəyən əşxas [şəxslər] əvvəlcə anbar müdirinə (Merkuryevski küçədə Dadaşovun evində) müraciət etməlidirlər.

Satış və ya müzayidə şifahi və ya yazılıb verilən ərizələr təriqi [yolu] ilə icra ediləcəkdir. Verilən ərizələrlə bərabər, ərizə verənlərin hüviyyətini [şəxsiyyətini] bildirəcək sənədlərlə, təklif etdiyi məbləğin rəhn [girov] təriqi ilə on (10) faizi nağd olaraq pişnihad [təqdim] edilməlidir. Şifahən müzayidəyə girmək istəyənlər isə yarımtarların cümləsinə min beş yüz (1500) manat, rumınoklara iki min (2000) manat və xülasələrin cümləsinə isə üç min (3000) manat verməlidirlər. Qalan məbləğlər pişnihad və ya təqdim edilən rəhndən əlavə, müzayidənin təsdiqindən sonra üç günün ərzində verilməlidir.

Əks surətdə rəhn təriqi ilə verilən məbləğlər xəzinənin mənfəətinə daxil olur.

Müzayidələri Ticarət, Sənaye və Ərzaq naziri təsdiq edir.

Lazımi məlumat və bəyanatı bayram günündən başqa hər gün səhər saat 10-dan 2-yə qədər Nəzarətdə (12-ci otaq) almaq müm-kündür.

*İmza etdi: Nazir naminə müavini:*
*Y[usifəli] Əliyev*
*T-142*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 2. “Fort-Aleksandrovsk”: Qazaxıstanda indiki Fort-Şevçenko şəhəri.

“Tisa” [Tisa; Tisza]: Mərkəzi Avropada çay; Dunay çayının ən uzun qolu. Mənbəyi Ukraynadadır. Ukraynanın Rumıniya və Macarıstanla sərhədini müəyyən edən çay, Serbiya ərazisində Dunaya tökülür.

“Maros”: Rumıniya və Macarıstan ərazisindən axan və Tisa çayının sol qolu olan Maroş (yaxud Mureş) çayı nəzərdə tutulur.

**Sülh ətrafında**

səh. 3. “Avam Kamerası”: Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası.

**Qəzetələrdən**

səh. 4. “Kuşka”: Türkmənistanın cənubunda, indiki Sərhədabad şəhəri.

“Rus Siyasi Müşavirəsi” [Русское политическое совещание]: Keçmiş Rusiya imperiyasının xarici strukturlarının birləşmiş nümayəndəliyi kimi 1918-ci ilin axırlarında Parisdə yaradılan siyasi qurum. 1919-cu ilin ortalarında öz fəaliyyətinə son vermişdir.

**Misir hadisələri**

səh. 6. “London səfərlərinin təxir edilməsi”: qəzetdə “səfərlərinin” yerinə “səfirlərinin” getmişdir.

**Cümə günkü mühüm xəbərlər**

səh. 7. “Deyli meyl” [Daily Mail]: Londonda 1896-cı ildən etibarən nəşr edilən gündəlik qəzet.

**Xalq istəyir**

səh. 9. “X. İ.”: bu imza Xəlil İbrahimə məxsusdur.

"B. T.": "bədət-təhrir", yazandan sonra. (P. S.)

"Tserkovnı": Bakıda, indiki Vidadi küçəsi.

**Köhnə xəyanətlər**

səh. 10. "Şirvanski polk": söhbət, Rusiya imperiyası ordusunun hərbi hissəsi olan 84-cü piyada Şirvan polkundan gedir.

**Vətən ayrılığı**

səh. 11. "namaza durmamışlarsa da": qəzetdə belə getmişdir: "namaza durmuşlarsa da".

**İstiqlal bayramı**

səh. 16. "kəşkül": keçmişdə, dərvişlərin özləri ilə gəzdirdikləri qab; ağacdan yaxud balqabaqdan düzəldilirdi.

"təbərzin": keçmişdə, dərvişlərə məxsus, ağzı aypara şəkilli balta.

**Bakı xəbərləri**

səh. 18. "Rekord": Bakıda 1912-ci ildə yaradılmış kinoteatr olmuşdur; Birja meydanında (indiki Sahil bağında) yerləşmişdir.

səh.19. "Tazəşəhər": indiki Türkmənbaşı şəhəri.

**İzhari-təşəkkür**

səh. 21. "darülmüəlliminin leylisi": şagirdlərin gecələr də qaldıqları, internat məktəbi.

**[Elanlar] Bəhramovun toy məclisində...**

səh. 24. "bumajnik": qəzetdə "pamojnik" getmişdir.

"Aleksandro-Nevski cərgə": Bakıda, Səbail rayonu ərazisində mövcud olmuş Pasaj bazarının könhə adı.





**Bazar ertəsi, 2 iyun 1919-cu il, nömrə 193**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 3 ramazanül-mübarək sənə 1337. 3 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

**ELAN**

1919 həziranın [iyunun] 2-ci günü saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-143*

**ELAN**

Qobustan otlaqlarında olan yerlərə Şəhrəbanu xanım Qulubəyova və Bikə xanım Hüseynova tərəfindən verilmiş sənədlərin sahiblərini iki həftənin müddətində dəvət edirəm ki, gəlib öz xahişlərini mənə ərz etsinlər.

Məhəmmədyarski küçə, nömrə 56.

*Mirəlinağı Hüseynov*

*10205*

Azərbaycan Məclisi-Məbusan rəisi naminə gələn ərizələr daxilində bir çox imzasız ərizələrə təsadüf olunur ki, böylə imzasız gələn ərizələrə qanun mövcibincə [qanuna əsasən] əncam edilməyib buraxılmalıdır. Buna binaən [buna görə], Azərbaycan Məclisi-Məbusan naminə gəlmiş olan imzasız ərizələr baxılmamış və əncamsız qaldığı kimi, ərizə sahibi də ərzihalına əncam ediləcəyini bəkləməkdə qalır. Azərbaycan Məclisi-Məbusan rəisi həzrətlərinin əmrlərinə binaən, ərizə göndərən zatlara bununla məlum edilir ki, göndərilən ərzi-halların cümləsi imza edilməlidir, əks təqdirdə ərizə sahibinin hansı səbəbdən dolayı olursa-olsun ərizəsini imza etməmiş olduğu halda göndərilən ərizələr Məclisi-Məbusan tərəfindən sərəncamsız qalır.

*Parlaman idarəsi vəkili: Vəkilov*

*Kargüzar: [Camal] Paşazadə*

*T-134*

**QİSMİ-RƏSMİ**
**[RƏSMİ HİSSƏ]**

**Babi-Məşixətdən [Şeyxülislamlıq İdarəsindən]**

Ümum qazılara göndərilən hökmi-müttəhidül-məzmun [vahid məzmunlu hökm] surəti və zimnən [bununla belə], ümum mü-səlman camaatına tövsiyeyi-diniyyə:

Ramazanül-mübarək ayı hülul etdi [gəlib çatdı]. Şənbə günü yövmüşşək, bazar günü haqqi-ramazandan olduğu mühəqqəqdir [qətidir]. Demək, bir ay aləmi-islamın hər nöqtəsində şəhər və qürada [kəndlərdə] gecə və gündüzlər camaat məsacidə [məscidlərə] toplanıb, ruhanilərin məvaizi-diniyyəsini [dini moi-

zələrini] səmimi ürək və pak imanla dinləyəcəkləri zaman hülul etdi.

Üləma [ruhani alimlər] və imamlar əsnayi-və'zdə [moizə edərkən] nə söyləyərlərsə (dinə müğayir [zidd] olmamaq şərti ilə) camaat onu qəbul və həm də can-dil ilə qəbul edəcəklərdir. Şimdi üləmaya da böyük və qayət müqəddəs bir vəzifə tərəttüb edir [boyunlarına düşür], o da avam camaatın əzhani-safiyyəsini [saf zehinlərini] həqiqi din və şəriət naminə zaman və hala münasib ehkami-diniyyə [dini hökmlər] ilə təzyin etməkdir [bəzəməkdir]. Bu vaxta kimi fəraizi-diniyyə [dinin fərzləri] yalnız salavat, siyam [oruc], həcc və zəkat kimi ehkamdan ibarət olub qalmışdı. Fəqət cameül-kəlam olan Qurani-cəlilimizin havi olduğu [ehtiva etdiyi] bir çox maddələrin nəzəriyyat və əməliyyatımıza tətbiqi zamanı gəlmişdir. Hal-hazırda millət və vətənimizin ən şiddətlə möhtac olduğu və Qurani-kərimimizin mütəəddid [bir çox] yerlərdə sərahətən [açıq-aşkar] əmr buyurduğu əsgərlik və vətənpərvərlik məsələsi qarşımızdadır.

Bizim camaat isə bu vaxta kimi islamiyyətdə əsgərlik görməmiş olduğundan, bunu bir məcburiyyəti-qanuniyyə [qanuni məcburiyyət] əðd [hesab] edərək kərahətlə [istəməyərək] inqiyad etdikləri [tabe olduqları] görülməkdədir. Halbuki bunda məcburiyyəti-qanuniyyədən başqa, bir məmuriyyəti-diniyyə [dini vəzifə, dini borc] olduğunu bilsələr, əlbəttə, şövq və həvəslə itaət edərlər.

Binaənileyh [ona görə], bu sənə ramazan münasibətilə məsacid və sair cəmiyyətlərdə olunacaq və'zlərin bir çoxu bu məsələyə aid olmalıdır və bu babda [bu barədə] qazılara müqərrər olur [qərarlaşdırılır] ki, hətta bütün qəryə [kənd] məscid mollalarına da təlimati-lazimə versinlər, ta ki ümum üləma ayati-Quraniyyə və əhadisi-nəbəviyyədən [Quran ayələrindən və peyğəmbər hədislərindən] vaxta münasib mətləblərlə camaata vəz və nəsihət buyurub, vətənə, millətə və hökumətə məhəbbət və yardım etmək lüzumunu da o[n]lara qandırsınlar.

*Məşixət sədri*
*Şeyxülislam Axund Ağaəlizadə*

**ŞİMALIMIZIN HALI**

O Dağıstan ki, onu fəth etmək üçün qoşununun qüvvəsi ilə Yevropanı qorxudan rus çarlığı otuz beş il vuruşub çalışmışdı – o Dağıstanı Denikinin dərədəntəpədən yığılmış başpozuqları bir gündə fəth etdilər!

Və bu fəth sayəsində Qafqaz cümhuriyyətlərindən biri bir az zaman içində gözümüz önündə məhv olub getdi.

Dağıstan Cümhuriyyətinin pozulması və Dağıstan istiqlalının əldən getməsi ümum Qafqazın növzad [yeni doğulan] cümhuriyyətləri üçün son dərəcə mövcibi-təəssüf [təəssüf ediləsi] bir keyfiyyətdir.

Bir istiqlaliyyətin pozulmasından hasil olan bu təəssüfün üzərinə bir də rus irticapərəst və qaragüruh qüvvəsinin bizimlə yan-yana qonşu olmaq fəqərəsi [faktı, hadisəsi] dolayısı ilə əmələ gələn böyük bir təşviş və əndişə dəxi əlavə olunur.

Fəqət bu əhvalata hamıdan artıq təəssüf edən əlbəttə ki, Azərbaycandır. Çünki bu məhv olan cümhuriyyət Azərbaycan ilə həmdin olan bir islam cümhuriyyəti idi ki, bu din birliyi Azərbaycan ilə Dağıstan arasında bir ailə əzalığı mərbutiyyəti [ailə üzvləri arasındakı bağlılıq] əmələ gətirməklə, gələcəkdə Qafqaz cümhuriyyətlərinin müvazineyi-siyasiyyəsinə də [siyasi tarazlığına da] təsir edə bilərdi.

Təşviş və əndişəyə gəldikdə dəxi, genə də Azərbaycanın əndişəsi o birilərinkindən daha artıqdır. Çünki dabravollar [könüllülər] tərəfindən gözlənən xətər bilavasitə bizi təhdid edir. Aramızda artıq heç bir hail [maneə] və sədd yoxdur. Odur ki, biz ehtiyatlı olmaqdan bir an belə qafil ola bilmərik və silah altında hazır durmaq məcburiyyətindəyik.

Amma nədəndir ki, öz azadlıq və hürriyyətini rus istibdadının hirs və tamahına qurban verməmək üçün otuz beş il cəng edib qan tökən dağıstanlılar bütün aləmin məhəbbət və rəğbətini qazandıqları halda, bu gün Denikin ordusuna təslimi-can edən həman dağıstanlılar o rəğbətə məzhər [nail] ola bilməyirlər və onların bugünkü halı insanda nisgil hissi əvəzinə acıq və əsəbiyyət oyadır?

Çünki bugünkü dağıstanlılar öz azadlıq və istiqlaliyyətlərini müdafiə və mühafizə etmək üçün heç bir fədakarlıqda bulunmadılar və heç bir iş görmədilər. Qəhrəmanlıqları ilə məşhur olan dağıstanlılardan bu yolda heç bir qəhrəmanlıq görmədik. Nə gördük? Müharibəsiz təslim!

Bu müharibəsiz təslimin nədən əmələ gəldiyi xüsusunda bir çox fikirlər ola bilər, lakin hər nə fikir olsa da, dağıstanlılar dabravollardan qorxdular və onlarla qorxularından müharibə etmədilər fikri ola bilməz. Çünki dağıstanlıların igidliyi və qəhrəmanlıqları aləmdə məşhurdur. Zənnimizcə, bu işin səbəbini əvvəla, dağıstanlıların müxtəlif kiçik millətlərdən təşəkkül etməsində və saniyən [ikincisi], bu müxtəlif millət arasında ittihad və ittifaq fikrinin layiqi vəchlə cagir olmamasında [layiqli şəkildə özünə yer tapmamasında] aramalıdır.

Gürcüstan dövlətini təşkil edən gürcülər və Azərbaycan Cümhuriyyətini quran türklər bir dil ilə təkəllüm edən [danışan], ürf və adətləri bir olan və fərdləri arasında heç bir ayrılıq olmayan bir millət kütləsi olduğu halda, dağıstanlılar ayrı-ayrı, kiçik-kiçik və ufaq millətlərdən əmələ gəlir ki, hərəsinin dili ayrı, adəti ayrı; bir surətdə ki, bir yerə yığılarkən bir-birini anlamaq üçün ya rus, ya türk və ya ərəb lisanlarını işlətməyə məcbur olurlar.

Böylə müxtəlif millətli bir dövlət öz istiqlalını və öz varlığını saxlamaq üçün əvvəl-əvvəl millətləri arasında vacib və lazım olan ittihad və ittifaqa möhtacdır. Əgər bu ittifaq, ittihad və bu əlbirlik və dilbirlik mövcud olmasa, bu dövlətin əsgəri qüvvəti də heçdir və qəhrəmanlıqları da fayda verməz.

Dağıstan Cümhuriyyəti elan ediləndən bəri onların idarə işlərini təqib edənlər və bunlara göz yetirənlər Dağıstan millətləri arasında ittihad və ittifaqın mövcud olmadığını görməmiş deyildirlər ki, bu ədəmi-ittihad və ittifaq [birlik və ittifaqın olmaması] çox çəkmədi ki, böylə bir acı fəlakətlə nəticələndi.

Dağıstanlıların ittihad və ittifaqı an-

caq cümhuriyyətlərinin rəsmi adında olub, kağız üzərində idi. "Müttəhid [Birləşmiş] Dağıstanlılar İttifaqı" namını daşıyan bu cümhuriyyətin ədəmi-ittifaq və ittihadı deyil yalnız bir müxtəlif millətlərinin arasında, bəlkə siyasi oriyentasiyalarında dəxi mövcud idi. Burada bir tərəfdən bolşevikliyə meyil, digər tərəfdən denikinlilərə rəğbət və bir yandan da Azərbaycana mülhəq olmaq [birləşmək] fikri mövcud olub, ittihad üzrə müstəqil yaşamaq əməl [niyyət] və arzularına zərər və ziyan yetirməklə, istiqlaliyyət fikrini sarsıdır, laxladır və tərəfdarlarını da mütərəddid [tərəddüddə, şübhədə] qoyurdular.

Gürcüstanda və bizim Azərbaycanda istiqlal müdafiəsi yolunda hökumət tərəfindən irad olunan dəvətə bütün millət də və milləti təmsil edən müxtəlif firqəli Parlaman da bir ağızdan, bir ürəkdən "ləbbeyk!" [baş üstə] deyib, müdafiəyə hazır olduqlarını izhar etdikləri halda, Dağıstan Hökuməti ilə Dağıstan Parlamanı arasında bu məsələ üzərində dəxi birlik yox idi. Nə hökumət Parlaman köməyinə ümid edə bilirdi, nə də Parlaman Hökumət bacarığına inanırdı. Hökumətlə Parlaman, Parlaman ilə də millətlər arasında açıqlıqlar var idi. Xülasə, arada möhkəm və bir-birinə mərbut [bağlı] heç bir şey yox idi.

Böylə olan surətdə dabravolların asanlıqla Dağıstanı başdan-başa işğal etmələri və dağıstanlıların müharibəsiz təslimi böylə əhvalların təbii nəticəsi idi ki, baş verməsi uzaq çəkmədi.

Dağıstan millətlərini bir-birinə mərbut edən [bağlayan] din birliyidir. Fəqət azadlıq və hürriyyət yolunda mübarizədə əzm və səbat göstərmək üçün dini ittihad təşviqindən ötrü dəmir iradə sahibi olan İmam Şamillər lazım imiş. Halbuki analar hər dəfə və əsrdə İmam Şamil doğmaz.

Şübhə yoxdur ki, əgər Dağıstan millətləri bu gündən belə, dəxi bir az gec də olmuş olsa, ittihad və ittifaqla, əzm və səbat və fədakarlıqlar göstərərlərsə, azadlıq və istiqlaliyyətlərini geri qaytara bilərlər. Bu üzdən Dağıstan istiqlalı əbədilik məhv oldu demək caiz deyildir.

*Hacıbəyli Üzeyir*

## TELEQRAF XƏBƏRLƏRİ

**Qahirə** - Rəşid paşa istefa verdi.

**London** - Vyanadan xəbər verilir ki, sabiq Macarıstan Rəisi-vükəlası [Baş naziri] Vekerle həbsxanada qətl edilməyib, öz əcəli ilə ölmüşdür.

**Bolşeviklərlə müharibə**

Murmansk - Onej gölünün şimal tərəfində olan Povenets denilən yer ruslar tərəfindən işğal edilmişdir. Bolşeviklər orada olan 14 yaşından yuxarı əhalini çıxarmışlardır. Hakəza [eləcə də], orada olan paroxod və barkasları da çıxarmaq istəmişlərdir, fəqət göl buzlu olduğundan paroxodları çıxara bilməmişlər. Libavadan xəbər verilir ki, havalar istiləşdikdən sonra Pribaltik boyunda bolşeviklərin hücumu başlanmışdır. Şlokdan Altrusa qədər bütün cəbhə boyu başlanmış olan müharibə davam edir.





## SÜLH ƏTRAFINDA

**İtaliya və Amerika ixtilafı**

London - İtaliya məsələsindən bəhs açan "Tayms" qəzetəsi deyir ki, İtaliyanın ən yaxın dostları ondan təvəqqe edirlər ki, Vilsonun müraciətinə əməl etsin. İcab etdiyi [lazım gəldiyi] zaman İngiltərə və Fransa London müahidəsinə [sazişinə] riayət edəcəkdir. Fəqət bunlar müahidə bağlandıqdan sonra əhvalın qətiyyən dəyişdiyi kimi Vilson rəyinə müvafiqət edirlər [Vilsonun, saziş bağlandıqdan sonra vəziyyətin tamamilə dəyişdiyi haqqındakı rəyinə şərikdirlər]. Fiumenin şimal və şimal-şərq tərəfində olan əhalinin dəryaya yolları olması kimi arzularına hüsn-təvəccöh göstərirlər. Fransa və İngiltərə bu yolda öz əqidələrinə görə fəaliyyət göstərəcəkdirlər. Şimdi İtaliya və bütün cahan müqəddəratı fəqət italyanlardan asılıdır.

**İtaliyada nümayişlər**

Roma - Axşamkı qəzetələrdə camaata təklif edilmişdir ki, son hadisata görə əhali bir nümayiş yapsın. Bu gün bədəzzöhr [günortadan sonra] Kolomiyada böyük bir dəstə nümayiş tərtib vermişdir. Bunların bayraqlarında "Yaşasın Fiume, Orlando və Sonnino!" deyə yazılmış imiş. Nümayişçilər bütün küçələri dolanmışlardır. Roma Bələdiyyə rəisi nitq söylərkən demiş: "İtaliya heç bir zaman razı olammaz ki, qələbə meyvəsi düşmənlərinin əlinə keçsin." Nümayiş zamanı heç bir hadisə olmamaqdan ötrü Amerika, Fransa və İngiltərə səfarətxanaları və sosialist "Avanti" qəzetəsinin idarəsi iyirmi beş xüsusi dəstələr tərəfindən mühafizə edilirmiş.

**Roma** - Dünən Romada Vilsona qarşı büyük bir nümayiş qurulmuşdur. Küçələr əhali ilə məmlu [dolu] olub, İtaliya sülh mürəxxəslərini [nümayəndələrini] alqışlamışlardır. Böylə nümayişlər Milan, Turin, Genuya, Neapol və İtaliyanın sair şəhərlərində dəxi vaqe olmuşdur.

**London** - Parisdən teleqrafla "Tayms" qəzetəsinə xəbər verilir ki, Vilson manifestinin təfsilatı 10 gün bundan əvvəl Orlando tərəfindən Romaya bildirilmişdir.

**London** - İtaliya ilə Amerika arasında vaqe olan ixtilaf hər halda ayrılığa səbəb olmayacaqdır. Yalnız İtaliya müvəqqəti olaraq Sülh Konfransında iştirak etməyəcəkdir. Ola bilər ki, Almaniya nümayəndələri ilə danışıq başlandıqda Orlando Parisə qayıtsın. Sülh Konfransında olan nümayəndələr zənn edirlər ki, nəhayət bu ixtilaf yatırılacaqdır. "Peti Parizyen"in rəyinə görə, Orlando Romaya getmişdir ki, Parlamandan güzəştə getmək üçün müsaidə alsın.

**Berlin** - "Taqeblatt" qəzetəsi xəbər verir ki, dünyada böyüklükdə birinci mövqe tutan "İmperator" nam [adlı] alman paroxodu İngiltərəyə əzimət edir [yola düşür]. Orada Müttəfiqlərə [Antantaya] təslim ediləcəkdir.

**Paris** - Üçlər Şurası qərar qoymuşdur ki, Kiao-Çao qətiyyən [qəti surətdə] Yaponyaya keçsin. Rəvayətə görə, sonra Yaponiya bu yeri Çinə qaytaracaqdır. Çin ilə Yaponiya arasında olan sair sazişat [sazişlər] öz gücündə qalacaqdır.

**London** - Makino Royterə xəbər verir ki, Yaponiya Şantun nimcəzirəsini [yarımadasını] Çinə qaytarmaq istəyir. Fəqət o yerdə əvvəlcə Almaniyaya verilmiş olan imtiyazları şimdi Yaponiya alır. O ki qaldı dəmir yoluna – ki bu da Yaponiya və Xitaya [Çinə] məxsusdur – bu da xüsusi polis tərəfindən mühafizə ediləcəkdir. Polis çinlilərdən olaraq müəllimləri [instruktorları] yaponlardan təyin ediləcəkdir.

## VİLSONUNUN NİTQİ

Parisdən xəbər verirlər ki, Rəisi-cümhur Vilson Sülh Konfransı tərəfindən müzakirə edilib və bu qədər ixtilafa bais olan Adriatik məsələsi haqqında birinci dəfə olaraq bəyanat vermişdir. Vilson öz bəyanatının müqəddiməsində demişdir ki:

Yenə təzədən ümumun nəzəri-diqqətini ona cəlb etmək istəyiriz ki, bir neçə möhkəm əsaslar vardır. Bu əsaslar cahan xalqı tərəfindən qəbul edilib və uzun müddət davamedici sülhün binasından ibarətdirlər.

Amerika Hökuməti bunu ondan ötrü yadavər etmək [yada salmaq] istəyir [ki], bu əsaslardan imtina edən politiklərə mümaniət [maneçilik] etsin.

Vilsonun bəyanatı böylə başlanır:

"Məsələlərin fövqəladə mühüm olması münasibətilə və onları ətraflıca aşkar etmək məqsədilə mən ümidvaram ki, aşağıdakı bəyanatımız qəti və təminedici qərara gətirsin.

İtaliya Hökuməti müəyyən, lakin İngiltərə və Fransa hökumətləri ilə xüsusi saziş əsası üzərində müharibəyə başladı. Bu saziş də indi London müqavilənaməsi adında məşhurdur. O zamandan işlər xeyli dəyişmişdir. Bir çox başqa məmləkətlər, istər böyük, istərsə balacalar, həmçinin müharibələrə qoşuldular. Lakin onlar bu xüsusi sazişdən bilmərrə [qətiyyən] xəbərdar deyildilər.

Yevropanın o zamankı düşməni olan Avstriya-Macar İmperiyası – ki qalibiyyət təqdirində onun hesabına London müqavilənaməsi vücuda gətiriləcəkdi – hissələrə bölünüb, daha artıq mövcud deyildir. Bundan əlavə, bu məmləkətin əlahiddə hissələri İtaliya ilə Müttəfiqlər arasında olan sazişə görə, müstəqil hökumət etiraf [qəbul] edilib Cəmiyyəti-Əqvamda [Millətlər Cəmiyyətində] bu axır vaxt bizim düşmənlərimizlə deyil, İtaliyanın özü ilə və azadəlik üçün böyük müharibədə iştirak edən İtaliya kimi məmləkətlərlə birləşmişlərdir. Biz onların azadəliyini özümüzünkü kimi təmin etməliyiz. Onlar kiçik məmləkətlər arasında yerləşdirilməlidirlər, bu vaxtdan başlamış onların mənafeyi də ən qüvvətli məmləkətlərin mənafeyi gözlənən kimi ciddi bir surətdə gözlənməlidir.

Müharibə onunla qurtarmışdır ki, Almaniyaya mütarikədən [atəşkəsdən] sonra sülh təklif edilmişdir. Bu sülh təzə qanun və qayda bərpaedici müəyyən əsaslar üzərində binalanmalıdır. Bu əsaslar üzərində də Almaniya ilə sülh müahidənaməsi [sazişi] hazırlanmışdır. Bu əsaslar üzərində də müahidənaməyə əməl olunmalıdır. Biz tələb edə bilmərik ki, hökumətlər Avstriyaya sülh təklif edib əqd etsinlər və əvvəlcədən Avstriya-Macarıstanı təşkil edən məmləkətlərin istiqlaliyyətini və hüququnu Balkan üçün tətbiq edilən başqa əsaslar üzərində etiraf etsinlər. Almaniya haqqında icra eylədiyimiz əsasları bu məmləkətlərin də müqəddəratını həll edən zaman icra etməliyiz. Bu əsaslar sülhün binasına qoyulmuşdur və sülhün əhvali-siyasiyyəsi də bunların üzərində durmalıdır. Hərgah biz bu əsaslara sadiq qalmaq istəyiriksə, o zaman Fiume nəinki bir tək İtaliyanın ticarət məqsədlərinə, bəlkə bu limandan şimala və şimal-şərqdə olan, o cümlədən, Macarıstan, Bohemiya, Romaniya və Cənubi Slav [Yuqoslaviya] təzə hökumətləri üçün xidmət etməlidir. Fiumeni İtaliyaya verməklə biz bununla öylə bir təsirat vücuda gətiririk ki, Bəhri-Səfidə [Aralıq dənizinə] onlar üçün yol açan bir limanı qəsdən öylə bir hökumətin əlinə veririk ki, ora onun ayrılmaz parçası deyildir. Onun hökuməti ora üçün yabançıdır. Bundan əlavə, bu limanın oblastlar üçün xidmət edəcəyi ticarət və sənaye mənafeyinə məqsədəmüvafiq deyildir. Bilaşübhə [şübhəsiz], buna görə də Fiume London müqavilənaməsinə daxil edilməmişdir. Bu müqavilə ələlümdə Adriatik dənizinin şərq sahili və Dalmat sahilinin bir hissəsinə əlaqədardır. Buna səbəb ancaq o deyildir ki, bu cəzirələrdə [adalarda] və sahildə İtaliya qanı ilə adamlar vardır. Ələlümdə bu onunla təfsir edilir ki, İtaliyanın Şərqi Adriatik kanallarında üssülhərəkəyə [bazaya] malik olması lazımdır. Bu da xüsusi sahillərini Avstriya əleyhinə müdafiə etmək xidmətini görsün.

Lakin Avstriya hökuməti artıq yoxdur. Avstriya hökumətinə təklif edilmişdir ki, orada yapdıqları hamı istehkamatı götürsün. Bundan əlavə, Cəmiyyəti-Əqvamın qətnaməsinə görə, Yevropada intizam bərpa etmək qəsdi ilə lazımdır ki, təzə hökumətlər silahlanmağın azalmasına razı olsunlar. Bu qərar üzrə məsələ öz-özünə bitmiş olar. Bu şəhərin İtaliya əhalisi haqqında görüləcək ədalətsizlikdən ehtiyat etməyə də əsas yoxdur. Çünki hamı millətlərə bir bərabərdə baxılacağı üçün İtaliyaya kifayət qədəri təminat veriləcəkdir.

Müxtəsəri-kəlam, bu qətnamə ilə əlaqədar olan hər bir məsələ qalibiyyət üzrə təzə bir hal kəsb etməkdədir [hal almaqdadır] ki, bu qalibiyyət naminə də İtaliya bu qədər qurbanlar vermişdir. İtaliya Hökuməti başqa dörd müəzzəm [böyük] dövlətlərlə bərabər təzə qanun və qaydanın ümdə qəyyumu hesab olunurlar ki, bu qanun və qaydanın bərpasında İtaliya böylə böyük rol oynamışdır. Onun sərhədləri şimalda və şimal-şərqdə, şimal-qərbdən başlamış cənub-qərbə, şərqə ta İstriyen yarımcəzirəsinə [yarımadasına] qədər, o cümlədən Triest, Pola və Romanın yeddi təpədə binası qoyulduğu gündən İtaliyaya mütəalliq [məxsus] hamı oblastlar bütün-bütünə bərpa edilmişdir.

İtaliyanın vahidliyi bərpa edilmişdir. Onun sərhədləri İtaliyanın təbii müdafeindən [müdafiəçisindən, qoruyuçusundan] ibarət olan böyük divarlara qədər imtidad edir [uzanır]. İndi isə ancaq onun özündən asılıdır ki, özünü dostlarla mühasirə etsin və təzə azad olan millətlərə göstərsin ki, alicənablığın yaxşı nümunə-

si ədalətin dar millətçilik mənafeyi üzərində hökmfərma [hökmran] olmasından ibarətdir. İtaliya ilə əlaqədar olan London müqavilənaməsindən və böyük müharibə ibtidasında [başlanğıcında] əqd edilib dargöz millətçilik mənafeyi xatirəsi üçün deyil, ümumi sülh bərpası üçün böyük qurbanlara bais olan müqavilənamələrdən xəbərdar olmayan millətlər indi İtaliyanın əski müttəfiqlərinə qoşulub ondan xahiş edirlər ki, Yevropadan ötrü təzə bir şey olmayan rəhbərliyi öz öhdəsinə alsın. Amerika İtaliyanın dostudur. Milyonlarca italyanlar Amerikaya köçmüşlərdir. Amerika İtaliya ilə nəinki qanla, bəlkə məhəbbəti-mütəqabilə [qarşılıqlı məhəbbət] ilə əlaqədardır. Böylə düyünlər heç bir vaxt açıla bilməz. Sülh müzakiratı başlamaqdan ötrü Amerikaya müttəfiqləri tərəfindən ixtiyar verilmişdir. Biz demək olar ki, öz işimizi bitirmişik. Bu işlər Amerika tərəfindən hazırlanmış şərait üzrə aparılmışdır. Amerika Hökuməti indi hazırlanmasında iştirak etdiyi qərarların hamısını bu əsaslarla müvafiq etməlidir. Amerika üçün başqa bir iş qalmayır. Amerika İtaliyaya inanır və yenə inanır ki, İtaliya Hökuməti öylə bir şey tələb etməz ki, bu müqəddəs qərarlarla müvafiq olmasın. Hal-hazırda məsələ mənafe deyil, bəlkə azad olan millətlərin hüququ haqqında gedir. Amerika ancaq bu əsaslar naminə mübarizə edib və bu əsaslar üzərinə də sülh əqd etməyə hazırdır. Amerika Hökuməti ümidvar olur ki, bu əsaslar üzərinə də İtaliya xalqı tələb edər ki, İtaliya hökuməti sülh əqd etsin."

*İmza edib Vudro Vilson*

## ƏFQANISTANDA

**Kuşka radio mövqifinin tutduğu simsiz teleqraf**

Əfqanıstan - Əfqanıstandan və Kabildən gəlməkdə olan sonrakı xəbərlər Əfqanıstan hadisatını aydınlaşdırır.

Məlum olduğu üzrə, Əmanulla böyük qardaşları əvəzinə Əfqanıstan taxtına çıxmışdı. Çünki ordu və Əfqanıstanın başçıları əmirin qətlindən həyəcana düşüb, Nəsrulla xandan bu xüsusda şübhə edilirdi, müttəhidülqövl [yekdilliklə] tələb etmişlərdir ki, qatil cəzayi-səzasına [layiqli cəzasına] yetişsin. Əmir Əmanulla bu işi təqib edib də müqəssirləri cəzasına yetirəcəyini vəd etmişdi. Bu qətl işini təqib edərkən bəzi mühüm məmurların bu işdə əli olduğu anlaşılmışdır. Mollalar da buna protesto edərək demişlər ki, hərgah o, bu siyasətini yürüdərsə, taxtından və bəlkə həyatdan məhrum olacaqdır. Bu protestodan sonra Əmanulla təhqiqatı tərk edir. Bu əhvala ordu və məqtul [qətl edilən] əmirin dostları aşina olub, çox həyəcana düşmüşlər, hətta bəzi yerlərdə üsyan etmişlərdir.

Yeni əmir cavan və sadədil olduğundan, iki firqənin təzyiqi altına düşmüş, hər ikisi əmiri ölümlə təhdid edirmişlər.

Əmir hər iki firqəni birləşdirəcəyinə ümidvar olub ingilis hökumətinə hərb elan etməklə bunları birləşdirmək istəmişdir. Böylə xəbərlər vardı ki, əmir Hindistan sərhədinə öz qoşunlarını göndərmişdir. Bunlardan əlavə, Hindistana külli mübəlliğlər də [təbliğatçılar da] göndərmişdi.

Mayın 9-da əfqan qoşunları Xeybər dairəsində Pişəvərin şərq tərəfində sərhədi keçmişdir. İngilis qoşunları amadə [hazır] olaraq əfqan qoşunlarına həmlə edirlər. Böyük tələfat ilə onları geri püskürtmüşlərdir. Dak dairəsinə ingilislər külli bomba tökmüşlər. Mayın 11-də ingilis qoşunları 27 ildən bəri ingilislərə məxsus olan torpağa keçərək, əfqanlılardan 100 nəfərini öldürmüşlər və əfqan qoşunları 6 top buraxaraq qaçmışlardır.

Bu vaxta qədər sərhəddə olan əfqan qəbilələri bu işlərdə iştirak etməmişlərdir. Hindistanda əfqan qoşunlarının sərhədi keçmələrindən çox narazı qalmışlardır. Əfqanıstanda da əhali ikiyə bölünmüşdür. Bəziləri zənn edirlər ki, əmirin qatilini tapmaq üçün bu hadisələr bir manevra nümayişidir.

Bir çox illər Əfqanıstan müstəqil dövlət olaraq İngiltərənin və Hindistanın müavinəti ilə yaşamışdır. İngiltərəyə bir qarış da olsun əfqan torpağı lazım deyildi. Fəqət zamani ki, əmir hərbə başlamışdır, ona görə də Əfqanıstan müqəddəratı ingilis silahının gücü ilə həll ediləcəkdir.

## İRAN İŞLƏRİ

**Edam**

Tehranda nəşr olunan "Gülşən" qəzetəsi yazır: Kürdüstandan alınan teleqraf xəbərlərinə görə, ora nəzmiyyə [polis] müavini Salar Əşrəf əşrar [quldur] dəstələri ilə irtibatda bulunmaqda müttəhim və edam edilmişdir. Şəhər sakitlikdir, axşam şəhərin daxili və xaricində mühafizə dəstələri gəzməkdədirlər.

**Cəngəl əsirləri**

Yenə həman qəzetənin yazdığına görə, bu günlərdə Cəngəldə dərdəst edilmiş [tutulmuş] olan 200 nəfərdən ziyadə əşərra [quldurlar], kazak dəstəsi mühafizəsi altında olaraq Rəştə gətirilmişlərdir. Əhali onlara tamaşa etmək üçün şəhərin ətrafına və Səbz-meydana cəm olmuşdur. Əsirlərə kazakxanada mənzil verilmişdir.

**Bəxtiyar xanlarının hərəkatı**

Neçə vaxt bundan əqdəm [qabaq] Bəxtiyar xanlarının hökumət əleyhinə hərəkatda və sui-niyyətdə [cinayətdə] bulunmaları xəbər verilmişdi. Onların böylə hərəkatına xatimə çəkmək üçün məşhur Bəxtiyar rəisi Sərdar Əsəd ilə Əmir Möhtəşəm şabanın 18-də Tehrandan İsfahana əzimət etmişlərdir [yola düşmüşlər]. Bəxtiyarlar tərəfindən Sərdar Zəfər ilə Murtuzaqulu xan dəxi İsfahana gəlib ixtilafı sülh ilə həll etmək üçün müzakiratda bulunacaqlardır.

**Ordunun hərəkəti**

Farsistan qəzetələrinin yazdığına görə, fars qoşunlarının rəisi Muxtarüssəltənə, ətrafında əməliyyatda bulunan quldur və əşrar dəstələrini pərakəndə etmək üçün mükəmməl bir dəstə və topxana ilə bərabər cəbhəyə hərəkət etmişdir.

**Hacı Əhməd Kəsmeyi**

Rəştdən verilən xəbərlərə görə, Kiçik xan yavərlərindən olan Hacı Əhməd Kəsmeyi həbs edildikdən sonra evi dəxi axtarılıb və külli miqdarda əsləhə [silah] və qeyri hərbi ləvazimat tutulmuş və Rəştə götürülmüşdür.

## MİLLİLƏŞDİRMƏK MƏSƏLƏSİ

### I

**Azərbaycan türkcəsinin xətaları**

Azərbaycanda əsaslı nöqsanlardan birisi eyi türkcə bilənlərin pək az bulunmasıdır. Milliləşmək üçün ilk əvvəl türkcəni layiqi ilə öyrənmək və öyrətmək lazımdır.

Əskidən bəri milli lisanda təlim və tərbiyə müntəzəm bir proqramla olmadığından, hər müəllim kəndi ictihadına [çalışmasına, səyinə] görə bir üsul tutmuş və tələbəsini o yolda yetişdirmişdir. Bu müəllimlər türk dilini, türk ədəbiyyatını əsaslı surətdə bilmədiklərindən, ictihadlarında çox xəta etmişlərdir.

Məsələn "Uşaq gözlüyü" əlifbasını ələ alalım. Azərbaycanda olduqca müntəşir [nəşr edilmiş] əlifbalardan birisi. Minlərcə çocuq bu kitabdan türkcəni öyrənmişlərdir. Təb'i [çapı] gözəl və diqqətli, kağızı eyi, qitəsi [ölçüsü] böyük, xarici qiyafəti ilə təqdirlərə səza [layiq]. Fəqət əhval etibarı ilə pək fəna. Rus üsulu təqlid edilərək, cizgilər içində türk yazısı öyrədilmək istənmiş. Fəqət müəllif türk xütutuna [xətlərinə] vaqif olmadığından, yazı üsuluna, zövqi-səlimə və bədaye fənninə (Эстетика) o qədər zidd bir şəkildə tərtib etmiş ki, Qüruni-vüsta [Orta əsrlər] yazıları halını almış. Sonra üsuli-sövtiyyə [fonetika, fonetik üsul] xətaları: "Э" səsi يئي ilə, بش [beş] بئيش şəklində yazılır. او [ev] ئەو yaxud ايو surətində. Bu müəllim, gözəl türkcənin layətəğəyyər [dəyişməz] bir qaydasını bilməli idi: Heç bir müstəsnası olmadan, türkcədə kəlmənin ibtidasında [əvvəlində] saitlə yazılmamış bir qeyri-sait hərf məftuh oxunur: بش [beş], سس [səs], يمك [yemək], كلمك [gəlmək] ilax. kimi. Daha bunun kimi bir çox əsaslı xətalar. Əlifbaların ən düzgünü olmaqla bərabər, "Birinci kitab"da dəxi bu xətalar vardır.

Azərbaycan çocuqları bu xətalı kitablarla türkcəni səthi surətdə öyrəndikdən sonra müəllim və sairə olurlar və tələbələrinə də bu xətaları təlqin edib dururlar.

Sərfü nəhv [qrammatika] heç bilinmədiyindən, iki kəlməni bir-birinə rəbt edib [bağlayıb] bir cümlə təşkil etmək azərbaycanlılar üçün mümkün olmayır və cümlələr əksəriyyən rus şivəsində yapıldığı üçün gülünc və çirkin bir şəkil alır:

"Çap olundu ...-da ...-ların çapxanasında" kimi.

Bir misal daha:

"Cavabında polkovnik Qabba cənabları təvəqqe eyləmişdir ki, özünə edilən ehtiramdan naşi Azərbaycan Hökumətinə onun səmimi təşəkkürünü yetirsin." ("Azərbaycan" qəzetəsi)

Sərfü nəhv qaydası ilə bu cümlə şu şəkildə yazılmaq lazım gəlir:

"Polkovnik Qabba cənabları cavabında, özünə edilən ehtiramdan naşi Azərbaycan Hökumətinə səmimi təşəkkürünü yetirməsini təvəqqe eyləmişdir."

ق-ların غ və ك-lərin چ-yə [ka-ların q və ke-lərin ç-yə] yaxın bir səslə oxunması lisanın incələşməsinə və qulağa xoş gəlməsinə mane olur. İstanbul türkcəsi, tələffüzünün nazikliyi və incəliyi ilə rumca və italyanca kimi ən ahəngli bir hal kəsb etmişdir. Məlumdur ki, lisanlarda sameəyə [eşitmə duyğusuna] fəna təsir edən, qırtlaqdan çıxan səslərdir. Bu səbəblə məsələn çərkəzcə, gürcücə qonuşularkən dinləyən qulaq rahatsız olur. Halbuki rumca və italyancada bütün səslər dişlərin ianəsi [köməyi] ilə hasil edilir.

İstanbul türkcəsində dəxi boğazdan çıxması lazım gələn خ, ع, غ [x, ayn, qayn] kimi səslər məxrəclərini qaib etmişlərdir. Heç türkcə bilməyən bir adam İstanbul türkcəsini bilxassə qadınlar ağzından dinlərsə, lətif və ahəngli bir dil olduğunu dərhal fərq edər. Bu səbəbdən Azərbaycan türkcəsində də, türkcənin ahənginə nəqisə [naqislik] verən ق-ların غ və ك-lərin ج [ka-ların q və ke-lərin c] kimi oxunmasını yavaş-yavaş qaldırmalıdır. Və bunu müəllimlər yapmalıdır.

Ərəbcə kəlmələrin həqiqi mənaları bilinmədiyindən, yerində qullanılmayır. Məsələn, "təqdim" kəlməsi. Bu kəlmənin Osmanlı ədəbi türkcəsində mənası şöylədir: Əlinizə bir paket, bir zərf alarsınız, düymələriniz ilikli, ehtiramkar bir vəzlə [vəziyyətdə] və paketi köksünüz xizasında [səviyyəsində] tutmaq şərti ilə sizdən çox böyük rütbədə bir adama verərsiniz, yəni təqdim edərsiniz. Türkcədə heç bir məqam, insan "bunu mənə təqdim et" deməz. Azərbaycanda bu kəlmə bu qədər müfəssəl və təşrifatlı mənasına rəğmən, "Bir proqram, bir məramnamə qayırıb gələn ictimada [yığıncaqda] bizə təqdim edərsiniz" deyə istemal olunur [işlədilir]. "Təşrif etmək" təbiri də hakəza [həmçinin]. "Filan zat təşrif buyurdu" demək, "filan zat vücudu ilə şərəfləndirdi" deməkdir. "Biz təşrif gətirdik" demək nə qədər gülünc və nasıl pək ibtidai cəhalət isə, "şəhərimizə təşrif etdilər" təbiri də o dərəcə yanlışdır. Doğrusu "şəhərimizi təşrif etdilər"dir.

Səthi türkcə bilənlərin fənni istilahlardakı [elmi terminlərdəki] xətaları daha gülünc olur. Şagirdlərimə bütün israrlarıma və nəsihətlərimə rəğmən "углекислый газъ"ın bizdə müqabili olan فحم حامض فهم ı-حامض ["hamiz fahm"ı "hamiz fəhm"] yazırlar. Məndən əvvəlki müəllimləri öylə öyrətmiş və o müəllimlərə xəta yapdıran səbəb tərzi-tələffüzdür. فحم ilə فهم ["fahm" ilə "fəhm"] Azərbaycan şivəsində oxunuşda fərqsizdir. Halbuki Osmanlı türkləri فحم-ı فهم-i ["fahm"ı "fəhm"i] isə oxuduqlarından, bu xətaya düşməzlər.

Feillərin təsrifini də təshih etmək və Füzuli dövründən qalma "gedək, gələk"ləri buraxmaq, əlhasil işlənmiş və tərəqqi etmiş türkcəni bütün qaydaları ilə qəbul eyləmək zəruridir. Fransız dili Lionda başqa, Marsilyada [Marseldə] başqa, Parisdə isə büsbütün başqa danışılır. Fəqət yazı da, ədəbiyyat da birdir. Ruscada da böylədir. Azərbaycan türkcəsi slav dillərindən məsələn bolqarca yaxud serbcəyə bənzədilməməz, çünki bolqarca yaxud serbcə sərf, nəhv və ədəbiyyat nöqteyi-nəzərindən müstəqil tarixlərə, ənənələrə malikdirlər. Azərbaycan dili İran ədəbiyyatı təsiri altında təkamül hədəfini qaib etmiş saf bir türkcədir və kiçik bir hümmətlə islah edilər.

Azərbaycanda türk dilinin [tədrisinin] doğru olaraq yapılmasını və sərf-nəhvin öyrənilməsini təmin üçün nələr yapmalıdır? Bunun cavabı ikinci bir məqalədə veriləcək və yolları göstəriləcəkdir.

*Tofiq Nurəddin Ağayev*

**BÖYÜK BİR GÜN**

28 Mayda Azərbaycan, istiqlalının birinci səneyi-dövriyyəsini [ildönümünü] bayram etdi. Həm də olduqca təntənəli bayram.

Səhər tezdən şəhərin hər tərəfindən Parlaman qarşısına şitaban olan [tələsən] cavan, ixtiyar [yaşlı], qadın, çocuq, fəhlə, kəndçi, dövlətli, ziyalı – xülasə, millətin bütün əfradında [fərdlərində] müşahidə olunan şadlıq və fərəh hər bir şəxsi heyran qoyurdu və hər kəs hökm edirdi: "Əvət, Azəri türkləri azad və hürr yaşamağa layiqdirlər. Bu gün onlar axırıncı dəfə olaraq şu ləyaqət və istedadlarını isbat etdilər."

Bu gün yüz illərlə Rusiya çarizminin zənciri-əsarətində inildəyən azərilər vətəni deyirdi: "Ey bədbinlər və ey Azəri türklərinin hürr və azad yaşamağa istedadı olmadığını isbata çalışanlar! Kor gözlərinizi açınız da əziz oğullarımın mənə bəslədikləri məhəbbət və eşqi seyr və tamaşa ediniz də və sonra onların istiqlala ləyaqət kəsb etmədiklərini [qazanmadıqlarını] iddia ediniz!"

Azərbaycanlılar əlbəttə ki, bugünkü böyük bayramı başqa dürlü edəmməzlərdi. Çünki qanlı Nikolayın ağır və ahənin [dəmir] pəncəsi altında illərlə əzilib kəndisini məhv etmək dərəcəsinə gələn bir millət bu gün özünü azad hiss edir. Şanlı tarixin möhtəşəm səhifələrində altun xətlə yazılmış böyük babaları Əmir Teymur və Çingiz xanlarını dərxatir [yad] edərək, onlardan irs qalmış hürriyyət və azadlıq yolunda ölməyə və bir daha Nikolay dövri-istibdadına qayıtmayacağına yəminlər edirdi. Bu gün Azərbaycan milləti kəndi, fərəh və sürurla istiqlal və hürriyyəti uğrunda bütün mövcudiyyətini fəda edəcəyini layiqincə isbat edirdi. İxtiyar və qadınlar: "Ya Rəbb! İstiqlalımızı hifz et, bizi bir daha o dövri-mənhusa qaytarma!" deyib fərəh və şadlıqlarından göz yaşlarını tökürlərdi.

Bu böyük günü böylə təntənəli istiqbal edən [qarşılayan] azərbaycanlılar, əlbəttə ki, sənələrcə hürriyyət və istiqlalı uğrunda Rusiya çarizmi ilə çarpışan və Şeyx Şamil kimi böyük qəhrəmanlara malik olan dağıstanlı qardaşlarını unutmayır və unudammazdı.

Rusiya çarizmindən azad olduğu hənuz bir il ikən, yenidən bir qaç xain və vətənfüruş [vətəni satan] və mənfəətişəxsiyyələrinə hər bir şeyi fəda edən alçaqlar tərəfindən Dağıstan köhnə dövri-istibdada qayıtmışdı. Azəri türkləri əlbəttə bu müəssif [təəssüflü] hadisəyə laqeydanə baxammazlardı. Onlar düşünürlərdi:

Çünki Dərbənd və Petrovskda Denikinin qara qüvvələri dolaşırdı. Azərilər yaxşı bilirdilər ki, o qara qüvvələr Dağıstanı istila etdikdən sonra Azərbaycan sərhədinə yavuqlaşmaq istəyəcəklər və yenidən boynumuza zənciri-əsarəti salmaq istəyəcəklər. Fəqət Denikinlər unutmasınlar ki, bir dəfə Rusiya çarizmindən və onun ahənin çəngalından [dəmir caynağından] xilas olan azərilər əziz oğullarının qanı bahası ilə alınmış hürriyyəti çox asanlıqla əldən verməyəcəkdir. Bu gün hər bir azərbaycanlı kəndi istiqlal və hürriyyəti uğrunda şərəfli ölümü canudil ilə arzu edir.

Qoy hələ Rusiya imperatorluğu ilə sərxoş, istiqlaliyyətimizin düşməni olan Podşibyakinlər və Cinoridzelər və kompaniyaları Azəri türklərinin vətən və istiqlala olan bugünkü eşq və məhəbbətlərini və bu millətdə oyanan intibahı görsünlər də və sonra şimalda axan nahaq qardaş qanlarına nəzərəndaz olsunlar da, behəqq kimin istiqlala layiq və müstəid [istedadı çatan] olduğuna münsifanə [insafla] hökm etsinlər və hər saatda kəndi vərəqparələrində Denikinin qara qüvvələrini Biləcəriyə gətirib də özləri kimi şovinistləri iğfal etməsinlər [aldatmasınlar]. Azərbaycanlıları Denikin kimilər qorxutmaz, çünki onlar yəmin etmişlər:

"Bir dəfə qaldırılan bayraq bir daha endirilməz."

*Tələbə: Həsən Qasımzadə*

**BAYRAM ƏTRAFINDA**

İstiqlal bayramı münasibəti ilə Məclisi-Məbusan rəisi namına [adına] alınmış olan təbrik teleqrafları:

* * *

Bu gün istiqlaliyyətimizin səneyi-dövriyyəsi [ildönümü] münasibətilə Müsəlman Tələbələr Komitəsi bilümum [bütün] Azərbaycan tələbələri namından Azərbaycan camaatını Parlaman rəisi sifətində səmimi-qəlblə təbrik edir. Rusiya inqilab[ı] müqəddəs şüarı nəticəsi olaraq əldə edilmiş olan istiqlaliyyətimizin təmini uğrunda fədakarlıqdan çəkinməyib, qanlarının son damlalarına qədər çalışaraq var qüvvəsi ilə istiqlalını müdafiə edəcəkdir, əfəndim.

*Sədr əvəzinə:*
*Katib:*

* * *

İstiqlalımızın birilliyi münasibətilə Qafqaziya müsəlman mütəallimləri [tələbələri] tərəfindən sizin vasitənizlə Azərbaycan Məclisi-Məbusanını təbrik ediriz. Vətənimizin istiqlalını, iqbalını müdafiə və mühafizə etmək yolunda bütün Qafqaziya müsəlman mütəallimləri, ələlxüsus Azərbaycan türk və islam mütəallimləri, bütün qüvvələri, bütün varlıqları ilə sizə müavinət və müzahirətdə [köməklikdə] bulunacaqlarına əmin olunuz. Qafqaziya müsəlman mütəallimləri Məclisi-Məbusandan və hökumətdən türk və islam ocağı olan Azərbaycan istiqlalını göz bəbəyi kimi bütün daxili və xarici düşmənlərimizdən (kim olursa-olsun) müdafiə və mühafizə etməyi arzu eyləyir. Gənclər sizinlədir, gənclər yalnız müstəqil Azərbaycanı tanıyır.

*Qafqaziya Türk*
*Mütəallimləri Komitəsi*
*Sədri: Həmid Məhəmmədzadə*
*Katib: Əbdülvahab Məhəmmədzadə*

**Telefonoqramma**

Gəncədə Hərbiyyə məktəbində təlim alan və Gəncədə orduda bulunan Bakı türk tələbələri bugünkü milli bayramımızı səmimi-qəlbdən təbrik etməklə bərabər təvəqqe edirlər ki, Parlamanda oturan xalq nümayəndələrinə məlum edəsiniz ki, türk tələbələri əgər şanlı vətənimizə düşmənin ayağı dəyərsə, hamıdan əvvəl yolunda canlarını fəda etməyə hazırdırlar.

*Bakı türk tələbələri*

* * *

Tutduğumuz istiqlal yolunu tənvir ilə [işıqlandırmaqla] təmin edən müqəddəs

Parlaman əzasını [üzvlərini] şu ali və parlaq istiqlal günü münasibətilə təbrik etməklə bərabər, azəri-türk mədəniyyətinə rövnəq verməklə biz mütəallimləri dilşad etməyinizi acizanə rica ediriz.

*Bakı İttifaqi-Mütəallimin İdarəsi*

* * *

Bu gün mayısın 28-də Qazax Qadınlar Cəmiyyəti-Xeyriyyəsi şanlı vətənimizin bir sənə müstəqil yaşaması münasibətilə özünə müqəddəs borc bilir cavan Parlamanı səmimi-qəlbdən təbrik edib, sevgili vətənimizin səadətlə yaşamağı uğrunda var qüvvəsi ilə çalışmağı izhar edir.

Yaşasın müstəqil Azərbaycan!

Yaşasın Məclisi-Məbusan!

*Sədr: Mədinə xanım Qiyasbəyzadə*

* * *

Şənliyə iştirak edən Nuxa, Ərəş [Ağdaş] məntəqəsi mütəallimləri [şagirdləri] tərəfindən əziz İstiqlal bayramını təbrik edirəm.

*Nuxa və Ərəş məktəbi müfəttişi: Mahmudzadə*

* * *

Azərbaycan istiqlalı səneyi-dövriyyəsi münasibətilə Göyçay camaatı tərəfindən tərtib edilən mitinqdə əfkari-ümumun tərcümanı sifəti ilə Məclisi-Məbusana təbrikimizi səmimi təqdim və istiqlalımıza qarşı təsəvvür edilən hər növ təcavüz müqabilinə Məclisi-Məbusan və hökumətimizə bütün mövcudiyyətimizlə müzahirət [köməklik] edəcəyimizi təəhhüd ediriz [öhdəyə alırıq].

*Ümum əhali komitəsinin rəisləri: Qazı Seyidməhəmmədzadə, Qazı Məhəmmədəfəndizadə*

* * *

Nuxa-Ərəş İbtidai-Rüşdi Türk Müəllimləri İttifaqı həmin istiqlaliyyətimizin səneyi-dövriyyəsini təbrik edir.

*Sədr: Məbud Əfəndizadə*

* * *

28 Mayıs Azərbaycan Cümhuriyyətinin İstiqlal bayramı münasibətilə "Müsavat" firqəsinin Gəncə şöbəsi zati-alilərini təbrik və Parlamanın, istiqlalımızın əsrlərcə davamını və möhtərəm məbusların müvəffəqiyyətini Tanrıdan istirham ediriz.

*Sədr: Məşədi Əli Rəfiyev*

* * *

Dövlətli əfəndim! Gəncə Müsəlman Cəmiyyəti-Xeyriyyəsi sevgili millətimizin mübarək İstiqlal bayramı münasibəti ilə zati-alinizi və Parlamanımızı təbrik etməklə bərabər 28 Mayıs xatiratını daimi yaşatmaq üçün "İstiqlal" namında bir məktəb açdığını ərz edir, əfəndim.

*Cəmiyyəti-Xeyriyyə sədri: Məşhədi Əli Rəfiyev*

* * *

Gəncə vilayəti Türk Müəllimlər İttifaqı istiqlalımızın bir sənəliyi münasibətilə səmimi-qəlbdən təbrik edərək istiqlalımız uğrunda bütün varlığı ilə heç bir fədakarlıqdan çəkinməyəcəyini ərz eylər.

*İttifaq sədri: Axundzadə İdris*

* * *

Şəki Bələdiyyə İdarəsi cavan Cümhuriyyətimizin ikinci sənə istiqlaliyyətinə daxil olmağı şərəfi ilə mübahi olaraq [iftixar edərək], böyük bir ümidlərə nail olmaqla bərabər, təbrikatını ərz ilə iftixar edir.

*Bələdiyyə rəisi: Mustafazadə*

* * *

Qazax camaatı Azərbaycan Cümhuriyyətinin tamam bir il müstəqil yaşamasını nəzərə alıb mayın 28-ci gününü Azərbaycan türklərinin həyatında tarixi bir gün hesab edib, millətimizin böyük qeydkeşi və əsla sarsılmaz olan cavan Parlamanı təbrik eyləməyi müqəddəs vəzifə bilir və bu gün başlamış Azərbaycanın məsudanə yaşamasına və cümlə müsəlman millətlərin qeydi-əsarətdən xilas olmasına böyük ümidlər bağlayır.

Yaşasın böyük Azərbaycan Cümhuriyyəti!

*Yubiley heyətinin üzvləri: imzalar*

* * *

Azərbaycanın bir sənəlik dövri-istiqlalı münasibətilə Rəisi-vükəla [Baş nazir] naminə alınan teleqraflar:

* * *

- Rusiya və Qafqaziyanın katolik kəlisaları [kilsələri] namından arximandrit Kalatozov tərəfindən.
- Gürcüstan Hökuməti nəzdindəki Azərbaycan Cümhuriyyəti siyasi nümayəndəliyi tərəfindən.
- Xariciyyə naziri Məhəmməd Yusif Cəfərovdan alınmış.
- Gürcüstandakı Azərbaycan heyəti tərəfindən.
- Ermənistan Cümhuriyyəti hökuməti tərəfindən Heyəti-vükəla rəisi [Baş nazir] [Aleksandr İvanoviç] Xatisovun imzası ilə.

**Balaxanı kəndində teatr tamaşası**

1919-cu ildə may ayının 28-ci günündə Azərbaycan istiqlaliyyəti bayramı münasibətilə "Müsavat" firqəsinin nəfinə [xeyrinə] olaraq gündüz bayram görüşü və gecə teatr tamaşası tərtib verildi. Teatro tamaşasının hasili 2210 manat 70 qəpikdir. Bu məbləğdən məxaric olunub 831 manat 90 qəpik və Balaxanı "Qardaş birliyi" maarif cəmiyyətinə ianə verilmişdir 150 manat; xalis firqənin nəfinə qalmışdır 1228 manat 80 qəpik.

*İdarə*

## BAKI XƏBƏRLƏRİ

**Yeni Maarif naziri**

Azərbaycan Cümhuriyyəti Maarif naziri olan [Həmid bəy] Şahtaxtinski istefasından sonra boş qalmış olan Maarif naziri vəzifəsinə Dağıstan Cümhuriyyəti Maarif naziri [Nurməhəmməd bəy] Şahsüvarov dəvət edilmişdir. Mümaileyh [haqqında danışılan] əfəndi bir çox vaxt Gəncə Zükur [Oğlanlar] gimnaziyası müəllimi olmuşdur. Şahsüvarov bu günlərdə kəndi vəzifəsini ifaya şüru edəcəkdir [başlayacaqdır].

**Mütəallimlər qurultayı**

Dünən paytaxtımızda İkinci Realnı məktəbi binasında İttifaqi-Mütəallimin təşəbbüsü ilə Azərbaycan Cümhuriyyəti ümumtürk mütəallimlər və mütəallimələrinin [oğlan və qız tələbələrinin] qurultayı açılmışdır. Qurultayda Cümhuriyyətin hər tərəfindən nümayəndələr gəlmişdir. Rəsmi-iftitah [açılış mərasimi] və məhəlli-müzakirəyə qoyulmuş olan məsələlər haqqında gələn nömrəmizdə müfəssəl məlumat veriləcəkdir.

**"İsmailiyyə" binası haqqında**

Bakı qubernatoru qalabəyinə [komendanta] müraciətən məlum etmişdir ki, Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə

mütəəlliq [məxsus] olan "İsmailiyyə" binası bir neçə yerdən zədələnib uçulmaq halına gəldiyindən, onun yaxınından keçmək çox təhlükəlidir. Buna binaən [buna görə], məzkur [adı çəkilən] cəmiyyətin nəzərini binanın böylə halına cəlb etməklə, tezliklə onun ətrafını hasar edib və camaatın oradan keçməsinə imkan verilməməsini qubernatordan rica etmişdir.

**Bakı-Tiflis telefon xətti**

Azərbaycan Dəmiryolu naçalniki Bakı qubernatoruna məlum etmişdir ki, Ucar-Barquşet mövqifləri [stansiyaları] arasında Bakı-Tiflis telefon xətti naməlum bədəfkar [cinayətkar] şəxslər tərəfindən qırılmış və buna görə də məzkur [deyilən] şəhərlər arasında telefon müxabiratı [əlaqəsi] kəsilmişdir. Müxabirat kəsilməsinin nə dərəcə zərər olduğunu göstərməklə, naçalnik tezliklə usta göndərilib də həman xəttin yenidən təmir edilməsini rica etmişdir.

**Rus qəbiristanında qarovul**

Bakı rus kəlisası [kilsəsi] böyük keşişi qubernatora müraciətən rica etmişdir ki, naməlum şəxslər tərəfindən rus qəbiristanından daşlar və taxtalar oğurlandığına görə, oraya iki nəfər qaradovoydan ibarət qarovul təyin edilsin. Qaradovoyların məvacibləri və mənzilini hökumət öz öhdəsinə qəbul edir.

**Saxta pul kəşfi**

3-cü polis dairəsində sükunət edən Abdullayev nam [adlı] birisi saxta pul qayırmaqda müttəhim edilib tövqif [həbs] edilmişdir. Məzkurun [adı çəkilən şəxsin] mənzili axtarıldıqda, evində 3 min manata qədər saxta pul tapılmışdır. Abdullayev həbsxanaya göndərilmişdir.

**Tövqif və həbslər**

Bakı qalabəyisinin binagüzarlığına [sərəncamına] görə, Bakıda sükunət edib də asayiş və asudəliyi pozmaqda müttəhim edilən Stepanov, İvanov və Zummerov hərəsi bir ay müddətinə həbs edilmişlərdir.

**Məhkəməyə cəlb**

3-cü polis idarəsinin müavini-rəisi Məhəmmədov kəndi xidmətindən istifadə edib və bir çox qeyri-qabil hərəkatda bulunduğundan, Azərbaycan İstinaf Məhkəməsi müddəiyi-ümumisi [Məhkəmə Palatası prokuroru] tərəfindən təhti-məhkəməyə [məhkəmə altına] cəlb edilmişdir.

**"Moloçnı"nın qapanması**

2-ci polis dairəsində sükunət edən məhəllə əhalisi Bakı qubernatoruna müttəfiq bir ərizə verərək, Krasnokrestovski küçədə olan bir "moloçnı"nın qapanmasını rica etmişlərdir. Ərizə sahiblərinin dediyinə görə, həman "Moloçnı"da əxlaqsız hərəkat müşahidə olunub, bəzi şübhəli şəxslər oraya gəlirlər. Bəzi vaxtlar ingilis saldatları dəxi məst olduqları halda oraya gəlib əhalini narahat edirlər. Bu ərizəni nəzərə alaraq qubernator qalabəyidən tezliklə "Moloçnı"nın qapanmasını rica etmişdir.

**Türklərdən qalan əsləhə haqqında**

Qubernatorun binagüzarlığı [sərəncamı] ilə türklərdən qalan əsləhələr [silahlar] və qeyri ləvazimatın nərədə olduğu haqqında məlumat istənilmişdir.





Qalabəyi və şəhərin bütün uçastokları tərəfindən edilmiş olan təftiş nəticəsində türklərdən böylə əşyanın qalmaması təhqiq və təyin edilmişdir.

**Hesab**

Martın 24-də Hacıbəyli Qardaşlarının Müdiriyyəti tərəfindən Qafqaziya Müsəlman Mütəəllimlərinin Mərkəzi Komitəsinin nəfinə [xeyrinə] qoyulmuş müsamirə [konsert] və teatronun mədaxil və məxarici bu qərar ilə olmuşdur:

Biletlərin satışından hasil olmuş pul: 21501 manat 77 qəpik.

Bufetdən hasil olmuş pul: 11230 manat 50 qəpik.

Kitablardan və güllərdən: 2613 manat 68 qəpik.

Cümlətan: 35345 manat 95 qəpik.

Məxaric sənədlər üzüylə 23303 manat 45 qəpik.

Xalis mənfəət 12042 manat 50 qəpik.

Cəridənizin [qəzetinizin] vasitəsilə müsamirənin və teatronun müvəffəqiyyətlə keçməsinə çalışmış xanımlara və zəvata kəndi səmimi təşəkkürümüzü izhar ediriz.

*Müsamirənin və teatronun müdiri-məsulu:*
*Zülfüqar bəy Hacıbəyli*
*Mərkəzi komitənin sədri:*
*Həmid Məhəmmədzadə*
*Dəxildar [kassir]: M. H. Quliyev*

**Dəmiryolunda**

Təqribən iki sənə əqdəmdən [əvvəldən] Əmirhacıyan kəndi və fəhlə camaatı Sabunçu-Suraxanı dəmiryol qatarının qəryə [kənd] mühazisində [qarşısında] bulunan 5-ci budkada dayandırılması xüsusunda dəfəatla [dəfələrlə] təşəbbüsatda bulunmuşsa da nəticeyi-mətlubə [tələb olunan nəticə] əldə edilməmiş, nəhayət bu son günlərdə Əmirhacıyan "Müsavat" şöbəsi Bakı Komitəsinə müraciətən camaatın şu istidasını [xahişini] sərəncam etdirmək xüsusunda təşəbbüsat edilməsini rica etmiş, Komitə tərəfindən Əmirhacıyan camaatının xahişini sərəncam zimnində [məqsədi ilə] məqami-aidinə [aidiyyətli quruma] müraciət etmək üzrə Ağa Bünyadzadə, Cavad bəy Məlik-Yeqanov təyin edilmişlər. Mümaileyhlərin [adları çəkilən şəxşlərin] lazımeyi-təşəbbüsatı nəticəsində vaqon neçə gündür məhəlli-məhudda [məlum yerdə, deyilən yerdə] dayanır.

**General Mehmandarov Qubada**

Azərbaycan Hərbiyyə naziri general Mehmandarov Dağıstan Cümhuriyyəti sərhədində olan Azərbaycan qoşunlarını nəzərdən keçirmək qəsdi ilə Bakıdan Qubaya əzimət etmişdir [getmişdir]. Quba qəzası əhalisi mümaileyh [adı çəkilən] generalı təntənəli surətdə istiqbal edib [qarşılayıb], silahının müvəffəqiyyətini diləmək əlaməti olaraq Qurani-Kərim təqdim etmişlərdir. Quba qəzası qaimməqamı [Əmir xan] Xoyski tərəfindən təşkil edilmiş olan könüllü dəstəsi generala artıq dərəcə hüsn-təsir bağışlamışdır. Qəza əhalisi Denikin ordusunun Dağıstana soxulmasından dilgir [dilxor] olaraq, bütün kəndlərdə Hərbiyyə nazirinə məlum etmişlər ki, onlar kəndi vətənləri olan Azərbaycan istiqlaliyyətini müdafiə və mühafizə etmək üçün hər bir fədakarlıqdan çəkinməyib və birinci cərgələrdə çarpışmağa hazırdırlar. Sərhəddə qoşun-

larımız və çətə dəstələrinin əhvalı xeyli xoş və yaşayışı gözəldir.

**Bakı konkası**

Bu yaxın vaxtlarda şəhərdə konka hərəkatı başlanacaqdır. Bir cəmiyyət kəndi öhdəsinə qəbul etmiş və bunun üçün 60 rəs [baş] at alınır və Məvərayi-Bəhri-Xəzərdən dəxi bir çox sifariş etmişdir. Halhazırda park və yol qayırılmaqdadır. Konka bileti muzdu 2-3 manat olacaqdır.

**Xan sarayı**

Zəhmətkeş Ziyalıların İttifaqı təşəbbüsatı sayəsində Bakıdakı Xan sarayları İttifaqın ixtiyarına verilmişdir. İşbu günlərdə bir cəbə [qutu, ianə qutusu] günü təyin ediləcəkdir.

Üçüncü Ali-ibtidai məktəbi müəlliminindən [müəllimlərindən] rəssam Kelxis cənablarının fəaliyyəti sayəsində həman məktəbin 3-cü sinfi şagirdanı [şagirdləri] bütün yayı sarayda çalışaraq nizam və qaydaya salmaqla bir müzəxana [muzey] tərtib edəcəklərdir.

**Amiral Norrisin etirazı**

Bəhri-Xəzərdəki donanma komandanı İngiltərə bəhri ərkani-hərb idarəsinə [donanma qərargahına] müraciətən, ticarət donanmasının başqaları ixtiyarına verilməsinə qarşı ciddi surətdə etirazda bulunmuşdur.

**Dağıstan xadimlərinin vürudu [gəlişi]**

Denikin ordusu Dağıstana daxil olduğundan irticai qüvvələr baş qaldırıb hürriyyətpərvər şəxslərin haqqında böyük fənalıqlar yapırlar. Buna görə də bir çox Dağıstan xadimləri oradan çıxmağa məcbur olaraq və bir neçəsi bu günlərdə Bakıya gəlmişlərdir. Gələnlər cümləsində Dağıstan Parlaman rəisi-sabiqi məşhur professor Rəşid xan Qaplanov dəxi vardır.

- Dağıstandan gələnlərin dediyinə görə, Petrovsk və Dərbənd şəhərlərində Könüllü ordu tərəfindən ümum demokratik təşkilatı [bütün demokratik təşkilatlar] təqib edilməkdədir. Demokratiya nəfinə [xeyrinə] işləyənlər axtarılmaqdadırlar. Bir çox qaba və fəna hərəkata dəxi yol verilir.

**FƏHLƏ HƏYATI**

Tağıyev fabrikasında komitə adı ilə 5-10 nəfər yığılmışdır ki, əsla vəzifələrini bilməyir və fəhlə xeyrinə çalışmayırlar. Biz onlara deməliyiz ki, bəsdir, gedin öz işinizin dalınca, çünki siz ancaq fabrikada olan fəhlənin əhvalını fənalaşdırırsınız. Ləyaqətli və sadiq fəhlələrə yer veriniz. Füqərayi-kasibənin adını ləkələməyiniz. Üç min fəhlənin arxasında siz özünüz üçün xoş güzəran düzəldirsiniz, həmin bu minlərcə fəhlələr sizə qazanc mənbəyidirlər. Bu minlərcə fəhlələr sizə imkan verirlər ki, müftəxorluğa məşğul olub fabrika komitəsi üzvünün ali və möhtərəm adını daşıyasınız. Fabrika zəhmətkeşlərinin etibarından istifadə edib fəhlələrə nə verdiniz? Siz ki, bir iş görəmməyirsiniz, başqalarını da işləməyə qoymayırsınız. Az bir miqdarda olan idraklı fəhlə də sizin müqabilinizdə işləməkdən acizdir, zira bu "komitə"çilərin firqəsi xeyli qüvvətlidir. Komitə seçkisi





günləri yaddadır. Bir çox vədlər: Burada fabrika fəhlə klubu, kitabxana, mühazirə (leksiya), gecə kursları, aşbazxana, teatr, xülasə behişt olacaqdır. Ancaq bizi seçiniz sonra biz bütün varlığımızla düzəldərik...

Nəticədə isə heç bir şey yox!

Doğrudur, biz fabrika teatrosu binasını öz ixtiyarımıza aldıq. Bu teatro binasında da Tağıyev sinematoqraf göstərəni bu münasibətlə qovdu. Sinematoqraf göstərən hər bir tamaşa üçün fəhlələrdən manat yarım alırdı.

Biz nə aldıq?

Komitə klubda bir rəqs salonu düzəltdi ki, burada aşkara bir surətdə içki satılır, sərxoşlar rəqs edirlər, cürbəcür burada romanlar və faciələr oynanır. Az ittifaq düşür ki, rəqs gecələri ixtilaf, bıçaq çəkmə və atışma olmasın. Müsamirəyə gələnlərdən əlbəttə ki, pul alınır. Komitə müftə yerə zəhmət çəkmir. Bəzən sinematoqraf işləyir, əlbəttə ki, keçənlərdən iki qat artıq para alınır, bilet də verilmir, ancaq pulunu ver gir içəri.

Təftiş Komitəsi klubu və Həmkarlar İttifaqını təftiş etmək üçün 2 ay yarım komitə qarşısında yalvar-yaxardan sonra heç bir şeyə nail olmayıb əl çəkdi, indi də istefa verməyə hazırlaşır. Yoldaşlar ha təkid edirlər ki, təftiş et, təftiş et, amma nə cür təftiş edilsin? Həmkarlar İttifaqının kassasında böyük pullar var, 15 min və ya 25 mindir, bunu da Təftiş Komitəsi bilir. Hələ deyirlər ki, klubun bir neçə min manat borcu vardır. Ola bilər ki, bunu acıqdan deyirlər ki, komissiyanı ləkələsinlər.

Bizim yanımıza gələn yoldaşımız fabrika fəhlələrinin bu halda olduğunu görüb, fəhlələrə burada fəhlə klubu vücuda gətirmək fikrini söylədi. Bina, əşya və yaxşı dekorasiya klub üçün hazırdır. Bu cür klub açmağa mümaniət [maneçilik] yoxdur, lakin bu təşəbbüsatdan nə çıxdı?

Minlərcə fəhləyə aşkara surətdə rişxənd edən 5-10 adamın qazanc mənbəyi oldu. Fabrikada yaxşı həvəskar artist dəstəsi vardır. Bu dəstə bir deyil, bəlkə ikidir – biri müsəlman, digəri rus. Lakin klub bundan ötrü açılmamışdır. Həvəskarlar əvvəlcədən bunu bilib, yenə də komissiyanı narahat etdilər. Komissiya həvəskarların xahişini rədd etdi. O vaxt həvəskarlar dəstəsi öz cibindən bir gecə üçün teatro binasına 300 manat kirayə təklif etdi, lakin komissiya "rüşvət" yeyən olmadı. Odur ki, həvəskarlar Çornıqoroda gedib orada olanlar üçün teatro oynayırlar.

Kitabxanada minlərcə qiymətli kitablar toz-torpaq içində bir ziri-zəmində [zirzəmidə] tökülüb qalıb, tədriclə də oğurlanmaqdadır. Doğrudur, ziri-zəmin qıfıllıdır, lakin ora yol tapanlar vardır ki, gözəl əsərlər oğurlanmaqdadır. Bu barədə komitə sizə bir cavab verə bilməz.

Bir də kitab onların nəyinə gərəkdir? Allah eyləməsin, fəhlənin əlinə kitab düşsün. Yenə də bir üsyan-filan qalxar.

Bunların barəsində çox söz demək olardı, lakin bu sözlər "çün girdəkan bər günbəd əst". Onlara heç bir şey əsər etməz, buna biz inanmışıq. Bunlar pristav tərəfindən tutulanda pristavın ayağı altında qurban kəsdilər. Sizlər səhvən tutulmuşdunuz. Bir də siz kimə lazımsınız? Amma siz qoyun qurban etdiniz. Həmkarlar İttifaqından bir yoldaş gəldi, qoyun kəsdiniz amma həbs edilən yol-

daşınızı başına buraxdınız ki, qoy özgə işinə qarışmasın. Üçüncü qoyunu ondan ötrü qurban etməyəcəyik. Yeri gəlmişkən, fəhlə yoldaşlarınıza deyərsiniz ki, bu qoyunların pulunu haradan almışsınız? Həmkarlar İttifaqının pulundan yainki Əhmədlilərin və ya Çornı-qorodluların adına saxta çeklərlə alınan bez pullarından? Ələlümum [ümumiyyətlə], axır vaxt fəhlələr sizin fəaliyyətinizi xeyli maraqla təqib ediblər.

Vaxt deyilmi fəhlə yoldaşlara müfəssəl hesab verəsiniz? Bir qədər mərhəmətli olun, vəilla [yoxsa] sizi məcbur edərlər.

* İşbu may ayının 31-də Nobel qardaşlarının firmasında olan ümum müsəlman əmələlərinin mitinqində böylə qətnamə olundu: Keçən tətil münasibətilə iqtisadi tələbatımızın qəbul olmağını hökumət qəzetə vasitəsilə dəröhdə edərək [öhdəsinə alaraq] tezliklə əncam tapmasın[ı] bəyan buyurmuşlardı. Fəqət cavan hökumətimizin işbu vədəsindən bir xəbər gətirmək üçün öz komissiyamıza rücu [müraciət] edərək hökumət dairələrindən bizə bir xəbər gətirməsi tələb edildi.

## AZƏRBAYCANDA

### Şamaxı-Kürdəmir yolunda

Şamaxı posta və teleqraf müdiri Bakı qubernatoruna məlum etmişdir ki, Şamaxı-Kürdəmir posta yolu xarab olmuş, oradan Ağsuya gedən yol dəxi dağılmışdır. Posta işlərinin təxirə uğramaması üçün tezliklə məzkur [deyilən] yolların təmir edilməsini müdir qubernatordan rica etmişdir.

### Salyan-Biləsuvar teleqraf xətti

Nahiyə posta və teleqraf müdiri Bakı qubernatoruna məlum etmişdir ki, Salyandan Biləsuvara çəkilmiş olan teleqraf xətti yerli əhali tərəfindən qırılıb və şalbanlar qarət edilməkdədir. Böylə hərəkatın önünü almaqdan ötrü ciddi tədbirlər ittixaz edilməsi [tədbirlər görülməsi] qubernatordan rica olunur.

### Tərtərdə

Tərtər dairəsində yaşayan bir çox müsəlman kəndləri əhalisi Türk Ədəmi-Mərkəziyyət “Müsavat” firqəsi Bakı komitəsinə müraciətən, məzkur [deyilən] dairədəki hökumət nümayəndələri və məmurlardan şikayət etmişlərdir. Əhalinin dediyinə görə, məmurlar onlara nəhayət dərəcədə zülüm və əziyyət göstərib, olmazın cəfaları onların haqqında rəva görürlər. Buna binaən [buna görə], əhali tezliklə böylə xainanə hərəkatın önü alınmasını acizanə rica edir.

### Abbaszadə Mirzə Abbasın yubileyi

Bu mayısın 23-də Türk Müəllimləri İttifaqının hümməti ilə gəncəli Mirzə Abbas Abbaszadənin 25 illik yubileyi tərtib edilmişdi. Söyləndiyinə görə, Gəncənin gözü indiyə qədər böylə şən və mükəmməl bir yubiley görməmişdir. Yubiley sahibinin bizcə olan qiyməti və o günün şənliyi həqiqətən biri-birinə uyğun çıxdı.

Cümə günü saat 12-də Gəncədə bulunan bütün siyasi firqələrin, ittifaqların, cəmiyyətlərin və Qazax Müəllimlər İttifaqının nümayəndələri Gəncə Yay Klubunda hazır oldular. Saat 12-də [Əsgər] Poladzadə tərəfindən yubiley açıldı. Birinci dəfə Axundzadə Cavad tərəfindən Mirzə Abbasın tərcümeyi-halı söyləndi. Bu tərcümeyi-halda əzcümlə bu da məlum oldu ki, Mirzə Abbas cənabları 1917-ci ildə məşhur camaat xadimi Ömər Faiq [Nemanzadə] əfəndinin və Azğur əhalisinin ricası üzərinə oraya gedib, orada əvvəlcə müəllim kursuna müdir olur. Əhali bunun əlifba tədrisindəki bacarığını təqdir edib məktəb açmasını xahiş edir. Bir çox isrardan sonra Abbas əfəndi orada qalıb biri oğlan, biri qız məktəbi olmaq üzrə iki məktəb açır.

1918-də türk ordusunun ricəti [geri çəkilməsi] münasibəti ilə orada qalammayıb, ailəsi ilə bərabər yurdu bulunan Gəncəyə gəlir. Həman tarixdən Maarif Nəzarəti tərəfindən Gəncə qız edadisinə türkcə müəllimi təyin edilir. Bu gün də həman məktəbdə müəllimdir.

“Birinci kitab”dan başqa Mirzə Abbasın “Məşq məcmuəsi”, “Qiraəti-farisi”, “Arvad ağısı” kimi əsərləri də vardır. Mirzə Abbasın əlifba tədrisində aramızda eşi yoxdur. Habelə onun “Birinci kitab”ı türk dünyasının birinci əlifbasıdır. Əlifba aşiqi bulunan bu müəllim 25 ilini yaşadı. Bu yaşamaqla o sənətini və millətini sevdi. Həmd olsun, millət bu gün onu təqdir edir!

İkinci olaraq kürsiyi-xitabətə Əhmədzadə Məhəmmədəli çıxır. Rusca olaraq məzkurun [haqqında danışılan şəxsin] tərcümeyi-halını söyləyir. Rusca tərcümeyi-hal söyləndiyi vaxt əvvəlcə Mirzə Abbası evindən gətirməyə təyin edilən dörd müəllim – Bağırzadə Həsən bəy, Axundzadə İdris, Əsgərzadə Mirzə Cəfər ilə Həsənzadə Abdulla əfəndi, avtomobillə Mirzə Abbası evindən yubiley ziyafətinə gətirirlər.

Klubun qapısında alqışlarla qarşılanan Mirzə Abbas kəndinə məxsus yerə qədər yoldaşlarının umuzunda gedir və oturur. Bundan sonra İttifaqın sədri Axundzadə İdris tərəfindən müxtəlif yerlərdən gələn təbrik teleqrafları oxunur:

1) Parlaman Heyəti-rəyasəsi tərəfindən sədr doktor Həsən bəy Ağayevin;

2) Heyəti-vükəla rəisi [Baş nazir] Yusifbəyli Nəsib bəy əfəndinin;

3) Bakı Türk Müəllimləri İttifaqının;

4) Şəki Türk Müəllimləri İttifaqının;

5) Ərəş Türk Müəllimləri İttifaqının və sairənin teleqrafları oxunub alqışlanır.

Bundan sonra Parlaman üzvü möhtərəm Arşaq İvanoviç Malxazov tərəfindən rusca gözəl bir nitq söylənib, Parlaman tərəfindən Mirzə Abbas və Müəllimlər İttifaqını təbrik edir.

Bundan sonra Hərbiyyə naziri müavini general Əli paşa, Bələdiyyə rəisi qubernator Xudadad bəy Rəfibəyli, Qazax Müəllimlər İttifaqı nümayəndəsi söz söyləyib alqışlanır.

Bütün nitqlərin fasiləsində müzika çalır. “Müsavat” firqəsi nümayəndəsi Mirzə Abbası təbrik edib Şəmsəddin Sami bəyin “Qamusül-ə’lam”ını hədiyyə edir. Burasını da unutmayalım ki, Gəncə vilayəti Müəllimlər İttifaqı hədiyyə olaraq Əhməd Rəfiq bəyin “Böyük tarixi-ümumi”sini bağışladı. “İttihad” firqəsi Qurani-kərim ithaf etdi. Gəncə Ünas [Qadınlar] Cəmiyyəti-Xeyriyyəsi, Zükur [Kişilər] Cəmiyyəti-Xeyriyyəsi, Gəncə Mütəllimlər İttifaqı, Tələbələr İttifaqı, Məd-

rəseyi-Ruhaniyyə, tacirlər, cildsaz Tağızadə tərəfindən hədiyyələr təqdim edildi. Gəncə sənətkarları bir qızıl medal təqdim etdi. Bu mərasimdən sonra Abbas əfəndi bütün təbrik edənlərə ümumi bir cavab verdi, şiddətlə alqışlandı.

Bundan sonra bütün müsafirlər 105 kişilik [nəfərlik] süfrəyə keçdilər. Süfrə Avropa qılıqlı, islam ruhlu idi. Axşam saat 4 buçuğ[a] qədər uzanan süfrədə müxtəlif zatlar [şəxslər] tərəfindən nitqlər söyləndi.

Saat 5-də süfrə qapanıb rəsm aldırıldı. 6 buçuqda bütün qonaqlar Mirzə Abbasın əlini sıxıb təbrik etdilər, ayrıldılar. Müəllimlər tərəfindən Mirzə Abbas faytonla evinə götürüldü. Yubileydən çıxan zatlar qayət məmnun olaraq dağıldılar. Türk Müəllimləri İttifaqı bu gün həqiqətən dəyərli bir surətdə çalışdılar.

Biz də möhtərəm Mirzə Abbası bir daha təbrik etməklə bərabər sözümüzü bitirəlim.

*[Əhməd] Cavad*

## ERMƏNİSTANDA

*("Aref"dən iqtibas)*

Ermənilərin Təbriz Konfransı Düvəli-mötəlifəyə [Antanta dövlətlərinə] dübarə müraciət etmişdir. Bu təzə müraciətnamədə bütün erməni vilayətlərinin müstəqil ümumi bir Ermənistan hökuməti təşkil etməkdə olan cümlə ermənilərin arzusu kimi bəyan edilmişdir ki, Sülh Konfransı əvvəl də həmin məsələyə əhəmiyyət verdiyi kimi bu dəfə də ermənilərin əksəriyyətinin arzularını nəzərə alıb tezliklə həman arzunun qövldən feilə [sözdən əmələ] gətirilməsinə səy edəcəyinə əmin olurlar.

Müraciətnamədə artıq diqqət buna yetirilmişdir ki, Qafqaziya erməniləri hürriyyətlərini ələ gətirib Ermənistan Cümhuriyyəti təşkil etmişlərdir. Bu cümhuriyyət öz xahişi ilə bilatəxir [təxirəsalmadan] müttəfiq böyük Ermənistan hökuməti ilə birləşəcəkdir.

Əlan [hal-hazırda] Müttəfiqlər qüvası [ordusu] tərəfindən işğal edilmiş Kilikiyaya gəldikdə, burası Beynənnəhreynə və qeyri vilayətlərə sürgün edilmiş ermənilərin qalanları toplanıb iskan ediləcək bir məhəl [yer] ola bilər. Onların cümləsindən başqa o da əlavə edilmişdir ki, Türkiyə Ermənistanının bədbəxt vilayətləri indiyədək hələ azad edilməyib, əcnəbilər daireyi-nüfuzunda qalaraq müşkül bir hal üzrə yaşamaqdadırlar. Minlərcə əsir erməni qadınları və çocuqları türklərin hərəmlərində qalmışlar. "İttihad və Tərəqqi" xadimləri fəaliyyətlərində davam edib xristianlar əleyhinə (?) məhəlli [yerli] türklərin və kürdlərin arasında ədavət saçmaqdadırlar və yeni qırğınları hazırlayırlar. Buna sübut olmaq üzrə bu yaxınlarda Hələbdə ermənilərə üz verən hadisəni göstərirlər. Müraciətnamə Sülh Konfransı tərəfindən erməni məsələsinin tezliklə həll edilməsinin tövsiyəsi ilə xitam bulur.

Nyu-York qəzetəsi "Eveninq post" Şərq məsələsi xüsusunda yazdığı baş məqaləsinin cümləsində bunu da deyir ki, bir azad Fələstin və bir azad Ermənistan məsələsi Vilsonun ürəyinə çox yaxındır. Şayani-etibar məlumata nəzərən, Vilson guya demişdir ki, Fələstin və Ermənistana azadlıq verilməksizin, əqdi-sülhü [sülh müqaviləsini] imzalamaq müşarünleyhin [adı çəkilən şəxsin] meyiti üstündən adlayandan sonra mümkün olar. Fəqət ermənilərin indiki müşkül halətlərini daha da ağırlaşdırmamaq üçün hələlikdə sükuta məcbur olub, Ermənistanın azadlıq məsələsini açıqca etiraf edəmməyir.

"Çikaqo tribune" qəzetəsinin rəvayətincə, amerikalılardan mürəkkəb [ibarət] xüsusi bir cəmiyyət Ermənistan və Kilikiyanı təhti-himayəsinə [himayəsi altına] alacaqdır.





## İDARƏYƏ MƏKTUB

**Bir izah**

Müdir əfəndi! Mötəbər qəzetəniz "Azərbaycan" vasitəsilə şu bir qaç sətirlik açıq məktubumun nəşr edilməsini rica edirəm.

Çoxdan bəri möhtərəm oxucularla bərabər qəzetə idarələri dəxi bilirlər ki, əfkari-siyasiyyəmə [siyasi fikirlərimə] aid məqalələri "Azərbaycan" ilə "İstiqlal" qəzetələrində nəşr etməkdəyəm. Halbuki sosialist firqəsinin naşiri-əfkarı [fikirlərini yayan orqanı] olan "Al bayraq" qəzetəsində "Ə. Həmdi" imzası ilə "Silah başına" sərlövhəsi altında bir məqalə vardır ("Al bayraq", nömrə 15, 28 mayıs). Məqalənin havi olduğu [ehtiva etdiyi] mülahizələrə qarşı müariz deyiləm [etiraz etmirəm]. Fəqət imzamı istemal edərək [işlədərək] qəzetə idarəsinə və mühərrirliyə aid etikaya qarşı bu növ bir təamül [əməl, iş] şəklinin göstərilməsinə qarşı təəssüf edirəm. Binaənileyh [buna əsasən], "Silah başına" sərlövhəsi ilə yazılan məqalənin mövzu etibarı ilə doğru və fəqət imza cəhəti ilə yanlış olduğunu və mənim tərəfimdən "Al bayraq" qəzetəsinə əsla böylə bir məqalə yazılmadığını surəti-qətiyyədə bəyan edirəm, əfəndim.

*Ə. Həmdi [Qaraağazadə]*

**- 2 -**

Rica ediriz bizim bu bir neçə kəlmə sözümüzü qəzetənizdə yazasınız.

Ramana kəndində

Neçə aylardan bəri Balaxanı-Sabunçu polis müdiri vəzifəsini ifa edən Lütfəli bəy Əmircanov cənablarının bu günlərdə öz vəzifəsindən istefa verdiyi xəbəri bizə məlum oldu. Böylə mühüm zamanda Əmircanov kimi millət xadimi, xüsusən füqərayi-kasibə tərəfdarı olan bir zatın öz mövqeyini tərk edəcəyinə biz Ramana camaatı izharı-təəssüf ediriz və üzümüzü Əmircanov cənablarına tutub deyiriz ki, əmin olunuz, əfəndim, sizin camaat yolunda etdiyiniz xidmətlər və pədəranə [ata kimi] nəsihətlərinizi biz Ramana camaatı heç bir vaxt yaddan çıxarmayacağız.

*Ramana camaatı namından:*
*Abutalıb Rəsulzadə*

**Satılır**

Stilnoy stolovı, bakkara, yazı stolu, divan və iki kreslo. Dəllallardan gəlməmələri xahiş olunur. Adres: Vorontsovski, nömrə 26, yuxarı mərtəbə.

*10206*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

Doktor **M. M. Kərimov** göz naxoşlarını və diş həkimi **A. Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. "606" və "914" müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Elan**

Sabiqdə Tiflis şəhərinin canişin sarayında hər növ çərkəz libası tikməklə məşhur olan Balabəy hal-hazırda Bakı şəhərində Nikolayevski küçədə Seyidəhməd Əzimzadənin dükanında aşağıda adları zikr olunan formaları qəbul edir: "çerkasski kazaçi", "çerkaski imereteniski, çerkaski asetiniski", "Qarabağ çərkəzi" və hər bir formanın şubasını [kürkünü] və Malorossiyski şubalar.

Tikdiyim işlərdən müştərilərin məmnun qalmalarına əminəm.

*Kamali-ehtiramla: Balabəy*
*10204*

Batumdan xarici məmləkətlərə yun yollamağı və xarici məmləkətlərdə komisyon təriqi [yolu] ilə satmağı İ. V. Denisovun bankir kontorası qəbul edir. (Velikoknyajeski, nömrə 1).

*8799*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bununla elan edir ki, 1919-cu ildə iyun ayının 3-də səhər saat 10-da Ticarət, Sənaye və Ərzaq Nəzarətində (Olqinski caddə, sabiq "Natsional" mehmanxanası, 11 nömrəli otaq) 187 yarımtar, 186 ruminok və 300-ə qədər girvənkəlik qablarda ənvai əmtəə xülasələrinin və işlənmiş balıq qablarının müzayidəsi [hərracı] olacaqdır.

Satılacaq qablar Ərzaq Nəzarətinin anbarındadır ("Vulkan" anbarı 30-cu pristan [körpü] ilə rubəru [üzbəüz]). Qablara bayram günlərindən başqa, hər gün saat 9-dan 12-ə qədər baxmaq olar. Qablara baxmaq istəyən əşxas [şəxslər] əvvəlcə anbar müdirinə (Merkuryevski küçədə Dadaşovun evində) müraciət etməlidirlər.

Satış və ya müzayidə şifahi və ya yazılıb verilən ərizələr təriqi [yolu] ilə icra ediləcəkdir. Verilən ərizələrlə bərabər, ərizə verənlərin hüviyyətini [şəxsiyyətini] bildirəcək sənədlərlə, təklif etdiyi məbləğin rəhn [girov] təriqi ilə on (10) faizi nağd olaraq pişnihad [təqdim] edilməlidir. Şifahən müzayidəyə girmək istəyənlər isə yarımtarların cümləsinə min beş yüz (1500) manat, rumınoklara iki min (2000) manat və xülasələrin cümləsinə isə üç min (3000) manat verməlidirlər. Qalan məbləğlər pişnihad və ya təqdim edilən rəhndən əlavə, müzayidənin təsdiqindən sonra üç günün ərzində verilməlidir.

Əks surətdə rəhn təriqi ilə verilən məbləğlər xəzinənin mənfəətinə daxil olur.

Müzayidələri Ticarət, Sənaye və Ərzaq naziri təsdiq edir.

Lazımi məlumat və bəyanatı bayram günündən başqa hər gün səhər saat 10-dan 2-yə qədər Nəzarətdə (12-ci otaq) almaq müm-kündür.

*İmza etdi: Nazir naminə müavini:*
*Y[usifəli] Əliyev*
*T-142*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Qismi-rəsmi**

səh. 27. "yövmüşşək": "şəkk günü"; qəməri təqvimdə şaban ayının 29-undan sonrakı günə yövmüşşək deyilir; çünkü bu günün şaban ayının son günümü, yoxsa ramazan ayının ilk günümü olduğu barədə şübhə yarana bilər.

səh. 28. "cameül-kəlam": "kəlamlar toplusu" mənasına gələn bu ifadə "Quran"ın adlarından biridir.

**Şimalımızın halı**

səh. 29. "müxtəlif kiçik millətlərdən təşəkkül etməsində": qəzetdə "təşəkkül" yerinə "təşkil" getmişdir.

**Teleqraf xəbərləri**

səh. 30. "barkas": kiçik ölçülü gəmi.

"Libava": Latviyanın cənub-qərbində, indiki Liepaya şəhəri.

**Sülh ətrafında**

səh. 31. "Avanti!" [Avanti!]: (İrəli!) 1896-cı ildən etibarən İtaliyada (Roma və Milanda) nəşr edilən qəzet; İtaliya sosialistlərinin orqanı.

"iyirmi beş xüsusi dəstələr": başqa mənbədə: "hər biri iyirmi nəfərlik xüsusi dəstələr".

"Peti Parizyen" [Le Petit Parisien]: Parisdə 1876-1944-cü illərdə nəşr edilən gündəlik fransız qəzeti.

**Vilsonun nitqi**

səh. 32. "müəyyən, lakin": bu sözlər qəzetdə təhrif edilmişdir.

səh. 33. "təbii müdafeindən": qəzetdə belə getmişdir: "təbii mənafeyindən".

səh. 34. "Yevropadan ötrü təzə bir şey olmayan": qəzetdə "ötrü" yerinə "ayrı" getmişdir.

**Əfqanıstanda**

səh. 34. "Kuşka: Türkmənistanın cənubunda, indiki Sərhədabad şəhəri."

səh. 35. "əfqan qəbilələri bu işlərdə iştirak etməmişlərdir": qəzetdə "etməmişlərdir" yerinə "etmişlərdir" getmişdir.

**İran işləri**

səh. 35. "Bəxtiyar xanları": söhbət, İranda Çahar-Mahal və Bəxtiyari, Xuzistan, Luristan, İsfahan ostanlarında yaşayan etnik qrup olan Bəxtiyarilərdən gedir.

"Bəxtiyarlar tərəfindən": belə başa düşülməlidir: "İsfahan əyalətinin Bəxtiyariləri tərəfindən".

**Milliləşdirmək məsələsi**

səh. 36. "Uşaq gözlüyü": Abdulla Şaiqin ilk dəfə 1915-ci ildə çap edilən dərsliyi.

"məftuh": ərəb qrafikasında, hərfin üstündə qısa "ə" səsini ifadə etmək üçün qoyulmuş fəthə işarəsi daşıyan; "məftuh hərf": özündən sonra "ə" saiti gələn samit.

"Birinci kitab": Mirzə Abbas Abbaszadənin müəllifi olduğu "Mübtədelər üçün Birinci kitab: Əlifba" adlı dərslik nəzərdə tutulur.

"yaxın bir səslə oxunması": qəzetdə "oxunması" yerinə "oxunmuş" getmişdir.

səh. 37. "Halbuki Osmanlı türkləri 'fahm'ı 'fəhm'i isə oxuduqlarından, bu xətaya düşməzlər.": Güman ki, bu cümlə belə olmalıdır: "Halbuki Osmanlı türkləri 'fahm'ı 'fahm', 'fəhmi'i isə 'fəhm' oxuduqlarından, bu xətaya düşməzlər."

**Bayram ətrafında**

səh. 41. "Heyəti-vükəla rəisi Xatisov": qəzetdə belə getmişdir: "Rəisi-vükəla rəisi Xatisov".

**Bakı xəbərləri**

səh. 42. "Krasnokrestovski": Bakıda, indiki Şeyx Şamil küçəsi.

"Moloçnı": süd və süd məhsullarının satıldığı, dükan və kafe kimi xidmət göstərən müəssisə.

**Fəhlə həyatı**

səh. 45. "çün girdəkan bər günbəd əst": "günbəzin üstündə qozu saxlamaq kimidir"; bir işin mümkünsüzlüyünü, çətinliyini ifadə etmək üçün işlədilən farsca məsəl.

**Azərbaycanda**

səh. 47. "Azğur": Gürcüstanın cənubunda Axıska türklərinin yaşadığı kəndlərdən olmuşdur.

"yubiley ziyafətinə gətirirlər": qəzetdə "gətirirlər" yerinə "gətirilir" getmişdir.

"Hərbiyyə naziri müavini general Əli paşa": general Əliağa Şıxlinski nəzərdə tutulur.

"Qamusül-ə'lam": Türk yazıçısı və alimi Şəmsəddin Saminin hazırladığı bioqrafiya, tarix və coğrafiya ensiklopediyası.

"Böyük tarixi-ümumi": Türk tarixçisi Əhməd Rəfiq Altınayın əsəri.

**Ermənistanda**

səh. 49. "Çikaqo tribune" [Chicago Tribune]: əsası 1847-ci ildə qoyulmuş amerikan qəzeti.

**Satılır**

səh. 49. "bakkara": billur qab növü.





**Çərşənbə axşamı, 3 iyun 1919-cu il, nömrə 194**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 4 ramazanül-mübarək sənə 1337. 3 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## FATƏBİRU YA ULİL-ƏBSAR LƏALLƏKÜM TUFLİHUNƏ

"Azərbaycan" qəzetəsinin 189-cu nömrəsində oxudum ki, müsəlman dükançıları "Müsavat" firqəsinə izhar etmişlər ki, həftədə bir gün də olsa onlara əsgərlik məşqi verilsin. "Müsavat" firqəsi isə onların xahişlərini Bakıdakı qoşun komandanına yetirmiş və komandan dəxi tacirlərin bu gunə [bu cür] hümmətlərini şayani-təhsin [alqışa layiq] bilib bu barədə o[n]lara müsaidət göstərmişdir [icazə vermişdir].

Həqiqətən, tacirlərimizin bu gunə hümmət və qeyrətləri məni fövqəladə məsrur [şad] və gələcəkdə islam əhlinin nicat tapmalarına artıq ümidvar edir. Bununla belə, yenə də öz tərəfimdən lazım bilirəm müsəlman tacirlərinə izhar qılam ki, qardaşlar, sizin əsgər nizamı təlim almağa bu dərəcədə rəğbətiniz və hüsn-niyyətiniz şübhəsiz fəraizi-diniyyədəndir [dinin fərzlərindən, əmrlərindəndir]. Siz bu növ hazırlaşmaqla həm mal və canınızı və həm irz və namusunuzu və həm də dininizi mühafizə edəcəksiniz və mahəza [bununla birgə], Allahtaala yanında sizlərdən ötrü təqrirə [sözlə deməyə] və bəyana gəlməyən əcri-cəzil mühəyyadır [bol mükafat hazırdır]. "Və zəlikə hüvəl-fevzül-əzim."

Amma növbənöv hiylə və bəhanələrlə özlərini və övladlarını əsgərlikdən qaçıranlar və naz və nemətdə pərvəriş tapan [bəslənən] tacirlər guya ki, böylə müqəddəs və mühüm olan vacibati-diniyyədən [dinin vacib gördüyü işlərdən] özlərini müaf [bağışlanmış] hesab edir və guya ki, ayeyi-kərimə: "Xətəmə Allahu əla-qülubihim və əla-səm'ihim və əla-əbsarihim qişavətun vələhüm əzabun əzim." (Allahtaala onların qəlblərinə möhür vurubdur – anlamayırlar və qulaqlarına möhür vurubdur – haqq sözü eşitməyirlər və gözlərinin üstə böyük pərdə vardır – gördükləri şeylərdən ibrətbərdar [ibrət alan] olmayırlar. Axirətdə isə o[n]lar üçün böyük əzabdır.) bunların haqqında nazil olmuşdur. Zira bu tövr tacirlərin nə vicdanları var və nə eşidən qulaqları, görən gözləri var. İştə bunlara deməliyiz, qardaşlar, gözünüzü açıb aləmə baxın, qulaq verib eşidin, qəzetə alıb oxuyun və sonra zaiqəyə tapşırın [nəfsinizdən, özözünüzdən soruşun] ki, aya, hökumətin əsgəri olmadıqda, cəm etdiyiniz mallarınız əllərinizdə qalacaqmı? Ehtiram və abru [abır-həya] ilə yaşamağa imkanınız ola-

caqmı? Başımızda növbənöv fəlakət yoxmu? İştə, ondan betərinə, həm Allah göstərməsin, min qat betərinə giriftar olacağız.

Ey müsəlmanlar! Siz mərd və namuskar adamlarsınız. Siz əcnəbilərə fənalıq yapmaqdan, təcavüz etməkdən qətiyyən uzaqsınız. Buna təbiətiniz müsaid deyildir. Lakin:

*Dani ki çe qoft Zal ba Rostəme qord*
*Doşmən nətavan həqire biçare şomord*

Bundan sonra ciddiyyətlə çalışınız, sənayedə, ticarətdə, ziraətdə [əkinçilikdə] tərəqqi etməyə qeyrət ediniz. Sədaqəti, əmanəti, dəyanəti, vətənə məhəbbəti və şiddətli vaxtlarda sabitqədəm olmağı özlərinizə şüar qılınız və hamılıqla hökuməti və vətəni mühafizə etməkdə hümmət ediniz. Çünki əxzi-əsgər [hərbi çağırış] qanununda əsgər olmaq üçün sinnü həddi-müəyyən [müəyyən bir yaş və hədd] varsa da, şəriət nöqteyi-nəzərincə böylə xətərnak [təhlükəli] vaxtlarda ümum müsəlmanlar dava məşqi alıb hökumətin əmrlərinə can və dil ilə qulaq asmalıdırlar.

*Aşiqan can bə-kəf və müntəziri-fərmanənd*

Ta ki ətrafdan vilayətimizə düşmənlər hücumavər olanda onların təcavüzlərini dəf etmək mümkün olub irz və namusumuz salamat qalsın.

Və bu yolda nəinki fəqət tacirlər, bəlkə tüllabi-ülumi-diniyyə [dini elmləri öyrənən tələbələr] də və hətta yüzlərcə əmələyi-müini [köməkçi işçisi] olan bəylər, mollalar da əsgər məşqi almağa iqdam [təşəbbüs] etməlidirlər.

*Milləti-bəxtiyar yekdil olar,*
*Çünki amala öylə nail olar.*

*Şeyxülislam Axund Ağa Ağaəlizadə*

**HAZIR OL!**

Oh, nə gözəl fikir:

**"Millətim növ'i-bəşərdir, vətənim ruyi-zəmin."**

Bundan daha həqiqi bir iman, daha ülvi bir əməl [arzu], daha ilahi bir qayə və məqsəd olarmı əcəba?

Bütün insanlar qardaş, bütün dünya üzü bir vətən!

*"Demə bu rus, bu müsəlmandır,*
*Hər kəsin elmi var – o insandır."*

Türk, alman, bolqar, venqer [macar], rus nə; ingilis, fransız, rum, erməni, gürcü nə?

Həpsi həzrəti-Adəm övladı, həpsi kürreyi-ərz sakini!

Həpsi insan, həpsi qardaş deyilmi?

Nədir bu qarındaşları, bu arxadaşları bir-birindən ayıran əngəllər?

– Milliyyət, sərhədmi?

Məgər milliyyət və sərhəd insanlardan daha müqəddəm [vacib, qabaq], insanlıqdan daha ucamı? Məgər ilk insanların, qardaşların bir neçə dövr bir-birlərindən uzaq düşmələri, ayrı yaşamaları və bu səbəblə dil, adət, qiyafə, imanca ayrılmaları və başqa-başqa adlanmaları əsillərini, qardaşlıqlarını itirirmi?

Əlbəttə ki, yox!

Yoxsa, qardaşlığa yaraşmayan ortadakı bu canavarlıq, bu yırtıcılıq, bu heyvanlıq, bu qəhr və zülümlər nə?

Bunlara səbəb:

Aradaki cəhl və anlamamazlıqmı?

Deyəlim ki, bu, cahillər üçün doğru!

O halda, alimlər üçün, ingilislər, amerikalılar, fransızlar, almanlar... üçün nə deyəlim?

İyirminci əsrdə, ülum və fününun





[elmlərin və fənnlərin], fəlsəfeyi-əxlaqın, fəziləti-insaniyyənin, şeir və bədayenin [incəsənətin], hissiyyati-rəqiqənin [incə duyğuların] bu dərəcə tərəqqi etdiyi bir zamanda bu beş illik vəhşiliyə, bu cahan qırğınına, bu ümumi qətliama, bu heyvani azğınlığa, bu azğın yırtıcılığa nə məna verəlim?

Məgər bir aileyi-bəşər [bəşəriyyət ailəsi] övladı, bir vətən yavruları, daha artıq qapmaq, zəhrimarlanmaq, dövlətlənmək üçün bir-birlərini bu dərəcə pəncələr, boğazlar, parçalarmı?

Sevinirdik ki, bu qədər bəlalı bir fəlakətdən, bu qədər qanlı bir inqilabdan böyük bir dərsi-ibrət alarız. Alarız da, gələcək üçün qiymətli bir **kitabi-ədalət** hazırlarız.

İnsanlığı heyvanlığa, dərəkeyi-məzəllətə [zəlillik çuxuruna] doğru sürükləyən alçaq hiss və cərəyandan qurtulub, mərtəbeyi-fəzilətə, kamalati-insaniyyəyə tərəf ucalarız. Düşünürdük ki, Karl Marksın qəvanini-şər'iyyəsi [halal, ədalətli qanunları] Leninin ictihadi-alimanə və fətavayimətini [alimlərə yaraşan yozumları və sarsılmaz hökmləri] ilə bir dövreyi-itizal [ayrı, digərlərindən fərqlənən bir dövr] açıb, Darvinin kəşfiyyati-fənniyyəsini, yaşayan yaşayanı əzərək, yeyərək yaşar tərzindəki fəlsəfeyi-pəstini [alçaq fəlsəfəsini] mövqeyi-hakimiyyətindən bir az da olsa düşürər.

İnanmaq istəyirdik ki, bu beş illik hərc-mərclik, bu milyonlarca qurbanların, bu böyük inqilabın Vilson dili ilə ortaya çıxardığı "təyini-müqəddərat" haqqı, bundan sonra zəif millətlərin haqqi-insaniləri, haqqi-məşruları [qanuni hüquqları] bir həqiqət, bir düsturi-idarə və siyasət olaraq tanılar.

Ümidvar idik ki, əski çürük üsuli-idarə və şər'iyyə [idari və hüquq sistemi] dəyişdirilib, aradaki müsavatsızlığı, ədalətsizliyi qaldıracaq bir şər'i-həqiqət [həqiqət şəriəti, həqiqət dini], bir təriqi-səadət [səadət təriqəti, səadət yolu] bulunacaq və bu sayədə zəhmətkeş xalq, köhnə haqsızlıqların, zülüm və cəfaların, sərvət və əcrliyin [muzdun, əmək haqqının, əvəzin] təsiri-təxribkaranəsindən [dağıdıcı təsirindən] qurtulub bir az nəfəs alacaq.

Lakin, heyhat!

Cərəyani-əhval [hadisələrin gedişi] bizə bunların, bu ali fikirlərin, bu insani əməllərin [arzuların], yenə bir fikir və əməl [arzu] olaraq qaldığını göstərir.

Əvət, ən insaniyyətpərvər, ən ülvi və elmi nəzəriyyat və fərziyyələrin daireyi-təsəvvürdən hənuz uzaqlaşmadığını, əski ənənati-ictimaiyyənin [ictimai ənənələrin] qolaylıqla sarsılıb sıyrılammadığını bildirir.

**"Yaşayan yaşayanı əzərək, yeyərək yaşar"** fikri-səqimini [yanlış fikrini] meydana çıxaran adati-vəhşiyyə və xəvassi-heyvaniyyə [vəhşi adətlər və heyvani xüsusiyyətlər] isə hələ daxili-mədəniyyətimizdə [mədəniyyətimizin daxilində], hərəmxaneyi-ürfanımızda gizlənib, oğurluq, şərirlik [pislik] eyləyir. Hüdudi-ədliyyəmizdən dişarı sürünməyir [Ədalətimizin sərhədlərindən kənara atılmır.] Min illərdən bəri başqa-başqa dil və çeşidlərlə, lakin həpsi də bir məzmunda söylənən:

**"Bəni-Adəm əzayi-yek-digərənd"**

fikri-ülvisi yalnız gözəl bir cümleyi-hikəmiyyə [hikmətli cümlə] olaraq işlənir, yalnız zəif qəlblilərə qarşı xoş bir təsəlli olmaq üzrə söylənib durur.

Qövldən feilə [sözdən əmələ], xəyaldan həqiqətə çətin keçilir.

Əvət, çətin keçilir. Çünki, keçiləcək yollar şimdiyə qədər haqqı ilə təyin edilməmiş, gedənlər həp yanlış yollarla, əyri-büyrü cığırlarla getmişlər. Elm və fənnə, qəvanini-ictimaiyyəyə istinad etməyən əsaslarla hüsuli-məqsədə çalışmışlar. Hələ ən çoxu quru və'z [moizə] və nəsihəti, rifq [yumuşaqlıq] və mülayiməti, vasitəyi-mənəviyyəni yeganə çarə və əlac zənn etmişlər.

Şükür, çox şükür ki, son vaxtın üləmayi-ictimaisi [ictimai sahələrin alimləri] o sehirli yolun tilsimini bulmuşlar:

**"Hazır ol cəngə əgər istər isən sülhü səlah"**

Şimdi hər kəs, istər mütəəssib [təəssübkeş, konservativ] millətçi, Əhrar, istərsə menşevik və bolşevik olsun, kəndi düşüncə, proqram və yollarıyla müarizlərinin [rəqiblərinin, düşmənlərinin] cənginə hazır olurlar. Və bu surətlə sülhü səlahı mühafizə və davam etdirmək istəyirlər.

Bu hazırlıq isə mütləq tüfənk və topla deyil. Hazırlıq mütləq qan tökmək üçün deyil, bəlkə qan tökdürməmək üçün bir vasitədir. Lakin bu, hər kəs üçün, hər iş və zaman üçün bir deyil. Hazırlıq sinif və məqsədə, zaman və ehtiyaca, müariz və düşmənin hal, məqsəd və vəziyyətinə görə ayrılır.

Zamanımız hələ böhran və qələyan [qaynama, qeyri-sabitlik] içində; bu gün hamı – kiçik və böyük millətlərin hamısı, sinif və cəmiyyətlərin, heyət və təşkilatın hamısı sülhü səlahı pozacaq və ya sülh[ü] səlahın hüsuluna [əldə edilməsinə] mane olacaq bütün qüvvətlərə qarşı hazırlaşırlar.

Azərbaycanımız isə bu gün hər yandan ziyadə sülhü səlaha möhtac.

Lakin bizi rahat və asayişdə qoymaq istəməyirlər. Hər tərəfdən ətrafımızı sarırlar.

Qafqazda əksəriyyəti-məhəlliyyəni [yerli əksəriyyəti] təşkil edən türk yerləri birər-birər əlimizdən çıxır: yekə, üç yüz minlik Qars oblastı getdi, Naxçıvan, Sürməli və Şəruru qeyb etdik.

Cənub islam məmləkətləri ilə rabitəmiz kəsildi. Filan və filan yerlərimizə hələ tamamilə sahib ola bilməyiriz.

İştə, böylə qızdırmalı və xəstə bir vaxtda bütün mövcudiyyətimizə zərbə endirmək istəyən Denikin qüvvəti yuxarıdan və şimaldan üstümüzə çökür. Vətənimizdə sülhü səlah deyil, vətənimizin özü təhlükəyə düşür.

Buna görə "cəng"ə adi surətlə deyil, bütün mövcudiyyətimizlə hazırlaşmalıyız. Həm top və tüfənk və xəncərlərlə hazırlaşmalıyız.

Ey azərbaycanlı! Yaxşı bil ki, üstünə gələn, yırtıcı ayılardan daha yırtıcıdır. Vəhşilərdən daha vəhşidir. Ən qəhhar [qəhr edici, çox güclü] xunrizlərdən [qan tökənlərdən] daha xunrizdir.

Ey azərbaycanlı, ey türk! Eyi bil ki, sən zəif olduqca, hər yandan olursa-olsun, üstünə hücum mühəqqəqdir [qaçılmazdır].

Ey türk! Gözün[ü] aç ki, əlindəki nemət-istiqlalı [azadlıq nemətini] qapmaq istəyirlər.

Ey Azərbaycan! Ey hər kəsin gözü düşən nazənin vətən! Yatma, yatma ki, birdən-birə "ürəyin" üstünə çökmək, hərarəti-həyatiyyəni [həyat hərarətini] söndürməyə qəsd edirlər.

Ey cavan türk! Vətənini, onunla bərabər ananı, bacını, balalarını qurtarmaq üçün saqın kimsədən imdad gözləmə, saqın aldanıb kimsəyə əl uzatma! Əl uzatma ki, sənin yeganə yardımçın sənsən! Sənin yaşamaya, istiqlala olan imanındır! Sənin millətinə olan məhəbbətindir!

Ey Azərbaycanlılar, ey böyük və şanlı cahangir nəvələri! Başını bir az yuxarı qaldır. Ticarət məşğuliyyətini bir az yüngülləşdir, həmiyyət və qeyrətini göstər!

Ey kimsəsiz türk! Qorxma! Həmiyyətinə, mənəviyyatına, imanına nöqsan gətirmə! Sən kimsəsiz olduğun halda daha böyük aslansan! Tək, möhkəm və əsaslı təşkilatın güclü silahın olsun. Səndə o iman, o həmiyyət olduqca, hər zaman qalibsən!

Ey Azərbaycanlı! Təkrar-təkrar fəğan edirəm: vətənin hər yandan təhlükə içindədir. Onu təhlükədən qurtaracaq yalnız və yalnız sənin silahındır, sənin qüvvətindir. Burasını da eyi bil ki, sən özgəsini, özgə torpağını qurtarmayırsan; özünü, öz evini, öz balalarını qurtarırsan. Çünki vətən – sən, sən – vətənsən!

Ey vətəndaş! Yatma, daha yatma! Çəkəcəyin qeyrət bir-iki aylıqdır, qazanacağın nam və şərəf isə əbədidir.

Qalx, qalx! Qalx da silahına sarıl! Cəngə hazır ol!

*Ümidvar*

**TELEQRAF XƏBƏRLƏRİ**

Rostov - Şura qoşunları arasında nəzmnizam gündən-günə pozulmaqdadır. Bolşeviklərin sərəmədanı [rəhbəri] olan Trotski bir yerdə nitq söyləyərək demişdir ki, bir bölük müntəzəm qoşunla düşmənlərimiz Moskvanı işğal edə bilərlər.

Rostov - Xarkov, Çerniqov və Poltava quberniyalarında kəndçilər bolşeviklərə qarşı üsyan etmişlərdir.

Rostov - Rusiyada Könüllü ordu afiserlərinin [zabitlərinin] ailələri qanundan kənar hesab edilirlər. Deməli, qanun xaricində bolşeviklər istədiklərini edə bilərlər.

Vaşinqton - Amerika Səlibi-Əhmər [Qırmızı Xaç] Cəmiyyəti 100 min lirə pul təxsis eyləmişdir [ayırmışdır] ki, Fələstində ehtiyacda olan əhali üçün bu pula ərzaq alınsın.

Vaşinqton - 12 min nəfər yəhudi mühəndisləri, ziraətçiləri, həkim və müəllimləri Fələstinə köçmək üçün hökumətdən icazə istəyirlər.

**Yeni ərəb dövləti**

Hal-hazırda təşkil edilmiş olan yeni ərəb dövləti 622.700 mürəbbe-kilometrdən [kvadrat-kilometrdən], 2.800.000 candan ibarətdir.

Dəməşq vilayəti 95.000 mürəbbe-kilometr, 750.000 candan ibarətdir.

Hələb vilayəti 86.600 mürəbbe-kilometr, 1.000.000 candan ibarətdir.

Hicaz vilayəti 250.000 mürəbbe-kilometr, 300.000 candan ibarətdir.

Yəmən vilayəti 250.000 mürəbbe-kilometr, 750.000 candan ibarətdir.

Yeni ərəb dövlətinin başçısı Əmir Hüseyndir. Dövlət Şurasının sədri və rəsmən ərəb dövlətini idarə edən Əmir Hüseynin oğlu Faysaldır. Bu adam Sülh Konfransına nümayəndə sifəti ilə göndərilmişdi. Faysal böyük nüfuza malikdir. Mumaileyhi [adı çəkilən şəxsi] Parisə şahanə bir cəlal ilə yola salmışdılar.

Hal-hazırda ərəblər böyük bir mətbuata malikdirlər. Dəməşqdə 6 gündəlik qəzetə və 5 məcmuə nəşr edilir. Beyrutda 5 gündəlik qəzetə, bir məcmuə nəşr edilir. Hələbdə 4 gündəlik qəzetə, bir məcmuə nəşr edilir. Bu qəzetələrin məsləki millidir. Yəhudilərə artıq dərəcədə ədavət bəsləyirlər. Ali və xırda məmurlar demək olar ki, həpsi ərəblərdəndir. Xristianlar azdır, yəhudi məmurları isə 3 nəfərdən ibarətdir.

- Xüsusi mənbələrdən xəbər verilir ki, Almaniya sülh müahidənaməsinin [sazişinin] baş maddələrini qəbul eyləmişdir. Xırda məsələlər Dördlər Şurasında yenidən müzakirə ediləcəkdir.

## QƏZETƏLƏRDƏN

### Hacı-Tərxan nə haldadır?

Bir çox vaxtlardan bəri Hacı-Tərxanda [Həştərxanda] bulunmuş və bu günlərdə ailəsi ilə bərabər Hacı-Tərxandan lodka ilə qaçmış olan bir nəfər "Naşe vremya" qəzetəsi idarəsinə gəlib Hacı-Tərxan barəsində böylə məlumat vermişdir:

*– Mən, Savdepiyadan [Sovet Rusiyasından], Hacı-Tərxandan ailəm və iki nəfər digər xanımlarla bərabər lodka ilə qaçıb buraya gəlmişəm. Ah, Hacı-Tərxanda nə dəhşətlər idi ki, mən görmədim. Bir ildir orada vicdani əzab çəkirəm. Ah, Bakı kimi gözəl bir şəhərdə yaşamaq nə qədər səadətdir, nə qədər Bakı təmiz, nə qədər də gözəldir. Küçələrdə üfunət yoxdur. Mağazalar açıq, qəzetələr nəşr edilir, çörək, pendir, düyü, qənd də vardır. Hər bir şey barəsində aşkar danışmaq olar.*

Ravi [rəvayət edən, danışan şəxs] öylə bir halda idi ki, ona Bakı halları xülya kimi gəlirdi. Cındır libas ilə müləbbəs [geyinmiş] olan bu şəxsdən, "Nə üçün böylə libas geyinmişsiniz?" sual[ın]a "Hacı-Tərxan ziyalısının libası böylədir. Hərgah, mən gözəl əlbisələr geymiş olsaydım, çoxdan bəri edam edilərdim."

*– Hacı-Tərxanda satışda çörək də yoxdur. Çörək kartoçka ilə verilir. Əhali üç qismə bölünmüşdür. Birinci qisim, əmələ və siyasi adamlar, 12 yaşında uşaqlar, 60 yaşından yuxarı qocalar, gündə bir girvənkə çörək alırlar. 2-ci qisimə sovet qulluqçuları, onların ailələri, işsiz əmələlər, bunlar yarım girvənkə çörək alırlar. 3-cü qisimə isə sair əhali daxildir. Bunlar gündə bir çetver çörək alırlar.*

*Sair ərzağa gəldikdə, vobl və selyodkadan [külmə və siyənək balıqlarından] başqa heç bir şey yoxdur. Şəhərdə heç bir ticarət yox, hər kəs ticarət edirsə, edam edilir. Şəhərdə ət də yoxdur. Hərgah, hərdən bir qaçaqmal kimi olarsa, girvənkəsi 30 manatdan satılır. Un da böylədir. Putu 1500-dən 2000 manatadəkdir. Qara çörəyin girvənkəsi 25 rublədir. Ayda bir dəfə bir çetver semiçka yağı verilir. Qəndin girvənkəsi 240 manat, kişmiş girvənkəsi 100 manat, tənbəkinin girvənkəsi 500 manatdan 800 manatadəkdir.*

*Şəhərdə üfunət, murdarçılıq həddini aşmışdır. Evlər milliləşdikdən sonra şəhər xarabaya dönmüşdür. Şura Hökuməti öz nəfinə [xeyrinə] kirayə alaraq təmizlik üçün heç bir iş görməyirlər. Hacı-Tərxan şəhəri tamamilə bir çirkab çalasından ibarətdir. Hal-hazırda Hacı-Tərxanda 3000 nəfər qırmızı qoşun nəfərləri vardır.*

"B. S." qəzetəsi yazır ki, ən mövsuq [etibarlı] alınan məlumata görə, mayın 31-də İngiltərə komandanlığı tərəfindən Hacı-Tərxana simsiz teleqrafla xəbər verilmişdir ki, hamı hərbi gəmilər bilatəxir verilsin. Əks surətdə Hacı-Tərxanlılarla amansız hava müharibəsi elan ediləcəkdir. Cavabi-rədd alınarsa, iyunun 1-dən başlamış bütün İngiltərə hava donanması Hacı-Tərxan şəhərini və reydi bombardman edəcəkdir.

### Gürcü qoşunlarının və yunanilərin kürdlərə hücumu

Ermənistan Cümhuriyyəti Xariciyyə naziri Qarsdan bu məzmunda bir teleqram almışdır:

Aprelin 26-da gürcü qoşunları və yunanilər Qeuli dairəsində olan kürdlərə qarşı hərb açmışlardır. Kürdlərin 16 kəndi atəşə tutulmuşdur. Əhalinin az hissəsi qaçıb qurtara bilmişdir.

Mayın 13-də gürcülər və yunanilər top və pulemyotla müsəlləh olaraq [silahlanaraq] 4 kürd kəndlərini mühasirəyə salmışlardır. Əvvəlcədən bu yerlərin əhalisi qaçıb, öz əmlaklarını buraxmışlardır.

Ermənistan Cümhuriyyətini qəbul edərək təvəqqe edirik ki, gürcülərin və yunanilərin təcavüzlərindən bizi xilas edəsiniz və binagüzarlıq edəsiniz [tədbirlər görəsiniz] ki, gürcü qoşunları bu yerlərdən çıxsınlar. Tainki, fərarilər [qaçqınlar] öz yerlərinə qayıda bilmək imkanını bulsunlar.

*Üç nəfər müsəlmanın imzası*

* Adanada polis nazirliyinə Vahan Petrosyan təyin edilmişdir.

* İstanbulda ittihadçıların həbsləri davam edir. Sivas qalabəyisi [komendantı] Cəlaləddin yenidən tövqif [həbs] edilmişdir.

### Türklər silahlanırmış

"Aşxatavor" qəzetəsinin mövsuq [etibarlı] mənbələrdən aldığı xəbərlərə nəzərən, türklər Türkiyədə olan Müttəfiqlərin süstlüyündən istifadə edərək silahlanırlar. Qəzetə deyir ki, Fələstin cəbhəsində türklər məğlub olduqdan sonra bütün silahlarını o yerin müsəlmanlarına paylamışlardır.

* Batum - İngiltərənin böyük "Verntiba" nam [adlı] paroxodu Batuma varid olmuşdur [gəlmişdir]. 7.000 ton yük daşıya bilən bu paroxod Batuma kuporos və sair mallar gətirmişdir. Batumdan paroxod Novorossiyskə, oradan isə İngiltərəyə əzimət edəcəkdir [yollanacaqdır].

* Feodosiya şəhəri bombardman edildiyi zaman top qumbarasından 800 ildən bəri şəhərdə mövcud olan gürcülərin böyük minarəsi təxrib edilmişdir.

### Qırmızı ordu

Axırıncı müharibələrdə Qırmızı ordu nəfərlərindən əsir düşənlər Qırmızı ordunun qayət fəna bir halda olduğunu bəyan edirlər. Məcburi surətdə cəm edilən şəxslər komandirlərə etibar etməyərək bolşevikləri görmək belə istəməyirlər. Bu isə arabir qanlı müsadimələrə [toqquşmalara] bais olur. Səfərbərliyə alınan kəndçilər Könüllülərin tərəfinə keçmək arzusundadırlar. Bolşeviklər içində yatalaq xəstəliyi dəhşəti ilə davam edir.

Bu naxoşluqdan bolşevik qoşunları "əriyir". Birinci xətdə olan nəfərata gündə bir girvənkə çörək verildiyindən, Qırmızı qoşun çox narazıdırlar. Arxada əlddəvam [davamlı surətdə] üsyan əmələ gəlir və bunları yatırmaq müşküldür. Bəzən üsyançıları sakit etmək üçün göndərilən dəstələr də üsyançılara mülhəq olurlar [qoşulurlar]. Bu günlərdə bir dəstə bolşevik qoşunları kazaklar tərəfinə keçmişlər. Mərkəzi bolşevik hökuməti öz komanda heyətinə etibar etməyir. Böyük etibara malik olan şəxsləri cəbhə komandanlığına göndərirlər.

* * *

Tsaritsında [Volqoqradda] olan bütün qoşunlar şəhər kənarına şəhəri mühafizədən ötrü çıxmışlardır. Bu qırmızı Tsaritsının son müdafeyidir [müdafiəçisidir].

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

- Maliyyə nazirinin sabiq Zaqafqaziya Komissarlığının vergi verməyənlər əleyhinə qəbul etdiyi bir para tədabirin [tədbirlərin] ləğvi haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

1) Zaqafqaziya Komissarlığının dövləti gəlir vergisi verməyənlərdən təyin edilmiş bir faizindən əlavə, hər ay 5 faiz almaq haqqında 1917-ci sənəsinin 28 dekabrda verilmiş qanunu ləğv edilsin.

2) Bakı Xalq Komissarlarının 1918-ci sənə 15 mayısında dövləti gəlir vergisini verməyənlərin əmvalı həcz [malları müsadirə] ilə həbsxanaya alınması haqqında vermiş olduğu qanun ləğv edilsin.

3) Maliyyə Nəzarətinə tapşırılsın ki, Məclisi-Məbusana bu xüsusda yeni bir qanun layihəsi təqdim etsin.

4) Elan edildiyi gündən qanun qüvvəti haiz olur [daşıyır].

- Fəhlələrə məvacib vermək, xəstəxanalar və məkatib [məktəblər] məxaricatına sərf etmək üçün Neftçilər İttifaqına ümumi əsas üzrə neftçilərinin miqdarına nisbətən istiqraz açmaq haqqında Maliyyə nazirinin məruzəsindən sonra qət edilmişdir:

Maliyyə Nəzarətinə tapşırılsın, ayda Neftçilər İttifaqına 400.000 manata qədər borc buraxılsın.

- Maliyyə nazirinin Azərbaycan Cümhuriyyətində gömrük mühafizi təşkili haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə [bəyənilməklə], təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

- Maliyyə nazirinin, gerbovı nizamnamənin bir para maddələrinin dəyişməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

- Səhhəti-Ümumiyyə nazirinin müsri [yoluxucu] xəstəliklərlə mübarizədən ötrü 1.300.000 manat buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın. O vaxtadək 20 milyonluq fonddan bir milyon manat buraxılsın. İşbu məbləğ təsdiqdən sonra qaytarılmalıdır.

- Səhhəti-Ümumiyyə Nəzarətinin tibbi xidmətlərin təsdiqi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

- Maliyyə nazirinin Ağstafa gömrük pişdar [öncü] postu təşkili haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın. O vaxtadək post məxaricatı olmaq üzrə 13.450 manat 20 milyonluq fonddan verilsin.

- Dövləti müfəttişin Azərbaycan şəhərlərində put vergisi təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

- Maliyyə nazirinin, Bakı gömrüyü xidmətçilərinin məvacibləri artırılması barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

- Maliyyə nazirinin, tamaşaxana və bu kimi müəssisələr biletlərindən alınan vergilərin xəzinəyə verilməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Bu vaxtadək olan qərardadların ləğvi ilə tamaşaxana və bu kimi müəssisələrdən alınan vergilər xəzinəyə verilməklə, Vergilər Departamenti smetasına idxal edilsin.

- Maliyyə nazirinin Şamaxı şəhəri əhalisini vergilərdən azad etmək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Mart hadisati-əliməsi [faciəli Mart hadisələri] zamanında Şamaxı məhəlli [yerli] xəzinəsində hesabat kitabları itdiyindən və 1917-ci sənə gəlir vergisi kitabları və əhalinin qəbzlərinin tələf edildiyindən və Şamaxı əhalisinin maddi cəhətdən həqiqətən fəna bir halda olduğundan dolayı 1917-ci sənə gəlir vergisindən azad etməli.

- Maliyyə nazirinin 250 rubləlik kağız pul buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maliyyə nazirinə 250 rubləlik kağız pul təb'inə [çapına] izin verilsin.

- Maliyyə nazirinin Gürcüstan Hökuməti nəzdindəki Azərbaycan siyasi nümayəndəliyi cənbində [nəzdində] Maliyyə Nəzarəti acentəliyi təşkili haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın. Təsdiq edilənədək, həman acentəlik təşkili Maliyyə Nəzarətinə tapşırılsın.

- Maliyyə nazirinin Azərbaycan Dövləti Bankı təsisi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın. O vaxtadək Maliyyə naziri lazımi zəvatı [şəxsləri] dəvətlə təsisə şüru etsin [başlasın].

- Səhhəti-Ümumiyyə nazirinin təhtidarəsindəki [tabeçiliyindəki] "Norma" nam [adlı] sud [hüquq] firmasının Bələdiyyə

İdarəsinə verilməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Həman firma bir sənə müddətinə məccani [pulsuz] olaraq Bələdiyyə İdarəsi ixtiyarına verilməyi Səhhəti-Ümumiyyə nazirinə tapşırmalı.

- Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] nazirinin Zəngəzur qaçqınlarına müavinət etmək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

- Maliyyə nazirinin hər ay neftçilərə verilən istiqrazın artırılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

İşbu tabellər üzrə neftçilər onlara verilən istiqrazın miqdarını[n] 60 milyona qədər artırılmasını rica etmişdir.

1) Mart ayı tabelləri üzrə çıxan məxaricat:

a) Elektrik qüvvəsinə;

b) Su üçün;

c) Mədən qarovulundan ötrü;

ç) Podrat ilə quyu qazdırmaq və nefti apartdırmaq məxaricatından ötrü.

Neftçilər başqa məxaricat da göstərirlər. Məsələn:

1) Lazımi mühimmat nəqlindən ötrü;

2) Mühimmat almaqdan ötrü;

3) Gündəlik fəhlə məvacibi;

4) Xırda podratçılara verilən pul;

5) Nakladnoy [qaimə] məxaricatı.

Bunlar qəbul ediləcək olmadığından dolayı Maliyyə-İqtisadiyyə komisyonuna neftçilər nümayəndələri ilə bərabər işbu məsələni həll edərək Vükəla Şurasına təqdim etmək tapşırılsın.

## NƏZARƏTLƏRDƏ
## [NAZİRLİKLƏRDƏ]

- Məsai Nəzarəti [Əmək Nazirliyi] Gəncə Müəllimlər Təşkilatı müvəkkili Cavad bəy Rəfibəyovun müəllimlərə əlavə maaş vermək haqqındakı teleqramını göndərərək rica etmişdir ki, müəllimlərin təklifi qəbul edilsin. Zira müəllimlərin əhvalı maddi cəhətdən fəna bir haldadır.

- Məsai Nəzarəti vaxtilə Ticarət və Sənaye Nəzarəti indində [nəzdində] Şəmsi Əsədullayevin 170-ci nömrəli mədənindən 18 nəfər qovulmuş fəhlənin yenidən xidmətə qəbulu haqqında təşəbbüsatda bulunmuşdu. Ticarət və Sənaye Nəzarəti məlum edir ki, fəhlələr fabriçni müfəttişlik iqdamatı [təşəbbüsləri] sayəsində xidmətə qəbul edilmişlər.

- Ticarət və Sənaye Nəzarəti Məsai Nəzarətinə məlum etmişdir ki, Kaspi makina zavodu fəhlələrinin təşəbbüsatı Məsai naziri həzrətlərinin təklifinə görə rədd edilmişdir.

- Maliyyə Nəzarətinin Xəzinə şöbəsi Nəzarətlərə [Nazirliklərə] müraciətən məlum etmişdir ki, Azərbaycan qanunu mövcibincə [qanununa əsasən], Rəisi-vükəla [Baş nazir] və başqa nəzarətlərin məvacibləri və nümayəndəlik haqları artırılmışdır. Binaənileyh [ona görə], birdəfəlik olmaq üçün Xəzinə şöbəsi rica etmişdir ki, Nəzarətlərə lazım olacaq istiqrazın və əlavənin nə vaxtdan veriləcəyi haqqında şöbəyə məlumat verilsin.

- Məsai Nəzarəti Baş Fabrika müfəttiş[in]ə müraciətlə məlum etmişdir ki, Müştərək İşçilər İttifaqı və Çornı-qorod xəstəxanası ümumi iclas əzası [üzvləri] Nəzarətin dekretinə görə xüsusi müşavirədən izinsiz xidmətdən kənar edilə bilməzlər. Binaənileyh, onların işdən kənar edilmələrinin önü alınmaqla bərabər, Neftçilər İttifaqına bu barədə məlumat verilməlidir.

- "Müsavat" firqəsinin məktubuna cavabən, Məsai Nəzarəti xəbər vermişdir ki, yeni müştərək müqavilənamə hələlik təsdiq edilmədiyindən, xidmətçilərlə müəssisədarlar miyanında [arasında] münasibat məsələsini sabiq İcraiyyə Komitəsi tərəfindən 1917-ci sənəsinin 2 oktyabrında verilmiş müştərək müqavilənamə üzrə həll etməlidir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Ticarət və Sənaye Nəzarəti ilə etilafa [razılığa] gəlmişdir ki, Bakıdakı 9-cu dairə ev komitəsi təşkilatına 5 pud qara və ağ rəng sap buraxılsın. Sap işsizlər üçün o dairədə güşad ediləcək [açılacaq] culfa [toxuma] işlərinə lazım olacaqdır.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti putu 23 manatdan 3 min put arpa unu almışdır. Un Qlaz-Kretinqen dəyirmanında təhvil verilməlidir.

- Qarabağ nahiyə müfəttişi Əlibəyov Məsai Nəzarətinə teleqrafən məlum etmişdir ki, Məclisi-Məbusanın qanun layihəsi mövcibincə, Kür çayı sədləri təmiratına qaçqınları cəlb etməlidir. Binaənileyh [ona görə], həman fəhlə qaçqınları Kür çayının hangi tərəfinə göndərilməsi isticvabən [soruşularaq] xəbər verilməyi rica etmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Qarabağ qaçqınlarının ehtiyacından ötrü Ağdama 170 pud sabun göndərmişdir.

**Ermənistandakı müsəlmanların əhvalına dair**

Ümuri-Xeyriyyə və Nafiə Nəzarətindən alınan mövsuq [mötəbər] məlumata nəzərən, Ermənistan Hökuməti müsəlmanlara heç müavinətdə bulunmayır. Oradakı bir çox darüleytamlar [yetimxanalar], iaşə məntəqələri, xəstəxanalar fəqət [sadəcə] ermənilərin ehtiyacatını rəf edir [ehtiyaclarını aradan qaldırır]. Minlərlə evsiz qalmış müsəlmanların əhvalına heç yanan yox. Ancaq bir İrəvan şəhərinin özündə 2300 nəfərlik müsəlman qaçqınları üçün iaşə məntəqəsi güşad edilmişdir [açılmışdır]. İşbu məntəqələrdə də müsəlmanlara darı şorbasından əlavə heç şey verilməyir. Erməni qaçqınları öz köylərinə köçürülür, onlar üçün iaşə məntəqələri güşad edilir, məccani [pulsuz] yemək verilir. Müsəlmanlar isə acından qırıldığı kimi, bir çoxlarına öz köylərinə köçməyə belə icazə verilməyir. Hər halda, Ermənistandakı müsəlmanların əhvalı qayət ciddi və dəhşətli bir hal kəsb etmişdir [hal almışdır].

## FELYETON
## ACLIQLA TƏDAVİ

İşbu sərlövhə ilə "Nov" namında gənc Moskva qəzetəsi vaxtilə bir fəqərə [əh-

valat] dərc etmişdi. Məzkur [adı çəkilən] qəzetə Arnold Eretin almanca "Kranke Menschen" ["Xəstə insanlar"] namında intişar etmiş [nəşr olunmuş] kitabında mündəric üsulun elmi və fənni təcrübələrlə nasıl bir həqiqət olduğunu və fənn aləmində dəxi bir yenilik peyda etdiyini ziyadəsilə şərh və izah edir.

"İnsanlar neçin xəstə düşürlər, ixtiyarlaşırlar [qocalırlar], dəriləri qırışır, tükləri bəyazlaşır, nəhayət ölürlər" deyə məqalə sahibi bir sualda bulunur.

Professor Meçnikov bütün bunca mərəz və illətlərin müsəbbibi [səbəbkarı] yalnız cihazi-həzmiyyə [həzm aparatı] olduğunu göstərir. Arnold Eret dəxi bu əqidədədir. O, professor Meçnikovun əqidəsini təfsil edərək deyir:

Bütün mərəzlər insanın xaricində deyil, daxilində hüsula gəlir. Xaricdən vücuda fəqət mikroblar daxil ola bilər. O düxuldan müqəddəm [qabaq] insanın daxilində onlar üçün bir mövqe hazırlaşmamış olsaydı, onlar bir şey etməyə iqtidar bulammadan dolayı kəndiləri böylə məhv olardılar. Vücudda hazırlanan böylə mövqe get-gedə mikrobların çoxalmasına və insanı məhv etməsinə bir xadim olur.

İşbu əsası cihazi-həzmiyyə deyil, bəlkə insan – kəndi fəlakətlərinin səmimi arxadaşı və kəndi-kəndisinə birinci düşmən məhsub olan [hesab olunan] insan qurur. İnsan kəndi "məişətindən istifadə etmək" istər kimi, bütün həyatında növbənöv məşrubat [içkilər] ilə – sabah çayla, nahardan sonrakı qəhvə ilə, döymə ət və qeyri təamlar ilə bədənini zəhərləyir.

Çaydan tein, qəhvədən kofein, ətdən isə toksin namında zəhərlər hasil olur.

Bunlar həp mədədə mikroblar yaratmağa bir mərkəz təşkil edib sonradan bədənin hər bir tərəfinə kəndi acentələrini göndərirlər. Cihazi-mədə insana xidmət etmək əvəzində onun birinci müxribi [təxribkarı] və intiqamçısı olur. Qeyri-mər'i [gözlənilməyən, hesabda olmayan] təxribçi ordu insandan istemal [istifadə] etdiyi məşrubatın və yediyi ətin – öküz, dana, və qoyunların intiqamını alır.

Professor Meçnikov cihazi-mədəyə dair qayət şədidamiz [kəskin] bir fikir yeridir:

Cihazi-həzmiyyə təşkilatı dəxi insana zərərdən ari deyildir. Onda bir çox lüzumsuz və artıq əza [orqanlar] bulunur. Onlar yalnız zəhərləri toplayaraq onlardan qatı maddələr hasil etməyə xidmət edib insan ömrünü biçirlər. Böylə illətlərə bir nəhayət vermək üçün cihazi-mədədə ən lüzumlu baş əzaları saxlayıb da lüzumsuz əzaları kəsməli, ümumən cihazi-mədəni sadələşdirməli derkən, – durunuz! – deyə Eret onu saxlayır. – Ancaq burayadək sizin məşvərətinizi dinləmək istərdim. Daha kafi!

Ümumən heç bir artıq əza insan bədənində yaranmamış, hətta artıq zənn olunan əzanın həp böyük bir hikməti vardır. Fəqət biz onları anlamayırız. Xilqəti-aləm emalatxanasından, xaliqin qadir əlindən həpsi mükəmməl çıxmış, vücudi-bəşərin təkmil edilməsində [kamilləşdirilməsində] böyük ciddiyyətlər göstərilmişdir. Lakin kəndi vücudunu ruhən və cismən təxrib etmədə insan hər şeydən artıq ciddiyyət göstərir. Buna da əvvəlcə mədəni qurban verir. Onları kəsmək, islah etmək heç də lazım deyil. Bəlkə onları daha təkmil etmək üçün çalışmalı. Fəlakət qeyri-təbii və artıq yemədən sadir olur [əmələ gəlir]. Hər təam mədədə bir taqım əczalar [kimyəvi maddələr] və lüablı [selikli] maddələr buraxır.

İşbu lüablı maddələr bütün mərəzlərə birinci səbəbdir. O, dövrani-dəm [qan dövranı] damarlarının yolunu tutur. İnsan hər bir mərəzdən məsun [uzaq, toxunulmaz] olmaq üçün birinci islahatı mədədən deyil, yalnız təamdan başlamalıdır.

Əvət, kəndi üsulunu ciddi ağıl üzrə və ən ümdəsi kəndi təcrübəsi ilə şərh və təfsir edir. Kəndi dəxi ölümcül surətdə xəstələnib ancaq oruc saxlamaq və pərhiz etməklə nicat bulmuşdur.

Bütün bəşəriyyətə kəndi təcrübəsini göstərib, xüsusən Almaniyada onun fikri geniş bir mövqe tutaraq, şimdi minlərcə xəlayiq ağır mərəzlərdən nicat bulduqlarına məbni [görə], ona təşəkkürlər edirlər.

İştə, onun təcrübəsini izah edəlim.

Ətdən bilmərrə imtina etməli, fəqət bunu da ağıl üzrə etməli. Bir çox ət istemal etməyənlər (Вегетаріанцы) vardır ki, ət yeməmək onlara heç bir mənfəət yetirməmiş, onlar nasıl əvvəldə məriz [xəstə] idilər, öylə qalmışlar.

Neyçün?

Zira onlar ətdən imtina edib, ətdən ziyadə lüab hasil edən məkulatdan [qidalardan] yeməyə başlamışlar. Aş, süd, penir, yumurta, yağ – bunlar həp lüab hasil edən şeylərdir. Ətdən imtina edərkən, səhhət üçün birinci vəsilə [vasitə] meyvəcat və orucdur.

Arnold Eret 14 aydan 124 gün oruc saxlamış. Bunlardan 49 gününü arası kəsilməksizinin oruc tutmuş. Oruc saxlamağa onu qaraciyərinin mühlik [öldürücü, təhlükəli] bir mərəzə mübtəla olub və doktorlar tərəfindən əlacpəzir olmaması təsdiq edilməsi və tez zamanda ölümlə belə onu təhdid etməsi məcbur etmişdir. Bütün tibbi müalicə və doktorlardan imtina edərək kəndi "təbii üsulla müalicə" sini tətbiq etməyə başlamışdır.

İşbu üsul ziyadəsilə mədəni təbiiləşdirməyə və sadələşdirməyə alışdırır. Eret dəxi mədəni sadələşdirmək üçün bir qaç müddət ətdən imtina edərək mədəsini tərtibə saldı. Fəqət yenə kamilən səhhət bulammadı. Nəhayət, kəndi üsulu ilə oruc tutmağa başladı.

Kəndi təcrübəsilə oruc saxlamaq və meyvənin təsiratını görüb etimad hasil etdikdən sonra kəndi təcrübəsini ümuma elam edərək [bildirərək] onu fənniləşdirdi [elmiləşdirdi].

Eret üsulu əslən nədən ibarətdir?

Xəstəlik mədədə təamda əmələ gələn lüablı maddələrin təsirindən, qan damarlarının hücrələri qapanmadan hasil olur. Buna da birinci əlac cövlani-dəmi [qan dövranını] qüvvətləndirərək onun dövranını saxlayacaq hər bir mümaniəti [maneəni] rədd etmək üçün əvvəlcə mədədə olan lüabları təmizləməlidir. Buna da ancaq ciddi və uzun oruc tutmaq, qəliz maddələr hasil edən təamlardan ictinab edib [saqınıb, çəkinib] də, fəqət meyvəcat yeməklə çarə etmək olar. Bu növlə Eret, birinci dəfə 32, ikinci dəfə 49 gün olaraq oruc saxlayıb kəndi-kəndisini müalicə etməyə müqtədir olmuşdur.

Oruc tutmadan iki-üç gün əvvəl mədəni lüablı təamlardan alıb, lüabsız təamlara alışdırmaq üçün ancaq meyvə ilə, əksərən alma ilə keçmiş, oruc olduğu zaman lumu cövhəri ilə məxlut [qarışdırılmış] su içirmiş.

Orucdan fariğ [azad] olduqdan sonra yenə meyvə yeməyə başlayıb, bir daha onu tərk etmədi. Bu növlə Eret, qaraciyərini qaplamış mühlik azardan nicat buldu. Onun müqəllidləri [təqlidçiləri, ardıcılları] dəxi bütün alman doktor və professorlarının əlacları olmamasını təsdiq edən bir çox mərəzlərin bu qayda ilə əlacpəzir olduğunu görmüşlər.

Eretin bu barədə aldığı və kitabçasının nəhayətində dərc edilmiş təşəkkürnamələrin məzmunu olduqca maraqlıdır.

Bəzisi, məsələn "əzayi-hissiyyə"sinin [duyğu orqanlarının] payidar olmasına, bəzisi bir taqım daxili və xarici illətlərdən nicat bulduğuna dair təşəkkürnamələr göndərmişlər.

Münhen Kral Teatrosunun opera aktyoru Henrix Gifte mühlik bir mərəzdən bilmərrə nicat bulmasından maəda [əlavə], bir də oruc tutmadan və meyvə pərhizindən onun olduqca gözəl, bu vaxtacan onda görülməyən parlaq sövtü [səsi] hasil olduğunu söyləyir. Sövtün gözəlləşməsində Eret bütün müqəllidlərini ancaq oruc və meyvə pərhizi səbəb olduğuna inandırmışdır. Meyvə yeməkdən vücudda olan bütün lüablı maddələr bövl [sidik] ilə, yaxud buxar olmaqla xaric olub sövt əzaları dəxi lüablardan təmizləndikdə, olduqca gözəl sövt əmələ gəlir, nasıl telin gözəl sövt verməsi tozunun alınmasından asılıdır!

Bütün vücudu lüablı maddələrdən təmizləmək üçün birinci əlac oruc və meyvə olduğunu Eret kəndisində olan əlamətlərlə təsdiq edir. Şimdi onun bir dənə olsun cib dəsmalı (burun silməyə) bulunmaz. Zira ki, ona o bilmərrə lazım deyil!

Həpsindən maraqlısı, bir nəfər Mariya Rodiges ismində Müqəddəs Georgien şəhərində sükunət edən [yaşayan] lokantaçı [yeməkxanaçı] qarısının yazdığı təşəkkürnamədir.

Növbənöv illətlərdən məzkurənin [adı çəkilən qadının] nəhayət iki gözləri də kor olmuşdu. Akademiya doktorları belə ona əlac etməyə müqtədir olammamışlardı. Nəhayət, Eret üsulu ilə müalicəyə başlayınca, bütün kəndisində olan illətlərdən tam nicat bulub və bütün şəkk və şübhədən ari olmaq üçün yerli Bələdiyyə rəisi məzkur [deyilən] təşəkkürnaməni kəndi möhür və imzası ilə təsdiq etmişdir. Bələdiyyə rəisi həqiqətən şayani-təqdir [təqdirəlayiq] bir iş görmüşdür. Zira ki, bir çox kimsələr rəsmi fənni-tibbi nümayəndələri böylə həqiqəti və təcrübəli ixtiraatı görərkən inanmayıb, hətta böylələrini "şarlatan" deyə təsmiyə edirlər [adlandırırlar]. Buna əlbəttə o zəvat [şəxslər] inanmazlar ki, bir vaxt onlar insanın hava üzündə uçmasına, Berlində əyləşərkən simlər vasitəsilə Parislə müsahibə etməsinə inanmayırlardı.

Məmafih [bununla belə], Eret üsulu 2x2=4 kimi aydın və sadədir.

Ciddi oruc mədəni lüabdan təmizləyir. Meyvə isə tamamilə həzm olunduğu üçün cövlani-dəmə maneələr təşkil etməyir. İşbu təcrübənin bəzi nəticələrini göstərəlim.

Eret, kəndi əlini kəsir, fəqət yarasından bir damla qan çıxır. O saat qurudub cərihənin [yaranın] ağzını yenidən qapayır.

Eret vəba olan yerlərdə istədiyi qədər su içir, qarpız yeyir, yenə vəba ona sirayət etməyir [yoluxmur]. Bataqlıq titrətməsi (malyariya) çox olan Cənubi İtaliyada məzkur mərəz ona sirayət etməmək üçün bir çarəyə təvəssül etməksizin [müraciət etmədən, əl atmadan] o daima sağlam idi.

Afrika müstəmləkələrinə göndəriləcək əsgərlərə onların məntəqeyi-harrə [isti ölkə] titrətmə və qızdırmasından məsun bulunmaları [qorunmaları] üçün kəndi üsulunun eyi nəticələr verəcəyinə mötəməd [əmin] olduğundan və işbu üsulu orada tətbiq etmək istədiyindən, Almaniya Hərbiyyə nazirinə yenə də kəndisini Afrikaya göndəriləcək əsgərlərlə göndərməsini təklif etmişdi.

Yuxarıda zikr olunduğu kimi, Eret əqidəsincə bütün mərəzlər yalnız yeyinti şeylərdən törəyən maddələr mədədə qalıb lüablı maddələrə mübəddəl olduğundan [çevrildikdən] sonra bütün bədənə sirayət etdiyindən nəşət edir [əmələ gəlir].

Oruc tutmaqla məzkur maddələr zail olub [yox olub], meyvə pərhizi isə onu bir daha təcdid olmaya [yenilənməyə] mane olur.

İxtiyarlaşmaq məcrayi-dəmin [qan axışının] lüablı maddələrlə tutulmasından nəşət edir. Böylə məzkur məcralar miyanında [arasında] əşya mübadilatı get-gedə azalıb, sonra bilmərrə münqəte olduğundan [kəsildiyindən] və "ölüm gəldi" denir. Eret üsulu isə məcrayi-dəmi təmizləyib insanı tez fövt olmadan [ölməkdən] mühafizə etdiyi kimi, salxürdə [yaşlı] insanları dəxi əvvəlki halına gətirir. Onların bəyazlaşmış tüklərinə Eretdə olduğu kimi yenə əvvəlki boyasını verir.

Bunda bəzi bədiələr [nadir görülən hadisələr] dəxi olmuşdur. Eylenburqun almanca "Fənni-tibbi"sində (cild 3, s. 363) nitəkim denir:

*"Tövlid etməkdən nəşət edən [doğmaqdan irəli gələn] qızmadan sonra sarı saçlı bir qadının saçları tökülür. Fəqət oruc tutduqdan sonra onun siyah saçları göyərir. Hakəza [eləcə də], bir başqa siyah saçlı qadının saçları töküldükdən sonra əvəzinə sarı saç göyərir. 66 sinli [yaşlı] bir ixtiyarın ölümünə yaxın vaxtlarda bəyaz tükləri büsbütün siyahlaşmış."*

Eret və onun müqəllidləri oruc tutmağa başladıqda, ikinci gün kəndilərində böyük aclıq hiss etdilər. Fəqət sonradan buna da adət etdilər. Buna da zeyldəki [aşağıdakı] səbəbləri göstərir.

Vücudi-bəşər növbənöv təbəqələrdən mütəşəkkil olub bəzi yerlərdə, xüsusi mövqiflərdə [depolarda] "qara gün üçün" böyük tədarükat bulunur və işbu mövqiflər bəklədikləri (orucun 2-ci günü) təamı xaricdən alammadıqlarından, insanda aclıq hissini oyadırlar. Sonradan qəti rəddi-cavab aldıqlarından, kəndi mövqiflərini açmağa məcbur olub oradakı ehtiyatdan vücudu doydururlar.

Bir çox ət-sərxoşları Eret tabeyi [ardıcılı] olunca, alkollu məşrubat istemal etmədən [alkoqollu içkilər istifadəsindən] imtina etdilər. Neyçün?

Onlar ət – toksin zəhəri ilə ağulandıqlarından, əvvəldə məlumatsız olaraq zəhərin ziddinə alkol istemal etməyə alışmışlardı. Oruc və meyvə pərhizi onlarda caygir olan [özünə yer tapan] hər növ zəhəri rədd etdikdə, alkol istemalı dəxi artıq göründü.

İştə, Eretin bütün nəzəriyyə və izahatı.

İnsan az yedikcə o qədər sağlam, uzunömürlü, kəskin ağıllı olduğu kimi bir

taqım heyrətəfza [çox heyrətləndirən] həqiqətləri Eret təcrübələri dəxi göstərir.

Bunun üçün füqəra ailələrdə uzunömürlü ixtiyarlar zəngin ailələrdən artıq mütəsadif olur [rastlanır]. Böyük müxtəre [ixtiraçı] və filosoflar əksər övqat [çox vaxt] fəqir əhali miyanından [arasından] çıxdığı dəxi görünür. Bunlar həp fəqir əhali miyanında ət və qeyri müzirr təamlardan [digər zərərli qidalardan] lazımlı pərhiz bərqərar olduğundan nəşət edir [irəli gəlir].

Oruc böyük işdir!

Peyğəmbərlər, din baniləri və qeyri böyük aqillər həp onu təbliğ etmişlər. Oruc insanı aləmi-zahiratdan [zahiriliklər aləmindən, xarici aləmdən] alıb aləmi-batinata [daxili aləmə] sövq edərək ruhi-bəşərdə dərin ilhamat ayıltma[q]dan maəda [əlavə], xilqətən təbiəti-vücudu islah edir.

Eret üsulunun nə qədər mühəqqəq [həqiqət, təsdiq edilmiş] olduğunu zeyldəki [aşağıdakı] hallar dəxi göstərir. Ənbiya və övliya [nəbilərin və vəlilərin; peyğəmbərlərin və Allah dostlarının] məqbərə yaxud surətləri qarşısında duadan sonra bir taqım möcüzələr əksər övqat uzaq yerlərdən ziyarətə gəlmiş zəvvarlara nümayan olur [görünür]. Onlar uzun məsafələr teyy etdikləri [qət etdikləri] əsnada lazımi qədər yeməyib, vücudlarındakı artıq əczaları [maddələri] həzm etdiklərindən naşi [ötrü], vücudun ruhani hissləri qüvvətlənib, mənəviyyata bir yol açır.

Eret şimdiki halda möcüzələrin böylə az olduğuna şimdiki insanların süst-etiqad [etiqadda zəif; etiqadsız] olduqlarını göstərir. Zira ki, onların ənbiya və övliyaya öylə mətin və mükəmməl bir etiqadları bulunmayır ki, onların yolunda kəndilərini oruc tutmaq və qeyri bunun kimi rahibyanə bir vəziyyətlə dürlü-dürlü müşkülata sövq etsinlər.

*Məhəmməd Muradzadə*

## MİLLİLƏŞDİRMƏK MƏSƏLƏSİ

### II

Doğru türkcə nasıl öyrədilməlidir?

Doğru türkcəni əvvəla bu lisanda bəhrəsi olmayan müəllimlərə öyrətmək lazımdır. Bu isə yalnız yay zamanında kurslar açmaqla deyil, bütün sənə onları məşğul etməklə mümkündür.

Azərbaycanda doğru türkcəni öyrətməyə məcbur müəllimlər bu lisandakı vüqufları etibarı ilə iki, yaxud üç sinifə ayrılır:

1) Pək az Azərbaycan dili bilənlər;

2) Azərbaycan dilini orta dərəcədə bilənlər;

3) Azərbaycan dili ilə bərabər, Osmanlı dilini də bir az bilənlər.

Pək az Azərbaycan dilini bilənlərin qışda atidəki [aşağıdakı] kitablardan hazırlanıb yayda 2-3 ay eyi türkcə bilən müəllimlərlə kurslarda müzakirə edərək imtahan verməleri məcburi olmalıdır. Müzakirə deyirəm, çünkü müəllimlər bu kitabları qışda az-çox oxumuş olacağından, anlayammadığı nöqtələri öyrənəcək və qaydaları kitab xaricində veriləcək misallara tətbiq edəcəkdir:

1) Sərf və nəhvdən [qrammatikadan] Köprülüzadə və Süleyman Saib bəylərin "Türk dili" başlanğıc və ikinci kitablar.

2) Məhməd Asımın "Təhrir dərs[i] [yazı dərsi] nasıl öyrədilir?" əsəri.

3) Türk ədəbiyyatına aşinalıq üçün atidəki [aşağıdakı] əsərlərin oxunaraq xülasələrinin və mühakimələrinin yazılması:

"Sünbülə" (Müəllim Naci)

"Əlvahi-məsumanə" [Məsum lövhələr] (Məhməd Cəlal)

"Bir qadının həyatı" (Məhməd Cəlal)

"Mütəlləqə" [Boşanılmış qadın] (Hüseyn Rəhmi)

"Türkün kitabı" (Aka Gündüz)

"Aydəmir" (Müfidə Fərid)

"İki sənə məktəb tətili" (Jül Vern - Əhməd Ehsan)

"Cövvi-havada [hava boşluğunda] səyahət" (Jül Vern - Əhməd Ehsan)

"Türk sazı" (Məhməd Əmin [Yurdaqul])

Azərbaycan dilini orta dərəcədə bilənlərin yuxarıda göstərilmiş şərait daxilində atidəki kitabları oxumaları lazımdır:

1) "Türk dili" – üçüncü və dördüncü qisimlər;

2) "Əzbər və inşad dərsləri" (Hüseyn Raqib).

3) Türk ədəbiyyatından işbu əsərlər:

"Təsadüf" (Hüseyn Rəhmi)

"İffət" (kəza) [həmçinin]

"Çoban qızı" (Vəcihi)

"Sərgüzəşt" (Sami Paşazadə Səzai)

"Araba sevdası" (Rəcaizadə Əkrəm)

"Yeni Turan" (Xalidə Ədib)

"Hekayələr" (Ömər Seyfəddin)

"Qızıl Alma" (Ziya Gökalp)

"Türk qəlbi" (Aka Gündüz)

"Həyati-həqiqiyyə səhnələri" (Hüseyn Cahid)

"Kapitan Qrantın çocuqları" (Jül Vern)

"Gizli ada" (Jül Vern)

Üçüncüci sinifə ayrılmış müəllimlərin oxuyacaqları əsərlər:

1) "Türk dili" – 5-ci qisim və Əhməd Cavad [Əmrə]nin müfəssəl sərf və nəhvi;

2) "Ədəbiyyat dərsləri" (Mühiddin); "Tarixi-ədəbiyyati-Osmaniyyə" (Şəhabəddin Süleyman)

3) Türk ədəbiyyatında[n]:

"Mai [mavi] və siyah" (Xalid Ziya)

"Xarab məbədlər" (Xalidə Ədib)

"Eylül" (Məhməd Rauf)

"Xaristan və Gülüstan" (Əhməd Hikmət [Müftüoğlu])

"Xəyal içində" (Hüseyn Cahid)

"İstanbulun iç üzü (Rəfiq Xalid [Karay])

"Tariq ibni-Ziyad" (Əbdülhaq Hamid)

"Həcc məktubları (Cənab Şəhabəddin)

"Rübabi-şikəstə" (Tofiq Fikrət)

"Eşqi-məmnu" [Yasaq eşq] (Xalid Ziya)

Jül Vernin fənni romanları oxuyanları türkcədə qullanılan fənni istilahlarla [elmi-texniki terminlərlə] insanı sıxmadan aşina edir.

* * *

Edadilərin və ali-ibtidai məktəblərin milliləşmiş siniflərində oxuyan türk çocuqlarını türkcəni öyrənməyə – həm də bilamərhəmət [rəhm etmədən, məcburi surətdə] – məcbur etmək əsaslı çarələrdən birisidir. Latıncadan, ruscadan və sairədən iki almamaq üçün türk şagirdlərimiz müəllimlərə ovuc dolusu pul verirlər. Türkcəyə gəlincə, ən əhəmiyyətsiz bir dərs halında tələqqi edirlər. Edadilərdəki türkcə müəllimləri türkcəyə layiqi dərəcədə əhəmiyyət verməyən mütəəllimlərə [şagirdlərə] nömrə verməkdə pək xəsis olmalıdır. Müəllimlər üçün

göstərdiyim kitablar edadi mütəallimləri üçün də işə yararlar.

Bunlardan başqa, milliləşmiş dairələrə türkcə kitabətə [yazmağa] haqqı ilə vaqif müsəvvidlər [qaralama yazan katiblər], hüsn-xəttə malik mübəyyizlər [qaralamanın üzünü köçürüb təmizə çəkən katiblər] təyin etmək və rəsmi təzkirələrdə “bədəzin” (bundan sonra) kimi çirkin və eyib xətalara meydan verməmək pək lazımdır. Bu müsəvvid və mübəyyizlərin yazacaqları təzkirələr gərək əhali nəzdində və gərək dəvairdə [dairələrdə] türkcəyə məhəbbət oyandırar. Makinada yazılmış açıq sərf və nəhvə müvafiq təmiz bir rusca elanın yanında guya tərcüməsi olaraq yazılan qarğacıq xətli və nə demək istədiyi anlaşılmaz və cümlələri Çin üsuli-kitabətində [Çin yazısı tərzində] tərtib edilmiş bir türkcə elan insanda təbii bir nifrət oyandırır. Gözəllik və eyilik hər şeydə olduğu kimi milli dillərdə də şövq və məhəbbət əmələ gətirər.

Türkcənin sevdirilməsi və təmim edilməsi [yayılması] üçün istifadə ediləcək çarələrdən birisi də türkcə “Azərbaycan”ın düzgün və açıq bir tərzdə nəşr edilməsinə mütəəssibanə [təəssübkeşliklə] çalışmaqdır. Zatən qurulmuş makina lisan nöqteyi-nəzərindən pək fəna işləyir.

Bəzən öylə tərcümələr olur ki, həqiqi mənasını anlamaq üçün ruscasına müraciətə məcbur oluram. Sırf lisan xətalarını təshihə məmur bir və ya iki eyi türkcə bilən bu qəzetənin düzgün və xətasız, eyni zamanda vazeh [aydın, anlaşılan] bir halda çıxmasını təmin edər və bunun üçün də böyük fədakarlığa ehtiyac yoxdur.

Yollar açılıb, münasibati-təbiiyyə başladıqdan sonra sadə şivə öyrənmək və İstanbul türkcəsi ilə yaxından aşina olmaq üçün milli müəllimləri yay tətili zamanında Türkiyəyə göndərmək əsaslı çarələrdən birisi hesab edilə bilər.

*Tofiq Nurəddin Ağayev*

## ERMƏNİ MƏTBUATI

Sərhəd məsələsinə təxsis etdiyi “Düzlüyün zərəri” sərlövhəsi ilə mündəric [dərc olunmuş] uzun bir məqaləsində “Aref” tatar müsavatçıların və gürcü ictimaiyyuni-amiyyunçuların [sosial-demokratların] ittihadi-islamçı [islam birliyi tərəfdarı] və imperialist olmaqlarından, ermənilərin isə sülhpərvər və güzəştə mail olmaqlarından bir qədər söylədikdən sonra deyir ki, ermənilər öz tələbatını və proqramlarını azad müqəddərat əsası ilə mərbut edib [bağlayıb], hər yerin əhalisinin əksəriyyət təşkil edən tayfanın rəyini nəzərdə tutaraq kəndi məmləkətləri dairəsinə daxil etmişdi. Yalnız Tiflis və Tiflis uyezdinin [qəzasının] bir hissəsinin əksər əhalisi erməni olmağına baxmayaraq, Gürcüstana güzəşt etdik. Amma qonşularımız heç bir əsas və mülahizə etməyib bizdən bəzi nöqtələri tələb etməkdə davam edirlər. Məhz ondan ötrü ki, həman yerlərin onlara əhəmiyyəti çoxdur. O cəhətə biz də tərəfi-müqabilin qabağına kəndiləri tutduqları əsaslarla çıxmalıyıq.

Gürcüstan ziraət yerlərinə ehtiyacı olmağa görə, gürcüdən deməli ki, xali [gürcülərin demək olar ki, yaşamadığı] Axalkələki və Tiflisin müdafiəsi nöqteyi-nəzəri ilə Borçalı qəzasının şimali hissəsini silah gücü və dava vasitəsilə almaq istəyir. Onun müqabilində biz gərək deyək ki, Gürcüstanın bəzi nöqtələri Ermənistan üçün və əsgəri əhəmiyyətləri olduqlarından gərək Ermənistanın olsunlar.

Ermənistanın Qarabağını gərəkdir Azərbaycana verək. Çünkü o yerlərdə olan yaylaqlar aranzəmində yaşayan tatarlar üçün lazımdır. Ondan ötrü ki, aran və yaylaq hər biri [ayrı] hökumətə tabe olarsa, köç məsələsi mümaniətə [çətinliyə] düçar olar.

Ona cavab olaraq biz gərək deyək ki, aranzəmin Qarabağı biz Azərbaycan hesab edirik. Ondan ötrü ki, o yerlərin əhalisinin əksəriyyətini təşkil edən tatarlar Ermənistan Hökumətinə tabe olmaq istəməzlər. Amma indi ki, Azərbaycan Hökuməti dağbasar Qarabağı, əksər erməni olan əhalinin rəyini nəzərə almayaraq özünə tabe etmək istəyir, onda bizə də izin verilsin aranzəmin Qarabağı Ermənistana tabe edək, tainki köç məsələsi müşkülata uğramasın. Həm də Ermənistanın da bir aranbasarı olsun, çünki öylə yerə Ermənistanın ehtiyacı çoxdur. Halbuki Azərbaycan münbit və varlı yerdir. Ermənistan isə quru təpələrdə və qayalarda olduğundan hər şeydən korluq çəkir. Bunu da unutmamalı ki, Qarabağın əsgəri əhəmiyyəti çoxdur. Oranı Azərbaycana verməmək Ermənistanın şimal-şərq qapı və darvazalarını hər cür təsadüfi hadisələrə açıq qoymaq mənzilәsindədir [yerindədir].

Bunların cümləsini nəzərə alıb biz də təyini-müqəddərat haqqı və bu kimi sair əsasları bilmərrə kənara atıb, pişəzvəqt [vaxtından öncə] başımıza çarə aramalıyız.

İştə “Aref”lilərin fikri.

## MÜTƏƏLLİMLƏR QURULTAYI

İyulun 1-i bazar günü, saat 5 radələrində, İkinci Realnı məktəbi salonunda Azərbaycan-türk mütəallimlərinin [tələbələrinin] birinci qurultayı güşad edildi [açıldı]. Qurultay Bakıdakı Qafqaziya Mütəallimlərinin Mərkəzi Komitəsi təşəbbüsatı ilə dəvət edilmişdir. Mütəallimlərin birinci qurultayı, nə qədər təntənəli, nə qədər gurultulu idisə, ikinci o qədər zəifdir. Zira siyasi əhvaldan, yolların qorxulu olduğundan məhəllərdən [yerlərdən] nümayəndə az gəlmişdir.

Qurultayı Mərkəzi Komitənin sədri Həmid Məhəmmədzadə cənabları gözəl bir nitqlə açaraq birinci qurultayı yadavərlik edir [yada salır], sonra Qafqazyada müsəlman mütəallimlərinin xüsusən Şimali Qafqaziyadakı əhvalı qeydlə, bir çox məhəllərdən nümayəndələrin gəlməsinə nə mane olduğunu göstərir. Nitqinin axırında qurultay üçün iki sədr, iki katib intixabını [seçilməsini] təklif edir.

Sədarətə Mirzəbala Məhəmmədzadə və Gəncə nümayəndəsi İbrahimzadə cənabları, katibliyə isə Süleyman Məlikzadə, Əbülfəzl Babazadə intixab edilirlər [seçilirlər].

Sədrlər İbrahimzadə və Mirzəbala Məhəmmədzadə birər nitq irad edərək [nitq söyləyərək], işbu qurultayın müvəffəqiyyətlə çalışacağına əmin olduqlarını söyləyirlər.

Bundan sonra Əli Yusif, Gəncə mütəallimləri təşkilatı namından İbrahimzadə, türk-islam mühərririn [jurnalistlər, yazıçılar] namından Xəlil İbrahim, Şuşa nümayəndəsi Həmid Məhəmmədzadə, tələbələr namından Əbdülzadə, Türk Ədəmi-Mərkəziyyət “Müsavat” firqəsi

namından Piri Mürsəlzadə və Bakıdakı Mərkəzi Komitə namından Əbdülvahab Məhəmmədzadə qurultayı təbrik edirlər.

Bədəhu [sonra] alınmış təbrik teleqramları oxunur. Sonra heyəti-rüəsa [rəyasət heyəti] tərəfindən qurultayın həll edəcəyi məsail [məsələlər] elam edilir [bildirilir]:

1) Heyəti-rəyasət intixabatı;
2) Təbriklər;
3) Əza [üzvlər] üçün maaş təyini;
4) Təftiş heyəti intixabatı;
5) Məhəlli [yerli] təşkilatlar nümayəndələrinin məruzələri;
6) Əhvali-hazirə;
7) Məktəb məsələsi;
8) Məhəlli təşkilatlar üçün ümumi proqram tərtibi;
9) Mərkəzi Komitənin məruzəsi və gələcək fəaliyyəti.

Yoldaşlardan Əbdülvahab Məhəmmədzadə təklif edir ki, birinci olaraq qurultayda, Dağıstanı istila etməklə üzərimizə yürüyəcək Denikin qaragüruhunun əleyhinə ciddi bir etiraz yazılaraq mətbuat vasitəsi ilə elam edilsin [bildirilsin].

Qurultayda təəssüf ediləcək bir cəhət varsa da, o da fəqət Azərbaycanın bir çox məhəllərindən nümayəndələr cəlb edilməməsidir. Halbuki yollarımızın səlamətliyi və başqa vəsaitin [vasitələrin] fərahəm [etibarlı] olmağı bunun vücudunu istərdi. Hər halda müəllim yoldaşlarımıza öz işlərində müvəffəq olmağı istirham edəriz.

### Qafqazya Müsəlman Mütəallimlərinin Qurultayı

- Protesto -

İyunun 1-də Qafqazya müsəlman mütəallimlərinin ikinci qurultayının birinci iclasında isbati-vücud [iştirak] edən nümayəndələr dünən Dağıstan Cümhuriyyətini məhv edən istibdad və irtica qüvvəsi bu gün müstəqil Azərbaycan Cümhuriyyətini təhdid altına aldığını müzakirə edərək irtica və istibdad qüvvələrinin bu hərəkətinə və Müttəfiq komandanlığının bu siyasətinə ciddi surətdə etiraz edir və gənc vətənimizin Parlaman və Hökumətindən ciddən tələb edir ki, Azərbaycana zidd və əks olan qüvvələrin qarşısına bütün azərbaycanlıların köksündən ibarət maneəni və səddi qoysun və istiqlaliyyətimizi müdafiə və mühafizə yolunda bütün təşəbbüsləri icra etsin. Bu yolda, Qafqazya türk və islam mütəallimləri bütün gənc qüvvələrini hökuməti-cümhuriyyəmizə təqdim edirlər.

*Heyəti-rəyasət*

## BAKI XƏBƏRLƏRİ

### Müəllimə və müəllimlər iclası

Şəhərin 9-cu Türk məktəbində, 3 iyun saat 9 tamamda Bakı müsəlman şəriət və əqaid [dini inanc] müəllim və müəllimələrinin iclası olmağını elam etməklə [bildirməklə], idarə hamı şəriət müəllim və müəllimələrinin təşrif gətirmələrini rica edir.

Məsaili-cariyyə [cari məsələlər]: Gələcək sənə üçün əqaid və şəriət dərslərinin proqrammasını hazır eyləmək.

*İttifaq*

### Darülfünun Komisyonunda

Darülfünun Komisyonunun yaxın iclaslarının birində təhti-qərara alınmışdır ki, işbu sənə 1-ci gimnaziyada darülfünunun tibbi şöbəsinin 3-cü və 4-cü sinifləri yerləşdirilsin. 1-ci və 2-ci sinifləri isə tarix və ədəbiyyat şöbəsinin 1-ci və 2-ci şöbələri ilə bərabər Bakı Ticarət məktəbində yerləşdiriləcəkdir. Tibbi şöbələr üçün klinikalar 1-ci gimnaziya mülkündə açılacaqdır. Tibbi şöbənin kitabxanası olmadığından, Neftçilər İttifaqı xəstəxanaları və Bakı Mixayılovski xəstəxana kitabxanalarından istifadə ediləcəkdir.

### İngilislərin getmələrinə dair

Ən mövsuq mənabedən [etibarlı mənbələrdən] aldığımız məlumata məbni [əsasən], ingilis ordusu iyunun 12-dək Bakı və başqa nöqtələrdən çıxıb getməlidirlər. Onların əvəzində italyanlar gələcəkdirlər. Böyləliklə, iyunun 11-dək italyanların vürudu [gəlişi] gözlənir.

### Tazəşəhərin təxliyəsi

Tazəşəhərdən gələnlərin dediklərinə görə, bolşeviklərin axırıncı müvəffəqiyyətindən dolayı Tazəşəhərdəki İngiltərə və Könüllü ordu komandanlıqları oranı təxliyə etməkdədirlər.

### Ənzəlidə yeni mübarizə

Ənzəlidən alınan məlumata görə, Kiçik xan dəstələri yenidən Gilan üzərinə böyük qüvvələrlə yürüməkdədirlər. Əhval qayət ciddidir.

### Hacı-Tərxan haqqında

Ən mövsuq [etibarlı] mənbələrdən bizə xəbər verirlər ki, İngiltərə komandanlığı tərəfindən mayın 31-də, Hacı-Tərxan [Həştərxan] Hökumətinə bir ultimatum göndərilib, tezliklə bütün hərbi gəmilərin təslimi tələb edilmişdir. Əks surətdə, Hacı-Tərxan Hökumətinə amansız bir surətdə hava müharibəsi elan ediləcəkdir. Rədd cavab alındıqda İngiltərə hava eskadrası şəhəri bombardıman edəcəkdir.

### Gürcü qoşunları

Aldığımız məlumata görə, gecə mayın 31-də Biləcəri mövqifindən [stansiyasından] keçərək Vladiqafqaz dəmiryoluna bir eşelon gürcü qoşunu getmişdir.

### Yenidən müharibə başlanması ehtimalı

Məhəlli [yerli] siyasi dairələrdə alınan məlumata görə, Müttəfiqlərlə Türkiyə və Almaniya arasında yenidən müharibə başlanması gözlənir. Müharibə başlanması səbəblərindən birisi Türkiyənin təcili və ciddi surətdə olaraq müsəlləh olması [silahlanması] və qoşununu tərxis etməməsidir. Neçə gün bundan əqdəm [qabaq] Ərzurum ətrafında bir qolordu [korpus] miqdarında türk qoşunları olduğu kəşf edilmişdir. Bundan əlavə, türklər qaçqınları bilmərrə buraxmayırlar. Kiçik Asiyanın başqa yerlərində külli miqdarda silah və qeyri hərbi ləvazimat anbarları mövcud olduğu haqqında məlumat alınmışdır. Buna görə də italyanlar gəldikcə, ingilis qoşunları Qafqaziyadan tamamilə çəkilib gedəcəklərdir.

### Keşlə camaatının xahişi

Keşlə kəndi camaatı Bakı valisinə müraciətən məlum etmişdir ki, məzkur [adı çəkilən] kənd əhalisi bir tərəfdən erməni

Keşləsi, digər tərəfdən Çornı-qorod ilə sərhəd olub, keçən il Mart hadisəsi zamanında böyük fəlakətlər və müsibətlərə mütəhəmmil olmuşlardı [qatlaşmışdılar]. Bu il dəxi ümumi tətil vaxtında həm kənd və həm də Çornı-qorodda qarovul vəzifəsini ifa edib, mədənləri mühafizə etmişlərdir. Məzkur kəndin hökumətə bu vaxta qədər etmiş və bundan sonra edəcək olduğu xidmətlər nəzəri-etinaya alınaraq, əhaliyə 50 dənə tüfənglə 25000 dənə patron verilməsi rica və arzu olunur.

### Dağıstan xadimlərinin bəyanatı

Bu günlər Bakıya varid olmuş [gəlmiş] Dağıstan camaat və millət xadimləri Azərbaycan Məclisi-Məbusanı heyəti-rəyasətinə Dağıstan hadisatı haqqında bəyanat vermişlərdir. Bəyanatdan anlaşıldığı vəch üzrə, axırkı qəmli hadisəyə hökumət başında oturan bir çox xain şəxslər, müstəbid generallar və afiserlər səbəb olmuşlardır. Bu xainlər ta əvvəldən Könüllü ordu ilə əlaqədar olub və gizli surətdə onun generalları ilə müzakiratda bulunurlarmış.

### Könüllü ordu nümayəndəsi Bakıda

Bu günlərdə Bakıya Könüllü ordu nümayəndəsi polkovnik Bubnov gəlmişdir. Mumaileyh [adı çəkilən şəxs] Azərbaycan Hökumətinə məlum etmişdir ki, Könüllü ordu Azərbaycan Cümhuriyyətinə heç bir əks hərəkat məqsədində deyildir. O Parisdəki Dövlət Şurası əzasından [üzvlərindən] olduğu üçün qəti surətdə söyləyə bilər ki, istər Kolçak, istərsə Denikin Qafqaz cümhuriyyətlərini qəbul etmişlərdir.

## FƏHLƏ HƏYATI

### Balaxanıda

Moskovski-Kavkazski şərakətinin [Moskva-Qafqaz Neft Şirkətinin] müsəlman əmələlərinin 26 mayda iclası vaqe oldu. Müzakirəyə qoyulan məsələlər:

1) Ərzaq barəsində. Hacı Əlibaba Əli oğlu ərzaq barəsində məlumat verir və rica edir, tez bir vaxtda fəhlələrin siyahıları tutulub mərkəzi "Müsavat" idarəsinə verilsin. Bu məsələ ümumiyyətlə qəbul olunur və ərzaq işində işləmək üçün bu şəxslər seçilirlər: Böyükağa Əli oğlu, Mirmahmudxan Miribrahimzadə və Məşhədi Rüstəm Abbas oğlu. Fəhlələrdən bəziləri yenə fındıq-qoz verməsinlər deyə sualda bulunurlar. Bu barədə müəllim əfəndi sədrdən icazə alıb bunları başa salır ki, daha bir də fındıq və qoz görməz inşallah və müəllimlər üçün də böylə bir şey olduğunu bəyan edir. Ona görə siyahı tutulur.

2) İşdən çıxarılan yoldaşlar barəsində danışılır. Sonra sədrin göstərməyi ilə üç nəfər yoldaşlardan seçilir, məzkur [deyilən] firmanın idarəsinə gedib çıxarılmış yoldaşların təkrar işə götürülməsi üçün iqdamatda [təşəbbüsdə] bulunsunlar.

Seçilmiş şəxslər bunlardır: Məşhədi Həmid İbrahim oğlu, Məşhədi Süleyman Sadıq oğlu və Hacı Əli.

3) Zabastovka [tətil] zamanında çıxılan muzdlar barəsində danışıq olur. Bu barədə uzun-uzadı danışıqdan sonra Məşhədi Həmid Paşa oğlu məlumat verir və bəyan edir ki, müsəlman əmələlərinin məvaciblərini saxlayan firmadan bir dəfə də əmələlər saxlanılan pulların qaytarılmasını rica etsinlər. Öylə ki, firma vermək istədi, onda kağızla Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"a məlum edilsin və göstərilsin neçə günün pulunu kəsiblər nahaq yerə. Onda "Müsavat" lazımi yerinə bildirib alar. Bu təklif ümumiyyətlə qəbul olunur. Sonra möhtərəm Məşhədi Həmid əfəndi İstiqlal bayramı və birlik barəsində danışıb fəhlələrin ayıq olmalarını tövsiyə edir. Nəhayət, mədən dairəsində müsəlman əmələlərinin məhəbbətini qazanmış İsgəndər Hüseynzadə əfəndi nitqə başlayır. Bu[n]lar da birlik, hər bir nifaqı rədd etmək və ümum fəhlələrin ittihadı barəsində gözəl danışıb axırda bunların içində bəzi pis adamların olmasını göstərir və öylə şəxslərin müsəlman fəhlələrinin içindən çıxarılmasını tövsiyə edir.

4) Yeni komissiyalar barəsində müzakirata keçilir. Fəhlələr az olmağına görə də, xarici yoldaşların olmamağına görə böylə qərara gəlirlər ki, yeni komissiyalar seçkisi bazar ertəsinə təyin edilsin və o gün hamıya deyilsin və rusca, türkcə yazılıb hər yerə vurulsun ki, bu dəfə üçüncü dəfə olmağına görə hər nə qədər adam gəlsə, seçki qanuni hesab olunacaqdır.

*H. H.*

### İtibdir

Abı Məşhədi Məhəmmədəli qızı, 50 yaşında gödə[k] boylu, ayağında göy ayaqqabı, bu gün 9 gündür itibdir. Görən şəxslərdən acizanə təvəqqe edirəm bu adresə xəbər versinlər: Suraxanski küçədə dalan nömrə 13, ev nömrə 15, Kərbəlayi Xudaqulu Məhəmməd oğlu.

*10207*

### Bəhri-Xəzər İstehlak Cəmiyyəti "Kooperatsiya" müalicəxanası

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

### Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

Moskvada təcrübə görmüş diş həkimi **K. S. Kolandskaya-Sanuxat** kabinə açmışdır. Müalicə edir, dişləri doldurur, süni dişlər qayırır və dişləri ağrısız çəkir. Qiymət müna-

sibdir. Qəbul edir: Hər gün səhər saat 9-2-yədək; aşxam saat 5-7-yədək. Adres: Bazarnı və Suraxanski küçələrin küncündə, nömrə 112.

*8795*

### Arvad diş həkimləri
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

Diş müalicəxanası və süni diş laboratoriyası. Adres: Sisyanovski (Ləzginski) və Çadrovı küçələrin küncündə nömrə 41. Telefon 22-07. Qəbul edir səhər saat 6-dan 8-ədək; səhər saat 11-dən 2-yədək; axşam saat 4-dən 8-ədək. Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır.

*8779*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

Doktor **M. M. Kərimov** göz naxoşlarını və diş həkimi **A. Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Diş həkimi R. S. Fuks**

Qəbul edir: 9-dan 10-a dək; 5-dən 7-yədək. Ünvan: Mariinski, nömrə 18. Ferdinandın aptekası ilə bərabər. Telefon nömrə 34-15.

*10202*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*8798*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor**
**M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. "606" və "914" müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-





dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Zəhmət (məsai) bürosu**

Bakı Şəfqət Bacıları İttifaqı şəfqət bacılarını gecə işlərinə, iynə vurmağa, masaj etməyə müərriflik edir [tövsiyə edir, zəmanət verir]. İttifaq öz işçilərinin işlərinə cavabdehdir. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Budaqovski və Malakanski küçələrin küncündə, nömrə 16/22, mənzil 6. Konkanın mənzili. Telefon nömrə 14-08. Büro bütün gün açıqdır.

*8755*

**Elan**

Sabiqdə Tiflis şəhərinin canişin sarayında hər növ çərkəz libası tikməklə məşhur olan Balabəy hal-hazırda Bakı şəhərində Nikolayevski küçədə Seyidəhməd Əzimzadənin dükanında aşağıda adları zikr olunan formaları qəbul edir: "çerkasski kazaçi", "çerkaski imereteniski, çerkaski asetiniski", "Qarabağ çərkəzi" və hər bir formanın şubasını [kürkünü] və Malorossiyski şubalar.

Tikdiyim işlərdən müştərilərin məmnun qalmalarına əminəm.

*Kamali-ehtiramla: Balabəy*
*10204*

Batumdan xarici məmləkətlərə yun yollamağı və xarici məmləkətlərdə komisyon təriqi [yolu] ilə satmağı İ. V. Denisovun bankir kontorası qəbul edir. (Velikoknyajeski, nömrə 1).

*8799*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bununla ümuma elan edir ki, Azərbaycan daxilində bir yerdən qeyri yerə ikra, təzə balıq, şərab, konyak və vodka aparılmağa icazə verilir.

*Müavini-nazir: [Yusifəli] Əliyev*
*Əslində mütabiqdir.*
*Kargüzar (imza)*
*T-144*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Fatəbiru…**

səh. 53. "Fatəbiru ya ulil-əbsar ləalləküm tuflihunə": (ərəbcə) "Fatəbiru ya ulil əbsar": Quranın Həşr surəsinin 2-ci ayəsinin son hissəsi, mənası "Ey, ağıl sahibləri, ibrət alın"; "ləalləküm tuflihunə": Quranın Cümə surəsinin 10-cu ayəsinin son hissəsi, mənası "Ümid var ki, murada çatasınız".

"Və zəlikə hüvəl-fevzül-əzim": Quranda 10-dan artıq surədə təkrarlanan söz; mənası "Bu, böyük qurtuluşdur". Qəzetdə səhvən "fevzül" sözü düşmüş, "Və zəlikə hüvəl-əzim" kimi getmişdir.

"Xətəmə Allahu…": Quran, Bəqərə surəsi, 7-ci ayə.

"qulaqlarına möhür vurubdur": qəzetdə belə getmişdir: "qulaqlarına möhür vurubdurlar".

səh. 54. "Dani ki çe qoft Zal ba Rostəme qord / Doşmən nətəvan həqire biçare şomord": "Bilirsənmi Zal igid Rüstəmə nə dedi? / Düşməni alçaq və çarəsiz sayma!" (farsca)

"Aşiqan can bə-kəf və müntəziri-fərmanənd": "Aşiqlər canları əllərində buyruq gözləyirlər". (farsca)

**Hazır ol!**

səh. 54. "Millətim növi-bəşərdir, vətənim ruyi-zəmin": "Millətim bütün bəşəriyyət, vətənim bütün yer üzüdür." Misra türk şairi Tofiq Fikrətə məxsusdur. Qəzetdə bu misra tünd şriftlərlə yığılmışdır.

"Demə bu rus, bu müsəlmandır…": beyt Seyid Əzim Şirvaniyə məxsusdur. Birinci misra əslində belə olmalıdır: "Demə bu kafər, ol müsəlmandır".

səh. 55. "…yenə bir fikir və əməl…": qəzetdə "əməl" yerinə "əsl" getmişdir.

"Bəni-Adəm əzayi-yek-digərənd": (farsca) "Adəm övladları bir-birinin orqanlarıdır; bütün insanlar bir bədənin orqanları kimidir." Misra Sədi Şiraziyə məxsusdur. Qəzetdə tünd şriftlərlə yığılmışdır.

səh. 56. "Hazır ol cəngə, əgər istər isən sülhü səlah": "Sülh və əmin-amanlıq istəyirsənsə, müharibəyə hazır olmalısan." Bu misra türk şairi və həkimi Əbdülhaq Mollanındır.

**Teleqraf xəbərləri**

səh. 57. "Çerniqov": qəzetdə təhrif edilərək "Perinqov" kimi yazılmışdır.

"Əmir Hüseynin oğlu Faysaldır": söhbət I Faysaldan gedir.

**Qəzetələrdən**

səh. 58. "Naşe vremya": Bakıda nəşr edilən qəzet; "bitərəf" ermənilərin orqanı olmuşdur.

səh. 59. "Qeuli": güman ki, hal-hazırda Türkiyənin Ərdahan ilinin bir ilçəsi olan Gölə nəzərdə tutulur.

"ittihadçılar": Birinci Dünya müharibəsindən əvvəl Türkiyədə hakimiyyətə gələn İttihad və Tərəqqi partiyasına mənsub olan şəxslər nəzərdə tutulur.

"Aşxatavor" (Fəhlə): Tiflisdə nəşr olunan erməni qəzeti.

**Vükəla Şurasında**

səh. 61. "put vergisi": xüsusən limanlarda, ticarət mallarından put başına alınan vergi.

"Şamaxı əhalisinin maddi cəhətdən": qəzetdə "maddi" yerinə "adi" getmişdir.

səh. 62. "1) Mart ayı tabelləri üzrə çıxan məxaricat": bu maddənin bəndləri qəzetdə ərəb əlifbasının hərf sırasına uyğun olaraq "əlif, bə, tə…" kimi işarələnmişdir.

**Nəzarətlərdə**

səh. 62. "fabriçni müfəttişlik": Fabrik müfəttişləri sənaye müəssisələrində əmək şəraitinə nəzarət edən dövlət qurumu Fabrik Müfəttişliyinin nümayəndələri idi. Fabrik





Müfəttişliyi Rusiya imperiyasında sənayenin inkişafına bağlı olaraq XIX əsrin axırlarına doğru yaradılan, sənaye müəssisələrində əmək şəraitinin qanunlara uyğun olmasına nəzarət edən dövlət qurumu idi. Bakı quberniyasının Fabrik Müfəttişliyinin heyəti Baş Fabrik müfəttişindən və sahə müfəttişlərindən ibarət idi.

**Felyeton**
**Aclıqla tədavi**

səh. 64. "bir mövqe hazırlaşmamış olsaydı": qəzetdə belə getmişdir: "bir mövqe hazırlaşmış olsaydı".

səh. 67. "Fənni-tibbi" [Real-Encyclopädie der gesammten Heilkunde]: Alman həkimi Albert Eylenburqun tibb ensiklopediyası.

**Milliləşdirmək məsələsi**

səh. 69. "3) Türk ədəbiyyatından işbu əsərlər": qəzetdə bu bəndin nömrəsi səhvən "4)" kimi getmişdir.

səh. 70. "Bu müsəvvid və mübəyyizlərin": qəzetdə "müsəvvid" yerinə "məsud" getmişdir.

**Mütəallimlər qurultayı**

səh. 72. "birinci olaraq qurultayda": qəzetdə belə getmişdir: "birinci olaraq qurultayı".

**Bakı xəbərləri**

səh. 73. "Tazəşəhər": indiki Türkmənbaşı şəhəri.

səh. 74. "Parisdəki Dövlət Şurası": Keçmiş Rusiya imperiyasının xarici strukturlarının birləşmiş nümayəndəliyi kimi 1918-ci ilin axırlarında Parisdə yaradılan və 1919-cu ilin ortalarında öz fəaliyyətinə son verən siyasi qurum olan Rus Siyasi Müşavirəsi (Русское политическое совещание) nəzərdə tutulur.

**Fəhlə həyatı**

səh. 74. "Məşhədi Rüstəm Abbas oğlu": qəzetdə belə getmişdir: "Məşhədi Rüstəm Əba oğlu".



*“Azərbaycan” qəzetinin 195-ci nömrəsinin 1-ci səhifəsi*





**Çərşənbə, 4 iyun 1919-cu il, nömrə 195**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 5 ramazanül-mübarək sənə 1337. 4 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

### Daxiliyyə Nəzarətindən təkzib

Bu axır vaxt bir para məhəlli [yerli] qəzetələrdə Azərbaycan Cümhuriyyəti dairəsində yaşayan rusların Könüllü ordu tərəfindən əsgərliyə dəvət edilmələri haqqında xəbərlər dərc edilməkdədir. Bununla elan edirəm ki, Azərbaycan Cümhuriyyəti dairəsində Könüllü ordu tərəfindən heç bir istihzari-əsgəriyyə [hərbi çağırış] və könüllü cəm edilməsi təsəvvür edilməyir və buna yol verilməz. Təhqiq edilməmiş və məqsədən bu cürə yalan şayiələr buraxmaqla əhali arasında həyəcana bais olan qəzetələr mənim tərəfimdən şiddətli məsuliyyətə cəlb ediləcəklərdir.

*Daxiliyyə naziri:*
*Nəsib bəy Yusifbəyli*

## XANISTAN-ERMƏNİSTAN

Tam bir il qabaq idi. Osmanlılar Naxçıvana girdilər, hökumət qurdular. Az vaxtda rahatlıq və asayişi yerinə gətirdilər. Buna görə hər kəs özlərinin xilaskarları olan Osmanlılardan az-çox razı olurdular. Lakin bircə xanlar məmnun görünməyirdilər. Çünki rus zamanındakı xan və bəyliklərini sürəmməyirlərdi. Nüfuz və sərvətləri gün-gündən azalırdı. Alverçilər kimi ticarətlə məşğul olmağa, az da olsa zəhmətkeşlər kimi çalışmağa məcbur olurlardı. Xanlıqları, hakimlikləri, pulları, məişətləri, kefləri tamam daralır, günləri isə qaralırdı.

Çox çəkmədi, Osmanlılar çəkildi. Naxçıvan öz başına qaldı.

Xan və bəylərin günü doğdu. Çünki təşkilatsız camaata, avam məxluqa xan, bəy lazımdı.

Xani-Naxçıvanskilər [Naxçıvan xanları; Naxçıvanski familiyasından olan xanlar]: cəfərqulular, kəlbəlilər, meymunvəlilər, qənbərəlilər, əmirəlilər, bayraməlilər yenə iş başına, camaat boynuna keçdilər.

Zaman və hal da başqa idi. Camaat bunlara, bunlar camaata lazım görünürdü. Xeyli vaxtdan bəri nüfuzdan, hakimiyyətdən, zövq və səfadan düşmüş xanlar, ilk öncə canü dildən [candan və könüldən, ürəkdən] çalışdılar, təşkilat yapdılar, pul topladılar, qoşun yığdılar. Bunların qeyrət və zəhmətlərini görən camaat isə daha artıq həmiyyət və millət-

pərəstlik göstərdilər. Pul olsun, adam olsun, əsirgəmədilər.

Az vaxtda on minə qədər qoşun yığıb sərhəddə qoydular. Ermənilərin bir neçə şiddətli hücumlarını aslanca dəf etdilər. Onlara hədlərini bildirdilər, son nəfəslərinə qədər vətənlərini müdafiə edəcəklərinə and içdilər. Bütün lazımlı yerlərə, sərhədlərə qoşun doldurdular. Dəmiryollara adamlar qoydular. Bütün xətti əllərinə keçirdilər, işlətməkdə davam etdilər. İdarələri tənzim eylədilər. Kiçik bir Parlament tərzində böyük bir Milli Şura vücuda gətirdilər. Milli Şura başına Qənbərəli Bənaniyarskini, qoşun komandanlığına Kəlbəli Naxçıvanskini keçirtdilər.

İşlər, idarələr bir xeyli vaxt yolu ilə getdi. Naxçıvan, Şərur, Sürməli və İrəvanın da bir qismi müstəqil, rahat, kiçik bir məmləkət halına döndü.

Xanların, bəylərin və bunların adamlarının cibləri doldu, qarınları şişdi, qafaları qızdı, ürəkləri böyüdü, gözləri açıldı, boyunları yoğunladı, kefləri kökəldi. Yavaş-yavaş uzun zəhmət çəkmək, həmiyyət göstərmək artıq görüldü.

Mətlub [arzulanan şey] hasil olmuş, hakimiyyət qazanılmışdı. Şimdi yenə əski sənətə, camaatı soymağa, on dörd-on beş yaşındakı cavanları əsgərliyə (?) götürməyə, gözəl şux qızlar axtarmağa, onu-bunu qorxudub pul yığmağa... bilməm nələrə, nə alçaqlıqlara başlamaq lazımdı.

Böylə də oldu:

Kəlbəlilər və küçədaşları əski heyvani xasiyyətlərini unutmadılar. Biçarə camaatın canına dalaşdılar, hər biri birər soyğunçuluğa girişdilər:

Milli Şura rəisi Qənbərəli bəyin qardaşı Əmirəli bəy [Bənaniyarski], xalası oğlu Bayraməli bəylə bərabər Bakı-Culfa dəmir yolunun Culfadakı dəmir, taxta, sement və qeyrə əşyasını tamamilə satdılar.

Cəfərqulu xanın oğlu Davud xan Naxçıvanın, Makunun buğdasını vaqonlarla Ermənistana daşıdı. Az vaxtda böyük pullar qazandı.

İrəvandakı Azərbaycan vəkilimiz [Məhəmməd] xan Təkinskinin ataşe-militeri [hərbi attaşesi] Xanlar xan Naxçıvanski üç gündə bir Ermənistandan Naxçıvana keçib alverlə məşğul olur və Azərbaycanın siyasi nümayəndəsinin siyasi sandığını siyasi kağızlar yerinə Nikolay kağızları ilə doldururdu. Və indi də doldurmaqdadır.

Xanların, bəylərin və bunların cibdaşlarının sandıqları pul, qarınları kabab və şərabla dolduğu vaxt, yazıq Azərbaycan zabitləri yeməyə çörək tapmayırdılar. Aylarca zəhmət və məşəqqət içində vəzifələrini görürdülər.

Son vaxtlarda zabitlərin çörəkləri deyil, özləri də artıq görüldü.

Çünki xanların alverlərinə, qoşun içindəki intriqalarına, camaat arasındakı soyğunçuluqlarına əngəl olurdular.

Bunların, bu yaramaz qonaqların oradaki ömürləri də çox sürmədi.

Azərbaycanın Naxçıvan qubernatoru Cəfərqulu xanın və qoşun rəisi Kəlbəli xanın arzuları, ingilislərin təşəbbüslərilə məzkur [adı çəkilən] zabitlər günün birində Naxçıvandan qovuldular. Bu qovulmadan sonra bütün meydan xanların keflərinə qaldı. Bundan istifadə unudulmadı:

Xanlar Ermənistana, ermənilər Xanıstana – Naxçıvana keçib gəlməyə, əski dostluqlarını təzələməyə üz qoydular.





Bu dostluqlardan sonra, çoxdan bəri məyus duran cənab [Aleksandr İvanoviç] Xatisovun könlü açılmağa, kefi gəlməyə başladı.

Xatisov könlünün böylə qolay açıldığını hiss edincə ermənilərə Naxçıvan yolunu açmaq, kefinin böylə dostluqlarla tez gəldiyini anlayınca Xanıstana – Naxçıvana gəlmək xəyalına düşdü və bu xəyal get-gedə xanların, bəylərin yardımları sayəsində bir həqiqət oldu:

Xatisov və kampaniyası ingilisləri rahatsız etməyə, İrəvan-Culfa-Təbriz dəmir yolunu, Şahtaxtı-Maku-Bayəzid xəttini vaxtilə tutmaq lazım olduğunu anlatmağa, təşviq etməyə can və başla çalışdılar.

Azərbaycanla Osmanlıların həmhüdud olmalarından çox da xoşlanmayan ağa ingilislər, türklərin zərərinə olan Böyük Ermənistana yardımdan çəkinmədilər.

Naxçıvan, Şərur və Sürməli uyezdlərinin tamamilə Ermənistana ilhaqını [birləşdirilməsini] münasib gördülər.

Bu münasibəti qabaqca, təbii, Naxçıvan camaatına açmaq olmazdı. Bunu ingilislərin, ermənilərin özləri də yaxşı bilirlərdi.

Burasını da yaxşı bilirlərdi ki, pula qulluğa kasıblardan, qara camaatdan artıq yenə onlara alışan, zövq və keflərə adət edən dövlətli xanlar, bəylər həvəs edərlər.

Buna görə, hər şeydən qabaq xanlarla uyuşmaq vacib bilindi. Və yüngüllüklə də uyuşuldu...

Lakin arada bircə çətinlik qalmışdı: hüdudda və içəridə müdafiəyə hazır on min qoşun vardı. Bunları bir cür aldatmaq, gücdən salmaq lazımdı.

Son vaxtlarda Xatisovla qan və cib qardaşı olan Kəlbəli xan bunun da qolayını tapdı.

Dəhnə kimi təbii qalada duran müsəlman qoşununu təbdil [dəyişiklik] bəhanəsilə oradan özgə yerə çəkdi. Dəvəli-Dəhnə yolunu ermənilərə açdı. Ac, çılpaq iki yüz erməni qoşunu ingilis zirehli vaqonlar[ıy]la birdən sərhədi keçib Naxçıvana – bu Xanıstan paytaxtına girdi. Ermənilər ingilislərlə bərabər, təslim olmaq istəməyən qeyrətli Hacı Mehdini və qeyri başçıları tutub Qars fədailəri kimi Batuma, oradan da Malta adasına göndərmək istədilər. Lakin onlar tutulmayıb qaçdılar. Onlar qaçınca, camaat da başsız, komandansız qalıb təslimə məcbur oldular.

Ermənilər mayın 9-da bütün şəhərə və mahala zəhmətsizcə sahib oldular.

Xanlar, sərtacları [başlarının tacı; əzizləri] Xatisova və məiyyəti daşnaklara verdikləri böyük və təntənəli übudiyyət [köləlik; itaət] duz-çörəyiylə Xanıstanın Ermənistana ilhaqını elan etdilər.

İştə, ermənilər böylə ingilis və tülkü üsuluyla Azərbaycanın ən məhsullu, bərəkətli və əhəmiyyətli yerlərinə sahib, yarım milyonluq bir nüfusa [əhaliyə], böyük bir türk kütləsinə ağa oldular. Həm də bu böyük nemət və şərəfə bir nəfərlərinin burnunu qanatmadan, böyük bir fədakarlıq göstərmədən nail oldular.

İştə, bizimlə ermənilərin fərqi!

İştə, bizim xanlarla erməni xanlarının halı!

İştə, ümumiyyətlə zəhmətkeşlər ilə rahatlığa öyrənən xanların, bəylərin yapacaqları!

Yüz il qabaq Cəfərqulu xanın dədəsi

Kəlbəli xan Naxçıvanı xəyanətlə ruslara təslim etmişdi, indi də oğlu Kəlbəli xan ermənilərə təslim etdi.

Nə acı, acı olmaqla bərabər, nə qədər doğru təsadüf!

Bunları yazan vaxtda bir hiss, bir fikir həmişə zehnimi tırmalayırdı, rahatsız edirdi:

Kim bilir mərhəmətli Azərbaycan vücudunda nə cür qurdlar, əski rüşvətciliyə, xainliyə alışmış nə qədər xanlar-bəylər, köhnəsi kimi qulluq etməyə adət etmiş, öz faydası üçün millətini, istiqlalını satmaya hazır neçə alçaq məmurlar var?

İştə, qabağımızda Naxçıvan xanları!

İştə, ürəyimizdən heç vaxt çıxa bilməyən gözəl Naxçıvan, Şərur torpaqları!

İştə, Xanıstanın Ermənistana ilhaqı!

İştə, sizə qiyamətə qədər yaddan çıxmayacaq canlı bir misal!

*Ümidvar*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Royter acentəliyindən)*

Londondan xəbər verirlər ki, Orlando Vilsona verdiyi öz cavabında həqiqəti etiraf etməyir ki, Avstriya-Macarıstanın məhv olması İtaliyanın arzularının məhdud bir hala salınmasına bais olar.

Orlandonun Vilsona verdiyi cavabında deyilir ki, İtaliya nümayəndələrinin tələbatı əski və yeni İtaliya hüquqları ilə əsaslanır. Orlando izhar edir ki, Alp dağlarını təzə sərhəd vermək qərarının böyük əhəmiyyəti olacaqdır. Bu şərtlə ki, şərq tərəfi müdafiəsiz qalmamış ola və Qara dəniz ilə Bəhri-Səfidə [Aralıq dənizinə] tərəf axmaqda olan nəhrlər arasındakı Movozo silsileyi-cibalı [dağ silsiləsi] İtaliya müstəmləkəsinə daxil ola. Sonra Orlando isbat edir ki, Vilson istiqlaliyyət tərəfdarı olduğuna görə, Fiume hüququnu etiraf etməlidir. Bu şəhərin camaatı izhar etmişlər ki, şəhər qədimdən İtaliya şəhəri olmuşdur. Fiume portunun beynəlmiləl əhəmiyyəti haiz olduğu [daşıdığı] münasibətilə bu portun İtaliyaya verilməsi rədd edilərsə, o zaman ən əvvəl Antverpen, Genuya və Rotterdam kimi beynəlmiləl portlar malikiyyəti dəxi imtina edilməlidir. Sonra axırda Orlando əlavə edir ki, müzakiratda mətanət lazım olduğuna baxmayaraq, İtaliya heyəti ümumi sazişə nail olmaqdan ötrü həmişə güzəştə getmişdir.

- "Havas" acentəliyi xəbər verir ki, fransız dairələrində məlum olduğu üzrə Almaniya 70% dəmir, 30% kömür və 20% potaş mədəniyyatını [mədənlərini] itirəcəkdir.

- Yenə Parisdən "Havas" acentəliyi xəbər verir ki, dünən bütün Fransada işlər başlanmışdır. Paris adi halına düşmüşdür. Dərzi dükanlarından başqa hər yerdə işləyirlər. Dərzilərin tətili davam edir. Paris dairələrində böylə təsəvvür edirlər ki, Kiao-Çao məsələsinin həlli İtaliya heyətinin qayıdacağına ümid verir. Təsəvvür edildiyinə görə, Yaponiya hüququnun etiraf edilməsi [ilə] İtaliyanın da Fiumeyə haqqı olduğu Konfrans tərəfindən təsdiq edilmiş deməkdir.

### Amerika Məclisi-Əyanında

Vaşinqtondan xəbər verirlər ki, Amerika Məclisi-Əyanında [Senatında] Şerman Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] məsələsi haqqında müzakirə açaraq izhar etmişdir ki: Cəmiyyəti-Əqvam məramnaməsi milləti keyfəmayəşa [öz kefinə görə, özbaşına] tərəfdarları tərəfindən kontroledici bir Parlaman vücuda gətirilməsi üçün inqilabi bir təşəbbüsatdır. Şerman Vilsonu ona görə müttəhim edir ki, o, İngiltərənin təzyiqi altında Çin, Polşa və İtaliya haqqında verdiyi sözünə əməl etməmişdir. Şerman demişdir ki, Cəmiyyəti-Əqvam Amerika Hökumətini dərəbəylik [vassal] bir ölkəyə döndərəcəkdir.

### Riqa cəbhəsində

Kopenhaqdan teleqraf edildiyinə görə, Libavadan Berlinə xəbər verirlər ki, Latviya Hökuməti alman əsgərlərinə Latviyada qalmaq icazəsi verilməsini Almaniya hökumətindən xahiş etmişdir. Çünki bir tək latışlar cəbhəni bolşeviklər əleyhinə saxlamaqdan acizdirlər. Şiddətli müharibədən sonra Riqanın bir hissəsi işğal edilmişdir. Hal-hazırda cəbhə Riqadan Mitava dəmiryol xəttinə qədərdir.

- Rəsmi məlumata nəzərən, Əfqanıstan sərhədində ciddi müharibələr vüqu bulmayır. Arabir ingilis aeroplanları Kabil və Cəlalabadda əfqan qoşunları üzərində teyr edirlər [uçurlar].

- Nemeslərin 20 ədəd sualtı qayıqları Sivansi boğazında məhv ediləcəkdir.

- Yokohamada olan yanğından orada 2 min ev məhv olmuşdur.

- İstanbul - Burada 12 nəfər "İttihad-Tərəqqi" firqəsi başçılarının işləri divani-hərbdə [hərbi məhkəmədə] mühakiməyə başlanmışdır. Bunların cümləsində sabiq Xariciyyə naziri Xəlil bəy [Məntəşə] vardır. Bundan əlavə, müqəssirlər cümləsində Ənvər, Tələt və Camal paşalar vardır ki, bunlar vaxtilə İstanbuldan qaçmışlardır. Bunlar da mühakimə ediləcəkdir.

- Əfqanıstanda birinci olaraq vəzarətlər [nazirliklər] təşkil edilmişdir.

## SÜLH ƏTRAFINDA

Pəncşənbə [cümə axşamı] günü günortadan sonra nemeslərin əks-təkliflərinin ikinci hissəsi Sülh Konfransına verilmişdir. Bu təklif 150 səhifədən ibarətdir. 88 səhifəsi litoqrafiya ilə çap edilib 20 nəfər mütərcimə tərcümədən ötrü verilmişdir. Bu sənədləri mütərcimlər fransız və ingilis dillərinə tərcümə edirlər.

### Adriatik barəsində saziş

"Tayms" qəzetəsi xəbər verir ki, Adriatik dənizi barəsində sazişlik əmələ gəlmişdir. Bu barədə qəzetə zeyldəki [aşağıdakı] məlumatı verir:

Prezident Vilson – ki bu gün Yuqoslovak nümayəndələri ilə görüşəcəkdir – Orlando tərəfindən tərtib verilmiş olan layihəni təsvib eyləmişdir [bəyənmişdir]. Bu layihənin ümdə maddələri bundan ibarətdir: Fiume şəhəri Sivşardan başqa şəhərin qərb cəhətində olan yerlərlə bərabər Cəmiyyəti-Əqvamın təhti-himayəsində [himayəsi altında] müstəqil bir dövlət təşkil edilir. Bu dövlət İtaliya ilə həmsərhəd olacaqdır. Fiumedən Leybaxa gedən dəmiryol da bu dövlət ixtiyarında olacaqdır. Zara və Subeniko İtaliya himayəsində olacaq. Bu qitə Dalmaçya boyunda heç bir torpaq iddiasında olmamalıdır. Hərbi nöqteyi-nəzərlə əhəmiy-

yəti olan Serşu, Lusbik və Pisa cəzirələri [adaları] İtaliyanın hökmranlığı altında olacaqdır. Digər tərəfdən Albaniyanı idarə etmək üçün Cəmiyyəti-Əqvam İtaliyaya mandat verir.

**İngiltərənin Sülh Şurası rəisinin protestosu**

İngilis Sülh Şurası rəisi Çarlz Tredelyan "M. K." qəzetəsində şimdiki sülh müahidəsinə [sazişinə] protesto edir. Mümaileyh [adı çəkilən şəxs] deyir ki, indiki sülh müahidəsi yalnız müvəqqəti hərbin dayandırılmasına bais olur. Bu sülh müahidəsinə beynəlmiləl əhəmiyyəti olan sülh aparatı demək olmaz. Beynəlmiləl demokratiya Vilsonun sözlərində göstərilən sülhə ümidvar olurlar. İndiki müahidə isə ciddi tənqidata möhtacdır.

* Almanların Versal Sülh Konfransına verdikləri əks-təklifdə Lloyd Corc, Vilson, Pişon və Bonar Lounun nitqlərinin xülasəsi yazılmışdır. Almanlar bəyan edirlər ki, 1917-ci sənə aprelin 2-də söylədikləri nitqlərlə Vilson nöqteyi-nəzərinə müvafi-qət edirdilər [uyğun mövqe sərgiləyirdilər]. Onlar bəyan edirdilər ki, Müttəfiqlər Almaniya milləti ilə deyil, Almaniya cahangirliyi [imperializmi] ilə müharibə edirlər və almanların sülh və müsalimət [əmin-amanlıq] içində tərəqqi etmələrinə mane deyildirlər. Ona görə Almaniya milləti indiki dağıdıcı sülh deyil, ədalətli sülh gözləyirdilər.

**Alman mürəxxəsləri**

Pəncşənbə [cümə axşamı] günü əkstəklifin Müttəfiqlərə təslim ediləcəyini nemeslər gözləyirlər. Alman sülh mürəxxəslərindən [nümayəndələrindən] 56 nəfəri Versaldan Berlinə əzimət edəcəkdir [yola düşəcəkdir]. Rantsau öz svitası ilə [məiyyəti ilə, onu müşayiət edənlərlə] ya Spa, yaxud Berlinə əzimət edəcək, sonra yenə qayıdacaqdır.

**İranın tələbi**

İran sülh mürəxxəsləri [nümayəndələri] Parisdə Sülh Konfransına bir müxtirə [nota, yazılı qeyd] vermişlərdir. Bu müxtirədə mürəxxəslər İranı 13-15-ci əsrlərdə olan sərhədlərində müstəqil bir dövlət görmək istəyirlər. Bakının, Tiflisin də İrana mülhəq edilməsini [birləşdirilməsini] tələb edirlər. Bu barədə Fransanın "Tayms" qəzetəsi yazır:

*"Sülh Konfransında bir çox tələblər görmüşdük, lakin iranlıların tələbi kimi tələb görməmişdik."*

- İtaliya Kabinəsi qət eyləmişdir [qərar vermişdir] ki, İtaliya sülh mürəxxəsliyindən [nümayəndəliyindən] imtina edən üç nəfərin əvəzinə yenidən üzvlər təyin edilsin. Fiume və Dalmaçya məsələləri hələlik həll edilməmişdir. Fransız qəzetələri fransız ilə İtaliya arasında siyasi bir ittifaq əqdini lazım görürlər. Zira Avropanın gələcəyi iki böyük latın millətinin ittifaqından asılı olacaqdır.

- "Jurnal de Deba" qəzetəsi yazır ki, fransız istila qoşunlarının baş komandanı general Feyel Koblensə əzimət eyləmişdir [getmişdir]. Almanlar sülh imzasından imtina edəcəyi təqdirdə, almanlara qarşı nə kimi tədbirlər ittixaz edilməsi [tədbirlər görülməsi] barəsində general Lidjet ilə məşvərətdə bulunacaqdır.

- Müttəfiqlər İsveçrə Hökumətinə müraciət edərək, Almaniyanın yenidən abluka altına [blokadaya] alınmasında İsveçrənin də iştirak etməsini təklif eyləmişsə də, İsveçrə müsbət cavab verməmişdir.





## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

Maliyyə nazirinin köhnə kağız pulların qəbulu haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

1) Adi pulun dörddən üç hissəsi mövcud olmazsa, yaxud imzalar olmazsa, yaxud iki nömrədən bir nömrə çıxarmaq mümkün olmazsa, öylə pullar qəbul ediləmməz və dəyişdiriləmməzlər. Habelə iki və yaxud bir neçə hissəyə təqsim edilmiş [bölünmüş] pulların parçaları birbirlərinə yaxınlaşdırıldıqda bir pul kimi olmazsa, o vaxt bir pulun hissələri olduğunu sübut edəcək əlamətlər olmadığından, qəbul ediləmməz.

2) Birinci maddələrdə göstərilən əlamətlər vücudu olarsa, pulun köhnəliyi nəzərə alınammaz, xəzinə və başqa kassalarda qəbul və dəyişdirilə bilər.

Bu qətnamə elam edilməlidir [bildirilməlidir]: Qəbul etmək istəməyən əşxas [şəxslər] məhkəmə vasitəsilə 100 rubləyədək cərimə və yaxud üç günədək həbsxanaya alınacaqdır.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Portfelsiz nazir [Xoren] Amaspur Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən rica etmişdir ki, Nəzarətin Vükəla Şurasına idxal ediləcək bütün qanun layihələri onun üçün göndərilsin.

- Məsai Nəzarəti Vükəla Şurasına müraciətən rica etmişdir ki, Mərkəzi Ev Komitəsinin Ərzaq şöbəsinin 1230 və 1221 nömrəli müraciətlərinə məbni [əsasən], Məsai Nəzarətinə ziraət və fəllahət [əkinçilik və kənd təsərrüfatı] makinaları alınmasından ötrü pul buraxılsın.

- Bəhriyyun [Dənizçilik] və Losiya Direksiyası Məsai Nəzarətindən işbu sənənin 26 noyabr dekreti mövcibincə [əsasında] 17 yaşından artıq olanların məvaciblərinə 360 rublə, 17-dən əskik olanlara 180 rublə artırmaq bəhriyyuna [matroslara] da aid olub-olmadığını isticvabda bulunmuşdur [soruşmuşdur].

- Gədəbəy mədəni fəhlələri Məsai nazirinə müraciətən məlum etmişlər ki, onlar əskidən bəri mədən dəvairində [dairələrində] qalaraq orada güzəran keçirmişlər. Fəqət şimdi aldıqları muzd ilə bir fəhlə imrari-həyat etməkdən [güzəranını keçirməkdən] acizdir. Fəhlələr rica etmişdirlər ki, ətrafdakı kəndlər ərazisindən onlara bir qədər ərazi verilsin ki, rəncbərliklə imrari-həyat edə bilsinlər.

- Gəncə nahiyəsi qaçqınları ehtiyacat[ın]dan ötrü Müsüslü və Ləki stansiyalarında iki vaqon çörək mayası alınmışdır.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Şamaxı müfəttişliyi xidmətçi və fəhlələri 28 Mayıs istiqlalı bayramı münasibətilə Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə təbrik teleqramları göndərmişlərdir.

- Şamaxıda qaçqınlar nəfinə [xeyrinə] tərtib verilmiş ianə günü parlaq nəticələr vermişdir. Ümuri-Xeyriyyə və Nafiə

Nəzarəti iştirak etmiş Bələdiyyə rəisi Hüseynbəyov ilə qəza qaimməqamı [qəza rəisi] [Lütfəli bəy] Zülqədərov cənablarına izhari-təşəkkür etmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin səlahdidi [tövsiyəsi] ilə Vükəla Şurası [Nazirlər Kabineti] Zəngəzur qaçqınlarından ötrü 21 milyon rublə təxsisinə dair bir qanun layihəsi tərtiblə təsdiqdən ötrü Məclisi-Məbusana idxal etmişdir. İşbu məbləğlə Zəngəzur əhalisi üçün ərzaq, toxum və qaramal alınmaqla dağılmış evləri təmir ediləcəkdir.

- Bakıdakı iaşə məntəqələrindən ötrü Ümuri-Xeyriyyə və Nafiə Nəzarətindən mayıs [may] ayı üçün 300 min rublə buraxılmışdır.

## İSTİQLALİYYƏT BAYRAMI VƏ QADINLARIMIZ

28 Mayıs İstiqlal bayramı günü bizim də müsəlman qadınlarının küçələrdə, bulvarda və bəzi məsirələrdə [gəzinti yerlərində] isbati-vücud [iştirak] etmələri gözə çarpırdı. Deməli, bizim də müsəlman qadınları "İstiqlaliyyəti" tam mənası ilə olmasa da, o qədər düşünürlər ki, bu – bir şərəfli bayramdır.

Keçən il Mart hadiseyi-əliməsində [faciəli Mart hadisələrində] və daha bə'd [daha sonra] çəkdikləri rənc-əziyyətdən [əzab-əziyyətdən] sonra istiqlaliyyət nəticəsi olaraq vücuda gəlmiş yeni hökumətimizin sayəsində rahat və asudə yaşayışın ləzzətini anlayır və şirinliyini bilirlər.

Böylə bir izdiham, böylə bir nümayiş (ömürlərində nadir görülən bir şey) və gənc əsgərlərimizi hər an canlarını vətən və istiqlaliyyətimiz uğrunda fəda etməyə hazır olduqlarını görüb bəşarətdən [şadlıqdan] gözləri yaşarmış, səmimi madərانə ürəkləri ilə [ana ürəkləri ilə] Haqq-taaladan istiqlaliyyətimizin və hökumətimizin bərqərar olmasına dua edirdilər ki, bir daha keçən zülümlərə düçar olmasınlar. Sevincdən bilmərrə kəndi azadsızlıqlarını fəramuş edib [unudub], sahibləri və övladları ilə o müqəddəs günü bərabər bayram etmişlər.

Fəqət bir qaç nəfər bilinməz kimsələr onların əsarətdə olduqlarını təxəttür etmək [xatırlatmaq] istəmiş, axşam bulvarda, şəhər bağçasında əcnəbi qadınları gəzdiyi halda, çadrada gəzən qadınlara mane olmuşlar.

Əcəba, özləri əsarətdən qurtarıb hürr yaşamaq istəyən cənablar əsarətdən xilas olub hürr yaşadığı halda bilməm neyçin zavallı qadınların müdam əsarətdə olmalarını arzu edib hürr gəzmələrinə mane olurlar.

Şəhər bağçasının, bulvarın polis gözətçi nəfərləri var. Əgər fövqdə [yuxarıda] zikr olunan yerlərdə çadra ilə qadın buraxmamaq bəzi səbəblərə görə lazım gəlməyirsə, neyçün bəziləri xudsəranə [özbaşına] mane olurlar.

Bu məqaləni yazmaqla polis müdirinin canibi-alisinə [uca məqamına] bu istirhamımızı [xahişimizi] yetirmək istəriz ki, şəhərdə asayişi mühafizə etmək və məsuniyyəti-zatiyyəmizi [şəxsi toxunulmazlığımızı] gözləmək ilk öncə onlara həvalə edilmişdir. Bu halda, polislərin riayət etməsinə məmur olduqları qəvanini-hüququn [hüquq qanunlarının] tapdanmamasına onlar kəndi nöqteyi-nəzərlərin[i] bilirlər. Bilməzlərsə, nöqsan polis müdiriyyətindədir. Bu mülahizatımıza nəzərən biz öylə düşünürüz ki, qadınlarımızın təərrüzdən saxlanılması [hücumdan qorunması] ana-bacımızın müəzzəz [əziz] nüfuzunu hiss etməmişlərə həvalə edilməməlidir.

*Hacızadə Musa*

## İSTİQLAL VƏ DAĞISTAN

Rus qaragüruhu cavan hökumətimizi, istiqlalımızı ləkədar etməyə, istiqbalımızdan [gələcəyimizdən] ümidimizi kəsməyə əcəba bizi məcbur edəcəkmi? Gələcəkdə böyük ümidlə bəslədiyimiz o əqsayi-amallara [uzaq hədəflərə], islam qayələrimizə nail olacağımıza irticapərəstlərmi bizə mane olacaqlar? Xeyr! Düşmənimiz qəddaranə torpağımıza girdi deyərək məyus olmayacağız. Qonşularımızla bərabər müştərək düşmənin dəf edilməsi üçün çalışacağız. Bu ləkəni, bu acizliyi Dağıstan oğlu qəbul etməz.

Şeyx Şamil əfəndi həzrətləri Rusiyaya qarşı xəncər və çaxmaqlı tüfənglərlə Dağıstanı müdafiə edirdi. Dağıstan deyil, bütün Qafqaz müsəlmanları üçün qanlar tökdü. Bu gün Dağıstan Denikinə, bu qafileyi-irticapərəstlərə müqavimət göstərməkdən aciz qalır. Nə demək? Əhali, hökumətinə itaət edəcəyində şübhə yox idi. Hökumət üçün əsgər və qeyri hər nə lazım isə xalq əsirgəməyəcəkdi. Fəqət hökumət əhaliyə qarşı ədalət göstərmək əvəzinə, ədalətsizlik göstərdi. Düşmənimiz xəbərsiz müqəddəs torpağımızı çirkin qədəmlərlə tapdaladı. Düşmən vətənimizə qalib sifət ilə deyil, zimami-məşumu [uğursuz cilovu] xainlərə verib hiyləkaranə bir surətdə Şamilqala və vətənimizin birinci islam asarını havi olan [əsərlərini özündə ehtiva edən] köhnə Dərbəndi – Dəmirqapını böylə işğal edərək qardaşımız Azərbaycanı təhdid edir. Düşmən öz amalına nail olmayacaq. Dağıstan və Azərbaycan hökuməti umuz-umuza verərək düşmənləri qolayca məğlub edəcəkləri pək yəqindir [şübhəsizdir]. Yüzillərdən bəri çalışıb öz hüquqlarına sahib olan Dağıstan hökumətini Denikin və Kolçakların iştahalarına qurban etməyə heç bir islam oğlu islam razı olmaz. Razı olmaz da, fədayi-can edər. Dargözlü irticapərəstlərə dəxi təslim olmağa razı olmazlar.

Təbii, dağıstanlılar hürriyyət uğrunda çalışdılar və çalışacaqlar. Və onu müdafiə və mühafizə etmək üçün əldən gələni yapacaqlar. İşbu neməti-üzmanı [böyük neməti] əldən buraxıb da, istibdad iadə olmasına [istibdadın qayıtmasına] əsla və qəta [qətiyyən] razı olmazlar. Hürriyyətdən istibdadı əfzəl [üstün] görəcək insan Dağıstanda yoxdur desək, xəta olmaz zənnindəyiz. Fəqət bəzi əğrazi-şəxsiyyələrlə [şəxsi qərəzlərlə] məğrur olan xain millətlər Denikin maskası altında gəzən millət ədüvvləri [düşmənləri] hər yerdə vardır və olacaq. Qəhr olsun onlara! Onlar olmasaydı, Dağıstan şimdiyə qədər mükəmməl bir hökumət olub qalmışdı. "Çaqqalsız meşə olmaz" cümlələri yad edib onlara lənət oxuruz. İstiqlal xüsusunda Dağıstan xas ilə amm [seçkinləri, ziyalıları və qara camaatı] təni-vahid kimi [hamı bir nəfər kimi] bir fikirdədir. İstiqlali-kamili istehsal, düşməni ixrac etməyə,

müqəddəs vətəni müdafiə etməyə əsla zəf və fütur gətirməyərək [zəiflik və süstlük göstərməyərək] fədakarlıqda bulunacaqlar. Gec-tez bütün millətlər hürr və müstəqil olaraq yaşayacağına əsla şübhə etməyirlər. Və ona istinadən işə təşəbbüs edəcəyinə əminiz. Haydi, qardaşlarım, vətən əldən gedir. Buraxmayalım. Xain irticapərəstlər bizi qul etmək xəyalati-qəbihəsində [çirkin xəyallarında] bulunurlar. Namus və şərəflə ölmək namussuz, qul olaraq yaşamaqdan min pay artıq və əşrəfdir [şərəflidir].

*Fəhmi*

## DAĞISTAN ƏHVALI

Könüllü ordu tərəfindən işğal edilmiş olan Vladiqafqaz şəhəri böhran keçirməkdədir. Hədsiz bahalıqdır. Könüllü ordu hər cür təşkilat işlərində özünü qüvvəsiz hiss edir. Həcz [müsadirə] etmək və icbari əsgər yığmaq əhalini tədhiş [dəhşət, terror] altına alıb təngə gətirmişdir. Dağıstanlıların ziyalı sinifləri şəhərdə yoxdur. Ətraf əhalinin də həmçinin şəhərlə heç bir əlaqələri yoxdur.

Bolşeviklərlə mübarizə etməkdən ötrü inquşlara müraciətən alaylar müsəlləh edilməsi [silahlandırılması] haqqında verilən ultimatumlar heç mənziləsində [təsirsiz] qalmışdır. Dağıstanın canlı qüvvələrindən istifadə etmək amalı da belə görünür ki, Lyaxovun səhnədən çəkilməsi [ilə] puç olmuşdur.

Doğru məlumata görə, çərkəz dəstələri də Könüllü ordunun dağıstanlılar haqqında əhdşikənanə [xain] hərəkətini görüb, ordu səflərini tərk etmişlərdir. Osetinlər də Könüllü orduya bu cür düşmənanə nəzərlə baxırlar. Şimal cəbhəsinə göndərilmiş olan osetin dəstəsi Darq-Koxdan o tərəfə keçməkdən imtina etmişdir. Osetin alayı dəxi mövcud deyildir.

**Çeçendə üsyan**

Məlum olduğu üzrə, Könüllü ordu tərəfindən ancaq indiyə qədər Çeçenistanın üz [düzlük] yerləri işğal edilmişdir. Dağlıq hissəsi isə düşmənin qüvvələri qarşısında şiddətli müharibə aparmaqdadır. İndi mövsuq [etibarlı] mənbələrdən xəbər verirlər ki, Çeçenistanın hər yerində üsyan başlanmışdır. Xasavyurtda olan bütün qarnizon tələf edilmişdir. Könüllü ordunun köməyinə Petrovskdan topxana ilə bir dəstə əsgər göndərilmişdir. İnquşistan əhvalı da həyəcanlıdır, hər saat üsyan gözlənir.

**Könüllü ordunun Petrovskdakı qüvvəsi**

İndiyə qədər Petrovsk dəstəsi komandanı Dratsenskonun ixtiyarında 4 mindən ziyadə əsgər var idi. Hal-hazırda isə Petrovskda 1500 nəfər qalmışdır. Çünki çeçendə üsyan qalxdığına görə, oraya 4 topla külli miqdarda əsgər göndərilmişdir. Türküstana da Petrovskdan əsgəri dəstə göndərilmişdir.

## DENİKİN VƏ GƏNCƏ

Denikin xəbəri Gəncədə dəhşətli bir sui-təsir buraxmışdır. Mürtəce general tərəfdarı və agentləri əhali arasında cürbəcür şayiələr buraxmaqdadırlar. Camaat həyəcan içərisindədir. İstiqlaliyyət və hürriyyət düşmənlərinin sərhədimizə yaxınlaşması əhalini qızdırmışdır. Sadədil əhali avropalılara ikiüzlü siyasət yürütdükləri üçün şübhə bəsləyir. Ruh düşkünlüyü yoxdur. Kimə sorsanız, heç bir fədakarlıqdan çəkinməyəcəyini böyük bir mətanətlə söyləməkdədir. Hər kəs Denikinin talan və yağmadan başqa heç bir şey gətirməyəcəyini söyləyir. Ciddi addımların atılacağı zaman gəldiyini əhali kəndisi söyləyir. Rəsmi xəbərlərə baxmayıb, hər kəs "bizi aldatmaq istəyirlər" deyir.

*[Əhməd] Cavad*

**Xüsusi müxbirimizdən**
**Gəncədən idarəmizə böylə bir teleqraf gəlmişdir**

Gəncə Türk Sənətkarları İttifaqının iclasi-ümumisi qərarı mövcibi [əsasında] istiqlal düşməni, istilaçı Denikin hərəkətinə qarşı və Azərbaycanımızın ayrılmaz qismi saydığımız Naxçıvan, Şərur, Sürməli qəzalarının daşnak hökuməti tərəfindən zorla işğal olunduğundan dolayı onlara nifrətimizi bəyan edərək, Azərbaycanımızın müqəddəs istiqlaliyyətini saxlamaq uğrunda bir can kimi məmləkətimizi qara qüvvələrin mühacimısindən [hücumundan] müdafiə etmək üçün hökumətimizin əmrinə hazır olmağımızı və son qətrə qanımızadək fədakarlıqda bulunmağımızı ərz ediriz.

*İttifaq sədri: Fərzixanov*

Həmin məzmunda bir teleqraf da Parlaman sədri naminə alınmışdır.

* * *

Gəncədən Məclisi-Məbusan rəisi həzrətləri naminə böylə bir teleqraf gəlmişdir:

Gəncə vilayəti Türk Müəllimə və Müəllimləri İttifaqının fövqəladə iclasi-ümumisi qərarı mövcibi istiqlal düşməni və istilaçı qara qüvvə Denikinə nifrətini elan edərək, bütün müəllimlər müqəddəs Azərbaycanımızın istiqlaliyyətini mühafizə etmək uğrunda təni-vahid kimi [hamı bir nəfər kimi] məmləkətimizi qara qüvvələrin mühacimısindən [hücumundan] müdafiə etmək üçün hökumətimizin əmrinə hazır olmağımızı ərz və bəyan ediriz.

*İttifaq sədri: İdris Axundzadə*

## İRANA DAİR

Tehrandan təzə gələn bir zat müxbirimizə aşağıdakı məlumatı vermişdir:

Bir il olar ki, Vüsuqüddövlə Kabinəsi gələndən bəri İran əhvali-ümumiyyə və siyasiyyəsi dərəcə-dərəcə aydınlaşmışdır. İngilislər bu Kabinəni digərlərindən artıq özlərinə tərəfdar bildiklərindən, hər cəhətdən bilxassə bolca kömək edirlər. Bu surətlə hökumət mövqeyini sağlam olaraq saxlaya bilir. Hətta özünə islahçı süsü verərək idari təşkilatın tənzimi və məşrutədən bəri məmləkət daxilində təəssüs edəmməyən asayişin iadəsi [bərpası] barəsində fəaliyyət göstərir. Deniləbilər ki, uzun illərdən bəri az fasilələrlə, qısa ömürlərlə gedib-gələn saysız hökumətlər içində Vüsuq Kabinəsi İrana ən ziyadə nəfi [faydası] toxunanlardandır.

İnqilab-ixtilal məsələsinə gəlincə, buralarda şaye olan həvadislərin [danışılan

hadisələrin] əsli yoxdur. Hər nə qədər miqdarları pək də az olmayan müxaliflər tərəfindən hökumətə qarşı bir çox müşkülatlar çıxarılır, xalqı Kabinə əleyhinə ayaqlandırmaqdan ötrü hər gecə şəbnamələr [bəyannamələr] dağılırsa da, indilik bunlardan əsaslı bir fəaliyyət bəklənilməməz. Bu kimi şeylər İran həyati-ümumiyyəsində həmişə təkrar edən vəqələrdəndir. Eyni zamanda Kabinə, xarici qüvvələrə arxayındır. Sırf zati mənfəətlərini, şəxsi ehtiraslarını gözətləyən müxaliflər axundlarla avam camaatın qara təəssübündən istifadə edərək son zamanlarda hökumətin nəşr etdiyi sicilli-əhval qanununu (nüfus) [əhalinin, xüsusən dövlət məmurlarının qeydiyyatına dair qanunu] şəriətə müxalif göstərərək irad tuturlar. Qanun bu səbəbdən ümid edilməyən etirazlara məruz qaldı və hökumətin mövqeyini müşkül bir vəziyyətə saldı.

Vilayat əhvali-ümumiyyəsi [vilayətlərin ümumi vəziyyəti] o qədər yaxşı deyildir. Güclü, qüvvəli quldur dəstələri hər tərəfi tutmuş, hökumət bunlar üzərinə qüvvələr tərtib verib göndərdi. İndi bu qüvvələr Qum və İsfahan civarında Rəcəbəli, Cəfərqulu ilə, Luristanda lurlar ilə, Kürdüstanda məndəlilər, gülbağilərlə, şimalda da cəngəlilərlə çarpışır.

Kiçik xan məsələsinə gəlincə, bunların arasında ittihadın [birliyin] yoxluğu və bilxassə Mirzə Kiçik xan ilə Hacı Əhməd [Kəsmeyi] arasındakı ixtilaf bu ittihadi-islam heyətinin yıxılmasına səbəb oldu. Əgər lazım gələn ittifaq bulunaydı, hökumət bu qədər qolaylıqla arzusuna müvəffəq ola bilməzdi. Bir çoxlarının təslimindən sonra Kiçik xan qalan cüzi qüvvələrlə çəkilməyə başladı. Davanı qəbul eyləmədi. Yalnız hökumət qüvvətlərinin yetişdiyi yerlərdə bəzi əhəmiyyətsiz müsadimələr [toqquşmalar] oldu. İndi söyləndiyinə görə, Kiçik xan Qızılüzəni o tərəfə keçib dağlara sığınıqmış.

Ərzaq məsələsi: Kabinənin ən eyi icraatından birisi də budur. Tehran Ərzaq İdarəsi müdiriyyətinə belçikalı Moltyori gətirdikdən sonra bu məsələ həll edildi. Bu il artıq dərəcədə yağış gəlməsindən yeni məhsulun pək bol olacağı ümid edilir. Cins, tüccar malı, hamı zad tapılır, Amerika, Yaponiya, İngiltərədən hər şey gəlir.

Sülh məsələsi: Mərkəzi hökumətlərin məğlubiyyəti İran əfkari-ümumiyyəsini [ictimaiyyətini] artıq dərəcədə məmnun eylədi. Mütarikənin [atəşkəsin] elanı günü Tehranda yapılan ümumi və rəsmi deniləcək dərəcədəki nümayişlər, kazakxananın top ataraq o günü təsid etməsi [qutlaması], Ləlezar xiyabanında qəzetə satıcıları tərəfindən Türkiyə bayrağının parçalanması və ələlümum qəzetələrin məqalələri bu vəqədən iranlıların nə qədər şad olduqlarına canlı misallardır.

İran ricalı [dövlət adamları] öylə zənn etdilər ki, yaşıl miz ətrafında onlara da yer veriləcək və bu surətlə bütün qayələrinə, arzularına müvəffəq olacaqlar. Fəqət Müşavirül-Məmalik heyətinin Konfrans qapısında qalması və Türkiyə və Azərbaycan Cümhuriyyəti zərərinə olan İran təklifat və mütalibatının [təklif və tələblərinin] İngiltərə Xariciyyə Nəzarəti naşiri-əfkarı [fikirlərini yayan orqanı] olan "Şərqi-nəzdik" [Yaxın Şərq] qəzetəsinin belə bu mütalibatı çox görüb pək haqlı olaraq etiraz yollu yazdığı məqalə ilə hətta hal-hazır İranının tamamiyyəti-mülkiyyə [torpaq bütünlüyü] və hüquqi-istiqlalına aid bəzi istifhamlar [sual işarələri] cızaraq xalisanə və səmimanə bir ixtar [qeyd, xəbərdarlıq] ilə öz-özünü idarəyə müqtədir olub-olmadığını sormasından İran ziyalı və vətənpərvərləri son dərəcə mütəəssir oldular. Buna inzimam edən [əlavə olunan] İngiltərə Hökumətinin İrana qəyyumluq və sairə təklifatı şayiəsi iranlıları olduqca məyus eylədi. Parisdə toplanmış olan İran ricalının bu vəqə üzərinə ingilislərə qarşı çıxışları ingilisləri də acıqlandırdı.

İranlıların möhtərəm Cümhuriyyətimiz haqqındakı hissiyyatlarına gəlincə, təəssüflə söylər və qətiyyətlə iddia edə bilərəm ki, bütün islam dünyasını sevindirən Azərbaycan Cümhuriyyətimizin təşəkkülü ümumən iranlıları, xüsusən farsları məmnun eyləməmişdir. Ufaq hökumətimizdən özləri üçün böyük-böyük təhlükələr təsəvvür və xəyal edirlər. Zahir etirazlar "Azərbaycan" kəlməsinə isə də, həqiqətdə qətiyyən böylə deyildir. Bu, əldə bir vəsilədir [vasitədir], əsası örtən bir pərdədir. Bunu qaldırınız, bir islam hökumətindən heç də bəklənilməyən çirkin bir həqiqət olanca kötülüyü ilə üzünüzə tərəf gülümsər.

İranlılar türk aləmini özlərinə ən təhlükəli bir rəqib bilirlər. Bunu hər bir fürsətdə göstərirlər. İran mətbuatını təqib edənlərə məlumdur. Hətta "İran" qəzetəsində yazılan "Qafqaziyaya bir nəzər" müsəlsəl [silsilə şəklində] məqalələrdə "Müsavat"ın mart məğlubiyyətindən ələni [açıq] surətdə məmnuniyyət göstərirdi.

Tehranda nümayəndəmizə göstərdikləri qeyri-rəsmi hüsn-qəbul vəziyyət və zamanın icab etdirdiyi əmri-vaqedir [vəziyyət və zamanın ehtiyacından doğan bir məcburiyyətdir]. Dərin nüfuzi-nəzər sahibi olanlar bunda bir səmimiyyət görəmməzlər.

Tehranda çıxan bir şayiəyə görə, Parisə gedən Xariciyyə nazirinə hökumət tərəfindən tövdi edilən mütalibat [tapşırılan tələblər] sözdə [guya] 9 maddədən ibarət imiş. Türkmənçayı və 1907 müahidələrinin [sazişlərinin] ləğvi və İran tamamiyyəti-mülkiyyəsinin təsdiqi, kapitulasyonların qaldırılması [ləğvi] və hərbdən İrana gələn xəsarətin ruslar və türklər tərəfindən təzmini [ziyanın ödənməsi] – ki qəzetələrin yazdığına görə, ölçüsüz mübaliğə ilə ruslara 150 milyon və türklərə 100 milyon tüməndir – eyni zamanda Türkiyədən ətəbati-aliyatın [müqəddəs ziyarətgahların] və Kürdüstanın İrana ilhaqı [birləşdirilməsi] və Azərbaycandan da 7 şəhərin iadəsi [qaytarılması] imiş.

Söz ayağa qədər düşmüşdür. Xalq arasında hər gün təzə bir şayiə intişar tapır [yayılır]. Hökumət Qafqaza hakim təyin etdi və Rəştə sövq edilən qüvvətlər Bakını almağa gedir kimi sözlər hər nə qədər amiyanə [avamcasına] isə də bunlar yuxarıdan aşağıya, ziyalılardan qara camaata qədər yayılmış olan bu cür hissiyyatın məhsuludur.

### HACI-TƏRXAN NƏ HALDADIR?

Hacı-Tərxandan [Həştərxandan] gələn şəxs nəql edir ki, mən Hacı-Tərxanda axır vaxtlarda olarkən bolşevik məmurlarının və Qırmızı qoşunların halı fəna idi. Öz işlərini uduzmuş şəxslərə bənzəyirlərdi.

Bolşeviklər son mərhələyədək Kolçakla mübarizəni qət et[mə]mişlərdir [kəsməmişlər]. Bu məqsədlə Hacı-Tərxan savdepiyasında [sovet hökumətində] olan bütün əhalini səfərbərliyə dəvət etmək istəyirdilər. Mən şübhə etməyirəm, axirüləmr [axırda] könüllü[lər] bolşeviklərə qalib gələcəkdirlər. Fəqət bolşeviklər də çox da asanlıqla təslim olmayacaqlardır. Müharibələr şiddətli olacaqdır. Camaatın bolşevizmaya qarşı üsyan edəcəyinə ümid etmək olmaz. Hərçənd bu da mümkün olan şeydir. Zatən iki dəfə camaat üsyan eyləmişdir. Birisi 1918-ci ildə ağustosun [avqustun] 15-də, ikincisi isə bu il mart ayında olmuşsa da, bolşeviklər qayət birəhmanə [amansız] bir surətdə bu iğtişaşları yatırmışlar. Avqust üsyançıları yeni səfərbərlik üçün üsyan qaldırmışlardı. Bunlar Hacı-Tərxanda bir inqilab törətdilər. Bütün bolşevik məmurları həbs edilmişlərdi. Onları üç gün həbsdə saxlamışlardı. Lakin sonradan bolşeviklərin güclü qüvvəsi gəldiyindən, asilər təslimə məcbur olmuşlardı. Asilərin həpsini bolşeviklər atmaqla edam etmişlərdi.

Mart üsyanı isə iqtisadi cəhətdən qalxmışdı. Əmələlər [fəhlələr] çörək tələb edirdilər. Bu əhval kəndlərə də keçdi. Kəndçilər kəndlərdə olan hamı bolşevikləri kəsmişlərdi. Bolşeviklər sonra gərək əmələ və gərək kəndçilərin öhdəsindən gəlib onları qətliam etdilər.

Bu il bolşeviklər arasında Çin qoşunları yoxdur. Keçən il Çin qoşunları Şimali Qafqaziyaya göndərilmişdi və kazaklar kamilən bunları qırmışdılar. Şimali Qafqaziyada pərişan edilmiş olan bolşevik qoşunlarının az hissəsi Hacı-Tərxana qayıtmışlardı.

## FELYETON
## NƏŞRİYYATIMIZIN ƏSBABİ-TƏRƏQQİ VƏ TƏDƏNNİSİ*

**- 4 -**

Mədəniyyəti-islamiyyənin parlaq dövrü, ərəb ülum [və] maarifinin övci-əlası [ən yüksək zirvəsi] hicrətin 198-ci sənəsindən 218 tarixinədək məqami-xilafətdə bulunan Məmunun zamanı olmuşdur.

Müşarünileyh [adı çəkilən şəxs] xüləfayi-Abbasiyyənin [Abbasi xəlifələrinin] ən alimi, ən böyüyü olmaqla bərabər şəriət, lüğət, nücum [astronomiya], fəlsəfə və məntiq ülumunda [elmlərində] yədi-tula [dərin nüfuz] sahibi idi. Müntəzəm təhsil görmüş, fikri parlaq, qədim kitablardan kəndi zamanına qədər ərəbcəyə tərcümə olunan müəlləfatın [əsərlərin] həpsini oxumuşdu.

Binaənileyh [ona görə], təbəəsinin düşüncəsini incə, əfkarını münəvvər [işıqlı], əxlaqını təhzib [islah], dərəceyi-ürfanını yüksək etmək üçün məntiq və fəlsəfə ülumunun Ərəbistanda təmim və intişarını [yayılmasını] əfzəl [vacib] bilmiş, məzkur [deyilən] elmlərin hansı dildən olursa-olsun, ərəb dilinə nəql və tərcüməsindən işə başlamış, bilaxirə, Ərəstunun fəlsəfəyə dair kitabları ilə sair üluma mütəəlliq [dair] müəlləfatı dəxi etinasız buraxmamışdır. Atidə görüləcəyi vəch üzrə [aşağıda görüləcəyi kimi], bütün dünya nəşriyyatına örnək təşkil edəcək bir əsas və müvəffəqiyyətli bir asar [əsər, nəticə] vücuda gətirmişdir.

* İbtidaları [əvvəlləri] 97, 105 və 173-cü nömrələrdə.





Məmun ülum və maarifin təmiminə [yayılmasına], əcnəbi kitablarının ərəb dilinə tərcüməsinə ancaq hicrətin 200-cü sənəsindən sonrakı 5-10 sənənin zərfində başlamış, hər yerdə fəlsəfə və məntiqə dair bir kitabın olduğunu eşitmişsə də, dərhal cəlbinə mübadirət [təşəbbüs] etmişdir. Hətta rum hökmdarına müraciət edib yunan ülumu haqqında təlif edilmiş müəlləfatın [yazılmış əsərlərin] ən güzidələrindən [say-seçmələrindən] istəmişdir. Rum hökmdarı ibtida bir qədər ehmal etmişsə də, sonra imtinada əczini hiss etməklə müvafiqət edərək xeyli kitablar irsal eyləmişdir [göndərmişdir]. Bu kitablar Məmunun əmri ilə Həccac bin Mətər, İbnül-Bitriq, Beytül-hikmə sahibi Silləm kimi məşahiri-üdəbayi-ərəbin [ərəblərin məşhur ədiblərinin] nəzari-tədqiq və təfriqindən [tədqiq edən və yaxşını pisdən ayıran nəzərindən] keçərək tərcümə edilmişdir.**

Tərcümə etdirdiyi kitabların mütaliəsinə əhalini dürlü-dürlü vasitələrlə təhrik və təşviq eyləyir, bilxassə xəlayiqdə hüsn-rəğbət vücuda gətirmək üçün namına tərcümə edilən kitablar üzərinə kəndi möhürünü vəz edirdi [qoyurdu]. Bizzat [şəxsən] hükəma və üləma məclislərində bulunub onların mübahisə və münazirələrindən [müzakirələrindən] məhzuz olur [həzz alır], haziruna [məclisdə olanlara] elmi xüsusata aid suallar verirdi. Hətta bu yoldakı himayət, səxa [səxavəti] və ətası o dərəcəyə varmışdı ki, bir həkim bir alimi Bağdadda məiyyətində [öz yanında] saxlamaq üçün bütün ailəsinə maaş verdiyi kimi, tərcümə olunan asarın da [əsərlərin də] ağırlığınca altun verirdi.

Ülum [və] maarifin bu surətlə rəvacihimayəsi dünyanın hər tərəfinə yayılmış, hər ölkədən ülum, fünun və sənayeyi-nəfisə ərbabı [incəsənət əhli] Bağdada getməyə məcbur olmuşdur. O sayədə yalnız üləma, hükəma deyil, adi kimsələr Bağdada axın-axın gəlir, orada məişətlərini lazımınca təmin edirlərdi. Hökumati-islamiyyə paytaxtı sair məmalikdən [məmləkətlərdən, ölkələrdən] gələn mühacirin [mühacirlər] üçün maddi və mənəvi bir darüləman [pənah yeri] kəsilmişdi. Əndəlüs Darülfünununda [universitetində] xristianlar məmləkətlərini və idareyi-ruhaniyyələrini idarə etmək üçün ərəbcə oxuduqları kimi, Bağdadda əcnəbi ünsürlər ərəb dilini öyrənərək ərəblərlə vüqu bulan ixtilatlarından məmnun qalırlardı.

Xüləfayi-Abbasiyyə hər dürlü elmi və fənni kitabları tərcümə etmək üçün yunani, nəbti, hindi, süryani [aysor, assuriyalı], latın, fars dillərini bilən bir çox mütərcimlər istixdam etmişlərdi [xidmətə götürmüşdülər]. O mütərcimlərin içində Bəxtişu ailəsi, Hüneyn ailəsi, Hübeyş bin Asəm Dəməşqi, Kusta bin Luka əl-Bəəlbəki, Masərcəveyh ailəsi, Kərxi ailəsi, Sabit ailəsi, Həccac bin Mətər, İbn Naima əl-Himsi, İstefan Basil, Musa bin Xalid, Sərcis ər-Rəsi, Yuhanna bin Bəxtişu, Bitriq, Yəhya bin əl-Bitriq, Əbu Osman Dəməşqi, Əbu Bişr Mətta bin Yunis, Yəhya bin Ədi, İbnül-Müqəffe, Nobəxt ailəsi, Bəlazuri Əhməd bin Yəhya, hindli Münəkkih, İbn Dəhn Hindi, İbn Vəhşiyyə kimi məşhur həkimlər var idi.

** "Təbəqatül-ətibba", "Müxtəsərül-düvəl", "Föhrüst".

Bunlardan Hüneyn [bin İshaq] həmişə xəlifədən tərcümə etdiyi kitab ağırlığında altun alırdı. O səbəblə həcmi böyük, ağırlığı ziyadə olub, altunu çox almaq üçün daima asarı qayət böyük hərflər və seyrək sətirlərlə pək qalın kağız üzərinə yazardı.

Bəxtişu ailəsindən Cəbrayıl 4.900.000 dirhəm sənəvi [illik] maaş alırdı. Digərlərini də buna görə qiyas [müqayisə] ediniz.

Məmunun tərəqqiyyati-elmiyyə uğurundakı təşəbbüsat və müvəffəqiyyatı nəticəsində ərəblər kitab mütaliəsinə o qədər meyil və həvəs göstərdilər ki, ləbtəşneyi-ürfan [ürfana susamış] kimi həman oxumağa şey arayırlardı və get-gedə üməra və vüzəra [əmirlər və vəzirlər] dəxi xüləfanın əsərinə təbən [təsirinə tabe olaraq] ülum və fünunun tərvic və himayəsinə [elm və fənlərə rəvac verməyə və onları himayə etməyə] girişdiklərindən, İraq cəzirəsi ilə Şam və fars qalalarının hər guşəsindən nəsturi, yəqubi, məcusi, rum və brəhmən Bağdada qoşaraq yunani, farisi, süryani, hind[i], nəbti və latınca kitablar tərcümə etməyə məşğul olmuşlardır.

İbtida ülum və fünunun ərəbcəyə nəqlinə xüləfalar bizzat çalışmışsalar da, nəhayət, tərcümə olunan kitablar əhali tərəfindən bəyənildiyinə görə, əkabiriməmləkət [ölkənin böyük adamları] dəxi eyni yola tutulmuşlar, mütərcimlər istixdam edib kitablar bulmaq uğrunda həddən ziyadə paralar sərf etmişlərdir.

Nəşriyyat yolunda para və hümmət bəzl edənlərin [saçanların] ən məşhurları Bəni-Şakir, yaxud Bəni-Musa namı [adı] ilə şöhrət bulan Musa bin Şakirin üç oğlu idi. Bunlar ülum və maarif yolunda heç bir fədakarlıqdan çəkinməmişlər, Hüneyn bin İshaq başda olaraq elmi kitablar cəlb və intixab etməyə [seçməyə] rum məmləkətinə bir heyət ezam etmişlərdir.

Bunlar bulduqları kitabları tərcümə etmək [üçün] böyük maaşla ən məşhur mütərcimlər cəlb eyləmişlər. Hüneyn bin İshaq, Sabit bin Qürrə dəxi o cümlədən idilər. Bu mütərcimlərin fələkiyyat [astronomiya], mekanikiyyat və həndəsəyə dair pək çox müəlləfatı, bilxassə həndəsədə istikşafati-məxsusələri [özlərinə məxsus kəşfləri] vardır. Rəsəd [göy cisimlərinin müşahidəsi] və sair ülumdakı məharətlərindən maəda [başqa], mühiti-ərzin [yerin çevrəsinin, ekvatorun] 24 min mil olduğunu məsahə [yer səthinin ölçülməsi] icrası ilə Məmuna isbat etmişlərdi.

Bu qərarla nəşriyyat ərbabı o qədər çoxalmış ki, Bağdadda kağızçılar ilə kitabçıların miqdarı həddən ziyadə olmuşdur.

Gənc Azərbaycan hökuməti-əbədmüddətinin nəzəri-alilərini cəlb etmək üçün sədri-islamda [islamiyyətin qəlbində] ilk əvvəl tərcümə və nəşr olunan kitabların hansı dildən və hanki elmlərdən bahis olduğunu zikr etməklə bərabər, müəllifinin, mütərcimlərinin isimlərini və kitabların mümkün qədərdə adlarını dərc edəcəyiz.

Təbii intibahi-elmiyyəyi-Abbasidə [Abbasilərin elmi intibah dövründə] tərcümə olunan kitablar fövqəladə olmuşsa da, əksəri tələf olduğundan cümləsini toplayıb saymaq mümkün deyildir.

Binaənileyh [ona görə] “Föhrüst” və İbnün-Nədimin göstərdiyi vəch üzrə ərbcəyə tərcümə olunan kitabların pək çox qismi yunancadan fəlsəfə, tibb, riyaziyyat, elmi-heyət [astronomiya] və hikmətitəbiiyyə [fizika] və təfərrüatına mütəalliq [dair] asar [əsərlər] olmuşdur. Onların da fəlsəfə və ədəbə dair olub əldə edilənlərini müəllif və mütərcimləri ilə bərabər zikr ediriz.

Əflatunun kitabları:

“Kitabüs-siyasə” – mütərcimi: Hüneyn bin İshaq

“Kitabül-münasibat” – mütərcimi: Yəhya bin Ədi

“Kitabün-nəvamis” – mütərcimi: Hüneyn [bin İshaq] və Yəhya [bin Ədi]

“Kitabüt-Timaios” – mütərcimi İbnül-Bitriq

“Kitabül-Əflatun ila Əfritən” – mütərcimi Yəhya bin Ədi

“Kitabüt-tövhid”

“Kitabül-hiss vəl-ləzzə”

“Üsulül-həndəsə” – Kusta bin Luka

Ərəstunun asarı:

“Kateqoriyas i əl-məqulat” (“Kateqoriyas”) – mütərcimi Hüneyn bin İshaq

“Kitabül-ibarə” (“Ermeneias”) – mütərcimi İshaq [bin Hüneyn]

“Təhlilül-qiyas” (“Birinci Analitika”) – mütərcimi Teadoros

“Kitabül-bürhan” (“İkinci Analitika”) – mütərcimi [Əbu Bişr] Mətta

“Kitabüc-cədəl” (“Topika”) – mütərcimi İshaq [bin Hüneyn] və Yəhya [bin Ədi]

“Kitabül-müğalitat vəl-hikmətül-məmmuhə” (“Sofistika”) – mütərcimi Yəhya [bin Ədi]

“Kitabül-xitabə” (“Ritorika”) – mütərcimi İshaq [bin Hüneyn] və İbrahim bin Abdullah

“Kitabüş-şe’r” (“Foetika”) – mütərcimi Əbu Bişr [Mətta]

“Kitabüs-səmaüt-təbii” – mütərcimi Əburuh, Hüneyn [bin İshaq], Yəhya [bin Ədi] və Kusta [bin Luka]

“Kitabüs-səma vəl-aləm” – mütərcimi İbn Bitriq

“Kitabül-kövn vəl-fəsad” – mütərcimi İshaq və Osman Dəməşqi

“Kitabül-asarül-ülviyyə” – mütərcimi Əbu Bişr [Mətta] və Yəhya [bin Ədi]

“Kitabün-nəfs” – mütərcimi İshaq

“Kitabül-hiss vəl-məhsus” – mütərcimi Əbu Bişr Mətta

“Kitabül-heyəvan” – mütərcimi İbnül-Bitriq

“Kitabül-hüruf vəl-ilahiyyat” – İshaq [bin Hüneyn], Yəhya [bin Ədi], Hüneyn [bin İshaq] və [Əbu Bişr] Mətta

“Kitabül-əxlaq” – mütərcimi İshaq [bin Hüneyn]

“Kitabül-mirat” – mütərcimi Həccac bin Mətər

“Kitabül-esuluciya”

Ərəstunun bunlardan başqa daha bir çox kitabları ərəbcəyə tərcümə edilmişsə də, mütərcimləri məlum deyildir. Lakin Şəmsəddin Sami “Qamusül-əlam”ında Ərəstunun tərcümeyi-halını yazaraq Qüruni-vüstada [Orta əsrlərdə] müşarünileyhin [adı çəkilən şəxsin] kitablarına Tacəddin Yaqub bin İshaq əl-Kindi, Əbu Əli Sina, Əbubəkr Məhəmməd bin Baccə, Əbül-Vəlid Məhəmməd bin ər-Rəşid kimi məşahiri-hükəmanın [məşhur filosofların] şərh və təhşiyə [haşiyə] yazdıqlarını qeydlə bərabər, bu kitablardan heç birinin türkcəyə tərcümə edilmədiyini təəssüflə bəyan edir.

Calinusun dəxi fəlsəfə və ədəbə dair bir qaç təlifatı [əsəri] Sabit bin Qürrə,

Tuma, Hüneyn [bin İshaq], Hübeyş [bin Asəm Dəməşqi] və İsa [bin Yəhya] kimi məruf [tanınmış] mütərcimlər tərəfindən tərcümə edilmişdir.

Tibb və təfərrüatına [şöbələrinə] dair kitablar:

Bukratın asarı:

"Kitabi-əhdi-Bukrat" – mütərcimi Hübeyş [bin Asəm Dəməşqi] və İsa [bin Yəhya]

"Kitabül-füsul" – mütərcimi Hüneyn [bin İshaq]

"Kitabül-kəsr" – mütərcimi Məhəmməd bin Musa və Hüneyn [bin İshaq]

"Kitabül-təqdimətül-mərifə" – mütərcimi Hüneyn [bin İshaq] və İsa bin Yəhya

"Kitabül-əmrazül-haddə" – mütərcimi İsa bin Yəhya

"Kitabül-əmrazi-vaqdə" ("Əbizimya") – mütərcimi İsa bin Yəhya

"Kitabül-əxlat" – mütərcimi İsa bin Yəhya

"Kitabi-hanut ət-təbib ("Katition") – mütərcimi Hüneyn [bin İshaq]

"Kitabül-ma vəl-hava" – mütərcimi Hübeyş [bin Asəm Dəməşqi] və Hüneyn [bin İshaq]

"Kitabi-təbiətül-insan" – mütərcimi Hüneyn [bin İshaq] və İsa [bin Yəhya]

Tibb kitablarından Calinusun "Kütübi-sitteyi-öşr" adlanan 16 kitabından maəda [başqa], 48 təlifatı da [əsəri də] eyni mütərcimlər tərəfindən ərəbcəyə tərcümə olunmuşdur. Yunani-qədim məşahiri-ətibbasından [Qədim Yunanıstanın məşhur təbiblərindən] Rufusun iyirmidən ziyadə asarı, Oribasiusun bir qaç kitabı, Dioskorides Anazarbinin nəbatati-tibbiyə [dərman bitkilərinə] dair bir kitabı ərəb lisanına çıxarılmışdır.

Elmi-nücum, həndəsə, hesab, musiqi və mekanikiyyata gəlincə, Oklidosun "Üsulül-həndəsə"si Həccac bin Mətər tərəfindən Harun ər-Rəşid üçün "Haruniyyə" namı ilə, Məmun üçün "Məmuniyyə" namı ilə iki dəfə tərcümə edilmişdir. Bu kitabı İshaq bin Hüneyn və Osman Dəməşqi dəxi tərcümə etmişdir. "Üsulül-həndəsə" əlyövm [hal-hazırda] mövcuddur.

Bundan maəda "Kitabüz-zahirat", "Kitabi-ixtilafül-mənazir", "Kitabül-musiqi", "Kitabül-qanun", "Kitabüs-siqəl vəl-xiffə" namlarındakı müəlləfatı ərəbcəyə döndərilmişdir.

Arximedesin 10-a baliğ [çatan], Apolloniusun 5, Menelayın 2, Batlamyus Klodinin [Klavdi Ptolomeyin] coğrafiya və sairəyə dair 15, Əbərxusun 2 asarı ərəbcəyə tərcümə olunmuşdur.

Bunlardan əlavə, İbnül-Bitriqin "Kitabül-əməl-bil-üstürlabül-müsəttəh", Aristarxusun "Kitabi-cürmüş-şəmsi vəl-qəmər" [Günəş və Ayın ölçüləri və məsafələri], İskəndəriyyəli Teonun "Kitabül-əməl bezatil-hülq", "Qanunül-məsir" namıyla məruf olan [tanınan] "Kitabi-zici-Batlamyus", "Kitabi-elmül-üstürlab" kitabları kimi riyaziyyat, elmi-heyət, əzyac [ulduzların yerini və hərəkətini göstərən cədvəllər] və sairəyə dair tədadı [sayılması] lüzum görülməyən hədsiz müəlləfat tərcümə olunmuşdur.

*Ə. Müznib*

## BAKI XƏBƏRLƏRİ

**General Korinin vürudu [gəlişi]**

Srağagün iyunun 3-də gündüz saat 12 radələrində Qafqaziyadakı Müttəfiq qoşunlarının Baş komandanı general Kori sürət qatarı ilə Tiflisdən Bakıya varid olmuşdur [gəlmişdir]. Generalı pişvaz etmək üçün Bakı qubernatoru Rəşid bəy Axundzadə və Azərbaycan dəmiryol müdiri Biləcəri mövqifinə [stansiyasına] getmişlərdi.

**Erməni qaradovoylarının miqdarı**

Bakı qalabəyisi [komendantı] qubernatora məlum etmişdir ki, hal-hazırda Bakıda 25 nəfər erməni qaradovoyları vardır ki, onlardan 12 nəfəri 5-ci uçastok və qalanı isə başqa uçastoklarda qulluq edirlər.

**"Strajniklər"**

Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri Bakı qubernatoruna müraciətən məlum etmişdir ki, neçə vaxt bundan əqdəm [qabaq] Lənkəran uyezdi [qəzası] Ərkivandan Bakıya Siparidze və onun müavini Zəhir Rəhman oğlu 13 nəfər strajnikləri [mühafizəçiləri] ilə gəlib burada işsiz qalmışlardır. Bunu nəzərə alaraq onların burada işə qəbul edilmələri və ya vətənlərinə göndərilmələrini Nəzarət qubernatordan rica edir.

**Zemstvo ətrafında**

Daxiliyyə naziri Bakı qubernatoruna müraciətən Bakı quberniyasında zemstvo [yerli özünüidarə qurumu] təşkilinə aid olan bütün materialın hazırlanması və tezliklə bu barədə Nəzarətə bəyanat təqdim edilməsini rica etmişdir.

**Gömrük idarəsində**

Bakı gömrükxanası qubernatora müraciətən gecələr körpülərə qaçaq mal aparılmasına imkan verməməkdən ötrü dəniz kənarında üç nəfərdən ibarət qarovul təyin edilməsi üçün icazə istəmişdir.

**Bələdiyyə İdarəsində**

Maarif Nəzarəti cənbindəki [nəzdindəki] Darülfünun Komisyonu Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir ki, Bakıda güşad ediləcək [açılacaq] Darülfünun kitabxanası məsələsini müzakirə etdikdən sonra qərara alınmışdır ki, Bələdiyyə İdarəsindən işbu şərait üzrə müavinətdə buluna biləcəyini isticvabda bulunsun [soruşsun]:

1) Mixaylovski xəstəxana kitabxanası şəhərin malı olaraq Darülfünun oradan istifadə edə biləcəkdir.

2) Xəstəxanalar doktorları Darülfünun şəraitindən xaric olaraq kitabxanadan həmişə istifadə edə biləcəklər.

3) Kitabxana müdiriyyəti Darülfünun nümayəndəsinə veriləcəkdir.

Komisyon ümid edir ki, Bələdiyyə İdarəsi məzkur [deyilən] şərait üzrə Darülfünuna müavinətdən çəkinməyəcəkdir. Binaənileyh [ona görə], öz təşəkküratını izhar edir. Məsələnin açıq surətdə həlli Kitabxana komisyonuna həvalə ediləcəkdir.

**Məhkəməyə cəlb**

Azərbaycan Cümhuriyyətinin Hərbiyyə naziri tərəfindən edilən binagüzarlığa [sərəncama] görə, Bakıda nəşr olunan "Yedinaya Rossiya" qəzetəsinin müdiri Azərbaycan ordusu zabiti haqqında iftira yazdığından təhti-mühakiməyə [mühakimə altına] cəlb edilmişdir.

**Teatro biletlərindən vergi alınması**

Maliyyə naziri Bakı qubernatoruna məlum etmişdir ki, teatro və qeyri tamaşaxana biletlərindən alınan vergilər keçən illərə nisbətən bu il əskilmişdir. Buna da səbəb polis idarələri tərəfindən göstərilən səhlənkarlıq və fəaliyyətsizlikdir. Vergilərin keçən illərki qədər hasil olmaq lüzumunu nəzərə alaraq, Nəzarət tezliklə bu barədə binagüzarlıq edilməsini [tədbir görülməsini] rica etmişdir.

## MÜTƏƏLLİMLƏR QURULTAYI

**2 iyun, ikinci iclas**

Saat 5-də Qafqazya Müsəlman Mütəəllimlərinin [Tələbələrinin] ikinci iclası açılır.

Sədarət edir: Məhəmmədzadə Mirzəbala.

Katib: Məlikməhəmməd Məlikzadə.

Sədr elan edir ki, bu gün həll olunacaq məsələlərin müzakirəsinə keçmədən xəbər verəlim ki, Dərbənd Müsəlman Mütəəllimləri Komitəsi tərəfindən Mirzə Əlinağı Ağayev cənabları nümayəndə gəlmişdir və ondan əlavə Axıska Müsəlman Mütəəllimlər Komitəsinin sədri və birinci qurultayımızın üzvlərindən Z. Pepinov cənabları divani-rəyasət naminə bir məktub yazaraq rica edir ki, əhvali-fövqəladədən dolayı Axıska mütəəllimləri dağılmış, yurdlarına toplanıb qurultaya üzv seçməmişlərdir. Rica edir, onların sədri olduğuna görə və qurultayda ona üzvlük haqqı versinlər.

Sədr məktubu oxuyur. Qurultay, ümumiyyətlə, qərar qoyur ki, Z. Pepinova həlledici səslə üzvlük haqqı verilsin.

Bundan sonra sədr elan edir ki, məsələlərimizin arasında komisyonlara ehtiyacı olanlar vardır. Onlar üçün indidən heyətlər seçmək lazımdır ki, sonra məəttəl qalmayaq. Seçiləcək komisyonlar bu məsələlərə görədir:

1) Əhvali-hazirə barəsində;

2) Məktəblər məsələsi;

3) Məhəlli [yerli] mütəəllimlər təşkilatları üçün proqram hazırlamaq;

4) Mərkəzi Komitə üçün proqram hazırlamaq.

Sədr rica edir, neçə komisyon və hər komisyonda neçə üzv olmasını göstərəsiniz.

Qərar qoyulur əhvali-hazirə ilə Mərkəzi Komitə proqramması üçün bir komisyon və iki başqalarına görə bir komisyon olsun. Hər komisyona 5 nəfər üzv qərar verilir, seçilir.

Ondan sonra məhəlli mütəəllimlər təşkilatlarının [yerli tələbə təşkilatlarının] fəaliyyətləri haqqında izahat verilməsinə keçilir.

Birinci söz Axıska mütəəllimlər nümayəndəsi Z. Pepinov cənablarına verilir. Burada sədarətə İbrahimzadə cənabları keçir. Axıra kimi sədarət edir.

Saat 8 radələrində iclas qapanır.

## AZƏRBAYCANDA

**Kürdəmirdən**

28 Mayıs bayramı

Hökumətimizin birilliyi tamam olmaq münasibətilə Kürdəmir qəsəbəsində sükunət edən [yaşayan] əhali də yövmiməzkurda [deyilən gündə] şadyanalıq etmək üçün daha bir-iki gün müqəddəm [qabaq] bayraq tikmək və bəzi binaları xalı və gəbə ilə döşəmək kimi hazırlıqlarda bulunurlardı. Bayram axşamı uşaq-böyük sabah istiqlalımızın bayramıdır deyə yek-digərləri [bir-birləri] ilə nəşə və sevinclə söhbət edirlərdi. Bundan anlaşılırdı ki, bu millət daha haqq, hüquq və istiqlaliyyət nə olduğun düşünüb dərk etmişlər.

Eyd [bayram] günü hülul etdi [gəlib çatdı]. Sübh tezdən camaat dəstə ilə gəzir, bir-birini salamlayır, təbrik edir, bütün dükan və görünüşlü binaların üzərində Azərbaycan Cümhuriyyətinin əlamətini havi [daşıyan] bayraqlar təməvvüc edərək [dalğalanaraq] lisani-hal ilə [hal dili ilə] istiqlal və azadəliyimizi alqışlayırdı.

Saat 10 radələrində Kürdəmir vağzal cənbindəki [tərəfindəki] məktəbin şagirdanı [şagirdləri] əsgəri bir vəziyyətlə əllərində bayraq müəllimləri ilə bərabər "Yaşasın Azərbaycan Cümhuriyyəti", "Yaşasın istiqlalımız" və milli marş oxuya-oxuya vağzal, park və küçələri gəzirlərdi. Bu balaca balaların əsgərliyə olan məhəbbətlərin[i] oğlanların[ı] əsgərlikdən azad etdirməyə çalışan atalar görüb mütəəssir olarlar zənn edirəm.

Vəziri-daxiliyyə [Daxili İşlər naziri] həzrətlərinin şəhərimizə təşrifləri 28 Mayıs bayramına təsadüf etdiyindən, mərasimi-şadimani daha parlaq bir surətdə icra edildi. Stasyon sərapa [başdan-ayağa] gül və göyərti ilə donadılıb, fərş xalı və gəbə ilə döşənmişdir. Vəlhasil, hamıda bir ruh yüksəkliyi, bir fərəh və sürur [sevinc] hökmfərma idi [hökm sürürdü].

Günüz saat 5-də əhali Kürdəmir vağzal cənbindəki məktəbin həyətinə toplandılar. Burada isbati-vücud [iştirak] edən əşxasdan [şəxslərdən] vağzal camaatının ruhanisi Həsən əfəndi, müəllim Əhməd Əfəndizadə, Ağaməhəmməd Abdullazadə, İsmayıl Güllü oğlu, Molla Yusif Səmədəfəndizadə birər nitq söylədilər. Bədəhu [sonra] Hacı Şeyx Həbib axund cənabları qayət mütəəssir bir nitq irad buyurub [təsirli bir nitq söyləyib], hökumət, din və millətimiz haqqında xeyir-dua edib məclisə xitam verdilər.

*Əlif Əlif.zadə*
*29 mayıs 1919*

**Şamaxıdan**
**Acların yoxsullara ianəsi**

May ayının 14-də yanğından qalan uçuq divarların arasında ayaqyalın, başaçıq, qarnı ac məsum çocuqların və dul övrətlərin çörək deyə eşidilən sədalarına tab gətirməyən möhtərəm Şamaxı qəzasının qaimməqamı [qəza rəisi] Lütfəli bəy Zülqədərli həzrətləri öz təhti-himayəsində [himayəsi altında] yaşayan və özlərinin ianəyə ehtiyacı olan əhalini bir yerə toplayıb Şamaxı aclarının hallarını bəyan edib, hər kəsin var qüvvəsi ilə müavinətdə bulunmalarını hazirundan xahiş etdi. Əhali isə Zülqədərli cənablarının aclar haqqında söylədiyi nitqinin nə payədə kəsərli olduğundan, ciblərində olan ən axırıncı qəpiyinə qədər ianə dəftərinə yazdırdılarsa, genə ürəklərinin atəşi sönmədiyini öz göz yaşları ilə bəyan etdilər.

Toplanan 15 min manatı Zülqədərli cənabları şəhər Bələdiyyə İdarəsinin sədrinə tapşırıb Şamaxı aclarına paylanmasını xahiş etdi.

Böylə fəaliyyətdə bulunan və acların hallarına yanan kimsələrin əhaliyə nə qədər məhəbbəti olduğunu görərək Bə-

lədiyyə İdarəsi və aclar Lütfəli bəy həzrətlərinə öz təşəkkürlərini izhar edərək deyirlər: "Yaşasın ayaq altında tapdanan kimsələri görüb onların hallarına yanan Zülqədərli həzrətləri!"

İanə toplandıqdan sonra Şamaxı Bələdiyyə İdarəsinin üzvlərindən birisi Şamaxı və mahal əhalisinin zəlalətdə yaşadıqlarını söylədi. Əhali isə 3 nəfər Şamaxıdan və 3 nəfər mahaldan nümayəndələr seçib Bakıya göndərdilər ki, gedib hökumətə camaatın halını söyləyib yaxşılanmasını xahiş etsinlər.

*Ağaisa*

**Kürdəmirdən**

18 mart facieyi-əliməsindən sonra Şamaxıdan qaçqın kütləsi Kürdəmirə axınaxın gəlirdi. Çünki Kürdəmir qəsəbəsi istasyon və həm də Şamaxı yolu üzərində olduğundan, mühacirlər üçün burası daha əlverişli idi. Digər tərəfdən, filhəqiqə [doğrudan da], Kürdəmir Milli Komitəsi bunların halını nəzərə alaraq heç bir müavinətdən geri durmayırdı. Belə ki, ayağı yer tutmayan zəif və xəstələri araba ilə gətirtdiyi kimi, fəqir və ziyadə təvanadan [taqətdən] düşmüşlərə də həftələrlə un və çörək verirdi. İştə, Kürdəmir əhlinin böylə mehmannəvazlığından naşi [qonaqpərvərliyinə görə], bir çoxları buranı özlərinə ikinci məskən ittixaz edib [qəbul edib], kəsb və sənət [dolanışıq və peşə] tədarükünə dəxi məşğul olmaqda idilər. Məəttəəssüf [təəssüf ki], bu fəlakətzədələrin nəfəs almaq istədikləri Kürdəmir çox çəkmədi dağıdıldı. Bolşevik maskasında olan qəddarlar, haydudlar [quldurlar] buranı da zir-zəbər [alt-üst] etdilər. Şamaxı bəqiyyətüs-süyufunun [qırğından sağ qurtulanlarının] bir parası yenə bərrübiyabanlarda qorxudan, acından, narahatlıqdan tələf olaraq, bir qismi də Gəncə, Ağdaş və Göyçay kimi yerlərə fərar etdilər. Kürdəmir, Bakı alınandan sonra bu biçarələrdən bir çoxu Kürdəmirdə sükunət etməyi ixtiyar etdilər. Əlan [hal-hazırda] burada olan qaçqınlar məişət və güzəran xüsusunda ziyadə tənkliklə [çətinliklə] keçinirlər. Çünki nə bir qaçqın cəmiyyəti yoxdur ki, müxtəlif yollarla pul və azuqə cəm edib müavinətdə bulunsun və nə də xaricdən bir kömək. Doğrudur, Ümuri-Xeyriyyə Nəzarəti-aliyyəsinin burada şöbəsi vardır. Məəttəəssüf, ondan da bir nəticə görünməyir. Qaçqınlardan öyləələri vardır ki, dərdini bir kimsəyə izhar etməyə və yaxud ehtiyacını düzəltmək üçün ən yaxın bildiyi adamdan şey istəməyə ismət və həyası onu mən edir [mane olur, icazə vermir].

*Əlif Əlif*

## GÜRCÜSTANDA

Gürcüstan Hökuməti naminə Ermənistan sərhədində olan dəmiryol məmurlarından böylə bir teleqraf gəlmişdir:

"Mövqiflərdə [stansiyalarda] olan ingilis komandanlarının Gürcüstan parovozlarını Ermənistana buraxmaq üçün mənə və depo naçalniklərinə etdikləri təcavüzə baxmayaraq, bu gün mayın 24-də yenə böylə bir əhval təkərrür etmişdir. İki parovozla 25 nömrəli qatar varid olmuşdur [gəlmişdir]. Komandan bu parovozların birbaşına Ermənistana buraxılmasını tələb etmişdirsə də, bizim tərəfimizdən rədd edilmişdir. İngilis komandanı əhvalı böylə gördükdə müsəlləh [silahlı] və əllərində qamçıları olan erməni saldatlarını gətirib 30 dəqiqə müddətində qatar göndərilmədiyi halda döymək və güllələməklə təhdid etdi və bunu da əlavə eylədi ki, Tiflisdən gələn hamı ingilis qatarları bilatəxir [dərhal] Gürcüstan parovozları ilə göndərilməlidirlər. Bunun üçün də o, binagüzarlıq [sərəncam] almışdır və mənim bu barədə olacaq binagüzarlığımın heç birini qəbul etməyir. Bu tövr xidmət şəraiti altında olduğumuzdan, qanuna müvafiq və sizin göstərdiyiniz kimi hərəkət etməkdən məhrum olmuşuq. Buna görə də sizdən acizanə xahiş edirik ki, parovoz işlərini düzəldəsiniz və mövqifdə olan İngiltərə komendantını da əhvalatdan xəbərdar edəsiniz. Sizin təcili binagüzarlığınızı gözləyirik. Əks surətdə ixtilafa düçar olarıq.

Acizanə rica ediriz ki, Həmkarlar İttifaqının ümumi və xüsusi hüququnu müdafiə etməyə qalxasınız.

Qəti binagüzarlıq alana qədər Gürcüstan parovozları mövqif komendantının təkidanə [israrlı] tələbinə və mümaniət [maneçilik] qüvvəsi olmadığına görə Ermənistana buraxılacaqdır."

*Şalikaşvili*

**General Biçin əziməti [gedişi]**

Mayın 30-da general Biç sürət qatarı ilə İrəvana, Qarsa və Sarıqamışa azim olmuşdur [getmişdir].

**Bakıya getmək arzusu**

Gürcüstan Daxiliyyə Nəzarətinin verdiyi məlumata görə, bu axır vaxt cavan zabitlərdən bir çoxu Bakıya getməyə həvəs edirlər. Həman adamlar Nəzarətə müraciət edib Gürcüstan Cümhuriyyətindən çıxmağa icazə verilməsini xahiş edirlər.

**Edam cəzaları**

Gürcüstan hökuməti mayın 28-də Nakaidze, Mikaberidze və Deparişvilinin edam olunmalarını təsdiq etmişdir.

**Qəzetələrin bağlanması**

Gürcüstan Daxiliyyə naziri zeyldəki [aşağıdakı] əmri vermişdir:

Mən – Daxiliyyə naziri "Novosti dnya" və "Tiflisskaya qazeta"ların Könüllü ordunun Qara və Xəzər dənizləri tərəfindən hərəkət etmələri münasibətilə tədriclə nəşr etdikləri yalan xəbərlərə aşina olub və bu xəbərlərdən məqsəd əhali arasına həyəcan və qorxu salmaq və böyləliklə, məmləkətdə asayişi xələldar etmək [pozmaq] olduğunu nəzərə alaraq qət etdim ki, yuxarıda söylənən qəzetlər qapanıb, idarələri möhürlənsin və müdirləri həbs edilsin.

*Daxiliyyə naziri: N. V. Ramişvili*

## BATUMDA

- Mayın 22-də gündüz fevral ayından burada dayanmış olan İngiltərə kruvazeri "Tezey"də piyada dəstələri nümayəndələri cəm olmuşlar. İngiltərə qüvvələrinin beşdən bir hissəsinin İngiltərəyə göndərilməsi haqqında həman gün simsiz teleqrafla alınan binagüzarlıq [sərəncam] onlara xəbər verilmişdir. "Tezey" kruvazeri də İngiltərəyə gedəcəyinə görə, may ayından burada dayanmaqda olan İngiltərə "Toma" zirehlisi Batumda qalacaqdır.

- "Svyatoy Nikolay", "Adolf", "Albert" və qeyri paroxodlar Novorossiyskdən Batuma varid olmuşlar [gəlmişlər]. Sərnişinlər Batuma buraxılmayır. Ancaq qaçqın yunanlar və ermənilər gəlirlər. İcazəsiz gələnlər tutulub geri göndərilirlər. "Koş" adlı Amerika paroxodu Ermənistandan ötrü 400 min pud un gətirmişdir.

- "Anadolu" adlı fransız paroxodu İstanbuldan və Marseldən bir çox bəzzaziyyə malı, qənd, sabun, ayaqqabı və qeyri mallar gətirmişdir.

### ERMƏNİSTANDA

- Mövsuq mənabedən [mötəbər mənbələrdən] "Aref" xəbər bilmişdir ki, Cəmahiri-Müttəhidə [Birləşmiş Ştatlar] Hökuməti Böyük Ermənistan dəmiryol xətlərini Amerika üsulu və texnikası üzrə təsis edəcəkdir. Vaqonların, makinaların və parovozların tərkibi Amerika qaydasına salınacağından naşi [ötrü], qatarlar saatda 150 kilometrə yol gedəcəklər. Ermənistan, yollarını alıb öz təsərrüfünə [idarəsinə] götürənədək bütün xətlərin ixtiyarı amerikalıların əlində olacaqdır. Yolları qaydaya salıb idarə edəcək cəmiyyətə Ermənistan hökuməti tərəfindən erməni mühəndisləri də daxil olacaqlar.

- Ermənistan Məclisi-Məbusan üzvlərinin intixabat [seçki] idarəsinə indiyədək 8 siyahı təqdim edilmişdir. O cümlədən Daşnaksutyun firqəsi tərəfindən 120 namizədin siyahısı, Erməni Xalq Firqəsi tərəfindən iki siyahıda 65 namizəd, ictimaiyyuni-inqilabiyyunlar [sosialist-inqilabçılar] tərəfindən 35 namizəd üçün üç siyahı, kürdlər 4 siyahıda 2 namizəd, assurlar 5 siyahıda 3 namizəd. Bütün əhali intixabatda iştirak etmək üçün hökumət və intixabat komisyası var qüvvələri ilə çalışırlar.

- Mayın 16-da Qarsdan Ermənistan Daxiliyyə naziri adına böylə bir teleqram gəlmişdir:

Aprelin 26-da müsəlləh [silahlı] gürcü və yunan dəstələri Göllər dairəsində kürdləri təzyiq altına alıb 15 kəndi yandırıb talan və qarət etmişlər. Kənd əhalisindən bir azına qaçıb ölümdən xilas olmaq mümkün olmuşdur. Mayın 15-də gürcü əsgəri dəstələri və müsəlləh yunanlar mitralyoz və toplarla Diqor, Mucul, Çobançöl və Mahalasa kəndlərini əhatə edib atəşə tutmuşlar. Əhali varyoxunu qoyub qaçmışdır. Erməni təbəiyyətini [vətəndaşlığını] qəbul edib acizanə təvəqqe edirik bilatəxir binagüzarlıq edəsiniz [dərhal sərəncam verəsiniz], bizi gürcü və yunan təcavüzatından xilas edib gürcü qoşununun işğal etdiyi mövqelərdən çəkilməyə tədbirlər ittixaz edilsin [tədbirlər görülsün], ta ki qaçqınlara qayıdıb öz xarabalarını abad eyləmək mümkün olsun.

Müsəlmanca savadlı bir şəxs yer axtarır. Xahiş edənlər "Azərbaycan" kantorunda öz adreslərini "Hüseyn" adına qoymalıdırlar.

*10209*

Doktor **M. M. Kərimov** göz naxoşlarını və diş həkimi **A. Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*





**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*8798*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

Moskvada təcrübə görmüş diş həkimi **K. S. Kolandskaya-Sanuxat** kabinə açmışdır. Müalicə edir, dişləri doldurur, süni dişlər qayırır və dişləri ağrısız çəkir. Qiymət münasibdir. Qəbul edir: Hər gün səhər saat 9-2-yədək; aşxam saat 5-7-yədək. Adres: Bazarnı və Suraxanski küçələrin küncündə, nömrə 112.

*8795*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi**
**R. S. Fuks**

Qəbul edir: 9-dan 10-a dək; 5-dən 7-yə dək. Ünvan: Mariinski, nömrə 18. Ferdinandın aptekası ilə bərabər. Telefon nömrə 34-15.

*10202*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Doktor**
**M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. “606” və “914” müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Elan**

Sabiqdə Tiflis şəhərinin canişin sarayında hər növ çərkəz libası tikməklə məşhur olan Balabəy hal-hazırda Bakı şəhərində Nikolayevski küçədə Seyidəhməd Əzimzadənin dükanında aşağıda adları zikr olunan formaları qəbul edir: “çerkasski kazaçi”, “çerkaski imereteniski, çerkaski asetiniski”, “Qarabağ çərkəzi” və hər bir formanın şubasını [kürkünü] və Malorossiyski şubalar.

Tikdiyim işlərdən müştərilərin məmnun qalmalarına əminəm.

*Kamali-ehtiramla: Balabəy*
*10204*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Xanıstan-Ermənistan**

səh. 82. “qoşun komandanlığına Kəlbəli Naxçıvanskini”: Cəfərqulu xan Naxçıvanskinin oğlu Kəlbəli xan Naxçıvanski nəzərdə tutulur.

səh. 83. “Cəfərqulu xanın dədəsi Kəlbəli xan”: burada söhbət, Cəfərqulu xanın ulu babası olan Kəlbəli xan Kəngərlidən gedir.

**Teleqraf xəbərləri**

səh. 85. “Cəmiyyəti-Əqvam məramnaməsi milləti keyfəmayəşa tərəfdarları tərəfindən kontroledici bir Parlaman vücuda gətirilməsi üçün inqilabi bir təşəbbüsatdır.”: tərcüməsi qüsurlu olan bu cümlə belə başa düşülməlidir: “Millətlər Cəmiyyəti sazişi, oliqarxiya tərəfindən nəzarət edilən millətlər parlamenti yaratmaq üçün inqilabi bir təşəbbüsdür.”

“Libava”: Latviyanın cənub-qərbində, Baltik dənizi sahilində indiki Liepaya şəhəri.

“Mitava”: Latviyada, indiki Yelqava şəhəri.

**Sülh ətrafında**

səh. 86. “Jurnal de Deba” (yaxud “Jurnal de Deba Politik e Literer”) [Journal des Débats Politiques et Littéraires]: 1789-1944-cü illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik qəzet.

**İrana dair**

səh. 92. “Rəcəbəli, Cəfərqulu”: hər ikisi İranda quldurluqda ad çıxarmışdılar.

“Lurlar”: İranın qərbində yaşayan xalq.

“məndəlilər, gülbağilər”: İranda yaşayan kürd tayfalarıdır. “Məndəlilər” yerinə qəzetdə “məndəmilər” getmişdir.

“cəngəlilər”: İranda 1915-1920-ci illərdə Qacarlara qarşı partizan hərəkatı (Cəngəlilər hərəkatı) iştirakçıları.

səh. 93. “1907 müahidələrinin”: İngiltərə ilə Rusiya arasında 1907-ci ilin avqust ayında Sankt-Peterburqda imzalanan müqaviləyə görə, İran şimalda Rusiyanın nüfuz dairəsi, cənubda İngiltərənin nüfuz dairəsi və mərkəzdə neytral sahə olmaqla üç nüfuz dairəsinə bölünürdü.

“kapitulasyonlar”: xarici dövlətlərlə bağlanan müqavilələr nəticəsində əcnəbilərə verilən əlahiddə hüquq və imtiyazlar.

**Felyeton**
**Nəşriyyatımızın əsbabi-tərəqqi və tədənnisi**

səh. 95. “Beytül-hikmə sahibi”: Orta əsrlərdə islam dünyasında elmi tədqiqat və tərcümələrin həyata keçirildiyi mərkəzlərə “Beytül-hikmə” (Hikmət evi), bu mərkəzin rəhbərinə isə “Sahibül-Beytül-hikmə” (Hikmət evinin sahibi) deyilirdi.

“Nəbti”: nəbtilər (yaxud nəbatilər) Suriya ilə Ərəbistan arasında yaşamış qədim sami xalqlarından.

“Bəxtişu ailəsi”: Abbasilər dövründə yaşayan xristian həkimlər ailəsi idi. Bu ailədən I Bəxtişu, I Cəbrayıl, Curcis, II Bəxtişu, II Cəbrayıl, III Bəxtişu, I Übeydulla, Yuhanna, IV Bəxtişu, III Cəbrayıl, II Übeydulla kimi həkimlər çıxmışdır.

Hüneyn ailəsi: Orta əsrlərdə alim və tərcüməçilər ailəsi.

Masərcəveyh ailəsi: Orta əsrlərdə alim və tərcüməçilər ailəsi.

Kərxi ailəsi: Orta əsrlərdə tərcüməçi və alimlər ailəsi.

Sabit ailəsi: Orta əsrlərdə alim və tərcüməçilər ailəsi.

Nobəxt ailəsi: Abbasilər dövründə alim və tərcüməçilər ailəsi.

səh. 96. “Bəni-Şakir” (yaxud “Bəni Musa”): Abbasi xəlifəsi Məmun dövründə (IX əsr) yaşamış münəccim Musa bin Şakirin astronomiya və həndəsə alimi olan üç oğlu – Məhəmməd, Əhməd və Həsən.

"Föhrüst": X əsrdə yaşamış ərəb biblioqrafiya alimi İbnün-Nədimin əsəri.

səh. 97. "Kitabüs-siyasə": Platonun "Dövlət" [Politeia] adlı əsəri nəzərdə tutulur.

"Kitabün-nəvamis": Platonun "Qanunlar" [Nomoi] adlı əsəri nəzərdə tutulur.

"Kitabüt-Timaios": Platonun kosmologiya, fizika və biologiya haqqında dialoqlar formasında yazdığı "Timaios" adlı əsəri nəzərdə tutulur.

"Kateqoriyas i əl-məqulat": Aristotelin "Kateqoriyalar" [Categoriae] əsəri nəzərdə tutulur.

"Təhlilül-qiyas": Aristotelin "Birinci analitika" əsəri nəzərdə tutulur.

"Kitabül-bürhan": Aristotelin "İkinci analitika" əsəri nəzərdə tutulur.

"Kitabüc-cədəl": Aristotelin məntiq haqqında traktatı olan "Topika" [Topika] adlı əsər nəzərdə tutulur.

"Kitabül-müğalitat vəl-hikmətül-məmmuhə": Aristotelin əsəri.

"Kitabül-xitabə": Aristotelin "Ritorika" əsəri nəzərdə tutulur.

"Kitabüş-şe'r": Aristotelin "Poetika" əsəri nəzərdə tutulur.

"Kitabüs-səmaüt-təbii": Aristotelin "Fizika" [Physica] adlı əsəri nəzərdə tutulur.

"Kitabüs-səma vəl-aləm": Aristotelin "Səma haqqında" [De Caelo et Mundo] adlı əsəri nəzərdə tutulur.

"Kitabül-asarül-ülviyyə": Aristotelin "Meteorologiya" [Meteorologica] adlı əsəri nəzərdə tutulur.

"Kitabül-heyəvan" (Heyvanlar kitabı): Aristotelin heyvanlar aləmi haqqında yazdığı bir neçə əsərin ərəbcə tərcüməsini özündə ehtiva edən kitab.

"Kitabül-hüruf vəl-ilahiyyat": Aristotelin "Metafizika" [Metaphysica] adlı əsəri nəzərdə tutulur.

"Tacəddin Yaqub bin İshaq əl-Kindi": Yaqub bin İshaq əl-Kindi və Tacəddin əl-Kindi fərqli şəxslərdir.

səh. 98. "Kitabül-füsul": Hippokratın "Aforizmlər"i nəzərdə tutulur.

"Kitabül-təqdimətül-mərifə": Hippokratın "Proqnozlar" əsəri nəzərdə tutulur.

"Kitabüz-zahirat": Evklidin "Phainomena" əsəri nəzərdə tutulur.

"Kitabi-ixtilafül-mənazir": Evklidin "Optika" əsəri nəzərdə tutulur.

"Kitabüs-siqəl vəl-xiffə": Evklidin "De gravi et levi" əsəri nəzərdə tutulur.

"İbnül-Bitriqin Kitabül-əməl bil-üstürlabil-müsəttəh...": "Kitabül-əməl bil-üstürlabil-müsəttəh" adlı əsər İbnül-Bitriqə deyil, VIII əsr əsəb astronomu İbrahim Fəzariyə məxsusdur.

"Kitabi-cürmüş-şəmsi vəl-qəmər": Aristarxusun "Günəş və Ayın ölçüləri və məsafələri" əsəri nəzərdə tutulur.

**Azərbaycanda**

səh. 102. "18 mart facieyi-əliməsi": 31 Mart soyqırımı nəzərdə tutulur.

**Ermənistanda**

səh. 104. "Göllər dairəsində... Diqor, Mucul, Çobançöl və Mahalasa": buradakı yer adları çox güman ki, təhrif edilmişdir. "Göllər" yerinə Gölə (Türkiyənin Ərdahan ilinin ilçəsi); "Mucul" yerinə "Mucuq" (Gölə ilçəsinin kəndi, hal-hazırda "Beşikdaş" adlanır); "Çobançöl" yerinə Çobanköy (Gölə ilçəsinin kəndi); "Mahalasa" yerinə "Mollahəsən" (Gölə ilçəsinin kəndi) olmalı idi. Diqor isə Türkiyənin Qars ilinin ilçəsidir.





**Cümə axşamı, 5 iyun 1919-cu il, nömrə 196**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 6 ramazanül-mübarək sənə 1337. 5 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

**ELAN**

1919 həziranın 5-ci günü saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-145*

**ELAN**

Bu günlərdə İran "Ədalət" firqəsinin mürəvvici-əfkarı olmaq [fikirlərini yaymaq] üzrə "Hürriyyət" adında həftəlik qəzetə nəşr olunacaqdır.

*10212*

**ELAN**

Cümə günü iyun ayının 6-da saat 10-da, Rus-müsəlman məktəbində Bakı Şamaxinka dairəsi camaatı cəmiyyətinin birinci iclası, saat 11-də isə hər nə qədər üzv gəlmiş olsa, ikinci iclas təyin edilmişdir. İclasda cəmiyyətin atçotu [hesabatı] barəsində məruzə və gələcək fəaliyyəti barəsində müzakirat olunacaqdır. Üzvlərin gəlmələri vacibdir.

*10214*

**ELAN**

Maarif nazirinin əmrinə binaən [əsasən], Bakı Kommerçeski məktəbdə türk çocuqlarına məxsus əlifba və hazırlıq sinifləri açılır. Ərizələr hər gün bayram günlərindən başqa məktəbin dəftərxanasında saat 9-dan 2-dək qəbul olunur. Əlifba sinifinə imtahansız, hazırlıq sinifinə isə imtahanla çocuqlar qəbul olunacaqdır. İmtahanlar iyun ayının 11 və 12-də olacaqdır.

*10213*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Maliyyə Nəzarətindən**

Köhnələnmiş pullar haqqında Azərbaycan Şurayi-Vükəlası [Nazirlər Kabineti] tərəfindən bu sənə mayın 26-da təqdir və təsvib edilmiş [bəyənilmiş və təsdiq edilmiş] qərarı ümuma elan edirəm:

1) Dörddən üç hissəsi xarab olmuş və bir tərəfdən liter nömrəsi və imzası olmayan və ya iki yarımçıq nömrələrdən bir nömrə düzəlməyən pullar heç bir halda qəbul edilməməlidirlər. Həmçinin cırılmış və bitişdirildiyi zaman nömrəsi, literi və adı bir-birinə müvafiq olmayan və bir hissəsi digər hissəsinə oxşamayan pullar heç bir halda qəbul edilməməlidirlər.

2) Birinci maddədə göstərilən pullardan başqa qalan pullar nə qədər köhnələnmiş olsa da, xəzinə kassaları tərəfindən, hər halda, qəbul olunmalıdırlar. Bununla bərabər, həman kassalar ancaq ümdə hissələri xarab olmayan pulları işə buraxmalıdırlar. Bu barədə ümuma xəbər verilib xəbərdar edilməlidir ki, bu cür pulları qəbul etməkdən imtina edən adamlar 100 manat cərimə və ya 3 gün həbsə düçar ediləcəklərdir.

**Bakı qalabəyiliyinə verilən əmrnamə**

3 iyun 1919, nömrə 107

Pristavlara təklif edirəm ki, əsgərlik vəzifəsini ifa etməkdən imtina edən cavanların valideynlərini bilatəxir [dərhal] həbs etməyə şüru edəsiniz [başlayasınız]. Əsgərlikdən qaçmış olan cavanların gəlməsinədək məhbusları həbsxanaya göndərmək üçün mənə təqdim edəsiniz.

*Bakı qalabəyisi rotmistr Qudiyev*

**Azərbaycan və Dağıstan sülh mürəxxəsləri [nümayəndələri] Vilson hüzurunda**

Bakıda müntəşir [nəşr olunan] "Bakinski jizn" qəzetəsinə Parisdən bu məzmunda bir teleqraf çəkilmişdir:

Pəncşənbə [cümə axşamı] günü gündüz Amerika rəisi-cümhuru Vudro Vilson Azərbaycan və Dağıstan sülh nümayəndələrini hüzuruna qəbul etmişdir. Azərbaycan nümayəndələrinin başçısı Əlimərdan bəy Topçubaşov və Dağıstan nümayəndələrinin başçısı Tapa Çermoyev və Xariciyyə naziri Heydər Bammatov idi. Bunlar Vilson cənablarını təbriklə bərabər, Azərbaycan və Dağıstan tələbatını müşarünileyhə [adı çəkilən şəxsə] bildirmişlərdir.

**İstiqlaliyyəti müdafiə**

Tiflis - 31 mayda Tiflisdə əmələ nümayəndələrinin iclasında zeyldəki [aşağıdakı] qərar qoyulmuşdur. Bizim cəbhəmizin halı, Gürcüstan və bütün Qafqazya millətlərinin gərək qərbdən və gərək şərqdən təhlükə altında olduqları barəsində dakladı Şura eşidərək qərar qoymuşdur:

Denikinin yürüşü inqilab sayəsində qazanılan hürriyyət və azadlığa qarşı bir qara qüvvənin əl uzatmasında, bu müqəddəs mübarizədə Əmələ Şurası bütün millətləri, bütün demokratiyanı və bütün inqilab ünsürlərini bilafərqi-sinif və millət [sinif və millət fərqi olmadan] dəvət edir ki, hökumətin başına cəm olsunlar, tainki ümumi qüvvə ilə qara qüvvənin qabağı saxlanılsın. Bununla bərabər, Şura Azərbaycan və Ermənistan demokratiyasına [xalqına] təklif edir ki, Gürcüstan ilə birləşsinlər və bu mübarizədə öz hökumətlərini gürcü hökuməti ilə əlbir işləməyə məcbur etsinlər. Hərgah bu hökumətlər Dağıstan Hökuməti gedən yolu gedərlərsə, təklif edir ki, bu cümhuriyyətlərin demokratiyası hökuməti əllərinə alıb Zaqafqaziyanı qara qüvvələrdən müdafiə etsinlər. Sonra Denikin qarşısına inqilab cəbhəsinə şitaban olunuz [tələsiniz].

Tiflis - Denikin ordusuna dair məqalə yazdıqları üçün hökumət "Novosti dnya", "Tiflisskaya qazeta"nı qapamışdır. İdarələrin möhürlənməsinə, müdirlərin tövqif [həbs] edilməsinə əmr vermişdir. Əmələ nümayəndələri şurası öz iclasında qərar qoymuşdur ki, firqə münaziəsi [çəkişməsi] yaddan çıxarılıb, müttəhidən [birgə] Gürcüstan müdafiəsinə hazırlansınlar. Şura Azərbaycan və Ermənistandan xahiş edir ki, Gürcüstana bu işdə feilən müavinət etsinlər. Hərgah bu hökumətlər Denikinə təslim olarlarsa, Zaqafqaziya demokratiyası o zaman hökuməti əlinə almalıdır.

## TELEQRAF XƏBƏRLƏRİ

**İtaliyada əmələ hərəkatı**

İtaliyada əmələlər [fəhlələr] tərəfindən edilmiş olan tətil müvəffəqiyyətli keçmişdir. Aprelin 11 tarixi ilə "Avanti" qəzetəsi yazır ki, Roma şəhəri heç bir vaxt böylə bir ümumi tətil görməmişdi. Şəhərdə tam mükəmməl sakitlik var idi. Bütün mağazalar qapalı idi. Qırmızı bayraqlarla gəzən əmələləri polis dəstəsi pərakəndə etmişdir. Artur[o] Vella və digər bir neçə nəfər əmələ başçıları tövqif edilmişlərdir.

**İngilis əmələləri Rusiya barəsində**

Stokportda ingilis əmələlərinin vaqe olan iclasında ingilislərin Rusiya işlərinə müdaxilə etmələrinə etiraz edilmişdir. Bunlar ingilis hökuməti nəzdinə xüsusi bir heyət göndərmişlərdir ki, hökuməti yenidən səfərbərlikdən vaz keçindirsin.

**Hindistanda üsyan**

İngilis Hökuməti Hindistanda Lahor və Amristar qəzalarında hinduların üsyan qalxızdıqlarını bilərək o yerləri idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] altında elan eyləmişdir.

**Casusluq**

Moskva - 30-u mayda bolşeviklər tərəfindən işbu intibahnamə [vərəqə] nəşr edilmişdir:

"Casuslardan özünüzü gözləyiniz", "Ölüm olsun casuslara". Beluqvardeyslərin [Ağqvardiyaçıların] Petroqrada yürüş etmələri göstərdi ki, cəbhə boyunda olan bütün böyük şəhərlərdə beluqvardeyslərin casusları və casusluq təşkilatları vardır. Və bunların sayəsindədir ki, bolşevik qoşunlarının istifadə etdikləri körpülər partladılır, bolşeviklərə cinayətlər edilir, arxada üsyan tərtib verilir, bolşeviklər qətl edilir. İştə, casusların gördüyü işlər bunlardır. Hər kəs öz mövqeyində olmalıdır, hər kəs dördgözlü olmalıdır. Dəmiryol əmələləri, siyasiyyunlar, qoşun qitəatına xidmət edən hərbi müəssisələr ələlxüsus xəbərdar və ehtiyatkar olmalıdırlar.

## SÜLH ƏTRAFINDA

İngilis Sülh Şurasının sədri Çarlz Tredelyan "Mançester Qardian" qəzetəsində indiki sülh müahidəsinə [sazişinə] öz etiraz protestosunu elan eyləmişdir. Müəllif deyir ki, Versal Sülh Konfransında hazırlanmaqda olan bu müahidə olsa-olsa müharibəni müvəqqətən dayandıracaqdır. Beynəlmiləl bir sülh aparatı kimi bu müahidəni tələqqi etmək olmaz. Neçə vaxt bundan əvvəl Vilsonun bəyanatında göstərilən sülhü beynəlmiləl demokratiya arzu edir. Bu sülh şəraitinin böyük tənqidə ehtiyacı vardır. Protestoda denilir ki, inqilabçı və cümhuri Almaniyaya təklif edilən sülhü vücuda gətirmək olmaz. Saar hövzəsi məsələsi öylə bir xəta vücuda gətirər ki, onu 1871-ci ildə Almaniya etmişdi. Şərqi Prussiyanın

ayrılması və Dansiq məsələsi alman millətinin izzəti-nəfsinə toxunur. Mandat altında istila siyasəti gizlənmişdir. Mandat altına düşən, ya istila edilən yerlər heç bir vaxt müstəqil ola bilməz. Almanlardan tələb edilən xəsarət nəticəsi olaraq Almaniya əmələləri iqtisadən qulamlıq halına düşəcəklərdir.

Etiraz bu sözlərlə qurtarır: Kimsə inanmaz ki, bu cür sülh müahidəsi davamlı olacaqdır. Ona görə, bu müahidə hər bir demokrat tərəfindən ləğv edilməlidir. Ola bilər ki, aclıq düşmənləri sülhü imzaya məcbur eyləsin. Lakin beynəlmiləlçilər beynəlmiləl demokratiyaya istinadən sülh müahidəsinin yenidən baxılmasına Müttəfiqləri vadar edə biləcəklərdir.

## QƏZETƏLƏRDƏN

### Cənubi Rusiya Konfransı

"U[tro] Yu[qa]" qəzetəsinin mötəbər mənbələrdən aldığı məlumata görə, dövləti təşkilatların Yekaterinodarda mayın 18-nə təyin edilmiş iclası baş tutmayıb, bir aya qədər təxirə salınmışdır. Nahiyə hökuməti nəzdində olan zabit Drobışev bu yaxın günlərdə Batuma, Ermənistana, Azərbaycana, Gürcüstana və Lənkərana göndərilir ki, konfransa nümayəndə dəvət etsin.

### Bıç və Kuban istiqlaliyyəti

"Tan" qəzetəsinin 20 aprel tarixli nömrəsində "Kubanlıların iddiası" ünvanında bir məqalə dərc edilmişdir. Kuban Radası sədri və Parisdə olan Kuban heyəti rəisi L. L. Bıç bolşevikləri qovandan sonra elani-istiqlaliyyət etmiş öz məmləkəti namından Sülh Konfransına bir müxtirə [yazılı qeyd; nota] təqdim etmişdir.

Kuban xalqı nail olmaq istəyirlər:

1) Kuban istiqlaliyyətinin təsdiq edilməsi;

2) Xalq tərəfindən intixab olunmuş [seçilmiş] onların hökumətinə və parlamanına mənəvi müavinət edilməsi, həmçinin bolşeviklərlə mübarizə üçün demokratik təşkilatlar üçün onların hökumətinə texnika müşavirləri göndərilməsi.

### Kiyevdə

Moskvadan verilən bolşevik xəbərlərinə görə, Ukraynada olan Xalq Komissarları Şurası Polşa imperialistləri tərəfindən irəli gəlməkdə olan təhdid ilə mübarizə etməkdən ötrü istihzari-əsgəriyyə [hərbi çağırış] elan edilmişdir.

### Kerenski pulları

Kerçdən xəbər verirlər ki, Bələdiyyə İdarəsi 10 milyon rublə miqdarında Kerenski parası buraxmağı qərara almışdır.

### Sevastopolun topa tutulması

Sevastopoldan xəbər verirlər ki, Sevastopol İngiltərə gəmiləri tərəfindən bombardman edildikdə Korabelnaya Slobodka qarət edilmişdir. Burada olan bolşeviklər üsyan etmək istəmişlər. İngiltərə komandanlığı bolşeviklərə əmr etmişdir ki, 14 verst Sevastopoldan kənara çəkilsinlər.

### Bolşeviklər və Finlandiya

Bolşeviklər Finlandiya ilə müzakirata girişməyə çalışırlar. Petroqradı öz əllərində saxlamaqdan ötrü bolşeviklər Voloqodski quberniya ilə Kareliyanın bir hissəsini Finlandiyaya verməyə razıdırlar. Lakin finlandiyalılar cavab verməyirlər.

### Almaniyada

Spada olan İngiltərə heyəti sədri Almaniya nümayəndəsinə böylə bir nota vermişdir:

*"Mən vəkil edilmişəm sizə xəbər verim ki, aprelin 16-cı gecəsi Müttəfiq dövlətlər Almaniya firmalarını və xüsusi şəxsləri göstərici siyahını geri götürməyi qərara almışlardır. Almaniya ilə ticarət münasibatına dəxli olan hamı məmnular [bütün yasaqlar] ləğv edilirlər. Müttəfiq dövlətlər ancaq bu siyahılardan əlahiddələrini təqdim etmək ixtiyarını özlərində saxlayırlar."*

### Romaniyanın ultimatumu

Peştədən xəbər verirlər ki, Seyqrad əsgərləri komandanı Romanya general[ı] Merderesku Macarıstan elçisi Vertə böylə bir mütarikə şəraiti [atəşkəs şərtləri] vermişdir:

Romanya və onun müttəfiqləri əleyhinə hərəkət etməkdə olan bilaistisna macar əsgərləri tezliklə tərk-silah edilməlidirlər. Bütün silahlar, avtomobil, at, araba, libas, ərzaq və mühimmati-hərbiyyə [hərbi sursat] təslim edilməlidir. Mütarikə şəraiti imza edildikdə, 10 gün sonra bu istənilən şeylər verilməlidir.

### Amerikalılar və Vilson

Yekaterinodardan xəbər verirlər ki, amerikalılar Vilhelmin müharibə mütəşəbbisi sifəti ilə məhkəməyə verilməsi əleyhinədirlər. Ancaq onlar Vilhelmin müharibəni aparmaq işində məhkəməyə verilməsinə razıdırlar.

## TÜRKİYƏDƏ

### Bolşeviklərin təşviqatı

İstanbuldan gələnlər nəql edirlər ki, Türkiyə paytaxtında bolşeviklərin təşviqatı özü üçün möhkəm yuva salmışdır. Körpülərdə bolşeviklərin növbətçi xüsusi agentləri vardır. Bunlar paroxodlarda gələn rus əsirlərini təqib edirlər. Paroxod sahilə yanaşan kimi şübhəli adamlar dərhal paroxoda daxil olub məccani [pulsuz] nahar etmək, hətta sinematoqraf bileti verirlər. Sonra onlar əsil müşəvviqlər [təşviqatçılar] ilə görüşüb öz işlərini görürlər.

Könüllü ordu cəbhəsinə göndərilməkdə olan legioner dəstəsi bunların qurbanı olmuşdur. Odessanın işğalı ilə İstanbul bolşevik acentələri ilə dolmuşdur.

### Sultan İstanbuldadır

Sultanın İstanbuldan Asiyayi-suğraya [Kiçik Asiyaya, Anadoluya] köçürülməsi haqqındakı şayiələr tamamilə əsilsizdir. Sultan əvvəlki kimi İstanbuldadır. Hər cümə günləri də məscidə namaza gedir.

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

Ticarət və Sənaye və Ərzaq nazirinin neftin Batuma aparılacaq şəraitinin yüngülləşdirilməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Neftçilər İttifaqı nəzdindəki büroya Batuma neft və neft istehsalatının [məhsullarının] mal mübadiləsinə dair verilmiş məcburiyyətdən kənar göndərilməsinə müsaidə [icazə] verilməli, fəqət neft və

istehsalatı orada Azərbaycan Hökuməti nümayəndəsi kontrolu altında satılmalıdır. Əlavə aparılacaq mallardan alınacaq aksiz vergisi, gömrük vergisi və fraxt vergisini neft satılanadək təcil etməli [təxirə salmalı]. İşbu şərait üzrə də Ticarət və Sənaye və Ərzaq nazirinə də Batumdakı nümayəndəsi namına neft aparmağa izin verilsin. İşbu neft əvəzində dövlətə lazım mallar gətirilməlidir.

**NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]**

"Elektriçeskaya Sila" cəmiyyətinin bütün şöbələri xidmətçi və fəhlələri müştərək komitəsi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, mayısın 30-da iniqad etmiş [baş tutmuş] komitənin iclasında qət edildiyi üzrə cəmiyyət Fəhlə Konfransı və Məsai Nəzarətinə müraciətən müştərək müqavilənamənin [kollektiv müqavilənin] qəbul edilməsi ilə bərabər, ərzağın gündəngünə bahalaşması münasibətilə yuxarıda məzbur [adı çəkilən] cəmiyyət, Konfrans və Nəzarətdən məvaciblərinin artırılması haqqında müavinət istəsinlər. Əks surətdə komitəni öz tələbatına əməl etdirmək üçün fəaliyyətində azad buraxsınlar.

**Müştərək müqavilənaməyə dair**

Müştərək müqavilənamə tərtibindəki komisyonda fəhlə və müəssisədarların iştirak etməkdən imtina etdiyindən naşi [ötrü], hal-hazırda Məsai Nəzarəti özü-özlüyündə müştərək müqavilənamə tərtibi ilə iştiğal edir [məşğul olur]. Müqavilənamə tərtib edildikdən sonra hökumət və Məclisi-Məbusanda təsdiq edilərək qanun kimi qüvvəti haiz olacaqdır [qüvvə daşıyacaqdır].

- Vükəla Şurasının qətnaməsi mövcibincə [Nazirlər Kabinetinin qətnaməsinə əsasən], Ermənistan müsəlmanları üçün 3 milyon rublə buraxılmalıdır. Həman məbləğ təxsisinədək 20 milyonluq fonddan 1 milyon rublə buğda və başqa ərzaq alınması üçün buraxılmışdır; binaənileyh [ona görə], Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Qaçqınlar şöbəsi müdirinə teleqrafən ərzaq alınmasına başlamağı rica etmişdir.
- Şamaxıda qaçqınlar üçün ərzaq alan təsərrüfat məmuruna Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti teleqrafən xəbər vermişdir ki, İrəvandan qaçıb Mədrəsə kəndinə yerləşdirilmiş müsəlman qaçqınları üçün Gəncə qəzasından 24 cift [cüt] öküz alınsın. Zira qaçqınlar çöl işlərinə şüru edəcəklərdir [başlayacaqlar].
- Ermənistan Hökuməti[nin] Ermənistanda müsəlman qaçqınları üçün heç bir təşəbbüsatda bulunmadığını nəzəri-etibara alaraq Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Ermənistan Hökuməti nəzdindəki siyasi nümayəndə [Məhəmməd] xan Təkinski vasitəsilə Ermənistan Hökuməti indində [yanında] İrəvanda Azərbaycan Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti müvəkkilliyi güşadına [açılmasına] müsaidə istəmişdir. Müvəkkillik məsələsi Vükəla Şurasının 2 iyun iclasında təhti-qərara alınmışdır.
- Ermənistandakı müsəlman qaçqınlarının əhvali-ələmnaklarını [qəmli hallarını] Amerikanın Yaxın Şərqə Müavinət





Cəmiyyəti qarşısında təsvir etdikdən sonra, Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti rica etmişdir ki, Ermənistandakı müsəlmanlara da cəmiyyət yardımda bulunsun.
- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti məmuru Ryumin Ağdamda ip toxuyan başqa emalatxanalar güşadı üçün göndərilmişdir. Həman emalatxanalarda qaçqınlar çalışacaqdırlar.

**RƏİSİ-VÜKƏLA VƏ MƏSAİ NAZİRİ HÜZURLARINDA FƏHLƏ NÜMAYƏNDƏLƏRİ**

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Təbliğat və Təşkilat şöbəsinə böylə bir şikayət gəlmişdi ki, axırıncı zabastovkada iştirak etməyən fəhlələrin maaşlarını bu vaxta kimi verməmişlər. Bu barədə Təbliğat və Təşkilat şöbəsi tərəfindən Cavad bəy Məlik-Yeqanov, Hüseyn Müzəffərov və Yunis Rəfizadədən ibarət bir heyət Məsai nazirinin yanına gedib əvvəla mart ayının 20-dəki zabastovkada iştirak etməyən fəhlələrin məvacibləri barəsində, sonra may ayının 6-da vaqe olan zabastovkanın verilməmiş məvacibləri barəsində, ondan sonra mayın 28-də vaqe olan İstiqlal bayramında işlərindən əl çəkən fəhlələrin verilməmiş muzdları haqqında müsahibədə bulunmuşlar və rica etmişlər ki, bu vaxta kimi saxlanmış olan o məvaciblərin verilməsi barəsində lazımi təşəbbüsatda bulunsunlar. Və bir də ayda verilən 360 manat pasobiya [müavinət] barəsində danışıb rica etmişlər ki, həmin pasobiyanı tətil günlərinə görə də çıxmasınlar və ayda iki növbətlə fəhlələrə versinlər. Mənzil və mənzilin mayəhtacları [avadanlıqları] hamı fəhlələrə bir qayda ilə verilsin. Fəhlələr "kateqoriyalara" ayrılmasınlar. Müştərək müqavilənamə (kollektivni doqovor) barəsində danışıb təvəqqe etmişlər ki, müqavilənamənin qəbul olunmuş iqtisadi tərəfləri qəzetələrdə elan olunsun. Bu barədə Məsai naziri cavab vermişdir ki, mən hökumətlə danışıb tez bir zamanda qəzetələr vasitəsilə elan edərəm.

Mənzil məsələsinə gəldikdə, nazir cənabları söyləmişdir ki, bu bir sui-təfəhhümdür [yanlış anlaşılmadır]. O barədə dəxi binagüzarlıqda [təşəbbüsdə] bulunacaqdır və hər nə əldən gəlsə, əsirgəməyəcəkdir.

Sabahı gün Cavad bəy Məlik-Yeqanov, Mirzəağa Kərimzadə, Məşhədi Həmid Paşazadə, Əflatun və Səfdər bəydən ibarət heyət Rəisi-vükəla [Baş nazir] Nəsib bəy cənablarının hüzuruna gedib bu məsələləri rəis həzrətlərinə də söyləmişlər. Rəis həzrətləri böyük ehtiramla onları qəbul edib telefonla Məsai nazirinə xəbər vermişdir ki, zabastovkalarda iştirak etməyən fəhlələrin maaşlarını vermək barəsində mədən sahiblərinə əmr etsin və kollektivni doqovor barəsində Məsai naziri layihə tərtib verib hökumətə təqdim etsin ki, hökumət də qəbul edib fəhlələri razı salsın.

Heyət Rəisi-vükəla həzrətlərinin çox razılıq ilə əllərini sıxıb ayrılmışdır.

**ŞİMALİ QAFQAZI SATANLAR!**

"Azərbaycan" qəzetəsinin 3 iyun 919 tarix və 194 nömrəli nüsxəsində şəhə-

rimizdə bulunan Şimali Qafqaz millətləri xadimlərinin Məclisi-Məbusan rəisi Həsən bəy Ağayev həzrətlərinə dərmiyan eylədikləri [meydana qoyduqları] millət xainləri haqqında mütaliələri dolayısı ilə fikri-acizimi dərmiyan edirəm.

Şimali Qafqaz Cümhuriyyəti bir sənə əvvəl təşəkkül etdi. Amma istiqlaliyyətdən, hökumət və parlamentonun mövcudiyyətindən millət nə dərəcəyə qədər xəbərdar idi? Nikolay dövründə yalçın qayalar arasında hücralarda yaşayan kəndlər hanki tərzi-idarə və üsul ilə idarə olunurlardı isə, istiqlaliyyətləri dövründə də qətiyyən əski həyatlarından, yaşayışlarından bir fərq görülməyir, onlar genə köy muxtar və imamının riza və qərarları ilə iş görür və yaşayırdılar.

Altı ay və ya bir sənədir hökumət təşəkkül edir də, hökumət müməssili [nümayəndəsi] olan (pək ufaqdan başlayalım) qəza qaimməqamlarını da uyezdlərə göndərmək mümkün olmazmı? Qəzalarda, kəndlərdə cüzi də olsun təşkilatlar yapmaq mümkün olmayırmı?

Heç olmazsa, bir jandarma komandanı və yaxud hər hanki bir qüvveyi-icraiyyə müməssili göndərilsin də, Teymurxanşurada yaşayan hökumət[in] əvamirini [əmrlərini] təbliğ və icraatını tətbiq etsin, o da yox.

"Şurada" hər iş yolunda, Parlament var, nazir var, naçalnik var, milisə var, fəqət bu mövqelər və mövqeləri işğal edən zatların bütün o əmri Teymurxanşura daxilində və bütün icrası kəza "Şurada"dır.

Bu işlərin bu surətlə cərəyanından anlaşılırdı ki, Şimali Qafqazya Hökuməti məhafili miyanında [hökumət dairələri arasında] xainlər var idi və bunlar müstəqil yaşamaq istəyən milləti kəndi arzusunda buraxmayacaqlar. Millətin gözü açılmağına bütün vəsaitlə mane olacaqlardır və olurdular. Şimdi möhtərəm millət xadimləri fərqinə varmış da, hökumət və parlament üzvləri miyanında millət xainləri Denikin tərəfdarı var imiş də, hətta Denikin generalları ilə də müxabirə edirlərmiş [əlaqə saxlayırlarmış].

O vaxt o məsələlər açıq-açığına aşkar ikən məsələnin üzəri açılmaq istənilməyirdi. Nə vaxt Parlamanda istiqraz məsələsi müzakirəsinə keçilir, heç bir qəpik millətə mənfəət olmaya-olmaya həman o zavallı və bigünah millət naminə "qospoda [cənablar], büdcə qayət zəifdir, Azərbaycandan avans almaq lazımdır". Nə vaxt son istiqraz alınırdı, o vaxtdamı o millət xainləri fərq edilmişdi? Həman o düşmənlərin pis əməl və məqsədləri uğrunda sərf ediləcəyini bilərək istiqraz məsələsini bir səslə bütün Parlaman üzvləri müvafiq görür, qəbul edirdilər.

İştə, Şimali Qafqaziya üçün verilən qərz [borc] Azərbaycan füqərayi-kasibə və kəndlisinin alın təri ilə qazanaraq cəm etdiyi məbləğlərdir ki, məzkur [deyilən] məbləğin Şimali Qafqaz millətləri üçün heç bir mənfəət təmin etməyəcəyi fərz edildiyi surətdə qərzə bütün mövcudiyyəti ilə mane olunmuş olsaydı, həm Azərbaycan millətinin hüququna təcavüz edilməz və həm də həyatımıza qəsd edəcək düşmənin bir az daha güclənməsinə mane olardıq.

İştə, o cinayəti bilə-bilə irtikab edənlər [işləyənlər] haqqında heç bir xitabda bulunulammaz. Amma bilərək istəməyə-istəməyə və qayət safdilanə bərabərcə





səs o hərifi-naşəriflərlə verərək Azərbaycan müsafirləri möhtərəm Şimali Qafqaz millətləri xadimləri bu dəqiqə kəndi vicdanları hüzurunda məsul və müəzzəb olmayırlarmı [əzab çəkmirlərmi]?

O vaxt hər bir səlahiyyət və iradə əldə və o xətaların təshihi [düzəldilməsi] mümkün ikən əcəba o vaxt nə üçün sükut ixtiyar edilirdi? Millət yolunda çalışmaq və fədakarlıq ixtiyar etmək cəsarəti-mədəniyyə iqtizasından [şərtlərindən] deyilmidir?

Nə üçün hər hiss edilən xainin xainliyini üzünə çarparaq onu divani-məhkəməyə çağırmayırdılar?

O kimilərin üz qaralarını millət vəkilləri hüzurunda üzünə vuraraq aralarından dəf etməyirdilər?

Çeçenistandan övdət etdiyi [qayıtdığı] zaman Əbdülqadir və Yusif hacıların irtikab etdiyi [işlədiyi] bütün alçaqlıqlar möhtərəm doktor Rusovun bəyanatı ilə aşkar olduğu halda belə nə üçün arada bulundurur, nə üçün onların irtikab edəcəkləri cinayat [cinayətlər] millətə xəbər verilərək dəf etdirilmədi?

Ən əhəmiyyətsiz, fəqət vaxtsız sükut nəticəsi böylə fəlakətlər meydana çıxdı. O vaxt ufaq və cüzi zayiat nəticəsi əldə ediləcək müvəffəqiyyət bu saat on, yüz misli fədakarlıqla zayiat nəticəsi pək müşkül olaraq əldə edilər.

Millət vəkil və xadimləri!

Haqq, ixtiyar və iradələrini vicdanınız öhdəsinə bulundurduğunuz 25 min məsumun haqqı[nı] göz görə-görə yeyənlər kəndi alını tərləri ilə həyatları bahasına alınan paralarını, qanlarını içmək, həyatlarına, irz və namuslarına qəsd etmək, yurdlarını yaxaraq haqlarını payimal etmək [tapdalamaq] istəyən düşmənlərin mənfəətinə sərf olunduğu cüzi fərq edildiyi zaman nə üçün həmiyyət damarlarınızdakı qanlar qələyana gəlmədi [coşmadı]? Nə üçün vicdanlarınız vaxtında üsyan edərək nəfslərinizi təhrik etmədi?

Naz və neməti ilə pərvərdə olduqları [bəsləndikləri] o füqəra, məsum, həqiqətən fədakar millətin haqq, ixtiyar və istiqlallarını düşmənlərə təslim etmək kimi cinayəti hissiyyati-insaniyyələri heç də rəncidə olmaya-olmaya irtikab edən o insan qılığında həriflərdən vaxtında və hal-hazırda müdafieyi-hüquq etməyə bilvasitə [vasitəli, dolaylı] və ya vasitəsiz bizzat [şəxsən] müqtədir ola bilən məsum millətin, əlbəttə, bir gün haqqını arayacaq, bu cinayətlərin səbəbini təhqiq edəcək, hamısı meydana çıxacaqdır. Bu gün təhəmmülsüz və mövhum qüvvələrə müstənidən [dözümsüz və xəyali qüvvələrə istinad edərək] müqəddəratından məsul olduğu millətini satan adamların qarşısına yarın polad pəncəli əlləri ilə həman o millət çıxaraq bizzat haqqını istirdad eyləyəcəkdir [geri alacaqdır].

Zülmün topu var, gülləsi var, qəl'əsi varsa,

Haqqın da qırılmaz qolu, dönməz üzü vardır.

*S. Nuri*

## MİLLİ BAYRAM VƏ QADINLARIMIZ

1919 tarixində mayıs 28-də Azərbaycan istiqlaliyyətinin səneyi-dövriyyəsi [ildönümü] münasibətilə milli bayram təşkil olunmuşdu. O günün şərəfindən, təsirin-

dən hər kəs şən, hər kəs məsrur [sevincli] idi.

Məsrur idi, amma bu bayramın hər kəsdən artıq qadınlar tərəfindən fövqəladə bir ruh yüksəkliyilə qarşılandığını o günü küçələrə tökülən qadınların rəftarı sübuta kafidir zənn edirəm.

Necə ki, məbus [Parlamentin üzvü] Əsəbulla Əhmədov cənabları Məclisi-Məbusanın o günə məxsus təntənəli iclasında çocuqları qucağında olan qadınların bugünkü milli bayrama, bugünkü sürur və şadmaniyə iştirak etmələrini tədadla [qeyd etməklə], ittihadla qarşılanan Azərbaycan istiqlaliyyətinin əbədilik olmasına böyük ümidvar olduğunu səmimi olan nitqlərində irad buyurdular [ifadə etdi].

İllərlə evindən dişarı çıxmayan, yanıbaşında bir-birindən kiçik çocuqlarını güc hal ilə saxlayan, erkəkləri razı olub da, kəndiləri dişarı çıxmağı sevməyən qadınlar, o günü sabah erkəndən çarşabını başına alıb, erkəyi ilə evindən çıxan və milli bayramın kəndi iştirakı ilə müşərrəf olduğunu [şərəfləndiyini] zənn edənlər axşama qədər deyil, ta gecə yarılarına qədər aclığa baxmayıb, yorğunluğa baxmayıb, kəndisini o güruh [qələbəlik, kütlə] içərisinə, o təntənə daxilinə atıb, qalib bir dövlətin şanlı, müzəffər qalib əsgəri kimi böyük sevinc və sürur ilə soqaqlarda dolaşırlardı.

Məəttəəssüf [təəssüf ki], bədbəxt qadınların bugünkü bir günlük sururu, şadlığı da üzlərinə qapandı. Ömürlərində bulvar tamaşası görmədikləri və bundan sonra da görməsi qeyri-qabil olan və ancaq bu günün şərəfinə gündüzü deyil, gecəsinə erkəyindən min dürlü vasitələr, ricalarla izin alan qadınlar axşam bulvar tamaşası, həm də böylə təntənəli, dəbdəbəli bulvar tamaşası üçün, gündüzdən axşam görəcəyi ləzzətli seyrləri ürək çarpışı ilə gözləyən qadınların üzünə bulvar qapısı da bağlandı.

Polis nəfərlərimizin qadınlar üzərinə olan qaba rəftarları Nikolay dövrünün qaradovoylarını xatirə gətirirdi. Və həmanki qəlblərdən silinməkdə olan xatirələrini bu sevimli gündə, bu fərəhli qəlblərdə, bu çırpınan ürəklərdə rəkz edirdi [ayağa qaldırırdı, canlandırırdı].

Ömründə ilk dəfə görəcəyi və bir daha görəcəyinə ümid edəmmədiyi və ancaq bu günün şərəfinə nail olduğu bu kəraməti itirib, bu gün gördüyü təntənə, sürdüyü zövq və səfalar burnundan tökülə-tökülə, güruh-güruh qadınlar məyusanə evlərinə övdətə [qayıtmağa] məcbur olurlardı.

Azərbaycan istiqlaliyyətinin Azərbaycan vilayətində, Azərbaycan paytaxtında, azərbaycanlılara mənsub olan bulvarın bilafərqi-din və millət [millət və din fərqi olmadan] hər kəs üçün güşadə [açıq] olan qapısının Azərbaycan qadınlarının üzünə bağlanması, həm də gündüz-gecəsi ömründə bir saatlıq bulvarın havasından məhrum buraxılmaları həqiqətən insaf xaricində bir şeydir.

Bütün ömrünü bulvarda keçirən, gündüzü-gecəsi ilə bərabər bulvarın skamyaları üzərində buraxılan, yanlarını skamyalar ağradıb o yanına-bu yanına çevrilib də gecə yarılarına qədər bulvarda qalan erkəklər o gecə kəndiləri çıxıb da, o günün şərəfinə ehtiramən də olsa bir saatlığa yerlərini, skamyalarını ana-bacılarına tərk etsəydilər, qiyamətmi qopardı?

Həmin polis məmurları soqaq ortasında durub da, qadınların yollarını gözləyib, qabaqlarına keçib evlərinə qaytarmaq vəzifəsi yerinə, həmin polis məmurları bulvar qapılarında durub da, qadınları bulvara buraxıb və kəndilərinə pasibanlıq [gözətçilik, qarovulçuluq] eyləyə idilər, nə olardı?

O günün sabahısı bir qaç yerdən bəzisini az tanıdığım xanımlar tərəfindən telefona çağırıldım. Yarım saat müddəti çəkən suzişli [ürək yandıran] söhbətlərin həpsi qadınlarımızın bədbəxtliyinə dair idi.

Erkəklər tərəfindən təhqir edilən, heç məsabəsində [yerində] hesab olunan, varlıqlarından iftixar deyil, qalə alınmayan [diqqətə alınmayan, əhəmiyyət verilməyən] qadınlarımız şikayətlərini mənə söyləyir və məndən imdad tələb edir. Zavallı həmşirələrim [bacılarım] düşünməyirlər ki, mən də onlar kimi zavallı qadınların birisiyəm. Mənim onlara nə kimi yardımım ola bilər?

İştə, bir şey daha xatirimə gəldi ki, onu da söyləməkdən qalmayacağam. Erkəklərimiz kəndiləri millətimizin həşəmətli günü üçün hazırlıqlar görəndə bir parça nöqteyi-nəzərlərini də qadınlar tərəfinə fırlada idi və qadınlarımız da oraya toplaşa idilər. Məclisi-Məbusan binasının içi və dişarısı erkəklərimiz üçün hazırlananda, onun yanıbaşında olan Realnı məktəbinin binası da xanımlarımız üçün təyin edilə idi də, soqaq ortasında toplanıb hökumətin istiqlalı üçün səninlə şadlıq edən, sənin kimi onun da milləti yolunda ürəyi çırpınan, soqaq ortasında olunan zülümlər, edilən həqarətlərə baxmayıb saatlarla dəniz dalğası kimi dalğalanan qadınlar o gün o qədər zəhmət çəkməyə idilər.

O gün irad olunan nitqlərdə ancaq möhtərəm Məhəmməd Əmin əfəndi Rəsulzadə cənabları qadınların bugünkü sürur və şadmaniyə daxil olduqlarını nəzərdən dur [uzaq] tutmamışlar ki, natiq əfəndi hərarətli nitqlərində qadınların da varlıqlarını tədadla [qeyd etməklə], qadınların da iştirak etməkdə olduqlarını bəyan buyurdular.

*Şəfiqə Əfəndizadə*

## TARİXİ BİR MÜTALİƏ VƏ TƏNQİD

31 mayıs 1919 tarix və 18 nömrəli "İstiqlal" qəzetəsinin İstiqlal Bayramını təbcil edən [tərifləyən] baş məqaləsində şöylə bir fəqərə [əhvalat] vardı:

Osmanlı bayramları, məsələn Qayı xan kimi Osmanlı türklərinin münəccisi [xilaskarı] olan bir böyük hökmdar ilk meydana çıxışı ilə Qayı xan sülaləsinin əhfadı [nəvəsi] olan Ərtoğrul qazinin Osmanlı hökmdarlığını təsis eyləməsi tarixini yada gətirən bayramları yoxdur. Şübhəsiz, o günləri yada gətirən bir tarixi bayram vardır, amma Osmanlı ənənəsində, Osmanlı tarixində məchul qalmışdır. Hər kəscə məlum olan bir həqiqəti-tarixiyyədir ki, Səlcuq padşahı [Birinci] Əlaəddin Keyqubad zamanında Çingiz xanın orduları Xarəzm və həvalisini [ətrafını] zəbt etdiyindən, oralarda yaşayan oğuz türkmənləri qəbilələrinin çoxu Anadoluya köçmüş və bu miyanda [bu arada] Qayı xan qəbiləsinə mənsub Qaya Alp oğlu Süleyman şah da məiyyətindəki 50 min

kişi ilə Ərzincan və Əhlət tərəflərinə yerləşmişlərdi. Binaənileyh [odur ki], o zaman Qayı xan kimi Osmanlı türklərinin münəccisi (!) olan bir böyük hökmdar (!) yox idi.

Fərz edəlim vardı. Fəqət bunu birinci olaraq tövsif [təsvir] etmək əcəba doğrumu? Süleyman şah, qəbiləsini bilasəbəb [səbəbsiz] heç bir vaxt qan tökməyə[n], yasaya itaət edən və etdirən, üləmaya hörmətkar, bilatəfriqi-cins və məzhəb xalq arasında müsavatı təsisə əzmkar böyük türk xaqanı Çingizin əlindənmi qurtardı? Ərzincan tərəflərinə yerləşən Süleyman şah və məiyyəti [onu müşayiət edənlər] yeddi sənə sonra əski vətənlərinə dönmək istədilər, fəqət Fərat nəhrini keçərkən Süleyman şah boğuldu, qəbiləsi ikiyə ayrıldı. Müşarünileyhin [haqqında danışılan şəxsin] oğlanlarından Ərtoğrul [Qazi] və Dündar bəylər özlərindən ayrılmayan 400 çadır xalqı ilə geriyə döndülər. Yolda müharibə edən iki orduya rast gəldilər. Zəif tərəfə yardım etdilər. Qələbəni Səlcuqilərə qazandırdılar. Bunun üzərinə Konyada oturan Səlcuq sultanı İkinci Ələəddin [Keyqubad] məmnunən [razı qalaraq], Söyüd və Domaniç tərəflərini yaylaq və qışlaq olaraq onların iqamətlərinə verdi.

Ərtoğrul boş durmayaraq civardakı rum bəyləri ilə mücadilədə davam və hüdudlarını tövsi etdi [genişləndirdi]. Fəqət mətbusu [tabe olduğu] daima Səlcuq sultanı idi. Ərtoğrulun vəfatından sonra oğlu Osman [Qazi] qəbilənin rəisi oldu. Bu sırada Səlcuq sultanı olan Üçüncü Ələəddin öldürüldü. Binaənileyh sultanlıq inhilal edərək [dağılaraq] kiçik-kiçik birər xanlıqlara inqisam etdi [bölündü]. Səlcuq hökumətinin bu surətlə inqirazı [çöküşü] üzərinə 699 sənəsində türkmən bəylərindən mürəkkəb [ibarət] bir qurultayın intixabı [seçməsi] ilə türk yasasına görə məşru [qanuni] bir surətdə Osman müstəqilən xan elan edildi. Şu halda Osmanlı türklərinin istiqlalı bu tarixdən və bilaxirə [daha sonra] yapılan tədqiqati-əmiqəyə [dərin tədqiqlərə] nəzərən də 17 kanuni-əvvəl [dekabr] günündən başlar. Yoxsa mühərriri-məqalənin [məqalə müəllifinin] buyurduqları kimi "Qayı xan sülaləsinin əhfadı olan Ərtoğrul Qazi Osmanlı hökmdarlığını təsis (!)" eyləməmişdi. Əsasən, ismindən anlaşıldığı vəchlə "Osmanlı" namı Osmana izafətən tövsim edilmişdi [qoyulmuşdu].

Buraya qədər müvəzzəhən [açıqca izah edərək] ərz etdiyim tarixi həqiqətlər yalnız mühərriri-möhtərəmlə mənə aid bir həsbi-haldır [söhbətdir]. Fəqət sonra: "Osmanlı hökmdarlığını təsis eyləməsi tarixini yada gətirən bayramları yoxdur (!). Şübhəsiz, o günləri yada gətirən bir tarixi bayram vardır, amma (?!...) Osmanlı ənənəsində, Osmanlı tarixində məchul (?!...) qalmışdır."

Osmanlı türklərində 1327 sənəsində İstanbulda və mütəaqibən [onun ardınca] vilayətlərdə "Türk Ocaqları"nın qurulması ilə intibah və hərəkəti-milliyyə qüvvətli bir surətdə tövsi eyləmişdi [yayılmışdı]. Akçuraların, Ağayevlərin, Rəsulzadələrin yardımı ilə bərabər, başında ictimaiyyatçı [sosioloq] Ziya Gökalpı, şair Məhməd Əmini, pedaqoq [Babanzadə] İsmayıl Haqqısı, xətib [natiq] Həmdullah Sübhisi və sairəsi bulunan bu hərəkətimilliyyənin pək çox mümənsilləri [nümayəndələri] vardı və bu gün təzayüd etməkdədir [çoxalmaqdadır]. Hərbi-ümuminin nətayici-məşuməsi [uğursuz nəticələri] səbəbi ilə şimdilik müvəqqət bir inqitaya [kəsintiyə] uğramışsa belə, hər sənə yapılmaqda olan İstiqlal Bayramından maəda [başqa], ictimaların təksirindən [yığıncaqların artmasından] hasil olacaq fəvaidi [faydaları], yəni təlqinlərin qüdrətini təqdir edənlər başqa milli bayramlar da ehya etmişlərdir [canlandırmışlar, əmələ gətirmişlər].

*Həsən M. oğlu*

## LƏNKƏRANIN HALINA DAİR

Neçə müddətdən bəridir ki, bədbəxt Lənkəran əhalisi bir taqım vicdansızların zülüm və əsarətində yaşamaqdadırlar. Həman vicdansızların zülümü o məqama çatmış ki, bu biçarələr gün batmamışdan kəsb[ü]karlarını [qazanclarını, işlərini] buraxıb evlərinə gedirlər. Gedirlər də, fəqət gecələr evlərində belə asudəxatir otura bilməyirlər. Səbəbi həman vicdansızların dürlü-dürlü bəhanələrlə gecə biçarə müsəlmanların evlərini axtarmalarıdır. Axtarırlar da, əllərinə tüfəng, patron kimi şeylər keçmədiyindən, dəyərli şeylərdən götürüb aparırlar. Həman bu kimi zülüm, əziyyətlərə bu biçarələr təhəmmül edib [dözüb] işin axırını dörd gözlə gözləyirlər. Bu yazıqların ümidi hər bir tərəfdən kəsilibdir. Kimsə yoxdur ki, dərdlərini deyib dərmanın istəsinlər.

Şayani-diqqət [diqqətəlayiq] burasıdır ki, hər bir idarəyə gedib bu kimi vicdansızların əlindən şikayət edirlərsə, kimsə bunlara məhəl qoymayıb naümid qayıdırlar. Fəqət bunların ümidi Azərbaycan Cümhuriyyətinə olduğu kimi nə edərsən ki, bu vaxta qədər Azərbaycan Hökuməti tərəfindən heç bir təşəbbüs görülməyibdir. Əcəba onlar məgər azərbaycanlı hesab olunmayırlarmı? Vəhalonki [halbuki], hökumətimiz Lənkəranı həmişə Azərbaycanın ayrılmaz bir hissəsi hesab edir. Böylə olan surətdə nə üçün bu ümidsizləri bir taqım özlərini bolşevik adlandıran vicdansızlardan xilas etməyir? Və xilas edib də yanıqlı ürəklərini sakit etməyir?

İştə, həman vicdansız daşnaklarla xaxolların Lənkəran müsəlmanlarına etdiyi zülüm və azarlarını dəfələrlə gündəlik qəzetələrdə oxuyuruq. Oxuyuruq da, ürəyimiz bu biçarələrin halına yanır. Fəqət nə edəsən ki, bu yazılanlar səmərəsiz qalıb, bu yazıqların da ümid əli hər bir tərəfdən üzülüb, yenə də bu zalımların təhti-əsarətində [əsarəti altında] yaşamaqdadır.

O günlərdə dostlarımın birisindən (Lənkərandan gəlib) Lənkəran əhvalını soruşduqda bu aşağıda yazdıqlarımı söylədi:

Xaxollarla ermənilər Lənkəranda hökmranlıq edirlər və hər gün şəhərdə bir tövr şayiə dövran edir. Gah şəhərə xəbər buraxırlar ki, kimdə nə qədər ərzaq varsa, hamısı hökumət tərəfindən zəbt olunacaq və kimdə nə qədər Nikolay pulu ilə çoxlu bon pulu olarsa, onlar da hökumət tərəfindən zəbt olunacaq. Bu kimi xəbərlərlə biçarə Lənkəran müsəlmanlarını təhdid edirlər. Bu yazıqlar da qorxularından gecələr bayıra çıxa bilməyirlər. Ona binaən [ona görə], həman vicdansızlar gecə fürsətdən istifadə edib müsəlmanların evlərini qarət etməkdədirlər. Həman vicdansızlar silahlı gecələr

şəhəri dönüb dolaşmaqdadırlar. Fəqət bazardakı müsəlman darğalarına silah əvəzinə ağac verib, bir iş olanda da bu yazıqlar qorxularından siçan deşiyini satın alırlar. Yaxşı olardı ki, cavan cümhuriyyətimiz Lənkəranı Azərbaycan Cümhuriyyətinin ayrılmaz bir hissəsi hesab etdiyi kimi, bu yazıqları da həman zalım və xunxarların [qaniçənlərin] zülüm və azarından xilas etməklə, o yazıqlar da Cümhuriyyətimizin sayəsində azadə bir nəfəs alaydılar. İştə, Lənkəran əhalisi də bu mühüm işi cavan Cümhuriyyətimizdən dörd gözlə gözləyirlər.

*Məhəmmədəli Əsədullazadə*
*Tabaqçı*

## BAKI XƏBƏRLƏRİ

**İdilboyu müsəlmanlarının məscidi**

Məlum olduğu üzrə neçə il bundan əqdəm [qabaq] Bələdiyyə İdarəsi tərəfindən İdilboyu [Volqaboyu] müsəlmanları üçün Bakıda bir məscid bina edilməsindən ötrü Balaxanski və Maqazinni küçələrinin küncündə boş yer verilmiş və Hacı Zeynalabdin Tağıyev tərəfindən təmirə xərc edilmək üçün 100 min manat ianə edilmişdi. Lakin keçən illərdən bu vaxta qədər vüqu bulmuş olan hadisat məscidin təmirinə şüru edilməsinə [başlanmasına] imkan verməmiş və işlər təxirə uğramışdı. İndi isə Bakıda sükunət edən İdilboyu müsəlmanları yenidən məscidi təmir etməyə [tikməyə] şüru edərək beş nəfərdən ibarət bir heyət intixab etmişlərdir [seçmişlər].

**Dəmir yollarında qalmış mallar haqqında**

Daxiliyyə naziri Bakı qubernatoruna məlum etmişdir ki, müxtəlif vaxtlarda göndərilib və bu vaxta qədər sahibləri tərəfindən aparılmayıb anbarlarda qalmış olan bir çox malları hökumət nəfinə [xeyrinə] təhvil almaq üçün bütün hökumət idarələri nümayəndələrindən ibarət bir komissiya təşkil edilmişdir ki, qubernator dəftərxanasından dəxi bir nəfər dəvət olunur.

**"Hürriyyət" qəzetəsi**

Bu günlərdə İran "Ədalət" firqəsi "Hürriyyət" adında həftəlik bir qəzetə nəşr edəcəkdir.

**Bələdiyyə İdarəsində**

Bələdiyyə rəisinin əmri mövcibincə [əsasında], Bələdiyyə İdarəsi dəftərxanası ümuma elam edir [bildirir]:

1) İşbu sənədə xidmətçi və bələdiyyə məmurlarına veriləcək məzuniyyət iki aydan artıq olmayacaqdır.

2) 1918-ci sənədə məzuniyyət almış xidmətçilər və məmurlar işbu sənə bir ay məzuniyyət ala bilərlər. Onların məvacibləri veriləcəkdir.

3) 1918-ci sənədə məzuniyyət almamışlar bu sənə məvacibləri verilmək üzrə iki ay məzuniyyət ala biləcəklər.

4) 1919-cu sənədə heç bir xidmətçi və yaxud məmur para istəyə bilməyəcəkdir.

5) 1918-ci sənədə iki aydan ziyadə məzuniyyətdə olmuş xidmətçi və məmurlara 1919-cu sənədə məzuniyyət verilməyəcəkdir.





**Neftçilər İttifaqında**

Neftçilər İttifaqı müvəqqəti olaraq mərmi zavodlarına verdikləri makinaları (stanok) geri almaq barəsində təşəbbüsatda bulunur.

**Batum neft yolu**

Hökumət qət etmişdir [qərara almışdır] ki, Batuma gedən neft yolu ilə neft cövhəri [kerosin] göndərilsin. Şimdilikdə həman təriq [yol] ilə fəqət [ancaq] neft gedir. Bundan ötrü neft yolu yapıldıqdan sonra daimi olaraq yolda bir və yaxud bir yarım milyon pud cövhər saxlamalıdır.

**Beynəlxalq istintaq komisyonu**

Qarabağ, İrəvan, Göyçə, Araz Cümhuriyyətindəki ermənilərin müsəlman başına gətirdiyi fəlakəti məhəllərində [yerində] təhqiq etmək üçün xüsusi bir beynəlxalq istintaq komisyonu təşkil edilməkdədir. Komisyona Avropa dövlətləri nümayəndələri də daxil olacaqlardır. Məclisi-Məbusan pişəzvəqt [qabaqcadan] komisyon məxaricatından ötrü 10 milyon rublə buraxmaq niyyətindədir. Aldığımız mövsuq [etibarlı] məlumata nəzərən, işbu komisyon hal-hazırda təşkil tapmaqdadır. Ən yaxın zamanda istintaqdan ötrü məhəllinə azim olacaqdır [yola düşəcəkdir].

**Müəllimlər Şurası**

Cümə günü axşam saat 5-də iyunun 6-da Birinci Ünas [Qızlar] məktəbində müəllimlərin iclası təyin edilmişdir. Müzakirə ediləcək məsələlər bunlardır:

1) İdarənin məruzəsi;

2) Müəllimlərin məvacibləri artması barəsində;

3) Məvaciblərdən çıxılmış pulların qaytarılması haqqında;

4) Müəllimləri xidmətə qəbul etmək;

5) İdarənin pulları haqqında və sair.

**İtmişdir**

Çənbərəkənd küçəsində 8 nömrəli evdə yaşayan Cəvahir Şirinbəyovun 20 yaşında oğlu Ələşrəf 17 gün bundan irəli evlərindən çıxıb indiyə qədər qayıtmamışdır. Onun yerini və onun barəsində bir xəbər bilənlərdən acizanə xahiş edirik ki, yuxarıdakı adresə xəbər vermək zəhmətini qəbul eyləsinlər.

**Sürgün**

Bakı qalabəyisinin [komendantının] binagüzarlığı [sərəncamı] ilə Sergeyev Yevgeni, Qriqori Sidov və İsmayıl Kazakov hökumətin əleyhinə sui-niyyətdə [cinayətdə] bulunduqlarından Azərbaycan Cümhuriyyəti torpağından sürgün edilirlər.

**Əsgərlikdən qaçmaq cəzası**

* Bakı qalabəyisinin binagüzarlığına görə, iki nəfər əsgərliyə dəvət edilmiş olan oğlanlarını gizlətməkdə müttəhim edilən Pirşağı kəndi sakini Molla Həsən Aslan oğlu oğlanları gəlincəyə qədər Bakı Mərkəzi Həbsxanasında məhbus edilmişdir.

* Bakıda sükunət edən Hacı Vahab Hacı Abbas oğlu özünün əsgərliyə dəvət olan iki nəfər oğlanlarını qaçırmaqda müttəhim edildiyindən Bakı qalabəyisi binagüzarlığına görə oğlanları gəlincəyə qədər Mərkəzi Həbsxanaya göndərilmişdir.

**Ehtiyat könüllü "Yardım alayı"**

Dükançılar və qeyri sənətkarlardan ibarət olan ehtiyat könüllü Yardım Ala-

yına könüllü qəbul edən komissiya tərəfindən məlum edilir ki, sabah cümə günü səhər saat 9-da axırıncı bölük Təzəpirdən Salyanski kazarmalara gedəcəkdir. Həmin bölüyə yazılmaq istəyənlər bu gün pəncşənbə [cümə axşamı] günü komissiyanın dəftərxanasında Tserkovnı küçə 70 nömrəli evdə yazıla bilərlər. Cümə günü isə dəftərxana bağlı olacaqdır.

**Dəniz kənarındakı içki dükanlarının qapanması**

Bakı qalabəyisi qubernatora məlum etmişdir ki, onun binagüzarlığıyla dəniz kənarındakı bütün içki dükanları qapanmışdır.

**Klubun qapanması**

Təhərri [axtarış] polis müdirinin binagüzarlığı ilə "Bolşoy Moskovski" mehmanxananın altında olan "Sportivni krujok" adlı klub külli miqdarda qumar oynanılmasına izin verdiyindən qapadılmışdır.

**Mətbuata nəzarət**

Daxiliyyə naziri Bakı qubernatoruna məlum etmişdir ki, mətbuata nəzarət etmək quberniya və uyezdnı hökumət idarələrinin öhdəsinə verilmişdir. Mətbuatın hər bir hərəkatı məzkur [deyilən] idarələr tərəfindən təqib edilməlidir.

## MÜTƏƏLLİMLƏR QURULTAYI

3 iyun - 3-cü iclas

Saat 5-də Qafqaziya Müsəlman Mütəəllimləri [Tələbələri] Qurultayının 3-cü iclası açılır.

Sədr: Məhəmmədzadə Mirzəbala.
Katib: Süleyman Məlikzadə.

Sədr növbədəki məsələləri elan edir:

1) Bəzi kağızlar;
2) Ermənistanda müsəlman qaçqınları barəsində protesto çıxarmaq məsələsi;
3) Komisyonlar barəsində;
4) Məhəlli [yerli] təşkilatların izahatı;
5) Mərkəzi Komitənin izahatı.

Birinci maddə barəsində sədr elan edir ki, keçən iclasda Axıska nümayəndəsi Zəki Pepinov cənablarının dakladından sonra qərar qoyulmuşdu ki, Gürcüstan Demokratik Cümhuri hökumət tərəfindən icra olunan fənalıqlara qarşı Mütəəllimlər Qurultayı protesto çıxartsın. Sədr protestonun məzmununu oxuyur. Ümumiyyətlə qəbul olunduqdan sonra Ermənistanda müsəlman qaçqınlarına olunan zülüm və əziyyətlərə qarşı da Mütəəllimlər Qurultayı etiraz çıxartmaq təklifi edilir. Bu da qəbul olunur. Bundan sonra sədr xəbər verir ki, izahatlar qurtarandan sonra növbədəki məsələlər komisyonlarda olduğundan rica olunur, komisyonlar tezliklə öz vəzifələrini bitirsinlər. Başqa üzvlərdən də rica edir ki, komisyonlarda həll olunacaq məsələlərə aid materialları varsa, versinlər.

Növbədəki məsələyə keçildiyi vaxt sabiq Mərkəzi Komitənin sədri Həmid Məhəmmədzadə növbədən xaric söz alaraq bəyan edir ki, qurultayın birinci iclası haqqında "Azərbaycan" qəzetəsi yanlış olaraq "Azərbaycan mütəəllimlərinin qurultayı" deyə yazmışdır və altında heyəti-rəyasət öz tərəfindən protestonu ancaq Azərbaycana aid etmiş, ümumi Qafqaziyaya aid bir qurultay tərəfindən çıxarılan protestoda ümumi Qafqaziyanın hissələri olan Gürcüstan, Ermənistan barəsində heç bir söz yazılmamışdır. Bunlardan başqa, heyəti-rəyasət öz vəzifəsini eyi ifa etməyir.

Sədr cavab olaraq qurultayın üzvü olmayan bir şəxs tərəfindən edilən bu töhmətlərə cavab verib bəyan edir ki, birinci iclası qəzetə mühərriri yazmışdır. Adı o qədər də əhəmiyyətli deyildir. Protestoya gəldikdə, onu da qurultay qəbul etmiş. Deməli, hər bir səhv heyəti-rəyasətə deyil, qurultayın ümumisinə aiddir. Heyəti-rəyasətin fəaliyyətsizliyi isə dəlilsiz olduğundan, sədr qurultayın bu töhmətlərə qarşı qərarını istəyir. Qurultay bu barədə fikir əvəzinə "növbədəki məsələlərə keç", "düz deyir" kimi sözlər və işarələr buraxdığından, sədr tələbində inad ilə qurultaydan heyəti-rəyasət haqqında rəy istəyir. Əks surətdə istefa verdiyini bəyan edir. Üzvlərdən biri təklif edir ki, heyəti-rəyasət göstərilən nöqsanları nəzəri-etibara almaqla kəndi yerində qalsın və onlara köməkçi olaraq Zəki Pepinov əlavə sədr intixab olunsun [seçilsin]. Qurultayın ricası üzərinə M[əhəmmədzadə] Mirzəbala yerinə keçirsə də, sədarətdən imtina edib sədrliyi İbrahimzadəyə buraxır.

Maarif Nəzarətinə təbriknamə yazmaq qərara alınır. Ondan sonra məhəlli təşkilatların məruzəsinə keçir. Saat 8 radələrində iclas qapanır.

## FƏHLƏ HƏYATI

**Ramanada**

24 mayıs tarixində saat 3-də Ramana dairəsində bulunan müəssisələrdə çalışmaqda olan müsəlman işçiləri tərəfindən hər 50 nəfərdən bir nəfər olaraq intixab edilmiş [seçilmiş] nümayəndələr Ramana "Müsavat" şöbəsi binasında iclas tərtib etmişlərdi. Mədənlər mərkəzi "Müsavat" idarəsi tərəfindən katib Yusifzadə, heyəti-idarə əzasından [üzvlərindən] Həmid Paşazadə dəxi iclasda iştirak edirlərdi.

Müzakirata vəz edilən [müzakirəyə qoyulan] məsələlər: 28 Mayıs İstiqlal Bayramı, Naxçıvan və Şərur qəzalarının Ermənistana ilhaqı [birləşdirilməsi] məsələsi müzakirəyə vəz edilir [qoyulur].

Mədənlər mərkəzi idarə nümayəndələrindən Məşhədi Həmid Paşazadə və Yusifzadə Əbdürrəhim hər iki məsələ xüsusunda ətraflıca bəyanatda bulundular. Nəticədə birinci 28 Mayıs istiqlalı elan gününün səneyi-dövriyyəsini [ildönümünü] şanlı eyd [bayram] saxlayaraq, tarixi kənd qalasını[n] mümkün olan qədər təzyin edilməsi [bəzənməsi] və qala daxilində bayram rəsmi-təbrik qəbulu [təbrik qəbulu mərasimi] üçün lazımeyi-mayehtac [ehtiyac olan şeylərin] hazırlanması təhti-qərara alındı. Sonra 300.000 (3 yüz min) nüfusa baliğ [nəfərə çatan] türk və islam nüfusunun müqəddəratı xunxar [qaniçən] cəlladların pənceyi-birəhmanələrinə tövdi edilməsi [amansız pəncələrinə tapşırılması] dolayısı ilə "Azərbaycan" qəzetəsi təvəssütü [vasitəsi] ilə Müttəfiqlər Komandanlığına etiraz etmək qət edildi [qərara alındı].

26 mayıs tarixində axşam saat 5-də Rotşild dağüstü 30, 35, 50 nömrəli mədən evlərində sükunət edən əmələləri bir yerə cəm edərək hal-hazıra dair məlumat verildi. Orada sükunət edən fəh-

lələrin qismi-əzəmi [əksər hissəsi] Naxçıvan qəzası əhalisindən olduqlarından, Naxçıvan məsələsinə hökumət nə nəzərlə baxdığını artıq həyəcan ilə sual etdilər. Bu xüsusda məsələnin Sülh Konfransında həll ediləcəyi və hökumət bu məsələyə laqeyd qalmayacağı bəyan edildi. Sonra mədən komissiyalarından yoldaş Əziz Yusifzadə camaata xitabən mədənlərə ərzaq gətirilməsi ilə əlaqədar olaraq mədənlərdə çalışan fəhlələrin siyahısı tələb edildiyini bildirdi və xəbər verdi ki, mən getdim rus yoldaşlarımıza siyahı tərtib verilməsini təklif etdim; mənə cavab verdilər ki, biz bu siyahını verməyəcəyiz və ərzaq da istəməyiz.

- Müsəlman əmələlərinin tətil günləri işlədikləri məvacibinin verilməməsi haqqında edilən suala Məsai naziri cavab vermişdir ki, həmin məvacibləri verməyə mədən sahibləri məcbur ediləcəkdirlər.

## AZƏRBAYCANDA

### Gəncədə İstiqlal günü

28 Mayıs 1919-da gözəl Gəncə, çiçəkli mayıs, ruhnəvaz [ruh oxşayan] qoxusu ilə büsbütün canlanmışdı. Əski çürük Rusiyanın haqsız top izlərini hələ köksündə gənc və canlı, imanlı nəsilə ibrət lövhəsi olaraq saxlayan böyük camenin Haqqa doğru yüksələn minarələri, mömінləri – türk və müsəlman imanlılarını duaya, minacata dəvət edirdi. Milli bayraqların dalğası, alaqapıların arasından keçib axın-axın cameyə doğru düşə-qalxa axan bu istiqlal məftunu, hürriyyət aşiqi camaatın yüksək və şən alınında bir çox şeylər oxunurdu.

Bugünkü bayram milli bayramlıqdan ziyadə, adəta, ənənəvi bir şəkilə dönmüşdü. Mayısın məxmur bir sabahı, Allahın kölgəli buludu, möminlərin təkbiri, duası, xanımların pərdələr arasından üçrəngli bayrağa, sərbəst cəmiyyətə baxıb təhəssürlə [həsrətlə] qarışıq bir gülüşü...

Oh, ya Rəbbi! Bu gözəl mənzərəni seyr etdirdiyin ümmətinə bir daha qara gün, yabançı boyunduruğu nəsib etməyəcəyinə iman etmiş kimi oluram, ya Rəbbi!

Çoxdan bəri üzərimizə bir iftira atırlar. Deyirlər ki: "Azərbaycan xalq höküməti deyildir, bu hökumət 5-10 kişinin təsəvvüründən doğma bir nəticədir." Bunun böylə olmadığını Azərbaycan xalqı indiyə qədər bu bir sənəlik dövreyi-həyatında bir neçə dəfə göstərdi. Mən bunun ən canlı bir dəlilini Gəncədə 28 Mayısda İstiqlal bayramında gözümlə görüb könlümlə hiss etdim. "Müsavat"ın üçrəngli milli bayrağı, "İttihad"ın onun yanında gedən yaşıl bayrağı ilə sair inqilabların daşıdıqları milli və inqilab bayraqlarının kölgəsin[d]ə bütün varlığı ilə şənlik və bayram edənlər düşmənlərimizin cansız bir kütlə hesab etdikləri türk xalqı, türk demokratiyası idi. "Yaşasın istiqlal!" deyə bağırmaqdan gərlənən səslər türk xalqının geniş köksündən çıxan səsdən başqa bir səs deyildi. O günü söyləyənlər, coşanlar, bayraq daşıyanların çoxu da deyil, həpsi türk xalqı – istiqlal və hürriyyətin dadını dadmış türk xalqı idi. Bu aydın və canlı dəlili göstərən millət, millət, istiqlalı və hürriyyəti uğrunda canını verməkdən çəkinərmi?!

– Yaşasın istiqlal!

Bugünkü mənzərələrin ən gözəli bütün firqələrimizin cameyə toplanıb hürriyyətləri, milliyyətləri üçün dua etmək idi. Sən gəl bu camedə bütün mövcudiyyəti ilə "Amin!" deyən müsəlman türklərin səsinin saflığını seyr et. İnsan oğlunun dərdli dəqiqələrində sığındığı duada nə böyük bir qüvvət vardır, ya Rəbbi!

* * *

Camedən müntəzəm bir surətdə çıxan camaat milli bayraqlarla bərabər camenin qarşısındakı məzarlarda yatan şəhid türk qardaşlarını da yada saldı. Bizi qurtarmaq üçün özlərini öldürən bu əsgərlərin ruhunu şad etmək üçün önlərində bütün başlar əyilib gözlər yaşardı. Bayrağından uzaq düşən bu möhtərəm şəhidlərə bayrağımız baş əydi!

Bu cənnətlik torpaq yığınlarını gözlərimiz, könüllərimiz ziyarət etdi. Hələ o dərin bir sükut ilə oxunan fatihədəki bəlağətə, vüzuha, sidqə dünyanın əski, yeni bütün şeirləri, məntiqləri [nitqləri, sözləri] yetişəmməzdi!

Bu abidəsiz qərib qurbanların müstəqil vətənləri nə haldadır, Allahım!

* * *

Nəhayət, gənc Azərbaycanın cavan ordusunun keçid rəsmi yapdığı Hürriyyət meydanına gedildi. At üstündə tüfəng altındakı arslan baxışlı türk balalarını gördüyü vaxt getdikcə coşan, gəldikcə canlanan camaat bir ağızdan bir səslə bir daha bağırdı:

– Yaşasın ordumuz!

Əvət, yaşasın o ordu ki, haqq və hürriyyət üçün mübarizəyə hazırlanır!

Yaşasın o ordu ki, milliyyətini yaşatmaq üçün canını verir!

Yaşasın o ordu ki, bayramımıza zəhər qatmaq istəyənlərə qarşı geniş köks, açıq alınla çıxacaqdır!

Yaşasın o ordu ki, millətinin ruhunda, qəlbində özünə abidələr tikdirəcəkdir!

Əvət:

– Yaşasın ordumuz!

* * *

Gəncənin bütün küçələri milli bayraqlar, çiçəklər və yaşıllıqla bəzənmişdi.

Şəhərdə dolaşan şəhər nümayişçilərindən başqa Dəmiryol Xidmətçilərinin İttifaqı zurna ilə şəhəri dolaşırdı. İstər şəhər firqələrini, ittifaqlarını, istərsə bütün xalqı mən bu gün ciddən sevinən gördüm. Saat 1-də olan bələdiyyənin çay ziyafətinə qədər şəhərin bütün küçələri, hökumət dairələri, şəhər idarəsi və sairə dolaşıldı.

Saat 1-də nümayiş bitdi. Ondan sonra vətəndaşların öz xüsusi şəkildə bayramları başlandı. Saat 2-dən sonra şəhər bağında tərtib edilən şənlik indiyə qədər görülmüş deyildir.

Gəncənin İstiqlal bayramı böyləcə bitdi.

– Yaşasın Azərbaycan!

*[Əhməd] Cavad*

## ERMƏNİSTANDA

*"Aref"dən*

### Naxçıvan-Şərurda

Erməni qoşunları Naxçıvan və Culfanı işğal etdilər. Yerli əhali mehribanlıq izhar edir. Müsəlman qaçqınları öz yerlərinə qayıtmağa başlamışlar. Məhəlli [yerli] erməni hökuməti onları xoşhallıqla qəbul edir. Əhali üçün Şərurda külli miqdarda

taxıl vardır. Müsəlmanlar qaib olduqları zaman onların əmlakını və evlərini zəbt edən ermənilər indi onları sahiblərinə qaytarırlar.

**Qaçqınlara müavinət**

Şərur, Naxçıvan qaçqınlarının 800 adamdan mürəkkəb [ibarət] əvvəlinci dəstəsi mayın 20-də öz yerlərinə hərəkət etdilər. Mabaqi [qalan] qaçqınlar da başqa dəstələrlə gedəcəklər. Onları qəbul etmək üçün iaşə məntəqələri, kifayət qədər də azuqə və lazımi qədər xidmətçilər hazır edilmişdir. Naxçıvana gəlməli olan qaçqınlar üçün müvəqqəti mənzillər hazırlanmışdır.

**Sulardan istifadə**

Vüzəra Şurasına [Nazirlər Kabinetinə] Ermənistanın sularını istifadə etmək layihəsi təqdim edilmişdir. Layihəni təhqiq etmək mühəndis Simonyana həvalə olunmuşdur. Qərar qoyulubdur ki, əvvəl başda Sərdarabad səhrasına su çıxarılsın.

**Aleksandropolda**

Aleksandropol [Gümrü] şəhəri və qəzası əhalisinin əhvalı çox fənadır. Acından ölənlər az deyildir. 10 gündür ki, Amerika Komitəsi heç zad verməyir. Un olmadığından amerikalılardan kömək gözləmək əbəsdir. Ciddi və təxirsiz tədbir ittixazı [tədbir görülməsi] lazımdır. Şəhərdə idareyi-əsgəriyyə [hərbi rejim] ləğv edilmişdir. Ətrafda əhali adi ziraət [əkinçilik] işlərinə şüru etmişdir [başlamışdır].

**İrəvan mövqifi**

İrəvan mövqifini [stansiyasını] şəhərə yaxınlaşdırmaq işindən ötrü Aleksandropola getmiş olan bələdiyyə rəisi İrəvana qayıtmışdır. Təzə mövqifi qayırmaq layihəsi təsdiq edilmişdir. Bu yaxınlarda torpaq işlərinə şüru ediləcəkdir [başlanacaqdır]. Şəhərin ehtiyacatı üçün rəis Aleksandropoldan və Qarsdan neçə makina gətirməyə müvəffəq olmuşdur.

## TEATRO VƏ MUSİQİ

Hacıbəyli Qardaşları Müdiriyyəti möhtərəm camaata elan edir ki, Ramazan ayı münasibətilə bayrama kimi teatro sezonu qapalı olacaqdır. Teatro sezonu Ramazan ayından sonra bayramdan açılacaqdır.

## TEATRO VƏ ƏXLAQ

İnsanların iradeyi-cüziyyələri, hürriyyəti-şəxsiyyələri [şəxsi azadlıqları] olmasaydı, nə cəmiyyət halında yaşaya bilərlər və nə də məsud bir həyatla ədəbiyyat və teatro olardı.

Teatro denilincə göz önünə kiçik-böyük, yarım-yanlış təğənni [nəğmə oxuma] ilə səfahətxanalara bənzər bir yer xatirə gətirilməməlidir. Qarelərimizdən [oxucularımızdan] Türkiyədə Məşrutiyyətdən əvvəl teatro görmüş bulunar. O zamanlar səfahətxanalardan ibarət idi. Şimdi isə mədəni bir məmləkətdə olduğu kimi tərbiyeyi-fikriyyə və təhzib [təlim-tərbiyə, islah] ocaqlarını təsvir edir. Məktəb 5 yaşında bir çocuğu, yaxud 25 yaşında bir gənci tərbiyə edə bilər. Lakin əksəriyyət 45-50 yaşındakı çocuqlarımızın, əvət, çocuqlarımızın fikirlərini tənvirə [işıqlandırmağa] dəxi möhtacız. Bu da, təbii, məktəb ilə olammaz, teatro ilə olar. Çünki teatro insanı başqa dürlü düşündürür. Demək, teatro ölməz vasiteyi-nəşri-ürfandır [bilik yayma vasitəsidir]. Bu vasitədən istifadə etməmək dəmiryollarını, teleqrafı, telefonu qullanmamaqla birdir. Hətta daha betərdir.

İlk teatro Yunanıstanda çıxdığı zaman yunanilər ziyadəsi ilə diqqət edirlər və Atinada [Afinada] hər sənə ədiblər, şairlər, sənətkarlar oyunların kamali-diqqət ilə icra edilməsi üçün uğraşırdılar. Atinalılar, yunanilər hər fənnin təməlini qurduqları kimi, teatronu da unutmadılar. Gözəl dramlar və sairələr yazdılar. Bizə xocalıq etdilər. Bizə, yəni türklərə, ümum islamlara deyil! Əski romalılara, yeni avropalılara dərs öyrətdilər. Bu hal ilə zamana görə insan hazırladılar. Romalılar yunaniləri təqlidə başladığı vaxt teatroya heç əhəmiyyət verməmişdilər. Adi bir oyun kimi oynamağa başladılar. Senatorlar bəzi dəfələr teatroya qarşı gəlirdilər. O vaxtın rahibləri teatronu da fəna göstərdilər. Deyirlərdi ki, bir mükəmməl aktyorun fəryadı ilə qulaqlarını dolduran bir kimsə peyğəmbərlərinin nəsihətlərini, ananın sözünü heç xatırlaya bilərmi? Binaənileyh [ona görə], əxlaq dolayısı ilə bu müxalifətlər heç bir zaman eyi deyildi. Bu surətlə tərəqqiyə sədd çəkilirdi.

Məşhur San-Fransua de-Sal deyir ki:

*"Oyunlar, balolar, ziyafətlər fəna şeylər deyildir. Ancaq əxlaq-tərbiyə dairəsində olmaq şərtilə icra edilməlidir."*

Şairi-məşhur Molyer tərəfindən yazılan "Tartuf" namındakı kitabın müqəddiməsində teatronun vəzifəsi: insanlarda bulunan əskikliyi ikmal edər [tamamlayar]. Faydası müəssir [təsirli] və mühümdür. Zira insanlar gülünc olmaqdan qorxarlar. Bunun üçün hər kəs kəndi sənətkarları, doktorları, mühəndisləri, filosofları ilə iftixar edir.

Biz də mütərəqqi millətlər sırasına keçə bilməmiz üçün sənətkarları, elmi sevməliyiz. Məsələn, fransalı məşhur aktris Sara Bernar bir gecədə 2-3 min lirə aldığı vardır. Bir oyun vermək üçün bir milyon frank alır. Bu paraların əksərisi [çoxu] vətən və millət yolunda sərf olunur. Bu aktrisi yetişdirən Fransa cəmiyyəti, Fransa himayəsidir. Avropadan bəhs edərkən sizə bir misal daha söyləyəyim. Bundan 25 sənə əvvəl barbar sayılan və 1908 tarixində Türkiyədən ayrılıb krallığını elan edən Bolqariya dəxi teatro sayəsində tərəqqi edərək bu gün "Şərqi alman" ləqəbini qazanmışdır.

Hasili, həyat bir təcrübədir. Bunu göstərəcək bir yer varsa, o da teatrodur. Son nəzəriyyə – teatro bir əxlaq məktəbidir, səadət və bəşəriyyət kolleksiyonudur.

*Əlif. Ayn.*

## ETİRAZ

Bakıda nəşr olunan həftəlik "Zənbur" jurnalı 30 mayıs 8 nömrəli tarixində Mərdəkan köyünün barəsində bir qaç kəlmədən ibarət nalayiq sözlər yazaraq, onun tarixi və müqəddəs Mərdəkan ismini ləkələməklə Mərdəkanı "Mürdəgan" [ölülər] adlandırıb, yerini ölü mədəni və əhlini ölü hesab etmişdir. Bu isə vicdandan kənar və Mərdəkan əhli üçün qəbul ediləmməz bir şeydir.

Mərdəkan köyünün tarixinə və şimdiki halına ən eyi bələd və aşina olduğum üçün cəsarətlə deyə bilərəm ki, Mərdəkanda mazidə [keçmişdə] pək şücaətmənd və qeyrətmənd [şücaətli və qeyrətli] kişilər olmaqla, onun Mərdəkan ismi, yəni kişi məkanı ona isnad verilibdir və onun şimdiki gənclərində də mərdlik, kişilik sifətləri vardır.

Hər bir əfradi-millətin [millətin hər bir fərdinin] şücaətmənd və qeyrətmənd olmaqlığı onun vətən və millət uğrunda nasıl çalışdığı və nasıl hərəkətdə bulunmaqlığı ilə isbat olunar. O cəhətdən Mərdəkan köylüləri işbu vətəni Azərbaycan istiqlaliyyəti haqqında nələr yapdığını söyləmək məcburiyyətindəyəm.

Keçən sənə sübh tezdən Mart hadisəsini eşidərək dərhal Mərdəkan köyünün gəncləri 100 nəfərdən ziyadə müsəlləh olub [silahlanıb] islam qardaşlarımızı mühafizət etməyə gediriz deyə sevinclə düşmənə tərəf rəvanə oldular. Və həman gün Sabunçu ətrafında yol üstündə düşmənlə şir kimi müharibə edib 6 nəfər şəhid verib canlarını vətən və millət yolunda təslim etdilər.

Qəhrəman Türk Ordusu Bakını mühasirə etdiyi zaman Binə cəbhəsini saxlayıb düşmənlə aslan kimi vuruşan Mərdəkan köylüləri deyilmi idi? Şanlı türk əsgərləri ilə Dağıstan meşələrində və dağlarında sinələrini düşmənə sipər edib islamiyyət naminə minlərcə şəhid olanların içində Mərdəkan köyünün gənc əsgərlərindən yox idimi? Mərdəkan köylüləri heç bir vaxt vətən müdafiəsindən qaçmayıb və qaçmayacaqdır. Onlar hər bir halda vətən və millət uğrunda çalışmağa amadədirlər [hazırdırlar]. Onlardan mərdlik sifəti kənar olmamışdır.

*Mərdəkanlı Feyzulla Qasımzadə*

## İZHARİ-TƏŞƏKKÜR

Pəncşənbə [cümə axşamı] günü may ayının 29-da biz "Təməddün" məktəbinin nümayəndələri Səidülvüzəra həzrətlərinin xidmətinə gedib Sabunçuya nümayəndə istədik.

Səidülvüzəra cənabları sabiq Çornıqorod naibi [nümayəndəsi, vəkili] Abbas xan cənablarını təyin qıldılar. Naib heyət ilə bahəm Sabunçuya təşrif gətirib, öz vəzifəsini ifa etməyə məşğul oldu. Heyət camaatın tərəfindən Abbas xan kimi hürriyyətpərvər bir vücudu Sabunçuya nümayəndə göndərməkliyinə Səidülvüzəra cənablarına təşəkküratını izhar edir.

Ümid edirik ki, təzə nümayəndəmiz Abbas xan cənabları özü hürriyyətpərvər və məşrutəxah bir insan olduğuna görə, necə ki sabiqlərdə camaatla rəftar edib, füqərayi-kasibə qardaşlarımızla ədalətlə rəftar edərlər.

*Heyəti-idareyi-"Təməddün"*

## MÜDİRİ-MÖHTƏRƏM!

Aşağıda yazılan hesabatı möhtərəm qəzetənizdə dərc etməyiniz mərcudur [rica olunur].

**Ağdaş**

Ağdaş Qaçqınlara Yardım Cəmiyyətinin mədaxil və məxarici xüsusunda ümumi hesabatı:

Birinci teatronun hasilatı:

Bilet satışından 7725 manat, fəxri biletlərdən 2291 manat, ianədən 51 manat.

İkinci teatronun hasilatı:

Bilet satışından 7445 manat, fəxri biletlərdən 1400 manat.

Yekunu 18910 manat.

Məsarifin surəti:

1) Səhnə məsarifi 2590 manat 50 qəpik;

2) İkinci teatronun məsarifi 605 manat;

3) Bazarda dilənən qadınlara aylıq:

1. Böyükxanım Məşhədi qızına 375 manat;

2. Nanə Məhəmməd qızına 450 manat;

3. Bəyim Nəcəf qızına 300 manat.

4) Qaçqınlardan ən ehtiyac içində olanlara ianə:

1. Nisbət xanım Qəni əfəndi qızı 4 nüfus [nəfər], 500 manat;

2. Gilas Məhəmməd qızı 4 nüfus, 500 manat;

3. Xədicə İsmayıl qızı 3 nüfus, 375 manat;

4. Çərkəz Ağakişi bəy qızı 2 nüfus, 200 manat;

5. Çərkəz Molla Səfdər qızı 1 nüfus, 75 manat;

6. Səhab Solsəttar qızı 2 nüfus, 250 manat;

7. Nanə Məşhədi Məhəmməd qızı 1 nüfus, 75 manat;

8. Balaqızı Məhəmməd qızı 3 nüfus, 325 manat;

9. Əminə Heydər qızı 1 nüfus, 75 manat,

10. Sürəyya Yüzbaşıbəy qızı 4 nüfus, 200 manat;

11. Əli Nəcəf oğlu 4 nüfus, 450 manat;

12. Molla Əhməd Əfəndizadə 3 nüfus, 375 manat;

13. Molla Osman Əfəndizadə 4 nüfus, 275 manat;

14. Ağarəhim Xalidbəyzadə 2 nüfus, 250 manat;

15. Həmid Məhəmmədzadə 3 nüfus, 225 manat;

16. Əbülqasım Süleymanzadə 5 nüfus, 375 manat;

17. Hacıbaba Hacılətifzadə 3 nüfus, 225 manat;

18. Dostxanım Məhəmməd qızı 1 nüfus, 75 manat;

19. Abbas Abbaszadənin yetimlərinə 3 nüfus, 150 manat;

20. Sabir Ələkbərzadə 1 nüfus, 50 manat;

21. Molla Mirəhməd Əhmədzadə 4 nüfus, 300 manat;

22. Əliağa Abbasquluzadə 2 nüfus, 100 manat;

23. Hüsniyyə Abbasqulu qızı 2 nüfus, 100 manat;

24. Mahmud Xeyrullazadə 2 nüfus, 100 manat;

25. Dadaş Ağababazadə 2 nüfus, 100 manat;

26. Məşhədi Qubad Əhmədzadə 2 nüfus, 100 manat;

27. Heydər Məhəmmədzadə 2 nüfus, 100 manat;

28. Əlibala Əbdüləziz [oğlu] 2 nüfus, 100 manat;

29. Sultan Məşhədi Qara bəy 1 nüfus, 50 manat;

30. Ümmüxanım Kərbəlayi Cabbar qızı 3 nüfus, 150 manat;

31. Məşhədi Məcid Molla qızı 3 nüfus, 150 manat;

32. Səkinə Abdulla qızı 3 nüfus, 150 manat;

33. Şahnəzər Fətəli qızı 2 nüfus, 100 manat;

34. Asuman Kərim qızı 2 nüfus, 100 manat;

35. Yetər Əhməd qızı 2 nüfus, 100 manat;

36. Məşhədi Əsədəlizadə 3 nüfus, 150 manat;

37. Molla Mirəhməd Əhmədzadəyə siyahı haqqı üçün verilib 100 manat;

38. Xanəndə və qarmonçuya 800 manat;

39. Xırda məsarif 75 manat.

Yekunu 12270 manat 50 qəpik. 18-190 manat mədaxildən 12270 manat 50 qəpik çıxdıqdan sonra cəmən qalan 66-39 manat 50 qəpik cəmiyyət xəzinədarı Əlibaba Abbasovdadır.

Qeyd:

Siyahıda can hesabı olaraq bərabər olduqları halda bəzi təfavütlər görülməkdədir. Onun da səbəbi cəmiyyət tərəfindən pul iki dəfə buraxılmasıdır və cəmiyyətin 5 nömrəli bəratülqövlü [protokolu] üzrə nüfusa 75 manat, cəmiyyətin 6 nömrəli bəratülqövlü üzrə nüfusa 50 manat buraxılmasıdır. Demək, cəmiyyət tərəfindən iki dəfə pul buraxılmış, siyahıda göstərilənlərin bəzisi cəmiyyətin bəratülqövlü üzrə iki dəfə, bəzisi bir dəfə pul almışdır.

*Ağdaş Qaçqınlara Yardım Cəmiyyəti idarəsi*

**Bağ icarəyə verilir**

Şüvəlanda bir bağ icarəyə verilir. Üç otaq, mətbəxxanası ilə. Bağda meyvə də vardır. Hacı Ağabəy Sultanovun bağı. Şəraiti haqqında Suraxanski küçədə 219 nömrəli evdə Əliyevə müraciət etməli.

*10215*

**Satılır**

Yaxşı yeriyən boz dayça, 5 yaşında. Adres "Təbriz" mehmanxanası, yaxud Hacı Hacıağa karvansarasında Cəmşiddən, Dəryazovdan, yaxud Seyid Həsənovdan xəbər almalıdırlar.

*10211*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

Diş müalicəxanası və süni diş laboratoriyası. Adres: Sisyanovski (Ləzginski) və Çadrovı küçələrin küncündə nömrə 41. Telefon 22-07. Qəbul edir səhər saat 6-dan 8-ədək; səhər saat 11-dən 2-yədək; axşam saat 4-dən 8-ədək. Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır.

*8779*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*





**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

Doktor **M. M. Kərimov** göz naxoşlarını və diş həkimi **A. Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Doktor M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. "606" və "914" müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Elan**

Sabiqdə Tiflis şəhərinin canişin sarayında hər növ çərkəz libası tikməklə məşhur olan Balabəy hal-hazırda Bakı şəhərində Nikolayevski küçədə Seyidəhməd Əzimzadənin dükanında aşağıda adları zikr olunan formaları qəbul edir: "çerkasski kazaçi", "çerkaski imereteniski, çerkaski asetiniski", "Qarabağ çərkəzi" və hər bir formanın şubasını [kürkünü] və Malorossiyski şubalar.

Tikdiyim işlərdən müştərilərin məmnun qalmalarına əminəm.

*Kamali-ehtiramla: Balabəy*
*10204*

**İstanbuldan, İngiltərədən**
**və Fransadan mallar**

İ. V. Denisovun bankir kantorası İstanbula, Marselə (Fransa) və Liverpula (İngiltərə)

mal alıb gətirmək üçün nümayəndə göndərir. Sifarişlər İ. V. Denisovun bankir kantorasında qəbul olunur (Nikolayevski və Olqinski küçələrin küncündə) hər gün axşam saat 5-dən 7-dək.

*10210*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 111. "Avanti!" [Avanti!]: (İrəli!) 1896-cı ildən etibarən İtaliyada (Roma və Milanda) nəşr edilən qəzet; İtaliya sosialistlərinin orqanı.

"Stokport" [Stockport]: Britaniyanın Böyük Mançester qraflığında böyük sənaye şəhəri. Qəzetdə şəhərin adı təhrif edilmişdir.

**Sülh ətrafında**

səh. 111. "Mançester Qardian" [The Manchester Guardian]: İngilis qəzeti. Əsası 1821-ci ildə Mançesterdə qoyulmuşdur. 1959-cu ildə adını Qardian" [The Guardian] kimi dəyişmiş, 1964-cü ildə isə qəzetin redaksiyası Londona köçmüşdür.

**Qəzetələrdən**

səh. 112. "Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik "Le Temps" qəzeti nəzərdə tutulur.

"L. L. Bıç": qəzetdə səhvən "L. M. Bıç" getmişdir.

Korabelnaya Slobodka: Sevastopol şəhərinin tarixi rayonu. Sevastopol buxtasının cənub sahilində yerləşir.

səh.113. Merderesku, George [Gheorghe Mărdărescu; 1866-1938]: Rumıniyanın hərbi xadimi; general-mayor. Macarıstan-Rumıniya müharibəsində (1919) Rumıniya ordusunun komandiri, 1922-1926-cı illərdə Rumıniyanın Hərbi naziri olmuşdur.

**Vükəla Şurasında**

səh.114. "fraxt": dəniz yaxud hava yolu ilə daşınan yük və bu yükün daşınma xərci.

**Nəzarətlərdə**

səh. 114. "Amerikanın Yaxın Şərqə Müavinət Cəmiyyəti": Əsası 1915-ci ildə





Erməni və suriyalılara yardım üzrə Amerika Komitəsi [American Committee for Armenian and Syrian Relief] adıyla qoyulan təşkilat, əvvəlcə Osmanlı imperiyasının erməni və assuriyalı təbəələrinə yardım məqsədi güdürdü. Sonrakı dövrlərdə Yaxın Şərqə yardım üzrə Amerika Komitəsi [American Committee for Relief in the Near East] və Yaxın Şərq Fondu [Near East Foundation] adıyla fəaliyyətini davam etdirmişdir.

**Şimali Qafqazı satanlar**

səh. 117. "Zülmün topu var...": misralar türk şairi Tofiq Fikrətin "Millət şərqisi" şeirindəndir.

**Tarixi bir mütaliə və tənqid**

səh. 120. "Söyüd": Türkiyənin Biləcik ilinin ilçəsi; Osmanlı bəyliyinin ilk paytaxtı olmuşdur.

"Domaniç": Türkiyənin Kütahya ilinin ilçəsi.

"699 sənəsində": burada tarix hicri təqvimlə göstərilmişdir; miladi təqvimlə 1299-cu ilə uyğundur.

"xətib Həmdullah Sübhi": Türkiyənin siyasi xadimi və yazıçısı Həmdullah Sübhi gözəl natiqlik qabiliyyətinə malik olduğu üçün "Milli xətib" və "Cümhuriyyət xətibi" kimi tanınmışdı.

**Bakı xəbərləri**

səh. 122. "Balaxanski və Maqazinni küçələrin küncündə": Bakıda, indiki Füzuli və Süleyman Rüstəm küçələrinin kəsişməsində.

səh.124. "Tserkovnı": Bakıda, indiki Vidadi küçəsi.

**Azərbaycanda**

səh. 126. "Bugünkü bayram": qəzetdə "Bu günlü bayram" getmişdir.

səh. 127. "bayramımıza zəhər qatmaq istəyənlərə": qəzetdə belə getmişdir: "bayrağımıza zəhər qatmaq istəyənlərə"

**Izhari-təşəkkür**

səh. 130. "məşrutəxah": "konstitusiyalı hökumət" mənasına gələn "məşrutə" tərəfdarı, məşrutəçi, konstitusiya tərəfdarı.



*"Azərbaycan" qəzetinin 197-ci nömrəsinin 1-ci səhifəsi*





**Cümə, 6 iyun 1919-cu il, nömrə 197**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 7 ramazanül-mübarək sənə 1337. 6 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## BƏHRİ-XƏZƏR İSTEHLAK CƏMİYYƏTİ "KOOPERATSİYA" İDARƏSİ

Bununla elan edir ki, yekşənbə [bazar] günü həziran [iyun] ayının 8-də 1919-cu ildə ittifaqın kontorunda (Qorçakovski, nömrə 4, Tsaturovun evində) Bakı dairəsi kooperativ nümayəndələri iclası vaqe olacaqdır.

Müzakirə ediləcək məsələlər:

1) Təzə məvaciblər;

2) Tiflisdəki kooperativ qurultayı barəsində məruzə.

Təyin olunmuş vaxta qədər kvorum gəlməzsə, bir saatdan sonra ikinci iclas təyin olunur. Bu iclasa nə qədər üzv gələrsə, qanuni hesab olunacaqdır.

*10217*

**Müsəlman Zəhmətkeş Ziyalılarının İttifaqı** idarəsi həmin həziran ayının 8-də axşam saat 5-də üzvləri fövqəladə ümumi iclasa dəvət edir. İclas Bələdiyyə İdarəsinin böyük zalasında qurulacaqdır.

Müzakirəyə qoyulacaq məsələlər:

1) İdarə heyətinin dakladı;

2) Təftiş heyətinin intixabı [seçilməsi];

3) Hali-hazır;

4) İclasda qaldırılacaq məsələlər.

*10216*

## MƏCLİSİ-MƏBUSANDA

**5 iyun 1919**

Hökumət rəisi Nəsib bəy Yusifbəyli cənabları Denikin məsələsi haqqında müfəssəl məlumat verdikdən sonra, fraksiyon rəisləri də bəyanatda bulunmaqla (təfsilat yarın) axırda "Müsavat" fraksiyası ilə sosialistlər tərəfindən verilmiş olan işbu zeyldəki [aşağıdakı] formula əksəriyyətlə qəbul edilmişdir:

*"Hökumət rəisinin Denikin təhlükəsi haqqındakı məruzəsini dinləyərək, Denikinin məmləkətimiz haqqındakı təcavüzkaranə fikrinin əski çar generallarına məxsus xırda millətləri əsarət altına almaq və hürriyyətpərvər xalqı əzmək istəyən cahangirlik [imperializm] siyasətindən hasil olma bir sui-niyyət olduğunu bütün aləmə qarşı elan etməklə bərabər, Azərbaycan Məclisi-Məbusanı:*

*Məmləkəti müdafiə halına gətirmək üçün hökumət daxilindən bir heyəti-məxsusənin ayrılmasını və bu heyətə ümumi səfərbərlik elan eyləmək, bütün məmləkəti və yaxud bir cüzünü idareyi-örfiyyə [fövqəladə vəziyyət] və mühasirə halında elan etmək, cari olan qanunlardan bir qismini müvəqqətən ilğa və yaxud tədil ey-*

*ləmək [ləğv etmək yaxud mötədilləşdirmək], xüsusi könüllü əsgərləri təşkil etmək və axırda hesabı verilmək üzrə xəzinə pulundan lazım olan məbləği əxz [götürmək] və məhəllinə [yerinə] sərf eyləmək kimi fövqəladə bir səlahiyyət verilməsini təhti-qərara alır.*

*Bununla bərabər, Məclisi-Məbusan bütün Azərbaycan xalqını məmləkət, hürriyyət və istiqlalımızı müdafiə yolunda hökumətə yardımçı olmağa dəvət edir. Azərbaycan xalqı hökumət ətrafında birləşib ordunun qüvvətlənməsinə, hökumətin müzəffəriyyətinə həm maddətən, həm də mənən kömək etməlidir.*

*Məclisi-Məbusan inanır ki, bu təhlükeyi-ümumiyyə qarşısında bütün Zaqafqaziya cümhuriyyətləri ittihad və ittifaq edərək hürriyyət və istiqlaliyyətlərini bərabərlikdə müdafiə edərlər.*

*Məclisi-Məbusan Avropa dövlətlərinin də, demokratiyalarının sədasını dinləyərək millətimizin kəndisini müdafiədə haqlı olduğunu təslim edəcəklərinə ümidvar olmaqla, Denikin əvanəsinin [tərəfdarlarının] əldə silah olaraq sui-qəsdini Paris Konfransı ilə bərabər bütün miləli-mütəməddinə parlamanlarına qarşı protesto eylər.”*

## TELEQRAF XƏBƏRLƏRİ

**Əfqanıstan cəbhəsində**

Simladan alınmış olan son xəbərlərdən anlaşılır ki, Tale cəbhəsində əfqan qoşunlarının həmləsi dəf edilmişdir. Hava kəşfiyyatından anlaşılmışdır ki, Tale yaxınlığında 3500 nəfər düşmən dəstəsi vardır. Onların üzərinə müvəffəqiyyətli bomba tökülmüşdür. Başonun 20 verstliyində vaqe [yerləşən] İdak qarovulxanasına düşmənlər müvəffəqiyyətsiz hücum etmişlərdir.

Barqotal yaxınlığında əfqanlıların müxtəsər həmlələri də dəf edilmişdir. Əfqanların baldal nam [adlı] tabyaları [istehkamları] işğal edildiyi zaman onlardan 161 nəfər əsir alınmışdır. Düşmənlərdən 320 nəfər ölən vardır. Tabyalar ingilis tərəfindən işğal edilmişdir.

**Peterqofun alınması**

Xəbər verilir ki, Peterqof alındığı zaman ingilislərə şimalda olan rus ordusu da müavinət [köməklik] etmişdir.

- Murmanskdan Hərbiyyə nazirinin 4 may tarixi ilə göndərdiyi teleqrafından anlaşılır ki, düşmənlərin dəhşətli inadına baxmayaraq Urozeronun 25 verstliyində olan Mozelskaya mövqifi [stansiyası] işğal edilmişdir. Bizdən 4 nəfər ölən və 4 nəfər yaralanan vardır.

**Xersonda müharibə**

Şəhərdə olan dəstələrə təslim olmaq təklif edilmişsə də, onlar qəbul etməmişlərdir. Təslim barəsində edilən təklif rədd edildikdən sonra bolşevik qoşunları müharibəyə başlamışlardır. Nəhayət, Xerson şəhəri qırmızı qoşunlar tərəfindən işğal edilmişdir.

**Ukraynalıların müharibəsi**

Kiyev - Bessarabiya cəbhəsində düşmən qoşunları, xüsusən fransız saldatlarının bizim tərəfimizə keçməsi müşahidə edilmişdir. Qızğın müharibədən sonra bolşevik qoşunları Radomıslı işğal etmişlərdir. Düşmənlərdən 15 nəfər ölən vardır.

Şəhərdə talani-ümumi icra edilmişdir. Yəhudi qəbiristanında 1000 nəfərdən ziyadə uşaq və qocaların meyiti dolmuşdur. Litin dairəsində düşmən dəstələrinin atışması davam edir.

## SÜLH ƏTRAFINDA

Klemm Eduarda cavab olaraq Harmsvort bəyan eyləmişdir ki, hökumət Finlanda istiqlaliyyəti və hökumətini təsdiq edir.

**Almaniya müstəmləkələrinin təqsimi**

Parisdən xəbər verilir ki, Üçlər Şurası qət eyləmişdir ki, Almaniya müstəmləkələri bu qərar ilə təqsim edilsin [bölünsün]: Almaniyanın Şərqi Afrikada olan müstəmləkələrinin idarəsi İngiltərəyə verilir. Qərbi Afrika müstəmləkələrinin idarəsi Cənubi Afrika İttifaqına verilir. Bunlardan əlavə, bir neçə müstəmləkələr idarəsi də İngiltərə ilə Yaponiyaya verilir.

London - Royter xəbər verir ki, mayın 7-də gündüz saat 3-də Versal sülh müahidəsi [sazişi] Trianon Sarayında bütün Müttəfiq nümayəndələrinin hüzurunda almanlara verilmişdir. İclas saat 3:15 dəqiqədə qurtarmışdır. Vilson və Amerika nümayəndələri saat 2:50 dəqiqədə gəlmişlərdir. Onlardan sonra Lloyd Corc və ingilis nümayəndələri gəlmişlərdir. Almanlar üç avtomobildə saat 3-də gəlmişdir. Bunlara lazımi ehtiram edilməmişdir. Klemanso iclası açıb demişdir ki, müəyyən şəraitlə sülh əqd etməyə hazırdır və indi hesablaşmaq vaxtı çatmışdır. Almanlar üçün İkinci Versal müahidəsi [sazişi] çox ağır bahaya mal olmuşdur. Ona görə də öylə tədbirlər ittixaz etməlidir [tədbirlər görülməlidir] ki, bir daha müharibə təkərrür etməsin. Almaniya nümayəndələrinə 15 gün vaxt verilir. Bu müddətdən sonra fransız və ingilis lisanında məktubən müahidə barəsində öz rəylərini bildirməlidirlər. Bu müddət zamanında almanlara ixtiyar verilmişdir ki, xüsusi maddələr barəsində sual versinlər. Ali Şura bunları müzakirə etdikdən sonra qəti cavab üçün yenə müəyyən vaxt təyin edəcəkdir.

Paris - Əğləbi-ehtimala [qüvvətli ehtimala] görə sülh müahidəsi iyunun 15-də imza ediləcəkdir.

## QƏZETƏLƏRDƏN

**Bolşeviklərlə almanların etilafı**

Londonda müntəşir [nəşr olunan] “Deyli xronikl” qəzetəsindən iqtibasən “Aşxatavor” qəzetəsi xəbər verir ki, Almaniya ilə bolşevik Rusiya arasında saziş əmələ gəlmişdir. Teleqrafda göstərildiyinə görə, bu etilaf [uzlaşma] 8 maddədən ibarətdir:

1) Bolşevik hökuməti məcbur olur ki, rus ticarətinə, xüsusən ləvazimi-hərbiyyə hazırlayan zavodlara olan siyasətini yaxşılaşdırsın.

2) Bu maddə teleqrafda buraxılmışdır.

3) Almanlar söz verirlər ki, Rusiya dəmiryollarını intizama salsınlar.

4) Almanlar məcburdurlar ki, Rusiyaya silah və neçə min əsgəri müəllimlər göndərsinlər.

5) Rusiya hər il müəyyən miqdarda Almaniyaya ərzaq göndərməlidir.

6) Rusiya məcbur edilmişdir ki, Müttəfiq dövlətləri ilə heç bir danışığa girişməsin.

7) Lazım olduğu təqdirdə 20 ilin müddətinə, yəni 1939-cu ilə qədər Rusiya Almaniyaya hərbi cəhətdən müavinət etməlidir.

8) Bu maddə ilə bolşeviklər hərgah Rusiyada indiki hökuməti dəyişsələr də, bu etilafnamənin qüvvədə qalmasını təmin edirlər.

**Petroqradda nə qədər bolşevik var?**

Bolşeviklərin "Pravda" qəzetəsi yazır ki, Petroqradda olan bolşeviklərin miqdarı getdikcə əskilir. Bolşevizmin qəlbgahı olan Petroqradda 7 min nəfər bolşevik vardır. Halbuki keçən il 50 min nəfər idi. Deməli, bu 7 min nəfər özlərini firqələrə yazdırmışlardır.

**Naxçıvan üzərində aeroplan**

Rostov cəbhəsində bolşeviklər müvəffəqiyyətsiz olduqdan sonra əhalinin məskun olduğu yerlərə bolşeviklər bomba tökməyə başlamışlardır. Naxçıvan üzərinə onların aeroplanı gəzərək bomba buraxmışdır. Bomba əmələlər yaşayan evin üzərinə düşmüşdür. Bir əmələ, iki arvad, bir uşaq yaralanmışdır.

**Xarkovda üsyan**

Taqanroqdan xəbər verirlər ki, bolşevik hökumətini yıxmaq şüarı ilə Xarkovda üsyan əmələ gəlmişdir. Nikitovka tərəfə gedən dəmiryol təreddüdatı [hərəkəti] tamamilə kəsilmişdir. Mövqiflərdə [stansiyalarda] qırmızı qoşun əfradı [əsgərləri] qatarları dayandıraraq əslihəni [silahlarını] tərk edərək onları öz yerlərinə aparmağa qatarları məcbur edirlər. Bunlar deyirlər ki, çörək, sülh və torpaq kimi bolşeviklərin vədləri boşa çıxmışdır. Üsyan getdikcə artmaqdadır. Bolşeviklərin etibarlı dəstələri olmadıqdan, onlar şiddətli tədbirlər ittixaz etməyirlər [tədbirlər görmürlər].

**Trabzonda**

Bu günlərdə Trabzondan gəlmiş olan bir nəfər böylə məlumat verir:

Trabzon şəhərinin istila edildiyi və oraya əcnəbi qoşunları çıxarıldığı barəsində verilən xəbərlərin həpsi yalandır. Şəhərdə bütün ixtiyarat türklərin əlindədir. Trabzonda bir bölük türk əsgərləri də vardır. İngiltərənin hərbi nümayəndəsindən başqa, şəhərdə Amerika şəfqət bacısı vardır ki, ehtiyacda olan əhaliyə un paylayır. Ehtiyacda olanların əksəri müsəlmanlar olduğu üçün un ancaq müsəlmanlara verilir. Ruslarla gözəl rəftar edilir. Yerli əhali, xüsusən yunanilər ruslara artıq meyil və məhəbbət göstərirlər. Bunlar ruslar getdiklərinə təəssüf edirlər. Trabzonda rusların külli miqdarda ləvazimi-hərbiyyəsi qalmışdır. İngilislərin tələbi ilə bu şeylər Könüllü ordu üçün göndərilir. Şəhərdə Avropa manufakturası yoxdur, fəqət hər növ yeməli şeylər mövcuddur. Külli qənd vardır ki, ucuz satılır. Trabzon şəhəri müharibədən az xəsarətdidə olmuşdur fəqət ətraf, xüsusən Ərzuruma doğru olan yerlər tamamilə dağılmışdır. Ərzurumda Türk Ordusunun ərkani-hərbi [qərargahı] vardır. Ərzurum şəhərinin guya əcnəbilər ixtiyarına keçəcəyi xəbəri şəhərdə şaye olduqda [yayıldıqda], əhali bu işə qarşı nümayiş qurmaq istəmişsə də, vali buna yol verməmişdir.





**GÜRCÜSTAN MƏCLİSİ-MÜƏSSİSANININ FÖVQƏLADƏ İCLASI**

İyunun 1-də gündüz saat 1-də, Lomtatidzenin sədarəti təhtində [sədrliyi altında] Gürcüstan Məclisi-Müəssisanının fövqəladə iclası vaqe olmuşdur. Hökumət üzvləri hamısı iclasda isbati-vücud [iştirak] etmişlər. Sədr iclası açıb izhar edir ki, Cümhuriyyətin xarici işləri əhvalı haqqında Xariciyyə nazirinin məruzəsini dinləməkdən ötrü fövqəladə iclas dəvət edilmişdir. Xariciyyə naziri Gegeçkori bu cür bəyanatda bulunmuşdur:

Vətəndaşlar! Denikinin qara qüvvəsi bizim məmləkətimizi təhdid edir. Bununla əlaqədar olaraq mən hökumət namından Cümhuriyyət işlərinin həqiqətini Məclisi-Müəssisana xəbər verirəm. Sizə məlumdur ki, Könüllü ordu Petrovsku və Dərbəndi işğal etmişdir. Dağıstan hökuməti və Parlaman silahı yerə qoyub. Bu qərar üzrə hal-hazırda Denikin belə görünür ki, Dağıstan üzərində hökmfərmadır [hökm sürməkdədir]. Lakin qoy sizlərdən heç kəs fikrinə gətirməsin ki, Denikin qüvvəsi orada qəti surətdə ağalıq edir. Bu əsəf [təəssüflü] günlərdə Dağıstan Cümhuriyyətində baş verən əhval qara xəyanət nəticəsi olmuşdur. General [Mikayıl Maqomedoviç] Xəlilov öz məmləkətini təslim edib, öz millətinə xəyanət etmişdir. Dağıstan millətinin müqəddəratını əlinə alan hökumət xainanə bir hərəkatda bulunmuşdur. Lakin biz ümidvarıq və möhkəm surətdə inanırıq, azadəlik sevən dağıstanlılar yenə təzədən qüvvələrini cəm edib irtica rəhbəri olan general Denikini dəf edərlər. *(Alqış)*

Hal-hazırda Denikinin qara qüvvələri Azərbaycan üzərinə hücum etməktədirlər. İkinci cəbhə, yəni Soçi cəbhəsi əhvalı sizə məlumdur ki, burada bizim əsgərlərimiz Denikin ilə rubəru [üzbəüz] durmuşdur. Denikin əsgərləri burada hərəkətə başlamışlardır. Ola bilər ki, bir neçə gündən sonra bu cəbhədə onlarla bizim aramızda müsadimə [toqquşma] olsun. *(Nodiya yerindən: "Onların dümdarları [arxa qüvvələri, aryerqardları] ilə".)* Bununla bərabər, Gürcüstan Hökumətinin aldığı doğru xəbərlərə görə, bizim əleyhimizə təzə bir cəbhə də hazırlanmaqdadır. Aldığımız məlumata görə, [Romanko-]Romanovski Batum general-qubernatoru təyin edilir ki, onun ixtiyarına da balaca bir könüllü dəstəsi verilir.

Vətəndaşlar! Əhvali-ümumiyyə bu qərar üzrədir. Bundan sizə aşkar olur ki, Rusiya irticası Denikin şəxsində barmaqla Zaqafqaziyanı və bizim cümhuriyyətimizi qorxudub, qarətgərlik və xarabalıq ilə təhdid etməktədir. Lakin hər halda, buna baxmayaraq, mən sizi inandırıram ki, bizim aramızda qorxuya yer verilməməlidir. Qorxaqlar, daha doğrusu xainlər o adamlardır ki, böylə məsuliyyətli bir zamanda bizim aramıza qorxu salırlar. Çünki əhvali-hazirə və qüvvəmiz heç kəsə yol verməz xəyalına gətirsin ki, müsadimə olacağı təqdirdə qalibiyyət bizim tərəfimizdə olmasın. Biləks [əksinə], biz inana bilərik ki, gürcü milləti, bizim demokratiyamız, cümhuriyyətimiz bu mü-

haribədə qalib gələcəklərdir. *(Sürəkli alqışlar)*

Vətəndaşlar! Sizə gözəl surətdə məlumdur ki, biz heç kəs üzərinə hücum etməmişik və bizim hərəkətimiz heç bir kəs əleyhinə deyil. Ancaq millətimizi, azadəliyimizi və istiqlalımızı təcavüzkaranə əllərdən mühafizət etməkdən ibarət olmuşdur. Lakin hər kəs bizim millətimizi, istiqlaliyyətimizi, hüququmuzu tapdamaq istəsə, qoy bilsin ki, inadlı difaya [müdafiəyə, müqavimətə] düçar olacaqdır. Bizim tarixi ənənatımız [ənənələrimiz] və demokratiyamızın keçdiyi bu ağır yol bizə imkan verir cürət və ləyaqətlə izhar edək ki, Xəlilovların qara xəyanəti və fəaliyyəti bizdə olmayacaqdır. *(Səslər: "Doğrudur!", "Düzdür!")* Rusiya işlərinə qarışmayaraq – necə ki, sizə ərz etmişdim – biz istəyirdik bizim aramızda olan ixtilaflı məsələni hər iki tərəfin razılığı ilə sülhcuyanə [sülhpərvər] bir tərzdə həll edək. Saziş əsası üçün təklif etdiyimiz şərait sizə məlumdur. Biz tarixi sərhədlərimizi işğal edib artıq hərəkət etməyirdik. Lakin Denikin nümayəndəsi ilə mayın 23-də başlanmış müzakirəmiz yenə təzədən Denikinin nə fikirdə olduğunu bizə sübut edib onun qara niyyətinin həqiqətini bizə aşkar etdi.

Biz yəqin etdik ki, iş burada Soçi nahiyəsi, sərhəd məsələsi deyil, bəlkə Denikinə fəhlə sinfinin inqilabını əzib *(Nodiya yerindən: "İstiqlaliyyəti!")* Gürcüstan Cümhuriyyətini və gürcü demokratiyasını məhv etmək lazımdır. Onun gözü müstəqil Gürcüstandadır. Qılıncını bizim millətin istiqlaliyyətini və hürriyyətini yer üzündən götürəndən sonra yerinə qoyacaqdır. Məsələ bu tövr aşkardır. Bundan sonra da müzakirə barəsində danışmaq fəzlədir [artıqdır].

Mən ən əvvəl ərz etdim ki, bizim indiki əhvalımız və bizim qüvvələrimiz yolumuzda düçar olacağımız təzə mümaniətlərə [maneələrə] asudə bir nəzərlə baxmağa imkan verir.

Yadınızdadır ki, keçən il bizim məmləkətimiz təhlükə altında idi. Lakin bu il halımız keçmişə görə çox yaxşıdır. Bizim demokratiyamız bu bir il müddətində daha artıq qüvvələnib, ümidvar bir surətdə gələcəyə baxmaqdadır. Bizim millətimiz öz məmləkətini, öz cümhuriyyətini müdafiə etməyi anlamışdır. Keçən il bizim əlaqəmiz bütün bəşəriyyət və cahan demokratiyası ilə münqəte olmuşdusa da [kəsilmişdisə də], indi münasibatımız vardır.

**Gürcüstan və Azərbaycan**

Aşkardır ki, ümdə qüvvəni biz özümüzdən tapmalıyıq. Biz heç bir dəqiqə şübhə etməyirik ki, gürcü milləti bir tənivahid kimi [hamı bir nəfər kimi] cümhuriyyət düşmənləri əleyhinə ayağa qalxacaqdır. Biz inanırıq ki, gürcü kəndli və fəhlə sinifi də Denikinə qəti müharibə verəcəkdir. Çünki Denikin bizim məmləkətimizə qara və möhlik [öldürücü] irtica gətirməktədir. Denikin dəstələrinin bizim yer torpağımıza daxil olmaları məmləkətimizi xarabazara döndərməklə təhdid edir. Denikinin hücumu bizim hürriyyətimizin, inqilab fütuhatının [nailiyyətlərinin] məhvi və yurdumuzun xarabazara dönməsi deməkdir. Lakin, vətəndaşlar, biz eyni zamanda bunu da şadlıqla qeyd etməliyik ki, bu mübarizədə gürcü milləti tək deyildir. **Bizim mövsuq [mötəbər] məlumatımıza görə, Azərbaycan Cümhuriyyəti bizimlə bərabərdir.** *(Sürəkli və uzun alqış)* Aldığımız məlumata görə, Azərbaycan Hökuməti... *(Məclisi-Müəsisan, bu halda lojaya daxil olan Azərbaycan siyasi nümayəndəsi Məhəmməd Yusif Cəfərovu sürəkli alqışlarla qarşılayır)* Azərbaycan Hökuməti sərhədi müdafiə etmək üçün öz əsgərlərini göndərmişdir. Azərbaycan Cümhuriyyəti əsgərləri öz doğma vətənlərinin sərhədini möhkəm və müstəhkəm [istehkamlarla möhkəmləndirilmiş] bir surətdə müdafiə və mühafizə edəcəklərdir. *(Uzun müddət davam edici alqışlar)*

**Ermənistana işarə**

Bu qərar üzrə, vətəndaşlar, təhlükə bir tək Denikində, onun ordusunda, həman bu quldur dəstələrində deyildir ki, onların hərəkətləri müttəhid olmayıb və onların ümumi şüar və müqəddəs məqsədi ilə ruhlanmayıblar. Sizə məlumdur ki, bu rəngarəng dəstələr birinci ciddi təhlükə və inadlı müqavimət göstərildiyi zaman nə tövr qaçıb dağılırlar. Təhlükə bizim öz aramızda gizlənmişdir. Hərgah tarix təkərrür etsə, hərgah Zaqafqaziya həyatında bədbəxtanə keçən ilki təəssüfanə hadisələr vüqu bularsa, hərgah bizim aramızda yenə təzədən bitərəflik söhbətləri və bu halda biz ümumi düşmən əleyhinə hərəkət etməyirik danışıqları başlasa, böyük bədbəxtlik və təhlükə bunda olar. *(Maçavariani yerindən: "Buna xəyanət deyərlər!")* Lakin, vətəndaşlar, biz inanırıq ki, keçmişin acı təcrübəsi bizi bir çox şeylərə öyrətmişdir. Hərgah, Zaqafqaziya millətlərinin məsuliyyətli bir para dəstələri zamanın ciddiliyini və məsuliyyətini dərk etmək və anlamaq bacarmayırlarsa, qoy onlar tarix məhkəməsi qarşısında cavabdəhəndə [cavabdeh] olsunlar. Biz, vətəndaşlar, hələlik sizə deyə bilmərik ki, bizim aramızda bu birlik yoxdur. Mütəəssifanə [təəssüf ki], bizə bu dəqiqədə bir para şübhələri demək lazım gəlir, hansıları ki, mənim inandığıma görə, gizlətmək lazım deyildir. Lakin hər halda, hərgah Azərbaycan və Gürcüstan bu mübarizədə tək qalsalar, mən sizə deyərəm ki, yenə də qalibiyyət bizim tərəfimizdə olacaqdır. *(Alqışlar)* Çünki biz müqəddəs bir işi müdafiə edirik. Çünki biz bəşəriyyətin ali məqsədlərinə xidmət edirik. Biz xırda millətləri vəhşi təcavüzlərdən müdafiə edib cahani-mədəniyyətin mədəni arzuları yolu ilə gedirik. Hərgah, siz hamınız bu fikirdə olsanız və hərgah, bizlərdən hər birimiz bu böyük işə xidmət etmək yolunda bacardığımızı versək, şübhə yoxdur ki, biz qalib gələrik.

**Qisasçı Denikin**

Bu qərar üzrə, vətəndaşlar, mən öz bəyanatımı bu sözlərlə qurtarıram. Aşkardır ki, əhval doğrudan da xeyli məsuliyyətlidir. Siz görürsünüz ki, Rusiya irticası Zaqafqaziya, o cümlədən Gürcüstan inqilab və hürriyyətinin axırıncı pərdəsini qapamaq istəyir. Siz hiss edirsiniz ki, hal-hazırda bizim qarşımızda duran təcrübə bir il bundan əvvəl keçirməyə məcbur olduğumuz təcrübədən ağırdır. Siz bilirsiniz ki, Denikin bandalarının bizim torpağımıza daxil olmaları bizim millətin həlak olması deməkdir. *(Səslər: "Doğrudur! Düzdür!")* Sizə bu da məlumdur ki, Denikin buraya fateh bir qüvvə kimi deyil, göz götürməməzlilik, düşmənçilik

hissi ilə ürəyi dolu bir qisasçı kimi gəlir. Lakin hərgah, bizim millət – necə ki buna şübhə etməyirik – başqa millətlərlə öz qüvvəsini təcrübəli müharibə bayrağı ətrafına toplarsa, biz o vaxt cürət və cəsarətlə deyə bilərik ki, heç bir Denikinlər və onların qoşunları Zaqafqaziya sərhədini ovlamağı bacarmazlar və bizim Cümhuriyyətimiz əvvəlki kimi azad və müstəqil hökumət bayrağını uca tutacaqdır. *(Sürəkli və uzun müddət davam edici alqışlar)*

Gegeçkoridən sonra Baş nazir [Noy Vissarionoviç] Ramişvili sözə başlayıb deyir ki:

Şimaldan qara buludlar gəlirsə də, yenə də biz gələcəyə ümidvarız. Bizim bu ümidvarlığımıza səbəb budur ki, əvvəla gürcü milləti inqilab mübarizlisində öz qırmızı bayrağını hətta qara irtica zamanında da əlindən yerə qoymamışdır. Hərgah, sabiq Rusiyanın gənclərindən biri desə ki, çarizm əleyhinə mübarizə edənlərin birinci səfində [cərgəsində] dayanmışsa, bunu gürcü demokratiyası deyə bilər. Gürcü demokratiyasının tarixi və inqilab mübarizəsi bu gündən başlanmamışdır. Bu mübarizəni 20-25 ildir ki, başlamışdır. Şimalda qara qüvvələr hökmfərma olduğu [hökm sürdüyü] zaman biz hürriyyət qazanıb demokratiya üçün hökumət möhkəmlətdik. Demokratiyamız şimaldan gələn irticanı görüb heç vaxt öz mövqeyini tərk etməz. Gürcüstan Demokratik Cümhuriyyəti heç vaxt heç kəs üzərinə və qonşularına hücumda bulunmamışdır. Bizə hücum olunan zaman demokratiyamız bir təni-vahid kimi ayağa qalxıb öz hürriyyətini müdafiə etmişdir. Gürcü demokratiyası öz tarixi ənənatına [ənənələrinə] heç vaxt xəyanət etməz.

Bayrağında "Vahid mürtəce Rusiya" sözləri yazılmış olan Denikin ordusu qüvvədən məhrumdur. Qara ordu və bayrağı əleyhinə hal-hazırda o millət mübarizə edir ki, onun üzərində irtica hökmfərmadır. Qaqra nahiyəsi bizim əsgərlərimiz tərəfindən işğal edildiyi zaman sizin yadınızdadır. Soçi nahiyəsində əhali Denikin əleyhinə ondan ötrü üsyan etdi ki, Denikin hürriyyəti pozub onun yerinə irtica dikəltmək istəyirdi. Biz zənn ediriz ki, hürriyyətpərvər dağıstanlılar Denikin ordusunun gətirdiyi dəhşətli irticaya razı olmazlar. Bu hala istinadən Denikin dəstələrinin əhvalı həmişə fəna olacaqdır. Sizə məlumdur ki, çar generalı məmləkətləri xarabazara döndərməklə təhdid edir. Bu da sizə məlumdur ki, həmişə hücum edən tərəfin əhvalı öz yurdunu, öz azadlığını müdafiə edənin halından fəna olar. Denikin ordusu da həqiqəti müdafiə etmədiyini duyub öz qalibiyyətinə inanmayacaqdır. Lakin general Denikin bizim içəri əxlaqımıza ümidvardır ki, Zaqafqaziya millətləri arasında iğtişaş törənib anarxiya başlanar. Lakin mən cürətlə deyə bilərəm ki, onların bu ümidi əsassızdır. Siz burada hökumətin bəyanatını dinlədiniz ki, Denikinin məqsədi Gürcüstanı fəth etməkdir. Denikin nümayəndəsi bizimlə müzakirə etdiyi zaman aşkar dedi ki, Denikin idareyi-muxtariyyə (samoupravleniya) verəcəkdir. *(Mikeladze yerindən: "Onu görə bilməzlər!")* Ola bilər çox adamlar, şübhəsiz ki, düşmənlərimiz belə fikir edirlər ki, Qafqaziya xırda millətlərinin Rusiya ilə müsadiməsinə





[toqquşmasına] imkan verməyi biz vücuda gətirmişik. Lakin bu sırf yalandır. Yenə təkrar edirəm ki, məsələ sərhəd məsələsi deyil, azad Gürcüstanın varlığı məsələsidir. Məsələ böylə olduğuna görə, təbii ki, bizim qoşunlarımız da bu nöqteyi-nəzərlə baxırlar. Mən zənn edirəm ki, Dağıstan Hökumətinin yıxılmasına baxmayaraq, Dağıstanın azad dağları Denikinin ağalığına razı olmayıb, vaxtı gəldiyi halda azad dağıstanlılar Denikinin qara irticası ilə mübarizədə bizimlə bərabər olacaqlardır. *(Alqışlar)* Siz, qonşumuz Azərbaycan hökumətinin özü üçün intixab etdiyi [seçdiyi] yol haqqında hökumətimizin verdiyi bəyanatı eşitdiniz. *(Nodiya yerindən: "Siz Ermənistan barəsində söyləyiniz!")* Mən bunu deməliyəm ki, Azərbaycanla Gürcüstanın keçirdiyi şəraitə görə, Azərbaycan Parlamanı ilə Hökumətinin qəbul etdiyi qərar təbiidir. Azərbaycan Hökuməti öz sərhədini mühafizə etməkdən ötrü lazımi tədbirlər görmüşdür. İçəri vahidliyimizi xələldar etmək [pozmaq] üçün cürbəcür yalan şayiələr burax[ıl]mışdır. Lakin mən hökumət tərəfindən deyirəm ki, sərhədlərimizi müdafiə etmək üçün lazımi tədbirlər görülmüşdür. Mən ümidvaram ki, azadəliyimizi və istiqlaliyyətimizi müdafiə etməyə dəvət olunan əsgərlərimiz öz vəzifələrini namuskaranə bir surətdə ifa edərlər. Bu şərait üzrə bizə lazım gəlir ki, öz azadəliklərini və istiqlaliyyətlərini müdafiə etməkdə bizim nöqteyi-nəzərdə olan qonşularımızla bərabər hərəkət edək.

Biz inanırıq ki, inqilab mübarizəsi ilə ruhlanmış əsgərlərimiz müstəqil və azad Gürcüstanın sərhədlərini mühafizə edərlər və bu bir ilin müddətində gürcü millətinin istiqlaliyyətə layiq olduğunu isbat edən əsgərlərimiz bizim sərhədimizi keçmək istəyən və bizim azadəliyimizə əl uzadan irtica nümayəndələrinin hücumunu dəf edərlər. *(Alqışlar)*

Bir neçə başqa natiqlərdən sonra sosial-demokrat fraksiyası tərəfindən idxal edilmiş bu aşağıdakı qətnamə müttəhidülqövl [yekdilliklə] qəbul olunur:

*"Denikin ordusunun hücumu haqqında hökumətin verdiyi bəyanatı dinləyərək, Məclisi-Müəssisan ümuma elan edir ki, bu hücum əski Rusiya imperialistlərinin arzusudur ki, bununla xırda millətləri və demokratiyanı məhv etmək istəyirlər. Məclisi-Müəssisan ümidvardır ki, bizim qəhrəman ordu və qvardiya düşməni qarşılayıb var qüvvəsi ilə Gürcüstan Cümhuriyyətinin tamamiyyətini* [bütövlüyünü] *və namusunu mühafizə edəcəkdir. Məclisi-Müəssisan əhalini, bütün demokratiyanı hökumət ətrafına cəm olmağa, əsgərliyə gəlməklə, maddi-mənəvi müavinət etməklə ordunu qüvvətləndirməyə dəvət edir. Məclisi-Müəssisan möhkəm bir surətdə inanır ki, Zaqafqaziya cümhuriyyətləri və onların demokratiyası ümumi təhlükə qarşısında düşmənlə müttəhid* [birgə] *və bərabər mübarizə etməyin lazım olduğunu düşünür.*

*Məclisi-Müəssisan ümidvardır ki, Yevropa hökumətləri, ən əvvəlcə fəhlə demokratiyası bizim millətin müdafiəsi üçün öz səslərini ucaldarlar. Məclisi-Müəssisan Paris Sülh Konfransına və Yevropa dövlətlərinə müraciətən xırda millətləri məhv etməyə döndərilmiş olan Denikin və onun silahı əleyhinə protesto edir."*

**ERMƏNİ CÜMHURİYYƏTİNDƏ MÜSƏLMANLARIN HALI**

**- 1 -**

Erməni paytaxtı İrəvan şəhərindən gəlmiş ziyalı bir zat vasitəsi ilə ora müsəlmanlarının halına dair aldığımız məlumat:

Sövqi-tale ilə erməni cümhuriyyəti daxilində qalmış müsəlmanların halı olduqca faciəli bir haldır.

İrəvanın ən gözəl və böyük bağları, evləri əksəriyyətlə müsəlmanlara məxsus idi. Bahardan başlamış payızın son ayına qədər İrəvan şəhərini yaşıl qanadları altında sayələndirən [kölgələndirən] ağacların, bağçaların ən çoxu müsəlmanların malı idi. Qafqazın bir çox yerlərində ad qazanmış İrəvan məhsulatı meyvələrin 4-də 3 payı müsəlmanların yetirməsi idi.

İrəvan müsəlmanları bu son illər zərfində ticarətcə də çox böyük tərəqqilər etmişdilər. Rusiyanın, İranın, Osmanlının, Germaniyanın ticarət mərkəzləri ilə əlaqəyə girişmişdilər. İçlərindən bir neçə "tarqovı dom – ticarət evi" sahibləri və bir neçə kəsbkar [qazanan] milyonerlər zühura gətirmişdilər. Çoxdan bəri özlərini Qafqazın tacirləri adlandıran ermənilərlə İrəvan şəhərində müsəlmanlar böyük rəqabətə başlamışdılar. Müsəlmanlar dəxi hər növ mallara aid mütəəddid [çoxsaylı] mağazalara malik olmuşdular.

Ticarət meydanı İrəvanda yavaş-yavaş müsəlmanların ixtiyarına keçməkdə idi. Əkinçilikdə, bağçılıqda, dabbağlıqda, arıçılıqda, maldarlıqda dəxi ən böyük mövqe müsəlmanlarınkı idi.

İrəvan müsəlmanları ticarətə baxdıqları kimi, maarifə dəxi xoş nəzərlə baxmaqda idilər. Yaxın zamanlardan bəri bir çox oxumuş qızlar, ali məktəblər görmüş, darülfünun [universitet] qurtarmış oğlanlar yetirmişdilər.

* * *

1918 sənəsi türklər İrəvana yaxınlaşdıqları zaman yanlış bir politikamı yaxud bir sui-təfəhhüm [yanlış anlaşılma] nəticəsimi olaraq İrəvan müsəlmanları İrəvan şəhərində fövqdə məzkur [yuxarıda deyilən] bağlarını, mağazalarını, evlərini, bağçalarını, əkinlərini buraxıb çıxdılar, canlarını götürüb ətrafa dağıldılar. Şəhərdən çıxan müsəlmanların yerlərinə Osmanlıdan qaçan ermənilər gəlib doldular, müsəlmanların mamələklərini [var-yoxlarını] yiyələnib oturdular.

Osmanlılar Qafqaziyadan çəkildikləri zaman yaxında olan irəvanlılar yerlərinə qayıtmaq istədilər. Fəqət İrəvanda təşəkkül etmiş erməni cümhuriyyəti tərəfindən böyük müşkülata düçar oldular. İrəvana evlərinə qayıtmaq istəyən müsəlmanlar vəsiqə almaq üçün olmazın əziyyətlər çəkdilər. Ermənilərə təslim olduqdan sonra İrəvana qayıtmaqda olan müsəlman ailələrini qafilələrlə İrəvan yaxınlığında erməni dəstələri soyub varyoxlarını aldılar. Ondan sonra yolçu halında ağlar gözlə, əlləri boş İrəvana buraxdılar. Böylə hal ilə İrəvana daxil olan zavallı müsəlmanlar evlərində, mülklərində çıxarılmaları müşkül başqalarını, yəni kənardan gəlmə erməniləri gördülər. Səslərini, şikayətlərini kimsə dinləmədi. Ali imarətlər, bağlar, bağçalar sahibi olan bu müsəlmanlar naçar qalaraq qış zamanından başlamış indiyədək ailələri ilə məscidlərdə yatmağa məcbur oldular. Böyləliklə hər məscid evlərindən ayrılmış o tərəf müsəlmanlarının bir yataqaq məhəlləsi oldu.

Sərvətləri talanmış, malları əllərindən alınmış bir çox möhtərəm, iffətli müsəlman ailələri soyuqlar, aclıqlar, çılpaqlıqlarla gün keçirərək azarladılar, ac qaldılar, öldülər. İrəvan müsəlmanlarının bu halı həmin iyun ayı olduğu halda yenə davam etməkdədir.

İrəvanda müsəlman mağazaları olan bazar başdan-başa yandırılmış, malları talanmışdır. Bazardan ancaq bəzi yerlərdə nümunələr qalmışdır. İndi İrəvanda müsəlman bazarı böyük bir xarabalıqdan ibarətdir. Salamat qalan müsəlman mağazalarından bəzilərinin ermənilər indi də qapı və ağaclarını söküb aparmaqdadırlar. Əvvəllərdə müsəlman tərəflərinə qədəm basmayan ermənilər, indi müsəlman məhəllələrinin hər tərəfində, müsəlman evlərində kamali-qürur və istirahətlə oturmaqdadırlar.

İrəvanda ermənilər oturduqları müsəlman evlərinin özlərindən artıq qalan otaqlarının qapı-pəncərələrini, dam-ağaclarını söküb yandırmaqda, ya satmaqdadırlar. İrəvanda müsəlman məhəllələrində böyləcə xaraba halına salınmış yüzlərcə müsəlman evləri vardır. Ermənilər oturduqları müsəlman evlərinin bağçalarındaki gözəl meyvə ağaclarını kəsib yandırdıqları kimi, bağçaları zinətləndirən gülləri, çiçəkləri də biçib tələf etmişlərdir. Müsəlman bağlarının İrəvanda bir çoxlarının meyvə ağaclarını, üzümlüklərini ermənilər kəsib məhv etmişlərdir.

İrəvanda ermənilər vasitəsilə bu kimi hallar ilə məhv və tələf edilmiş müsəlman bağçalarını, evlərini, mağazalarını, bağlarını icab edərsə ad-ad yazmaq, göstərmək mümkündür.

İrəvanda bir müsəlmanın əyninə təzə paltar geyməsi xətadır. Çünki lap müsəlman məhəllələrinin içində, qapısının qabağında ermənilər soyundurub alırlar. Bu hal İrəvanda gecə-gündüz hər vaxt müsəlmanların başına gələn hallardandır.

İrəvanda ermənilər bir müsəlmanın cibində neçə min manat pul olduğunu anladılarmı, həman yaxalayıb pulu istəyirlər. Vermədiyi halda öldürürlər. Arasıra qalmış müsəlman dükançılarının yanına ermənilər gedib keyifləri istədiyi qədər pul istəyirlər. Vermədimi, həman dükanındaca zavallı müsəlmanı vurub öldürürlər. Bu hallar gündüz hər kəsin gözünün qabağında vaqe olmaqdadır. Müsəlmanlar indi qorxularından ağız açammayırlar və şikayətlərinə də baxan yox.

İrəvanda bir müsəlmanın evində ev əşyasının çox olduğunu erməni qoçaqları duydularmı, gecə ikən əli mauzerli ermənilər zavallının evinə hücum edib bütün var-yoxunu evindən götürüb aparırlar. Ailəsini idarə edə biləcək zavallı müsəlmanı böyləcə naçar və yolçu halına salırlar. Müsəlmanlar İrəvanda gündüzün belə şəhərdən vağzala yalqız gedə bilməzlər. Çünki dərhal ermənilər tərəfindən soyulub, yaxud öldürülürlər. Axşamlar qaranlıq düşməmiş hər müsəlman evinə çəkilib qorxular içində evini və ailəsini mühafizə etməlidir. Bu halların kaffəsi [hamısı] erməni cümhuriyyətinin paytaxtı İrəvanda indi də davam etməkdədir.

**FELYETON**
**NƏŞRİYYATIMIZIN ƏSBABİ-TƏRƏQQİ VƏ TƏDƏNNİSİ**

**- 5 -**

Ərəblər tərəqqiyyati-elmiyyə və təkamülati-fənniyyələrinin dövri-etilasında [elmi tərəqqi və texniki təkamüllərinin yüksəliş dövründə] dünya üzərindəki millətlərin ən güzidə asarını [ən say-seçmə əsərlərini] kəndi dillərinə çevirmişlərdir. Riyaziyyat, elmi-heyət [astronomiya] və sair üluma [elmlərə] dair kitablar tərcümə etdirdikləri kimi, yunanilərdə bulunan Nikomaks Cərəsinin “Kitabül-musiqi əl-kəbir”, Oklidosun “Kitabül-musiqi”, Fisaqorsun bir taqım məbahis və mütaliatını [mövzularını və fikirlərini], İstaksın “Kitabür-rimus” və “Kitabül-iqa”, Murtun “Kitabül-alatül-məsunə” namlarındakı musiqi kitablarını tərcümə etmişlərdir. Eyni zamanda iranlıların dəxi adab, əxbar [rəvayətlər], siyər [tərcümeyi-hal] və əşara [şeirə] və elmi-nücuma [astrologiyaya] mütəəlliq [dair] bir çox əsərlərini Nobəxt ailəsinə mənsub üləma ilə Əli bin Ziyad Təmimi, Cəblə bin Salim və Abdulla bin əl-Müqəffe tərəfindən tərcümə edilmişdir.

Bu gün o tərcümələrdən “Rüstəm və İsfəndiyar”, “Bəhram Şus”, “Xudaynamə fis-siyər”, “Ayinnamə”, “Kəlilə və Dimnə”, “Məzdək”, “Ət-tac fis-sirəti-Ənuşirəvan”, “Əl-adabül-kəbir”, “Əl-adabüs-səğir”, “Əl-adabül-yetimə”, “Həzar əfsanə”, “Şəhrizad ma Pərviz”, “Əlkar-naməci-Ənuşirəvan”, “Dara vəs-sənəmüz-zəhəb”, “Bəhram və Nərsi”, “Həzar dastan – Min bir gecə”, “Siyəri-mülukül-fürs” və Firdovsi kitabları mövcuddur. Tarix, ədəbiyyat və dəyanətə [dinə] dair xeyli əski fürs [İran] kitabları tərcümə etmişlərdir.

Hind lisanından tibb, nücum, riyaziyyat, hesab, müsamərat [söhbət; mübahisə] və tarix kitabları Münəkkih, Bazikr, Klirkil, Səndbaz və sairə kimi hind məşahiri-ətibbası [məşhur təbibləri] tərəfindən tərcümə edildiyi kimi, xüləfayi-Abbasiyyə məsarifi [Abbasi xəlifələrinin xərci] ilə Hind əazimi-üləmasından [ən böyük alimlərindən] Kinkə əl-Hindinin dəxi “Kitabün-nümuzar fil-əmmar”, “Kitabül-əsrar əl-məvalid”, “Kitabül-kıranat əl-kəbir”, “Kitabül-kıranat əs-səğir” və “Künnaş” qəbilindən olan “Kitab fit-tibb”, “Kitab fit-tövhəm”, “Kitab fil-əhdasi-aləm vəd-dövri-fil-Quran” kimi mühüm əsərləri ərəb arasında intişar tapmışdır [yayılmışdır]. Hakəza [eləcə də] hind üləma və ətibbasından [alim və təbiblərindən] Səncəhl, Bakəhr və Saleh bin Bəhlənin asarı, Şanaqın zəhərlər haqqındakı “Kitabüs-səmum”u, hind hükəmasından Codərin “Kitabül-məvalid”i, bunlardan maədə [başqa] tibbə dair daha on kitab hind lisanından ərəbcəyə tərcümə edilmişdir.

Hindcədən ədəbiyyat, tarix, məntiq və müsamərata dair daha on dörd kitab tərcümə olunmuşdur ki, isimlərini zikrə lüzum görmədik. Musiqiyə dair səmarül-hikmə [hikmətin səmərələri] mənasına olan “Bəyafər” kitabı dəxi ərəb lisanına çıxarılmışdır ki, başabaş nəğmələrin tərtibi və havaların üsulundan bəhs edir. Nəbti lisanından dəyanət və əski kəldanilərin tarixlərinə aid bir çox kitablar tərcümə edildikdən əlavə, sair üluma mütəəlliq [digər elmlərə dair] daha on beş kitab İbni-Vəhşiyyə tərəfindən tərcümə olunmuşdur. Tərcümə olunan bu kitabların ən mühümü ziraət və fəllahət [əkinçilik və kənd təsərrüfatı] haqqında yazılmış “Kitabül-fəllahül-nəbtiyyə”dir.

Bu surətlə ərəblər bir çox ülumi-fəlsəfiyyə, tarixiyyə və qanuniyyəni [fəlsəfə, tarix və qanun elmlərini] latıncadan aldıqları kimi, kimyayi-qədim və sair ülumu da misirlilərdən almışlardır. Bu hala nəzərən demək olar ki, islamlar o zamanın sair mədəni millətlərincə məruf olan [bilinən] elm və fəlsəfə, tibb və nücum, riyaziyyat və ədəbiyyatın ən böyük qismini kəndi dillərinə tərcümə etmişlərdir. Bu nəqliyyatın qismi-əzəmi yunan, fars və hindcədən vüqu bulmuşsa da, zamanlarında məruf olan dillərdən kitab tərcümə etməmiş buraxmamışlar. Hər millətdən o millətin haiz [malik] olduğu ülum və maarifin ən gözəlini almışlardır. Məsələn, fəlsəfə, tibb, həndəsə, musiqi, məntiq, nücum elmlərində yunanilərin; nücum, siyər, ədəbiyyat, hikmət, tarix və musiqidə iranlıların, fəllahət və ziraət, təncim [ulduz falı], sehr və tilsimatda nəbtilər ilə kəldanilərin, kimya və təşrihdə [anatomiyada] isə əski misirlilərin asari-elmiyyəsindən [elmi əsərlərindən] istifadə etmişlər. Bu vəchlə, assuri və babillilərlə, misirlilər, iranilər, hindlilər və yunanlıların ülum və maarifinin ən mühümləri üçün varisi-bilistehqaq kəsilmişlərdir [haqlı varis olmuşlar].

Ərəblər yalnız nəql və tərcümə ilə iktifa [kifayət] etməmişlər. Böyük-böyük kəşfiyyat və tərəqqiyyatda bulunaraq xariqələr vücuda gətirmişlər. Nəhv [sintaks], ədəbiyyat, bəlağəti-inşa [aydın və gözəl yazma], təhriri-mürasilat [məktub yazma], elmi-tarix, elmi-kəlam, qəzavət [dini müharibələr] kitabları və hər sinifə məxsus tərcümeyi-hal kitabları, coğrafiya və təqvimi-büldanlar [ölkələrin təqvimləri] tərtib və təhrir eyləmişlərdir [yazmışlar].

İlan-qurbağa şəkilinə bənzəyən xətti-kufidən başqa düzgün bir yazıya malik olmayan ərəblər yazı islahatında öylə fəaliyyət və müvəffəqiyyət göstərmişlər ki, Məmunun zamanında 20 qələm [növ] yazı və bu gün rəsmi müamilatda istemal olunan [rəsmi işlərdə istifadə edilən] “xətti-nəsxini” icad etmişlərdir.

Corci Zeydan “Ət-təməddün ət-tarixi-islami”sində bu xüsusata aid bir çox fəqərələr [hadisələr] qeyd etdikdən sonra kəndisini təqdirdən alammayaraq deyir ki: ərəblər bir qismi-əsr zərfində [əsrin bir hissəsi ərzində] zikri keçən əqvamın [xalqların] ülum və maarifindən kəndi lisanlarına o qədər çox asar tərcümə etməyə müvəffəq olmuşlar ki, romalılar o asarın bir qismini belə bir qaç əsr zərfində nəql və tərcüməyə müqtədir olammamışlardır.

İştə, islamlar o heyrətəfza [heyrətə salan] mədəniyyətlərinin əksər xüsusatında böylə xariqələr göstərmişlərdir. Böylə ki, Məmunun zamanında tərcümə və nəql etdiyi əsərə əsərin ağırlığınca altun alan hükəma, üləma, sonra kəndiləri nəşr etməyə tutulmuşlar. Xüləfa və üməra [xəlifələr və əmirlər] namına kitab təlif edib ənam alanlar daha onların ehsanından müstəğni olmuşlar [onların ehsanına ehtiyacları qalmamışdır]. Hətta xəlifə tərəfindən kitab xüsusunda göndərilən hədiyyələri rədd etmişlərdir. Artıq tərcümə və nəql mövquf olmuş [dayanmış], müəlliflər meydana çıxmışdır. O cümlədən, ümum alimin təqdirinə məzhər [nail] olub “fey-

lesofül-ərəb" nami-məfxərətini [şanlı adını] alan şərq feylesoflarından Yaqub bin İshaq bin əs-Səbah əl-Kindi qayət müqtədir mütərcim olmuşsa da, ismi mütərcimlər arasında görülməmişdir. Zira müşarünileyh [adı çəkilən şəxs] tərcüməni para qazanmaq üçün sənət etməmişdir və tibb, fəlsəfə, hesab, məntiq, musiqi, həndəsə, təbayeyi-ədad [ədədlərin xüsusiyyətləri] və elmi-nücumda fövqəladə iqtidar və məharət sahibi olmuşdur. Ərəstunun təlifatına müqabil [Aristotelin əsərləri səviyyəsində] bir çox asar vücuda gətirmişdir.

"Föhrüst"ün yazdığına görə, feylesofi-müşarünileyhin [adı çəkilən filosofun] müxtəlif bəhslərə dair yazdığı kitablar bunlardır:

Fəlsəfəyə dair 22, təbiiyyata dair 23, hesaba dair 11, kürəviyyata [kürələrə] dair 8, nücuma dair 19, məntiqə dair 9, həndəsəyə dair 23, musiqiyə dair 7, fələkiyyata [astronomiyaya] dair 16, ehkama dair 10, tibbə dair 22, nəfsə dair 5, cədələ [məntiqi mübahisələrə] dair 17, əbada [məsafələrə] dair 8, siyasətə dair 12, təqəddümətül-mərifəyə [maarifin inkişafına] dair 5, ehdasa [yaratmağa, yeni bir şey meydana qoymağa] dair 14; cəmi 231 kitab yazmışdır. Yuxarıda zikr olunan elmlərdə həkimi-müşarünileyhin [adı çəkilən alimin] iqtidar və məharəti-tamməsi var idi.

Kindidən sonra, türk məşahiri-hükəmasından [məşhur türk alimlərindən] Əbunəsr Fərabi yetişmişdir. Müşarünileyh Türkistanın Fərab şəhərində doğulub Şamda yetişmiş və orada tədrisi-ülumla [elmləri öyrənməklə] vaxt keçirmişdir. Qayət kamil bir həkim idi. Kindinin təhsil etdiyi ülum və maarifi tamamilə bildiyindən maəda [əlavə], bir çox ülumda, bilxassə məntiqdə ona faiq [ondan üstün] idi.

Məntiq qəvaidini qayət vazeh [açıq] bir üsula çıxarmışdır. Hələ Fərabi "Ehsailülum vət-tərifi bil-qəraziha" və "Əs-siyasətül-mədəniyyə" kitabları kimi bəzi asar yazmışdır ki, ondan iləri heç bir alim o yolda kitab yazmamışdır. Məzkur [deyilən] kitabların biri qamusi-ülum və maarif (ensiklopediya) şəklində yazılmışdır. Bundan qədim bu tərzdə yazılmış kitab yoxdur. İkincisi mədəniyyəti-hazirənin ixtiraatındanədd edilməkdə olan [müasir mədəniyyətin ixtiralarından sayılan] "iqtisadi-siyasi"yə dairdir.

Müşarünileyh musiqi elmində dəxi xariqüladə bir iqtidara malik idi. Bu günə qədər davam edə gələn qanun aləti dəxi müşarünileyh tərəfindən ixtira edilmişdir. Avropalılarca "Alfarabius" denilən Əbunəsr Fərabi dürlü-dürlü elmlərə dair yüz iyirmiyə baliğ [çatan] asar yazmışdır.

Hakəza [eləcə də] üləmayi-islamiyyə [islam alimləri] arasında fəlsəfəsi ilə təməyyüz edən [seçilən] İbn Sina dəxi məruf [tanınmış] türk filosoflarındandır. Bunun da bir o qədər asarı vardır. Kəndisi alim, həkim və filosof olduğu kimi, misilsiz ədib və şair olmuşdur.

Bunları mütəaqibən [bunların ardınca], əkabiri-füqəhadan [şəriət hüququ olan fiqh elminin ən böyük alimlərindən] Əbu Hamid Qəzzali, məşahiri-üləma və şüəradan Şərif Mürtəza, məşahiri-üləma və üdəbadan Zəməxşəri, məşahiri-mütəkəllimindən [kəlam elminin məşhur alimlərindən] Əbubəkr Bakıllani və sairə kimi böyük alimlər və həkimlər yetişib bu yolda şöhrət qazanmışlardır.





Əndəlüsdə yetişən islam hükəması isə məharət və şöhrətcə fövqəladə olduğundan, tərifə hacət yoxdur. İbnüs-Saiğ Əbubəkir bin Baccə, İbn Rüşd, İbn Hud və İbn Tüfeyl və sairə kimi böyük islam filosoflarının asarı qərbin tənvirinə [aydınlanmasına] səbəb olmuşdur.* İbn Baccə ilə İbn Rüşd tərəfindən yazılan müfəssəl və mükəmməl asar avropalıların əvaili-intibahlarına [intibahlarının başlanğıcına] parlaq bir əsas təşkil eyləmişdir.** İslamlar təlifatda [əsər yazmaqda] göstərdikləri fəaliyyət və ciddiyyətdən dolayı ibtida [əvvəla] siyəri-nəbəvi [Peyğəmbərin həyatı], qəzalara [dini müharibələrə] aid əsərlər və təbəqatüş-şüəra [şairlərin bioqrafiyaları], təbəqatül-ətibba [həkimlərin bioqrafiyaları], təbəqatül-üdəba [ədiblərin bioqrafiyaları] kimi hər sinifə məxsus kitablar yazaraq, nəhayət, hicrətin ikinci əsri əvaxirində [axırlarında] ümumi tarixlər vücuda gətirmişlər. İlk əvvəla islamda tarixi-ümumi yazan Yəqubi namı ilə məruf olan İbn Vazeh olmuşdur. Yazdığı tarix iki cilddən ibarət idi. Ondan sonra İbn Cərir Təbəri, Fərqaninin "Zeyl"i, Məsudinin "Mürucüz-zəhəb"i və "Əxbarüz-zaman"ı, Həmzə İsfahaninin "Tarixi-sini mülukül-ərz"i meydana çıxmışdır.

Bunlardan sonra müvərrixlər [tarixçilər] halı [indiki zamanı] və mazini [keçmişi] eyicə tədqiq və tətəbböata [araşdırmağa] girişərək, vüquatın yek-digərinə qərib [hadisələrin bir-birinə yaxın, oxşar] olduğunu təyin edib fəsillərə ayırmışlardır və böyük, olduqca müfəssəl tarixlər qələmə almışlardır. Bu tarixlərin ən böyüyü və ən müfəssəli və qayət tədqiq və təhqiqlə yazılanı [İzzəddin] İbnül-Əsirin "Kitabülkamil"idir. Əbül-Fədalar, İbnül-Vərdilər dəxi vase [geniş] məlumatla meydanıintişara [əsər nəşr etmə meydanına] qonulmuşlardır. Bu parlaq dövrdə "Vəfayatüləyan" və "Əl-vafi fil-vəfayat" və "Fəvat əl-vəfayat" və sairə kimi böyük təracimiəhval [bioqrafiya] kitabları təlif edildiyi kimi, 80 cildlərdən ibarət olan İbn Əsakirin "Tarixi-Dəməşq"i, Xətib Bağdadinin "Tarixi-Bağdad"ı isə gərək təracimi-əhval çoxluğu və gərək məmləkətlərin tarixi və tarixi vüquatı cəhətindən ümumi tarixlər sırasında mümtaz [seçilmiş] yer işğal edirlər. Bilxassə, müvərrixi-şəhir [məşhur tarixçi] İbn Xəldun tarixinin üslub və tərzinin gözəlliyindən əlavə, başlanğıcından yunan və Romanın qədim üləması tərəfindən belə misli yazılmamış bir müqəddimeyi-fəlsəfiyyə, yəni hikməti-tarixiyyəyə dair uzun bir müqəddimə yazılmışdır ki, Avropanın müvərrixlər[i] üçün mövzu mə-qamını ehraz eyləmişdir [əldə etmişdir].***

Bu tarixlər və qamuslar dürlü-dürlü tərtibat üzrə yazılmışlar. Bəzi hökmdar isimləri, bəzisi sənə [il] tərtibi, sonkilər isə hürufi-heca [əlifba sırası] üzrə tərtib və təhrir edilmişlərdir. Fon Krimin "Şərq mədəniyyəti"nə baxılarsa, dünyada ilk dəfə qamusi-ülum, maarif və tarixi-ümumini [elm, maarif və ümumi tarix ensiklopediyasını] gözəl və sadə üslub ilə yazan ərəblərdir. 6-cı və 7-ci əsri-hicridə vüqu bulan "Səlib müharibəsi" əsnasında avropalılar Şərq mədəniyyətini görüb hey-

* Fransız Lebonun "Ərəblərin mədəniyyəti" kitabı.

** İngilis Liyen Polun "Düvəli-islamiyə"si.

*** "Kəşfüz-zünun".

rət etmişlər və əllərinə keçən asarı aparıb ölkələrində tərcümə və nəşr eyləmişlər. Bütün mədəni millətlər qamus və tarixi-ümumi yazmağı ərəblərdən öyrənmişlərdir. "Kəşfüz-zünun"un və Təhanəvinin "Kəşşafi-istilahatül-fünun"unun yazdığına görə, ərəblər az zamanda tarixi asar yazmaqda o qədər irəliləmişlər ki, müharibat, fütuhata dair məqazi [müharibələrə və fəthlərə dair savaş kitabları], təbəqat, siyər və əxbar kitablarından maəda [əlavə], min üç yüzdən ziyadə müfəssəl tarixi-ümumi meydana çıxarmışlar. Əgər məmaliki-islamiyyədə əleyhdarlıq və ixtilal atəşləri yandığı əsnada tarixi asar zaye olmasaydı, qətiyyən ümumi tarixlər 10 mindən ziyadə görülərdi.

Təbii, "Azərbaycan"ın keçən və bu sayında yazılan kitabların adlarını oxuyanlar maraq edəcək və acizlərini [bu aciz bəndəni] də dodaqaltı əzkarla [zikirlə, adını çəkməklə] yad edəcəklər. Lakin o kitabların nə kimi möhtəviyyatı haiz [daxilində nə daşıdığını] və nə qədər qiymətdar asar olduqlarını bilmək üçün ərəblərin vələhəfza [heyrətamiz] xariqələrə bürünən tərəqqiyyati-elmiyyə və təkamülati-fənniyyələrini nəzərə almalıdırlar. Bu sayədə yazdıqları əşar [şeirlər] isə kütübisəmavi [səmavi kitablar] ilə müqabilə edəcək dərəcədə fəsahət və bəlağətə malikdir.

*Ə. Müznib*

## BAKIDA MÜƏLLİMLƏR MƏİŞƏTİ

Vətənin tərəqqi və təalisi [ucalması] hər zaman vətəndə maarif intişarı [yayılması] ilədir.

Və müəllimlərin təmini-həyatı maddətən və mənən birinci şərti-təlimdir [təlimin birinci şərtidir]. Necə kim, başqa məmləkətlərdə müəllimlərə edilən ehtiram və təmini-maaş [dolanışığının təmin edilməsi] heç bir əsnafa [siniflərə] olmayır. Fəqət bizim sevgili vətənimizdə vətənin əhyası [canlanması, dirilməsi] xatirəsi üçün bunların təmini-maaşı kifayətcə ifa olunmayır. Deməli, hər ayda və həftələrdəki ruznamələrdə [qəzetlərdə] biçarə müəllimlərin hər yerdən sınıq məişətləri təzyiqi sədası qarelərə [oxuculara] məxfi deyil.

Keçəlim Bakı müəllim və müəllimələrin halına və onların aldıqları məvacibin ədəmi-kifayəsinə [kafi olmamasına]. Əvvəla, Bakıda müəllimlər indiyə kimi nə qədər üsrətlər [çətinliklər] çəkmişlərsə, hökumət məktəblərində olan müəllimlərin maaşı bələdiyyə müəllimlərinə bir növ əlavə olmuşdur, əgərçi onların da aldıqları kənd müəllimlərinə nisbətən kafi deyil dərəcəsindədir. Zira ki, şəhərin həyati-maddiyyə və mənəviyyəsi məlum və kəndlərin də aşkardır. Amma Bakı bələdiyyə müəllimlərinə gəldikdə, nəhayət azdır. Zira ki, hər müəllim bir ayda 1070 manat məvacib almaqla və əlavə hər təşkilata bir qədər faizat ixracı hesabı ilə biçarələrə 1000 manatdan ona azca ziyadə qalır tutalım. Bu zavallı müəllimlər ailə və külfət sahibi olduqda, bu 1000 manatı hanki məxaricə xərc etsinlər? Və əlavə, Bakıda otaqlar kirayəsi məlum. Əqəllən [ən az] 300-ü otaq və ailə sahibi olduqda 700-ü arpa çörəyinə sərf ola. Pəs bu zavallı müəllimlərin balalarına ağ çörək, süd və düyü xörəyi, qənd və çay və libas lazım deyilmi əcəba? Mən özüm





bir nəfər müəllim qardaşa qonşu olduğumdan, o ailə sahibi olmağın və məvacibinin ədəmi-kifayətin[i] və balalarının da yavan çörəyə möhtac olduqların[ı] görürəm.

Xülasə, deyə bilərəm o müəllimlər ki, bu sənəni vətənə xidmət etmişlər, onlar birinci dərəcədə vətən xadimliyinə məhsubdurlar [hesab olunurlar].

Və o müəllimlər ki, vətənin bu ağır sənəsində maarif yurdunun balalarını başlı-başına buraxıb hərə bir başqa şüğl [iş] dalısınca gediblər, bunlar bir növü vətəndost olmamışlardır. Hər halda əlsaat [hal-hazırda, indi] vətənin hər yerində müəllimlik vəzifəsin[i] ifa etmiş müəllimlərə gərək layiqincə ikram və kifayətcə ənam olunsun, vəilla [yoxsa] gələcək sentyabrda bir nəfər müəllim tapılmaz və məktəblər qapanar, vətən maarifsiz və balalar sərgərdan qalarlar...

*M. Hüseyn Nəsir Axundzadə*

## BAKI XƏBƏRLƏRİ

**Zəhmətkeş Ziyalılar İttifaqında**

Bakı və Ətrafının Zəhmətkeş Ziyalılarının İttifaqı Müsəlman Müəllimləri İttifaqı İdarəsinə müraciətən rica etmişdir ki, Bakıda səhiyyə kursları güşad ediləcəyindən [açılacağından] dolayı kurslara davam etmək istəyən müəllim və müəllimə əfəndilər özlərini həman kurslara yazdırsınlar. Müəllimlər İttifaqı İdarəsi yazılmaq istəyən və bu vaxtadək yazılmış müəllimin əfəndilərdən bu gün saat 5-də 9-cu İbtidai məktəbinə təşrif gətirmələrini rica edir.

**Rəisi-vükəla və general Kori**

Srağagün Rəisi-vükəla [Baş nazir] və Daxiliyyə naziri Nəsib bəy Yusifbəyli Qafqaziyadakı Müttəfiq qoşunları Baş komandanı general Korinin yanına gedib onunla əhvali-hazirə haqqında uzun-uzadıya müsahibədə bulunmuşdur. Cümə günü iyunun 6-da mümaileyh [adı çəkilən] general ilə Rəisi-vükəlanın ikinci dəfə olaraq müsahibəsi vaqe olacaqdır.

**Amerika heyəti rəisi**

Neçə gün bundan əqdəm [qabaq] Bakıya gəlmiş olan Amerika hərbi heyəti rəisi Rəisi-vükəla Nəsib bəy Yusifbəyli həzrətlərini ziyarət edərək əhvali-hazirə haqqında müsahibədə bulunmuşdur. Mümaileyh rəis bu günlərdə Petrovska gedib, tezliklə yenə Bakıya övdət edəcəkdir [qayıdacaqdır].

**Denikinin iştahası**

Könüllü ordunun İngiltərə ərkani-hərb [qərargah] idarəsi nəzdindəki nümayəndəsi polkovnik Lazarev srağagün Denikindən bir teleqraf almışdır. Teleqramda deyilir ki, Denikin tərəfindən Könüllü ordu komandanı Dratsenkoya Azərbaycan əleyhinə heç bir əks hərəkatda bulunmamağa əmr edilmişdir. Teleqramın axırında deyilir ki, Denikinin bir nəfər saldatı Zaqatala xəttindən, Qızılburun mövqifindən [stansiyasından] bəriyə keçməyəcəkdir. Qızılburun Bakıdan üçüncü mövqifdir.

**Məvərayi-Bəhri-Xəzərdə**

İyunun 2-də Məvərayi-Bəhri-Xəzərdən [Zakaspiyskdən] Bakıya varid olmuş [gəlmiş] səksən nəfər qaçqınlar tövqif

[həbs] edilib istintaq edildikdən sonra buraxılmışlardır. Qaçqınların dediyinə görə, Mərvdən bolşeviklər dəxi qaçmışlardır, çünki onların dediyindən, hücum edənlər bolşeviklər deyil, bəlkə quldur dəstəsidir. Petrovsk və Staro-Tereçni mövqifindən Zakaspi cəbhəsinə göndərilən Savitskinin qoşunu cüzi miqdarda – 200 nəfərdən ibarət olduğu üçün Aşqabad camaatına artıq dərəcədə sui-təsir [mənfi təsir] etmişdir. Onlar bu qoşunun lazımi dərəcə müavinətinə arxayın olmayırlar.

**Güllə atılması əleyhinə**

Bakı qalabəyisi [komendantı] tərəfindən küçələrdə nahaq güllə atılmasına imkan verməməkdən ötrü ciddi tədbirlər ittixaz edilməsi [tədbirlər görülməsi] polis müdirlərinə əmr olunmuşdur. Güllə atanlar həbs ediləcəkdir.

* Həman Zəhmətkeş Ziyalılar İttifaqı Müəllimlər İttifaqından yay tətilini çalışmaq istəyən müəllimin əfəndilərin Muğan Ərzaq Cəmiyyəti şöbəsinə yazdırılmalarını rica etmişdir. Müəllimlər İttifaqı idarəsi özlərini yazdırmaq istəyən müəllimə və müəllim əfəndilərdən bu gün saat 5-də həman 9-cu İbtidai məktəbə gəlmələrini rica edir.

**Bələdiyyə İdarəsində**

Bələdiyyə İdarəsinin 1 iyundakı iclasında bulvardakı kioskda musiqiyə icazə vermək haqqında verilmiş ərzi-hal istemasından [dinlənilməsindən] sonra icazə verilmişdir. Fəqət fəna musiqi çağırılarsa, Bələdiyyə İdarəsi öz icazəsini geri alacaqdır.

* Valideyn Şuralarının Mərkəzi Komitəsi gənclər üçün elmi əyləncələr təşkilinə başlamışdır. Qət edilmişdir ki, ilk qədəm olaraq elmi kinamo [kino] işinə başlanılsın. Birinci olaraq bazar günü 8 iyun saat 11-də Realnı məktəbində “Qafqaziya” coğrafiyaya dair şəkillər göstəriləcəkdir. Salon qiyməti 2 rublə, balkon bileti 1 rublədir. Biletlər hər gün 10-dan 1-dək, axşam saat 5-dən 7-dək Realnı məktəbində satılmaqdadır.

* Daxiliyyə Nəzarəti Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir ki, Məclisi-Məbusan Bələdiyyə İdarəsinə 10 milyon rublə borc verməyi qət etdiyindən dolayı, polis idarələri təmiri üçün istədiyi 300 min rubləni verə bilməyəcəkdir.

* Valideyn Şurasının Mərkəzi Komitəsi iyunun 7-si axşam saat 7-də İkinci Ünas [Qızlar] məktəbində iclas təyin etmişdir. Müzakirə ediləcək məsail [məsələlər] bunlardır:

1) Əyləncə haqqında məruzə;
2) Şura pullarının saxlanılması haqqında;
3) Mütəəllimin [tələbələr] iclaslarına dair;
4) Dəstə ilə tədrisat haqqında;
5) Nəşriyyat komisyonunun məruzəsi;
6) Üzüçülük məktəbi haqqında;
7) Çizmələr emalatxanası güşadı [açılması] haqqında.

**İran və Azərbaycan**

Neçə vaxt bundan əqdəm [qabaq]





Azərbaycan Cümhuriyyəti tərəfindən İrana göndərilmiş olan nümayəndələr heyəti əzasından [üzvlərindən] Bakıdakı İran konsulxanasının Mühakimat şöbəsi rəisi Mirzə Həbibulla xan dünən Tehrandan Bakıya övdət və müvasilət etmişdir [qayıtmış və gəlib çatmışdır]. Mumaileyhin [adı çəkilən şəxsin] dediyinə görə, İran Hökuməti tərəfindən Azərbaycan Cümhuriyyəti etiraf [qəbul] və təsdiq edilməklə bərabər, siyasi əlaqə və münasibat başlanmasına razılıq göstərmişdir. Binaənileyh [ona görə], heyətin əzalarından olan Hümayun Mirzə Qacar və İsmayıl xan Ziyadxani Tehran və Təbrizdə olaraq Azərbaycan Cümhuriyyəti siyasi nümayəndəliyinə qəbul edilmişdir. Bu barədə hər iki hökumətin arasında rəsmi surətdə əhdnamə əqd edilməsi [saziş imzalanması] gözlənir.

**Müsəlman Müəllimin [Müəllimlər] İttifaqı İdarəsində**

Müsəlman Müəllimləri İttifaqı cümlə Bakıdan başqa yerə getmək istəyən müəllimin əfəndilərə elam edir [bildirir] ki, iki ayın məvacibini almaq üçün Müsəlman Müəllimləri İttifaqı idarəsinə təcili surətdə müraciət etməlidirlər. Zira məvacib Bakıdan gedənlərin hamısına deyil, 15 faizinə veriləcəkdir. İdarə 9-cu İbtidai məktəbindədir.

\- Müsəlman Müəllimləri İttifaqı idarəsi elam edir ki, ümum müsəlman müəllimini üçün ərzaq alınmışdır. Bu gün və sabah səhər saat 10-dan 4-dək 9-cu İbtidai məktəbindən almaq mümkündür. Sonra gələnlərə ərzaq verilməyəcəkdir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

\- "Aramazd" mədəni müsəlman fəhlələri “Müsavat” firqəsinə müraciətən məlum etmişlər ki, orucluq münasibətilə səhər və axşam yarım saat azandan əvvəl tənəffüs elan etmələrinə mümaniət [maneçilik] göstərirlər. Fəhlələr rica etmişlər ki, bu barədə lazımi binagüzarlıqda [təşəbbüsdə] bulunsun. “Müsavat” həman ərzi-halı Məsai Nəzarətinə [Əmək Nazirliyinə] irsalən [göndərərək], tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

\- İlk qədəmdə Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] tərəfindən Ermənistandakı müsəlman qaçqınları üçün 10 min pud un göndəriləcəkdir. Un İrəvan şəhərində siyasi nümayəndəmiz Məhəmməd xan Təkinski ünvanına göndəriləcəkdir. Hal-hazırda məhəllərdən [yerlərdən] un alınmaqdadır.

## ŞƏKİDƏN

**İyirmi Səkkiz Mayıs Bayramı**

Cənabi-vacibül-ətaya həzrətlərinə [qullarına çox nemətlər ehsan edən Allaha] ziyadə sənalar [mədhlər, təriflər] edəriz. Biz, əsarət altında yaşayan neçə yüz illərdən bəri bir millətə bu gün böylə əşrəf, böylə müəzzəm bir gün qismət imiş.

Şəki əhalisi bilafərqi-millət [millət fərqi olmadan] bu bayramı ziyadə bəşaşətli [sevincli] və təntənəli bir surətdə qarşıladı. Bayramdan iki gün müqəddəm [qabaq] Bələdiyyə İdarəsi Şəki şəhərində mövcud hökuməti və ya xüsusi idarələrə mək-

tub vasitəsilə xəbər verdilər ki, mayısın iyirmi səkkizinci yövmü [günü] azərbaycanlılar üçün böyük bir eyd [bayram] olduğundan, bu gün qulluqçulara tətil verilərək, Şəki qalasının məscidinə ayini-dua üçün cəmləşsinlər. Neçə gün müqəddəm Şəki əhalisi özünün böyük milli bir eydini qarşılamağa hazırlaşır. Küçələr təmizlənir, camaat azad Azərbaycan bayraqları hazırlayır, bağlarda güllər toplanır. Nə isə, mayısın 28-i olur, küçələr tamamən təmizlənib sulanmış, dükanlarda üç rəngdən – yaşıl, qırmızı, göy, üstündə ay-ulduz ilə bayraqlar asılıb, azad camaatı salamlayaraq eydlərini təbrik edirlər. Balkonlar xalılar, güllərlə bəzənib, camaatda milli bir duyğu, milli bir hiss oyanmış, hər birinin üzləri gülür, şəhərin halı, camaatın hərəkəti və hətta havanın gözəlliyi bu gün doğrudan əziz, möhtərəm bir gün, bir eyd olduğunu bildirir. Saat 11 radələrində camaat dəstə-dəstə qalaya doğru axışır. Məktəb çocuqları nizam altında, qabaq səfdə [cərgədə], üç rəngdə – yaşıl, qırmızı, göy, üstlərində "Yaşasın istiqlaliyyətimiz! Yaşasın Azərbaycan!" şüarları ilə bəzənmiş bayraqları yüksək qaldıraraq, milli nəğmələr oxuyaraq şəhərin hər bir tərəfindən qalaya doğru hərəkət edirlər. Minarələrdə oxunan səlalar səsi [dua səsləri] bir-birinə qarışmış. Saat 11 tamamda ruhanilərimiz həpsi, başda Nurməhəmməd əfəndi və axund Molla Fərəculla olaraq məsciddə hazır dururlar. Bir az keçmiş erməni camaatı öz ruhaniləri ilə gəlir. Şəhərimizdə olan mənsəb sahiblərindən Bələdiyyə İdarəsinin rəisi Azaq Mustafazadə, qəza qaimməqamı Əyyub bəy Rəfibəyov, Əxzi-əsgər [Hərbi çağırış] idarəsi rəisi yüzbaşı Əhməd bəy Yusifbəyov, Nuxu Ümuri-xeyriyyə [Sosial təminat] dairə müfəttişi Harun bəy Sultanov və qeyriləri mövcud idilər. Camaat dalı kəsilməzin qalaya gəlməkdə idi. Qalanın böyük həyəti xalq ilə məmlu [dolu] idi. Qabaq səfdə məktəb çocuqları, dalda əsgər və ondan dalı camaat, olunacaq duaya, söylənəcək nitqlərə müntəzir idi. Saat 12-nin yarısında qazı Nurməhəmməd əfəndi atəşin bir nitq irad edərək, Qurani-kərimdən bir ayə oxuyaraq bu bayramın böyük bir eyd olduğunu və bunun üçün Cənabi-Haqqa ziyadə şükürlər yetirməyi camaata söyləyərək, bu gün ilə ümum azərbaycanlıların eydlərini təbrik edib "Yaşasın istiqlaliyyətimiz! Yaşasın Azərbaycan Hökuməti!" deyib bağırdılar. Qala həyəti "Yaşasın Azərbaycan!" sədasından titrəyir, qulaqlar tutulurdu. Sonra xütbə oxuyub, dua etdilər. Sonra erməni ruhaniləri tərəfindən dua olundu. Duadan son[ra] məscidin həyətində əsgərlər rəsmi-keçiddən ötrü qalanın yuxarı tərəfindəki meydana çəkildilər. Rəsmi-keçidi Əxzi-əsgər naçalniki [rəisi] qəbul edərək əsgərlərin bugünkü bayramlarını təbrik etdilər. Sonra Bələdiyyə rəisi Azaq əfəndi əsgərlərə tərəf yönələrək buyurdular:

*"Ey zəhmətkeş əsgərlər! Azərbaycan Hökuməti bu gün bu bayramı sizin iti süngülərinizin, kəskin qılınclarınızın, vətən üçün fədayi-can edəcəyinizin ümidinə eyləyir. Biz camaat sizlə iftixar ediriz. Din, vətən və millət yolunda sizlə həmişə bahəm bizi görəcəksiniz. Oğullarım, bayramınızı mübarəklə deyirəm: Yaşasın ustadlarımız! Yaşasın cavan əsgərlərimiz! Var olsun Azərbaycanımız!"*

Bundan sonra, axund Molla Fərəculla və keşiş Ter-Saak əsgərləri təbrik etdilər.

Sonra əsgərlər qışlaya [kazarmaya] çəkildilər. Camaat əsgərlərdən ayrılmaq istəməyirdi. Onlar yenə doymamışdılar. Bu günün barəsində yenə məlumat almaq istəyirdilər. Bir çox natiqlər söylədikdən sonra, saat 3-də camaat yavaş-yavaş dağılmağa başladı.

Bu günün ziyafətinə Bələdiyyə İdarəsi əsgərlərə yemək hazırlamaq üçün 5 min manat və şəhərin fəqir əhalisinə 10 min manat ianə buyurmuşlar və həman gün axşam Bələdiyyə İdarəsinin təşəbbüsü ilə klubda bir müsamirə-ziyafət [konsert-ziyafət] əmələ gətirilmişdir. Buraya şəhərin əyan-əşrafı və ziyalıları dəvət olunmuşdu. Müsamirədə Qafqaz, Avropa rəqsləri oynayırdı. Küçələrdə zurna çalınır, camaat nümayişlər yapırdı. Heç kəs böylə şad bir gündən ayrılmaq istəməyirdi. Şəki əhalisi çox ziyadə bəşaşətli və təntənəli Azərbaycan Hökumətinin bir ilini qarşıladı. Cənabi-Haqq bu bayramı daimi qılıb islam türk millətini daha parlaq, daha münəvvər eyləsin. Amin!

*Ə[bdül] Ə[həd] Sultanzadə*

## AZƏRBAYCANDA

### Yüzbaşıdan şikayət

- Dabaqun kəndi camaatı Bakı qubernatoruna müraciətən şikayət etmişdir ki, məzkur [adı çəkilən] kəndin yüzbaşısı Həsən Səfər oğlu camaata artıq dərəcə zülüm və əziyyət edərək onlardan külli miqdarda rüşvət istəyir. Yüzbaşının bir çox fəna hərəkatını və sui-istemalda bulunduğunu [mövqeyindən sui-istifadə etdiyini] göstərərək, tezliklə onun əzl [quluqdan kənar] edilməsini camaat rica edir.

- Qaraqaşlı kəndinin camaat vəkilləri Bakı qubernatoruna ərizə verərək məlum etmişlər ki, məzkur kəndin yüzbaşısı Mirzə Heydər Qasımov camaata artıq dərəcə zülüm və əziyyət edərək külli miqdarda rüşvət almaqla əsgərliyə düşən cavanları azad edir. Yüzbaşının daha bir çox fənalıqlar yapdığını göstərərək, tezliklə onun əzl edilməsi rica olunur.

### Sayad Xızı camaatının ricası

Sayad Xızı camaatı Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"a müraciətən 10 min nüfusu havi olan [ehtiva edən] Sayad Xızı dairəsi kəndləri ehtiyacını rəf etmək [aradan qaldırmaq] üçün məzkur [deyilən] kənd mərkəz olmaq üzrə orada bir posta idarəsi təsis edilməsini rica və arzu etmişdir. Firqə camaatın müraciətini Posta və Teleqraf nazirinə göndərərək kəndi tövsiyəsini əlavə etmişdir.

### Saray kəndinin ricası

Bakı qəzası Saray kəndi camaatı öz vəkilləri vasitəsilə Bakı qubernatoruna müraciətən camaatdan istənilən 5231 manat miqdarında verginin oktyabr ayına qədər təxir edilməsini rica etmişdir. Hal-hazırda işbu məbləğin verilməsinə camaatın qüvvə və imkanı olmadığı göstərilir.

## SALYANDAN

*(Xüsusi müxbirimizdən)*

### İstiqlal günü

Mayıs 28-də Azərbaycan Hökumətinin bir sənəlik bayramı icra ediləcəyini əvvəlcədən xəbər almışdıq. Şu böyük

bayram gününə Salyanımızda bulunan bütün müəssisələr, məhəlli [yerli] hökumət dairələri və dəvairi-ruhaniyyə [ruhani dairləri] hazırlandığı kimi, Salyanın yeganə məktəbi olan edadi məktəbimiz dəxi mütəntən [təntənəli], daha qızğın bir surətdə hazırlanırdı.

Məktəbin yüksək binası milli bayraqlarla təzyin edildiyi [bəzədildiyi] kimi, hər tərəfdən al-yaşıl xətlərlə olaraq "İstiqlal" kəlməsi yazılmışdı. Salonlar başdan-başa xalılarla bəzənmiş, asari-ətiqədən mədud [qədim əsərlərdən sayılan] bir taqım asar toplanaraq salonlardan birinə yığılmışdı. Azərbaycan hakimiyyətinə ənsəmimi-qəlb [səmimi qəlbdən] ərzi-ehtiram etmək istəyən bu bina Salyanda bu gün birinciliyi təşkil edirdi.

28 Mayıs saat 12-dən gecə ta saat 12-yə qədər bayram ediləcəyi, cəşn bərpa olunacağı [məclis qurulacağı] xüsusunda Salyanda bulunan bütün müəssisələrə dəvətnamələr göndərilmişdi. O gün Salyanın hər tərəfi – bazarlar, dükanlar üç boyalı milli bayraqlarla təzyin olunmuşdu. Gündüz saat 12 radələrində idi. Edadi məktəbi mütəallimləri [şagirdləri], başda müdir Məhəmməd Əmin bəy əfəndi [Hacı Molla Əhməd oğlu Əfəndizadə] bulunduğu halda Osmanlıların "Əzan səsi duyulmuyor" marşını bir ahəng və üslubla tərənnümsaz ola-ola cameyi-şərifimizə doğru hərəkət etməyə başladılar. İbtida [Əvvəlcə] camedə Ağa Seyid Əşrəf cənablarından maəda [başqa] kimsə bulunmadısa da, lakin sonraları qəza qaiməqamı [qəza rəisi], müavinləri, hökuməti-məhəlliyyə müntəsibini [yerli hökumətə mənsub olanlar] və bütün əhali cameyə gəldilər. Üləma [ruhani alimlər] tərəfindən Molla Əbdülhəsən əfəndi minbər payəsinə gələrək hökumətimizə dua etmişdir. Ayini-dua bədində [dua mərasimi sonrasında] xalqımız böyük bir izdihamla, başda hökuməti-məhəlliyyə müntəsibləri və üləmamız bulunduğu halda qəbiristana doğru şühədayi-vətən ziyarətinə getməyə başladılar. Türbələr üzərində sureyi-kərimə [Quran surəsi] tilavətindən [oxunmasından] sonra şühədanın istirahəti-ruhları üçün fatihələr, dualar oxunmuşdur.

Şuradan xalqımız yenə eyni izdihamla geriyə dönərək edadi məktəbi binası qarşısına gəlməyə başladılar. Əhalimiz dönərkən bir tərəfdə musiqi tərənnümsaz olur, digər tərəfdən də süvari jandarmalar at çapır, silah qullanır, İstiqlal gününə qarşı hissələrinə isabət edən səmimiyyəti bu surətlə icra edirlərdi. Bütün izdiham məktəbimizin bina qarşısına toplandılar. So[n]ra İskəndərzadə Rüstəm əfəndi məktəb binasında ikinci mərtəbəsi ərəfəsində (balkonunda) duraraq Azərbaycan istiqlalının bir sənəlik qanlı inqilabından, faciələrindən danışaraq nail olduqları istiqlaldan dolayı əhalini səmimiyyətlə təbrikdən sonra Azərbaycan istiqlaliyyətinə dair qərra [parlaq] bir nitq irad etmişdir və sürəkli alqışlara məzhər [nail] olmuşdur.

Bu zaman şəhərin hər tərəfində dəstələrlə əhali musiqilər çaldırır, Azərbaycan Hökumətinin əzəmət və sətvətini [gücünü] böyük bir səmimiyyətlə, böyük bir ehtiramla təqdis edirlərdi [ucaldırdılar].

Həman gün saat 5-dən etibarən cəşn məclisi başladı. Məktəbin ən böyük salonlarından birində dəxi bir səhnə hazırlanmışdı. Şu saatdan etibarən dəvət edilən camaat şəhər mötəbəranı, qəza qaiməqamı, müavinləri, məbusumuzdan Baxış bəy Rüstəmbəyov və sair zəvati-möhtərəmə [möhtərəm şəxslər] cəşn məclisini təşrif etməyə başladılar.

Məclisdə dəxi İskəndərzadə əfəndi səhnədə duraraq istiqlaliyyətin nədən ibarət olduğu, şu istiqlaliyyətə nə kimi vasitələrlə nail olduğumuz və bu nemətiüzmaya da [böyük nemətə də] məktəb və maariflə kəsbi-istehqaq edə [haqq qazana] biləcəyimiz və şunu məktəb və maarif ocağından pərvərişyabi-kamalat olan [kamalla bəslənən, böyüyən] simalarla müdafiə edəcəyimiz bablarında [barəsində] bir nitq irad etmişdir.

Realnı şagirdlərindən Qeydar İmanov, Həsənağa İsmayılov, Əziz Ağaəliyev, İsmayıl Zərgərli, Cahangir Axundzadə, Mirsəttar Miriyev, Əbdülhəmid Yaqubov tərəflərindən olmaq üzrə milli şeir və ədəbiyyatımızdan birər parçalar oxunmuşdur. Bunların miyanında [arasında] Qeydar İmanovun "Vətən şərqi"si əhalini son dərəcə mütəəssir etdiyi kimi, Əbdülhəmidin də mərhum [Tofiq] Fikrət bəyin "Yüksəlməli, toxunmalı alnın səmalara..." şeiri-bəliğinə [bəlağətli şeirinə] təqdim etdiyi istiqlaliyyətə dair müxtəsər bir nitqi şayani-qeyddirlər [qeyd edilməyə layiqdir].

Bunlardan sonra, həvəskar şagirdlər tərəfindən olmaq üzrə "İki kələkbaz" namında, bir pərdədə bir məzhəkə mövqeyi-tamaşaya qonulmuşdur. Odaların birisində bufet dəxi qonulmuşdu.

Qeyri-müslim vətəndaşlarımız da bizimlə bərabər cəşndə iştirak edirlərdi. Cəşn tam gecə saat 3-ə qədər imtidad [davam] etmişdir. Gecə Salyanın hər tərəfində qədim etibar üzrə məşəllər yanırdı. Ələlümum [ümumiyyətlə] demək olar ki, Salyan şimdiyə qədər bu kimi bayram görməmişdi. Realnı məktəbi bütün müəssisələr miyanında [arasında] müstəsna olaraq ümumun nəzəri-diqqətini cəlb etdiyindən, müdiri-məktəb Məhəmməd Əmin bəy əfəndinin fəaliyyətinə qarşı ərzi-ehtiram etməmək qabil deyildir.

*[Rüstəm] İskəndərzadə*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

Doktor **M. M. Kərimov** göz naxoşlarını və diş həkimi **A. Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Doktor**
**M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. "606" və "914" müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*8798*

**Diş həkimi**
**R. S. Fuks**

Qəbul edir: 9-dan 10-a dək; 5-dən 7-yə dək. Ünvan: Mariinski, nömrə 18. Ferdinandın aptekası ilə bərabər. Telefon nömrə 34-15.

*10202*

Moskvada təcrübə görmüş diş həkimi **K. S. Kolandskaya-Sanuxat** kabinə açmışdır. Müalicə edir, dişləri doldurur, süni dişlər qayırır və dişləri ağrısız çəkir. Qiymət münasibdir. Qəbul edir: Hər gün səhər saat 9-2-yədək; aşxam saat 5-7-yədək. Adres: Bazarnı və Suraxanski küçələrin küncündə, nömrə 112.

*8795*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Mahut**

Qara mahut, kostyuma məxsus ağ, ağ polotno, qrammofon plastinkaları və altı ilə, haşiyə (krujeva) ittifaqən satılır. Adres: Nijni-Priyutski küçə, nömrə 221, 8-ci polis idarəsi ilə bərabər, yuxarı mərtəbə, Muxaçevin mənzilində.

**Bakı, Türkan, Zirəyə və geri**

İyun ayının 8-dən etibarən paroxod "Zaburunye" işləməyə başlayacaqdır. Hər gün saat 9-da "Qafqaz-Merkuri və Vastoçni" cəmiyyətinin paraxodu 17-ci körpüdən (Qorçakovski küçə ilə qarşı) gedəcəkdir. Bakıya isə axşam saat 6 radələrində gələcəkdir.

*10219*

Xarici məmləkətlərə yun yollamağı və komisyon təriqi ilə xarici məmləkətlərdə satmağı **İ. V. Denisovun** bankir kantorası qəbul edir (Olqinski, Nikolayevskinin küncündə, telefon nömrə 37-75). Sifarişlər saat 5-dən 7-yə dək qəbul olunur.

*10220*

**Zəhmət (məsai) bürosu**

Bakı Şəfqət Bacıları İttifaqı şəfqət bacılarını gecə işlərinə, iynə vurmağa, masaj etməyə müərriflik edir [tövsiyə edir, zəmanət verir]. İttifaq öz işçilərinin işlərinə cavabdehdir. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Budaqovski və Malakanski küçələrin küncündə, nömrə 16/22, mənzil 6. Konkanın mənzili. Telefon nömrə 14-08. Büro bütün gün açıqdır.

*8755*

**İstanbuldan, İngiltərədən**
**və Fransadan mallar**

İ. V. Denisovun bankir kantorası İstanbula, Marselə (Fransa) və Liverpula (İngiltərə) mal alıb gətirmək üçün nümayəndə göndərir. Sifarişlər İ. V. Denisovun bankir kantorasında qəbul olunur (Nikolayevski və Olqinski küçələrin küncündə) hər gün axşam saat 5-dən 7-dək.

*10210*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Sülh ətrafında**

səh.139. “Trianon Sarayı” [Trianon Palace Versailles]: Versalda otel. 1910-cu ildə inşa edilmişdir. Versal Sazişi 1919-cu ildə bu oteldə hazırlanmış və Almaniya nümayəndə heyətinə təqdim edilmişdir.

**Qəzetələrdən**

səh. 140. “Naxçıvan üzərində aeroplan”: söhbət, hal-hazırda Rostov-na-Donu şəhərinin bir hissəsi olan Naxçıvan-na-Donu şəhərindən gedir.

**Gürcüstan Məclisi-Müəssisanının fövqəladə iclası**

səh. 143. “Maçavariani”: Gürcüstan Təsisçilər Məclisinin eyni familiyanı daşıyan iki üzvü olmuşdur. Onlardan İosif İvanoviç Maçavariani sosial-demokrat, İosif Konstantinoviç Maçavariani isə milliyyətçi-demokrat idi.

“gizlətmək lazım deyildir”: qəzetdə belə getmişdir: “düzlətmək lazım deyildir”.

**Felyeton**
**Nəşriyyatımızın əsbabi-tərəqqi və tədənnisi**

səh. 149. “xətti-kufi”: ərəb yazısının formalarından biri.

“xətti-nəsxi”: ərəb yazısının formalarından biri.

“Ət-təməddün ət-tarixi-islami”: ərəb alimi Corci Zeydanın islam mədəniyyəti tarixi haqqında yazdığı əsər nəzərdə tutulur; qəzetdə səhv getmişdir, “Tarixüt-təməddünil-islami” olmalıdır.

səh. 150. “Föhrüst”: X əsrdə yaşamış ərəb biblioqrafiya alimi İbnün-Nədimin əsəri.

səh. 151. “İbn Xəldun tarixinin”: İbn Xəldunun “Kitabül-İbər” adlı dünya tarixi nəzərdə tutulur.

“Kəşfüz-zünun”: XVII əsrdə yaşamış türk alimi Katib Çələbinin əsəri.

**Salyandan**

səh. 159. “Vətən şərqisi”: türk şairi Namiq Kamalın məşhur şeiri nəzərdə tutulur.

“Yüksəlməli, toxunmalı alnın səmalara...”: misralar türk şairi Tofiq Fikrətin “Fərda” şeirindəndir.

“İki kələkbaz”: Bağır Cabbarzadənin bir pərdəli məzhəkəsi.





**Bazar, 8 iyun 1919-cu il, nömrə 198**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 9 ramazanül-mübarək sənə 1337. 8 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

**Müsəlman Zəhmətkeş Ziyalılarının İttifaqı** idarəsi həmin həziran ayının 8-də axşam saat 5-də üzvləri fövqəladə ümumi iclasa dəvət edir. İclas Bələdiyyə İdarəsinin böyük zalasında qurulacaqdır.

Müzakirəyə qoyulacaq məsələlər:

1) İdarə heyətinin dakladı; 2) Təftiş heyətinin intixabı [seçilməsi]; 3) Hali-hazır; 4) İclasda qaldırılacaq məsələlər.

*10216*

## DƏVƏTNAMƏ

“Müsavat” firqəsinin qətnaməsinə görə, bu gün iyunun 8-i səhər saat 10-da şəhərin hər bir rayonlarında mitinqlər dəvət edilir. Yığıncaq yerləri bunlardır:

Sabunçu, Balaxanı, Ramanı və Zabrat: Sovet Syezdin ambulatoriyası.

Suraxanıda: Narodnı dom.

Bibiheybətdə Mitrofanovun həyəti.

Çornı və Belı-qorodda: Çornı-qorodda olan Nobel aşxanası (stalovı).

Zavağzal rayonu: Balaxanski şosedə olan Narodnı dom.

Şəhər və Portovı rayon [Liman rayonu]: Hökumət Teatrosu (sabiq Mailov).

Şəhərin yuxarı hissəsi üçün: Fəhlə Klubu (Raboçi Klub).

*“Müsavat” firqəsi Mərkəzi Komitəsi*

*T-147*

## QARA TƏHLÜKƏ

İstiqlalımızın bir illik bayramını yenicə keçirmişdik ki, üfüqümüzdə qəflətən nümayan olan [görünən] bir qara əl həman istiqlalımızı qarpmaq və bizi murdar pəncəsi altında əzmək xəyalı ilə şimalımızdan uzanmağa başladı.

Xarabazara dönmüş vətənlərini düşmənlərindən xilas etməkdən aciz olan rusun qaraüzlü olan “ağ” generalları, özgələr üzərində ağalıq etmək xəyali-şeytənət-məalının [şeytani, fitnəkar mənalı xəyalının] sövqü ilə Dağıstan millətlərinin ittihadsızlıq [həmrəy olmamaqlarından] və nifaqlarından və millət xainlərinin əməllərindən istifadə ilə Şimali Qafqaza və ümum Dağıstana soxulub Dağıstan islamlarını təhti-əsarətə [əsarət altına] aldıqdan sonra, bugünkü fikri Azərbaycan türk-ləri üçündür.

İstər sağ, istər sol rusların hökuməti zamanında cəhənnəmə dönmüş olan vətənimizin, özümüzün və öz hökumətimizin hümmət və həmiyyəti sayəsində gündən-günə gözəlləşməkdə olan halı, həsud [həsədçi] imperialistlərin və onlara nökərçilik edənlərin xain qəlblərini və çürük beyinlərini narahat etmədədir ki,

əslində zatən cəhənnəm əhli olduqlarına görə də vətənimizi təkrar cəhənnəmə döndərmək istəyirlər.

Cəhənnəm görmək istəyənlər o cəhənnəmi, əlbəttə, görərlər. Lakin bizim vətənimizdə deyil, bəlkə vətən övladımızın qeyrətli əllərində tutmuş olduqları şanlı silahın mərdanə zərbələri onları cəhənnəmə vasil etməklə arzularına çatdırarlar.

Azərbaycan türk və islamları rus qırmızı sollarının ayaqları altında inləyən vətəni ondan ötrü xilas etmədilər ki, sonra onu rusun qara sağlarının əli altına əsir versinlər! Bir bu qədər tökülən qanlar, qurban edilən canlar, viran olunan xanimanlar bahası ilə istirdad edilmiş [geri alınmış, yenidən ələ keçirilmiş] olan hüququmuzu əlimizdən almaq istəyənlər, o əl sahiblərinin türklük və islamlığa məxsus qeyrət və namuslarından, əzm və səbatlarından bixəbər olmalıdırlar ki, bu cürə xam xəyallara düşürlər.

Hökumət ilə camaatımızın sanki bir ağızdan çıxan "ölmək var, dönmək yoxdur" şüarı, görünür ki, hələ qara denikinlərin qulaqlarına çatmayıbdır. Onun üçündur ki, bizi təhdidə cəsarət edirlər...

Biz bilirik ki, Denikinin bizə qarşı hazırlamaqda olduğu təhlükə böyükdür. Yəqinimizdir ki, denikinlilər üzərimizə böyük bir qüvvət ilə hücum edəcəkdirlər. Lakin qorxmayırıq, bu təhlükəni dəf etmək yolundakı əzm və səbatımız ondan daha böyük və daha qüvvətlidir.

Düşmənin, haqsız düşmənin zor və qüvvəti ilə bizi qorxutmaq istəyənlər bunu bilməlidirlər ki, iki milyonu mütəcaviz olan [keçən] Azərbaycan türk və islamlarının zərurət məqamında hamısı da olmasa, yarısı əsgərdir. Bir türk əsgərinin də qiyməti-əsgəriyyəsini mülahizəyə alsaq, bizi düşmən zorla deyil, düşməni biz zorumuzla qorxutmaq daha səhih ədd [hesab] olunar zənnindəyik.

Bu üzdən qara təhlükəni dəf etməkdə dost və düşmən qabağında ağ üzlə çıxmağımıza qüvvətli bir ümid bağlayıb da, heç bir şübhə etməməlidirlər.

*Hacıbəyli Üzeyir*

## ÜMİDİMİZ BƏRKƏMALDIR

Eyicə bir zamandan bəri məmləkətimizdə əhali arasında dövran edən Denikin məsələsi Azərbaycan əhalisini bu təhlükəyə qarşı çox böyük hazırlıqlara sövq eylədi. Hələ bu yaxınlarda Denikin ordusunun Dərbəndə gəlməsini eşidincə, camaat büsbütün ayaqlandı. Çünki Denikin gəlir söyləndikdə məmləkətimizə rus istibdadının gələcəyini və məmləkətimizdə rus bayrağının təliq olunacağını [asılacağını] əhalimizin həpsi də bilir. Bundan maəda [bundan başqa], rus istibdadının da nə olduğunu içimizdə bilməyən və görməyən yoxdur. Rus istibdadının zülüm və fənalıqlarını camaatımız tarixlərdə oxuyub da öyrənməmişdir. Başqalarından rəvayətən də eşitməmişdir. Daha rus istibdadından ayrılalı və rus istibdadının təhəkkümündən qurtulalı iki sənə olur. Bunu həpimiz gözümüzlə gördüyümüz üçün hər birimiz birər dəfə feviz, daha doğrusu birər canlı tarixiz. Bundan da sərf-nəzər əvvəlki yaşamımızla şimdiki yaşamamız arasındakı fərq dəxi xatirimizdən çıxmamış və o fəci mənzərələr isə gözümüzün önündən qaib olmamışdır. Bunun üçün əhalimiz gündən-günə qəzetə həvadislərinə baxaraq fədakar və həmiyyətli əhalimiz, hökumət və istiqlaliyyətinə, vətən və millətinə mühibb və müti olan [sevən və itaət edən] millətimiz əlyövm [bugünkü, indiki] saatda pək böyük hazırlıqlar qarşısında bulunur.

Bizimlə həmhal olan Gürcüstan dövləti qonşumuz da bu təşəbbüsə müştərəkdir.

Şu qədər deyə biləriz ki, istiqlaliyyət və məmləkətimizin bir təhlükədə bulunduğu zaman hökumətimizin əmr verməsinə və camaatı silah başına dəvət eyləməsinə məhəl [yer] qalmaqsızın, nəcib və möhtərəm əhalimiz kəndiliyindən var qüvvəti və olanca qeyrəti ilə silahi-həmiyyətə sarılaraq meydani-təhlükəyə atılacağına ümidimiz qəvidir [qüvvətlidir].

Məmləkət və istiqlaliyyətimizə əl uzatmaq fikrini bəsləyənlər bunu eyicə bilsin ki, bizdəki rə'si-karda [iş başında] olanlar Dağıstanda olduğu misilli məmləkəti satmaq fikrini daşıyan bir hökumət məmuru olmadığı kimi, eyni zamanda da hökumət və ordumuzun amal və əfkar və hərəkatına səktə [zərər] verəcək hail [maneə] və tərəfgirlik də yoxdur.

Məmləkət və millətimizin müqəddəratını əlinə alan hökumətimiz bu məmləkət və millətin səlaməti uğrunda nə kimi bir amal və əfkarda isə, hər vaxt hökumətimizə zəhir [arxa, köməkçi] və yardımçı olan millət də eyni amal və əfkardadır.

Şimdiki hal[da] müharibəyə gedəcək olan bir əsgərə əzhərcəhət [hər cəhətdən] lazım olan şeylərin kaffəsini [hamısını] fədakar əhalimiz kəndi həvəsi və arzuları ilə hazırlamışdır.

Bundan əvvəl əhalimizdə əsgəri təlimlərini bilməmək kimi bir nöqsanlıq var idisə, şimdi bu nöqsanlıq da gündən-günə ikmal edilməkdədir [təkmilləşməkdədir]. Hətta əsgərliyi olmayan əhalimiz icabında [yeri gəldikdə] müharibəyə bir hazırlıq olmaq üzrə cümə günləri kəndi sövq və ixtiyarları ilə müntəzəm bir qiteyi-əsgəri [hərbi dəstə] halında şəhərin hər tərəfinə toplanıb böyük bir həvəslə şəhərin dişarısında uzaq məsafədəki kazarmalara gedərək təlim yapıb öyrənirlər.

Əhalimiz hər xüsusa hazırlanır və hazırdır. Bizim millətimiz üçün müharibəyə getmək və müharibədən qaçmamaq ta əcdadımızdan irsən intiqal eyləmiş [gəlib çatmış] bir xislət, müharibəlik, cəngavərlik, silahşorluq dəxi xəlqi, nəzəri və cibilli [təbii, xarakterik] bir fəzilətdir.

Hənuz tərbiyeyi-ictimaiyyə və tərbiyeyi-əsgəriyyə görməyib daha xanəsində ancaq annə tərbiyəsi görən 6 və 7 yaşındakı çocuqlarımızın gecə və gündüz cadə və məhəllatda [küçələrdə və məhəllələrdə] xüsusilə milli bayramlarda milli şərqilər oxuyaraq əsgəri təlimləri və əsgəri nümayişləri yapmaları ta çocuqlarımıza varıncaya qədər tərbiyeyi-milliyyəmizin təbiəti ilə təkəmmül [kamilləşmiş] və hissiyatımızın oyanmaq, vətən və millətimizə mərbutiyyətlə [bağlılıqla] yaşamaq haqqını da ehqaq eyləmiş [yaşamaq haqqına layiq olmuş] və hər surətlə mövcudiyyət göstərmək kimi bir fikri-istedad və qabiliyyət sahibi bir millət olduğumuza həqiqi bir işarətdir. Təbiidir ki, böyləsi çocuqların böyləcəsinə də babaları olacaqdır.

Azərbaycan Cümhuriyyətinin bidayəti-elanından [elan edildiyi vaxtdan] şimdiyə dəyin məmləkətimizdə yapılan milli

bayramlarda, ələlxüsus keçən günkü İstiqlaliyyət bayramında böyük və kiçik, qadın və erkək və əli-ayağı tutanların kaffəsi [hamısı] əllərində birər istiqlaliyyət bayrağı olduğu halda hürriyyət və istiqlaliyyətlərini təbcil və təqdis [ucaltmaq və əzizləmək] üçün Parlaman dairəsinin önündə müəlləq [asılmış] böyük və müəzzəm [əzəmətli] bayrağı qarşılamaqdan başqa, xanə və dükanlarının qapılarını bayraqlarla təzyin etmələri [bəzəmələri] və o günün sururuna [sevincinə] səmimi və ciddi bir qəlblə iştirak etmələri millətimizin hər vaxt müstəqillən yaşamaq haqqına malik və mövcudiyyətlərini də mühafizə etməyə layiq bir millət olduğunu dəfəatla [dəfələrlə] isbat eyləmişdir.

Deməк istəriz ki, hökumət və millətimiz ötədən bəri müttəhidül-amal və müttəhidül-əfkar [eyni arzuda və eyni fikirdə] olduğu üçün ümidimiz də sağlam və istiqbalımız da [gələcəyimiz də] əmin və mətindir.

Milyardlarca fədakaranın [fədakarların] qanı bahasına ələ keçən bu hürriyyət elə qolaycasına bir daha müstəbid əllərə keçməyəcəkdir.

Dağıstan müqəddəratı ilə oynayan biriki xaini-din və xaini-millətin [dininə və millətinə xəyanət edənlərin] mənafeyi-şəxsiyyələrinə qapılaraq alçaqcasına olan hərəkatının nəticeyi-seyyiəsindən [mənfi nəticəsindən] bilistifadə [istifadə etməklə] Dağıstanda oynanılan Denikin rolları Azərbaycan məmləkətinə girməyəcəkdir.

Aldadacaq olarlarsa, aldanmayacağız və mərd-mərdanə gələcək olarlarsa, müdafiədən geri qalmayacağız. Hökumətimiz daima tədqiq və bir dəqiqə laqeyd bulunmamaqla bərabər, lazım gələn tədabir[i] də ittixaz edir [tədbirləri də həyata keçirir]. Hökumət və istiqlaliyyətimizin davam və bəqası və məmləkət və millətimizin səlamət və səadəti üçün hər nə surətlə çalışılacaqsa, millətimiz də hökumətimizin əmrini icra etməkdən geri qalmayacaqdır.

Məmləkət və millətin, irz və namusun səlaməti uğrunda çalışmağı deyil hökumət, Allah, peyğəmbər əmr və irz və namusumuzla şərəf və heysiyyət və hüquqi-milliyyəmiz də icab və iqtiza etdirir. Allahına, peyğəmbərinə, irz və namusuna, məmləkət və millətinə zərrə qədər məhəbbəti və zərrə qədər namus və vicdanı olan bir adam böylə bir zamanda hər şeyə köks gərməkdən və hər bir fədakarlığa qatlanmaqdan əsla geri qalmayacaqdır və həm də qalmaz. Zira, az zaman əvvəl bir az becəriksizlik üzündən əllərinə fürsət düşdükcə bizlərə yapılan zülüm və həqarətlər nə qəlbimizdən silinmiş və nə də gözümüzün önündən qaib olmuşdur.

İştə, bu halları görən, böylə inqilabları keçirən millət bir daha bu kimi halları görməmək üçün bir dəqiqə uyumaz və uyumayacaqdır. Bunda ufacıq bir qeyrətsizlik üzündən, xudanəkərdə [Allah göstərməsin], böyük bir təhlükəyə düşərsək, dünya baqi qaldıqca islam tarixlərində lənətlərlə yad olunacağımız kimi, yarın da ruzi-məhşərdə [məhşər günündə] yaxamız şəhid babalarımızın qanlı pəncələrində qalacaqdır.

Hökumətin mucidi-müəssis[i] [meydana çıxaranı və qurucusu] olub, növcah [iş başına yeni keçmiş] bu hökumətin bidayəti-təşəkkülü [təşəkkülünün başlanğıcı] olan bu zamanlarda çalışanlar isə biləks [əksinə], tarixlərdə şanlı səhifələr işğal ilə əbədiyyən də rəhmət ilə yad olunacaqdır.





Bunun üçün əlimizdəki istiqlal bayrağını yerə düşürməmək və məmləkətimizə rus istibdadını soxmamaq xüsusunda bir tək adamımız və bir damarımız atıncaya qədər namus və istiqamətimizlə çalışmalıyız və çalışacağız.

Məclisi-Məbusanımızın pəncşənbə [cümə axşamı] günkü müzakirəsində Rəisi-hökumət möhtərəm [Yusifbəyli] Nəsib bəy əfəndi cənabları ilə möhtərəm Parlaman üzvlərinin məmləkət və istiqlaliyyətimizin təhlükəyə düşdüyü zaman bunun səlaməti uğrunda bütün əfkari-ümumiyyəyi-millət müvacihəsi [bütün millətin ictimai rəyinin siması, ifadəsi] olan o məqamda və o məqamı da təmsil edən kürsiyi-xitabətdə millətə qarşı vermiş olduqları vəd və qərarlar boşa getməyəcəkdir.

Və bu zəvatın [şəxslərin] vəd [və] qərarlarının mədlulu olan əfalı [vəd və qərarlarından aydın olan işləri] bizzat [şəxsən] Azərbaycan milləti yerinə gətirəcəkdir.

Rus istibdadı zamanında amal və əfkari-müstəbidanəsi sayəsində general olmuş bir taqım müstəbidlərin idareyi-istibdadı, ağır boyunduruğu və əsarəti altına girməmək üçün son nəfəsinə qədər çalışan Azərbaycan milləti olacaqdır.

Millət və milliyyəti, sətvət [güc] və əzəməti, iqbal və istiqbal və istiqlaliyyəti ilə yaşayan yenə Azərbaycan milləti olacaqdır.

Xülasə, hökumətimizin siyasətini təqib xüsusunda əlindəki qələmi millət və ordumuzun süngüsü mərmər kimi isə, o süngünün axıdacağı qan olacaqdır.

Ölməkdən qorxan bir millət daima ölməyə məhkum və ölüdür. Və ölməkdən qorxmayan və ölməyə hazır bulunan bir millət isə hər vaxt sağ və hər vaxtı yaşamağa malikdir.

Binaənileyh [ona görə], bizlərdə ölüm təhlükəsindən qorxmaq olmadığı üçün bizlər yaşamaq haqqına malik və yaşamağa da layiq bir millətiz. Bununla bərabər, ölümdən qorxaraq övrət libası geyib də, xanəsində övrət misilli oturmaq kimi bir dənaəti irtikab edəcək [alçaqlığı işləyəcək] olan adamlarımız da olmadığından, əlhasil [sözün qısası], namussuzca yaşamaqdansa namuskaranə ölməyi də hər vaxt tərcih elədiyimizdən dolayı, yaşamaq xüsusunda atimiz [gələcəyimiz] mətin, iqbal və istiqbalımız parlaq və ümidimiz dəxi bərkəmaldır [möhkəmdir, yerindədir].

*Çubuqçuzadə Yusif Camal*

**EL ORDUSU**

Bu ordu, digər işlərdə görüldüyü kimi, firqə, ziyalı və dövlətlilərin təşəbbüsü ilə deyil, bu dəfə ancaq elin təşəbbüsü ilə əmələ gəlmişdir.

Bu ordunu bazar əhli, kəsbkar xalq, ziyalıların "qara camaat" adlandırdıqları camaat əmələ gətirmişdir.

Bu camaat baxmış ki, böylə mühüm bir zamanda onun köməyi lazım, özünü müdafiə edəcəksə, özü edəcək. Bunu isə böylə bir zamanda daima irəlidə olanlardan heç kəs düşünməyir və heç kəs də bunun təşəbbüsündə bulunmayır. Camaat özü bu barədə düşünmüş və təşəbbüsə başlamış.

El ordusuna girmək istəyənlər siyahı olmağa başlamış, iki həftə müddətində 500-600 nəfər yazılmış və məşqə başlamış.

Keçən cümə günü mən Salyan qışlaları [kazarmaları] yanında bu ordunun ta-

maşasına getmişdim. Həqiqətən, böyük və müəssir [təsirli] bir tamaşa idi. 60 yaşında ağsaqqal qocalarından ta 15 yaşında üzünə tük gəlməmiş uşaqlarınadək burada iştirak edirdi.

Toz içində və gün altında əsgərlik məşqi öyrənən bu el ordusunu hər kəs görsəydi, mütəəssir olardı.

İnsan bunlarda olan həvəsi görüncə yəqin edir ki, bu millət özünü tanımış, vətən və istiqlaliyyətin nə olduğunu kamalınca anlamışdır.

İnsan bu tamaşanı seyr etdikcə, ulu babalarımızın haqqında söylənən:

*“Hər zaman kişnəsəydi türkün atı,*
*Qırılırdı bir ölkənin qanadı”*

şeirinə inanar. İnanar ki, el bir şeyi icra etməyə qərar qoyduqdan sonra onun qarşısını heç bir qüvvə alammaz və hər yana üzünü çevirərsə, qalibiyyətdən başqa nəticə qazanmaz.

Görünür ki, bizim camaatımızda da babalarının damarlarında oynayan qan oynamağa başlamış.

Görünür ki, bu millət özünün türk olduğunu anlamış və türklüyün heç bir vəchlə məğlub olmamasını camaata məxsus bir hisslə duymuş.

O duymuş ki, özünü müdafiə etmək istəyən müharibəyə hazır olmalıdır. O duymuş ki, özünü müdafiəyə hazır olan bir milləti məğlub deyil, ancaq məhv etmək olar. Bunun üçün də müdafiəyə hazırlanır.

Məşq saat 12 radələrində bitdikdən sonra nizami səflərlə [cərgələrlə] Təzəpir məscidinə gedərkən, qoca kişilərin: “İrəli, irəli, Azərbaycan, irəli!” əsgəri nəğməsi sədaları, hamı musiqi nəğmələrindən mütəəssir və ülvi idi.

El ordusu müəssisləri [qurucuları] tərəfindən vəkalətən ümum vətəndaşları vətənin böylə təhlükəli bir halında bu el ordusuna qoşmağa dəvət edirəm.

Vətəndaşlar! Bunu bilməlisiniz ki, bu dəfə gələcək bəladan özümüzü ancaq özümüz müdafiə edə biləcəyiz. Keçən dəfə bizi daxili və xarici düşmənlərdən müdafiə edən müdafemizə [müdafiəçimizə] ümid etməməliyiz, özümüz müdafiəyə hazırlanmalıyız.

Bunun üçün də müdaifəyə iqtidarı olan hər bir vətən övladı el ordusuna gəlməli və el müdafiəsinə hazırlanmalıdır.

Ümid edirəm ki, Azərbaycanın digər yerlərində də Bakıda yapıldığı kimi el orduları yapılar və müdafiəyə imkanı olan hər bir vətəndaş vətənini müdafiə etmək məşqini öyrənər.

Axır, qarelərin [oxucuların] diqqətini buna da cəlb etmək istəyirəm: özünü daima camaatın namdar [adlı-sanlı] və qeyrətlisi hesab edən qoçularımız və özlərini camaatın başının sahibi hesab edən dövlətlilərimiz bu orduda iştirak etməyirlərdi. Onlar hələ pul qazanmaqdan və keyfdən ayılmamışlardır.

*M. R.*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*5 iyun 1919*

Tənəffüsdən sonra iclas saat 2-də təzələnir.

**Sədr** - İclas davam edir. Parlaman müsaidə versə, növbəti bir az dəyişib Rəisi-





vükəlanın [Baş nazirin] vəziyyətimizə aid bəyanatını dinlədikdən sonra hökumətə verilən sualı növbəyə qoyub, ondan sonra başqa məsələlərin müzakirəsinə keçərik. Etiraz yoxdursa, qəbul olunur. Söz Rəisi-vükəlanındır.

**Nəsib bəy Yusifbəyli** - Möhtərəm məbuslar! Bir neçə gün bundan əvvəl sizə ərz eylədim ki, Denikin nümayəndəsi tərəfindən rəsmi kağız aldıq. Bu rəsmi kağızı da sizə oxudum. Gördünüz ki, rəsmi kağızda istiqlaliyyətimizi tanıyırlar. Ancaq nə mən oxuyan zaman, nə də siz eşitdiyiniz zaman etibar etmədiniz.

O kağız ki yazmışdılar, onun mürəkkəbi qurumamış bir kağız da gəlib ki, ərz eyləmək istəyirəm. Oxuyandan sonra şübhəmizin nə qədər haqlı olduğunu bilərsiniz. Dünən böylə bir kağız gəlmişdir. *(Oxuyur)*

“Azərbaycan Cümhuriyyətinin Heyəti-Vükəla Rəisinə.

Surəti İngiltərə komandanlığına və Qroznı-Petrovsk qrupu komandanlığına.

Cənubi Rusiya Qüvayi-Müsəlləhəsi Ərkani-Hərb rəisi [Silahlı Qüvvələri Hərbi Qərargah rəisi] general-leytenant Lukomskidən Baş komandan əmri ilə göndərilmiş bir məktub iyun[un] 3-də mənə vüsul oldu [çatdı]. İşbu məktuba istinadən rəsmən sizə elam edirəm [bildirirəm] ki, Cənubi Rusiya Qüvayi-Müsəlləhəsi Azərbaycanı Rusiyadan ayrılmış hesab etməyir. Yalnız şu məsələ irəlidə Rusiyada təşkil olacaq verxovnı vlast [ali hakimiyyət] tərəfindən həllinə qədər Azərbaycanın istiqlaliyyətini münasib görür və tanıyır.

*Polkovnik Lazarev"*

Ruscasını istəsəniz oxuyum. O gün ərz etdiyim kimi bəlkə tərcüməsində səhv etmiş olam. *(Məktubu rusca oxuyur)*

*(Səslər: "Heç vaxt Rusiya olmayacaqdır!").*

Görürsünüz ki, bu kağız genə kağızdır.

*(Səməd ağa [Ağamalıoğlu] yerindən: "Elə onlar özləri də kağızdır!")*

Burada görürsünüz ki, Rusiya təşkil olunana qədər və orada verxovnı vlast olana kimi bizim istiqlaliyyətimizi tanıyır və sizə təhlükə yoxdur deyir. Əgər bu da doğru olsaydı və buna inanmaq olsaydı, yenə bir şey idi. Məəttəəssüf [təəssüf ki], bu da kağızdır. Bunun kağız olduğunu özləri tez vaxtda isbat eylədilər. Bu kağız ilə Petrovskdan Lazarevə və surəti Şattlvorta teleqraf gəldi. Bu kağızları və teleqrafları ərz edirəm, görəsiniz ki, bunların da mənası yox imiş. *(Oxuyur)*

"Polkovnik Lazarevə.

Surəti Bakıda İngiltərə Qüvayi-Müsəlləhəsi komandanı polkovnik Şattlvorta.

Hərbi.

Cənubi Rusiya Qüvayi-Müsəlləhəsi Baş komandanından işbu məzmunda teleqraf aldım. Azərbaycan Hökuməti Könüllü ordu hissələrinin Dağıstana hərəkətindən təşvişə düşmüşdür. General Dratsenko Petrovsk və Dərbəndin işğalı ilə kifayətlənib irəliyə getməyəcəyi xüsusunda təminat vermişdir. Əgər Azərbaycan Hökuməti tərəfindən üzərimizə hücum olunmaz isə öz tərəfimdən ordularımızın Zaqatala-Qafqaziya dağları və Qızılburun xəttindən irəliyə getməyəcəyini təmin edərəm.

Yekaterinodar, 18 may 1919.

Nömrə 7389.

Petrovsk, nömrə 3621.

*Tersk Dağıstan orduları komandanı general ot kavalerii [süvari generalı] Erdeli.”*

Həmin bu məzmunda Erdelinin özündən Lazarevə bir teleqraf var. Məzmunu bir olduğundan elanına ehtiyac yoxdur, zənn edirəm. Əgər arzu olunarsa, keçən teleqrafın ruscasını oxuyum. *(Keçən teleqrafı rusca oxuyur.)*

İkinci teleqraf budur. *(Ruscasını oxuyur.)* Çünki bu teleqrafda bir işarə, bir namyok [vurğu, işarə] var ki, razılıq və saziş ilə təyin olunan xətt!.. Təbii, bu xətti guya bir tərəflə təyin etmişlər. Bu barədə kimlərlə isə razılıq əmələ gəlmişdir. O tərəf də kim ola bilər? O tərəf də yəqindir ki, ingilislərdir. Bu teleqraflar mənə çatandan sonra təbiidir ki, burada İngiltərə Komandanlığı nümayəndəliyi ilə görüşməyi özümə borc bildim. Məlumunuzdur ki, general Kori buradadır. General Kori Zaqafqaziyada olan Müttəfiqlər qüvvələrinin Baş komandanıdır. Dünən onunla və Şattlvortla görüşdük. Teleqraflar onun qabağında idi, onlara da gəlmişdi. Qabaqca o, söz açdı. Dedi, bu teleqraflardan xəbərdarmısınız? Cavab verdim ona ki, mənası məlumdur. Soruşdu ki, nə tədbir görürsünüz? Əlbəttə ki, özgə bir cavab olmazdı. Əvvəlinci cavab onu dedim ki, vətənimizi mühafizət edəcəyik. Buna görə hər bir tədbir görürük və görəcəyik. Söhbət çox uzun oldu. Hamısını təfsilən ərz eləməyi artıq bilirəm.

Nəticəsində o mənə təminat verdi və dedi ki, bu dəqiqə bu teleqrafların mənasını öz tərəfimdən general Milnə xəbər verirəm. Müttəfiqlər Komandanlığının Denikin ilə sazişi barəsində dedi ki, heç bir saziş söhbəti ola bilməz və Denikin ilə xətt barəsində saziş olmaz və bir də general Denikinin bu hərəkətinə general Kori pis nəzərlə baxır. Vətənimiz yolunda gördüyümüz təşəbbüsatımızı yersiz bilmir. Digər tərəfdən deyir, sizi təmin edirəm Bakıya o tərəfdən hücum olmaz. Çünki dəniz əlimizdədir. Deyir, əgər dava olsa, hüsn-təvəccöhümüz sizin tərəfinizdədir. Əlbəttə, əgər Bakıda və Azərbaycanda bu münasibətlə talan və iğtişaş olmaz isə. *(Soldan səslər: "Olmasa da özləri edərlər!")* Əlbəttə, cavab verdim ki, təbiidir, Bakıda və Azərbaycanda iğtişaş ola bilməz. Zatən Azərbaycan milləti isbat edəcəkdir ki, rus milləti əleyhinə bizim tərəfdən fəna müamilə [rəftar] ola bilməz. Amma təbiidir, düşmən nümayəndələrinə, rus millətinə fəna müamilə etməz. Əlbəttə, düşmən müəyyən olandan sonra, düşmən nümayəndələrindən xilas olmaq üçün lazımi təşəbbüs edəcəkdir. Buna da general Korinin razılığından başqa ayrı cavabı olmazdı. Deməh, necə ki, görürsünüz, bu surətlə ingilis nümayəndələri ilə əvvəlinci görüşdə Şattlvort ayrı bir fikirdə idi. Bir növ guya bitərəf qalmaq fikri var idi. Amma, axırıncı dəfə Kori tərəfindən təminat verildi ki, Azərbaycan hüdudlarını heç kəs keçə bilməz. Hətta deyir, hər kəs keçsə, həbs edərik. *(Soldan gülüş)* Deməli, bu xüsusda təminat vermək istədi. Amma sözün doğrusu, təhlükəni biz özümüz gərək görək. Biz çox sözlər eşitmişik. Bu sözlərə də böyük məna vermək olmaz. İngiltərə kimi hürr bir məmləkət nümayəndələri yalan söyləməzlər. Amma bəzən də söylədikləri şeylər üstündə dura bilmədiklərini aşkar edirlər. Biz görürük bizə çox da vədlər verildi. Bizə dedilər ki, Dağıstan təhlükədə deyildir. Dağıstana kimsə hücum etməz. Denikin ancaq Petrovsku baza [üssülhərəkə] olaraq tutacaq,





Petrovskdan bu tərəfə keçməz. Vaxtilə bizə bu təminatı verdilər. Bununla bərabər, Şattlvortun özü ilə danışıb bizə verdiyi təminatı dedim. Və bununla bərabər dedim ki, bu vədlərlə bizə mane oldunuz, ola bilərdi ki, sizin vədləriniz olmasaydı, biz Dağıstana böyük kömək göndərərdik və bəlkə Şimali Qazfqaziyada düşməni dəf edərdik. Daha bu gün Dağıstan məğlub və sərhədimiz təhdid altında olmazdı. Siz o vaxt vədələr verdiniz, bunun nəticəsi nə oldu? Nəticədə Denikin Şimali Qafqaziyanı tutdu.

Bundan maəda [başqa], ayrı vədlər də var idi. Bu vədlər tamamilə icra olunmadı. Bunu kimsə inkar etməz. İngiltərə Komandanlığı da inkar etməz. Bununla bərabər, hökumət İngiltərə Komandanlığının vədlərinə böyük məna verir. Fəqət burası da məlumdur ki, qonşuya ümid olan şamsız yatar. Özümüz hazır olmalıyız. İndiyə qədər əlbəttə ki, verilən vədlərin nə olduğunu özümüz bilirdik. Denikinlərin verdiyi vədlərin də mənasını bilirdik. Onların heç bir əhəmiyyəti olmadığını da cümləmiz bilirdik. O məqsəd ki, Denikin ordusu təqib edir, Rusiyanı bolşeviklikdən xilas etsin, onu əskisi kimi birləşdirə bilsin, bu o qədər böyük bir məqsəddir ki, Denikinin özünü təhlükə altına alır. Özləri üçün bu qədər böyük təhlükə olduğu zaman, arxada da özləri üçün böyük bir təhlükə təşkil etməzlər. Ancaq məəttəəssüf [təəssüf ki], o generallar özlərini bu kimi böyük məqsədlərlə Rusiyanı birləşdirmək üçün xüruc [çıxış] etmiş kimi göstərirlər. Halbuki onlar özləri Rusiyanı dağıtmışlardır. Rusiyanın çarizm hökuməti böyük səhvlər edirdi. Şimdi onun nümayəndələri də həman səhvləri edirlər. O generalların məqsədi Rusiyanın ehyası [bərpası] deyil, onların məqsədi bir millət tapmaqdır ki, ona hakim olsunlar. O, əlbəttə ki, kim ola bilər? O, Zaqafqaziya ola bilər. O, yeni təşkil edilmiş Gürcüstan ola bilər, Azərbaycan ola bilər. Ola bilər ki, Ermənistan Cümhuriyyəti də olsun.

Bugünkü tələbləri gündən-günə artır. Dünən Dərbənddən irəli gəlmək istəməyirdilər. Bu gün Qızılburuna soxulmaq istəyirlər. Əlbəttə, bunlar bəhanədir. Yoxsa onlar Qızılburunu nə edəcəklərdir? Məlumdur ki, Qızılburunun heç bir sövqülceyş [stratejik], ya başqa əhəmiyyəti yoxdur. Onlar Bakının suyunu kəsmək istəyirlər. Bununla bizim üzərimizə edəcəkləri hücumlar üçün zəminə hazırlayırlar. Hücum da bir tərəfdən deyil, Qara dənizdən də qara qüvvələr gəlir. Bu qara qüvvə bizimlə hər zaman dost olan Gürcüstan üzərinə də gəlir. Məqsədləri əski Zaqafqaziyanı ələ almaqdır. Plan çox açıqdır. Heç gizlətmək də istəməyirlər. Hər yerdə sərhəd məsələsini ortaya çıxarır və deyirlər ki, sonra baxarız, sizinlə düşmənliyimiz yoxdur. Ancaq sərhəd böylə olsun, filan yer filan olsun. Əlbəttə, iki tərəfi var. Ona görədir ki, qara qüvvələr təhlükəsi altında müharibə etmək ehtimalı da vardır. Azərbaycan ilk gündən müharibə əleyhinə olduğunu isbat etdi. Heç kəslə müharibə etmək istəmədiyini bildirdi. Hər yerdə sülh ilə işin içindən çıxmaq istədi. Bununla bərabər, indi etiraf ediriz ki, bugünkü məsələ həyat-məmat [ölüm-qalım] məsələsidir. Şimdi artıq heç bir güzəşt ola bilməz. Bu işdə bir adam qalıncaya qədər vətən və istiqlalı müdafiə edəcəyiz. Çünki bu iş ölmək-qal-

maq məsələsini həll edəcəkdir. *(Sürəkli alqış)*

Bugünkü təhlükə yalnız bizim istiqlaliyyətimizə deyil, bu təhlükə bizim qəlbimizə, ruhumuzadır, Bakının üzərinədir. Bu barədə qan tökəcəyiz. Qan tökmək yaxşı deyil, lakin bu töküləcək qan müqəddəsdir. Əlbəttə ki, bu uğurda millət zəhmət çəkəcək. Bunun fəna cəhətləri var. Bununla bərabər, bunun yaxşı tərəfləri də vardır. Yaxşı tərəfi budur ki, Denikin bizim gözümüzü açdı, Zaqafqaziyada iki millət qardaş oldu.

Mən burada cəsarət edib deyə bilərəm ki, bu millət nümayəndələrinin başında olanlar – mənim özüm və gürcü milləti nümayəndələrinin çox səhvləri var. Biz çox istədik ki, bu iki millətin arasını vuraq, fəqət olmadı. Bu iki millət isbat etdi ki, onların həyatı birdir. Həman millətlər – Gürcüstan ilə Azərbaycan bu təhlükə qarşısında birləşəcək, bir təni-vahid olacaqdır. Denikin təhlükəsinin də yaxşı cəhəti burasındadır. Sağ olsun Denikin ki, bizi birləşdirməyə xidmət etdi. *(Şiddətli alqış. Parlaman ayağa qalxaraq Gürcüstan nümayəndələrini alqışlayırlar. Nümayəndələr lojadan qalxaraq təzim edirlər. Alqış şiddətlənir.)* Bunu biliniz ki, bu məsələdə təhlükə hər iki millət üzərinədir. Bu təhlükəni hər iki millət bir təni-vahid kimi öz-özündən rədd edəcəkdir. Buna etimadım çoxdur. Şübhə yoxdur ki, həm Gürcüstan, həm Azərbaycan nə qədər mümkündür qan tökülməyə razı olmayacaqdır. Bu məsələnin sülhlə həll edilməsinə təşəbbüs edəcəkdir. Ancaq ümid etməyəlim ki, bu məsələ sülhlə həll edilsin. Hərgah onların yaman bir məqsədləri olmasaydı, böylə teleqraflar göndərməzdilər. Şimdi biz onların qarşısına çıxıb da vətənimizi müdafiə etdikdə, bütün cahan demokratiyasına bildirəcəyiz ki, biz haqqı müdafiə ediriz. Bulunmazsa da, haqq bizim tərəfdə olduğu üçün nəinki yalnız İngiltərə Komandanlığı, bütün dünya demokratiyası bizim tərəfdə olacaqdır. *(Alqış)*

**XÜSUSİ TELEQRAM**

Teymurxanşura - Dağıstanın müvəqqəti hakimi iyunun 4-ü tarixi ilə böylə əmrnamə sadir etmişdir [vermişdir]:

"Baş naçalnik və Dağıstan qüvvələrinin komandanının əmri və Cənubi Rusiya Qüvayi-Əsgərisi [Hərbi Qüvvələri] Baş komandanı Denikinin iradəsi ilə Dağıstan Milli Qurultayı dəvət edilənədək Dağıstanın müvəqqəti hakimliyinə təyin edilirəm. Mən bu vəzifəni Dağıstanın xeyrindən ötrü öhdəmə götürürəm. Bu barədə ümum Dağıstana məlumat verirəm.

*General [Mikayıl Maqomedoviç] Xəlilov"*

İyunun 3-də Teymurxanşura şəhərinə Tersk Dağıstan qoşunlarının Baş komandanı general Erdeli varid olaraq [gələrək], şəhər nümayəndələri və ziyalılarının iclasında bəyan eylədi ki, dağıstanlıların dini işlərinə və iqtisadi məişətlərinə Könüllü ordu müdaxilə etməyəcəkdir. Dağıstan əhalisi özü istədiyi kimi daxili işlərini idarə edə bilər. Könüllü ordu Dağıstandan tələb edəcəkdir ki, bolşevizmlə mübarizədən ötrü könüllülərlə birlikdə çalışsınlar. Dağıstanlıların nə surətlə bolşevizmlə [mübarizədə] iştirakları xüsusunda əlavəli əmrnamə sadir ediləcəkdir. Bu barədə müvəqqəti Dağıstan hakimi general Xəlilovun əmrnaməsi ilə Dağıstan əhalisinə məlumat verirəm.

*Müvəqqəti hakim əvəzinə polkovnik Musalayev*

**SÜLH ƏTRAFINDA**

*Royter agentəliyindən*

Almaniya istəyir ki, İtaliya ilə ticarət əlaqəsini başlasın. İtaliya-İsveçrə sərhədində külli Almaniya malları, velosiped, ziqiymət [qiymətli] şeylər, əczayi-kimyəviyyə [kimyəvi dərmanlar] və maşinalar vardır. Çox ucuz qiymətə bu mallar İtaliyaya təklif edilir. İtaliya pulunun kursu İngiltərədə, Fransada və Amerikada qiymətli olmadığından, biləks [əksinə], Almaniya da İtaliya üçün əlverişli olduğundan, çox mümkündür ki, İtaliya Almaniya ilə ticarəti əlaqəni başlasın.

**Amerikanın sülh müahidənaməsindən imtinası**

Paris - Amerika sülh mürəxxəslərindən [nümayəndələrindən] doqquz nəfəri indiki sülh müahidənaməsinin [sazişinin] ziddinə danışmaqdadır. Bunlardan birisi konfransda iştirakdan imtina edib demişdir ki, Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] müharibənin qabağını saxlaya bilməyəcəkdir. Nəticədə Amerikanı müharibəyə sövq edəcəklərdir.

- "Havas" agentəliyi xəbər verir, Dördlər Şurası qət eyləmişdir ki, Almaniya sülh mürəxxəsləri müahidəni imzadan imtina etdikləri təqdirdə, marşal Foş bilatərəddüd [tərəddüdsüz] Almaniya üzərinə yürüş edəcəkdir. Eyni zamanda, Almaniyanın ablukası [blokadası] başlanacaqdır. Reynelend Berlinə məlum edir ki, sülh danışıqlarının dayandırılması Almaniya üçün intihar olacaqdır. Müttəfiqlər bu rəydədirlər ki, Almaniya müahidənaməni tamamən qəbul, ya tamamən rədd etməli.

**Müahidənamənin almanlara təslimi**

London - İclasda nitqlər ingilis dilində söylənirdi. Konfransın baş katibi öz yerindən qalxıb almanlara yaxınlaşaraq sülh müahidənaməsini Rantsauya təqdim eyləmişdir. Rantsau nemes dilində bir nitq söyləyərək, onun nitqi sonra ingilis və fransız dillərinə tərcümə edilirdi. Rantsau demişdir ki, almanlar özlərinin məğlub edildiklərini danmayırlar. Onlar bilirlər ki, Almaniya ordusunun gücü sınmışdır. Fəqət müharibədə yalnız almanlar müqəssir deyildirlər. Almanlar heç bir vaxt buna razı olmazlar. Hərçənd müharibə məsuliyyətinin bir hissəsi Almaniya üzərinə düşürsə də, amma bütün Avropa müharibənin başlamasında müqəssirdir. Zira axırıncı 50 ildə bütün dövlətlərin cahangirlik məqsədləri beynəlmiləl əhvalı zəhərləmişdi.

Rantsau nitqində davam edərək deyir: Müharibə zamanında Almaniyanın bəzi hərəkətlərinin cinayətli olduğunu etiraf edir. 1914-cü ildə Almaniya Reyxstaqının qərarını məclisə bildirərək deyir, o zaman Reyxstaq Almaniyanın Belçika haqqındakı rəftarında müqəssir olduğunu etiraf etmişdi. Və Almaniya hazırdır ki, Belçikanın zərərlərini iadə eyləsin [ödəsin]. Almaniya çox da müdafiəsiz deyildir. Zira Müttəfiqlər qərar qoymuşlar ki, Vil-

sonun 14 maddəsini yürütsünlər. O maddələr ki, bütün cahan onun tərəfdarıdır. Almaniya məcburdur, Belçikanı və Şimali Fransanı emar eyləsin.

Rantsau nitqini xitama yetirərkən, hamının Cəmiyyəti-Əqvama daxil olmalarını arzu eyləmişdir.

Klemanso nitq deyərkən ayaq üstündə durduğu halda, Almaniya nümayəndəsi Rantsau öz yerində əyləşdiyi halda nitq söyləyirmiş.

**Sülh müahidənaməsinin bə'di [davamı]**

Şura – Beş düvəli-müəzzəmə [böyük dövlət] nümayəndələrindən ibarət olacaqdır. Bunlardan əlavə, dörd üzv də daxil olacaq. Bunlar da ümumi iclas tərəfindən intixab olunmalıdır [seçilməlidir]. Bu Şura heç olmazsa ildə bir dəfə iclas etməlidir. Şurada üzvləri olmayan dövlətlərə onların məsələləri müzakirə edildiyi zaman dəvətnamə göndəriləcəkdir. İclasda dövlətlər səs verəcəkdirlər. Hər bir dövlətin bir səsi və bir nümayəndəsi olacaqdır. İclas və Şura tərəfindən olan qərarlar müttəhidül-rəy [yekdilliklə] qəbul edilməlidir.

Silahlanmaq – Şura bütün dövlətlərin silahının əskilməsi üçün layihə hazırlamalıdır. Bu məsələ də sonradan Şurada müzakirə və qəbul edilməlidir. Bu layihə təsvib [təsdiq] edildikdən sonra heç bir üzvün ixtiyarı yoxdur ki, müəyyən miqdardan ziyadə silahlı qüvvəyə malik olsun. Hər bir dövlət özünün hərbi məramnaməsi barəsində məlumat verməlidir. Daimi Komissiya isə hərbiyyə və bəhriyyə [dənizçilik] məsələlərində Şuraya müavinət [kömək] etməlidir.

Müharibənin qarşısını almaq – Müharibə zamanında yaxud müharibə xətrəsində [təhlükəsində] Şura lazımdır ki, iniqad edib [toplaşıb], əhvali-ümumiyyəni [ümumi vəziyyəti] müzakirə eyləsin. Üzvlər mübahisəli məsələləri həkəm [arbitr] yaxud İstintaq Komissiyasına verməlidirlər. Müharibə məsələsi Həkəmlər Məhkəməsinə yaxud komissiyaya veriləndən üç ay sonrayadək müharibə edilməməlidir. Üzvlər həkəmlər qərarına əməl etməlidirlər. Həkəmlərin qərarına əməl edən tərəflə müharibə etməməlidir. Hərgah üzvlərdən birisi əməl etməzsə, Şura lazım gələn tədbirləri ittixaz etməlidir [tədbirləri görməlidir]. Daimi beynəlmiləl məhkəmə layihəsini Şura düzəldəcək və bütün mübahisəli məsələləri həmin beynəlmiləl məhkəmə həll edəcəkdir. O üzvlər ki, həkəm məhkəməsinə mübahisəli məsələləri təqdim etməyirlər, onlar Şuranın ya iclasın qətnaməsinə əməl etməlidirlər.

## QƏZETƏLƏRDƏN

**Lloyd Corc və Könüllü ordu hərəkatı**

Tiflisdə alınan xəbərlərə görə, Gürcüstan Hökumətinin Denikinin Zaqafqaziya üzərinə hücumu barəsində göndərdiyi simsiz teleqraf Londonda Avamlar Kamerası, İngiltərə Hökuməti və İngiltərədə olan Gürcüstan nümayəndəsi [David] Qambaşidze tərəfindən alınmışdır. Qambaşidze bu barədə Lloyd Corc ilə uzun müsahibədə bulunmuşdur. Lloyd Corc Qambaşidzeni inandırmışdır ki, Denikinin Zaqafqaziya cümhuriyyətləri üzərinə hərəkatı dayandırılacaqdır.





**Türküstanda**

Cəbhə xətti Tecandan bir neçə verst Qəhqə mövqifinədək [stansiyasınadək] irəli gəlmişdir. Qəhqə mövqifi yanında olan körpü Könüllü ordu tərəfindən xarab edilmişdir. Könüllü ordu geri çəkildikcə dəmir yolunu xarab etməkdədir. Bolşeviklər xarab olan körpünü təmir etməkdədirlər. Hamı dövlətlilər Aşqabaddan çıxıb qaçmışlar. O cümlədən İran dövlətliləri də İrana qaçırlar.

Qırmızı ordu qüvvəsi Çin, latış və çeçen dəstələrindən ibarətdir. Donanması 9 mina gəmisi, 20 müxrib gəmilərdən [destroyerdən] ibarətdir. Bu donanmanın bir hissəsi xəbər verildiyi üzrə Aleksandrovsk fortu yanında ingilislər tərəfindən qərq edilmişdir. Bolşeviklərin dəniz qüvvəsini “Polyus” paroxodunun sabiq komandir müavini bir nəfər Saks nam [Saks adlı bir nəfər] idarə etməkdədir. Bakı ticarət iskələsinin sabiq komissarı Klevtsov 2-ci admiraldır. Bolşeviklərin hamı əslihələri [bütün silahları] qaladadır. Bolşeviklər ingilislərin oraya atacaq bombalarından çox qorxurlar. Əhalinin var-yoxu həcz [müsadirə] edilməkdədir. Axırıncı alınan xəbərlərə görə, balıqçılardan bir neçələri güllələnmişdir.

**Hacı-Tərxanda müharibə**

Xəbər verilir ki, Hacı-Tərxana [Həştərxana] bomba salmaq qəsdi ilə Petrovskdan uçub getmiş olan İngiltərə hidroplanı Hacı-Tərxan şəhərinin küçələrində müharibə olduğuna görə, öz vəzifəsini ifa edə bilməyib geri qayıtmışdır. Hacı-Tərxanda böyük yanğınlar var imiş. Qırmızı ordu əsgərləri naməlum dəstələrlə müharibə etməkdə imişlər.

- Hacı-Tərxandan gələnlərin rəvayətinə görə, əhalinin əhvalı fənadır. Əhali hər bir tərəfdən olursa-olsun bolşevik hökuməti əlindən xilas olmağı gözləyir. Şəhərdə ticarət bilmərrə dayanmışdır. Müsəlman bazarı da bağlanmışdır. Şəhərdə aclıq hökmfərmadır [hökm sürməkdədir]. Əhali ancaq bir çörək və bir də vobla [külmə] balığı ilə güzəran edir. Şəhərdə yeməyə başqa bir şey yoxdur.

- “Novı den” qəzetəsi çeçen milləti nümayəndələrinə xitabən İngiltərə hərbi heyəti rəisi general Briqqsin nitqini dərc eyləmişdir. Nitq böylə başlanır:

*“Hər şeydən əvvəl mənə müsaidə [icazə] veriniz sizə bəyan edim ki, mən kim sifəti ilə buraya gəlmişəm, tainki hamınıza mənim nə söyləyəcəyim bəlli olsun. Mən İngiltərə Hökuməti tərəfindən İngiltərə hərbi heyətinin rəisi sifəti ilə general Denikin yanına göndərilmişəm, tainki onun ordusuna silah, ləvazimi-hərbi və hər növ davaya lazım olacaq şeylər verim. Bunlarla Denikin bolşevizmaya qarşı müharibə edəcəkdir. İngiltərə Hökuməti Rusiyanın daxili işlərinə qatışmaq istəməyir. Fəqət bolşeviklərə qalib gəlmək üçün general Denikinə müavinət [kömək] edir. İngiltərə qoşunları Zaqafqaziyaya gəlmişlər ki, türklərin sülh şəraitinə əməl edib-etməyəcəyinə aşna olsun. O şəraitə ki, onlar[a] qalib olarkən biz onlara diktə etmişdik. İngilis Hökuməti bu və ya digər siyasi cərəyana müavinət etməyir. Yalnız arzusu budur ki, Sülh Konfransında məsələlər həll edilənədək asudəliyi və asayişi mühafizə eyləsin. İngilislər general Denikinə müavinət edərkən, onun alicənablığına inanırlar. Və inanırlar ki, Denikin köhnə üsulu*

*bərpa etməyəcəkdir, Rusiya əhalisinin arzusu üzərinə əsas qoyulacaqdır. Rusiyada şimdi görünür ki, xırda millətlər mükəmməl istiqlaliyyətə maildirlər. Öz qonşuları ilə olan müamilələrində [rəftarlarında] burası anlaşılır. Hərgah siz mənim məsləhətimə qulaq vermək istəsəniz, başa düşərsiniz ki, xırda millətlər bir-birindən ayrı yaşaya bilməzlər. Onlar hər bir cəhətdən bir-biri ilə rabitədədirlər. Mən eşitmişəm, siz əvvəl də çox da sülhlə, müsalimətlə [əmin-amanlıqla] yaşamayırdınız. Sizə məsləhət görürəm ki, dəmiryol təmirinə fürsət verəsiniz. Öz aranızda olan müsadiməni [toqquşmanı] tərk edib, əlinizdən gəldiyi qədər Denikinə bolşevizmlə müharibə etmək üçün müavinət edəsiniz.*

*Mən ümidvaram ki, Denikin öz tərəfindən çalışacaqdır ki, sizin sülh və müsalimət içində yaşamanızı təmin eyləsin. Sizin aranızda özgələr təbliğatda bulunurlar, onlara inanmayınız."*

**TÜRKİYƏDƏ**

**İzmirin işğalını protesto**

Türkiyə, Havas, Royter

Trabzon

İstanbuldan teleqrafla xəbər verir ki, dün Darülfünunda bilümum müəllim və müəllimələr böyük bir ictima əqd [yığıncaq təşkil etmiş] və İzmirin işğalı matəminə bütün vicdanları ilə iştirak və bir çox nitqlər təatisi ilə [qarşılıqlı nitqlər söyləməklə] həyəcanlı saatlar yaşamışlardır.

Hüseyn Raqib bəy: Haqq naminə işlənmiş ən böyük haqsızlığın qəhri altındayız. İstiqlalının qürurunu yeddi əsrdən bəri mühafizə edən millətimiz daha bir əsrlik ömrü olmayan törədi [yeni ortaya çıxmış] bir dövlətin zülümü altına girəməz. Bu gün müharibədən cansız dönən türk yenidən canını fəda edə bilər.

Naqiyə xanım: Avropa bir qarış torpağımızı belə yunana vermək istəyərsə, biz qardaşlarımız və çocuqlarımız və babalarımızla tarixə şanlı bir surətdə qeyd olmaqdan çəkinməyəcəyiz, demişdir.

Bədəhu [sonra] bütün heyət Türkiyənin təqsimini [bölünməsini] mütəzəmmin [nəzərdə tutan] bir müahidəni [sazişi] imza buyurmamasını, millətin haqq və həyat naminə ifnayi-mövcudiyyətə [varlığını qurban verməyə] qərar verdiyini müqəyyid [qeyd edən], qələmə aldığı teleqrafnaməni padşahımıza təqdim etmişdir.

*(Təfsilatı gələn nömrəmizdə.)*

İngiltərənin islam və türk aləminə qarşı ənənəvi müzahirət və münasibatı [köməyini və münasibətlərini] təşdid və təqviyə [artırmaq və gücləndirmək] məqsədilə şəhərimiz islam və türk mütəfəkkirininin [mütəfəkkirlərinin] iştirakı ilə bir İngilis Mühibbi Cəmiyyət təşəkkül etmiş və bəyənnaməsini hökumətə təqdim etmişdir.

Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] Kütahya məbusi-əsbaqı [keçmiş Kütahya millət vəkili] [Əhməd] Fərid bəy, Məclisi-Vükəlaya [Nazirlər Kabinetinə] Rəşid Akif, Birinci fəriq Rza paşalar təyin edilmişlərdir.

**İzmirdə**

Müsəlman əhalisi arasında həyəcan olduğundan yunan komandanlığı İzmir şəhərini və İzmir vilayətini mühasireyi-əsgəriyyə [hərbi mühasirə] altında elan etmişdir.





**Türkiyənin gələcəyi**

"A. P." qəzetəsi xəbər verir ki, İngiltərə Türkiyə torpağının tamamiyyət əsasını müdafiə edir. Lakin Türkiyənin Yevropa dövlətlərindən birinin təhti-himayəsində [himayəsi altında] olmasını lazım görür.

**MİLLİLƏŞDİRMƏK MƏSƏLƏSİNƏ AİD**

"Azərbaycan" qəzetəsinin 193-cü sayısında [Ağayev] Tofiq Nurəddin əfəndinin "Milliləşdirmək məsələsi" sərlövhəli intiqadatını [tənqidlərini] oxudum. Mətbuatımızda görünən bir çox qəvaid [qayda, qaydalar] xətalarını göstərdikləri kimi, təlif etdiyim "Uşaq gözlüyü"nün xətt və imlası haqqında da bir qaç söz söyləmişlərdi.

İntiqad [tənqid] mətbuatın ələyidir. İntiqadın lisan və ədəbiyyata nə qədər böyük faydası olduğunu bildiyimdən, təqdir edirəm. Lakin intiqad haqlı, yerli və nəzakət dairəsində olmalıdır ki, qarelərə [oxuculara] faydası toxunduğu kimi, mühərrirlər [yazıçılar, müəlliflər] də səhv və xətalarında qənaət hasil edərək istifadədə bulunsunlar.

"Uşaq gözlüyü"nün xətt və imlası haqqında yürütdükləri fikir və mühakiməsini bir dürlü qane edəmmədiyindən, cavaba məcbur oldum. "Uşaq gözlüyü"nün xətt və imlası haqqında yazırlar ki:

*"Rus üsulu təqlid edilərək, cizgilər içində türk yazısı öyrədilmək istənmiş. Fəqət müəllif türk xütutuna [xətlərinə] vaqif olmadığından, yazı üsuluna, zövqi-səlimə və bədaye [estetika] fənninə o qədər zidd bir şəkildə tərtib etmiş ki, Qüruni-vüsta [Orta əsrlər] yazıları halını almış."*

Əfəndim! Qafqaziyada şimdiyədək işlənilən xəttin nə üsulda yazıldığını bilsəniz, bu etirazınızı "Uşaq gözlüyü"nün yazı üsuluna deyil, bütün Azərbaycanda hələ yazılmaqda olan ümumi xəttə qarşı etməliydiniz. Əlavə, bu xəttin nəsi sizin zövqi-səlim və hissi-bədiinizi oxşayammadığını bir dürlü anlayammayıram.

Kəlmələrin cizgilər içində yazılmasına gəldikdə, hənuz sol, sağ, yuxarı, aşağı bilməyən və əlləri yazarkən titrəyərək sadə "əlif" şəklini belə doğru müstəqim [düzgün] yazmağa qadir olmayan kiçik çocuqlarımız "Uşaq gözlüyü"ndə olduğu kimi cizgili dəftərlərdə qolaylıqla yaza bilmələri sənələrdən bəri hasil etdiyim təcrübəmin nəticəsidir. "Uşaq gözlüyü" ilə tədris edən müəllim əfəndilərin bir çoxu bunu təsdiq edə bilər. Qolaylıqla əldə edilə bilən bir istək ruslara, fransızlara təqlidən olsa belə, sizcə qəbahətmi sayılır? Zatən tərəqqinin hər addımı birər təqliddən ibarət deyil mi?

Bir də sait hərflərin üzərindəki işarətlərə etiraz edərək yazırsınız:

*"Sonra üsuli-sövtiyyə [fonetika, fonetik üsul] xətaları: "Ə" səsi يئ ilə, بش [beş] بئيش şəklində yazılır. او [ev] ئه و yaxud ايو surətində. Bu müəllim, gözəl türkcənin layətəğəyyər [dəyişməz] bir qaydasını bilməli idi: Heç bir müstəsnası olmadan, türkcədə kəlmənin ibtidasında [əvvəlində] saitlə yazılmamış bir qeyri-sait hərf məftuh oxunur: بش [beş], سس [səs], يمك [yemək], كلمك [gəlmək] ilax. kimi."*

Məncə bu iddianızda yanılırsınız. Zira ki, bu qayda ümumi olammaz: bir, biz,

siz, bülbül, sünbül və bunlar kimi bir çox kəlmə saitsiz yazıldıqları halda məftuh oxunmayır. Zənn edərsəm siz bu qaydanı demək istəyirsiniz: Kəlmənin başındakı saitin hərəkəsi (ه) olarsa, bu (ه) əksəriyyən yazılmaz: گمی [gəmi], سس [səs], گلمك [gəlmək], د ر ه [dərə], كمال [kəmal], زبان [zəban] və ilax. kimi.

İmlamızın çətinliyi inkar olunammaz bir həqiqətdir. "Vav" [و] hərfi يو ز [yüz], سوز [söz], قو ش [quş], قوچ [qoç] kəlmələrində dörd sədaya işarət olduğu kimi, "ya" [ي] hərfi də ير [yer], ديش [diş], قيش [qış], كيچي [keçi] kəlmələrində dörd sədanı yazır.

İnsaf edəlim, elmsiz bir ailədə böyümüş, zehin və dimağı çalışmamış kiçik məktəblilərimizin zehnini qarışdırmadan bu səkkiz hərfi iki hərflə nasıl öyrədə bilərsiniz? Pedaqoji nöqteyi-nəzərindən bu doğrumu? İlk dəfədə bu hərfləri yekdigərindən [bir-birindən] ayırmaq və qolaylıqla çocuqlara öyrətmək üçün hər birinin üzərində ayrı-ayrı işarətlər qoyulmasının nəsinə etiraz edirsiniz?

Əfəndim! Bu hal lisan və ədəbiyyatımıza cahil olduğumuzdan deyil, ehtiyac və zərurətin şiddətindən doğur. Bəndəniz son sadə Osmanlı türkcəsinin Azərbaycanımızda qəbulu tərəfdarlarındanam. Bir zaman Maarif Nəzarəti tərəfindən üzərimizə mühəvvəl olunan [tapşırılan] Kitab Komissiyasında çalışarkən qiraət kitablarımız həp Osmanlı sadə türkcəsi ilə yazılmasını, yalnız birinci ibtidai sinifin qiraət kitabları pedaqoji nöqteyi-nəzərindən Azərbaycan türkcəsində olmasını söyləmişdik. Zira ki, bir Azərbaycan çocuğu ا و ə-ا يو [ev], بش ə-بيش [beş] deyəmmədiyi üçün biz də bu kəlmələri "Uşaq gözlüyü"ndə ا يو, بيش surətində yazmaq məcburiyyətindəyiz.

*Talıbzadə Abdulla Şaiq*

## MÜTƏƏLLİMLƏR QURULTAYI [TƏLƏBƏLƏR QURULTAYI]

*4 iyun, 4-cü iclas*

İclas İbrahimli Müqbil cənablarının sədarəti və Süleyman Məlikzadənin katibliyi ilə açılır.

Növbədəki məsələlər:

1) Qazax nümayəndəsinin gəlməsi;
2) Mərkəzi Komitənin izahatı (məbəd [ardı]);
3) Məktəb məsələsi;
4) Əhvali-hazirə;
5) Cari məsələlər.

Məsələlərə keçmədən, Qazax nümayəndəsinin mandatı təsdiq olunur. Mərkəzi Komitənin fəaliyyəti barəsində izahatı dinlədikdən sonra Qurultay Komitəyə təşəkkür edərək, əzasının [üzvlərinin] rəsmlərini yadigar olaraq gələcək Mərkəzi Komitədə saxlamağı qət edir. Məktəb məsələsi hazır olmadığından növbədən çıxarılır. Əhvali-hazirə bir çox mübahisələri səbəb olur. Gec vaxta çəkdiyindən qəti həlli yarınkı iclasa qalır. İclas saat 9 radələrində qapanır.

**Etiraz**

İkinci Qafqaz Müsəlman Mütəəllimlərinin 4 həziranda 1919 sənədə vüqu bulmuş iclası heyəti-rəyasətin Ararat Cümhuriyyətində yaşayan müsəlman əhalisi haqqında məruzəsin[i] nəzəri-etibara alaraq şöylə bir qərara gəlmişdir:





Müsəlman əhalisi məzkur [adı çəkilən] cümhuriyyətdə qayət fəna bir halda olaraq, burada yaşayan qeyri millətlər hüquqati-mülkiyyəyə [vətəndaşlıq hüquqlarına] malik olmayaraq və dəhşətli aclığa təhəmmül edərək [qatlaşaraq], gündə minlərcə tələf olmaqdadırlar. Fəzlə [əlavə] olaraq müsəlman əhalisi hər bir tərpənişində erməni əhalisi tərəfindən amansız təcavüzata, talana düçar olduğundan əlavə, hətta Ararat Cümhuriyyəti onların qətl olunmasına imkan verir.

İkinci qurultay böylə hadisəni Məvərayi-Qafqazda [Zaqafqaziyada] yaşayan millətlər arasında hikməti-məişət [birgəyaşayış qaydaları] üzrə olmamasını izhar edərək [bildirərək], fövqdə [yuxarıda] zikr olunmuş Ararat Cümhuriyyəti müsəlmanları haqqında icra olunan vəhşiliklər, ədalətsizliklər qarşısında və buna imkan verən, ikiüzlü siyasət aparan Müttəfiqlər əleyhinə bütün qəlbi ilə etiraz edir. Qurultay hər bir mürrəvici-əfkara [yayın orqanına] müraciət edərək, böylə icra olunan vəhşiliklər əleyhinə kəndi nifrətlərini bildirməyi rica edir.

## QARABAĞ

**Şuşa müsadiməsi [toqquşması]**

Son günlər Şuşa hadisatı barəsində min dürlü şayiələr çıxmaqdadır. Bu hadisənin təfsilatı hələ məlum deyilsə də, əlimizdə olan bir qədər məlumatı qarelərimizə [oxucularımıza] təqdim ediriz:

Hamı bilir ki, ermənilərin bəzi qismi Qarabağı Ermənistana mülhəq etmək [birləşdirmək] fikrində olub, bu vaxtadək hələ Azərbaycan Hökumətini qəbul etməyirdi. Hökumətimiz nə qədər çalışdısa da, erməniləri sülh təriqi [yolu] ilə tabe edəmmədi.

Bununla bərabər, Şuşada post və teleqraf, xəzinə, qışla [kazarma] və sairə kimi mühüm dövlət müəssisələri Ermənistanda [ermənilərdə] olduğundan, böyük əngəllər çıxırdı. Nəhayət neçə gün əvvəl post idarəsini Şuşanın müsəlman hissəsinə köçürmək istədikdə, müxalif ermənilərlə əsgərlərimiz arasında xırda bir müsadimə [toqquşma] vaqe olmuşdur. Müxtəsər bir atışmadan sonra ermənilər hökuməti qəbul, silahlarını təslim və sairə kimi tələblərimizi qəbul edərək sülh və asayiş bərpa edilmişdir. Hal-hazırda Şuşada nizam və müsalimət [asayiş] bərpadır.

Mütəəssifanə [təəssüf ki], müsadimədə təsadüfən bir neçə ingilis əsgəri qətl edilmişdir. *(Hadisatın təfsilatı sonra.)*

**Ermənilərin dəsisəsi [hiyləsi]**

Ermənilərin Qarabağ haqqındakı sui niyyətləri barəsində bir çox sənədlər kəşf edilmişdir. Bunları şimdi dərc ediriz. Gələcəkdə əlimizə düşdükcə, bittərcümə [tərcümə edərək] dərc edəcəyiz. Hələliyə ələ keçən sənədlər bunlardır:

*"4 aprel 1919, nömrə 1056.*

*Cənab polkovnik! Zaqafqaziyadakı ingilis qoşunları komandanı general Tomsonla olan və edilən danışığa görə Qarabağın erməni hissəsinin idarəsi üçün İngilis Komandanlığı nəzdində nümayəndəliyə təyin edilirsiniz.*

*Ermənistan Xariciyyə naziri S[irakan] Tiqranyan.*
*Baş katib: A. Ter-Akopyan.*
*Cənab polkovnik Mixail Arzumanyana."*

*"Ermənistan Cümhuriyyəti Daxiliyyə Nəzarəti, 4 aprel 1919.*

*Qarabağ Erməni Milli Şurasına.*

*Hökumətin vədəsinə görə Arzumanyan İngilis Komandanlığı cənbində [nəzdində] nümayəndəliyə təyin edilir. Hökumətin qərarına görə, orada idarə təşkil etmək üçün hər ayda 400 min rublə göndərilir. Sizin hesabınıza Zəngəzura milyon manat göndərilmişdir. Sizin danışığınıza görə Arzumanyan general Tomson hüzurunda təşəbbüsatda bulunur. Var qüvvənizlə çalışmalısınız ki, bizimlə və Zəngəzurla əlaqənizi möhkəmləşdirəsiniz.*

*Daxiliyyə naziri (imza)"*

*"Alicənab Ermənistan Rəisi-vükəlasına [Baş nazirinə], 4 may 1919.*

*Sizə məlum edirəm ki, general Şattlvort Bakıda mənə bəyan eylədi ki, Ermənistan Hökuməti Azərbaycana razılıq vermişdir ki, müvəqqətən Qarabağı və Zəngəzuru idarə eyləsin. Ona məktubi [yazılı] sənəd vermədi amma Qarabağ heyətinin rəisi mayor Mak-Mosen 1 mayda onunla bərabər Gorusda olarkən mənə dedi ki, Ermənistan Hökuməti ilə olan etilafa [razılığa] görə, Gorusdakı Erməni Milli Şurasını qəbul etməyiriz. Onun nümayəndəsi Şahmazyanı da Ermənistan Hökuməti qəbul etməyir. Təvəqqe edirəm, bu barədə mənə məlumat verəsiniz. Zira Qarabağ və Zəngəzur Azərbaycanı yaxınına buraxmağa ümid etmirəm ki, razı olsunlar. Göndərirəm sizə teleqram, çünki məsələ çox mühümdür. Binaənileyh [ona görə], Rubeni də göndərirəm ki, sizə müfəssəl məlumat versin. Qalan mətləbi Ruben şifahən sizə bəyan edər.*

*Arzumanov"*

*"Şişə erməni hökuməti nümayəndəsi Arzumanyana.*

*1919-cu ildə may ayının 9-da alınmışdır.*

*Ermənistan Hökuməti heç bir vaxt kimsəyə rizasını verməmişdir. Hökumət qalır, hökumət 1559 köçəriləri buraxmağa razıdır.*

*Generalnı katib [A.] Ter-Akopyan."*

*"İrəvan - Ermənistan Hökuməti sədrinə.*

*Təvəqqe edirəm [A.] Ter-Akopovun teleqramını təsdiq edəsiniz. 1559 sizin razılığınız barəsində İngiltərənin Baş komandanlığından rəsmən təsdiqnamə aldım. Daxiliyyə naziri [Ruben Ter-]Minasyanın teleqramını aldım. Hərbi rəmzlə [şifrlə] "meo" ya "ome" rəmzi ilə teleqraf vurun.*

*[Mixail] Arzumanov.*
*Göndərilmişdir*
*10 mayda 1919-cu sənədə."*

## PROTESTO NÜMAYİŞLƏRİ

Denikinin Azərbaycan üzərinə vaqe olan qara təhdidi bütün camaat və əmələ müəssisatı [ictimai müəssisələri və işçi müəssisələrini] ciddi surətdə əlaqədar edir. Bu məqsədlə konfrans tərəfindən bu gün, cümə günü ayın 13-ü bütün əmələ rayonlarında mitinqlər tərtib edilir. Bu mitinqlərdə əhvali-hazirə haqqında məlumat verilir. Hökumətdən ciddiyyətlə səbat göstərməsi tələb [edilir] və əmələlər tərəfindən mübariz hökumət tərəfində olub ona yardımçı olacaqları üçün beyət olunacaqdır [tabe olunacaq, itaət ediləcəkdir].





Bu mitinqlərə müsəlman əmələlərinin də külliyyətlə gəlmələri, müsəlman firqələri və əzcümlə [o cümlədən] "Müsavat" firqəsi tərəfindən tövsiyə olunur.

* * *

Düşənbə [bazar ertəsi] günü ayın 9-da ümumi protesto tətili elan olunub, əmələlər ümumi rayonlardan bayraqları ilə şəhərə, Hürriyyət meydanına gələcək, orada yığışdıqdan sonra bərabərlikdə mənsub olduqları firqələrin bayraqları və istiqlal və hürriyyət müdafiəsinə yazılı lövhələrlə hökumət qarşısına (Mirbabayevin evi, dəniz kənarı), oradan ingilis komandanlığına (Sadovaya), sonra Parlaman qarşısına gəlib oradan hər kəs öz rayonuna gedəcəkdir.

* * *

Ayın 9-da elan olunacaq tətil səhər saat 8-dən başlanacaq. Hürriyyət meydanındakı ictima [yığıncaq] 12-nin yarısında olacaq. Bu gün vaqonlar fəhlələr üçün pulsuz olacaqdır. Tətil gününün pulu veriləcəkdir. Nümayiş proqramı və yürüşü aşağıdakı tərtib üzrə olacaq.

Balaxanı və Suraxanı:

Balaxanı-Suraxanı əmələləri səhər saat 11-in yarısında şəhərə gəlirlər. Vağzal meydançasında və Mixaylov məktəbi qabağından keçərək, Telefonnı və Budaqovski küçələrlə Balaxanski küçədən keçib saat 12-nin yarısında Hürriyyət meydançasında hazır olurlar.

Belı-qorod, Çornı-qorod əmələləri saat 10-da Sovet Syezd xəstəxanası qarşısında olan meydanda yığılıb, oradan saat 11-də Telefonnı, Milyonnı, Malakanski, Budaqovski və Birjevoy küçədən keçib, saat 12-nin yarısında Hürriyyət meydanında hazır olurlar.

Həmkarlar İttifaqları və siyasi firqələr səhər saat 10-da parapetə cəm olub Kolyubakinski, Mariinski, Tarqovı və Morskoy küçələrdən keçib saat 12-nin yarısında Hürriyyət meydanında hazır olurlar.

Bibiheybət və Bayılov Elektrik Qüvvəsi meydanına cəm olub oradan bulvara, nəqliyyat işləri işçilərinə qoşulub Olqinski, Baryatinski, Mariinski və Birjevoy küçələrdən keçib saat 12-nin yarısında Hürriyyət meydanında hazır olurlar.

Morskoy rayon saat 10-da bulvara "Fenomen" teatrosu qarşısına cəm olub, Bibiheybətdən gələnləri gözləyib, onlarla bərabər Hürriyyət meydanına gəlirlər.

Dəmiryol işçiləri saat 10-da Vağzal meydanına cəm olub oradan Telefonnı, Budaqovski küçələrlə Hürriyyət meydanına gəlirlər.

Biləcəri işçiləri saat 10-da Hürriyyət meydanına cəm olub, oradan Biləcəri mövqifi [stansiyası] bağına gedərək burada isə mitinqlər tərtib edirlər.

## BAKI XƏBƏRLƏRİ

**Ali hökumət heyəti**

Məclisi-Məbusan tərəfindən qəbul edilmiş olan qətnaməyə görə, hökumət içərisindən üç nəfərdən ibarət bir Ali hökumət heyəti təşkil edilmişdir.

**Azərbaycan-Gürcüstan ittifaqı**

Rəsmi dairələrdən alınan məlumata görə, Azərbaycan ilə Gürcüstan cümhuriyyətləri arasında hərbi ittifaq əqd edilmişdir [imzalanmışdır].

**Nazirlərin Tiflisə əziməti**

Hərbiyyə naziri general Səməd bəy Mehmandarov qulluq işlərindən ötrü Tiflisə hərəkət və əzimət etmişdir [yola düşmüşdür]. Rəisi-vükəla [Baş nazir], Daxiliyyə və Ədliyyə nazirləri Nəsib bəy Yusifbəyli, [Aslan bəy] Səfikürdski dəxi bir neçə günlüyə Tiflisə getmişlərdir.

**İngilislərin getməsinə dair**

Mövsuq [etibarlı] mənbələrdən bizə xəbər verirlər ki, Bakıdakı İngiltərə qoşunları əvvəlcə verilən əmrə görə Bakıdan gedəcək və onların əvəzinə başqa dövlətin qoşunları gələcəkdir.

**İtalyanların gəlməsi ətrafında**

Bu günlərdə Tiflisdən Bakıya gəlmiş olan ofiserlərin dediyinə görə, orada İtaliya qoşunları cəm olmaqdadırlar. Varid olmuş [gəlmiş] İtaliya qoşunlarının miqdarı cüzi isə də, lakin hər bir qoşun hissəsindən bir qədər vardır.

**Müsəlman Müəllimləri İttifaqında**

- Müsəlman Müəllimləri İttifaqı bütün məhəllərə [yerlərə] elam etmişdir [bildirmişdir] ki, tədrisat sənəsi 10 sentyabrda başlanmasını nəzəri-etibara alaraq həman vəqti-mövudda [müəyyən edilmiş vaxtda] məhəllərdə bulunsunlar və dərslərə şüru etsinlər [başlasınlar].

- Yenə həman İttifaq bütün Azərbaycandakı məktəb olan şəhər və qəsəbələrə birər kağız göndərərək rica etmişdir ki, məhəlli ittifaq təşkil edərək Bakıda mərkəzi təşkilat ilə İttifaqa mülhəq olsunlar [qoşulsunlar]. Böyləliklə, təşkil edilmiş ittifaqlarla mərkəzi təşkilat miyanında [arasında] daimi bir əlaqə olacaqdır.

- İttifaq bütün məkatib [məktəblər] müdiriyyətlərinə məlum etmişdir ki, gələcək dərs sənəsi üçün lazım ola biləcək hər növ ləvazimatı yazıb Maarif Nəzarətindən istəsinlər. Zira İttifaqın təşəbbüsatı sayəsində Nəzarət ləvazimat verməyi dəröhdə etmişdir [öhdəsinə götürmüşdür].

- Hal-hazırda İttifaqın idarəsi tərəfindən görülmüş tədabir [tədbirlər] sayəsində bütün ibtidai məkatib üçün proqram hazırlanmaqdadır. Bundan ötrü də Bakıdakı ən təcrübəli müəllimlərdən Mahmud bəy Mahmudbəyzadə, Rəsul bəy Tahirzadə, Ağa bəy İsrafilbəyzadə, Əbdüləli bəy Vəlibəyzadə, Mirzə Hüseyn Axundzadə, Mirzə Ələkbər Axundzadə cənabları cəlb edilmişlərdir. Proqram hazırlandıqdan sonra təb [çap] edilərək məhəllərə göndəriləcəkdir.

**Əmələlərin protestosu**

"Müsavat" və "Hümmət" firqələrinin Məclisi-Məbusan fraksiyalarına əmələlərin protestosu gəlməkdədir. Protestoda göstərilir ki, Könüllü orduya həman əvvəlki qərar üzrə əslihə [silah] və külli miqdarda hərbi ləvazimat göndərilməkdədir. Əmələlər böylə hərəkatın önü alınmasını ciddi surətdə tələb edirlər.

* Neçə vaxt əvvəl Ərzaq Nəzarəti dəxildarını [kassirini] soymaqda müttəhim edil-miş olan Məhəmməd ağa Həsənov üç ay həbsə məhkum edilmişdir.

**Əsgərlikdən qaçmaq cəzası**

Bakı qalabəyisinin [komendantının] binagüzarlığına [sərəncamına] görə, 3-cü uçastokda sükunət edən [yaşayan] Bakı əhlləri Hacı Əbdülbaqi Abdulla oğlu, Balahacı Hüseynov, Hacıpaşa Ağababa oğlu, Ələkbər Məşhədi Nəcəf oğlu, Məhəmmədkərim İsrafilov, Sadıq Hacı Qafar oğlu və Əliabbas Nəsrulla oğlu öz oğlanlarını və qardaşlarını əsgərlikdən qaçırmaqdan ötrü gizlətməkdə müttəhim edildiklərindən, əsgərlər gəlincəyə qədər Mərkəzi Həbsxanada məhbus edilmişlərdir.

**İtibdir**

İyunun 3-də Əmirhacıyan (Xilə) kəndi əhlindən 14 yaşında Əhməd Hacı Adil oğlu şəhərə gəlib, o vaxtdan ondan bir xəbər yoxdur. Onun yerini bilənlərdən xahiş olunur ki, Xilə kədində Hacı Adilə xəbər versinlər.

**Könüllü ehtiyat alayı**

Srağagün, cümə günü könüllü "ehtiyat alayı"nın axırıncı bölüyü Təzəpirdən Salyan qışlasına [kazarmasına] getmiş və orada zabitlərdən məşq və təlim almışlardır. Salyan qışlasında məşq əsnasında şəhərdən Məclisi-Məbusan əzalarından [üzvlərindən] hərbi məmurlar, axundlar və firqə nümayəndələri hazır olmuşlardır. Könüllülərin istənilən dərəcədə təlim və məşqə həvəsli olduqları və az bir zamanda arzu olunan bir səyaqda hazırlanmaları hər kəsi sevindirmişdir. Məşqdən sonra könüllülər dəstələrlə nəğmə oxuduqları halda Şamaxı küçəsi, Bazar və Aziatski küçələrlə Təzəpir həyətinə toplaşıb orada dua oxuduqdan sonra evlərinə getmişlərdir. Könüllülər keçdikləri küçələrdə külli miqdarda camaat onların tamaşasına çıxıb şiddətli surətdə alqışlayaraq "Yaşasın könüllülərimiz" demişlərdir. Könüllülərin miqdarı hal-hazırda 1200 nəfərə qədərdir. Yenidən yazılanların miqdarı isə gün-gündən artmaqdadır. Komissiyanın idarəsi Serkovnı küçədə "Fani" kontorunda hər gün səhər saat 9-dan 2-yə, axşam saat 5-dən 7-yə qədər açıqdır. Yazılmaq istəyənlər oraya müraciət etməlidirlər.

## ZİYALILAR İTTİFAQINDA

*Mayıs 26 iclası*

İclas açıldıqda 19 mayıs iclasının bəratülqövlü [protokolu] oxunaraq və imza edildi. Əxzi-əsgər [hərbi çağırış] idarəsinə dair maddə oxunduqda vali ilə görüşməyə intixab olunmuş [seçilmiş] Ağalar bəy ərz etdi ki, vali ilə görüşüb Əxzi-əsgər idarəsi bizim nümayəndələri qəbul etmədiyi xüsusunda danışmışdır. Vali bu idarədən bir məşruhə [izahat] yazılmasını xahiş edir. İdarə qərar qoydu ki, Əxzi-əsgər idarəsi bizim nümayəndələri valinin əmrinə rəğmən qəbul etmədiyi xüsusda valiyə yazılsın. Sonra günlük məramnaməyə keçildi.

Müzakirəyə qoyulacaq məsələlər:

1) İclasın nəfinə [xeyrinə] qoyulacaq tamaşa xüsusunda;

2) Ümumi iclas dəvəti;

3) İş evləri açmaq;

4) Məhsulat toplamaq;

5) Gömrük haqqında;

6) Hali-hazır;

7) Türkiyədə həbsə alınmış [Əhməd bəy] Ağayev haqqında;

8) İclasa gəlməyən üzvlər haqqında.

Əvvəlinci məsələ müzakirəyə qoyul-

duqda, Ağa əfəndi [Axundov] söylədi ki, Hökumət Teatrosunu həmin mayıs ayının 27-nə tutmuşdur və Hacıbəyov Qardaşlarının müdiriyyəti ilə görüşmüşdür. Həman gün "Arşın mal alan" operettasının mövqeyi-tamaşaya qoyulmasını müdiriyyət vəd etmişdir. İdarə qərar qoydu ki, tamaşa günü Ağa əfəndi, Camo bəy, Cəmil bəy [Vəzirov], Teymur bəy [Bayraməlibəyov], Abdulla bəy [Abaşidze], Əliməhəmməd, Xudaverdi, Baba bəy və Sadıq əfəndi teatroda hazır olub işlərin nizamla getməsinə diqqət etsinlər.

İkinci məsələ müzakirəyə qoyulduqda heyəti-rəyasət xəbər verdi ki, heyətlərdən bu zamana kimi layihələr idarəyə daxil olmamışdır. Tək bir maarif heyəti tərəfindən layihə gəlmişdir. Bu səbəbə ümumi iclasa təqdim etməyə bir şey yoxdur. Lazımdır ki, heyətlər öz layihələrini idarəyə versin və idarə ümumi iclasa təqdim etmək üçün bir şey hazırlasın. İdarə qərar qoydu ki, heyətlər həpsi həziranın 2-nə təyin olunmuş iclasa layihələrini hazır etsinlər, ta ki ümumi iclasa təqdim etməyə bir iş olsun. Hazırda olan heyətlər sədrləri vəd etdilər ki, həmin iclasa layihələrini təqdim edəcəklər.

Üçüncü məsələyə keçdikdə, Ağalar bəy və Sadıq əfəndi [Hüseynzadə] kəndilərinə mühəvvəl olunmuş [tapşırılmış] iş evləri smetalarını oxudular. İdarə əsasən smetanı qəbul etdi, fəqət tapşırdı ki, daimi məxaricləri müvəqqəti məxariclərdən ayrı göstərib smetanı kəndiləri Ümuri-Xeyriyyə [Sosial Təminat] nazirinə təqdim etsinlər.

Dördüncü məsələyə keçdikdə, Rəhim əfəndi söylədi ki, ot və taxıl məhsulu bu il boldur. Fəqət bunları toplamaq əhali üçün müşkül olacaqdır. Səbəb odur ki, keçmiş ilin hadisəsindən sonra əhali həm can, həm mal, ziraət alatı [kənd təsərrüfatı alətləri] tələfatı vermişdir. Lazımdır ki, əhaliyə yardım edilsin. İdarə qərar qoydu ki, Rəhim əfəndi və Abdulla bəy [Abaşidze] İttifaq tərəfindən Ziraət nazirinin hüzuruna gedib bu xüsusda danışsınlar və nazirdən aldıqları cavabı idarəyə məlum etsinlər.

Beşinci məsələyə keçdikdə, Ağalar bəy bəyan edir ki, Bakıdakı Gömrük İdarəsi üçün bir mühafizə bölüyü təşkil edilir. Bu, ziyadə lazımlı bir bölük isə də, fəqət buraya toplanan nəfərlər mötəbər şəxslərdən deyil. Olar ki, bölük qeyri-mötəbər fərdlərdən toplansın və bunlar gömrük idarəsində olan hökumət sərvətinə yaxşı can yandırmasınlar. İdarə qərar qoydu ki, bu xüsusda Daxiliyyə nazirinə bir məktub yazılsın.

Altıncı: Denikin ordusu Dağıstan hökumətini məhv edib Azərbaycan sərhədinə gəlməkdədir. Ehtimal var ki, bizim də istiqlaliyyətimizə təcavüz etsin. Üzvlər tərəfindən irad olunan [söylənən] atəşin nitqlərdən sonra idarə qərar qoydu ki, bu xüsusda hökumətə var qüvvəsi ilə kömək etsin.

Yeddinci: [Heydər bəy] Şahtaxtlı ərz etdi ki, illərlə zəhmət və məşəqqətlərə uğrayaraq vətənimiz üçün çalışan və vətənin tərəqqisinə səy edən Əhməd bəy Ağayev Türkiyədə siyasi bir səbəbə görə həbsə alınmışdır və bu zamana kimi onun həbsdən azad olması üçün heç bir kəs çalışmayır. Halbuki bu şəxsin böylə bir zamanda vətənimizdə olması ziyadə faydalı olardı. Bundan masiva [bundan başqa], Əhməd bəyin sənələrlə işlədiyini hər kəs bilir. Ziyalılar İttifaqının bu yolda çalışması əhəmiyyətdən xali [əhəmiyyətsiz] olmaz idi, - söylədi. İdarə qərar qoydu ki, İttifaq tərəfindən Osmanlı hökumətinə böylə bir istida [ərizə] yazılsın:

*"Müstəbid çar hökumətinin ən müdhiş və hökmran zamanlarında Qafqaziya müsəlmanlarının tərəqqi və təalisinə [yüksəlməsinə] böyük xidəmatda [xidmətlərdə] bulunmuş və bu uğurda nəhayət, əziz vətənindən uzaqlaşmağa məcbur olan Əhməd bəy Ağayev cənablarının Dövləti-Aliyyə tərəfindən həbsə alınması qafqaziyalıları dərin bir yəs və kədər içində buraxmışdır. Bütün müsəlmanlığın və türk dilinin ikinci Kəbəsi olan İstanbulda, o paytaxti-xilafətdə, islam və türk xadimlərinin mücazata [cəzaya] uğraması İstanbula qarşı böyük bir hörmət və məhəbbət bəsləyən gənc ziyalılarımızda pək fəna təsir buraxır. Çar istibdadı zəncirləri altında inləməyə məhkum olduğumuz və son vaxtlarda "bolşevik maskası" altında kəndi şəxsi qərəz və siyasətlərini yürütmək məqsədilə əziz yurdumuzu və sevgili millətimizi yıxıb-yaxaraq, irz və namusumuza toxunaraq, çocuqlarımıza, qadınlarımıza belə rəhm etməyən erməni vəhşətinin öldürücü, yaxıcı, yıxıcı siyasətinə qurban olduğumuz və bütün-bütünə məhv və inqiraza [çöküşə] üz tutduğumuz bir zamanda qəhrəman Türk Ordusunun imdadı ilə o müdhiş fəlakətdən qurtulduq. Qurtulduq da, kiçik bir türk hökuməti təşkilinə də müvəffəq olduq. İştə, bu gün Qafqaziyanın yaşıl dağlarında dalğalanan aylı-ulduzlu bayrağımız o qocaman türklüyün doğurduğu yeni hilaldır. Gənc hilalımız o şan və zəfər görmüş hilalınızın yavrusu olduğu kimi, bizlər də o qocaman, qəhrəman türk milliyyətinin bir çox siyasi və tarixi səbəbdən dolayı uzaq düşmüş yavruları deyilmiyiz? Bir övladın babasına müraciəti kimi, biz Qafqaziya Ziyalılar İttifaqı böyük babamız Dövləti-Aliyyəyə rücu [müraciət] edib, vətənimizin çalışqan adamlara çox ehtiyacı olduğu səbəbilə böylə bir zamanda Əhməd bəy Ağayev cənablarının həbsdən azad və Qafqaziyaya göndərilməsini acizanə istirham [xahiş] edir."*

Səkkizinci məsələyə keçildikdə, üzvlərdən Mehdi bəy Hacıbababəyli idarənin beş iclasına gəlmədiyi və bu xüsusda məlumat verməmədiyi səbəbiylə nizamnaməyə görə üzvlükdən xaric edildi və əvəzinə Zivər bəy seçildi.

**Elan**

Bununla ümuma elan edirəm ki, Haşım Qafar oğlu mənə olan qərzi [borcu] verməmişdən, özünün Nikolayevski küçə, 6-cı tupikdə [dalanda] olan 3 nömrəli evini satmağa ixtiyarı yoxdur.

*Mirəlinağı Rzayev*
*10222*

**İtibdir**

Bir qız uşağı, üç yaşında, adı Reyhan İslam qızı bu gün üç gündür ki, itibdir. Xəbəri olanlardan acizanə xahiş olunur 4-cü polis idarəsinə xəbər versinlər.

*10223*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**“Kooperatsiya” müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

Doktor **M. M. Kərimov** göz naxoşlarını və diş həkimi **A. Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Doktor M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. “606” və “914” müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

**Bakı, Türkan, Zirəyə və geri**

İyun ayının 8-dən etibarən paroxod “Zaburunye” işləməyə başlayacaqdır. Hər gün saat 9-da “Qafqaz-Merkuri və Vastoçni” cəmiyyətinin paraxodu 17-ci körpüdən (Qorçakovski küçə ilə qarşı) gedəcəkdir. Bakıya isə axşam saat 6 radələrində gələcəkdir.

*10219*





Xarici məmləkətlərə yun yollamağı və komisyon təriqi ilə xarici məmləkətlərdə satmağı **İ. V. Denisovun** bankir kantorası qəbul edir (Olqinski, Nikolayevskinin küncündə, telefon nömrə 37-75). Sifarişlər saat 5-dən 7-yə dək qəbul olunur.

*10220*

**Zəhmət (məsai) bürosu**

Bakı Şəfqət Bacıları İttifaqı şəfqət bacılarını gecə işlərinə, iynə vurmağa, masaj etməyə müərriflik edir [tövsiyə edir, zəmanət verir]. İttifaq öz işçilərinin işlərinə cavabdehdir. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Budaqovski və Malakanski küçələrin küncündə, nömrə 16/22, mənzil 6. Konkanın mənzili. Telefon nömrə 14-08. Büro bütün gün açıqdır.

*8755*

**İstanbuldan, İngitlərədən**
**və Fransadan mallar**

İ. V. Denisovun bankir kantorası İstanbula, Marselə (Fransa) və Liverpula (İngiltərə) mal alıb gətirmək üçün nümayəndə göndərir. Sifarişlər İ. V. Denisovun bankir kantorasında qəbul olunur (Nikolayevski və Olqinski küçələrin küncündə) hər gün axşam saat 5-dən 7-dək.

*10210*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Dəvətnamə**

səh. 163. “Sovet Syezd”: Bakı Neft Sənayeçiləri Qurultayı Şurası. Bakı Neft Sənayeçiləri Qurultayının rəhbər orqanı.

**Ümidimiz bərkəmaldır**

səh. 165. “Əhalimiz hər xüsusa hazırlanır və hazırdır”: qəzetdə “xüsusa” yerinə “xüsusu” getmişdir.

səh. 167. Bu cümlə anlaşılmamışdır.

“Ölməkdən qorxan bir millət daima ölməyə məhkum və ölüdür”: qəzetdə “ölməkdən qorxan” yerinə “ölməkdən qorxmayan” getmişdir.

**El ordusu**

səh. 168. “Nə zaman kişnəsəydi...”: misralar Hüseyn Cavidin “Hərb və fəlakət” adlı şeirindəndir.

“daxili və xarici düşmənlərdən müdafiə edən”: qəzetdə “müdafiə edən” yerinə “müdafiədən” getmişdir.

**Sülh ətrafında**

səh. 173. “Dördlər Şurası” (yaxud Böyük Dördlük): Paris Sülh Konfransının gedişində dörd böyük dövlətin liderlərindən əmələ gələn şura (“Böyük Dördlük” yaxud “Dördlər Şurası”); bura ABŞ prezidenti Vudro Vilson, Britaniya, İtaliya və Fransa Baş nazirləri Lloyd Corc, Vittorio Orlando və Jorj Klemanso daxil idi.

“Reyxstaq” [Reichstag]: Kayzer Almaniyası (1871-1918) və Veymar Respublikası (1918-1945) dövründə Almaniyanın parlamenti.

**Qəzetələrdən**

səh. 174. “Avamlar Kamerası”: ikipalatalı Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası.

səh. 175. "Sülh Konfransında məsələlər həll edilənədək": qəzetdə "edilənədək" yerinə "edilərək" getmişdir.

**Türkiyədə**

səh. 176. "Darülfünun" (yaxud Darülfünuni-Osmani): Türkiyədə ali təhsil müəssisəsi; indiki İstanbul Universiteti.

"İngilis Mühibbi Cəmiyyəti" (İngilis Dostları Cəmiyyəti): 1919-cu ilin ortalarında Türkiyədə qurulan və Türkiyənin İngiltərənin himayəsinə girməsi fikrini müdafiə edən cəmiyyət.

"Birinci fəriq": Osmanlı ordusunda hərbi rütbə, müasir dövrdə "ordu generalı" rütbəsinə uyğundur.

səh. 177. "A. P." qəzetəsi: "Assoşieyted press" qəzeti nəzərdə tutulur.

**Milliləşdirmək məsələsinə aid**

səh. 177. "məftuh": ərəb qrafikasında, hərfin üstündə qısa "ə" səsini ifadə etmək üçün qoyulmuş fəthə işarəsi daşıyan; "məftuh hərf": özündən sonra "ə" saiti gələn samit.

**Qarabağ**

səh. 179. "Ermənistan Xariciyyə naziri S[irakan] Tiqranyan": qəzetdə səhvən belə getmişdir: "Ermənistan Xariciyyə naziri Ter-Akopyan".

"Baş katib: A. Ter-Akopyan": qəzetdə bu sətir buraxılmışdır.

səh. 180. "Minasyan": qəzetdə səhvən "Mamasyan" getmişdir.

**Bakı xəbərləri**

səh. 181. "üç nəfərdən ibarət bir Ali hökumət heyəti": qəzetdə "ibarət" yerinə "ibarətdir" getmişdir.

**Ziyalılar İttifaqında**

səh. 183. "İclasın nəfinə qoyulacaq tamaşa xüsusunda": güman ki, "İttifaqın nəfinə..." olmalıdır.

səh. 184. "Beşinci məsələyə keçdikdə": qəzetdə "keçdikdə" yerinə "getdikdə" yazılmışdır.

səh. 185. "Dövləti-Aliyyə": Osmanlı dövləti nəzərdə tutulur.





**Bazar ertəsi, 9 iyun 1919-cu il, nömrə 199**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 10 ramazanül-mübarək sənə 1337. 9 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Əlisultan Sultanov öz sevgili atası Kərbəlayı Mirzəbaba Sultan oğlunun vəfatını kəmali-yə's və təhəssürlə [böyük bir hüzün və kədərlə] öz qövm-əqrəbasına məlum edir. Cənazə düşənbə [bazar ertəsi] günü ramazanın 10-da saat 8 tamamda Nijni-Priyutski küçədən öz dayısı Hacı Ağababa Dadaşovun 110 nömrəli evindən Hacı Ağababa təkyəsinə aparılacaqdır.

**ELAN**

1919 həziranın [iyunun] 9-cu günü saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-145*

**QİSMİ-RƏSMİ**
**[RƏSMİ HİSSƏ]**

**Bakı nahiyəsi Əxzi-əsgər [Hərbi çağırış] rəisi idarəsindən:**

1

Cümhuriyyətin idareyi-əsgəriyyə müəssisə və idarələrindən, xüsusi dəstə rəislərindən xahiş edirəm ki, Türkiyə Komandanlığı tərəfindən xidmətə qəbul edilib hal-hazırda xidmətdə olan əsgərlərin müfəssəl siyahısını mənə təqdim edəsiniz. Bu siyahılar Azərbaycan Cümhuriyyətinin Hərbiyyə Nəzarətinin 6 aprel 179 nömrə §1 və mayın 15-də 3 nömrə ilə təsdiq edilmiş əmri mövcibincə [əmri əsasında] tələb edilir.

*Bakı nahiyə Əxzi-əsgər rəisi:*
*Prins Sədrəddin*

2

Əsgəri xidmətə qəbul vaxtında xəta işlənməsi haqqında şikayətlərə baxmaq Əxzi-əsgər rəisinin vəzifəsi deyildir. Buna binaən [buna görə], göstərilən məsələ haqqındakı xahişlər, ərizələr və şikayətlər mənim tərəfimdən qəbul edilməyəcəkdir. Posta ilə göndərilənlər də sərəncamsız buraxılacaqdır.

Əxzi-əsgər rəisi vəzifəsinə aid olan işlər haqqında bayram günlərindən başqa hər gün səhər saat 9-dan gündüz saat 3-ə qədər ancaq Əxzi-əsgər idarəsi dəftərxanasında mənə müraciət edilməlidir. Əxzi-əsgər rəisi vəzifəsinə aid olan heç bir iş haqqında evimdə qəbul etməyirəm.

*Podpolkovnik Prins Sədrəddin*

**Əsgərliyə dəvət haqqında**

Bakı Əxzi-əsgəri rəisi iyunun 4-də Ba-

kı və Balaxanı-Sabunçu polismeysterlərinə zeyldəki [aşağıdakı] məktubla müraciət etmişdir:

"Əsgəri işlərə aşna olub, mən yəqin etdim ki, istehzari-əsgəriyyə [hərbi çağırış] işləri hələ yenicə başlanır:

1) Əsgərliyə dəvət edilənlərin siyahısı hələ tamam olmamışdır.

2) Əsgər düşənlərin siyahısını tərtib edici komissiyaya ləyaqətsiz, ola bilər ki, öz mənfəətini güdən adamlar düşmüşlər. Keçən gün iyunun 2-də camaat vəkillərindən ikisini kəşf etdim ki, biri qəsdən öz qardaşını, digəri öz oğlunun adını siyahıya yazdırmamışlar.

3) Təhti-idarənizdə [tabeçiliyinizdə] olan polis məmurları iclaslara gəlməyirlər. Adamları gətirməyi kəndxudalara və ya başqa adamlara vagüzar edirlər [tapşırırlar] ki, bunlar da uçastoka gətirilən bir para adamları öz ixtiyarları ilə azad edirlər. Polis nəfəratı iyunun 2-də Əxzi-əsgər idarəsinə gündüz saat 12-dən sonra gəlmişdir. Vəhalonki [halbuki], Əxzi-əsgər idarəsində saat 9-dan iş başlanmışdır. Ələlümum [ümumiyyətlə] polisənin fəaliyyətini görməyirəm. Mən buna inanıram ki, siz Azərbaycan üçün tezliklə əsgər cəm edilməsinin nə qədər böyük əhəmiyyəti olduğunu düşünürsünüz və yəqin sizə məlumdur ki, hökumət bu işlərə nə qüvvəni və nə də pulunu müzayiqə etməyir [əsirgəmir]. Azərbaycan Hökuməti Hərbiyyə Nəzarəti işlərinin təxirə uğramasına bais ola biləcək heç bir mümaniət [maneçilik] qarşısında dayanmayacaqdır.

Bakı şəhəri Azərbaycanın paytaxtıdır. Gərək idi o, əsgər cəm edilməsi işində bütün Azərbaycan üçün nümunə olaydı. Lakin məəttəəssüf [təəssüf ki], Bakı Azərbaycanın hər yerindən dalı qalmışdır. Doğrudur, buna bəzi işlər mane olmuşdur, lakin hal-hazırda vətənpərvərlik hissini feilən göstərməyə tamamilə imkan var ikən, mən yenə də cavan cümhuriyyət üçün qüvvətli ordu vücuda gətirmək işində vətəndaşlarda olan soyuqluq, səhlənkarlıq, vicdansızlıq və ürəksizliyi görürəm. Onlarda olan mənfəət qazanmaq arzusu, azad cümhuriyyətin hər bir dərrakəli vətəndaşındakı öz oğlanlarını vətən yolunda vermək üçün ən birinci müqəddəs vəzifəyə qalib gəlmişdir.

Burada, azad cümhuriyyətin paytaxtında mən nələr görürəm? Adları qul olmağa layiq olanların gizlənməyini, bununla da əlaqədar olaraq vətənin xainlər[i] tərəfindən bu qulların alınıb satılmasını görürəm.

Paytaxtı və onun ətrafını ayıltmaq zamanıdır. Mən inanıram ki, bu mümkündür və buna asanlıqla nail olmaq olar. Əhalinin bütün dərrakəli sinfini sözlə, qələmlə əhaliyə icrayi-nüfuz yetirməyə, sizi də məmur olduğunuz halda əhali ilə bir yerdə işləməyə dəvət edirəm. Buna görə sizdən xahiş edirəm ki:

1) Həmişə sizə tabe olanlar üzrə qüvvətli nəzarətiniz olsun.

2) Pristavlara təklif ediniz ki, əsgər yığılan günlərdə özləri beşəxsən bütün polisə qulluqçuları köməkliyi ilə əsgərliyə dəvət edilənləri cəm eyləməyə və əsgərliyə düşənlərin siyahılarını tərtib edici komissiyada ləyaqətli və möhtərəm adamların olmasına və onları vaxtlı-vaxtında Əxzi-əsgər idarəsinə gətirməyə çalışsınlar.

3) Məzkur [adı çəkilən] komissiya heyətinə ləyaqətli şəxsləri və oğlanları əsgəri xidmətdə olanları təyin etməlidir.

4) Öz oğlanlarını, qardaşlarını gizlədən adamlar camaat arasında nə tövr mövqe tutmuş olsalar da, oğlanları və ya qardaşları gəlib tapılana qədər həbs edilməlidirlər. Pristavların borcudur ki, Əxzi-əsgər idarəsi iclasına qədər həbs edilənlərin siyahısını iki nüsxədə – Hərbiyyə nazirinə təqdim etməkdən ötrü birini mənə, digərini Əxzi-əsgər idarəsi sədrinə verməlidirlər.

5) Əhaliyə xəbər verməlidir ki, valideynlər və ya qövmlər [qohumlar] əsgərliyə düşən oğul və ya qardaşlarını adları siyahıda oldu-olmadı öz razılıqları ilə təyin edilən gündə gətirməlidirlər. Əxzi-əsgər idarəsinə gəlməyənlər şiddətli surətdə tənbeh ediləcəklər. Valideynlər isə əsgərliyə düşənləri gizlətmək üçün məsuliyyətə cəlb ediləcəklərdir.

6) Əsgərliyə düşənlərin siyahılarını tərtib edənlərə xəbər veriniz ki, indiyə qədər buraxdıqları siyahıları təkmil edib Əxzi-əsgər idarəsinə versinlər. Hərgah sonradan siyahıda ad buraxmış olduqları olsa, məhkəməyə cəlb edilib əsgərliyə düşənləri gizlədənlər kimi məsul olacaqlardır.

7) Pristavlara tapşırmalıdır ki, siyahı tərtib edənlər üzərində daimi kontrol qoysunlar ki, ta onlar mükəmməl siyahı təqdim etsinlər. Bundan əlavə, acentələrin verdikləri məlumatdan istifadə etsinlər.

8) Pristavları və siyahı tərtib edənləri xəbərdar ediniz ki, əsgərliyə düşənlərin yaşlarında şübhə etdikləri zaman siyahıya daxil etsinlər. Siyahını boş buraxmaqdansa, 17-18 və 25-26 yaşında adamlar yaxşısı budur ki, qoy siyahıya düşsünlər. Əxzi-əsgər idarəsi özü bu adamların yaşını təyin edib onları azad edər.

9) Hərbiyyə nazirinin beşəxsən əmrinə görə pristavlara təklif ediniz ki, iyunun 1-nə qədər Əxzi-əsgər idarəsi tərəfindən hamı azad edilənləri sənədlərinin təhqiqindən ötrü Əxzi-əsgər idarəsinə dəvət etsinlər.

10) Əsgərliyə düşənlərin siyahılarını tərtib edənləri, həmçinin pristavları əsgər cəm edilən günü Əxzi-əsgər idarəsinə gəlməyə məcbur ediniz.

11) Əsgərliyə dəvət edilmək işlərini qaydaya salmaq üçün lazım olan düsturüləməlləri [təlimatları] biz sizinlə bərabər Əxzi-əsgər idarəsi iclaslarında hazırlayacağız.

12) Hərbiyyə nazirinin əmri mövcibincə [əmrinə əsasən], hər bir əxzi-əsgər uçastoku barəsində mən bütün polisə xidmətçilərinin fəaliyyəti haqqında məlumat verəcəyəm. Ona görə sizdən xahiş edirəm, təhti-idarənizdə [tabeçiliyinizdə] olan məmurları xəbərdar edəsiniz ki, əxzi-əsgər işləri haqqında və onların rayonunda əsgərlikdən qaçıb gizlənmişləri kəşf etmək işində zəiflik göstərsələr və ya xəyanət etsələr, bu xəyanəti kökündən rəf etmək [aradan qaldırmaq] üçün müqəssirləri həbs və əsgəri qüvvə sərf edənə qədər onların haqqında ən ciddi tədbirlər ittixaz edəcəyəm [tədbirlər görəcəyəm]. Hər kəs bir para səbəblərə görə özünü öz vəzifəsində hiss etməyirsə, qoy vaxtlı-vaxtında vətənin xoşbəxtliyi üçün mən tutduğum həqiqət və ədalət yolundan çəkilib getsin."

*Podpolkovnik*
*Sədrəddin Mirzə Prins Qacar*

**TELEQRAF XƏBƏRLƏRİ**

Peterburq - Rusiya nümayəndələri tərəfindən Skandinaviyada alınan mallar İsveç paroxodu ilə Peterburqa gətirilmişdir.

Saratov - Fərarilərin [qaçqınların] rəvayətinə görə, Ufa şəhəri təcilən təxliyə edilir. Zlatoust ilə Ufa arasında dəmiryol körpüsü dağıdılmışdır.

**İngiltərədə tətil**

London - Cənubi Uelsdə 5 min nəfər kömür mədən fəhlələri tətil etmişlərdir. Qlamorqanda 30 min nəfər əmələ tətil eyləmişdir. İngiltərənin sair yerlərində getdikcə tətilçilərin ədədi artır.

**Fransada tətil**

Lion - Paris dairəsində iyunun 2-də müharibə başlanmışdır. Əmələlər [fəhlələr] 8 saat iş günü tələb edilrər. Tətil edən əmələlərin miqdarı 100 min nəfərə yetir.

**Lizbonda üsyan**

Lizbondan [Lissabondan] Stokholm qazetəsinə orada iyunun 6-da böyük üsyan əmələ gəldiyi xəbər verilir. Hökumət 50 nəfəri həbs eyləmişdir.

Odessa - Parisdə müntəşir [nəşr olunan] "Tan" qəzetəsi Türkiyə əhvalının son dərəcə fəna olduğunu yazır.

Lion - Fransanın bir çox mədənlərində fəhlələr tətil elan etmişlərdir. Seşənbə [çərşənbə axşamı] günü təhtəl-ərz [yeraltı] dəmiryolunun qulluqçuları tətil etmişlərdir.

Xristianiya [Oslo] - Londonda ordu içində məxfi bir sui-qəsd kəşf edilmişdir. Bunlar özbaşlarına tərk-silah olmaq istəyirlərmiş. Bu işi saldat, matros və təyyarəçilər təşkil etmişlər imiş.

**SÜLH ƏTRAFINDA**

- Paris - Böylə xəbər verilir ki, Sülh Konfransı Fiume əvəzinə İzmirin İtaliyaya verilməsini qət eyləmişdir [qərara almışdır].

- Əfqan əmiri təklif eyləmişdir ki, Pişəvərdə yaxud Landi-Kotalda ingilislərlə sülh barəsində danışığa girişsinlər və əmr vermişdir ki, ingilislərə qarşı olan hərəkati-hərbiyyə dayandırılsın.

- Müttəfiqlərin sülh müahidəsi [sazişi] Almaniya mürəxxəslərinə [nümayəndələrinə] iyunun 2-də təslim edilmişdir. Avstriya müahidənaməsi də Almaniyaya verilən müahidənaməyə bənzəyir. Bəzən ancaq adlar dəyişmişdir. Əvvəlki Avstriya-Macarıstan imperiyasından şimdiki müahidənaməyə görə 60 min mürəbbe [kvadrat] mil, 6 milyon əhali qalır. Tunadan aşağı olan yerlər beynəlmiləl elan edilir.

- Norveçya, İsveçrə və İsveç hökumətləri qət eyləmişlər ki, Almaniya ablukasında [blokadasında] iştirak etməsinlər.

**Gürcüstan Teleqraf Ajansının məlumatı**

Almaniya Hökuməti şərqdə olan almanlara zeyldəki [aşağıdakı] xitabnamə ilə müraciət edir:

*"Almaniyanın əks təklifi Parisdə Müttəfiqlərə təslim edilmişdir. O təklifnamədə ciddi surətdə tələb edilir ki, şərqdə olan yerlər Almaniya əlində qalsın və isbat edir ki, nə Yuxarı Sileziya, nə Qərbi Prussiya, nə Dansiq və nə Memel [Klaypeda] Almaniyadan ayrıla bilməz."*

**Almaniya xanımları və sülh**

Yuxarı Sileziyada olan Almaniya xanımlarının izdihamlı cələsələrində [iclaslarında] böylə qərar qoyulmuşdur:

*"Almaniya xanımları və uşaqları aclıq törədici sülhün əleyhinə və bizim əziz vətənimizin Almaniyadan ayrılmasına ciddi surətdə protesto edirlər. Almaniya xanımları düşmən və bitərəf məmləkətlərin xanımlarına müraciət edərək onlara təklif edir ki, məsum uşaqları və aclığı yadlarına salsınlar. Sizin əlinizdə olan ərlərimizi, oğullarımızı qaytarın, siz bizi qulam halına salmayınız. Siz öylə etməyiniz ki, biz uşaqlarımıza intiqam laylasını çalaq."*

**Avstriyaya müahidənamənin təslimi**

Sen-Jermen - Avstriya sülh mürəxxəslərinə [nümayəndələrinə] Müttəfiqlərin sülh müahidənaməsi [sazişi] təqdim edilmişdir. Sen-Jermen sarayının böyük salonundan birində mərasim icra edilmişdir.

Avstriya sülh mürəxxəslərinin başçısı Renner pərişan bir halda müahidənaməni almışdır. Klemansonun nitqinə cavabən Renner ayaq üzərində fransız lisanında bir nitq irad eyləmişdir [nitq söyləmişdir]. Öz nitqini yazdığı kağızı oxuyarkən Rennerin əli titrəyirmiş. Böyləliklə, onun həyəcanda olduğu hiss edilirdi. Fəqət onun səsi dəyişməyirdi. Renner demişdir ki, indiki Avstriya Cümhuriyyəti cahangir [imperialist] monarxiya tərəfindən sövq edilən müharibə cinayətlərinin məsuliyyətini öhdəsinə götürə bilməz. Fəqət buna baxmayaraq Avstriya milli xəsarətin bir hissəsini öhdəsinə götürməyə hazırdır.

Natiq bu son neçə ayda Avstriyanın keçirdiyi halını şərh eyləmiş: Avstriya milləti sülhü gözləyirdi və hərgah onlara müavinət edilməsəydi də, Avstriya milləti aclıqdan həlak olardı.

Renner nitqə davam edərək deyir ki, avstriyalılar yaxşı bilirlər ki, onların müqəddəratı Müttəfiqlərin əlindədir. Mən Müttəfiqlərdən rica edirəm ki, Avstriyaya rəhm edib onlara müstəqil yaşamaq haqqı verilsin.

Bütün nitq zamanı Vilsonun nəzəri Rennerdə imiş. Rennerin nitqi ingilis dilinə tərcümə edildiyi zaman Rennerdə həyəcan hiss edilirdi. Öz nitqinin nə kimi təsir bağışladığını görmək istəyirdi. Bu heyndə [bu zaman] qəzetə əkkasları [fotoqrafları] muzey şkafları yanında aparatlarını qoyub əks almaq [şəkil çəkmək] istəyirlərmiş.

Rennerin nitqi qəflətən sınan bir şüşənin səsi ilə kəsilir. Avstriya nümayəndəsi, Vilson və digərləri gülümsünürlər. İngilis əkkası [fotoqrafı] əks çəkmək istər ikən aparatı şkafların birisinə toxunub şüşə sınmış imiş.

Klemanso müahidənaməni avstriyalılara verərkən demişdir ki, onlara 15 gün möhlət verilir. Bu müddətin artırılacağı barəsində heç bir söz deməmişdir.

## QƏZETƏLƏRDƏN

**Fransa sosialistlərinin bəyanatı**

Biz Fransa sosialistləri sənədlərlə yəqin etdik ki, hökumətin vədələrinə baxmayaraq yenə də Rusiyaya Fransa əsgərləri göndərilməkdədir.

Əsgərləri nəinki bir Rusiyaya, hətta Polşaya, Macarıstana, Bohemiyaya, almanlarla məskun Avstriyaya, İtaliyaya, Romaniyaya, Selanikə, Balkan əsgəri mərkəzlərinə, Fələstinə, bir sözlə hər yerə göndərirlər.

Biz onu bilirik ki, 18-19 yaşında əsgərliyə dəvət ediləcək olanlar işğal üçün saxlanmışlar. Klemanso cənabları bütün Yevropanı və Asiyanın bir hissəsini işğal etmək istəyir. O, tərxisi-əsgəriyyəni dayandırmaq istəyir.

Klemanso vətənlərini müdafiə etmiş və müharibə meydanından qayıtmış olan Fransa oğullarını beynəlmiləl kapitalizmin jandarmları eyləmək istəyir.

Bu, divanəlik və cinayət siyasətidir. Necə ki, sosialist vəkilləri Palatada deyirdilər, bu siyasət öz millətlərinin müdafiəsi üçün özlərini qurban verən saldatları narazı salır. Heç kəsin ixtiyarı yoxdur ki, bu saldatlar razı olmadan başqa millətləri sıxışdırmaq üçün onlardan istifadə edilsin.

Nazirin özbaşına gördüyü işlərinin həddi yoxdur. Belə ki, poçta məmurları öz yaşlarına görə əsgərlikdən azad edilməli olduqları halda, hökumət tərəfindən rütbələri artırılıb başqa məmləkətlərə göndərilməkdədir.

Hərgah ordu arasında üsyan təşəbbüsatı olarsa, Klemanso deyə bilər ki, bunu o özü etmişdir.

## İRANDA

- Rəştdən, Ənzəlidən və Təbrizdən gələnlərin rəvayətinə görə, Kiçik xan məğlub edilməmişdir. O, türkmənlərdən partizan dəstələri düzəldir. Belə ki, güclü qüvvə cəm etdikdən sonra ciddi surətdə fəaliyyətə başlayacaqdır.

- Təbrizdə ciddi surətdə şayiat [şayiələr] var ki, Tehran İranın inqilabçı qoşunları tərəfindən mühasirə edilmişdir. Onlar şimdiki hökuməti yıxmaq istəyirlər.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri iyunun 5-də Nəzarət işlərindən ötrü Tiflisə azim olmuşdur [yola düşmüşdür]. Nazirlik vəzifəsi, müavini Rüstəm xan Xoyski cənablarına mühəvvəl edilmişdir [tapşırılmışdır].

- Vükəla Şurasında [Nazirlər Kabinetində] qət edilmişdir ki, Ermənistandakı müsəlman qaçqınları üçün 10 min pud buğda alınsın. Ümuri-Xeyriyyə və Nafiə naziri Rəisi-vükəla [Baş nazir] həzrətləri indində [nəzdində] həman ərzağın Ermənistana gömrüksüz aparılmağı üçün təşəbbüsatda bulunmuşdur.

- Xaçmaz mövqifi [stansiyası] komandanı Ümuri-Xeyriyyə və Nafiə nazirinə teleqrafən xəbər vermişdir ki, həman mövqifdə 70 nəfərədək türk toplanmışdır ki, paraları olmadığından vətənlərinə qayıtmaq imkanından məhrum qalmışlardır. Ümuri-Xeyriyyə və Nafiə naziri Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] indində [nəzdində] onlara Batumadək məccani [pulsuz] iki vaqon verilməsi haqqında təşəbbüsatda bulunmuşdur.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Şuşadakı müvəkkilinə xəbər vermişdir ki, işləyə biləcək, fəqət işləməkdən imtina edəcək qaçqınlara qaçqın payı verilməməlidir.

- Şəki və Ərəşdəki qaçqınların əhvalını təhqiq üçün göndərilmiş Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti məmuru xəbər vermişdir ki, bu vaxtadək hələ qaçqınlar siyahı edilməmişdir və güşadı [açılması] ehtimal edilən müsəlman darüleytamı [yetimxanası] güşad edilməmişdir. Ümuri-Xeyriyyə və Nafiə naziri oradakı nahiyə müfəttişinə teleqrafən təcili surətdə qaçqınların siyahı edilməsini və darüleytam güşadını tənbeh etmişdir.

## ERMƏNİ CÜMHURİYYƏTİNDƏ MÜSƏLMANLARIN HALI

**- 2 -**

Ermənilərin təcavüzü və əziyyəti səbəbi ilə İrəvanda müsəlman tacirləri büsbütün alış-verişdən düşmüşlərdir. Zira dükanlarına mal qoyurlarsa ermənilər talayırlar, mallarını evlərində saxlayırlarsa ermənilər xəbər tutduqları halda soyub aparırlar. Hətta müsəlman məhəllələri içində ufaq budkalar qayırıb alış-verişlə çörəkpulu qazanan müsəlmanlar axşam olcaq şeylərini hammal kimi dükanlarından yığışdırıb evlərinə aparırlar. Sabahla genə böylə dükanlarına gətirirlər. Erməni talanının qorxusundan müsəlmanın alış-veriş edənləri də çörək pullarını İrəvanda böyləcə çətinliklə qazanmaqdadırlar. Əvvəllərdə sərvət və miknət [güc, qüvvət] sahibi olan müsəlmanlar İrəvanda qorxularından indi alış-veriş edəmmədiklərindən, ciblərində olan var-yoxlarını yeyib qurtarmaqdadırlar. Hətta bir çoxları həman varlılardan indi yoxsul halına gəlmişlərdir. Böyləliklə, bir çox müsəlman tacirləri indi də evlərindən palaz-paltarlarını, qab-qacaqlarını satıb ailələrinə çörək tədarük edə bilməkdədirlər.

İrəvanda bir müsəlman alış-veriş etmək istərsə mütləq yanına inanıb-inanmadığı bir ermənini ortaq etməlidir, ta bəlkə o erməninin sayəsində ailəsinin çörəyini qazana bilsin. Vaxtilə ermənilərin hər hansına belə etina etməyən müsəlmanlar indi ən alçaq bir erməniyə yaltaqlanmaq məcburiyyətində qalmışlardır.

İrəvanda müsəlman tacirlərinin halı böylə olduğu kimi, müsəlman ziyalılarının, oxumuşlarının isə halı daha fənadır. Erməni Cümhuriyyəti hökuməti heç bir müsəlman ziyalısına məmuriyyət verməyir. Erməni Cümhuriyyətində müsəlmandan məmur yoxdur. Erməni Parlamanında demək olar ki, müsəlmandan məbus da yoxdur. Çünki Parlamanda ədədləri beşdən ibarət olan müsəlman məbusu varsa da, onları müsəlmanlar deyil, erməni hökuməti özləri seçib qoymuşlardır. Bunlar da erməni parlamanında insan qılıqlı müqəvvadan başqa bir şey deyildirlər.

Erməni Cümhuriyyəti hökumətinin yuxarıdan bəri saydığımız cümhuri, de-

mokrati[k] və adilanə hərəkatı (?!) sayəsində İrəvanda müsəlman tacirləri də, ziyalıları da əlləri boş, səfil, sərgərdan bir halda qalmışlardır. İrəvanda müsəlman alış-verişçilərinin, ziyalılarının, arvadlarının, uşaqlarının səfalətli hallarını seyr etmək üçün rəhmsiz və qüvvətli bir ürək olmalıdır. Yoxsa hər kəs o fəci mənzərəni görməyə davam edəmməz.

Müxatəbimiz [həmsöhbətimiz] deyir ki, İrəvan müsəlmanlarının çəkməkdə olduqları müsibət və sıxıntı o qədər ağırdır və bu ağırlıq müsəlmanları o qədər fəna hala salmış ki, bir vaxtdan bəri İrəvandan ayrılmış bir müsəlman bu günlərdə İrəvana qayıtdığı halda öz qövm-əqrəbasını, dost-aşnalarını gördükdə tanıyammamış. İrəvan müsəlmanlarının çəkdikləri müsibət və sıxıntının ağırlığından yaşları az bir çox müsəlman cavanlarının doxsan yaşlı qocalar kimi başları, bığları ağarmışdır.

İrəvanda müsəlman evlərini sahiblənib oturan ermənilər, ailələri ilə məscidlərdə yatmağa məcbur qalan ev sahiblərindən artıq pullar almaq vasitəsilə evlərini sahiblərinə buraxırlar.

Erməni Cümhuriyyəti hökuməti erməni qaçqınlarını qəsdən müsəlman məhəllələrində, müsəlman evlərində yerləşdirmişdir və bunlara xörək (şorba və quru balıq) paylanan yer də müsəlman məhəlləsində, müsəlman evindədir.

Bu vasitə ilə erməni qaçqınlarının çirkin, pis və yaman üfunətli halları müsəlman məhəllələrinə xəstəlik mikrobu nəşr etməktədirlər [yaymaqdadır].

* * *

İrəvan şəhəri müsəlmanlarının halı böylə fəcianə [faciəvi] bir surətdə keçdiyi kimi, İrəvan quberniyasında, erməni cümhuriyyəti daxilində müsəlman kəndçi və əkinçilərinin halı daha betər, daha fənadır. Aralarında cüzi miqdarda erməni olub da əksərisi [çoxu] müsəlman kəndçi və əkinçilərindən ibarət olan Zəngibasar və Gərnibasar müsəlmanları ermənilərə təslim olduqdan sonra erməni hökuməti erməni qaçqınlarını cəbrən [zorla] bunların içinə doldurmuş, əllərində olan azuqələrini cəbrən alıb zəbt etmiş, hətta bir çoxlarının mal-qaralarını və ev əşyalarını belə almışlardır. Mütəəddid [müxtəlif] bəhanələrlə kənd müsəlmanlarından cəbrən külli pullar almışlardır. Nəhayət, bu zavallıları da erməni cümhuriyyəti hökuməti yoxsul və naçar bir hala salmışdır. Əvvəldə çox azuqələrə malik bu müsəlmanlar indi azuqəyə möhtac bir halda qalmışlardır.

Hələ müsadimələr [toqquşmalar] nəticəsində kəndlərini, əkinlərini qoyub qaçan Dərəçiçək və Göyçə mahalları müsəlmanlarının halı ağlar və təsvirə gətiriləmməz bir haldadır. Bu mahallarda olan müsəlman kəndlilərinin bir çoxu indi erməni cümhuriyyətinin Hərbiyyə naziri olan general Silikovun müntəzəm dəstələri qabağında dayanammayıb kəndlərini, əkinlərini buraxıb qaçmışlardır. Bu müsəlman qaçqınlarının ən çoxu o zaman azuqələri və miknətləri artıq olan Zəngibasar və Gərnibasar mahalları müsəlmanlarına pənah aparıb, onların ianələri ilə dolanırdılar. Nəhayət, onların da çoxu bunların gününə düşürüldükdən sonra daha oralar[d]a keçinmək imkanı çətinləşmişdir. Buna görə, qaçqın müsəlman kəndliləri yerlərinə, öz kəndlərinə qayıtmağa izin almaq üçün qafilələrlə gəlib İrəvana dolmuşlar. Bunlar da İrəvan şəhəri müsəlmanları kimi məscidlərdə yerləşmişlərdir. Bu zavallılar da aclıq, çılpaqlıq, yoxsulluq içində aylarla erməni hökuməti qapılarında sürünüb kəndlərinə qayıtmağa izin hasil etməyə yalvarmaqdadır. Hökumət qapıları böyləcə boynu çiynində rüxsətnamə intizarını çəkməkdə olan yüzlərcə, minlərcə kəndlilərlə doludur. Erməni hökuməti hər dəfədə bunların qabağına başqa bir bəhanə çıxarıb, səfil hallarının səfalətini daha da artırmaqdadır. Məsələn, bu zavallı müsəlman kəndlilərinin qabağına Erməni Cümhuriyyəti hökumətinin qoyduğu bəhanələrdən ən ufaq bir nümunə:

400-500 evli bir müsəlman kəndində indi 4 yaxud 7 evdən ibarət erməni mühacirləri qalır. Binaənileyh [ona görə], müsəlman kəndliləri öz kəndləri, evləri, əkinləri olan o kəndə gedəmməzlər, gərək ailələri ilə səhralarda, xarabalarda, açıq yerlərdə keçinib, o beş-altı ev erməni mühacirlərinin çıxıb getməsinə qədər səbr etməlidirlər.

Rüxsətnamə verilmədiyinə səbəb də bu!..

Kəndlərinə qayıtmağa izin almaq intizarını çəkməkdə olan müsəlman kəndlilərinin təsadüfən bir-iki baş da yanlarında qaramalları olmuş olur.

İntizar müddətində bunlar şəhər kənarında mallarını otardıqları halda arasıra erməni qoçaqları gəlib mal-qaralarını əllərindən alıb aparırlar. Dinməyən yalnız ağlar gözü ilə canı salamat qalır. Dinən, səs çıxaran olarsa, axan qanı ilə yerə sərilmiş qalır.

İrəvanda müsəlman şəhərlisinin də, kəndlisinin də şikayətinə, sözünə baxan yox. Zavallı İrəvanın müsəlmanları genə ümidlərini Azərbaycan Cümhuriyyəti hökumətinə bağlayıb onun ciddi müavinətinə göz dikməkdədirlər.

## XOŞ BİR MƏNZƏRƏYƏ TƏSADÜF

Keçən cümə, ramazanül-mübarək ayının 7-ci günündə bazardan keçərkən aləmi-islamın səadət günəşinin vəsətüs-səmada əşəddi-ziya ilə pərtovəndaz olmağını [səmanın ortasında şiddətli ziya ilə işıq saçdığını] müşahidə edərkən, 1300 sənə bundan qabaq tərəqqiyi-fövqəl-xəyali-islamiyan [müsəlmanların təsəvvürə gəlməz tərəqqiləri] xatirimdə cilvə etməklə, məzkur [deyilən] müqəddəs əsrdə islam qəhrəmanlarının xanimanların tərk və əziz əyal və övladların[a] vida edib cihadi-müqəddəsə şitaban olmaları [tələsmələri] ilə baydaqi-müqəddəsi-islamiyyəti [islamiyyətin müqəddəs bayrağını] öz mücahidətləri [cihadları, səyləri] ilə övci-səmavata ti'la etmələri [göyə ucaltmaları] nəzərimə gəlib, şadlıq və məsərrətimin [sevincimin] mütəzaif olmağından [qat-qat artmağından] biixtiyar göz çeşmələrimdən əşki-sürur cari olmağa [sevinc göz yaşı axmağa] başladı.

Təbarəkallah [Allah mübarək eləsin]! Nə əcəb təşəbbüs, nə ali mücahidət, nə gözəl qeyrət, nə məcdanə [böyük, ulu] hümmət, nə pəsəndidə [xoşagələn] həmiyyət! Altmış və yetmiş yaşlarında qoca arslanlar vətənin cavan qəhrəmanları ilə duşbəduş [çiyin-çiyinə] olub, səda-sədaya verib, milli nəğmələr oxuya-oxuya Bakı mərkəzi- cümhuriyyətində [Cümhuriyyətin mərkəzi Bakıda] küçə və bazarı ni-

zami əsgərlər hesabında gəşt edib [gəzib-dolaşıb], "Yaşasın Azərbaycan!" deyədeyə əğyar [düşmən] gözlərini həsəd oxları ilə cərihədar edirdilər [deşirdilər]. Əlbəttə, həzar [min dəfə] əlbəttə, neçə yüz illərdən bəri öz hüquqi-milliyyə və bəşəriyyəsi zalım və cəfakar ədüvvi-insaniyyət və islamiyyət [insanlıq və islamiyyət düşmənləri] olanların ayaqları altında tapdalanmış bir nəcib millət milyon nüfusi-mücahidini-islamı [islam mücahidlərindən milyon nəfəri] qurban verəndən sonra cari olmuş [axmış] müqəddəs qanlar bahasına aldıqları hürriyyət və azadəliyi əbədəd-dəhr [əbədiyyən] öz yədi-ixtiyarlarında [öz əllərində] saxlamaqdan ötrü heç bir fədakarlıqdan və heç bir təşəbbüsatdan müzayiqədə bulunmasa gərəkdir. Ayat və bəyyinati-Qurani [Quranın ayələri və açıq dəlilləri] islam milləti-nəcibəsinin [nəcib islam millətinin] cihada hazır olub küffarla [kafirlərlə] cihad etmələrini mütəvatirən [arxa-arxaya] nişan verir. Ayeyi-şərifə: "Fəzzələ-llahul-mücahidinə aləlkaidinə əcrən əzimən." Eyzən [Həmçinin]: Ayeyi-şərifə: "Ya eyyühən-nəbiyyu hərrizil-mümininə ələl-qitali in yəkun minkum işrunə sabirunə yəğlibu miəteyni və in yəkun minkum miətun yəğlibu əlfən min-əlləzinə kəfəru bi-ənnəhum qövmün la-yəfqəhunə."

Müxtəsərən, müfadi-ayati-kərimat [ayeyi-kərimələrin mənası], əvvəla, cihada gedən kişilərə Allah-taala həzrətləri əcriəzim [böyük mükafat] mərhəmət buyurmaların vədə verir. Saniyən [ikincisi], islam qəhrəmanlarının on nəfərlərini küffarın [kafirlərin] yüzlərlə və yüzlərin[i] minlərlə müqabil tutur, çün islamiyanda [müsəlmanlarda] qüvvəti-iman və səbati-islam fitridir. Və əlavə olaraq vətən eşqində, millət və milliyyət uğrunda övladların əsgər verib isməti-islamiyyəti məhfuz edən [qoruyan] ata və analara bir nəfər japoni [yapon] arvadın fədakarlığı ilə təskin verirəm. Həman arvadın bir nəfər oğlu olmaq səbəbincə japon dövlətinin qanunu yol verməyirdi ki, onun bir oğlun əsgərliyə aparsınlar. Vətən eşqi qəlbində dolu olan qeyrətmənd qadın özün alıb öldürür və bir kağız yazıb miz üstə qoyur ki, mən baxıb gördüm ki, hər bir ananın qurbanı müqəddəs vətən yolunda oldusa da, həman qızların eyni bədbəxtraqı mən oldum. Çünki mənim zində olmağımla [yaşamağımla], mənim bir oğlum mənə pərəstar olmaq [xidmət etmək] səbəbincə vətən yolunda cihada getməkdən məhrum və feyzi-şəhadətdən məyus olurdı. Binaənileyh [ona görə], mən baqi-məndə [qalan] ömrümü vətən eşqində fəda edib və oğluma vəsiyyət edirəm, vətən yolunda şəhid olub həm özün vətən şühədalarının [şəhidlərinin] cərgəsində və həm məni vətən yolunda qurban vermiş anaların dəftərlərində yazdırmaqla məsud eyləsin.

Budur vətən qədrini bilmək və millətə xidmət etmək. Nəinki indiyə kimi bəzi ata və analar kimi ki, ənva və əqsam [növbənöv, müxtəlif] hiylələrlə övladların əsgərlikdən azadə edib bulvar səyyahı və mehmanxanalar müsafiri etmək istəyirlər!

Əcəba Mart hadiseyi-əliməsi [faciəli Mart hadisələri] nə az zamanda xatirlərdən məhv oldu? Aya [görəsən], vəhşilərin islamlar barəsində rəva gördükləri zülüm və cəfalar xatirlərdən fəramuş oldumu [yaddan çıxdımı]? İkimci hücumda biduni-təfavüt [fərq qoymadan] iranlı, qafqazlı, ünasən və zükurən [qadınlı-kişili] ümum Bakıda yaşayan islamları qətliam etməyə qət olunan şərtnamə yadlarından çıxdımı? Adların müsəlman qoyub Bakıda yaşayan ümum islam balalarına müdafiədən ötrü hazır olmaq ənfərizidiniyyədənədd olunmalıdır [dinin fərzlərindən sayılmalıdır]. İstər Qafqaz əhli, ya İran camaatı, haydi qardaşlar, islam rişəsinə tişə vuranların [kökünə balta vuranların] müdafiəsinə hazır olunuz!!

*İrani Nejad M. Ayn.zadə*

## BAKI XƏBƏRLƏRİ

**Nümayişlərin təxirə salınması**

Qəzetəmizin dünkü nömrəsində xəbər verilmişdi ki, düşənbə [bazar ertəsi] günü, iyun ayının 9-da səhər saat 8-dən nümayiş tətili başlanacaqdır. Bu qərar dəyişilmiş, həmin nümayiş tətili cümə günü iyun ayının on üçünə (13-nə) təxir edilmişdir. Nümayişlərin tərtib və vaxtı barəsində qəzetələrdə əlahiddəcə elan ediləcəkdir.

**İxtar [xəbərdarlıq]**

Düşənbə [bazar ertəsi] günü iyun ayının 9-na təyin edilmiş protesto nümayişləri cümə günü həman ayın 13-nə təxir edildiyi bununla ixtar edilir.

*Bakı Mərkəzi Tətil Komitəsi*

**Əsgərlikdən qaçanlar haqqında**

Eşitdiyimizə görə, Azərbaycan Hökuməti ilə Gürcüstan və İran hökumətləri arasında siyasi şəxslər və canilərin və həmçinin əsgərlikdən qaçanların məzkur [deyilən] hökumətlərin yek-digərinə [bir-birinə] təslim edilməsi haqqında etilaf [razılıq] əmələ gəlmişdir. Məzkur qaçqınları dərdəst etmək [tutmaq] üçün güzərgahlarda, iskələlərdə [limanlarda] və dəmiryollarda təcrübəli və məharətli agentlər qoyulacaqdır. Həmin agentlər bir çox vasitələrlə məzkur caniləri axtarıb dərdəst etməklə, tabe olduğu hökumətə təslim edəcəkdir.

**İskələlər və paroxodlar haqqında**

İngiltərə Nəqliyyat İdarəsi rəisi polkovnik Braunun binagüzarlığına [sərəncamına] görə, bəhri-Xəzərdəki Bakı, Petrovsk və Krasnovodsk iskələləri İngiltərə Komandanlığı təhti-idarəsində [tabeçiliyində] qalır. Bütün ticarət gəmiləri öz sahiblərinə qaytarılıb İngiltərə kontrolu təhtində [altında] olaraq işləyəcəklərdir.

**Fəhlə Klubunda mitinq**

Dünən şəhərin və mədən dairələrinin bir çox yerlərində mitinqlər tərtib verilmişdi. O cümlədən, şəhərin müsəlman əhalisi üçün Fəhlə Klubu salonunda izdihamlı bir mitinq toplanmışdı.

Saat 12 radələrində Məclisi-Məbusan üzvü [Cavad bəy] Məlik-Yeqanovun sədarəti, Əbdülvahab Məhəmmədzadənin katibliyi ilə mitinq güşad edildi [açıldı]. Bundan sonra "Müsavat" firqəsi namından Məlik-Yeqanov, Mirzəbala Məhəmmədzadə, Rəhim Vəkilov, "Hümmət" firqəsindən [İbrahim] Əbilov, İbrahimov, Azərbaycan inqilabçılarından Əbdülzadə, məhəlli [yerli] kommunistlərdən Qonmeberidze, "Ədalət" namından Ağazadə, dağıstanlılar namından Hacızadə nitq-

lər irad edərək [söyləyərək], Denikin əleyhinə mübarizəni təbliğ və təşviq etdilər. Natiqlər ümumiyyətlə böylə ciddi bir halda bütün firqə nizalarını [çəkişmələrini] buraxıb Dağıstan demokratiyasını boğmuş qaragüruh Denikin ordusu ilə son damla qana qədər mübarizə etməyi təbliğ edirdilər. Ora toplanmış camaatda həqiqətən ruh yüksəkliyi müşahidə edilirdi. Bir təni-vahid kimi [hamı bir nəfər kimi] Azərbaycan istiqlaliyyəti mühafizəsindən ötrü çıxacaqlarını qeyd ilə Məclisi-Məbusan və hökumətə qan yardımı edəcəklərini deyirdilər. Mitinq qayət müntəzəm və gözəl idi.

**Salyanda Realnı məktəbinin müdirinə**

Salyan Realnı məktəbinin mütəallimləri [şagirdləri] tərəfindən aldığımız məlumata nəzərən, alicənabınız onların hər bir təşkilat yapmasına mümaniət [maneçilik] göstərir. İkinci Qafqaz Müsəlman Mütəəlimləri Qurultayı bunu nəzəri-etibara alaraq sizdən isticvab edir [soruşur]: Onlara böylə təzyiqat göstərməyinizlə nə məsləyi təqib edirsiniz? Cavabı intizarındayız.

*Heyəti-rəyasət*

**Əfqanıstan haqqında**

Məşhəddən alınmış xüsusi bir teleqramda denilir ki, mayısın 13-də Əfqanıstan hökuməti İngiltərəyə elani-hərb etmişdir. Həman gündə də Əfqanıstan ordusu hücuma keçərək sərhədi keçmişlərdir.

**Aşqabadda**

Aşqabaddan alınmış məlumata görə, şəhərə ətraf aullardan türkmən dəstələri gəlməkdədir. Belə ki, şəhər türkmənlərlə dolmuşdur. Şəhər Mühafizə Alayı Aşqabaddan çıxarılıb ən axırıncı müdafiə xəttinə çəkilmişdir. Qaçqınların dediyinə görə, Aşqabadın süqutu bir neçə günün məsələsidir. Bolşeviklərin müvəffəqiyyəti gündən-günə artır.

**"Rüşvət"**

Ticarət və Sənaye Nəzarəti müvəkkili Sultanov cənablarına əcnəbi tüccaranından [tacirlərindən] rəsmi bir mövqe tutan şəxs mal gətirməsinə müsaidə qəsdi ilə böyük miqdarda rüşvət təklif etmişdir. Sultanov cənabları bundan dilgir [dilxor] olaraq hərifi qovmuşdur.

**Gürcüstanda ümumi səfərbərlik**

Gürcüstandan alınmış məlumata görə, orada ümumi səfərbərlik elan ediləcəyi təhti-qərara alınmışdır.

**"İttihad" firqəsində**

"İttihad" firqəsi Balaxanıda şöbə açmışdır. Firqəyə yazılanlar seşənbə [çərşənbə axşamı] günü, iyun ayının 10-da, gündüz saat 3-də ümumi iclasa dəvət edilirlər. Müzakirə ediləcək məsələlər:

1) Sədr, katib və xəzinədar intixabı [seçkisi] və 2) Cari məsələlər.

Şöbə hələlik Sentralnı küçədə, Quliyevin 70 nömrəli evində olur.

**"İttihad" məktəbində kurslar**

Türk, fars, ərəb, rus dillərində dərslər verilir. Edadi məktəblərin ibtidai şöbələrinə şagirdlər hazırlanır. Xahiş edənlər hər gün saat 5-dən 7-dək "İttihad" məktəbində (Qubernski caddə, nömrə 370)





Mirzəağa Vəlizadəyə müraciət edə bilərlər.

**Bibiheybət Həmkarlar İttifaqında**

Bibiheybət rayonunun Müttəhid Həmkarlar İttifaqı idarəsi iyunun 9-da ittifaq binasında nümayəndələr iclası dəvət edir. Müzakirə ediləcək məsələlər bunlardır: 1) Müvəqqəti idarənin məruzəsi və 2) Daimi idarə intixabı [seçkisi].

İclas gündüz saat 3-də təyin edilmişdir. Müəyyən edilən vaxtda kvorum olmasa, saat 4-də təzə iclas dəvət edilir. Bu iclasda hər nə qədər üzv olmuş olsa, qanuni hesab ediləcəkdir. Nizamnaməyə görə, hər 30 nəfərdən bir nəfər nümayəndə gəlməlidir. İclas zamanına qədər nümayəndə intixab etməmiş firmalar nümayəndə intixab etməlidirlər. Mandatla gəlmək lazımdır. Yoldaşlardan xahiş olunur yubanmasınlar.

**Yeni istehlak cəmiyyəti**

"Ümumun Faydası" adlı yeni bir istehlak cəmiyyətinə icazə verilmişdir.

Cəmiyyətin ümdə vəzifəsi üzvlərinin istiqraz ehtiyacları rəfinə [borc ehtiyaclarının aradan qaldırılmasına] çalışmaqdır. İdarəsi işə başlayaraq bu günlərdən xahişməndlərin [istəyənlərin, müraciət edənlərin] ərizələrini Starı polis küçəsində, 17 nömrəli evdə qəbul edir. Ümdə məqsəd xırda neftçilərə maddi müavinət göstərməkdir ki, işlərini dayandırmasınlar.

**Könüllülər təşkili**

Dünəndən etibarən Azərbaycan Könüllü ordusu siyahısı tərtibinə şüru edilmişdir [başlanmışdır]. Siyahı Məclisi-Məbusan binasında "Hümmət" və "Müsavat" fraksiyonları odalarında tutulur. Aldığımız məlumata görə, ən yaxın zamanda qışlalar [kazarmalar] intixab edilərək [seçilərək] təlimati-əsgəriyyəyə [hərbi təlimlərə] başlanacaqdır.

**Teleqraf xəttinin mühafizəsi**

Balaxanı-Sabunçu polismeysteri təhti-idarəsindəki [tabeçiliyindəki] dairə müfəttişləri və kənd muxtarlarına müraciətən əmr vermişdir ki, teleqraf xətləri mühafizəsi üçün lazımi tədabir ittixaz etsinlər [tədbirlər görsünlər].

## PROTESTO NÜMAYİŞLƏRİ

**Protesto nümayişləri və tətil**

Srağagün Parlaman binasında Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Mərkəzi Tətil Komitəsi ilə məhəllə nümayəndələrinin ümumi iclası vaqe və Denikin ordusunun Azərbaycan istiqlaliyyətini məhv etmək qəsdilə Dağıstanı işğal etməsi münasibətilə bir günlük ümumi tətil etmək məsələsi müzakirə edilmişdir. Bir qədər müzakirədən sonra iclas müttəfiqülqövl [yekdilliklə] cümə günü iyunun 13-də birgünlük ümumi tətil elan edilməsi təhti-qərara alınmışdır. Tətilin nizam və qayda ilə icra edilməsi üçün düşənbə [bazar ertəsi] günü mərkəzi rayon və məhəllə komitələrinin ikinci dəfə olaraq ümumi iclası dəvət ediləcəkdir.

İclasın axırında Şimali Qafqaziyadan yeni varid olmuş [gəlmiş] bir nəfər inquş nümayəndəsinin məruzəsi dinlənilmişdir. Məruzədən məlum olur ki, Denikin ordusu Şimali Qafqaziyaya hücum etmək istədikdə bir inquş kəndi tərəfindən mü-

maniət [müqavimət] göstərilmişdir. Ordunun miqdarı 20 min nəfərdən ziyadə imiş. Ordu komandanı öz qoşununun həman kənddən yol verilib buraxılmasını və inquşlarla çeçenlərdən iki polk qoşun verilməsini tələb etmişsə də, onlar qəti surətdə rədd edərək və demişlər ki, onlar heç bir vaxt müsəlman olmayan hökumətə qoşun verməz və onun qoşunlarına dəxi öz torpağından keçməyə yol verməyəcəklərdir. Keçmək istəsələr, ancaq inquşlar və çeçenlərin meyitləri üzərindən keçə bilərlər. Bundan sonra könüllü dəstələri kəndin üzərinə hücum edib toplar və mitralyozlardan atəş açaraq müharibəyə başlamışlardır.

Kənd əhalisi ancaq tüfənglərlə 20 min miqdarında qoşunla yeddi gecə-gündüz şiddətli surətdə müharibə etmişlərdir. Müharibədən əvvəl Dağıstan Hökuməti inquş və çeçen camaatına kömək vəd edərək könüllüləri buraxmamağa dəvət etmişsə də, lakin məəttəəssüf [təəssüf ki], neçə gün zərfində davam etmiş müharibəyə həmin kömək gəlib yetişməmişdir. İnquşlar, çeçenlər kömək gözlədikləri halda qırılıb tələf olmuşlardır. Tələf olub da, Könüllü ordunu həman kəndə buraxmayıb və onlara yol verməmişlərdir. Neçə vaxt müharibədə Dağıstandan kömək gözlənmişsə də, alınmamışdır. Axırda inquşlar və çeçenlər külli tələfat verdikdən sonra davam edəmməyib dağlara çəkilmişlərdir. Onlar tamamilə və qəti surətdə olaraq məğlub olmamışlardır və lazım olduğu vaxt yenidən hücum etməyə hazırlanırlar. Nümayəndə axırda məlum edir ki, Könüllü ordu Azərbaycan üzərinə hücum edərsə, inquş və çeçenlər yenidən onlara arxadan zərbə endirəcəklərdir və hal-hazırda dəxi onlar Könüllü ordu dəstələrinə tez-tez şəbxun verirlər [gecə basqınları təşkil edirlər].

Və məruzəsinin axırında nümayəndə, Azərbaycana arxayın olub Dağıstan hökuməti kimi xainanə hərəkət etməyəcəyinə öz ümidini bəyan edir və deyir ki, inquşlar, çeçenlər azərbaycanlı qardaşlarını heç vaxt unutmamış və unutmayacaqlardır.

**Qubadan**

İyunun 6-da Quba şəhərində Qusar, Rustov, Dəvəçi, Müşkür, 5-ci uçastok və Quba şəhəri nümayəndələrindən ibarət izdihamlı mitinq Parlamandan və hökumətdən xahiş edir ki, rəsmi surətdə və mətbuatda Denikinin Lazarev adına Qızılburun mövqifi [stansiyası] xəttini keçəcəyi münasibətilə göndərdiyi teleqrafına görə, Könüllü ordu himayəçisi Müttəfiq komandanlığına şəhər və uyezd əhalisinin protestosunu izhar edəsiniz. Mitinq Denikinin Lazarevə göndərdiyi teleqrafını ədəbsizlik hesab edir. Samur çaydan Qızılburun mövqifinə qədər bütün Quba uyezdi [qəzası] Azərbaycan Cümhuriyyəti hesab olunur. Buranı qara çar generallarının təcavüzündən mühafizə və müdafiə etməkdən ötrü uşaqlardan böyüyə qədər əllərimizdə silah axırıncı qətrə qanımıza qədər mübarizə edəcəyiz. Öz hürriyyəti uğrunda çarpışan bir millətin müqəddəratına iştirak etməmək mədəni İngiltərə nümayəndələrinə yaraşmaz. Biz Azərbaycan müsəlmanları Nikolay zamanını yadımızdan çıxarmamışıq ki, bizim dinimiz, namusumuz və heysiyyətimiz çar məmurlarının ayaqları altında tapdalanırdı. Hərgah bu iş Dağıstanın mürtəce generalları tərəfindən unudulmuşsa, biz azərbaycanlıların yadından çıxmamışdır. Bizim [Mikayıl] Xəlilov kimi xain generallarımız yoxdur. Biz inanırız ki, bizim hökumətimiz müharibə meydanında axırıncı üzvü tələf olana qədər bizim ana-bacılarımızı qara generallar əlinə verməz və bizim qəhrəman Hərbiyyə nazirimiz Mehmandarov cənabları gözüyaşlı bizim uyezddə olduğu zaman dediyi kimi, öz vətənin[in], bizim ana, bacı, arvad və uşaqlarımızın müdafiəsi üçün öz canından keçər.

*Mitinq sədri: Əliheydər Əminov*
*Katib: Xəlil Ağayev*

## "LEYLA" BARKAZININ BAŞINA GƏLƏNLƏR

Bu günlərdə "Leyla" barkazının xidmətçilərindən bir nəfəri ilə müxbirimiz görüşmüşdür. Xidmətçi barkazın bolşeviklərin əlinə düşməsini böylə nəql edir:

Barkazda bir çox Könüllü ordusu zabitanı [zabitləri], bir neçə nəfər də böyük məmurin [məmurlar] var idi. Fort-Aleksandrovsk ətrafında dolaşırdıq. Birdən top səsləri eşidilməyə başladı. Barkazda həyəcan qalxdı. Zira zabitan durbin ilə baxıb bolşevik gəmilərini kəşf etdilər.

Bir nəfər zabit makina hissəsinə gəlib revolveri mənim gicgahıma düzəldərək tam sürətlə yürümək əmrini verdi. Fəqət barkaz nə qədər sürətlə yürüsəydi də, vaporlar bizi tutacaqdı. Bolşeviklərin mərmisi üzərimizdən uçmağa başladı. Zabitan çinlərini və şalvarlarındakı qırmızıları qoparıb dənizə tökdülər. Üç nəfər böyük məmur (məzkurun [adı çəkilən şəxsin] dediyinə görə, general), bir neçə nəfər də zabitan çinlərini çıxarmadılar, öz revolverləri ilə özlərini intihar etdilər. Bu vaxtda bolşeviklər barkazı əhatə edib tərpənməmək əmrini verdilər. Zabitan yanında bir kisə qızıl pul vardı. Pulu dənizə saldılar.

Bolşeviklər barkazı forta çəkib bizi qaraya [quruya] çıxardılar.

Fort-Aleksandrovskda artıq əhali qalmamışdı. Tək-tək küçələrdə adam görükürdü. Bolşeviklər burada da bir çox adam güllələbaran etmişlərdir. Bizi, fəhlələri istintaq etdikdən sonra həpimizi azad etdilər. Bütün zabitanı isə, bir neçə gün işlətdikdən sonra həpsini qurşuna dizdilər.

Barkazda qalmış paqonlu məmurlara bolşeviklər əl vurmayırdılar ki, murdardırlar. Binaənileyh [ona görə], zabitana meyitlərin bellərinə daş bağlatdırıb dənizə tökdülər.

Bolşevik saldatlarının ruhu pək yüksəkdir. Əks-inqilabçıları (Denikinçiləri) ən dəhşətli hədələrlə hədələyirlər. Bütün Rusiyada bir nəfər də olsun Nikolay zabiti salamat buraxmayacaqlarını söyləyirlər. Bir neçə gün fortda qaldıqdan sonra ingilis vaporları ilə atışma oldu. Nəticədə bolşeviklər fortdan getməyə məcbur oldular. Qəsəbədə heç kəs qalmamış, küçələrdə insana vahimə qalib olur. Fort müharibəsində iştirak edən qırmızı saldatların miyanında [arasında] bir çox müsəlman saldatları və komissarları da vardır.

İngilislər gəldikdən sonra mən Petrovska gəlib oradan da Bakıya gəldim.

## AZƏRBAYCANDA

### İrəvan aclarına göndərilən buğda

Bizə yazırlar:

Ay yarım bundan əvvəl Azərbaycan Hökuməti tərəfindən İrəvanda olan müsəlman acları üçün 2400 pud buğda və arpa buraxılmışdı. Bu arpa və buğdanı İrəvana aparmağı öhdələrinə alan iki nəfər şəxs bir nəfərin hiyləsinə aldanıb iki vaqon arpa, buğdanı Tiflisdə 160 min manata satmışlar. Hasil olan məbləği üç yerə təqsim etdikdə [böldükdə], bir nəfər Qazax əhli bu əhvalatdan xəbərdar olur. Qazaxlı bu əhvalatı yerinə bildirməyi onlara söylədikdə bu üç nəfər hərif həman qazaxlıya 10 min manat verib onu razı salmışlar. Qalanı da həriflər öz aralarında təqsim etmişlər. Qazaxlı cənabları da pulları alıb Bakıda eyş-işrətə məşğul olmuşdur. İrəvanın müsəlman acları da gözləri yollarda qalıb hələ də onlara arpa, buğda gələcəyini gözləyirlər. Hökumətimizin nəzər-diqqətini bu işə cəlb ediriz.

### Qazaxda

Bu yaxın vaxtdan Azərbayan Hökumətinin tədbirinə görə, dəmiryolunda 404-cü verstdə Qovlar və Tovuz mövqifləri [stansiyaları] arasında sərnişinlər qatara əyləşib-düşməkdən ötrü bir platforma hazırlanmışdır. Tiflisdən Bakıya tərəf gələn qatarlar həman yerdə dayanırlar. Amma Bakıdan Tiflisə tərəf gedən qatarlar nədənsə dayanmayırlar. Bu işi lazımi yerinə xəbər verməkdən ötrü Qazax uyezdinin 4-cü hissəsi camaatı Həbib bəy İskəndərbəyovu vəkil intixab edib [seçib] Bakıya göndərmişlər ki, bu barədə təşəbbüsatda bulunsun.

*Vəli Mustafayev*

## ERMƏNİSTANDA

### Müsəlmanlar genə öldürülürlər

Bu günlərdə Batum təriqi [yolu] ilə amerikalılar Ermənistana un göndərməkdə olduğu münasibətilə erməni dəmiryolları Sanaindən İrəvana qədər 15 gün müddətinə sərnişinlər üçün bağlanmışdır. Dəmiryolun bağlanacağı günü Tiflisdən İrəvana getməkdə olan beş müsəlman Sanaindən naçar olaraq erməni yük vaqonlarına əyləşib İrəvana azim olmuşlar [yola düşmüşlər]. Fəqət zavallılar Aleksandropol ilə Qarakilsə arasında ermənilər tərəfindən yox edilmişlərdir.

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Diş həkimi R. S. Fuks**

Qəbul edir: 9-dan 10-a dək; 5-dən 7-yə dək. Ünvan: Mariinski, nömrə 18. Ferdinandın aptekası ilə bərabər. Telefon nömrə 34-15.

*10202*





**Bəhri-Xəzər İstehlak Cəmiyyəti "Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Berlin Darülfününu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

Doktor **M. M. Kərimov** göz naxoşlarını və diş həkimi **A. Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Petroqraddan gəlmiş doktor İshaq Avetisoviç Atayans (professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*8798*

**Doktor M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. "606" və "914" müalicəsi. Qəbul edir:

səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

Moskvada təcrübə görmüş diş həkimi **K. S. Kolandskaya-Sanuxat** kabinə açmışdır. Müalicə edir, dişləri doldurur, süni dişlər qayırır və dişləri ağrısız çəkir. Qiymət münasibdir. Qəbul edir: Hər gün səhər saat 9-2-yədək; aşxam saat 5-7-yədək. Adres: Bazarnı və Suraxanski küçələrin küncündə, nömrə 112.

*8795*

Xarici məmləkətlərə yun yollamağı və komisyon təriqi ilə xarici məmləkətlərdə satmağı **İ. V. Denisovun** bankir kantorası qəbul edir (Olqinski, Nikolayevskinin küncündə, telefon nömrə 37-75). Sifarişlər saat 5-dən 7-yə dək qəbul olunur.

*10220*

**Zəhmət (məsai) bürosu**

Bakı Şəfqət Bacıları İttifaqı şəfqət bacılarını gecə işlərinə, iynə vurmağa, masaj etməyə müərriflik edir [tövsiyə edir, zəmanət verir]. İttifaq öz işçilərinin işlərinə cavabdehdir. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Budaqovski və Malakanski küçələrin küncündə, nömrə 16/22, mənzil 6. Konkanın mənzili. Telefon nömrə 14-08. Büro bütün gün açıqdır.

*8755*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bununla elan edir ki, bu vaxta qədər xarici məmləkətlərə neft və neft istehsalatı aparılmağa verilən icazələr həziran ayının 6-sından 10 gün müddətdə etibarlı hesab olunurlar. Bundan əlavə, Bakı neft mədənlərinə hər cür dəmirə ehtiyac olduğundan, Nəzarət qeyri yerlərə dəmir aparılmasına dəxi icazə verməyir. Nömrə 6619.

*Nazir müavini əvəzinə: Şuljenko*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 192. “Tan”: “Le Temps” adlı fransız qəzeti nəzərdə tutulur.

**Sülh ətrafında**

səh. 193. “Sen-Jermen sarayı” [Château de Saint-Germain-en-Laye]: Paris yaxınlığında yerləşən Sen-Jermen-an-Le adlı şəhərdə keçmiş kral sarayı; hal-hazırda Fransanın Milli Arxeologiya muzeyi.

**Xoş bir mənzərəyə təsadüf**

səh. 198. “Fəzzələ-llahul-mücahidinə ələl-kaidinə əcrən əzimən”: “Quran”da Nisa surəsinin 95-ci ayəsinin axırı; mənası: “Allah, mücahidləri (evlərində) oturanlardan böyük mükafatlarla üstün etmişdir.”

“Ya eyyühən-nəbiyyu hərrizil-mümininə ələl-qitali in yəkun minkum işrunə sabirunə yəğlibu miəteyni və in yəkun minkum miətun yəğlibu əlfən min-əlləzinə kəfəru biənnəhum qövmün la-yəfqəhunə.”: “Quran”-da Ənfal surəsinin 65-ci ayəsi; mənası: “Ey Peyğəmbər, möminləri döyüşə həvəsləndir. İçərinizdə iyirmi səbirli kişi olsa, iki yüz kafirə, yüz səbirli kişi olsa, min kafirə qalib gələr. Çünki onlar anlamayan bir tayfadır.”

**Bakı xəbərləri**

səh. 200. “edadi məktəblər”: təhsildə universitetdən əvvəlki mərhələ kimi başa düşülməlidir.

**“Leyla” barkazının başına gələnlər**

səh. 203. “barkaz” (yaxud “barkas”): əsasən liman daxilində istifadə olunan kiçik ölçülü gəmi.

“Fort-Aleksandrovsk” (yaxud “Aleksandrovsk”): İndiki Qazaxıstanın Mangistau (Manqışlaq) vilayətində yerləşən Fort-Şevçenko şəhəri 1857-1924-cü illərdə Aleksandrovsk (Fort-Aleksandrovsk) adlanmışdır.

**Ermənistanda**

səh.204. “Ermənistana un göndərməkdə”: qəzetdə “Ermənistana un göndərməməkdə” getmişdir.



*"Azərbaycan" qəzetinin 200-cü nömrəsinin 1-ci səhifəsi*





**Çərşənbə axşamı, 10 iyun 1919-cu il, nömrə 200**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 11 ramazanül-mübarək sənə 1337. 10 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

Təzə təmir olunmuş əvvəlinci lokanta "Elbrus" işləməyə başlamışdır. Təcrübəli Avropa, Asiya aşbazları dəvət olunmuşdur. Lokantada ayrıca kabinələr vardır. Nahar və şam vaxtı rumınski orkestr çalır. Orada da 3 bilyard və hər bir ləvazimatı ilə satılır.

Adres: Olqinski və Merkuryevski küçələrin küncündə Mirbabayevin evində.

*10225*

## İÇİMİZDƏKİ DENİKİNLƏR

Bir Denikin var ki, bizi xaricdən təhdid edir. Bir çox denikinlər də var ki, içimizə dolub, ən xətrəli [təhlükəli] yerlərimizdə gizlənib də bizi daxildən qorxudurlar.

Heç şübhə edilməsin ki, bu daxili denikinlərimizin qorxusu, xarici Denikinin qorxusundan daha böyük və daha xətərlidir. Çünki xaric[i] Denikin göz önündədir, aşkardır. Daxili denikinlər isə içimizdə gizlənmişdirlər, özlərini göstərməyirlər. Gizli düşmənin aşkara düşməndən daha təhlükəli olduğu hər kəscə müsəlləmdir [etirazsız qəbul edilir].

Bir vaxt olar ki, üzərimizə hücum edən xarici düşmənin bəlasını dəf etmək üçün əl qalxızmaq, irəli atılmaq istədikdə görərik ki, daxili düşmənlərin hiylə və dəsisəsi [fırıldağı] sayəsində qollarımız bağlı və ayaqlarımız bənddədir. Bir dərəcədə ki, heç tərpənməyə halətimiz yoxdur.

Azərbaycanımızda asudəlik ilə rahat-rahat yaşamaqda olan müxtəlif ünsürlərin içində öylə naşükür, öylə həsudlar [paxıllar], öylə qara qəlblilər var ki, Denikini ürək döyünməsi ilə gözləməkdə və rus qaradovoyunun həsrətini çəkməkdədirlər. Bunların bir çoxları xəzinəmizin pulu ilə dolanıb da "aldığım pul rus dövlətinin puludur" deyə özünü də, özgələri də aldatmaqla təsəlliyab olub [təsəlli tapıb], naşükürlüklə yedikləri çörəyimizi özlərinə halal bilirlər.

Bunların və böylələrinin sayəsindədir ki, bizim bütün rəsmi kağızlarımız, ərizələrimiz, sənədlərimiz həpsi rusca yazılıb. İdarələrimiz sabiq rus çarlığının kanselyariyalarına döndüyündən, biçarə türk demokratiyası [xalqı] öz milli dövlətlərində də yenə tərcümanlar aramağa məcburdurlar. Bütün Qafqaz millətləri arasında ümumi bir lisan hökmündə olan türk dili guya o qədər naqabil imiş ki, ərizə yazmağa da yaramazmış... Halbuki bunun hamısı çörəyimizi yeyib də, üzümü-

zə söyən, denikinlərin həsrətini çəkən və cümhuriyyətimizi rus dövlətinin bir parçası hesab edən və dövlətimizə deyil, məhz pula və paraya qulluq edən xain, həsud [həsəd aparan] və qaraqəlbli çinovniklərin vətənimizdə yemlənməsi bərəkətindəndir.

Xaricdəki Denikin ilə aramızda bir müharibə başlanarsa, heç şübhə edilməsin ki, daxilimizdəki yemləyib bəslədiyimiz denikinlər öz həsrətkeşlərinin yollarını asanlaşdırmaqdan ötrü içimizdə cürbəcür xəyanət və cinayətlərə mürtəkib olub da [bulaşıb da], bizə arxamızdan xəncər yaraları vurmaq və zərbələr yetirmək təşəbbüslərindən çəkinməyəcəkdirlər.

Ona görə, iştə bu yerdə filhəqiqə [doğrudan da] dördgözlü olmağımız bütün şiddəti ilə icab edir [lazım gəlir]. Qəhrəman əsgərlərimiz xarici düşmənlərimizlə müharibə edərkən, arxada qalanlarımız da arxamızda gizlənib də pusquda oturan daxili düşmənlərimizlə əlləşməlidirlər. Onlar bizləri pusarkən, biz onları pusmalıyıq ki, əhyanən [ara-sıra] bizə qəflətən bir xətər yetirməsinlər.

Bu yolda hökumətimiz də, millətimiz də bərabər işləməlidirlər. Hökumət hər bir şübhəli görünənləri rədd və tərd etmək [qovmaq] üçün heç bir şeydən çəkinməməlidir. Bu gün daha nəzakət və mərhəmət zamanı deyildir. Zatən xainlərə qarşı nə mərhəmət?

Millət dəxi böylə bir şəkk və şübhə iqaz edən [oyandıran] və dövlətimizə qarşı sui niyyəti ilə məlum olan adamları, hansı millətdən olursa olsun, fərzi-mühal olaraq [məsələn; kiçik ehtimalla] müsəlman da olsa, bilib də hökumətimizə və lazım olan yerlərə xəbər verməlidir.

İstiqlalının səneyi-dövriyyəsini [ildönümünü] dünən şadlıq və şənliklə keçirmiş olan millət bu gün fövqəladə dəmlər [vaxtlar] keçirməkdədir. Candan əziz olan istiqlalımızı əlimizdən almaqla canımızı almaq istəyirlər. Buna görədir ki, istiqlalımızı əldən verməmək üçün bu fövqəladə zamanda fövqəladə işlər də görməlidir ki, o işlərin ən mühümraqı, özümüzü xarici denikinlər ilə bərabər daxili denikinlərdən də qorumaq təşəbbüsüdür.

*Hacıbəyli Üzeyir*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*5 iyun 1919*

*(keçən nömrədən mabəd)*

**Sədr** – Söz Əhməd Cövdət Pepinovundur.

**Əhməd Cövdət** – Möhtərəm məbuslar! Bu gün bəlkə Azərbaycan Cümhuriyyətinin ən az görülən tarixi bir günüdür ki, biz burada oturmuşuq və bu gün hökumət rəisinin söylədiklərini həpimiz qulaqlarımızı, gözlərimizi açıb bütün diqqətlə dinləyib, bütün mənası ilə önümüzdəki vaqiəni [hadisəni] dərk eyləmək istəyirik. Bu gün deyilən sözlər, bu gün çıxarılacaq qərarlar, daha əvvəl, neçə ay, neçə həftələr bundan əvvəl deyilirdi. Fəqət o qədər atəşin və həssas təsir edəcək dərəcədə deyildi ki, necə ki, bu gün görürük.

Rusiya inqilabı nəticəsində istibdad zülmündən qurtaran zəhmətkeşlər, çarizm zəncirindən xilas olan millətlər kəndi ixtiyarlarını əllərinə aldıqları vaxt onların düşməni olan müstəbid qüvvələr ümidlərini bütün kəsməyib, genə əski mövqelərini qaytarmaq niyyətindən vaz keçməyirdi. Və yenə əski əsarəti və əski zəncirləri yaxasını yenicə qurtarmış millətlərin üzərinə salmağa hazırlaşırdı.

Əski rus generalları Dabravol – Könüllü ordu adı ilə gah Sibirdə, gah Kubanda, Donda birləşməyə başladılar. Onlar yaxşı bilirdilər ki, Rusiya çarizmini yıxan Rusiya demokratiyasını əzmədikcə, istibdad zəncirlərini xırda millətlərin boynuna vurammayacaqlar. Ona görə ən əvvəl işləri rus demokratiyası ilə çarpışıb, bir neçə yerlərdə hakimiyyətlərini qura bilmişlərdir. Lakin Rusiya demokratiyası əlində olan qüvvələr o qədər böyükdür ki, yerə sərilmiş generallar bir də o qüvvəyə qarşı dura bilməzlərdi. Fəqət onların köməyinə Avropa imperialistləri, Avropa yoldaşları qoşub onlara silahla, para ilə yardım edirlər. Onlar bilirdilər ki, bu gün Rusiyada azad olanların göstərdikləri misallar bütün dünyaya keçəcəkdir. Hər yerdə zəhmətkeşlər, məhkum millətlər zülümdən qurtarmaq istəyəcəklər. Ona görə Avropa sərvətdarları, imperialistləri bütün öz silahlarını, toplarını, pullarını verib əsarətdən qurtaranları yenidən rus generalları vasitəsilə zəncirə almağa və Rusiya istibdadını qurmağa qalxışdılar.

Bir neçə gün əvvəl məhkumiyyətdən qurtaran Azərbaycan xalqının hürriyyət və istiqlalının bir sənəliyini bayram etdik. Bu nümayişlər, bu bayraqlar və bu hisslər göstərdi ki, bu duyğu yerləşmişdir: xalq daha əsir olmaq istəməyirlər, hürr yaşamaq istəyir. Fəqət, əfəndilər! O qara qüvvələrin ki, məfkurələri hakim olmaqdır, o qara qüvvələr qüvvətlənib, toplar, tüfənglər ilə cürətlənib aşağı gəlməkdədir. Birinci dəfə Gürcüstana hücum etdikdə, Gürcüstan xalqının qəti müqərrəratı [qərarlılığı] nəticəsində geri dönüb, bir zəif yer axtardılar ki, asanlıqla oradan girsinlər. Ona görə Dağıstan tərəfini götürdülər. Və bu da göstərdi ki, onlar Dağıstanı seçməyə haqlı imişlər. Çünki Dağıstan üzərinə gələn qara qüvvələrə Dağıstan hökuməti başında oturanlar tərəfindən müqavimət görülmədi. Bura gələn teleqraflar və nümayəndələr Dağıstan hökuməti başında oturan və Rusiya istibdadının ehyasına [dirildilməsinə] çalışan xainləri lənət ilə dəryad edirlər [yada salırlar].

Heç şübhə etmək lazım deyildir ki, tarix də gələcəkdə onları yad edəcəkdir.

Əfəndilər! Artıq onlar bu gün bizim qapımızı döyüb, bizim üstümüzə gəlirlər. Bu gələn qara qüvvənin məfkurəsi yaman olduğuna görə, bu kürsüdən dəfələrlə söylədik ki, bu gün müharibə Dağıstanda gedirsə, yarın bu müharibə bizim üzərimizə gələcəkdir. Bizim üçün təhlükə olduğunu bilirsək, Dağıstanın yardımına qoşmaq, düşmən ilə orada çarpışmaq lazım idi.

Lakin, məəttəəssüf [təəssüf ki], bir tərəfdən bizdə olan süstlük və səhlənkarlıq, digər tərəfdən İngiltərə komandanlığının sözləri və hiyləsi – ki, Könüllü ordu Petrovskdan bu tərəfə gəlməyəcəkdir, ancaq Petrovsku bolşeviklər ilə mübarizə üçün bir üssülhərəkə [baza] olaraq tuturlar – Könüllü orduya Dağıstanı tutmağa və Dağıstan xalqını yenidən zənciri-əsa-

rət altına almağa imkan verdi. Digər tərəfdən Zaqafqaziya cümhuriyyətləri arasında birlik olmadı ki, əlbir olub bu qara qüvvələr qarşısına mübarizə etsinlər.

Bu indi oxunan teleqraflar, əlbəttə, Könüllü ordunun məfkurəsi nəticəsidir. Bunlar aşkar bir işdir. Bu teleqraflar açıqaçığına, arsızcasına deyir ki, sizi də qul eyləmək və sizə ağalıq eyləmək istəyirəm.

Bununla bərabər, İngiltərə komandanlığı təsəlli verir və deyir ki, təhlükə yoxdur və bizi mühafizə edəcəklər. Lakin bugünkü hal və bu teleqraflar göstərir ki, bizə özümüzdən başqa söykənəcək bir dirək yoxdur. Millət gərək kəndisinə söykənsin.

Biz yaşamaq istəyirik. Və Avropadan, madam ki, Avropa demokratiyası hökuməti əlinə almamışdır, kömək gözləməyirik. Biz özümüzə güvənməliyiz və müqəddəratımız bir olan yanımızdakı qonşularımızla əlbir işləyə bilərik.

Bir də, əfəndilər! Hərgah bu gün söylənən sözlər yalnız söz deyildirsə, əgər mayın 28-də bizim istiqlaliyyətimizin bir sənəlik bayramında olan nümayiş doğrudan da xalqın fikri, amalı və arzusu isə Azərbaycan içərisində bir adam tapılmaz deməsin ki, biz həpimiz hökumətlə əlbir o qara qüvvələr ilə mübarizəyə hazırız. *(Sürəkli alqış)*

*(bitmədi)*

## TELEQRAF XƏBƏRLƏRİ

### Petroqrad işğalına dair

Novorossiyskdə iskələdə dayanmaqda olan İngiltərənin "Kraktay" kruvazerinə [kreyserinə] simsiz teleqraf ilə verilən xəbərlərə nəzərən, general Yudeniç ordusu Petroqradı işğal eyləmişdir.

### Rusiyada aclıq

Rusiya Savdepiyasında [Sovet Rusiyasında] aclıq həddini keçmişdir. Aclığa mübtəla olan kəndçilər öz yerlərindən buğda bol olan quberniyalara köçürlər.

### 1919-cu ildə taxıl

1919-cu il taxılı bir o qədər də ümidbəxş deyildir. Quruluqdan dolayı 13 quberniyada əkinlər məhv olmuşdur. Gələn il də dəhşətli aclıq gözlənir.

### Kiyevdə bahalıq

Kiyev və dairəsində hal-hazırda dəhşətli bahalıq vardır. Bu günlərdə qara çörəyin girvənkəsi 20 rublədən satılırmış.

### Bolşeviklərin məlumatı

Moskvadan xəbər verirlər ki, bolşeviklər tərəfindən səfərbərlikdən ötrü Vyatkaya göndərilmiş olan Steklov "Petroqradı mühafizə ediniz" sərlövhəsi ilə yazdığı məqaləsində deyir ki:

*"Şimdi hər kəs cəbhəyə diqqət verməlidir. Şərqi cəbhənin bütün hissələrindən Kolçak ordusu ricət edir [geri çəkilir]. Yalnız Perm və Vyatka qarşısına qüvvətini cəm etməkdədir. Qəsdi odur ki, Arxangelsk cəbhəsində olan ingilis qoşunları ilə rabitədə bulunub, sonra ümumi qüvvə ilə Petroqrad üzərinə hücum etsinlər. Müttəfiqlər əlləşirlər ki, Yudeniç ilə Kolçak Petroqradı işğal etsinlər ki, tainki Petroqrad bunların əlinə keçdikdən sonra Kolçak hökumətini rəsmən təsdiq eyləsinlər. Ona görə də bolşeviklər var qüvvələri ilə çalışmalıdırlar ki, Kolçak ordusunun İngiltərə ordusuna mülhəq olmasına [qoşulmasına] mane olsunlar."*

- 8 mayda Petroqradda "Narodnı dom"da hərbi əsirlərin və Qırmızı qoşunların izdihamlı mitinqləri vaqe olmuşdur. Zinovyev bunlara müraciətlə, Beloqvardiya [Ağ qvardiya] əsgərləri ilə mübarizə etmələrini dəvət etdikdə, mitinqdə olanlar son damcı qanlarınadək mübarizədə bulunacaqlarını bildirmişlərdir. Çıxarılan qətnamədə əsarətdən qayıtmış olanlar təbrik edilmişlərdir. Hamısı and içmişlər ki, Şura Hökumətinə sadiq qalaraq, Qırmızı Petroqradı mühafizə edəcəklərdir.

- Kronştadtdan xəbər verirlər ki, Şura Hökuməti qərar qoymuşdur ki, arvad, qoca və uşaqları, hakəza [eləcə də] ümidsiz bolşevikləri buradan təbid [sürgün] etsinlər. Kronştadtda qərar qoyulmuşdur ki, son damcı qanlarınadək Petroqradı mühafizə edəcəklər. Petroqradda əmr verilmişdir ki, evlərin əhalisi bundan sonra evləri mühafizə etsinlər.

## SÜLH ƏTRAFINDA

*Royter acentəliyindən*

### Almaniya ablukası

Sülh müahidənaməsini [sazişini] almanlar imza etmədikləri təqdirdə, Almaniyanın ablukasında [blokadasında] İsveç, Norveç, İsveçrə və Daniyanın [Danimarkanın] iştirakdan imtina edəcəkləri zahir olmayacaqdır. Bunlar bu vaxta qədər olduğu kimi yenə bitərəflik saxlayacaqlardır.

### Amerika və fransız polisləri

Parisdə, Lionda və Bordoda fransız qəzetələri Amerika saldatlarının hərəkətlərindən bəhs və onlara protesto edirlər. Amerika və fransız polisinin fəaliyyətsizliyindən bəhs edirlər.

### Müttəfiq məmləkətlərdə əmələ tətili gözlənirmiş

Müttəfiqlər Rusiya işlərinə müdaxilə edəcəkləri təqdirdə İngiltərə, Fransa və İtaliyada əmələlər [fəhlələr] ümumi tətil edəcəklərini elan etmişlərdir. Bu günlərdə Milanda vaqe olan bir mitinqdə hər üç məmləkətin əmələ nümayəndələri orada isbati-vücud [iştirak] edib, bunlar da qərar qoymuşlar ki, böylə bir tətil bilatəxir [dərhal] icra edilməlidir.

- Fransanın hökumət qəzetələri Almaniya nəfinə [xeyrinə] ediləcək tətil əleyhinə məqalələr yazıb əmələləri məzəmmət edirlər.

### Almaniya əks-təklifi

Liondan xəbər verilir ki, Klemanso, Lloyd Corc və Vilson elan edəcəklər ki, onlar əsasən Almaniya əks-təklifləri barəsində sazişə gəlmişlərdir. Cavab yazmaq üçün 4-5 gün vaxt lazımdır. Müttəfiqlər almanlara iqtisadi və mali [maliyyə] cəhətdən güzəştdə bulunacaqlarından, düşmənlərə möhlət verilməlidir ki, müahidənaməni [sazişi] yenidən təğyir və təbdil etsinlər [dəyişdirsinlər və düzəltsinlər].

### Fərid paşa Sülh Konfransına gedir

Sədr[əzəm] [Baş nazir] [Damad] Fərid paşa Sülh Konfransına dəvət olunmuşdur. Hökuməti-Osmaniyyənin hüququnu

müdafiə zimnində [müdafiə üçün] müşarünileyh [adı çəkilən şəxs] iki günə qədər Parisə əzimət edəcəkdir [yola düşəcəkdir].

## QƏZETƏLƏRDƏN

**Batumda**

Batumdan gəlmiş olan sərnişinlər bəyan edirlər ki, qəzetələrin yazdıqları kimi, Batumun halı o qədər gözəl də deyildir. Bu axır vaxtlarda bir çoxları İstanbula gedirlər. Fəqət İstanbula gedənlərin sənədləri ciddi surətdə təhqiq edilir. Bakıya görə Batumda ərzaq ucuzdur. Birinci zəruri şeylərin qiyməti bu qərar iləndir: Amerika çörəyi kartoçka ilə 1 manat 25 qəpik. Azad satıcılar 4 manatdan satırlar. Əcnəbi malı çəkmələr 800 rubldən 1200 rubləyədək satılır. Hal-hazırda Batumda bir çox Odessa, Kiyev və Krım fərariləri [qaçqınları] vardır. Ticarət aləminin ən zübdələrindən [seçilmiş şəxslərindən] Qepner Mirovski və sairləri buradadırlar. Könüllü ordu zabitlərinin miqdarı getdikcə artır. Bunların rəftarı qaragüruh rəftarı kimidir.

Batumda nəşr olunan "Naş kray" nam [adlı] könüllülərin rəsmi qəzetələrindən "Naşe vremya" qəzetəsinin mühərrirləri cürbəcür məqalələr yazaraq, könüllülərin hər yerdə müvəffəq olduqlarını bildirirlər. Xüsusən qeyri-ruslara qarşı ədavətkaranə məqalələr yazırlar. Batuma külli surətdə ingilislərin müstəmləkə qoşunları gəlir. Bakı qəzetələrində yazıldığı kimi, əcnəbi dövlətlərlə xüsusi dəniz müxabiratı [rabitəsi] başlan[ma]mışdır. Şaye olan [yayılan] xəbərlər həqiqətə müğayirdir [ziddir]. Yalnız dənizlə qoşun və ərzaq gətirilir.

* Yekaterinodarda elan edildiyinə görə, bu günlərdə yeni kağız pullar çıxarılacaqdır. Bu pullar Kolçak yanında olan qızıllarla təmin ediləcəkdir. Sonra Könüllü ordu tərəfindən işğal edilən yerlərin manatı 4 qəpiyə yendiriləcəkdir.

**Oltu nahiyəsində**

Oltu nahiyəsində olan əhali Ermənistan Hökumətini qəbuldan imtina eyləmişdir. Bunlar erməni saldatlarına təklif etmişlər ki, nahiyədən çəkilsinlər. Qoşunlar və erməni məmurları oradan çıxmışlardır. Qund kəndindən kürdlər 53 nəfər erməniləri rəhn [girov] sifəti ilə öz yerlərinə aparmışlardır.

**Erməni qəzetələrinin məlumatı Qarabağda**

Qarabağda müsəlmanlar iqtisadi cəhətdən erməniləri boykot etdiyi üçün mayor Lissen, kapitan Qanzona mühəvvəl eyləmişdir [tapşırmışdır] ki, boykotun götürülməsi xüsusunda doktor [Xosrov bəy] Sultanov ilə danışıqda bulunsun. Alınan məlumata görə, Sultanov qəti surətdə boykotun götürüləcəyini bəyan ilə əlavə eyləmişdir ki, bu tədbir dövləti bir tədbirdir.

**Gürcüstanın köməyi**

Daşnakların "Vperyod" qəzetəsinin yazdığına görə, Gürcüstan Hökuməti Azərbaycana 8 min nəfər qoşun üçün əlbisə [libas] vermişdir. Dağıstan Hökumətinə də 15 min nəfərlik əlbisə vermişdir.





## TƏHLÜKƏ VƏ QADINLARIMIZ

Azərbaycan Cümhuriyyəti təşkilini bir qaç nəfərin hasili-əməli bilənlərə və Avropa əfkari-ümumiyyəsini [ictimaiyyətini] əleyhimizə qalxızmaq istəyənlərə millətimiz və zəhmətkeş Azərbaycan türk xalqı lazımi cavab verdi.

Hürriyyət bayramlarında, fəhlə nümayişlərində, 31 Mart tətilində, intriqaçıların siyasi tətillərində xalqımızın göstərdiyi istedad nə qədər siyasi bir huşyarlığa [ayıqlığa] malik olduğunu və istiqlaliyyət fikri ilə nə qədər sıx surətdə mərbut [bağlı] bulunduğunu isbat etdi.

28 Mayıs İstiqlal bayramı isə keçənlərdən daha qiymətli və daha tarixi bir nümayiş olmuşdu. Burada millət heyəti-ümumiyyəsi ilə erkəyindən qadınına, çocuğundan böyüyünə qədər iştirak edirdi. 28 Mayıs bayramı millətin yarısı olan qadınlarımızı da həyati-ictimaiyyəyə dartmış, onların da canlı bir qüvvə olduqlarını isbat etmişdi.

Qadınlarımız da erkəklərimiz, kişilərimiz ilə bərabər millətin və vətənin şad gününə iştirak edir, sevinir, zira kəndini bu vətənin övladı hiss edirdi.

Bunun daha əhəmiyyətli cəhəti bu idi ki, bu hiss, bu anlaqlığı türk qadınları xüsusi hazırlıq sayəsində deyil, zamanın təsiri və kəndilərinin təbii dərrakələri bərəkəti ilə kəsb etmişlərdi [əldə etmişlərdi]. Ona görə iman edirəm ki, bu gün üzərimizə gələn təhlükəni yalnız kişilərimiz deyil, artıq intibaha başlamış qadınlarımız da hiss edirlər.

Həp böylə də olmalıdır. Hər kəs anlamalıdır ki, onlar da vətənin övladı, millətin yarısı və həm də ən mühüm yarısı olduqları üçün istiqlaliyyətin taleyi ilə mərbutdurlar. Vətənin hürriyyəti ən əvvəl onlara race [aid] olduğundan, müdafiəsi yolunda da ən lazımi təşəbbüsatda qadınlar bulunmalıdırlar.

Əvət, qadınlar artıq insan olduqlarını, hüquqi-şəxsiyyələrini anlamış, vətənin quruluşunda iştirak etmək istədiklərini isbat etmişlərdir. Ona görə millətin bir yarısını təşkil edən bu qüvvədən vətənin hər bir zamanında istifadə etmək lazımdır.

Xüsusən bu gün üzərimizə gələn təhlükə qarşısında qadınlar hərəkətə gəlməli, məmləkətimizdə bulunan qərb hakimi-mütləqlərinə anlatmalıdırlar ki, vətənin müdafiəsi və mühafizəsi yolunda erkəklərimiz kimi qadınlarımız da iştirak edəcəklərdir.

Bu gün gənclərimiz əsgər surətində cəbhəyə gedir. Camaatımız, qocalarımız el ordusu, ehtiyat könüllü alayı yapır. Firqələrimiz, partiyalarımız bütün xüsusi firqə münaqişələrini unudaraq vətənin və istiqlaliyyətin müdafiəsi üçün mücahid və mübarizlər düzəltməyə məşğuldurlar.

Yazıçılarımız, mühərrirlərimiz bütün mahirlik və istedadlarını milləti ayıltmağa, vətən müdafiəsi hissi oyatmağa, dostunu və düşmənini tanıtmağa səy edirlər. Natiqlərimiz xalqımızı ittihada, birliyə və hökumət ətrafına toplanıb Azərbaycanı qorumağa çağırırlar.

Bu keşməkeşdə, bu hazırlıqda, bu vətən və istiqlal müdafiəsi hazırlığında heç olarmı ki, millətin ən mühüm qismi, vətənin ən başlıca üzvü bitərəf bir halda qalsın?

Bu təhlükə qarşısında qadınlar bütün qüvvələrini toplamalı, səfərbərlik halına gəlməlidirlər.

Təhlükənin acısını istibdad zamanı, martdan sentyabra kimi hiss etmiş, dadmış olan xüsusən Bakı türk qadınları bilməlidirlər ki, indiki təhlükə keçənkindən daha böyük əsarət və vəhşət gətirir. Əgər kişilərimizin silah başına qoşduğu bir vaxtda qadınlar da dəzgah başına əsgərlərimizi arxadan təmin etmək işinə qoşmasalar, tarix qarşısında məsul və mədənilər qarşısında yenə “vəhşi” görünərlər.

Bu gün, təhlükə qarşısında qadınlarımıza aid çox işlər vardır.

Əsgərlərimizin libaslarını hazırlamaq, paltarlarını təmizləmək, daha bir çox bu kimi işlər qadınlar tərəfindən hər yerdə görünür. Və ümid edəlim, bizim türk qadınları öz Anadolu və İstanbul bacılarından ibrət alıb hərəkətə gələrlər.

Əgər 28 May nümayişini Bakı türk qadınları heç bir təşkilat tərəfindən hazırlıq olmadan icra etdisə, ümidvarıq ki, bu işdə qadınlar cəmiyyəti tərəfindən hərəkət olsa, qadınlarımız atil [işsiz, boş] qalmazlar, öz gənc və zərif qüvvələri ilə gənc vətənimizə böyük xidmət edərlər.

Haydi!

Türk qadını, vətən, millət və hürriyyət qeydkeşi olduğunuzu anladınız.

Təşkilat ətrafına toplanıb öhdənizə düşən xidməti vətəninizdən əsirgəməyiniz!

*Məhəmmədzadə Mirzəbala*

## MİLİSLƏRİN HƏRƏKATINA DAİR

Rusların Qafqazı istila etdikləri günlərindən başlayaraq axırkı zamanlarına qədər yerlilərə xain gözü ilə baxıb, nizam və polis vəzifələrini məhz rus ünsürünə yaxud onlara ixlasi-qəlblə [ürəkdən] casusluq yapan qafqazlılara həvalə edirdilər. Əhalinin etimad və etibarına inanmazdılar. Yüz ilin ərzində bir nəfər də olsun müsəlmanlardan qubernator təyin etmədilər. Bəzi “sədaqətkar” müsəlmanların pristavlıqları da çox çəkməyirdi. Vorontsov-Daşkovun tədbiri ilə Tiflisdə və Bakıda polis vəzifələri hətta dvorniklərə qədər tamamən ruslara verildi. Kəndlərə göndərilmiş strajniklər də əhalinin lisan və əxlaqına əsla dara [vaqif] olmamış qaba və kobud kazaklar idi. Bunların əhaliyə qarşı qıldıqları zülüm və təəddinin [qanunsuzluğun] hədd və hesabı olmadığı halda, rus məmurlarının ən sadiqanə və həqiqi tərəfdarları olurdular.

1905-ci ilin inqilabı dövründə rus polis nəfəratı vəzifələrini öylə səbati-qədəmlə [dönməzliklə] daşıyırdılar ki, sair millətləri heyran buraxırdılar. Ən müdhiş macəraların öhdəsindən gəlməklə bərabər, ənvai [müxtəlif] qovğalarda olurdular. Qovğada əslihəsini [silahlarını] qaib etmiş polis nəfəratı ən böyük cəzalara məhkum qalırdılar. Bunlardan heç biri hökumətin əmanəti olan tüfəng və tapançasını götürüb qaçmazdı. Bunu tarix bizə göstərməyir.

Filhəqiqə [doğrudan da], rus qaradovoylarından böylə hərəkətlər sadir olmadı [baş vermədi]. Lakin bunların müsəlman əhalisi ilə rəftarı o qədər çətin və müşkül bir hal ilə keçirdi ki, onların zülmündən bayılmış biçarələrin həmişəki arzusu, gecə və gündüzdəki duası – ey kaş müsəlmanlardan da bir neçə polis məmurları olaydı ki, öz qardaşlarının hüquq və ixtiyarlarını müdafiə edə biləy-





dilər. Vaxt oldu ki, bunların duaları müstəcab [qəbul] oldu. Azərbaycan Hökuməti dünyaya gələr-gəlməz, tamam polis məmurluqlarını müsəlmanlara verdi. Əhali yerdən göyə qədər məsrur [şad] və məmnun qaldı. Bakı küçələrində gəzən atlı və piyada, təhərri [axtarış] və adi, hətta zəbtiyyələrinə [asayişə nəzarət edən məmurlara] qədər həpsi müsəlman! Nə gözəl nemət!

Rus idarələrindən sıxıntı çəkmişlər qiyamətə qədər bunun qiymətini anlarlar!

Hələ indiyə qədər müsəlman polis və zəbtiyyələri vəzifələrində təkasül [tənbəllik, başısoyuqluq] və bacarıqsızlıq göstərməmişlər. Bəlkə bir çoxları təhlükəli fəqərələrdə [hadisələrdə] xüsusi məharət və şücaət də göstərmişlərdir. Amma çifayda [nə xeyri], bu günlərdə bir neçə “üzüqara” yoldaşların yapdıqları fəna hərəkat sairlərini də xələldar və mükəddər qılmışdır [kefini pozmuş və kədərləndirmişdir]. Böylə ki, Bakı qalabəyisinin [komendantının] təhərri polis rəisi namına göndərdiyi bir müraciətnaməsindən böylə məlum olur ki, bir neçə müsəlman milisləri günlərin bir günündə qarovul mövqelərini başlı-başına buraxaraq əllərindəki tüfəng, patron və libasları ilə bərabər qəflətən qaib olmuşlar. Bunlar Məhəmməd oğlu Əbdülhəlim, Fakı oğlu Məhərrəm, Hacı Əli oğlu Əliyev və sairləridir. Bunları tutmaq üçün qəti hökmlər verilmişdir. Ehtimal vardır ki, bu fərar edənləri bu yaxın zamanlarda dərdəst etsinlər [tutsunlar], çünki buna dair ciddi tədbirlər ittixaz olunmuşdur [tədbirlər görülmüşdür].

Əlbəttə, qəbahətkarlar özlərinə layiq cəzalarını bularlar. Bununla işim yoxdur. Lakin bizi heyran edən, damarlardakı qanlarımızı donduran bir fəqərə [hadisə] varsa, o da məsələnin bu cəhətidir ki, yüz illərlə həsrətini çəkdiyimiz neməti Allah bizə qismət edir, biz bu neməti əmanətən millət balalarına həvalə edirik, bunlar da bu gözəl əmanəti hifz edə bilməyib ayaq altındakı məzbələlərə [zibilliklərə] atırlar. Millətin müdafiəsi üçün verilmiş əslihələri də [silahları da] öz keyfəmayəşaları [öz kefləri] üçün qaçırdırlar. Məgər bunlar düşünmədilərmi ki, millətin qarşısında və millətin xəbəri olmadığı halda bu hərəkətlərlə iki cinayət yapmışlar: Əvvəla, milis nəfəratı əhalinin pasibanıdır [gözətçisidir, qarovulçusudur]. Çoban sürünü qurd və canavarlardan mühafizə etmək üçün gecə və gündüz qəflət etməyib onun qarovulunu çəkir. Milislər də əhalinin çobanlarıdır. Hərgah bunlar pasibanlıq vəzifələrini atıb, bildikləri yerə səbəbsizcə gedərlərsə, millətin əmin-amanlığı bərpa olarmı? Asayişi və əmin-amanlığı pozulmuş bir ölkəyə xaricdə yatmış düşmənlərimiz nə gözlə baxarlar? Bunu bilirmisiniz? Məmləkətin daxili işlərinə müdaxilə etmək üçün həriflərin ən böyük bəhanəsi məmləkətin intizamsızlığıdır.

Doğrudur, beş nəfər milisin qeyrətsizliyi ilə şəhərin əmin-amanlığı pozulmaz. Lakin bir kərə düşünülsün ki, ən böyük tarixi vəqələr vaxtilə pək xırdaca səbəblərdən törəmişdir. Böylə xırdaca şeyləri başlı-başına buraxsalar, islam ölkələrinin başına gələn, olsun ki, bir gün də bizim başımıza gəlsin. Odur ki, bu fəqərəni [hadisəni] hökumət başlı-başına buraxmamalıdır. Qaçmış milislər gərək tutulsun

və hərbiyyə məhkəməsi ilə də cəzalansınlar ki, sairlərinə də ibrət olsun!

İkincisi, qaçmış milislər özləri ilə bahəm tüfəng və patronları da aparmışlar. İslam aləmində "əmanətə xəyanət" ən böyük qəbahətlərdən biridir. Ona görə, məsələnin bu cəhətini artıq şərh etməyə ehtiyac görülməyir. Xəyanətin də cəzası məlumdur. Ancaq hökumətin diqqətini buraya cəlb etməlidir ki, yeni təyin olunacaq milislərə fəqət mötəbər şəxslərin zəmanəti ilə əslihə verməlidir. Aralıqda üçüncü şəxslərin məsuliyyətləri olarsa, yəqin ki, hökumətin heç bir patronu itməz.

Bundan əlavə, aralarına daxil olan yoldaşların əxlaqına milislər özləri artıq əhəmiyyət verməlidirlər ki, məbada müfsidlərin [fitnəkarların] fəna hərəkətləri sair mötəbər milisləri ləkədar etməsin. Şəhərlərdə, kəndlərdə qaçanları gizlədən tapılmazsa, bunlar nerəyə qaça bilərlər? Bu da ümum əhalinin vəzifəsidir. Xülasə, əsgərlərə verilən əhəmiyyət, milislərə də gərək verilsin.

*Fərhad Ağazadə*

## BAKI XƏBƏRLƏRİ

### Müsəlman Müəllimləri İttifaqında

Bakı Müsəlman Müəllimlər İttifaqı idarəsi bununla idarə üzvlərinə elam edir [bildirir] ki, bu gün həziranın 13-də, səhər saat 10-da Doqquzuncu məktəb binasında təcili idarə iclası olacaqdır. Hamının gəlməsi əlzəmdir. Müzakirə olunası məsələlər:

1) Heyət tərəfindən tərtib olunmuş proqramın təsdiq və təsvibi [qəbul edilməsi];

2) Türk dilində tədrisə dair kitabların hazırlanması barəsində;

3) Müəllimlərin maaşının artması barəsində.

Əgər saat 10-da lazımi miqdarda üzv gəlmədiyindən məclis baş tutmasa, həman gün saat 11-də ikinci iclas hər nə qədər üzv olsa, qanuni hesab olunasıdır. Rica olunur ki, hamı təşrif gətirsin. Zira, bu axırıncı məclisdir. Bir daha yığnaq gələn tədris sənəsində olasıdır.

\---

Bakı Türk Müəllimlərinin İttifaqı idarəsi ümum üzvlərə xəbər verir ki, onlar üçün ərzaq alınıbdır. Rica olunur ki, hər kəs gəlib öz payını Doqquzuncu türk məktəbindən həziranın 10 və 11-də saat 10-dan 4-ə kimi aparsın. Sonra gələnlərə ərzaq verilməyəcəkdir.

\---

Bakı Türk Müəllimlərinin İttifaqı idarəsi ümum kəndisini İttifaqın üzvü ədd [hesab] edənlərdən rica edir ki, üzvlük haqqını xəzinədar Baba bəy Səfərəlibəyzadəyə təqdim etsinlər. Əks surətdə onlar İttifaqdan çıxmış hesab olunur. Onlara gələcəkdə ərzaq verilməyəcəkdir və bundan masiva [bundan savayı] isimləri həp qəzetələrdə dərc ediləcəkdir.

### İttifaqi-Mütəəllimin

Bu gün ayın 10-da, axşam saat 5-də İkinci gimnaziya binasında İttifaqi-mütəəlliminin [Tələbələr İttifaqının] təcili iclası dəvət edilir. Üzvlərdən təvəqqe olunur, gecikməsinlər.





### Həbsdən azad

Bakı qalabəyisinin [komendantının] binagüzarlığına [sərəncamına] görə 3-cü uçastokda sükunət edən [yaşayan] Məhəmmədkərim İsrafilov öz oğlu Əliəşrəf Məhəmmədkərim oğlunu əsgərlikdən qaçırmaq qəsdi ilə gizlətməkdə müttəhim edildiyindən, Mərkəzi Həbsxanaya göndərilmişdi. İndi məzkurun [adı çəkilən şəxsin] oğlu Əliəşrəf qayıdıb gəldiyindən, atası Məhəmmədkərim həbsdən azad edilmişdir.

### Rus afiserlərinin miqdarı

Bakı qalabəyisinin [komendantının] binagüzarlığına [sərəncamına] görə, Bakıda sükunət edən [yaşayan] ümum rus afiserləri siyahı edilmiş və məlum olmuşdur ki, şəhərdə bütün uçastoklar dairələrində sükunət edən rus afiserlərinin miqdarı 166 nəfərdir. Bunların içində kiçik zabitdən başlayaraq general rütbəsinədək sahibi-mənsəb afiserlər vardır.

### Tövqif və həbs

Neçə gün bundan əqdəm [qabaq] "Qorçakov" adlı barkasda [gəmidə] 24 nəfər şübhəli şəxslər tövqif [tutulmuş] və həbs edilmişlərdi. Sonradan onlardan bir neçəsi azad edilib və qalanı isə saxlanılmışdı. İndi Əmələ Konfransı Daxiliyyə Nəzarətinə müraciətən, həman şəxslərin həbsdən azad edilmələrini rica etmişdir.

### Gürcüstanda səfərbərlik

Gürcüstan Cümhuriyyəti Denikin ordusunun Zaqafqaziyaya hərəkət etmək istədiyi münasibətilə ümumi səfərbərlik etmişdir. Həmin səfərbərliyə nəinki bir tək gürcülər, bəlkə Gürcüstan Cümhuriyyəti torpağında yaşayan qeyri millətlər dəxi dəvət edilirlər.

### Sərhədimizdə

Aldığımız rəsmi məlumata görə, Azərbaycan qoşunları hal-hazırda sərhədimizdə dayanmışlardır. Güclü bir dəstə Samur körpüsünü mühafizə etməkdədir.

### Dərbənddə

Dərbənddən gələnlərin dediyinə görə, orada ancaq 80 nəfər könüllü qoşunları vardır. Hətta Petrovskun özündə belə külli miqdarda qoşun yoxdur.

### Könüllülər haqqında

İyunun 7-də şəhərdə şayiələr buraxılmışdı ki, guya Bakıya 600 nəfər könüllülər gəlmişdir. Həmin şayiələr təhqiq edildikdə məlum olmuşdur ki, gələnlər 30 nəfər olub burada yaşayan öz ailələrinin yanına gəlmişlərdir ki, onları çoxdan bəri görməmişlərdir. Gələnlər haqqında polis lazımi məlumat əxz etmişdir [əldə etmişdir].

### Top atılacaqdır

Bakı qalabəyisi [komendantı] ümum şəhər və ətrafı əhalisinə məlum edir ki, iyunun 10, 11 və 12-də təcrübə olmaq üzrə bir neçə top atılacaqdır. Əhalinin həyəcana düşməməsi rica olunur.

### Edadi məktəb kursları

Yerli edadi məktəblərin bir neçə müəllimləri tərəfindən imtahan və təkrar imtahanlara az bir zamanda şagirdlər hazırlamaqdan ötrü kurslar açılmışdır. Həman kurslarda bir illik edadi məktəbinin

ali sinfinin kursu üç ayın ərzində oxunur. Dərslərdə təcrübəli, darülfünun itmam etmiş [universitet qurtarmış] müəllimlər iştirak edirlər. Kursu isə elmi-riyaziyyə müəllimi A. Sipol idarə edir və digər qadınlara məxsus siniflər dəxi vardır. Ondan masiva [ondan başqa], türki, almani, Fransa, latın, İtaliya dillərindən ötrü siniflər açılmışdır. Şagirdlər dəstəsində hər sinifdə 10 nəfərdən ziyadə olmayacaqdır. Xahiş edənlər hər gün saat 5-dən 7-dək "İttihad" mədrəsəsində A. Sipol cənablarına müraciət edib məlumat ala bilərlər.

**Tazəşəhərdə**

Dünən Tazəşəhərdən yeni varid olmuş [gəlmiş] möhtərəm bir şəxs Mavərayi-Bəhri-Xəzər [Zakaspiysk] əhvalı haqqında mühərririmizə zeyldəki [aşağıdakı] məlumatı vermişdir:

Hal-hazırda bolşeviklərin hərəkatı təxirə uğramışdır. Buna da səbəb Könüllü ordunun geri çəkildikdə yolları xarab etdiyi olmuşdur. Cəbhədə indi Könüllü ordunun 2000 nəfərə qədər qoşunu vardır. Bunlardan əlavə, bir qədər də türkmən qoşunu vardır. Türkmənlər müharibədə nə qədər rəşadət və şücaət göstərirlərsə də, bir o qədər könüllülər və erməni dəstələri namərdlik və qeyrətsizlik büruzə verirlər. Bayraməli mövqifi [stansiyası] süngü müharibəsi ilə üç dəfə əldən-ələ keçmişdir. Həmin şiddətli müharibələrdə türkmənlər böyük hünər göstərmişlərdir. Ermənilərdən bir batalyon qoşun bolşeviklərin tərəfinə keçmişdir. Deyirlər ki, həmin bir batalyon erməni qoşununu bolşeviklər mühasirə edib təslim almışlardır. Cəbhə indi Qəhqə mövqifi yaxınlığındadır. Mərv və Tecan şəhərləri və ətrafı bolşeviklər tərəfindən işğal edildiyindən, Mavərayi-Bəhri-Xəzərdə ərzaq böhranı müşahidə olunur. Çünki məzkur [deyilən] yerlər külli miqdarda taxıl verirdi. Buna görə də Mavərayi-Bəhri-Xəzərdən taxıl və qeyri ərzaq çıxarılmasına icazə verilməyəcəkdir. Ancaq mübadilə ilə cüzi miqdarda aparılması mümkündür. Petrovskdan köməyə getmiş olan Könüllü ordu komandanı general [İppolit Viktoroviç] Savitski Mavərayi-Xəzər mahalı general-qubernatorluğuna və ordunun baş komandanlığına təyin edilmişdir. Ayın 10-dan etibarən Mavərayi-Bəhri-Xəzərdə ümumi səfərbərlik elan edilir. Aşqabaddan külli miqdarda əhali qaçmaqdadır. Dəmiryol qatarları dolu olaraq hərəkət edir. Hətta qatarların damları belə miniklər tərəfindən işğal edilir. Əhval həyəcanlıdır.

**Məmləkətin mühasirə halında elan edilməsi**

Denikin ordusunun təhdidi münasibətilə Ali Hökumət Heyəti tərəfindən Azərbaycan Cümhuriyyətinin bəzi yerləri mühasirə halında elan ediləcəkdir. Cümhuriyyətin hanki yerləri mühasirə halında elan ediləcəyi hələ müəyyən edilməmişdir.

**Ümumi səfərbərlik**

Könüllü ordu təhdidi münasibətilə Azərbaycan Cümhuriyyətində yaşayan ümum müsəlmanlar 30 sinninə [yaşına] qədər səfərbərliyə dəvət olunacaqlardır. Bu barədə Ali Hökumət Heyəti tərəfindən qərardad edilmişdir.





**ÇƏKİL, DƏF OL!**

Turan balasıyam, türkün özündən,
Soyuq su içdim mən punar gözündən,
Yeni nur aldım o günəş üzündən,
Şərəfli bir dilək yaşadır məni.

Annəciyim mənim şu yaşıl dağlar,
Mənsiz nəşə bulmaz çiçəkli bağlar,
Mənsiz bülbül inlər, çeşmələr ağlar,
Buraxmam yurduma alçaq düşməni!

Mən də cəngə girdim, cidalı gördüm,
Göy üzünə baxdım, hilalı gördüm.
Səni yox, o gözəl camalı gördüm,
Yadlara aldırtmam gözəl vətəni.

Ey buzlu şimaldan qopan ruzigar!
Toxunma qəlbimə, atəşi parlar.
Saqın gəlmə, səni nəfəsim boğar,
Dəf ol! Vətənimdə görəməm səni...

Ey murdar çöhrə, sən, ey əbus sima!
Sevdiyim deyilsən, qarşımda durma!
Nifrətim var sənə, mənə yaxlaşma,
Kinlərim məhv edər qarşı gələni!

*7 həziran*
*Ümmügülsüm*

**BAKI VƏ ƏTRAF[ININ] ZƏHMƏTKEŞ ZİYALILAR İTTİFAQINDA**

Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqı idarəsinin iclası Ağa Axundzadənin təhti-sədarətində [sədrliyi altında] açıldı. İclas açıldıqda mayıs 26 iclasın[ın] bəratülqövlü [protokolu] oxundu və imza edildi. Bugünkü iclasın müzakirəsinə qoyulacaq məsələlər:

1) 27 mayısda qoyulmuş tamaşanın mədaxilinin haqq-hesabı;

2) Ümumi iclas dəvəti;

3) İttifaq üzvü Sadıq Əhmədzadənin təklifi;

4) Ümuri-Xeyriyyə Nəzarətinin [Sosial Təminat Nazirliyinin] tutduğu bir iş;

5) İdarəyə Dudarovdan gəlmiş bir ərizə.

Məsələlərə keçildikdə, Ağa əfəndi [Axundzadə] söylədi ki, mayısın 27-də Hökumət Teatrosunda qoyulmuş "Arşın mal alan" teatrosundan 21.330 manat mədaxil olmuşdur. Bu mədaxildən 7.000 rublə teatro icarəsi, 73 rublə paltar asan, 85 rublə elan paylayana, 450 rublə mətbəəyə, 10.000 rublə artistlərə, 5 manat registratora, 225 manat qəzetələrə elan xərci və 100 manat bilet dəftərçələrinə verilmişdir ki, cümlətanı 18.938 rublə edir. Bu xərclərdən masiva [başqa] Bələdiyyə İdarəsinə 4.000 rubləyə kimi xərc gərək verilsin, hərgah bu xərc də verilməli olsa, bu tamaşadan idarə zərər çəkəcək.

İdarə qərar qoydu ki:

a) Maarif nazirinə bir təzkirə [rəsmi müraciət] yazılsın ki, İttifaqdan 1.000 manat yerinə 7.000 manat teatro kirayəsi alınmışdır. Nazir həzrətlərindən idarə rica edir ki, artıq alınmış 6.000 manatın möhtəkirlərdən alınıb idarəyə qaytarılmaq sərəncamında olsunlar. Və:

b) Bələdiyyə İdarəsindən xahiş olunsun ki, idarə cəmiyyət və maarif işlərini təqib etdiyi üçün Bələdiyyə İdarəsi ittifaqdan xərc almasın.

İkinci məsələyə şüru edildikdə [baş-

landıqda], Ağa əfəndi [Axundzadə] ümumi iclasın dəvəti hal-hazırda ziyadə faydalı olar deyə, bu iclasın dəvəti müzakirəsini təklif etdi. Ətraflı müzakirədən sonra idarə qərar qoydu ki, işbu həziran ayının 8-də, axşam saat 6-da Bakı Bələdiyyə salonunda Ziyalılar İttifaqının fövqəladə ümumi iclası dəvət olunsun. Bu iclasın müzakirəsinə qoyulacaq məsələlər:

1) İdarənin məlumatı;
2) Təftiş heyətinin intixabı [seçilməsi];
3) Hali-hazır;
4) İclasda qaldırılacaq məsələlər;

Üzvləri ümumi iclasa dəvət etmək üçün xüsusi bir vərəqə yazılıb üzvlərə göndərilsin. Rusi-müsəlmani [rusca və Azərbaycanca] "Azərbaycan" qəzetələrində üç gün peydərpey üzvlərə dəvətnamə yazılsın. İdarə üzvü Əliməhəmməd qəzetələrdə bir dəfə dəvətnamə kifayət edər deyib, xüsusi təsəvvüründə qaldı.

Üçüncü; İttifaq üzvü Sadıq Əhmədzadə öz təklifi xüsusunda söz aldı və erməni ədiblərindən İşxanyan adlı bir şəxsin yazdığı kitabçanı idarəyə təqdim edib söylədi ki, hərçənd bu kitabın sərlövhəsi "Cənubi Qafqaziyada inqilabiməkus" [əksinqilab] yazılmışdır, fəqət məzmunu başdan-başa yalan sözlərlə bu yerin müsəlmanlarını müttəhim etmək və səbəbsiz günahlandırmaqdır. Mən də İşxanyanın bu açıq-aşkar yazdığı yalanlarına müqabil bir cavab yazmışam ki, bu cavabları əvvəla Ziyalılar İttifaqı nəzərdən keçirsin və sonra leksiya kimi camaat üçün oxunsun və lazım bilinsə, çapa da verilsin. İdarə qərar qoydu ki, işbu həziran ayının 4-də, çaharşənbə günü axşam toplanıb Əhmədzadənin yazdığı cavablarını dinləsin və sonra Əhmədzadə tərəfindən camaat üçün oxunmaq xüsusunda qərar verilsin.

Dördüncü; Sadıq əfəndi söylədi ki, Ümuri-Xeyriyyə Nəzarətindən [Sosial Təminat Nazirliyindən] rusların Milli Şurasına bir təzkirə yazılmışdır. Bu təzkirədə Nəzarət, Milli Şuradan 40 nəfər işsiz şəxslər istəyir ki, bunlardan tamojna (gömrük) üçün mühafizə bölüyü təşkil etsin. Çox ümid vardır ki, həmin "işsiz" şəxslərdən doğrudan tamojna bölüyü təşkil olunsun. Bu məlumat verildikdə üzvlər hər biri məmuriyyət idarələrində baş verən biqayda işlər haqqında çox söylədi. Hətta hal-hazırda Ticarət və Sənaət [Sənaye] Nəzarətinin rəsmi dava vəkili Petroqradın sabiq Oxrannı [Mühafizə] şöbəsinin rəisi məşhur Kafafov olduğunu da məlum etdilər. İdarə qərar qoydu ki, bu xüsusda Parlaman fraksiyalarına bir təzkirə yazılsın.

Beşinci; Dudarovdan gəlmiş ərizəni Camo bəy oxudu. Bu ərizədə Dudarov yazır ki, iki ay bundan əqdəm [qabaq] Ziyalılar İttifaqının yazmağına görə, Ümuri-Xeyriyyə Nəzarəti [Sosial Təminat Nazirliyi] Şamaxı qəzasında buna bir qulluq vəd edib Kürdəmirə göndərdi. Amma bu hala kimi Kürdəmirdə yersiz qalmışdır. İdarədən təmənna edir ki, bu xüsusda ona yardım edilsin. İdarə qərar qoydu ki, həman ərizə Ümuri-Xeyriyyə nazirinə göndərilsin və idarə üzvləri Əliməhəmməd və Camo bəy nazir ilə görüşüb bu əhvalatı ona bəyan etsinlər.

Məsələlər qurtardıqda, Rəhim əfəndi söz alıb söylədi ki, Ziraət Nəzarəti [Əkinçilik Nazirliyi] Muğan məhsulatını toplamaq üçün Muğanda müvəqqəti bir məmuriyyət təyin etmişdir. Məmuriyyəti idarə etmək üçün Ziyalılar İttifaqından müvəqqəti məmurluğa layiq şəxslər istəyir. Bu təklif müzakirəyə qoyulduqda, hal-hazırda müəllimlərin azad olmaları və bu məmuriyyətin də müvəqqəti olması üzvlər tərəfindən söyləndi. İdarə qərar qoydu ki, Müəllimlər İttifaqına bir təzkirə yazılsın və İttifaqdan bu məmuriyyətdə işləməyə layiq şəxslər siyahısı istənilsin.

## AZƏRBAYCANDA

### Gəncədən

Burada cinayət bir adət hökmünü almış, hər gün şəhərdə atışma olur. Bir qaç gün irəli birisi axşam kəndi qardaşını öldürdü. Dün axşam sürəkli bir atışma əsnasında bir qaç adam daha qətl edildi. Bir axşam olmayır ki, əhalinin istirahəti pozulmasın. Türklər zamanında və türklərdən bir qaç ay sonra sakitlik və doğruluq içində ömür edən Gəncə əhalisi artıq rahat edəmməyirlər. Cinayət kimi, oğurluq da gün-gündən artmaqdadır. Xainlər yenə əvvəlki vəhşi hərəkətlərini davam etdirirlər. Yüzlərcə milislərdən heç bir müvəffəqiyyət, heç bir fədakarlıq göstərilməyir. Yalnız maaş alaraq dörd qatar, bir mauzer daşımağı öyrənmişlər. Öylə bir haldır ki, hökumətimizin xaricdən çox, daxili düşmənləri vardır. Bir köylü arxadaşımın söylədiyinə görə, köylər bundan daha fənadır. Canilər və oğrular köylərə qaçırlar. Polis tərəfindən təqib edilməyir. Bu alçaqlar, bu qatillər yalnız biri-birini öldürməyir. Onların qarı-qızlarını, ana və bacılarını müdafiə edəcək, namuslarını saxlayacaq gənc Azərbaycanın kökünə balta çalırlar. Bu vəhşi hərəkətlərin çoxalmasının səbəbini bir dürlü həll edəmməyirəm. İdarələrin səhlənkarlığımı, əhalinin vəhşiliyimi? Əgər əhali vəhşi isə, əvvəldən də vəhşi deyilmiydilər? Yoxsa şimdimi vəhşiləşdilər? Nə isə, səbəb nə olduğunu anlayanlar dərk edəcəkdir. Bunları yazaraq gənc hökümətimizin nəzər-diqqətini şəhərimiz və ətrafına cəlb ilə bu xüsusda bir çox tədabirdə [tədbirlərdə] bulunacağını ümid edirəm.

*Davud*

### Göyçaydan

Bir sənəlik İstiqlaliyyət bayramı Göyçayda təntənəli bir surətdə davam etdi. Bütün çarşı-bazar, evlər istiqlalın üçrəngli, ay-ulduzlu bayrağı ilə donadılmış, bütün əhali o günə məxsus bəşuş [sevincli] bir çöhrə ilə tətilə iştirak edir və böyük bulvara cəm olmağa başlayırdılar. Çocuqların çalğı ilə şəhəri gəzməsi bu bayrama başqa bir lətafət verirdi. Saat 11-də hər kəs meydana cəm olmuş, böyük bir mitinq tərtib olunaraq Göyçay qazıları Mahmud əfəndi və Seyid Məhəmmədzadə həzrətləri mitinqə rəyasət edərək, hər birisi qayət bəliğ [ifadəli, təsirli] nitqlər söyləyərək istiqlaliyyətin yalnız mühafizəsi qəvi [güclü] və möhkəm bir əsgəri təşkilatla mümkün olacağını bəyanla, əhalini əsgərliyə təşviq edirlərdi.

Göyçay uyezdinin məbusu Əfəndizadə Hacı Hüseyn tərəfindən Azərbaycan istiqlaliyyətinin tarixi yollu bir nitqi və ən nəhayət "Türk qardaşlarımızın məzarlarını ziyarət bir vəcibədəndir" [vacib olan

işlərdəndir, borcdur] deyə təklifi ümuma qəbul və müəllimlərdən Əbdülqafur Süleymanzadə, Əlizadələrin nitqindən sonra əhali bayraqlarla şühəda [şəhidlər] məzarlığına yönəldi.

Camaatda böyük bir hüzün və xüşu [təvazö] hiss olunurdu. Məzarlıqda bir əşir [on ayə] Qurani-kərim tilavət edildikdən [oxunduqdan] sonra istirahəti-ruhları üçün uzun bir dua oxundu. Əhali təkrar çarşıya gələrək ümumən qəbul edilmiş, Azərbaycan Məclisi-Məbusanına istiqlalımızın müdafiə və mühafizəsi üçün bütün mövcudiyyətlərini fəda edəcəklərini təmin yollu bir teleqraf göndərilməsini mitinq rəislərinə həvalə edərək dağıldılar. Axşam isə Məktəb Tələbələri Cəmiyyəti tərəfindən tərtib edilmiş teatro mütəntən [təntənəli] bir surətdə keçdi.

## GÜRCÜSTANDA

### Çxeidze Pişon yanında

Gürcüstan Xariciyyə Nəzarəti Parisdən, Sülh Konfransında olan gürcü heyətindən böylə bir məlumat almışdır:

Gürcüstan Cümhuriyyəti heyətinin rəisi N. S. Çxeidze Sülh Konfransı üzvü, Fransa Cümhuriyyətinin Xariciyyə Naziri Pişonu ziyarət edib, Gürcüstan heyəti tərəfindən Sülh Konfransına təqdim edilən tələbatın xülasəsini ona söyləmişdir. Pişon Çxeidzeyə demişdir ki, Gürcüstan məsələsi aşkardır və bu məsələnin gözəl bir surətdə həll ediləcəyinə heç bir mümaniət [maneçilik] görməyir.

### Soçi nahiyəsində atışma

"Borba" qəzetəsində böylə bir teleqraf dərc edilmişdir:

*"İki yüz nəfərdən ibarət düşmən dəstəsi 202 nömrəli hündürlüyə hücum etmişsə də, böyük tələfatla dəf edilmişdir. Düşmən qaraqolları Xristaforovoya daxil olmuşdur. Bizim kəşfiyyatçılarımız təzə şəhərdə və Eston hündürlükləri cənubunda düşmən qaraqolxanaları olduğunu kəşf etmişdir. Bizim əsgərlərimiz Roqozin kəndinə çatanda atışma başlanmışdır. Bir atlı qətl edilib, digəri yaralanmışdır.*

*Suxum qrupu əsgəri komandanı polkovnik Karqarateli"*

### Könüllü ordu nə cürə müharibə edir?

Qaqra şəhərinin komendantı Novikov xəbər verir ki, Qaqra işğal edildiyi zaman gürcü narodnı qvardiya [xalq qvardiyası] əsgərləri tərəfindən əsir edilən 163 nəfər Könüllü ordu zabitlərindən 31 nəfəri izhar etmişlər [bildirmişlər] ki, hərbi əsirlər dəyişdirildiyi təqdirdə onları Könüllü orduya göndərməsinlər. Bunlar öz istidalarını [xahişlərini] bununla təfsir [izah] edirlər ki, Könüllü ordu amalına onlar razı deyillər və onlar güclə orduya daxil edilmişlər.

## ERMƏNİSTANDA

Qarsdan və Naxçıvandan ingilis əsgərləri çıxıb getmişlərdir. Bir qaç kişidən ibarət ancaq cüzi bir heyət qalmışlardır. İştə, bunların çıxıb getməsindən daha artıq fürsət qazanıb ortalığı boş və müsəlmanları sahibsiz görən ermənilər öz təbeiyyətindəki müsəlmanları utanmayıb genə öldürməyə, məhv etməyə başlamışlardır. Heç olmazsa, Azərbaycanda ermənilərin nasıl rahatlıqla yaşadıqlarını görüb utansalardı...





**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Satilir**

Avtomobil, karetası qoz ağacından. 60x40 güclü. Adres: Bazarnaya küçə, nömrə 6. İbrahimov.

*10224*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

Doktor **M. M. Kərimov** göz naxoşlarını və diş həkimi **A. Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Doktor M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. "606" və "914" müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-

dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

Xarici məmləkətlərə yun yollamağı və komisyon təriqi ilə xarici məmləkətlərdə satmağı **İ. V. Denisovun** bankir kantorası qəbul edir (Olqinski, Nikolayevskinin küncündə, telefon nömrə 37-75). Sifarişlər saat 5-dən 7-yə dək qəbul olunur.

*10220*

Batumdan xarici məmləkətlərə yun yollamağı və xarici məmləkətlərdə komisyon təriqi [yolu] ilə satmağı **İ. V. Denisovun** bankir kontorası qəbul edir. (Velikoknyajeski, nömrə 1).

*8799*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 211. "məhkum millətlər zülümdən qurtarmaq istəyəcəklər": qəzetdə "zülümdən" yerinə "zülmündən" getmişdir.

**Milislərin hərəkatına dair**

səh. 216. "dvornik" (dalandar): Çar Rusiyasında "dvorniklər" xüsusi döş nişanı daşıyır və sadəcə məhəllələrin təmizliyinə deyil, nizam-intizamına da baxırdılar.

"strajnik" (qoruqçu): Çar Rusiyasında kəndlərdə xidmət edən aşağı rütbəli polis.

**Bakı xəbərləri**

səh. 218. "bu gün həziranın 13-də": tarixdə səhv var; qəzetdə belə getmişdir.

səh. 220. "Tazəşəhər": Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinin bəzi mənbələrdəki adı.

"Qəhqə": Türkmənistanın cənubundakı Kaka şəhəri əvvəllər "Qəhqə", "Qəhqəhə" adlarını daşımışdır.

**"Çəkil, dəf ol!" şeiri (səh. 221) üçün lüğət**

punar: bulaq
cidal: müharibə; qalmaqal
əbus: acıqlı, hirsli

**Bakı və Ətraf[ının] Zəhmətkeş Ziyalılar İttifaqında**

səh. 222. "İşxanyan adlı bir şəxsin yazdığı kitabçanı": burada söhbət erməni publisisti Baxşı İşxanyandan və onun "Zaqafqaziyada əksinqilab" adlı kitabından gedir.

**Gürcüstanda**

səh. 224. "Suxum qrupu əsgəri komandanı": qəzetdə "qrupu" sözü təhrif edilmişdir.





**Çərşənbə, 11 iyun 1919-cu il, nömrə 201**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 12 ramazanül-mübarək sənə 1337. 11 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## VƏTƏNDAŞLAR!

Denikin gəlir.

Bizim cavan və hələ möhkəm kök atmamış Azərbaycanımızı yıxmaq və yenə də irəliki kimi bizi istibdad və qulluq zənciri altına çəkmək istəyir.

Əlbəttə, hürriyyət və istiqlaliyyətini sevən heç bir nəfər Denikin ordusunun Azərbaycana ayaq basmasına razı olmayacaq. Bu məsələdə Azərbaycanda yaşayan bütün millətlərin demokratiyası [xalqı] həmrəydir.

Vətəndaşlar! Vətən övladının Denikin əleyhinə müharibəyə hazır olduğunu göstərmək üçün bu iyun ayının 13-də cümə günü mədən dairələrində və Bakıda saat 11-də ümumi tətil və nümayiş olacaq. Nümayişlərin vaxt və yerləri barəsində türkcə və rusca qəzetələrdə məlumat veriləcəkdir. Qəzetələri oxumalı.

*Türk Ədəmi-Mərkəziyyət firqəsi*
*"Müsavat"ın Mərkəzi Komitəsi*

## BAKI İCTİMAİ YIĞINCAQ "OBŞESTVENNI SOBRANİYA"SI

Bu gün həziran [iyun] ayının 11-də 1919[-cu ildə] Bakı Obşestvennı Sobraniyası namizədlər siyahısı səsə qoyulacaqdır. Sobraniyanın nizamnaməsinin 14-cü maddəsinə görə, namizədlərin bu gün Sobraniyaya gəlməyə ixtiyarları yoxdur.

*T-148*

## DAĞISTANA DAİR

Dağıstanın Könüllü ordu işğalından qabaq nə halda olduğunu təsvir edən bu aşağıdakı məqaləni böyük bir əhəmiyyətinə görə tamamilə alıb hökumətin və Parlamanın da nəzər-diqqətini bu məqaləyə cəlb edirik:

**Kətmül-haqq min xəyanətül-xalq**
**Müqəssir kimdir?**

Bu günlərdə Şimali Qafqaziya Cümhuriyyətinin siyasi vəziyyətində olan təğəyyür və təbəddülatdan [dəyişiklik və başqalaşmadan] dolayı Dağıstan vilayətinin müsəlmanları müqəssirmi yaxud deyilmi? Deyilsə, kimdir müqəssir? Bu suala cavab vermədən əvvəl, bir az tarixi vəqayedən [hadisələrdən] bəhs edəlim. İşbu tarixi vəqaləri bittəfəkkür [düşünərək] oxuyanlara məzkur [deyilən] sualın cavabı hasil olar, zənnindəyiz.

Keçən sənə may ayında Şimali Qafqa-

ziya müsəlmanları kəndi mürəxxəsləri [nümayəndələri] vasitəsilə elani-istiqlaliyyət etdilər. Bu zamanlarda Şimali Qafqaziyanın Dağıstandan başqa vilayətlərin[in] qismi-əzəmi [çox hissəsi] büsbütün bolşeviklərin təhti-istilasında [istilası altında] idi. Dağıstanda isə qismi-əzəmi İmam Nəcməddinə və qismi-əsğəri [kiçik hissəsi] bolşeviklərə tabe idi. Və digər bir qismi də kəndi-kəndini mühafizə və idarə edirdi. Bu halət [Lazar] Biçeraxovun zamanına qədər davam etdi. Biçeraxov Dağıstandakı bolşeviklərə qalib gələrək Dağıstanın bolşeviklərə tabe olan qismini iskat etdi [susdurdu].

Biçeraxovdan sonra türklər gəldiyi vaxt bolşeviklər qətiyyən məyus olaraq başlarını dişarıya çıxarmadılar və böyük xof və əndişəyə düşdülər. Türklər dəxi Dağıstan vilayətindən başqa vilayətləri bolşeviklərdən təmizləməyə müvəffəq olmadan, övdətə [qayıtmağa] məcbur oldular. Türklər övdət etdikdən sonra Şimali Qafqaziya müsəlmanları üçün yeni hökumət təşkil olundu. Bu hökumətin zamanında dəxi Dağıstan bolşevikləri və bütün müfsidləri [fitnəkarları] xof və əndişəyə düşərək hökumətə itaət göstərməkdən başqa əlində heç bir taqət qalmamışdı və hökumətin bütün əvamir və nəvahisini itmama [əmirlərini və qadağalarını yerinə yetirməyə] hazır idi. Lakin, məəttəəssüf [təəssüf ki], hökumət əsla fəaliyyətdə bulunmadı. Kəndi aralarında münaqişə və mübahisədən başqa heç bir təşəbbüsatda bulunmadı. Ümumən müfsidlər və xüsusən bolşeviklər gördülər ki, hökumət onlara heç bir cəhətdən mane olmayacaq. Yavaş-yavaş gizlətmiş başlarını dişarıya çıxarmağa başladılar. Hər yerdə qətl, sirqət [oğurluq] və sairə çox oldu. Bir tərəfdən də bolşeviklər hökumət və istiqlalın əleyhinə əməliyyatda bulunmağa başladılar. Hökumətə bu işlərin həpsi açıq idi. Hökumətin təşəbbüsü ancaq “rica edəriz, yapmayınız” deyə məktub yazmaqdan ibarət oldu. Buna demokrat üsulu deyə təsmiyə etdi [adlandırdı]. Qorxu cənnətdən çıxmış deyən babalar sözünü bilkülliyyə [tamamilə] unutdu. Hökutin ricasına müfsidlər əhəmiyyət vermədilər. Ricadan başqa müaxizə [sorğu-sual, məzəmmət] olmayacağını qətiyyən bildilər. Fitnə və fəsadlıq bütün Dağıstanı istila etdi. Hətta bir köydən digər köyə getmək və bir yerdən başqa yerə mal göndərmək mühal [çətin; mümkünsüz] oldu. Bolşeviklər isə açıqcasına işləməyə başladılar. Hökumət deyil, hətta avamlar da bunu bilirdi. Hökumət bunlara da rica etdi. Fəqət hökumətin ricasından bolşeviklərin parası qalib gəlirdi. Hökumət 500 nəfər əsgəri hazırlaya bilmədiyi halda, onlar 7-8 min nəfər əsgər hazırladı. Hökumət bunu da bilirdi. Təşviqat və təbliğat isə hökumət tərəfindən çox az oldu. Mətbuat vasitəsilə kifayət etmək istədi. Avam, mətbuatdan istifadə etməyəcəyini bilmədi. Hətta Dağıstan alimləri belə hökumət işlərindən büsbütün bixəbər qalmışdılar. Və bir qaç dəfə Teymurxanşuraya gələrək hökumətdən istizahatda bulunurdular [izahat tələb edirdilər]. İşin həqiqətini bildikdən sonra “Aman ədl [ədalət], aman nizam, biz müavinətə [köməyə] hazırız” deyirdilər. Hökumətin halı kəmakan, bilatəğəyyür [olduğu kimi, dəyişmədən] qalırdı. Dağıstan əhvalatı böylə oldu.

Şimdi şimaldan bir az bəhs edəlim. Çərkəz, kabartay [kabardin], qaraçay, noqay əvvəla bolşeviklərin, sonra Könüllü ordunun təhti-istilasında [istilası altında] qaldılar və ən doğrusu, qalmaq məcburiyyətində bulundular. Bu qüvvətlərə qarşı müqabilə etmək onlar üçün mümkün deyildi. Hökumət onları və onlar hökuməti tanımaq və arasında sıxı irtibat [rabitə] olmaq fövqəlhədd [həddən artıq] müşkül idi. İnquşlarla hökumətin arasında az olsa da, bir qədər irtibat var idi. İnquşlar o vaxt bolşeviklərlə bərabər çalışırdılar və siyasətən öylə yapmaq vacib olduğunu söyləyirdilər. Çeçenistanda da bir qədər bolşeviklər var idi, fəqət çox zəif və aciz idilər.

Çeçenistanla Dağıstan arasında sıxı və həqiqi irtibat o zaman mümkün idi. Fəqət hökumətin fəaliyyətsizliyindənmi, yaxud çeçenlərin ədəmi-itaətindənmi [itaətsizliyindənmi] bu da olmadı. Yanvar ayında Dağıstan Məclisi-Məbusanı toplandığı vaxt Çeçenistanda intixabatı [seçkiləri] icra etmək üçün oraya mürəxxəs [nümayəndə] göndərildi. Çeçenistan qurultayında toplanmış mürəxxəslər rədd cavab verdilər. Biz Dağıstan Hökumətini tanımayırız, onlarla əlaqəmiz yoxdur və məbusları göndərməyiz dedilər. Mürəxxəs Teymurxanşuraya övdət etdikdə dağıstanlılara bunu açıqcasına söylədi. Bu iş müfəttinlərin [fitnəkarların] səy və ictihadındanmı [çalışmasındanmı], yaxud əhalinin Dağıstan hökumətini tanımaq istəmədiyindənmi oldu, bilməyiriz. Fəqət dağıstanlıların qəlblərində böyük sui-təsir hasil oldu. Bir qaç gündən sonra Könüllü ordu inquşlarla müharibə başladı. İnquşlar ədəmi-istitaətindən [gücsüzlüyündən] və müavinətsiz qalmağından itaətə məcbur oldu.

İnquşlarla olan müharibə bitdikdən sonra Denikinin əsgəri Çeçenistana mütəvəccihən [üz tutaraq] hərəkət etdi. O zaman Qroznını mühafizə etmək üçün hökumət Dağıstan Süvari Alayını oraya göndərdi. Alay Çeçenistana vardıqda, Çeçenistan əhalisi bunlara sui-nəzərlə baxdı. Hətta bunları silahdan təcrid etmək xəyalına belə düşdü. Ehtimal ki, bu da müfəttinlərin səyi sayəsində oldu. O halda Könüllü ordu Qroznını zəbt etdi. Dağıstan alayı Çeçenistan köylərində qalmaq məcburiyyətində bulundu. Alay ilə çeçenlərin arasında bürudət [soyuqluq] ziyadələşdi. Alay Xasavyurt qəzasına övdət etməyə məcbur oldu. Könüllü ordu Qroznını zəbt etdikdən sonra rəisi-hökumət Çeçenistana getdi. O zaman çeçenlər hökuməti tanımağa başladı və kəndi aralarında bir məclis əqd edərək [məclis quraraq] Məclisi-Məbusana məbusları göndərdi. Rəisi-hökumət və Çeçenistan məbusları Dağıstana gəldilər. Rəisi-hökumət Məclisi-Məbusanda Çeçenistan əhvalatından bəyanatda bulunaraq: “Çeçenlər kazaklarla müharibə edəcəklər. Çeçenlərin insan cəhətindən Dağıstana ehtiyacı yox və olmayacaq. Fəqət silaha və zabitana [zabitlərə] ehtiyacı vardır. Onlar da hökumətin əlində hazır, göndərəcəyiz” dedi.

Bir qaç gün böylə keçdikdən sonra Çeçenistanın on qəryəsindən [kəndindən] rəsmi surətdə hökumətə və Məclisi-Məbusana bildirildi ki, guya onlar müharibə yapmayacaqlar və Könüllü ordu ilə sülh yapdılar. O zaman Dağıstanda müəlləm [təlim almış] əsgər çox az idi. Lakin bu əsgərin bir miqdarını və bir qaç zabitanı alati-hərbiyyə [hərb alətləri, silahlar] ilə

bərabər hökumət Çeçenistana göndərdi. Hər nədən olursa-olsun, bunlar da çeçenlərlə yola getmədi. Axırda iş o dərəcəyə müncər oldu [çatdı] ki, çeçenlər bunları silahdan təcrid etdilər. Bu vəqədə iki tərəfin hankisi məyub [nöqsanlı] və hankisi qeyri-məyub [nöqsansız], burada mövzuyi-bəhs [mübahisə mövzusu] etmək sədədində [qəsdində] deyiliz. Fəqət burada nəzəri-etibara alınmalı bir şey varsa, o da zabitan arasında Dağıstan zabitan[ın]dan başqa zabitan, hətta türk zabitanı belə olması və əsgəri silahdan təcrid etmək üçün çıxmış camaat arasında ağsaqqalıların bulunmasıdır. İşbu əsbaba nəzərən [bu səbəblərə görə], dağıstanlılar təəccüb etdilər və nə yapacağını bilməyərək kəndilərini şaşırdılar.

İş fəna yerdə olduğunu bilən Məclisi-Məbusan əzaları [Parlament üzvləri] qəzalara və köylərə gedərək əhaliyə anlatmaq fikrində bulundular. Bunlar Teymurxanşuradan gedər-getməz dərhal hökumət istefa verdi. Bu mövcibi-heyrət [heyrət ediləsi] bir iş idi. Çünki əvvəla, bunların istefasını qəbul yaxud rədd etmək üçün kifayət qədərdə əzalar Teymurxanşurada qalmamışdı. Saniyən [ikincisi], bunlar bilirdilər ki, əzalar Teymurxanşuradan gedəcəklər. Salisən [üçüncüsü], hökumət iki gün əvvəl istefa verməsinə heç bir mane yoxdu. Bunun nəticəsi nə oldu? Hökumətsiz qalmaq.

Xətərli [təhlükəli] olmaq bəhanəsi ilə Məclisi-Məbusanın heyəti-rəyasəti qəzalara getmiş məbusları geriyə dəvət etdi. Məbusların vəzifəsi yarımçıq bir halda qaldı. Fəqət yetişdiyi yerlərdən gözəl cavablar gətirdilər və əhalinin hüsn-niyyətini sərahətən [açıq-aşkar] söylədilər. Bu zamanlarda hökumətin bilkülliyyə taqətindən düşməsini görən bolşeviklərin agentələri hökumət əleyhinə və Dağıstanı Sovetski Rusiyaya ilhaq etmək [birləşdirmək] qəsdində ələnən [aşkar surətdə] çalışdılar. Hər yerdə fitnə-fəsadlıq ziyadələşdi. Hətta iş o yerə müncər oldu [gəlib çatdı] ki, Xumtorkalı qəryəsinə [kəndinə] bolşeviklərə nəsihət etmək üçün getmiş hökumət rəisini yolda bolşeviklər tövqif etdilər [tutdular]. Bəziləri həbs etmək və bəziləri qətl etmək niyyətində bulundular. Lakin rəisi-hökumətin məiyyətində [yanında] olan bir möhtərəm zatın təzərrösü [xahişi, yalvarması] ilə onu xilas etdilər. Hökumət bu zamanda da sükut etdi. Dağıstanda bolşevizmanın intişarından [yayılmasından] ehtiyat edən Müttəfiqlər əsgərinin komandanı bir qaç dəfə hökumətə müraciət edərək bolşevizma ilə mübarizə etməsini təvəqqe etdi. Hökumət bu gün, yarın dedi, əlindən heç bir şey çıxmadı.

Bir dəfə Məclisi-Məbusanda hökumət rəisi Müttəfiqlər tərəfindən göndərilmiş teleqrafı oxudu. Teleqrafda Dağıstan Şimali Qafqaziyaya hesab olmayacağı və Dağıstana Denikin əsgəri gəlməyəcəyi bəyan edilmişdi.

Məbuslardan birisi hökumətə sual verib:

– Denikin əsgərinin Dağıstana gəlməməsi müvəqqətimi, yaxud heç bir zamanda da gəlməyəcəkmi? Bu xüsusda Müttəfiqlərin fikri məlummu? – dedi.

Hökumət cavabən:

– Biz Müttəfiqlərə bu sualı verdik. Onlar "Dağıstanda bolşevizma və ya anarşizma olmazsa, Denikin əsgəri Dağıstana gəlməyəcək. Əgər olarsa, yalnız onlar deyil, biz də gələcəyiz." deyirlərdi – dedi.

Məbuslar:





– Dağıstanda bolşevizma və anarşizma müntəşir olması [yayılması] hökumətə məlum, öylə olduqda nə üçün hökumət buna müqabilə etməyir? – dedikdə;

Hökumət cavabən:

– Biz bolşevizma ilə müharibə etməyəcəyiz, çünki Amerika bolşevizma ilə müharibə etməyir. İngiltərə dəxi bolşevik komissarlarla müxabirədə [əlaqədə] bulunur. Bakıda bolşevizmadan maəda [başqa] bolşeviklərin qəzetəsi dəxi var. İngilislər onlara heç bir söz söyləməyir – dedi.

Məbuslar:

– Bolşevizma fikrində bulunan əşxasla [şəxslərlə] müharibə etmək və onları həbs etmək məqsədimizdir. Fəqət hökumət və istiqlalın əleyhində çalışan hər kim olursa-olsun, bunlardan hökumətin qafil olmamasını tələb ediriz – dedi.

Məclisi-Məbusanın da bu tələbi də başqaları kimi kağız üzərində qaldı. Hasili, anarşizma ziyadələşdi. Dağıstanlılar kəndi aralarında müharibə başladılar. Hər tərəfdən Teymurxanşuraya hücum etməyə hazırlandılar. Axırda hökumət kəndi əczini [acizliyini] izhar etdi və istefaya çıxdı. Məclisi-Məbusan hökumət təşkilini general [Mikayıl] Xəlilova təfviz etdi [tapşırdı, ona vəkalət verdi]. Yeni hökumətin baş günlərində siyasət dəyişildi. Könüllü ordu Şamilqalaya [Mahaçqalaya] və Dərbəndə gəldi.

Şimdi baxınız Dağıstan əhalisinin bu işlərdə bir təqsiri varmıdır? Xayır. Xayır. Min dəfə xayır. Dağıstan əhalisi kəndi qeyrət və cəsarətini qaib etməmişlər və etməyəcəklər. Fəqət başsız quyruq iş görəmməz.

Buraya qədər yazdığımız tarixi və həqiqi vaqeələrdən məqalənin başındakı suallara cavab hasil olar zənnindəyiz. Cavab bir az da sərih olmaq üçün bir-iki söz daha əlavə edəcəyiz. Müqəssir, əvvəla, müfsidlər və müfəttinlər [araqarışdıranlar və fitnəkarlar], saniyən [ikincisi], bolşevik parası ilə Dağıstan əfkari-amməsini təşvişə iqa etmiş [Dağıstan ictimaiyyətini təşvişə salmış] olan bolşevik acentələri, salisən [üçüncüsü], rəyasətdə bulunub da əlində qüdrət var ikən bu fəsadlığı məhv etmək üçün çalışmamış münəvvər zəvatdır [ziyalı şəxslərdir]. Təqsirin böyüyü bunların hankisindədir? Bunun cavabı qarein əfəndilərə [oxuculara] məfruzdur [vacibdir].

Ehtimal ki, qare[in] əfəndilər yenə sualən:

– Hökumət Məclisi-Məbusanın təhti-ixtiyarındadır [tabeçiliyindədir]. Məclisi-Məbusan nə üçün qafil oldu? – deyəcəklər.

Biz cavabən:

– Əvət, hökumət Məclisi-Məbusanın təhti-ixtiyarında, fəqət bütün rəyasətə müstəhəq olan [layiq; haqqı çatan] zəvat [şəxslər] kəndi aralarında münaqişə və münaziə [mübahisə] ilə məşğul olmaq və onların əfkarında olan ədəmi-ittihad [fikirlərində birlik olmaması] Məclisi-Məbusanı təciz etdi [aciz hala qoydu] – deyəcəyiz.

Qəzetəmizin üçüncü ədədində: "Hökumət ricalı [adamları] qəhətliyinə mübtəlayız" demişdik. Əgər bizdə bu qəhətlik olmamış olsaydı, o zaman Məclisi-Məbusanı təyib etmək [qüsurlu görmək] haqlı olardı.

Məclisi-Məbusanın çağırması və bağırması hökumətə təsir etmədi. Məclisi-Məbusan hökumətdən məyus olaraq da-

ğıstanlıların məqsədi-əslisi [əsil məqsədi] olan Azərbaycanla müttəhidən [birgə] bir Məclisi-Məbusan və bir hökumət təşkil etmək qəsdinə düşdü. Buna da şimaldan gələn məbusların və rəyasətdə bulunanların bəziləri əhəmiyyət verməməkdən maəda [əlavə], mümaniətdə bulunurdular [mane olurdular].

Şimali Qafqazya Cümhuriyyətinin halı fənalaşmasına başqa firqə və tayfada əsla təqsir yoxdur deməyiriz. Fəqət onların feilən müqəssir olması mühəqqəq [şübhəsiz, doğru] deyildir deyiriz.

Hər halda, Dağıstan əhalisi təqsirdən altun kimi təmiz və xalisdir deməklə xətmi-kəlam ediriz.

## SÜLH ƏTRAFINDA

### Lenin Kolçakla sülh edirmiş

Novoçerkasskdan xəbər verirlər ki, əsgəri nahiyə iclasında iyunun 1-də Müdafiə Komissiyası sədri Borodin bəyan eyləmişdir ki, ingilis simsiz teleqrafı bu məzmunda qayət maraqlı bir xəbər verir. Lenin admiral Kolçaka sülh təklif eyləmişdir. Hələlik cavab alınmamışdır.

### Almaniya ticarət gəmiləri

Lion - Almaniyanın ticarət gəmiləri məsələsi ən mühüm məsələlərdən birisidir. Hərgah Almaniyanın ticarət flotu olmazsa, o zaman özünün mallarını satammaz və təzminati-hərbiyyə vermək üçün para qazanammaz. Müttəfiqlər hiss edirlər ki, özlərinin mənafeyi naminə müəyyən miqdarda ticarət gəmilərini Almaniyaya verməlidirlər. Bundan əlavə, Almaniyaya bütün cahan ilə ticarət əlaqəsini başlamağa müsaidə edilməlidir.

### Çex-slavlar

Hal-hazırda Parisdə olan Boris Savinkov Sülh Konfransına özü tərəfindən hazırlanan məramnaməni təqdim eyləmişdir. Bu məramnamədən ümdə məqsəd Müttəfiqlərin hərb cəhətincə Rusiya işlərinə müdaxilə edilməsidir. Çex-Slav Cümhuriyyəti bu rəyə gəlmişdir ki, Rusiya olmadan onların cavan milləti də tərəqqi edəmməz. Çex-slavlar bir qolordu [korpus] əsgər düzəltmişlər. Bunlar Rusiyanın könüllü hissələrinə qoşulurlar. Savinkovun bəyanatına görə, çex-slav və cənubi slav hissələrinin miqdarı Almaniyadan qayıdan Rusiya qoşunları ilə bərabər 200 min əsgər və 10 min zabitdən ibarətdir. Savinkov əlavə edir ki, bu ordu Müttəfiqlərdən lazım olan silah, top, aeroplan, tank və nəqdi müavinət [pul yardımı] istəyir və bunların üzərində fransız generallarından bir komandan təyinini xahiş edirlər.

### Müharibə müqəssiri

Nauen - Almaniya sülh mürəxxəslərinin [nümayəndələrinin] notasında müharibə müqəssiri barəsində söz açılıb denilir ki, müharibə müqəssirlərinin kim olduğu məsələsini ancaq bitərəf bir məhkəmə təyin edə bilər ki, bunu da hər iki tərəfin nümayəndəsindən ibarət olan məhkəmə edə bilər.

## QƏZETƏLƏRDƏN

### İzmirdə üsyan

Bu günlərdə İstanbuldan gəlmiş əcnəbi heyətin nümayəndəsi xəbər verir ki, bu günlərdə İzmirdə türklər yunanlara qarşı üsyan qalxızmışlardır. Bu üsyan nəticəsi olaraq orada olan yunanilər qətliam edilmişlərdir. Məlum olduğu üzrə yunanilər Sülh Konfransından İzmiri istila etmək üçün mandat alaraq, İzmirə desant qoşun çıxarmaq istəmişlər. Birinci yunan dəstəsi yunan zabitlərinin müşayiəti ilə İzmir iskələsinə [limanına] çıxmaq istərkən oraya cəm edilmiş olan türklərin arasından bir türk zabiti çıxaraq yunan qoşunları üzərinə bir bomba buraxmışdır. Bombanın partlayışından türk zabiti özü də parça-parça olub və bütün yunan dəstəsi məhv edilmişdir. Bomba atmaq nəticəsi olaraq bütün türklər üsyan qalxızmışlardır. Bütün yunan məhəllələri həman gün dağıdılıb yunan əhalisi qətliam edilmişlərdir. Eyni zamanda müsəlmanlar türk zabitlərinin təhti-idarəsində [idarəsi altında] İzmir iskələsinə çıxmaq istəyən yunanlara hücum etmişlərdir. Bu əhval öylə ciddiyyət kəsb eyləmişdir [qazanmışdır] ki, yunan istila qoşunlarının rəisi müvəqqətən istiladan vaz keçməyə əmr vermişdir. Nəhayət, qoşun çıxarmağı tərk eyləmişdir.

### Dağıstanda üsyan başlanmış

Şamillərlə tarixdə böyük bir mövqe ehraz etmiş [qazanmış] Dağıstanın azadə qartalları [Mikayıl] Xəlilov kimi xainlərin vətənfürüşluğu [vətən xainliyi, satqınlığı] ilə sakit qalmayıb, azadə Dağıstanın azadə oğulları olduğunu isbata qalxışacaqlarına ümidimiz bərkəmal idi. İştə, dün Teymurxanşuradan qaçıb Bakıya varid olanların [gələnlərin] rəvayətinə görə, Dağıstanın hər tərəfində böyük üsyan çətələri [dəstələri] hazırlanır və bu günlər Teymurxanşura üzərinə yürüş başlanacaqdır. Həyəcana düşmüş əhali dağlara və Azərbaycan tərəfə ailələrini götürüb qaçmadadırlar. General Xəlilovun xanəsi üsyançılar tərəfindən əhatə edilib güllə-boran edilmişdir. Xəlilov gizlənməklə yaxasını ölümdən qurtara bilmişdir. Çeçenistanda dəxi üsyan bayrağı qaldırıldığı mövsuq [etibarlı] mənbələrdən rəvayət edilmədədir.

## DENİKİNƏ QARŞI

Denikin haydudlarının [quldurlarının] Dağıstanı işğal və Dərbəndə yetişmələri xəbəri Qubada alınar-alınmaz bir çox işlərdə fövqəladə məharət və bacarıq göstərmiş olan qaimməqam [qəza rəisi] [Əmir] xan Xoyski bu dəfə də kəndisinin layiqli bir məmur, sadiq bir vətən və millət aşiqi olduğunu isbat etdi. Böylə ki, bir taqım alçaqların dəsisəsi [hiyləsi] ilə həyəcana düşmüş zəiful-qəlbləri [ürəyi zəifləri] dəmir nüfuzu ilə təskin etdiyi kimi, gecəleyin qəzanın hər tərəfinə əmrnamələr göndərərək düşməni dəf edə biləcək qədər müsəlləh [silahlı] vətən igidlərinin sərhəd boyuna toplanmasına da müvəffəq olmuşdur. Miralaylıq [polkovniklik] rütbəsinə nail olmuş, fənni-hərbə kamalınca aşina bu cavan zabitimiz ordumuz vürududuna [gəlişinə] kimi hər ehtimala qarşı hazırlıqlar yapıb düşmən hücumunu püskürdəcək hərbi tədbirlər də ittixaz etmiş [tədbirlər görmüş] imiş.

Rəvayətlərə görə, Dəvəçi ətrafından tutmuş ta sərhədimizə qədər toplanan könüllülərin miqdarı (   )cən imiş. Xoyski əfəndi bu qədərə də iktifa [kifayət] etməyib, hərbi işləri sahiblərinə, yəni ordumuz ərkanına [qərargah zabitlərinə] tap-

şırdıqdan sonra da uyqu və istirahəti kəndisinə haram edib, bütün vaxtı gecəli-gündüzlü əsgəri işlərə həsr etməkdə davam edir.

Mən bu adama insan deyil, bir parça hümmət, həmiyyət və energiya kəsilmiş millət mühibbi [millətini sevən] və vətən aşiqi desəm, mübaliğə etməmiş olaram. Və bu sözlərimin doğru olmasını Qubanı təşrif buyurduqları zaman Maarif naziri Camo bəy Hacınski və vali vəkili Müseyib Axıcanlı həzrətlərinin qaimməqamın görmüş olduğu tədbirlərdən fövqəladə məmnun və razı qaldıqlarını camaat içində bəyan etmələri və sevgili Hərbiyyə nazirimiz Səməd bəy Mehmandarov həzrətlərinin onlarca dəfə məzkurun [adı çəkilən şəxsin] əlini sıxaraq "Yaşa, Əmir xan. Var ol, Əmir xan!" deməsi və hissinin tüğyanından Əmir xan əfəndini öpərək göz yaşlarını ağ saqqalı üzərinə yuvarlatması isbat etsə gərəkdir.

Mən də böyük atamız və qeyrətli generalımız Səməd bəy həzrətlərindən acizanə rica edərdim ki, bəndələrinə də izin versinlər ki, onlarla birlikdə səda-sədaya verib "Çox yaşa, Əmir xan. Yaşa, sən də minlərcə yaşa, böyük generalımız, namuslu qəhrəmanımız, sevimli Səməd bəyimiz. Yaşa, sən də yaşa və bütün qeyrətli vətən müdafelərimiz [müdafiəçilərimiz] də yaşasın!" deyəlim.

Əvət, əfəndilər, siz yaşayınız və biz də inanalım ki, nə qədər sizin kimi ətrafa hümmət və qeyrət alovları saçan vulkanmisal [vulkan kimi] qəhrəmanlar yetirməyə vətənimiz müstəiddir [qabildir], içimizdə yanan vətən və millət atəşini şimalın heç bir buzlu ruzigarı söndürəmməz və üzərimizə cəli [saxta] vasitələrlə soyuq qarlar yağdırıb vətən və millətə olan atəşin məhəbbətimizi dondurmaq arzuyi-müfsidanəsində bulunan şimal ayıları istimizə qarşı dayanammayıb əriyib də məhv olarlar.

*H. R.*

## TÜRKÜSTANIN ƏHVALI

Srağagün Türküstandan gəlmiş bir nəfər itminanlı [inamlı, etimadlı] zat Türküstan əhvalını böylə təsvir edir.

Türküstanda fəaliyyətdə bulunan Şura qoşunları qırğız, başqırd, tatar və otriş-macarlardan [avstriyalı və macarlardan] ibarətdir. Türkmənlər o qədər də müavinətdə bulunmayırlar. Zira miyanlarında [aralarında] qayət müfəttin əşxas [fitnəkar şəxslər] onları iğfal etməkdədir [yoldan çıxarmaqdadır]. Şura qoşunları başında Kazım bəy nam [adlı] bir türk durmaqdadır. Kazım çalışqan bir zatdır. Onun sayəsində müntəzəm dövləti idarə və müntəzəm əsgəri hissələr mövcuddur.

Müşarünileyhdən [haqqında danışılan şəxsdən] başqa Hindistan müsəlmanları arasında ən böyük nüfuza malik Bərəkətulla nam bir zat da Türküstanda çalışmaqdadır. Onun fəaliyyəti və nüfuzu sayəsində Hindistan, Əfqanıstanda üsyan hərəkatı başlanmışdır.

## MƏMLƏKƏTİMİZDƏ ƏSGƏRLİK HƏYATI

Əsgərlik bilməməyin, vaxtilə əsgərlik məşəqqətinə və əsgərlik zəhmətinə vücudumuzu alışdırmamanın səbəbi ilə bu üzdən nə dərəcə müşkülat qarşısında və nasıl bir böhran və fəlakətlər içərisində bulunduğumuzu bundan az zaman əvvəl keçirməkdə olduğumuz müsibətlər, ani və nagahani məruz qaldığımız hücumlar, keçirmiş olduğumuz vərtələr [təhlükələr] və atlamış olduğumuz uçurumlu təhlükələr, iştə, əvvəlcə əsgərlik öyrənməmənin nəticeyi-vəxamət[in]dən mütəhəssil sui-təsirin təvəllüd etdirdiyi məzaratını [qorxulu nəticəsindən əmələ gələn mənfi təsirin meydana çıxardığı zərərləri] bir çox dəfələr acı təcrübələr, zərbələrlə gördük. Fəqət bu görmüş olduğumuz acı təcrübələr bizim üçün eyi bir dərsi-ibrət və ciddi bir dəvəti-intibah oldu.

Təvəkkəli deyilmidir [boşuna deyil, səbəbsiz deyil] ki, millətimiz müqəddəratını əlinə alar-almaz ən böyük bir nöqsanlığı olan əsgərlik fənnindən məhrumiyyət illəti [xəstəliyi] olduğu zatən əvvəldən də nəzəri-etibara alınmış və sonra da hər şeydən əvvəl millətimiz olanca məsaisini [səyini] əsgərlik fənnini öyrənməyə həsr ilə və ələn [hal-hazırda] da səyinə davam etməkdədir.

Şu qədər deyə biləriz ki, bizim bu nöqsanlığımızdan mütəvəllid [əmələ gələn] sui-xəta yalnız ağıl və fikrimizə, beyin və dimağımıza [şüurumuza] deyil, tam mənası ilə bütün əsabımıza [əsəblərimizə] işləyərək və bundan da tülu edən [doğan] qələyandır [həyəcandır] ki, dünkü məqaləmizdə ərz eyləmiş olduğumuz vəch ilə [ifadə etdiyimiz kimi], 6-7 yaşındakı çocuqlarımızın və əsgərliyə əlaqəsi olmayan bir çox əhalimizin kazarmalara gedib təlim öyrənmələri və çocuqlarımızın gecə və gündüz soqaqlar[d]a [küçələrdə] əsgəri nümayişləri yapmaları millətimizdə əsgərlik həvəsinin nə dərəcədə təkəmmül eylədiyini göstərir, demişdik.

Buna əlavə də, bundan 2-3 ay əvvəl Gəncədən Bakıya vürud edən [gələn] 5-6 yüz kişilik bir qiteyi-əsgəriyyənin [hərbi hissənin] müvasiləti [gəlib çatması] günü şəhərimizdə hökumətimiz tərəfindən əsgərliyə məhza bir məziyyət [xüsusi bir üstünlük] verilmək üzrə millətimiz nəzərində əsgərliyin ülviyyət və qüdsiyyətini təbcil və təqdis [ucaltmaq və müqəddəsləşdirmək] xüsusunda yapılan o dəbdəbəli və şəşəəli [təntənəli] mərasimi-istiqbaliyyədə [qarşılama mərasimində] əhalimizə və heç bir icbar, heç bir əmr və təklif vüqu bulmadığı halda, əsgər mühibbi [əsgər sevən], əsgər aşiqi, əsgər məftunu və eyni zamanda da millət və milliyyətinə sadiq və müşfiq bir möhtərəm qəlbli əhalimizin, ələlxüsus xanımlarımızın o mütəntən [təntənəli] mərasimə iştirak eyləmələri xanə və dükanların qapılarını qiymətdar xalılar və böyük şərəfli bayraqlarla təzyin etmələri [bəzəmələri]; ümumi caddələrdə minlərcə erkək və minlərcə xanımlarımızın səfbəsteyi-ehtiram və ehtiramələri [hörmətlə cərgəyə düzülmələri] arasında, o mətufeyi-pişi-ənzar və ənzarələri qarşısında [onlara çevrilmiş nəzərləri qarşısında] növcah [işə yeni başlamış] hökumətimizin yeni, gənc və qəyur [qeyrətli] əsgərləri və sevimli simaları rəsmi-keçid [parad] yaparkən erkəklərimizin sürəkli alqışları, xüsusilə xanımlarımızın, hər halda, Mart hadiseyi-əliməsini dərxatir edərək [kədərli Mart hadisəsini yada salaraq], adətən, boyunları bükük bir vəziyyətdə, qəlbləri yanıq kimi görünür bir mənzərə təşkil edən məyus bir çöhrədə, məsumə bir tövr və həzinə bir baxışla

məmləkət və millətimizin ümidi-istiqbalı [gələcək ümidi], rifah və səadətimizi ikmal edən [tamamlayan], əmnü asayişimizin xadim və harisi olan [əmin-amanlıq və asayişimizə xidmət edən və onun keşiyində dayanan] əsgər övladlarına, əsgər qardaşlarına ənzari-xalisanə ilə [saf nəzərlərlə] baxarkən, millətimizdən zükur və ünasın [kişilərin və qadınların] əsgərə və əsgərliyə, dolayısı ilə də məmləkət və istiqlaliyyətinə qarşı bəsləməkdə olduğu mərbutiyyətlə [bağlılıqla] ibrazi-hörmət və ibzali-məhəbbəti [hörmətini göstərməsi və məhəbbətini əsirgəməməsi] inkar ediləməyəcək bir həqiqətdir.

Bu cəhəti əsgər qardaşlarımız daha ziyadə təqdir və təsdiq edəcəkdir. Hələ o günün axşamı ordumuzun ərkan, üməra və zabitanı [qərargahı, komandirləri və zabitləri] ilə əsgərlərimizin şərəfinə məmləkətimiz əşraf və müməyyizan və əkabiri [nüfuzlu, seçilmiş və böyük adamları] tərəfindən Klubda kəşidə edilən [verilən] ziyafətdə əsgərliyə yapılan hörməti unutmayaraq söyləməkliyimiz də mübaliğəyə həml edilməyəcəkdir [mübaliğə sayılmayacaqdır], zənnindəyiz.

Halbuki bizim əhalimiz və bizim xanımlarımız o vaxta qədər əsgər görməyən bir məxluq deyildi! Məmafih [bununla belə], əvvəlcə rusun o möhtəşəm ordularından maəda [başqa], inqilabdan sonra Bakıya müəzzəm [böyük] dövlətlərin orduları gəldi-getdi. Heç bir kimsənin xəbəri, bəlkə, olmadı. Hənuz təşkil olunmuş və bir çox şeyləri də nöqsan dörd-beş yüz kişilik bir qüvveyi-əsgəriyyəyə bu qədərcə səmimi bir təvəccöhi-nəzər və rəbti-qəlb ilə [mehriban baxış və ürəkdən bağlılıqla] ciddi bir təzimin ifasını icbar etdirən nədir? Qəlbdən, vicdandan tülu edən [doğan] həmiyyətdir. Və bu vəsilə ilə də vaxtında əsgərsizliyin acı təcrübələrinin varidi-xatir olmasıdır [yaddan çıxmamasıdır].

Sabiq hökumət zamanında rus istibdadı altında dörd-beş sənəlik hərbi-ümuminin şiddətli badirələri [fəlakətləri] arasında və Karpat dağlarında əhalimizin ta ki şu əsgərliyi öyrənmələrinin səlaməti üçün rus ordusunda belə əsgərlik yapmadıqlarına həqiqi bir nədamət [peşmançılıq] və böyük bir peşmanlıq gətirmişlərdir. İdareyi-sabiqədə [əvvəlki idarədə, əvvəlki rejimdə] əhalimizin əsgərə alınması üçün təklif vüqusunda [təklif meydana atıldıqda], millətimizə irəlidə zühuru məlhuz olan [meydana çıxması nəzərdə tutulan] lüzum və əhəmiyyətinə binaən [əsasən] və netəkim də dəfeatla [dəfələrlə] vüqu bulduğu kimi, mühitimizin böyük vətənpərvər və böyük millət və milliyyətpərəstlərindən Hacı Zeynalabdin əfəndi cənabları əhalini əsgər yapdırmaq xüsusunda çalışaraq, içimizdən bəziləri bu fikri nəzəri-həqarətlə tələqqi edərkən [hörmətsizliklə qiymətləndirərkən], şimdi əhalimiz də Hacı Zeynalabdin əfəndinin bu işə dəlalət və təvəssütünü [rəhbərlik və vasitəçiliyini] rədd etməklə böyük bir fürsəti zaye [puç] etmələri sırasında əllərini dizlərinə vuraraq etirafi-nədamət [peşmançılıqlarını etiraf] edirlər.

Bunları söyləməkdən məqsəd əsgərliyin nöqsanlığı mazidə, yəni keçmişdə olan bir şeydir ki, bu da bir xəta deməkdir.

Xəta təshih, nöqsan ikmal və zayiat isə təlafi edilər [Səhvlər düzəldilməli, əskik olan şeylər tamamlanmalı, itkilərin isə yeri doldurulmalıdır].





İş orasındadır ki, bir millət xətasını, nöqsanını bilməli, bunları bilərsə, mazisini, halını, istiqbalını da [keçmişini, indisini və gələcəyini də] bilər.

Məsələn, mazidə [keçmişdə] uğramış olduğu bir fəlakətə, halda və istiqbalda bir daha uğramamaq və yapmış olduğunu təkrar etdirməmək və o vaxtdan qalma nöqsanını ikmal və istiqbalda da lazım olacaq olan şeyi də halda ihzar eyləmək [indi hazırlamaq], əlhasil, bir millət üçün mazisini, halını, istiqbalını bilmək böyük bir nemət və böyük bir qənimətdir. Böylə bir xislətə və bu dərəcə mülahizə və durəndişəyə [uzaqgörənliyə] malik olan bir millət heç bir vaxtda aldanmaz və zərər də çəkməz.

Əvvəlcə əsgərlik yapmamışız, əvət! Şimdi əsgərlik yapmaq üçün hər bir vəsaitimiz mövcuddur. Əsgərə də ehtiyacımız vardır. Daxili-əsnan [yaşı düşən, müəyyən yaş həddi daxilində olan], yəni əsgərliyi olan bir adama dəvət vüqusunda [çağırış gəldiyi zaman], kamali-xahişlə [böyük bir həvəslə] əsgər olması, müharibə etmək üçün əsgərlik öyrənməsi mazidəki nöqsanı halda ikmal və istiqbala da hazırlanmaq deməkdir.

Məmləkətimizə əsgər yalnız təhlükəli zamanlarda deyil, hər daim lazımdır. Çünki müharibənin nə vaxt olacağı əvvəlcə məlum olmaz. Müharibənin zühuru anında əsgər cəm eyləmək, əsgər yetişdirmək də müşküldür. Məmləkətimizin irəlidə ani və nagahani olaraq bir təhlükəyə düçarında ordumuzun əsgərlikcə olan nəvaqisini ikmal [nöqsanlarını aradan qaldırmaq] xüsusunda vüqusu məlhuz olan müşkülata məhəl qalmamaq [meydana gələ biləcək çətinliklərə yer qalmamaq] üzrə ümumumuz silah başına qoşaraq bir mil-ləti-müsəlləhə [silahlanmış bir millət] ol-malıyız.

Şimdiki hala nəzərən məmləkətimizin idareyi-həyatının davami-bəqası [əbədi olması] və atimizin [gələcəyimizin] də təmini üçün, hər halda, bizim də bir milləti-müsəlləhə olmağımız lazımdır. Bunun da əsbabı [səbəbləri] isə; xidməti-əsgəriyyə [hərbi xidmət] dörd sinifə təqsim edilmişdir [bölünmüşdür]: nizamiyyə, ehtiyat, rədif, bir də müstəhfiz sinifləridir ki, bunlardan nizamiyyə gərək həzəri [asayiş], yəni müharibənin qeyri zamanlarında və gərəksə səfəri, yəni müharibə və ya səfərbərlik əsnasında müddəti-həzəridə [asayiş dövründə] iki ilə üç sənə, səfəridə müharibə və ya səfərbərlik bitincəyə qədər silah altında bulunanlardır. Həzəridə və səfəridə müddəti-nizamiyyəsini ikmal edən [nizamiyyə müddətini tamamlayan, orduda xidmətini başa vuran] bir əsgər tərxis olunaraq ehtiyat sinifinə keçər və ehtiyatdan sonra da rədif və sonra da müstəhfizdir. Hökumətin hər nə vaxt fəzlə əsgərə ehtiyacı olarsa, zaman və zəminə görə əvvəla ehtiyat sinifindən, icab edərsə rədif və son dərəcəyə gələcək olarsa müstəhfiz sinifindən də təhti-silaha [silah altına] alaraq nizamiyyəyə iltihaq ilə [birləşdirməklə], nöqsanını ikmal edər [təkmilləşdirər] ki, iştə bu üç sinif əsgərə də şimdi ikmal əfradı [ikmal əsgərləri] namı verilir.

Hal-hazırda bizim nizamiyyəmiz vardır. Digər üç sinif əsgərimiz əlyövm saatda [indiki zamanda] əsgər olmayanlardır.

Ordumuzun qüvvətini təzyid [artırmaq] üçün təbiidir ki, bunlar da silah altına alınacaqdır. Mühüm [və] müstəcəl

[təcili] bir zamanda bunları silah altına alıb müharibəyə hazırlamaq balada ərz olunduğu vəch ilə [yuxarıda deyildiyi kimi] zordur.

Madam ki möhtərəm və nəcib əhalimizin əsgərlik öyrənməyə həvəsi fəzlədir, bunları həm atiyə hazırlamaq, həm də bu xüsusdakı nöqsanımızı ikmal eyləmək üçün əhalimizi gərək əsgərlik və gərəksə qışla və kazarma həyatına bir dərəcə alışdırmaq məsələsində, heç olmazsa, bir aylıq müddətlə bizim də digər dövlətlər kimi bir milləti-müsəlləhə olmağımız üçün bu günlər ümumi bir səfərbərlik elanı ilə şimdiki halda böylə böyük bir nöqsanımız və qəti məcburi bir zəruri bu ehtiyacımızın ikmalı cəhətinə gedilməkdə nə hökumətimiz, nə ordumuz və nə də millətimiz zərər çəkməyəcəkdir zənnindəyiz.

*Çubuqçuzadə Yusif Camal*

## YENİ TƏŞKİL OLUNMUŞ YARDIM ALAYI

Türkcə "Azərbaycan" qəzetəsinin 6 iyun tarixli çıxan nömrəsində şəhərimizdə alış-verişçilər tərəfindən təşkil olunmuş Yardım Alayına qeyd olunmaq istəyənlərin kamali-məmnuniyyətlə qəbul olmaqlarını oxuyub artıq dərəcədə xoşhal oldum. Şöylə ki, qəzetənin axşam çıxdığına binaən [görə], o gecəni yola salmaqla bərabər, sabahı səbirsizliklə gözləyib kəndi-kəndimə deyirdim ki, ya Rəbbi, görəsən, sabah haçaq olacaq ki, gedib kəndimi yardım alayına könüllü qeyd etdirim. Bu fikirlərlə düşünürdüm. Nəhayət, gecə olub yatağımda yatdım. Bir vaxt ayılıb gördüm səhərdir. Günəşin işığı hər bir tərəfi bürüyübdür. Saat 8 radələrində məzkur [deyilən] alayın dəftərxanası tərəfə yönəldim və dəftərxanaya daxil olub kəndimin Yardım Alayına könüllü qeyd olunmağımı məzkur dəftərxanada olan cənaba izhar etdim. Məzkur cənab da kəndimi kamali-məmnuniyyətlə qeyd edib, sabah cümə günü saat 8 radələrində Təzəpir məscidi həyətinə gəlməmi söylədi.

Mən dəftərxanadan xoşhallıqla dişarı çıxıb kəsbkarlığımın [işimin-gücümün] üstünə gəldim. Sabah cümə gününü səbirsizliklə gözləməkdə idim. Azani-Allahuəkbər olub iftar eylədim. Nəhayət, gecə oldu və yatağıma sərilib yatdım. Bir vaxt ayılıb gördüm ki, günəşin işığı pəncərədən odama düşmüşdür. Sanki başını uzadıb mənə deyir ki, dur, gözlədiyin sabah budur, açılıb. Get könüllü vəzifəni layiqi ilə ifa etgilən. Nəhayət, yerimdən durub saat 8 radələrində Təzəpir məscidinə tərəf yönəldim. Məscidin darvazalarına çatmamış gördüm ki, gurultulu alqış və əhsən sədaları ətrafı bürümüşdür. İzdihamın kəsrətinə [çoxluğuna] baxmayaraq, kəndimi bir tövr ilə içəriyə daxil eylədim. Könüllülərin nizamla biribirilərinin əqəbincə [arxasınca] yeriməklərini gördükdə sevindiyimdən kəndimi ağlamaqdan saxlayammadım. Sanki həyata yeni bir qədəm qoydum. Bir yandan könüllülərin sevinclə oxumaqlarını, digər tərəfdən mini-mini çocuqlarımızın əllərində taxtadan qayırma silah və başlarındakı kağızdan qayırma Osmanlı qalpağını və hər tərəfdən də qadın, qoca, cavanlarımızın tamaşalarını insan gördükdə məmləkətimizin müstəqil bir məmləkət olub davam edəcəyini sübut edirdi. Nəhayət, mən də bunlara qoşulub və Təzəpir həyətindən Salyan qışlasına [kazarmasına] tərəf yönəldik. Dalımızca da izdiham gəlirdi. Çocuqların da bizim əqəbimizcə gəlib nizamla durub oxumaları şayani-təhsin [alqışa layiq] idi. Biz də şu aşağıda yazdığım nəğmələri oxuyub nizamla gedirdik:

*Mən bir türkəm, dinim, cinsim uludur.*
*Sinəm, özüm ataş ilə doludur.*
*İnsan olan vətəninin quludur.*
*Türk övladı evdə durmaz, gedərəm.*

İştə, bu nəğmələrimizin sədasına qadınlarımız başlarını qapı-pəncərələrindən uzadıb tamaşa edib sanki deyirlərdi:

Ey vətəninizi, istiqlalınızı, millətinizi və ana-bacılarınızı müdafiə edən qardaşlar! Tanrı yardımınız olsun və düşməniniz puç olmaqla bərabər əminik ki, vətəninizi, millətinizi və istiqlalınızı o qara qüvvələrdən – ki fikirləri Azərbaycan istiqlalına balta çalmaqdır, – onlardan müdafiə və mühafizə edəcəksiniz. Əks surətdə sinənizi düşmən qabağında sipər etməklə bərabər, bir daha ucalan ay-ulduzlu bayrağınızı endirəmməzsiniz. Və bir daha ana-bacılarınızı düşmənin təhti-əsarətində [əsarəti altında] yaşatmazsınız. Və əminik ki, bu nail olduğunuz istiqlalı göz bəbəyi kimi müdafiə edəcəksiniz. Məhv olsun düşmənləriniz! Yox olsun daxili və xarici düşmənləriniz!

Nəhayət, qışlanın o açıqlı, o ruhəfza [ruhlandıran, könül açan] və o ürəkaçıcı səhrasına çatdıq. Belə ki, onun tərifi şairanə olduğu üçün, əfsus ki, yazmaqdan acizəm və bir qaç nəfər qadınlar da bizim əqəbimizcə gəlib çatdılar. Bir qədər nəfəs almaqdan ötrü cərgədən pozulub o səfalı səhranın hər bir tərəfinə tamaşa edirdik. Sonra həpimiz bir yerə toplanıb, nəhayət, şanlı zabitlərimizdən və qəhrəman əsgərlərimizdən qaç nəfəri gəlib bizə təlim verməklə bərabər bir neçə bölüyə ayırdılar. İki saatlıq təlimimizdən sonra əsgərlərə namaz qılmaq əmri verildiyinə binaən [görə], həpsi nizama durub və qabaqda molla əfəndi ilə çavuş əfəndi bu vətən qurbanlarına namaz qıldırırlardı. Nəhayət, namaz qurtarıb o məsum balaların əlləri qiblə səmtinə və göy tərəfinə tutulub guya bu tövr dua edirdilər:

Pərvərdigara, sən bizim haqq pərvərdigarımızsan və bizim düşmənlərimizi puç etməklə bərabər, yeni islam məmləkəti olan Azərbaycanımızı əbədilik etgilən, ya Rəbbi! Dini-islama qüvvət verməklə bərabər, islam xainlərini məhv etgilən!

Bədəhu [sonra] əllər sallanıb, hər kəs sevinclə qışlasına tərəf yönəldi. Nəhayət, bizə də təlim verilib qurtardı. Saat 2 tamamda nizama durub, Təzəpir tərəf nəğmə oxuya-oxuya gəldik. Buraya yığılan izdiham bizi alqışlar içində həyətə daxil etdilər. Burada da bir qədər nizamla manevra etdik. İştə, burada ürək yandırıcı bir şey var. Xudaya, bu nə şeydir ki, insan ona baxanda ağlamaqdan özünü saxlayammayır. Əlbəttə, bu da Təzəpirin qoşa, yaralı və ucaboylu minarələridir. İştə, o minarələr bizə xəcalətlə başıaşağı baxıb deyir ki:

Ey qəlblərində vətən və millət istiqlalı

hissi olanlar, bunu düşünməlisiniz ki, istiqlalınızı, vətəninizi və millətinizi düşməndən saxlamaqdan ötrü hamınız tənivahid bir qüvvə kimi [hamı bir nəfər kimi] düşmən müqabilinə çıxıb sinələrinizi sipər edəsiniz! Edəsiniz də, ta ki gələcəkdəki övladlarınız sizə duaxan [duaçı] olub ruhunuzu şad etsinlər.

Nəhayət, bir neçə natiq nitq etməklə bərabər, hamımızı istiqlalı müdafiə etməyə dəvət etdilər. Bədəhu hamımız bir ağızdan: "Son damla qanımıza qədər milyonlarla can bahasına oturmuş istiqlalımızı müdafiə və mümkün olduqca sinəmizi düşmənə sipər edəcəyiz. Yaşasın istiqlalımız! Məhv olsun düşmənlərimiz ki, bizləri zənciri-əsarətdə yaşatmaq istəyirlər!" – deyib, hər kəsdə bir bəşarət [müjdə, şadlıq] və hər kəsdə bir sevinc olduğu halda dağıldıq.

Əlavə, söz verildi ki, gələn cümədən silahlı olaraq məşq edəcəyiz və gələcəkdə də böyük-böyük işlər yapacağız.

İştə, mən də üzümü tutub deyirəm ki:

Yaşasın Yardım Alayının könüllüləri! Yaşasın şanlı və qəhrəman əsgərlərimiz! Var olsun millət xadimlərimiz! Yox olsun daxili və xarici düşmənlərimiz! Məhv olsun günəşin qabağını tutan qara buludlar! Yaşasın Azərbaycan!

*Məhəmmədəli Əsədullazadə*
*Tabaqçı*

## BAKI XƏBƏRLƏRİ

### Könüllü zabitlərin tövqifi

Srağagün polis tərəfindən 6 nəfər Könüllü ordu zabitanından tövqif [həbs] edilərək polismeyster idarəsinə aparılmışdır.

- Aldığımız məlumata görə, ən yaxın zamanda Daxiliyyə Nəzarəti cənbində [nəzdində] Əmniyyəti-Ümumiyyə [Ümumi Asayiş] şöbəsi güşad ediləcəkdir [açılacaqdır]. Şöbə müdirliyinə məşhur millət xadimi [Nemanzadə] Ömər Faiq əfəndinin namizədliyi göstərilir.

### İtalyanların gəlməsi

Srağagün Bakıya bir neçə İtaliya afiserləri varid olmuşlardır [gəlmişlər]. Bunlardan Bakıda bir İtaliya ərkani-hərb [hərbi qərargah] idarəsi təşkil ediləcəkdir. Afiserlər "Metropol" mehmanxanasında iqamət etmişlərdir [yerləşmişlər].

### Nasosnı mövqifində

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Bakı komitəsinə məlum edirlər ki, Şollar su yolunun Nasosnı mövqifində [stansiyasında] olan mexanik müavini və mühəndis Ronsil orada qulluq edən müsəlman əmələlərini [işçilərini] çıxarıb əvəzinə qeyri millətlərdən qəbul edir. Böylə ki, 140 nəfər müsəlman əmələsindən indi orada ancaq 25 nəfər adam qalmışdır. Bundan əlavə, orada işləməkdə olan mexanik mövqifin motorlarını xarab etmək qəsdi ilə çox vaxt lazımsız işlədir. Böylə gedərsə, həman motorlar az bir zamanda tamamilə xarab olub su buraxmaq mümkün olmayacaq. Və bu isə böyük müşkülat törədəcəkdir. "Müsavat" firqəsi həmin məlumatı Məsai [Əmək] nazirinə göndərib lazımi binagüzarlıq edilməsini [sərəncam verilməsini] tövsiyədə bulunmuşdur.





### Cərimələr

Bakı qalabəyisinin [komendantının] binagüzarlığına [sərəncamına] görə, Bakıda sükunət edən Şirməhəmməd Məlik oğlu, Yusif Quliyev, Balaağa Aslan oğlu, Əlibala Hacı Paşa oğlu külli miqdarda patron və tüfəng saxlamaqda müttəhim edilərək 3 ay həbsxanaya məhkum edilmişlərdir.

### Vəzirlərin övdəti

Neçə gün bundan əqdəm [qabaq] Gəncəyə getmiş olan Rəisi-vükəla [Baş nazir] və Daxiliyyə naziri Nəsib bəy Yusifbəyli və Məsai [Əmək] naziri Səfikürdlü Bakıya övdət etmişlərdir [qayıtmışlar].

### Rostov[a] qatar hərəkatı

Qəzetələrin rəvayətinə görə, üç gün bundan əqdəm [qabaq] Teymurxanşura, Petrovsk və Rostov arasında dəmiryol hərəkatı başlanmışdır. Teymurxanşuradan Rostova guya 3-cü qatar getmiş imiş.

### Bir vətən könüllüsü çocuq

Dün dağıstanlı 12 yaşında Şahbaz adlı bir çocuq "Müsavat" firqəsinə müraciət edərək Dağıstanda Könüllü orduya qarşı hərb etmək üzrə könüllü yazılmaq istədiyini bildirmiş və kəndisinə tüfəng verilməsini rica etmişdir. Kiçik bir çocuğun şu qəhrəmanca halı idarədə bulunanların bir çoxlarını mütəəssir etmişdir.

### Bakı dəlləkləri

Bakıda və ətrafında yaşayan dəllək sinifinə elan olunur ki, əsgərlik təlimin[i] almaq istəyən yoldaşlar zəhmət çəkib may ayının 13-də səhər saat 11-dən 3-dək Təzəpir məscidinə gəlib yazılsınlar.

## MÜTƏƏLLİMLƏR QURULTAYI
## [TƏLƏBƏLƏR QURULTAYI]

*6 iyun, 5-ci iclas*

İclas İbrahimli Müqbil cənablarının sədarəti və Məlikməhəmməd Məlikzadənin katibliyi ilə açılır.

Növbədəki məsələlər:

1) Əhvali-hazirəyə dair məruzənin məbədi [ardı];

2) Məktəb məsələsi barəsində məruzə;

3) Yeni Mərkəzi Komitəyə intixabat [seçkilər];

4) Cari məsələlər.

Əhvali-hazirəyə dair intixab olunmuş heyətin sədri Zəki Pepinov məruzəni oxuyur. İclas tərəfindən məruzənin yenidən oxunması tələb olunur. Bir qaç təshihat [düzəliş] əlavə olunduqdan sonra məruzə müttəhidülrəy [yekdilliklə] qəbul olunur.

Əbdülvahab Məhəmmədzadə əhvali-hazirəyə dair müraciətnamə yazmasını izah edir. Müraciətnamə oxunduqdan sonra iclas tərəfindən müraciətnamənin bir taqım yerlərinin düzəlməsi qərara alınır. Bunun üçün üç nəfərdən mütəşəkkil bir heyət seçilir. Heyətə daxil olanlar: Məlikməhəmməd Məlikzadə, Tağı Əlizadə və Əlinağı Ağazadə.

Məktəb məsələsi barəsində hazırlanmış məruzənin üslubu düz olmadığına görə əksəriyyəti-səda [səs çoxluğu] ilə gələcək iclasda həll olunması qət olunur.

Yeni komisyon seçilir. Komisyona daxil olanlar: [Zəki] Pepinov, İbrahimzadə, Poladzadə Əbdülhəsən.

Yeni Mərkəzi Komitəyə üzv intixab etmək Bakı məhəlli təşkilatının çağırılacaq

ümumi iclasına həvalə olunur. Gec olduğuna görə cari məsələlərin gələcək iclasda həll olunması qət olunur. İclas saat 2 radələrində qapanır.

**RAMANA KƏNDİNDƏ**
**28 Mayısda İstiqlal bayramı**

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Ramana şöbəsinin təşəbbüsü ilə kəndlilər və fəhlələr tərəfindən təntənəli bir surətdə İstiqlal bayramı saxlanıldı.

Ulu babalarımızdan bizə yadigar qalan, 3 metrə qalınlığında, 25 metrə yüksəkliyində daş divar, 2 metrə qalınlığında, 6 metrə yüksəkliyində dörd tərəfdən daş səngərə malik, neçə əsrlərdən bəri sağlam vücudu ilə ruzigarın şiddətinə tabavər olan [tab gətirən] və bu gün 28 Mayda öz sənubər qəddi ilə aşiqlərini hüccacvar [hacılar kimi] təvafa məcbur edən Ramana qalası başı üzərində saxladığı milli Azərbaycan bayraqları ilə İstiqlal bayramını təbrik və gələnləri salamlayırdı. Rəngarəng xalılarla, cürbəcür güllər və göyərtilərlə vücudu bəzənmiş olan bu vətən ərusunun [gəlininin] başındakı elektrik qüvvəsi ilə münəvvər olan hilal və səkkizguşəli ulduz paytaxtımızdan və ətraf kəndlərdən ona tamaşa edənlərə şairlərin sərv ağacı kimi özünü göstərirdi. Həman gün onun ətrafına cəm olub şadlıq edənlərə bu qala zəbani-hal ilə [hal diliylə] deyirdi:

"Ey, vaxtilə bir çox mənim kimi yüksək qalalar yapan və ey, keçmişdə öz cəsarəti, mərdanəliyi sayəsində qılınc gücü ilə bir çox imperatorları, xaqanları zirihimayəsinə [himayəsinə altına] alan ulu türk əhfadı [ulu türkün nəvələri]!

Daha bəsdir, yetər bu qədər qəflət etdiniz. Bu gündən belə ittihad, ittifaq edib öz istiqlaliyyətinizi müdafiə etməyə hazır olun. Neçə illərdən bəri öz hüququ yolunda ömrünü müharibə ilə keçirən və bu günəcən mərdanə surətdə zalımlarla çarpışan böyük türk qardaşlarınıza baxıb, onlardan ibrət götürün və unutmayınız ki, məni, sizləri bugünkü bayrama nail edən həman qardaşlarınız oldu."

28 Mayda səhər saat 8-dən başlayıb qalanın ətrafına mədənlərdən və kənddən camaat dəstə-dəstə gəlib cəm olurdular. Bayrama, təbrikə gələnlərə çay verilib güllər və alma paylanırdı. Saat 10-da məzkur [deyilən] yerə minlərlə fəhlə və kəndlilərdən ibarət camaat toplanıb zurna çaldırıb bayram edirdilər. Bakıdan və ətrafdan çağırılmış natiqlər camaata gözəl nitqlər söyləyib alqışlanırdılar.

Gündüz saat 2-də fotoqrafçı çağırılıb qalanın və hazirunun [orada olanların] surəti alındı.

Axşam saat 6 radələrində sevgili millət xadimimiz Məhəmməd Əmin Rəsulzadə əfəndi Azərbaycan Türuq [və] Məabir [Nəqliyyat və Rabitə] naziri [Xudadad bəy] Məlikaslanov həzrətləri, Abbasqulu Kazımzadə cənabları neçə nəfər yoldaşlarla bərabər təbrikə təşrif gətirmişdilər.

Möhtərəm qonaqlarımız o günkü məclisi idarə edən Mirdaməd [Məhəmmədzadə], 2-ci uçastokun pristavı Avalov, onun müavini Qulam bəy və həmçinin kənd yüzbaşısı Abutalıb [Rəsulzadə], "Müsavat" şöbəsi sədri Məşhədi Şükür [Balayev] və katibi Böyükağa [Vəlizadə] cənabları və bir çox fəhlə və kənd ağsaqqalları tərəfindən istiqbal olundular [qarşılandılar].

Qonaqlar məclisə çatdıqda məktəb uşaqları səf çəkib [cərgəyə düzülüb] milli nəğmələr oxuyub, möhtərəm qonaqlar tərəfindən təhsin edildilər [alqışlandılar]. Məhəmməd Əmin [Rəsulzadə] əfəndi məktəb uşaqlarına bir neçə kəlmə gözəl söz deyib gurultulu və sürəkli alqışları altında məclisə təşrif gətirdilər. Sonra Məhəmməd Əmin əfəndi camaata xitabən gözəl bir nitq deyib dəfələrlə alqışlandılar. Sonra Məlikaslanov həzrətləri müxtəsər bir nitq söyləyib alqışlandı və sonra Abbasqulu [Kazımzadə] və Məlik-Yeqanov nitq söyləyib alqışlandılar.

Möhtərəm Məlikaslanov bayramda iştirak edən fəqir uşaqlara 525 manat ianə verib məclis rəisinə tapşırdı ki, məzkur [deyilən] uşaqlara paylasın.

Camaatın gurultulu alqışları altında möhtərəm qonaqlar məclisi tərk edib təşrif apardılar. Məhəmməd Əmin Rəsulzadə əfəndinin Ramanaya gəldiyini xəbər tutan fəhlələr hər tərəfdən dəstələrlə gəlib möhtərəm natiqimizi eşitmək və görmək istəyirdilər. Fəqət bir az gec xəbər tutduqlarına görə çox təəssüf edirdilər.

Axşam məclis daha da təntənəli oldu. Əhalinin arzusuna görə sədri-məclis musiqi dəstəsi gətirib gecə saat 2-yə qədər böyük şadyanalıqla bayram oldu və 3 mindən ziyadə pul ianə toplandı.

*Ramanalı*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi R. S. Fuks**

Qəbul edir: 9-dan 10-a dək; 5-dən 7-yə dək. Ünvan: Mariinski, nömrə 18. Ferdinandın aptekası ilə bərabər. Telefon nömrə 34-15.

*10202*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*8798*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

Moskvada təcrübə görmüş diş həkimi **K. S. Kolandskaya-Sanuxat** kabinə açmışdır. Müalicə edir, dişləri doldurur, süni dişlər qayırır və dişləri ağrısız çəkir. Qiymət münasibdir. Qəbul edir: Hər gün səhər saat 9-2-yədək; aşxam saat 5-7-yədək. Adres: Bazarnı və Suraxanski küçələrin küncündə, nömrə 112.

*8795*

**Zəhmət (məsai) bürosu**

Bakı Şəfqət Bacıları İttifaqı şəfqət bacılarını gecə işlərinə, iynə vurmağa, masaj etməyə müərriflik edir [tövsiyə edir, zəmanət verir]. İttifaq öz işçilərinin işlərinə cavabdehdir. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Budaqovski və Malakanski küçələrin küncündə, nömrə 16/22, mənzil 6. Konkanın mənzili. Telefon nömrə 14-08. Büro bütün gün açıqdır.

*8755*

Xarici məmləkətlərə yun yollamağı və komisyon təriqi ilə xarici məmləkətlərdə satmağı **İ. V. Denisovun** bankir kantorası qəbul edir (Olqinski, Nikolayevskinin küncündə, telefon nömrə 37-75). Sifarişlər saat 5-dən 7-yə dək qəbul olunur.

*10220*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Dağıstana dair**

səh. 244. "Kətmül-haqq min xəyanətül-xalq": "Haqqı gizlətmək xalqa xəyanətdəndir." (ərəbcə)

səh. 228. "hökumət təşkil olundu": qəzetdə "təşkil" yerinə "təşəkkül" getmişdir.

"Teymurxanşura": Dağıstanda indiki Buynaksk şəhəri.

**Denikinə qarşı**

səh. 233. "toplanan könüllülərin miqdarı (   )cən imiş": qəzetdə belə getmişdir.

səh. 234. "H. R.": bu imza Hüseyn Rza Məhəm-mədbəyliyə məxsusdur.

**Məmləkətimizdə əsgərlik həyatı**

səh. 235. "təvəkkəli deyilmidir": qəzetdə "təvəkkəli" yerinə "təvəkkül" getmişdir.

səh. 236. "varidi-xatir olmasıdır": qəzetdə "xatir" yerinə "xətər" getmişdir.

"şiddətli badirələri arasında": qəzetdə "badirələri" sözü təhrif edilmişdir.

**Yeni təşkil olunmuş yardım alayı**

səh. 239. "Mən bir türkəm, dinim, cinsim uludur": misralar türk şairi Məhməd Əmin Yurdaqulun "Cəngə gedərkən" adlı şeirindəndir.

**Ramana kəndində**

səh. 242. "sənubər": şam ağacı; klassik ədəbiyyatda qədd-qamət rəmzi kimi işlənmişdir.



***“Azərbaycan” qəzetinin 202-ci nömrəsinin 1-ci səhifəsi***





**Cümə axşamı, 12 iyun 1919-cu il, nömrə 202**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 13 ramazanül-mübarək sənə 1337. 12 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalətın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## VƏTƏNDAŞLAR!

Denikin gəlir.

Bizim cavan və hələ möhkəm kök atmamış Azərbaycanımızı yıxmaq və yenə də irəliki kimi bizi istibdad və qulluq zənciri altına çəkmək istəyir.

Əlbəttə, hürriyyət və istiqlaliyyətini sevən heç bir nəfər Denikin ordusunun Azərbaycana ayaq basmasına razı olmayacaq. Bu məsələdə Azərbaycanda yaşayan bütün millətlərin demokratiyası [xalqı] həmrəydir.

Vətəndaşlar! Vətən övladının Denikin əleyhinə müharibəyə hazır olduğunu göstərmək üçün bu iyun ayının 13-də cümə günü mədən dairələrində və Bakıda saat 11-də ümumi tətil və nümayiş olacaq. Nümayişlərin vaxt və yerləri barəsində türkcə və rusca qəzetələrdə məlumat veriləcəkdir. Qəzetələri oxumalı.

*Türk Ədəmi-Mərkəziyyət firqəsi*
*“Müsavat”ın Mərkəzi Komitəsi*

## ELAN

1919 həziranın [iyunun] 12-ci günü saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-145*

## ELAN

Müsəlman Zəhmətkeş Ziyalıları İttifaqı müsəlman cavanlarını İttifaq tərəfindən açılmış səhiyyə kursuna dəvət edir. Xahiş edənlər İttifaqa müraciət etsinlər. Voznesenski küçədə 3 nömrəli evdə, səhər saat 10-dan 3-dək.

*10227*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Azərbaycan Cümhuriyyəsi Maliyyə nazirinin 17 həziran sənə 1919 tarixli qərardadı**

Qolçu vergi qanunnaməsinin 661[-ci] maddəsi mövcibincə Maliyyə naziri qərar qoydu ki, 1919 səneyi-cariyyədə Gəncə vilayətinin Gəncə, Qazax, Ərəş və Şəki nahiyələrində və Zaqatal vilayətində üzüm maddiyyatından şürubat [içki] hasilatının vaxtı eylül [sentyabr] ayının ibtidasınaca[n] [əvvəlinə qədər] davam etdirilsin. Bununla bərabər, spirt məhsulunun ölçüsü bir gecə gün[d]üz ərzində şərab hazırlayan qazan vüsətinin [həcminin] hər vedrəsinə 60 dərəcə olaraq qalsın.

*Əsli ilə mütabiqdir:*
*Məhəmməd Hacıyev*

**Məşixət İdarəsində**

Salyan sakini Əliməhəmməd Hüseynzadə işbu iyunun 1-də İdareyi-Məşixəti-islamiyyədə [Şeyxülislamlıq İdarəsində] tər-tib tapan qərarnamə ilə həmin idarənin dəftərdarı mənsəbinə təyin olunur.

*Məşixət sədri: şeyxülislam Axund Ağa Ağaəlizadə*
*Katib: Əfəndizadə*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*5 iyun 1919*

*(Əhməd Cövdət Pepinovun nitqinin mabədi)*

Əfəndilər! Bu kürsüdən siz dəfələrlə gördünüz ki, biz burada firqə münaziələrində [mübahisələrində] bulunduq. Hökuməti dəfələrlə tənqid etdik. Yanlış yolları göstərdik. Bizimlə bərabər fəhlə və kəndçilər içərisində də bu siyasi mübarizələr vardı. Bu mübarizələr bir dərəcəyədək olar. Nə qədər, biz burada rahat otururuz, daxili işlərimizdə mübarizə etmək olar, fəqət, zamani ki, üzərimizə qara qüvvələr gəlir, düşmənlər bizi təhdid edirlər və düşmənlər burada nə kürsü qoyacaqlar və nə də Parlaman. Öylə bir zamanda bizim aramızda firqə münaziəsi ola bilməz; firqəçiliyi boşlayıb özümüzü müdafiə etmək üçün silaha sarılar, özümüzü, vətənimizi, sərhədlərimizi müdafiə üçün bilafərqi-silk və məslək [təbəqə və əqidə fərqi olmadan] sərhədə qoşarız. *(Alqış)*

Əfəndilər! Düşmən nə ilə qüvvətlidir? Əgər biz bu gün açıq nəzərlə baxarsaq görəriz ki, düşmən tərəfi-müqabilin miskinliyi ilə, özünü müdafiə etməməyilə qüvvətlənir. Burada bir xalq var ki, kəndi iradəsi ilə müqəddəratını əlinə almış, öz hürriyyətini kimsəyə əlindən qaytarmaz. Bu gün biz üzümüzü Avropa demokratiyasına tutub ondan müavinət istəsək, o zaman Avropa demokratiyası deyər ki, millət vətən və istiqlaliyyət uğrunda nə yapdı, təhlükə qarşısında nə etdi? Əgər bir təhlükə varid olan kimi [gələn kimi] təslim olarsa, o zaman deyəcəklər ki, bu istiqlaliyyəti bir neçə adam özü üçün istəyirdi, bütün millətin arzusu deyildi. Əgər millət istəsəydi, qurban verərdi. Əgər bu uğurda biz can versək, onda hər yerdə üzümüz ağ və alnımız açıq olar. Biz haqqımızı müdafiə etmək üçün bu gün düşmənə müqavimət göstərməliyiz. Ola bilsin ki, məğlub da olaq. Olsaq da eybi yoxdur. Gələcəkdə əhfadımız [nəvələrimiz], tariximiz bizi yaxşılıqla yad edəcəkdir. Xanlıq zamanlarından bir gəncəli Cavad xanın öz istiqlaliyyəti müdafiəsində göstərdiyi rəşadət və fədakarlığını tarix heç bir zaman unutmayacaq. Əgər biz düşmənə müqabilə etsək, bir vaxt deyəcəklər ki, Azərbaycan yaşamaq istədi, lakin onu qoymadılar. Bu bizdən ötrü ar deyil, şərəfdir. Gələcəkdə tariximiz bununla başlanacaq.

Əcəba, bu xalqda yaşamaq qabiliyyəti yoxmu? Biz acizanə, səfilanə düşmənə təslimmi olacağız? Hər bir fərdimiz, kişilərimiz və arvadlarımız bu fikirdədirlər ki, bir təni-vahid kimi [hamı bir nəfər kimi] yuxarıdan gələn düşmənə bütün varlığımızla qarşı duraq, çarpışmağa hazır olaq. Bu gün biz bu yolda qan tökəcək olarsaq, sabah bizim qanımızdan minlərlə mücahidlər meydana çıxacaq. Zülüm ilə, istibdad ilə çarpışacaq, Azərbaycan istəyən haqq və hüququ onlar alacaqlar. *(Alqış)*

Əfəndilər! Rəisi-vükəlanın [Baş nazirin] oxuduğu teleqramlara nəzərinizi cəlb etsəniz görərsiniz ki, onların qəzetələrdə nəşr edilməsi də istənilir. Bu bizi hədələməkdir. Bununla nə demək istəyirlər? Onlar camaatı qorxutmaq istəyirlər. Dağıstan iki yüz adama təslim oldusa, Azərbaycan onları o cür qəbul eyləməz. Onlar yanılırlar. Dağıstandakını Azərbaycanda görə bilməzlər. Bu tarixi gündə bizim içərimizdə ayrılıq və nifaq ola bilməz. Bu gün Zaqafqaziyadakı qüvvətimizi azaltmayaq. Denikinin qüvvəti miskinlikdən və acizlikdən irəli gəlir. Gürcü xalqı ilə bərabər gedərsək, bütün dünya demokratiyasının hüsn-təvəccöhü bizim tərəfimizdə olacaqdır.

İştə, bunlara istinadən, əfəndilər, deyərdim ki, gələcəyimizə ümidlə və qəvi [güclü] ümidlə baxıram. Bütün varlığımızı toplayıb, qonşularımızla əlbir olub zülüm və istibdad qarşısına çıxarsaq, düşmən qüvvələri bizə heç bir şey edə bilməz. Çünki:

*"Zülmün topu var, gülləsi var, qəl'əsi varsa,*
*Haqqın da bükülməz qolu, dönməz üzü vardır..."*

**Sədr** - Söz Məhəmməd Əmin Rəsulzadənindir.

**Məhəmməd Əmin Rəsulzadə** *(Alqışlar altında kürsiyi-xitabətə çıxır)* – Möhtərəm məbus əfəndilər! Qara Denikin ordusunun kağızlarının nə mənada olduğunu və o kağızlarla nə demək istədiyini möhtərəm Hökumət rəisi burada elan etdilər. Fəqət mən sizə bir növ başqalarını əsirlik altında saxlamaqdan və o əsirlikdən faydalanmaqdan, onlardan zövq almaqdan doymayan, keçmiş ağalıqlarının həsrətində qalan əfəndilərin xəyallarından bəhs edəcəyəm. Görünüz bu əfəndilər nə təsəvvür edirlər və xırda millətlər ilə mübarizəni nasıl asan düşünürlər. Onlar öylə xəyal edirlər ki, az qüvvə ilə istədiklərinə nail olarlar. Siz bilirsiniz ki, bizim üzərimizə gələn qara qüvvələrin nümayəndələri Batumda da otururlar və Batumda onların qəzetələri vardır. Biz burada hənuz mübarizəyə hazırlaşarkən, onların qəzetəsi Bakını almış və Parlamanımız üzərinə rus bayrağını vurmuşdur. Qəzetə qarşımdadır. Yazır ki:

*"Tiflisdən gələnlərin dediyinə görə, Denikin ordusu gəlmiş, Bakını almış və rus bayrağını Parlaman üzərinə sancmışdır. Denikin ordusunun Bakıya yavuqlaşması ilə şəhərin bəzi inqilab müəssisələri tərəfindən hazırlıqlar olmuş, müqavimət üçün təşəbbüslər edilmiş, fəqət müsəlman əhalisi müavinət etmək istəməmişdir. Hökumət süst olmuş, məəttəl qalmışdır. Təşkilatların müqavimət etmək istəmələrinə yerli əhali mane olmuş, şəhərdə cüzi iğtişaş düşmüş, Denikin ordusu da bu iğtişaşdan istifadə edərək şəhərə daxil olmuş və rus bayrağını dikəltmişdir. Hökumət bitərəf qaldığından ona əl vurmamışlar. İstəyirlər ki, ona, bəzi imtiyazat versinlər. Məsələ bununla həll olub getmiş."*

Bu, Batumda nəşr olunan Denikin qəzetəsinin fikri və təsəvvürü nəticəsidir. İştə, onların xəyalı. Əski Rusiya generalları yatanda yuxuda da rahat ola bilməyirlər. Necə ola bilər ki, onlar general ikən

əl altında əsgər, ordu olsun, çəkmələrinin altını öpən bir millət olmasın. Onlar gəlirlər və zənn edirlər ki, çəkmələrini öpməyə hazır bir millət vardır. Lakin onu bilsinlər ki, artıq Azərbaycanda çəkmə öpən bir vətəndaş da qalmamış. *(Şiddətli alqışlar)*

Əfəndilər! Onlar öylə düşünürlər ki, kəndi hürriyyət və istiqlalını elan etmiş, bu yolda bütün məsul firqə və heyətlər namından dəfələrlə bu müqəddəs kürsüdən var qüvvəsi ilə, malı ilə, canı ilə hazır olduğunu və istiqlaliyyətini saxlayacağını elan edən bir millət[i] – bir millət ki, mayın 28-də heç bir təhrik və təşviq olmadan, Bakı tarixində misli qeyd edilməmiş bir səmimiyyət ilə küçələrdə bayram edirdi, hətta bayırda görünən çarşablı qadınlar da bu bayramı sevinclə qarşılamışlar və küçələrə çıxmışlardı – böylə bir milləti asanlıqla təhti-hakimiyyətlərinə [hakimiyyətləri altına] ala biləcəklərdir. Buradan doğru söylədilər ki, dili xörəyə çatmış bir sənəlik növzad [uşaq] artıq süd yeməz. Bunlar boş söz və bihudə xəyal deyildi. Denikinlər və onun hampaları qalsınlar öz xəyalları ilə və zənn etməsinlər ki, Azərbaycanda öylə xain bir hökumət olar ki, düşmənə müqavimət etməsin; öylə xain olsun ki, Denikin ilə mübarizə edənlərə mane olsun. Mən inanıram ki, mayıs nümayişi həqiqi və səmimi bir nümayiş idi. Əgər qan tökmək lazım gələrsə, millət hazır olacaqdır. Çün, o bilir ki, qan töküb müqavimət etməsə də yenə onun hürriyyətini alacaqlar. Təkrar onu zəlilanə bir surətdə əzəcəklər; o, miskin olacaqdır. O, buna razı olmaz. Miskinliyi qəbul etməz. Hər bir təhlükəni nəzərə alıb çarəni düşünər, səlabətlə [mətanətlə] meydani-mübarizəyə çıxar və müəzzəz [əziz] bayrağımızı Azərbaycan sərhədində saxlar. Onlara isə, ancaq boş bir arzu qalar. *(Sürəkli və ümumi alqış)*

Camaat! Əlbəttə, biz bütün təhlükəni təsəvvür etməklə bərabər, qətiyyən onu kiçiltməməliyiz. Və öylə baxmamalıyız ki, bu təhlükə asanlıqla rəf olar [aradan qaldırılar], keçər gedər. Çünki düşməni zəif təsəvvür edən aldanar. Hər kim ki, öz hürriyyətini və istiqlaliyyətini müdafiə etmək istərsə, tədbirli və ehtiyatlı olmalıdır. Ona görə, camaat bütün sinifləri ilə hökumət ətrafında birləşsinlər və hökumətə desinlər ki, millətin istədiyi artıq aydın və müəyyəndir. Əgər hökumətdə süstlük olarsa, Batum qəzetəsinin xəyalına cüzi də olsa ümid verərsə, desin ki, sən bizim hökumətimiz deyilsən. Sənin kimi hökumət tarixdə lənətlərlə yad olunar. Fəqət mübarizəyə hazır hökumət də deməlidir: "Madam ki, məndən bu tələbi edirsiniz, bütün camaat və firqələr var qüvvətlərini, var etimadlarını hökumətə verməlidir. Əgər cüzi tərəddüd göstərilsə, o vaxt sizin adınız əbədiyyən lənətlərlə yad olacaqdır." Bu gündən Parlaman hökumətə səlahiyyəti-kamilə verməlidir ki, öz arasından bir heyət təşkil edib ümumi səfərbərlik, şiddətli qanunlar və düşmənlər əleyhinə müharibə tədarükü görsün. Və sonradan hesab vermək şərtilə xəzinədən lazım olduğu qədər para xərcləsin. Çünki bu gün Dərbənddə oturan və bizim istiqlaliyyətimizi gündə bir məna ilə teleqraflar göndərib təhdid edən bir qüvvət öylə bir qüvvətdir ki, vaxtilə məşhur bir siyasiyyunun





[siyasətçinin] dediyi kimi, Azərbaycan həyatına döndərilmiş bir tapançadır. Nə qədər o tapança bizə tərəf tutulubsa, biz rahat oturammayız. O tapançaya qarşı bizim qalxanımız hazır və mühəyya [hazır] olmalıdır. Keçən dəfə dedim ki, o tapançanın çaxmağına əl atılınca, biz hərəkətə və müdafiəyə gəlməliyiz. İndi biz görürüz ki, çaxmağa əl atırlar. Böylə bir təhdidi görməmək üçün kor olmalıdır. Binaənileyh [ona görə], hazırlaşmalı və müəyyən qüvvətlərlə sərhədə qoşmalı və çaxmağa uzanan düşmən əlini bir an əvvəl biləyindən vurmalıdır. *(Alqış)*

Əfəndilər! Mənə öylə gəlir, burada biz, necə ki, əvvəlki natiq dedi, kəndi qüvvətimizi o qədər də kiçiltməməliyiz. Biz Azərbaycan istiqlaliyyətinin tarixini yazırız. Bir mühərririn müqayisəsinə görə, tarix mətbəxə bənzər. Nasıl ki, bir aşpaz mətbəxdə kəndi bişirdiyi aşın ləzzətini pək o qədər də dadmaz, öz zəhmətindən və çox da xoş olmayan mənzərədən mütənəffir olar [nifrət edər], çox zamanlar öz işindən bizar olar, fəqət onun əlindən hasil olan lətif xörək başqalarının hüzuruna çıxar, xörək yeyənlərin vəsileyi-həyatı olar.

Azərbaycan istiqlalını, Azərbaycan tarixini və gələcək səadətini hazırladığımız zaman kəndimizin də tənəffür [nifrət] etdiyimiz və xoşumuza keçməyən bir çox əhvallar var. Bunlara təhəmmül etməliyiz [dözməliyik]. Biz Azərbaycan tarixini hazırlayanlar səy etməliyiz ki, gələcək nəsil bizim əlimizdən çıxacaq asara [əsərlərə] lənətxan [lənət oxuyan] olmayıb, onu rəhmətlərlə yad etsin.

Məmləkətin müdafiəsində süstlük əsəri göstərənlərə lənətlər ediləcək və lənətlər yağdırılacaq o adamın başına ki, burada zəiflik göstərib təslim olmaqdan bəhs eyləsin. *(Şiddətli alqış)*

Əfəndilər! Əgər millətin müqəddaratını kəndi əllərinə alıb onun adı ilə söz söyləyənlər bu gün tərəddüd göstərərlərsə, onların burada yeri yoxdur.

Əgər siz isbat etsəniz ki, bir millətsiniz, vətəninizin müdafiəsində səbat göstərə bilərsiniz, istiqlaliyyətinizi saxlaya bilərsiniz, hər bir təhdid qarşısında təslim olmazsınız, o zaman xaricdən baxanlar sizin müqəddəratınıza laqeyd olammaz, sizin haqqınızdakı fikirlərini təbdil edərlər [dəyişdirərlər]. Madam ki, özünüzü müdafiə etməzsiniz, o zaman başqalarından gilayə etməyə haqqınız yoxdur. Haqsızlıq mövqeyində qalmamaq üçün Azərbaycan bir təni-vahid kimi yekvücud olaraq bütün qüvvətini toplayıb müdafiə etməlidir.

Bu gün bizdən ötrü bir imtahan meydanı açılmış. Burada biz öz dost və düşmənimizi tanıyacağız. Əsil dost o dostdur ki, öz dostluğunu fəlakət günündə bildirər. Zərbül-məsəl deyir ki, yaxşı dost yaman gündə bilinər. Bu gün Gürcüstandan gələn səslər, oradan eşitdiyimiz qardaş səsi bizim yalnız olmadığımızı bildirir və bildirir ki, Gürcüstan bizimlədir. *(Şiddətli və sürəkli alqış. Parlament ayağa qalxaraq nümayəndələr locasında isbati-vücud [iştirak] edən Gürcüstan nümayəndəsini alqışlayır.)*

Əvət... Biz heç bir vaxt cəngü-cidal [dava-dalaş] tərəfdarı olmadıq. Heç bir zaman kimsəyə elani-hərb etmədik. Fəqət istərəm bu məna ilə təfsir edilməsin ki, hər şeyə təslim olacağız. Biz sülh istəyiriz. Fəqət "Hazır ol cəngə, əgər istər

isən sülhü-səlah" [Sülh və əmin-amanlıq istəyirsənsə, müharibəyə hazır olmalısan] hikmətinin hökmüncə, sülh istəmək üçün bizi məcbur edirlər ki, cəngə hazır olalım. Başımız üzərində təməvvüc edən [dalğalanan] üçrəngli Azərbaycan bayrağı əvəzinə şiddətlə müqavimət görmədən rus bayrağı sancıla bilməz.

Başımız üzərində təməvvüc edən o üç boyalı livayi-istiqlalımız [istiqlal bayrağımız] qanlara boyanmadan, bayraqdarları birər-birər qətl olunmadan, qətiyyən enməz. Burada dedilər, həqiqətən, "Haqqın bükülməz qolu, dönməz üzü vardır". Azərbaycan bayrağını endirmək asan işlərdən deyildir. Azərbaycanın şöleyi-istiqlalını söndürmək istəyirlər. Fəqət əfəndilər, bir şam ki, haqdan yana heç bad [külək] ilə sönməz! *(Sürəkli və gurultulu alqışlar)*

## TELEQRAF XƏBƏRLƏRİ

Nauen - Roza Lüksemburqun cənazəsi Berlində Landver kanalında tapılmışdır.

**Könüllülər tərəfindən Odessanın işğalı**

Yekaterinodar - Novorossiyskdən xəbər verilir ki, Odessa şəhəri ataman [Nikifor] Qriqoryev qoşunları tərəfindən işğal edilmişdir. Odessada tutulmuş olan bolşevik komissarları asılmaqla edam edilmişlərdir.

**Müttəfiq donanması Odessanı tərk etmişdir**

Odessadan xəbər verirlər ki, bura iskələsində olan ingilis və fransız paroxodları dənizə çıxıb, orada yalnız bir paroxod buraxmışlardır.

**Portəgiz rəisi-cümhuru**

Portəgiz [Portuqaliya] rəisi-cümhuru [prezidenti] Maşadu Sülh Konfrans[ın]a bəyan eyləmişdir ki, öhdəsinə aldığı vəzifəsini tərk edir.

## SÜLH ƏTRAFINDA

**Polşa sərhədi**

Dördlər Şurası Polşa sərhədi məsələsini müzakirə eyləmişdir. Polşa ilə Prussiya arasında sərhəd təşkil etmək üçün xüsusi bir komissiya təşkil edilməlidir. General Loren Fransadan, general Morley İngiltərədən, Ford Amerikadan bu komissiyaya daxil olacaqlardır. İtaliya da öz nümayəndəsini göndərəcəkdir.

**Hollandiya-Belçika məsələsi**

Beş dövlət Xariciyyə naziri Hollandiya və Belçika məsələsini müzakirə etmişlərdir. Belçika arzu edirdi ki, bu məsələ Sülh Konfransında müzakirə edilsin. Amma Hollandiya arzu edirdi ki, bu məsələ öz aralarında həll edilsin. Beşlər Şurası 1839-cu il müahidənaməsinin [sazişinin] müzakirəsini qət eyləmişdir [qərara almışdır].

## QƏZETƏLƏRDƏN

**Əfqanıstanda**

Daşkənddən xəbər verirlər ki, yeni əfqan əmiri Əfqanıstanı müstəqil bir dövlət elan eyləmişdir. Böyləliklə, Əfqanıstanla İngiltərə arasında olan müahidənamə [saziş] ləğv edilir. Əfqanıstan açıqaçığına İngiltərə ilə hali-hərbdə [müharibə vəziyyətində] bulunur. Bundan əlavə, Əfqanıstan əcnəbi məmləkətlərdə öz diplomasi nümayəndəsini elan eyləmişdir. Halbuki İngiltərə ilə olan müahidəyə [sazişə] görə, Əfqanıstan heç bir dövlətlə əlaqədə bulunmamalı imiş.

**Hindistanda iğtişaş**

Londondan xəbər verilir ki, Amritsar 5 nəfər avropalı qətl edilmişdir. Üsyançı hindular bankı talan etdikdən sonra, oraya cövhər [kerosin] və yağ səpərək bank imarətini yandırmışlardır. Yanğının tələfatı məlum deyildir. K. Tomson tələf olmadan əvvəl tapança ilə bir neçə nəfər üsyançıları öldürmüşdür. Bankda olan bütün sənədlər və ziqiymət [qiymətli] şeylər məhv olmuşdur. Heyətin kəlisası [kilsəsi] dağılmışdır. Bəzi avropalılar artıq müşkülatla xilas olmuşlardır. Bəziləri hinduların evində gizlənmişlərdir. Polis özünü gözəl aparıb bir neçə avropalıları xilas eyləmişdir. Məhəlli [yerli] qoşunlar Lahor və Calandhardan gələn kömək sayəsində üsyanı yatırmışlardır.

Bombeydən xəbər verilir ki, hökumətin ittixaz etdiyi [gördüyü] tədbirlər sayəsində asudəlik bərpa edilmişdir.

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

- Ərazi nazirinin 1919-cu sənə Torpaq tənzimatı [şöbəsinin] məxaricatı və smetası təsdiqi haqqında – ki ümumiyyətlə 470 090 rublə edir – bir dəfəlik 150 000 rublə təxsisi [ayrılması] haqqındakı məruzələrindən sonra qət edilmişdir [qərara alınmışdır]:

1) Nazir tərəfindən yeni təsis edilmiş Torpaq tənzimatı şöbəsi smeta və xidmətçilərini təsdiqlə, işin təcili olduğundan dolayı hökumət ixtiyarındakı 20 milyon fonddan 150 000 rublə buraxılsın.

2) Cümhuriyyət Hökumətinin işbu sənənin 24 fevral və 19 mayısdakı qət-naməsi mövcibincə [qətnaməsinə əsasən] təsdiq edilmiş Torpaq tənzimatı şöbəsi müdirliyi və müavinliyi lazımsız olduğu üçün ləğv edilir.

3) Həman şöbə vəzifələrinə lazım olduqca məmurlar təyin etməli.

4) İyun ayının axırınadək torpaq tənzimatını havi [əhatə edən] layihəni Vükəla Şurası təsvibinə [Nazirlər Kabinetinin təsdiqinə] idxal etmək Ərazi nazirinə tapşırılsın.

- Maliyyə və İqtisadiyyə komitəsinin hökumətin aksiz barəsindəki 1918-ci sənə 9 və 21 oktyabr qanununun doğru təfsir [şərh] edilməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Bakıdan Azərbaycanın daxili və yaxud xaricinə aparılan neftə təyin edilmiş aksiz vergisini bütün neft istehsalatına [məhsullarına] şamil etməli. İşbu qətnamə qəbulunadək aparılan neftlər və neft istehsalatından da aksiz almalı.

- Ərazi nazirinin Gürcüstan Hökumətinin Qafqaziya köy təsərrüfatının milliləşdirilmək ehtimalı əleyhinə etiraz etmək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə rədd edilsin.

**TÜRK ALƏMİNDƏ QADINLIQ**

İştə, sizə üç kəlməlik bir həqiqət ki, dərinliyində möhməl [xaraba], pərişan bir səhnə görürsünüz.

Türk aləminin yaxın və uzaq, qaranlıq və işıqlı mühitlərində "qadınlıq" sizə iki çöhreyi-fəcaət [fəlakətli, faciəli iki çöhrə] ərz edir: ya Qüruni-vüsta [Orta əslər] qəlibini, zehniyyətini eynən yaşadan mütəəssib [təəssübkeş] mühafizəkarlıq, yaxud bir az əcnəbi təhsili görməklə onların adətına məclub olan müfrit təcəddüdpərəstlik [onların adətlərinə özünü qapdırmış ifrat yenilikçilik].

Binaənileyh [ona görə], zamanın təbəddülünü [dəyişməsini], əsrin ehtiyaclarını təqdir etməyərək, maziyə [keçmişə] sımsıxı sarılanlar nə qədər müzirr [zərərli] isə, müəssirati-maziyyəni [keçmişin təsirlərini] cəffəlqələm [düşünmədən, tələm-tələsik] inkar edərək ruhdan ziyadə parlaq görünən şəkili qəbul edənlər də o qədər, hətta daha ziyadə təhlükəlidirlər.

Şu halda, ölmüş bir mazinin davamından başqa bir şey olmayan mühafizəkarlıqla, Avropanın sürəti-tərəqqi və inkişafını bizim tədənnimizlə [alçalmamızla, geriləməmizlə] qarşılaşdıraraq səbəblərini şəkildə arayan kutəhbin [dar görüşlü, uzağı görə bilməyən] təcəddüdpərəstlik əsla çıxmayan yollarmış. Çünki meydanda zaman-zaman vəxim ərazını [təhlükəli simptomlarını] göstərən müzmin [xronik] xəstəlik hələ mövcud və dəhşətlə icrayi-təxribat etməkdədir. Bunun üçün yenidən xəstəliyi təşxis [təyin etmək, diaqnoz qoymaq] və onun müvəllidini [onu meydana gətirən səbəbi], seyrini [gedişatını], təkamülünü tədqiq edərək, reçetəmizi [reseptimizi] tənzim etməkdən və bu reçetənin möhtəvi olduğu [ehtiva etdiyi] əlacları kamali-əzmlə içirməkdən başqa çarə yoxdur.

Fəqət, əcəba, bu bədbəxt aləmin xəstəliyi[ni] təşxis və tədavi edəcək doktorlar kimlərdir? Bişübhə və bilatərəddüd [şübhəsiz və tərəddüdsüz] söyləyə bilərəm ki, ən birincisi din (kitab) müctəhidləri – möhtərəm mollalarımızdır. Sonra mütəfəkkirlərimiz, şairlərimiz, ədiblərimiz, mühərrirlərimizdir.

Müctəhidlər bir əlini Kitabi-mübinə, bir əlini də həyata qoyaraq bu iki varlığı birləşdirəcək qüvvətlərdir ki, dərhal vəzifəyə, fədakarlığa şüru [başlamaq] zamanı gəlmiş və keçmişdir. Yoxsa, bu şəkildə qaldıqca, kitab həyatı inkar etdikcə, həyat kitaba uymadıqca, hərc-mərclik əbədidir və daima yek-digərini [bir-birini] nəfy [inkar] edəcəkdir.

—

"Beşiyi sallayan əllər, dünyaya hökm edərlər" deyən böyük mütəfəkkir pək böyük bir həqiqəti meydana atmışdır. Şübhəsiz məlumdur ki, ictimai mühit ailədən doğar. Daha açıq bir təbirlə [ifadəylə], ictimai mühit bir çox ailələr mühitlərinin məcmusudur. Binaənileyh, ictimai həyatın məbdəsini [başlanğıcını] ailədə görürüz. Ailənin iki rüknündən [təməlindən, istinadgahından] birisinə etina edilib, digəri ehmal edilərsə, məbdədə böyük fənalıq edilmiş olar. Şu halda, qadınlar da tibqi [eynən] erkəklər kimi tərbiyə və təlim görməlidirlər. Çünki bir ailədə babanın [atanın] kiçik çocuğu üzərində tərbiyə xüsusundakı təsiri bəzən pək az olur. Yəni öylə zamanlar olur ki, pədər [ata] bəzi əsbabi-maddiyyə [maddi səbəblər] dolayısı ilə övladının tərbiyəsi ilə pək müqəyyəd olammaz [muğayat ola bilməz, məşğul ola bilməz]. Fəqət ana yavrusunun beşiyini sallarkən, onun istiqbalını [gələcəyini] qurar, onun müqəddəratını təyin edər. Məktəb yaşına gəlincəyə qədər çocuğun ruhunda öylə izlər vücuda gətirər, xatirəsində öylə naxışlar işlər ki, artıq nə məktəb, nə həyat onları pozammaz. Məktəbdə müəllimin çocuq üzərindəki təlqinləri əgər anasının təlqinlərinə müariz [zidd] isə dərhal çürük meyvə kimi süqut edər. Lakin təvafüq edərsə [uyğun gələrsə] qüvvətləşər, kökləşər və əbədiləşər...

Bundan üç ay əvvəl idi. Heç unutmayacağam və unutmaq istəməm, "türklərdən intiqam" haqqında bəstələnmiş matəmli bir şeiri bir erməni qadını beş yaşındakı bir çocuğu ilə bərabər təğənni edirdi [oxuyurdu]. Çocuq oxurkən şeirin ruhunda mündəmic [cəm olmuş] sərairi [sirləri], mənanı pək gözəl anladığı bütün övza və ətvarı [hal və hərəkətləri] ilə ifham edirdi [bildirirdi]. Çünki anası bu şeirlə ona neyçün yaşayacağını anlatmış və onun məfkurəsini parlatmış olurdu. Artıq o çocuq nəzərində məfkurəsini yıxacaq bir məktəb, bir aləm mütəsəvvər [təsvirə gələn] deyildir. Məfkurəsinə müxalif hisslər təmas edəndə parçalanar və süqut edər. Ancaq müvafiq duyğulardır ki, məfkurəsini bəslər və ruhunda eşq sərsərləri [fırtınaları] xəlq edər.

Nə vaxt ki, biz ailənin pək qiymətli bir rüknü olan qadını yalnızca şəhvani hisslərimizin təmininə lazım deyə tələqqi etməyib, bütün varlıqlarla erkək qədər əlaqədar, yarının həyatında pək mühüm yaradıcı üzv olduğunu təqdir və təslimdə tərəddüd etməzsək, qadınlıq qurtular və yüksələr.

İştə, gərək ərz etdiyim vəchlə [ifadə etdiyim kimi], tərbiyə xüsusunda oynadığı pək böyük rol, gərəksə həyatın, həyatiictimaiyyənin icab etdirdiyi [zəruri hala gətirdiyi] iştirakın qiymət və əlzəmiyyəti [vacibliyi] nəzəri-diqqətə alınarsa, qadınlıq aləminə verilən əhəmiyyətin həqiqəti təzahür edər.

Bu son hərb bizə hər şeyi göstərdi. İştə, bir dənə maddi misal: Türkiyədə, bilxassə İstanbulda qadınların həyati-iqtisadiyyəyə və məmuriyyətlərin bəzi əqsamına [qisimlərinə] iştirak və intisabından [qoşulmasından] dolayı bu hərb əsnasında fəaliyyəti-iqtisadiyyə və hökumət işləri durmadı. Fəqət bütün məsləklər haqqında bunun əksini təsəvvür ediniz və fərz ediniz ki, dövlətin bütün məmur, doktor, tüccar əfradı [fərdləri] sərhədlərdə müdafieyi-vətənlə məşğul, şəhərlərdə, kəndlərdə həp qadınlar və çocuqlar qalmış. Bunlar da doktorluq, ticarət, qanun bilməyirlər!

İştə, o vaxt bütün həqiqətlər pək müdhiş fəcaəti ilə gözlərimizin önündədir. Yetişir zülmət, əl verir cəhalət!

Mən neyçün doğduğunu, neyçün yaşadığını, neyçün və nasıl yaşayacağını, həyatın məna və məfhumlarını bilən, ictimai vicdanın bütün iradələrinə sahib olaraq mədəni həyatda erkəklə yan-yana, mütəsanidən [bir-birinə dayaq olaraq] irəliləyən, yaşayan və yaşadan vəqur [vüqarlı], əzmkar bir qadınlıq istəyirəm.

*Həsən M. oğlu*

**CANLI DUYĞULAR!**

Əvət, öylə bir duyğu ki, 15 dəqiqəlik pək az bir zamanda vüqua gəlmiş. Ehtimal ki, bəzilərimizə şübhəli olan pək qiymətli bir taqım həqiqətləri günəş kimi göstərən bir duyğu... Bu millət hürr və müstəqil yaşamağa layiqmidir, deyə bizə veriləcək bir suala hər kəs mənim kimi rəyül-eyn [öz gözümlə] müşahidə etdiyim həqiqətə vaqif olsaydı, istər-istəməz – vələv ki [əgər, hətta] düşmənimiz belə olsa – ancaq bu cavabı verməyə məcbur olardı: layiqdir, həm də əbədiyyən...

Siyasi tərtib edilən tətillərdə iştirak etməmək, tarixi və milli bayramlarımızda böyük şənliklər yapdığımızla müstəqil yaşamağa hələ qabiliyyətimiz olmadığını iddia edənlər deyə bilərlər ki, bu millətin başında böyükləri olmasaydı, kor-koranə tətilə iştirak edilərdi. Kəza [eləcə də], böyüklər dini və milli bayramlarda şənlik yapılmasını elan etməsəydi, bu millətin böylə tarixi günlər ağlına belə gəlməzdi. Xülasə, hələ boyunduruq altında əzilməyə məhkum olduğumuzu haqsız olduqları halda iddia edə bilər, nasıl ki, edirlər.

Lakin mən müstəqil yaşamaqlığımıza haqqımız olduğunu millətin duyğusu ilə isbat edəcəyəm. İddiamda haqlı olduğumu mən deyil, istiqbal [gələcək] göstərəcəkdir.

Əvət, 15 dəqiqəlik bir duyğu! Hərarətli bir gün, hər kəs iş və güclə məşğul olduğu bir zamanda, heç kimsənin bir şeydən xəbəri olmadığı bir anda dəniz cəhətdən və dərindən top sədaları eşidilir. Sakitanə bağçada oturarkən vücudumu qeyri-ixtiyari bir həyəcanın qapladığını hiss edir, birdən-birə müharibəyə başladığımızı təsəvvür edirdim.

İştə, bu sırada yanımdan keçən 5-6 yaşlarında qız, erkək iki islam balasının başları açıq, yalın ayaq olduqları halda "Azərbaycan topları atılır" deyərək kamali-məsərrətlə [böyük sevinclə] dəniz cəhətə doğru qoşduqlarını [qaçdıqlarını] gördüm. 70 yaşında bir pir [yaşlı] xanımın da oruclu olduğu üçün ahəstə-ahəstə gedərək: "İlahi, əzəmətinə səcdə edirəm ki, bizə bu mübarək günləri göstərdin" cümləsini tələffüz etdiyini eşidir, münacat [dua] edərəkdən nurani bir çöhrə ilə top sədalarının gəldiyi tərəfə baxdığını gördüm. Bu saf və canlı lövhələr qarşısında kainatın məni təbrik etdiyini, "Yaşayacaqsınız, həm də əbədiyyən..." deyəcəklərini hiss edirəm, istiqbalıma həqiqi bir mömin kimi iman və etiqad edirdim.

Qarşımda topları sayan ixtiyara: "Atam, nasıl, davaya gedəcəkmisən?" deyər-deməz dəruni [ürəkdən gələn] bir lisanla: "İnşallah, əfəndim, inşallah, hər kəsdən qabaq" qəti və qısa cavabını aldım. Bağçada dolaşan xaricilər də kiçik çocuqların əlindən tutduqları halda iri-iri addımlarla evləri istiqamətinə doğru irəliləyir. Üzlərində yalnız şu sözlər oxunurdu: "Həqiqət məzara girməyəcəkdir! Yaşayacaqsınız!"

Ya Rəbbi, qüvvət və qüdrətinin heyranıyam. Nədir şu gördüyüm hərəkatdakı nisbətsiz təzad? Bizdə sükunət və mətanət, digərlərində isə qorxu və təlaş...

Vəlhasil, dostuma da baxsam, düşmənimə də baxsam eyni sözləri görür, gözlərimi qapasam eyni nəqəratı eşidirdim: "İnan istiqbalına imanın qədər!"

İştə, iddia etdiyim, xəyal olmayan bir həqiqət, bilavasitə millətin əmaqi-ruhunda [ruhunun dərinliklərində] doğan bir duyğu: "Müstəqil yaşamaq istəyirəm və yaşayacağam!"

Haqsız və insafsız müddəilərə [iddiaçılara; düşmənlərə] soruram [soruşuram]: "Bu milləti tətilə iştirak etdirməyən, tarixi günlərini yada salıb da şənlik yapdırdan bir qüvvət hər şeydən müqəddəs əدd [hesab] etdiyi, son damla qanına qədər mühafizəyə əzm etdiyi istiqlalından onu vaz keçdirə bilərmi?"

Qəlbinizdən "Xayır, qətiyyən xayır" cavabını şübhəsiz verirsiniz. Lakin inadçı olduğunuz üçün dil ilə təsdiq etmək istəməyirsiniz. Lakin əmin olunuz ki, "Ölərsə şəhid, yaşarsa qazi" dini düsturuna iman edən biz müsəlmanlar, icab edərsə [lazım gələrsə], qadınlarımızla bərabər ölümlə çarpışıb, çar-naçar sizə həqiqəti etiraf etdirməyə əhd etmişik.

Ey əsil azərbaycanlılar! Beşikdəki yavrularımızın belə "İstiqlal, istiqlal" deyərəkdən təbəssüm etdiklərini, "Ölmək var dönmək yox" avazi-qəhrəmanənəsi ilə, şəci [şücaətli, cəsur] və qırılmaz həmlələrimizlə nankor və namərd düşmənlərimizə göstərəlim. Böyüklərimizin sözünü məzarda yatan babalarımız belə bu gün təkrar edir və bizə deyirlər ki:

*Arş, əsgəri-islam, ulu Kəbən gediyor, arş!*

*Əzmində Məhəmməd sənə, Allah sənə yoldaş...*

*Ə. Bədi'*

**BAKI XƏBƏRLƏRİ**

**Məscidlərdə**

Ramazanül-mübarək münasibətilə şəhərin bütün məscidlərində hər gün böyük izdihamla camaat namazı əda edilməkdədir. Namazdan sonra məscidlərdə məşhur vaizlər tərəfindən əhval və övzayi-zamanəyə dair böyük və'zlər və nitqlər iradı ilə [nitqlər söylənməklə], əhali vətən müdafiəsinə dəvət edilir. Şeyxülislam ilə müfti əfəndi həzrətləri dəxi məscidləri gəzib hər gün bir məsciddə moizə və nitqlər irad edirlər. Əhali artıq dərəcə şövq və həvəslə məscidlərə gəlir, böyləliklə axır günlər Qasım bəy, Təzəpir və Cümə məscidləri əhali ilə dolub, külli miqdarda camaat həyətdən qulaq asmağa məcbur olur. Məscidlərin qadınlara məxsus hissələri dəxi dolub, bir çoxlarına yer olmayır.

**Qulluqdan əzl**

Bakı qubernatorunun binagüzarlığı [sərəncamı] ilə 6-cı uçastok pristavı Ağabəy Misrixanov öz xidmətindən sui-istifadə etdiyi üçün əzl edilmişdir [kənarlaşdırılmışdır].

**Adresnı stol idarəsində**

Daxiliyyə Nəzarətinə təqdim edilən məlumata görə, Bakı Adresnı stol idarəsində böyük sui-istemallar olduğu kəşf edilmişdir. Bundan naşi [buna görə], məzkur [deyilən] idarədə olan məmurlardan bir çoxu təhti-məsuliyyətə [məsuliyyət altına] alınmışlardır.

**Ev Sahibləri İttifaqında**

Mayın 3-də Bakıdakı Ev Sahibləri İtti-

faqının ümumi iclası vaqe olub qərardad edilmişdir ki, Sentrodom [Mərkəzi Ev Komitəsi] cənbindəki [nəzdindəki] mənzil komitəsinin ev sahiblərinə zərərli bir surətdə hərəkət etdiyindən, bundan sonra həman komissiyada iştirak edilməsin və hökumətə müraciətən ev sahibləri ilə kirayənişinlər arasında etilaf [razılıq] məsələsi tərəfeynin [hər iki tərəfin] özünə mühəvvəl edilsin [tapşırılsın]. Hökumət mənzil barəsində yenidən qanun vermək istəsə, o vaxt İttifaqın şurasına ev sahiblərinin nəfinə [xeyrinə] çalışmağa icazə və imkan verilsin.

**Ziyalılar İttifaqı Şurasında**

İyunun 8-də Bələdiyyə İdarəsi salonunda Bakı və Ətrafı Zəhmətkeş Ziyalılar İttifaqı Şurasının fövqəladə iclası vaqe olmuş və əhvali-hazirə haqqında mühüm məsələlər müzakirə edilmişdir. İclas Sultanməcid Qənizadənin təhti-sədarəti [sədrliyi] ilə açılıb mühəndis Ağa Axundov şimaldan Denikin ordusunun əks-inqilab və irticai hərəkatı barəsində müfəssəl surətdə məruzə oxumuşdur. Məruzədən sonra Qəniyev, [Seyidəli] Seyidov, Xəlil İbrahim [İbrahimov], Piri Mürsəlzadə, [Camo] Cəbrayılbəyov və qeyriləri hərarətli nitqlər irad edərək, ziyalıları bir təni-vahid kimi [hamı bir nəfər kimi] birinci cərgədə istiqlaliyyət və millət yolunda çarpışmağa dəvət etmişlərdir. Bir çox müzakirədən sonra, iclas Azərbaycan istiqlaliyyəti üzərinə qəsd edən Denikin ordusu ilə hökuməti mübarizəyə dəvət və bu yolda son qətrə qanına qədər çarpışacağını və bütün qüvvəsini toplayıb hökumətə müavinətdə bulunacağını vəd və yəmin etmək məzmununda bir qətnamə çıxarmışdır.

**Bələdiyyə İdarəsində**

Qanlıtəpə ev sahibləri Bələdiyyə İdarəsinə müraciətən məlum etmişlər ki, Bələdiyyə İdarəsi tərəfindən onlara 1918-ci sənəsi üçün vergi və zibil pulu kağızları gəlmişdir. Halbuki 1918-ci sənədə onların evləri bolşeviklər tərəfindən həcz [müsadirə] edilib, bolşevik qaydası üzrə, yəni kirayənişinlər pul vermədiyi kimi saxlanırdı. Əlavə, 1918-ci sənədə Bələdiyyə İdarəsinin atları olmadığı üçün o məhəllələrdən heç zibil-filan təmizlənməmişdir. Ev sahibləri rica etmişlər ki, evlərinin dağılmasını və verdiyi mədaxili nəzərə alaraq Bələdiyyə İdarəsi 1918-ci sənə vergisini fəsx [ləğv] edərək 1919-cu sənə vergisini alsın.

## MÜSƏLMAN ZİYALILARI HAQQINDA

*Müsəlman ziyalılarının fövqəladə iclasının qətnaməsi*

Bütün millətlər böyük bir fəlakət və təzəlzülə [sarsıntıya] uğradıqları zaman, əsrlərdən bəri çar jandarmlarının təpikləri altında xırpalanan kiçik millətlər istiqlal bayrağını Rusiya çar istibdadının saray xarabaları üstündə dikdilər.

Bir sənə zərfində kəndi müqəddəratını əllərinə alaraq kəndilərini müstəqil idarə edə bilmələri bu millətlərin sərbəst və müstəqil yaşamağa qadir və haqlı olduğunu sübut etdi. Bu sənə, çar istibdadı altında ziyalılarımızın çalışmalarının təsirsiz qalmalarını eyicə bütün kainata göstərdi. Bu sənə göstərdi ki, bizi təhtihimayəsinə [himayəsi altına] almaq istəyən polad yumruqlu, hiyləgər və qanlı cahan siyasətində böyük təcrübələr əldə etmiş və bizləri məhv etmək siyasətini yürüdən əcnəbilər torpağımızdan dəf olmazsa, kəndi müqəddəratımızı tamamilə əlimizə alaraq istiqlaliyyətimizi mühafizə və müdafiəyə qadir olammayacağız.

Şirin vədələrinə inandığımız "mədəniyyət gəzdiricilərə" təşəkkürən, bu gün çar generalları Rusiya Könüllü ordusu tərəfindən gələn müdhiş bir fəlakətlə istiqlaliyyətimizə rubəru [üzbəüz] durmuşdur. Böylə ağır bir zamanda ziyalılar bütün kainata xitabən uca səslə deyir:

1) Ziyalılar camaat qüvvəsinin önündə vətən və millətini müdafiə və mühafizə edəcək, bütün qüvvətini xalq içində təşkilat yapmağa sərf edəcək.

2) Hökumətimizi bu mübarizəyə dəvət edib ona müavinət edəcəyini vəd edir.

3) Daxildə [baş] qaldıracaq əksinqilab qüvvəsi ilə qətiyyən çarpışacaq.

4) Bu mübarizədə Şimali Qafqaziya müsəlmanlarına, Gürcüstana və ümum Qafqaziya demokratiyasına öz müttəfiq əlini uzadacaqdır.

5) Ziyalılar İttifaqı hökumətdən ümumi səfərbərlik elanını tələb edir. Qoy, istiqlaliyyətimizin düşmənləri bir kərə anlasın ki, onlar sərhədimizi ancaq cəsədlərimizin üzərindən keçə biləcəklər.

6) Avropa imperialistləri tərəfindən kiçik millətlərin istiqlaliyyəti əleyhinə olan təcavüzləri xüsusunda ümumi cahan demokratiyasına bir müraciətnamə hazırlayacaqdır və bu müraciətnamədə onların bu yolda yardım etməsini xahiş edəcəkdir.

Qəhr olsun cahan imperializmi!

Yaşasın müstəqil Azərbaycan!

Yaşasın fəth və zəfər! Məhv olsun Denikin və onun müttəfiqləri!

Yaşasın Rusiyanın böyük inqilabı!

## MÜTƏƏLLİMLƏR [TƏLƏBƏLƏR] QURULTAYI

*6-cı iclas, 8 iyun*

Növbədəki məsələlər:

1) Təbriknamələr və daxil olmuş kağızlar;

2) Məktəb məsələsi barəsində məruzə;

3) Bəratülqövllərin [protokolların] oxunması;

4) Cari məsələlər.

İclas Müqbil İbrahimzadənin təhti-sədarəti [sədrliyi] ilə və Məlikməhəmməd Məlikzadənin katibliyi ilə açılır.

Birinci sırada təbriknamələrin oxunması iclas tərəfindən qərara alınır. Təbriknamələr Tiflis Mütəəllimləri Mərkəzi İcra Komitəsinin və Tiflis Müsəlman Gəncləri Cəmiyyəti tərəfindən göndərilmiş.

Qazax nümayəndəsi heyəti-rəyasətə ərzi-hal təqdim edərək, ona üç günlük maaş verilməsini tələb edir. İclas Qazax nümayəndəsinin Bakıda qulluq etdiyinə görə maaş verilməsini lazım görməyir.

Məktəb məsələsi barəsində Süleyman Məlikzadə məruzə oxuyur. Məruzə oxunduqdan sonra iclas edadi məktəblərdə ərəb lisanının tədərrüs olunmasını [öyrədilməsini] əlavə edir.

Qurultay həll ediləcək məsələləri bitirdiyinə görə, bəratülqövllərin oxunmasına şüru edir [başlayır]. Birər-birər oxun-

duqdan sonra heyəti-rəyasət bəratülqövllərdə kəndi imzasını vəz edir [qoyur].

Cari məsələlərə baxıldıqdan sonra, Zəki Pepinov sabiq Mərkəzi Komitənin sədri Həmid Məhəmmədzadə haqqında gözəl bir nitq irad edir. Nitqində Pepinov ikinci qurultayın nə dərəcədə əhəmiyyətli olduğunu təsvir edərək, Həmid Məhəmmədzadəyə, göstərdiyi fəaliyyəti qarşısında cəmi nümayəndələr tərəfindən izhari-təşəkkür edir. Böylə bir mövzuda Həmid Məhəmmədzadə nitq söyləyir. Natiq yeni komitə təşkil edilənə qədər sabiq komitənin işlərini büsbütün kəndi öhdəsinə almasını bəyan edir.

İclası qurultayın sədri İbrahimzadə kəndi nitqi ilə xitam etdi.

## FƏHLƏ HƏYATINDAN

- İyunun 8-də Belı-qorodda [Ağ şəhərdə] ümum müsəlman əmələlərinin [fəhlələrinin] mitinqi vaqe olub, Denikin ordusunun Zaqafqaziyanı təhdidi məsələsi müzakirə edilib, müttəhidülqövl [yekdil-lik-lə] qərardad edilmişdir ki, hökumətdən qara qüvvələr əleyhinə mübarizədə bulunub və İngiltərə Komandanlığından ikiüzlü siyasət apardığı haqqında izahat istənilsin. Bununla bərabər, əmələlər son nəfəslərinə qədər Azərbaycan istiqlaliyyətini müdafiə və mühafizə edəcəyi[ni] vəd və yəmin etmişlərdir.

- Türk Ədəmi Mərkəziyyət firqəsi "Müsavat"ın Belı-qorod şöbəsi sədrliyinə Əmanulla Hüseynzadə seçilmişdir.

- 2-ci uçastok neft mədənlərinin müsəlman əmələləri həman mədənin müdiri Georgi İvanoviçin bəd hərəkətindən "Müsavat" firqəsinə şikayətdə bulunmuşlardır. Firqə həmin şikayəti Məsai Nəzarətinə [Əmək Nazirliyinə] göndərib, müdirin fəna hərəkatına sədd qoyulmasını ciddən tövsiyə etmişdir.

- "Müsavat" firqəsinin Nardaran kəndi şöbəsinin müavini-sədri Paşa Kərbəlayi Mahmud oğlu Zeynalzadə bu günlərdə vəfat etmişdir. Mərhum çoxdan bəri millət və vətəni uğrunda işləyib böyük fəaliyyətlər göstərmişdir. Son bir il zərfində ənvai [cürbəcür] zəhmətlərlə işləyib və müharibələrdə böyük məharət və rəşadət göstərmişdir. Mərhumun yerinə Zaki Kərbəlayi Məcid oğlu seçilmişdir.

### Məşqətədə

Məşqətə [Maştağa] kəndində hər gün məscidlərə böyük izdiham cəm olub və camaat namazı əda edilməkdədir. Namazdan sonra Hacı Miribrahim Axundov əhvali-zamanəyə dair fəsih və bəliğ [səlis və təsirli] nitqlər irad edib [nitqlər söyləyib], əhalini Azərbaycan istiqlaliyyəti ilə aşina edib və müdafiəsinin şər'ən [şəriətə görə] vacib olduğu haqqında bir çox dəlillərlə isbat edir. Başqa kəndlərdə dəxi bu qərar üzrə camaat namazı və moizələr olur.

### Mirzoyev mədənində

İyun ayının 10-da Balaxanıda Mirzoyevin mədənində Mustafa Dərgahqulu oğlunun sədarəti və Ağabala Quluzadənin katibliyi ilə vaqe olan əmələlər iclasında Məqsud Mustafa oğlunun təklifinə görə qət edilmişdir ki, Kəndlilər İttifaqına verilən azuqədən əmələlərə verilməsi xahiş edilsin.





## AZƏRBAYCANDA

### Salyandan

Xüsusi müxbirimizdən:

Salyan mübadileyi-əmval [mal mübadiləsi] komisyonu şimdiyə qədər kəndi işində məşğul bulunur. Bu günlərdə komisyon rəisi Məcid Rəcəbov əfəndinin və bəzi əşxasi-möhtərəmənin [möhtərəm şəxslərin] fəaliyyəti nəticəsi olaraq Salyanın füqəra qismi miyanında [kasıb əhalisi arasında] sabun, mənsucat (manufaktura), çay təqsim edilmək [paylanmaq] üçün Maliyyə Nəzarəti-cəliləsi tərəfindən müsaidə edilmişdi. Binaənileyh [ona görə], sərvətdarlar [varlılar] müstəsna olmaq üzrə, hər bir nəfərə 4 arşın mənsucat, ¼ sabun və ¼ çay verilmişdir. Təqsimat hənuz bitməmişdir. Bu babda fəaliyyət ibraz edən zəvata bilümum [fəaliyyət göstərən şəxslərə ümumiyyətlə], Məcid bəy Rəcəbov və Mehdi Bədəlov əfəndilərə bilxüsus [xüsusilə] ərzi-təşəkkür, bəyani-imtinan eyləriz [minnətdarlığımızı bildiririk]. Bundan maəda [bundan başqa], Məcid bəy əfəndinin fəqirlərə məccani [pulsuz] olaraq bir çox libaslıq təqsim etməsinə qarşı ayrıca izhari-şükran ediriz.

*[Rüstəm] İskəndərzadə*

### Quldurlarla mübarizə

Cavad uyezd naçalnikinin [qəza rəisinin] ricası mövcibincə [əsasında], məzkur [deyilən] uyezd dairəsində İran sərhədini quldurlardan mühafizət etmək üçün 200 nəfərdən ibarət bir qarovul dəstəsi təşkil edilməsinə Daxiliyyə Nəzarəti tərəfindən icazə verilmişdir. Məlum olduğu üzrə, həman dairədə axır vaxtlar İran quldurları Şahsevənlər dəfəatla [dəfələrlə] hücum edərək dinc əhalini narahat edib, böyük qətl və qarətlərdə davam edirlər. Əhali özü quldurlarla mübarizə edirsə də, lakin iş vaxtı olduğundan, onlar çox vaxt müvəffəq olammayıb böyük xəsarətə düçar olurlar. Qarovul dəstəsi təşkil edildikdən sonra quldurların hərəkatına xitam veriləcəkdir. Hər qarovulçuya ayda min rublə məvacib təyin edilmişdir.

### Bərdədən

Bu may ayının 28-ci günündə Azərbaycan Hökumətinin səneyi-dövriyyəsi [ildönümü] münasibətilə Cavanşir mahalının qazısı Axund Mirzə Cabbar bəy binagüzarlığı [təşəbbüsü] ilə həman gün Bərdə bazarında vaqe olan dükanlar bağlandı. Dükanların qabaqları və lazım olan yerlər milli bayraqlarla bəzənib müzəyyən oldu və habelə məktəb şagirdləri azad olunub camaat kamali-bəşaşət [böyük bir şadlıq] və təntənə ilə küllən [hamılıqla] və məktəb şagirdləri öz müəllimləri ilə cəmən [birgə] Bərdə məscidinə cəm oldular. Bədi-azan [azandan sonra] məzbur [adı çəkilən] qazı cənabları minbərə çıxıb dəlaili-əqliyyə və nəqliyyə ilə [əqli və nəqli dəlillərlə; məntiqə və elmə söykənən dəlillərlə] islam millətinin ittifaq etməyini həməvəqt [daim] hər bir müsəlmana fərz və vacib olduğunu bəyan edəndən sonra, ümum milləti-islama əsgər verməyin vücubunu və lüzumunu təfhim [anladıb] və təbliğ edib, hər bir şəxs beqədri-imkan övladını ciddü-cəhd ilə öz din və namusunu və irzini mühafizət qılmaq üçün əsgər verməyə camaatı tərğib və təhris qıldı [rəğbətləndirdi və təşviq etdi]. Pəs [sonra], hökumətimiz Azərbaycanın bəqası

[daimi olması] və davamı xüsusunda Xudavəndi-taala dərgahından istidalar [dualar] etdi və camaat dəxi uca səslə alqışlayıb aminlər dedilər. Pəs, camaat məsciddən çıxıb o gün axşama kimi eyş və işrətə [yeyib-içməyə, əyləncəyə] məşğul oldular. Xudavəndi-aləm belə ruhanilərdən razı olsun ki, fikirləri həmişə milləti hidayətə sövq etməkdir.

Yaşasın milləti-islam, yaşasın Azərbaycan Hökuməti!

*Məşhədi Mehdi Şərifov*

## AZƏRBAYCANDA YAŞAYAN SƏNƏTKARLARIN NƏZƏRİ-DİQQƏTİNƏ

İşbu sərlövhə ilə "İstiqlal" qəzetəsinin 24 mayıs tarixli 16 nömrəli nüsxəsində sənətin və o yolda çalışmağın lüzumundan bəhs etməklə bərabər, yoldaşlarımıza sənətkarlar qurultayı dəvət etmək xüsusunda yazıb bildirəcəyimi vəd etmişdim. Gəncə sənətkarlarının lazım bildikləri qurultayı cümhuriyyətimiz daxilindəki bütün həmkarlar da vacib sanacaq, alqışlayacaq zənn edirəm. Lakin buna ölkəmizin hər nöqtəsində bulunan yoldaşlar hazırdırlarmı? Zənnimcə, Gəncədə, Bakıda hazırlıq olsa da, Şəki, Qarabağ, Qazax kimi kiçik şəhər və qəzalarda sənətkar yoldaşlarımızın ittifaqları yoxdur. Əvvəl kərə ittifaqlar düzəltmək, sonra qurultay çağırmaq gərək.

Gəncə Sənətkarlar İttifaqını aşağıdakı üsul ilə təşkil etmişiz.

Gəncədə 25 qisim sənət var ki, hər qisim sənət sahibləri toplanaraq içlərindən üç vəkil intixab etməklə [seçməklə], bütün sənətkarlar 75 nümayəndə seçmişlər. Həmin 75 nəfər nümayəndələr bir yerə toplanıb sədr, müavini-sədr, katib, xəzinədar və müfəttişdən ibarət bir idarə, hər komissiya üç zatdan mürəkkəb [ibarət] olmaqla Maliyyə, Maarif, Sülh komissiyaları intixab etmişlər. Bu hesabla idarə və komissiyalarda işləyənlərin ədədi 14 nəfər olur.

İşləməyinə gəlincə, həftədə iki gün idarə açıq olur və bir gün idarə üzvləri yığışır və cümə günləri bütün sənətkarları təmsil edən 75 nəfər iclas və kəndi sənət və işlərinə dair məsələlərdən müzakirə edirlər.

İştə, sənətkar yoldaşlarımıza bir nümunə. İttifaq təşkil etməyən yoldaşlarımızdan hər halda təşkilat yapmalarını rica edib yaxın vaxtda çağırılacaq qurultay barəsində Gəncə Sənətkarlar İttifaqı idarəsi ilə müxabirələrini [əlaqə saxlamalarını] umarız. Yoldaşlar qurultay məsələsi xüsusunda məktub və teleqrafla lütfən bunu bildirməlidir:

1) Qurultayı harda çağırmaq.

2) Nə zaman çağırmaq.

Bu sualların cavabını aldıqdan sonra ümumi rəyin əksəriyyət tərəfinə əməl edər, arzusunda bulunduğumuz qurultaya nail olarız.

Müxabirə üçün ünvan: Gəncə, Sofular məhəlləsində Adil xan Ziyadxan cənablarının mülkündə İttifaq müfəttişi Məhəmmədəli Sadıq oğlu.

Tanrıdan ümum yoldaşlara müvəffəqiyyət diləröm.

*9 haziran 1919*
*Gəncə Sənətkarlar İttifaqı sədri:*
*Məşhədi Yusif Fərzixanov*





## GÜRCÜSTANDA

**Gürcüstan və Azərbaycan**

Gürcüstan ilə Azərbaycan arasındakı hərbi müqavilənamə söyləndiyinə görə bu yaxınlarda imza ediləcəkdir. Hər iki tərəfin müsəlləh [silahlı] qüvvələrinin bir baş komandana tabe olacaqları arzu və təsəvvür edilir.

**İngilislərin Qafqaziyadan getməsi**

Gürcüstan Xariciyyə naziri İngiltərə Komandanlığından rəsmi surətdə məlumat almışdır ki, İngiltərə əsgərlərinin Qafqaziyadan təxliyəsi iyunun 12-də deyil, iyulun 15-də başlanacaqdır.

## İZHARİ-TƏŞƏKKÜR

**1**

Möhtərəm müdir əfəndi!

Rica olunur bizim bu izhari-təşəkkürümüzə "Azərbaycan" qəzetəsinin bir sütununda yer verəsiniz.

Azərbaycan Cümhuriyyətinin İstiqlal bayramı münasibətilə 28 mayısda Ramanada, tarixi bir qalanın bəzənməyi üçün "Müsavat"ın Ramana şöbəsi həmin kəndin dairəsində qərar tutmuş Şəmsi Əsədullayevin mədənlər müdiri Məşhədi Hüseyn Səfərəliyev, Fərəc bəy, Məşhədi Hüseyn Məlikov və qeyriləri cənablarından elektrik əşyasını və qeyri əşyalar xahiş etmişdi. O cənabların həmin əşyaları həvəsli bir surətdə verməyinə, o cümlədən Məşhədi Hüseyn Səfərəliyev cənablarının 200 rublə ianə etməyinə şöbə öz izhari-təşəkkürünü yetirir. Neçə günlər qalanı bəzəməyə çalışan yoldaşlara şöbə izhari-təşəkkürünü yetirib ümidvar olur, gələcək böylə günlərdə yoldaşlarımız bu tövr işlərdən boyun qaçırmayıb bizimlə bərabər iştirak edərlər.

*Sədr: Məşhədi Şükür Balayev*
*Katib: Böyükağa Vəlizadə*

**2**

Möhtərəm müdir əfəndi!

Rica edirəm bizim bu qaç kəlmə izhari-təşəkkürümüzə öz qəzetənizdə yer verəsiniz.

28 Mayısda İstiqlal bayramı münasibətilə Ramanaya təşrif gətirmiş Azərbaycan Cümhuriyyəsinin Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri [Xudadad] Məlikaslanov cənabları həmin kəndin fəqirlərinə beş yüz iyirmi beş manat ianə etmişlərdir. O cənaba Ramana camaatı tərəfindən izhari-təşəkkür edirəm.

*Aclar Komitəsinin sədri:*
*Mirdaməd [Məhəmmədzadə]*

**Doktor**
**Musa bəy Rəfiyev**
Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.
*b-37*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**
Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.
Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.
*8753*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**“Kooperatsiya” müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Qismi-rəsmi**

səh. 247. “Qolçu vergisi”: gömrük vergisinin bir növü.

**Azərbaycan**
**Məclisi-Məbusanında**

səh. 249. “Zülmün topu var…”: misralar türk şairi Tofiq Fikrətin “Millət şərqisi” şeirindəndir.

səh. 252. “Haqqın bükülməz qolu, dönməz üzü vardır”: Türk şairi Tofiq Fikrətin “Millət şərqisi” adlı şeiri yada salınır:

Zülmün topu var, gülləsi var, qəl’əsi varsa,
Haqqın da bükülməz qolu, dönməz üzü vardır.

**Teleqraf xəbərləri**

səh. 252. “Portəgiz rəisi-cümhuru Maşadu Sülh Konfransına bəyan eyləmişdir ki, öhdəsinə aldığı vəzifəsini tərk edir.”: Prezident Maşadu 1917-ci ildə hərbi çevriliş nəticəsində hakimiyyətdən uzaqlaşdırılmışdı. 1919-cu ildə prezidentlik iddiasından əl çəkdiyini bildirəndən sonra Portuqaliyaya qayıtmasına icazə verilmişdir. “Azərbaycan” qəzetində “Makadu” kimi yazılmışdır.

**Sülh ətrafında**

səh. 252. “1839-cu il müahidənaməsi”: 19 aprel 1839-cu ildə Böyük Britaniya, Avstriya, Fransa, Prussiya, Rusiya və Niderland Krallığı arasında imzalanan London Sazişi nəzərdə tutulur. Avropa dövlətləri bu sazişlə Belçikanın müstəqilliyini və bitərəfliyini qəbul etdilər, eləcə də Lüksemburqun müstəqilliyini təsdiqlədilər.

**Qəzetələrdən**

səh. 252. “yeni əfqan əmiri”: Əmənulla xan nəzərdə tutulur.

**Türk aləmində qadınlıq**

səh. 254. “Kitabi-mübin”: aydın, açıq-aşkar, hər şeyin yazıldığı kitab, yəni “Quran”.

səh. 255. “yavrusunun beşiyini sallarkən”: qəzetdə “yavrusunun beşiyini sallar ki” getmişdir.

**Canlı duyğular**

səh. 257. “Arş, əsgəri-islam...”: misralar türk şairi Əli Əkrəm Bolayırın “Orduya xitab” adlı şeirindəndir.

**Bakı xəbərləri**

səh. 257. “Adresnı stol idarəsi”: Bakıda daimi yaxud müvəqqəti yaşayan əhalinin qeydiyyatını aparmaq məqsədi ilə 1909-cu ildə yaradılmış idarə.

**Müsəlman ziyalıları haqqında**

səh. 259. “Rusiya Könüllü ordusu tərəfindən gələn”: qəzetdə “gələn” yerinə “külli” getmişdir.

**Azərbaycanda**

səh. 261. “İran quldurları Şahsevənlər”: qəzetdə “Şahsevənlər” yerinə “Şahsevənlərə” getmişdir.

**İzhari-təşəkkür**

səh. 263. “beş yüz iyirmi beş manat”: qəzetdə belə getmişdir: “beş yüz iki beş manat”.



***“Azərbaycan” qəzetinin 203-cü nömrəsinin 1-ci səhifəsi***





**Cümə, 13 iyun 1919-cu il, nömrə 203**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 14 ramazanül-mübarək sənə 1337. 13 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## BAKI BƏHRİ-XƏZƏR İSTEHLAK “KOOPERATSİYA” CƏMİYYƏTİ İDARƏSİ

Bununla elan edir ki, yekşənbə [bazar] günü, həziran ayının 15-də, səhər saat 11-də cəmiyyətin kontoru binasında (Qorçakovskaya, Saturov qardaşları evi) Bakı dairəsi kooperativ nümayəndələri iclasının mabədi [ardı] vaqe olacaqdır. Müzakirə ediləcək məsələlər:

1) Təzə məvaciblər; 2) Tiflisdəki kooperativ qurultayı barəsində məruzə.

İclas ikinci olduğundan, hər nə qədər üzv gəlmiş olsa, qanuni hesab olunacaqdır.

*10231*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Azərbaycan Cümhuriyyətinin Dövləti Müdafiə Komitəsinin icbari qərardadı:**

11 iyun 1919

I) Bütün Azərbaycan Cümhuriyyəti idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] altında (vayenni palajeniye) elan olunur.

II) Aşağıdakı göstərilən cinayətlər ümumi məhkəmədən götürülüb məhkəmeyi-hərbiyyə qanunları mövcibincə [əsasında] hərbiyyə zamanı qanunları ilə mühakimə edilməkdən ötrü məhkəmeyi-hərbiyyəyə verilirlər:

1) Azərbaycan Cümhuriyyəti hökuməti əleyhinə üsyan;

2) Cümhuriyyət əleyhinə dövləti xəyanət;

3) Azərbaycan Parlamanı rəisinin və hökumət rəisi ilə hökumət üzvlərinin hürriyyətinə və həyatına sui-qəsddə bulunmaq;

4) Əsgəri qaraqol və əsgəri dəstələrə hücum etmək;

5) Hökumət məmurlarına müsəlləh [silahlı] müqavimət göstərmək;

6) Vəzifəli şəxsləri öz vəzifələrini ifa etdikləri zaman qətl, sui-qəsd, ağır xəsarət yetirmək;

7) Dəmiryolları, körpüləri və qeyri bu cür binaları, həmçinin su yolunu və başqa dövləti əhəmiyyəti olan teleqraf, telefon kimiləri xarab etmək;

8) Evləri və taxılı yandırmaq;

9) Əsgərlərin əsgəri vəzifələrini xələldar etməyə [pozmağa] bais ola biləcək nitqlərin və təlifatın [əsərlərin] şifahən söylənib oxunması və ya nəşr edilməsi.

III) Aşağıda tədad edilən [sayılan] cinayətlər, həmçinin ümumi məhkəmədən götürülüb müqəssirlər zəbtiyyə [asayiş] qanunu mövcibincə məsuldurlar:

1) Əhalinin əlahiddə hissələri və sinifləri arasında və milli düşmənçiliyə bais ola biləcək hər cür xəbərlərin və şayiələrin camaata elan və nəşr olunması;

2) Hökumətin fəaliyyəti və binagüzarlıqları [sərəncamları] barəsində, əsgəri hissələrin əməliyyatı və milli bədbəxtliklər haqqında yalan şayiələrin və xəbərlərin hər vasitə ilə olur-olsun, nəşr edilməsi;

3) Birinci zəruri və ərzaq şeylərinin qiymətinin artmasında iştirak etmək və həman şeylərin hüsula gəlib satılması şəraiti ilə qiymətlərini həddən ziyadə artırmaq, şeyləri gizlətmək, satmamaq və ya üzürsüz bir surətdə satmaqdan imtina etmək.

IV) Qadağan edilirlər:

1) Məmurlardan icazə edilmədiyi halda siyasi bir ruhda izdiham edib mitinq tərtib vermək;

2) Hər cür silah, patron, mühimmatihərbiyyə [hərbi ləvazimat] və patlanğac şeyləri gəzdirib satmaq və saxlamaq.

Qeyd: Bu qanun Azərbaycan və Müttəfiq ordu əsgəri xidmətçilərinə öz silahlarını gəzdirməyə şamil deyildir.

V)

1) Bu icbari qərardad elan ediləndən qabaq silah gəzdirməyə və saxlamağa alınan icazənamələr öz qüvvələrini itirmiş olurlar.

2) Silah gəzdirib saxlamaq üçün təzə icazənamələr verilməsi quberniya daxilində qubernatorlara həvalə olunur.

3) Silah gəzdirməyə və saxlamağa təzə icazənamə almayanlar bu icbari qərardad elan edilən gündən üç günün müddətinə qədər özlərində olan hamı silahı yaxında olan əxzi-əsgər [hərbi çağırış] idarəsinə və ya polisəyə verməyə məcbur edilirlər. Əxzi-əsgər və polisə idarələri silahın ədədini, cinsini və nömrəsini göstərici qəbzi verməlidirlər.

4) Keçən maddədə göstərilən müddət qurtarandan sonra icazəsiz silah gəzdirməkdə bədgüman olunan [şübhələnilən] şəxslər polisə tərəfindən axtarılacaqlardır. Tapılan silah müsadirə edilib, müqəssirlər həmin icbari qərardadda göstərildiyi kimi zəbtiyyə qanunu mövcibincə məsul olacaqlardır.

VI) Həmin icbari qərardadın III, IV və V hissələrində göstərilən qanunları xələldar etməkdə müttəhim edilənlər zəbtiyyə qanunu mövcibincə 50 min rublə cərimə edilirlər və ya 6 ayın müddətinə həbsə salınırlar.

VII) Həmin icbari qərardadda göstərilən hamı təlimatların ifasına nəzarət və zəbtiyyə qanunu mövcibincə məsuliyyətə cəlb etmək işi Şuşa, Cəbrayıl və Zəngəzur və Cavanşir uyezdləri [qəzaları] general-qubernatoruna, Daxiliyyə Nəzarətinin Qazax uyezdində olan xüsusi vəkilinə, Bakı, Gəncə və Zaqatal qubernatorlarına, Bakı qradonaçalnikinə, həmçinin Bakı Balaxanı-Sabunçu və Gəncə polismeysterlərinə və uyezdni naçalniklərinə [qəza rəislərinə] həvalə olunur. General-qubernator, qradonaçalnik, qubernator və xüsusi vəkillərə müqəssirləri 10 min rublə cərimə və 3 ay həbsə almaq, polismeysterlər və uyezdni naçalniklərə isə 3 min rublə cərimə və 1 ay həbsə almaq ixtiyarı vagüzar edilir [verilir].

IX) Daxiliyyə Nəzarətinə həmçinin ixtiyar verilir ki, həmin icbari qərardadın III hissəsinin 1 və 2-ci maddələrində göstərildiyi üzrə, mətbuat işində müqəssir olanları cərimə etməkdən başqa, qəzetələri müəyyən bir vaxta qədər və ya həmin idareyi-örfiyyeyi-əsgəriyyə müddətincə dayandırsın.

X) Yuxarıda göstərilənlərdən başqa, əvvəlcə hökumət tərəfindən, həmçinin məhəlli [yerli] məmurlar tərəfindən verilən icbari qərardadlar bu qərardaddan sonra ləğv edilirlər. Ancaq iyunun 3-də əsgərlik vəzifəsindən imtina edənlər və əsgərlikdən qaçanları təqib etmək haqqında verilən qərardad, həmçinin Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur uyezdləri general-qubernatoru tərəfindən verilən qərardadlar öz qüvvəsində qalır.

XI) Bu qərardaddan sonra məhəlli məmurlar Daxiliyyə naziri tərəfindən təsdiq edilməmiş heç bir başqa qərardad verə bilməzlər.

XII) Həmin icbari qərardad "Azərbaycan" qəzetəsində dərc edilən gündən qanuni hesab edilir.

*Dövləti Müdafiə Komitəsi*
*Sədr: Nəsib bəy Yusifbəyli*
*Üzvlər: X[udadad] b[əy]*
*Məlikaslanov, A[slan] b[əy] Səfikürdski*

## TƏTİL VƏ NÜMAYİŞ

**Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi tərəfindən böylə bir dəvətnamə buraxılmışdır:**

Yoldaşlar, vətəndaşlar!

Əski imperator generalları əsirlikdən qurtaran millətləri rahat qoymaq istəməyirlər. Onlar təkrar hürriyyətləri ayaq altına alıb, xırda millətlərə əsirlik hazırlayırlar.

Denikin vətənimizi təhdid edir. O qara general bir tərəfdən başımızın altını yastıqlayıb, digər tərəfdən də suyumuzun üstünü kəsmək, bizi can damarımızdan tutmaq istəyir. Bu qara qüvvət daha Tehranda ikən başlarına "Quran" tutan məktəb uşaqlarına rəhm etməyən, Acara [Acarıstan] ilə Lazistanda yıxmadığı, yandırmadığı xaniman buraxmayan qanlı Lyaxovlarla bizi təslimə çağırır. Sanki biz də Lyaxovdan qorxacaq, hürriyyət və istiqlalımızın müdafiəsinə candan keçən qəhrəmanlar deyil, namusunu ayaqları altına alan Xəlilovlar çıxaracağız.

Əvət, onlar öylə güman edirlər. Onlar düşünürlər ki, Azərbaycan heç bir müqavimət göstərmədən hürriyyət və istiqlal bayrağını öz əli ilə endirib, yerinə yüz ildən bəri bizim üçün bir zülüm və əsarət əlaməti olan çarizm bayrağını qaldırar. Fəqət Azərbaycan Hökuməti də, Parlamanı da dedi ki, bu olacaq iş deyildir. Hökumət kəndisinə tapşırılan istiqlalı göz bəbəyi kimi qorumağa and içmişdir. Hökumətlə Parlaman vətəndaşları mübarizəyə, hökumət ətrafında birləşməyə çağırırlar. İndi söz millətindir.

Bakı camaatı, bilxassə Bakının hürriyyətpərvər əmələləri [fəhlələri] hər zaman Azərbaycan xalqının siyasi pişrovları [öncüləri] olmuşlardır. Onlar bütün Azərbaycana bir fədakarlar və səbat nümunəsi təşkil eyləməlidirlər. Paytaxt əhli vilayətlərə örnək olmalı, candan, başdan keçməyə mühəyya [hazır] olması ilə onlarda ümumi bir qeyrət və fədakarlıq oyatmalıdır.

İştə, ey yoldaş, ey vətəndaş! Bu gün sən bu vəzifeyi-həmiyyətini [namus borcunu, təəssübkeşlik vəzifəni] ifa etməlisən. Bu gün cümə günü, ayın 13-də mədən

dairələri ilə şəhərdə ümumi tətil və nümayiş tərtib ediləcək. Bu nümayişlə xalq özünün Hökumət və Parlaman qərarı üzərində sabit durub, hürriyyət və istiqlalımızın müdafiəsini tələb edəcək və gərək olduğu zaman hökumətin ilk dəvəti vaqe olunca canını dəxi hürriyyət və istiqlal cananına verməyə bütün cahan qarşısında biət edəcəkdir.

Nümayiş tərtibi bərvəchi-ati [aşağıdakı kimi] olacaq:

Cümə günü, iyun ayının 13-də 1919[-cu ildə] Balaxanı-Suraxanı əmələləri səhər saat 11-in yarısında şəhərə gəlirlər, Vağzal meydançasında və Mixaylov məktəbi qabağından keçərək Telefonnı və Budaqovski küçələrlə Balaxanski küçədən keçib saat 12-nin yarısında Hürriyyət meydançasında hazır olurlar.

Belı-qorod [Ağ şəhər], Çornı-qorod [Qara şəhər] fəhlələri saat 10-da Sovet Syezd xəstəxanası qarşısında olan meydanda yığılıb, oradan saat 11-də Telefonnı, Milyonnı, Malakanski, Budaqovski və Birjevoy küçədən keçib saat 12-nin yarısında Hürriyyət meydanında hazır olurlar.

Həmkarlar İttifaqları və siyasi firqələr səhər saat 10-da Parapetə cəm olub, Kolyubakinski, Mariinski, Tarqovı və Morskoy küçələrdən keçib saat 12-nin yarısında Hürriyyət meydanında hazır olurlar.

Bibiheybət və Bayılov Elektrik qüvvəsi meydanına cəm olub, oradan bulvara, nəqliyyat işləri işçilərinə qoşulub Olqinski, Baryatinski, Mariinski və Birjevoy küçələrdən keçib saat 12-nin yarısında Hürriyyət meydanında hazır olurlar.

Morskoy rayon saat 10-da Bulvara, “Fenomen” teatrosu qarşısına cəm olub, Bibiheybətdən gələnləri gözləyib, onlarla bərabər Hürriyyət meydanına gəlirlər.

Dəmiryol işçiləri saat 10-da Vağzal meydanına cəm olub, oradan Telefonnı, Budaqovski küçələrlə Hürriyyət meydanına gəlirlər.

Biləcəri işçiləri saat 10-da Hürriyyət meydanına cəm olur.

Yoldaşlar! Bu gün siz nümayişlərə iştirak etməklə vətənin müqəddəratı ilə nə dərəcədə əlaqədar olduğunuzu göstərəcəksiniz.

Vətəndaşlar! Siz bu gün vətən müdafiəsinə həsr olunan bu nümayişə iştirak etməklə müdafiə fikrinin nə qədər ümumi və vətəni bir fikir olduğunu hər kəsə bildirəcəksiniz.

Qoy bu gün milli bayraqları, müdafiə istəyən şüarları, milli nəğmələri və vətən nidaları ilə küçəyə çıxan əzmkar xalq göstərsin ki, Bakıda təslimə mühəyya [hazır] deyil, son dərəceyi-imkana qədər çarpışmağa hazır bükülməz bir haqq qolu və dönməz bir istiqlal üzü vardır.

Əvət, ey azərbaycanlı qardaş! Bu gün sən evindən, eşiyindən çıx, nümayişlərə iştirak et də de ki:

Yaşasın Azərbaycan!

Qəhr olsun onun düşmənləri!

Var olsun müdafe [müdafiə edən] və mübariz hökumət!

*Mərkəzi Komitə*

## “DÜŞMƏN GƏLİYOR, MƏQSƏDİ İFNAYİ-VƏTƏNDİR!”

*([Əbdülhaq] Hamid)*

Əvət, gəlir. Bütün fəlakətləri ilə, zəncirləri ilə, süngüləri ilə gəlir. Məqsədi





bizim gənc tariximizin səhifələrini qapamaq, yenidən bizi kabuslu, qaranlıq gecələrə düşürməkdir. Gəlir, bütün hirs və tamahı ilə, bütün mərhəmətsizliyi ilə, vicdansızlığı ilə gəlir. Fikiri bizim açıq, müqəddəs düşüncələrimizi, duyğularımızı qaralamaq, “göz bəbəyi kimi qoruyacağımıza” and içdiyimiz istiqlalımıza zərbələr endirməkdir. Lakin bizim istiqlalımıza qazdığı məzara bizmi enəcəyiz, yoxsa omu məğrur, kibirli başını endirəcəkdir? İştə bir sual ki, buna hərb allahı qovğa və mərdlik meydanında sonuncu cavab verəcəkdir. Türk milləti bu kimi meydanlardan çox görmüşdür. Fəqət tarix şahid olsun ki, heç bir türk qövmü kəndi ixtiyarı ilə, qansız, ölümsüz düşmən ayaqlarına əyilməmişdir.

Tarix qansız olmur. Bu yalnız bizim başımızda görünmədi. Bütün bəşəriyyətin məhkum olduğu bir həqiqətdir ki, hüquq qansız müdafiə olunmayır. Biz də tarixdə yaşamaq istədiyimizdən, bu böyük qanuna itaət ediriz. Fəqət yenə tarix şahid olsun ki, yarın qara Denikinin orduları ilə başlayacağımız mübarizədə müqəssir biz deyiliz, bizi udmaq istəyənlərdir.

Bu gün yenə türk qılıncı ilə şimal “meç”i, türk zoru ilə mürtəce rus zoru müsabiqəyə girişirlər. Birinin məqsədi əzmək, kəsmək, qəhr etmək, o birinin qayəsi hüdud və hüququnu müdafiə etmək, qəbul etdiyi qəsəmə, etdiyi əhdə sadiq qalmaqdır. Əgər mübarizə yalnız bu iki məqsədin mübarizəsi olsaydı, bizim köksümüzü qabardan istiqlal və hürriyyət fikirinin istila xülyasına əbədiyyən qalib gələcəyində şübhə qalmazdı. Lakin qovğa məslək mübahisəsi ilə deyil, sipərlərdə qurşun [güllə] və süngü ilə həll edilmək üzrədir. Azərbaycan türkləri vətənlərini müdafiə edərkən yalnız bir şey düşünürlər ki, o da ya qələbə, yaxud şərəfli bir ölümdür.

Aman, ya Rəbbi! Yenə qan, yenə qılınc!

Kimə lazımdır bu yeni qovğa? Əlbəttə ki, yalnız cəsədlərin qanını soran qara qarğalara. Millətlərin namusuna təcavüz edən qara qüvvələrə. Bu gün hürr və məsud yaşamağa başlayan ölkələrə yenidən top sədaları eşitdirmək, yenicə cift [cüt] və kotan arxasına keçmiş köylünü silah daşımağa məcbur etmək, babasının intiqamı üçün balaca yavrunu beşikdə məsum və mütəbəssim [gülümsəyərək] uyurkən xəncərləmək qədər vicdansız bir cinayətdir. Böylə bir cinayətə yalnız Denikin kimi çarlar asitanını [kandarını] öpməklə pərvəriş tapanlar [bəslənənlər] razı ola bilərlər.

Olsun, kim olursa-olsun, yaxlaşır, onu dəf etməliyiz. Bütün diplomasi qüvvələrimizi sərf edəlim, müstəqil bir dövlət olduğumuzu, qəyyumsuz yaşamağa haqlı olduğumuzu anlamaq istəməyənlərə sözlə anlatmağa səy edəlim. Qane olmazsa, labüd qalaraq Turanın o əski fəsih [açıq], bəliğ [təsirli], polad lisanına, hər kəsi iqnaya müqtədir qüvvəyə – qılınca müraciət etməli olacağız. O zaman bütün cahani-mədəniyyət (əgər həqiqətən mədənidirlərsə) bu yeni müsadimənin [toqquşmanın] məsuliyyətini çar qüvvələrinin öhdəsinə atsın.

Əvət, millətin qərarı qəti və tərəddüdsüzdür. Üzərimizə gələnlərlə son damla qanımıza qədər çarpışacağız. Qoy bizi

məhv etsinlər də, sonra bizi bağlamağa gətirdikləri zəncirləri vətənimizin yalçın qayalarına taxsınlar. Qoy istiqbal müvərrixi [gələcəyin tarixçisi] bizi yazarkən "Denikinə tabe oldular" deyə deyil, "Denikin onların cəsədləri üstündən keçdi" deyə yazsın. Əgər həpimiz doğrudan bu qərara gələrsək, əmin olalım ki, kibirli generalın macərapərəstlərdən ibarət "ordusu" qarşımızda sühulətlə [asanlıqla] məhv olub xam xəyalından əbədilik əl çəkəcəkdir. Yenə əski idealımıza – "əzm və səbat" əsasına sadiq qalalım. Bu əsas bizi əsarət və qulluq zindanlarından çıxarıb şərəfli istiqlal bayrağı altına topladığı kimi, bu dəfəki bəklədiyimiz müxatirədən [təhlükədən] də müzəffər və qalib çıxaracaqdır. Gənc tariximiz bu birinci addımda bütün Azərbaycan vətəndaşlarını, gəncli-ixtiyarlı hüdudda görməlidir. Baxın, vətənimizin pak, müqəddəs üfüqləri şübhələrlə "Yenə mi qara buludlar?" deyə sorur [soruşur]. "Xayır, – diyəlim, – qara buludlar gəlmədən əvvəl biz sənin üfüqlərini kəndi qanımızla qızardacağız." Dinləyiniz, göylərdən şəhid babalarımızın ruhları "Silah başına!" komandası verir. Onu dinləməyən, naxələf olmazmı?

Əvət, hər kəs kəndi qəlbini, kəndi imanını imtahan edə bilər. Hüdud pək uzaq deyildir. "Vətəndaş" adlanmaq istəyənlərə meydan açıqdır. Baxalım, bu imtahandan nasıl çıxacağız? Məncə, mütləqa şərəfli, mütləqa müzəffər çıxacağız.

*Mən nə quyəm ya səməndər baş, ya pərvanə baş*

*Çon bə-fikri-suxtən oftadeyi mərdanə baş*

*Əli Yusif*

## TELEQRAF XƏBƏRLƏRİ

**Cənubi Rusiyada**

Cənubi Rusiyada Murman yollarını və Kolçak qoşunlarının hərb etdiyi dairələrdəki dəmiryollarını təmir etmək üçün Amerikanın güclü dəmiryol dəstələri oraya əzimət eyləmişdir [yola düşmüşdür]. Bu dəstəni iki Amerika kruvazeri [kreyseri] gətirmişdir.

**Ruslar Parisdə**

Parisdə 100 min nəfərdən ibarət olan ruslar qərar qoymuşlar ki, öz aralarından bütün bolşevikləri qovsunlar. Borisov tərəfindən nəşr edilən qəzetəyə bunlar külli miqdarda pul cəm etmişlərdir.

**General Kolçak**

İngiltərənin rəsmi mənbələrindən verilən xəbərlərə nəzərən, Rusiyanın hakimi admiral Kolçak çevirmə yol ilə tez bir zamanda Petroqrada yaxınlaşacaqdır. Eyni zamanda general Yudeniç qoşunlarına mülhəq olacaqdır [qoşulacaqdır]. Bolşeviklər bəyan edirlər ki, Kolçakın Petroqrada gəlməsi ilə Müttəfiqlər onu Rusiyanın hakimliyində təsdiq edəcəklərdir.

**Kiyevdə**

Bolşeviklər tərəfindən nəşr edilən "Krasnaya armiya" qəzetəsi xəbər verir ki, Kiyev dairələrində kəndçilər Şura qoşunları əleyhinə üsyan qalxızmışlardır.

**Bolşeviklərin məğlubiyyəti**

Kopenhagendən xəbər verirlər ki, estonların verdiyi məlumatdan anlaşılır ki, bolşeviklərin hücumu hər yerdə dəf edilmişdir. Altı günlük qızğın müharibədən





sonra estonlar təzədən Rejeni işğal etmişlərdir. Bundan əlavə, Balisburq da onlar tərəfindən alınmışdır. Düşmənlər həyəcanla qaçmaqdadırlar.

**Sevastopol**

Kopenhagen - Sevastopoldan yazırlar. Ukrayna Şurası xarici konsulların hamısına əmr vermişdir ki, bilatəxir [dərhal] Sevastopoldan çıxsınlar, zira onların hökuməti qəbul edilməmişdir.

## SÜLH ƏTRAFINDA

**Almanların tələbatı**

Paris - Rəsmi surətdə xəbər verilir ki, almanlar Müttəfiqlərə təqdim etdikləri əks-təklifdə bəyan edirlər ki, Müttəfiqlərin sülh müahidənaməsi [sazişi] almanlar tərəfindən qəbul edilməyəcəkdir. Almanlar Müttəfiqlərdən ablukadan [blokadadan] xəsarətə düşdükləri üçün 12 bilyon [milyard] 850 milyon mark pul istəyirlər. Bu da əlbəttə Müttəfiqlərin tələb etdikləri məbləğə müqabildir.

- Daniels Bəhri Komitəyə [Donanma Komitəsinə] təklif eyləmişdir ki, 16 zirehli, 10 kruvazer inşası tərk edilsin, tainki böyləliklə Amerika Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] etibarını izhar eyləsin [nümayiş etdirin]. Daniels əlavə eyləmişdir ki, dekabrdan etibarən övza [vəziyyət] dəyişmişdir.

**Müharibənin axırı**

Berlin - Milli Müdafiə Komitəsi qərar qoymuşdur ki, mütarikə əqd edilib də [atəşkəs imzalanıb da] Rusiya ilə ticarəti əlaqə başlansın.

**Fiume məsələsi**

Paris - Romada olan fransız səfiri İtaliyaya təklif eyləmişdir ki, Cəmiyyəti-Əqvamın mandatı ilə Fiumeni 1923-cü ilədək idarə eyləsin. Bu vaxta qədər Fiumenin bir neçə ağaclığında cənubi slavlar üçün yeni iskələ [liman] inşa edildikdən sonra Fiume qətiyyən İtaliyaya keçə biləcəkdir. Bu təklifə görə, İtaliya bu barədə danışığa girişməyə rizasını vermişdir.

**Berlində protesto mitinqləri**

Nauen - Berlində iyunun 8-də təcavüzkaranə olan sülh müahidəsinin [sazişinin] əleyhinə böyük mitinq tərtib edilmişdir. Amerika, Misir, Hindistan, Türkiyə və Almaniya müstəmləkələrinin nümayəndələri nitq irad etmişlərdir [nitq söyləmişlər]. Bunlardan əlavə İran, Çin, Avstriya almanları, Saar və Reyn qitələri [bölgələri] nümayəndələri dəxi mitinqdə iştirak edib indiki müahidənaməyə protestolarını bəyan etmişlərdir.

**Müttəfiqlər Şurası**

Paris - "Exo de Pari" qəzetəsi yazır ki, bu gün səhər Klemanso, Lloyd Corc və Vilson yığışıb Fransa, İngiltərə, Amerika arasında ittifaq əqd etmək üçün müzakirədə bulunmuşlardır. Bunlar sülh müahidənaməsini müdafiə etmək qərarını çıxarmışlardır.

## QƏZETƏLƏRDƏN

**Türküstanda**

Türküstandan gələnlər bolşeviklər tərəfindən Mərvin işğal edilməsi və orada olan əhvallar barəsində zeyldəki [aşağıdakı] məlumatı verirlər:

Mərv şəhəri Qırmızı qoşun tərəfindən mayın 21-də işğal edilmişdir. Şəhər təslim olmadan əvvəl əhaliyə təklif eyləmişlər ki, 3-4 saatda şəhərdən çıxsınlar. Əhalinin əksəri İrana əzimət eyləmişdir [yollanmışdır]. Şəhərdə qalanların çoxlarını dabravollar [könüllülər] atıb öldürmüşlərdir. Bunların arasında İran və Gəncə quberniyasından gələn daşnaklardan vardır. Dabravollar şəhərə vərəqələr tökmüşlərdir. Bu vərəqələrdə denilir ki, Bakı və Tiflis dabravollar tərəfindən işğal edilmişdir. Ona görə də bir çox fərarilər [qaçqınlar] Bakıya gəlməkdən imtina etmişlərdir. Əhali Mərvdən qaçdıqda, Qırmızı qoşunlar türk dilində vərəqələr tökərək əhaliyə tövsiyə edirmişlər şəhərdən qaçmasınlar. Çünki onlar kimsəyə əziyyət etməyəcəkdir. Amma dabravollar intiqamından qorxaraq bir çoxları şəhərdə qalmağa cəsarət etməmişlərdir.

Mayın 24-də Şura qoşunları Aşqabadın 40 verstliyində olan Qoçan mövqifini [stansiyasını] işğal etmişlərdir. Şura qoşunlarının təcavüzünə davam etməyən [dözməyən] dabravollar qaçırlar.

Aşqabadı dəxi eyni zamanda dabravollar təxliyə edib Tazəşəhərə gəlmişlərdir. Mərv şəhəri məşhur Türküstan camaat xadimlərindən Kazım bəyin təhti-idarəsində [idarəsi altında] 6 min Qırmızı qoşunlar tərəfindən mühafizə edilir.

Dabravollar Bakı zabiti Axnazaryanın təhti-komandasında olurmuşlar. Bunlar qabaqlarına gələnləri atıb öldürürlər. Mərv ilə Aşqabadda yalnız müsəlmanlardan 6050 nəfər ölən vardır. Dabravollar arasında sabiq zabitlər və daşnaklar vardır. Bir çox daşnaklar pişəzvəqt [qabaqcadan] öz vətənlərinə getmişlərdir.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Maliyyə nazirinin yeni 100 rubləliklər buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Maliyyə nazirinə yeni 100 rubləlik buraxılması tapşırılsın.

- Posta və Teleqraf nazirinin yeni post markaları buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Post və Teleqraf nazirinin məruzəsi təsviblə [bəyənilməklə], müvəqqəti olaraq 6, 9, 11 nömrəli markaları qəbul etməli.

- Maliyyə nazirinin Gəncədə Dövləti Bank [Dövlət Bankı] şöbəsi güşadı [açılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın. O vaxtadək 20 milyonluq fonddan Maliyyə Nəzarətinə məxaricat üçün istənilən məbləğin 1/12 hissəsi, yəni 43 933 rublə 33 qəpik buraxılsın.

## MƏMLƏKƏTİMİZDƏ ƏSGƏRLİK HƏYATI

**- 2 -**

Dünənki məqaləmizdə əhalimizin əsgərliyə olan həvəs və iştiyaqı [şövqü] və məmləkətimizin də xüsusilə şu günlərdə əsgərə nə dərəcədə lüzumu olduğunu da bərtəfsil [ətraflı] anlatmış idik.





Şimdi əsgərliyi bir vücud fərz edərsək, o vücuda bir ruh və ruha da həyat bəxş [etmək] lazımdır. Yəni vücudun idaməsi [davam etməsi] yek-digərinin mütəmmimi olan [bir-birini tamamlayan] ruh və bir də həyatla qaimdir [sabitdir] ki, bu üç şey də bir-birinə ətəmmi-mütəmmimidir [bir-birini qüsursuz bir şəkildə tamamlayır].

Məsələn, vücuda hər halda bir ruh lazım olduğu kimi, ruha da bir nəşeyi-həyat istər. Əsgərliyə də ruh verən, əsgərliyin ruhunu oxşayan, əsgərliyə məziyyət verən, verdirən, əsgərliyi irəli götürən, əsgərliyi mərtəbeyi-ülyaya [ən uca mərtəbəyə] çıxaran və çıxartdıran ruhu oxşanmış, təkəmmül eyləmiş [kamala çatmış] adamlardır ki, bunlar da vətənin gənc və münəvvərrül-əfkar [aydın fikirli] olan adamlarından ibarətdir. Demək ki, quru qəfəs halında olan bir vücuda böyləcəsinə bir ruh verincə, olur ziruh [canlı] bir vücud, yəni sağlam bir vücud.

Bir vücuda həyat, yəni vücudu yaşatdıran şeylər – ki bu da əsgərlikdə məlzəmə və mühimmati-hərbiyyə [hərbi ləvazimat] və sair vəsaitin əsbab və istikmalı [tamamlanması, mükəmməl olması] olub, ləhülhəmd [Allaha şükür], bunların həpsi də bizdə ələ-qədrül-imkan [imkan daxilində] mövcuddur.

Türkiyədə sultanın sülaləsindən belə əsgərliyi olanlar [əsgərlik yaşı gələnlər] əsgərlik yapır. Netəkim, şahzadə Süleyman əfəndi mərhumun məxdumi-aliləri [böyük oğlu] Əbdülhəlim əfəndi həzrətləri Balkan müharibəsində yaralanaraq və yarasını tədavi etdirdikdən sonra təkrar müharibəyə getdi. Türkiyə kimi əski və böyük bir hökumətin xanədani-cəlili-hökmdarisinə [cəlallı hökmdar ailəsinə] mənsub bir padşah övladı, bir şahzadə müharibəyə, əsgərliyə gedir və yara alırsa, bizim mühitimizdə bunlardan əsil, bunlardan nəcib və bunlardan mötəbər bir babanın övladı bulunduğunu təsəvvür edəmməyirəm.

Ancaq əsrdə bir fürsət əlimizə keçmişdir. Bunu sui-istemal [sui-istifadə] etməmək və bu fürsəti əlimizdən qaçırmamaq, Denikin istibdadı altına girməmək üçün ümumiyyətlə silaha sarılmalıyız. Hər dürlü mihən və məşaqqa [çətinlik və məşəqqətlərə] köks gərməliyiz. Bir daha o boyunduruğun altına girməməliyiz. Zira bir millət və hökumətin idameyi-həyat və haqqi-hakimiyyətə malikiyyəti əzm [ü] cəzm ü səbata [əzmli, qərarlı və mətanətli olmağa] və süngümüz ədədinə vabəstədir [bağlıdır].

Beş sənədən bəri xanəsindən ayrı, ata-babasından, çoluq və çocuğundan uzaq və qürbət aləmində hər növ məhrumiyyət qarşısında, hər növ səfalətə məruz və hər dəqiqə həyat və məmat [ölüm] təhlükəsinə məhkum, qanlı kəfənləri sırtlarında [əynində], qafaları qoltuqlarında gündə min dəfə həyatları ilə vida və canları ilə pəncələşərkən, baxüsus [xüsusilə] deyil Denikin kimi bir haydudbaşı [quldurbaşı], o müəzzəm [əzəmətli] Rusiyanın möhtəşəm orduları qarşısında 4-5 sənə Ərzurum dağları kimi dünyanın müncəmid məhəllində [buz bağlamış yerlərində] əsgərlik yapan və əlan da [indi də] yapmaqda olan türk qardaşlarımızı, o ata-baba övladlarını bir dəfə insaf və həmiyyətlə nəzəri-etibara alar və binnisbə [nisbətən] müqayisə edərsək, əcəba bizim burada və bu mövsümdə yapaca-

ğımız olan əsgərlik "Bulvar" bağçasındakı axşam piyasasına [gəzintisinə], Denikin ilə olan müharibəmiz isə sinema tamaşasına bənzəməzmi?

Bu gündə zərrə qədər tərəddüd, zərrə qədər qeyrətsizlik nəticeyi-əliməsindən mütəvəllid [kədərli nəticəsindən doğulan] bir sui-təsirin, maddi, mənəvi və vicdani bir məsuliyyətin tərəttüb etdirəcəyi [meydana çıxaracağı] olan müstəlzim [lazımlı, lazım gələn] cəzanı yalnız maddi bir qanun və maddi bir mühakimə əmr etməyir! Ya? Bunu vicdani bir qanun və vicdani bir mühakimə əmr edir! Zatən daimi surətdə vicdanına məhkum olmamağa çalışanlar üçün ötədən bəri vicdan və insafından böyük bir mühakimə olmadığından dolayı, bu da doğrudan-doğruya böyük alçaqlıq və böyük qeyrətsizliklə töhməti hökm edir [böyük alçaqlıq və böyük qeyrətsizlikdə təqsirləndirilmək hökmünü verir]. Daha doğrusu, vicdanına millət və milliyyətinə məhkum olanlar, alçaqlıq, türkcəsi namussuzluqla müttəhimdir.

Haqqül-insaf, haqqül-vicdan mülahizə edən [insaf haqqını, vicdan haqqını nəzərə alan, insaflı və vicdanlı] bir insan müddəti-həyatının ən əziz qismi olan gəncliyinin bir-iki sənəsini əsgərliyə həsr edərsə, o insanın insanlığına, vücudunun da qiymətinə xələl gəlməz və biləks [əksinə], maddi-mənəvi, haqqi-dünyəvi və üxrəvi [bu dünyaya və axirətə məxsus] şərəf və səadəti ikmal edilər [kamilləşər, tamamlanar].

Bununla bərabər, bir adam ölüm təhlükəsini və əsgərlik səfalətini qalə alaraq [nəzərə alaraq], ölməyəyim deyə müharibəyə getməkdən, səfalət çəkməyəcəyim deyə əsgər olmaqdan çəkinərsə, böylə vahi [boş, mənasız] bir mülahizə qarşısında bulunan bir adamın aqibəti vəximdir [qorxuludur]. Az zaman keçmədən ölməyə və səfalətə düçariyyətə məhkumdur. Hər kim ki, əsgərlikdən qaçarsa, mütləq bir bəlaya giriftar olacaqdır. Əsgərlik xidmətində təmarüz edən [özünü xəstəliyə vuran], yəni yalandan xəstə olan, həqiqətən xəstə olacaqdır. Əsgərlikdən qurtulmaq üçün kəza [həmçinin] müharibədə də böylədir. Atəş xəttində qurşundan saqınan, canından, ölümündən qorxan mühəqqəq [mütləq] qurşuna hədəf olacaqdır.

Əlhasil, bunlardan qaçan iflah olmaz [qurtulmaz, salamat qalmaz]. Bunlar qəti və mütəəddid təcarüblə [çoxsaylı təcrübələrlə] sabit və inanmayanlar üçün də təcrübəsinə varmaq qolaydır.

Əsgərliyin məziyyəti [üstünlüyü], əsgərliyin ülviyyəti və məmləkət və millətə olan lüzum və əhəmiyyəti haqqında olan mütaliəm [fikirlərim] iki-üç məqalə ilə bitməz. Cənabi-Haqq ehsan edərsə, bir sırası gəldikdə sövqiyyati-əsgəri namından acizanə olaraq təlif edəcəyim [qələmə alacağım] olan kitabımda əsgərlik xüsusunda uzun-uzadıya bir mütaliə sərd edəcəyəm [fikirlərimi ifadə edəcəyəm].

Şimdilik bizə lazım olan şeyi, şimaldan bir kabusi-əlim [əzablı kabus] kimi çıxan bir qara bulud və o buludun altında uçan yırtıcı bir şahin quş təpəmizin üstə qonmaq və buluddan üzərimizə çökmək istəyir.

Ciddi bir təşəbbüsümüzlə mühitimizdən şəms tülu edər də [günəş doğar da] və bu ziyayi-şəmslə [günəşin işığı ilə] o şəmsin xütuti-şüası [şüasının xətləri] şimala doğru əks edincə bittəb [təbii olaraq] üzərimizə çökmək fürsətini gözətməkdə olan o qara bulud övni-Bari [Allahın köməyi] ilə zail [yox, məhv] və şahin də dəf olacaqdır.

Böylə təhlükəli bir zamanda tədbirli bulunmaqdan məqsəd övrət və uşaqlarımızı ayaq altında qoymamaq, millət və milliyyət və istiqlaliyyətimiz üçün çalışmaq xüsusunun mədlulu [mənası, məğzi] olan amal və əfalın [arzuların və əməllərin] tətbiqi və yeganə hədəfi-məqsudumuzun təyini, yenə övrət və uşaqlarımızı ayaq altında qoymamaq məqsədinin təmini və tərvici [rəvac verilməsi] keyfiyyətidir.

Millət və milliyyətinə, hürriyyət və istiqlaliyyəti ilə haqqi-hakimiyyətinə və mühafizeyi-mövcudiyyətinin təmininə sarılan bir millət heç bir vaxtda təərrüz [hücum] və təcavüzə məruz qalmaz, millət və milliyyətindən ayrılmaz və ayrılmayacağına da Cənabi-Haqq şahidi-adildir [ədalətli bir şahiddir]. Şu qədər var ki, "tələbna və cəddəna" hökmi-cəlilinin mənayi-fəyyazına nəzərən [uca hökmünün bərəkətli mənasına müvafiq olaraq], tədbirdə qüsur etməmək, iğfalata [qəflətə] qapılmamaq, az uyqu uyuyub və çox çalışmaq da şərt olub Bağdad tənbəli kimi arxa üstünə yatmaqla deyildir.

*Çubuqçuzadə Yusif Camal*

## BAKI XƏBƏRLƏRİ

### Əslihə tutulması

Srağagün Parapet qarşısında olan erməni kəlisası [kilsəsi] altında olan anbardan külli miqdarda ləvazimat, saldat əlbisələri, xəstəxana mühimmatı gizləndiyi kəşf edilmiş və axtarış əsnasında bir çox əslihə [silahlar], pulemyot, külli miqdarda patron və qeyriləri tapılmışdır. Həmin əşya və ləvazimat arabalarla kəlisadan başqa bir yerə aparıldıqda görülüb lazımi yerinə bildirilmişdir. Bundan əlavə, Suraxanski küçədə xəzinəxana yanındakı bir anbarda dəxi külli miqdarda əslihə, tüfəng, patron və qeyri patlanğac şeyləri tapılmışdır. Şeylərin hamısı zəbt edilmişdir.

### Səfərbərlik

Əhvali-hazirədən dolayı yeni əsgərlər dəvəti müvəffəqiyyətli surətdə davam etməkdədir. Hər gün Bakı qəzası kəndlərindən külli miqdarda cavanlar kamali-şövq və həvəslə dəstələrlə nəğmələr oxuduqları halda Əxzi-əsgər [Hərbi çağırış] idarəsinə gəlib, oradan naçalnik idarəsi qarşısına gedirlər. Küçələrdən keçdikdə bir çox camaat onları alqışlayıb yola salırlar. Ələlümum [ümumiyyətlə], axır vaxtlar cavan əsgərlərdə böyük təəssüb və vətənpərəstlik hissi oyanmışdır ki, bunu səmimi surətdə təqdir və təbrik etməmək qeyri-mümkündür.

### General Xəlilov[un] qardaşının tövqifi

Dağıstanda böyük xəyanətlərdə bulunub və camaat tərəfindən ölümünə qəsd edilən general [Mikayıl] Xəlilovun qardaşı neçə gün bundan əqdəm [qabaq] Bakıya varid olmuş [gəlmiş] və burada hökumətin binagüzarlığı [sərəncamı] ilə srağagün təhərri polis[i] [axtarış polisi] tərəfindən tövqif [tutulmuş] və həbs edilmişdir.

**Ağabala Quliyevin tövqif edilməsi**

Srağagün bazarda Bakı tacirlərindən olan məşhur Ağabala Quliyev müfəttinanə [araqarışdıran] sözlər söylədiyi üçün camaat tərəfindən döyülüb və nəhayət polis tərəfindən tövqif [tutulmuş] və həbs edilmişdir. Quliyevin böylə hərəkatı camaatın böyük bir nifrətini mövcib [nifrətinə səbəb] olmuşdur. Quliyev açıqdan-açığa hökumətin əleyhinə və Denikin ordusunun lehinə olaraq təbliğat və təşviqatda bulunurmuş.

**Artistlər arasında**

Hacıbəyli Qardaşları Müdiriyyətinin ümum artistləri vətənimizi təhdid edən Denikin təhlükəsi münasibətilə fövqəladə iclasa cəm olub qərar qoymuşlar ki, lazım olan vaxtda şəhərin əmnü asayişini [təhlükəsizlik və asayişini] saxlamaq üçün bir xüsusi könüllü dəstəsi təşkil etsinlər. İşbu könüllü dəstəsinə bütün səhnə həvəskarları, qanuna görə əsgərliyə düşməyən ailə pərəstarları [himayələrində ailə olanlar], cavanlar, 30 yaşından 50 yaşına qədər ziyalılar və müəllimlər qəbul olunurlar. Könüllü dəstəsinə yazılmaq istəyənlər cümə günü, iyunun 13-də gündüz saat 4-də Şah məscidinə müraciət edə bilərlər. Bundan əlavə, təfsilat üçün Qubernski küçədə 43 nömrəli evə müraciət etməli.

**Həbsdən azad**

Bakı qalabəyisinin binagüzarlığına [sərəncamına] görə, neçə gün bundan əqdəm [qabaq] oğlanlarını gizlətməkdə müttəhim və Mərkəzi Həbsxanada həbs edilmiş olan Bakı sakinləri Hacıpaşa Ağababa oğlu və Ələkbər Məşhədi Nəcəf oğlu oğlanları yenidən əsgərliyə gəldiklərindən həbsdən azad edilmişlərdir.

**Pristav və müavinindən şikayət**

Bakıda sükunət edən [yaşayan] Malışev qubernatora bir ərizə verərək məlum etmişdir ki, 4-cü uçastok pristavı Kərimbəyov və müavini Axundov kəndi xidmətlərindən sui-istifadə edərək bir çox şikayətçilərdən rüşvət istəyirlər. Qubernator həmin şikayəti təhqiq etmək üçün qalabəyinə [komendanta] göndərmişdir.

**Teleqraf xəttinin qırılması**

Posta və Teleqraf İdarəsi Bakı qubernatoruna məlum etmişdir ki, Keşlə ilə Biləcəri mövqifləri [stansiyaları] arasında olan teleqraf xətti naməlum şəxslər tərəfindən qırılıb və bundan naşi [buna görə], Tiflis ilə Bakı arasında teleqraf müxabiratı [rabitəsi] kəsilmişdir. Müqəssirləri axtarmaqdan ötrü qubernator tərəfindən ciddi tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

**Tövqif və həbs**

Bakı qalabəyisinin binagüzarlığına görə, Bakıda sükunət edən Qubanov və Şvars ümumi asayişi pozmaqda müttəhim edilərək bir ay müddətinə həbsə alınmışlar.

**Klubun qapanması**

Qalabəyinin binagüzarlığına görə, Bakıdakı "Ermitaj" klub külli miqdarda qumar oynanmasına icazə verdiyi üçün qapanmışdır.

**On milyon istiqraz**

Məclisi-Məbusan tərəfindən qərardad edildiyinə görə, Hökumət Bakı Bələdiyyə İdarəsinə on milyon manat miqdarında istiqraz [borc] buraxmışdır.





**Şirvan-Kürdəmir**

Posta və Teleqraf İdarəsi xəbər verir ki, Bakı-Şirvan-Kürdəmir arasında posta və teleqraf müxabiratı [rabitəsi] başlanmışdır.

**Fəhlə həyatından**

İyunun 9-da Balaxanada Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin mərkəzi şöbəsinin ümumi iclası vaqe olmuşdur. İclasda ümumi mədən dairələr[in]dən və yaxın kəndlərdən nümayəndələr hazır olaraq Könüllü ordunun Dağıstan və Azərbaycan üzərinə qəsd və hərəkət etməsi məsələsi müzakirə edilmişdir. Bir çox müzakirədən sonra, iclas Bakı və ətrafı müsəlman əmələlərinin var qüvvələri ilə və son nəfəslərinə qədər qara irticai [mürtəce] qüvvələrlə çarpışıb Azərbaycan istiqlaliyyətini hər bir təhlükədən müdafiə və mühafizət edəcəklərdir.

**Türk müəllimlərinin ümumi iclası**

Həziran [iyun] 13-də, cümə günü axşam saat 5-də Şah caddəsində, Üçüncü ali-ibtidai məktəbində türk müəllimlərinin ümumi iclası vaqe olacaqdır. Heç kəsə xüsusi vərəqə və dəvətnamə göndərilməyəcək. Buna binaən [buna görə], həmının şu elan ilə kifayələnib gəlməsi rica olunur. Əgər saat 5-də üzvlərin az gəlməsindən dolayı məclis baş tutmasa, saat 6-da həman gün ikinci iclas hər nə qədər üzv olmuş olsa, qanuni hesab ediləcəkdir. Məsələlər mühüm olduğuna görə, hamının gəlməsi vacib və əlzəmdir. Şunu da əlavə ediriz ki, bu, tədris sənəsinin axırıncı ümumi iclasıdır. İclasda Dağıstan müəllimlərinin nümayəndələri məruzə oxuyacaqdır.

*İttifaq idarəsi*

**İstehlak Cəmiyyətində**

Bakı İstehlak Cəmiyyəti Cəmiyyəti-Xeyriyyəsi bununla cəmi üzvlərinə elan edir ki, bu iyun ayının 15-də saat 5-də cəmiyyətin ümumi iclası vaqe olacaqdır. Hamı üzvlərin gəlməsi rica olunur.

Kraynı Krivoy küçə, Birinci Kantapinskinin küncündə, nömrə 120.

**Yeni Maarif naziri**

Sabiq Dağıstanlılar Cümhuriyyəti Maarif naziri Şahsüvarov Azərbaycan Cümhuriyyəti Maarif nazirliyinə təyin edilmişdir. Şahsüvarov həzrətləri dünəndən etibarən öz vəzifəsi ifasına şüru etmişdir [başlamışdır].

**Aşqabadın süqutu**

Şəhərdə dövran edən şayiata [şayiələrə] və Tazəşəhərdən qaçanların dediklərinə görə, srağagün Aşqabad bolşeviklər tərəfindən işğal edilmişdir.

**Fəhlə Konfransının divani-rəyasəti tərəfindən**

Fəhlə yoldaşlar! Bakı Fəhlə Konfransının divani-rəyasətinin qərarına görə, bu gün iyun ayının 13-də, sübh saat 8-dən axşam saat 6-dək ümumi tətil elan edilir. Bu gün hamı əmələlərin borcudur ki, var qüvvələrini sərf edib və qırmızı bayraqlar altına cəm olub öz qüvvələrini düşmənlərinə, xarici və daxili əks-inqilabçılara göstərsinlər. Nümayişlərin üsulu elannamələrdə göstəriləcəkdir.

*Əmələ Konfransının divani-rəyasəti*

**Bələdiyyə İdarəsində**

- Neftçilər İttifaqı Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir ki, Bələdiyyə İdarəsi firmalar tərəfindən veriləcək vergilərin verilmə[mə]si təqdirində onlara 12% əlavə təyin edirmiş. Halbuki firmalar şimdi mal mübadiləsi olmadığından naşi [olmadığına görə], fəqət [sadəcə] hökumət tərəfindən verilən istiqrazla [borcla] öz işlərini aparırlar. Hökumət isə, Bələdiyyə İdarəsi vergiləri üçün firmalara borc verməyir. Binaənileyh [ona görə], vaxtlı-vaxtında vergilər verilməzsə, onlardan əlavə alınmasın.

- Bələdiyyə İdarəsi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, Bələdiyyə İdarəsi tərəfindən məsai borsası [əmək birjası] təsis edilmişdir. Bələdiyyə İdarəsi xəzinəsinin fəna əhvalından naşi rica edilir ki, həman borsa məxaricatının şəhər öhdəsindən dövlət öhdəsinə götürülməsi haqqında Vükəla Şurasında [Nazirlər Kabinetində] məruzə verilsin.

## ZİYALILAR İTTIFAQINDA BİR GÜN

Bu gün Azərbaycan mühitində tək bir duyğu, tək bir düşüncə hökmrandır: Bir əsri mütəcaviz [bir əsrdən artıq] illərdən bə-ri həsrət və iştiyaqla [şövqlə] bəslədiyi hürriyyət və istiqlalına qovuşaraq onu çılğın, pərəstişkar bir aşiq qısqanclığı ilə, hirs [tamah] və iştaha ilə parlayan yabançı gözlərdən saxlamaq!

Əvət, hər guşədə əlində silahla əsgəri təlim yapan kiçik yavruların, kümə-kümə təlim meydanlarına qoşan gənc, ixtiyar adamların, ziyalı məclislərin, bütün məhafilin [dairələrin] səmimi təzahürlərinin ruhu bu tək bir əndişədən doğmuşdur.

Gənc Azərbaycanın qəlbi bu günün təhlükəsini hiss etmiş, əhəmiyyətini təqdir etmiş, qorxunc bəlanı tərd etməyi [qovmağı] yeganə qayə edinmiş...

Həqiqətən, bir millət böyük bir fəlakət, qorxunc bir təhlükə qarşısında bulunduğu zaman fərdlərin ruhunda yalnız milli bir şəxsiyyət yaşar, bütün ruhlarda bu milli şəxsiyyəti idamə etmək [davam etdirmək] arzu və iştiyaqından [şövqündən] başqa bir hiss qalmaz. Bu həngamədə [bu zamanda] fərdlər özlərini deyil, yalnız millətlərinin istiqlaliyyətlərini düşünərlər.

İştə, bütün qəlbləri bir qəlb yapan bu böhranlı dövrə, bütün iradələrin susaraq ümumi bir iradənin hakim olduğu bu həngamə [bu zaman] müqəddəs "ilqah"lar [aşılamalar, peyvəndlər] dövrəsidir... Binaənəleyh [ona görə], bütün fərdlərin müfrit, qələyanlı, şədid [ifrat, coşğun, şiddətli] bir həyat yaşadıqları bu anlarda onların ruhları üzərində yapılacaq ictimai, məfkurəvi təlqinlər əbədi, layəmut [ölümsüz] qüdrəti haizdirlər [daşıyırlar].

Bu böhranlı anlar, millətləri səadətə isal edən [çatdıran] bu xaliq qüvvətlər ciddən nə qədər qiymətlidir. Məfkurələrin doğduğu bu anlarda bütün mütəfəkkirlər, ədiblər, şairlər, ziyalılar onu bəslərlər. Ən məqul [ağlabatan] vasitələri ararlar, bularlar, yəni ictimai həyatı tənzim edərlər [nizamlayarlar].

İştə, biz bu gün o böhrani dəmləri yaşayırız və həpimiz bizi müqəddəs və yüksək məfkurəmizə isal edəcək [çatdıracaq] böyük qüdrətin "istiqlalımız" olduğunu bilərək, uğrunda pək böyük fədakarlıqlar yapmağı atəşli, hummalı bir surətdə [çılğınlıqla] təsəvvür ediriz.

Hər yerdə və bilxassə Ziyalılar İttifaqının şayani-şükran [təşəkkürə layiq] olan 9 iyun iclasının təzahüratında görüldüyü üzrə hiss, həyəcan və eşq içində və pək ülvi bir hüsn-niyyətlə çalışmaq istəyiriz. Fəqət qardaşlarım, etiraf edəlim ki, həpimiz hiss və həyəcanın təhti-təsirində [təsiri altında] şaşırır kimiyiz. Məfkurələrimiz bir, amma onun istehsalı [əldə edilməsi] üçün təyin etdiyimiz vasitələr nöqsandır, təmini-məqsəd edəmməz. Binaənileyh, bəndəniz məfkurəmizi ancaq şu iki qüvvətlə istehsal edəcəyimizə qaneyəm: fikir və barut! Yəni dimağı [başı] işlədərək və qan axıdaraq!

Hərb millətlər üçün məşum bir zərurətdir. Biz də dərhal hərbə hazırlanmaq məcburiyyətindəyiz. Hazırlanmaq gərək hökumət, gərək millət tərəfindən bəzi təşkilat yapılmaqladır. Hökumətin təşkilatı, müəssisatı ona aid, müəyyən və sabitdir və ordu hərb halında bulunduğu zaman qonaqlar [imarətlər], anbarlar, xəstəxanalar və sairə kimi mənzil təşkilatı ilə əsgəri bəslər, şəfayab edər [sağaldar]. Fəqət bu müəssisati-rəsmiyyə [rəsmi qurumlar] nakafidir [kifayət etməz]. Millət tərəfindən bu rəsmi təşkilatı təqviyə və itmam edəcək müəssisat [gücləndirəcək və tamamlayacaq qurumlar], əzcümlə [o cümlədən] Müdafiyeyi-Milliyyə [Milli Müdafiə], Hilali-Əhmər [Qırmızı Aypara] cəmiyyətləri təşkil edilməlidir. Müdafiyeyi-Milliyyə sərvətlilərdən, xeyir əshabından [xeyir sahiblərindən] para toplayaraq, sənətkarlar yığaraq özünə tabe sənətxanalar, emalatxanalar vücuda gətirər və əsgər üçün yazlıq, qışlıq paltar, içlik tikdirər və xaricdən toplar, əsgərə, cəbhəyə hədiyyələr göndərər. Hilali-Əhmər də bir şəhərin yaxud şəxslərin verəcəkləri paralarla xəstəxanalar təsis edər, xəstəbaxıcıları yetişdirər, ailə və övladi-şühəda [şəhidlərin ailə və uşaqları] üçün eytamxanaları [yetimxanaları], aşxanaları vardır.

İştə, millət bu təşkilatı vücuda gətirərək yardım etməklə bərabər, Azərbaycan istiqlalını təhlükəyə düşürəcək hərəkətdə bulunan hər şəxs, düşmənə acentəlik edənləri, yalan xəbərlər çıxaranları, əsgərlikdən qaçanları dərhal və bilamərhəmət [rəhm etmədən] hökumətin üzvlərinə xəbər vermək, fərdlər arasında sarsılmaz məhəbbətlər təsis etmək, düşkünlərə və bikəslərə şəfqət və mərhəmət hissləri oyandırmaq kimi ən müqəddəs vəzifələri fərdən [fərd olaraq] yapar. Fəqət məəttəəssüf [təəssüf ki], hənuz ictimai həyatdakı vəzifələrinin əhəmiyyətini təqdir edəmməyən bəzi əfradi-millətə [millətin bəzi fərdlərinə] bunların qüdsiyyətini öylə bir surətdə təlqin etməli ki, ən əziz və ən təbii birər vəzifə bilsin. Bunun üçün şimdiki zamanlar əsla qaçırılmayacaq fürsətlərdəndir.

Binaənileyh, ziyalı qardaşlarım, Müdafiyeyi-Milliyyə, Hilali-Əhmər təşkilatına başlamaqla bərabər, qüdsi fəzilətləri təlqih [aşılamaq] və təlqin üçün xalqa konfranslar verməliyiz.

Həpimiz konfranslarımızda sabit bir səciyyə, qüvvətli bir imanla yalnız istiqlalımızı düşünməliyiz.

*Həsən M. oğlu*

## GÜRCÜSTANDA

**Könüllü orduya mühimmati-hərbiyyə aparılması Gürcüstanda qadağan edilmişdir**

Gürcüstan Hökuməti Gürcüstan dairəsindən Könüllü ordu üçün mühimmati-hərbiyyə [hərbi ləvazimat, sursat] aparılmasını qadağan etmişdir. Gürcüstan Cümhuriyyətinin zirehli qatarları bu binagüzarlığa [sərəncama] əməl edilməsini təqib edirlər. İndiyə qədər Qarsdan göndərilən bir neçə vaqon patronu tutmuşlar.

**Gürcüstan heyəti İtaliyaya gedəcəkdir**

Bir para əhəmiyyətli siyasi və iqtisadi məsələləri məhəllində [yerində] həll eyləməkdən ötrü bu yaxın vaxtlarda İtaliyaya Gürcüstandan xüsusi bir heyət gedəcəkdir. Heyətin kimlərdən ibarət olacağı hələ məlum deyildir.

**Çxeidze və Seretelinin məktubu**

Parisdə bulunan Gürcüstan sülh heyəti üzvləri [İrakli] Sereteli və Çxeidzedən bu məzmunda məktub alınmışdır. Məktubu eynilə dərc etmək mümkün olmadığından, bəzi yerlərini yazırız.

Nümayəndələr yazırlar ki:

Gürcüstan istiqlaliyyətinin təsdiq olunması məsələsi üçün nərəyə müraciət edіriksə, bizə artıq dərəcə hüsn-təvəccöh göstərirlər. Bizə deyirlər ki, Gürcüstan istiqlalının təsdiq edilməsi məsələsi o qədər aşkardır ki, onun qəti surətdə həll edilməsi heç bir mübahisəyə bais olmayacaqdır. Fəqət hələlik Konfransda xırda millətlərin müqəddəratı məsələsi müzakirə edilməmişdir.

Nümayəndələr axırda əlavə edirlər ki, Gürcüstanın daxili təşkilatı mühafizə edilməlidir. Gürcüstan istiqlaliyyətinin təsdiqi məsələsində Parisdən heç bir xətrə [qorxu, təhlükə] yoxdur.

## TEATRO VƏ MUSİQİ

Zamanın əhəmiyyətini və teatronun baxüsus [xüsusilə] bu günlərdə camaata qarşı mənfəətini nəzərə alaraq, bundan belə əhya günlərindən başqa hər həftə cümə günləri Hökumət Teatrosunda teatro tamaşaları göstəriləcəkdir. Bu gün, cümə günü, axşam həman teatroda Üzeyir bəy Hacıbəyli cənablarının yazmış olduğu "O olmasın, bu olsun" operettası mövqeyi-tamaşaya qoyulacaqdır. Tamaşa axşam saat 8-də başlanacaqdır. Biletlər teatrın kassasında satılmaqdadır.

## İZHARİ-TƏŞƏKKÜR

Gəncə vilayəti Türk Müəllimlər və Mütəəllimləri İttifaqı hümməti ilə 1919[-cu il] mayıs ayının 23-də 25 sənəlik xidməti-acizanəmə mükafat olaraq tərtib verilmiş yubileyaya iştirak edib uzaqdan-yaxından, bizzat yaxud bilvasitə bəndənin haqqında lütf buyurub təbrik edən, hədiyyə əta qılan müəssisələr, cəmiyyətlər, firqələr, ittifaqlar və qeyrilərinin hüsn-təvəccöhlərinə qarşı səmimi təşəkkürlər edirəm. Ələlxüsus Heyəti-Vükəla Rəyasəti, Parlaman Heyəti-Rəyasəsi və Maarif Nəzarəti canibi-aliləri tərəfindən təbrikən sərəfraz olduğumdan naşi [təbrik edilməklə başım uca olduğu üçün] ərzi-ehtiram və izhari-təşəkkür edirəm.

Yubileyamın tərtibinə səbəb olan Gəncə Müəllimlər İttifaqı ilə Bakı Türk Müəllimlər İttifaqı, Şəki Türk Müəllimlər İttifaqı, Ərəş Türk Müəllimlər İttifaqı, Qazax Türk Müəllimlər İttifaqının nəzər-diqqəti cəlb edəcək dərəcədə yubileyama iştirak edib bəndəni məmnun etmələrinə mədyun [minnətdar] olmaqla, təşəkkürlər edirəm.

Öylə fövqəladə surətdə şənlik günü Azərbaycan istiqlalımızın feyzi olmaqla, digər müəllim arxadaşlarım üçün də təşviq və tərğib [həvəsləndirici və rağbətləndirici] idi. Əlbəttə ki, müəllimlik təqdir olunarsa, maarifimiz tərəqqi tapar, maarifin irəliləməsi ilə istiqlalımız paydar [paydar] olar. Cənabi-Haqdan istiqlalımızın sənələrcə yaşaması ilə, onu yaşatmağa birinci amil olan müəllim arxadaşlarımın müvəffəqiyyətlə yaşayıb məsud olmalarını diləərəm.

*Abbaszadə Abbas*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Şüvəlanda**

6 otaqlı bir bağ icarəyə verilir. Xahiş edənlər Çadrovı küçə, 200 nömrəli evə saat 3-dən 5-dək müraciət edə bilərlər.

*10230*

**Satılır**

Mebel, stilnoy yatacaq, stalovı, lednik, kuşetka və yaylaq setka kravatları. Bandarnaya, nömrə 93, mənzil nömrə 11, paradnı qapı.

*10232*

Moskvada təcrübə görmüş diş həkimi **K. S. Kolandskaya-Sanuxat** kabinə açmışdır. Müalicə edir, dişləri doldurur, süni dişlər qayırır və dişləri ağrısız çakir. Qiymət münasibdir. Qəbul edir: Hər gün səhər saat 9-2-yədək; aşxam saat 5-7-yədək. Adres: Bazarnı və Suraxanski küçələrin küncündə, nömrə 112.

*8795*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Diş həkimi R. S. Fuks**

Qəbul edir: 9-dan 10-a dək; 5-dən 7-yə dək. Ünvan: Mariinski, nömrə 18. Ferdinandın aptekası ilə bərabər. Telefon nömrə 34-15.

*10202*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*8798*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**İstanbuldan, İngiltərədən**
**və Fransadan mallar**

İ. V. Denisovun bankir kantorası İstanbula, Marselə (Fransa) və Liverpula (İngiltərə) mal alıb gətirmək üçün nümayəndə göndərir. Sifarişlər İ. V. Denisovun bankir kantorasında qəbul olunur (Nikolayevski və Olqinski küçələrin küncündə) hər gün axşam saat 5-dən 7-dək.

*10210*

**Zəhmət (məsai) bürosu**

Bakı Şəfqət Bacıları İttifaqı şəfqət bacılarını gecə işlərinə, iynə vurmağa, masaj etməyə müərriflik edir [tövsiyə edir, zəmanət verir]. İttifaq öz işçilərinin işlərinə cavabdehdir. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Budaqovski və Malakanski küçələrin küncündə, nömrə 16/22, mənzil 6. Konkanın mənzili. Telefon nömrə 14-08. Büro bütün gün açıqdır.

*8755*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Qismi-rəsmi**

səh. 268. "IX) Daxiliyyə Nəzarətinə həmçinin...": VIII maddə (əslində VII maddə) qəzetdə buraxılmışdır. Daha ətraflı məlumat üçün qəzetin 204-cü nömrəsindəki "Təkzib və təshih" qeydinə baxın.

**Tətil və nümayiş**

səh. 269. "Lazistan": Türkiyədəki etnik qruplardan olan lazların yaşadıqları əraziyə verilən ad; Osmanlı dövlətində Trabzon vilayəti daxilində Lazistan sancağı mövcud olmuşdur. Lazistan sancağının inzibati mərkəzi əvvəllər Batum, Batumun ruslar tərəfindən işğal edilməsindən sonra isə Rizə şəhəri idi.

"Xəlilovlar": general-mayor Mikayıl Xəlilov nəzərdə tutulur.

**"Düşmən gəliyor,**
**məqsədi ifnayi-vətəndir"**

səh. 270. "Düşmən gəliyor, məqsədi ifnayi-vətəndir": "Düşmən gəlir, məqsədi vətəni yox etməkdir".

səh. 272. "Mən nə quyəm ya səməndər baş, ya pərvanə baş / Çon bə-fikri-suxtən oftadeyi mərdanə baş": "Mən demirəm səməndər ol, ya pərvanə ol, / Yanmaq fikrinə düşmüsənsə, mərdanə ol!" (farsca)

**Sülh ətrafında**

səh.273. "Daniels": qəzetdə səhvən "Danielson" getmişdir.

"Exo de Pari" [L'Écho de Paris]: 1884-1944-cü illərdə Parisdə nəşr edilmiş gündəlik qəzet.

**Məmləkətimizdə əsgərlik həyatı**

səh. 274. Bu yazı qəzetdə bir çox imla xətaları ilə getmişdir; bunları düzəltdik və hər birini ayrıca qeyd etməyə ehtiyac görmədik.

səh. 275. "şahzadə Süleyman əfəndi mərhumun məxdumi-aliləri Əbdülhəlim əfəndi həzrətləri: Osmanlı sultanı Əbdülməcidin oğlu Süleyman Səlim əfəndi və onun oğlu Məhməd Əbdülhəlim əfəndi nəzərdə tutulur.

səh. 277. "tələbna və cəddəna": "tələb etdik və tapdıq" (ərəbcə)

**Bakı xəbərləri**

səh. 279. "Şah caddəsi": Bakıda, indiki Mirzə Fətəli küçəsi.

"Kraynı Krivoy": Bakıda, indiki Akademik Qarayev küçəsi.

"Birinci Kantepinski": Bakıda, indiki Salatın Əsgərova küçəsi.

**Ziyalılar İttifaqında bir gün**

səh. 281. "müəssisati-rəsmiyyə": qəzetdə "müəssisani-rəsmiyyə" getmişdir.



***“Azərbaycan” qəzetinin 204-cü nömrəsinin 1-ci səhifəsi***





**Bazar, 15 iyun 1919-cu il, nömrə 204**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 16 ramazanül-mübarək sənə 1337. 15 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

Yarından etibarən açıq dildə gündəlik **“Xalq sözü”** adında bir qəzetə nəşr ediləcəkdir. Bu qəzetədə “Azərbaycan” qəzetəsi mühərrirləri iştirak edəcəklər. Zamanın fövqəladəliyi nəzərə alınaraq qəzetə gündüzləri saat 2-də nəşr [ediləcək] və tək nüsxəsi Bakıda bir manatdan satılacaqdır.

* * *

Müharibə meydanına göndərilmiş Azərbaycan əsgərləri üçün tərtib olunacaq cəmiyyətlər və xəstə ya ki yaralı əsgərlərə müavinətlər xüsusunda məsləhət olunmaq üçün iyun 16 bazar ertəsi saat 10-da Birinci Ünas [Qızlar] məktəbinə (Nijni Kladbişinski və Zavedenski küçələrin küncündə) ümumi müsəlman xanımları dəvət olunurlar.

*T-150*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Azərbaycan Məclisi-Məbusan rəisi həzrətlərinin əmrnamələri**

*Əmrnamə nömrə 104*

Kazımoğlu Seyid Hüseyn Sadiq 1919 sənəsi may ayının 1-dən etibarən Azərbaycan Məclisi-Məbusanının türk məzbətə mühərriri [protokol katibi] təyin edilir.

*Əmrnamə nömrə 105*

Azərbaycan Məclisi-Məbusanının türk məzbətə mühərriri Süleyman Nəzif 1919 sənəsi aprel ayının 8-dən etibarən vəzifəsindən kənar edilir.

*Əmrnamə nömrə 106*

Azərbaycan Məclisi-Məbusan idarəsinin telefonçusu Ceyran xanım Şirinzadə 1919 sənəsi may ayının 1-dən etibarən məzkur [deyilən] idarədə təhrirat [məktub] xidmətçisi təyin edilir.

*Əmrnamə nömrə 108*

Abbasəli Hacırzazadə 1919 sənəsi may ayının 20-dən etibarən Azərbaycan Məclisi-Məbusan idarəsinin İcraat şöbəsi müdirliyinə təyin olunur.

*Əmrnamə nömrə 109*

Abbasəli Əsgərzadə 1919 sənəsi may ayının 24-dən etibarən Azərbaycan Məclisi-Məbusan idarəsinin mühasib müavini təyin edilir.

*Əmrnamə nömrə 110*

Təbib Əli bəy Seyidov 1919 sənəsi

may ayının 28-dən etibarən Parlaman Qorucu bölüyü təbibliyinə təyin edilir.

*Əmrnamə nömrə 111*

Parlaman idarəsinin təhrirat [məktub] xidmətçisi Şahin Mirsəyyabzadə 1919 sənəsi iyun ayının 5-dən etibarən qulluğundan əzl [kənar] edilir.

*Əmrnamə nömrə 112*

Parlaman idarəsinin telefonçusu Həcər xanım Zeynalzadə 1919 sənəsi iyun ayının 9-dan etibarən həmin idarədə təhrirat xidmətçisi təyin edilir.

*Məclisi-Məbusan rəisi namına:*
*Həsən bəy Ağayev*
*Əslinə mütabiqdir.*
*Kargüzar: C[amal] Paşazadə*

**QƏZAVƏTDƏN**
**[QAZILIQ İDARƏSİNDƏN]**

1919-cu sənədə may ayının 16-da mən də ruhani mollalar barəsində məlumat cəm etmək üçün yeni Qubadan ayrılıb Bakıya mülhəq olmuş [birləşdirilmiş] dağ kəndlərinə çıxmışdım. Gədi kəndlərindən başlayıb Zaratda tamam etdiyim kəndlərdə ruhanilərə dair məlumat və təsəvvüratdan əlavə, siyasi hökuməti xüsusunda dəxi bir qaç məlumat əxz etmişəm. Əvvəlcə ruhanilər barəsində yazıb sonra da siyasi məmurlar barəsində yazacağam.

Məzkur qəryələrdə [deyilən kəndlərdə] prixod mollaları Nikolay zamanından təyin olmuş zəvatdır [şəxslərdir]. Böylə ki, hansı köyün camaatını istintaq etdikdə, məzkur ruhanilərin zülmündən dad edirlər. Hamıdan ziyadə Xızı mollaları molla Ələkbər və molla Pənah cənablarından şikayət edirlər. Həqiqətdə bir parasının şikayətinə diqqətlə fikir verdikdə, insafsızlıq və vicdansızlıq hərəkatları həqiqət olunur.

Məsələn, molla Ələkbər cənabları Nikolay məzul olandan [qovulandan] bu vaxta kimi bircə dəfə də olsa da, dəftərinə mülhəq [daxil, aid] olan köylərə təşrif aparıb nikahlarından, talaqlarından, vəfatlarından və təvəllüdlərindən xəbər tutmamışdır. Hər kəs də şəhadətnamə istədikdə fövqəladə məbləğlər alıb kəndi təsəvvüratı ilə şəhadətnamələr verir.

Azərbaycan hökumətindən əqdəm [qabaq] bolşeviklər zamanında əxzi-əsgər [hərbi çağırış] zamanı hər şəxs ki məzkur[a] para təklif və təslim eyləməzdi, həman şəxsi neçə yaşında olursa-olsun, əsgərlik üçün bolşeviklərə təklif edirdi. Hətta köy camaatından bu barədə ona etiraz edən əşxas[ı] [şəxsləri] bolşeviklər əleyhinə çalışanlardan nisbət verib [bolşeviklər əleyhinə çalışanlarla əlaqələndirib], hökumətə donos yazardı. Hətta məzkurun cibindən düşmüş bu barədə bir donos Xızı kəndində bir küçədən tapılmışdır.

Şimdi isə Azərbaycan Hökuməti-cəliləsi müavinətinə çalışmaq üçün əsgərlər siyahısında bərəks [əksinə] edir. Böylə ki, hər kəs para verirdisə, onu yazmayıb, para verməyənləri yazıb əsgər göstərir. Bu barədə Qarabulaq camaatından Mirsadıq ilə Mirfəttah nam [adlı] şəxslərdən hərədən 700 manat alıbdır ki, sizin 7 və ya 8 yaşında çocuqlarınız əsgər düşür. Təhqiq üçün həman şəxslərin sözlərinə bavər etməyərək [inanmayaraq] sordum



[soruşdum]. 7 yaşında çocuq məgər əsgər düşür ki, siz işbu məbləği ona verdiniz? Cavabında: Bizim ailəmiz bu əhvalatı eşitdikdə təşvişə düşüb heç bir növ islah olmadılar, məgərinki paranı molla Ələkbərə verib ondan daha əsgər yazmayacaq vədəsini alınca...

Təəccüb burasıdır ki, camaatın bu qədər etirazlarına ki, hər köydə yazdığımız bəratülqövldə [protokolda] məzkurun zülmü barəsində bəyanat vardır, məzkur molla mən Bakıya gələndən sonra mənə və Məşixət [Şeyxülislamlıq] İdarəsinə ərizə vermişlərdir ki, məzkur şayiələr iftiradır. Xızıda olan "Müsavat" şöbəsinin əzası [üzvü] dəxi bu barədə "Müsavat" idarəsinə məlumat veribdir və həman məlumata dair "Müsavat" dəxi Məşixətə ittila [xəbər] vermişdir.

Mollaların zülümləri camaata o qədər əsər etmişdir ki, köylərin əksərində məscidlər xaraba, məktəb yox, çocuqları bisavad və cahil qalmışdır. Hərgah mollalar yaxşı olardısalar, məktəblər bina etdirib köy çocuqlarını təhsil və tədrisə məşğul edərlərdi. Köylərdə şəriətə muğayir [zidd] bir çox təmirlərin ədəmi [olmaması] məəttəəssüfdür [təəssüf doğurur]. Caddələri (yolları) çox fəna bir haldadır. Lakin həmin Bakı üstə mülhəq olandan bəri asudə güzəran keçirdiklərini bəyan edib, Azərbaycan Hökumətinə bu barədə səmimi-qəlbdən təşəkkürlərini bəyan edirlər.

Bir para istibdad dövründən qalmış müstəbid şəxslərin dəxi dəfinə əlac imdadını rica etmişlərdir. Lakin həman zəvatın kim olduğunu sual etdikdə, qorxudan söyləməyirlər. Fəqət məxfi sorduqda Zərgərli İlyas Əbdül oğlundan şikayət edirlər və bu barədə bəndədən, qubernator həzrətlərinə yazıb dəfinə əlac etmək üçün təmənna etmişdir və mən də onlara vədə vermişəm.

Məzkur qəryələrin məsafəsi biri-birindən uzaq olduğu üçün sabiq qayda ilə hər icmaya bir molla kifayət etmədiyi üçün mən də Gədi icmasına iki molla, Xızı icmasına üç molla, Əngilan, Koxanı üstə mülhəq, Xələnc, Fındığan, Zərgərli, Qalaşıxı və Zarat icmasının hərəsinə bir molla təyin etmək niyyətində olduğum[u] Məşixət İdarəsinə ittila verib təsdiqini xahiş etmişəm.

Bundan əlavə, polis məmurlarından bir para qüsurat [nöqsanlar] məsmu olarsa [eşidilərsə], Balaxanı-Sabunçu polismeysteri bu barədə bir sərəncam çəkməlidir.

*Bakı qazısı: Axund Əbdürrəhim*
*Hadizadə*
*Katib: Həsənağa Yusifxanlı*

**BİRİNCİ ZƏFƏR**

Hələ tüfənglər atılmadan, toplar patlamadan birinci zəfərə nail olmağımızla Azərbaycan türk və islamlarını təbşir [müjdələməklə] və təbriklə özümüzü bəxtiyarədd [hesab] edirik.

Bu zəfər diplomatik bir müharibənin nəticəsidir ki, hökumətimiz tərəfindən denikinlilərə qarşı elan edilmişdi.

Dağıstanı zəbt və Azərbaycana qarşı qorxulu bir vəziyyət ixtiyar etmiş olan Denikin macərası hökumətimizi bu qara təhlükəyə qarşı durmaq və təhlükəni üzərimizdən dəf etmək üçün kamali-gərmi ilə [tam qızğınlıqla] işə girişməyə və

qəhrəman ordumuzun süngüsü ilə bərabər qeyrətli əhalimizin hümmət və həmiyyətinə istinad edən diplomatik bir müharibə elanına məcbur etdi.

Bu müharibə, görünür, böyük bir ustadlıq və məharətlə icra edilirmiş ki, zəfər bizim tərəfdə oldu. Müttəfiqlər tərəfindən kömək və müzahirət [dəstək] görməkdə olan Denikin[in] eyni Müttəfiqlərdən ən nüfuzlusu olan İngiltərə hökumətinin "Haqsız soxulmuş olduğun yerlərdən çəkil!" əmrini alarkən nə qədər təəccüb edəcəyini təsəvvür ediniz.

Denikin və həsrətkeşləri bundan mülahizə etsinlər ki, diplomatiyada onlara qələbə çalmış olan Azərbaycan top və tüfəng müharibəsində dəxi onları məqhur və münhəzim [məhv edilmiş və məğlubiyyətə düçar olmuş] edə bilər.

Rus qaragüruhuna mənsub olanlar dəxi bir kərə bilməlidirlər ki, müstəbid Rusiyanı diriltmək və istiqlallarını elan etmiş olan millətləri təkrar qul və əsir etmək onların təsəvvür etdikləri kimi asan iş deyildir. Qan, can və mal bahası ilə alınmış olan bu istiqlal yüngüllüklə əldən verilməz. Dərədən-təpədən yığılmış, yalnız bir pula və paraya qulluq edən ruhsuz, məfkurəsiz bir taqım səfillərin əlinə silah verməklə onu ordu zənn edib də, istiqlal və azadlıqlarını can və başla mühafizə etmək və göz bəbəyi kimi saxlamaq əzmi ilə ruhən qəvi [güclü] və cismən mətin olan bir millət üzərinə yürütmək nə qədər məntiqsiz, nə dərəcə ağılsız bir təşəbbüsdür ki, bu kimi əməl ancaq denikinlilərdən baş verə bilər!

Azərbaycan türklərinin müqəddəratını əlinə almış olan hökumətimizin bu zəfəri Denikin fəqərəsində [hadisəsində] birinci – və ümid edirik ki, əbədi – bir zəfər isə, istiqlalımızı müdafiə yolunda ikinci böyük zəfərdir ki, bunlardan birincisi keçənki zabastovkanı [tətili] yatırtmaq və istiqlalımızı qırmızı təhlükədən qorumaq idi.

Bundan belə, Azərbaycan türk və islamları mütməinül-qəlb [arxayın] olub müqəddəratlarının, istiqlal və azadlıqlarının möhkəm və ümidli bir əldə olduğunu yəqin edərlər. Yəqin edib də, bu hökumətə əllərindən gələn qədər köməyi, əlbəttə, müzayiqə etməzlər [əsirgəməzlər]. Necə ki etməyirlər.

Şübhə etməməlidir ki, müdəbbir [tədbirli, ağıllı], səbat[lı] və əzmkar bir hökumət ilə ruhən diri və mənən qüvvətli olan bir millət maddən və cismən dəxi böyük və sarsılmaz bir qüvvətə malik olub da, heç bir vaxt ölməz və dünya durduqca yaşar.

*Hacıbəyli Üzeyir*

## DENİKİN ORDUSUNUN İLK HƏZİMƏTİ

Denikin ordusunun Dağıstana qarşı açdığı hərb və Azərbaycan istiqlaliyyəti əleyhində başladığı hücum ilk dəfə olaraq siyasi bir həzimətə [məğlubiyyətə] düçar oldu.

Denikinin bu həziməti Zaqafqaziya cümhuriyyətlərinin istiqlaliyyət uğrunda silah və topa sarılıb düşməni qovmaq, düşmənin haydudca [quldurcasına] çıxışlarına qarşı müqabilə etmək üçün müsaid [əlverişli] bir zəmin verdiyi kimi, Böyük Avropa əfkari-ümumiyyəsini [ictimaiyyətini] də Qafqaziya cümhuriyyətlərinin lehinə tövcih edə bilməsinə [yönəldə bilməsinə] də əmin bir vəsilə [vasitə] bəxş eyləmişdir.

Denikin ordusu – Avropa dövlətləri və bilxassə [xüsusilə] İngiltərə üçün məlum olmuşdu ki – bir macəracu həyula [macərapərəst bir kabus] olaraq Qafqaziyanın istiqbal və müqəddəratına qarşı hərəkət edir. Təyini-müqəddərat etmiş və intizam və mədəniyyətpərvəranə idarələrlə sabiq Rusiyadan daha ziyadə hər tərəfin məhəbbət və hörmətini cəlb eyləmiş kiçik cümhuriyyətləri əzmək, kiçik cümhuriyyətlərin hər dürlü hüququna vəhşicə bir xatimə çəkməkdən ibarətdir.

Bizim əfkari-ümumiyyəmiz [ictimaiyyətimiz] bundan əvvəl pək haqlı olaraq ingilis siyasətinə qarşı ədəmi-məmnuniyyət [narazılıq] göstərmiş və ikiüzlü bir siyasətə qarşı bəzi protestolu təzahürat göstərmişdir. Fəqət əfkari-ümumiyyə onu da bilirdi ki, Azərbaycan türklüyünün bu qədər fədakarlıq, bu dərəcə qəhrəmanlıq göstərərək əldə etdiyi və əldə etdikdən sonra da ən mədəni bir millətə yaxışacaq bir surətdə mühafizəsinə çalışdığı istiqlaliyyəti Avropa dövlətləri kimi mədəni və bilxassə İngiltərə kimi durəndiş [uzaqgörən] bir dövlətin büsbütün hesabsız buraxması mümkün deyildir.

Mümkün deyildir, çünki bu gün Avropa dövlətləri və İngiltərə qarşısında canlı bir surətdə duran bir Azərbaycan[ın] mövcudiyyəti ilə canı da, mövcudiyyəti də bir həyula və yırtıcılıqdan ibarət olan Denikin və bolşevik Rusiyası arasında dağlar qədər böyük bir fərq vardır.

Bu fərq ondadır ki, dünyanın vida etmək istədiyi silah gücünü Denikin təzədən ehya etmək [diriltmək] istəyir, əl çək-mək istədiyi təcavüzi bir hərbi [təcavüz- kar müharibəni] o Denikin təcdid eyləyirdi [bərpa edirdi].

Böyük Avropa dövlətləri və məsələn, iştə İngiltərə Qafqaziyada silahsız, gücsüz və ancaq siyasətlə apardığı bir işi kiçik Denikin qüvvətlə həll etmək sevdasına düşərsə, əlbəttə ki, hər tərəfdə düçar olacağı şey həzimət və məğlubiyyətdir. Bu nöqteyi-nəzərlə London hökumətinin Qafqaziya hüdudlarını təyin edərək Denikinə də bir addım irəliyə atmaması haqqında verdiyi qərar Denikin və "Yedinaya Rossiya"çılar üçün, həm də bizim üçün bir həqiqəti havi bulunmaqdadır [bir həqiqəti ehtiva edir].

Denikinçilər və "Yedinaya Rossiya"çılar bilsinlər ki, əski Rusiyanı ehya etmək fikiri bir nəzəriyyə olaraq qalır və heç bir vaxt da əməliyyata uymaz. Binaənileyh [ona görə], denikinçilər bihudə yerə həm özlərinin qanını tökməsinlər, həm də başqalarının hüzur və səadətlərini ixlal eyləməsinlər [pozmasınlar]. Çünki bunun nə axırı vardır, nə də müsbət və faydalı bir qayəsi.

Bizə gəlincə, bizim üçün bu vəziyyət zatən məmul [gözlənilən, arzu edilən] idi. Əgər siyasiyyatda biz böylə bir qələbəyə nail olmasaydıq belə, hüdudlarımızda bəkləyən əsgərlərimiz, istiqlal və hürriyyətimiz uğrunda hazır bulunan yüz minlərcə Azərbaycan türkü Denikin ordusundan qəti bir qələbə və zəfər qazanmayınca və istiqlaliyyətimiz haqqında ciddi bir təminat almayınca yolundan dönməyəcək, əzmindən vaz keçməyəcəkdi.

Son tətil əsnasında millətimizin ən kasıb və demokrat sinfinin göstərdiyi vətənpərvəranə təzahürat dəxi göstərir ki,

millətin əzmi, millətin qərarı qətidir:

– Ya istiqlal, ya ölüm!

İştə, o türk demokratiyasının haqlı olaraq çıxardığı səs bu gün Avropa dövlətinin ən böyüyü tərəfindən də müzahirət olunur [dəstəklənir]. O səsə, yaraşan bir cavabla müqabilə edilir. Digər tərəfdən, Dağıstan millətdaşlarımızın dəxi şimal kabusundan qurtulub da bizimlə bərabər yenidən ciddi bir surətdə hökuməti tənzim [nizamlamaq] və istiqlaliyyəti təhkim [möhkəmləndirmək] üçün əl-ələ verərək çalışmaqlığımıza sahə açılmış deməkdir. Hər nə olsa da, İngiltərə dövlətinin məlum qərarı gərək Dağıstan və gərək Azərbaycan haqqında mövcibi-məmnuniyyətdir [məmnuniyyət yaradır] deyə biləriz.

*Ə. Həmdi [Qaraağazadə]*

## ZAQAFQAZİYANIN SƏRHƏDİ

### Hökumətimizin siyasi müzəffəriyyəti

Cümə günü ayın 13-də səhər saat 11-də İngilis Komandanlığı tərəfindən Hökumət rəisi Nəsib bəy Yusifbəyli cənablarına yazılan rəsmi bir məktub cüzündə [məktubun bir hissəsi kimi] Zaqafqaziyadakı İngilis Komandanlığı nümayəndəsi general Korinin bir təbliği ilə bir xəritə təslim edilmişdir. Bu xəritədə İngiltərə hökuməti-kraliyyəsi tərəfindən Zaqafqaziya cümhuriyyətləri ilə Denikin ordusu arasında bir xətti-fasil [ayırıcı xətt] (sərhəd) təyin edilmişdir. Bu sərhəd Qara dəniz sahilində Bzıb nəhrinin mənsəbindən başlayıb, bu nəhrdən şimala Suxum sərhədi, oradan şərqə doğru uzanıb Suxum, Kutais, Tiflis və Dağıstan vilayətlərinin hüdudu, Petrovsk-Dağıstan dəmiryolunun 5 mil cənubunda vaqe [yerləşən] nöqtəyə çatır, oradan cənub-şərqə dönüb dəmiryola müvazi [paralel] bir xətlə 5 mil fasilədə [məsafədə] davam edib, Petrovskdan 5 mil aşağıda Kaspi dənizinə dayanır [dirənir].

İngiltərə hökumətinin qərarına görə, Denikin bu sərhəddən aşağıya qoşun göndərə bilməyəcək və Qafqaziya cümhuriyyətləri də bu sərhəddən yuxarıya keçməyəcəklərdir.

---

Bu surətlə bütün Dağıstan vilayəti Petrovsk həvalisindən [ətrafından] bir cüzü [bir hissəsi] müstəsna olmaq üzrə, Denikin ordusu tərəfindən tamamilə təxliyə edilməlidir.

---

Hökumət məhafilində [dairələrində] hökmfərma olan [hökm sürən] bir qənaətə görə, 3-4 günün ərzində Dağıstan ərazisi Denikin ordusundan tamamilə boşalacaq, onun yerini isə Azərbaycan əsgərləri tutacaqdır.

## İTALİYA HEYƏTİNİN TƏBRİKİ

Dün şəhərimizdə bulunan İtaliya heyəti-əsgəriyyəsi [hərbi heyəti] rəisi polkovnik Mişel tərəfindən Hökumət rəisi namına aşağıdakı təbrik məktubu alınmışdır:

Azərbaycan Cümhuriyyətinin hüdudunu təyin haqqında İngilis Komandanlığından aldığınız xoş xəbərdən dolayı Qafqaziyada bulunan İtaliya heyəti zabitləri namına zati-dövlətlərinə ərzi-təbrikat etməklə müftəxirəm [təbriklərimi bildirməklə iftixar edirəm].

Zati-dövlətlərinə məlumdur ki, İtaliya heyəti zabitləri Azərbaycan xalqının kəndi istiqlalını müdafiə üçün gördüyü ciddi tədbir və hazırlıqları nə qədər böyük bir maraqla təqib edir və bu məmləkət əhalisinin ruhlandığı hissiyyatı nə qədər dərk edir və anlayırlar.

Bilvəsilə [fürsətdən istifadə edərək], ehtiramati-faiqəmin [böyük hörmətlərimin] qəbulunu rica eylərəm, əfəndim.

*İtaliya heyəti rəisi: polkovnik Mişel*

## TELEQRAF XƏBƏRLƏRİ

### İngiltərə Rusiya barəsində

Ordunun saxlanması barəsində smeta təqdim edərək Çörçill demişdir:

Mümkündür ki, yayın axırlarında İngiltərə qoşunları Rusiyadan geri dəvət edilsin. İngiltərə siyasətinin əsası böylədir ki, Rusiya ruslar tərəfindən xilas edilməlidir. Rusiya demokratik bir məmləkət olmalıdır.

### İsveç sənaəti [sənayesi]

Stokholmdan verilən xəbərlərə görə, kağız fabrikaları külli miqdarda kağız hazırlamışlar ki, bunları aparmağa yer yoxdur. Mexaniçeski zavodlara sifariş gəlməyir. Parça toxuyan zavodlar qapanmaqdadır. Kimyəvi şeylər Amerika mallarından ucuzdur.

### 8 saatlıq iş

Stokholmdan xəbər verirlər ki, Aşağı Palatada uzun müzakiratdan sonra əmələlərin [fəhlələrin] 8 saatlıq işi barəsində qanun qəbul edilmişdir. Həman gün qanun layihəsi Yuxarı Palataya idxal edilmişdir. Fəqət orada müzakirə edilib 70 səslə 40 səsə qarşı olaraq rədd edilmişdir. Bu münasibətlə Baş vəzir bəyan eyləmişdir ki, növbədə Yuxarı palatanın buraxılması məsələsi qoyulmuşdur.

### Müttəfiqlər və Kolçak

Fransa Hökuməti Kolçakın cavabını son dərəcə məmnuniyyətbəxşədd [hesab] edir. Kolçak Müttəfiqlərin bolşeviklərə zidd olan rus hökumətini təsdiq etmələri təklifini qəbul etmişdir. Fransa Hökuməti iki qeyd eyləmişdir. Bunların biri Məclisi-Müəssisan, digəri özlərini müstəqil elan edən rus oblastları haqqında. Məlum deyil ki, bu cavab Vilsonu razı salacaq, ya yox. Ola bilər ki, Vilson Kolçakın şərtlərini əvvəlki siyasətə qayıtmaq arzusu hesab etsin.

### Kolçakın Müttəfiqlərə notası

Liondan xəbər verirlər ki, Kolçak Müttəfiqlərə təqdim etdiyi notada deyir ki, onun birinci məqsədi Məclisi-Müəssisan intixabatına şüru etməkdir [seçkilərinə başlamaqdır]. Müttəfiqlər Kolçaka təklif eyləmişdir ki, hərgah yeni intixabat mümkün olmasa, 1917-ci ildə intixab edilən üzvlər dəvət edilsin. Kolçak buna zidd olaraq demişdir ki, 1917-ci ildə Məclisi-Müəssisan qeyri-adi bir surətdə intixab edilmişdir. Polşa məsələsi Kolçakın bəyanatına görə, müşküllük törətməyir. Polşanın istiqlaliyyəti qəbul edilmiş, sərhəd təyini məsələsi hər iki tərəfin rizası ilə həll edilir. Kolçak bəyan edir ki, Oktyabr inqilabından əvvələdək Rusiya hökumətinin olan borclarını təsdiq edir.

**Kolçak nümayəndəsi Londonda**

Londondan teleqraf edirlər ki, "Tayms" qəzetəsinin məlumatına görə, Kolçakın nümayəndəsi buraya varid olmuşdur [gəlmişdir].

**Odessada fransız gəmiləri**

Yekaterinodar - Novorossiyskdən xəbər verilir ki, Odessa iskələsinə [limanına] bir neçə fransız gəmiləri gəlmişdir. Şura Hökuməti paroxodların komandasından nə səbəbə gəldiklərini soruşmuşdur. Paroxod komandanı bu təklifi rədd edib demişdir ki, bu barədə heç bir cavab verə bilməzlər, çünki məsələ Fransız Komandanlığına aiddir.

**Rusiya haqqında**

Petroqrad - "Tayms" qəzetəsinin xüsusi teleqrafında denilir (bu teleqrafın başı alınmamışdır):

Mümkündür ki, bolşeviklər bizə mükafat hazırlasınlar. Bu gün mən Şimali Rusiya general-qubernatoru [Yevgeni-Lüdviq Karloviç] Miller ilə görüşdüm. General dedi ki, Petroqrad və Moskvanı almaq üçün bizə müavinət ediniz və sonra biz bütün Rusiyanı bolşeviklərdən azad edəriz. Gəmiləri təmir edən ustaların təbliğatı bizə əngəl törədir. Bunlar Arxangelskdə bolşevizm olduqda məmur imişlər.

## SÜLH ƏTRAFINDA

**Almaniya əks-təklifinə cavab**

İngiltərə mətbuatı xəbər verir ki, hələliyə hərçənd saziş hüsula gəlməmişsə də, Dördlər Şurası bu günlərdə Almaniya əks-təklifinə cavab hazırlayıb qurtaracaqdır. Zərərlərin verilməsi şəraitinin nə tövr dəyişiləcəyini xəbər verirlər. Məbləğ hələ müəyyən edilməyəcəkdir. Bu məsələyə baxan Beynəlmüttəfiq Komisyon [Müttəfiqlərarası Komissiya] öz işini üç-dörd ay müddətində qurtaracaqdır. Bu barədə məzkur [deyilən] komisyona müəyyən ixtiyarlar verilmişdir. Bu qərar üzrə Almaniyanın zərərlər əvəzində verəcəyi məbləğ noyabr ayına qədər məlum olacaqdır. Bu yaxınlarda Vilson həman komisyona Amerika nümayəndəsini təyin edəcəkdir. Almaniya 4 maddənin güzəşt edilməsini tələb edir. Sülh müahidənaməsində [sazişində] bundan sonra imza edəcəyini şərt qoyur.

Həman maddələr bunlardır:

1) Yuxarı Sileziyada olan kömür mədənlərinin bir hissəsi Almaniya nəfinə [xeyrinə] olaraq təmin edilsin;

2) Zərərlərin verilməsini təyin edən komisyon heyətinə Almaniya nümayəndəsi qəbul edilsin;

3) Almaniya hökuməti Cəmiyyəti-Əqvamda [Millətlər Cəmiyyətində] iştirak edən millətlər cümləsinə daxil edilsin;

4) Almaniya müstəmləkələrindən birinə mandat verilsin.

- Axırıncı alınan xəbərlərə baxmayaraq, almanların cavabı hələ hazırlanmamışdır. Amerika nümayəndələrinin rəyinə görə, gələn həftə Müttəfiqlərin Almaniyaya cavabı verildikdə axırıncı söz deyiləcəkdir.

Amerika nümayəndələrindən birinin dediyinə görə, Almaniyaya sülh müahidənaməsini [sazişini] imza etmək üçün az bir vaxt veriləcəkdir. Fransa nümayəndələri böylə təsəvvür edirlər ki, hərgah 4 maddə üçün güzəşt olmasa, almanlar sülh müahidənaməsini imzadan imtina edəcəklərdir. Yəqin edildiyinə görə, bu maddələr haqqında güzəşt olmayacaqdır. Cəmiyyəti-Əqvam komitəsi Almaniyanın Cəmiyyəti-Əqvama daxil ediləcəyi müddətin azalmasını müzakirə etməkdən ötrü şənbə günü cəm olacaqdır.

Almaniyanın qərbi sərhədlərini təyinedici komisyonun bu günlər iclası olacaqdır. Təsəvvür edildiyinə görə, müahidənamə ilə Yuxarı Sileziyanın Polşaya məxsus edilmiş hissəsi rəyi-amm [referendum] ilə Almaniyaya qaytarılacaqdır. Ancaq bu şərtlə ki, seçkilərə almanlar tərəfindən təzyiq edilməsin.

**Ordu tərxisi**

Sülh müahidənaməsi imza edilən kimi Reyndə olan işğal əsgərlərinin miqdarı azalacaqdır.

**Lloyd Corc Almaniya haqqında**

Londondan xəbər verirlər ki, Lloyd Corc Amyendə olan Uels firqəsi [diviziyası] əsgərlərinə müraciət edib demişdir ki:

Almanların izhar etdiklərinə [bildirdiklərinə] görə, sülh müahidənaməsini [sazişini] imza etməyəcəklərdir. Biz isə cavab verdik ki, siz gərək sülh müahidənaməsini imza edəsiniz. Hərgah siz onu Versalda imza etməsəniz də, Berlində imza edərsiniz. Biz güzəştdə bulunmaq xəyalında deyilik. Dünyanın gələcəyi o sülhdən asılıdır ki, biz onu imza etməyə məcbur etməliyiz. Hərgah sizin Berlin üzərinə getməyiniz lazım olsa, hərgah sizin məzuniyyətiniz təbdil edilib [dəyişdirilib] Londona getməyiniz təxirə salınsa, biliniz ki, bir tək mən məsulam. Ona görə siz təqib ediniz ki, yazılmasına kömək etdiyiniz sənədə möhür qoyulsun.

**Almanlar sülh haqqında**

Almaniya nümayəndəsi Rantsau Versaldan çıxıb Berlinə əzimət edərkən [gedərkən], Almaniya heyəti üzvlərini dəvət edib demişdir ki:

*"Onlara deyiniz, hərgah sülh şəraiti [şərtləri] təbdil edilməsə [dəyişdirilməsə], mən Berlində onları imza etməkdən imtina edəcəyəm. Başqaları sülh müahidənaməsini [sazişini] imza etsələr də, mən heç vaxt imza etmərəm."*

**İngiltərə Sülh Şurası sədrinin protestosu**

İngiltərə Sülh Şurasının sədri Çarlz Tredelyan "Mançester" qəzetəsində sülh şəraitinə qarşı etiraz eyləmişdir:

*"Bu sülh müahidənaməsi [sazişi] müharibənin müvəqqəti surətdə dayandırılmasından başqa bir şey deyildir. Beynəlmiləl bir sülh aparatı kimi onu tələqqi etmək [qiymətləndirmək] olmaz. Beynəlmiləl demokratiya öylə bir sülhə ümidvar idi ki, o, Vilsonun 14 maddəsində müəyyən və aşkar göstərilirdi. İndiki sülh müahidənaməsinin böyük tənqidə ehtiyacı vardır."*

Protestoda denilir ki:

*"Cümhuri Almaniyaya [Almaniya Respublikasına] verilmək istənilən indiki sülh müahidənaməsini vücuda gətirmək olmaz. Saar hövzəsi barəsində olan qətna-*

*mə öylə bir xətadır ki, onun mislini 1871-ci ildə Prussiya eyləmişdi. Şərqi Prussiyanı ayırmaq, Dansiq barəsində olan siyasət almanların hissiyyati-milliyyələrini təhqir edir. Mandat maskası altında müxtəlif surətdə ilhaqlar* [birləşdirmələr] *vardır. İlhaq edilən, yaxud mandat altına al[ın]maq istənilən yerlərin istiqlaliyyəti var demək olmaz."*

Etiraz bu sözlərlə qurtarır:

*"Heç kim inanmaz ki, bu sülh müahidənaməsi əbədilik olacaqdır. Ona görə də bu müahidənamə hər bir demokrat və beynəlmiləliyyətçi tərəfindən rədd edilməlidir. Ola bilər ki, aclıq düşməni sülhnaməni imza etməyə vadar etsin. Fəqət beynəlmiləlçilər beynəlmiləl demokratiyaya istinad edərək bu müahidənamənin təbdil* [dəyişdirilməsinə] *və müzakirə edilməsinə çalışmalıdırlar."*

## ŞİMALİ QAFQAZİYADA

Silahlarını tərk etmək istəməyən kommunistlər (bolşeviklər) Verxni Urob hövzəsi tərəfinə sıxışdırılmışlardır. Bunların müxtəsər bir hissəsi Xristianski mövqif[in]dən [stansiyasından] çıxıb meşələrdə gizlənmişlərdir. İnquşistandan bolşevizm hərəkatı Kabardaya sirayət etmişdir [yayılmışdır]. Oraya kabardin bolşevikləri keçib üsyan qalxızmışlardır. Ona görə də rotmister Serebryakov cəza dəstələri təşkil etməyə başlamışdır. Çijok dairəsində Kovalenkonun təhti-idarəsində [idarəsi altında] bir dəstə qarətə başlamışdır. Bu dəstəni məhv etməyə dəstələr göndərilmişdir.

**Qroznıda yanğın**

Qroznı neft mədənlərində vaqe olan axırıncı yanğınlardan 55-56 nömrəli vışkalar [buruqlar] yanmışdır. Xəsarət 10 milyon manatadəkdir.

**Denikin ordusu haqqında**

Dağıstandan gəlmiş və etibara məzhər olan bir zatın [etibarlı bir şəxsin] rəvayətinə görə, Denikin ordusu qayət nizamsız bir haldadır. Petrovskdan Azərbaycan sərhədinədək onların miqdarı 600 nəfərdən ziyadə deyildir. Dabravolların [könüllülərin] miqdarının artmasına şimalda olan bolşeviklər mane olurlar.

Azərbaycan əleyhinə hərbi hərəkatda bulunmaq onlar üçün əbədən mümkün deyildir. Çünki, əvvəla, onlar azdırlar, intizamsızdırlar; saniyən [ikincisi], cənub tərəfindən onlara bolşevik xətrəsi [təhlükəsi] vardır.

Buna görə də dabravolların dostları tərəfindən buraxılan həyəcanlı xəbərləri mübaliğəli sanmalıdır.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

– Rəisi-vükəlanın [Baş nazirin] Maarif naziri müavini təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Şahsüvarovu Maarif naziri və Ədyan [Dini Etiqad] naziri müavinliyinə təyinlə nazirlik vəzifəsinin ifasını ona mühəvvəl etməli [tapşırmalı].

– Maliyyə nazirinin spirt və istehsalatı [spirt və spirt məhsulları] aksizini artırmaq





haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə [bəyənilməklə], təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

– Maliyyə nazirinin aksizsiz təcili və rəhn qəbulu haqqındakı nizamnamənin dəyişməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

– Maliyyə nazirinin Bakının mədən dəvairindəki [dairələrindəki] fəhlələrin müskirata [spirtli içkilərə] alışması önünü almaq üçün tədabiri [tədbirləri] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

– Rəisi-vükəlanın Məclisi-Məbusanın qətnaməsi üzrə dövləti mühafizə [dövlət mühafizəsi] təşkili haqqındakı məruzəsindən sonra qət edilmişdir:

1) Dövləti mühafizədən ötrü təşkil ediləcək heyət "Dövləti Mühafizə Komitəsi" namı [adı] ilə təsmiyə edilsin [adlandırılsın].

2) Dövləti Mühafizə Komitəsi 5 nəfərdən mürəkkəb olur: Rəisi-vükəla, Hərbiyyə naziri, Türuq və Məabir [Nəqliyyat və Rabitə] naziri, Xariciyyə naziri və Ədliyyə naziri.

Qeyd:

a) İclasın qanuni olması üçün həman 5 zəvatdan [şəxsdən] 3-ü isbati-vücud [iştirak] etməlidirlər (kvorum).

b) Sədr özü isbati-vücud etmədikdə, o, öz vəzifəsini xahişi üzrə [öz istəyinə görə] bir nəfər üzvə həvalə edir.

## "DƏRBƏND – DƏMİR QAPI"

Dağıstanda vaqe olan son hadisələr nəticəsində çar həsrətkeşlərinin qara qüvvəsi Dərbəndə kimi gəldi. Bu münasibətlə Azərbaycan xalqının, Azərbaycan türklərinin Parlamanından tutub Hökumətinə və firqələrinə qədər nə kimi həyəcan içinə düşdükləri hamıya bəllidir.

Hökumətimiz tərəfindən görülən tədbirlərə cavabən Denikin nümayəndələri əvvəlcə inandırmışlardı ki, könüllülər Dərbənddən cənuba keçməyəcəklər. Sonralar isə Qızılburun - Zaqatalanı son bir xətt nişan vermək istəmişlərdi. Bununla da Denikin ordusu paytaxtımızın can damarı Şollar suyunu əlinə almaq və şimalda Dərbənddən bu yana heç bir möhkəm qalaya malik olmayan Cümhuriyyətimizi təhdid altında saxlamaq istədiyi gizli deyildir. Odur ki, Denikin ordusunun nümayəndələrinə "Könüllü ordusu Dağıstandan çıxmasa, Azərbaycan özünü rahat hiss etməyəcəkdir" deyə Rəisi-vükəla həzrətləri tərəfindən cavab verilmişdi.

Doğrudan da, bu böylədir. Qafqaziyanın əhvali-coğrafiyyəsinə az-çox bələd olanlar bunu təsdiq edərlər ki, Dağıstan, xüsusən Dərbənd, Azərbaycanın son istehkamıdır. Dərbənddə oturanlar istədikləri vaxt Azərbaycanı təhdid altına ala bilərlər. Və Qafqaziya tarixi ilə aşina olanlar da bilirlər ki, Dərbəndin durduğu yer Cənubi Qafqaziya və Yaxın Asiya ilə Şimali Qafqaziya və Şərqi Avropanı birləşdirən dar bir düzəngahın üstündədir. Həzrəti İsanın təvəllüdündən neçə əsr irəlidən bu vaxta kimi bu yer millətlərin güzərgahı olubdur.

Hindistana sığmayan millətlər indiki İran və Azərbaycan təriqi [yolu] ilə gəlmiş və Dərbənd yolu ilə Kaspi kənarı ilə Avropaya keçmişdir. Həmçinin Xita-Altay [Çin-Altay] tərəflərindən çıxıb Ural təriqi ilə Şərqi Avropaya dolan millətlərin də cənuba doğru dönən qismi bu yol ilə Azərbaycana və Anadoluya dola bilmişdir. Sonra yenə İsadan qabaq məşhur İskəndəri-Rumi İranı fəth etdikdən sonra vilayətini, şimalı tutmuş vəhşilərdən mühafizə üçün, rəvayətə görə, Dərbəndi bina etmişdir.

İsanın təvəllüdündən 5-6 əsr sonra Şərqi Avropanı bürüyən türk tayfaları buradan cənuba, İrana, Ruma və başqalarına hücum edərdilər. Türk tayfalarından ən məşhuru və həm də əsrinin ən mədəni bir xaqanlığını qura bilən xəzərlər Cənubi Rusiyanı istila etmiş, Şimali Qafqaziyanı Dərbəndə kimi tutmuşlardı. O vaxt iranilər Dərbəndi, xəzərlər də indiki Şamilqala, sabiqdə Petrovsk adlanan o vaxtın Səməndərini təhkim edirdilər [möhkəmləndirirdilər]. Böylə ki, xəzərlər Azərbaycan və Cənubi Qafqaziyaya hakim olmaq üçün mütləqa əvvəl Dərbəndi tutur, bərkidir, sonra cənuba keçməyə başlayırdı. Eyni surətdə də İran hökuməti Azərbaycanı və İranı mühafizə üçün Dərbəndi zəbt və əldə saxlamağa çalışırlardı. Hətta bu şəhəri əldə saxlamağa hər iki tərəf olmazın hiylələrə müraciət edirmişlər.

7-ci əsrlərdə Dərbəndi almış, Azərbaycanı sərasər, Gürcüstan, Ermənistan və İranı İraqa kimi bürümüş Xəzər türklərini bu yerlərdən çıxarmağa ərəb orduları gəlməyə başladılar. Ərəbistandan gələn əmrlər hamısı “Azərbaycanı təmin üçün Dərbəndi əldə saxlamağa səy ediniz” deyirdi.

Dərbəndin, ya Dəmir qapının tutduğu sövqülceyş [strateji] mövqe sayəsində idi ki, xəzərlər bir çox müddət aləmi kəndilərinə tabe etmiş ərəb ordusu ilə çarpışa bildilər və sonralar ərəblər Dərbəndi aldılarsa da, daha yuxarı gedə bilmədilər. Dərbəndin mövqeyi hərb və sövqülceyş nöqteyi-nəzərincə o qədər əhəmiyyətli idi ki, ərəb əmirləri, o cümlədən xəlifə Harun ər-Rəşid belə buranı ziyarət etmişdi. Rəvayətlərə görə, Harun ər-Rəşidin bir oğlu ələn [indi] Dərbənddə dəfn olunmuşdur.

Dərbənd – Zaqafqaziyanın və Azərbaycanın açarıdır. Doğrudan da, tarixdə səhv olmayaraq Dərbəndin tutduğu yerə Kaspi qapısı, Dəmir qapı, Babül-əbvab [Qapılar qapısı] deyə söyləyirlər. Guya burada, bu dar yolda hakim olanlar bir dəmir qapı qayırmış və bununla əbədi olaraq Cənubi Qafqaziyanı mühafizə və müdafiəyə müvəffəq olmuşdur. Əgər bu, tarixdə olmamışdırsa da, Dərbənd, Dəmir qapı, Kaspi qapıları kimi adlar ancaq coğrafiya nöqteyi-nəzərincə söylənirmişsə, inanalım ki, dəmir qapı olmasa da, dəmir hasar vasitəsilə bu yerdən Azərbaycanı təmin etmək mümkünatdandır. Təbiidir, indi dəniz, hava müxabiratının [rabitəsinin] tərəqqi etdiyi bir zamanda quru yolunun, dəmir qapıların o qədər də əhəmiyyəti yoxdur. Lakin bununla bərabər, Dərbəndi möhkəm saxlamış bir hökumət özündən dəfələrlə artıq qüvvəyə müqabilə edə bilər.

Bu gün İranın şimalı, Gürcüstan, Ermənistanı və Yaxın Asiyanı qurudan şimal ilə, Avropanın şərqi ilə mərbut edən [bağlayan] yol Dərbənd keçidindən, Dəmir qapıdan keçir, gedir. Bu qədər sövqülceyş əhəmiyyətdən əlavə bunu da deməliyiz ki, Dərbənd və nahiyəsi Azərbaycan türkləri ilə məskundur. Dilləri, adətləri, mətbuatları, ədəbiyyatları eyni Azərbaycan türkcəsi ilədir. Bütün bunlar Dərbəndin Azərbaycan üçün nə qədər əhəmiyyətli olduğunu isbat edir. Əgər biz də İskəndəri-Rumi kimi, Qubad, Nuşirəvan, Xəzər qaanları və ərəb xəlifələri kimi Dərbəndin strateji (sövqülceyş) əhəmiyyətini anlamasaq, Azərbaycanımızı şimaldan daimi bir təhlükə altında bulundurmuş olarıq və məmləkətimizi həmişəlik bir zərbəyə və hücuma məruz qoyarıq deməkdir.

Vətənimizin dəmiq qapısı olan Dərbənddə ancaq Dağıstan kimi dost və həmdin bir hökumətin olması bizi sakit və rahat buraxa bilər. Denikin kimi qara fikirli, müstəbid bir generalın orada bulunması bizi həmişə qorxu və həyəcan altında saxlamalıdır.

*Məhəmmədzadə Mirzəbala*

**DAMARLARIMIZDA QAN VARDIR!**

Uzun illərdən bəri məzlum türk irqinin qan və kəmikləri [sümükləri] üzərində səltənət quran çarizm bütün həşəmət və daratı [ehtişam və dəbdəbəsi] ilə, bütün amal və istiqbalı ilə yıxıldı. İrqimin yeni bir tarixi doğdu. Fəqət, ey sevgili millətim, çarizmin ənqazı [tör-töküntüləri] əski binayi-səltənəti [səltənət binasını] yenidən qurmaq, sənin məsum boynuna yenidən qara həlqələr keçirmək istəyir.

Yaşadığımız zamanlar sənin tarixinin ən yanıq səhifələridir. Lakin unutma ki, sən bilxassə qəhr çəkmək, fəlakət görmək və əziyyət dadmaq üçün dünyaya gəlmiş bir nəsildənsən. Və əsla məyus olmazsan. Əsasən, bu qəhrlərə təhəmmülün [dözümün], şübhəsiz, sərbəst və vəqur [vüqarlı] yaşamaq istədiyin üçündür.

* * *

İstiqlalımız bahar günəşinin ilk şüaları altında açılan və şimdi soyuq, dondurucu ruzigarlara məruz qalan tumurcuqlara bənzəyir. Biz də düşmənə ilk əvvəl hücum edəcək, ilk qurşunlara köks gərəcək nəfərləriz. Vəzifəmiz bayrağımızı əlimizə alaraq irəliləmək, çünki zəfər rayı [bayrağı] irəlidədir!

Biz fəxr və şərəflə ölərsək, millət üçün can vermiş olmaq təsəllisi, ruhlarımızı müəbbədən təziz edəcək [əbədi olaraq şərəfləndirəcək]. Bizdən sonra gələcək nəsillər məzarlarımız qarşısında hörmətlə əyiləcəklər və bizi təqdis edəcəklərdir [müqəddəsləşdirəcəklər].

Rus-japon [yapon] müharibəsi[ndə] Port-Artur qalasına hücum edən japonların yalnız bir eşqi vardı – ölmək! Və vətən yolunda ət və kəmikdən ibarət vücudlarını dəmirdən, çəlikdən toplara ərz etdilər, müqəddəs ölümə atıldılar. Nəhayət, şan və şərəf behiştinin qapıları ilə bərabər, Port-Arturun zəbti imkansız bürcləri də onların önündə açıldı.

Hələ bizim varlığımız önündə müstəhzi [istehzalı] bir təbəssümlə sırıtan [irişən], hələ bizi kölə etmək istəyənlərə ildırımlar yağdıraraq hayqıralım ki, biz dün doğduq, istiqlalın atəşin şərbətini gülrəng qədəhlərdən daha dün içən ağzımız bu gün torpaqla dolammaz!

Əvət, dün doğmuşduq, bu gün məzarımızı qazırlar. Həfr edən [qazan] əlləri qıracağız. Günəş altında kəndimizə layiq mövqeyi təmin üçün hər şeyi yapacağız. Bunun üçün damarlarımızda daşmaq ehtiyacı ilə quduran qüvvətli qan var.

Bir milləti ən əqur təərrüzlərdən [azğın hücumlardan], ən amansız təxriblərdən saxlayan nə "Krupp" topları, nə təyyarələr və nə zirehlilərdir. Ancaq quduran qan, quduran qandır.

Öldürülən qardaşlarımızın yekuni-müdhişi, qırılan nüfuz və şərəfimiz, paymal edilən [tapdalanan] heysiyyətimiz artıq əl verir!

Şimdi istiqlalımız üçün qəlbimizdə alovlanmış bir eşq və düşmənlərimizə əbədi bir kin və xüsumətlə [ədavətlə] bütün maddiyyət və mənəviyyətimiz bəsirətkar və müdəbbir [uzaqgörən və tədbirli] bir hökumətin işarəti ilə bir dinamit kimi patlamalıdır!..

*Həsən M. oğlu*

## EKSPRESS TEATROSU

Bu gün proqramdan əlavə olaraq, Bakıda 28 Mayda olan Azərbaycan istiqlalının səneyi-dövriyyəsi [ildönümü] münasibətilə edilən şənliklərdə alınan şəkillər göstərilir.

## CAVANLARIMIZA

Minlər salam olsun sizə ey millətin gənc ərləri!
Ey bu vətən gülzarının qönçə, müəttər gülləri.
Əhsən sizə! Səd mərhəba! Türkün qoçaq əsgərləri.
Etsin mübarək sizlərə Tanrım bu zəngin yerləri,
Ormanları, dəryaları, məxzənləri, mədənləri.

Ən bir müqəddəs kəlmədir: saygı, sıra, qanun, yasa.
Türkün elində işlənir bu kəlmələr başdan-başa.
Türk elləri bilməz nədir zəngin, xoca, bəy, xan, paşa,
Əsgər doğulmuş cümləsi, bir böylə millət min yaşa!
Türk oğlu sevməz qorxağı, yurda qaçan ərzəlləri!

"Əl-hərbu xud'ə" söyləmiş, oğlum, nəbiyyi-mötəmən,
Bu elmi təhsil et, çalış ol hərbin adabın bilən.
Səndən mədədlər bəkləyir bu ölkə, bu öksüz vətən.
İndi özün bir fikr elə – şıq əlbisə, yaxud kəfən?
Ölməkmi, qalmaqmı, rəva, məhv olsa türkün yerləri?!

Vəqti-zərurətdə gedər əsgər təmiz vicdan ilə,
Əldə silahı hərb edər sarsılmayan iman ilə,
İcab edərsə, can verər, millət yolunda şan ilə,
İştə, igidlik böylədir, qanun ilə, Quran ilə.
Quranda çoxdur Tanrının bu barədə ayətləri.

Sizlərsiniz düşmənlərə bir qəl'ə, bürci-ahənin,
Sizlərsiniz islam üçün haris, kömək, səddi-mətin.
Qoğmaq, vuruşmaq irsdir bizlərdə, ey əsgər, yəqin,
Türk əsgəri dava günü qaçmaz, qaçırdar düşmənin.
Çıxmaz, çıxardar ölkədən qasibləri, xainləri!

Sancağınızda qeyd olub mərdanəlik, fəthü-zəfər!
Parlaqdır istiqbalımız, söylər o kəskin süngülər.
Toplar zəbani-hal ilə söylər: Cavanlar, baxəbər!
Millət gərək əsgər ola, əsgər hamı, söz müxtəsər!
Yoxsa zəmanə məhv edər acizləri, tənbəlləri.

*Hacı Səlim Səyyah*

## AXIRIN FİKİR ETMƏYƏN AQİL DEYİL, DİVANƏDİR!

Rusların Qafqazdakı yüzillik hökmranlığı iki cəhətdən biz müsəlmanları qonşularımızdan geri saxladı: əvvəla, rus işkollarına rəğbətsizlik və ikincisi də, əsgərlik vəzifəsini qəbul etməmək. Burada bəziləri istibdadı və bəziləri də müsəlman ruhanilərini müttəhim edirlərsə də, məncə, məsələlərdə hər iki tərəf günahkardır. Ancaq bais kim olursa olsun, yüzillik hərəkatı ilə Azərbaycan türklərinə böyük uçurumlar hazırlamışdır: hökumət müəssisələrinə yarar yüz minlərcə türk oxumuş və ziyalıları olmadığı halda, bir çox mühüm məmurluqları əcnəbi oxumuşlarına həvalə ediriz, hərçənd bunların da sədaqətinə tamamən etibar etmək olmaz. Bainhəmə [bununla belə], yenə bu gün əcnəbilərə möhtacız, çünki oxumuşlarımız azdır.

Həmçinin, 30 ildən artıq gözlərimizin önündə qonşularımız əsgərlik vəzifələrini öyrəndilər. Saldatlardan generallarına qədər hər mənsəbə hazır oldular. Biz bunlara tamaşaçı və yabançı kəsildik. Sevindik ki, bizdən əsgər naloqu alıb uşaqlarımızı saldat aparmayırlar! Bunun da nəticəsi hamıya məlum olmuşdur. Qonşularımızın təcavüzlərinə qarşı nizami əsgərlərimiz olmadığı cəhətə Mart hadisatı kimi bəzi vaxt mütəəssif [təəssüflü] hallar, macəralar başımıza gəlir. Bərəkət versin ki, böylə ağır böhranların qarşısında millətimiz çaşmayıb, bir çox şühəda [şəhidlər] və tələfatın bahasına, qəsb olunmuş hüququnu geri qaytarır.

Köhnə hökumətdən əsgərlik bizə irs qalmış olsaydı, yəqin ki, bir bu qədər müsəlman kəndləri talan və qarətə giriftar olmazdı. Hələ sairlərin gələcəkdə yapa biləcək təcavüzlərinə qarşı yenə mühəyya [hazır] orduya ehtiyacımız vardır ki, avam təbiri ilə "iki daşın arasında" hazır etməliyiz. Ordumuz sairlərin haqqını qəsb etmək üçün deyil, fəqət məhz millətimizi və vətənimizi müdafiə etmək üçün lazımdır. Müdafiəçilik haqqı şər'ən [qanunən; şəriətə görə] və təbiətən hamı

üçün borcdur. Yer üzündə öylə heyvan yaradılmamışdır ki, onun müdafiə hissi olmasın.

Difa [müdafiə] məsələsinə gəldikdə, bu şər'ən hamı üçün vacibdir. İstər qoca olsun, istər cavan. Xəvasından avamına qədər [seçilmişlərdən, yüksək təbəqədən qara camaata qədər], qadınlı-erkəkli hamı dinini, millətini və vətənini müdafiə etməyə Allah hüzurunda və vicdan qarşısında haqlıdır. İştə, bunun nəticəsidir ki, bir ovuc ləzgilərin difası ilə Şeyx Şamil həzrətləri Dağıstanı əlli illərcə dünyanın ən qəvi [qüvvətli] millətlərin[in] təcavüzündən saxlaya bildi. Miqdarda azərbaycanlılardan neçə dəfə az ləzgilərin əlli illik difası bizlərə gərək ibrət dərsi olsun. İki milyon camaat difaya qurşanarsa, bunun öhdəsindən heç bir düşmən gələ bilməz. Səlibi-əhmər vəqələrində [Səlib yürüşlərində] də bunu sübut edəcək dəlillər az deyil. Xülasə, hanki bir millətdə difa məsələsi varsa, o millət qiyamətə qədər tələf olmaz.

Dini-islamın az bir vaxtda yer üzünə intişarı [yayılması] əsgərlik əsası ilə bərpa edilmişdir. Xəlifə və səhabələrdən başlayaraq adi ərəblərə qədər hamısı din və millət yolunda qılınc vururdular. Səhabə və kübarın [əsilzadələrin] uşaqları at minmək, ox atmaq, o vaxtın əsgəri təlimləri ilə məşğul olurdular. Ərəblərin cihada o qədər şövq və həvəsləri vardı ki, qılınc və sair yaraqlarını həmişə yanlarında saxlardılar. Xəlifənin cihad əmrini eşitdikləri mövqedən mənzillərinə dönməyərək, birbaş cihad meydanına tərəf yüyürürdülər. Xəlifə xütbəsini minbərdən söyləyərək qılıncını özünə dayaq verirdi. Tariximizi bir dəfə diqqətlə vərəqləyin də, böylə ibrətnüma vəqələri [ibrətamiz hadisələri] on minlərcə nəzərinizə alınız.

Bugünkü Azərbaycanın əsgərlik ehtiyacı hər bir ehtiyacdan əlzəmdir. Sərhədlərimizdə yaşayan qonşularımızın müntəzəm və təlimli qoşunları olduqları halda, biz türklərdəki xudadadi [Allah vergisi] şücaət və qeyrətə ümidvar qala bilmərik. Millətin fitri şücaəti nə payədə olur-olsun, əsgəri [hərbi] təlimi olmasa, nöqsan gətirər.

Hərgah millətimizi və millətimizin hakimiyyətini saxlamaq istərsək, kamali-şövq və zövqlə əsgərliyi qəbul etməliyiz. Buna ikinci bir çarə yoxdur. Bir bu qədər başımıza gəlmiş bəlalar məgər əsgərsizliyimizin bəlası deyildimi?

Mart hadisatı, Şirvan talanı, Qarabağ və İrəvan mahallarındakı dağılmış kəndlərin bu hala düşməsinə bais təcavüzkarlara müqabil dura biləcək nizami əsgərlərimizin yoxluğudur. Bundan sonra da müntəzəm ordumuz olmazsa, yəqin ki, sair yerlərimizi də və bəlkə, tamam müqəddəratımızı qaib etmiş olarız.

Əsgərlikdən bu gün fərar edənlər yarın düşmənlərin qapısında nökərlik kimi alçaq və dəni [rəzil, təhqiramiz] vəzifələri də görməyəcəklər. Bu gün Azərbaycanın hakimiyyətinə istinadən övladımız ağalıq edirlər. Bugünkü ağalığı sabahkı nökərçiliyə təşxis verməyən [dəyişmək istəməyən] cavanlarımız öz riza və həvəsi ilə əsgərliyi qəbul etməlidirlər. Namusu və çarəsi olan zəvat [şəxslər] əsgərlikdən qaçmazlar. Çünki başı açıq qalmış ana və bacıların namusunu ancaq nizami əsgərlərimiz mühafizə edə bilərlər.

Bu gün oğlanlarını əsgərlikdən gizlədən atalar sabah arvad və uşaqlarının ismətini qaib edəcəklər. İndi diqqət olunsun ki, oğlunun iki illik əsgərliyini əhlüəyalının [ailəsinin, arvad-uşağının] namusuna satan atalar nə böyük rəzalət qarşısında bulunurlar.

Hər əsgərliyə gedən həlak olmaz. Təsadüfən həlak olarsa, şühəda zümrəsinə daxil olub, vətəninin və millətinin namusunu öz pak qanı ilə mühafizə etmiş olar. Əlbəttə, fərar edənləri vaxtilə tutub itaətə gətirəcəklər. Ancaq bunlar bir qədər mülahizə etsinlər [fikirləşsinlər] ki, sabahkı şəmatətə [məzəmmətə] hədəf olmasınlar:

*"Axırın fikir etməyən aqil deyil, divanədir."*

*Fərhad Ağazadə*

## PROTESTO NÜMAYİŞLƏRİ

Srağagün həziranın [iyunun] 13-də şəhərdə təntənəli surətdə protesto nümayişləri icra edilib, bir çox yerlərdə mitinqlər vaqe oldu. Mədən dairələrində ümum müsəlman əmələləri birgünlük tətil elan edərək, böyük dəstələrlə nizam və asayiş üzrə şəhərə gəlmişlərdi. Bir çox qeyri-müsəlman əmələləri dəxi protesto nümayişlərində iştirak edirlərdi.

Saat 12 radələrində ümumi mədən dairəsindən əmələlər dəstələrlə Hürriyyət meydanına cəm olub, burada böyük bir mitinq vaqe olmuşdur. Hürriyyət meydanında Azərbaycan milli bayraqları ilə al bayraqlar təməvvüc edirlərdi [dalğalanırdı].

Mitinqi ittifaqla rəyasətə seçilən Məhəmməd Əmin Rəsulzadə cənabları açaraq, böyük bir nitq ilə Şimali Qafqaziya və Dağıstanı işğal edib indi üzərimizə qəsd edən Denikin qara qüvvəsi haqqında və bu münasibətlə bu gün tərtib edilmiş olan protesto nümayişlərinin nədən ibarət olduğu barəsində müfəssəl surətdə məlumat vermişdir. Əhməd bəy Pepinov, Dağıstan nümayəndəsi Amisayev, Cavad Məlik-Yeqanov, Rzaqulu, Yunis, bir çox qeyri natiqlər dəxi nitq söyləyib, axırda Denikin qüvvəsi ilə və Azərbaycan içərisində onun tərəfdarları ilə ciddi surətdə mübarizə edilməsini hökumətdən tələb etmək məzmununda bir qətnamə çıxarılmışdır.

Mitinqdən sonra nümayişçilər həman nizam və asayiş üzrə aram və ahəstə qədəmlərlə Birjevoy, Baryatinski, Olqinski və Naberejnı küçələrlə Hökumət dairəsi qarşısına gəlmişlərdir.

Bir qədərdən sonra Hökumət binası qarşısı on minlərlə camaat ilə dolub, bayraqlar təməvvüc edirlərdi.

Hökumət əzaları [üzvləri], Parlaman məbusları və bir çox ali sahibi-mənsəb şəxslər binanın balkonlarına cəm olub böyük demokratiyanın əzim [əzəmətli] bir kütləsini seyr edirlərdi. Nəhayət, Hökumət rəisi Nəsib bəy Yusifbəyli həzrətləri balkona çıxdıqda camaat gurultulu alqışlar və "yaşasın" sədaları ilə onu qarşıladılar.

Məhəmməd Əmin Rəsulzadə cənabları Hürriyyət meydanında qəbul olunan qətnaməni oxuyub və hökumətin ağır günlərdə nə kimi fəaliyyətdə bulunduğunu camaat namından bilmək istəmiş və camaat "tələb ediriz" deyə təsdiq eyləmişdir. Hökumət rəisi Yusifbəyli həzrətləri böyük bir nitqlə camaatın böylə mərdanəlik göstərib kəndi istiqlaliyyətini var

qüvvəsi ilə müdafiə edəcəyinə nəhayətdə məmnun olduğunu bəyanla onu təbrik etmiş və camaatın, ələlxüsus əmələlərin bu dərəcə huşyar [ayıq-sayıq] olduğuna ta əvvəldən şübhə etmədiyini söyləmişdir. Yusifbəyli həzrətlərinin hər bir kəlməsini camaat diqqətlə dinləyib və "ura", "yaşasın" sədaları ilə alqışlamışlardır.

Sonra rəis həzrətləri bir gün əvvəl İngiltərə Komandanlığından almış olduğu rəsmi məktubu oxumuş və məlum etmişdir ki, Londondan alınan əmr mövcibincə [əmrə görə], Denikin ordusu 3-5 gün ərzində Dağıstandan çıxacaqdır. Və bu məktubla bərabər bir də xəritə göstərmişdir ki, o xəritədə Dağıstanın Zaqafqaziya və Azərbaycan tərəfdə qaldığı göstərilir. Həmin xəritədə göstərilən xətt Londondan alınan əmr üzrə Könüllü ordu ilə Azərbaycan Cümhuriyyəti arasında sərhəd olaraq qalır. Şimali Qafqaziya isə hələlik Könüllü orduda qalır. Ancaq Petrovsk iskələsi müvəqqəti olaraq İngiltərə Komandanlığı və Denikin ordusu ixtiyarında qalır ki, bunu da axırda boşlayacaqdır.

Rəisi-vükəladan sonra Məsai naziri [Aslan bəy] Səfikürdlü rus dilində bir nitq söyləyib Rəisi-vüzəranın verdiyi xəbərini təsdiq və ümum demokratiyanı birliyə dəvət etmişdir. Bundan sonra bir neçə natiqlər söz söyləyib, demokratiyanın bir nəfərə kimi Denikin ordusu ilə çarpışmağa hazır olduğunu və can fəda edəcəyini vəd və yəmin etmişlərdir.

Buradan dəstələr İngiltərə ərkanihərb [qərargah] idarəsi qarşısına gəlib uca səslərlə "Yaşasın Azərbaycan", "Yox olsun Denikin", "Var olsun ingilis demokratiyası" demişlərdir. Burada İbrahim Əbilov türkcə bir nitq söyləyib, əmələlərin Azərbaycan istiqlaliyyətini saxlamağa qanları ilə hazır olduqlarını Komandanlığa bəyan etmişdir.

Buradan dəstələr həman nizam və qayda üzrə Nikolayevski küçə ilə Parlaman qarşısına gəlmişlərdir. Burada dəxi Məhəmməd Əmin Rəsulzadə cənablarının sədarəti ilə böyük bir mitinq vaqe olub, Gəncə demokratiyası namından Fərzixanov Gəncə əmələ və kəndlilərinin Azərbaycan istiqlaliyyətini son nəfəslərinə qədər müdafiə və mühafizə edəcəklərini bildirmişdir. Sonra Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" tərəfindən Piri Mürsəlzadə Azərbaycan demokratiyasının bu gün şənlik və tamaşa üçün deyil, kəndi istiqlaliyyəti yolunda bir mücahid, bir mübariz kimi və onun üçün şəhid olmağa hazırlığını göstərməyə gəldiyini söyləmiş və demişdir ki, "Müsavat" demokratiyanı bir çoxlarının dediyi kimi keçən il Mart mübarizəsinə dəvət etməyib və ona səbəb olmamışdır. İndi isə həman firqə üçrəngli bayrağı ilə öz rəisləri başda olmaq üzrə ümum Azərbaycan demokratiyasını mübarizəyə və istiqlaliyyətin müdafiəsinə dəvət edir.

Bundan sonra "Hümmət" namından Ağazadə, iştirakiyyunlar [sosialistlər] tərəfindən Qoqeberidze, Suraxanı əmələləri namından Əflatun, Bibiheybət əmələləri tərəfindən Hüseyn əfəndi Müzəffərov və bir çoxları nitqlər söyləmiş və nəhayət, Parlaman rəisi doktor Həsən bəy Ağayev cənabları camaata müraciətən böyük bir nitq ilə demokratiyanın [xalqın] böylə mütəşəkkil bir surətdə kəndi istiqlaliyyəti uğrunda fədakarlığa hazır olduğunu





görüb nəhayət dərəcə məmnun olduğunu bəyanla, Parlaman camaatın olub və camaatın tələbi Parlamanın tələbi olduğunu göstərərək, onun tərəfindən Hökumətə müraciət və mübarizəyə hazırlanmasını tələb etmiş olduğunu göstərmişdir.

Bundan sonra bir çox natiqlər dəxi türk və rus dillərində nitqlər söyləyib, axırda Məhəmməd Əmin Rəsulzadə cənabları nəhayətdə atəşin və hərarətli bir nitq ilə demokratiyanın bu gün göstərmiş olduğu əzm və səbatı ilə heç bir qüvvənin Azərbaycan istiqlaliyyətinə malik olammayacağı ümidini izhar və "Var olsun demokratiya" deyərək məclisi qapamışdır.

Buradan dəstələr Fəhlə Klubu qarşısına gəlib, orada bir neçə natiqlər nitq söylədikdən sonra, dəstələr mədənlərə doğru hərəkət etmişlərdir. Dəstələrlə bərabər bütün gün ərzində könüllü ehtiyat dəstələri dəxi kəndi zabitləri təhti-komandasında [komandanlığı altında] olaraq bayraqları ilə gəzməkdə idilər. Hamısından artıq diqqəti cəlb edən Dağıstan könüllü dəstəsi, Dağıstanın səkkizguşəli, bir çox ulduzlu bayrağı ilə üçrəngli Azərbaycan bayrağı altında marş ilə yürüməli idi. Müxtəlif siniflərdən təşkil edilən ehtiyat könüllü "Yardım alayı"nın min nəfərə yaxın adamdan ibarət dəstələri kəndi komandası altında olaraq al və milli bayraqlarla Parlaman qarşısına gəlib səf çəkmişlərdir. Burada alay namından Mahmud bəy və Mirzə Mehdi Axund müxtəsər nitqlərlə, məcburən deyil, könüllü və öz xahişləri ilə vətən yolunda şəhid olmağa hazır olduqlarını bildirmişlərdir. Dəstələrin içində 80 sinninə [yaşına] qədər qoca ağsaqqal kişilər dəxi var idi. Parlaman rəisi bunların fədakarlığından nəhayətdə məmnun olduğunu bildirib, özünün dəxi onlara mülhəq olub [qoşulub], var qüvvəsi ilə istiqlaliyyət yolunda çarpışacağını bəyan etmişdir.

Buradan dəstələr kəndi nizam və tərtibi ilə Təzəpir məscidinə getmiş, orada dua oxunduqdan sonra evlərinə getmişlərdir. Nümayişlər axşam saat 4 radələrində xitam bulmuşdur. Bütün gün nümayişlər icrası vaxtında nizam və asayiş hökmfərma olub [hökm sürüb], heç bir qeyri hərəkat müşahidə olmamışdır.

## AYIN 13-DƏ ÜMUMİ MİTİNQLƏRDƏ QƏBUL OLUNMUŞ QƏTNAMƏ

Biz Azərbaycanın mütəşəkkil zəhmətkeş xalqı bilafərqi-millət və məzhəb [millət və məzhəb fərqi olmadan], bütün aləm qarşısında qara və qanlı Denikin qüvvətinin inqilab içərisindən doğulmuş cavan Cümhuriyyətimizin hürriyyət və istiqlalını paymal etmək [tapdalamaq] istəməsinə şiddətlə etiraz və tələb ediriz ki:

1) Hökumət bilatərəddüd [tərəddüdsüz] bütün şiddət və qətiyyəti ilə mürtəce Denikin qüvvətinə qarşı mübarizəsində davam eyləsin.

2) Denikinə kömək eyləyən Müttəfiq Komandanlığı qarşısında bu macəra [bu hadisə] protesto edilib, Denikin hücumunun önü alınması qətiyyən tələb olunsun, tainki artıq imperializmin xırda millətlərə qarşı tutduğu məslək ayırd olunsun.

3) Daxildəki Denikin tərəfdarlarına qarşı şiddətli tədbirlər görülsün, casus-

ları tutulsun, düşmən tərəfdarı mətbuat susdurulsun.

4) Bir dənə də olsun düşmən əlinə keçmək ehtimalı olan cəbbəxana Bakıdan xaricə buraxılmasın.

5) Bizi təhdid edən bütün təhlükə bütün Qafqaziya üçün ümumidir. Bu ümumi təhlükəyə qarşı bütün Zaqafqaziya demokratiyası alnıaçıq olaraq əl-ələ verməli, Denikinə qarşı bir adam kimi çıxmalıdır.

6) Bütün vətəndaşları silah altına çağırmalıdır.

Bu tələbləri ciddiyyətlə icra edən Hökumət hər zaman zəhmətkeş xalqın etimadını qazanacaqdır. Biz əhd ediriz ki, Hökumətlə birlikdə son damla qanımıza qədər hürriyyətimizi, namusumuzu, istiqlalımızı müdafiə edəcəyiz. Qanını tökməklə mübarizəyə hazır olan Azərbaycan füqərayi-kasibəsinin [proletariatının] bütün firqələrdən tələb eylədiyi budur ki, ümumi düşmən qarşısında bütün firqələr xüsusi hesablarını unutsunlar, bir adam kimi olub düşmənə qarşı qiyam etsinlər. Böylə bir dəvətə qulaq asmayanlar bizim nəzərimizdə dost deyil, düşməndirlər.

## MÜBALİĞƏLİ XƏBƏRLƏR

İstiqlalımız və varlığımız əsasına hər yol ilə olursa olsun, zərbə endirmək xəyalından bir an geri durmayan "Yedinaya Rossiya"çılar ən ufacıq və adi hadisələri də dürlü rənglərə boyayaraq əfkari-ümumiyyəni [ictimaiyyəti] Hökumətimiz əleyhinə qaldırmaq cinayətindən utanmayırlar.

İştə, bu günlər Xaçmaz istasyonunda "eşq və məhəbbət" intriqasından dolayı bir hadisə vaqe olmuş ki, onu "Yediniya Rossiya"çılar kəndi növbəti provokasiyaları üçün bir dəstaviz [bəhanə] edərək: "Axır zamanlar Azərbaycan daxilində gündən-günə artmaqda olan cinayətlər rahati-ümumiyyəni pozduğu kimi, Quba qəzası isə bir anarşi hökmünü almışdır. Həman cinayətlər içində diqqəti cəlb edən Xaçmaz istasyonunda iki rus qadını ilə bir feldşerin müsəlmanlar tərəfindən öldürülməsidir" kimi mübaliğəli və fitnəəngiz [fitnə yayan] xəbərlərlə əfkari-ümumiyyəni zəhərləyib, hökumət məmurları əleyhinə ittihamlar yağdırır və hadisənin guya bir həftədən sonra polis tərəfindən aşkar edildiyini qeyd edir. Həman üç adamın öldürülməsi doğru isə də, həqiqətihal "Yedinaya Rossiya" xəbər verdiyi kimi deyildir. Mövsuq [etibarlı] mənbələrdən öyrəndiyim məlumata görə, əhval bərvəchi-zirdir [aşağıdakı kimidir]:

Xaçmazda öldürülən qadınlardan biri kəndi zövci-məşrusunu [qanuni ərini] buraxıb, həman Xaçmazda yaşayan məşuqu feldşerin yanına qaçmış və intiqam atəşi ilə yanan aldanılmış erkək də qadını cəzasına yetirmək üçün bir qaç bədəfkar[ı] [canini] pul ilə tutaraq zövcəsinin əqəbincə [dalınca] Xaçmaza göndərmiş, heysiyyətini tapdalayan zövcəsi ilə rəqibinin öldürülməsinə "müvəffəq" olmuşdur. Polis tərəfindən həmin Xaçmaz meşəsi içində vaqe olan cinayət sabahı günü aşkar edilib və canilərin dərdəst edilməsi [ələ keçirilməsi] üçün şiddətli tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

*H. R.*





## TƏKZİB VƏ TƏSHİH

– Qəzetəmizin 203-cü nömrəsində Bakı xəbəri içində olaraq "Əslihə [silah] tutulması" sərlövhəsi ilə yazılmış olan xəbərdə böylə bir əhvalat nəql edilmişdi ki, guya erməni kəlisası [kilsəsi] altında olan anbardan axtarış əsnasında bir çox əslihə, pulemyot, külli miqdarda patron və qeyriləri tapılmışdır. Bu xəbərin, yəni əslihə tutulmaq fəqərəsinin [hadisəsinin] doğru olub-olmadığı xüsusunda idarəmiz tərəfindən Hökumət nəzdində icra edilmiş olan təhqiqatdan məlum oldu ki, əslihə tutulmaq xəbəri bilkülliyə [tamamilə] əsil və əsassız olub, müfəttinanə [fitnəkarca] şayiələrdir ki, mütəəssifanə [təəssüf ki], qəzetəmizin sütunlarına dəxi keçmişdir.

– Qəzetəmizin 203-cü nömrəsində Azərbaycan Cümhuriyyətinin Dövləti Müdafiə Komitəsinin icbari qərardadında səhv olaraq VII maddə büsbütün buraxılmışdır. Qəzetəmizdə olan VII maddə VIII olaraq oxunmalıdır.

VII maddə budur:

*VII) Səlaməti-ümumiyyə və dövləti asayiş üçün istintaqdan sonra hərəkatı müzirr [zərərli] görülən şəxslər də həmçinin həmin icbari qərardadın VI xüsusunda göstərilən qərar üzrə cəzaya giriftar olacaqlardır.*

– Yenə qəzetəmizin eyni nömrəsində Şahsüvarov həzrətlərinin Maarif Nazirliyinə təyin edilməsi xəbər verilmişdi. Halbuki Şahsüvarov Maarif naziri müavinliyinə təyin edilmişdir.

*İdarə*

## BAKI XƏBƏRLƏRİ

**Dərbənddə**

Alınan məlumata görə, iyunun 11-də Dərbənddə rus qaragüruhunun nümayişi olmuşdur. Nümayişdə iştirak edənlər "Yəhudiləri qır!" şüarı yazılmış milli rus bayraqları ilə soqaqları [küçələri] gəzərək yəhudi qırğını salmaq təşəbbüsatına girişmişlərsə də, qırğın olmamışdır. Zira şəhər əhalisi bunda iştirak etməkdən imtina etmişlərdir.

**Tazəşəhərdə**

Son vaxtlar Tazəşəhərə getmək qadağan edilmişdi. Şimdi alınan məlumata görə, İngiltərə Komandanlığı məlum etmişdir ki, Tazəşəhərə getməkdən ötrü Zakaspi Hökumətindən icazənamə almaq lazımdır. İcazənaməsiz heç kəsi Tazəşəhərə buraxmaq olmaz.

**Əşirə almaq haqqında**

Ticarət və Sənaət [Sənaye] naziri Bakı qubernatoruna müraciətən rica etmişdir ki, türklər tərəfindən kəndlilərdən əşirə (zəkəvat) olaraq taxıl alınması qanunu ləğv edilmişdir. Bu vaxta qədər cəm edilmiş olan taxıl isə hökumətə təhvil verilib xüsusi anbarlarda saxlanılmalıdır.

**Məhkəməyə cəlb**

Bakı Nahiyə Məhkəməsi qubernatora müraciətən məlum etmişdir ki, onun binagüzarlığı [sərəncamı] ilə Muğan uçastoku pristavı Xəlilov xidmətindən sui-istifadə etdiyi üçün məhkəməyə cəlb edilmişdir.

**Məhbusların qaçması**

Bakı həbsxanasında saxlanılan dus-

taqlar Məsum Dadaşov və Qüdrət Cavadov həbsxana məmurunu aldadıb qaçmışlardır.

**Aşqabadda**

İngiltərə əsgərləri general Malleson başda olmaq üzrə Aşqabaddan çıxmışlar. Petrovskdan gələn dabravollar [könüllülər] onları əvəz etmişlər. Bolşeviklər əleyhinə edilən hərəkati-hərbiyyəyə susuzluq mane olmaqdadır. Birinci zəruri şeylərin qiyməti o qədər artıq deyildir. Şəhər idarəsi qaçqınların xərcini öz öhdəsinə almışdır.

**Yolun xarab olması**

Biləcəri mövqifi [stansiyası] müdirləri Bakı qubernatoruna məlum edir ki, Keşlə ilə Biləcəri mövqifləri arasında birinci yol xarab olduğundan, qatarlar hərəkatı ikinci yol vasitəsilə davam etməkdədir. Yolun təmir edilməsi üçün lazımi tədbirlər görülmüşdür.

**Həbsxana müdiri**

Bir çox sui-istemallarda [sui-istifadələrdə] müttəhim edilən Bakı Mərkəzi Həbsxana müdiri Abdinov qulluğundan əzl [kənar] edilib, yerinə Bayılov Həbsxana[sı] müdiri Bəhrambəyov təyin edilmişdir.

**Qaçaqmallar haqqında**

Bakı Gömrükxanası müdiri qubernatora məlum etmişdir ki, Bakı iskələsindən [limanından] gecələr külli miqdarda qaçaqmal çıxarırlar. Böylə ki, hər gecə müxtəlif körpülərdən mal aparıldığı müşahidə olunmuşdur. Dövlətə zərər olan böylə hərəkətin önü alınmasından ötrü lazımi tədbirlər ittixaz [tədbirlər görülməsi] və iskələdə lazımi miqdarda qarovullar qoyulmasını gömrük müdiri qubernatordan rica edir.

**Əsgərlikdən qaçmaq cəzası**

- Zığ kəndi əhlləri Hüseyn Bala oğlu, Hacı Əmiraslan Lütfəli oğlu, Balabəy Məhəmmədəli bəy oğlu, Durmuş Baxış oğlu öz oğul və qardaşlarını əsgərlikdən qaçırmaq qəsdi ilə gizlətməkdə müttəhim edilərək Balaxanı-Sabunçu qalabəyisi [komendantı] binagüzarlığı [sərəncamı] ilə tövqif [tutulmuş] və həbs edilmişlərdir.

- Mərdəkan kəndi əhlləri Məşhədi Baba oğlu, Vahab Əli oğlu öz oğullarını gizlətməkdə müttəhim edilərək həbsə alınmışlardır.

- Türkan kəndi əhli Məşhədi Əliəsgər oğlu öz oğlunu gizlətməkdə müttəhim və qalabəyi binagüzarlığı ilə həbs edilmişdir.

- Ağdamdan hökumət naminə bir böylə teleqram varid olmuşdur [gəlmişdir]:

Ermənilər əhdşikənanə bir surətdə [xaincə] bizim əsgərlərimiz üzərinə düşüb dörd nəfərini qətl etmişlərdir. İşbu iş Ağdam dairəsi əhalisinin narazılığına səbəb vermişdir. Ağdam əhalisi Azərbaycanın cüzi-layənfəki [ayrılmaz hissəsi] olan Qarabağ və Naxçıvanı hər dəqiqə mühafizə etməyə, vətən yolunda ölməyə hazırdır. Erməni millətinin düşməni olan daşnaklar Qarabağ və Naxçıvanı Ararat Cümhuriyyətinin bir hissəsi hesab etməsinlər. Zira Qarabağı fəqət [ancaq] silah zoru ilə və yaxud müsəlmansız almaq mümkün ola biləcəkdir.

*İmzalar: Davud, Bədəlbəyov, Behbudov, Sadıqov, Naibov, Əhmədov, Mirbağırov.*





**Qalabəyinin əzl edilməsi**

Daxiliyyə nazirinin binagüzarlığına [sərəncamına] görə, Balaxanı-Sabunçu qalabəyisi [komendantı] Lütfəli bəy Əmircanov öz qulluğundan əzl edilmişdir [kənarlaşdırılmışdır]. Məzkurun [adı çəkilən şəxsin] yerinə namizəd olaraq üçüncü polis uçastoku müdiri Fərzəlibəyov göstərilir.

**Cinoridzenin sürgün edilməsi**

Aldığımız məlumata görə, "Bakinets" və "Novosti" qəzetələrinin sahib və naşiri olan Qriqori Cinoridze hökumətin binagüzarlığı [sərəncamı] ilə Azərbaycan Cümhuriyyəti torpağından sürgün edilir. Məlum olduğu üzrə, məzkur [adı çəkilən şəxs], Bakıda sükunət edib də [yaşayıb da] Könüllü ordu tərəfdarı olub və açıqdan-açığa onun lehinə təbliğatda bulunmaqda və qəzetəsini həman ordunun tərif və tövsifi [vəsfi] ilə doldururdu. Onun böylə hərəkatı dövlət və istiqlaliyyətə müzirr [zərərli] olduğu üçün həmin cəzaya məhkum edilmişdir.

Eşitdiyimizə görə, Cinoridze qorxub da Gürcüstana getməyir və Könüllü orduya gedəcəkdir.

## MƏŞQƏTƏ KƏNDİNDƏN

İşbu Ramazanül-mübarək ayında hər gün camaat, adəti üzrə məscidi-cameyə cəm olurlar. Kəndimizin üləmaları [ruhani alimləri] moizə və nəsihətdən sonra əhaliyə xitabən hökumətimizin və vətənimizin təhlükələr müqabilində olduğundan bəhs edib və bu təhlükədən qurtarmaq və qara qüvvələrlə mübarizə etmək üçün əhalini dəvət edirlər.

Keçən gün yenə adəti üzrə saat 2 radələrində kənd əhalisi məscidi-cameyə cəm olmuşdu. Mətləb Hüseynzadə əhvali-hazirədən, Denikin kimi irticapərəstlərin öz bədtinət [xəbis, alçaq] qədəmləri ilə vətənimizi kəsafətləndirmək [çirkləndirmək] xəyalında olmaqlarını və Rəisi-vükəla [Baş nazir] həzrətlərinin möhtərəm Parlaman əzalarına [üzvlərinə] təfsilən [ətraflı] bəyanatlarından və İngiltərə komandanının bu işə nə nəzərlə baxmaqlarından və bizlərə verdiyi bəzi dayaqsız ümidlərindən və axirüləmr [nəhayət], Parlaman fraksiyalarından əksəriyyətlə formula qəbula keçirməklərin[i] camaata məlumat verəndən sonra bu barədə camaatın nə xəyalda və nə rəydə olmağını soruşdu.

Camaat isə; biz heç bir zənciri-əsarəti təzədən boynumuza salmağı qəbul etməyib heç bir qara qüvvələrə və irticapərəstlərə vətənimizin müqəddəs torpağına ayaq qoymaq imkanı verməyəcəyiz və sentyabr ayında etdiyimizdən gözəl hümmət eyləyib, əlbəəl verib vətən yolunda müharibəyə, ölməyə hazır dayanıb hökumətimizin fərmanını gözləyirik, dedilər.

Zeyldə [burada] yazılan məlumat tam olandan sonra kəndin məşhur vaizlərindən biri camaata hərgünkü adət üzrə moizəyə başlayıb dedi:

– Camaat, bizlərə vacib və lazımdır ki, silaha dolub öz vətən və sərhədimizi mühafizət edək. Əgər müharibə zamanında mali-dünyaya ehtiyac olsa, hər bir şəxs qüvvəsindən gələn köməyi hökumətə və vətən hifzinə xərc eyləməlidir. Əgər, nəüzibillah [Allah eləməsin], düşmən bizə qalib gələrsə, o zaman nə vətəndən, nə malımızdan və nə özümüz-

dən bir şey baqi qalmaz. Əgər qalan olsa, zənciri-əsarət altında yaşayacaqdır.

Şəriəti-müqəddəsimiz bizə azad yaşamağı əmr etmiş. Bir də əhəmiyyətli mətləb odur ki, Rusiya irticapərəst generalları işğal etdikləri yerlərdə ümumi səfərbərlik elan eyləyib, əhalini məcburi halda silah altına alıb, bolşeviklər müqabilinə göndərirlər və əsgərlikdən qaçanları edam edirlər. Əvət, biz indi öz vətənimiz yolunda qanımızı, malımızı, canımızı fəda etməzsək, Nikolay generallarının yolunda fəda ediləcəyiz. Əgər rus əsgərlərinin əksəriyyətini [çox olmağını] xəyalınıza gətirirsəniz, Qurani-şərifin ayəsi: "Kəm min fiətin qəlilətin qələbət fiətin kəsirətin" münasibətilə sizə təfsirini bəyan edirəm, necə Allah-taala buyurub: "Çox az qoşunlar çox qoşuna qalib olar."

Nüsrət [zəfər] xaliq əlindədir, çoxluq və azlıqda deyil.

Ağır qiymətə alınan hürriyyət, Azərbaycan istiqlaliyyəti ucuz və fəna qiymətlərə satılmaz. Siz cümlə cahan kəndçilərinə və füqərayi-kasibəsinə [proletariatına] göstərməlisiniz ki, siz müstəqil yaşamağa qabil bir millətsiniz. Və vətənin bugünkü müqəddəratı əsgərlərimizin və siz camaatın hümmətinə bağlıdır.

Xülasə, o gün məclis siyasi moizələrlə saat 5 radələrində tamam oldu.

*Mətləb Hüseynzadə*

**Mərdəkanda**

Bağ icarəyə verilir. Xahiş edənlər hər gün saat 8[-dən] 10-adək bu adresə müraciət edə bilərlər: Vodovoznı küçə, nömrə 5/7. Mim. Sad. Hacızadə.

*10236*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*





**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

Xarici məmləkətlərə yun yollamağı və komisyon təriqi ilə xarici məmləkətlərdə satmağı **İ. V. Denisovun** bankir kantorası qəbul edir (Olqinski, Nikolayevskinin küncündə, telefon nömrə 37-75). Sifarişlər saat 5-dən 7-yə dək qəbul olunur.

*10220*

**Apteka və kosmetiçeski malları** N. Liberzon və M. Şvarimanın skladı külli miqdarda satır. Tiflis, Puşkinski küçə nömrə 21. Apteka və kosmetiçeski xarici məmləkət fabrikası malları alınıbdır.

*10233*

**Tazə alınmış**

Amerikanın südü satılır külli miqdarda İ. V. Denisovun bankir kantorasında (Olqinski və Nikolayevski küçələrin küncündə, telefon nömrə 37-75). Az miqdarda isə Qafqazski aptekarski mağazada, Baryatinski, nömrə 6.

*10234*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Qəzavətdən**

səh. 289. "Məzkur qəryələrin məsafəsi bir-birindən uzaq olduğu üçün...": bu cümlə qəzetdə müəyyən imla səhvləri ilə getmişdir; bu səhvləri düzəltdik və hər birini ayrı-ayrılıqda qeyd etməyə ehtiyac görmədik.

**Vükəla Şurasında**

səh. 297. "a) İclasın qanuni olması üçün...": bundan sonrakı bənd "b)" kimi işarələndiyi halda, qəzetdə bu bəndin qarşısında işarə yoxdur.

**"Dərbənd – Dəmir qapı"**

səh. 298. "İskəndəri-Rumi": Makedoniyalı İskəndər nəzərdə tutulur.

"Səməndər": VIII əsrdə Xəzər xaqanlığının paytaxtı olmuş şəhər. Bugünkü Mahaçqala şəhərinin yaxınlığında yerləşmişdir.

**Ekspress Teatrosu**

səh. 300. "Ekspress": Bakıda, Olqinski (indiki Məhəmməd Əmin Rəsulzadə) küçəsində kinoteatr olmuşdur.

**"Cavanlarımıza" şeiri (səh. 300) üçün lüğət**

müəttər: ətirli

səd mərhəba: yüz dəfə afərin; yüz dəfə əhsən

məxzən: xəzinə

ərzəl: ən rəzil, ən alçaq

nəbiyyi-mötəmən: inanılan, güvənilən peyğəmbər

adab: qayda-qanun; bir işin qaydası, yolu

öksüz: yetim

icab edərsə: lazım gələrsə

bürci-ahənin: dəmirdən qala bürcü

haris: keşikçi

səddi-mətin: möhkəm sədd

qasib: qəsbkar

istiqbal: gələcək

zəbani-hal: hal dili

baxəbər: xəbərdar olun, bilin

"Əl-hərbu xud'ə": "Müharibə hiylədir" (hədis)

**Axırın fikr etməyən aqil deyil, divanədir!**

səh. 301. "iki daşın arasında": təcili, tələsik.

**Protesto nümayişləri**

səh. 303. "Srağagün həziranın 13-də": qəzetdə "həziranın" yerinə "mayın" getmişdir.

**Bakı xəbərləri**

səh. 307. "əşirə (zəkəvat)": kənd təsərrüfatı məhsullarından onda bir miqdarında alınan vergi.

**Məşqətə kəndindən**

səh. 310. "Kəm min fiətin qəlilətin qələbət fiətin kəsirətin": "Quran"ın "Bəqərə" surəsinin 249-cu ayəsindən bir hissə.





**Bazar ertəsi, 16 iyun 1919-cu il, nömrə 205**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 17 ramazanül-mübarək sənə 1337. 16 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## ELAN

1919[-cu il] həziranın 16-cı günü bazar ertəsi saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-145*

* * *

Müharibə meydanına göndərilmiş Azərbaycan əsgərləri üçün tərtib olunacaq cəmiyyətlər və xəstə ya ki yaralı əsgərlərə müavinətlər xüsusunda məsləhət olunmaq üçün iyun 16 bazar ertəsi saat 10-da Birinci Ünas [Qızlar] məktəbinə (Nijni Kladbişinski və Zavedenski küçələrin küncündə) ümumi müsəlman xanımları dəvət olunurlar.

*T-150*

## DİQQƏT

Bununla bildirməliyəm ki, Nikolayevski və Bazarnı caddələrin küncündə köhnə "Kaspi" idarəsi ilə rubəru [üzbəüz] təzə təmir edilmiş "Mübarək" lokantasında [yeməkxanasında] məşhur aşpaz Kazım vasitəsilə münasib qiymətə pək ləziz və pakizə yeməklər hazır olunur. Möhtərəm qarein [oxucular] cənabları təşrif gətirib və məmnun olacaqlarına ümidvaram.

*"Mübarək lokantası"*
*10238*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Qərardadi-məcburi**

Azərbaycan Cümhuriyyəti Hökumətinin 1918 sənəsi 23 həziranında verdiyi qərarına istinadən Daxiliyyə nazirinin Hərbiyyə naziri ilə biletilaf [razılıqlı, birgə] nəşr etdiyi məcburi qərardaddır.

1) Əsgərlikdən boyun qaçıranları gizlətməkdə müttəhim edilən xüsusi şəxslərin olduğu kimi, əsgərlikdən qaçanları iadə eyləmənin [geri qaytarmağın, təhvil verməyin] öhdələrinə tərəttüb etdiyi [öhdələrinə düşdüyü] köy idarələri məmurini-rəsmiyyəsi [rəsmi məmurları] dəxi 10 min manata qədər cərimeyi-nəqdiyyə və 6 aya qədər həbsə məhkum olacaqlardır.

2) Əsgərlikdən qaçmış olanın kəndisi ilə bərabər götürmüş olduğu dövləti təslimat [dövlət əmanətləri] və əlbisə taqımının dəyəri aid olduğu qiteyi-əsgəriyyə ətrafından [hərbi hissə tərəfindən] onların qiyməti haqqında məlumat alınar-alınmaz şu fiyatın iki misli ən əvvəla əsgərlikdən qaçana aid əmvaldan [mallardan], onun böylə bir mala malik bulunmadığında əqrəbasından, əks təqdirdə məzkur [deyilən] əsgəri gizlətmiş olanlardan,

bunların da biçiz [yoxsul] bulunduqlarında əsgərlikdən qaçanın gizlənmiş bulunduğu köy əhalisi arasında təqsim edilir [bölünür] və alınır.

3) İşbu qərardadın birinci maddəsində göstərilən cəraimə [cərimələrə]; xidməti-əsgəriyyəyə yarayıb-yaramadığını müayinə və tədqiq üçün Əxzi-əsgər [Hərbi çağırış] idarəsinə gəlməsi icab edib də, Əxzi-əsgər idarəsinə gəlməmiş olanın ailəsinin ən böyük üzvü dəxi düçar olduğu kimi, əsgərlikdən boyun qaçıranları gizləyənlərlə xidməti-əsgəriyyə ilə müvəzzəf [mükəlləf] olanların Əxzi-əsgər idarəsinə müntəzəmən gəlmələrinə nəzarət etməyə müvəzzəf olan köy idarələri məmuruni-rəsmiyyəsi dəxi düçar olurlar.

İşbu qərardadın mövqeyi-icraya qonulması Şuşa, Cəbrayıl, Zəngəzur və Cavanşir qəzaları general-qubernatoruna və Daxiliyyə Nəzarətinin Qazax qəzasında bulunan vəkili-xüsusisi ilə vilayatiaidə [aidiyyətli vilayətlər] valiləri üzərinə tərəttüb edir. İşbu qərardad Bakı üçün "Azərbaycan" qəzetəsində elan olunduğu gündən və məhəllati-aidəsi [aidiyyətli yerlər] üçün isə dəvairi-məhəlliyyənin [yerli dairələrin] kəndi təsviblərinə [qərarlarına] nəzərən təyin etdikləri vəsaitlə [vasitələrlə] elan olunduğu gündən etibarən qanun hökmünə daxil olur.

*3 həziran 1919 sənə, Bakı*
*Daxiliyyə naziri*

## TELEQRAF XƏBƏRLƏRİ

**Bolşeviklərin məlumatı**

Lion - Fransada iğtişaş getdikcə artır. Bu iğtişaş başında sosialistlər durmuşlardır. Parisdə dəmiryol halı çox böhranlıdır. Şəhərdə intibahnamələr [vərəqələr] yapışdırılmışdır. İntibahnamələrdə tətilçilər məzəmmət edilərək denilir ki, tətilçilər almanların nəfinə [xeyrinə] işləyib bilatəxir [dərhal] sülh əqd edilməsinə [bağlanmasına] mane olurlar.

**Bolşevik cəbhələrində**

Moskva - Şərq cəbhəsi. Novouzensk dairəsində bizim hissələr Aleksandrovkanı işğal etmişlər. Ufa səmtində bizim qoşunlar Ufa nəhrinə yetmişlərdir. Bu nəhir Ufanın 20 verstliyindədir. Sarapul dairəsində biz Nadzori-Abrosov xəttinə çıxmışıq. Bu yer Sarapulun 40 verstliyindədir.

- Petroqrad dairəsində bizim hissələrimiz müharibə ilə Krasnoqorkinin 10 verstliyində Ust-Ruditsanı işğal etmişlərdir. Cənub tərəfdə bizim qitəatımız Krasnoye Selonun 10 verstliyinə çəkilmişlərdir. Cənub cəbhəsində Mariupol səmtində bizim hissələr düşmənlərin güclü qüvvətlərinin təzyiqi ilə Berdyanskı düşmənlərə tərk etmişlərdir. Miller[ovo] səmtində bizim hissələr Çertkovo mövqifini [stansiyasını] tərk etmişlərdir.

- Tsaritsın [Volqoqrad] cəbhəsində Krimomujdinski mövqifinin qərb cəhətində, Tsaritsının 55 verstliyində Çervlenni mövqifinin cənub tərəfində şiddətli müharibə davam edir.

Daşkənd - Qırmızı qoşunlar tərəfindən Türküstanda Tecen şəhəri işğal edilmişdir. Tərəfimizdən təqib edilən düşmənlər İran tərəfinə qaçmaqdadırlar.





*(Royter acentəliyindən)*

**Rusiya kəndçiləri arasında üsyan**

Royter ajansına mövsuq [etibarlı] mənbələrdən xəbər verilir ki, rus kəndçiləri hər yerdə bolşeviklərin əleyhinə qiyam edirlər. Xüsusən Volqa nəhri boyunda və Mərkəzi Rusiyada bu qiyam ciddiləşmişdir. Moskvada Şura hökuməti artıq əndişəyə [təşvişə] düşmüşdür. Hökumət əhaliyə təklif edir ki, Kolçakla mübarizəyə girişsinlər.

**Polşa əsgərləri**

Berlin - Erzberqer general Foşa bir nota göndərərək bəyan edir ki, Almaniya Hökumətinə bildirildiyinə görə, Polşa qoşunları istəyirlər ki, Poznan ilə Yuxarı Sileziyaya hücum etsinlər. Erzberqer notasında əlavə edir ki, hərgah polyaklar bu planlarını vücuda gətirərlərsə, Almaniya hökuməti Almaniya-Polşa müahidənaməsinin [sazişinin] saxlanacağına məsul ola bilməz və Almaniya hökuməti heç bir vaxt Polşa qoşunlarının irəliləməsinə müsaidə verəmməz.

**Amerika drednotu**

Nyu-Yorkdan xəbər verirlər ki, "Tenessi" drednotu suya salınmışdır. Bu gəmi 32 min ton həcmindədir. Gəminin qiyməti 50 milyon dollardır. Drednotda 12 ədəd 14 düymə [düym] top vardır.

**Vilhelmin istidası [xahişi]**

İmperator Vilhelm Almaniya hökumətinə müraciət edərək Qərbi Prussiyada olan mülkünə qayıtmasına müsaidə istəyir.

**Rusiya-Finlandiya sərhədi**

Londondan xəbər verirlər ki, bolşeviklər Rusiya-Finlandiya sərhədini bağlamışlardır. Nəticədə finlər dəxi eyni təşəbbüsdə bulunmuşlardır. Bu gün rəsmi olaraq finlərin bəhri [donanma] bayrağı qaldırılmışdır.

**Münhenin işğalı**

Madriddən xəbər verirlər ki, qızğın müharibədən sonra hökumət qoşunları Münhen şəhərini işğal etmişlərdir.

## SÜLH ƏTRAFINDA

**Sülh Konfransında**

Təsəvvür edildiyinə görə, Dördlər Şurası Almaniyanın əks-təklifinə cavab verdiyi münasibətilə müşkülata düşmüşdür. Bu təkliflər bir həftə müzakirə edildikdən sonra, mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərə görə, Klemanso bugünkü iclasda demişdir ki, o ancaq Almaniyaya verilən sülh şəraitinin az bir yerlərinin dəyişilməsinə razı ola bilər. Çünki Fransa Palatası, həmçinin Fransa əhalisi güzəştdə bulunmağın qəti surətdə əleyhinədirlər. Lloyd Corc güzəştdə bulunmağın lazım olduğunu göstərməkdədir. Onların arasında qalmış olan Vilson həmçinin Klemanso şəxsində mümaniətə [çətinliyə, maneəyə] düçar olmuşdur. Lloyd Corcun rəyincə, hərgah sabahkı iclasda ümumi saziş hüsula gəlməzsə, sülh müahidənaməsi [sazişi] bir çox münasibətlə təbdil edilməlidir [dəyişdirilməlidir]. Çox mümkündür ki, düşənbə [bazar ertəsi] gününə kimi ancaq cavab hazır olsun.

**İtaliyanın Sülh Konfransına dəvəti**

Üç dövlət nümayəndəsi Şurası İtaliyanı Sülh Konfransına dəvət etmişdir ki, yenə Sülh Konfransında öz mövqeyini tutsun. İtaliyanın Sülh Konfransına dəvət edilməsinə görə təsəvvür edilir ki, İtaliya bu təklifi qəbul edəcəkdir və sülh müahidənaməsi almanlara verilən kimi münasibat başlanacaqdır.

**Şərqi Afrika müstəmləkəsi**

Londondan xəbər verirlər ki, Belçika heyəti sədri Himans ilə Almaniyanın Şərqi Afrikadakı müstəmləkəsinin müqəddəratını müzakirə etmək üçün Milner Parisə dəvət edilmişdir. Belçika heyəti xəbər verir ki, Vilson və Himans Şərqi Afrika mandatı məsələsini Milner ilə bərabər müzakirə etməyi qərara almışlardır.

**Almaniya və sülh**

İyunun 8-də Berlindən xəbər verirlər ki, sülh müahidənaməsindən hasil olan təsirə görə, üç gündür ki, birja bağlanmışdır. "Montaq çaytunq" qəzetəsi xəbər verir ki, bütün Almaniya firqələri sülh müahidənaməsini bu surətdə qəbuledilməz bir şey hesab edirlər.

**Sülh şəraitinə əlavə**

London - Sülh şəraitinə olan əlavədə denilir ki, mütarikə [ataşkəs] elan edildiyi andan Almaniya hökuməti istila qoşunlarının məxaricini verməlidir. Birinci olaraq bu xərclər verilməlidir. İkinci xərc isə müharibədən Müttəfiqlərə toxunan xəsarətlərin ödənməsidir. Mal xaric etmək barəsində Müttəfiqlər lazım bildikləri şərtləri qoyacaqlar. Almaniya Bolqariyaya, Türkiyəyə, Avstriyaya və Macarıstana müharibə zamanı müavinət olmaq üzrə verdiyi pulları Müttəfiqlərə verməlidir. Müharibədən qabaq Almaniyanın Türkiyə, Bolqariya və Avstriya-Macarıstandan olan iddialarını və bu dövlətlərlə bağlanan müahidə haqlarını Müttəfiqlərə güzəşt etməlidir.

**Belçika borc istəyir**

London - Belçika dəvairində [dairələrində] deyirlər ki, hərgah bilatəxir [dərhal] Belçikaya 100 milyon lirə istiqraz [borc] verilməzsə, Belçikanı gözlənilən bədbəxtlikdən mühafizət etmək olmaz. Əhvalın qayət kəskin olduğundan, Rəisi-vükəla Delakruaya və sair Belçika nazirləri Parisə varid olmuşlardır [gəlmişlər]. Xəbər verilir ki, Paris Sülh Konfransında olan Belçika mürəxxəsləri [nümayəndələri] Fransaya məlum etmişlər ki, hərgah istənilən kredit Belçikaya buraxılmazsa, o zaman Belçika sülh müahidənaməsini [sazişini] imza edə bilməyəcəkdir. Üçlər Şurası Belçikaya müavinət etməyə hazır olduqlarını izhar etmişdir [bildirmişdir]. Belçika nümayəndələri bu əhvalı öz dövlətlərinə məlum etmişlərdir.

**Macarıstan məsələsi**

Paris - Bu gün Dövlətlər Şurası Macarıstan qoşunlarının Çex-Slovakiyaya soxulmalarının nə qədər dəhşətli bir iş olduğunu müzakirə etmişdir. Alınmış olan məlumatdan anlaşılır ki, hər iki tərəf vüsətli iqdamatda [geniş təşəbbüsdə] bulunurlar. Bu işlərə Romaniya dəxi iştirak edir. Macarıstan məsələsi sülh əqdində Müttəfiqlərin zəhmətini daha çox artırır.





**Sülh Konfransında ixtilaf**

Paris - Lloyd Corc tərəfindən göstərilən maddələr barəsində sülh nümayəndələrinin arasında sazişlik olmadığına görə, Dövlətlər Şurasında daima ixtilafi-rəy [fikir ayrılığı] olur. Sülh Konfransının işləri tamamilə dayanmaq ehtimalı vardır. İşlər getdikcə ciddiləşir. Zira nümayəndələr güzəştdə bulunmaq istəməyirlər. Bunlar özlərinin davada iştirak etdiklərini və dava üzündən xəsarət gördüklərini meydana qoyurlar.

## İSTANBULDA HƏYƏCAN

Vilson prinsipinin haqqında tətbiq olunacağını mütəvəkkilanə [təvəkküllə, ümidini Allaha bağlayaraq] və saf bir türk etiqadı ilə bəkləyib duran Osmanlı türkləri Paris Konfransının Türkiyə haqqındakı haqsız və hələ İzmir xüsusundakı qansız qərarına qarşı, coşmuş məmləkətin hər tərəfində qələyan və həyəcanlarla dolu mitinqlər, protesto nümayişləri icra etmişlərdir. Ən böyük nümayişlər İstanbulda vaqe olmuş. Aldığımız türkcə qəzetələrdən "İzmir işğalı münasibətilə" vaqe olan nümayişlərin surəti-cərəyanını aşağıya dərc ediriz.

"Zaman" qəzetəsi yazır ki:

İzmirin işğalını protesto etmək üzrə Fateh parkında müəzzəm [böyük] bir mitinq əqd edilmiş və bu mitinqə minlərcə türk və müsəlman, erkək və qadın iştirak eyləmişdir. Mitinqin icrasından xəbərdar olan və əsasən üç gündən bəri qəlbləri qanayan türk və müsəlmanlar dün saat 1-dən etibarən Fateh parkında Bələdiyyə dairəsi önündə təcəmmö etməyə [toplaşmağa] başlamış və pək qısa bir müddət zərfində mitinqə iştirak edənlərin ədədi 40-50 min kişiyə [nəfərə] baliğ olmuşdur [çatmışdır].

Saat 3-ə doğru Bələdiyyə dairəsinin üst qatındakı balkonun tərəfində mövcud pəncərələrdə ay-yıldızı siyah birər bayraq asılmış və bu lövheyi-matəm [matəm lövhəsi] bütün hazirunu [orada olanları] ağlatmışdır.

Bir az sonra balkonun qapısı açılmış və Hüquq fakültəsi namına iradi-nitq edən [nitq söyləyən] [Əhməd] Səlahəddin bəy, haqqımızda rəva görülən müamiləni [rəftarı] bütün mövcudiyyəti-qəlbiyyəmizlə protesto etmək üzrə əqd olunan mitinqin xitamından sonra hər kəsin dağılması lazım gəldiyini bəyan və əfradi-millətin [millət fərdlərinin] təzahürat və müstədəyatını [tələb və istəklərini] xaki-payi-şahanəyə [padşaha] ərz etmək üzrə bir heyətin Sarayi-hümayuna [Padşah sarayına] ezam olunacağını təbliğ eyləmişdir.

Mütəaqibən [onun ardınca], Xalidə Ədib [Adıvar] xanım möhtəz və müəssir [titrək və təsirli] bir səda ilə bərvəchi-ati [aşağıdakı kimi] bir nitq irad eyləmişdir:

*"Türklər, müsəlmanlar!*

*Türk və müsəlmanlar bu gün ən qara gününü yaşayır. Gecə qaranlıq bir gecə. Fəqət insanın həyatında sabah olmayan gecə yoxdur. Yarın, bəlkə, müşə'şə' [dəbdəbəli], parlaq bir sabah olacaqdır. Yalnız işıq gəldiyi vaxt gözümüzü günəşə qaranlığı görən bayquşlar kimi açmayalım. Millət eyi və fəna günlər gördü. Günah dəqiqələri və şanlı dəqiqələr yaşadı. Fəqət, qardaşlar və qadınlar, o qədər qan axıtdıq ki, bu qan bütün dünyanın günahını yıxayacaq qədər təmiz və məbzuldur*

*[çoxdur]. (Hazirun arasında qələyan [Camaat arasında həyəcan].) O qan bizim vəzifəmizi təyin etdi, bizə bir vəzifə buraxdı. Xanımlar, sizin əlinizdə tüfəng, top yox, yalnız haqq və Allah var! (Alqışlar) Tüfəng və top düşər, haqq və Allah baqidir [əbədidir, qalıcıdır]. Topun üzünə tükürəcək qədər övladlar, analar, qəlbimizdə eşq və iman və millət duyğusu var, heç qorxmayacaqsınız!*

*Xanımlar, türklər, müsəlmanlar, silahla çalışammazsınız; haqq və Allah sizinlədir. Dünyada millət sifətinə layiq bir millət olduğumuzu erkək, qadın, hətta ixtiyar və çocuqlarımıza qədər isbat etdik. Bu gün məmləkətimiz təqsim [parçalanmaq] təhlükəsi qarşısındadır. Addım-addım ədədən kəndi dunumuzdakı [sayca bizdən aşağıda olan] millətləri başımıza əfəndi [ağa] yapmaq istəyirlər. Bu gün İzmir, yarın Konya, o biri gün İstanbul. Sonra müsəlman dünyasının başı olan türk susdurulmuş, əsrlərcə Avropanın istədiyi şey hüsul bulmuş [əmələ gəlmiş] olacaqdır. Binaənileyh [ona görə], Avropaya qarşı mövcudiyyətimizi göstərmək və səsimizi, haqqımızı eşitdirmək üçün bu gün qüvvətli və mətin bir millət halında bulunmaq lazımdır.*

*Arxadaşlar, müsəlmanlar, türklər! Bu gün buraya toplanan bizlərin bir vəzifəmiz var. Biz sözümüzü onlara dinlədəməyiz. Sözümüzü padşahımıza dinlədəriz. Və milləti ən çox təmsil edəcək bir Kabinə [Hökumət] istəriz. Zira istəyəcəyimiz bəsit və ülvi bir haqdır. Padşahımıza xalqın hissiyyatını təbliğ edər və deriz ki, iştə, qara bir gün yaşayırız. Bu gün hərkəs susmuşdur. Və türk müsəlman, padşahının ətrafına toplanmışdır.*

*Bütün aləmi-islam, həpimiz ruhumuzun infialını [həyəcanını, coşmasını] burada izhar ediriz. Hissə malik olan millətlər ölməzlər, öldürüləmməzlər. Ölsələr, bəsübə'dəlmövtə [ölümdən sonra dirilişə] malik olarlar. Duyğusu, hissi olmayanların təkrar dirildiyini görürüz. Nasıl olur da, bu müəzzəz [əziz] hissi darülfünunda, burada izhar etmiş olan bir millət qaldırıla bilər?*

*Biz müsəlmanlar Allaha etiqad və onun ədalətinə imanımız vardır. Zaman bizimlə bərabər olacaqdır və Cənabi-Haqq haqqımızı istehsal edəcəkdir. Haqq kəlməsi həm hüququmuzu, həm Cənabi-Kibriyanı [Allahı] ifadə edir. Hissiz qadın türk qadını deyildir."*

Bədəhu [sonra] Təhsin Fazil bəy bərvəchi-zir bir nitq irad etmişdir [aşağıdakı kimi bir nitq söyləmişdir]:

*"Qardaşlar!*

*Pək dərin hörmətlərlə təqdis etdiyimiz [müqəddəsləşdirdiyimiz] camelərimiz, mədrəsələrimiz, bütün müqəddəsatımız [müqəddəs dəyərlərimiz], sevgili İzmirimiz, həpsi, həpsi iştə bu gün yalançı bir haqq və ədalət naminə zorla əlimizdən alınır, boğazlanır, irzimiz, namusumuz çiynənir [tapdalanır], yaşamaq haqqımız qəsb olunur.*

*Ey türk!*

*700 sənəlik səltənətin qəlbinə endirilmək istənən paslı xəncər səni milli vəzifənə dəvət edir. Pək əla bilirsən ki, İzmir dədələrinin qəhrəmanlığı ilə yoğrulmuş Anadolumuzun bir beşiyi, bir yatağı, nəhayət, bir məzarıdır. Bu gün İzmirsiz bir Anadolu ruhsuz bir cəsəddir. Vətən bu gün üçün səndən sükunət, yarın üçün həyat və hərəkət bəkləyir.*





*Qardaş!*

*Bu gün düşmənlərin yayqaralarından [hay-küyündən] saqın kədərlənmə və bil ki, səni fəlakətə, inqiraza [çöküşə] sürükləyəcək kədərindir. Saqın bədbin olma."*

Mütəaqibən [onun ardınca] Hüseyn Raqib bəy bir nitq irad etmiş və demişdir ki:

*"Aydın efesi və onun əsəbiyyəti-qövmiyyəsi [milli təəssübkeşliyi, milli qeyrəti] öylə bir ustura [ülgüc] mahiyyətindədir ki, onu udmaq istəyənlərin qırtlağını yırtar. Bizimlə bərabər yaşamaq istəməyənlər üçün qapılarımız açıqdır. Gəldikləri yerə gedə bilərlər. Fəqət biz kəndi yurdumuzda heç bir millətin bizə hakim, bizə əfəndi olaraq yaşamasına təhəmmül edəmməyiz [dözə bilmərik]. Bizi qovmaq istəyənlərin haqqı satır və kötük olacaqdır."*

Bunlardan sonra daha bir çox nitqlər irad edilmiş və təzəhürati-milliyyədən [milli tələblərdən] zati-həzrəti-şəhriyarini [padşah həzrətlərini] xəbərdar etmək üzrə mabeyni-hümayuna bir heyəti-məxsusə [xüsusi bir heyət] ezam edilməsi qərargir olduqdan [qərarlaşdırıldıqdan] sonra mitinqə nəhayət verilmişdir.

**Mitinq heyəti Sarayi-hümayunda**

Mitinq heyəti tərəfindən müntəxəb [seçilmiş] heyət dün Sarayi-hümayuna gedərək sərqərini-həzrəti-padşahi Yavər paşa tərəfindən böyük bir təəssürlə [mütəəssir, kədərli, duyğulu bir halda] istiqbal edilmişdir [qarşılanmışdır].

Heyət mitinq qərarını zati-həzrəti-şəhriyariyə iblağ eyləmiş [bildirmiş] və tərəfi-şahanədən izhari-təəssür buyurulmuşdur [padşahın mütəəssir olduğu, kədərləndiyi bildirilmişdir].

Heyət bədəhu [sonra] ezaz və ikram edilmiş [əzizlənmiş və hörmət görmüş] və ərzi-şükran ilə övdət etmişdir [təşəkkürünü bildirməklə geri qayıtmışdır].

## DAĞISTANDA

**Şimali Qafqaziyanı dabravollardan boşaltmaq əmri**

*(Xüsusi)*

Cənubi Rusiyanı (Şimali Qafqaziyanı) Dabravol ordusundan boşaldıb tezliklə Dabravol ordusunu Rusiyaya çəkmək haqqında Yekaterinodarda olan Cənubi Rusiya Qüvayi-müsəlləhəsi [Silahlı qüvvələri] Baş komandanından 1073 nömrəli bir əmrnamə alınmışdır. Baş komandan elan edir ki, vətənin xilası vahid komandanlıqla, vahid və ali hökumətdən asılıdır. Baş komandan xəbər verir ki, o özü də Rusiya dövlətinin Baş hökmdarı və Rusiya ordularının Baş komandanı olan admiral Kolçaka tabe olur.

**Butayevin həbsi**

Dağıstan Hökumətinin sabiq naziri [Aslambek] Butayev öz işlərini bitirməkdən ötrü Tiflisdəki Zaqafqaziya Konfransından qayıtdıqda, iyunun 13-də Petrovsk mövqifində [stansiyasında] dabravol [könüllü] əsgərləri tərəfindən həbs edilmişdir.

**Teymurxanşurada**

Teymurxanşuradan [Buynakskdan] xəbər verirlər ki, mühimmati-hərbiyyənin [silah-sursatın] və qeyri ləvazimatın kazaklara verilməsi haqqındakı xəbərlər əhalini həyəcana salmışdır. Şeyx Əli Hacı

[Akuşinski] bu xəbərin doğru olmağını soruşub, Dağıstan əhalisinin müsəlləh [silahlı] surətdə hücum edəcək ehtimalı olduğunu göstərir. General [Mikayıl] Xəlilov cavab məktubu və əmrnamə nəşr edib, bu şayiələrin əsilsiz fikirlər olduğunu göstərmişdir. Əhali arasında müşahidə edilən həyəcana görə Teymurxanşuraya Dabravol ordusu hissələri gəlmişdir. Hökuməti camaat tərəfindən intixab edilmiş [seçilmiş] nümayəndələrə verməkdən ötrü Dağıstan hökmdarı ramazan ayının 5-də Teymurxanşurada ictima [yığıncaq] dəvət edilməsi binagüzarlığını [sərəncamını] vermişdir. Həmin ictimaya general Erdeli də gələcəkdir.

**Admiral Kolçakın əks-təklifi**

Petrovskdan alınmış son xəbərlərə görə, şəhərdə admiral Kolçakın nim-rəsmi [yarı rəsmi] surətdə olan cavabı şəhərin divarlarına yapışdırılıb və ağızda da şaye olmaqdadır [şayiə kimi danışılmaqdadır]. Bu cavab bolşeviklərin başçısı olan Leninədir.

Admiral Kolçak şimdilikdə Rusiyada davam edən Vətəndaş müharibəsinin Rusiya üçün mühlik [təhlükəli, öldürücü] bir şey olduğunu etiraf edərək, firqə münaziəsindən [çəkişməsindən] nəşət etmiş [irəli gəlmiş] olan qan tökülmənin dayandırılmasını lazım bilir. Fəqət yalnız sosialist firqələri başçılarından hökumət təşkil edilməsinə razı olmayıb, Kolçakın rəyinə görə, hökumətə yalnız firqələrdən deyil, hər bir siyasi cərəyan nümayəndələri daxil olmalıdırlar. Sonra Kolçak tələb edir ki, bolşeviklər əllərində olan silahı təslim edərək bütün rus cəbhələrində hərəkati-hərbiyyəni dayandırsınlar. Bundan əlavə, tələb olunur ki, ancaq edam cəzası tərk edilib, bolşeviklər gələcəkdəki Məclisi-Müəssisana müti olsunlar. Axırda Kolçak bunu da bəyan edir ki, hərgah bolşeviklər sazişə gəlməsələr, dabravolların şiddətli təcavüzlərinə düçar olacaqlar və gələcəkdə bolşeviklər Ümumrusiyanın Fövqəladə Divanına veriləcəkdirlər.

## BAKIDA DÜNKÜ QƏLƏYANİ-HƏMİYYƏT

Azəri türkləri müqəddəratlarını əllərinə aldıqları gündən şimdiyə qədər kəndi hakimiyyət və millətlərinin, hürriyyət və istiqlaliyyətlərinin bəhəqq [həqiqi] qiymətini təqdir və mühafizeyi-mövcudiyyətə malik olmaq haqqını da ehqaq [haqqını verən, o haqqa layiq olan] və əbədiyyən də haqq və hakimiyyət və istiqlaliyyətə layiq bir millət olduğunu mütəddid [çoxsaylı] dəfələr göstərmiş, sırası gəldikcə yenə göstərəcəkdir.

Bundan məqsəd, Rusiya hökumətinin Qafqaz millətlərində qətiyyən bir haqqı və millətlərin isə rus istibdadına əsir olmağa dəxi heç bir məcburiyyətləri olmadığı halda, o mənhus idarə bu millətlərin hüquqi-milliyyə və hüquqi-sərihələrini [açıq-aşkar hüquqlarını] qəsb və hər şeydən məhrum bir istibdad əsarətinə məhkum eyləmişdir. Bilaxirə [sonra], şu millətlərin səlaməti və hüquqi-məğsubələrinin istirdadı [qəsb edilmiş hüquqlarının geri alınması] xüsusunda, saheyi-ədalətin isə o həlqeyi-mələnətdən təxlis ilə [o lənətli halqadan xilas olmaqla] haqqı həqiqətən təzahür yolunda məhzən [məhz] aləmi-mədəniyyət və aləmi-insaniyyətə bir xidmət olmaq üzrə milyonlarca məhəbbətkaranın [məhəbbət bəsləyənlərin] xunrizanə [qanlı] çarpışmaları ilə meydana gələn rus inqilabı Qafqazda bulunan miləl və əqvama [millətlərə və tayfalara] maddi və mənəvi bir səlahiyyət və sərbəstiyi-tammə [tam bir sərbəstlik] bəxş eylədi.

İştə, bu səlahiyyət və sərbəstlik sayəsində hər millət bulduğu mühit daxilində haqq və hakimiyyət və millət və hüquqi-hökmraniləri ilə qayeyi-amallarını kəndi əllərinə aldılar.

Şu şərtlə ki, irəlidə müstəqillən yaşamaq kimi bir üsuli-idarənin təmini cəhətində müqtəzi şəraiti haiz olan [lazım gələn şərtləri özündə daşıyan], daha doğrusu, daimi surətdə mövcudiyyətini göstərən bilcümlə miləl və əqvamdan ötədən bəri məskun və mütəvəttin [bir yerdə yerləşmiş və bir yeri özünə vətən tutub yaşayan] yoluna gəldiyi mühitdə hər qövm mənsub bulunduğu millət və milliyyətindən münfək və mütəfərriq [ayrılmış və qopmuş, uzaqlaşmış] bulunmamaq və başlıbaşına idarə olmaq haqqını da kəsb eyləmək [qazanmaq] şərti ilə bu kimi hüquq və şəraiti cəm olan millətlərin elani-məşrutiyyətdən sonra müctəmiən [birgə] və müstəqillən idarə olmaq haqqına malik olmalarından dolayı Qafqazda bir qaç hökumət meydana gəldi.

İştə bu səbəbdən olaraq Qafqaz hökumətlərinin hüququnu mühafizə eyləmək və hər bir millətin müqəddəratını kəndi əlinə tövdi [tapşırmaq] və eyni zamanda da bir millət digər bir millətin bir qarış torpağına əl uzatmasına və bu kimi məsaildən mütəvəllid [məsələlərdən irəli gələn] qarışıqlar zühuruna meydan verilməmək üçün Qafqazdakı gənc hökumətlərin istiqlaliyyətlərinin müvəqqətən himayəsi düvəli-müəzzəmə [böyük dövlətlər] tərəfindən təmin və bu vəsilə ilə şimdiyə qədər yenə hami sifəti ilə Qafqazda hami dövlətlərin ordusu bulunur.

Şurası şayani-ərzdir [qeyd edilməlidir] ki, bugünkü gündə Qafqazda hüquqi-miləl olduğu üçün hər hanki bir millət təksiri-nüfusca [əhalinin sayına görə] əksəriyyətə malik olduğu halda həmhüdud bulunduğu hər hanki bir hökumətə əksəriyyətlə iltihaq eyləmək [qoşulmaq] fikrindəki sərbəstiyi-amalü əfkarına [arzu və düşüncə sərbəstliyinə] malikiyyəti hissi ilə bu fikrin tərvicinə mümaniətə [rəvac tapmasına mane olmağa] heç bir kimsənin haqq və düxulu [dəxli] olmayacağını gərək Rusiya inqilabi-kəbiri [böyük Rusiya inqilabı] və gərəksə düvəli-hamiyyə [himayəçi dövlətlər] bu xüsusu məqul [mümkün, ağlabatan] və milli bir səlahiyyət vermiş ikən, Denikin[in] Dağıstanı işğal ilə təkrar rus istibdadını diriltməsi, xülasə, Qafqazda zühura gələn bu kimi amali-məfsədətcuyanə hərəkatın [fitnəkarlıq məqsədi güdən hərəkətlərin] alət və səbəbiiqası [icra edilməsinin vasitə və səbəbi] rus müstəbidlərinin və Denikin misilli düşmənlərinin fikri-xainanələrini tərvicə [xaincə planlarına rəvac verməyə] çalışmalarına heç bir məna verilməyir.

Halbuki dağıstanlılar, hüquqi-millisinin mühafizəsi uğrunda ta əvvəlcə rusun köklü istibdadında belə 25 sənə mütəmadiyən [fasiləsiz] qan tökmüşdür. O vaxtlar belə mövcudiyyətini göstərmişdir. Hüququnun müdafiə və istirdadı [əldə edilməsi] üçün çalışan və çarpışan bir millətin haqqı heç bir vaxtda kətm edilməmişdir [gizlədilməmişdir, üstü örtülməmişdir].

Hürr məmləkətlərə təkrar rus istibdadını soxacaq və kəndisinə bir mövqe işğal edəcək demək, bir taqım ünsürü ətrafına toplayaraq əsassız bir məqsədin və məntiqsiz bir hərəkatın nəticeyi-əliməsindən mütəvəllid [əzablı nəticəsi səbəbindən] Qafqazda Denikinin xəyanəti rollarında tökülən qanların, sönən xanimanların səbəbi həp istibdadı diriltmək deyilmidir?

Hənuz vücuda gəlmiş gənc hökumətlərin saheyi-aləminə siyahlar [qaralar] və gəncineyi-həyatına xatimələr [həyat xəzinəsinə son vermək], tərəqqi və təfəyyüzünə [inkişafına və yüksəlməsinə] maneələr, iqbal və istiqbalı [bəxti və gələcəyi] ilə hürriyyət və istiqlaliyyətinə sədlər çəkmək və zərbələr vurmağa qalxışmaq şöylə dursun, bunların müqəddəratları ilə pəncələşərək məhvinə çalışmaqla ölmüş bir rus istibdadına təkrar can verməkmi istəyirlər?

Lakin yenə Denikinin dediyi olmadı. Denikinin bundakı istifadəsi ancaq bir cinayət hürriyyəti olmuş oldu. Denikin Dərbəndə qədər gəldi. Denikin gələmməzdi. Denikini gətirdilər. Denikini gətirən əsbab [səbəblər] isə [Mikayıl] Xəlilov və əmsalı misilli [bənzərləri kimi] xaini-din və xaini-millət olan alçaqlardır. Bunu isə bilsinlər ki, Qafqazdakı 30-40 milyon islamın ağ ciyəri Azərbaycan isə, qaraciyəri Dağıstandır. Bu iki cüz heç bir vaxt birbirindən ayrılmaz. Netəkim də ayrılmadı. Dağıstanlılar o vaxt məğlub olmuşdusalar, fəqət ruhları ölməmişdi.

Bu Dağıstan məsələsi əhalimizdə o qədər bir qələyan [həyəcan] hüsula gətirdi ki, hətta dünkü gün Bakıda bilümum [bütün, ümum] əhalimiz və bütün fəhlələrimiz, ümumiyyətlə tətil və bir əhli-səlib [xaçlılar] kimi bir ordu təşkil edərcəsinə əllərindəki hürriyyət və istiqlaliyyətlərinin nümuneyi-müməssili [timsalı, nişanı] olan rəngarəng bayraqlarla Bakı şəhərinin hər tərəfin[d]ə – əvvəla ingilis qərargahının, sonra da Parlamanın önündə Denikin və sayəsi olan xainlərin əleyhinə mitinqlər və nümayişlər əqd [təşkil edərək] və minlərcə zükur və ünasın pişi-ənzarında [kişilər və qadınların gözü qarşısında] meydana bir atəşpareyi-cəladət [cəsarət qığılcımı] kimi atılan natiqlərin və o həmiyyətməndanın [vətən və millət qeyrəti çəkənlərin] söyləməkdə olduqları atəşin və hərarətləri nitqlərinin hər kəlmə və fəqərəsində [bəndində] təkrar-təkrar "Qəhr olsun Denikin", "Qəhr olsun xainlər" misilli təhriki-qələyan [təhrikedici, qızışdırıcı] kəlmələrinin südurunda [meydana çıxışında] hazirunun yekzəban və yekfikir [camaatın bir ağızdan və həmfikir olaraq] və mərbut [bir-birinə bağlı] bir qəlblə xalisanə olaraq [ürəkdən, səmimiyyətlə] "Qəhr olsun" nidaları ilə təsdiq və iştiraki-amal və iştiraki-əfal [niyyət və əməllərə qoşulması] və dəqiqələrcə sürəkli davam edən şiddətli alqışlar da bu millətin nasıl bir yaşamaq haqqına mühiqq [layiq] və nasıl bir mühafizeyi-mövcudiyyətə malik və hökumət və istiqlaliyyətinə nə kimi bir zəhir [dayaq] və müin [köməkçi] olduğunu bu kərə yenə göstərmiş olduğu əzm ilə mövcudiyyətini isbat eylədi.

Hökumətin və Parlamanın isə hakimiyyət və istiqlaliyyətinin əmnü mühafizəsi [təmin edilməsi və qorunması] uğrunda nasıl bir köks gərəcəyi və nə dərəcə gərmiyyətdə bulunacağı [nə qədər hərarətlə çalışacağı] keçənki Məclisi-Məbusanda vermiş olduqları vəd və təminatlarla qərarlarından anlaşılmış və bu vəd və qərarlarının da həqiqətən amil [təsirli] olduqları təqib edilməkdə olan məsai [səy] və ittixaz edilə gələn tədabir və təvəssül [daimi surətdə həyata keçirilən tədbirlər və görülən işlər], əsasən göstərir, demək ki, nə millətin hökumətə qarşı bir deyəcəyi qaldı və nə də hökumətin millətə.

Hökumət millətinə hakim və millət isə hökumətinə köməkçi olunca, hər şeydə istehsali-müvəffəqiyyət [müvəffəqiyyətin əldə edilməsi] Allahdandır.

Öylə isə, yaşasın mərbutiyyət [bağlılıq, sədaqət]. Var olsun milliyyət, həmiyyət. Qəhr olsun xain fikirlər.

*Çubuqçuzadə Yusif Camal*

## QARABAĞ MƏSƏLƏSİ

Qarabağ məsələsinin sülh və asayişlə həll edilməsi xüsusunda nə qədər qəzetələrdə məqalələr, nəsihətlər yazıldısa da, siyasi məhfillərdə [dairələrdə], məclislərdə və Parlamanda nə qədər mübahisələr, sübut və dəlillər gətirilib Qarabağın Azərbaycanın ayrılmaz bir hissəsi olması danışıldısa da, ağıl və məntiqlə işi həll etməkdən həmişə uzaq qaçan daşnaklar axirüləmr [axırda] genə də yüzlərcə fəqir və bigünahların qanlarına bais olub, yüzlərcə uşaqları atasız qoyub, xanimanları viran qalmağa bais və səbəb oldular.

Qarabağa general-qubernator təyin edilmiş [Xosrov bəy] Sultanov cənabları budur tamam dörd aydır ki, gah Şuşadakı ingilis nümayəndələri ilə və gah bizzat [şəxsən] ermənilərin sərkərdə və nümayəndələri ilə mülaqatda bulunub [danışıqlar aparıb], məsələnin qan tökülməksizin həll edilib qurtarmasına çalışmaqda idi. Dəfəatla [dəfələrlə] yığıncaqlar, iclaslar olub, laəqəl [heç olmasa] ingilislərin özləri dedikləri kimi, Sülh Konfransının axırına kimi Qarabağın hökuməti erməni və müsəlmanlardan mütəşəkkil bir idarənin əlinə tapşırılmasına da inadlı ermənilər genə də razı olmayırdılar. Bu razı olmamaqları bir tərəfə dursun, hətta Şuşada oturub bütün Qarabağın Ermənistanını [Qarabağın ermənilərini, ermənilər yaşayan yerlərini] çulğalayıb, hər iki-üç həftədən bir milli qurultaylar qurub əhalini dinc və sakit öz işinə getməyə buraxmayırdılar. Bütün bu günahlar həman beş-altı nəfər İşxanyanlar ilə Şahnazaryanların inad və hisslərinin nəticeyi-mənhusələri [pis, nəhs nəticələri] idi ki, axirüləmr iyunun 5-dən başlayıb genə Qarabağ səhralarını, dağlarını və meşələrini günahsız insan qanına və ahü-naləyə boyadı.

Şuşada olan Milli Komitənin "siyasəti" nəticəsi olaraq bu axırlarda heç bir gün yox idi ki, Şuşanın ətraf kəndlərinin yavuqluğundan keçən Şuşa yollarında ermənilər müsəlmanlara hücum edib qətlqarət etməmiş olsunlar. Böylə ayrı-ayrı ittifaqlar [hadisələr] çoxalıb axırda ümumi bir partizan davasına mübəddəl olmuşdu [çevrilmişdi]. Ermənilərin hücumları, gündüz günorta çağı beş-altı nəfər yol ilə keçən müsəlmanların mal və atları ilə bir yerdə oğurlanması və hətta meyitlərinin də verilməməsi hətta ingilisləri də heyrətə salmışdı. Bu axırlarda çöldə, yollarda

olan hadisələr yavaş-yavaş şəhərə də sirayət etmişdi.

İyunun 2-də üç nəfər müsəlmanlardan şəhərin erməni hissəsində tutulub tərki-silah edilməsi camaatı bir az həyəcana salmışdı. Bu tərəfdən də şose ilə gedən köçərilərə erməni hissəsi tərəfindən daimi güllələr atılıb və hərdənbir hücumlar edilib at, qoyun oğurlanması da əfkari-ümumiyyəyə [ictimaiyyətə] pək fəna təsir etməkdə idi.

Şuşanın erməni hissəsində müsəlmanlara olan hücumlar, hədələr o qədər artmışdı ki, poçta, dövləti xəzinə [dövlət xəzinəsi] və sair dövləti idarələrə müsəlmanların gediş-gəlişi kəsilmiş kimi idi. Hətta erməni hissəsində Azərbaycan hökumətinin tərəfindən nəşr edilmiş təzə pulları da qəbul etməyib, alış-veriş etməyirdilər.

Qarabağın və baxüsus [xüsusilə] Şuşa şəhərinin əhvalını və həyati-ictimaiyyəsini bilənlər özləri biləcəklər və təsəvvür edəcəklər ki, iş bu məqama yetişəndə həyati-ümumi hanki bir halətdə olar. Ermənilər qəsdən və əmdən [bilə-bilə] getgedə əfkarı [fikirləri] və ruhları həyəcana salıb, dəstə-dəstə bazarlarında və şəhərin kənarlarında gəzməklə özlərinin bir hücuma və ya davaya hazırlanmaqlarını sübut edirdilər.

Ayın 5-ci günündə müsəlman hissəsində olan bir neçə nəfər erməni sənətkarları, dərzilər, xərratlar, xəncər, tüfəng ustaları saat 10 tamam olan kimi qapılarını bağlayıb əcələ ilə öz məhəllələrinə getdilər. Bu əhvaldan yarımca saat keçməmişdi ki, erməni hissəsindən əvvəlcə meydançadan, sonra kazarma və Üçmıx tərəfindən tüfənglər açılıb, köçərilərə və müsəlman hissələrinə güllələr yağdırılmağa başlanıldı. Dərhal ermənilər dəstələrlə öz səngərlərinə çəkilməyə başladılar. Bununla bərabər, yüz nəfərə kimi müsəlləh [silahlı] ermənilər Zastav tərəfdə köçərilərin səlamətliyi üçün və onları yola salmaq üçün qoyulmuş mühafizə dəstəsinə hücum edib onları tərki-silah etməyə qəsd etmişlər. Bunların arasında bir az atışma olub, üç-dörd nəfər əsgər və bir nəfər də zabit yaralanıb, axırda bir nəfər əsgər tərəfindən açılmış əl bombası ilə hücum edənlərdən bir neçəsi yaralanıb, yerdə qalanı da qaçmağa üz qoyublar.

İşin əvvəlində qarma-qarışıq düşən kimi ermənilər hücum edib köçərilərdən bir neçə nəfər kişi və övrət və bir qədər də mal-qaralarını tutub öz aralarına aparmışlar.

Bu əhvalat əhaliyə yetişən kimi dükan-bazar bağlanıb, hərə tüfəngini götürüb bir türfətüleyndə [bir göz qırpımında] səngərləri tutub davaya amadə [hazır] oldular. Şuşadakı batalyonun cavan əsgərləri ildırım kimi hücum edib əhali ilə bir yerdə erməni hissəsinin qabağında olan, ermənilərin ən mühüm olan Üçmıx adlı səngərlərini işğal etdilər. O gün sübhdən başlanmış atışma axşamadək davam etdi.

Bu arada ingilislərin nümayəndələri gəlib general-qubernatora vədə verdilər ki, işi sülhlə qurtarmaq üçün qubernator hanki tələbləri edərsə, onlar erməniləri məcbur edəcəklər ki, tələbat qəbul edilsin. Bu əhvalatdan sonra əhalini sakit edib cuş-xüruşa gəlmiş milli qələyanı [aşıb-daşan milli həyəcanı] saxlamaq istəyən general-qubernator həzrətləri olmazın





zəhmət və məşəqqətlərlə ancaq ikinci gündə atışmanı kəsib sakitlik sala bildi. Ermənilərin həyasızlıq dərəcəsinə çatmış qaba hərəkətləri, orada-burada namərdanə hücumları əhalini o qədər təngə gətirmişdi ki, uşaqdan böyüyə kimi hamı istəyirdi ki, birdəfəlik bu işə bir xitam çəksinlər.

General-qubernatorun ingilislər vasitəsilə erməni hissəsinə verdiyi ultimatumu hələlik bu iki mətləbdən ibarət idi: Birisi, ermənilərin Mərkəzi Milli Komitəsi əzalarının [üzvlərinin] Azərbaycan dairəsindən nəfy [sürgün] edilmələri və ikincisi, Azərbaycan qoşunu ilə erməni hissəsindəki kazarmanın işğal edilməsi. Ultimatumun əvvəlinci maddəsi həman gün əmələ gətirilib, ingilislər erməni Mərkəzi Komitəsinin 4 nəfər üzvlərini həbs edib general-qubernatorun idarə nümayəndəsi ilə Azərbaycan sərhədinə kimi nəfy edilməyə göndərildi. İkinci maddə üçün iki gün vaxt istənildi ki, orada olan erməni qaçqınları oradan çıxarılıb kazarma təmir edilsin. Ancaq bu maddələr qəbul ediləndən sonra qubernatorun tərəfindən təyin edilmiş nümayəndə Səməd bəy Cəmillinski və bir neçə nəfər də ingilis zabitləri müsəlmanların səngərlərini gəzib qubernatorun hökmünü və atışmanın kəsilməsini onlara elan etdilər.

Ayın 7-də sübh saat 6-da ultimatumun ikinci hissəsi də qövldən feilə gəldi [həyata keçdi]. Şuşada olan batalyon və general-qubernatorun xüsusi konvoyu (kürdlər) nizamla batalyon komandirinin təhti-komandasında [komandası altında] olaraq erməni hissəsinə keçib kazarmanı işğal etdilər. Bu iş tamam şəhərin həyati-ümumisinin genə də öz qaydasına keçməsinə bais oldu. Məlum oldu ki, şəhərdə olub daimi əhalini qarışdıran və Azərbaycanın ziddinə gedən ermənilərdən bir çoxu həmin gecə şəhərdən çıxıb qaçıblar.

Bu intriqaçı və müfsidlərin [fitnəkarların] şeytənətkaranə halları nəticəsiz qalmadı. Həman o adamların təşviqləri ilə yol ilə keçən köçərilərə Qaybalı kəndində hücum olubmuş. Əvvəlinci gündə Qaybalı kəndlilər hücum edib köçərilərdən bir neçəsini öldürübmüşlər. Üçüncü gündə köçərilərin dalısı da gəlib güclənəndən sonra onlar özləri bir yerə yığılıb həman Qaybalı kəndə hücum ediblər. Axırda ermənilər qaçıb, arvad-uşaqlarını qoyub meşələrdə gizləniblər. Köçərilərdən kəndə girib həman kəndi yandırmağa başlayıblar.

Bu əhvalat qubernatora çatan kimi filfövr [dərhal] öz adamlarını göndərib kəndi yanmaqdan saxlamaq istəmişsə də, amma iş işdən keçibmiş. Odur ki fövri [dərhal] həman kənddən qaçan arvad-uşaqları yüz nəfərə kimi qubernatorun adamları yığıb öz mənzilinə gətiriblər. Qubernator bunlara artıq mehribanlıq edib, dərhal çörəklərini verdirib istirahətlərinə çalışmışdır. Həmin tövr hücum edib köçərilərlə dava başlayan Bəhlul, Kərkicahan və Daşaltı kəndləri də köçərilər tərəfindən əhatə edilib yandırılmaq istənildiyi zaman qubernator xəbər tutub bu kəndləri yanmaqdan xilas etmişdir.

İndi bu saat Şuşada sakitlikdir. Həyat öz ümumi qaydasına girmişdir. Lakin şayiə və rəvayətlər var ki, ermənilər dəstə bağlayıb Əsgərana hücum etmək istəyirlər.

Təzədən vüqu bulacaq əhvalatı yazaram.

*Məhəmməd Sadıq Axundzadə*

## BAKI XƏBƏRLƏRİ

**"Xalq sözü"**

Bu gün saat 2-də hər gün gündüzləri nəşr olunmaq üzrə türk dilində "Xalq sözü" adında yeni bir qəzetə nəşr ediləcəkdir.

**Çay fabrikasının qapanması**

Neçə vaxt bundan əqdəm [qabaq] Bakıda açılmış olan çay və qəhvə fabrikası gözlənilən surətdə mal istehsal etmədiyi müayinə və təsdiq edildiyindən, Bakı qubernatoru sərəncamı ilə qapanmışdır. Fabrika məhsulatı Bələdiyyə İdarəsinin Tibb-səhiyyə şöbəsi təbibləri tərəfindən işlənməyə lüzumsuz və zərərli olduğu təhqiq edilmişdir.

**Tacirlərin ərizəsi**

Bakıda olan bir çox tacirlər ərizə ilə qubernatora məlum etmişlər ki, onlar Lənkəranda külli miqdarda meyvə və qeyri mallar almışlardır. İndi həman malları Bakıya gətirmək mümkün olmadığından zaye olur. Bunu nəzərə alaraq tacir-lər malların Bakıya gətirilməsindən ötrü gəmi verilməsini xahiş edirlər. Tacirlər Lənkəranda bir çox yerlərdə bağ və bos-tan aldıqlarını dəxi əlavə edirlər.

**Həbsdən azad**

Bakı qalabəyisi [komendantı] tərəfindən edilən binagüzarlığa [sərəncama] görə, Bakı sakini Hacı Vahab Hacı Abbas oğlu öz oğlanlarını əsgərlikdən qaçırmaq qəsdi ilə gizlətməkdə müttəhim edildiyindən həbsə alınmışdı. İndi məzkurun [adı çəkilən şəxsin] oğlanları gəlib əsgərliyə yazıldıqlarından, özü həbsdən azad edilmişdir.

**Əsgərlikdən qaçmaq cəzası**

- Pirşağı kəndi əhlləri Vəliməhəmməd Hacı Əbdüssalam oğlu oğlunu əsgərlikdən qaçırmaqda müttəhim edildiyindən altı ay müddətinə həbsə alınmışdır.
- Nardalan kəndi əhlləri Kərbəlayi Əbdülbaqi Hacı Qədir oğlu, Məşhədi Abutalıb Məhəmmədəli oğlu və Sadıq Əmanulla oğlu öz oğlanlarını əsgərlikdən qaçırmaq qəsdi ilə gizlətməkdə müttəhim və oğlanları gəlincəyə qədər məhbus edilmişlərdir.
- Hövsan kəndi əhli Məhəmmədrəhim Atakişi oğlu öz oğlunu gizlətməkdə müttəhim edilərək oğlu gəlincəyə qədər həbsə alınmışdır.

**Sürgün**

Bakı qalabəyisinin binagüzarlığına görə, Babacan Osipov, Andrey Kolesnikov, Qramov, Lavrentiyev, Babayev və Cahangir Qasım oğlu asayişi-ümumini pozmaqda müttəhim və müzirr [ziyankar] şəxslər olduqları üçün Bakıdan sürgün edilirlər.

**10 000 manat mükafat**

Neçə vaxt bundan qabaq Bakıdakı Azərbaycan qoşun hissələrindən neçə nəfər əsgər ilə zabit Hacıağa Qasımov əslihə [silah] tutulan gəmini mühafizə üçün oraya təyin edilmişlərdi. Qasımov gəmidən bir çox şeylər oğurlayıb və tənbehdən qorxaraq 37 nəfər süvari əsgərləri özü ilə bərabər Bakıdan aparıb gizlənmişdir. Qaçaqlar getdikləri yollarda bir çox qarətlərdə bulunmuşlardır. Onları axtarmaq üçün ciddi tədbirlər ittixaz edilmişsə [təbirlər görülmüşsə] də, nəticə verməmişdir. İndi Bakı qarnizon naçalniki məlum edir ki, zabit Qasımov nə yerdə olduğunu bilən şəxslər tezliklə naçalnikə xəbər verməlidir. Həmin xəbəri gətirən şəxsə hökumət tərəfindən 10 000 manat mükafat veriləcəkdir.

**Saxta sənədlərlə pul almağa qəsd**

Bakı təhərri [axtarış] polis müdiri qubernatora məlum etmişdir ki, neçə gün bundan əqdəm [qabaq] neçə nəfər naməlum şəxslər saxta sənədlər vasitəsilə xəzinədən külli miqdarda pul almaq istədikləri haqqında məlumat alaraq öz agentələrindən bir nəfərini orada növbəyə qoymuş və həman şəxslər 550.400 manat pul alıb getdikdə sənədlərinin saxta olduğunu kəşf və özlərini tövqif [həbs] etmişdir. Göstərilən məbləğ xəzinəyə qaytarılıb və şübhə üzrə orada qulluq edən bir nəfər dəxi tövqif edilmişdir [tutulmuşdur].

**2 milyon manat qarət**

Naberejnı küçədə Dadaşovun dokunda sükunət edən Böyükxanım Dadaşovanın evinə 8 nəfər naməlum şəxslər gəlib təhərri [axtarış] polis məmurları adlanaraq axtarış icra edərək getmişlərdir. Onlar getdikdən sonra xanım evindən 2 milyon manatlıq cəvahirat və pul qarət edilməsini kəşf etmişdir. Bədəfkarları tövqif etməkdən [cinayətkarları tutmaqdan] ötrü təhərri polis müdiri tərəfindən ciddi tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

**İkinci uçastok ev komitəsində**

Bolşoy Krepostnoy küçədə, 47 nömrəli evdə olan ikinci uçastok ev komitəsi həman uçastokda yaşayanlara xəbər verir ki, ikinci uçastokda olan kor uşaqların siyahısı yazılmaqdadır. Ev komitələrinə təklif edilir ki, az bir zamanda kor uşaqların siyahısını uçastok komitəsinə göndərsinlər.

**Türk Müəllimləri İttifaqında**

- Türk Müəllimləri İttifaqının ümumi iclası, hazırlanmış və idarə tərəfindən təsdiq olunmuş ibtidai məktəblərin proqramını təsdiq etdi. İdarə şu proqrammanı Maarif Nəzarətinə göndərərək rica etmişdir ki, Nəzarət təsdiq edib tezliklə nəşr etsin, ta ki hər bir kitab təlif edənlər [yazanlar] şu proqrammaya mütabiq [uyğun] kitab təlif etsinlər. Hər bir məktəb şu proqrammadan Nəzarətdən istəyə bilər. Deməli, gələn sənə ümum məktəblərdə tərtib olunmuş proqramma üzərinə tədris başlanıb, hər bir yerdə bir qaydada müntəzəm surətdə dərs olacaqdır. Ali-ibtidai məktəblərin proqrammasının tərtibi müəllim əfəndilərin tətilindən dolayı eylül [sentyabr] ayına kimi təxir edildi.
- Eylül ayından başlayaraq Türk Müəllimlər İttifaqı təlimə dair bir cəridə [qəzet] nəşrinə mübaşirət edəcəkdir [başlayacaq]. Binaənileyh [ona görə], hər bir müəllim şu cəridə üçün tətildən istifadə edərək məqalələr hazırlamalıdırlar, ta ki işə mübaşirət edən zaman məəttəlçilik olmasın.
- Müəllimlərdən xahiş olunur ki, hər kəsin ərzaqdan artıq parası qalıbsa, bu gün saat 9-dan 11-dək gəlib aparsın.
- Türk Müəllimləri İttifaqına müraciət etmək istəyənlər[dən] təvəqqe olunur ki, iyulun 1-dək Bakı Birinci Realnı məktəbinin müəllimi Abdulla Şaiq Talıbzadə həzrətlərinə müraciət etsinlər. Çünki İtti-

faqın sədri Ağa bəy İsrafilbəyzadə iki ay müddətinə məzuniyyətdə bulunacaqdır və Bakıda olmayacaqdır.

**Azərbaycan nümayəndəsi**

Azərbaycan Cümhuriyyətinin Ukrayna siyasi nümayəndəsi [Yusif] Vəzirov cənabları bolşeviklər[in] Odessanı işğal[ın]dan sonra İstanbula azim olmuşdur [getmişdir]. Nümayəndə hal-hazırda İstanbuldadır.

**Doktorların hərbi xidmətə alınması**

Aldığımız mövsuq [etibarlı] məlumata görə, yaxın zamanda Azərbaycan torpağında yaşayan bütün doktorlar siyahı edilərək hərbi xidmətə cəlb ediləcəklərdir.

**Dabravolların həbsi**

Srağagün İnqilab Komitəsi acentələri tərəfindən iki nəfər Dabravol ordusuna [Könüllü orduya] mənsub şəxs tövqif edilmişlərdir [tutulmuşlar]. Onlarla bərabər yüz minə baliğ [yaxın] Denikin parası tutulmuşdur. Məzkurlar [deyilən şəxslər] həbsə alınmışlardır. Məqsədləri Azərbaycanda, xüsusən Bakıda Dabravol ordusu mənafeyinə təbliğat və təşkilat yapmaq imiş.

**"Yardım alayı"nın pulemyotçu bölüyü**

Könüllü ehtiyat "Yardım alayı" cənbində [nəzdində] 150 kişidən ibarət pulemyotçu bölüyü təşkil edilir. Həmin bölüyə 25 yaşından 45 yaşınadək sağlam və salamat bədən sahibi şəxslər qəbul olunurlar. Bölüyün qədəri 150 kişidən artıq olmayacaqdır. Yazılmaq istəyənlər hər gün səhər saat 9-2 və axşam 4-6 kimi "Fani" kontorunda "Yardım alayı" Komitəsinin sədri İsmayıl Faniyə müraciət edəbilərlər.

## AZƏRBAYCANDA

**Şəkidən**

Həmin həziran ayının 9-da Yevlaxdan Şəkiyə gedərkən Şəki ilə Yevlax arasında vaqe "Trud" nam məhəldə [yerdə] bədəfkarlar [cinayətkarlar] faytonçunun 100 min rublə qiymətində olan dörd atını, 10 min rublə nağd pulunu, miniklərin hər əşyasını və külli miqdarda para aparmışlardır. Bu kimi əhvallar ara-sıra vaqe olmaqdadır. Məhəlli [yerli] idarə isə bu xüsusda gözəçarpan bir tədbirə girişməyir. Zamanın əhəmiyyətini nəzərə almayaraq böylə xəyanətlərlə vətən övladını bir daha cəfa və bəlaya düçar edən xainlərə tədabiri-şədidənin ittixazı [şiddətli tədbirlərin görülməsi] üçün hökumətin nəzərini cəlb ediriz.

*Əbdürrəhim Ağakişizadə*

## İDARƏYƏ MƏKTUB

"Azərbaycan" qəzetəsinin 13 həziran nömrəsində 4-cü dairə müfəttişliyi pristavı Kərimbəyov və müavini Axundov əleyhinə Bakı polismeysterinə bir Malışev namın şikayət verməsi barəsində məlumat dərc edilmişdi. Üç ay bundan əvvəl, həqiqətən, Malışev imzası ilə Bakı polismeysterinə bizim əleyhimizdə bir donos verilmişdisə də, donosçu kəşf edilməyərək polismeysterliyə lazımi məlumat verilməklə iş ləğv edilmişdi. Malışevdən əlavə iki nəfər müsəlmanın imzası da vardı ki, onları axtardıqdan sonra kim olduqları və nərədə sakin olduqları belə məlum olmadı. Əlbəttə ki, donos qərəzi-şəxsiyyə [şəxsi qərəz] əsası üzrə verilərək uydurma imzalarla imza edilmişdi. Bu işdə və bizim bilkülliyyə [tamamən] töhmətdən ari [günahsız] və xidmətimizdə hüsn-əməl [yaxşı əməl] sahibi olduğumuz meydana çıxmaqla töhmətlər [ittihamlar] rədd edildi.

*Pristav Kərimbəyov və müavini Axundov*

"Azərbaycan" qəzetəsi idarəsi tərəfindən Piri Mürsəlzadəyə qəzetənin mühərriri olduğunu təsdiq üçün verilmiş olan şəhadətnamə itibdir. Bununla həman şəhadətnamənin etibardan saqit olduğu [etibardan düşdüyü] elan edilir.

*б.*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*8798*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

Moskvada təcrübə görmüş diş həkimi **K. S. Kolandskaya-Sanuxat** kabinə açmışdır. Müalicə edir, dişləri doldurur, süni dişlər qayırır və dişləri ağrısız çəkir. Qiymət münasibdir. Qəbul edir: Hər gün səhər saat 9-2-yədək; aşxam saat 5-7-yədək. Adres: Bazarnı və Suraxanski küçələrin küncündə, nömrə 112.

*8795*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Diş həkimi**
**R. S. Fuks**

Qəbul edir: 9-dan 10-a dək; 5-dən 7-yə dək. Ünvan: Mariinski, nömrə 18. Ferdinandın aptekası ilə bərabər. Telefon nömrə 34-15.

*10202*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**İstanbuldan, İngiltərədən**
**və Fransadan mallar**

İ. V. Denisovun bankir kantorası İstanbula, Marselə (Fransa) və Liverpula (İngiltərə) mal alıb gətirmək üçün nümayəndə göndərir. Sifarişlər İ. V. Denisovun bankir kantorasında qəbul olunur (Nikolayevski və Olqinski küçələrin küncündə) hər gün axşam saat 5-dən 7-dək.

*10210*

**Təzə alınmış**

Amerikanın südü satılır külli miqdarda İ. V. Denisovun bankir kantorasında (Olqinski və Nikolayevski küçələrin küncündə, telefon nömrə 37-75). Az miqdarda isə Qafqazski aptekarski mağazada, Baryatinski, nömrə 6.

*10234*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 315. “drednot”: hərbi dəniz donanmalarında XX əsrin əvvəllərindən etibarən istifadə edilməyə başlanan, güclü artilleriya silahlarına malik zirehli gəmi (drednout).

“imperator Vilhelm”: Alman impertoru II Vilhelm nəzərdə tutulur.

**Sülh ətrafında**

səh. 316. “Himans”: qəzetdə “Gimans” kimi getmişdir.

**İstanbulda həyəcan**

səh. 317. “etmişlərdir” yerinə “edilmişdir” getmişdir.

“xaki-payi-şahanəyə”: “padşaha”; hərfən “padşahın ayağının torpağına" deməkdir.

səh. 319. “Aydın efesi”: “Efe” sözü Türkiyənin qərbində, İzmirin cənubundakı Aydın vilayətində “qəhrəman, igid” mənasında işlədilir.

“satır”: kötük üzərində ət doğramaqda istifadə edilən, enli ağızlı böyük bıçaq.

“mabeyni-hümayun”: Sarayda, padşahın hökumət işləri ilə məşğul olduğu, yanına gələnləri qəbul etdiyi yer.

“sər-qərini-həzrəti-padşahi”: Sarayda, padşahın yanına gələnləri qəbul etdiyi “mabeyn” adlanan yeri idarə edən, padşahla digər şəxslər arasında vasitəçilik edən adam; baş mabeynçi.

**Qarabağ məsələsi**

səh. 323. “İşxanyanlar ilə Şahnazaryanlar”: İşxanyan Qarabağdakı Erməni Milli Şurasının sədri, Şahnazaryan isə üzvü olmuşdur.



***"Azərbaycan" qəzetinin 206-cı nömrəsinin 1-ci səhifəsi***





**Çərşənbə axşamı, 17 iyun 1919-cu il, nömrə 206**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 18 ramazanül-mübarək sənə 1337. 17 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## ELAN

Bakı Şəhər İdarəsi bununla elan edir ki, həziran ayının 19-da səhər saat 11-də Təsərrüfat şöbəsi dəftərxanasında şəhər kioskalarının (budkalarının) icarəyə verilməsi üçün torq olacaqdır. Kioskaların ikisi bulvarda, biri isə Malakan bağındadır. Təfsilatı Təsərrüfat şöbəsinin dəftərxanasında hər gün oxumaq olar.

*T-151*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

### Posta və Teleqraf Nəzarətindən verilən əmrlər

*[Əmrnamə 62]*

Bakı Mərkəzi Posta və Teleqraf bürosunun 3[-cü] dərəcəli məmuru Moisey Kozlovski 4 dərəcəli "Judavstvo Koltuşski" Posta və Teleqraf bürosuna həziran [iyun] ayının 14-dən 1919 sənəsi tarixindən müdir təyin olunur.

*Əmrnamə 63*

Bu sənəsi həziran ayının birində Xaçmaz Posta və Teleqraf bürosunun müdiri Feodor Belousov Bakı Posta və Teleqraf bürosunun 4[-cü] dərəcəli məmuriyyətinə köçürülür.

*Əmrnamə 65*

Bu sənəsi həziran ayının birində 5 klaslı Quba Posta və Teleqraf bürosunun müdiri Georgi Sokolov Bakının 1 klaslı Mərkəzi Posta Bürosunun 2[-ci] dərəcəli məmuriyyətinə köçürülür.

İşbu 62, 63 və 65 nömrəli əmrnamələr türki [türk dilində] "Azərbaycan" qəzetə idarəsinə göndərilir ki, rəsmi sütununda dərc edilsin.

*Dəftərxana baş müdiri: Blajevski*
*1-inci şöbə müdiri: Lyutsov*
*Kargüzar: R[əsul] Rəhimli*

## TELEQRAF XƏBƏRLƏRİ

### Çörçillin nitqi

İngilis Hərbiyyə naziri Çörçillin nitqini "Morninq post" qəzetəsi dərc edir:

*"Lenin ilə Trotski nəcib Rusiya millətini şərəfsiz bir yola çəkdi və böyləliklə Almaniya ordusuna fürsət verdilər ki, böyük bir qüvvə ilə bizim üzərimizə düşsünlər. Keçən il qətl edilmiş olan hər bir fransız və ingilis saldatı həqiqətən də Le-*

*nin və Trotski tərəfindən qətl edilmişdir. Cahan tarixində misli görünməmiş xəyanətlər bu qədər qitala [qırğına] bais oldu. Fəqət yaddan çıxarmaq olmaz ki, hələ də Denikin və Kolçakın təhti-idarəsində [idarəsi altında] yenə Rusiya qoşunları vardır. Bunlar ümumi işə sadiq qaldıqlarına heç bir tərəddüd göstərməyib, məharətlə bolşevizm vəhşəti üzərinə hərb edirlər. Biz onlara əlimizdən gəldiyi qədər müavinət [yardım] ediriz."*

**Odessada**

"Odessa xəbərləri" yazır: Şəhərdə olan 4 min bolşevik matroslar Müttəfiqlər Komandanına müraciət ilə təvəqqe eyləmişlər ki, bolşevik gəmilərini Qara dənizdə gəzdirməyə onlara müsaidə verilsin. Müttəfiqlər cavabında demişlər: "Biz bunun əleyhində deyiliz. Fəqət bolşevik gəmiləri Müttəfiqlərin kontrolluğu altında olmalıdır."

**Bessarabiyada**

Romaniya ilə fransız qoşunları arasında getdikcə münasibat kəskinləşir. Romaniyalılar Bessarabiya əhalisi arasında fransızlara qarşı ədavət qalxızmaq üçün fransızlar və onların qoşunları barəsində cürbəcür uydurma sözlər çıxarırlar.

**Amerika və Rusiya**

Amerika Senatında olan Demokrat firqəsinin nümayəndəsi Mak-Kumber demişdir:

*"Amerikanın borcudur ki, Rusiya müttəfiqi olduğu üçün bilatəxir [dərhal] Rusiyaya kifayət edəcək qədər ordu göndərilsin, tainki bolşevik dəstələri məhv edilib qanuni hökumət təşkil edilsin."*

**Peştədə**

Peştədən xəbər verilir ki, bolşeviklər yüzdən ziyadə burjuyları tutub Romaniya yaxud Müttəfiq qoşunları Macarıstana yürüş edəcəkləri təqdirdə onları öldürəcəklərini məlum etmişlərdir. General Bertlo nəşr etdiyi intibahnaməsində [bəyannaməsində] bəyan edir ki, Müttəfiq qoşunlar Macarıstanı işğal edərək orada asudəlik bərpa edəcəklərdir.

- Nürnberqdən xəbər verilir ki, orada bolşeviklərin mükəmməl təşkilatı kəşf edilmişdir. Bunlar hökumət əleyhinə işləyirmişlər. Hökumət bu əhvalı bilərək təşkilatı kəşf etmiş, orada mübarizə zamanı bolşeviklərin başçısı Şmidt qətl edilib iki nəfər başqaları həbsə alınmışlardır.

**İtaliyaya borc**

İtaliya ilə Amerika arasında olan ixtilafa baxmayaraq, Amerika İtaliyaya 50 milyon frank borc verməyi təklif edir.

**İngilis əsirləri**

London - Harmsvort Avamlar Kamerasında bəyan eyləmişdir ki, Rusiyada bolşeviklər əlində olan ingilis əsirlərinin təbdili [dəyişdirilməsi] barəsində danışıq davam edir.

- Münhendən verilən məlumata nəzərən, spartakların komitəsi təklif eyləmişdir ki, hərəkati-hərbiyyə dayandırılsın. Bu şərtlə ki, [İohan] Hofmann qoşunları şəhərə girməsinlər. Hökumət qoşunları bu təklifə razı olmayıb qəti surətdə təslim olmalarını tələb etmişlərdir.

- Berlindən verilən axırıncı xəbərlərdən görünür ki, spartaklar hər tərəfdən





ricət edirlər [geri çəkilirlər] və Qırmızı qoşunlar getdikcə azalır.

## SÜLH ƏTRAFINDA

**Fiume məsələsi**

Fiume məsələsinin tezliklə həll ediləcəyinə ümid edilməyir. İtalyanlar güzəştə getməyə hazır idilər. Cənubi slavların tələbatı münasibətilə saziş təbdil edilmişdir [dəyişdirilmişdir].

Müahidənaməyə [sazişə] görə, gələcəkdə müstəqil Fiume Hökumətinin müqəddəratını rəyi-amm [referendum] ilə həll etməli imiş. Hər bir məntəqə təklikdə səs vermək əvəzinə, bu dəfə ümum məmləkətdə səs vermək əsası ilə olacaqdır.

İtalyanlar deyirlər ki, bu qayda müahidənamədə göstərilən qərara ziddir. İtalyanlar bu qərarı təsdiqdən imtina edirlər.

**Fiume məsələsində saziş görünməyir**

"A. F." qəzetəsi yazır ki, zahirən Fiume məsələsində saziş görünməyir. Düşənbə [bazar ertəsi] günü çex-slavların əks-təklifinə baxandan sonra Vilson tərəfindən edilən təzə təklifə istinadən Orlando müzakiratı davam etdirmək istəməyir. Bu münasibətlə dünən müzakirat olmamışdır. Bununla bərabər, İtaliya Parlamanının çağırılacağı yaxınlaşır. İtaliya əhalisinin Fiume məsələsindəki təəssüfü onları Fransa əleyhinə qaldıracağından ehtiyat edilir.

**Macarıstan sərhədləri**

Beş dövlət xariciyyə naziri (Lansinq, Balfur, Pişon, Sonnino və Makino) çaharşənbə günü səhər Macarıstan sərhədlərini təyin etməklə məşğul olmuşlar. Romaniya və çex-slav şuraları nümayəndələrinin məruzəsinə qulaq asılmışdır.

**Müttəfiqlərin Almaniyaya cavabı**

Parisdən verilən xəbərlərə görə, Müttəfiqlərin Almaniyaya verdikləri cavab notasında deyilir ki, sülh şəraiti mütarikə [atəşkəs] və sülh müzakiratı başlanması təklifləri əsası üzərinə əsaslanmışdır.

Müttəfiqlər edə bilməzlər ki, öz hüquqlarının sülh şəraiti üzərində müzakirəsini təkid etsinlər. Lakin Müttəfiqlər Almaniya tərəfindən verilən təkliflərə baxmağa hazırdırlar.

Sonra Müttəfiqlər deyirlər ki, Almaniyanın Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] məramnaməsi lazımi komitəyə veriləcəkdir. Bundan əlavə, Müttəfiqlər qeyd edirlər ki, Cəmiyyəti-Əqvama əlavə üzvlərin buraxılacağı şəraiti Cəmiyyəti-Əqvam müahidənaməsinin ikinci maddəsində göstərilmişdir.

## QƏZETƏLƏRDƏN

**Batumda**

İyun ayının 2-də Həmkarlar İttifaqı Şurası tərəfindən seçilmiş olan heyət Batum general-qubernatoru general Kuk-Kollisin yanına gəlib Batumun dabravollar [könüllülər] nüfuzu altına keçməsi məsələsini bilmək istəmişdir.

General-qubernator bunlarla söhbət edərkən demişdir ki, Batum heç bir halətdə Dabravol ordusuna verilməyəcəkdir. Bu barədə heç danışığa belə dəyməz.

Batum tabyalarının [istehkamlarının] Dabravol orduya verilməsi məsələsinə gəldikdə general demişdir ki, dabravollara yalnız topsuz bir tabya verilmişdir. Burada bəzi şeylər saxlamaq üçün anbar ediləcəkdir. Axırda general, heyəti inandırmışdır ki, dübarə Batum Könüllü orduya verilməyəcəkdir.

**Batuma mal gətirilməkdədir**

Bu axır vaxt Batuma İngiltərə və İtaliya paroxodları ilə mal gətirilməkdədir. Bu mallardan bir çoxu Gürcüstana məxsusdur. Gətirilən mallar bəzzaziyə malı [parça, toxunma mal], ayaqqabı, qəhvə, maşın sapı, corab, tənbəki, filfil [istiot], papiros və qeyri xərəzi mallarından [digər xırdavat mallarından] ibarətdir.

**İstanbulda**

İstanbuldan bu son günlərdə gəlməkdə olan xəbərlər orada qayət mühüm hadisələr vaqe olduğunu bildirir. Sülh müahidənaməsinin [sazişinin] ağırlığından dolayı İzmir vilayətində əhali arasında başlanmış olan həyəcan qonşuda olan oblastlara da sirayət etmişdir [keçmişdir]. "İttihad-Tərəqqi" firqəsi yenə baş qalxızıb plan üzərinə son hərəkətlərə qoşulmuşdur. Başlanmış olan bu iğtişaş, varid olan [gələn] xəbərlərə görə, İstanbulda hökumətin düşürülməsinə səbəb olmuşdur. Bu inqilab qarğaşalığa səbəb olub, bəzi mühüm hadisələr törətdiyi zənn edilir.

**General Briqqs**

Mövsuq [etibarlı] mənbələrdən xəbər verirlər ki, Könüllü ordu namından Gürcüstan Hökuməti ilə müzakirədə bulunmaqdan ötrü Tiflisə gəlmiş olan Yekaterinodardakı İngiltərə heyəti naçalniki [başçısı] general Briqqs öz mənsəbini buraxıb başqa bir vəzifəyə təyin edilmişdir.

**Moskvanın təxliyəsi**

Yekaterinodardan xəbər verilir ki, bolşevik hökumətinin məxfi surətdə verdiyi əmrnaməsinə görə, Moskvadan tədrici surətdə Kursk tərəfinə ziqiymət [qiymətli] şeylər aparılır. Kurskdan nərəyə aparılacağı hənuz qət edilməmişdir. Kiyev ilə Xarkova köçmək məsələsi təxirə salınmışdır. Çünki bu şəhərlərin vəziyyəti qeyri-müəyyən bir haldadır.

**Əmələlərə güzəşt**

Moskvadan xəbər verilir ki, orada hökumətin son iclasında əmələlərin [fəhlələrin] son tələbnamələri müzakirə edilib, onların tələbinə əməl etməyin mümkün olduğunu etiraf eyləmişlərdir. Lenin demişdir ki, hal-hazırda iki rəy ola bilməz. Bu xüsusda hər nə qədər uzun-uzadı müzakirat olsa da, axirüləmr [axırda] onların tələbinə əməl edilməlidir. Nə qədər tez ola bilər, bu ağır vəziyyətdən qurtarmalıdır.

**Fransa komandanının əziməti [gedişi]**

Mövsuq [etibarlı] mənbələrdən Yekaterinodar qəzetələrinə yazırlar ki, Fransanın bəhri qüvvəsinə [dəniz qüvvəsinə] komandanlıq edən birinci ranqa kapitanı Bennert Kerç altında dabravolların irəliləməsinə mane olduğu üçün qulluğundan əzl [kənar] edilmişdir. General Denikinin inadı üzrə kapitan Bennert admiral Amet tərəfindən dəvət edilmişdir. Fransanın hərbi məmurları bu işi təqib edirlər.





- Şərq cəbhəsində fransız qoşunlarına komandanlıq edən general Bertlo Odessanın düşməsi münasibətilə öz vəzifəsindən istefa vermişdir. İtaliya cəbhəsində olan sabiq Fransa komandanı onun yerinə təyin edilmişdir.

**Bolşeviklərlə müharibə**

- Liski dairəsində bolşeviklərlə müntəzəm Qırmızı qoşunlar arasında qanlı müsadimə [toqquşma] vaqe olmuşdur. Hər iki tərəfdən külli tələfat vardır. Qırmızı qoşunlar arxaya dəvət edilmişlərdir.

- Partizan qoşunlarının cəbhəsində məğlub edilmiş qoşunların yerinə Voronejdən Çin qoşunları gəlir. Əsir düşmüş Qırmızı qoşunların söylədiyinə görə, Çin qoşunlarına dabravollar yaxşı məvacib verərlərsə, onlar dabravollar cərgəsinə girə bilərlər.

**Odessada**

Odessada yaşayan yəhudilərin mitinqində natiqlər demişlər ki, bayraqlarında "yəhudiləri qır" şüarı yazılan petlyuralılar tərəfindən yəhudiləri təhlükə təhdid etməkdədir. Müttəhidülqövl [yekdilliklə] qərar alınmışdır ki, 18 yaşından 48 yaşına qədər yəhudilər könüllü əsgər yazılsınlar. Bu qərar üzrə 50 minə qədər yəhudi hal-hazırda tüfəng altındadır. Bu qüvvə ilə yəhudilər talançıların müqabilinə çıxa bilərlər. İyunun 4-də Odessa-Zastava rayonunda Qriqoryev süvariləri ilə Odessanı müdafiə edən əsgərlər arasında xırda bir müsadimə [toqquşma] olmuşdur. Müdafiə edənlərin şiddətli atəşi altında Qriqoryev süvariləri məğlub edilmişdir.

**Kolçak əleyhinə üsyan**

Qəzetələrin verdikləri xəbərlərə görə, Kolçak tərəfindən Tümendə əsgərliyə cəm edilən fəhlələr əvvəlcədən sözü bir yerə qoyub cəbbəxananı zəbt etmişlərdir. Sonra silahlanıb, əsir edilən bolşevik əsgərlərini azad etməkdən ötrü kazarmalara hücum etmişlər. Üsyanı yatırmaq üçün dəvət edilən əsgərlərin silahı əlindən alınmışdır. 3 minə qədər bolşevik əsgərləri azad edilmişdir. Üsyançılar bunlarla bərabər siyasi məhbusları da azad etməkdən ötrü həbsxanaya hücum etmişlərdir. Kolçak komandanlığının xüsusi və etibarlı əsgərləri olmadığından, çex-slav əsgərləri göndərilmişdir. Vaqe olan müharibədə hər iki tərəfdən tələfat olmuşdur. Ətrafdan dəvət edilən əks-inqilab əsgərləri üsyanı yatırmışlardır. 500 nəfərdən ziyadə güllələnmişdir.

**Türküstanda**

Türküstandan alınan axırıncı xəbərlərdə deyilir ki, dabravol əsgərlərinin miqdarı 12 mindir. Bolşeviklərin qüvvəsi isə 35 min nəfərdir. Bolşeviklərin bu qüvvəsi Dutov tərəfindən məğlub olduqdan sonra Ural bolşevik ordusundan ayrılıb özünü zəif bir tərəf üzərinə salmışdır. Hal-hazırda Qəhqəhə istasyonu rayonunda şiddətli müharibələr davam edir. Bolşeviklərin Aşqabaddan sonra Məşhəd üzərinə hücum edə biləcəkləri ehtimalına qarşı Məşhəddə tədbirlər görülür.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Daxiliyyə nazirinin, Bələdiyyə İdarəsinin rus, türk və başqa-başqa şura mü-

əssisələrinə buraxılan su üçün 451,862 rublə 67 qəpik istəməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Rədd edilsin.

- Daxiliyyə nazirinin, Bakı quberniyası polis mühafizi müfəttişi yüzbaşı Əhmədbəyovun minbaşılığa tərfisi [qaldırılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Əhmədbəyovu minbaşı rütbəsinə tərfi etməli.

- Daxiliyyə nazirinin, Bakı polismeysteri kiçik müavini [Əziz bəy] Bayrambəyovu[n] minbaşılığa tərfisi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

1) Bayrambəyov minbaşılığa tərfi edilsin;

2) Daxiliyyə nazirinə, xidmətdə bulunan hərbi məmurların tərfisindən əvvəl hərbiyyə müəssisələrindən məlumat alması tapşırılsın.

- Ticarət və Sənaye və Ərzaq nazirinin Mal Mübadiləsi Komitəsi ləğvi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Komitə ləğv edilməklə, vəzifəsi Ticarət və Sənaye və Ərzaq Nəzarəti Şurasına mühəvvəl edilsin [tapşırılsın].

- Daxiliyyə nazirinin, Zaqatal şəhərinə su yolları, soqaqları və şəhər evləri təmirindən ötrü 70 min rublə faizsiz para buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə 3-cü maddədən başqa, təsviblə [bəyənilməklə], təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Xariciyyə naziri müavini Adil xan Ziyadxanov həzrətləri vəzifə ifası üçün bir neçə günlük Gəncəyə əzimət etmişdir [getmişdir].

- Mə'dəniyyat [mədənçilik] və neft fəhlələrinin müştərək İttifaqı Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, aldıqları məlumata nəzərən Neftçilər İttifaqının Sabunçu xəstəxanasında işlər qayət fəna dərəcədə aparılmaqdadır. Məsələn, əmrazı-cildiyyə [dəri xəstəlikləri] və göz xəstəliyi şöbələri yox. Başqa-başqa xəstəliklərə düçar olmuşlar bərabər yaşayırlar. Halbuki bir naxoşa digər xəstəlikdən sirayət etmək ehtimalı yüzə yüz olur. İttifaq rica etmişdir ki, iş aparılmaqdan ötrü İttifaqın doktoru və Məsai Nəzarəti nümayəndəsindən ibarət bir komisyon təşkil edilib işi məhəllində [yerində] təhqiq etsin.

- Maliyyə Nəzarəti Məsai Nəzarətinə müraciətən rica etmişdir ki, Azərbaycan Cümhuriyyəti xəzinəsindən əlavə nə kimi müəssisələrə vergi vermək mümkün olacağı barəsindəki nəzəriyyatını havi [fikirlərini ehtiva edən] məlumatı Maliyyə Nəzarətinə bildirsin.

- Fabrika müfəttişi Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, "Kolesnikov və oğlanları" firması fəhlələrə veriləcək məvacibi pul olmamaqla təbir [izah] edib, məvaciblərini verməyir. Müfəttiş rica etmişdir ki, bu barədə lazımi binagüzarlıqda bulunulsun [tədbir görülsün], zira firma məvacibləri verməyə qadirdir.





- Məsai Nəzarəti Daxiliyyə Nəzarətinə müraciətən məlum etmişdir ki, Kəsbkarlar [Həmkarlar] İttifaqı Məsai Nəzarəti indində [nəzdində] Azərbaycandan nəfy [sürgün] edilmiş İttifaq əzası [üzvü] Koval və Çurayevin qaytarılması üçün təşəbbüsatda bulunmuşdur. Nəzarət rica etmişdir ki, mümkün görülərsə, onların qayıtmalarına müsaidə verilsin.

- Fabrika baş müfəttişi Məsai Nəzarətinə məlum etmişdir ki, iyunun 4-dən etibarən Nəzarət müfəttişi mühəndis-texnoloq Şults Gəncə quberniyası müfəttişliyinə təyin edilmişdir. Müşarünileyhin [haqqında danışılan şəxsin] dəftərxanası quberniya dəftərxanasında yerləşdiriləcəkdir.

- Fabrika baş müfəttişi Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, Ərzaq Nəzarəti cənbindəki [nəzdindəki] çörək emalatxanası fəhlələrinə Nəzarət məvacib verməkdən imtina etmişdir. Halbuki əldə edilən məlumata görə, onların məvacibləri verilməlidir. Müfəttiş rica etmişdir ki, bu barədə binagüzarlıqda bulunulsun [tədibr görülsün].

- Məsai naziri Fabrika baş müfəttişinə müraciətən əmr vermişdir ki, tətil günlərində işləmək istəyən fəqət işləməyə müsaidə bulmayan fəhlələrin məvaciblərinin bütünlüklə verilməsi haqqında lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Məsai Nəzarəti, dövləti [dövlətə məxsus] mərmi zavodu müdiriyyətinə xəbər vermişdir ki, Mayısın 28-i dövləti bayram olduğu üçün məvacibləri də verilməlidir.

- Gəncə nahiyəsində hal-hazırda 1000 nəfərədək İrəvan qaçqınları toplanmışdır. Bunların qaramalları üçün həman nahiyədə ələfiyyat [ot] olmadığından naşi [ötrü], Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri Türüq və Məabir Nəzarətinə [Nəqliyyat və Rabitə Nazirliyinə] müraciətən rica etmişdir ki, qaçqınları Kürdəmir mövqifinə [stansiyasına] gətirmək üçün 30 ədəd vaqon verilsin. Qaçqınları Kürdəmir mövqifində Şamaxı nahiyə müfəttişi müvəkkili qəbul edib Şamaxı nahiyəsində yerləşdirəcəkdir. Həman nahiyədə ələfiyyat kafi dərəcədə mövcuddur.

- Şöbə müdirinin verdiyi xəbərlərə görə, Xaçmaz mövqifində bir çox qaçqın toplanmışdır. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti nahiyə müfəttişliyindən rica etmişdir ki, qaçqınları yerlərinə qaytarmaq üçün tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Türüq və Məabir Nəzarəti ilə etilafa [razılığa] gəlmişdir ki, Gədəbəy komitəsinə Novo-Bayəzid qaçqınları üçün alınmış buğdanı Ləki mövqifindən Əlilər mövqifinə aparmaq üçün bir vaqon versin.

- Bakı mövqifində Tersk nahiyədən gəlmiş bir çox qaçqın mövcuddur. Bunları Tazəşəhərə göndərmək üçün Türüq və Məabir Nəzarəti İngiltərə Komandanlığı indində [nəzdində] biletlərə güzəşt edilmək barəsində təşəbbüsatda bulunmuşdur.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən xəsarətdidə olmuşlara [zərər-

çəkənlərə] taxta-şalman verilmək barəsindəki Ərazi Nəzarəti düsturüləməlləri [təlimatnamələri] bütün nahiyə müfəttişlərinə göndərilmişdir.

## MAL XƏYANƏTİ VƏTƏN XƏYANƏTİNƏ RƏHBƏRDİR

Hamıya bir gözlə baxdıq: ləyaqətli əcnəbiləri, xariciləri iş başına dəvət edib bələdiyyələrimizi, pullarımızı bunlara tapşırdıq. Lakin bunlardan bir çoxu Azərbaycanı özünə vətən hesab etməyib, özlərinə həvalə olunmuş əmanətlərə bəzən xəyanət edirlər.

Bunların hələ əllərindən gələ bilən xəyanətləri kassalardan pul oğurluğudur ki, zatən bu daxili xəyanətlərin axır nəticələri pək fəna görünür. Ağacı içindən yeyib tələf edən qurdlar kimi bu məmurlar da dövlətin qanı mənziləsində [yerində] bulunan nəqdiyyələrini [pullarını] sorub sömürürlər.

Ən böyük xəyanətlər Bakı Bələdiyyəsində baş verir. Buranı hökumətmi başlıbaşına buraxmışdır, yaxud buradakı müsəlman məmurlarının bacarıqsızlığındanmı bir bu qədər xəyanətlər zühur edir? Hanki olursa-olsun, bu səhlənkarlığın axırı xeyir deyildir. Nümunə olaraq bələdiyyədə baş vermiş xəyanətlərdən bir neçəsini burada qeyd etməliyəm.

Bələdiyyənin İqtisad şöbəsində Axverdov (?) familiyalı bir şəxs xidmət edirmiş. Bunun vəzifəsi əhalidən şəhər və dövlət töycülərini cəm etmək imiş. Bunun ə'malına [əməllərinə] çoxdan sui-zənn [şübhə] ilə baxılırdı. Lakin bunun hərəkatını təftiş etmək xəyalı rəislərin qafalarında ancaq bu günlərdə caygir olmuşdur [özünə yer tapmışdır].

Təəccüb burasıdır ki, qəflətən və xəbərsizcə bir təftiş əvəzinə, Axverdovu müşfiqanə [yumuşaq] işarələrlə əhvalatdan hali [xəbərdar] edirlər. Axverdov möhlət istəyir ki, hesab dəftərlərini tərtib və nizama salsın. İstidası [xahişi] qəbul olunmadığı halda, ayrı bir bəhanə ixtira edir ki, guya naloq [vergi] siyahıları Xəzinə Palatasında qalmışdır. Tələb olunur ki, siyahıları Palatadan götürüb müfəttişlərə təqdim etsin. Binaənileyh [ona görə], Axverdov Palataya rəvan olur. Lakin müfəttişlər Axverdovu indi də gözləyirlər. Qaçıb gizlənmişdir.

Palatadan əhvalpürsan olunduqda [soruşulduqda], cavab verirlər ki, Palatada heç bir siyahı yoxdur və Axerdov da oraya əsla gəlməmişdir.

Hələlik yüzlərcə Axverdovun sui-istemalı [sui-istifadəsi] və ənvai fokusları [fırıldaqları] kəşf olunmuşdur. Təftiş qurtarmamışdır. Ciblədiyi pulların miqdarı çoxdur. Hələ 10 min manata qədər oğurluğu kəşf olunmuşdur. Rəvayətə görə, Axverdov İrana, yaxud Ermənistana qaçmışdır.

İkinci vəqə [əhvalat] bundan daha maraqlıdır. Belə ki, bu günlərdə Bələdiyyənin daxıldarını [kassirini] Şamaxı yolunda soyub yüz həştad min manatını aparmışlar. Bu pulları daxıldar ağa aparırmış ki, 19-cu xəstəxananın məmur və xidmətkarlarına donluq versin. Təəccüb deyilmi ki, yüz həştad min manatın mühafizəsi üçün daxıldar özü ilə qarovulçu dəstəsi götürməmişdir? İstibdad dövründə böylə daxıldarları qarovul dəstələri müşayiət edərdi. İndi nə üçün böylə olmayır?





Bundan əlavə, təəccüb burasıdır, soyğunçulara haradan məlum oldu ki, filan gün, filan küçədən, filan daxıldar bir bu qədər pul aparacaqdır? Bu soyğunçular kimdir və sirqət olunmuş [oğurlanmış] bir bu qədər pulları hanki məqsəd və amalın icrasına sərf edirlər? Bəlkə əlimizdən pullarımızı qarpıb da aramızda gizlənmiş xainləri həman pullarla bəsləyirlər?

İnsan düşündükcə, dərin-dərin fikirlərə qərq olur. Bu gün varımızı yeyənlər, sabah üzərimizə xoruldayacaqlar. Bu oğruluqlara, bu xəyanətlərə məgər heç bir çarə yoxdur?

Burada baş sındıracaq, zehin yoracaq bir şey yox. Sabiq hökumətin qanunları gözlərimizin önündən hələ qaib olmamışdır. Tamam daxıldarların, kassirlərin özlərinə məxsus cəmiyyətləri, artelləri vardı. Hər daxıldarın vəzifəsinə nisbət artellərdə girovları saxlanırdı. Bunlardan bir xəyanət baş verdiyi halda, həman girovlardan iadə olunurdu [qaytarılırdı]. Müəssisələrə lazım olacaq daxıldarları fəqət artellərin riza və cavabdəhəndəliyi [razılığı və cavabdehliyi] ilə dəvət edirdilər.

İştə, ən asanca bir çarə! Daxıldarların xəyanətinə qarşı artelləri cavabdəhəndədirlər. Hərgah, bu gün Azərbaycanda daxıldarlar arteli yoxdursa, bunun təsisinə çalışmalı, tələb etməli ki, Azərbaycanın tamam daxıldarları bir cəmiyyət tərtib versinlər, hər kəsdən beqədri-kifayə [kifayət qədər] girov alınsın. Daxıldarların hərəkatına qarşı məsul qalmış cəmiyyət də hər şübhəli şəxsi üzvlüyə qəbul etməz. Əmin olmadığı adamın da daxıldarlığına riza göstərməz. Daha bundan da gözəl çarə?

Bir də daxıldarlar özlərinə mühafizəçi dəstəsi tələb etsinlər. Bunu səhl [asan] sayan ağaların sui-istemalı aşkar olmayırmı? Böylə olan surətdə oğurlanmış pulların hamısına özləri məsul qalırlar.

Xülasə, mal xəyanəti vətən xəyanəti kimi deyilsə də, amma onun böyük müavinlərindəndir ki, bunu bir an əvvəl qabaqlamalıdır. Məbada iş böyüyüb dairəsindən aşmasın.

*Fərhad Ağazadə*

## MƏTBUAT

Bakı Raboçi Konfrans idarəsinin türk dilincə yazılmaqda olan “Əxbar”ı qəzetəmizin keçən nömrələrindəki baş məqalələrindən “Qara təhlükə” sərlövhəlisindən bəzi yerlərini iqtibas edərək, sonra tənqidə başlayır və sonra deyir ki:

*“Üfüqünüzdə qara əl yeddi aydır ki, nümayan olmuşdur [görünmüşdür]. Ancaq sizin kor gözünüz və kar qulağınız həmin qara əlin nə işini (“görmüşdür” sözü yaqin buraxılıbdır) və nə səsini eşitmişdir.”*

Əfəndim! Siz üfüqdə yalnız bir “qara təhlükə”ni görürsünüz, amma biz qara ilə bərabər “qırmızı təhlükə”ni də görürük. Biz “Həştərxan ilə mal mübadiləsi” şüarı altından “Daloy [məhv olsun] Azərbaycan istiqlalı” sözlərini də eşidirik, amma siz eşitməyirsiniz.

İndi insaf edilsin: kor kimdir, kar kimdir?

## GÜRCÜ MƏTBUATI

Denikin əhvalı münasibətilə gürcü social-demokrat qəzetəsi “Ertoba” aşağıdakı məqaləni yazır:

*"Denikinin hücumu qorxusu Zaqafqaziyada icrayi-fəaliyyət edən qüvvətləri iki qisimə ayırdı. Bu iki qüvvətlərdən birisinin məsləkini, təqib etdiyi idealları iki iyun tarixindəki Məclisi-Müəssisan ictiması [yığıncağı] vazeh [açıq] bir surətdə göstərdi: Bütün Məclisi-Müəssisan bir adam kimi Sosial-Demokrat Fraksiyonunun qətnaməsi ətrafında birləşdi. Bu qətnamə tələb edirdi ki, Denikinə qarşı hökumət hər dürlü mübarizəyə girişməli və fraksiyon da ona yardım eyləməlidir və biz onu da biliriz ki, Azərbaycan dəxi Gürcüstanla bir müttəfiqdir.*

*Ermənistan isə büsbütün başqa bir vəziyyət tutdu. O hər dürlü ehtimala görə, bitərəfliyini bizə vəd etməkdədir. Əlbəttə, bu bitərəflik də o surətlə ki, bizim tərəfimizdən cürbəcür güzəştləri intizar etməyə [gözləməyə] müqabildir. Bu, daşnak bitərəfliyidir və Ermənistanın vəziyyəti daşnakların iğfal edici [aldadıcı] bir manevralarından ibarət olduğunu biz hamımız şübhəsiz biliriz!*

*Fəqət Denikin təhlükəsinə qarşı ikinci bir cərəyan dəxi birləşdirərək icrayi-fəaliyyət etmələrinə meydan verdi ki, bunlar da sosialist libasını taxmış olaraq bizə görünməkdədirlər. Bunlar da Rusiya kommunistləridir ki, hər gün çıxan qəzetələri "Volna" ilə bizə Rusiya kommunistlərini mədhü-səna edib [təriflәyib] dururlar. Gürcüstanın "milli" hökumətini isə xak ilə yeksan [yerlə bir] edərək söyməkdədir və Gürcüstan istiqlaliyyətini məsxərəcə tərif eyləməkdədirlər.*

*Bizim sabiq yoldaşımız rusca "sosial-demokrat" çoxdan bəri kommunist simasında olduğu halda, şimdi apaşkar özünü göstərdi. Denikinin Qafqaziyaya doğru yürüşünü o qəzetə də mənfi bir surətdə görməkdədir. Fəqət demokratiyamızın və hökumətin siyasətinə bütün siyasi cərəyanlar baş əydikləri halda, "sosial-demokrat" buna müvafiqət etməyir [bununla razılaşmır], riza və inqiyad göstərməyir [tabe olmur]. O guya öz fikiri ilə Bakı proletariyasının amil olduğunu [əməl etdiyini, hərəkət etdiyini] bir tərəfdən söyləyərək, bu məqsəd üçün dəxi Bakı proletariyasının mübarizə eylədiyini bizə anladır və Gürcüstan Hökumətinin milli mübarizə ətrafında bulunduğunu tənqid edir və bizim mübarizəmizin isə əvvəla Denikinə qarşı olmasını, sonra da Rusiya Sovet Hökuməti ilə birləşməmizi tövsiyə edir. İştə, bizim sabiq yoldaşlarımız bizim kəndçi və proletariyamıza böylə bir öyüd verirlər."*

Gürcü qəzetəsi bunu şiddətlə tənqid etdikdən sonra axırda yazır:

*"Bizim əlimizdə heç bir vəsilə [vasitə] və sübut yoxdur ki, siyasətimizi dəyişəlim. Biz Denikin ilə hərb ediriz. Bizim hərbimiz Rusiya Sovet Hökuməti ilə birləşmək deyil, istiqlaliyyətimizin mühafizəsi üçündür və kim bizim istiqlaliyyətimizi təsdiq edər və tanıyarsa, onunla dostanə hərəkət edəriz. Bu dost istər Lenin olsun, istərsə Denikin, bizim üçün müsavidir [birdir]. İştə, bizim qəti yolumuz budur."*

## BAKI XƏBƏRLƏRİ

### "Yardım alayı"nın ərizəsi

Bakıda təşkil edilmiş olan ehtiyat könüllü "Yardım alayı" komissiyası Rəisivükəla [Baş nazir], Hərbiyyə naziri və Türk Ədəmi-mərkəziyyət "Müsavat" firqəsinə bir ərizə verərək məlum etmişdir ki, axır vaxtlar şəhərin bəzi yerlərində qeyri-məsul şəxslər tərəfindən dəstələr təşkil edilərək gecələr küçələri gəzir, Parlaman qarşısına və qeyri yerlərə gedirlər.

Əhali bunların "Yardım alayı" dəstələri olduğunu zənn edirlər. Əlbəttə, cavanların böylə hissiyyatına və hərəkatına heç söz ola bilməz. Lakin onlar qeyri-münasib hərəkatda bulunarlarsa, o vaxt "Yardım alayı" cavabdəhəndə [cavabdeh] olmayacaqdır.

Ərizənin axırında komissiya rica edir ki, camaat arasında məşhur olan "Yardım alayı"nın heysiyyətini xələldar etməmək [korlamamaq] və hər kəs tərəfindən bir dəstə təşkil edilib bununla gözəl bir təşəbbüsün qeyri-müntəzəm hala salınmasına imkan verməməkdən ötrü bu tövr hərəkatın önü alınaraq, "Yardım alayı" komissiyasından başqa könüllü dəvət etməyə kimsəyə icazə verilməsin. Çünki bununla "Yardım alayı" və ələlümum [ümumiyyətlə] böylə bir xeyir işin müvəffəqiyyətli surətdə davam etməsinə mümaniət [maneçilik] göstərilmiş olar. Yazılmaq istəyənlər dəstələrə ayrılmayıb, həman bir müəssisədən idarə olunmaq üzrə çalışmalı və bununla vətən və millətə birlikdə yardımda bulunmağı nəzəri-etibara alaraq, əvvəlcə təşkil olunub və hökumət tərəfindən tanınmış olan "Yardım alayı" komissiyasına gəlib yazılsınlar. Çünki qüvvə birlikdədir.

### "Yardım alayı"nın gecə məşqləri

Ehtiyat könüllü "Yardım alayı" heyəti-rəyasətinin binagüzarlığı [sərəncamı] ilə bu gün[dən] etibarən hər gün axşamlar saat 9-dan 12-yə qədər Təzəpir məscidi həyətində "Yardım alayı" əsgərlərinə məşq və nizam veriləcəkdir. Buna binaən [buna görə], alay əsgərləri olanlar məzkur [deyilən] vaxtda oraya gəlməlidirlər. Bundan əlavə, üç gün əhya günləri olmaq münasibətilə bazar-dükan bağlı olduğundan, həman günlərdə Salyan kazarmalarında alay əsgərlərinin təlimi üç gün olacaqdır. Məzkur günlərdə alaya yazılmış olanlar hamısı oraya gəlməlidirlər.

### Məscidlərdə moizə

Ramazanül-mübarək münasibətilə şəhərin bütün məscidlərində məşhur axund və vaizlər tərəfindən əhvali-zaman və hadisata dair müfid [faydalı] və mənidar [mənalı] moizələr və nitqlər irad olunmaqdadır [oxunmaqdadır]. O cümlədən Hacı Cavad məscidində – Molla Məhəmməd Əmin axund, Təzəpir məscidində – axund Molla Məhəmmədəli Bilgəhi, Hacı Cəbrayıl məscidində – Hacı Mirzə Mehdi axund, Qasımbəy məscidi – Şeyx Qəni axund, Hacı Pirverdi məscidi – Hacı Molla Ağa axund Rəsulzadə, Came məsciddə Bakı qazısı Hacı Molla Əbdürrəhim axund [Hadizadə] və Hacı Molla Cavad axund moizələr, nitqlər söyləyirlər. Bunlardan əlavə, Məşixət əzasından [Şeyxülislamlıq İdarəsi üzvlərindən] Hacı Şeyx Həsənağa dəxi hər gün bir məsciddə moizə və nitq söyləyirlər.

### General Andranikin həbsi

Tiflis və Batum təriqi [yolu] ilə İstanbula, oradan da Parisə getmək istəyən Andranik İstanbulda Türk hökuməti tərəfindən tövqif edilərək [tutularaq] həbsə alınmışdır. Andraniki müsəlman qırğınlarında iştirak etməklə müttəhim edirlər.

**Türküstanda**

Bolşeviklərlə Aşqabad hökuməti müharibəsindən sonra, bolşeviklər Duşak istasyonunu işğalən Qəhqəhə mövqifinədək [stansiyasınadək] gəlmişlərmiş. Sonralar əks-hücum nəticəsində geri atılmağa məcbur olmuşlarmış. İyunun 12-də yeni müharibələr başlanmışsa da, nəticəsi məlum deyildir.

**Aşqabadda Azərbaycan nümayəndəsi**

Azərbaycan siyasi nümayəndəsi Aşqabada varid olub [çatıb], dəftərxanasını güşad ilə [açmaqla] fəaliyyətə başlamışdır.

**Tazəşəhərdə**

Petrovskdan – Cəbhədə müharibə edən dabravollara [könüllülərə] kömək olmaq üçün Tazəşəhərə 500 kazak varid olmuşdur. Yenidən iki vapor [gəmi] qoşunun da vürudu [gəlməsi] gözlənir.

**Hacı-Tərxanın halı**

Bakıda alınan məlumata görə, Dabravol dəstələri Hacı-Tərxanın 15 verst məsafəliyində olan Biryuçya Kosa adlı yeri işğal etmişlərdir. Hacı-Tərxanın halı təhdid altında olub yaxın günlərin ərzində süqut etməsi gözlənir.

**Türküstan əhvalı**

Türküstanda müntəşir [nəşr olunan] "Şura əxbarı" nam [adlı] qəzetənin bir nömrəsi əlimizə düşmüşdür. Qəzetənin birinci səhifəsindən başqa, üç digər səhifələrində edam edilənlərin isimləri mündəricdir [dərc olunub]. Aşqabad hökuməti ilə bolşeviklərin müharibəsində birincilərin məğlub olmasına səbəb verən bir əhval olur. Böylə ki, baş iştirak edən iki erməni alayı bolşeviklər tərəfinə keçir. Bolşeviklər həman iki polku tərk-silah etdikdən sonra həpsini qurşuna düzüb güllələmişlərdir. İştə, qəzetədə onların əsamisi [adları] yazılmışdır. Həman vəsiqənin altında da Türküstan fövqəladə komissarı Kazım bəy imza etmişdir.

**Astaradan**

Rus Astarasından lodka ilə qaçmış olan sərnişinlərdən birisi rəvayət edir ki, iyunun 8-də ətrafda olan kəndçilər şəhərə hücum etmişlərdir. Bunlar Muğan bolşevikləri kazarmasına daxil olub və orada kimsəni görmədiklərindən, orada olan bütün silahları yığışdırıb, sonra silahsız Qırmızı qoşunlara hücumla onların hamısını qırmışlardır. Şimdi şəhər kəndçilərin əlindədir.

**Lənkəranda**

Məhəlli [yerli] bolşeviklər Bakı Sentrodomunun [Mərkəzi Ev Komitəsinin] Lənkəranda olan nümayəndəsi Kuznetsovu və məhəlli, Denikin tərəfdarı məşhur tacir Kubinskini atmaqla edam etmişlərdir.

**Mütəallimlər İttifaqında**

Bu gün iyun ayının 17-də, axşam saat 4-də, Bakı İkinci gimnaziya binasında Bakı İttifaqi-Mütəalliminin [Tələbələr İttifaqının] təcili iclası çağırılıb. Üzvlərdən təvəqqe olunur gecikməsinlər.

**Yeni qəzetə**

Bakıda sükunət edən [yaşayan] Nikolay Vasilyeviç Lyubovyev qubernatora müraciətən rica etmişdir ki, Bakıda gündəlik "Vesti" adında bir qəzetə nəşrinə ona icazə verilsin.

**Quba Bələdiyyə İdarəsinə borc pul buraxılması**

Məclisi-Məbusan tərəfindən qərardad edildiyinə görə, Quba Bələdiyyə İdarəsinə 100 min manat miqdarında borc pul buraxılmışdır. Həmin məbləğin verilməsi üçün Daxiliyyə Nəzarəti qubernatora lazımi binagüzarlıq və sərəncamda bulunmuşdur.

**Qobu kəndi camaatının ricası**

Bakı qəzası Qobu kəndi camaatı qubernatora müraciətən rica etmişdir ki, hal-hazırda onların imkanı olmadığından, məzkur [adı çəkilən] kənddən istənilən vergi pulu üç ay müddətə təxir edilsin.

**"İttihad" firqəsinin Ramana şöbəsi**

Həziranın 16-da Rotşildin Ramana mədənində "İttihad" firqəsi tərəfindən əhvali-hazirəyə dair mühazirə oxunmuş və sonra şöbə açılmışdır. Şöbənin sədrliyinə Yarəli Tahirzadə, katibliyə isə Əbdülhəmid Cəfərzadə seçilmişlərdir.

**Bələdiyyə İdarəsində**

Bakı Bələdiyyə İdarəsi xidmətçiləri Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən rica etmişlər ki, dövləti müəssisələrin xidmətçilərinin məvacibləri artırıldığı və gün-gündən ərzaq və mühimmatın qiymətləri artdığı üçün onların da məvacibləri ümumi əsas üzrə artırılmalıdır. İttifaq rica etmişdir ki, məsələ Bələdiyyə Məclisinin yaxın iclasına idxal edilməklə tez baxılması üçün tədabir ittixaz edilsin [tədbirlər görülsün]. Məsai naziri təliqəni [rəsmi məktubu] Fabrika baş müfəttişinə irsalən [göndərib], tezliklə əncam verilməsini rica etmişdir.

**"Səadət" mədrəsəsi müəllimləri**

"Səadət" mədrəsəsi müəllimləri Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, dörd aydan ziyadədir ki, məvacib almayırlar. Halbuki, müəllimlər Məşixətə [Şeyxülislamlıq İdarəsinə] və Maarif Nəzarətinə müraciət etmişdirlərsə də, cavab alammamışlardır. Məsai Naziri Fabrika baş müfəttişindən təcili surətdə müəllimlərin məvacibləri verilməsi üçün tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

## AZƏRBAYCANDA

**Ağdaşda milli bayram**

Gənc Azərbaycan hökumətinin səneyi-dövriyyəsi [ildönümü] münasibətilə 28 May günü Ağdaşda qayət parlaq keçmişdir.

Bütün bazar milli Azərbaycan bayraqları ilə bəzənmiş, hər tərəf xalça, gəbə və sairə ilə fərş edilmişdi [döşənmişdi]. Məktəb uşaqları milli Azərbaycan şərqiləri ilə şəhərin hər tərəfini gəzirdi. Böyük-kiçik bir-birinə qarışmış, hər kəsdə bir hərəkət, bir məmnuniyyət, hasili bəşaşəti-üzma [böyük şadlıq] içində keçirdiyi bu gün Ağdaş şəhərində qayət parlaq və təntənəli keçmişdir. Möhtərəm camaatımızın göstərdiyi xariqüladə məmnuniyyəti istiqlaliyyətə qarşı olan hüsn-rəğbəti nə dərəcələrdə olduğunu göstərirdi. Hələ cümə məscidi olan Hacı Osman məscidi ilə

şiə qardaşlarımızın məscid minarələri çalışqan, fəal ziyalılarımızdan olan Məhəmmədrza əfəndi Əbdizadə cənabları tərəfindən əlvan kağız zəncirlə bir-birinə rəbt edilmiş [bağlanmış], camelər fənərlərlə donanmışdı.

Saat 10 radələrində bazar bütün-bütünə qapanaraq möhtərəm camaat məktəb çocuqları ilə cameyi-şərifin həvalisində [mübarək camenin ətrafında] toplandılar. Orada qazı İsa əfəndi cənabları dua oxuyaraq bir nitq irad etmişdir [nitq söyləmişdir].

Əbülqasım əfəndi dəxi qayət bəliğ [bəlağətli] və təsirli bir lisanla nitqə başlayaraq istiqlaliyyətimizi nə tövr mühafizə edəcəyimizi bir çox ayət və hədislərlə izah edərək, hal-hazırkı qulluqçuların mərhəmətsizcəsinə millətə nasıl soxulduqlarını və buna milli tərbiyəmizin olmadığını səbəb göstərmişdir.

Əbülqasım əfəndidən sonra, axund Molla Məhəmməd dəxi dua oxumuş, daha sonra gənclərimizdən Abbasəli bəy Məhəmmədov cənabları irəliləyərək millətimizi qorxunc fırtınalar, təlatümlər içində qalan gəmi təknəsinə bənzədərək, baha olan və hələ qurumamış olan türk qanları sayəsində aldığımız bu istiqlaliyyətimizi qayət mərdanə mühafizə etməli olduğumuzu bəyan edərək məclisə xitam vermişdir.

Buradan əvvəlcə hazırlanmış olduğu xanəndə və sazəndə dəstəsi başda olduğu halda bütün camaat bağa gəlib və orada möhtərəm gənc müəllimlərimizdən olan fəal İbrahimxəlil əfəndinin uşaqlara verdiyi gimnastik təlimlərinə tamaşa edərək axşama qədər orada əylənmişdir və Ağdaş gəncləri tərəfindən məktəb uşaqlarına bir qoyun kəsərək ənam edilmiş və çay ziyafəti verilmişdir.

*Səyyah: Nəsrəddin*

## GÜRCÜSTANDA

Tiflisdə alınan məlumata görə, bolşeviklər hərbi nöqteyi-nəzərlə böyük əhəmiyyəti olan Kupyansk nöqtəsini tərk etmişlərdir.

**Keşişin həbsi**

İyunun 12-də, səhər saat 9-da öz otağında Tiflis Aleksandro-Nevski kəlisanın keşişi Vladimir Yeqorov həbs edilmişdir.

**Batumda**

Yaxın bir zamanda Batuma 2 alay dabravol qoşunu varid olacaqdır [gələcəkdir]. Hal-hazırda Batum Dabravol ştabının [Könüllü qərargahının] başında Batumun sabiq qubernatoru general [Romanko-]Romanovski durur.

**Novorossiyskdə**

Novorossiyskdən gələnlər xəbər verirlər ki, Odessa, Yalta və Sevastopol təxliyə edildikdə, Novorossiyskə gəlmiş olan paroxodlar iskələyə yerləşmişlərdir. Sərnişinlər azdır. Çünki onlar dabravolların ümumi səfərbərliyindən ehtiyat edirlər. Zira dabravollar nə xəstəyə, nə də qocaya baxmayırlar. Novorossiyskin zahir həyatı asudədir. Fəqət bu asudəlik cəza tədbirləri ilə bərpa edilir.

**Qəzetənin qapanması**

İyun ayının 13-də Gürcüstan hökuməti binagüzarlığı [sərəncamı] ilə "Znamya sosializma" qəzetəsi qapanmışdır.

**Tiflisdə**

- İngiltərə Komandanlığının əmrinə görə, Tiflisdə olan Almaniya xəstəxanasının növbəti həkimi həbs edilmişdir. Xəstəxanadan əslihə [silah] tapılmışdır.
- Qəti surətdə aşkar olmuşdur ki, İngiltərə əsgərləri uzun müddət Zaqafqaziyada qalacaqlardır.
- Batum və Novorossiysk limanlarına ingilislər, amerikalılar və fransızlar tərəfindən Gürcüstanla Zaqafqaziya üçün 100 milyon manat qiymətində mal gətirilmişdir. Naməlum səbəblərə görə bu mallar hələ kənara çıxarılmayır.

## ERMƏNİSTANDA

**"Aref" qəzetəsi yazır:**

Qars şəhəri kifayət qədərdə əhali ilə dolmuşdur. Türklərin zamanında müsəlmanların əllərində olan ticarət indi ermənilərin əlinə keçmişdir. Ətraf kəndlərin əhalisi öz yerlərinə qayıdırlar. Onlara səpmək üçün toxum verilirsə də, toxum səpən azdır. Çünki azuqə kasad olduğundan toxumluq verilən taxılı yeyirlər. Hər başa 30 girvənkə taxıl buraxılır. Bir həftədir ki, əhaliyə çörək verilməyir. O cəhətə çörəyin çox hissəsi palıddır. Çörəyin girvənkəsi 6-8 manata satılır. Gündən-gündən palıdın qiyməti artır.

Şəhərdə olan müsəlmanların ədədi azalır. Onlardan burada indi çox az qalıbdır. Müsəlmanlar tərəfindən zəbt edilmiş erməni evləri sahiblərinə qaytarılır. Müsəlmanlarla ermənilərin münasibatı yaxşıdır. Müsəlmanlar şəhərdə asudə gəzirlər. Şəhərdə ruznamələr [qəzetlər] alınmadığından, müxtəlif şayiələr dövran edir. Ziyalı qüvvələr azalmaqdadır. Qarsda olan ingilis qoşunları gedib, ağır qala toplarını özləri ilə aparırlar. Burada bir neçə ingilis bölüyü qalacaqdır. Ermənistan qoşunu Sarıqamışdadır. Ümumən halət, xüsusən şəhərin abadanlıq işi pək fənadır.

Məhəlli [yerli] müsəlmanların ruhani rəisi qazı şəhərdən və ətraf kəndlərdən külli miqdarda müsəlman toplayıb onlara nəsihət və vəz etdikdən sonra şəhərə taxıl və qeyri məkulat [ərzaq] gətirib münasib qiymətə satmağı təklif etmişdir. Əhali qazının nəsihətinə əməl etməyi söz vermişlərdir.

* * *

Suriyaya nəfy [sürgün] edilmiş ermənilər son binagüzarlığa [sərəncama] müvafiq Hələbə cəm olub gündə 1800 adamdan mürəkkəb bir dəstə öz evlərinə göndərilirlər.

**Ermənistan Parlamanında**

İyunun 5-də bir aylıq fasilədən sonra 12 nəfər Türkiyə ermənilərinin iştirakı ilə Ermənistan Parlamanının iclası vaqe olmuşdur. Bu dəfə üstünlük Daşnak firqəsinə qalmış kimi olmuşdur. Bu əhvaldan narazı qalan sosialist Kadet firqəsi [Konstitusion-Demokratik Partiya] üzvləri nümayişkaranə bir surətdə Parlamanı tərk etmişlərdir. Kadet firqəsi feilən Parlaman intixabatını [seçkilərini] boykot eyləmişdir. Parlaman, hökumət və əhali bu işə asudə nəzərlə baxır. Hökumət rəisi [və] üzvü [Aleksandr İvanoviç] Xatisov iki saat

yarımlıq nitqində daxili və xarici siyasət barəsində müfəssəl bəyanat vermişdir. Parlaman üzvləri Rəisi-vükəlanın [Baş nazirin] nitqini tam bir diqqətlə dinləmişlərdir. Adi həyat və məişət xələldar edilməmişdir [pozulmamışdır].

Doktor **M. M. Kərimov** göz naxoşlarını və diş həkimi **A. Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Diş həkimi**
**R. S. Fuks**

Qəbul edir: 9-dan 10-a dək; 5-dən 7-yə dək. Ünvan: Mariinski, nömrə 18. Ferdinandın aptekası ilə bərabər. Telefon nömrə 34-15.

*10202*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*8798*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**“Kooperatsiya” müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*





**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

Moskvada təcrübə görmüş diş həkimi **K. S. Kolandskaya-Sanuxat** kabinə açmışdır. Müalicə edir, dişləri doldurur, süni dişlər qayırır və dişləri ağrısız çəkir. Qiymət münasibdir. Qəbul edir: Hər gün səhər saat 9-2-yədək; aşxam saat 5-7-yədək. Adres: Bazarnı və Suraxanski küçələrin küncündə, nömrə 112.

*8795*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Doktor M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. “606” və “914” müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*8057*

**Tazə alınmış**

Amerikanın südü satılır külli miqdarda İ. V. Denisovun bankir kantorasında (Olqinski və Nikolayevski küçələrin küncündə, telefon nömrə 37-75). Az miqdarda isə Qafqazski aptekarski mağazada, Baryatinski, nömrə 6.

*10234*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 333. "Morninq post" [The Morning Post]: Londonda 1772-1937-ci illərdə çap olunan gündəlik qəzet.

**Sülh ətrafında**

səh. 334. "spartaklar": Almaniyada fəaliyyət göstərmiş marksist təşkilat olan Spartak İttifaqının üzvləri.

**Qəzetələrdən**

səh. 337. "petlyuralılar": Ukrayna Xalq Respublikası Direktoriyasının rəhbərlərindən olan Simon Petlyuranın tərəfdarları.

"Odessa-Zastava": Odessa dəmiryolunun əsas stansiyalarından biri.

"Qriqoryev süvariləri": Ukraynanın hərbi xadimi Nikifor Qriqoryevin qoşunları nəzərdə tutulur.

"Qəhqəhə" (yaxud Qəhqə): Türkmənistanın cənubunda yerləşən Kaka şəhəri nəzərdə tutulur.

**Gürcü mətbuatı**

səh. 342. "riza və inqiyad göstərməyir": qəzetdə "göstərməyir" yerinə "göstərilir" getmişdir.

**Bakı xəbərləri**

səh. 344. "Petrovsk": Dağıstanda, indiki Mahaçqala şəhərinin köhnə adı.

"Tazəşəhər": Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinin bəzi mənbələrdəki adı.

"Mərkəzi Ev Komitəsi" (Sentrodom): Bakının ehtiyaclarının təmin edilməsi məqsədi ilə şəhər əhalisini polis dairələrinin (sahələrinin) sərhədləri daxilində qurulan ev komitələrində təşkilatlandıran və bu komitələrin vahid rəhbər orqanı olan qurum. Quruluş yığıncağı 1917-ci ilin dekabr ayının axırlarında keçirilmişdi.





**Çərşənbə, 18 iyun 1919-cu il, nömrə 207**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 19 ramazanül-mübarək sənə 1337. 18 həziran 1919 sənə.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrinküncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.

Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.

### ELAN

Bakı Şəhər İdarəsi bununla elan edir ki, həziran ayının 19-da səhər saat 11-də Təsərrüfat şöbəsi dəftərxanasında şəhər kioskalarının (budkalarının) icarəyə verilməsi üçün torq olacaqdır. Kioskaların ikisi bulvarda, biri isə Malakan bağındadır. Təfsilatı Təsərrüfat şöbəsinin dəftərxanasında hər gün oxumaq olar.

*T-151*

### İXTAR

Bu gün ramazanül-mübarəkin 19-u birinci əhya günü olmaq münasibətilə qəzetəmizin gələn nömrəsi cümə günü çıxacaqdır.

*İdarə*

### QİSMİ-RƏSMİ
### [RƏSMİ HİSSƏ]

**Qanun**

1917 və 1918 sənələrinin gəlir vergiləri üçün quberniya və uçastok idarələrinə üzv intixabı [seçkisi] haqqında Azərbaycan Məclisi-Məbusanının 1919 sənəsi 17 mart iclasında qəbul edilmişdir:

1. Dövləti gəlir vergisi qanunlarının 10-cu [fəsili] 3-4-cü maddələri (1916 sənəsi aprelin 26-da 106 nömrə ilə hökumət tərəfindən nəşr edilən qanun məcəlləsi, 838-ci maddə) Azərbaycan daxilində quberniya və uyezd zemstvo idarələri təşkil olunana qədər öz gücündə baqi [qüvvədə] qalsın.

2. 1919-cu sənəsi gəlir vergisi üçün təzə quberniya, uçastok idarələri təşkil edildikdə dövləti gəlir vergisinin 10-cu fəsili, 3 və 4-cü maddələrindən istifadə üçün icazə verilsin.

*Parlaman rəisi əvəzinə baş müavin:*
*Həsən bəy Ağayev*
*Katib: Əhməd Cövdət [Pepinov]*
*Dəftərxana naçalniki əvəzinə:*
*H[üseyn] Mirzəcamalov*
*Əslinə mütabiqdir.*
*Şöbə naçalniki (imza)*

**Posta və Teleqraf Nəzarətindən verilən əmrlər**

*Əmrnamə 37*

Bu sənəsi nisan [aprel] ayının 22-dən etibarən Posta və Teleqraf Nəzarətini dəröhdə etdiyimi təhti-Nəzarətimdə bulunan [Nazirliyimin tabeçiliyində olan] müəssisələrə elan edirəm.

*Əmrnamə 39*

Bu sənəsi nisanın 23-də Azərbaycan

Posta və Teleqrafxana nahiyəsi idarəsinin baş mexaniki olan mühəndis-elektrik Makuşinski müvəqqəti olaraq həman idarənin baş mexanikliyinə təyin olunur.

*Əmrnamə 40*

Yanvarın 25-də, 1919 sənədə verilən əmrnamə – ki Qutqaşen Posta və Teleqrafxana müdiri Fərəc bəy Paşabəyov Ağdaş Posta və Teleqraf bürosuna müdir təyin edilir – ləğv edilir, yəni məzkur [adı çəkilən] müdir yenə əvvəlki məhəllində [yerində] baqi qalır.

*Əmrnamə 41*

Bu sənəsi nisan ayının 27-də Göyçay Posta və Teleqraf bürosunun müdir müavini Məhərrəm Quliyev VI klaslı “Judavstvo Koltuşski” Posta və Teleqrafxana bürosuna müdir təyin olunur.

*Əmrnamə 42*

Bakı Posta və Teleqraf bürosunun dörd[üncü] dərəcəli məmuru Feodor Belousov 1919 sənəsi nisan ayının 29-da Xaçmazın VI klaslı Posta və Teleqraf bürosuna müdir təyin olunur.

*Əmrnamə 43*

Bu sənəsi mayısın 1-də dəftərxanamın 5-ci şöbə kargüzarı olan İvan Andreyeviç Piletski müvəqqəti olaraq həmin şöbənin müdirliyinə təyin olunur.

*Əmrnamə 44*

Bu sənəsi mayısın 5-də verdiyi ərizəsinə binaən [əsasən], dəftərxanamın 4-cü şöbə müdirinin müavini İbrahim Paşababayev bittamam [tamamilə] xidmətindən əzl [kənar] edilir.

*Əmrnamə 45*

Xaldan Posta və Teleqraf şöbəsinin sabiq müdiri Quliyevin məhkəməyə cəlb edildiyindən naşi [ötrü], 27 nisan tarixindəki 41 nömrəli əmrnaməm ləğv edilir.

*Əmrnamə 46*

Parlamanın qasidi Ruhulla Abbas oğlu Aslanov bu sənəsi mayısın 10-da yenə həman xidmətdə olmaqla dəftərxanama köçürülür.

*Əmrnamə 47*

Bu sənəsi mayısın 10-da Bakı Posta Teleqraf bürosunun beş[inci] dərəcəli məmuru Andrey Başkeviç Kürdəmirin VI klaslı Posta və Teleqraf bürosuna müdir təyin olunur.

*Əmrnamə 48*

Bu sənəsi mayısın 13-dən mühəndis Cəmil Vəzirov dəftərxanamın mühəndislik xidmətində təyin edilir.

*Əmrnamə 49*

Birinci Bakı Posta və Teleqraf bürosunun birinci dərəcəli məmuru Cəbrayıl bəy İmamverdibəyov və İkinci Bakı Posta və Teleqraf bürosunun birinci dərəcəli məmuru Andrey Suttoviç həmin büroların müdirliyinə mayısın 17-dən 19 sənəsi təyin olunur və Bakı Posta və Teleqraf bürosunun dörd[üncü] dərəcəli məmuru Nağı İsmayılov Judavstvo Koltuşski Posta və Teleqraf bürosuna (VI klaslı) bu tarixdən müdir təyin olunur.

*Əsillərində imza etdi Posta Teleqraf*
*Naziri və Dəftərxana Müdiri*
*Əslinə mütabiqdir.*
*Kargüzar: [Rəsul] Rəhimli*





**Məşixət İdarəsindən**

Məşixəti-İslamiyyənin [Şeyxülislamlıq İdarəsinin] həmin iyun ayının 15-də tərtib tapan qərarnaməsi ilə Quba qəzasından Nügədi icmasının xahişinə və məhəlli [yerli] qazının təvəssütünə [vasitəçiliyinə] görə, məzkur [deyilən] icmada dörd prixod var ikən, beşincisi dəxi təşkil olunub həman qəryənin [kəndin] əhli Molla Əbdülmömin Molla Yusif oğlu məzkur prixoda molla təyin olunur.

*Axund Molla Ağa Ağaəlizadə*
*Katib: Əfəndizadə*

## BİR MÜNASİBƏTLƏ

Bakı erməni kəlisası [kilsəsi] zirzəmilərinin polis tərəfindən axtarılması, bu axtarışın surəti-icrası, axtarışdan dolayı şəhərdə dövran edən şayiə və bu şayiələrin mütəəssifanə olaraq [təəssüf ki], biduni-təhqiq [təhqiq edilmədən] qəzetəmiz sütununa keçməsi – bunun hamısı Bakı ermənilərini azürdədil etmiş [ürəyini incitmiş] və iş o məqama çatmışdır ki, Parlamanımızın erməni fraksiyası bu xüsusda hökumətə sual vermək və cavab almaq istəmişdir. Parlamanın keçənki iclasında bu sual verildi və hökumət tərəfindən cavab alındı. Lakin erməni fraksiyası alınan cavabdan razı qalmayıb suallarını sorğu surətinə təhvil ilə [çevirməklə], gələn iclasın müzakirəsinə qoydular.

Erməniləri incidən kəlisalarının axtarılması və bu axtarış xüsusunda yalan xəbərlər buraxılmasıdır. Yalan xəbərlər haqqında inciməyə, əlbəttə, hər kəsin haqqı vardır. Baxüsus, bu zamanda ki, xaricdən də, daxildən də ələni [açıq] və xəfi [gizli] düşmənlər təhdidi altında olduğumuzu başa düşən camaat qəfləti kənara qoyub da dördgöz olmağı özünə fərz bilmiş və binaənileyh [buna görə], hər bir şeyə diqqət yetirmək və hər bir şübhəli əlamətlərdən ehtiyatlanmaq məcburiyyətində olduğundan, böylə yalan və həyəcanlı xəbərlərin yayılmasından qeyri-məmul [arzuolunmaz] hadisələr baş verə bilər.

Kəlisa axtarılmasından dolayı erməni camaatının hissiyyati-diniyyələrinin təhqir edilməsi məsələsinə gəldikdə, bu xüsusda hökumət rəisi Nəsib bəy həzrətlərinin bu cavabı kafidir ki, ermənilərin hissiyyati-diniyyələrini təhqir edən biz olmadıq. Bu həqarəti rəva görənlər kəlisanın anbarlarını heç də kəlisa ləvazi matına əlaqəsi olmayan bir taqım başqa şeylər ilə doldurmağa razı olanlardır.

Əslihə [silah] tutulmasına aid olan yalan xəbərlərin qəzetəmizə keçməsinə gəlincə, qəzetəmizin o biri nömrəsindəki təkzibimizdən aydındır ki, bu xəbər qəsdən buraxılmayıb, bəlkə mühərririmizin səhih bildiyi yerdən qeyri-səhih bir xəbərə təsadüf etməsindən və bu xəbərin idarə katibinin məzuniyyətə getməsinə görə gözdən keçirilməməsindən irəli gələn bir keyfiyyətdir ki, arada hər halda qəsd və təəmmüd [qərəz] yoxdur. Və bir də, əgər bu xəbər çap olmadan qabaq müdirin gözünə ilişmiş olsa idi, təhqiq etməmiş buraxmazdı və səhihliyini bildikdən sonra da, böylə bir əhəmiyyətli hadisəni yalnız bir xəbər sifəti ilə buraxmağa iktifa [kifayət] etməyib, buna bir məqalə də həsr edərdi.

Zənn edirəm, bu xəbərdən dolayı qəzetəmizi müaxizəyə [məzəmmət etməyə, günahlandırmağa] qalxmış və bu xüsusda ikinci kərə baş məqalə yazmış olan Er-

məni Milli Komitəsinin "Naşe vremya" qəzetəsində bir kərə deyil, bir çox kərə çap edilməkdə olan və müsəlmanları ləkələndirən müfəttinanə [araqarışdıran] xəbərlər dəxi, müdirinin bu xəbərləri təhqiq etməməzliyindən dolayı qəzetələrinin sütunlarında ərzi-vücud etməklə oxuyanları zəlalətə salır [yoldan çıxarır, çaşdırır].

Erməni kəlisası anbarlarından çıxan şeylər içində əslihə-filan olmaması hər halda bizim və zənn edirik ki, bütün sadiq azərbaycanlıların qəlblərini təskin və şübhələrini zail [yox] edəcək hallardandır. Ancaq burada bir psixoloji əhval var ki, o xüsusda bir diqqət nəzəri yetirmək lazım idi.

Erməni kəlisasından əslihə çıxdı deyə beş-on dəqiqə içində bu xəbərin bütün şəhərə yayılmasında və hətta rəsmi bir qəzetə sütununa dəxi keçməsində nə sirr olduğuna dərin, lakin bitərəfana [tərəfsiz] bir nəzər yetirən olarsa, bu işdə deyil yalan xəbərlər buraxanları, bəlkə erməni millətinə başçı olaraq xeyir əvəzində "ayı xidməti" göstərən firqələr başçılarını ittiham etməyi haqlı görər.

Əgər malxazyanlar, çubaryanlar və əmsalı, ermənilər ilə müsəlmanlar arasında qədimdən bəri bərkimiş olan qonşuluq, vətəndaşlıq, din ayrı qardaşlıq rabitəsini pozan, sarsıdan və bilaxirə [axırda] məhv edən bir politikanı özləri üçün məslək ixtiyar etməmiş olsaydılar, bu gün bu iki tayfanın arasında etimadsızlıq və etibarsızlıq olmaz və darı əkib də sarı buğda biçmək iddiasında olan Malxazyan əfəndilərə böylə bir məhsuldan şikayət etməyə məhəl [yer] qalmazdı...

*Hacıbəyli Üzeyir*

## TELEQRAF XƏBƏRLƏRİ

**Bolşeviklərlə dəniz müharibəsi**

Helsinqforsdan [Helsinkidən] xəbər verilir ki, Fin boğazında bolşevik paroxodları ilə ingilis gəmiləri arasında dəniz müharibəsi vaqe olmuşdur. Birisi iyunun 1-də vaqe olmuş, iki ingilis gəmisi dörd ədəd bolşevik gəmilərini qovmuşdur. İkinci müharibə də bir neçə ingilis gəmisi ilə və bolşevik gəmiləri arasında vaqe olmuşdur. Qızğın müharibə nəticəsi olaraq bolşevik gəmiləri qaçmışlardır.

**Petroqrad fəhlələri**

Petroqraddan bildirildiyinə görə, ləvazimi-hərbiyyə hazırlayan fabrika əmələlərindən başqa bütün fabrika əmələlərinin səfərbərliyə alınıb da xətti-hərbə göndərilmələri barəsində əmrnamə sadir olmuşdur [əmr verilmişdir].

**Petroqrada hücum**

London - Stokholmdan göndərilən teleqramlarda denilir ki, Petroqrada hücum etmək üçün Müttəfiqlər Helsinqforsda hərbi tədarükatda bulunurlar. Yenə əlavə edilir ki, tez bir zamanda Helsinqforsda 50 min qoşun hazır ediləcəkdir. 20 kruvazerdən [kreyserdən] ibarət olan ingilis gəmiləri bolşevik flotunu təqib edəcəkdir. Royterin Helsinqfors müxbiri yazır ki, "Karakoa" nam [adlı] admiral gəmisində admiral Kouan varid oldu [gəlib çatdı].

**Əfqanıstan ilə ingilislərin müharibəsi**

Royter acəntəliyi xəbər verir ki, ayın 16-da əfqanlılar Dakkada olan səngərlərimizə həmlə etmişlərdir. Onların həmləsi dəf edilib, gecə sakitliklə keçmişdir. Sabahı biz həmləyə başlayıb gündüz saat 2:50 dəqiqədə qayət müşkül bir vəziyyətdə ikən biz düşmənləri öz mövqelərindən çıxardıq. Bizim təyyarələrimiz də həmlədə iştirak edərək bu minval ilə Uellenbadı bombardman etmişlərdir. Əfqanlıların sülh əqd edilməsi təklifinə baxmayaraq, əfqanlılar yenə qəbilələri bizim əleyhimizə çıxmağa təşviq edirlər. Ayın 21-dən verilən son bəyanatda denilir ki, Dakkada olan müharibə zamanında biz əfqanlılardan 5 ədəd Krupp topları almışıq. Düşmənlərdən 300 məqtul [ölü] vardır. Ayın 19 və 20-də səhər biz əfqanın baş ərkani-hərbinə [baş qərargahına] həmlə eyləmişik və onların kazarmaları üzərinə bomba tökmüşük.

## SÜLH ƏTRAFINDA

**Avstriya və sülh**

Paris - Avstriya sülh müahidənaməsi [sazişi] demək olar ki, əqd edilmiş kimidir. Müharibə məsuliyyəti maddəsi Almaniya müahidənaməsinə müvafiqdir. Yalnız kayzerin məhkəməyə cəlb edilməsi maddəsi götürülmüşdür. Maddələrin birində denilir ki, müharibə qanunlarını pozanlar beynəlmiləl divani-hərb [hərbi məhkəmə] tərəfindən mühakimə edilməlidirlər. O ki qaldı sərhəd məsələsinə, Nijni-Petrolinin əhalisi sırf nemeslərdən [ibarət] olsa da, yenə o yer İtaliyaya verilir, ta inki onun sərhədi şimal tərəfdən mühafizə edilsin.

**Türkiyə nümayəndələrini dəvət**

Dördlər Şurasında qət olunmuşdur ki, Osmanlı İmperiyası məsələsi müzakiratına Osmanlı nümayəndələri dəvət edilsin.

**Almaniyada matəm**

Berlindən xəbər verilir ki, Almaniya Daxiliyyə naziri Almaniya dövlətləri hökumətlərinə təklif eyləmişdir ki, sülh müahidəsinə [sazişinə] protesto olmaq və əza saxlamaq üçün bir həftə müddətində bütün Almaniya məmləkətində fərəh verici yol bağlansın. Teatrolarda isə hala münasib drama və sairə göstərilsin.

**Sülh müahidənaməsi imzası üçün müddət**

Paris - İyun ayının 13-də Vilsonun Amerikaya hərəkət edəcəyi şayiatı barəsində "Exo de Pari" yazır ki, Vilson sülh imza ediləndək Parisdə qalacaqdır. Amma almanlar məsələni uzatmamalıdırlar. Hər halda, iyunun 15-i üçün sülh məsələsini həll etməlidirlər.

**Almaniya flotunun təslimi**

Avam Kamerasında Lesli Vilson bəyan edir ki, Almaniya İngiltərəyə 22 ədəd sərnişin paroxodunu təslim eyləmişdir. Bunlar 168.000 ton həcmindədir. Bundan əlavə, 86 ədəd yük paroxodu vermişdir ki, bu da 863.210 tondur. Makazamar xəbər vermişdir ki, mütarikə [atəşkəs] zamanında Almaniyanın 249.754 ton həcmində 85 lineyni gəmi [xətt gəmisi], 3.241.439 ton həcmində olan 690 ədəd yük paroxodu əcnəbi ölkələrdə bənd olmuşdu. Bundan əlavə, 290 ədəd Almaniya gəmiləri Müttəfiqlər tərəfindən tövqif [həbs] edilmişdir.

**Sülh Konfransında**

Klemanso Dördlər Şurasında müzaki-

rat əsnasında siyasətcə qalib gəlmişdir. İndi məlum olur ki, Klemansonun arzusuna görə saziş hüsula gəlmişdir. Almanlara veriləcək ultimatumda deyilir ki, Fransa cüzi də olsa, heç bir güzəştdə bulunmayacaqdır. Klemansonun inadı Lloyd Corca və Vilsona qalib gəlmişdir. Bu yaxın vaxtda olan müzakirat əsnasında Vilson Klemansonun nöqteyi-nəzərində durmaqdadır. Vilson sülh müahidənaməsinin bir çox yerlərinin Lloyd Corc istədiyi qədər dəyişilməsini təsvib [təsdiq] etməyir. Cümə günü almanlara veriləcək cavabda sülh şərtləri barəsində bəyanat veriləcəkdir. Hərgah almanlar beş günə qədər sülhü imza etməsələr, Müttəfiq əsgərləri hücuma keçib Berlin üzərinə yürüş edəcəklərdir. Bu münasibətlə bəzi tədarüklər görülür. Bəziləri deyirlər ki, almanlar sülhü imza edəcəklər. Bir paralarının rəyi budur ki, sülh imza edilməsi üçün almanlara genə vaxt veriləcəkdir. Yəqin edilmişdir ki, alman nümayəndəsi Rantsau sülh müahidənaməsi dəyişilmiş olsa da, müahidənaməni imza etməyəcəkdir.

## QƏZETƏLƏRDƏN

**Yaponiya hökuməti Almaniya və Rusiya ilə etilafa girişmək arzusundadır**

Liondan iyunun 14-də xəbər verirlər ki, Müttəfiq dövlətlər Kolçak hökumətinə müavinət göstərməyi qərara almışlardır. Yaponiya hökuməti öz hissəsini almaq istəyir. Müttəfiqlərin bu barədəki bəyanatı Yaponiyanın təzə bir qalibiyyətindən ibarətdir. Çünki Yaponiya hökuməti birinci olaraq Kolçak hökumətini etiraf [qəbul] edib, Sibiryada və Mançuriyada bir para haqq və səlahiyyətə malik olmaqdan ötrü Kolçak hökumətinin əl-ayağını müxtəlif sazişlərlə bağlamışdır. Yaponiyanın Almaniya və Rusiya ilə etilafa [razılığa] girişmək niyyətində olduğu haqqındakı xəbərlər alındıqdan sonra Yaponiya tərəfindən təhdid olması aşkar olmağa başlamışdır. Yaponiyanın bu etilafı [uzlaşması] bütün dünyanı təhdid edə bilər. Yaponiyanın müdaxilə etməsinə görə sülh müahidənaməsinin [sazişinin] dəyişiləcəyi məsələsi qalxır. Rəisi-cümhur Vilson cümə və şənbə günü müahidənamənin təzə dəyişəcəyi yerlərinə baxacaqdır. Yaponiya hökuməti Dördlər Şurasında vəkalətə malik sifəti ilə iştirak etməkdədir.

## TÜRKÜSTANDA

İyun ayının 15-də Türküstandan Bakıya Aşqabad və Tazəşəhərdən çıxmış olan bir neçə afiser və məmurlar gəlmişdir. Bunlar Aşqabadda vaqe olan əhvalları böylə nəql edirlər. Onlar Aşqabaddan çıxdıqda cəbhə Tecan ilə Duşak arasında imiş. İyunun 8-də Dabravol ordusu ştabı Aşqabad əhlinə əmr vermişdir ki, 18 yaşında olanlar, gərək şəhərdən və gərək ətrafdan olsun, başqa yerə getməlidirlər. Məsai vəziri [Əmək naziri] bütün övrət və uşaqlara əmr vermişdir ki, Aşqabaddan çıxsınlar. İyunun 13-də Zakaspiyski oblastında 20 yaşından 30 yaşınadək əhali səfərbərliyə dəvət edilmişdir. Teleqrafçılar, dəmiryol qulluqçuları səfərbərlikdən azad edilmişlərdir. İyunun 9-da Aşqabadı təxliyəyə başlamışlardı. Səhhəti-ümumiyyə komitəsi düşmək üzrə idi. İyunun 13-də dəmiryol karxanalarının əmələləri dəstəsi cəbhəyə əzimət eyləmişlərdir [yola düşmüşlər].

**İyunun 13-də alınan məlumati-rəsmiyyə**

Bizim qitəatımız [hərbi hissələrimiz] Duşak yanında olan dəmiryol xəttini təxrib etdikdən sonra körpünü yandırıb saat 14:45 dəqiqədə Armansəhhətə çəkilmişlərdir. Duşakda bir zirehli avtomobil və bir də hərbiyyə eskadronu buraxmışlardır. Zirehlidən xəbər alınmışdır ki, Duşak dairəsində əmələ qatarı çəkilərkən 120 nəfər süvari və onların arxasında piyada dəstəsi görünürdü. Bu xəbərlər təhqiq edilmişdir. Gecə sakitliklə keçdi. İyunun 13-də sübh vaxtı göndərilmiş olan kəşifci dəstələri kimsəni görməmişlərdir.

**Bolşeviklərin yürüşü**

Bolşeviklər Duşakı işğal etdikdən sonra Aşqabad qarşısında olan Qəhqə istehkamına yaxınlaşmışlarsa da, fəqət Dabravol qoşunları tərəfindən Duşak tərəfə püskürdülmüşlərdir. Bolşeviklər yenidən qüvvə alıb hücuma başlayıb, iyunun 12-də Tecan çayını keçmişlərdir.

**Dabravol dəstəsi Tazəşəhərdə**

Petrovskdan Tazəşəhərə Aşqabad dabravollarına kömək üçün 500 nəfər kazak varid olmuşdur [gəlmişdir]. Petrovskdan yenə iki paroxod Dabravol qoşununun vürudu [gəlişi] gözlənir.

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

Tovuzdan Rəisi-vükəla, Məclisi-Məbusan rəisi və Məclisi-Məbusanın Sosialist fraksiyası naminə bir böylə teleqram alınmışdır:

Bizə çatan şayiata görə, Denikinin qara irticası yaxlaşır. İngiltərə Komandanlığı və inqilab düşmənləri də buna müavinət [kömək] edirmiş. Biz inanırız ki, onların siyasəti bizə mənfəət gətirməyəcəkdir. Binaənileyh [ona görə], kəndçilərin izdihamlı mitinqlərində qət edilmişdir ki, bizə istirahət veriləcək kimi Müttəfiqlərin sözlərinə inanmayaraq, son damla qanımızadək inqilab düşmənləri ilə mübarizə edək. Biz tələb ediriz ki, silah əldə olaraq düşmənlər qarşılansınlar.

*Şəmşəddil dairəsi kəndçiləri*
*Köytayev*

## NƏZARƏTLƏRDƏ
## [NAZİRLİKLƏRDƏ]

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Mərkəzi Ev Komitəsi cənbindəki [nəzdindəki] iaşə məntəqəsi şöbəsinə müraciətən rica etmişdir ki, Balaxanı mədən dairəsindəki ağır bir hal keçirməkdə olan 350 nəfər İran rəiyyətinə məccani [pulsuz] yemək buraxılsın. Bu barədə İran konsuluna məlumat verilmişdir.

- Son vaxtlar Marqulis nam [adlı] bir nəfər özünü Ümuri-Xeyriyyə və Nafiə naziri müavini deyə qələmə verirmiş. Nəzarət həman şəxsi Səhhəti-Ümumiyyə Nəzarətinə göndərmişdir ki, ağlı müayinə edilsin. Ehtimal üzrə ağıldan çıxması təsdiq edilərsə, dəlixanaya göndəriləcəkdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Türuq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] ilə etilafa [razılığa] gəlmişdir ki, Bakıdan Batumadək 108 nəfər hərbi əsirləri aparmaq üçün 3 vaqon verilsin.

- Ağdaş dairəsi Ərəş qəzasının Seyidlər nam kənd əhalisi Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə müraciətən fəna əhvallarını təsvirən müavinət istəmişdilər. Nəzarət öz baş məmuru Vəkilovu əhvalı təhqiq üçün məhəllinə [yerinə] göndərmişdir. Mumaileyh [haqqında danışılan] Vəkilovun məruzəsinə görə, həqiqətən Kür çayının daşmasından kənd əhalisi böyük xəsarətlərə düçar olmuşdur. Belə ki, 100 desyatindən ziyadə əkilmiş ərazi su altında qalıb xarab olmuşdur. Əlavə, 10-15 ev də dağılmışdır. Əhali açıq havada yaşayır. Xəsarət 1.200.000 rubləyə baliğdir [çatır].

- Ağdaş ətrafında hal-hazırda 15-dək qaçqın ailə mövcuddur ki, bunların əhvalı fənadır. Məhəlli [yerli] ziyalılar Bələdiyyə rəisi müavinəti [köməyi] ilə bir neçə teatro tamaşaları tərtib verib, mədaxili onlara sərf etmişsələr də, kifayət etməmişdir. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən bir çox təcili binagüzarlıqlar [sərəncamlar] verilmişdir.

- Şamaxı qəza qaimməqamı müavini Müzəffər bəy Abdullayev Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə teleqrafla xəbər vermişdir: Mayısın 28-də qəza qaimməqamı Lütfəli bəy Zülqədərovun təşəbbüsatı ilə bir cəbə [ianə qutusu] günü tərtib verilmişdi. Cəbələr böyük mədaxil vermişdir. Nəzarət onlara teleqrafən izhari-təşəkkür etmişdir.

- Məsai Nəzarəti [Əmək Nazirliyi] Türuq və Məabir Nəzarətinə müraciətən məlum etmişdir ki, Azərbaycan dəmiryollarının xidmətçilərindən bir çoxu vaxtilə Şimali Qafqaziya Cümhuriyyəti yollarında çalışmaq üçün göndərilmişdilər. Son vaxtlar orada baş qalxızmış hadisatdan naşi [ötrü] həman xidmətçilər geri qayıtmaq məcburiyyətində olmuşlardır. Nəzarət rica etmişdir ki, həman xidmətçilər sadiqanə qulluq etdikləri üçün geri qəbul edilmələri haqqında lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Şamaxı Bələdiyyə rəisi Hüseynbəyov teleqrafən Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə xəbər vermişdir ki, İstiqlal bayramı günü qaçqınlar nəfinə [xeyrinə] olaraq əhali 2000 rublə toplamışdır. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Hüseynbəyov və əhaliyə teleqrafən izhari-təşəkkür etmişdir.

## EDADİYYƏLƏRDƏ ƏRƏB LİSANINA EHTİYAC VARDIRMI?

Mütəəllimlər [Tələbələr] Qurultayının 6-cı iclasında qət etmişlər ki, edadiyyələrdə ərəb lisanı oxunsun. Bunu hanki nöqteyi-nəzərlə qərara almışlar, burası məlum olmadı. Çünki qəzetə müxbiri bunu yazmağı lazım görməmişdir. Hərgah edadiyyələrin axund və molla sinifini yetişdirmək məqsədi olsaydı, zənn olunardı ki, ərəb lisanını din və şəriət cəhətincə proqrama daxil etmək istəyirlər. Çünki Quran, fiqh [şəriət hüququ] və sair ehkamımız ərəbcə yazılmışdır. Fəqət edadiyyələr seminariya və akademiya kimi ruhani məktəbləri zümrəsindən olmadığından, ərəb lisanını məzkur [deyilən] nöqteyi-nəzərlə daxil etmək olmaz. Zənnimcə, qurultaydakı "ərəbçilər" iki səbəbdən birisinin mülahizəsi ilə edadiyyələrdə ərəb lisanına tərəfdar olmuşlardır. O iki səbəblər bunlardır: 1) Ərəb ədəbiyyatına dara olmaq [ərəb ədəbiyyatı haqqında dərin və ətraflı bilik sahibi olmaq]; 2) Qüruni-vüstada [Orta əsrlərdə] ərəblərin yaratdıqları ülum və fününu [elm və fənləri], vəlhasil o vaxtın mədəniyyətini öyrənmək və ehya qılmaq [diriltmək].

Bunlardan hanki olursa-olsun, səhv və zəlalətdən [doğru yoldan çıxmaqdan] başqa bir şey deyildir. Əvvəla, ərəb lisanına onun ədəbiyyatı üçün tərəfdar olanların məqsədi yəqin ki, rusların klassikləri (əntiqiyyunları) kimi edadiyyələrdə köhnə mədəniyyətini qaib etmiş millətlərin dillərini bərqərar etməkdir. Məlum olduğu üzrə, rus mütəfəkkirini [mütəfəkkirləri] iki növdür. Bir növü həmin ərz etdiyim əntiqiyyunlardır ki, hələ indiyə qədər edadiyyələrdə latın və yunan dillərinin təliminə tərəfdar qalırlar. İkinci növü də təbiiyyunlardır (Реалисты) ki, birincilərin əleyhinə olaraq, əski dillərin təliminə heç lüzum görməzlər. Bunların uzun-uzadı elmi mübahisə və münaqişələrinə əl vurulsa, məsələnin xaricinə çıxmaq imkanında bulunarız. Lakin müxtəsərcə bunu qeyd etməliyəm ki, təbiiyyunlar tamamən haqlıdırlarsa, əntiqiyyunlar da bir dərəcəyə qədər haqlıdırlar. Çünki edadiyyələrdə əski lisanlarla bərabər bəzi miləli-mütəməddinənin [mədəni millətlərin] də dilləri təlim olunur ki, bunlarla onların arasında ən sıxı bir rabitə mövcuddur. Məsələn, latın lisanı firəng, ispanyol, portəgiz dillərinin məxəzi [mənbəyi]ədd [hesab] olunur. Çünki bu millətlər qədim latınların balalarıdır. Binaənileyh [ona görə], bu dillərin qəvaidi [qaydaları], müştəqqatı [kəlmələrin kökləri] biri-birindən çox az fərqli olduğundan latın lisanını öyrənmiş şəxslərə burada saydığımız dilləri də çox asan vəchlə öyrənmək mümkün olur.

Latın və yunan dilləri əvəzinə bizim klassiklər ərəb yaxud fars lisanlarını edadiyyə proqramlarına yükləmək istəyirlər. Lakin bunun heç bir cəhətdən faydası yoxdur. Zira ərəb lisanı nə türk dilinə, nə də indiki Yevropa dillərinin heç birinə məxəz deyildir. Doğrudur, bir qədər ərəb ibarə və kəlmələri ana dilimizə daxil olmuşdur. Lakin yer üzündə öylə bir dil yoxdur ki, ona əcnəbi lisanlarından heç də qarışmamış olsun. Binaənileyh qamusumuzdakı [lüğətimizdəki] ərəb kəlmələrinə fəqət [sadəcə] qamus dairəsində olduğumuz ehtiyacı böyüdüb də məktəblərimizin onsuz da ağır proqramını daha yeni bir lisan əlavəsi ilə qalınlaşdırmağın heç mənası yoxdur.

Keçəlim ikinci səbəbə ki, ərəb mədəniyyətindən ibarət olmuş olsun.

Sahibləri ölmüş əski mədəniyyətlərlə uğraşmaq ancaq tarixə və asari-ətiqə [qədim əsərlər] elminə aid bir vəzifə olduğundan, bunu tədris üçün məktəb proqramlarına daxil etmək olmaz. Buna dair Şəmsəddin Saminin gözəl bir təsəvvürü vardır ki, bəzi yerlərini maraqlılara təqdim edirəm. Sami yazır:

*"Biz bu gün İbn Sinanın tibbini, İbn*

*Rüşdün hikmətini, Cahizin kimyasını yenidən ehya və bunların kitablarını kitabxanaların tozları altından çıxarıb ərəbdən əlsineyi-saireyi-islamiyyəyə* [digər müsəlmanların dillərinə] *tərcümə ilə meydani-intişara vəz* [nəşrə başlamaq] *və onların tədrisinə məxsus məktəb və mədrəsələr bina etmək üçün nə qədər hümmət və məsarifə möhtac isək, əsrimizin ən mükəmməl fənn kitablarını dəxi beynimizdə* [aramızda] *tədavülə çıxarmaq üçün o qədər hümmət və məsrəfə möhtacız. Halbuki İbn Sinanın tibbi ilə isitməni kəsməyə müqtədir olammayacağımız kimi, Cahizin kimyası və İbn Rüşdün hikməti ilə də nə dəmiryolu lokomotivi ilə vaporu yürüdə biləriz, nə teleqraf qullana bilərik. Bunun üçün biz üləmayi-islamın asarı* [islam alimlərinin əsərləri] *ilə uğraşmağı tarix və asari-ətiqə üləmasına buraxaraq təməddün* [tərəqqi] *etmək istərsək, ülum və fününu Avropa mədəniyyəti-hazirəsindən almalıyız. Əshabın* [Peyğəmbərin səhabələrinin, tərəfdarlarının] *övladı yunan mədəniyyətini tamamilə alıb onlara peyrov olduqları* [onların ardınca getdikləri] *halda, biz neyçün Avropa mədəniyyətini gah küfr və şirklə və gah təqlidlə ittiham edərək ondan istifadə etməK istəməyiriz? Yoxsa əshabi-kiramın övladından dəyanətdə* [dindarlıkda] *daha qəvimiyiz* [güclüyüzmü, möhkəmizmi]*?"*

İştə sizə ən qəvi [möhkəm] dəlillər. Mədəni olmaq istəyəcək olarsaq, fövt olmuş [ölmüş, yox olmuş] millətlərin yaxasını buraxaraq, bugünkü mədəniyyətin sahibləri alman, firəng və ingilislərlə əlaqə və rabitədə bulunmalıyız. Onların dillərini, ədəbiyyatını öyrənərək istifadələrimizi [öyrəndiklərimizi] müruri-zamanla [vaxt keçdikcə] öz türkcəmizə tərcümə etməliyiz ki, bununla həm Yevropa mədəniyyətindən uzaq düşməmək və həm də ana dilimizi ülum və fünun cəhətindən zənginləşdirmək məqsədinə nail olarız. Əks surətdə aləmi-İslamdan min fərsəxlərlə uzağa qaçmış, mədəniyyətdən daha bir yüz il geriyə atılarız ki, nəticədə yer üzündən sair cahil millətlər kimi müzməhil [məhv] olmaq qorxusu görünür.

Binaənileyh [ona görə], miləli-mütəməddinəyə qovuşmaq fikrimiz varsa, edadiyyələrimizdə ərəb lisanı əvəzinə ingilis lisanını tələb etmək lazım gəlir. Tənəzzülümüzün ümdə baisi təəssübi-cahilanəmiz olmuşdur. Buna bundan sonra damı yol veriləcəkdir? Yeni açılacaq univərsədə şərq lisanları zümrəsində yəqin ki, ərəb lisanına da əhəmiyyət veriləcək. Buna heç bir sözümüz ola bilməz. Lakin edadiyyələrdə ərəb lisanına heç bir lüzum yoxdur. Ümidvaram ki, bu nöqtələri proqram düzəldənlərimiz unutmasınlar.

*Fərhad Ağazadə*

**BAKI XƏBƏRLƏRİ**

**Aşqabad cəbhəsində**

- İşbu iyun ayının 7-dən etibarən Aşqabad şəhəri təxliyəsi başlanmışdır. Cəbhədən alınmış xəbərlərə görə, Qəhqədə əhval dəyişməmişdir.

- Zakaspi hökuməti Azərbaycan nəzdindəki siyasi nümayəndəsi Qnesin dəyişilib əvəzində Stepanov təyin edilir.

**Qazaxdan teleqraf**

Qazağa fövqəladə vəkalətlə göndərilmiş olan Rza bəy Qaraşarov Daxiliyyə naziri cənabları ilə Parlaman sosialist üzvlərinə böylə bir teleqraf göndərmişdir:

*"İyunun 13-də Çaylı kəndində iki dəstə arasında atışma olmuşdur. Nəticədə iki nəfər qətl edilmişdir. Məhəlli-hadisəyə* [hadisə yerinə] *pristav getmişdir. Hər iki tərəf müqəssirləri verməkdən imtina etmişdir. Dünən uyezd naçalnikinin* [qəza rəisinin] *müavini öz mühafizə dəstəsi və təzə təşkil edilən 100 nəfər milisionerlər ilə məhəlli-hadisəyə azim olmuşsa da* [getmişsə də]*, müvəffəqiyyətə nail olmamışdır. Həmişəki kimi qanuni məmurlara tabe olmayan Çaylı əhalisi yenə də müqəssirləri verməkdən imtina etmişlər. Axşam Çaylı kəndliləri atışma başlamışlar. Atışmada milisionerlərdən biri və iki Çaylı əhli qətl edilmişdir. Bu gün səhər uyezdnı naçalnik nizami süvari dəstəsi və topxana ilə Çaylı kəndinə getmişdir. Təbəiyyət etmək* [tabe olmaq] *üçün bir saat möhlət verilmişdir. Bu tələbə əməl edilmədikdə, süvarilər kəndə yaxınlaşdıqda atışma başlanmışdır. Topxana süvarilərə kömək etmişdir. Bir saatdan artıq atışmadan sonra Çaylı kəndi təslim olmuşdur. Çaylılardan tələf olanlar vardır. 125 adam həbs edilmişdir ki, bunlardan bəziləri sabah azad ediləcəkdir."*

**Yevlaxdan protesto teleqrafı**

Parlaman sədri naminə Yevlaxdan böylə bir teleqraf alınmışdır:

*"Keçən il vətənimiz Azərbaycanın hərcmərc zamanında Nuri paşa öz sədaqətli və bacarıqlı hərəkətləri ilə həyatımızı qan dəryasında boğmaqla təhdid edən anarxiyanı dayandırdı. Ancaq onun alicənabanə hərəkətinə görə, milli müharibə dayandırılıb biz azad nəfəs aldıq. Lakin bizə xəbər çatmışdır ki, bizi xilas edənlər bir para qara fikirli və vətənimizin sülh ilə yaşamasını gözü götürməyən adamların təhriki ilə həbs edilmişlərdir. Biz, Yevlax əhalisi bununla Parlamandan xahiş edirik ki, Nuri paşanın həbsdən azad edilməsini tezliklə tələb etsin."*

*Camaat nümayəndələri (imzalar)*

**Ziyalılar İttifaqında**

9 həziran

İclas açıldıqda Ağa əfəndi [Axundzadə] idarəyə müraciətən ərz etdi ki, ümumi iclas qərar vermişdir ki, istiqlaliyyətimizə təcavüz edildiyi haqqında tam cahan demokratiyasına bir müraciətnamə yazılsın. Lazımdır ki, bu müraciətnamə hazırlanılsın. İdarə müraciətnamənin yazılmasını mətbuat heyətinə mühəvvəl etdi [tapşırdı].

Əxzi-əsgər [Hərbi çağırış] idarəsindən gəlmiş təzkirə oxunduqdan sonra qərar qoydu ki, təbliğat bölüyü təşkil etsin və bölük müttəsil [ara vermədən, daim] şəhərdə və kəndlərdə əhaliyə əsgər getməyin əhəmiyyətini və mənasını qandırsın.

Maarif Şöbəsindən daxil olmuş tədris kitabları nəşr olmaq xüsusunda məruzə oxundu. Bu məruzə Maarif Şöbəsinin gələcək səneyi-tədrisiyyənin ibtidasına [əvvəlinə] milliləşmiş siniflər üçün məramnamələr, kitablar və başqa ləvazimati-tədrisiyyə hazırlamaq olduğu münasibətilə idarə qərar qoydu ki, bunları Maarif nazirinə təqdim edib nazir cənablarından komissiya təşkil etmək izini istənilsin və lazım olan qədər para vermək sərəncamında olsunlar. Bunları nazirə təqdim

etmək və izahat vermək üçün Səməd bəy Hacıəliyev intixab edildi [seçildi].

Mərkəzi Ev Komitəsinə təyin olunmuş nümayəndə Camo bəy ərz etdi ki, kəndlərdə komitələr təşkil edəcək heyətə kəndisindən başqa iki nəfər də nümayəndə intixab etmək lazımdır. İdarə [Bayraməlibəyov] Teymur bəyi və [Abaşidze] Abdulla bəyi intixab edib tapşırdı ki, onlar Kəndlilər İttifaqı (Krestyanski Soyuz) ilə bərabər işləməlidir.

Sonra başqa bir məsələyə də diqqət yetirildi.

**4-cü uçastok ev komitəsində**

İyun ayının 19-dan etibarən 4-cü uçastkovı ev komitəsinin 1 nömrəli dükanında məzkur [deyilən] uçastokun əhalisinə Mərkəzi Ev Komitəsi tərəfindən hazırlanmış brezent ayaqqabılar satılacaqdır.

Qiymətlər: mərdana [kişilərə] və zənana [qadınlara] 330 manat, orta sinli [orta yaşlı] uşaq üçün 275 manat, uşaq üçün 220 manat.

Arzu edənlər komitənin dükanına səhər saat 6-dan 2-dək müraciət etməlidirlər.

**Ticarət məktəbində**

Bu il Bakı Ticarət məktəbini 33 nəfər mütəallim [şagird] bitirib şəhadətnamə almışlardır. Bunlardan 3 nəfəri müsəlman, 8 nəfəri yəhudi, 3 nəfər rus, 1 nəfər polyak, 1 nəfər latış, qalan 17 nəfəri ermənilərdir.

**Rus Milli Komitəsi**

Bakıdakı Rus Milli Komitəsi həman sabiqki qərar üzrə, Bakıda sükunət edən [yaşayan] ruslara pasport verməkdədir. Böylə ki, həmin iyun ayının 5-dən etibarən İvan Fyodoroviç Kureyevə pasport verib qalabəyi [komendant] və qubernatora təqdim etmişdir. Rus Milli Komitəsinin pasportu göy kağızda olub Rus Milli Komitəsinin böyük möhürü ilə möhürlənmişdir.

**Yeni qalabəyi**

Qradonaçalnik vəzifəsinə təyin edilmiş olan minbaşı Qudiyevin yerinə Bakı qalabəyisi müavini Zalsman təyin edilmişdir. Mumaileyh [haqqında danışılan şəxs] dünəndən etibarən kəndi vəzifəsini ifaya şüru etmişdir [başlamışdır].

**Yeni Sabunçu qalabəyisi**

İstefaya çıxmış olan Balaxanı-Sabunçu qalabəyisi Lütfəli bəy Əmircanov yerinə Səməd bəy Əliisgəndərov təyin edilmişdir. Mumaileyh dünəndən etibarən kəndi vəzifəsini ifaya şüru etmişdir.

**Gəncədən**

*(Xüsusi teleqraf)*

Gəncədən idarəmizə böylə bir teleqraf gəlmişdir:

*"Rusiya hökumətinin ən qarışıq bir zamanında Rusiyada yaşayan millətlər bolşeviklərin kirli pəncələrindən qurtarmaq üçün çarpışdıqları bir anda, biz azərbaycanlılar da onlarla hürriyyətimiz yolunda mübarizə edib, xanimanımızı dağıdıb arvad və uşaqlarımızı doğrayan o canavar qüvvələrdən qurtulmağa çalışırdıq. Son gülləmizi atarkən bizi bu qara qüvvələrin əlindən qurtarmağa və qəsb edilən hüquq və hürriyyətimizi istirdad [geri almaq] üçün bizim yalvarmağımıza Osmanlı qardaşlarımız imdadımıza gəldi, o xainlərin əllərindən bizi qurtardı. Osmanlı ordusunun başında bulunan komandanlar Nuri və Mürsəl paşalar olmasaydı, Azərbaycan pək bir şurişlik [hərcmərclik, iğtişaş] olardı. Bu komandanların sayəsində hər fənalığın önü alındı. O gündən bu günə qədər Azərbaycanda sülh və səlamət iqa edildi [meydana gətirildi]. Osmanlı ordusu buradan getdikdən sonra Nuri və Mürsəl paşaların və onların yoldaşları[nın] Batumda İngilis Komandanlığının əmri ilə bir taqım qarafikirlərin haqsız iftiralarına qurban edilərkən həbs edildiklərini bu gün biz Gəncə müsəlmanları böyük bir təəssür və hüzünlə xəbər aldıq. Qafqaziyadakı ümum millətlərin səlamətliyinə çalışmaqdan başqa bir qəbahətləri olmayan bu möhtərəm adamların hər halda sərbəst buraxılacaqlarını müsəlmanların hamısına tanılan ingilis hökumətinin Bakıdakı qüvvələri komandanlığından ümid və bu xüsusda böyük bir mitinq tərtib edən biz Gəncə müsəlmanları sizin qəti cavabınıza şiddətlə müntəziriz."*

Mitinq heyəti: Axund [Məhəmməd] Pişnamazzadə, "İttihad" sədri əvəzinə [Ağalar bəy] Səfikürdlü, "Müsavat" sədri [Məşhədi Əli] Rəfiyev, Müsəlman Sənətkarlar İttifaqı sədri [Yusif] Fərzixanov, "İttihad" Mərkəzi Komitəsi vəkili Əhməd Bədi' Triniç.

**Silah çıxarılmasını qadağan etmək**

Daxiliyyə naziri Bakı qubernatoruna müraciətən məlum etmişdir ki, axır vaxtlar Azərbaycan Cümhuriyyətindən silah çıxarılması müşahidə olunur. Böylə hərəkət dövlət işlərinə böyük xəyanət ədd [hesab] edildiyindən, tezliklə önünü almaq üçün lazımi tədbirlər ittixaz edilməsi [tədbirlər görülməsi] rica olunmuşdur.

**Uyezd məktəbləri haqqında**

Bakı vilayəti ibtidai məktəbin müdiri qubernatora məlum etmişdir ki, qəzalarda olan məktəblərin ləvazimatını mühafizə etməkdən ötrü naçalniklərə və kənd yüzbaşılarına əmr sadir olunmuşsa da [əmr verilmişsə də], bu vaxta qədər məktəblərə mühafizə qoyulmayıb və məktəblərin ləvazimatı oğurlanmaqdadır. Halhazırda məktəb ləvazimatına nə qədər ehtiyac hiss edildiyini göstərərək, müdir, tezliklə həman məktəblərə mühafizə təyin edilməsini rica etmişdir.

**Quba və Cavad qəzalarında rus zabitləri**

- Quba qəzası qaimməqamı Bakı qubernatorunun əmri mövcibincə [əmrinə əsasən], şəhərdə və Qusarda sükunət edən [yaşayan] rus afiserlərinin siyahısını təqdim etmişdir. Həmin siyahı üzrə məzkur [deyilən] qəzada 7 nəfər sabiq rus ordusu afiserləri sükunət edib və heç bir işə məşğul deyildirlər. Bunlar Azərbaycan qulluğunda dəxi olmayırlar.
- Cavad qəzası qaimməqamı Salyan şəhərində və qəzasında sükunət edib Azərbaycan qulluğunda olmayan rus afiserlərinin siyahısını qubernatora təqdim etmişdir. Həmin siyahı üzrə, orada 10 nəfər rus afiserləri sükunət edib və heç bir işə məşğul deyildirlər.

**Teleqraf xəttinin xarab edilməsi**

Daxiliyyə naziri Bakı qubernatoruna

məlum etmişdir ki, axır vaxtlar bəzi naməlum və xain şəxslər tərəfindən teleqraf xətlərinin xarab edilməsi müşahidə olunmaqdadır. Teleqraf işlərinin dövlət və məmləkət işlərinə nə qədər lazım və mühüm olduğunu göstərərək, nazir qubernatordan xətlərin mühafizəsi üçün ciddi tədbirlər ittixaz edilməsini tələb etmişdir.

**Əsgərlikdən qaçmaq cəzası**

Zirə kəndi əhli Əbdülməhəmməd Məşhədi Əbdürrəhmanov öz oğlunu əsgərlikdən qaçırmaq üçün gizlətməkdə müttəhim edildiyindən bir ay müddətinə həbsə alınmışdır.

## AZƏRBAYCANDA

**Zaqataladan**

1919[-cu il] 28 Mayda Azərbaycan Hökumətinin birilliyi münasibətilə camaat saat 10 radələrində Zaqatala meydanına cəm olmağa başladılar. Zaqatala meydanı gözəl bayraqlarla müzəyyən edilərək [bəzədilərək] evlərin qabaqları, balkonlar xalı-xalçalar ilə, çiçəklərlə müzəyyən edilmişdi. Atəşbazlıq dəsgahının tədarükü bir tərəfdə, şəhər camaatı, ətraf köylərdən camaat axıntısı müttəsil [arası kəsilmədən] gəlməkdə idi. Bilafərqi-millət, məzhəb [millət və məzhəb fərqi olmadan] camaatda bir şadlıq əsəri müşahidə olunurdu və hökumətimizin birilliyi münasibətilə yek-digərini [bir-birlərini] təbrik edirdilər. Camaat faxir libaslarla mülə bbəs olub [gözəl paltarlar geyinib] əllərində gül dəstələri, çiçək dəstələri olaraq başqa bir mənzərə təşkil edirdi.

Bir tərəfdən əsgərlərimiz, zabitan əfən-dilər kamali-nizam və intizam üzrə şərqi oxuya-oxuya gəlib meydanda sıra ilə dayandılar. Camaat miyanında [arasında] asayişi-ümumi hökmfərma idi [hökm sürürdü]. Bir tərəfdən bilafərqi-millət, məzhəb müəllim, müəllimələr öz mütəəllim, mütəəllimələri [oğlan və qız şagirdləri] ilə əllərində gül-çiçək dəstələri, qabaqlarında Azərbaycan bayrağı olaraq şərqi oxuya-oxuya meydanda sıra ilə dayandılar. Hər kəs yek-digərini təbrik edir.

Bu halda bir kürsiyi-xitabət gətirib qoydular. Vali əfəndi təşrif gətirdilər və bir çox natiqlər də hazır idilər. Ümum mülkiyyə və əsgəriyyə məmurları dəxi hazır idilər. Bu əsnada vali əfəndi nitqə başladı. Haziruna [orada olanlara] müraciətən:

*"Həzərat! Bilmiş olasınız ki, bugünkü gün bizim üçün milli, tarixi bir bayramdır. Bu bayram münasibətilə sizi təbrik edirəm.*

*Qardaşlar! Bilmiş olasınız ki, yeddi yüz il bundan əqdəm [qabaq] islam aləmində olan tərəqqi və mədəniyyət heç bir millətə müyəssər olmamışdır. Hər bir tərəqqinin bir tənəzzülü, hər bir tənəzzülün bir tərəqqisi olmaq təbii bir işdir.*

*300 milyonu təşkil edən, kürreyi-ərzin [yer kürəsinin] bir tərəfini tutan islam aləmi öylə bir zəlalətdə, məhkumiyyətdə, əsarətdə, cəhalətdə qaldı ki, o tənəzzülün intəhası [sonu, axırı] olaraq bu gün bizdə bir dürlü tərəqqi asarı [əlaməti] olaraq hökumətimizi göstərə bilərəm. Həman tərəqqinin birinci nümunəsidir ki, bu gün Azərbaycanın illiyi münasibətilə bayram edirik.*

*İndiyə kimi əcnəbilər boyunduruğu altında əzildik. Çox əsarətlər gördük. Bundan belə öz hüququmuzu, vətənimizi, millətimizi müdafiə etmək üçün qanımız və malımızla səy etməliyik.*

*Bir il bundan əqdəm məhkum bir millət ikən, bu gün hakim olduq. Xudanəkərdə [Allah eləməsin], hakim ikən məhkum olarıqsa, nə kimi fəlakətlər bizi qarşılayacağını bir dəfə düşünməliyik və o yolda sərfi-hümmət və qeyrət etməli, camaatdan heç bir fərd öz hakimiyyəti uğrunda, öz hüququnu müdafiə yolunda, vətən və millət yolunda xidmət etməkdə müzayiqə etməməliyik.*

*Bir baxın tarixlərdə əcdadımızın şanşöhrətinə, nələr yapmışlar. Biz də onların övladıyız. Biz də onların gedən yolları ilə getməliyik. İttihad, ittifaq ilə yaşamalıyıq.*

*Yaşasın Azərbaycan Hökuməti!*

*Yaşasın onun sadiq təbəələri!*

*Yaşasın şanlı və qəhrəman əsgərlərimiz!"*

Bədəhu [sonra] komandan cənabları, Qəbulov Abdulla əfəndi, Nurulla əfəndi Qazıyev, məbus Bayram Niyazi əfəndi [Kiçikxanov] hərəsi birər nitq irad etdilər [nitq söylədilər].

Saat 1 tamamına kimi məclis davam eylədi. Əsgərlər şərqi oxuya-oxuya qalaya rəvan oldular. Şagirdlər əllərində bayraq, şərqi oxuya-oxuya küçələri dolaşmağa başladılar. Onların əqəbincə [arxasınca] camaat çalğı ilə küçələri dolaşmağa başladılar. "Urra" sədaları asimana bülənd olurdu. Yenidən gəlib camaat meydana cəm oldular. Musiqi çalmağa başladı.

Axşam saat 11-ə kimi məclis davam eylədi. Meydanın hər tərəfi rəngbərəng fənərlərlə, çiçəklərlə müzəyyən edilmişdi. Meydanın hər tərəfində lampalar yanır, qalanın ətrafı tamamilə çırağan edilmişdi. Camaat eyş-işrətə [əylənməyə] məşğul, saat 7-də atəşbazlıq dəsgahı başlandı. Zaqatala meydanı adamlarla məmlu [dolu] idi. Hər kəs yek-digərini təbrik edir və tarixdə görünməmiş böyük bir bayram etdilər.

*Məhəmməd Rüstəmov*

**Gəncədən**

*Xüsusi müxbirimizdən*

Bir neçə gün bundan irəli dəmiryolda Hərbiyyə Nəzarəti tərəfindən şübhəli birisi tövqif edilib [tutulub] jandarmlara təslim edirlər. Şübhə üzərinə tutulan bu zatın [şəxsin] vəsiqələri tələb edildiyi vaxt biri-birinə uymayan bir çox vəsiqələr göstərir. Vəsiqələrin birisi də Gəncə bələdiyyəsindən verilmiş olduğunu rəvayət edirlər. Ən nəhayət, edilən təhqiqatdan anlaşılır ki, həman şəxs məşhur cəllad Dronun müavini və sağ əli bulunan, yenə onun kimi müsəlman qanı içənlərdən Loris-Məlik Kalantar Aşxarbekdir. Bu adam bütün mənası ilə Dronun cinayət şərikidir. Hüdudumuz daxilində ədalətin pəncəsinə düşən böylə bir qatilə hökumətimizin şiddətli bir cəza verəcəyini əhali dörd gözlə bəkləyir.

Yenə iki gün əvvəl Yevlax komandanı tərəfindən birisi tövqif edilmişdir. Bu da Azərbaycan Post və Teleqraf məmurlarından bir nəfər erməni dir. Bu hərif Yevlaxda əcələ aşağıdakı məzmunda bir məruzə yazır:

*"Yevlaxda qarnizon yoxdur. Mövqedə müsəlləh [silahlı] 20 nəfər jandarma ilə yenə müsəlləh 20 milis vardır. Yevlaxın*

*ətrafı müsəlman köyləridir. Bunların həpsi təpədən dırnağa qədər müsəlləhdirlər."*

Bu sözləri buraya qədər yazdıqdan sonra yaxalanmış. Nerəyə yazdığı sorulduğu vaxt cavab verməkdən imtina etmişdir.

Azərbaycanın bir çox yerlərində olduğu kimi, Gəncədə də qara qüvvələrlə mübarizə etmək üçün könüllü dəstəsi təşkil edilməkdədir. Bu işə ilk əvvəl iqdam edənlər [addım atanlar] Türk Müəllimlər İttifaqı ilə sair həmiyyətli zatlardır. İcab etdiyi təqdirdə lazımi qədər könüllü çıxacağı qəviyyən [möhkəm] ümid edilməkdədir. Böylə səmimi hərəkətlərlə Azərbaycan xalqı yaşamağa hər halda qabildirlər, zənn edirəm.

Bu son günlərdə Gəncədə yağmur yağdığı üçün əkinçilər təşvişdədir. Biçin vaxtı yağmurlu olması ziraətə [əkinçiliyə] zərərli olduğu məlumdur. Taxılın fiyatı hər gün bir az düşməkdədir. Gəncə həvalisində [ətrafında] bu il əkinlər çox gözəldir. Bağlar da ziyansızdır.

Bahalıq davam edir. Hökumət bir çox şeylərə qiymət təyin etmişdirsə də, dinləyən yoxdur.

**Ağdaşdan**

Baqajlarda xəyanət

Baqajlarda olan xəyanətlər hər kəscə məlumdur. Bu böyük xəyanətlərə ən çox zavallı füqəralar məruz qalırlar.

Məsələn, bu müdhiş bahalığa tab gətirəmməyib acı bir həyat içində pəncələnmiş zavallılar ev əşyasını yaxud malqaranı satıb əlinə keçirdiyi bir az para ilə Bakıya gedir və oradan pesok və sairə alıb mənfəət qəsdi ilə və bu surətlə bahalığın təzyiqi altında əzilən əhl-əyalının acı həyatını təmin edəcəyinə ümidvar olaraq məmnuniyyətlə aldığı malı baqajla gətirirlər.

Lakin bu ümidlər içində çırpınan zavallı baqajı çıxardarkən pesok yerinə torpaq, yaxud duz, parça tayın içində iki-üç top çıxardıb əvəzində kərpic ya kirəmit olduğunu görərək bəşaşət-xəndan [şadlıq-gülüş] içində olan simasında məğmumiyyət [dərd, qüssə] hasil olaraq yanıqlı gözlərindən axan bir qaç damla yaş kirpiklər arasında dolaşıb qalır və yanıqlı bir ah çəkərək acı bir vəziyyətlə geri dönür...

İştə, bu hal bir-iki dəfə deyil, bir adət şəklini almışdır.

Hələ keçən gün Ləki istasyonunda baqajdan mal çıxardarkən Molla Əzim Əziz oğlunun bir tay parçasından bir top götürərək əvəzində kərpic qoyduqları kimi, Hacı Məhəmməd Hacı İsmayıl oğlunun və şamaxılı Səftər bəyin parça taylarından hərəsindən iki top götürərək əvəzində kərpic və kirəmit qoymuşlardır.

Hasili, baqajdan salamat mal çıxarmaq mümkün deyildir. İştə bu xəyanət Bakı istasyonunda yaxud Ləki istasyonunda vüqua gəldiyinə şübhə ediləməz. Binaənileyh [ona görə], möhtərəm gənc Azərbaycan hökumətimiz heç bir vaxt böylə xəyanətlərə yol verməklə camaatımızı pərişan etməməlidir və etməyəcəyini qəviyyən [möhkəm] zənn ediriz.

*Məhəmmədrza Əbdizadə*

**İtibdir**

Lətif Mikayıl oğlu, 20 yaşında, şuşalı, bu gün üç gündür ki, itibdir. Onun barəsində xəbərləri olanlardan acizanə rica edirəm ki, Ramanı, 2-ci polis idarəsinə xəbər versinlər.

*10241*

**İtibdir**

Altı ay olar ki, Nüsrət Həzrətqulu oğlu, 30 yaşında, Mərdəkanlı itibdir. Harada itdiyi və nə olduğu məlum deyil. Onun barəsində məlumatı olanlardan acizanə rica edirəm ki, bu adresə xəbər versinlər: Nijni Naqornı 124, Həzrətqulu Ağaqulu oğlu.

*10240*

**Acizanə xahiş olunur**

Faytonçudan 15 həziran axşam onun faytonunda qalmış iki şlyapanı, biri qış, biri yay şlyapasını yaxşı bəxşişə olaraq gətirib bu adresə versin: Malı Krepostnoy nömrə 2. V. A. Sergeyevə.

*10242*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**“Kooperatsiya” müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

Xarici məmləkətlərə yun yollamağı və komisyon təriqi [yolu] ilə xarici məmləkətlərdə satmağı **İ. V. Denisovun** bankir kontorası qəbul edir. (Olqinski, Nikolayevskinin küncündə, telefon nömrə 37-75.) Sifarişlər saat 5-dən 7-dək qəbul olunur.

*10228*

**İstanbuldan, İngiltərədən və Fransadan mallar**

İ. V. Denisovun bankir kantorası İstanbula, Marselə (Fransa) və Liverpula (İngiltərə) mal alıb gətirmək üçün nümayəndə göndərir. Sifarişlər İ. V. Denisovun bankir kontorasında qəbul olunur (Nikolayevski və Olqinski küçələrin küncündə) hər gün axşam saat 5-dən 7-dək.

*10229*

**Tazə alınmış**

Amerikanın südü satılır külli miqdarda İ. V. Denisovun bankir kantorasında (Olqinski və Nikolayevski küçələrin küncündə, telefon nömrə 37-75). Az miqdarda isə Qafqazski aptekarski mağazada, Baryatinski, nömrə 6.

*10234*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Qismi-rəsmi**

səh. 351. "Nəzarətini dəröhdə etdiyimi": qəzetdə belə getmişdir: "Nzarətini dəröhdə etdiyimdən".

səh. 353. "prixod": camaatın ianələri hesabına saxlanılan yerli dini icma.

**Bir münasibətlə**

səh. 354. "ayı xidməti": "xeyirdən çox ziyan verən kömək" mənasında işlədilən rus dilində frazeologizmin (медвежья услуга) hərfi tərcüməsi.

"malxazyanlar, çubaryanlar": Azərbaycan Parlamentinin üzvü, eyni zamanda Daşnaksutyun partiyasına mənsub olan ermənilər Arşak Malxazyan və Poqos Çubaryan nəzərdə tutulur. Qəzetdə "çubaryanlar" yerinə səhvən "çurbaryanlar" getmişdir.

**Sülh ətrafında**

səh. 355. "Kayzer": 1888-1918-ci illərdə hakimiyyətdə olan Almaniya imperatoru II Vilhelm nəzərdə tutulur.

"Exo de Pari" [L'Écho de Paris]: 1884-1944-cü illərdə Parisdə nəşr edilmiş gündəlik qəzet.

"Avam Kamerası": ikipalatalı Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası.

"lineyni gəmi" (xətt gəmisi): zirehli hərbi gəmi; güclü artilleriya silahları ilə təchiz edilirdi.

**Türküstanda**

səh. 356. "Tazəşəhər": indiki Türkmənbaşı şəhəri.

səh. 357. "Qəhqə": Türkmənistanın cənubundakı Kaka şəhəri.





**Edadiyyələrdə ərəb lisanına ehtiyac vardırmı?**

səh. 358. "edadiyyə": orta təhsildə son mərhələ, indiki lisey kimi başa düşülməlidir.

səh. 359. "əski mədəniyyətlərlə uğraşmaq": qəzetdə "uğraşmaq" yerinə "uğraşmış" getmişdir.

səh. 360. "Cahiz": qəzetdə səhvən "Haciz" getmişdir.

"fərsəx": 12 min addıma (təxminən 5-6 kilometrə) bərabər uzunluq ölçüsü vahidi.

**Bakı xəbərləri**

səh. 362. "kəndlərdə komitələr təşkil edəcək": qəzetdə "təşkil" yerinə "təşəkkül" getmişdir.

**Azərbaycanda**

səh. 364. "vali əfəndi": Zaqatala valisi (general-qubernatoru) Əliyar bəy Haşımbəyov idi.

səh. 365. "Loris-Məlik Kalantar Aşxarbek": qəzetdə bu ad təhrif edilmişdir.




***“Azərbaycan” qəzetinin 208-ci nömrəsinin 1-ci səhifəsi***





**Cümə, 20 iyun 1919-cu il, nömrə 208**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 21 ramazanül-mübarək sənə 1337. 20 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## FORUM

İyun ayının 20-dən Bolşoy Morskoy küçədə vaqe “Forum” teatrosunda Azərbaycan Cümhuriyyətinin bir sənəliyi münasibətilə 28 Mayda olan bayram şənliklərinin şəkilləri göstəriləcəkdir. Bu şəkildə o gün Bakı xalqının necə bir şövq və həvəslə bayrama iştirak etdikləri, küçələrdə əsgərlərin nizamla keçdikləri, hasili o gün Bakıda vaqe olmuş bütün mənzərələr açıq və aydın surətdə göstərilməkdədir. Bu böyük gün Azərbaycan türklərinin həyatında istər tarixi qiymətlə, istər təntənə və dəbdəbəsi ilə böyük bir əhəmiyyəti haizdir [əhəmiyyət daşıyır]. Hər azərbaycanlı özünün keçmiş yaxın tarixini tamaşa etməyə tələsməlidir.

*T-153*

Bakı Bəhri-Xəzər İstehlak Cəmiyyəti "Kooperatsiya" İdarəsi bununla cəmi istehlak cəmiyyətlərinə və müəssisələrə elan edir ki, Maliyyə Nəzarəti İttifaqın baş kontoru binasını həcz [müsadirə] etdiyindən, kontor müvəqqəti olaraq İttifaqın Kommerçeski məktəbinə (sabiq Kalantarov) köçürülmüşdür. Bolşoy Morskoy nömrə 22, Kamenski küçənin küncündə, Mailovun evində. Kontor səhər saat 8-dən 2-dək açıqdır. Telefonlar: İdarə: 28-15. Ticarət şöbəsi: 37-24. Ümumi və hesabdarlıq şöbəsi: 16-38.

*10243*

## RAHAT YAT!

Ən yaxşı əlac hər cür həşəratı məhv etməkdən ötrü. O. L. Tunikin icadı. Satılır hər bir aptekdə və yaxşı apteka mağazalarında.

*10248*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

### Məşixəti-İslamiyyə İdarəsindən

İşbu ramazanül-mübarəkin 21-i (həziran 20 cümə gününə müsadifdir [təsadüf edir]) əhya və Həzrəti Əmir əleyhissəlamın şəhadəti günü olmaq münasibətilə bütün məsacid və mənabirdə [məscidlərdə və minbərlərdə] o günün şərəf və qədrinə aid və’zlər edilib, ayini-təziyədari icra ediləcəkdir. Ümum müsəlmanların həman gün işlərini tətil edərək məscidlərə toplanması mütəmənnadır [xahiş olunur].

*Məşixət sədri şeyxülislam:*
*[Axund Ağa] Ağaəlizadə*

**Posta və Teleqraf Nəzarətindən verilən**

*Əmrnamə 52*

Bu sənəsi mayın 31-də Göyçay posta və teleqrafxanasının müdiri Məhəmmədtağı Əbilov Ağdaş posta və teleqrafxanasının müdirliyinə köçürülür. Gəncə posta və teleqrafxanasının 4[-üncü] dərəcəli məmuru Qurbanəli Dərvişov isə Göyçay posta və teleqraf bürosunun müdirliyinə təyin edilir.

*Əmrnamə 53*

Bu sənəsi həziranın 3-dən etibarən Nikolay Stanislaviç Malinovski dəftərxanamın kargüzarlıq müavini təyin edilir.

*Əmrnamə 54*

Bu sənəsi həziranın 1-dən etibarən Azərbaycan Posta və Teleqraf nahiyəsi mü-diri olan N. F. Kovalski ərizəsinə binaən [əsasən] xidmətindən əzl [kənar] edilir. Dəftərxanamın 5-ci şöbə müdiri olan, həm də müvəqqəti olaraq Azərbaycan Posta və Teleqraf nahiyəsini idarə edən Bəhlul bəy Vəzirov fövqdəki [yuxarıdakı] tarixdən şöbə müdirliyindən kənar olmaqla nahiyə müdirliyinə təyin edilir.

*Əmrnamə 55*

Bakı Mərkəzi və Baş posta və teleqraf bürosunun müxabirat [yazışma, məktublaşma] və posta təşrifat və cariyyatını [üsullarını və işlərini] doğru və tövsi etmək [genişləndirmək] nəzəri ilə bu sənəsi həziranın 1-dən etibarən Bakı 1 klaslı posta və teleqraf bürosunun müdiri Bəhram bəy Vəzirov Posta şöbəsinin müdirliyinə, Gəncə posta və teleqraf bürosunun müdiri müavini olan Abbas bəy Ağayev isə Bakı Mərkəzi 1 klaslı teleqraf şöbəsinin müdirliyinə müdir təyin edilir.

*Əmrnamə 56*

Bu sənəsi həziranın 1-dən etibarən Qusar posta və teleqraf bürosunun müdiri Bakı posta və teleqraf bürosunun 4[-cü] dərəcəli məmuriyyətinə köçürülür.

*Əmrnamə 57*

Bu sənəsi həziranın 1-dən 7 klaslı Hacıqabul posta və teleqraf bürosunun müdiri Qavril Komar Gəncə posta və teleqraf bürosunun 4[-cü] dərəcəli məmuriyyətinə köçürülür.

*Əmrnamə 58*

Bu sənəsi həziranın 7-dən Judavstvo Koltuşski posta və teleqrafxanasının müdiri Nağı İsmayılov ərizəsinə məbni [əsasən] bittamam [tamamən] xidmətindən kənar edilir.

*Əmrnamə 59*

Bu sənəsi həziranın 5-dən Bakı telsiz teleqraf mövqifinin [stansiyasının] məmuriyyəti daxilindən telsiz teleqraf müxabirəçisi Porfir Kozlov xidmətindən kənar edilir. Onun yerində isə Kart Lubinko telsiz teleqrafçı təyin edilir.

*Əsillərində imza etdi:*
*Posta Teleqraf naziri*
*və Dəftərxana baş müdiri*
*Əslinə mütabiqdir:*
*Kargüzar R[əsul] Rəhimli*

## MACƏRACULUQ

Bir var ki, rast [düz], məqul [ağlabatan], sağlam bir politika yürütmək, bir də var ki, macəraculuq saiqəsi [macərapərəstlik sövqü] ilə meydana atılıb işin aqibət və nəticəsini mülahizəyə almadan hər nə olur-olsun deməklə siyasət məntiqinə müğayir [zidd], mənafeyi-ümumiyyəyə zidd, səlaməti-milliyə üçün qorxulu, asayişi-məmləkət üçün zərərli olan hərəkət və təşəbbüslər icrası ilə ümumi bir fəlakət hazırlamaq...

İnsanı böylə bir macəracu olmaq əməlinə vadar edən səbəblər çox ola bilər. Fəqət ümdələri üç qisim səbəbdir: birinci cəhalət, ikinci sui-niyyət, üçüncü mənəmlik.

Bir cahilin siyasət işlərinə qarışması, siyasət meydanında rol oynamaq təşəbbüsü, mənsub olduğu millət, övladı olduğu vətən, təbəəsi olduğu dövlət üçün böyük zərərlər törədə bilər. Böylə cahil bir adam özü kimi qanmaz və anlamazları da başına cəm edib birdən-birə öylə qeyri-məqul [ağılsız] hərəkətlər çıxarda bilər ki, nəinki "qaş düzəldərkən göz tökər", hətta başın özünu də cəhaləti yolunda fəda edib böyük bir bərbadlıq meydana gətirər.

Sui-niyyət ilə macəracu olmaq istəyənlər isə daha təhlükəlidirlər. Çünki bunlar hər nə edirlərsə, bilə-bilə edərlər. Aqilanə və səyli əllər ilə qurulmuş olan binaları, qəsd və təəmmüd [qərəz] ilə uçurmaq istəyərlər ki, əməllərinin nəticəsi olacaq bu xarabalıqları seyr və tamaşa ilə ləzzətyab olsunlar [ləzzət alsınlar]. İblis təbiətli və şeytan ruhlu yaranmış olan bu macəracular üçün heç bir pak, heç bir müqəddəs şey yoxdur. Onlar üçün millət, vətən, istiqlal – həpsi boş və biməna sözlərdir. Təqdis etdikləri [müqəddəsləşdirdikləri] bir şey varsa da, o da yalnız uçurub dağıtmaq əməli, sitayiş etdikləri bir allah varsa, o da zülüm və şər allahıdır.

Bu iki əvvəlki qisim macəraculardan daha zərərlisi mənəmlik iddiası ilə meydana çıxanlardır. Bunların fikri milləti də, vətəni də, dövləti də və istiqlaliyyəti də öz şəxsi mənəmlik və şöhrətinə qurban etməkdir. Şəxsi "eqoizm" denilən möhlik [təhlükəli, öldürücü] bir mərəzə [xəstəliyə] mübtəla olan bu şöhrətpərəstlər, adına şöhrət qazandırmaq üçün bütün məmləkəti od və atəş içində yaxıb-yandırmaqdan əl çəkməzlər.

Bu sadaladığımız macəracular öz məqsədlərinə çatmaq və məramlarını ələ gətirmək üçün avamfirib [camaatın xoşuna gələn şəkildə danışan, demaqoq] bir libasa bürünüb, guya millətpərəst və vətəndostdur deyə safdərunları [sadəlövhləri], cahil və qanmazları nəşeyi-milli və təəssübi-dini iqaz edən [oyandıran] sözlərlə aldadıb, avamyana bir təbirlə "başlarını piyləyib" öz əllərində kar və kor bir alət və vasitəyə döndərib, ondan sonra bildiklərini edərlər. Yəni həqiqi millətpərvər, vətən sevgilisi olan aqil siyasət sahibi olanların min zəhmət və məşəqqətlə meydana çıxarmış olduğu hər bir xeyirli əməllərin mənfəətli nəticələrini pozub, dağıdıb, məhv və nabud [yox] edirlər. Böylə macəraculara inanmış olan yazıq, safdil millət dəxi aldandığını, aləti-məsxərə olduğunu o vaxt başa düşür ki, daha işişdən keçmiş ola! Aldandığına, qandırıldığına əfsus edib peşman olarsa da, "sonrakı peşmanlıq fayda verməz" məfadınca [mənasına uyğun olaraq] yəs və naümidi [peşmançılıq və ümidsizlik] qarşısında əli qoynunda qalar.

İştə, istiqlalını elan etmiş olduğumuz Azərbaycanımızı nəinki bir qara və qır-

mızı təhlükələrdən qorumalı, bəlkə böylə macəracuların "ağ təhlükələrindən" dəxi gözləməlidir.

Buna görə, hər bir məsuliyyətsiz olan tanınmamış və bilinməmiş adamların zahirdə nəzərə xoş görünən sözlərinə inanmamalıdır. Zira ki, zahiri xoş isə də, batini və gizli tərəfi qorxulu və zərərlidir. Biləks [əksinə], səy etmək lazımdır ki, böylə atılıb-düşənləri yerlərində rahat oturtmaq və ya içimizdən tərd və təbid etmək [qovmaq və uzaqlaşdırmaq], ağızlarını yummaq, əməllərinə qarşı sədlər çəkmək, "fitnə yatıbdır, Allah lənət etsin onu durğuzanlara" sözlərini yadda saxlayıb da zahirdə nəzm və nizam tərəfdarı, lakin batində fitnə və fəsad qovzamaq istəyən böylə macəraculardan çəkinməli və ehtiraz etməlidir [özünü qorumalıdır].

Parlamanımızın təsdiqi ilə zimami-hökuməti [hökumət cilovunu, idarəsini] əlinə almış və məmləkət dolandırmaq və məmləkətimizi təhdid edən bir taqım sağ və sol təhlükələrindən millət və vətəni qan tökülməksizin qurtarmaqla öz iqtidarını, müdəbbirliyini [uzaqgörənliyini], əzm və səbatını, dürüst və sağlam siyasət təqib etdiyini ümum millət əfradına [fərdlərinə] təsdiq etdirmiş olan bir hökumətimiz olduğu halda, bu hökumətin siyasətini pozmaq istəyənlərə, hökumətin razılığı olmayan bir taqım əməllər icrasına dəvət edənlərə qulaq asmaqlıq nə böyük xəta və nə fahiş bir qələtdir [böyük bir səhvdir]!

Millətimiz əfradını böylə macəracular təhlükəsindən xəbərdar edib də, hər bir əməlin aqibətini fikir etmək, qeyri-məqul [ağılsız] hərəkətlərdən əl götürmək, dərin fikirli, sağ və salamat bir siyasət sahibi olmaq və hökumətimizə qarşı nəzm və nizam ehtiramını saxlamaq kimi düz və doğru yollara dəvət edirik.

*Üzeyir Hacıbəyli*

## BATUMDA DENİKİNLƏR

Denikin Dağıstanda [Mikayıl] Xəlilovu buldu [tapdı]. Batumda öz sadiq müridi, sabiq Batum general-qubernatoru Romanko-Romanovskini vasitə etdi.

Batumda Denikin həyulası ta Türkiyə hakimiyyəti zamanından bəri mövqelərində qalmış, mürtəce postlarını tutmuşdular.

Türklər sabiq Rusiyanın bu köhnə çinovniklərini o dərəcədə iltifatlara qərq etmişlərdi ki, bol-bol türk lirələri, pudlarca ərzaq və məkulat [azuqə] onlara türk xəzinəsindən verilir, bir növ haqqi-sükut müqabilində [susmaqlarının qarşılığı kimi] bu nemətlər ehsan olunurdu.

Türklər Batumu təxliyə etdikdən sonra bu köhnə çinovniklər ingilislər ətrafına toplandılar. İngilislərlə bərabər doqquzlu sovet təşkil etdilər. Sovetin başçısı Maslov oldu. Sovetin məqsəd və məramı Rusiya idarəsini orada diriltmək, təfəssüx etmiş [dağılmış] rus çinovniklərini bütün Batum oblastının islam demokratiyasına [müsəlman xalqına] hakim eyləməkdi. Doqquzlu sovet bir çox protestolardan, bir çox müaxizələrdən [qınamalardan, məzəmmətlərdən] sonra mövqeyindən çəkildi. Bu səfər bir başqa sovet təşkil olundu. Fəqət bu sovet də islam demokratiyasının hüququnu təmin edəcək bir surətdə deyildi. Bununla bərabər, "əhvəni-şər" [daha az zərərli] surəti ilə qəbul edildi.





Günlər keçdi, islam əhalinin ümidi Cənubi-qərbi Zaqafqaziyanın bir hökumət halına girməsində idi. Fəqət bu ümid də boşa çıxdı. Daşnak intriqası Cənubi-Qərbi Zaqafqaziya Hökumətini dağıtdırdı. Ermənilər Qarsda hökumət təşkilinə girişdilər. Batumda da mürtəce güruh bir başqa fürsət aramağa başladı. Nəhayət Romanko-Romanovski də Batuma gəldi çıxdı. Şimdi Romanko-Romanovski fəaliyyətdədir. Romanko İkinci Nikolanın yaxın qövmlərindəndir [qohumlarındandır]. Rusiyada yeganə monarxist bir tip varsa, o da bu Romanovskidir.

Romanovskinin Batumda etmədiyi rəzalətlər, yapmadığı intriqalar yoxdur. Bir zaman panslavist cəmiyyətinin fəxri üzvü olaraq missionerlik də etdi. Bir zaman canişinin fövqəladə xüsusi bir məmuru olaraq xəfiyyəlik də eylədi. Bir zaman bütün Acaranı haydud [quldur] Lyaxov ilə bərabər atəşə atdı. Bir zaman gizli əmrlərə qol çəkərək yüzlərcə Acara kəndlərini yandırdı. Bir zaman...

İştə, bu qədər çox, bu qədər artıq işgüzarlıqlar edən Romanovski şimdi yenidən Batuma getmiş, guya xüsusi mülklərinin idarəsini bəhanə eyləyərək orada yaşamaq lüzumunu hiss etmiş. Romanovskinin ətrafında general xəlilovlar tipində bəzi kimsələrin bulunması məlhuz [gözlənilən] bir keyfiyyətdir. Fəqət mən onların şimdiki halda siyasi simalarını açmayacağam. Ancaq istərəm ki, bizzat [şəxsən] müsəlman camaatının nə qədər müəssir və mütəəssif [təsirli və təəssüflü] bir vəziyyətdə qaldığını təhlil edim.

Hər kəs bilir ki, acaralılar bütün həyatlarını yalnız başına öz mövcudiyyətinə zidd gedən cərəyanlara qarşı mübarizə etməklə keçirmişdir. Camaatın bu haləti-ruhiyyəsi hər şeydən ziyadə iki amilin təsiri altında idi – biri camaatın başında bulunanların lalettayin [düşünülməmiş, təsadüfi] bir siyasət təqib etməyə tərəfdar olmaları, digəri də rus idarəsinin istər sosialist, istər monarxist olsun istibdadkaranə rəftarıdır.

Camaat türk idarəsindən də bir fayda alammadı. Çünki Türkiyə siyasəti islam əhalini idarədən ziyadə xristian əhaliyə fəzlə iltifatdan ibarət idi. Türklər getdi, ingilislər gəldi. Əhali yenə əski halında qaldı. Bu əski hala yeni bir taqım macəracu güruh da əlavə olundu. Bu macəracu güruhun şimdi başında sabiq Batum general-qubernatoru Romanovski ilə əski "Novoye vremya"nın mühərriri vardır. Biri əməliyyatda çalışır, digəri də "Naş kray" qəzetəsinin təhrikamiz və müfsidkaranə [təhrikedici və araqarışdıran] sütunlarında.

[Romanko-]Romanovski Batumda bir könüllü dəstəsi yığmağa başlamış, amma bu könüllü dəstənin bir üsyan ordusu halına girəcəyini şimdidən təyin etmək mümkündür. Çünki bütün Acaranın yeganə iki düşməni varsa, biri qara Lyaxov, digəri də Romanovskidir.

Bakının Denikin ordusu tərəfindən işğal edildiyini elan edən "Naş kray" əlbəttə oradakı islam əhalini ümidsiz bir hala salmaq üçün bu yolu ixtiyar etmişdir. Başqa bir məqsəd deyil!

Batumda Denikinlərə qarşı bütün islam əhali mübarizə edə biləcəyinə bizim qənaətimiz olmaqla bərabər, hökumətin də bu incə məsələdə fürsət qeyb etməməsini və islam əhalinin ümid və əməllərinə müzahirət [köməklik] eyləməsini biz də lazım görürüz.

*Ə. Həmdi [Qaraağazadə]*

## TELEQRAF XƏBƏRLƏRİ

**Reyn rəisi-cümhuriyyətinin həbsi**

Kopenhagendən verilən xəbərlərə görə, Almaniya hökuməti əmr vermişdi ki, yeni Reyn Cümhuriyyətinin rəisi-cümhuru doktor Dorten həbs edilsin. Almaniya hökuməti Fransanın istila qoşunlarının hərəkətinə qarşı Parisdə və Asiyada etiraz eyləmişdir.

**Müttəfiqlər və Kolçak**

Beş müttəfiq dövlətin Ali Şurası Kolçak namına bir teleqram göndərərək deyir ki, onun cavabı qənaətbəxşdir və Müttəfiq dövlətlər ona edilən vədəyə görə, müavinətə hazırdırlar. Ona silah, əlbisə və ərzaq verəcəkdirlər. "Petit" jurnalının vədinə görə, Kolçaka göndərilən kağızda Kolçak hökuməti rəsmən təsdiq edilməyir.

- Liondan xəbər verirlər ki, Müttəfiqlər Kolçak haqqında nə cür siyasət yürüdəcəklərini hələ həll edib qurtarmamışlardır. Çünki Kolçak daima öz hərbi hərəkatında müvəffəqiyyətsizdir. Sülh Konfransı dairəsində Kolçakın tərəfdarı azdır.

**Bolqariyada fəhlə hərəkatı**

Bolqariya fəhlələri şurası bütün fəhlələrə müraciətlə tətil elan etməyə dəvət edir. Dəvətnamədə deyilir ki:

*"Biz qoymarıq ki, fəhlə hərəkatı dayandırılsın. Rədd olsun Bolqariyaya gələn əksinqilab! Yaşasın hürriyyət uğrunda mübarizə edən Bolqariya xalqı!"*

## SÜLH ƏTRAFINDA

- İqtisadi işlərə baxan komissiya almanların əks-təklifinə qarşı məruzə hazırlamışdır. Bu günlərdə Sülh Konfransına təqdim edəcəkdir.

- Qəzetələrin məlumatına görə, Yuxarı Sileziya rəyi-amm [referendum] məsələsində nemeslərə güzəşt edilmişdir. Sonra vəd edilmişdir ki, Almaniya məsələləri müzakirə edilərkən Almaniya nümayəndələrinin məruzəsinə qulaq asılsın. O ki qaldı xəsarəti ödəmək məsələsinə, bu işlərə baxan komissiyaların vəzifələri müəyyən edilmişdir.

- Klemanso dünən Foş ilə görüşüb almanlar sülh müahidənaməsini [sazişini] imza etmədikləri təqdirdə nə kimi iqdamatda bulunmaq [addımlar atmaq] məsələsini onunla müzakirə eyləmişdir.

- Liondan xəbər verilir ki, sülh şərtnaməsində heç bir təbəddülat [dəyişiklik] olmayacaqdır. Lloyd Corc Klemanso ilə Vilsonun arzularına güzəşt etmişdir. Almaniyanın əks-təklifinə sülhcuyanə [sülhpərvər] bir surətdə cavab veriləcəkdir. Orada deniləcəkdir ki, Müttəfiqlər Almaniyanın iqtisadi işlərinə qarışmaq istəməyirlər. Xəsarət iadəsi [ziyanın ödənilməsi, kompensasiya] miqdarı təxmin edilməmişdirsə də, bunun səbəbi də göstərilmişdir. İngiltərə və Amerika nümayəndələri bu rəydədirlər ki, Almaniyadan külli xəsarət tələb eyləmək almanları sülhü imza etmədən vaz keçindirəcəkdir. Fransızlar isə, az məbləğ təyin edilməsindən ehtiyat edirlər.

**Koreya istiqlaliyyət istəyir**

Londondan xəbər verirlər ki, Koreya hökuməti Konfransa bir ərizə verərək tələb edir ki, Koreya Yaponiyadan ayrılıb müstəqil elan edilsin. 1910-cu ildə bağlanmış olan Samuan müahidənaməsi [sazişi] ləğv edilsin. Çünki bu müahidənamə Yaponiyanın təzyiqi ilə əqd edilmişdi [imzalanmışdı]. Koreyalılar deyirlər ki, o zaman Yaponiya tələbatını qəbul etməyə məcbur olmuşdular. Yaponiyanın Koreya haqqında olan rəftarı beynəlmiləl qanunu və Koreyanın istiqlalını xələldar edirdi [pozurdu]. Həman ərizədə əlavə edilir ki, Koreyanın istiqlaliyyəti bir çox müahidənamələrlə təmin edilmişdi ki, onlar gərək Yaponiya və gərək sair dövlətlər tərəfindən imza edilmişdi. Beynəlmiləl konqredə nümayəndələri olan dövlətlərin iştirakı olmadan Koreya istiqlalı xələldar ediləmməz. Ərizədə koreyalılar tələblərində haqlı olduğunu etirafla, Elzas-Loren və Polşanı nümunə göstərirlər. Ərizə 18 milyon əhalisi olan cümhuriyyətli Koreya hökuməti tərəfindən imza edilmişdir.

**Rusiya və Cəmiyyəti-Əqvam**

Liondan verilən xəbərlərə görə, Kolçaka vəd edilmişdir ki, Rusiyada asayiş bərpa ediləndən sonra Rusiya Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] daxil ediləcəkdir.

**Türkiyə nümayəndələri**

Türkiyə sülh mürəxxəsləri [nümayəndələri] Versala varid oldular [çatdılar]. Avstriya və alman nümayəndələri kimi bunlarla da ehtiyatla rəftar ediləcəkdir.

**Fiume məsələsi**

Zənn etmək olar ki, Fiume məsələsi hələ tez həll edilməyəcəkdir. Sonninoya mənsub olan "Jurnal de İtaliya" bu məsələdə Vilson əleyhinə şiddətli məqalələr dərc edir.

**Berlində nümayiş**

Sosialistlər tərəfindən hazırlanmış olan böyük nümayişdə müxtəlif natiqlər nitqlər irad etmişlərdir. Deputat Fişer Reyxstaq imarətindən danışaraq bəyan eyləmişdir ki, vaxtilə romalılar tərəfindən Karfagenə təklif edilən sülh şəraitindən indiki müahidənamə [saziş] daha ağırdır. Sonra camaat Brandenburq darvazasından Vilhelmştrasseyə keçərək "Adlon" hoteli qarşısında dayanmışlardır. Bu hoteldə Müttəfiqlər nümayəndələri yaşayırlar. İki nəfər natiq qızğın nitq irad edərək təklif eyləmişlər ki, nümayəndələri hoteldən çıxarıb onların rəyini bilsinlər. Polis və qoşunun bu işə müdaxilə etməsi hoteli hücumdan xilas eyləmişdir. Sonra nümayişçilər imperiya kançelyariyası qarşısından keçərkən, burada Şeydeman bir nitq irad edir. Şeydeman demişdir ki, Müttəfiqlərin Almaniyaya təqdim eylədiyi bu müahidənaməni imza etmək mümkün deyildir. Bütün Almaniyada öylə namussuz şəxs tapıla bilməz ki, ifası qeyri-mümkün olan tələbatı qəbul eyləsin. Vəzifəni icra etmək üçün bizə çörək, xammal və işləməyə müsaidə [icazə] lazımdır.

İkinci bir nümayiş də axşam vaqe olmuşdur. Nümayişçilər "Vaxt am Reyn", "Döyçland über allers" nəğmələri oxuyub "Rədd olsun təcavüzçülərin sülhü! Rədd olsun Klemanso! Rədd olsun İngiltərə!" deyə qışqırmışlar. Nəhayət bunlar "Adlon" hoteli qarşısına gəlib, sonra Şeydemandan tələb eyləmişlər ki, nitq irad eyləsin. Şeydeman Vilsonun 14 maddəli

sülh müahidənaməsindən söz açdıqda, nümayişçilər “Rədd olsun Vilson!” deyə qışqırmışlardır. Şeydeman əhalidən təvəqqe eyləmişdir ki, bu cür hərəkətlərdən çəkinsinlər və camaata bildirmişdir ki, hökumət camaat arxasındadır.

Nümayişçilər 40 yerdə mitinq tərtib vermişlərdir. Natiqlərin həpsi Müttəfiqlərin müahidənaməsinə protesto etmişlərdir. Bəziləri ümidvar olmuşlar ki, beynəlmiləl proletarya nəhayət müahidənamənin yenidən baxılmasına müvəffəq olacaqdır.

## QƏZETƏLƏRDƏN

### İngilis parlamanında Gürcüstan haqqında

İngiltərə mətbuatı xəbər verir ki, ingilis parlamanında deputat Konverni İngiltərə qoşunları ilə gürcü qoşunları arasında müsadimə [toqquşma] vaqe olub-olmadığı haqqında Çörçillə bir sual vermişdir. Çörçill məlumat vermişdir ki, böylə müsadimə olmamışdır. Yalnız əhval bundan ibarətdir ki, gürcü qoşunları Qaqranın cənub tərəfində Denikin qoşunlarına hücum eyləmişlər və onları Maxadır çayınadək qovmuşlardır. İngilis Baş komandanlığının protestosuna baxmayaraq, bu əhval vaqe olmuşdur. Gürcülərlə bərabər bolşeviklər və məhəlli [yerli] bandalar da iştirak etmişlərdir. İngilis komandanlığı Qaqraya ingilis qoşunları göndəriləcəyi təhdidindən sonra hərəkati-hərbiyyə dayandırılmışdır. Konverni “Paris Sülh Konfransında gürcü mürəxxəsləri vardırmı?” deyə verdiyi suala Çörçill: “Mən bilməyirəm, yalnız bunu bilirəm ki, biz gürcü qoşunlarına Denikin ordusuna hücum etməyə müsaidə vermirik.”

### Petroqradda

“P. K.” qəzetəsinin verdiyi xəbərə görə, Petroqrad şəhəri bu axır günlərdə mühasireyi-əsgəriyyə altında elan edilmişdir. Royter acentəliyinə xəbər verirlər ki, iki drednot, iki kruvazer [kreyser] və bir neçə müxrib gəmi və minonoslardan ibarət bolşevik donanması Kronştadtdan çıxmağa hazırlaşır. Helsinqforsun [Helsinkinin] bombardman olacağından ehtiyat edilib Finlandiya əsgərləri həman oblasta gətirilmişdir. Bununla da demək olar ki, Finlandiya əsgərləri Petroqrad üstə yürüş edəcəklər.

### Petroqradda üsyan

- Helsinqforsdan "Deyli meyl" qəzetəsinə teleqraf edirlər ki, Petroqrad əhalisi bolşevik hökuməti əleyhinə üsyan qaldırmışdır. Fəhlələr silahlanıb bolşevik əsgərləri üzərinə hücum etmişlərdir. Şəhərin küçələrində müharibə davam edir. Bir neçə ev yandırılıb patladılmışdır.

- Alman qəzetələri xəbər verirlər ki, Petroqradda böyük nizamsızlıq olmuşdur. Fəhlələr "Rədd olsun bolşevik hökuməti" şüarı ilə nümayiş yapmışlar. Nümayişçiləri sakit etməkdən ötrü Çin əsgərləri gətirilmişdir. Bir çox adamlar ölüb və yaralanmışdır.

### Türküstanda

"Krasnovodsk" qəzetəsinin yazdığına görə, Tecan şəhərini bolşeviklər tərk etmişlər. Şəhər Dobrovol əsgərləri tərəfindən işğal edilmişdir.

### Əfqanıstan sərhədində

Əfqanıstan hadisələri barəsində Londonda zeyldəki [aşağıdakı] bəyannamə nəşr edilmişdir:

Bir neçə vaxt bundan əvvəl Əfqanıstanda bəzi iğtişaşlar olmuşdur. Zatən əmir Həbibulla xanın qətli və vərəsəlik üzərində olan mübahisədən dolayı həyəcan gözləmək olardı. Hindistan hökumətindən alınan məlumatdan anlaşılır ki, həqiqətən də bu barədə xətrə [təhlükə] varmış. Zahirən Əfqanıstanın müntəzəm qoşunlarından ibarət olan əfqan dəstələri Xeybər keçidi yanında sərhədi keçib Hindistan daxilində Big, Turça, Sninasoka deyilən yerləri işğal etmişlərdi. Sonra gələn xəbərlər həp əfqanlıların irəli yürüş etdiklərini göstərir. Hindistan hökuməti əfqanlıları Hindistan torpağından çıxarmaq üçün lazım gələn tədbirləri ittixaz eyləmişdir [tədbirləri görmüşdür]. Əfqanlılarla mübarizədən ötrü hazırlanmış olan qoşunlar general Barrettin təhti-komandasındadır [komandanlığı altındadır]. Zənn edilir ki, əfqanlılarla mübarizə məsələsi müşkül bir iş deyildir. Hindistanın viskralı əmirə müraciətlə qəti surətdə tələb eyləmişdir ki, bu hərəkətlərin qabağını almaq üçün tədbirlər ittixaz eyləsin [tədbirlər görsün].

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində [Sosial Təminat Nazirliyində] məlumat alınmışdır ki, Marqulis nam [adlı] bir hərif özünü nazir müavini bildirərək dairə müfəttişliklərində müvəkkillər təyin etməklə telefonla əmrlər verir. Nəzarət bu barədə polismeysterə müraciətən hərifin tövqifi [həbsi] üçün tədabir ittixazını [tədbirlər görülməsini] tələb etmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Milli Şuraya məlum etmişdir ki, dəmiryollarında ucuz bilet fəqət öz evlərinə azim olan [gedən] qaçqınlara verilir.

- "Sudomexanik" nam zavod müdiriyyəti Məsai [Əmək] Nəzarətinə məlumat etmişdir ki, su nəqliyyatı şöbəsi vaporları [gəmiləri] sahiblərinə qaytarmışdır. Vapor sahibləri isə, vaporlarını təmir etməkdən imtina etdikləri üçün zavod öz fəaliyyətini məhdudla fəhlələrin bir çoxunu əzl [işdən kənar] etmək məcburiyyətindədir. Müdiriyyət əzl ediləcəklərin siyahısını təqdimlə məlum etmişdir ki, onlardan iki nəfəri zavod komitəsi üzvləridir. Onlar yaxın zamanda qəbul edildikləri üçün əsas üzrə onları da əzl etmək lazım görülmüşdür.

- Gədəbəy zavodu fəhlələri təşkilatından bir böylə teleqram alınmışdır:

Zavod müdiriyyəti tələbatımızı qəbul etmədiyindən naşi [etmədiyinə görə] tətil elan edilmişdir. Şəxsən müzakiratda bulunmaq üçün göndərilən iki nəfər yoldaşlarımızdan birini yolda tövqif [həbs] etmişlərdir. Rica ediriz ki, onun azad edilməsi üçün təcili tədabir ittixaz edilsin [tədbirər görülsün].

*Gədəbəy zavodu fəhlə komitəsi sədri: Sabikov*

- Dəlilər mövqifindən də [stansiyasından da] bir böylə teleqram alınmışdır:

Məni şimdi tövqif [həbs] etdilər.

*Mirzə*

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Maliyyə Nəzarəti ilə etilafa [razılığa] gəlmişdir ki, Ərəş qəzası Seyidlər köyündən alınacaq vergilər kəndçilərin ciddi maddi cəhətlərindən dolayı alınmasın və yaxud alınacaqsa, təcil edilsin [təxirə salınsın]. Kəndçilər Kür çayı daşmasından böyük xəsarətə düçar olmuşlardır.

- Məhəllində [yerində] qaçqınların əhvalını təhqiq üçün Şəki qəzasına göndərilmiş Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti müvəkkilinin məlumatına görə, oradakı darüleytamın [yetimxananın] əhvalı o qədər də gözəl deyildir. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti nahiyə müfəttişinə müraciətən, təcili surətdə darüleytamı qaydaya salmağı tapşırmışdır.

- Şəki nahiyə müfəttişi Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə müraciətən məlum etmişdir ki, 6 minə baliğ [yaxın] fəhlələr üçün ucuz çörək vermək lazım gəlmişdir. Nəzarət Ticarət və Sənaye və Ərzaq Nəzarətinə müraciətən rica etmişdir ki, Şəkidə ərzaq anbarı müfəttişlik ixtiyarına verilsin.

- Saqiyan icması özlərinin fəna əhvalını təsvir edər bir ərzi-hal ilə Ümuri-Xeyriyyə və Nafiə Nəzarətindən müavinət istəmişdir. Ərzi-hal Şamaxı nahiyə müfəttişinə göndərilərək, məhəllində [yerində] icmanın əhvalını təhqiqlə müavinətdə bulunması tapşırılmışdır.

**ALDANMAYINIZ!**

Bu il Bakımızın üstündə bir çox illərdə görükməyən bir dəyişiklik, bir sərinlik var.

İyun – həziran havası deyəsən mart havasıdır: günorta çağı hava öylə isti olur ki, axşam bulvar gəzintisinə çıxanlar palto almaqlarını yadlarına belə salmayırlar. Lakin axşam saat 9-10 oldumu, mənim kimi zəiflər nəmli küləyə tab gətirməyib qaçırlar, bulvarın ən ruhlu, səfalı, aylı, işıqlı, xoş çağından zövq duyammayırlar. İyun havasına aldanırlar.

Bu il təbii havanın da siyasət havası kimi ikiüzlü, oynaq olduğunu düşünəmmirlər. Aman, iyunun istisinə aldanmayınız! Aldanmayınız ki, bu il uğursuz ildir.

Havası düruyə [ikiüzlü] havadır.

Aman, aldanmayınız!

* * *

Dörd-beş gün qabaq Denikinin Bakıdakı vəkili and içirdi, hökuməti qandırırdı ki: vallah, billah Denikin sizin istiqlaliyyətinizi təsdiq (?) etdi və əsla sizinlə bir düşmənliyi yox və bəlkə sizə ixlas [səmimiyyət] və ehtiramı var.

Lakin ertəsi günü hava dəyişdi. Şimal küləyi Bakının itsisini birdən-birə çevirdi. Hava həm qarardı, həm soyudu.

Denikin vəkilinin hökumətə rəsmi yazdığı dünənki yalançı kağızının qarası qurumadan ikiüzlülüyünün üstü açıldı. Ertəsi gün özgə hava çaldığı duyuldu.

Denikin Şollar suyumuzu qurutmaq, Qızılburunu tutmaq, o biri tərəfdən Zaqatalaya keçmək arzu və iştahını bildirdi.

Lakin biz də boş oturmadıq, özümüzü bildirdik. Məclisi-Məbusanda qiyamətlər qopardıq, atəşlər yağdırdıq, meydanlarda mitinqlər qurduq, protestlər etdik. Son adamımıza qədər davaya hazır olduğumuzu anlatdıq.

Çox çəkmədi, hətta saat keçmədi, hava yenə dəyişdi:

Bakının üstünə çökən qaraltılar, soyuqluqlar birdən-birə dağıldı: hava işvəbaz, ruhnəvaz bir nazəninin üzü kimi güldü, açıldı. İngilis generalının əmri çıxdı:

Denikinin Azərbaycana gəlmək deyil, Dağıstandan çəkiləcəyi xəbəri verildi.

Fəqət Denikinin Dağıstandan nəinki getmək (1907 [-ci ildə] Tiflisdə "Molla Nəsrəddin"də Sultan Həmidi masxaraya aldığından ötrü Ömər Faiq əfəndini qalada həbs etdirən Kazanalipov, keçən il İstanbulda paşalara yaltaqlıq edib nişan alan general [Mikayıl] Xəlilov və pul ilə Allaha bir dərəcədə səcdə edən Şeyx Nəcməddinin və yoldaşlarının köməkliklərilə) orada gün-gündən möhkəmləşdiyi anlaşıldı.

Şimaldan əsən qorxunc, qarışıq, güclü küləklər gözləri yumduran bizim xəzriyə rəhmət oxudur.

Ey azərbaycanlı! Aldanma, yatma ki, bu havalar xeyir əlaməti deyil!

Əvvəlisi günü heç gəlməyəcək, dünən mütləq gələcək, bu gün ehtimal qayıdacaq, yarın bəlkə gəlməz... havaları, Denikin xəbərləri yaxşı bilirsiniz ki, biz balaları yatırmaq nənnisidir. Biliniz, yaxşı biliniz ki: Denikin bacararsa gələcək, həm mütləq gələcək!

Qapınızı açıq buraxarsanız, o murdar çaqqallar şəksiz evimizə soxulacaq. Aman, şirin dillərə, bugünkü havanın durğunluğuna, axmaq fikirlərə, boş ehtimallara aldanmayınız!

Denikin kölgəsi Dağıstanda durduqca da evimizdə bir dəqiqə salamat yatmamalıyız! Yatmamalıyız ki, birdən qopacaq fırtınalar, axacaq qanlı sellər, ortalığı saracaq vaveylalar keçən Mart hadisəsini, Şamaxı xarabasını heçdə qoyacaq! Aman, bugünkü havaya aldanmayınız!

* * *

Məgər, görülən vəq'ələr, tarixi hadisələr təkərrürdən [təkrardan] özgə bir şey deyilmiş!

Məgər, qorxuncluqlarıyla bizi çaşdıran hallar, fəlakətlər "qanuni-ilahi və ictimai"nin müxtəlif şəkillərdə göstərdiyi eyni səhifədən özgə bir zad deyilmiş!

Uzaq tarixlərdən misal axtarmayalım: Peterburqda rasputinlər nə idisə, İstanbulda şeyx hüdalar da odur. Hətta yoldaşım Mirzə Cəlilin "Ölülər" əsərindəki şeyx də bunların xəyali qardaşıdır.

On il qabaq İstanbulda 31 Mart hadisəsini meydana çıxarıb bihudə qardaş qanı axıdan, "şəriət istəriz" deyən ikiüzlü alçaqlar, şeyx fəzlullahlar, dərviş lahutilər nə idiysələr, bu gün "Denikinlə şəriəti istəriz" deyən dağıstanlılar da, şeyx nəcməddinlər, kazanalipovlar, general xəlilovlar da odurlar.

Ah! Pul, ehtiras, mənfəət, şöhrət, adət, tərbiyə, zəiflik, bəsirətsizlik, imansızlıq, ölümdən, fəqirlikdən qorxmaqlıq! Sən, həp sən, sən! Bu alçaqlıqları, bu dəniləri [alçaqları], bu "xəyanət azarı" mikroblarını yaradan!

Ey bu yazıları oxuyan yoldaş! Bilirəm, ürəyində bir zad var, məndən bir xəbər duymaq istəyirsən! Duymaq istəyirsən ki: əcəba, "tif bitləri"ndən daha zərərli olan "xəyanət mikroblar[ı]" bizdə də, Azərbaycanımızda da törəyirmi?

Ah, yoldaş! Mən səni bu qədər cahil, safdil görmək istəməzdim! Sən gərək bi-

ləsən ki: Allah, qanun, amil birdir: Osmanlıda, İranda, Dağıstanda törəyən həşərat şəksiz bizdə də törəyəcək.

Ehtimal ki, bu saat az-maz törəmiş, ətrafa daraşmaya, onu-bunu dişləyib zəhərləməyə də başlamışlardır.

Əvət, yoldaş! Əvət! Öylə xəbər alınır ki, Sultan Həmidin İstanbuldakı, general Xəlilovun Dağıstandakı, Nikolayın Peterburqdakı “şəriət istəriz” həriflərinin tayları bizdə də törəmiş.

Dedim ya, qanun bir: o murdar fikirlər bizdə də ittihad [birlik] vücuda gətirmiş.

İştə, bunlar, bu dinsizlər, bu “şəriət istəriz” deyən imansızlar, hər dürlü insaniyyət, insaf, ədalət, ağıl və məntiqdən kənar, şəriətdən, islamiyyətdən bixəbər bu dolandırıcılar guya islamiyyət hamisi, millət xadimi kəsilmişlər.

Cümhuriyyətimizin böylə təhlükəli bir vaxtında, şimaldan, cənubdan, hər tərəfdən düşmənlərlə sarıldığımız bir anda hökumətin başına dürlü-dürlü bəlalar, intriqalar açıb aranı qarışdırmaq, millətin fikrini düşməndən çevirmək istəyirlər. Sadədil [sadəlövh] camaatımızın hissiyyati-milliyyələrini [milli hisslərini] böylə bir zamanda qəsdən uçurumlara, qaranlıqlara, çıxmaz yollara tərəf sürüyürlər.

Ey təmiz bir ürəkdən axan ağ fikirləri dinləyən yoldaş! Bunlara, bu qara fikirlərə təəccüb etmə! Təəccüb etmə ki, illərdən bəri öz mənfəəti, öz rahəti düşüncəsiylə çırpınmış, qərarmış, qatılaşmış qəlb-lərdən ancaq qara, murdar fikirlər törər.

Yoldaş! Heç təəccüb etmə: əvamili-ictimaiyyə [ictimai amillər], yəni zaman və təbiət öz yapacağını yapır. Sən istəsən də, istəməsən də bu olacaq. Əlləri mənsəbdən, puldan, mənfəətdən, hörmətdən çıxmış olanlar itirdiklərini tapmağa çalışacaqlardır. Camaatı hansı yollarla daha tez aldatmaq olar, məqsədə hansı hiyləkarlıqlarla çatılarsa, ona sarılacaqlardır.

Onlar üçün: yaxşı-yaman, ağ-qara, təmiz-murdar, sədaqət-xəyanət... hamısı, hamısı birdir.

Ey mənə qulaq asan yoldaş! Bunları, uzun danışdıqca baxıb bir zad hesab etmə! Bunlar insan yuxuladığı vaxt fikrə çökən kabus və qara xəyalat kimidir.

Qorxma, qorxma ki, sən və millətin ayıq olduqca bunlar bir şey bacara bilməzlər. Ey azərbaycanlı, ey yoldaş! Bağışla ki, təkrar edirəm:

Sən ayıq olduqca nə Denikin çaqqalları, nə daşnak ilanları, nə “şəriət istəriz” şeytanları, nə “xəyanət azarı” mikrobları sənə bir zərər verə bilməzlər.

Sən özünü bilib, bala olmadığını göstərib, başını böyük ruh, sarsılmaz imanla yuxarı qaldırıb deyirsən ki:

“Ey qorxaq çaqqallar! Yaddan çıxarmayınız ki, biz sizə əsrlərcə ağalıq etmiş igidlərin nəvələriyiz. Lakin biz bu gün özgə yerlərin deyil, öz yurdumuzun ağası olmaq istəyiriz. Çəkil! Qarşımızdan çəkil ki, özünü qanan, yurdunu saxlamağa and içən millətin intiqamı şiddətlidir.

Siz! Ey “şəriət istəriz” deyən iblislər! Siz dünənə qədər daşkovların çəkmələrini öpüb dini, milləti bir qəpiyə satan, müsəlmanların, Osmanlıların qətllərinə fitvalar verən, şpiyonluq edən, illərcə ruslara, Denikin yoldaşlarına köməklər edən siz, siz deyimlisiniz? Siz deyimlisiniz ki, ömrünüzü rus istibdadına xidmətlə keçirmişsiniz! Utanın, utanın! Üzünüzdəki niqab, dilinizdəki hünərlə kimsəni daha aldada bilməzsiniz!”

Bu gün beş-on cahili aldadsanız da, yarın onlar da Rasputin, Şeyx Hüda, Şeyx Fəzlullah, Kazanalipov, purişkeviçlərin düşdükləri aqibət və cəzaya düşdüyünüzü görüb peşiman olacaqlardır.

Ha, bax, yoldaş! Şimdi sənin qanacağını, cürətini bilib mən də daha artıq cürətlənirəm və gələcəkdə səninlə daha açıq, daha həvəsli söhbətlər eylərəm. Ancaq yenə təkrar edirəm ki, mömin görünən şeytanlara aldanmayınız!

*Ümidvar*

## QARABAĞDA

**(Rəsmi)**

Qarabağ general-qubernatoru [Xosrov bəy] Sultanov böylə teleqraf göndərmişdir:

*“Hal-hazırda mənim təhti-idarəmdə [tabeliyimdə] olan general-qubernatorluq dairəsində Zəngəzurdan başqa hər yerdə sakitlikdir. Şuşa-Yevlax yolu açılıb, qorxusuzdur. Yevlax-Şuşa yolunun qorxulu olduğu barəsində buraxılan müfəttinanə [fitnəkar] və yalan şayiələrə xahiş edirəm inanmayasınız. Məmurlara əmr olunmuşdur ki, sərnişinlərə hər cür müavinətdə bulunsunlar.*

*General-qubernator: Sultanov”*

**Şuşadan**

Bir neçə nəfər məsuliyyətsiz və laqeyd daşnakların məfsədələri [fitnələri] nəticəsi olaraq Şuşa və ətrafında başlanmış qital [qırğın] və qarətlərə Qarabağ qubernatoru Sultanov cənabları tərəfindən ittixaz edilmiş [görülmüş] ciddi və qəti tədbirlər sayəsində bir xitam çəkilmişdir. Daşnakların "idraklı" və "durbin” [uzaqgörən] politikalarının nəticəsi bu oldu ki, bir neçə min aclar və çılpaqlar artıb, onsuz da möhtac və pərakəndə düşmüş erməni füqərayi-kasibəsinin əziyyətini artırdılar. Bu axırkı hadisələr nəticəsi olaraq Yevlax-Şuşa yolu bağlanmış kimi idi. Yol kənarındakı erməni kəndlərindən gəlib-gedənləri gülləbaran edirdilər və buna görə də Ağdamda, Xankənddə üç-dörd yüzə kimi yol ilə gedib-gələnlər saxlanılmışdı. Amma indi tamam yol ilə qaraqollar düzəlib, polis nəfəratının [nəfərlərinin] miqdarı artırılıb, yol genə qabaqkı kimi asudəliklə açılmışdır.

Üç gün bundan qabaq Daşaltı və bir də bir neçə başqa erməni kəndlərindən ağsaqqallar və vəkillər gəlib general-qubernator cənablarından artıq rizaməndliklər [razılıqlar] etdilər. Məlum oldu ki, Şuşada dava başlanan kimi Daşaltı kəndinin erməniləri qaçıb gedibmişlər. Kənd bütün müxəlləfat [ev əşyası] və mal-qarası ilə qarovulsuz, sahibsiz qalıbmış. Bu xəbər general-qubernatora çatan kimi polis nəfəratından qarovul təyin edilib, Daşaltı kəndi salamatlıqla saxlanılıb, dübarə öz sahiblərinə qaytarılıbdır. Ağsaqqallar kənd əhalisinin imzası ilə qubernatora priqavor [qərar] təqdim edib özlərinin Azərbaycan hökumətinə tabe olmaqlarını məlum etmişlərdir. Sonradan xahiş ediblər ki, qubernator tərəfindən xüsusi məmur gəlib onların kəndlərində lazım olan starşina və sair məmurları intixab etsinlər [seçsinlər]. Ağsaqqallar bunu da deyirdilər ki, bu günə kimi ancaq bir neçə nəfər məlum adamlar onları na-

məlum bir "komitə"nin qorxusu altında saxlayıb cəbrən mane olurdular ki, qubernatorun yanına gəlməsinlər. Komitənin gözə görünməyən qüvvəsi və nüfuzu barəsində bunlara həmişə vədələr verib, hərdənbir Şuşada iclaslar çağırıb, özlərinin qətnamələrini zorla bizə qəbul etdirib, sonra ümuma bizim adımızdan elan edirdilər. Və hər kəs də ki bunların dediklərinə əməl etməyirdi, fövri [dərhal] küçədə güllələtdirirdilər.

Nümunə üçün ağsaqqallar Xankəndi yüzbaşısı Movsesin bazar içində güllələnməsini göstərdilər. Məlum olur ki, Movses bir sülhpərəst, insaflı yüzbaşı imiş. Bunların tutduğu məslək və yolun ermənilər üçün xətalı bir yol olduğunu bilib qoymayırmış ki, bunların nüfuzu Xankəndi ermənilərinə sirayət etsin və bunun üçün də qətl edilibdir.

Bu qarışıqdan da bir neçə gün qabaq erməni hissəsində çörəyin girvənkəsi üç manata çıxmışdı. Yollar bağlı olduğuna görə, erməni hissəsində çörək bilmərrə yox olmuşdu. Dava qurtaran kimi ermənilər və baxüsus ruslar dəstələrlə müsəlman hissəsinə gəlib özlərinə azuqə alırdılar. Hamıdan artıq erməni hissəsindəki qaçqınların halı möhlik [ölümcül] idi. Onların aclıqlarını bilən kimi, general-qubernatorun təklifi ilə Ərzaq Nəzarətinin Qarabağ vəkili Axundov 100 pud buğda unu alıb qaçqınlara verdi. Və həmçinin sair erməni cəmiyyətlərinə də özləri üçün un almağa izin verildi.

Şuşa yolu ilə köçərilərin yolu genə təzədən açılmışdır. Lakin Cavanşir və Cəbrayıl uyezdlərində [qəzalarında] köçərilərin yolu hələ bağlıdır. Erməni kəndləri köçəriləri buraxmayırlar.

Burası hamıya məlumdur ki, köçərilər gərək öz yolları ilə dağlara və yaylaqlara getsinlər. Onları yaylaqlardan saxlamaq diri-diri qəbirə basdırmaq kimidir. Buna görə də, hərgah erməni kəndləri genə inad edib köçərilərə mümaniət [maneçilik] göstərmək istəsələr, şübhəsiz ki, oralarda da bir toqquşma olasıdır. Buna görə də, general-qubernator cənabları lazımi olan sərəncamda bulunub ki, bəlkə toqquşmasız köçəriləri öz yaylaqlarına keçirtsinlər.

Şuşa uyezdində bəzi vicdansız və məxluqun [xalqın] rahatlığını, insancasına yaşamaqlarını istəməyənlər rədd edilib buralar asudəliyə çıxıbsa da, lakin Zəngəzur, Cəbrayıl və Cavanşir uyezdlərində hələ onlar çalışmaqdadırlar. Lakin burasını onlar bilməlidirlər ki, "çaqqal ulayaulaya öz başına qal gətirər" məsəli məfadınca [mənasına uyğun olaraq], onlar ancaq öz başlarına qal gətirəcəklər. Amma əsil vaqeədə isə, Qarabağda ermənilərlə müsəlmanlar yaşayıblar və yaşayırlar və bundan sonra da yaşamağa məcburdurlar. Onların müfəttinlikləri [fitnəkarlıqları], hoqqabazlıqları ancaq özlərinə və öz ətraflarına ziyan yetirəcəkdir.

*Məhəmməd Sadıq [Aran]*

## BAKI XƏBƏRLƏRİ

### Kəndçilər İttifaqında

- Bu yavuq zamanda kəndçilər qurultayı (syezdi) çağırılmaq münasibətilə Kəndçilər İttifaqının sədri Hacıağa Abbasovun səyi ilə kəndlərdə təşkilat yapmaq üçün bir heyət düzəlib, məzkur [deyilən] heyətə hökumət tərəfindən bir avtomobil dəxi vəd edilmişdir. Heyətin sədri Hacıağa Abbasov həman heyətə qoşulub kəndlərdə təşkilatlar yapmağa səy edəcəkdir ki, camaatın halını bilən adamlar seçkiyə düşsünlər.

- Bu günlərdə İttifaqın sədri Abbasov Azərbaycan hökuməti tərəfindən yapılmış Müstəntiqlər Komitəsinə dəvət edilib, ondan xahiş olunmuşdur ki, Bakıda və ətraf kəndlərdə mart ayından sentyabr ayına kimi keçən ildə zərərdidə olan müsəlmanların siyahısını, yaxılan və soyulan əşyaların miqdarını yazıb heyətə bildirsin. Bu işdən ötrü Abbasov cənabları türk və rus dillərində məsləhətnamələr çap etdirib kəndlərin nümayəndələrinə paylayıb, bu tezliklə ümum siyahıları hökumətə təqdim edəcəkdir.

- Hökumət məmurlarından bəzilərindən olunan şikayətləri hökumət idarələrindən xahiş edib əmələ gətirməkdən ötrü Kəndçilər İttifaqında bir Məhkəmə Komisyonu təşkil olunub, müsəlman vəkillərindən oraya dəxi dəvət olunmuşdur.

- Bu günlərdə İttifaqın idarəsi Vəzirlər Şurasına [Nazirlər Kabinetinə] bir ərizə yazıb, istiqraz [borc] açılmasını xahiş etmişdir.

- Ümuri-Xeyriyyə Nəzarətinə Kəndçilər İttifaqı məktub yazıb, füqəralara paylanan malların təqsim olunmasını [bölünməsini] İttifaq öz öhdəsinə götürəcəyini bildirmişdir.

- Maarif Nəzarətindən İttifaq yazıb bağbançılıq məktəbləri açmağı xahiş etmişdir.

- İyun ayının 17-də İttifaqın sədri Hacıağa Abbasov və idarənin üzvü Nəsir Əlikərimov Ticarət və Sənaət [Sənaye] naziri həzrətləri tərəfindən qəbul olunub, İttifaq barəsində bir çox müzakiratda bulunmuşdur. Abbasov və [Əli]kərimov cənabları İttifaqa bu vaxta kimi bir arşın olsun ağ buraxılmamağını və papiros, tütün buraxılmasını nazirdən xahiş ediblər. Nazir [Ağa] Əminov həzrətləri İttifaqın nə dərəcədə millətimizə faydabəxş olduğunu söylədikdən sonra, bu iki məsələnin həllini tezliklə sərəncam etməsini bəyan etmişdir.

### Hadisat

- Balaxanı-Sabunçu qalabəyisi [komendantı] qubernatora məlum etmişdir ki, 7-ci uçastok pristavı müavini Seyfulla Haşımov Kürdəxanı kəndinə getdikdə, yolda üç nəfər müsəlləh [silahlı] çobanlara rast olub tərki-silah etmək istəmişsə də, onlar müqabilə göstərmişlərdir. Haşımov Kürdəxanıya gedib orada olan üç nəfər qaradovoyu özü ilə bərabər götürüb çobanlarla atışmağa başlamışdır. Bir qədər atışmadan sonra patronları qurtarıb geri çəkilmişlərdir. Atışmada Haşımov qətl edilmişdir. Onun atı Zabrat kəndinə yetişdikdə, onun əmisi Mirzə Haşımov tüfəngini götürüb getmişdir. Uzaqdan çobanlar onu tanıdıqda atəş açaraq öldürmüş və atını aparmışlardır. Təhqiqatdan məlum olduğuna görə, çobanlar Məşqətə [Maştağa] kəndinin əhlləri Miryusif Mirməhəmməd oğlu, Mirhüseyn Seyid Süleyman oğlu və Mirzə Mirhüseyn oğludur. Qatilləri tövqif etməkdən [tutmaqdan] ötrü ciddi tədbirlər edilmişdir.

- Şüvəlan kəndi əhli Mirəbdülvahab Hacı Mirbaba oğlu polisəyə məlum etmişdir ki, naməlum şəxslər onun evindən 20 min manatlıq müxəlləfat [əşya] oğurlamışdır.

**İtibdir**

Salman Abbasovun verdiyi 89 nömrəli qəbzi, raspiska Cəfər M. Saleh oğlu Rəcəbovdan, raspiska L. Joxvitskidən və iki raspiska Məhəmmədhaşım Babayevə 400 və 200 türk qızıl lirəsinə K. A. Orlovun adına verilmiş, itibdir. Etibardan saqitdir [etibardan düşmüşdür].

*10249*

**İtibdir**

Məhəmməd Məşhədi Həbib oğlunun Ordubaddan aldığı pasportu itibdir. Etibardan saqitdir.

**İtibdir**

Əli Hacı Sultanməhəmməd oğlunun Ordubaddan aldığı pasportu itibdir. Etibardan saqitdir.

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Diş həkimi R. S. Fuks**

Qəbul edir: 9-dan 10-a dək; 5-dən 7-yə dək. Ünvan: Mariinski, nömrə 18. Ferdinandın aptekası ilə bərabər. Telefon nömrə 34-15.

*10202*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*8798*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*





Moskvada təcrübə görmüş diş həkimi **K. S. Kolandskaya-Sanuxat** kabinə açmışdır. Müalicə edir, dişləri doldurur, süni dişlər qayırır və dişləri ağrısız çəkir. Qiymət münasibdir. Qəbul edir: Hər gün səhər saat 9-2-yədək; axşam saat 5-7-yədək. Adres: Bazarnı və Suraxanski küçələrin küncündə, nömrə 112.

*8795*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Doktor**
**S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

Xarici məmləkətlərə yun yollamağı və komisyon təriqi [yolu] ilə xarici məmləkətlərdə satmağı **İ. V. Denisovun** bankir kantorası qəbul edir. (Olqinski, Nikolayevskinin küncündə, telefon nömrə 37-75.) Sifarişlər saat 5-dən 7-dək qəbul olunur.

*10228*

**Apteka və kosmetiçeski malları** N. Liberzon və M. Şvarimanın skladı külli miqdarda satır. Tiflis, Puşkinski küçə nömrə 21. Apteka və kosmetiçeski xarici məmləkət fabrikası malları alınıbdır.

*10233*

**Rus çayı**

Külli miqdarda İ. V. Denisovun bankir kantorasının skladında satılır. (Olqinski və Nikolayevski küçələrin küncündə; telefon nömrə 37-75).

*10245*

**Təzə alınmış**

Amerikanın südü satılır külli miqdarda İ. V. Denisovun bankir kantorasında (Olqinski və Nikolayevski küçələrin küncündə, telefon nömrə 37-75). Az miqdarda isə Qafqazski aptekarski mağazada, Baryatinski, nömrə 6.

*10234*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**“Azərbaycan”**

səh. 371. “20 iyun 1919-cu il, nömrə 208”: qəzetdə “nömrə 208” yerinə səhvən “nömrə 209” getmişdir.

**Qismi-rəsmi**

səh. 371. “əhya və Həzrəti-Əmir əleyhissəlamın şəhadəti günü”: Müsəlmanların inanışına görə, Ramazan ayının 19, 21 və 23-cü gecələri əhya gecələridir. “Həzrəti Əmir” deyərkən dördüncü xəlifə Həzrəti Əli nəzərdə tutulur; Həzrəti Əli hicri təqvimlə 40-cı ilin 21 ramazan (başqa bir rəvayətə görə 19 ramazan) günü (miladi təqvimlə 26 yaxud 28 yanvar 661-ci il) şəhid olmuşdur.

səh. 372. “Əmrnamə 52”: qəzetdə “Əmrnamə 25” getmişdir.

“posta təşrifat və cariyyatını”: qəzetdə “təşrifat” yerinə səhvən “təşrihat” getmişdir.

**Teleqraf xəbərləri**

səh. 376. “doktor Dorten”: qəzetdə bu ad təhrif edilmişdir.

“Petit”: 1863-1944-cü illərdə Parisdə nəşr edilən gündəlik qəzet olan “Pati jurnal” [Le Petit Journal] nəzərdə tutulur.

**Sülh ətrafında**

səh. 377. “və gərək sair dövlətlər tərəfindən imza edilmişdi”: qəzetdə “edilmişdi” yerinə “ediləydi” getmişdir.

“Vaxt am Reyn”: XIX əsrin ortalarında yazılmış alman vətənpərvərlik mahnısı olan “Die vaxt am Reyn” [Die Wacht am Reyn; “Reyn üzərində keşikçi”] nəzərdə tutulur.

“Döyçland über alles” [Deutschland über alles; “Almaniya hər şeydən üstündür”]: Bəstəkar Frans Yozef Haydnın 1797-ci ildə bəstələdiyi musiqiyə Avqust Henrix Hofmanın 1841-ci ildə yazdığı sözlərlə meydana gələn marş. 1922-ci ildə Veymar Respublikasının dövlət himni elan edilmişdir. 1945-ci ildən sonra bir müddət bu marşın ifası qadağan edilmişdir. Almaniyanın birləşməsindən sonra marşın üçüncü bəndi dövlət himni kimi təsdiqlənmişdir.

**Qəzetələrdən**

səh. 378. “drednot”: güclü artilleriya silahına malik zirehli gəmi.

“müxrib”: yüksək manevra qabiliyyətinə malik zirehli hərbi gəmi.

səh. 379. “Barrett”: qəzetdə təhrif edilmişdir.

“Hindistanın vis-kralı əmirə müraciətlər”: 1916-1921-ci illərdə Hindistanın vitse-kralı və general-qubernatoru olan Frederik Tezicer və 1919-1926-cı illərdə Əfqanıstan əmiri olan Əmanulla xan nəzərdə tutulur.

**Aldanmayınız!**

səh. 381. “Peterburqda rasputinlər nə idisə, İstanbulda Şeyx Hüdalar da odur.”: Rusiya imperatoru II Nikolayın ailə dostu olmaqla şöhrət qazanmış Sibir kəndlisi Qriqori Rasputin və Osmanlı sultanları tərəfindən böyük mənsəblər və nişanlarla mükafatlandırılmış Rufai şeyxi Əbülhüda Səyyadi nəzərdə tutulur.

“31 Mart hadisəsi”: Osmanlı imperiyasında hakimiyyətə qarşı üsyan və çevriliş cəhdi. 13 aprel 1909-cu ildə (rumi təqvimlə 31 mart 1325-ci ildə) baş tutmuşdur. Üsyan nəticəsində II Əbdülhəmid taxtdan salınmışdır.

“şeyx fəzlullahlar, dərviş lahutilər”: İranda Məşrutiyyətə qarşı çıxan ruhani Fəzlullah Nuri və Osmanlı imperiyasında 31 Mart hadisəsinin iştirakçısı olmaqda təqsirləndirilərək edam edilən ruhani və qəzetçi, “Lahuti” ləqəbi ilə tanınan Dərviş Vəhdəti nəzərdə tutulur.

səh. 383. “Ümidvar”: bu imza Ömər Faiq Nemanzadəyə məxsusdur.

**Bakı xəbərləri**

səh. 385. “Müstəntiqlər Komitəsi”: 1918-





ci ilin mart-sentyabr aylarında Bakıda və ətrafında əhaliyə vurulan ziyanı təhqiq etmək üçün Azərbaycan Hökuməti tərəfindən yaradılan Komitə.

“Nəsir Əlikərimov”: qəzetdə “Nasir Əlikərimov” getmişdir.


آذربایجان

*"Azərbaycan" qəzetinin 209-cu nömrəsinin 1-ci səhifəsi*





**Bazar, 22 iyun 1919-cu il, nömrə 209**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 23 ramazanül-mübarək sənə 1337. 22 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## İXTAR
## [XƏBƏRDARLIQ]

Bu gün ramazanül-mübarəkin 23-cü əhya günü olmaq münasibətilə qəzetəmizin gələn nömrəsi seşənbə [çərşənbə axşamı] günü çıxacaqdır.

*İdarə*

1919[-cu il] həziranın 23-də saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-154*

## ELAN

Azərbaycan Dəmiryol İdarəsi elan edir ki, Türüq və Məabir Nəzarətinin binagüzarlığına binaən [Nəqliyyat və Rabitə Nazirliyinin sərəncamına əsasən], Batumda dərya kənarında 8 nömrəli evdə Azərbaycan Dəmiryolunun Ticarət acentəliyi açılır. Acentəlik su və dəmiryol ilə hər növ yüklərin komisyon, skladoçnı və tamojna müamilatı işlərini öhdəsinə götürür. Bazar qiyməti barəsində təfsilat məlumat verir. "Ceyms Moosen və kompaniyası"nın Liverpula, "Vestkon və Lorens" Londona, "Elerman Layn" Liverpula, "Makley və Makentaer" Qlazqoya, "Amerika-Livantiysk" yoluyla Londona olan yük kirayələri şəraiti [daşınması şərtləri] barəsində məlumat verir. Bakıda Mirbabayevin evində Olqinski və Merkuryevski küçələrin küncündə baqi [yerləşən] Bakı şəhər stansiyasının (telefon nömrə 29-97) dəxi eyni müamilatda bulunur. Bu stansiyanın Çornı-qorodda skladı dəxi var (telefon nömrə 14-57): Merkuryevski küçə ev nömrə 16, Mariinskinin küncündə. Həmin iyulun 12-sindən etibarən zeyldəki [aşağıdakı] qərar ilə komisyon vergisi alınır:

1-ci sinif biletdən 3 rublə;
2-ci sinif biletdən 2 rublə 25 qəpik;
3-cü sinif biletdən 1 rublə 50 qəpik.

Plaskart üçün dəxi bu qərar ilə vergi alınır.

Bundan əlavə, Bakı şəhər stansiyası barəsində olan qanun[un] 14[-cü] maddəsi təbəddülünə binaən [dəyişikliyinə əsasən], hər surətlə olursa-olsun baqaj, yük baqajının bu qərar ilə komisyon vergisi artırılır:

Hər bir kiftansiya mövcibiylə [qəbzə əsasən] göndərilən malların 10 putuna [qədər] 5 manat; 10 putdan yuxarı olarsa hər putuna 50 qəpik komisyon vergisi alınır və malları da əsl qiymətlə yerlərinə göndərir.

*T-153*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Dövləti Müdafiə Komitəsi sədrindən**

Bu axır vaxtlarda mətbuatda olduğu kimi, həmçinin mitinqlərdə müzirr [zərərli] fikirli müxtəlif şəxslər tərəfindən cürbəcür şayiələr buraxılır. Guya İngilis Komandanlığı Dabravol ordusuna Azərbaycana hücum etmək üçün müavinət edir. Bununla elan edirəm ki, bu şayiə müfəttinanə [fitnəkar] bir məqsədlə nəşr edilir [yayılır]. Bu xüsusda İngiltərə Komandanlığı nümayəndələri general Kori və Şattlvort ilə dəfəatla [dəfələrlə] etdiyim söhbətdən İngilis Komandanlığının bizə nisbət bəslədikləri hüsn-təvəccöhə tamamilə inanmışam. Onlar öz hökumətləri qarşısında bizim arzularımızı müdafiə edib və həmişə Azərbaycana qarşı ola biləcək hər növ çıxışların qabağını almağa səmimi fəaliyyət göstərmişlər ki, bu da İngilis Komandanlığının Azərbaycanla Dabravol ordusu arasında bir sərhəd xətti təyin edilməsindən ibarətdir.

Bununla elan edirəm ki, bu cür yalan xəbərləri nəşr edənlər əleyhinə mənim tərəfimdən ciddi tədbirlər ittixaz ediləcəkdir [tədbirlər görüləcəkdir].

*Dövləti Müdafiə Komitəsi sədri:*
*Nəsib bəy Yusifbəyli*

**Azərbaycan Cümhuriyyəti Məşixəti-İslamiyyə [Şeyxülislamlıq] İdarəsindən**

Həmin ramazanül-mübarəkin ibtidası [başlanğıcı] şənbədən olduğu mühəqqəq [qəti] olduğuna nəzərən, eydi-fitrin [Oruc bayramının] həziran 30 bazar ertəsi gününə müsadif olduğu [təsadüf etdiyi] ümum Azərbaycan daxilində olan müsəlmanlara elan edilir.

*Məşixət sədri şeyxülislam:*
*Axund Ağa Ağaəlizadə*
*Katib: Əfəndizadə*

**Posta və Teleqraf nazirinin əmrnaməsi**

*Əmrnamə 66*

Bu sənəsi həziranın 20[-ci] günündən etibarən məmuriyyətə aid olaraq Tiflisə getməli olduğumdan, Nəzarət [Nazirlik] işlərini Ədliyyə, Məsai [Əmək] naziri olan Aslan bəy Səfikürdlü cənablarının öhdəsinə buraxıram. Bu cəhəti bütün təhti-Nəzarətimdə [Nazirliyimin tabeçiliyində] bulunan idarələrə elan edirəm.

*Əmrnamə 67*

Bu sənəsi həziranın 20[-ci] günündən etibarən Nəzarət məmurlarının cümləsindənədd [hesab] olunan mühəndis Cəmil bəy Vəzirov Bakıdakı telefon xütutunun [xətlərinin] hökumət müdiri təyin olunur.

*Əmrnamə 68*

Bu sənəsi həziranın 20[-ci] günündən Bakıdakı telefon xütutunun müvəqqəti hökumət müdiri vəzifəsini ifa edən mühəndis Tarnoqradski həmin xidmətdən azad edilib, dəftərxanamın III Posta və Teleqraf şöbəsinin kargüzarlıq xidmətinə təyin olunur.

*Əslində imza etdi:*
*Posta və Teleqraf naziri və*
*Dəftərxana Baş müdiri*
*Əslinə mütabiqdir.*
*Kargüzar: R[əsul] Rəhimli*





## ETİLAF

Bugünkü nömrəmizdə Gürcüstanla Azərbaycan hökumətləri arasında vaqe olmuş etilafnamənin [razılaşmanın] surətini dərc etmişik.

Qafqaz Cümhuriyyətləri içində bu iki millət, yəni azəri-türk və islamları ilə gürcü milləti müqəddəratlarının biri-birinə mərbut [bağlı] olduğunu anladılar və bu müqəddəratı əllərində saxlamaq üçün bir-birinə kömək etmək, bir vəqti-zərurətdə bir-birinə imdad əli uzatmaq lazım olduğunu dərk etdilər. Dərk edib də sözləşdilər ki, kənari təhlükələrdən qorunmaq, mühafizə və müdafiə edilmək işlərində əlbir və dilbir olsunlar.

Vaqeən [doğrudan da], heç bir kəs üçün gizli deyil ki, Azərbaycansız Gürcüstanın və Gürcüstansız Azərbaycanın müstəqil yaşamağı imkan xaricində bir şeydir. Bu heç vaxt ağıla sığışan və ağıl kəsən əhval ola bilməz ki, məsələn Denikin Azərbaycanı istila edərsə, Gürcüstana dəyməz və ya Gürcüstanı fəth etməklə Azərbaycan təhlükədə olmaz.

Şimal təhlükəsi ümum Zaqafqaz cümhuriyyətləri üçün birdir. Çünki şimalın acındığı və yandığı Azərbaycanın ya Gürcüstanın və ya Ermənistanın ayrılmağından deyil, ümum Zaqafqaziyanın əldən getdiyindəndir.

İştə, bu ümumi təhlükənin vücudu və möhtəməl vüqusu [gerçəkləşməsi] qarşısında Gürcüstan ilə Azərbaycanın əl-ələ verməsi və bir-birinə arxa olması hər kəscə şayani-təsvib və layiqi-təqdir ədd ediləcək [bəyənilməyə və alqışlanmağa layiq hesab ediləcək] mühüm bir məsələ olmaqla, istiqlalı itirmək əndişəsi [qorxusu] ilə əli ürəklərinin üstündə olanların qəlbini təskin edən və ürək verən mövcibi-xoşhali [məmnuniyyət verən, razılıq yaradan] bir keyfiyyətdir.

Bundan başqa, etilafnamədə bir əhvalat dəxi vardır ki, o da məmnuniyyətimizə səbəb olan əhvalatlardandır.

Böylə ki, Gürcüstan ilə Azərbaycan hökumətləri qərar qoymuşlar ki, aralarında olan ixtilaflı hüdud məsələlərini sülh və sazişlə və yaxud "həkəm" [münsif, arbitr] hökmü ilə həll edib hər iki tərəf bu hökm və qərara tabe olsun.

Təbiidir, bir zamanda ki, iki qonşunun evini yanğı atəşi təhdid edə, ola bilərmi ki, qonşular o avadanlıq mənimdir, bu avadanlıq sənindir münaziəsi [mübahisəsi] ilə başlarını məşğul edib də o avadanlığı da, bu avadanlığı da yandırmağa gələn yanğı təhlükəsindən qafil olalar!

Əlavə, bu ixtilaflı hüdud məsələlərinin sülh və sazişlə və ya münsif hökmü təriqi [yolu] ilə həll edilməsinin birinci tərəfdarı həmişə Azərbaycan Hökuməti olmuşdur. Və bu gün o Azərbaycan Hökuməti böylə bir məsələ cümləsindən olan Qarabağ fəqərəsində [hadisəsində] qılınc çəkməyə və qan tökməyə məcburdursa, onun günahı və bütün məsuliyyəti bu saziş təklifindən boyun qaçıranların boynunadır ki, o da Ermənistan Hökuməti ola.

İstər bu hüdud məsələsində və istər müdafiə məsələsində Gürcüstan ilə Azərbaycanın tərtib və təklif etdiyi etilafda iştirak etmək istəməyən Ararat Hökuməti görünür ki, bu məsələlərə başqa bir nəzərlə baxmaqdadır. Ararat Hökuməti ya

Denikin təhlükəsini ümumi bir təhlükə surəti ilə tələqqi etməyir [qiymətləndirmir, qəbul etmir], ya ki, etsə də, bu məsələnin Zaqafqaziya cümhuriyyətlərinin ittihad və ittifaqı ilə dəf edilə biləcəyinə inanmayırlar. Fəqət daha doğrusu, öz müqəddəratının həllini başqaları tərəfdən gözləməkdə olan Ermənistan Hökuməti böylə işlərə qatışmaq istəməyir. Məlum olur ki, bu işlərin onlara dəxli yoxdur.

Hər halda, Ermənistana iki həftəlik vaxt verilibdir. Deməli oranın vəziyyəti və politikası qəti surətdə olmaq üzrə indi deyil, iki həftədən sonra bəlli olacaqdır.

Etilafnamənin burası dəxi şayani-qeyddir [qeyd edilməyə layiqdir] ki, əgər qonşu cümhuriyyətlərdən birisi bu iki mötəlif [razılaşan] dövlətlərin birinə qarşı hüdud ixtilafından dolayı müharibə əməliyyatı başlarsa, bu əhvalat ümumi təhlükə cümləsindən ədd edilib, mötəlifeynin [razılaşan iki tərəfin] ikisini də təcavüz edənə qarşı müharibəyə məcbur edəcəkdir.

Xalis niyyət və pakdamənlikləri [namusluluqları] ilə məşhur olan Azərbaycan türklərinin və alicənablıqları ilə məruf olan [tanınan] gürcülərin böylə fəzilətlərlə bərabər, mərdanəlik və cəsurluqları da mülahizəyə [nəzərə] alınarsa, bunların bu etilafı düşmənlərimizi əndişələrə salacaq və Zaqafqaziyanı yenidən fəth etmək suiqəsdi ilə meydangir olmaq istəyənlərin hirsini soyudacaq və "başında Rey-Təbəristan havası" olan sərməstlərin üzərində soyuq su kimi bir təsir verəcəyini təx-min və hətta təmin etmək olar.

*Hacıbəyli Üzeyir*

## AZƏRBAYCAN İLƏ GÜRCÜSTAN ARASINDA ETİLAFNAMƏ

İyunun 16-da Tiflis şəhərində Azərbaycan Cümhuriyyəti ilə Gürcüstan Cümhuriyyəti arasında əqd edilən [bağlanan] saziş Gürcüstan Hökuməti tərəfindən Məclisi-Müəssisana təqdim edilmişdir.

Gürcüstan Hökuməti tərəfindən Xariciyyə naziri Gegeçkori, Hərbiyyə və Daxiliyyə naziri [Noy] Ramişvili, Hərbiyyə naziri müavini general Gedevanov və Hərbi Şura üzvü general Odişelidze, Azərbaycan Hökuməti tərəfindən Xariciyyə naziri [Məmməd Yusif] Cəfərov, Hərbiyyə naziri Mehmandarov və Baş ərkani-hərb [qərargah] naçalniki general Sulkeviç vəkalətlərə aşina olmaqla onları qanuni surətdə görüb, Zaqafqaziya cümhuriyyətləri istiqlaliyyəti ciddi surətdə təhdid edildiyinə görə, aşağıdakı əsaslar üzərinə həmin saziş əqd olundu:

1) Saziş əqd edən hökumətlər borclu olurlar ki, iki tərəfdən birinin və ya ikisinin istiqlaliyyətini və ya tamamiyyəti-mülkiyyəsini [torpaq bütünlüyünü] təhdid edən hər cür hücum və təcavüz əleyhinə müttəhidən [birgə] bütün müsəlləh qüvvələri və hərbiyyə vəsaili [silahlı qüvvələri və hərbi vasitələri] ilə çıxsınlar.

Qeyd: Bu maddə, Zaqafqaziya cümhuriyyətləri arasında təyin edilib qurtarmamış sərhəd məsələsi üzərində qalxa biləcək ixtilaflı sərhəd məsələlərinə şamil deyildir.

2) Hərgah qonşu hökumətlərdən birisi birinci maddə mövcibincə [birinci maddəyə əsasən] hərəkati-hərbiyyə açdığı zaman silah gücü ilə sərhəd mübahisəsini həll etmək qəsdi ilə bir və ya müttəfiq cümhuriyyət üzərinə hücum etsə, o zaman həmin hökumət müharib [savaşan] tərəf ədd [hesab] ediləcəkdir.

3) Həmin saziş müdafiə xasiyyətini haizdir [xüsusiyyətini daşıyır]. Hərgah iki tərəfdən birisi öz təşəbbüsatı ilə qabaqcadan, saziş olmadan müharibə elan edib hərəkati-hərbiyyə başlarsa, digər tərəf bu müharibə hərəkatında iştirak etməyə borclu deyildir.

4) Hər iki tərəf borclu olurlar ki, onların aralarında çıxa biləcək sərhəd mübahisəsini saziş və ya həkəm [arbitr] vasitəsilə həll etsinlər. Burada çıxarılan qərar hər iki tərəf üçün qəti və məcburi ədd edilməlidir.

5) Həmin saziş üç ilin müddətinə əqd edilir. Bu müddət qurtarana bir il qalmış hər iki tərəfə vagüzar edilir [tapşırılır, öhdəsinə qoyulur] ki, saziş müddətinin təzədən imtidad etdirilməsi [uzadılması] arzusunda olduğunu və ya sazişdən imtina etmək istədiyini izhar etməyə haqqı olsun. Sazişdən imtina edildiyi təqdirdə həmin saziş ancaq təyin edilən müddət qurtardıqdan sonra qüvvəsini itirmiş olur.

6) Hər iki hökumətin haqqı və istiqlaliyyəti mühafizəsi yolunda hər iki tərəf siyasi müzakiratı müttəhidən aparmağa borclu olur.

7) Birinci və ikinci maddədə göstərilən şərait başlandığı zaman hər iki tərəf borcludur ki, təklikdə sülh əqd etməsin.

8) Hər iki tərəf borcludur ki, müttəfiqinin razılığı olmadan başqa hökumətlərlə hərbi ittifaq əqd etməsin.

9) Hərgah 5-ci maddədə göstərilən müddət qurtarana qədər heyəti daxilində olan bütün hökumətlərin tamamiyyətini və istiqlaliyyətini təmin edən Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] vücuda gəlsə, hər iki cümhuriyyət Cəmiyyəti-Əqvama daxil olan zamandan həmin saziş öz qüvvəsini itirir.

10) Zaqafqaziya cümhuriyyətlərindən üçüncüsü Ermənistana ixtiyar verilir ki, həmin saziş rəsmi surətdə elan edilən gündən iki həftə müddətinə qədər özünün bu sazişə yapışmaq arzusunda olduğunu bildirsin.

11) Həmin saziş imza edilən gündən iki həftənin müddətinə qədər təsdiq edilmiş nüsxələr Bakıda mübadilə ediləcəkdir.

Həmin saziş əslində iki nüsxədir.

*Gürcüstan Xariciyyə naziri:*
*Gegeçkori,*
*Hərbiyyə naziri: [Noy] Ramişvili,*
*Hərbiyyə naziri müavini:*
*general-mayor Gedevanov,*
*general Odişelidze*
*Azərbaycan Xariciyyə naziri:*
*M. Y. Cəfərov,*
*Hərbiyyə naziri: Mehmandarov,*
*Baş ərkani-hərb naçalniki:*
*general-leytenant Sulkeviç*
*Tiflis şəhəri, 16 iyun 1919*

## TELEQRAF XƏBƏRLƏRİ

**Çində iğtişaş**

London - Sülh Konfransının Şantou barəsində olan qərarına görə, Şantouda dəhşətli iğtişaş olmuşdur. Çinlilər əcnəbi polisinə təcavüz etmişlərdir.

**Sualtı qayığının batırılması**

İngilis bəhri [dənizçilik] idarəsi xəbər verir ki, Baltik dənizində gəzən ingilis sualtı qayığı xəbərsiz itmişdir.

**Parisdə tətilin tərki**

Parisdə tətil qurtardı. Cümə günü Klemanso əvvəlcə tətilçilərin nümayəndələri ilə, sonra Paris şəhəri nümayəndələri ilə görüşmüşdür. Bəzi tələbatın qəbulu mümkün hesab edilmişdir. Bəziləri isə etinasız qalmışdır. Rəisi-vükəla [Baş nazir] tətilçiləri vətənpərvərliyə dəvətlə ittihad etmələrini tövsiyə eyləmişdir.

**Berlində tətil**

İyunun 7-də Berlində kiçik cəsamətdə [ölçüdə] ancaq iki qəzetə nəşr edilmişdir. Tramvay tərəddüdatı [gediş-gəlişi] kəsilmişdir. Poçtaxanada xüsusi tətil olur.

**Fransa və Rusiya**

Odessa - Parisdə müntəşir [nəşr olunan] “Tayms” qəzetəsi fransız hökumətinin Rusiya ilə olan əlaqəsindən narazıdır. Qəzetələr yazırlar: İngilislər Arxangelskdə hökmrandırlar. Onlar Bakını öz əllərində saxlayırlar. Şimali və Cənubi Qafqaziyaya nüfuz yeridirlər. Amerikalılar Sibiryada fəaliyyət göstərirlər. Fransanın Rusiyada heç bir nüfuzu yoxdur. Əcəba Fransanın Rusiyada heç bir mənafeyi yoxdurmu? Fransaya lazımdır ki, Rusiyada lazım olan yerləri tutub fransız sərmayəsini təmin eyləsin.

**Kronştadtın bombardmanı**

Stokholm - “A. B. B.” qəzetəsi yazır ki, İngiltərənin hərbi gəmiləri Kronştadtı bombardman edir. Bolşeviklər bombardmana qarşı sükut ixtiyar edirlər. Bolşeviklər Kronştadt iskələsinə [liamnına] minalar qoymuşlar ki, düşmənlərin desant çıxarılmasına mane olsunlar. Zənn edilir ki, bolşeviklər şəhəri təxliyə edirlər.

**Tətil hərəkatı**

Nauen - Amsterdamdan xəbər verilir ki, gəmi komandanları tətil etdiyi üçün İngiltərə ilə Amerika arasında gəmi tərəddüdatı [rabitəsi] böyük müşkülata uğrayır.

**İngilis gəmiləri**

Kiyevdən xəbər verirlər ki, üç ingilis gəmisi silah və topxana ilə İstanbuldan Novorossiyskə azim olmuşdur [yola düşmüşdür].

*(Royer acentəliyi)*

**Avstriyaya ərzaq**

Parisdən xəbər verirlər ki, iqtisadi işlərə baxan Ali Şura Avstriyaya əvvəlki kimi ərzaq aparılması üçün tədbirlər ittixaz etmişdir [tədbirlər görmüşdür].

**Tətil gözlənir**

İyunun 12-də Parisdən xəbər verirlər ki, keçən gün Palatada qəbul edilən 8 saatlıq iş qanunu Şura tərəfindən qəbul edilməmişdir. Tətil Şurası qərara almışdır ki, iyunun 16-da kömür mədənləri fəhlələrinin ümumi tətili elan edilsin.

**Avstriya əhvalı**

Avstriyada işlər yaxşı deyildir. Kommunistlər bazar günü təbəddülat [dəyişiklik] olacağını elan etmişlərdir.

## SÜLH ƏTRAFINDA

**Müttəfiqlər bir para güzəştə gedirlər**

Müttəfiqlər almanların əks-təkliflərinin ümdə maddələri haqqında əksəriyyəti-rəylə [səs çoxluğu ilə] qərar çıxarmışlardır. Onlar qərar qoymuşlar ki, zərərlərin verilməsi maddələrinin bir çox yerlərini dəyişsinlər. Müttəfiqlər Klemansonun vəziyyətinə baxmayaraq, Yuxarı Sileziyada rəyi-amm [referendum] icra edilməsi təklifinə razıdırlar. Lakin Fransa nümayəndələrinin xahişinə görə, rəyi-amm qaydalarının vücuda gətirilməsi haqqında saziş hüsula gəlmişdir. Almaniyanın Cəmiyyəti-Əqvama daxil edilməsi zamanı müahidənamədə [sazişdə] göstərilməmişdir.

**Müttəfiqlərin cavabı**

Müttəfiqlərin Almaniya əks-təklifinə cavabı iyunun 12-də verilmişdir. Almaniyaya xəbər verilmişdir ki, artıq müzakirata icazə verilməyəcəkdir. Hərgah Almaniya iyunun 28-nə qədər imza etməsə, hərəkati-hərbiyyə başlanacaqdır.

**Türkiyə nümayəndələri**

İngiltərə simsiz teleqrafı xəbər verir ki, Türkiyə nümayəndələri Damad Fərid paşa başda olmaq üzrə Paris yaxınlığında Vankrisura varid olmuşlardır [çatmışlar]. Damad Fərid paşa polkovnik Henri və Buzrar tərəfindən qəbul edilmişdir.

**Almaniya Kabinəsi**

Müttəfiqlərin Almaniyaya verdikləri cavabını qəti surətdə müzakirə eyləməkdən ötrü, Almaniya Kabinəsi Veymara getmişdir.

**Türkiyənin müqəddəratı**

Lion - Türkiyə sülh mürəxxəsləri [nümayəndələri] gələn seşənbə [çərşənbə axşamı] günü Dördlər Şurası tərəfindən qəbul ediləcəklərdir. Bunlar tələb edirlər ki, sultan düvəli-müəzzəmə [böyük dövlətlər] himayəsi altında İstanbulda qalsın. Yalnız Amerikanın ixtiyarı artıq olmalıdır. Mümkündür ki, keçənlərdə zikr edilən plan icra edilsin. Məsələn, Anatoliyada Türkiyə imperiyası təşkil ediləcək, sultan həzrətlərinə mükəmməl dini, siyasi muxtariyyət veriləcəkdir. Milliləşmiş olacaq İstanbul iddiasından Türkiyə vaz keçməli imiş.

**Avstriyanın protestosu**

Paris - Avstriya sülh mürəxxəslərinin başçısı Kepper Klemansoya bir nota göndərərək, Avstriyanın təqsim edilməsinə [bölünməsinə] qarşı protesto edir. Xüsusən Bohemiya və Tirolun ayrılmasına protesto eyləyir. Axırda əlavə edir ki, bu ticarət mənbələrindən məhrum olan Avstriya yaşaya bilməyəcəkdir. Kronprins ilə "Nyu-York Tayms" qəzetəsinin müxbiri müsahibədə bulunmuşdur. Kronprins müxbirə demişdir ki, on ildən sonra yenə təzə müharibə başlanmaq ehtimalı vardır.

**Vilsonun əzimətinə [gedişinə] dair**

Almaniya tərəfindən sülh müahidənaməsinin [sazişinin] imza edilib-edilməyəcəyi anlaşılana qədər Vilson Avropada qalacaqdır.

**Türkiyənin gələcəyi**

Ağa xan və Əmir xan (Hindistan nümayəndələridir) "Tayms" qəzetəsində bir məqalə dərc edərək, bunlar lazım görürlər ki, İstanbul, Trakiya və Asiyayi-süğra [Kiçik Asiya, Anadolu] Suriyadan başlanmış ta Qara dənizədək sultan həzrətlə-

rinin təhti-hakimiyyətində [hakimiyyəti altında] olsun.

- Almaniyanın Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] buraxılması barəsində Fransanın rəyi böylədir: Hal-hazırda Almaniyanın Cəmiyyəti-Əqvama buraxılması vaxtı yetişməmişdir. Almaniya əhalisinin məqsədi müəyyən olduqdan sonra ancaq Almaniya Cəmiyyəti-Əqvama buraxıla bilər.

**Almaniyaya cavab**

Müttəfiqlərin Almaniyaya olacaq cavabı qəti olacaq. Cavabın müzakirəsinə müsaidə [icazə] verilməyəcəkdir. Almanlara bir həftə vaxt veriləcəkdir ki, bu müddətdə Berlinə gedib də hökumətləri ilə məşvərət etməyə və nəticəni Konfransa bildirməyə fürsətləri olsun.

**Foşun ultimatumu**

General Foşun ultimatumu nəticəsi olaraq, Almaniyadan polyak firqələri keçə bilmişlərdir.

- Dördlər Şurası Almaniyaya qarşı ciddi tədbirlər ittixazını qət eyləmişdir [ciddi tədbirlər görülməsini qərara almışdır]. Deməli, hərgah gözlənilən bəzi hadisələr vüqu bularsa, o zaman Müttəfiqlər ciddiyyən Almaniyanı sıxışdıracaqlardır.

**Lord Redinq və sülh şəraiti**

Amerikadan İngiltərəyə qayıtmış olan Lord Redinq demişdir ki, almanların özlərinə təqdim edilən sülh şəraitindən yüngül şərtlər gözləməyə haqları yoxdur. O ki qaldı sülh şəraitinə Vilsonun 14 maddəli müahidənaməsinin müvafiqət etmədiyi [uyğun gəlmədiyi] məsələsinə, onlara da gözəl cavab budur ki, heç kim müəllifdən artıq öz maddələrini düşünə bilməz. Vilson özü indiki sülh müahidəsini təqdir eyləmişdir.

Almaniyanın ticarət gəmilərinin Amerikaya təslim edilməsi məsələsində Lord Redinq bəyan eyləmişdir ki, bu müvəqqəti bir işdir. Böylələiklə Amerika qoşunlarının nəqliyyatına kömək edilmiş olar. Hər halda gəmilər daimi surətdə Amerikanın əlində qalacağını iddia etmək olmaz.

## QƏZETƏLƏRDƏN

**Çörçill mitinqdə**

Dandidə olan mitinqdə Çörçill öz müntəxibləri [seçiciləri] qarşısında nitq irad etmək istərkən dəhşətli qışqırıq başlanmışdır. Müxaliflər qışqırıb səs-küy salmışlar. O cümlədən "İngilis saldatlarının Rusiyada işləri yoxdur" deyə səslər eşidilirmiş. Çörçill cavabında “İngilis saldatlarının Rusiyaya getməkdən məqsədi almanları qərbi cəhətdən ayırmaqdır” demişdir. “O qoşunlar ki, hələ də Arxangelskdə şimalda dururlar, onlar xəsarətsiz və şərəflə qalib sifətində İngiltərəyə qayıdacaqlardır.”

**İngiltərənin Amerikaya borcu**

Amerikanın Hərbi İşlər katibi mister Beker bəyan eyləmişdir ki, İngiltərənin hal-hazırda Amerikaya 7 milyard 100 min ingilis lirəsi borcu vardır.

**Türkiyədə**

Fələstin cəhətinə Etilaf [Antanta] tərəfindən bir heyət göndərilmişdir. Ərəb əmiri Faysal ərzi-Fələstinin [Fələstin torpağının] 12 küsur əsrdən [12 əsrdən çox müddətdən] bəri islamiyyətin mühafizəsi altında bulunan və ərzi-məzkur [deyilən yer] dəyanəti-şər’iyyəcə [islam dininə görə] və xristianlıq dinincə də müqəddəs olan bu bəldeyi-mübarəkənin [mübarək ölkənin] içində bir yəhudi hökumətinin təsdiqində kürreyi-ərz üzərində bulunan aləmi-islamiyyəti və xristianlığı rəncidə edəcəyindən [qəlbini incidəcəyindən], ərzi-Fələstində yəhudi hökumətinin təsdiqinə dinən mane’ [dini baxımdan maneə] və bu surətlə məhzur [saqınılası, çəkiniləsi şey] olduğu əmir Faysal tərəfindən Konfransda bəyan edilmiş və bu məsələ haqqındakı müzakirə ictimayi-atiyə [gələcək iclasa] təyin edilmişdir.

- İzmirdə qüvveyi-inzibatiyyə [asayiş gücləri] və Vilayət məqamı [valilik], vəzifələri ilə məşğuldurlar.

Daxiliyyə Nəzarəti ilə Vilayət beynində [Valilik arasında] şifrə müxabirəsi [kodlanmış teleqram və ya məktubla xəbərləşmə] başlanmışdır.

İtaliya qəzetələri Türkiyə əhvalının nikbin olduğunu yazırlar.

- Anadolu cəhətinə Mötəlifin [Antanta dövlətləri] tərəfindən bir heyəti-təhqiqiyyə [araşdırma heyəti] göndərilmişdir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Fəhlə Konfransı heyəti-rüəsası [rəyasət heyəti] Məsai Nəzarəti [Əmək Nazirliyi], surəti Məclisi-Məbusanın Sosialist fraksiyonuna olmaq üzrə birər təliqə [rəsmi məktub] göndərərək məlum etmişdir ki, Bakının cəhəti-iqtisadiyyəsi fənalığından naşi [iqtisadi cəhətdən vəziyyəti pis olduğuna görə], bir çox gəmi fəhlələri işsiz qalmışdırlar. Bu vaxtadək işsiz yoldaşlara Bəhriyyun İttifaqı [Dənizçilər İttifaqı] müavinətdə bulunurdu. Fəqət İttifaqın xəzinəsində olan müavinət məbləği bitdiyindən, bir daha müavinət etməkdən acizdir. Dövləti Bankda [Dövlət Bankında] isə, hesabati-cariyyə üzrə pul verilməyir. Heyəti-rüəsa rica etmişdir ki, hesabati-cariyyə üzrə İttifaqa para verilmək üçün təşəbbüsatda bulunsun.

- Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri Klenevski işbu iyunun 18-də Tiflisdən qayıdıb öz vəzifəsi ifasına şüru etmişdir [başlamışdır].

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə müraciətən rica etmişdir ki, işbu sənə əvailində [əvvəllərində] hanki füqəraya hanki təşkilatlar vasitəsilə nə kimi müavinətdə bulunması barəsində Nəzarətə məlumat versin. Müavinət edilibsə, kimlərə verilməsi də məlum edilsin.

- Bu yaxın günlərdə Gədəbəy zavod komitəsi sədri, bir nəfər də komitə üzvü həbs edilmişlərdir. Məsai Nəzarəti Daxiliyyə Nəzarətinə müraciətən rica etmişdir ki, onların azad edilməsi barəsində təcili surətdə lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

## ƏSGƏR TƏLİMİ

Bəhri-mühitin [okeanın] biaman dalğaları kimi məmurələri [abad yerləri] yaxıb-yıxan hərb tufanının ən müdhiş, ən

har [alovlu, yandırıcı] dövrlərində bulunmuş müdəqqiq [tədqiq edən, hər şeyi araşdırıb dəqiqləşdirən], məlumatlı komandanlar yek-ağaz [hamısı bir ağızdan] olaraq deyirlər ki:

Eyi təlim və tərbiyə görmüş müntəzəm ufaq [kiçik] bir qüvvət kəndisinə pək faiq [üstün] bir qüvvətə qələbə edər.

Və yenə: Təlim və tərbiyeyi-əsgəriyyədən məqsəd əsgərə üsul və qəvaidihərbiyyəni [hərbi üsul və qaydaları] öyrədib, boş yerə əfradı [əsgərləri] yoracaq hərəkətlərdən bilkülliyyə ictinab etmək [çəkinmək] lazımdır.

İştə, nasiyəsini [alınını] hərb meydanının qızğın günəşi altında qarartmış, saç və saqqalını torpaq akop [səngər] içində ağartmış, qulaq zarlarını [pərdələrini] müdhiş top gumbultuları ilə patlatmış, ölmüş, öldürmüş, yaralanmış, qalmış, bir çox təhlükə atlatmış təcrübəli komandanların tövsiyələri...

Məqsədim şimdiyə qədər yaptırıla gələn yanaşıq nizamın fəvaid və mühəssənatını müaxizə etmək [faydalarını və üstünlüklərini tənqid etmək] deyil, bir az da dağınıq nizam hərəkatına əhəmiyyət verilməsini rica etməkdir. Zatən cəhəti-ərbaanı [dörd tərəfi] sarmış biaman düşmənlərin qabağı sol-sağ ilə saxlanılamayacağı cümlənin məlumudur.

Əsasən yanaşıq nizam hərəkatından məqsəd əfradı zəbt və rəbtə [nizam-intizama], bərabərliyə alışdırmaqdır ki, bu da müsaid zamanlarda bol-bol yapdırılabilir, zənn edirəm.

Halbuki şimdi məmləkətimiz, millətimiz hali-hərbdədir [müharibə vəziyyətindədir]. Müsaid zamanımız yox. Uzun zamandan bəri xeyli yollar yürümüş, ixtiyarlamış, susamış olan məhud [hamının tanıdığı, mənfi mənada "məşhur"] bayquş qapımıza qədər yaxlaşdı.

Məmafih [bu halda], su yerinə türk, türk-islam qanı içməyə alışmış olan bu yırtıcı şimal heyvanına da Qafqaz bir məzar olacaqdır. Biz hazırız və hazırlaşırız.

Məşhur bir türk şairi deyir ki, erkəkləri hüduda, cəngə qoşarkən, qadınları qurşun yarası sararkən, qəlbləri Xudaya təvəccöh edərkən [yönələrkən] bir millətin zəfər haqqıdır.

Çalışan qullarını Allah sevər. Biz də çalışırız, lakin bir az daha hümmət edib də əsgərlərimizə ovçu xəttindəki vəzifəsini, üsul və surəti-kəşfi [kəşfiyyat üsullarını və şəklini], əmniyyət [təhlükəsizlik] və qaraqol tərtibatı kimi ilaxır əhəm və mühüm məvaddi-əsgəriyyəni [hərbi işin maddələrini] onların anlaya biləcəyi bir surətdə zehinlərinə soxarsaq, əmin olalım ki, xilqətən mövcud igidlik qanı ilə birləşən bu bəsit məlumati-əsgəriyyə bir qıvılcım kimi düşmən qarşısında alovlanacaq, patlayacaq, öləcək, öldürəcək, xariqələr göstərəcək, fəqət nəticədə şanlı Azərbaycan yenə qalacaq və yaşayacaqdır.

*Xaçmazda: C. Məğmumi*

**QARABAĞDA**

Qarabağ general-qubernatoru [Xosrov bəy] Sultanov həzrətlərindən bu məzmunda bir teleqram alınmışdır:

*"10 min ev köçərilər 150 minədək qaramalları ilə Zəngəzura keçə bilmədiklərindən müavinət istəyirlər. Yaylaqlara keçmək iqdamatına [təşəbbüsünə] başlanıldısa da, ermənilər tərəfindən hücumlar olduğu üçün iqdamat dayandırıldı. Üç gün bundan əvvəl ermənilər Zəngəzur qəzasının Keşikli və Xəştab kəndləri üzərinə hücum yaparaq təərrüzlər [basqınlar] edirlər. Əhali müavinət rica və təmənna edir. Müavinət və Keşikli, Xəştab kəndlərinə dair düsturüləməl [təlimat] verməniz rica edirəm. Xalqa öz hüququnu müdafiədə müavinət edilməzsə, zira yaylaqlara getməmək ölüm kimidir, xalqdan heç şey bəkləmək olammaz. Rica edirəm ki, müavinət veriniz və yaxud mənim üzərimdən böylə məsuliyyətli işi götürəsiniz. Zira on minlərlə əhali qarşısında mən cavabdəhəndəyəm [cavabdehəm]. Təcili cavab bəkləyirəm.*

*General-qubernator:*
*Sultanov"*

**ERMƏNİ BANDALARI**

Ordubaddan Tiflisə gəlmiş olan Əhməd Hacı Əli oğlu İrəvan Həmtorpaqlıları Komitəsi sədrinə iyunun 10-da böylə məruzədə bulunmuşdur:

Erməni bandası başçılarından biri Aşot Məlik-Movsesyans bir para erməni zabitləri və saldatları ilə iyunun 1-də Ordubada gəlib müzakiratdan ötrü üç nəfər nümayəndə göndərilməsini müsəlmanlardan tələb etmişdir. Ordubad əhli bunun tələbinə əməl edib öz vəkillərini göndərmişlər. Aşot həmin nümayəndələrə elan etmişdir ki, Vedibasar, Şərur, Naxçıvan, Ordubad və Zəngəzur uyezdi Şuşa şəhərinə qədər Ermənistana yapışdırılmışdır və o da hal-hazırda Ordubad rayonunun uyezdni naçalniki [qəza rəisi] hesab olunur. Buna görə onun əmrlərinə əməl edilməsini tələb edir.

Ordubad müsəlmanlarının vəkilləri Aşotdan xahiş etmişlər ki, o, öz sözlərinin doğru olduğunu təsdiqedici mandatını göstərsin. Aşot cavab vermişdir ki, onun heç bir mandatı yoxdur və öylə bir mandat da lazım deyildir. Vaxtı ki o özünün hakim olduğunu izhar edir, əhali onun sözlərinə inanmağa borcludur. Müsəlman nümayəndələri isə öz növbələrində qəti surətdə banda başçısına izhar etmişlər ki, o, özünün Ordubad rayonu üçün uyezdni naçalnik təyin edildiyi haqqında Azərbaycan Hökumətindən və ya Müttəfiq Komandanlığından rəsmi sənəd gətirməsə, müsəlman əhalisi onu rəsmi hakim hesab etməyib bu qərar üzrə də onun heç bir əmrinə əməl olunmayacaqdır. Aşot müsəlman nümayəndələrindən bu cür qəti cavab aldıqdan sonra öz yanındakı adamları ilə Əylis kəndinə qayıtmışdır.

İyunun 2-də Ordubad və ətrafı müsəlmanları Aşotdan bu məzmunda bir ultimatum almışlar:

*"Siz məcbursunuz ki, bütün sizdə olan dövləti əmvalı [dövlət mallarını], həmçinin müsəlman əhalisi əlində olan silahı və mühimmati-hərbiyyəni [hərbi ləvazimatları] cəm edib Ordubad kazarmasında mənim vəkilim Nikolay Alişevskiyə verəsiniz."*

Bu ultimatum bütün o ətraf müsəlmanlarının artıq dərəcədə həyacanına bais olmuşdur. Zira şayiələr var idi ki, Aşot bandası müsəlman qırğını hazırlayır. Bütün il müddəti müsəlmanlar içində əmniyyətlə yaşamaqda olan ermənilərin hərəkəti bu təsiratı dəxi də artırdı.

Bunların həpsindən həyəcana düşmüş müsəlmanlar Aşota protesto məktubu göndərmişlərdir. Aşot cavabında demiş:

*"Böylə protestoların vaxtı keçmişdir."*

Bu cavabdan sonra Aşot öz dəstələri ilə şəhərə hücum edib cinayətkaranə hərəkata başlamışdır. Ətrafda olub da illərlə müsəlmanların himayəsində olan ermənilər vaxtdan istifadə edərək Aşot dəstəsinə qoşulub özlərinin əvvəlki nicatdəhəndələri [xilaskarları] olan müsəlmanların qarşısına çıxmışlar. Belə ki, bunlar müsəlləh [silahlı] surətdə müsəlman kənd və qəsəbələrinə hücum etmişlər.

Bu axır vaxt şəhərə gedən olmayır ki, onlarla müsəlmanlar qaniçən ermənilərin qurbanı olmasınlar. Hər gün ermənilər müsəlmanların məskun yerləri dağıdıb əllərinə keçən müsəlmanları həlak edirlər. Bu hadisələr adəti bir iş halına düşmüşdür. Deyirlər ki, bu qırğınlar "mədəni" ermənilər tərəfindən hazırlanan və icrası gözlənən müsəlman qırğınının müqəddiməsidir.

Bu ağır hadisələrin təzyiqi altına düşən Ordubad rayonu müsəlmanları Azərbaycan Hökumətindən, yaxud Müttəfiqlər Komandanlığından imdad bəkləyirlər.

O zaman ki, bütün kürreyi-ərzdə yaşayan millətlər nəzərlərini Sülh Konfransına cəlb edib qayət əcələ ilə ümumi sülhün əqdini gözləyirlər ki, xarabazara qalmış məmləkətlərini abad və oralarda olan qanunsuzluğu ləğv etsinlər; böylə bir zamanda qan içməkdən doymamış və qan təşnəsi olan ermənilər bizə yeni qanlı töhfələr hazırlayırlar. Əcəba ermənilərin bu qədər qan tökmələrinə bir intəha [son] verilməyəcəkmi? Əcəba Ordubad müsəlmanları ermənilər tərəfindən hazırlanmaqda olan yeni cəhənnəmdən xilas edilməyəcəklərmi?

Bu ərizə Həmtorpaqlılar Cəmiyyəti katibi Z. Məhəmmədov tərəfindən imza edilmişdir.

## İRAN SƏFİRİMİZ İSMAYIL XAN ZİYADXANOV İLƏ MÜSAHİBƏ

Srağagün Azərbaycan Cümhuriyyətinin Tehran hökuməti nəzdindəki siyasi nümayəndəsi İsmayıl xan Ziyadxanov Tehrandan Bakıya varid olmuşdur [gəlmişdir]. Səfir həzrətləri müxbirimizi qəbul edib İranın övzası [vəziyyəti] və Azərbaycana olan əlaqəsi barəsində bir qədər məlumat vermişdir. Əlavə, ən yaxın zamanda İrana dair geniş məlumat verməyi də kəndi öhdəsinə götürmüşdür.

Heyəti-mürəxxəsəmiz [nümayəndə heyətimiz] rəisi İsmayıl xan Ziyadxanov həzrətləri İran Heyəti-Vükəlası [Nazirlər Kabineti] və şah həzrətləri tərəfindən qəbul edilərək uzun-uzadı Azərbaycan və İran ilə olacaq əlaqəsi barəsində müsahibələrdə bulunmuşdur. İran dövləti Azərbaycanı qəbul və təsdiq edir, fəqət bir qədər Azərbaycan namı [adı] nədənsə İran rəsmi dairələrini əndişəyə salmış imiş. (?)

Ən yaxın zamanda İran ilə post və teleqraf, gömrük və başqa bu kimi dövləti qonşuluq məsələləri həll ediləcəkdir. Tehran rəsmi mətbuatı Azərbaycan, xüsusən səfirimiz həzrətlərinə məqalələr ithaf edərək yeni islam dövlətini təbrik etmişlərdir. İranın dəvairi-rəsmiyyəsində [rəsmi dairələrində] Azərbaycan müsbət bir nüfuza malik olmağa müvəffəq olmuşdur. Azərbaycandan böyük müvəffəqiyyətlər bəklənir.

Heyəti-mürəxxəsə bir çox məsələlər müzakirəsindən sonra yenə Tehrana azim olacaqdır [yola düşəcəkdir].

## BAKI XƏBƏRLƏRİ

**Əslihə tutulması**

Əksinqilab ilə mübarizə edən Fövqəladə Komitənin sədri əmri ilə Bolşoy Morskoy və Nijni-Priyut küçələrinin küncündəki İvanovun evində axtarış əmələ gəlib, 252 rus tüfəngi, 61200 patron, bir dənə "Kolt" pulemyotu tapılıb, polis tərəfindən müsadirə edilib 6-cı uçastoka aparıldıqdan sonra qradonaçalnikə təslim edilibdir. Şayani-diqqət [diqqətəlayiq] burasıdır ki, həman evin padvalında [zirzəmisində] yerə basdırılmış olan iki boçka [çəllək] içməli su tapılıbdır.

**"İnqilabçı" əmələlər**

İyunun 18-də Bibiheybətdə Mitrofanovun mədənində şəhərdən getmiş olan Əmələ Konfransı nümayəndələrinin tərəfindən əmələlərin ümumi iclası dəvət edilib və Denikin qara qüvvələri əleyhinə mübarizədə bulunmaq məsələsi müzakirə edilmişdir. İclasda 300 nəfərə qədər əmələ hazır olub, onların içində 30 nəfər də müsəlman varmış. Bir çox natiqlərdən sonra Konfrans tərəfindən bir qətnamə təklif edilmişdir. Bu vaxt rus əmələlərindən bir neçəsi: "Konfrans bizim üçün qanun deyil, biz Denikinlə müharibə edə bilməriz." demişlərdir. Qətnamə səsə qoyulduqda əksəriyyət onun əleyhinə səs vermiş, böylə ki, Denikin tərəfdarı olan əmələləri bir tərəfə və əleyhinə olanları qeyri tərəfə ayırdıqda, əvvəlinci tərəf bir qədər artıq olmuşdur. İclasda hazır olan "Hümmət" firqəsi nümayəndələri yoldaşlarının böylə nagahani [gözlənilməz] hərəkatına təəccüb edib və çətin bir halda qalmışlardır.

**Şahzadə Savoyskinin gəlməsi**

İtaliya siyasi heyəti nümayəndəsi şahzadə Savoyskinin bu gün Bakıya varid olması [gəlib çatması] gözlənir.

**İtaliya qoşunlarının Bakıya gəlməsi**

Ən mövsuq [etibarlı] mənbələrdən aldığımız məlumata görə, iki həftədən sonra Bakıya İtaliya qoşunları varid olacaqdır.

- Bu günlərdə Tiflisdən Bakıya Xariciyyə naziri Məhəmməd Yusif Cəfərov həzrətləri ilə Gürcüstan Ərazi və Türüq-Məabir [Nəqliyyat-Rabitə] naziri həzrətləri ilə Bakıda Gürcüstan siyasi nümayəndəsi Alşibayanın varid olacaqları gözlənir.

**Polis nəfəratına and verilmək mərasimi**

Srağagün Təzəpir məscidi həyətində polis və şəhər mühafizəsi dəstəsinə and verilmək mərasimi icra edilmişdir. Burada Bakı qubernatoru, Bakı qradonaçalniki, qalabəyi, pristavlar və qeyri polis məmurları hazır olmuşlardır. Anddan sonra nəfərat musiqi və bayraqlarla şəhərin küçələrində gəzmişlərdir. And verildiyi vaxt Təzəpirin həyətinə könüllü "Yardım alayı" dəxi məşqdən qayıdarkən gəlmişdir. Alay kamali-nəzm və nizam üzrə mə-

murların nəzərində nümayiş edib və alqışlara nail olmuşdur.

**Dabravol casusu**

Quba uyezdi Qusarda sükunət edən Tixon Avilov Rus Milli Şurasına bir ərizə verərək məlum etmişdir ki, onun qardaşı Qusarda Azərbaycan Hökumət məmurları tərəfindən Dabravol casusu adlanaraq tövqif [həbs] edilmişdir. Rus Milli Şurası bu ərizəni Daxiliyyə nazirinə göndərmiş və lazımi sərəncam istəmişdir.

**Əsgərlikdən qaçmaq cəzası**

- Balaxanı-Sabunçu qalabəyisinin binagüzarlığına [sərəncamına] görə, Bakı qradonaçalstvası Novxanı kəndi əhli Məlikheydər Cavad oğlu öz oğlu Nuhbalanı əsgərlikdən qaçırmaq qəsdi ilə gizlətməkdə müttəhim və oğlu gəlincəyə qədər həbs edilmişdir. Oğlu gəldikdən sonra bir ay müddətinə tənbeh olaraq həbsxanada qalacaqdır.

- Suraxanı kəndi əhli Əhməd İmambəxş oğlu əsgər yığmağa mane olub və gizlətməkdə müttəhim edildiyindən bir ay müddət həbsxanaya alınmışdır.

- Kürdəxanı kəndi əhli Əbdürrəhim Əbülbaqi oğlu öz oğlunu əsgərlikdən qaçırmaq qəsdi ilə gizlətməkdə müttəhim edilərək, oğlu gəlincəyə qədər və bir ay müddət əlavə həbsxanaya göndərilmişdir.

- Qala kəndi əhli Mirzəağa Mirzəbaba oğlu öz oğlunu əsgərlikdən qaçırmaq qəsdi ilə gizlətməkdə müttəhim və Mərkəzi Həbsxanada məhbus edilmişdir.

**Həbsdən azad**

Hövsan kəndi əhli Cavad Ağakişi oğlu, oğlu əsgərliyə gəlib yazıldığından, Balaxanı-Sabunçu qalabəyisi binagüzarlığı ilə həbsdən azad edilmişdir.

**Qoşunumuz haqqında ermənilərin və Denikinin "məlumatı" (?)**

Denikin ordusunda olan məlumata nəzərən, Azərbaycan Hökumətinin halhazırda 15 min qoşunu vardır. Bu qoşunun qismi-əzəmi [çox hissəsi] Gəncədə olur. Zabitlərin cümləsində qadınlar da vardırlar.

**Müsəlman Ziyalıları İttifaqında**

Müsəlman Ziyalılar İttifaqı tərəfindən açılmış səhiyyə kursuna yazılan şəxslərdən rica olunur ki, yekşənbə [bazar] günü ayın 22-də axşam saat 7 radələrində İttifaqa müraciət etsinlər.

## AZƏRBAYCANDA

**Gəncədən**

Təbiidir ki, hökumətimiz müəllimlərin və bir taqım məmurların halını nəzərə alaraq yanvar ayından etibarən maaşları artırdı. Artırmalar hər məktəbə, hər idarəyə göndərildi. Gəncə və qəzasında Maarif nazirinə tabe məktəblər də artırmaları aldılar. Doqquz aydan bəri çalışmış 600-ə, 450-yə xidmət edən müəllimlərin az-çox üzü güldü. Məlumdur ki, o para ilə yay ehtiyacını da ödəyəcəklər. Böylə olan halda Mədrəseyi-Diniyyə ilə Bələdiyyə İdarəsinə tabe zavallı müəllimlər yenə də Bakıdan artırma bəkləyirlər. Təəssüf edilməlidir ki, müəllim adını daşıyanların həpsi artırma alsın da, müstəsna olaraq mədrəsə və şəhər məktəbi müəllimləri unudulsun.





Gəncə vilayəti Türk Müəllimləri İttifaqı tərəfindən Bakıya vurulan teleqrama cavab olaraq gördüm ki: "Şəhər məktəbi müəllimlərinin artırmaları Bələdiyyə İdarəsindən veriləcəkdir. Mədrəsə isə Ədyan [Dini Etiqad] nazirinə tabe olduğundan oradan göndəriləcəkdir."

Nə zaman göndəriləcək, kimsə biləmməyir. Ruhən, qəlbən sıxılmış bir müəllimə yaylağa getmək, təmiz havalarda tənəffüs etmək lazım gəlir. O para şimdi lazım ki, müəllimlər yaylağa getsinlər, bir az qanlarını artırsınlar ki, gələcək sənə dərs verməyə, millətin çocuqlarını tərbiyəyə müqtədir olsunlar. Bir şəhərin yaxud bir qəzanın bütün müəllimlərinə artırma yaxud maaş verilib də yalnız bir məktəbi parasız buraxmaq xəyala gəlməzdi. Buna binaən [buna görə], Ədyan naziri həzrətlərinin Mədrəseyi-Diniyyə müəllimləri haqqında əcələ tədabirdə [tədbirlərdə] bulunacağını ümid edərək sözümü bitirirəm.

*Davud*

**Ağdaşdan**

Sənələrdən bəri Bakıda bir çox məşəqqətlərlə təhsilə davam edərək kəndi məramına müvəffəqiyyətlə nail olan Məcidzadə Nisbət xanım bu günlərdə Ağdaşa gəlib bir yeni ünas [qız] məktəbi açaraq kəndi fəaliyyətinə başlamışdır.

Şimdiyədək 30-a qədər qız çocuq qeyd edərək türkcə, rusca dərslər başlanmışdır. Əlavə olaraq, cümə günləri məktəb zalında qadınlar üçün "şəkil" tamaşaları göstərməkdə və onları gələcəkdə bir cəmiyyət halına qoymaq xüsusunda çalışmaqdadır.

İştə, bu gün hər tərəfimizdə maarifə qarşı bir hüsn-rəğbət göstərməkdə, qərarmış olan yurdumuzu tənvir etmək [işıqlandırmaq] üçün çalışmaqdadır. Möhtərəm gənc hökumətimiz yeni məktəblər açaraq yeni-yeni təşəbbüsatda bulunur.

Bununla belə, qayət geridə və heç yox məsabəsində [yerində] olan ünas məktəblərimiz unudulmuş bir haldadır. Məncə, çocuğun məktəbi-ibtidaiyyəsi məqamında olan ana qucaqlarına maarif nurları saçmazsaq, çocuğun ilk müəllimi, mürəbbisi [tərbiyəçisi] olan analarımızın tərbiyəsinə diqqət edilməzsə, bütün səylərimiz hədər olacaq və qayət pozğun olan əxlaqımızı doğrultmağa müvəffəq olmayacağız.

Binaənileyh [ona görə], ünas məktəblərimizi çoxaltmalı və darülmüəllimələr [qızlar üçün pedaqoji məktəblər] açaraq bizim də dünyada yaşamağa hissədari-kamalat olduğumuzu [kamaldan payımız olduğunu] qövlən deyil, feilən [sözlə deyil, işlə] isbat etməliyiz.

*Məhəmmədrza Əbdizadə*

## GÜRCÜSTANDA

**Azərbaycan nümayəndələrini təbrik**

Gürcüstan Xariciyyə nazirinin təşəbbüsü ilə iyunun 16-da Gürcü Klubunda Azərbaycan nümayəndələrinin şərəfinə raut [təntənəli ziyafət] tərtib edilmişdir. Rautda gürcü hökuməti nəzdində olan Azərbaycan siyasi nümayəndəsi mühəndis [Faris bəy] Vəkilov, Azərbaycan Xariciyyə naziri M[əhəmməd] Y[usif] Cəfərov, Azərbaycan Hərbiyyə naziri Mehmandarov, Gürcüstan hökuməti üzvləri, Məclisi-Müəssisan rəisi və Divani-Rəya-

səti və bir çox dəvət edilənlər iştirak etmişlərdir. Raut gözəl bir surətdə keçmişdir, bir çox nitqlər söylənmişdir.

**Gürcüstan Məclisi-Müəssisanında**

Gürcüstan Məclisi-Müəssisanının 17 iyunda vaqe olan iclasında Batumda general Naneyşvilinin Denikin köməyinə olaraq Zaqafqaziya əhalisindən əsgəri dəstələr tərtib etməsi münasibətilə Sosialist-Federalist fraksiyası tərəfindən verilən suala Xariciyyə naziri Gegeçkorinin iki nitqindən və müzakiratdan sonra Sosialist-Federalist fraskiyası nazirin bəyanatını kafiədd [hesab] edib, həmin formul qəbul edilmişdir:

*"Sosialist-federalistlərin sualı münasibətilə hökumətin bəyanatını dinləyərək Məclisi-Müəssisan islam Gürcüstanının cümhuriyyətimizə yapışdırılması haqqında hökumətin siyasətini təqdir edib, general Denikinin əsgərləri cəm edilməkdən ötrü Batumun bir üssül-hərəkəyə [bazaya] döndürülməsi əleyhinə hökumət tərəfindən tədbirlər görüləcəyinə inanıb, növbədəki məsələlərə keçir."*

**Anarxiya ilə mübarizə**

Gürcüstan daxilində anarxiya ilə mübarizə eyləməkdən ötrü hökumət tərəfindən Daxiliyyə naziri ixtiyarına yarım milyon manat para buraxılmışdır.

**Xatisovun vürudu**

Ermənistan hökumət rəisinin vəzifəsini ifa edən [Aleksandr İvanoviç] Xatisov Qarabağ hadisələri münasibətilə iyunun 17-də Tiflisə varid olmuşdur [gəlmişdir].

**Keşiş nəfy edilmişdir**

Tiflisdəki rus saborunun (kəlisasının) keşişi Yeqorov Gürcüstan hökumətinin qərarına görə, iyunun 16-da Gürcüstandan nəfy [sürgün] edilib məzkur [adı çəkilən] keşiş iyunun 17-də Batuma getmişdir.

**Zaqafqaziya və italyanlar**

"Qruziya" qəzetəsi yazır ki, Bakıdan Parisə azim olan [yola düşən] İtaliya heyəti sədri polkovnik Qabba Sülh Konfransı üzvlərini Zaqafqaziya əhvalından xəbərdar etmişdir. Guya polkovnik Qabba, Denikinin Qafqaziya millətlərinə nisbətən vəziyyətinin möhkəmləşdirilməsi əleyhinə olduğunu izhar edib, Dabravol ordusunun Azərbaycan sərhədinə yaxınlaşmasının arzuedilməz bir şey olduğunu göstərmişdir. Qabbanın bu bəyanatı ki, Qafqaziya məsələsində İtaliya hökumətinin nöqtəyi-nəzərinə müvafiqdir, Denikinin Zaqafqaziyaya olan hücumunun bərtərəf edilməsi [aradan qaldırılması] haqqında Müttəfiqlərin axırıncı qərarı ilə əlaqədardır. İtaliyanın sənaət [sənaye] dairələri nümayəndələrinin söhbətindən aşkar olduğu kimi, italyanlar özləri İtaliyanın Qafqaziya məsələsində [mövqeyini] təbii dövlətlərə [təbii sərvətlərə] malik olan Qafqaziyaya maraqlı olduqları ilə təfsir edirlər.

## ERMƏNİSTANDA

**"Aşxatavor" qəzetəsi yazır ki:**

İyunun 9-da və 10-da Ermənistan ərkani-hərb [qərargah] idarəsi tərəfindən teleqrafla verilən məlumatdan aşkar olur ki, Eyyub paşanın kürd çətə dəstəsi türklərlə birləşib Bardus, Qızılkəlisa, Cermuk və Diridan dairəsinə cəm olurlar. Onları təqib etmək üçün Sarıqamışdan Bardusa göndərilmiş briqada Qızılkəlisa kəndinin səmtində qurşunlarla qarşılandı. Əşqiya [quldur] dəstələrini tələf edib təcavüzatın önünü almaq üçün tədbirlər ittixaz edilir [tədbirlər görülür].

Bayəzidin qoşunu ayın 8-də Zərcibil köyünə daxil oldu. Məhəlli [yerli] əhali göndərilmiş süvari dəstə nəfəratının [əsgərlərinin] üzərinə hücum edib, birini öldürüb, üçünü məcruh edərək [yaralayaraq], altı cift [cüt] öküz qarət etmişlər. Tsumankali – Ağa kəndindən 50 süvari imdad göndərilmişsə də, müvəffəqiyyətsiz olmuşdur. Zira ki, əhali çoxdan hüdudu keçmişlərdi. Naxçıvan hökumətinin məlumatına görə, Şahtaxtı müsəlmanları, komissarı və qalan hökumət xidmətçilərini qovub demişlər ki, onları məşru [qanuni] hökumət nəzərində görüb tanımayırlar. Haləti qaydasına salmaq üçün binagüzarlıq [sərəncam] edilmişdir.

Qarsın 25 verstliyində Girnə kəndində kürdlər tərəfindən beş nəfər milisioner öldürülmüşdür. Bədəfkarları [cinayətkarları] təqib etmək üçün bir dəstə qoşun göndərilmişdir.

## İZHARİ-TƏŞƏKKÜR

Türk Müəllimlər İttifaqı namından isimləri atidə [aşağıda] yazılan müəllim və müəllimə arxadaşlara kəndi maaşları cüzi olduğunu nəzərdə tutmayıb maddi cəhətcə üsrətdə [çətinlikdə] bulunan arxadaşa qəyurانə [qeyrətlə] ianə etmələrinə səmimi qəlbdən izhari-təşəkkür edirəm.

Para verən əşxas [şəxslər]:

1) A. 26 rublə;
2) Məhəmmədbəyzadə 25 rublə;
3) Rəsul bəy Tahirzadə 25 rublə;
4) Qəmbər bəy Tahirzadə 65 rublə;
5) Abdula Şaiq Talıbzadə 50 rublə;
6) Məhəmmədqulu Hüseynzadə 25 rublə;
7) Əliməhəmməd Mustafazadə 50 rublə;
8) Mələk xanım İsrafilbəyzadə 20 rublə;
9) Abbasqulu Vəlixanzadə 50 rublə;
10) Süleyman bəy Axundzadə 50 rublə;
11) İsfəndiyar bəy Sultanov 25 rublə;
12) Səlahəddin Müftüzadə 25 rublə;
13) Məhəmmədqulu Hacızadə 10 rublə;
14) Mehdi bəy Səfərəlibəyzadə 10 rublə;
15) Murad Əlizadə 10 rublə;
16) Məhəmməd İbrahimzadə 10 rublə;
17) Abbasqulu Yusifzadə 9 rublə;
18) Məryəm xanım Adıgözəlov 25 rublə;
19) Bürhanəddin 30 rublə.

Cümlətanı 500 rublədir.

Şu para sahibinə vermək üçün müəllim Rəsul bəy Tahirzadəyə tapşırıldı.

*İttifaqın sədri*
*müəllim Ağabəy İsrafilbəyzadə*

**İtibdir**

Cəbrayıl Xudabəxş oğlunun Zəngəzur qəzasından aldığı pasportu itib. Etibardan saqitdir.

*10250*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**İtibdir**

Əhməd Hacıvəli oğlunun Zəngəzur qəzasından aldığı pasportu itib. Etibardan saqitdir.

*10251*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Doktor**
**S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Rus çayı**

Xırda-xırda çox miqdar qiymətinə satılır. İ. V. Denisovun bankir kantorasında (Olqinski və Nikolayevski küçələrin küncündə; telefon nömrə 37-75).

*10245*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**"Azərbaycan"**

səh. 391. "Yekşənbə, 23 ramazanülmübarək sənə 1337": qəzetdə "23" yerinə səhvən "31" getmişdir.

**Teleqraf xəbərləri**

səh. 396. "Tayms": 1861-1942-ci illərdə parisdə fransız dilində nəşr edilmiş gündəlik qəzet olan "Le Temps" nəzərdə tutulur.

**Sülh ətrafında**

səh. 397. "Ağa Xan və Əmir Xan": Hindistanın siyasi xadimləri III Ağa Xan və Seyid Əmir Əli nəzərdə tutulur.

**Qəzetələrdən**

səh. 398. "Dandi": qəzetdə "Denri" getmişdir.

"Müxaliflər qışqırıb səs-küy salmışlar.": qəzetdə "müxaliflər" yerinə səhvən "mühafizlər" getmişdir.

"ingilis lirəsi": funt sterlinq; qəzetdə "ingilis lirəsi" yerinə səhvən "ingilislərin" getmişdir.

**Əsgər təlimi**

səh. 400. "yanaşıq nizam": hərbi termin olaraq, əsgərlərin və hərbi texnikaların eyni cərgədə, bir-birinin yanında düzülməsini ifadə edir.

"ovçu xətti": hərbi termin olaraq, döyüşdə düşmənə doğru irəliləyən əsgərlərin ən öndəki cərgəsini ifadə edir.

**İran səfirimiz İsmayıl xan Ziyadxanov**
**ilə müsahibə**

səh. 402. "şah həzrətləri": 1909-1925-ci illərdə İran şahı olan Sultan Əhməd şah Qacar nəzərdə tutulur.


آذربايجان

اعلان

قسم رسمى

تلغراف خبرلرى

T-153

*“Azərbaycan” qəzetinin 210-cu nömrəsinin 1-ci səhifəsi*





**Çərşənbə axşamı, 24 iyun 1919-cu il, nömrə 210**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Saşənbə, 25 ramazanül-mübarək sənə 1337. 24 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

**ELAN**

Azərbaycan Dəmiryol İdarəsi elan edir ki, Türüq və Məabir Nəzarətinin binagüzarlığına binaən [Nəqliyyat və Rabitə Nazirliyinin sərəncamına əsasən], Batumda dərya kənarında 8 nömrəli evdə Azərbaycan Dəmiryolunun Ticarət acentəliyi açılır. Acentəlik su və dəmiryol ilə hər növ yüklərin komisyon, skladoçnı və tamojna müamilatı işlərini öhdəsinə götürür. Bazar qiyməti barəsində təfsilat məlumat verir. “Ceyms Moosen və kompaniyası”nın Liverpula, “Vestkon və Lorens” Londona, “Elerman Layn” Liverpula, “Makley və Makentaer” Qlazqoya, “Amerika-Livantiysk” yoluyla Londona olan yük kirayələri şəraiti [daşınması şərtləri] barəsində məlumat verir. Bakıda Mirbabayevin evində Olqinski və Merkuryevski küçələrin küncündə baqi [yerləşən] Bakı şəhər stansiyasının (telefon nömrə 29-97) dəxi eyni müamilatda bulunur. Bu stansiyanın Çornı-qorodda skladı dəxi var (telefon nömrə 14-57): Merkuryevski küçə ev nömrə 16, Mariinskinin küncündə. Həmin iyulun 12-sindən etibarən zeyldəki [aşağıdakı] qərar ilə komisyon vergisi alınır:

1-ci sinif biletdən 3 rublə;

2-ci sinif biletdən 2 rublə 25 qəpik;

3-cü sinif biletdən 1 rublə 50 qəpik.

Plaskart üçün dəxi bu qərar ilə vergi alınır.

Bundan əlavə, Bakı şəhər stansiyası barəsində olan qanun[un] 14[-cü] maddəsi təbəddülünə binaən [dəyişikliyinə əsasən], hər surətlə olursa-olsun baqaj, yük baqajının bu qərar ilə komisyon vergisi artırılır:

Hər bir kiftansiya mövcibiylə [qəbzə əsasən] göndərilən malların 10 putuna [qədər] 5 manat; 10 putdan yuxarı olarsa hər putuna 50 qəpik komisyon vergisi alınır və malları da əsl qiymətlə yerlərinə göndərir.

*T-153*

**QİSMİ-RƏSMİ**
**[RƏSMİ HİSSƏ]**

**Posta və Teleqraf nazirinin əmrnamələri**

*Əmrnamə 69*

21 həziran 1919

Bu fövqdəki [yuxarıdakı] tarixdən eti-

barən mən Posta və Teleqraf Nəzarətinin müvəqqəti olaraq idarələnməsinə iqdam etdim [başladım].

*Əslində imza etdi*
*Ədliyyə və Məsai naziri*
*və Dəftərxana baş müdiri*
*Əslinə mütabiqdir.*
*Kargüzar: R[əsul] Rəhimli*

**QARABAĞ HADİSATI**

Naxçıvanın səssiz-küysüz, qeylü-qalsız, dava və münaziəsiz [mübahisəsiz] olaraq erməni hökuməti tərəfindən işğalından sonra – ki bu işğal Azarbaycan Cümhuriyyətinin mənafeyi-həyatiyyəsini xələldar etmək [həyati mənafeyinə ziyan vurmaq] idi – zənn olunurdu ki, ermənilər daha Qarabağ məsələsində inadlıq etməyib hirslərini soyumuş və iştahalarının şiddətini azalmış hesab edərlər. Lakin böylə deyilmiş.

Nə adi və nə də siyasi nəzakəti başa düşməyən erməni başçıları Qarabağ adlı torpağımızda sükunət edən [yaşayan] erməni əhalisini bu əhalinin xahişinə rəğmən Azərbaycan Hökumətinə tabe etməmək yolunda daha böyük inadlıq göstərib, İngiltərə Baş Komandanlığının təklifini də rədd etməkdən çəkinmədilər.

Azərbaycan Hökumətinin səbir kasası doldu. Köçəri mövsümünün hülulu [çatması] isə əhalini dəxi böyük müşkülat qarşısında qoyub arada bir acıq və əsəbiyyət törətməyinə səbəb oldu. Ermənilərin inadlığı və hökumətimizin hövsələsi bu acığı və əsəbiyyəti getdikcə artırıb, Qarabağda bu gün-sabah bir qeyz və qəzəb partlanğıcı zühur edəcəyini naçar qoymuşdu.

İşin bu yerə gəldiyini və bunun nəticəsi nə ola biləcəyini haqqı ilə anlamış olan general-qubernator Xosrov bəy Sultanov həzrətləri bunun qabağını almaq və qırğına mane olmaq üçün Qarabağ erməni başçılarının inadını sındırmaq və məsələni camaatın qatışmasına məhəl qoymamaq [imkan verməmək] üçün hökumət əli ilə, yəni qanuni bir yol ilə həll etmək əmrinə mübaşir oldu [işinə girişdi] və olub da erməniləri itaətə məcbur etdi. Daha doğrusu, erməni camaatını xudsər [özbaşına] və qeyri-məsul "komitetlər" qurğusundan xilas edib camaatın öz meyil və arzularını hüsula gətirdi.

İndi ümumi qırğına mane olan erməni "komitetlərinin" şərini ümum Qarabağ əhalisi üzərindən dəf edən, hökumət əmrini layiqincə yerinə yetirən Xosrov bəyi alqışlamaq, ona mütəşəkkir olmaq, ondan razılıq etmək əvəzində, onun əleyhinə danışılan sözlər və hərəkatını fəna bir surətdə göstərən qeybətlər eşidirik. Hətta onun geri çağırılması məsələsi dəxi meydanda söylənilməkdədir.

Biz bu növ fikirə mailik ki, Sultanov Xosrov bəyin əleyhində danışanlar, onun layiqsiz bir hakim olduğundan deyil, biləks [əksinə], fəzləsi ilə ləyaqət sahibi, bacarıqlı və iş görən bir Azərbaycan məmuru olmasından qorxuya düşən və gözləri götürməyənlərdir.

Əgər Qarabağ müsəlmanları arasında böyük və layiqli bir nüfuza malik olan və erməni camaatı tərəfindən dəxi möhtərəm sayılan Xosrov bəy Qarabağın hökuməti başında olmasa idi, burası – Azərbaycanın cənnəti hesab olunan bu yer çoxdan bəri cəhənnəmə dönüb qətlüqital [qətl və qırğın] ocağı olmuşdu. Bu həqiqəti Qarabağın müsəlmanları da, erməniləri də, Qarabağ hadisəsini təhqiq üçün məhəlli-məzkura [deyilən yerə] getmiş olan xüsusi komissiya dəxi iqrar [qəbul] və təsdiq etdiyi bir halda, Xosrov bəyin əleyhinə danışmağın mənası nədir? Qarabağı ixtilal və iğtişaşa sövq etmək niyyəti deyilmi?

Şimal təhlükəsinin vücudu meydanda olduğu bir halda bizim başımızı Qarabağ şuluqluğuna qatışdırmaq istəyənlər, Qarabağın iğtişaşından mənfəət aparanlar, əlbəttə, səy edəcəkdirlər ki, Sultanov kimi layiqli bir hakim Qarabağdan kənar edilib, bu yerdə hər bir macəraculuq [avantüra] üçün meydan hazırlansın.

Lakin biz əminik ki, Sultanov Xosrov bəyin xidmətlərini layiqincə təqdir edən və bu məsələnin ətrafında dolandırılmaqda olan intriqalardan kamalınca xəbərdar olan hökumətimiz, əvvəla, öz daxili işlərinə qatışmaq istəyənlərə yol verməz və saniyən [ikincisi], Azərbaycanın mühüm bir cüzü [hissəsi] olan Qarabağı şuriş [qarışıqlıq] və iğtişaş atəşinə ilqa etməz [atmaz] və Qafqazda nizam və asayiş mühafizəsi əmrinə [işinə] mükəlləf olan Müttəfiqlər Komandanı dəxi bir taqım müzirr [zərərli] adamların ilhah [təkid] və israrına məhəlgüzar olmayıb [fikir verməyib], bu yolda hökumətimizin tərəfini iltizam etməyi səlah görər [düzgün hesab edər].

*Hacıbəyli Üzeyir*

**TELEQRAF XƏBƏRLƏRİ**

*(Royter acentəliyindən)*

**Yaponların övdəti [qayıtması]**

Maltadan xəbər verirlər ki, Bəhri-Səfiddə [Aralıq dənizində] olan Yaponiya donanması Yaponiyaya azim olacaqdır [yola düşəcək].

**Yaponiya və Kolçak**

Teleqrafların verdikləri xəbərlərə görə, Yaponiya Kolçak hökumətini təsdiq etmişdir. Parisdə olan Kolçak dostları deyirlər ki, Sibiriya hökuməti ilə dostanə münasibat saxlamaq Yaponiya üçün mənfəətlidir. Ələlümdə [başlıca olaraq] o səbəbə ki, Yaponiya dəmiri Sibiriyadan alır.

**Gəmi qərq olmuşdur**

Stokholmdan xəbər verirlər ki, "Lake Plaşid" paroxodu Baltimor yanında minaya toxunub beş dəqiqədə qərq olmuşdur. 37 nəfərdən ibarət gəmi tayfası salamat qurtarmışdır.

**Petroqrad üzərinə hücum**

Londondan xəbər verirlər ki, estonların şimali dəstəsi Petroqrad üzərinə hücum etmişdir. Petroqrad-Narva dəmiryolunda Yamburq və Peypus gölü cənubunda Qdov zəbt edilmişdir. İki min əsir və bir çox mühimmati-hərbiyyə [hərbi ləvazimat] alınmışdır. Bolşeviklər nizamsız bir surətdə geri çəkilirlər. Şimali Rusiyada heç bir təbəddülat [dəyişiklik] yoxdur.

* * *

Verilən xəbərlərə görə, estonlar Narva ilə Qdov arasında 100 km məsafəsində hücumu davam etdirirlər. Petroqra-

dın 120 kilometrliyində Luqa nəhrinə çatmışlardır. Estonların təhti-komandasında [komandanlığı altında] olan rus dəstəsi 2500 əsir və bir çox mühimmati-hərbiyyə almışdır.

**Şimal cəbhəsində**

Londondan xəbər verirlər ki, rus rəsmi xəbərlərinə görə bolşeviklər Fin xəlicində [körfəzində] Olonets şəhərini işğal etmişlər. Düşmən hərbi gəmiləri atəş altında Luqa nəhri mənsəbi yaxınlığında Kaybolovo kəndinə əsgər çıxarmışlardır.

**Kronştadt altında dəniz müharibəsi**

Helsinqforsdan [Helsinkidən] xəbər verirlər ki, Kronştadtda olan bolşevik donanması 1 zirehli, 2 böyük minanoska və 3 mina düzən nəqliyyat gəmisindən ibarətdir. 3-4 hərbi gəmidən ibarət olan İngiltərə donanması bolşevik donanmasının dənizə çıxıb Fin sahilini bombardman etməsindən xəbərdar olub dənizə çıxmışdır. Fin xəlicinin şərqi hissəsində səhər saat 10-da müharibə başlanmışdır. Bolşevik gəmilərindən atılan top güllələrindən heç biri nişanəyə dəyməmişdir. Bolşeviklər Kronştadt topları atəşi altında qaçmışlardır. Bolşevik gəmilərindən birinin qərq olub, digərinin sahilə atılması haqqındakı xəbərlər hələ təsdiq edilməmişdir.

Kiyev - 18 yaşdan 25 yaşadək kişilərə Kiyevdən çıxmağa bu gündən etibarən müsaidə [icazə] verilməyir. Dubensk qəzasında kəndçilər alay təşkil edib Polşa bandalarını qovmuşlardır. Polyaklarla mübarizə etməkdən ötrü kəndçilər ciddi surətdə çalışırlar. Bunlar kəndçilərdən batalyon hazırlayırlar.

Odessa - İstanbuldan Romaniya qəzetələrinə xəbər verilir ki, Türkiyə ordusunun tərk-silahı qurtarmışdır. İngiltərə ilə Fransa arasında olan müqaviləyə görə, bütün ləvazimati-hərbiyyə Fransaya göndəriləcəkdir.

Yekaterinodar - Buraya verilən xəbərlərə görə, bolşeviklər Xarkov şəhərini təxliyə etmişlərdir.

**Fransa və Həbəşistan**

Paris - Bu gün Fransa rəisi-cümhuru Puankare Həbəşistan heyətini hüzuruna qəbul eyləmişdir. Heyət həbəş imperatriçəsi və vəliəhdi tərəfindən Puankareyə məktub vermişdir ki, heyətin rəisi nitq söylərkən özləri ilə Fransa arasında olan dostluğa işarə edib Puankareni Müttəfiqlərin qələbəsi ilə təbrik eyləmişdir. Puankare cavabında həbəş padşahlığından və xüsusi olaraq Menelikdən razılıq edərək, həmişə Həbəşistanın müstəqil yaşamasını arzu etdiyini əlavə eyləmişdir.

**Nyu-Yorkda bolşevik nümayəndəsi**

Liondan xəbər verirlər ki, Paris qəzetələri Nyu-Yorkda rus Şura Hökuməti nümayəndəsinin həbs edildiyini bildirirlər. Təfsilat məlum deyildir.

**Fransada fəhlə hərəkatı**

Liondan verilən xəbərlərə görə, Klemanso fransız fəhlələrə izhar etmişdir ki, sülh imza edildikdən sonra istefa verəcəkdir. Bu axır aylar müddətində hökumət gözlənməkdə olan tətil münasibətilə, Palatada müzakirə əsnasında artmaqda olan müxalif tərəflə bir çox mübarizədə bulunmuşdur. Hökumət 21 rəyin əksəriyyəti ilə etimad qazanaraq tətilin təxirə salınmasına da müvəffəq olmuşdur.

Mədən əmələlərinin tətili sabah başlanacaqdır. Bu qərar üzrə, bu həftə Sülh Konfransı işləri fəhlə böhranı arasında başlanacaqdır.

**Vyanada kommunistlər üsyanı**

İyunun 17-də Nauendən xəbər verirlər ki, bazar günü Vyanada müsəlləh [silahlı] kommunistlərin üsyanı qalxmışdır. Başçıların hamısı həbs edilmişdir. Üsyan edən kommunistlər həbs edilənləri azad etməyə çalışmışlar. Həbsxana mühafizləri ilə vaqe olan toqquşmada 11 nəfər ölüb, 70 nəfərdən ziyadəsi yaralanmışdır.

**İtaliyada nizamsızlıq**

İyunun 16-da Luqanodan xəbər verirlər ki, Neapolda böyük nizamsızlıq başlamışdır. Genuyada olan matroslar Dabravol ordusundan ötrü Rusiyaya mühimmat aparan paroxodların əzimətinə [gedişinə] mümaniət [maneçilik] göstərmişlərdir.

**İtaliya Sosialist firqəsində**

İyunun 10-da Berlindən xəbər verirlər ki, "Kosovo qəzetə"nin Luqanodan aldığı məlumata görə, İtaliya Sosialist firqəsi bir dəvətnamə buraxıb deyir ki, Fransa, İngiltərə və İtaliya sosialist firqələri nümayəndələri arasında bir etilafnamə əqd edilmişdir [razılaşma imzalanmışdır]. Bu etilafnamə mövcibincə [bu razılaşmaya görə], Rusiya və Macarıstanın sosialist cümhuriyyətlərini yıxmağa mümaniət [maneçilik] və məğlub məmləkət füqərayi-kasibəsinə [proletariatına] müavinət göstərmək qəsdi ilə bütün üç hökumət füqərayi-kasibəsi müttəhid [birgə] siyasət yürütməlidir. Beynəlmiləl füqərayi-kasibə hazır olmalıdır.

**Petroqrad altında**

İyunun 16-da Petroqraddan xəbər verirlər ki, iyunun 13-də xırda bir ağ qvardiya dəstəsi qəflətən Krasnaya Qorkanı işğal etmişdir. Gündüz saat 3-də oradan Kronştadt şəhəri atəşə tutulmuşdur. Topla düşmənə cavab verildikdə, düşmən sakit olmuşdur. Bolşevik əsgərləri Krasnaya Qorkaya hücum etmişlərdir. Düşmənə böyük tələfat verilmişdir. Şəhər komendantına ultimatum verilmişdir ki, fəhlə və kəndli hökumətinə tabe olsun. İyunun 16-da gecə saat 12-də Krasnaya Qorka geri alınmışdır.

**Polşada**

İyunun 10-da Kiyevdən xəbər verirlər ki, general Haller alayının əsgərləri Rusiya cəbhəsinə getməkdən imtina edirlər. Polşadan əsgər cəm edildiyinə görə, fəhlələr və kəndlilər arasında narazılıq vardır.

**Polyakların Ukraynaya hücumu**

- İyunun 4-də Kiyevdən xəbər verirlər ki, Kiyevdə alınan Petlyura qəzetəsi polyakların hücumu münasibətilə yazır ki:

*"Əski tarixli düşmənimiz quldurlarla mübarizə şüarı ilə üzərimizə hücum edir. Onlar bizim arxamızca gəlib ləvazimat anbarlarını, ərzaq şeyləri, libasları və dəmiryol qatarlarını tuturlar. Polyaklarla bərabər getman Skoropadskinin tərəfdarları da gəlirlər. Polyaklarla və təzə*

*getmanla müharibə üçün kəndlilər və fəhlələr ayağa qalxmalıdırlar."*

- Jitomirdən verilən xəbərə görə, Polşa və Romaniya əsgərlərinin Volın şəhərinə hücumu münasibətilə kəndlilər dəstələrlə gəlib özlərini Qırmızı orduya yazdırırlar.

**Amerika əsgərləri Rusiyadan gedir**

İyunun 17-də Liondan xəbər verilir ki, dəmiryol əsgərlərindən başqa, qalan Amerika əsgərləri Rusiyadan çıxarılmışdır. Dəmiryol əsgərləri də bu yaxınlarda evlərinə övdət edəcəklər [qayıdacaqlar].

**Sürixdə üsyan**

Sürixdən xəbər verirlər ki, orada böyük nizamsızlıq başlanmışdır. Tərtib edilən mitinqdə xəbər verilmişdir ki, Fəhlə İttifaqı katibi İsveçrə sərhədini keçməyə hazırlandığı zaman həbs edilmişdir. Təşviqat yapmaq üçün yanında bir çox intibahnamə [vərəqə] var imiş. Katib Sürix həbsxanalarından birində həbsə salınmışdır.

**Ukrayna ilə Romaniya münasibatı pozulmuşdur**

Ukraynadan verilən xəbərlərdə denilir ki, Ukrayna ilə Romaniya arasında münasibat iyunun 4-dən rəsmi surətdə qət edilmişdir [kəsilmişdir].

**Polşa ilə Almaniya müsadiməsi**

Polşa əsgərləri tərəfindən mütarikə şəraiti [atəşkəs şərtləri] pozulduğuna görə, Polşa ilə Almaniya sərhədində müsadimə [toqquşma] vaqe olmuşdur. Almaniya Komandanlığı bu işi təhqiq etdikdən sonra məlum olmuşdur ki, 200 nəfərdən ibarət polyak dəstəsi Tanqofenin cənubşərqi sərhədində hücuma keçmişdir. Almanların əks-hücumu ilə polyaklar geri atılmışlardır. Eyni zamanda 80 nəfər polyak Kleyn-Varderhauzenə hücum edib kəndə daxil olmuşlardır. Bunlar da Almanların əks-hücumu ilə oradan çıxarılmışlardır. Almanlardan 5 nəfər ölüb 6 nəfəri yaralanmışdır. Polyaklar boğucu qaz buraxırmışlar.

7 iyun tarixli Poznan qəzetəsinin verdiyi məlumata görə, arxada münasibatı mühafizə etməkdən ötrü 20 km məsafəsində cəbhə boyu idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] elan edilmişdir. Verilən xəbərlərə görə, fransızlar Polşada təşkilat yapmaqdadırlar. Polşada fransız məmurları təyin edilir.

*(Bolşevik xəbərləri)*

**Ufada**

İyunun 17-də xəbər verilir ki, Samara komissarının verdiyi məlumata görə, Kolçak əsgərləri təcili surətdə Ufadan çıxıb bütün qiymətli şeyləri özləri ilə aparmışlar. Apara bilmədikləri şeyləri xarab etmişlərdir. Ufa mövqifi [stansiyası] qarət edilmişdir. Xəstəxanalar dərmansız qalmışdır. Əməliyyati-cərrahiyyə alətləri aparılmışdır. Qalan parovozlardan üçü təmir edilmişdir.

## SÜLH ƏTRAFINDA

**Türkiyə və Bolqariya müahidənamələri**

Təsəvvür edildiyinə görə, Türkiyə ilə Bolqariyaya veriləcək sülh müahidənamələri [sazişləri] – ki hazırlanmasında Amerika hökuməti müharibə elan etmədiyinə [görə] iştirak etməyir – Almaniya ilə Avstriya sülh müahidənaməsini imza etməyənə qədər müzakirə edilməyəcəkdir. Bu müahidənamələr ola bilər ki, İstanbulda, Səlanikdə və ya başqa bir şəhərdə imza ediləcəkdir.

**Fiume məsələsi**

Havas acentəliyi xəbər verir ki, Fiume məsələsi hələ həll edilməmişdir. Fransada böylə bir rəy hökmfərmadır [hökm sürməkdədir] ki, Fiume Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] komissiyası ilə azad şəhər elan ediləcəkdir.

- Berlindən "Tayms" qəzetəsinə verilən xəbərlərə görə, Noske demişdir ki:

*"Heç bir hökumət ola bilməz ki, camaatını bu cür sülh müahidənaməsini qəbul etməyə məcbur etsin. Çünki bu cür sülh xarabazarlıqdan başqa bir şey deyildir. Tək bir çarə Cəmiyyəti-Əqvam vücuda gətirməkdən ibarətdir ki, onun işi mabeyn mənafeyi əsas[ı] [ortaq mənafe prinsipi] üzərində olsun."*

Bu əhvalatı yazan müxbir hökumət böhranı olacağını xəbər verir.

**Berlindən protesto**

İyunun 12-də Berlindən xəbər verirlər ki, məmaliki-əcnəbiyyədən [xarici ölkələrdən] gələn almanlar Vilhelmştrasse küçəsinə cəm olub sülh müahidənaməsi əleyhinə olaraq Şeydemana və Ebertə protesto etmişlərdir. Ebert nitq irad etdiyi [nitq söylədiyi] zaman demişdir ki:

*"Biz, tarixi bir qisasdan ibarət olan bu cür sülh müahidənaməsini imza etmərik. Almaniyanın sənaət [sənaye] və sədaqətinə bələd olan əcnəbi hökumətlər məmaliki-əcnəbiyyədə olan almanların qovulmalarına imkan verməzlər."*

Şeydeman imperiya kançleri [sarayı] qarşısında cəm olan Almaniya-avstriyalılara müraciətən demişdir ki:

*"Müttəfiqlərin avstriyalılarla məskun olan Almaniyanın Almaniyaya birləşməyinə mümaniət [maneçilik] göstərmələri müvəffəqiyyətsiz olacaqdır. Çünki qan səsi xeyli yüksəkdir. Tirol imperiyanın köhnə bir oblastı olmağa görə – ki onu indi təhlükə təhdid edir – Almaniya üçün əzizdir."*

**Almaniya fəhlələri**

Hökumət katibi doktor Deytç "F. P." qəzetəsində yazdığı məqaləsində bir çox aylar işsiz və ərzaqsız qalan fəhlələr arasında xeyli narazılıq olduğunu göstərir. Qəbulu qeyri-mümkün olan Versal sülh müahidənaməsi işləri fəna bir yerə müncər edəcəkdir [gətirib çıxaracaqdır]. Kommunistlər şura diktatoriyası vücuda gətirib, Macarıstan Şura Cümhuriyyətinə müavinət göstərməkdən ötrü fəhlələrin bu halından məmnuniyyətlə istifadəyə çalışırlar.

## TÜRKİYƏDƏ

**İzmir türklərdə qalır**

Batum xüsusi müxbirimizin yazdığına görə, İstanbulda böylə bir rəsmi elan nəşr edilmişdir:

Yunanlıların 16 həziran sabahı İzmirdəki qaraqolları təxliyə edərək gecə ikən

qüvvətlərini qisim-qisim vapora irkab ilə [gəmiyə mindirərək] çəkilmək hazırlığında bulunduqları və yerli rumlar tərəfindən qəflət əsəri olaraq kəşidə olunan yunan bandıraları [qaldırılan yunan bayraqları] ortadan qaldırılmaqda olduğu və təxliyə edilən qaraqollara Osmanlı qüvvətləri iqamə edildiyi [yerləşdirildiyi] və əhaliyi-islamiyyənin pək böyük və mütəntən [təntənəli] və milli bayram yapmaq üçün hazırlıqda bulunduqları Üçüncü ordu qitəatı [hissələri] müfəttişi Mustafa Kamal paşadan şimdi alınan teleqrafnamədə anlaşılmaqla məəlməsarr [sevinclə] təbliğ olunur. Məqami-vilayətdən 16 həziran tarixli və 202 nömrəli teleqrafnaməsi ilə təbşir edildiyi [müjdə verildiyi] elan olunur.

*Qaimməqam vəkili qazı (imza)*

## QƏZETƏLƏRDƏN

**Kolçak və Denikin**

Bolşevik teleqrafları xəbər verir ki, iyunun 19-da Moskvadan xəbər verirlər ki, Ufa şəhərini almaq üçün axırıncı müharibələr əsnasında tutulan əsirlərdən bolşevik ordusu üçün hazırlanmış saxta intibahnamələr [vərəqələr] tapılmışdır. İntibahnamə xeyli naməsbut [namünasib] bir surətdə yazılmışdır. Bu intibahnamənin bolşevik əsgərləri arasında müvəffəqiyyəti olmamışdır.

Dabravol ordusundan qaçıb gələnlərin dediyinə görə, Stavropol quberniyasında düşmən cəm edilmiş dabravolları siyahı etməkdədir.

Zəhmətkeş xalq dabravol əsgərliyindən qaçır. Əsgərlikdən qaçanları asırlar. Kazaklar qarət edilən libasları geyirlər. Çest verməyənlərə yüz taziyanə [qırmanc] vururlar. Jurov kəndində əsgərlikdən qaçanlar kənd yüzbaşısını öldürmüşlər. Əhali[nin] Denikini görməyə gözü yoxdur. Kazaklar çörək alıb qəbz verirlər. Denikin əhalini aldadıb tezlikdə Kolçakla birləşəcəyi haqqında yalan şayiələr buraxır. Tutulan əsirləri alıb gülləşəyirlər. Kəndxudalara əmr verilmişdir ki, mühakiməsiz assınlar. Əhali bolşevik əsgərlərini bilaaram gözləməkdədir.

Zlatoustda, Petropavlovskda, Korxanda böyük üsyan qalxmışdır. Bu üsyanı yatırmaq üçün cəbhədən kazak dəstələri gətirilmişdir. Qaçıb gələnlərin rəvayətinə görə, bolşevik əsgərlərinin bu axır vaxtda olan müvəffəqiyyətlərinə görə Belı qvardiya [Ağ qvardiya] əsgərlərinin ruhu düşkündür.

Rusiya vahidçilər qəzetəsi isə yazır ki: *"Dağıstan ziyalıları, zabitləri və zəhmətkeşləri Dabravol ordu ilə dostanə rəftar edir. Bunlar Dabravol ordusunu təzə Rusiyanın müsəlləh [silahlı] qüvvəsi hesab edirlər."*

Hətta guya Cənubi Rusiyadakı bütün millətlər, xüsusən füqərayi-kasibə guya Kolçak və Denikin ordusunu bir naci [xilaskar] kimi gözləyirlərmiş və hər yerdə onları şadlıqla qarşılayırlarmış. Görəsən bu xəbərlərin hankisi doğrudur?

**Lenin Petroqrad haqqında**

Lenin Macarıstan Şura Hökumətinə müraciət etdiyi intibahnamədə [bəyanatda] etiraf edir ki, Petroqrad qəti surətdə mühasirə edilib, süqutu yəqindir [şübhəsizdir].





**Rakovskinin təklifi**

Ukrayna Xalq Komissarları Şurasının sədri Rakovski Müttəfiq dövlətlərə bir nota göndərib Cənubi Rusiya limanlarının bitərəf elan edilməsi təklifində bulunmuşdur.

**İtaliyalılar və bolşeviklər**

Yekaterinodardan xəbər verirlər ki, İtaliya Cümhuri firqəsinin Mərkəzi Komitəsi İtaliya Sosialist İttifaqı Direktoriyası ilə bolşevizm əleyhinə manifest elan etmişdir.

**General Franşeyə sui-qəsd**

İyunun 4-də Odessadan verilən bolşevik xəbərlərinə görə, fransız saldatları general Franşe D'Esperiyə sui-qəsd etmişlərdir. General qolundan yaralanmışdır.

**Müttəfiqlər və Dabravollar Volqa boyunda**

Petrovskdan gəlmiş paroxod tayfalarının [gəmi işçilərinin] məlumatına görə, orada rəsmi surətdə məlumat alınmışdır ki, Hacı-Tərxana [Həştərxana] desant çıxarmaq üçün Dabravol qoşunu ilə Hacı-Tərxana əzimət etmiş [getmiş] olan gəmi Volqaya daxil olub, orada düşmən gəmilərinə təsadüf etməmişlərdir. Bu da təsdiq edir ki, bolşevik gəmiləri Volqanın yuxarı hissələrinə çəkilmişlərdir.

**Odessada**

Odessadan İstanbula gəlmiş olan şəxslərin rəvayətinə görə, rəsmi dairəyə mənsub olan bir nəfər əcnəbi xəbər verir ki, Cənubi Rusiyada bolşevizm gün-gündən düşür və şimdi oralarda anarşiya əmələ gəlməkdədir. Odessa dairəsində bolşevizm müxtəsər bir qüvvənin qarşısında da dayana bilməyəcəkdir. Odessanı 1500 nəfər Çin qoşunları mühafizə edir. Mayın 15-də Odessada yəhudi talanı başlanmışsa da, lakin sonradan dayandırılmışdır.

**Məxlu Məhəmmədəli şah**

Odessadan bolşeviklərin əlindən xilas olub da İstanbula gələnlər xəbər verirlər ki, məxlu [taxtdan salınmış] Məhəmmədəli şah [Qacar] hal-hazırda Prins cəzirəsindədir.

**Müxtəlif xəbərlər**

- Tiflisdə müntəşir [nəşr olunan] "Borba" qəzetəsi Zaqafqaziyaya İtaliya qoşunlarının gəlməsindən böylə məlumat almışdır:

Zaqafqaziyada olan ingilis qoşunları əvəzinə İtaliya qoşunlarının gəlməsi məsələsi Paris Konfransında həll edilmişdir. Deməli, mükəmməl surətdə qoşunlar təbdil olunacaqlardır [dəyişdiriləcəkdir]. İtaliya qoşunları Zaqafqaziya səfərinə hazırdırlar. Qoşunların gəmiyə minmələri bu günlərdə qurtaracaqdır.

- Zaqafqaziyaya yeni ingilis hissələri gəlmişdir ki, vətənlərinə gedən ingilis əsgərlərinə əvəz olsunlar.

- Batumdan gəlmiş olan bir şəxs bəyan edir ki, Novorossiyskdən alınan məlumata görə Tsaritsının dabravollar tərəfindən işğal edilməsi təyid [təsdiq] olunur. Hakəza [həmçinin] dabravolların Feodosiyanı aldıqları da xəbər verilir. Dabravol qoşunlarının Krım yoluna yaxınlaşdığı üçün Yekaterinodar səmtində bolşevik-

lər Krımı təxliyə edirlər. Batum xəbərlərinə görə, Şura qoşunları Odessanı da təxliyəyə başlamışlarmış.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Daxiliyyə nazirinin Morul kəndi əhalisindən toplamış üşrü kənd icmasına qaytarmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Daxiliyyə Nəzarətinə tapşırılsın ki, Morul kəndindən toplanmış 623 pud ½ buğda, 141 pud 22 girvənkə arpa, 144 pud 31 girvənkə miqdarında darı Hərbiyyə Nəzarəti ilə etilaf [razılıq] üzrə Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] verilsin ki, həman kəndin füqəra sinifinə təqsim edilsin [paylansın].

* Daxiliyyə nazirinin sabiq polis müfəttişliyi katibi Fəxrəddin Kaşaninin Tumanyansdan aldığı 35.000 rublə sahibinə qaytarmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Daxiliyyə Nəzarətinə pulun qaytarılması üçün tədabir ittixazı [tədbirlər görülməsi] tapşırılsın.

* Daxiliyyə nazirinin Mərkəzi Əxzi-əsgər [Hərbi çağırış] idarəsi məxaricatı üçün 24.400 rublə buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyonluq fonddan istənilən məbləğ buraxılsın.

* Ədliyyə nazirinin Azərbaycan dəmiryollarında tətil vaxtlarında təbliğatda müttəhim edilənlərin işlərinin qət edilməsi ilə azad edilmələri haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Nikolay Kaspar, Nikolay Xarlamov, Savileviç, Bortsov, Fyodorov, Zaqunov, Basovun işləri qət edilməklə azad edilsinlər.

* Rəisi-vükəlanın [Baş nazirin] sabiq Maarif naziri müavini [Həmid bəy] Şahtaxtlıya para vermək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyonluq fonddan Şahtaxtlıya, özünə vəzifə ixtiyar edənədək məvacibi 5.000 rublə borc olmaq üzrə verilsin. İyul ayı üçün o vaxt verilə bilər ki, müşarünileyh [adı çəkilən şəxs] özünə vəzifə tapmamış olsun. 1918-ci sənəsinin dekabr ayında verilmiş maaşı o məbləğdən çıxmalı.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Baş Fabrika müfəttişi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, Nobel qardaşlarının 3-cü müdiri Eyqenson nam [adlı] mühəndis fəhlələr tərəfindən xidmətindən əzl [kənar] edilmişdi. İyunun 18-də Baş müfəttişlə fəhlələrin müştərək iclaslarında məsələ müzakirə olunaraq qət edilmişdir ki, Eyqensonun işini təhqiq üçün xüsusi bir komisyon təşkil edilsin. O vaxtadək Eyqenson öz xidmətində qala biləcəkdir. Müfəttiş məlum etmişdir ki, fəhlələr öz işlərinə şüru etmişdirlər [başlamışlar].

- Məsai Nəzarətinin Bakıdan nəfy [sürgün] edilmiş Çurayev, Koval və digərlərinin qaytarılması barəsində verdiyi isticvabına [sorğusuna] cavabən Daxiliyyə Nəzarəti məlum etmişdir ki, hələlik onların qaytarılmasına Daxiliyyə Nəzarəti icazə vermək fikrində deyildir.

**Ədliyyə Nəzarətində**

Ədliyyə Nəzarəti cənbində [nəzdində] təşkil edilmiş Cinayət məhkəməsinə ictimai ənasirin [ünsürlərin] də düxulu məsələsi vicdan həkəmləri [arbitrləri] düxulu ilə xitampəzir olmuşdur [yekunlaşmışdır] ki, qanun layihəsi kimi tərtib verilərək bütün Azərbaycan dairəsində qullanmaq üçün əmr veriləcəkdir.

İşbu layihə komisyonun açıq iclasında müzakirə ediləcəkdir. Vicda[n həkəmlərinə] bütün 25 yaşına çatmış, məhkəmədə müttəhim edilməmiş erkəklər qəbul edilə bilərlər. Fəqət onların rusi [rusca] yaxud türkcə bilmələri şərtdir. İşbu işdən hərbi xidmətdə olanlar, polis məmurları, məhkəmə müəssisələri, dava vəkilləri, dövləti və ictimai müəssisələr həkimləri, istiqraz müəssisələrinin xəzinədar və kassirləri azad edilirlər. Dəvət ediləcəklərin siyahısı müsalihə [sülh, barışıq] məhkəmələri dairələrində müsalihə məhkəməsi rəisi təhti-nəzarətində [nəzarəti altında] tərtib verilərək qəza komisyonlarına verilir. Orada nahiyə məhkəməsi üzvü təhtinəzarətində vicdan həkəmləri təyin edilirlər. Hər məhkəmədə 33 nəfər olacaqdır. Hər işə baxmaq üçün işbu 33 nəfərdən püşk ilə 8 nəfər intixab edilirlər [seçilir], 1 nəfər də ehtiyat üçün intixab edilir. İşbu 9 nəfər işə baxır.

İclası cinayət məhkəməsi üzvü aparır. Məzkur [deyilən şəxs], iş zamanında hüquq məsələsindən dolayı baş qalxızacaq məsələləri şəxsən həll edir. Vicdan həkəmlərinin odaları ayrı olduğu kimi, sədrdən və xalqdan da ayrı olurlar. Fəqət işin istimasından [dinlənməsindən] sonra sədr ilə çıxaraq məsələni əksəriyyəti-səda [səs çoxluğu] ilə qət edirlər.

Həkəmlər məhkəməsinə bütün ixtiyardan məhrum olmaq kimi nəticələri ola biləcək işlər verilir. Buraya dövləti cinayətlər də daxildir; mətbuat işləri və məmurin [məmurlar] əleyhinə görülən işlər – ki bu vaxtadək Rusiyada onların ixtiyarından alınmışdı. Məhkəmə isə fəqət qəlp pul kəsmə, qiymətli kağızlar çap etmək və dünyəvi cinayətlər yapmaq kimi işlərə baxacaqdır. Bütün işlər müttəhimin və yaxud onların vəkili vasitəsi ilə Palataya verilə biləcəkdir.

## QARABAĞDAN

Azərbaycan Cümhuriyyətinin və türk millətinin azadlığını və istiqlaliyyətini boğmaqdan ötrü üstümüzə hücum edən qara qüvvələrin çarəsinə və tədbirinə nə qədər əhəmiyyət verilmək lazım isə, bir o qədər də Qarabağa, Qarabağ məsələsinə etina və əhəmiyyət verməyi vacib bilirəm. Çünki 5-6 ay tamam Qarabağda olub və Qarabağın həyati-ictimaiyyəsini, əhalinin amal və əfkarını [arzu və fikirlərini] öyrənib və Qarabağ məsələsi ətrafında işlənilən siyasətləri təcrübə ilə anlayıb həddi-yəqin ilə [əminliklə, qətiyyətlə] təkrar edirəm ki, Qarabağ məsələsinə gərək pək artıq əhəmiyyət verilsin.

İndi bu saat Qarabağda ermənilər müsəlmanlarla genə də dava başlayıblar. Genə də kəndlər yandırılıb, evlər talan

edilib, insanlar heyvan sifəti gətirib, əllərində silah yolları kəsdirib yüz illərcə qapıbir qonşuluqda yaşadıqları əmi oğlu, xala oğlanlarını qırırlar. Dava zamanında hər iki tərəf biri-birinin yoxluğuna, puç olmasına tədbirlər qurub çalışırlarsa da, amma hər iki tərəf bunu həmişə zikr edirlər ki: "Genə də Allah şeytana lənət eyləsin. Bizi dinc, farağat yaşamağa qoymayırlar."

Hər kəs Qarabağın halını, övzasını [vəziyyətini], qarabağlıların istədiklərini bilmək istərsə, gərək Qarabağ xalqı ilə danışsın, bilafərqi-məzhəb [məzhəb fərqi olmadan] həm erməninin və həm də müsəlmanın kəndçisi, zəhmətkeşi ilə danışsın və sonra da bilsin ki, həm Ararat hökuməti öz [Mixail] Arzumanyan, Tiqranyan, Şaxnazaryanları ilə və həm də bunları təşviq və təhrik edənlər Qarabağın insancasına zindəganlığını [yaşayışını, dolanışığını], qarabağlıların səadət və asayişini istəməyirlər.

Bu davadan qabaq hər yekşənbə [bazar] günü Ağdam bazarına iki-üç min nəfər erməni gəlib bazarın alış-verişinin 90 prosenti [faizi] ermənilərin əlində idi. Bazarda satanların da, alanların da əksəri dağ tərəflərdən gəlmiş ermənilər idi. Ermənilər bazara kömür, göyərti, xalça, palaz və şallar, taxta və odun və sair bu kimi şeylər gətirib satıb, əvəzində müsəlmanlardan arpa, buğda, darı və sair yeyinti şeylər alıb aparırdılar. Çox zaman olurdu ki, hökumət nümayəndələri qaçqınlar üçün, əsgərlər üçün və ya sair idarələr üçün qalləcat [taxıl məhsulları] almaq istəyəndə ermənilərin əlindən bazardan heç bir şey tapa bilməyirdilər.

Bir dəfə müsəlman dükançı ilə bir nəfər erməni müştərinin böylə bir müsahibəsinə rast gəldim. Dükançı: "A balam, ay qonşu, bu gün bazardan azına bir milyon manatlıq buğda, arpa alıb aparmısınız. Amma özünüz də Azərbaycan hökumətinə tabe olmaq istəməyirsiniz. Hərgah, bu hökumət sizin olaydı və çörək də sizdə olaydı sizin hökuməti tanımaq istəməyənlərlə siz də böylə rəftar edərdinizmi?"

Erməni: "A canım! Doğru sözü gizlətmək heç insaf deyil. Hərgah, siz müsəlmanların çörəyi olmasa, heç bir nəfər erməni öz çörəyi ilə dolana bilməz. Genə, Allah sizdən razı olsun ki, siz bu qədər insaflısınız. Allah mərdimazara lənət eyləsin. Bizə nə qalıb ki, oturub Azərbaycanla dava edək? Çörəyimiz ondan, dolanışığımız ondan. Hər kəs ki, istəmir, qoy, getsin İrəvana. Amma bir neçə nəfər mərdimazarlar yığışıb gündə bizə bir hökm yazıb min cürə fokuslar çıxardırlar. Hər kəs gəlir deyir pul ver, amma heç bir nəfər gəlib çörək vermir. Hələ, buyruq buyurur. Deyir ki, komitet belə buyurur."

Həqiqətdə də belədir. Qarbağda hökumət məsələsini həll etmək üçün nə top-tüfəng, nə də diplomatlıq lazım deyildir. Qarabağlılar ancaq buna qərar versələr ki, hər kəs öz çörəyi və öz pulu, ticarəti ilə dolansın o vaxt məsələ bir az vaxtda özü özbaşına həll edilər. Budur, neçə zamandır ki, erməni mahallarına müsəlmanların yolu bağlıdır. Qaryagin, Xaçın, Gorus və sair erməni kəndlərinin içindən keçən yollar hamısı müsəlmanlar üçün bağlıdır. Amma Yevlaxdan Şuşaya kimi şose yolu ermənilər üçün nəinki açıqdır və hətta onların əmniyyəti, səlaməti üçün Qarabağ hökuməti tərəfindən





xüsusi tədbir, xüsusi sərəncamlar da görülmüşdür. Hərgah, vaxtilə bu tədbirlər, bu insancasına sərəncamlar ermənilər tərəfindən dəxi görülsəydi və gəmidə oturub gəmiçi ilə dava edilməyə yol verilməsəydi, nə bugünkü qovğalar qopmazdı, nə də həmişə sülhpərvər müsəlman kəndçilərini məcbur etməzdilər ki, axırda özləri üçün əllərində silahla yol açmağa qədəm qoysunlar.

Bunu hər kəs bilir ki, insana çörək, su lazım olan kimi Qarabağın aşağı tərəflərində, aranlarında yaşayan müsəlmanlar üçün də yay fəslində yaylaqlara köçmək lazım və vacib bir məsələdir. Hərgah müsəlmanları yayda otlaqlara, dağlara buraxmazlarsa, onların canlarına, mallarına qəsd etmək deməkdir. Bu əhvalatı ermənilər özləri də bilib təsdiq edirlər və hətta ermənilərin Şuşada olan beşinci syezdləri də bunu bilib qərar vermişlər ki, gərək müsəlmanlara köç yolu verilsin. Bunuyla belə, Cavanşir, Qaryagin və Zəngəzur yolları genə də köç üçün açılmayıbdır. Bir tərəfdən müsəlmanlara deyirlər ki, köçərilərin əmniyyəti, səlamətliyi təmin edilmişdir, o biri tərəfdən yolları açmayırlar. Odur ki, axırda camaat təngə gəlib, indi hərə özü öz başına çarə qılmaq fikrinə düşüblər. İndi bu saat camaat içində çox böyük danışıq vardır. Hər yerdən, hər mahaldan adamlar gəlib Qarabağ hökumətindən xahiş edirlər ki, onlara öz təbii yolları ilə getməyə izin verilsin. Onlar heç bir siyasi və hökuməti işlərə qarışmaq istəməyirlər. Ancaq bunu istəyirlər ki, öz yolları ilə yaylaqlarına keçsinlər.

Bu iş zahiri nəzərlə çox da mühüm görülməyirsə də, amma Qarabağın əhvalına xəbərdar olanlar biləcəklər ki, bu məsələ Qarabağ üçün həyat-məmat [ölüm-qalım] məsələsidir. Ona görə də, məsləhət olardı ki, hökumətimiz bu barədə ciddi bir sərəncam görüb məsələyə artıq əhəmiyyət versin.

Çox şükürlər olsun ki, Şuşada və yavuq kəndlərdə yandırılmış bir balaca alovu Qarabağ qubernatoru artıq səy və kuşişlərlə [çalışmaqla] söndürə bildi. Amma bu alov böyüyüb ətraflara dağılarsa, yəqinimdir ki, nə qubernator və nə də başqaları bu bəlaya heç bir çarə tapa bilməyib, içindən çox böyük fənalıqlar nəşət etməsin [əmələ gəlməsin]. Hər halda ciddi tədbirlər lazımdır.

*Məhəmməd Sadıq [Aran]*

**Bədət-təhrir:** Vüquat [hadisələr] qəbilindən bunu xəbər verə bilərəm ki, Daşkənd denilən bir erməni kəndindən müsəlləh [silahlı] ermənilər Ağa körpüsü tərəfdən Şuşa yolunun qabağına çıxıb yol ilə gəlib-gedənləri güllələbaran edirlər. Bir neçə gün bundan əqdəm [qabaq] şəhərə un və buğda gətirən bir malıbəylili furqonçunun qabağını kəsib güllələbaran edəndən sonra furqonun atlarını açıb aparmışlar. Furqonda gələn un və buğda qubernator tərəfindən erməni qaçqınları üçün gətirilirmiş. Yolu kəsənlərin başçısı bir neçə gün bundan qabaqlara kimi Ağa körpüsü denilən qaraqol postunda uryadnik [polis məmuru] vəzifəsini ifa etməkdə idi. Şəhərdə şuluqluq düşən kimi həmin uryadnik Muxan da öz atını və tüfəngini götürüb, həman Daşkəndə qaçıb orada quldurlar dəstəsinə sərkərdə olubdur. Amma əsil həqiqətə baxsaq görərik

yalnız Qarabağda deyil, bəlkə ümum Azərbaycanda hökumət xidmətlərində minlərcə Muxan kimi qulluqçular vardır ki, bu gün hökumətdən məvacib alıb, qulluq edib, sabah hökumətin düşməni olub yolkəsən olurlar. Buna da gərək bir çarə edilsin.

*M[əhəmməd] S[adıq] [Aran]*

## MƏSAİ NAZİRİ HƏZRƏTLƏRİNİN NƏZƏRİ-DİQQƏTLƏRİNƏ

Sevgili yurdumuz Azərbaycanın müdafiəsi üçün alınan əsgərlər cümləsində öylə şəxslər dəxi gedirlər ki, banklarda, Xəzinədə, Palatada və başqa bu növ idarələrdə qulluq edirlər. Məzkur [deyilən] qulluqçular millətimizin ziyalı qismini təşkil etdiklərindən, sevgili vətəninə və millətinə xaricdən gələn təhdidi və təhlükəni hamıdan əvvəl düşünüb, baha qiymətə alınmış istiqlaliyyətini daimi surətdə əldə saxlamaq üçün gülər üzlə əsgərlər sırasına dururlar. Məzkur məmurların əksərinin dolanacağı, qulluq etdikləri idarələrdən aldıqları maaşla olduğu həpimizin məlumudur.

Sabiq rus hökumətinin qanunu mövcibincə [qanununa görə], əsgərliyə alınmış bir məmura qulluq etdiyi idarə özünə birdəfəlik və ailəsinə hər ay məmurun aldığı paranın yarısını verirdi. Fəqət, şimdi nədənsə fövqəlzikr [yuxarıda adı çəkilən] idarələr əsgər düşən müsəlman qulluqçularına nəinki birdəfəlik para və yaxud ailəsinə hər ay başında para verməyirlər, hətta məmurun bir ayının maaşını verməkdən belə imtina edirlər. Bundan dolayıdır ki, məmurların ailələrinin halı maddətən pək fəna bir surət kəsb edir.

İşbu idarələrin məmurlar haqqında bu tövr rəftarda bulunmalarını möhtərəm Məsai Nazirinin nəzər-diqqətlərinə yetirib, min-bəd [bundan sonra] böylə fəna rəftarların önü alınmasını istida [xahiş] və arzu edərdik ki, müqəddəs vətəninin müdafiəsinə çıxan işbu möhtərəm zəvatların [şəxslərin] halları nəzərə alınıb, ailələrinin yaşayışı nəinki birdəfəlik, bəlkə əbədi olaraq təmin olunsun.

*Bir nəfər məmur*

## BAKI XƏBƏRLƏRİ

**Yeni bir qəzetə**

"Əhrar" firqəsinin mürəvvici-əfkarı [fikirlərini yayan orqanı] olmaq üzrə bu yaxınlarda Bakıda "El" adında bir qəzetə çıxmağa başlayacaqdır. Bu qəzetə sadə türk dilində olub, hələlik həftədə bir dəfə çıxacaqdır.

**Milliləşmiş məkatib üçün kitab təlifi**

Gələcək təhsil sənəsi üçün məkatibdə [məktəblərdə] tədrisat kitabları hazırlamaq üçün Ziyalılar İttifaqının Maarif şöbəsinin təşəbbüsatı ilə Maarif naziri müavini Nurməhəmməd Şahsüvarovun iştirakı ilə bir neçə gün bundan əqdəm [qabaq] müəllimlərin müşavirəsi olmuşdur. Müşavirədə qət edilmişdir [qərara alınmışdır] ki, gələcək sənə üçün tədrisat kitabları hazırlayacaq müəllimlərdən xüsusi komisyonlar təşkil edilsin. Riyaziyyat, tarix və coğrafiya, tarixi-təbii və ədəbiyyat komisyonları təşkil edilmişdir ki, fəaliyyətə başlayaraq kitablar təlif edirlər [yazırlar]. Komisyonlarda 30 nəfərdən ziyadə müəllim iştirak etməkdədir. Birinci Realnı məktəbi mülkü komisyonun ixtiyarına verilmişdir.

**Yeni Maarif naziri**

Aldığımız məlumata görə, məşhur İstanbul Darülfünunu [Universiteti] professoru [Rəşid xan] Qaplanov həzrətləri Maarif nazirliyinə təyin edilmişdir.

**Lənkəran ətrafında**

Bir neçə gün bundan əqdəm bir nəfərin dediyinə görə, rus Astarasını işğalən bir çox kəndlərin dağılmasını yazmışdıq. Yeni aldığımız məlumata görə, Ramazan öz dəstələri ilə Lənkəran qəsəbəsinin 7 verstliyində vaqe Dəlli kəndini işğal etmişdir. Lənkəran bolşevikləri qəsəbədə 18-dən 25 yaşınadək səfərbərlik elan etmişdirlər. Bəndərdə [limanda] durmuş "Milyutin" vaporunu bolşeviklər qaçmaq üçün hazırlamışdırlar. Fəqət uzaq qaçammayacaqları ehtimal edilir. Zira vaporda bir az mazut vardır ki, uzaq getməyə kifayət etməyəcəkdir.

**Cəmiyyəti-Maarifi-İraniyan "Tərəqqi"**

May ayının 30-u Fəhlə Klubunda Cəmiyyəti-Maarifi-İraniyan [İranlıların Maarif Cəmiyyəti] "Tərəqqi" idarəsi tərəfindən həvəskarlar iştirakı ilə "İntiqami-həqiqi" faciəsi mövqeyi-tamaşaya qoyulub zeyldəki [aşağıdakı] məbləğ hasil olmuşdur.

Mədaxil: Bilet satışından 14.240 manat, məramnamə satışından 263 manat 50 qəpik, ianə 975 manat. Cümlətan: 15.473 manat 50 qəpik.

Məxaric: Hökumət vergisi 2.653 manat 30 qəpik, başqa xərclər 2.059 manat. Cümlətan: 4.713 manat.

Cəmiyyəti-Maarifi-İraniyan "Tərəqqi" "İntiqami-həqiqi" teatrosunda hər növ müavinət edən zəvata [kömək edən şəxslərə], xüsusən Heydər Əlizadə, Ağahəsən Möhsünzadə, Ələkbər Tağızadə və Qulam Cabbarzadə cənablarına təşəkkür edir.

*İdareyi-Cəmiyyəti-Maarifi-İraniyan "Tərəqqi"*

## AZƏRBAYCANDA

**Kuban ilə mal mübadiləsi**

Azərbaycan Ticarət, Sənaye və Ərzaq Nəzarəti mal mübadiləsi və ticarəti [ticari] əlaqə başlamaq barəsində Kuban hökuməti ilə etilafa [razılığa] girişmişdir. Kuban hökuməti arzu etmişdir ki, möhkəm qiymətlə Azərbaycandan cövhər [kerosin], benzin, mineral və çarx yağı, səbzə, düyü və pambıq istəyir. Öz növbətində, Kuban hökuməti Azərbaycana 36 manat 25 qəpikdən pudu buğda, 32 manat 50 qəpikdən roj [çovdar], 31 manat 90 qəpikdən çəltik, 31 manat 90 qəpikdən arpa, 32 manat 50 qəpikdən peyğəmbəri buğdası təklif edir. Bu barədə Ticarət Nəzarəti Bakı Neftçilər İctiması sədrinə, Ticarət Sənaye İttifaqına, Birja Komitəsinə, Nəqliyyat Cəmiyyəti İttifaqına müraciət edərək təvəqqe edir məlum etsinlər ki, yuxarıda zikr edilən mallardan nə miqdarda və nə fiyatla Batuma mal mübadilə əvəzinə göndərmək olar.

**Lənkərana hücum etmək şayiələri**

Bu günlərdə bolşeviklərin zəifliyindən müstəfid olan [istifadə edən] İran kazak ərkani-hərbi[nin] [hərbi qərargahının] Lənkərana hücum etmək tədabir [tədbirləri] və hazırlıqları şaiyatı ciddi surətdə dövran etməkdədir. Bu günlərdə bolşeviklər qorxusundan qaçan gömrük rəisi Lijonun məiyyəti [müşayiəti] ilə güclü kazak qüvvəsi gözlənir. Bunlar rus və İran Astarasının quldur dəstələrinin köməkliyi ilə Lənkəranı almaq xəyalındadırlar. Sahibsiz və kimsəsiz qalan bu yerin gələcək zəhərli dəqiqələri müşahidə edilməkdədir. "Hər koca səng ayəd, be paye ləng ayəd" misrasının misdaqınca [təsdiq etdiyi kimi], şu zavallı vilayətin axırda bitbirə tapdağı olacağı çəkiləcək bir dərd deyildir.

*Qəmkeş*

**Dağ kəndləri**

Beş-altı ay bundan irəli Quba uyezdində bulunan dağ kəndliləri hökumətə müraciət edib özlərinin Bakı üstündə yazılmalarını xahiş etmişlərdi. Çünki dağ kəndlərinin istər iqtisadca, istər məişətcə əlaqələri Qubadan artıq Bakı ilə olur. Buna görə özlərinin Bakı uyezdinə daxil edilmələrini rica etmişlərdi. Hökumət də onların işbu ricasını sərəncamsız buraxmayıb onları Bakı kəndləri üstünə daxil etmişdir.

Bu günlərdə dağ kəndlərinin mərkəzi bulunan Sayad Xızı "Müsavat" şöbəsi Bakı Mərkəzi Komitəsinə müraciətlə dağ kəndlərində Səhhəti-Ümumiyyə Nəzarəti tərəfindən bir xəstəxana açılmasını rica etmişlər. Əlavə olaraq, Sayad Xızı kəndində bir posta idarəsi, bir də ibtidai məktəb güşad edilməsini [açılmasını] istəmişlərdir.

Məlumdur ki, bu vaxtadək oralara mədəniyyət heç bir növlə sövq edilməmiş. Fitrətən qeyri kənd əhalisindən zəki olan dağlılar mədəni həyata yaxınlaşmağa təşəbbüs etməkdədirlər. Bu təşəbbüslərini birinci dəfə Bakı uyezdinə daxil olmaqla, ikincisi orada "Müsavat" firqəsinin şöbəsini güşadla, üçüncü "Müsavat" vasitəsilə postaxana, məktəb və xəstəxana kimi mədəni müəssisələr tələb etməklə bildirməkdədirlər. "Müsavat" firqəsi məktəb açmaq barəsində Maarif Nəzarətinə, postaxana üçün Posta və Teleqraf Nəzarətinə, xəstəxana üçün də Səhhəti-Ümumiyyə Nəzarətinə müraciət edib, tezliklə onların xahişinə əməl edilməsini rica etmişdir. Ümid var ki, bu yaxınlarda arzu edilən mədəni müəssisələr Sayad Xızıda açılsın. Bununla bərabər, Ərzaq Nəzarətinə də müraciət edilmişdir ki, dağ kəndlərinə ərzaq xüsusunda müavinət etmək üçün orada bir də ərzaq şöbəsi açılsın.

## GÜRCÜSTANDA

**Qaqrada**

Gürcüstanda olan Yunan Milli Şurasına Qaqrada yaşayan yunanlardan böylə bir teleqraf gəlmişdir:

*"Mayın 25-də ermənilər və Dabrovol dəstələri Salyami kəndini bombardman etmişlər. Əhali qorxu ilə qaçmışdır. Sonra yunan təbəələrinin hər bir müxəlləfatı [əşyası] qarət edilmişdir. Bir çox qızlar oğurlanıb üç nəfər kişi aparılmışdır. Oğurlanan qızların, kişilərin və qarət edilən şeylərin tezliklə tələb olunmasını xahiş edirik. Bu barədə Yunanıstan hökumətinə xəbər verməyiniz dəxi xahiş olunur. Sizdən acizanə rica edirik, bu tövr hərəkət əleyhinə mümkün qədər tezliklə tədbirlər görəsiniz".*

## TƏKZİB

Türkcə "Azərbaycan" qəzetəsinin 10 iyun 110-cu nömrəsində Ümuri-Xeyriyyə Nəzarətinin [Sosial Təminat Nazirliyinin] Rus Milli Şurasına müraciətlə gömrükxana mühafizə dəstəsi təşkil edilməsi haqqında yazılan fəqərə [hadisə] münasibəti ilə Ümuri-Xeyriyyə Nəzarəti lazım bilir xəbər versin ki, həman məsələ səhv olmuşdur. Rus Milli Şurası işsizlərə təxsisat verilməsi [pul ayrılması] üçün dəfələrlə Nəzarətə müraciət etdiyinə görə, Ümuri-Xeyriyyə Nəzarəti işsizləri hesaba almaqdan ötrü işsizlərin siyahısını Rus Milli Şurasından istəmişdi. Bu cür siyahı verildikdən sonra Nəzarət Bakı Gömrükxanasında 40 gözətçi (dasmotrçik) və qeyri qulluqçuların ştatı artırılması haqqında keçən ay mayın 23-də Vükəla Şurasının [Nazirlər Kabinetinin] qətnaməsini Rus Milli Şurasına xəbər verib zənn etmişdi ki, siyahıda göstərilən adamlar ehtiyac içrə olduqlarına görə lazımi istidada bulunarlar [müraciət edərlər]. Vəilla [yoxsa], rus qulluqçuları cəm edilməsi haqqında heç bir söz olmamışdır.

*Ümuri-Xeyriyyə və Nafiə şöbəsi naçalniki (imza)*

**İtibdir**

Rəşid Nəsrulla oğlunun əsgərlikdən azad olmaq vəsiqəsi itib, etibardan saqitdir [etibarsızdır].

*10252*

**Şüvəlanda**

Hacıyevin bağında iyul ayının birindən etibarən (ali təhsil görmüş) ali məktəbin müəllimi dərs verəcəkdir. Xahiş edənlər iyulun 1-nə qədər bu adresə müraciət edə bilərlər: Nikolayevski küçə, diş həkimi Hamburqun mənzili, telefon nömrə 5-96, Parlaman qarşısında.

*10253*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

Moskvada təcrübə görmüş diş həkimi **K. S. Kolandskaya-Sanuxat** kabinə açmışdır. Müalicə edir, dişləri doldurur, süni dişlər qayırır və dişləri ağrısız çəkir. Qiymət münasibdir. Qəbul edir: Hər gün səhər saat 9-2-yədək; aşxam saat 5-7-yədək. Adres: Bazarnı və Suraxanski küçələrin küncündə, nömrə 112.

*8795*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi R. S. Fuks**

Qəbul edir: 9-dan 10-a dək; 5-dən 7-yə dək. Ünvan: Mariinski, nömrə 18. Ferdinandın aptekası ilə bərabər. Telefon nömrə 34-15.

*10202*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*8798*

**Rus çayı**

Xırda-xırda çox miqdar qiymətinə satılır. İ. V. Denisovun bankir kantorasında (Olqinski və Nikolayevski küçələrin küncündə; telefon nömrə 37-75).

*10245*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 413. "Yamburq": Rusiyanın Leninqrad vilayətində Kinqisepp şəhərinin köhnə adı.

"Qdov": Rusiyanın Pskov vilayətində şəhər; qəzetdə "Qdov" yerinə səhvən "Qzov" getmişdir.

səh. 414. "həbəş imperatriçəsi və vəliəhdi": 1916-1930-cu illərdə Həbəşistan imperatriçəsi olan Zauditu və eyni dövrdə səltənət naibi olan Teferi Mekonnın nəzərdə tutulur.

"Menelik": 1889-1913-cü illərdə Həbəşistan imperatoru olan II Menelik nəzərdə tutulur; 1916-1930-cu illərdə Həbəşistan imperatriçəsi olan Zauditu, II Menelikin qızı idi.

səh. 415. "Haller alayının əsgərləri": Polşa generalı Yozef Hallerin qoşunu nəzərdə tutulur.

**Sülh ətrafında**

səh. 417. "Vilhelmştrasse" [Wilhelmstraße]: Berlinin mərkəzi küçələrindən biri. XVIII əsrdə Prussiya kralı olan I Fridrix Vilhelmin şərəfinə adlandırılmışdır. Almaniyanın bir sıra vacib dövlət qurumları bu küçədə yerləşmişdir.

"imperiya kançleri [sarayı] qarşısında": Almaniyada imperiya dövründə icraedici hakimiyyətin başçısı, Veymar Respublikası və Üçüncü Reyx dövründə Hökumət başçısı reyxkansler, yəni imperiya kansleri [Reichkanzler] adlanırdı. Reyxkanslerin sarayı Reyxkanselyariya [Reichkanzlei] Berlində Vilhelmştrasse küçəsində yerləşirdi.

"Macarıstan Şura Cümhuriyyəti" (Macarıstan Sovet Respublikası): Macarıstanın bəzi ərazilərində 1919-cu ilin 21 martından 6 avqustuna qədər mövcud olmuş siyasi qurum.

**Türkiyədə**

səh. 417. "16 həziran sabahı": qəzetdə səhvən belə getmişdir: "16 həziran 22 sabahı".

**Türkiyədə**

səh. 418. "16 həziran tarixli və 202 nömrəli": qəzetdə səhvən belə getmişdir: "16 həziran və 22 tarixli və 202 nömrəli".

**Qəzetələrdən**

səh. 419. "Prins cəzirəsi" (yaxud Prins adaları): Mərmərə dənizində, İstanbul sahilinə yaxın 9 adadan ibarət arxipelaq.

**Vükəla Şurasında**

səh. 420. "üşr": kənd təsərrüfatı məhsullarından onda bir miqdarında alınan dini vergi.

"kənd icmasına qaytarmaq": qəzetdə "icmasına" yerinə "ictimasına" getmişdir.

**Nəzarətlərdə**

səh. 420. "Baş Fabrika müfəttişi": Sənaye müəssisələrində əmək şəraitinə nəzarət edən dövlət qurumu Fabrik Müfəttişliyinin baş müfəttişi.

**Qarabağdan**

səh. 423. "Bədət-təhrir": "yazandan sonra"; P. S.

**Azərbaycanda**

səh. 426. "Hər koca səng ayəd, be paye ləng ayəd": "Hara daş atılsa, axsaq ayağa dəyər" (farsca)

**Təkzib**

səh. 427. "10 iyun 110-cu nömrəsində": burada qəzetin nömrəsi səhv göstərilmişdir; gömrük mühafizəsinə rusların işə dəvət edilməsi haqqında məlumat, qəzetin 10 iyun tarixli 200-cü nömrəsində, "Bakı xəbərləri" daxilində "Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqında" yazısında getmişdir.


آذربایجان

اعلان

تلغراف خبرلری

*"Azərbaycan" qəzetinin 211-ci nömrəsinin 1-ci səhifəsi*





**Çərşənbə, 25 iyun 1919-cu il, nömrə 211**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 26 ramazanül-mübarək sənə 1337. 25 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalətın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## ELAN

Azərbaycan Dəmiryol İdarəsi elan edir ki, Türüq və Məabir Nəzarətinin binagüzarlığına binaən [Nəqliyyat və Rabitə Nazirliyinin sərəncamına əsasən], Batumda dərya kənarında 8 nömrəli evdə Azərbaycan Dəmiryolunun Ticarət acentəliyi açılır. Acentəlik su və dəmiryol ilə hər növ yüklərin komisyon, skladoçnı və tamojna müamilatı işlərini öhdəsinə götürür. Bazar qiyməti barəsində təfsilat məlumat verir. "Ceyms Moosen və kompaniyası"nın Liverpula, "Vestkon və Lorens" Londona, "Elerman Layn" Liverpula, "Makley və Makentaer" Qlazqoya, "Amerika-Livantiysk" yoluyla Londona olan yük kirayələri şəraiti [daşınması şərtləri] barəsində məlumat verir. Bakıda Mirbabayevin evində Olqinski və Merkuryevski küçələrin küncündə baqi [yerləşən] Bakı şəhər stansiyasının (telefon nömrə 29-97) dəxi eyni müamilatda bulunur. Bu stansiyanın Çornı-qorodda skladı dəxi var (telefon nömrə 14-57): Merkuryevski küçə ev nömrə 16, Mariinskinin küncündə. Həmin iyulun 12-sindən etibarən zeyldəki [aşağıdakı] qərar ilə komisyon vergisi alınır:

1-ci sinif biletdən 3 rublə;

2-ci sinif biletdən 2 rublə 25 qəpik;

3-cü sinif biletdən 1 rublə 50 qəpik.

Plaskart üçün dəxi bu qərar ilə vergi alınır.

Bundan əlavə, Bakı şəhər stansiyası barəsində olan qanun[un] 14[-cü] maddəsi təbəddülünə binaən [dəyişikliyinə əsasən], hər surətlə olursa-olsun baqaj, yük baqajının bu qərar ilə komisyon vergisi artırılır:

Hər bir kiftansiya mövcibiylə [qəbzə əsasən] göndərilən malların 10 putuna [qədər] 5 manat; 10 putdan yuxarı olarsa hər putuna 50 qəpik komisyon vergisi alınır və malları da əsl qiymətlə yerlərinə göndərir.

*T-153*

## TELEQRAF XƏBƏRLƏRİ

- Müttəfiqlərin Almaniyaya cavabı iyunun 16-da saat 6:50 dəqiqədə təqdim edilmişdir. Almanlara verilmiş olan möhlət iki gün də artırılmışdır. İyunun 23-də axşam saat 7-də Almaniya qəti cavabını verməlidir. Zahirən görünür ki, Almaniya

sülh mürəxxəsləri [nümayəndələri] sülhü imza edib-etməmək barəsində mütərəddid [qərarsız] bir haldadırlar və rəylərində ixtilaf vardır.

- Fransanın rəsmi dairələrində bu əqidədədirlər ki, hərgah Müttəfiqlər, ümumiyyətlə, Almaniyanı vadar etsələr, onlar sülhü imza edəcəkdirlər. Amerikalılar da hakəza [həmçinin] sülh müahidənaməsinin [sazişinin] imza ediləcəyinə ümidvardırlar. Axşam saat 8-də Almaniya mürəxxəsləri Parisdən Berlinə əzimət etmişlərdir [yola düşmüşlər].

- Çindən verilən son xəbərlərə görə, bu axır zamanlarda əhval yaxşılaşmışdır. Müttəfiq səfirlərin işə müdaxilə etmələri əhvalı yaxşılaşdırıb, orada həyat adi halına düşmüşdür.

- Almaniya və Avstriyada Müttəfiqlərin sülh müahidənaməsinə qarşı camaat dəhşətli nümayişlər yapmaqda davam edirlər.

- Müttəfiqlər Hollandiya hökumətinə müraciətlə təvəqqe etmişlər ki, Almaniya sülh müahidənaməsini imza etməyəcəyi təqdirdə, Hollanda hökuməti Almaniya ablukasında [blokadasında] iştirak eyləsin. Hollanda hökuməti Müttəfiqlərin bu təvəqqesini rədd eyləmişdir.

- Almaniyanın əks-təklifinə Müttəfiqlərin cavabı düşənbə [bazar ertəsi] günü Rantsauya təqdim edilmişdi. Eyni zamanda sülh müahidənaməsinə əlavə edilən təshihlər də təqdim edilmişdir. Hərgah 5 gün müddətində müahidənamə imza edilməzsə, general Foşun ordusu bilatəxir [dərhal] Almaniyaya qarşı hərb açacaqdır.

- Əfqan əmiri İngiltərə tərəfindən edilən mütarikə [atəşkəs] təklifinə cavab verməmişdir.

**Litva Məclisi-Müəssisanı**

Müvəqqəti hökumət təşkilatına başlayan Litva Məclisi-Müəssisan dəvətini təhti-qərara almışdır.

**Finlandiyaya fransız səfiri**

Böylə xəbər verilir ki, tez bir zamanda Helsinqforsa [Helsinkiyə] fransız səfiri təyin ediləcəkdir.

**Latviyada**

Müttəfiqlərin Ali Şurasında qəbul edilən qərara görə, Müttəfiqlərin hərbi heyəti başçısı general Qof ultimatum ilə nemes generalı [Rüdiger] fon der Qoltsa müraciət edərək bolşevik əleyhinə olan Liven qoşunları əleyhinə olan müharibəni kəsməyi tələb eyləmişdir. Liven hökuməti təşkili əleyhinə olan fəaliyyətin dayandırılması[nı] da həman generaldan tələb eyləmişdir.

**Omsk və Türküstan**

Omskdan xəbər verilir ki, Omsk hökumətinin başçısı [Pyotr Vasilyeviç] Voloqodski Türküstan Baş naziri və İkinci Dövlət Dumasının sabiq üzvü Məhəmmədcan Tınışbayevi hüzuruna qəbul eyləmişdir. Məhəmmədcan Omska bu günlərdə gəlibmiş.

**Bolşevik məlumatı**

Moskva - (20 iyun) Bakıdan varid olmuş [gəlmiş] yoldaş Kolomitsev böylə məlumat verir:

Bakı quberniyasının cənubi hissəsində 30 min camaatdan ibarət olan Muğanda Şura hökuməti təşkil edilmişdir. (?) Bu 30 min canın 70 faizi müsəlmanlardır. Muğan kənd[l]i qurultayı Qırmızı Moskvanı və 3-cü Beynəlmiləl Syezdi təbrik edir. (?)

**Bolşeviklərin Vyanada üsyanı**

Bolşeviklər Vyanada son yekşənbədə [bazar günündə] bir üsyan əmələ gətirmişlərsə də, müvəffəq olmamışlardır. Zira bolşevik firqəsi liderləri şənbə günü həbs edilmişlərdi. Onları həbsdən xilas etmək istəmişlərsə də, nəticədə atışma başlanıb bir neçə nəfər qətl edilmişdir.

- "Perolaner" qəzetəsi xəbər verir ki, Belçika əmələləri [fəhlələri] böyük mitinqlər tərtib verərək tətil elan etmişlərdir. Bunlar 8 saat iş vaxtı ilə məvaciblərinin artırılmasını tələb edirlər.

**Veymarda üsyan**

Nauen – Veymarda iyunun 17-də bir alay üsyan etmişdir. Bunlar Veymar həbsxanasına hücum edib məhbusları azad etmişlərdir. Sonra hökumətin sakin olduğu saraya tərəf yürüş etmişlərdir. Sonra üsyançılarla saldatlar arasında müsadimə [toqquşma] vaqe olub, üsyançılar qalib gəlmişlərdir. Nəhayət, general Markerin dəstəsi dəvət edilib üsyançıları sakit etmişlər və saray posta və teleqraf imarətini asilərdən almışlar.

**Riqada**

Dvinsk – Riqada nəşr olunan belıqvardilərin [ağqvardiyaçıların] qəzetəsi yazır ki, ərzaq qiyməti orada o qədər artıqdır ki, əhalinin əksəri ərzaq almaqdan bilkülliyyə [tamamilə] məhrum olmuşdur. Latviyada ərzaq işlərində dəxi mükəmməl nizamsızlıq vardır. Bolşevik dövründə olduğu kimi şimdi də orada ərzaq təşkilatı vardır.

Riqadan verilmiş olan məlumatdan anlaşılır ki, Riqada Könüllü qoşun səfərbərliyi çox süst gedir. Oradan qaçanların rəvayətinə görə, nemeslər 45 yaşınadək kişiləri səfərbərliyə almışlardır. Cəbrən [zorla] səfərbərliyə alınmış olan şəxsləri qabaq cəbhəyə göndərirlər. Bu təzyiqata görə onlar[ın] hissələri bizim tərəfə keçir.

Finlandadan verilən məlumata gö-rə, Fin boğazından irəliləməkdə olan Könüllülər Krasnı Qorkaya daxil olmuşlardır. Tabya [istehkam] bolşeviklərin 5 paroxodu və Kronştadt istehkamları tərəfindən bombardman edilir.

**Cənubi Rusiya cəbhəsində**

Tsaritsın cəbhəsində - Hücuma davam etməklə Dabravol ordusu mayın 30-da təzədən düşməni sındırıb Volqa nəhrinin geniş sahilinə çıxmaqla Tsaritsının 15 verstliyinə çatmışdır. Həman gün düşmən tərəfindən möhkəmlənən Tsaritsın cəbhəsi Kuban əsgərləri tərəfindən yarılıb bir neçə min nəfər əsir və külli miqdarda qənaimi-hərbiyyə [hərbi qənimət] alınmışdır. Sarepta, Çervlenni və Karpovka kəndləri işğal edilmişdir.

Don cəbhəsində - 9-cu bolşevik ordusu əsgərlərindən qalanları Don tərəfə qaçmaqla xilas olmaq istərkən, Kletsdən 20 verst cənub-qərbə tərəf rayonda ge-

neral Mamontovun Don dəstələri tərəfindən təzədən dağıdılmışlardır. General Bıkadorovun Don dəstələri Yuxarı Don əsgəri firqələrindən biri ilə bərabər Çistyakov[o], Krasnokut, Bolşoy kəndlərini işğal edib bolşevik əsgərlərini təqib etməkdədirlər.

Tokio - Yaponiyanın hərbi gəmiləri Nauenə gedirlər. Bu vaxta qədər Şanxay, Kanton və Xankouda yaponlara qarşı olan hərəkət şimdi başqa bir rəng alaraq ümumən əcnəbiləri təhdid edir. Çinlilər tərəfindən edilən boykota görə, Çin iskələlərində [limanlarında] seyri-səfain [gəmi naviqasiyası] işləri dayandırılmışdır.

**Yaltada üsyan**

London - Yaltadan xəbər verilir ki, işsizlikdən dolayı orada üsyan əmələ gəlmişdir. Üsyanı yatırtmaq üçün silahla iş görmək icab eyləmiş [lazım gəlmiş] və nəticədə üsyan yatırılmışdır.

**Şimal cəbhəsində**

Kopenhaqdan [Kopenhagendən] xəbər verirlər ki, İngiltərə əsgərləri Riqa xəlicinə [körfəzinə] çıxıb bolşeviklərlə müharibə etdikdən sonra bir neçə kənd işğal etmişlərdir. Petroqrad Şura hökuməti ciddi tədarük görməkdədir. Hökumət qət etmişdir ki, axırıncı imkana qədər şəhəri mühafizə etsin.

**Şimali Rusiyada**

Bolşeviklər Yuxarı Peçorı rayonunda Vıçeqdaya, Yarenskdən də Ust-Nevskiyə çəkilmişlərdir. İşğal edilən yerlərin əhalisi əsgərliyə alınır. Narva cəbhəsində eston əsgərləri Petroqradın 50 mil qərbində Moloskovitsini işğal etmişlərdir. Bolşeviklər Peypus nəhrinin şimali və qərbi sahillərində geri çəkilirlər. Odrov alınmışdır. Bir çox əsir və mühimmati-hərbiyyə alınmışdır. Almanlar təzədən Riqa üzərinə hücuma başlamışlardır.

**Cəbhələrdə**

*(Bolşevik xəbərləri)*

İyunun 20-də Qərb cəbhəsindən xəbər verirlər ki, Olonets səmtində əsgərlərimiz Olonetsin 25 verst şimal-şərqində Qorqi-Kinelaxtanı müharibə ilə almışlar. Hücumumuz davam edir. Novo-Svenç səmtində bizim dəstələrimiz düşmənin təzyiqi altında Dvinskin 35 verst cənubuna çəkilmişlərdir. Əsgərlərimiz tərəfindən əsir və əslihə [silah] alınmışdır.

Cənubi cəbhədə - Mariupol səmtində bizim dəstələrimiz Poloqi rayonunu və Noqayskın 100 verst şimalında Qulyaypoleni də işğal etmişlərdir. Yekaterinoslav rayonunda Sinelnikovonun 12 verst şərqində müharibə davam edir. İzyum tərəfdə düşmən zirehli qatar atəşi sayəsində Xarkovun 55 verst cənub-şərqində Şabelin mövqifini [stansiyasını] işğal etmişdir. Şərq tərəfdə Valuykinin 40 verst cənub-şərqində düşmən bir çox kəndlərdən çıxarılmışdır. Kalaçın 30 verst cənubunda bizim əsgərlərimiz Staraya Kriusanı tərk etmişlərdir. Tsaritsın [Volqoqrad] cəbhəsində bizim dəstələrimiz bütün cəbhə boyu hücuma keçib Beketovka kəndini işğal etmişlərdir. Şərq cəbhəsində Uralsk şəhəri düşmən tərəfindən top atəşinə tutulmuşdur. Orenburq rayonunda Novokindelka tərəfində düşmən hücumu dayandırılmışdır. Sterlitamak rayonunda bizim əsgərlərimiz Sterlitamakın 10 verst şərqində İşeyevonu





müharibə ilə işğal etmişlərdir. Ufa rayonunda əsgərlərimiz Ufanın 60 verst cənub-şərqində Arxangelski işğal edib 50 nəfər əsir, iki pulemyot və 95 tüfəng almışlardır. Osinsk səmtində əsgərlərimiz Osinskin 25 verst qərbində Pankovu işğal etmişlərdir. Perm rayonunda əsgərlərimiz Kuzma mövqifinə yaxınlaşıb şərqə tərəf hücum etməkdədirlər.

## SÜLH ƏTRAFINDA

**Almanların əks-təklifinə cavab**

Müttəfiqlər almanların əks-təklifinə qarşı verdikləri cavabında deyirlər ki, müharibə insaniyyət və ədalətə qarşı ən böyük bir cinayətdir. Almanların əks-təklifi qəbul edilməyəcək bir şey hesab edilmişdir. Fəqət Müttəfiqlər Yuxarı Sileziya məsələsində rəyi-amma [referenduma] müraciət edilməsinə razıdırlar. Rəyi-amm bu oblastın Almaniyaya, yaxud Lehistana [Polşaya] keçməsini təyin edəcəkdir.

Fransızlar Saar hövzəsini 15 il müddətlə istila edəcəkdirlər. Sonra özlərinin əhalisi kəndi müqəddəratını həll edəcəkdir. Yəni arzu edərsə, Almaniyaya mülhəq ola [birləşə] biləcəkdir.

Almaniya müstəmləkələri almanlara qaytarılmayacaqlardır.

Müttəfiqlər iqtisadi cəhətdən Almaniyanı boğmaq istəməyirlər. Biləks [əksinə], Almaniya ticarətinin yenidən başlanmasına hər növ müzahirət [köməklik] göstərməyə hazırdırlar.

Kayzer Vilhelm Müttəfiqlər tribunalı tərəfindən mühakimə ediləcəkdir. Müharibə işlərində cinayət yapan sair alman məmurlarının siyahısı sülh imza ediləndən bir ay sonra Müttəfiqlərə təqdim edilməlidir.

**Alman donanması**

Helqoland, nemes flotu və iadeyi-xəsarət [ziyanın ödənilməsi] maddələri bir qədər təbdil ediləcəklərdir [dəyişdiriləcək]. Almanlara iki yüz min nəfərlik bir ordu saxlamağa müsaidə verilir. Fəqət üç aydan sonra bu rəqəm yüz minə yendirilməlidir.

**Konfransda**

Dördlər Şurası üzvləri Parisdən əzimət etmişlərdir [yola düşmüşlər]. Vilson Brüssel-də, Lloyd Corc Berlindədir. (?) Onların qiyabətində [yoxluğunda] sülh işlərini Beşlər Şurası idarə edir. Bunlara üç məsələ müzakirəsi vagüzar edilmişdir [tapşırılmışdır]: Birisi, Dansiqin [Qdanskın] Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] verilməsi məsələsi; ikincisi, Lehistan [Polşa] ilə Ukrayna arasında mütarikə [atəşkəs] məsələsi; üçüncüsü də Klagenfurtda rəyi-amma [referenduma] müraciət etmək məsələsidir. Zira bu yerə sahib olmaq üçün Avstriya nemesləri ilə cənubi slavyanlar bir-biri ilə daima mübahisə edirlər.

Düvəli-müəzzəm [böyük dövlətlər] başçıları qət etmişlər ki, sülh müahidənaməsini [sazişini] 16 iyunda nemeslərə verildiyi surətdə elan etsinlər. Yəni mayın 7-də edilən təshihlərlə [düzəlişlərlə] bərabər elan edilsin. Bu şərait Müttəfiqlərin son sözü olacaqdır.

Londonda və Parisdə cümə günü səhər müahidənamə elan ediləcəkdir. Pəncşənbə [cümə axşamı] günü axşam ingilis qəzetələrində çap edilməsi mümkün olmaq üçün pəncşənbə günü günortadan

sonra təyyarəçi Londona sülh müahidənaməsi aparmışdır. İngilis və fransız lisanlarında olan bu sənədlər 426 səhifədən ibarətdir. Bunlara xəritələr də əlavə edilmişdir.

Lion – Almaniya səramədanından [başçılarından] olan Erzberqer sülh müahidənaməsinin imza edilməsinə tərəfdardır. Onun əqidəsincə, sülh imza edildikdən sonra diplomasi təriqilə [yoluyla] Müttəfiqləri güzəştə vadar etmək olacaqdır. Ehtimal var ki, Brokdorf-Rantsau Versaldan qayıtdıqdan sonra Veymarda onun istefasını qəbul edərək özü Versala sülh müahidənaməsini imza etməyə gedəcəkdir. Bu gün Dördlər Şurasında istila edilmiş Reyndə mülki idarə tətbiq edilməsi barəsində razılıq əmələ gəlmişdir. Müahidənamədə edilən təbəddülat [dəyişiklik] Yuxarı Sileziya məsələsində rəyiamma müraciət etməyə və Almaniyaya kömür yetirmək məsələlərinə aid imiş.

**Almanların 10-cu notası**

Xəbərlərə görə, Almaniya sülh nümayəndəsi Rantsau Dernburqdan xahiş etmişdir ki, onun yerini dolandırsın. Dünən axşam Almaniya nümayəndələri Müttəfiqlərə 10-cu nota vermişlərdir. Bu notada onlar sülh müahidənaməsinə baxmaq üçün vagüzar edilən [verilən] vaxtın uzadılmasını xahiş edirlər.

## HEYƏTİ-MÜRƏXXƏSƏMİZ

**Azərbaycan heyəti Dördlər Şurasında**

Hökumət dairələrində alınan məlumata görə, Azərbaycan Cümhuriyyətinin Sülh Konfransına gedən nümayəndələri Vilson, Lloyd Corc, Klemanso və Orlando tərəfindən hüzura qəbul edilmişlərdir.

**Azərbaycan nümayəndələri Romada ikən**

Məlum olduğu üzrə Azərbaycan heyəti Parisə İstanbul-Marsel təriqi [yolu] ilə deyil, Romadan keçib getmişlərdir. Xariciyyə Nəzarətində alınan rəsmi məlumata görə, Azərbaycan heyəti Romada hüsn-təvəccöhlə qəbul edilmişdir. Azərbaycan heyəti İtaliya Parlamanı sədri tərəfindən qəbul edilmişdir.

**Azərbaycana olan maraq**

Mövsuq [etibarlı] mənbədən verilən xəbərlərə görə, Zaqafqaziya cümhuriyyətləri məsələsinə iki aydan tez baxılmayacaqdır. Buna görə Azərbaycan heyətinin yubanmasından ehtiyat etmək əsassızdır. Heyətin bir tək məlumat verməsi deyil, işi də çoxdur. Bir çox ticarət müəssisələri iqtisadi və maliyyə təklifləri ilə Azərbaycan heyətinə müraciət etməkdədirlər.

**Azərbaycan ilə İran münasibatı**

Məlum olduğu üzrə, Azərbaycan heyəti Tehrandan övdət etmişdir [qayıtmışdır]. Bir para bizə düşmən olan qəzetələrin verdikləri xəbərlərə baxmayaraq, İsmayıl xan Ziyadxanovun heyətini müvəffəqiyyətli hesab etmək olar. Azərbaycan heyəti İran şahı tərəfindən hüzura qəbul edilmişdir. Görüş 45 dəqiqə çəkmişdir. Müsahibə türk dilində olmuşdur.

Əvvəlcə cümhuriyyətimizin adına bir qədər tənqidatda bulunan mətbuat axırda sakit olub hətta iranlıların özləri tərəfindən Azərbaycan Cümhuriyyətini müdafiə etmək haqqında məqalələr də yazılmışdır. Bunlar yazdıqları məqalələrində isbat edirlər ki, Şərqi Zaqafqaziyanın tarixi və etnoqrafi ixtiyarı vardır ki, Azərbaycan adı ilə adlansın.

Azərbaycan heyəti üçün Tehranda hər bir mayehtacı [ehtiyac şeyləri] ilə hazır xüsusi mənzil verilmişdir. Heyət bütün ictimai və siyasi dairələrin nəzəri-diqqətini cəlb etmişdir. İranla saziş hüsula gəlib posta, teleqraf, gömrük və ticarət işlərində müahidənamələr imza edilmişdir. İran hökuməti Tehranda Azərbaycan heyəti və Təbrizdə Azərbaycan general konsulu olduğuna razı olmuşdur.

Azərbaycan Cümhuriyyətinin səneyidövriyyəsi [ildönümü] günü İran şahının tacgüzarlığı [tacqoyma mərasimi] ilə mütabiq olmuşdur. Həman gün Azərbaycan heyəti yaşadığı bina milli bayraqlarla bəzənib və Tehranda olan azərbaycanlılar, heyəti təbrik eyləməyə gəlmişlərdir. Xariciyyə Nəzarətinin xüsusi şöbə müdiri də heyəti təbrik üçün gəlmişdir. Müdir hökumət sədri namından təəssüf etmişdir ki, tacgüzarlıq mərasiminə məşğul olduğundan Baş nazir özü əziz qonaqların yanına gəlməkdən məhrum olmuşdur.

## VƏTƏN BİZİM SEVGİLİ ANAMIZDIR

Xanımlar! Həmşirələr [bacılar]! Bu gün vətən bizim qeyrətimizə, millətin səadəti bizim xariqüladə səylərimizə mərbutdur [bağlıdır]. Qəlbində həmiyyəti bulunan, nan [çörək] və nemətilə pərvərdə olduğu [bəsləndiyi] vətəninə qəlbində məhəbbət hiss edən hər bir insan, xüsusən hər bir qadın gücü yetdiyi mərtəbə vəzifəsini ifaya çalışmalı. İştə mən də bu müqəddəs vətənin övladı bulunduğum cəhətlə, qadınlıq namına bir-iki söz söyləməyi münasib gördüm.

Tərəqqiyi-millət bizim ağuşi-şəfqətimizdə böyüyərək tərbiyeyi-ibtidaiyyəsini alan yavrucuqlarla qaim olduğu [millətin tərəqqisi bizim şəfqətli qucağımızda böyüyərək ibtidai tərbiyəsini alan uşaqlar sayəsində sabit, davamlı olduğu] halda, məəttəəssüf [təəssüflər olsun ki], şimdiyə qədər biz bu nöqtələri düşünəmmədik, övladlarımız hənuz qucaqlarımızda ikən verəcəyimiz tərbiyeyi-ibtidaiyyələrini verəmmədik, övladlarımızı vətənin səlamətinə xadim olacaq bir surətdə böyüdəmmədik.

Halbuki vətənimizin düçar olduğu ağır günlər ən ziyadə biz qadınları düşündürməli. Bunu kəndimiz də etiraf ediriz ki, biz şimdiyə qədər vətənə salim, çəlik vücudlar, mətin dimağlar [zehinlər] yetişdirsə idik, bu gün heç bir şeyə ehtiyac qalmazdı.

Vətən bizdən həyat ümid edərkən, biz onun məhvinə çalışdıq. Vətən şiddətli bir xəstəlik keçirdiyi zaman bunu tədavi edəcək, bir çox fədakarlıqlar göstərəcək, erkəklərlə bərabər vətənin dərdinə, xəstəliyinə əlac bulacaq qadınlardır.

Erkəklərimiz vətənin səadət və səlaməti üçün əllərindən gələn səy və qeyrətdən geri durmurlar. Ancaq biz qadınlar bu fəlakətin səbəbi kəndimiz olduğumuz halda, heç düşünmək də istəmirik ki, bu bizim xətamız, bizim günahımızdır.

Türkdə bir məsəl var ki, zərərin yarısından qayıtmaq da xeyirdir. Şimdi ke-

çən keçdi, gələcək qeydinə qalmalı. Kəndi vətənimiz üçün kəndimiz yığılmaq, dərdləşmək lazım ikən bizi bir yerə yığmaq üçün özgələrdən dəvət gözləyiriz. Dəvət olunan yerə də min naz ilə gedir və ya ki, heç də getməyiriz. Çünki vətən məhəbbəti bizim, yəni biz qadınların ürəyində kök salmamış ki, dəvət gözləməksizin yığıb-yığılıb vətənin qeydinə qalalım.

Məəttəəssüf, dəvət olunanlar belə kəndilərinə zəhməti rəva bilməyib gəlmir və gəlməməyi ilə gələnləri, vətəninə azca məhəbbəti olanları da həvəsdən düşürürlər. Böylə əhəmiyyətli çalışmağa ehtiyac hiss olunan bir zamanda böylə kahıllıq [tənbəllik, başısoyuqluq] gərək olmasın.

Xanımlar! Vətənə biz qadınlar çox-çox borcluyuz. Biz çocuqlarımızı milli ruh, milli tərbiyədə bəsləyəmmədik. Çocuqlarımızın beşiyini sallarkən laylaylarımızda çocuqlarımızın qulaqlarına vətən şərqisini eşitdirmədik. Ürəklərinə vətən məhəbbətini, millət hissiyyatını doldurammadıq.

Halbuki, millətimizə yaxışan şanlı əsgərlər bizim ağuşumuzdan doğmalıdır [doğulmalıdır]. Əsgərlərimizi müharibəyə biz təşviq etməliyiz. Kəndimiz çalışmalı, onlara nümunə olmalıyız. Bu sözü təklikdə həpimiz deyiriz. Həpimiz biliriz. Fəqət kim yapsın? Nə yapsın? Nasıl yapsın? Bunu yapacaq bizdən başqa bir qüvvət, bir amil varmı? Xayır! O halda, çalışmaq üçün kimdən dəvət gözləyiriz? Yapacaq, çalışacaq yenə kəndimiz deyilmiyiz? Hanı! Yalamaya, müharibə meydanına vətən mühafizləri göndərmişiz.

Onlar bizim can parçamız deyilmi? Onlar bizim qanımız, canımız deyilmi? Onlar bizim övladlarımız, qardaşlarımız deyilmi? Bəli. Onlar bizim ürəklərimizdən qopan, ağuşlarımızda böyüyən sevgili balalarımızdır. Onlar bizim namusumuzu müdafiə edənlərdir. Çox gözəl! Önümüzdə bayram gəlir. Hər kəs bayram üçün evində hazırlıqlar, cürbəcür hazırlıqlar görür. Pəs vətənlərinin uğrunda əsgərlikdə bulunan qəhrəmanlarımız üçün nə edir, onlara nə hədiyyələr göndərmək istəyirik? Bunu hər kəs tək-tək ağlına gətirməyində şübhəm qalmır. Fəqət yığılıb bir yerdə məsləhət etmək lazımdır ki, onun üçün də bir qaç xanım bunu düşünüb xanımları Birinci Ünas [Qızlar] məktəbinə dəvət etdilər. Orada əsgərlərimizə bayramlıq bir töhfə göndərmək qət və qərara alındı. Bunun üçün də para toplamaq məsləhət görüldü. Həman orada ikən üç min manata qədər para cəm oldu. Fəqət şimdiki halda üç min manatla bir şey etmək olmaz. Fəqət gəlməyən xanımlardan bir çoxu da sonradan para göndərmişlər.

İştə, bu gün üç xanımın evini para göndərmək istəyən xanımlar üçün qərar qoyuruz:

1-incisi Liza xanım Muxtarovdur ki, Doktorski küçədə nömrə 5;

2-ncisi Pəri xanım Topçubaşovdur ki, Afiserski küçədə nömrə 9;

3-üncüsü Səltənət xanım Əmircanovdur ki, Poçtovı və Karaulnı küçələrin küncündə nömrə 4.

İştə, hər kəs para göndərmək istəsə, bu xanımlara göndərib qəbzlərini ala bilərlər.

Haydı, xanımlar! Hümmət günüdür, xanımların hümməti erkəklərin vəzifəsindən, hümmətindən daha alidir. Dəqiqə fövt etməyərək [itirməyərək], səbat və mətanətlə çalışmalıyız. Lazım olduğu halda yenə yığılalım, tez-tez yığılalım, hər vaxt qonaqlıqlara, toylara gedib o yandan-bu yandan danışmaqdan doymadıqmı?

Şimdi heç olmazsa gündə iki saatlıq vaxtlarımızı bu yolda sərf edəlim.

Nəfsimizi uzun müddət ehtiyacımızın xaricindəki pırlantalardan, almazlardan, incilərdən, süslü əlbisələrlə təzyin etməkdən [bəzəməkdən] isə, bir parça vətən uğrunda sərf edəlim.

Şimdi vətənimizin halı vicdan sahibi olanları düşündürəcək. Artıq xanımlar üçün zinətin, süslü əlbisənin heç bir faydası yoxdur. Böylə bir zamanda pırlanta taxıb boş vaxt keçirməkdənsə, bu gün pırlantaları bərtərəf edib [bir tərəfə qoyub] sadə əlbisələrlə müavinətə qoşmanızı zaman tələb edir.

*Şəfiqə Əfəndizadə*

## MÜASİRLƏŞMƏK DAİRƏSİNDƏ BİR NEÇƏ MƏSƏLƏ

Vaxtımız, zamanımız, istiqlalımız, istiqbalımız müasirləşmək yolu manelərinin aramızdan tez bir zamanda götürülməsini və bu məsələnin həllini, həm də tez bir zamanda həllini bizdən tələb etməkdədir.

Məlumdur ki, aləmşümul hərbin nəticeyi-məşuməsi [uğursuz, nəhs nəticəsi] sonunda hər bir qanun və qaydanın xilafına olaraq insanların biqeyri-haqq [haqsız olaraq] biri-birinə təcavüz etdikləri və biri-birinin mallarını, qanlarını halal bildikləri bir halda elani-istiqlaliyyət etdik və qəsb olunmuş hüququmuzu bir çox qanlar tökdüyümüz və qurbanlar verdiyimizdən sonra ancaq əldə edə bildik və şimdi isə də həman təcavüzkəranə hallar insanlar arasında eynilə davam, eynilə runüma olmaqda [özünü göstərməkdə] və bəlkə də, daha qüvvət və şiddət kəsb etməkdədir [qazanmaqdadır].

Məsələn, əvvəlləri bir az qüvvədən ibarət olan bolşevik hökuməti və yaxud hürriyyəti-istiqlalımızın ən əvvəlinci düşməni hesab olunan Denikinlər get-gedə böyük qüvvələr cəminə malik olaraq dəhşətlər törətməkdə, haqq-hüquqlara təcavüz etməkdədirlər.

Netəkim bu günlərdə Dağıstan hökuməti-məşruəsinin [qanuni hökumətinin] haqq və hüququna təcavüz edilərək Cibaliyyun [Dağlılar] hökumətin[in] yerləri qəsb olundu. Bu isə, sözümüzün qəvi [qüvvətli] bir şahididir.

Tarixi-aləmdə oxuyub da birər-birər təcrübə etdiyimiz və yaxud gözümüz önündəki vüquati-əxirədən [son hadisələrdən] aldığımız təəssürat və diplomasi halları mülahizə edərək bir daha iğfal edilməyəcəyimizə [aldadılmayacağımıza], allanmayacağımıza əmniyyət kəsb etmək istərdik [əmin olmaq istərdik]. Doğrudan da, bu vaxta qədər başımıza gələn hər bir fəlakət ürəyimizin saflığından və qeyriləri iğfal və işkal etmək [çətinliyə salmaq] istəmədiyimizdən dolayı başımıza gələn fəlakətlərdən başqa bir şey deyildir. Biz başqalarını iğfal etmək istəmədiyimizdən, başqaları daha bizi iğfal etməz deyə bir siyasət götürdük. Halbuki zaman dəyişdi, sədaqət götürüldü, ha-

kim məhkumu əzmək, qəvi [güclü] məzlumu udmaq, biqeyri-haqq təzyiq etməkdə davam etməkdədir. Hələ də bu məşum və çirkin siyasətə bir intəha, bir xatimə çəkilməmişdir. Və bu tezlikdə buna bir intəha çəkiləcəyi ümidi azdır. Bəlkə də, heç yoxdur da. Biz həmişə böylə bir sadəliklə iğfal edilmişiz. Bunu birdəfəlik anlamalıyız ki, bizim dostlarımız belə bu gün bizimlə ancaq mənfəətlərinə görə dost olmaq istərlər. Onlar nə bizim qara qaşımıza və nə də qara gözümüzə aşiq deyildirlər. Hətta bizə bir şey vermək istərlərsə, o da şətrənc [şahmat] oyununda tərəfi-müqabilə bəxş edilən bir daşa bənzər ki, bə'dində [sonrasında] böyük bir şey qazanılacağı ümidi ilə verilir.

Get-gedə siyasət biz türk və islamlar üçün başqa və sairlər üçün də başqa bir rəng almaqdadır. Biz hər yerdə məhkumuz, əsarətdəyiz. Hələ bunlara iktifa [kifayət] edilməyərək, mümkün olduqca müstəqil hökumətlərimizi böylə təhtitəzyiqə [təzyiq altına] alaraq məhkum etmək çarələri hər yerdə düşünülür.

Bu yolda dolanbaclar oynanır. Vaxtilə hamı millətlərə kömək edən, zəifi qəvinin çəngalından [caynağından] qurtaran türk milləti şimdi həman nicat tapan millətlər tərəfindən parçalanmaq siyasəti dövrünü keçirir. İştə hər bir mühüm məsələ qarşısında, qovğa bədində biz yeni bir yorğan örtəriz. Nə vaxta qədər böylə birəhm və həyasızca yürüdülən siyasət müqabilində müncəmid [buz bağlamış] bir halda donub laqeyd duracağız?

*Qorqe əcəl peyapey əz in gəle mibərəd*
*Vin gələra bebin ke çe asude miçərəd*

şeirinin misdaqınca [dediyi kimi], nə vaxta qədər asudə otlayacaq, müqəddəratımızı bizi puç və imhaya [məhv etməyə] çalışan əllərə tapşırır, tarixə buraxacağız? Bu qədər açıq və aydın müamilati-təzyiqiyyədən [zorakı rəftardan] nə səbəbə bir hissə [dərs] alammayırız, təəccübdür.

İştə, bizim bu halımız ümumiyyət etibarilə nəzəri-diqqət və ibtisara alınar [diqqətlə baxılıb başa düşülərsə], mizan edilərsə [tərəziyə qoyulub ölçülərsə], əlbəttə, bunun böyük bir baisi və illəti [səbəbi] olmalıdır ki, müasirlərimizlə bərabər yaşadığımız bir əsrdə, bir sahədə onlarla bərabər olammayır, müasirləşəmməyiriz.

Məncə, bunun da baisi bilkülliyyə [tamamilə] əhvali-ruhiyyəmizdə aranmalıdır. Biz Asiya əqvamı [qövmləri] keçmişdən bəri eyi olsun, kötü olsun, hər bir ənənatımızı [ənənələrimizi] mühafizəyə qərar vermiş, hətta bu yolda şəriətimiz dairəsində belə hökmlər verərək şəriət namına olsa da, onu əldə saxlamağa can atmış bir əhaliyiz.

O cümlədən olaraq bizdə övlad məhəbbəti mühafizə olunmuş ənənatlardan biridir. Bizdə övlad məhəbbəti əvvəllərdə necə idisə də, daima öylə qalmış, öyləcə də getmişdir. Bu gün bir fransız qızı ingilislərin nə bilim nə kimi bir şəhərinə gedər, atadan-anadan, xəvişi-əqvamdan [qohum-əqrabasından] aralanıb qəlbinə fütur [qəm, kədər] verməyərəkdən qürbətdə yaşar, imrari-həyat edər [ömür sürər]. Biləks [əksinə], asiyalı, qafqazlı bir qız bu köydən digər bir köyə gedərsə, orada yaşayammaz, bilaxirə [axırda] naxoş olar, fövt [yox] olar gedər. Bu isə bizdə təbii övlad məhəbbətindən naşi olmayıb [irəli gəlməyib], ikinci təbiət hökmünü almış adat [adətlərimizdən] və əxlaqımızdan törənən bir əhvali-ruhiyyə təsiri ilədir ki, biz şunu bir ənənat olaraq mühafizə etmiş, saxlamışız.

Doğrudur, ənənati-tarixiyyənin saxlanışı hər qövm və hər bir millətin mədəniyyəti-amalının mizanı [davranış mədəniyyətinin ölçüsü] və mazisinin mirati-şahididir [keçmişinin şahidi olan güzgüdür]. Fəqət öylə yaramaz ənənatlar da vardır ki, onu mühafizə etmək hal və istiqbalımıza [bu günümüzə və gələcəyimizə] ən böyük zərbələr vura biləcək amillərdən biri ola bilir.

İştə, buraya qədər sərd və bəyan etdiyimiz [izah etdiyimiz, meydana qoyduğumuz] övlad məhəbbəti bu gün istiqbalımıza ən ağır rəxnə vuran amillərdəndir. Biz təb'ən [təbiət etibarilə] əsgər yaradıldığımızdandır ki, bu qədər məhəbbətə baxmayaraq əsgər oluruz. Qovğaya gedir, qürbətə davam ediriz [dözürük]. Vəilla [yoxsa] övlad məhəbbəti bizi əsgərlikdən mane olumuncu bir keyfiyyətdir. Hələ bu qədər qorxulu bir zamanda övladlarını əsgərlikdən qaçıranlara baxılarsa, təəssüf etməmək qabil deyildir. Bu isə həman yersiz məhəbbətimizi mühafizəyə qərar verdiyimizdən nəşət etmiş [irəli gəlmiş] bir keyfiyyətdən başqa bir şey deyildir.

Hər kəs övladını sevməyə haqlıdır. Hər kəs övladını düşünməyə borcludur. Fəqət övlad məhəbbətinin də bir dərəcəyə qədər həddi, hüdudu olmalıdır. Biz bunu birdəfəlik bilməliyiz ki, övlad ancaq dininin, millətinin irz-namusunun mühafizi [mühafizəçisi], müdafeyi [müdafiəçisi] olduqca sevilməlidir. Həp də yeri gəldikcə bu yolda çalışmaqla kəndisinin bir qəhrəman olduğu[nu] fikiri ilə, qələmi ilə, şəmşiri [qılıncı] ilə və nəhayət, hər bir xidməti ilə göstərməlidir. Bunun üçün də böylə övlad sevilməyə layiqdir. Böylə övladın ata-anası da fəxr etməyə, övladım var deməyə haqlıdır. Amma bizdə isə böylə deyildir. Övlad nə olursa-olsun, ancaq bir övlad olduğu üçün sevilir, sariq [oğru], qatil, xırsız, nə olursa yenə də sevilir, utanmadan böylələrinə də övladım var denir.

İştə, demək hər bir şey bizdə yolundan, cığırından çıxdığı kimi, iştə, hər bir şey bizdə əsrə müvafiq olmadığı kimi, övlad məhəbbəti, övlad sevişi də həman əsrə müvafiq deyildir. Məncə, hər kəs övladını, vətən və millətini mühafizə etmək, irz və namusunu siyanət edəcək [qoruyacaq] bir qəhrəman pərvərdə etmək [böyütmək], yaxud bir millət xadimi yetişdirmək yolunda düşünməli, o yolda sevməlidir. Övladlarımızın laylaları da o yolda oxunmalıdır. Böylə olarsa, əsgərlik vəzifəsi kimi mühüm bir məsələ əsrə müvafiq həll edilmiş olar və əsgərlərimiz daha ata-ana məhəbbəti deyil, həqiqi vətən mühibbi [vətən aşiqi] bir əsgər, bir xadim olarlar.

*Seyidzadə Bədrəddin*

**MƏTBUAT**

"Yedinaya Rossiya" qəzetəsi Cahan müharibəsinin indi də diplomasi mübarizəyə mübəddəl olduğunu [çevrildiyini] qeydlə, bu meydanda Sazonov, Milyukovları görmədiyindən dilgir [dilxor] olur və iştirak istehqaqını [haqqını] hər döv-

lətin müharibədə verdiyi tələfatla ölçərək yazır ki:

*"Müharibə meydanlarında milyonlarla yaxşı övladının qanı bahasına Rusiya yalnız öz dövləti hüdudu deyil, hətta Sülh Konfransı qarşısında bulunan beynəlmiləl məsələlərin də həllində iştirak hüququnu satın almışdır.*

*Tezliklə mücəddəd [yenilənmiş] Rusiyanı Cəmiyyəti-Əqvamda [Millətlər Cəmiyyətində] və onun nümayəndələrini Versal diplomasi masası dalında görməyi arzu edən qalib dövlətlər dəxi bu hüququ etiraf edirlər. Mötəlif dövlətlərcə [Antanta dövlətləri tərəfindən] amiral Kolçak hökumətinin rəsmi surətdə tanınması bu uğurda birinci qədəmdir. Biz əmin oluruz ki, dostlarımız da, düşmənlərimiz də ən yaxın zamanda vətəndaş müharibəsi atəşi ilə ağır anarşi xəstəliyi içində qüvvəsini təcdid [bərpa] etmiş Rusiyanın səsini eşidərlər.*

*Fəqət Böyük Rusiyaçılar bilməlidirlər ki, əgər Rusiyanın vermiş olduğu milyonlarla qurban yalnız atəşlə dəmir içindən təzədən əski çarlığı təcdid etmək üçün imişsə, bədbəxt millətin nəinki o zəhəmatı [zəhmətləri] hədərdir, hətta bundan böylə də çox belə hədər qurbanlar verər.*

*Doğrudur, bu vaxtadək verilmiş olan, rus millətinə kəndi müqəddəratı ilə bərabər beynəlmiləl məsailin [məsələlərin] də həllində iştirak haqqı qazandırmışdır. Lakin "Böyük rusiyaçıların" düşündüyü kimi boyunduruq taxmaq haqqı deyil, hüquq və ədalət məsələlərinin həllində iştirak və kəndi müqəddəratı[nı] da beşon istibdad generalı tələqini ilə deyil, əsil demokratiyanın [xalqın] arzusuna müvafiq bir surətdə təyini-hüquq qazandırmışdır."*

* * *

Tehran ilə Ənzəli arasında və İranın sair əyalətlərində ingilislər tərəfindən dəmir yolları inşasına şüru edilməsi [başlanması] haqqındakı xəbər münasibətilə "Ədalət" firqəsinin naşiri-əfkarı [yayın orqanı] olan "Hürriyyət" qəzetəsi bir baş məqalə yazaraq bu işi İranın iqtisadi inqirazına [tənəzzülünə] bir müqəddimə kimi tələqqi edərək [qiymətləndirərək] deyir ki:

*"Bu təzə dəmiryol İran zəhmətkeşləri üçün yeni bir fəlakət, yeni bir təhlükə hazırlayır. İşbu yol Hindistan, İran, Qafqaziyanı bir dükcə [yumaq] kimi yığıb ingilis hökumətinin əlinə verəcəkdir.*

*İngilislərin İran yollarını təsis etmələri İran ticarətini almaları deməkdir. Bundan sonra gərək İran xalqı ingilislərin iqtisadi təbəəsi olub onların sərvətini artırmaq üçün gecə-gündüz işləsinlər. Yuxarıda dediyimiz kimi, bu dəmiryolu yalnız İran zəhmətkeşlərini deyil, bütün Şərq zəhmətkeşlərini İngiltərə sərvətdarlarına qul edəcəkdir.*

*Mümkündür ki, bəzi tacirlərimiz buna razı olsun. Çünki onlara müvəqqəti mənfəət vardır. Lakin füqərayi-kasibə heç vaxt özlərinin böylə bir tələyə düşmələrinə razı olmamalıdır.*

*Quru narazılıq yalnız etirazla yox, ciddi iqdamatla [addımlarla] bu təhlükənin qarşısını almalıdır.*

*Əlbəttə, yalnız İran füqərayi-kasibəsi ingilis kimi qəvi [qüvvətli] bir canavar ilə müqabilə edə bilməz. Edərsə də, bir fayda görməz. Lazımdır, şu ümumi düşmənin qarşısına ümum Şərq, bəlkə, cahan füqərayi-kasibəsi çıxsın. Əgər bu gün ingilis ticarəti sınmaz isə, nə sosializma üsulu, nə zəif millətlər istiqlalı paydar [möhkəm] olmaz, bu, təbiidir.*

*Əgər bu gün bəhri-Xəzər vaporları ilə İran yolları ingilis burjuaziyasının əlində qalsa, tökülən qanlar, çəkilən zəhmətlər tamamilə bisəmərə qalacaqdır."*

Bu sözlərdən sonra qəzetə üzünü İran sərəmədanına [başbilənlərinə], İran mətbuatına tutur. Nə yapdıqlarını, kəndi hüquq və istiqballarını nasıl müdafiə etmək fikirində olduqlarını sorur [soruşur]. Fəqət onlara o qədər də ümid bağlamayaraq, nicatı yenə füqərayi-kasibədən gözləyir və yazır ki:

*"Hər halda, füqərayi-kasibə böylə qeyri-məşru [qanunsuz] işin qarşısını almaq üçün hər bir fədakarlığa hazır olmalı və bütün cahan füqərayi-kasibəsi, xüsusən Şərq əfkarını [ictimai fikirini] bu tərəfə çevirməliyiz. Mədəniyyət iddia edən ac qurdların çəngindən [pəncəsindən] xilas olmaq üçün ölməyə belə hazır olub, Rusiya və Qafqaziya füqərayi-kasibəsi ilə ittifaq etməliyiz. Biz Bakıda yaşayan İran fəhlələri Zaqafqaziya fəhlələri ilə Denikin qara qüvvəsinin əleyhinə ittifaq etdiyimiz və onlara hər növ müavinət etməyə hazır olduğumuz kimi, ingilis istibdadının, ingilis ticarətinin sındırılmağı üçün də ittifaq etməliyiz. Əlbəttə, onlar da bizlə ittifaq edəcəklər. Bu onların vəzifəsidir. Çünki İngiltərə hökuməti yalnız İran zəhmətkeşlərini əzməyir, bəlkə bütün cahan zəhmətkeşlərini əzib cahan inqilabını boğmaq istəyir."*

## GÖZLƏR

*Qardaşım Ayn. Əbdülə*

Ruha sevdalı nəğmələr söylər
Eynək altında parlayan gözlər,
Sanki onlar doğuldu sevdadan,
Daha pürşölə mehri-peydadan.
Daha zülmətli leyli-yeldadan,
Daha müşfiq qanadlı xülyadan,
Daha dəhşətli qə'ri-dəryadan,
Ah, o gözlər, nasıl da sahirdir!
Ruhu bir anda cəzbə qadirdir!
Məni onlar fəqət əsir etməz,
Bağlayıb öylə dəstgir etməz,
Oxşayan çünki qəlbi-məcruhu,
Başqa ulduzların sitayişidir.
Yalvarışlarla titrədən ruhu,
Başqa bir tanrının nümayişidir.
O mənim qaib ediyim gözlər,
Bir qaranlıq günəşlə parlardı,
Onu tərifə yetməyir sözlər,
Onda bir sirri-möhtəşəm vardı,
Düşünərdi, gülərdi, ağlardı.
Gah oxşardı, gah dağlardı,
Gah çılğınca eşqi-hariylə,
Yaxıyordu bu qəlbi-pürmihəni.
Gah qüdsi, böyük vüqariylə,
Səcdələr içrə məhv edərdi məni.
Şimdi bilməm ki, nərdə seyr eylər,
O mənim qaib etdiyim gözlər.

*Ayn. Y.*

## BAKI XƏBƏRLƏRİ

**Rus Milli Şurasında**

Cümə günü iyunun 20-də Bakıdakı Rus Milli Şurasının ümumi iclası vaqe

olub və bu günlərdə Şimali Qafqaziyadan övdət etmiş [qayıtmış] olan Leontyeviçin məruzəsi dinlənilmişdir. Leontyeviç iki öz yoldaşları ilə bərabər general Erdelinin xahişinə görə Şimali Qafqaziyaya getmişlərdi. Arablinski mövqifində [stansiyasında] onlar birinci dabravolu görmüşlərdir. O, dəmiryolunu mühafizə edirmiş. Burada əhalinin əhvalından dəxi xəbərdar olmuşlar. Məlum olmuşdur ki, əhalinin dabravollara nisbət heç bir düşmənanə hərəkatı müşahidə olunmayır. Əhali hətta dabravolların gəlməsindən nəhayətdə şad olmuşlardır. Dərbənddə cüzi miqdarda dabravol qoşunları varmış. Əhali onları yaxşı qəbul edib dabravollar onları incitməmişlər. Çünki dabravollar özləri ilə sülh və müsalimət [əmin-amanlıq] gətirmişlərmiş. Dabravollar nizam üzrə rəftar edirlərmiş.

Petrovskda vəkillər general Erdelini görməyib, ancaq general Popov ilə müsahibədə bulunmuşlardır. Popov onlara söyləmişdir ki, dabravollar heç vaxt Azərbaycan əleyhinə sui-niyyət və hərəkatda bulunmayacaqlardır. Popov demişdir ki, hal-hazırda bizim çox böyük məsələlərimiz vardır ki, o da şimalda Rusiya bolşevizmi ilə mübarizədə bulunmaqdır. Bundan ötrü bizə böyük qüvvələr və texnika lazımdır ki, onlara zərbə endirək. Böylə olduğu halda dabravollar heç öz düşmənlərinin miqdarını artırmaq istəməzlər. Bəlkə özləri üçün təzə dostlar axtarmaq istəyirlər. Dabravol ordusunda böylə zənn edirlər ki, Zaqafqaziya hökumətləri məsələsini həyat özü süngü ilə deyil, lüzumiyyət qüvvəsi ilə həll edəcəkdir. Petrovskda onlar yerli əhalinin nümayəndələri ilə görüşüb müsahibədə bulunmuşlardır. Əhali ilə dabravolların əlaqəsi yaxşıdır.

Dağıstan ziyalıları, afiserlər və qeyriləri dabravollarla sülh tərəfdarıdırlar. Onlar dabravollara "yeni Rusiyanın müsəlləh [silahlı] qüvvəsi" kimi baxırlar. Əhali general Erdelini Teymurxanşurada böyük təntənə ilə pişvaz etmişlərdir. General [Mikayıl Maqomedoviç] Xəlilovun müavinliyinə polkovnik Danilov təyin edilmişdir. Vəkillər Erdeli ilə görüşmək üçün Pyatiqorsk şəhərinə getmişlərdir. Petrovskdan Qroznıya qədər dəmiryol xətti və ətrafı dağıdılıb xarabazar halına salınmışdır. Körpüləri xarab edilib, qatarlar yığılıb dağıdılmışlardır. Buna görə də dəmiryol hərəkatı bir qədər təxirə uğramışdır. Pyatiqorskda general Erdeli vəkillərə general Popov deyən sözləri təkrar söyləmiş və təsdiq etmişdir. Leontyeviç ailə işlərindən ötrü Bakıya övdət edib, qeyri iki nəfər vəkillər isə də Denikinlə görüşmək üçün Yekaterinodar şəhərinə getmişlərdir.

**Təyin**

Bakı qubernatorunun dəftərxana müdiri Süleyman bəy Musabəyov Daxiliyyə nazirinin binagüzarlığı [sərəncamı] ilə Mərkəzi Əxzi-əsgər [Hərbi çağırış] idarəsi müdirliyinə təyin edilmişdir. Mumaileyh [adı çəkilən şəxs] bu gündən etibarən kəndi vəzifəsini ifaya şüru etmişdir [başlamışdır].

**Qazax anbarlarının təhvil verilməsi**

Ticarət, Sənaye və Ərzaq naziri Gəncədəki vəkilinə təklif etmişdir ki, Hərbiyyə Nəzarəti ilə etilafa [razılığa] girib, mümaniət [manea] olmadığı halda Qazaxdakı ərzaq anbarlarını Ümuri-Xeyriyyə və





Nafiə Nəzarəti binagüzarlığına [Sosial Təminat Nazirliyi sərəncamına] təhvil versin.

**Zakaspidə**

Bu vaxtadək qəzetələrdə verilən məlumata görə, Petrovskdan Tazəşəhərə vaporlarla dabravollar göndərilirmiş. Halbuki məlumati-mövsuqəyə [mötəbər məlumata] görə, heç bir dənə də olsa vapor göndərilməmişdir. Zira dabravolların adamı yoxdur. İngilislərin balaca bir dəstələri Tazəşəhərin 8 verstliyində dururlar. Bolşeviklər Qəhqədən iləri yürüməyirlər. Zira Məşhəd tərəfdən ingilislərin çevirmələrindən qorxurlar. Tazəşəhərdən qaçan dabravol saldatları vapor fəhlələrinə 1500 rublə Bakı parası verirlərmiş. Aşqabadda qara çörəyin girvənkəsi 8 rubləyədir. Əhval olduqca ciddidir.

**Qarabağ heyətinin övdəti**

Neçə gün bundan əqdəm [qabaq] Qarabağa getmiş olan Parlaman heyəti Bakıya övdət etmişdir [qayıtmışdır]. Heyət bu günlərdə Məclisi-Məbusan iclasında Qarabağ hadisatı haqqında müfəssəl məlumat və bəyanat verəcəkdir.

**Qradonaçalnik dəftərxanası**

Bakı qradonaçalnikinin dəftərxanası Birjevoy və Krasnovodski küçələrin küncündə Bünyadovun 20-10 nömrəli evində olub hər gün səhər saat 9-dan 2-yə kimi açıqdır. Qradonaçalnik şikayəti olanları hər gün 9-dan 11-ə kimi öz odasında qəbul edir.

**Müfəttinlər**

Sayad Xızı dairəsinin Tıxlı kəndi camaatı Bakı qubernatoruna ərizə verərək məlum etmişlər ki, məzkur [deyilən] kənd əhli Hilal və Əyyub Əsgər oğlanları hökumətin əleyhinə bir çox müfəttinanə [fitnəkar] sözlər söyləyib, açıqdan-açığa "ruslar yaxşıdır, onlar gəlsin" deyirlər. Bundan əlavə, onlar cavanların əsgərliyə gəlmələrinə mane olurlar. Buna binaən [buna görə], camaat böylə müzirr [zərərli] şəxslərin tezliklə kənddən sürgün edilmələrini rica edir.

**Tutulmuş əşya haqqında**

Daxiliyyə naziri Bakı qubernatoruna müraciətən neçə ay bundan əqdəm [qabaq] Əmiraslanov evində Voskresenskidən tutulmuş olan əşyanın siyahısının tezliklə təqdim edilməsini rica etmişdir.

**Həcz komissiyasının buraxılması**

Daxiliyyə naziri Bakı qubernatoruna müraciətən dəftərxanası cənbində [nəzdində] olan mənzillər, evlər həcz [müsadirə] edən komissiya buraxılıb, işlərinin Bakı qradonaçalnikinə təhvil verilməsini rica etmişdir.

**AZƏRBAYCANDA**

**Astara bolşeviklərinin məğlubiyyəti**

Ramazanül-mübarək ayının 8-dən bəri bura bolşevikləri ilə "Çər Hüseyn" dəstəsinin miyanında [arasında] qanlı müharibələr getməkdədir. İşbu müharibənin nərədən və nədən nəşət etdiyinin [əmələ gəldiyinin] təfsilatı böylədir:

Keçən il Mart hadisatından bəri bolşeviklərlə həman bu müsəlman quldur dəstəsinin müsadimə [toqquşma] və mübarizəsi bilafasilə vüqu bulmaqda [fasi-

ləsiz baş verməkdə] idi. Bolşeviklər işbu quldur dəstəsinin əleyhinə havadan, qaradan [qurudan], dənizdən atəşlər yağdırırlardısa da, bunların süknası [məskəni] dağlıq və ormanlıq olduğundan müzəffəriyyət bulammayırdılar. Quldurlar dəstəsinə dəstrəs olmayan [əli çatmayan] işbu rus-erməni quldurları ədavətən [düşmənçiliklə] müsəlman əhalisinin əmvalını [mallarını] qarət, özlərini qətlə yetirib irz və namuslarına təcavüz edirlərdi. Hətta İran şose yoluna təcavüzlər edib bir neçə nəfəri də qətlə yetirdilər. Xülasə, işbu müsadimə dörd ay bundan irəliyə qədər davam edirdi.

Nəhayət, İran hökumətinin savabdidi [məsləhəti, vasitəçiliyi] ilə heç bir təzminati-hərbiyyə mətalibatı [müharibə təzminatı tələbləri] ortaya atılmadan bir sülh, nəhayət, bunların arasında əqd edildi [bağlandı]. Şu sülh bu ana qədər davam edirdi. Nəhayət, bir neçə gün bundan irəli rus-erməni quldurlarının hakimiyyətinə möhkəm etiqad bəsləyən, daha doğrusu, onların tovarişliyinə iğfal olan [yoldaşlığına aldanan] bəzi müsəlman bolşevikləri kəndi tovarişlərinə xidmət etmək məqsədilə bir neçə nəfər erməni götürüb hiylə və təzvir [kələk] ilə Hüseynin iki oğlunu və qardaşı oğlunu qətlə yetirirlər. Oğlanlarını məqtul [qətl edilmiş] görən Hüseyn qayət hiddətlənərək yoldan gəlib keçəni vurub öldürürmüş.

İştə Hüseynin oğlanlarının məqtul olması tək bir Hüseyn və dəstəsinə mütəəssir olmayıb [təsir etməyib], ümum "Kalış Kalavan" tüfəngçilərini bolşeviklərə qarşı hücuma qalxışdırdı. Bunların ilk hücumuna tabavər olammayan [müqavimət göstərə bilməyən] bolşeviklər vajgun [məhv edilmiş] bir surətdə həzimətə [məğlubiyyətə] üz qoydular. Əhali hücumuna davam etməyən işbu masqaraçı firqəyə həman gün Lənkəranda bir iddə [dəstə] qoşun köməyə gəldi. Bunlar varid olan [çatan] kimi top atəşi açaraq İran tərəfinə zərərsiz olaraq bir neçə güllə boşaltdılar. Bədəhu [sonra] vaxt təyin edərək İran hökuməti və kazak sərkərdəsi ilə qonuşmaqdan ötrü burada bir iclas bərpa etdilər. Nəticədə bunlara İran şəhərindən bir zəfər toxunmamaq qövlünü [sözünü] alaraq, sabahı Hüseyn üzərinə hücuma başladılar. Hüseyn isə bunları dağlara tərəf çəkərək oradan bunları güllə atəşi zərbəsi ilə sıxışdırıb ta Astara, hətta Astaradan da bir ağac geriyə oturtdu. Arxalarından da Xəlil bəy dəstəsi Şahağacı tərəfindən hücum edib yenidən böyük tələfata düçar etdilər. Əlan [indi] rus Astarasında və kəndlərində bir nəfər şəxs qalmamışdır, bütün İran tərəfinə qaçmışlar. İşbu zavallıların malları Hüseyn tərəfindən qarət, evləri isə yandırılmışdır. Hüseyn dəstəsi və İran acları Azərbaycan Astarasının rus-müsəlman evlərinin qapı-pəncərəsinə qədər qarət və yağma etdilər.

Ruslar Lənkəranda, müsəlmanlar isə İran tərəfinin küçələrində səfil-sərgərdan dolaşırlar. Qaçqınların halı pək fənadır. İştə, tək bir Astara müsəlmanlarının halı fəna deyildir. Bilmək istərsənizsə, vəhşilərin qüvveyi-qəddəranəsi ilə cavan cümhuriyyət və istiqlaliyyətindən cüda [ayrı] düşən Lənkəran qitəsinin [bölgəsinin] halı fənadan da fənadır. İki göz istəyir ki, bunların halına ağlasın. Hənuz vəhşilərin qara qüvvəsi altında inləməkdə ikən yenidən üzərlərində qara buludlar gəzərək, həyat və məişətin zəhərlənmək xəbərini verir. *(Quldurların Lənkərana hücum etmək tədabirində bulunduqlarına işarədir.)*

*Əlif. Məhəmmədli*

## ERMƏNİSTANDA

### Erməni Kadet firqəsinin teleqrafı

Erməni Kadet (Xalq firqəsi) komitəsi İrəvandan Tiflis qəzetələri idarəsinə zeyldəki [aşağıdakı] məzmunda teleqraflar göndərmişdir:

Bu son zamanlar Ermənistanda keçirilən hökumət və Parlaman böhranı həll edildi.

Daşnaksutyun ilə Erməni Xalq firqəsinin birliyi pozuldu. Daşnaklar hökumətdə olan nümayəndələri ilə hökumətdə qanunsuzluqlar etdilər. O da budur: Poqos Nubar paşa heyətinin iştirakı olmadan müttəhid [birləşmiş] Ermənistan elanı, Türkiyə Ermənistanındakı ermənilərin arzularını bəyan etmək üçün on iki nəfər daşnakların Parlamanda qanunsuz əyləşmələri. Bütün intixabat [seçki] işlərini yalnız daşnaklar əllərinə almışlardır və böyləliklə ancaq özlərinə görə təbliğat yapırlar. Bu işlərdən Ermənistan üçün nə dərəcə xətrə [təhlükə] əmələ gələcəyini Erməni Xalq firqəsi düşünərək var qüvvəsi ilə çalışdı ki, bu xətrəni dəf eyləsin və qanunsuzluğun qarşısını alsın. İntixabat çöl işləri qurtardıqdan sonra icra edilsin. Bu xüsusda hər nə qədər ciddiyyət göstərilmişsə də, faydası olmamışdır. Daşnaklar öz vəziyyətlərində baqi qalmışlardır. Xalq firqəsi öz məsuliyyətini buraxıb intixablarda iştirakdan imtina etməklə bərabər, boykot elan eyləmişdir. Xalq firqəsi tamamilə Ermənistan Parlamanından çıxmışdır. Nazirlərdən isə Artunyans, [Xristofor Avvakumoviç] Vermişev, Enfiacyan, Məlik-Qaragözyan və onların müavinləri hökumətdən getmişlərdir. Daşnakların bu hərəkəti xüsusən Türkiyə erməniləri arasında böyük həyəcana səbəb olmuşdur.

## GÜRCÜSTANDA

### Fəhlə Konfransının təbriki

Bütün Gürcüstan fəhlə və xidmətçiləri şuralarının birinci konfransı sədri Çeqelidən Gürcüstan hökumətinə böylə bir teleqraf gəlmişdir:

Gürcüstan fəhlə və xidmətçiləri şuralarının birinci iclası müstəqil Gürcüstanın demokratik hökumətini təbrik edib hər bir iqdamatını [təşəbbüsünü] təqdirlə, bütün düşmənləri ilə əvvəlki kimi ciddi mübarizədə bulunmağı arzu edir. Konfrans öz tərəfindən hər bir müavinət vəd edir.

## İDARƏYƏ MƏKTUB

Möhtərəm müdir əfəndi!

Acizanə rica ediriz, bizim şu neçə kəlmə sözümüzü qəzetənizdə dərc edəsiniz.

Mart hadisatından bəri qapalı qalan Ramana Müstəhliklər Cəmiyyəti camaat dükanının hal-hazırda kifayət qədər parası olmadığına binaən [görə] və üzvlərinin əksərinin rəyinə görə, məzkur [deyilən] cəmiyyət üzvlərinin pulları geri qaytarılacaqdır. Hamıya məlum olduğu üzrə

Mart hadisatından sonra camaat dükanı iki dəfə bədəfkarlar [canilər] tərəfindən qarət və külli miqdarda malı oğurlandığına görə, üzvlərə ancaq cəmiyyətə tapşırdıqları qədər pul vüsul olacaq [çatacaq].

Hamı möhtərəm üzvlərdən rica olunur, həmin iyun ayının 25-dən etibarən öz pay pullarını almaqdan ötrü keçmiş camaat dükanı xəzinədarı Kərbəlayi Xeybərin Ramanada ikinci polis uçastokunun qabağındakı dükanına müraciət etsinlər.

*İdarə üzvləri*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**“Kooperatsiya” müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*





**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 432. “Qof”: Müttəfiqlərin Finlandiyada və Baltik ölkələrindəki qoşunlarının komandiri Hubert Qof [Hubert Gough] nəzərdə tutulur. Qəzetdə “Qoj” kimi yazılmışdır.

“Məhəmmədcan Tınışbayev”: bu ad qəzetdə təhrif edilmişdir.

səh. 433. Sual işarələri qəzetdə getmişdir.

**Müasirləşmək dairəsində**
**bir neçə məsələ**

səh. 440. “Qorqe əcəl peyapey əz in gəle mibərəd / Vin gəlera bebin ke çe asude miçərəd”: “Əcəl qurdu bu sürüdən bir-bir aparır, / Bu sürüyə bax ki, necə rahat otlayır” (farsca)

**“Gözlər” şeiri (s. 443)**
**üçün lüğət:**

pürşölə: çox işıqlı, çox parlaq

mehri-peyda: doğan günəş

leyli-yelda: ilin ən uzun gecəsi, 20 dekabrdan 21 dekabra keçən gecə

qə’ri-dərya: dənizin dibi

sahir: sehirləyən

dəstgir: əli-qolu bağlanmış

qəlbi-məcruh: yaralı ürək

eşqi-har: hərarətli eşq

pürmihən: çox qəmli, çox qüssəli

qüdsi: müqəddəs

**Azərbaycanda**

səh. 446. “Kalış Kalavan”: güman ki, təhrif edilmişdir; “Kalış” yerinə güman ki, “Talış” olmalı idi.



***"Azərbaycan" qəzetinin 212-ci nömrəsinin 1-ci səhifəsi***





**Cümə axşamı, 26 iyun 1919-cu il, nömrə 212**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 27 ramazanül-mübarək sənə 1337. 26 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

1919[-cu il] həziranın [iyunun] 28[-i] cümə günü saat 11-də Azərbaycan Məclisi-Məbusanının növbədənxaric iclası olacağı elan olunur.

*T-157*

## BAKI TİCARƏT VƏ SƏNAYE İTTİFAQI

Düyü, səbzə, pambıq və neft istehsalatı [neft məhsulları], ticarət və qeyriləri ilə maraqlananları cümə günü həziran ayının 27-sində axşam saat 5-də Birjanın salonunda (Qorçakovski, nömrə 1) vaqe olacaq iclasa dəvət edir. Ticarət, Sənaye və Ərzaq nazirinin binagüzarlığına binaən [sərəncamına əsasən] həll ediləcək məsələlər:

1) Kuban ilə mal dəyişilməsi barəsində;

2) Padşahlıq [dövlət] pullarının kursu artması barəsində.

*T-156*

## "SƏDDİ-İSKƏNDƏR"

Avropa mətbuatının bizə çatan alayarımçıq xəbərlərindən bizə, bizim istiqlalımıza, bizim müqəddəratımıza aid yazılarını böyük bir maraqla arayıb oxuyuruq. Oxuyub da məyus və mükəddər olmaq [kədərlənmək] məcburiyyəti hiss edib fikirlərə düşürük.

O mətbuat, baxüsus [xüsusən] Fransa mətbuatının bizim haqqımızdakı fikiri bizim Afrika vəhşiləri barəsində qərarlaşmış fikirimizin eynidir. O mətbuatın fikirincə Qafqazda iki qisim millət vardır ki, onlardan birisi məzlum, digəri zalımdır. Zalım, əlbəttə biz imişik, özümüz də vəhşi, yırtıcı, mədəniyyət düşməni, ürfan müxasimi [düşməni] zalımlardan imişik. Bi-zim heç bir məziyyətimiz, heç bir fəzilətimiz yox imiş. Məhz bir vəhşət və dəhşət mücəssəməsi imişik.

Haqqımızda olan böylə bir fahiş və haqsız nəzər, yevropalılarda nədən və nərədən hasil olmuşdur?

Bu nəzər, sənələrdən bəri əleyhimizdə çalışmaqda olan düşmənlərimizin səy və əməklərinin məhsul və nəticəsidir ki, bizimlə Avropa arasında, zənn edirsən ki, yıxılmaz, deşilməz, keçilməz bir "səddi-İskəndər" əmələ gətirib və bizi "yəcuc və məcuc" mənzələsində [yerində] qoymaqla əbədi bir zindana məhkum və açılmaz bir tilsimə salmışdır.

Əcəba, Avropaya göndərmiş olduğumuz mürəxxəslərimiz [nümayəndələrimiz]

bu səddi yara biləcək və bu tilsimi aça biləcəkdirlərmi?

İştə, mühüm bir məsələ!

Düşmənlərimiz bu işdə də bir çox çalışmışdırlar. Azərbaycan mürəxxəsləri ehyanən [birdən] bunların yalan və iftira və böhtandan qurulma kələklərini açar qorxusu ilə mürəxxəslərimizin üzərinə olmazın böhtanlar atmaqla onları da Avropa nəzərində ləkələndirmişdirlər. Bunun nəticəsi olacaqdır ki, fransız qəzetələrindən ən nəzdikbinləri [dar görüşlüləri] mürəxxəslərimizin Parisə vürudunu [gəlişini] bir taqım nalayiq sözlərlə "təbrik" edib öz münasibətlərini bildirmişdirlər.

Bunun üçündür ki, Parisdəki mürəxxəslərimizin vəzifəsi dedikcə ağır və müşküldür. Bir tərəfdən öz böhtanlanmış adlarını təbriə etdirmək [təmizə çıxarmaq], digər tərəfdən düşmənlərin tilsimini qırıb həqiqəti meydana çıxarmaq nə qədər məharət və ustadlıq istər.

Qəzetəmizin dünənki nömrəsindəki xəbər ki, mürəxxəslərimiz "Dördlər" tərəfindən hüzura qəbul edilmişdirlər, bizə bir taqım ümidlər verir və bunu təbşir edir [müjdələyir] ki, Avropada dəllallıq edən və özünü pula satan məsləksiz mətbuat olmaqla bərabər, doğruluq sevən adamlar, cəmiyyətlər və işin ciddiyyətini nəzərə alıb da hər tərəfin sözünü və şikayətini dinləməklə, birgözlü və birqulaqlı olmaq istəməyənlər dəxi vardır. Binaənileyh [ona görə], düşmənlərimizin "səddi-İskəndər"i əslində saxta bir sədd, tilsimləri aldatma bir tilsim olduğundan, hümmət və həmmiyyətimiz sayəsində bu səddi uçurmaq və bu tilsimi açmaq imkanına ümidimiz çoxdur.

Əgər bu işə müvəffəq olarsaq, avropalıların gözləri açılıb da baxıb görərlər ki, sədd arxasında olanlar zənni-batillərinin əksinə olaraq yəcuc-məcuc deyil, bəlkə özləri kimi adi insanlardır ki, nə zalımdırlar, nə mədəniyyət düşmənidirlər, nə ürfan ədüvvləridirlər [düşmənləridirlər], biləks [əksinə], alicənab, mərhəmətli, insaflı, tərəqqi və təkamülə mail bir qövmdür ki, müxalif tərəfin təsvir və tərif etdiyinə heç də oxşayışları yoxdur.

O halda işlər açılar və ikigözlü Avropa öz zəlalətini də [yanlış yolda olduğunu da] anlar, düşmənlərimizin deyil yalnız bizə qarşı, bəlkə bütün insaniyyətə, ümum aləmi-bəşəriyyətə qarşı xəyanətlər etmiş olduğunu dərk ilə xainlərə bizimlə bərabər lənətxan olar [lənət oxuyar].

*Hacıbəyli Üzeyir*

## İRAN – AZƏRBAYCAN

Bu mövzuda qəzetəmiz ilə Tehran mətbuatından möhtərəm "İran" qəzetəsi arasında bir münaqişə vaqe olduğunu qarelərimiz [oxucularımız] bilirlər. "İran" qəzetəsi Cümhuriyyətimizə "Azərbaycan" isimi vermək haqqında olmadığımızı, biz isə bunun əksini isbat edirdik. "İran" qəzetəsinin tərəfindən yazılan son məqaləsinə cavab yazmaq üzrə ikən posta məzkur [adı çəkilən] qəzetənin 454-cü nömrəsini gətirdi. Bu nömrədə "Qəzavət tarixi" ünvanı ilə "İsmayıl Əfşar Tarəmi Azərbaycani" imzası ilə müfəssəl bir məqalə nəşr edir. "Elmi-intiqad və azadiyi-mətbuat" [tənqid elmi və mətbuat azadlığı] naminə dərci təqaza olunan [lazım görülən] bu məqalə Bakı ilə Tehran arasında olan





mübahisəyə iştirak edərək, kəndisi iranlı ikən haqqın biz tərəfdə olduğunu tarixi və elmi bir surətdə isbat edir. Bu müfəssəl məqaləni tərcümə ilə aşağıya dərc ediriz.

İştə "İran" qəzetəsində mündəric [dərc olunan] məqalənin eynən tərcüməsi:

439 və 440 nömrələrinizdə ədibi-maarifpərvər M. Ə. Rəsulzadə əfəndinin qələmi ilə yazılmış Azərbaycan haqqında bir məqalə dərc edilmişdir. "İran" qəzetəsi dəxi haman məqalənin zeylində [haşiyəsində] bəzi mətləbləri tənqid eyləmişdi. Bu münaqişəyə mən də iştirak etmək istədim. Fəqət bu iştirakımla mən Azərbaycan hökumətinin İran üzərində siyasi təsiratından sərf-nəzər yalnız bir həqiqəti-tarixiyyənin kəşfi üçün səy edəcəyəm. Çünki məşhur müvərrixlərdən [tarixçilərdən] Füstel de Kulanj der ki, tarixi ehsasati-vətəniyyə [vətən duyğuları] ilə qarışdırmaq hər zaman möhlikdir [təhlükəlidir]. Onlardan birisi elm, digəri isə fəzilətdir.

Şərq və qərb müvərrixləri ilə coğrafiyyunlarının rəylərinə görə Azərbaycan Zaqafqaziyanın qismi-şərqisindən, İrəvan, Naxçıvan və bütün İran Azərbaycanı, bütün Xəmsə vilayətləri, Tarəm, Təvaliş-Gilan həvalisindən bir qismi ilə Həmədan və Qəzvindən ibarət olmuşdur. Rzaqulu xan Lələbaşı ki, Rus-İran müharibəsinin müasirlərindəndir, "Rövzətüs-səfa"nın 10-cu cildində deyir ki, Azərbaycan keçmiş zamanlarda Bakı bəndərindən [limanından] Xalxala qədər tulən [uzunluq dairəsi boyunca] 95 fərsəng və Macərvan qəsəbəsindən cəbəli-Sinaya [Sina dağına] qədər ərzən [en dairəsi boyunca] 55 fərsəng bir məsahədə [ərazidə] vaqe olmuşdur. Eyni məzmunda təfsilat "Bustanüs-səyahət" ilə digər əsərlərdə dəxi məzkur [qeyd edilir] ki, mətləb uzanmasın deyə zikrindən sərf-nəzər ediriz.* Bu həqiqəti-tarixiyyə kəşf olunarsa, "İran" qəzetəsinin, vətənlərinin əski nami-müqəddəsini [müqəddəs adını] ehya etmələri [diriltmələri] üçün azərbaycanlıları haqlı görəcəyini ümid edirəm.

Əxlaq, adat [adətlər] və dil barəsində də dəxi bir taqım şeylər zikr edilmişdi. Bunun doğru olduğunu dəxi isbata lüzum yoxdur. Zira Qəzvindən birisi qalxıb da Qubaya müsafirət eyləsə [səfərə getsə], yalnız əxlaq, adat və dil birliyində deyil, şivə və ləhcənin dəxi eynilə bir olduğunu görər. Bu gün bir tehranlı ilə bir şəmiranlı ləhcələri arasında fərq vardır. Mazandaranlı ilə dəməvəndlinin şivələrindəki fərq isə daha bəllidir. Bu böylə ikən, aya [görəsən], azərbaycanlıların bir cinsdən və bir irqdən olmadıqlarını iddia etmək qabilmidir?

Şimdi görəlim Amerika və İngiltərənin bitərəf üləması [alimləri] bu xüsusda nə deyirlər.

Professor Nikerld Krayblis deyir ki: 1907-ci ildə Amerika asari-ətiqə [arxeologiya, qədim əsərlər] mütəxəssislərindən bir heyət Azərbaycanı tədqiq üçün getmiş idi. Bu heyət kəndi məruzəsində deyir ki:

"Türküstan ilə Kürdüstan arasında Azərbaycan mahallarında çini və zürufat [qab-qacaq] kimi qədim türk asari-ətiqə-

* Bu xüsusda şübhələri olanlar İstəxri, Müqəddəsi, Yaqut, Əbül-Fəda, Həmdullah, Hafiz və Katib Çələbiyə rücu buyursunlar [müraciət etsinlər].

sinə təsadüf edildi. Hətta bəzi sikkə və kətəbələr [kitabələr] üzərində uyğurca yazılar vardı." (Uyğur əski Azərbaycan hökumətinin rəsmi lisanı olmuşdur.)

Eyni professor ingilis üləmasının əsərlərindən birisindən nəql edir ki:

"Turan haqqındakı tədqiqat getdikcə genişləyir, Asiyayi-Vüstanın [Orta Asiyanın] hər tərəfində bu millətin əsərlərinə təsadüf olunur. Burası bizcə mühəqqəqdir [şübhəsizdir] ki, İranın ətrafı türklərlə mühat olub [əhatələnib], qədim iranilərin (Aryəni-qədim) ilk müharibəsi Azərbaycan türkləri ilə vaqe olmuşdur."

Məzkur [adı çəkilən] professor deyir ki, türklərin iranilərdən daha əvvəl Azərbaycanda sakin olduqları ədillə və bərahin [dəlillər və sübutlar] ilə sabitdir.

Professor Nikerld Krayblisin təlif eylədiyi [yazdığı] "Məsələyi-Şərqiyyə" [Şərq məsələsi] nam kitabında (61-64-cü səhifələr) aryənlərin Azərbaycandakı arizi [sonradan gəlmə] və ani olduğu haqqında bir çox sübut və dəlillər vardır və Azərbaycan həmişə türklərin olmuşdur. Bunu tarix asanlıqla isbat edir.

Tarixi-qədimdən əldə mövcud olan nə varsa, yunanlılardan nəql olunmadır. (Tövrat ilə bəzi ortadan itmiş İran və Hind asarından [əsərlərindən] sərf-nəzər.) Yunanlılar müfrit [ifrat] bir təəssübi-milliyyə bəslədiklərindən və Şərqi-qədim lisani-tarixiyyəsinin [tarixi dilinin] ədəmi-müsaidəsindən [oxunmağa əlverişli olmamasından] dolayı tarixi bir çox əfsanələr və yalanlarla doldurdular.

19-cu əsrə qədər tarixi-qədim haqqında yunan asarından başqa əldə bir vəsiqə yox idi. 19-cu əsrin tülusunda [doğuşunda] bir çox ingilis, firəng və alman üləmasının hümməti ilə keçmişin ölü dilləri həll olunaraq, bu vasitə ilə asari-qədimədən mövcud olmayan bir çox tarixi həqiqətlər açılmış oldu. Kətibələr [kitabələr] kəndisinə heç bir əl sürülmədən samit [dinməz] və sabit bir halda qədim dövrlərin sərgüzəştini bizə nəql edirlər.

Avropa üləması kəşf olunan bu kətibələr sayəsində bilmişlər ki, Kəldə və Assur dövlətlərinin təşkilindən əvvəl və aryanilərin qərbə doğru olan hərəkətlərindən daha müqəddəm [qabaq] Orta Asiyada digər millətlər sakin olmuşlardır. O millətlərin dilləri tədqiq olunduqda, türk cinsinə mənsub olduqları və bu günlər türklərilə həmcins olduqları aşkar olur.

Bu millətlərdən "Akkad-Sumer" denilən bir qismi Beynənnəhreyndə [İkiçayarasında], "Hett"lər Anadoluda, "Uradhu"lar Azərbaycanda mütəvvətin olmuşlar [özlərinə vətən tutmuşlar]. Kilikiya, Beynənnəhreyn və Azərbaycanda bir çox kətibələr bulunmuşdur ki, üləma onlardan bəzisini oxuya bilmişlərdir.

Bu kətibələrdən sabit olmuşdur ki, məzkur [deyilən] millətlər böyük bir mədəniyyətə malik olmuşlar. Vəqtən [vaxt baxımından] tarixi müəyyən olmayan bir zamanda övladi-Sam [Samın övladları], Cəzirətül-ərəbə [Ərəb yarımadasına] (Akkad-Sumerə) həmlə edib, onlarla ixtilat edərək [qaynayıb-qarışaraq] "Hammurapi-Akkad" mədəniyyətinin əsasını vəz etdilər [əsasını qoydular]. O zamanlarda ariya millətləri şərqdən hücum edərək nagəhani bir istila nəticəsində urardhu və hett millətlərini məhv edərək ermənilər Azərbaycanda, frakiyalılar da Anadoluda sakin oldular.

Oksford Darülfünununun [Universitetinin] aliqədr professorlarından Says deyir ki:

"Turanilər bu böyük mədəniyyətin əsasını vəz etdilər. Məqsəd növi-bəşərin mədəniyyəti-əvvəliyyəsidir [ilk mədəniyyətidir] ki, əgər iranilər onu məhv etməsəydilər, bizə ondan böyük yadigarlar qalacaqdı. Fəqət İran istilası bu təməddünü [mədəniyyəti] məhv eylədi. İranilər ancaq kəndi məmləkətlərində bir əsəri-təməddün [mədəniyyət əsəri] göstərə bildilər. Yoxsa mütəvaliyən [ardıcıl] icra olunan hərblər nəticəsində müştərək bir Urardhu-İran mədəniyyətini vücuda gətirəmmədilər.*

Üləmanın bəzisinin əqidəsi bu mərkəzdədir ki, kürd, gürcü, talış urardhu nəslindəndirlər. Urardhu ləfzi ilə kürd ləfzi arasında şəbahəti-tammə [tam oxşarlıq] vardır. Bu millətlər kəndi istiqlaliyyətlərini qaib etdikdən sonra İran mədəniyyətinin qarşısında durammayıb məhv olmuşlar. Hettlər daima Azərbaycanı fəth eyləmək qəsdində olmuş, yeni təərrüzlərdə [hücumlarda] bulunmuşlar. Onlardan bir qismi Azərbaycana daxil olub İran din və əxlaqını qəbul eyləmişlərdir.

Bu mütaliədən məlum olur, Turan millətləri mütəməddin idilər və Avropanın məruf üləmasının [tanınmış alimlərinin] dediyinə görə, Babil mədəniyyəti Turan mədəniyyətinin bir surəti-mütəkamili [kamilləşmiş bir surəti] idi. Böylə ikən "İran" qəzetəsinin "be-vasiteyi-vürudi-moğol" ["monqolların gəlişi vasitəsi ilə"] deyə yazması mövcibi-heyrətdir [təəccüb doğurur]. Görünür ki, qəzetə bu xüsusda Mətinüssəltənəyə nəzirə yapmışdır. Mərhum Mətinüssəltənə qeyrətinin şiddətindən xuddarlıq edəmməyib [özünü saxlaya bilməyib] "vəhşi türklər islamı məhv və nabud [yox] etdilər" deyə yazmışdı.

Halbuki münsiflər [insaf sahibləri] təsdiq edərlər ki, türk millətinin islama olan xidməti heç bir zaman unudulmaz. Türklərin Səlibiyyuna [Xaçlılara] qarşı müdafiəsi, Təbəristanı slavlardan təmizləmələri (6-cı əsr, "Kamil", cild 11 və 12), Batu[nun] bu xüsusdakı qəhrəmanlıqları – ki onun sayəsində slavlar birboyuna [özbaşına] 5 yüz sənə artıq hərəkət edəmməz oldular – İslam hüdudunun Kiyev, Varşo, Krakov, hətta Vyana hasarlarına qədər dayanması və səkkiz milyon hindlilərin müsəlman edilməsi – ki bu gün dəxi onlar[ın] müsəlman aləmi haqqındakı dad və fəryadlarının nə dərəcədə müəssir [təsirli] olduğunu görürüz – əcəba, bunlar türklərin xidməti deyilmidir? Oğuz, Tuman, Atilla, Çingiz, Teymur, Fateh, Səlim, Süleyman, Nadir, Ağa Məhəmməd xan kimi sərdarlar, Çingizin "Yasa"sı, Teymurun "Tüzük"ü kimi qanunlar, Süleyman Qanuninin əsəri əcəba unudularmı?

* * *

Ərəb istilasından sonra Azərbaycan: Ərəblərin istilası zamanında Azərbaycandakı türklər hettlərlə urardhu bəqasından [qalıqlarından] ibarət idilər. İran məzhəbi ilə adat [adətləri] və əxlaqı onlara nüfuz eyləmiş idi. Rəşid və Məmun zamanlarında iranilər xüləfa dərbarında [xə-

* Turani-qədim təməddünü haqqında aşağıdakı kitablara müraciət oluna: Masir, "Tarixi-miləli-məşriq" [Şərq millətləri tarixi]; Says, "Yek hökuməti-fəramuş şüddə" [Unudulmuş bir hökumət]; Vamberi, "Milləti-Türk"; Kinq, "Tarixi-Akkad və Şumer".

lifə sarayında] böyük nüfuz qazandılar. Bu nüfuz bir dərəcəyə qədər irəliləmişdi ki, əgər Mötəsim tədbir görməsə, bütün ərəb hökumətinin iranilərə intiqal etmək [keçmək] qorxusu vardı.

Türklərdən ibarət məxsus bir qoşun təşkil edərək bu vasitə ilə Mötəsim farsların nüfuzunu kəsr eyləmişdi [qırmışdı]. Fəqət ərəblər bundan müstəfid olammayaraq [istifadə edə bilməyərək], aralarına əvvəlkindən daha ziyadə bir ixtilal düşdü. Bir dərəcədə ki, türklər istəmədikləri xəlifəni əzl edir [taxtdan salır], yerinə istədiklərini nəsb eyləyirlərdi [taxta çıxarırdılar]. Buna görə də xüləfa məcbur oldular ki, türk qoşununu paytaxtdan uzaqlaşdırıb sərhədlərə göndərsinlər. Bunlardan bir qismini slav-qıpçaq qabağını saxlamağa göndərdilər. Bunlardan bir qismi Azərbaycanda qalaraq Cüstaniyan və sairə kimi Azərbaycan hökumətini təşkil etdilər.

O zamanlarda səlcuqilər Xorasandan gəlib Azərbaycanı tutdular. Azərbaycan bu sülaləyə intiqal eylədi. Səlcuqilərin inqirazında [çöküşündə] səlcuq şiələrindən olan Atabəylər Azərbaycanda səltənət etdilər. "Əlfi" və "Kamil" tarixlərindən məlum olur ki, Atabəylər zamanında türk xanvadələrindən [ailələrindən] bir çoxu Türkistandan Azərbaycana gəlib burada sakin olmuşlardır. Qıpçaq səfərində bu müsəlman olmuş türklərdən bir çoxu ərəb ordusunda idi. Fəqət məlum idi ki, Azərbaycan düşmənləri bulunan ermənilərlə deyləmlilərə qarşı müqavimət edəmməyəcəkdi. Bu sıralarda idi ki, Azərbaycan yarlığı Qaani-əzəm [Böyük Xaqan] tərəfindən Hülaküyə vagüzar olundu [tapşırıldı].

Hülakü müxtəlif türk qəbiləsindən 32-sini ayıraraq Bağdad ilə Azərbaycan səmtinə rəvanə qıldı [yola saldı]. Bütün Turanda zəfər təranələri çalındı. Car çəkildi ki, Pürcəkin xanvadəsinin ən şücaətli bir cavanı Qərbi Turanı mühafizə eyləməyə gedir. Elxani-əzəm Bağdaddan Azərbaycana gəldi. Türk qəbilələrindən ötrü qışlaq və yaylaqlar təyin eylədi. Bu günlər Azərbaycan milləti təşkilatının övci-əlaya [zirvəyə] yetişdiyi günlərdi. Elxan Marağada ikən dari-üqbaya rəhlət etdi [əbədiyyət evinə köçdü]. Nəvələri Qazan xan ilə Olcaytu Azərbaycan millətinin rüknünü [təməlini, dayağını] möhkəmlədərək onu dini-islamla qüvvətləndirdilər. Xacə Rəşidəddinin yazdığına görə, bir dəfə 200.000, digər dəfə 400.000 türk islama müşərrəf oldu.

Slavların (rusların), ermənilərin, gürcülərin, sonra da Cebe və Subutay nam cəngavərlərin istilası ilə hasil olan qətliamlar vasitəsilə Azərbaycanın farsları məhv olmuşlardı. O gündən bu günə qədər bir ovuc ermənidən savayı bütün Azərbaycan əhalisi türk və müsəlmandır.

Sultan Olcaytu Azərbaycanda bir taqım təcəddüdlər [yeniliklər] vücuda gətirdi. O cümlədən olaraq, Azərbaycan paytaxtını Marağadan Sultaniyyəyə köçürtdü. Məəttəəssüf [təəssüf] ki, tündbadi-həvadisə [hadisələrin tufanına] qarşı bu bina davam edəmməyib məhv oldu.

Bu gün Azərbaycanın o böyük paytaxtından bir məzar qübbəsi qalmışdır. Bu qübbə illərin təsirinə müqavimət edərək qalmışsa, əxlafın [övladların] naxələfliyi üzündən o əsər dəxi xarabaya üz tutmaqdadır. Hər sabah günəş o qübbə üzərinə tülu edərək [doğaraq] inikasatı [əksləri] ilə bizə türk millətinin fütuhat və iftixaratını [fəthlərini və fəxr edilməyə layiq hadisələrini] yad etdirir.

Azərbaycan Elxaniyan [Elxanilər] sülaləsinin inqirazından [çöküşündən] sonra Çobaniyan [Çobanilər] sülaləsinə intiqal edir [keçir]. Bunlar Azərbaycanı idarədən aciz qaldıqlarından, qəbilələrdən bir çoxu babalarının qədim yolunu tutaraq Anadoluya köçürlər. Teymurun zühuru və Anqara vaqeəsindən sonra bu qəbilələrdən bir çoxu təkrar Azərbaycana övdət edirlər [qayıdırlar]. Bədəhu [sonra] Şeyx Səfinin irşadatı [təbliğatı] ilə şiə məzhəbini qəbul edib Anadoludakı qardaşlarını da bu məzhəbə daxil etdirirlər.

Şah İsmayılın zühurundan sonra Anadoludakı azərbaycanlılar Şah Abbasa köməyə gəlirlər. Fəqət Osmanlı hökuməti bunlara mane olduğundan bir qisimi Anadoluda qalırlar. (Bu gün Osmanlı azərbaycanlıları Amasiya və Anqara vilayətlərində 500.000 miqdarında olub kəndilərinə qızılbaş denilməkdədir.)

Elxan sülaləsinin inqirazından sonra Şah İsmayıl Əfşar qəbiləsini Xəmsə, Marağa, Qarabağ və Şirvan vilayətlərinə, Qacar qəbiləsini də Səlmas, Gəncə və İrəvana məmur eylədi.

Şah İsmayıl zamanında Azərbaycan ədəbiyyatı rəvac eyləmişdir. Təqribən demək olar ki, Şah İsmayıl Azərbaycan ədəbiyyatının binasını vəz eyləmiş [binasını qoymuş] və kəndi "Divani-türkisini" [Türk dilində divanını] yadigar olaraq buraxmışdır. O zamanın böyük şüərası Azərbaycan türkcəsinin ehyasına [canlandırılmasına] çalışmışlardır. Füzuli, Müseyib xan Təkəli, Şani Təkəli, Sadiq Əfşar, Həsən Türkman və Yusif Qarabaği o zamanın türkcə yazar şairləridir. ("Təzkireyi-Sadiq" ilə "Töhfeyi-Sami"yə rücu [müraciət] oluna.)

Azərbaycanlılar səfəviyyə və əfşariyyə və onlardan sonra zamanında kəndi ədəbi-siyasi təşkilatlarını qururdular. Bu zamanda rus militarizmi həmlə edərək Azərbaycanın bir qitəsini [hissəsini] digərindən ayırdı, möhtərəm şəhid Cavad xan ilə İbrahimxəlil xan, Mirhəsən xan və sair bu kimi qəhrəmanların rəşadət və müqaviməti istilanı qurtara bilmədi. Azərbaycanın qismi-şimalisi yüz sənədən ziyadə rus əsarətində qaldı, tainki hürriyyətin sədayi-fərəhfəzası [fərəhləndirici səsi] üfqi-aləmdə tərənnümsaz olub Rusiya militarizmi elani-iflas eylədi. Bunun üzərinə Azərbaycan məmləkəti təkrar qəddini düzəldərək təmameyi-aləmə elani-istiqlal etdi.

Bu üçüncü dövrədir ki, azəri türkləri kəndi azadlıqlarının binasını qurmaq üçün və azadlıq düşməni olan Azərbaycan düşmənlərinin dəfi üçün mübarizə edirlər. Əlbəttə ki, edəcəklər və kəndi cavanlarının fədakarlığı sayəsində Azərbaycan istiqlalını paydar [möhkəm] etməklə müzəffər olacaqlardır.

Azərbaycanlı qardaşımızın, tərcüməsi yuxarıda məzkur [qeyd edilən] bu məqaləsinə "İran" qəzetəsi uzun-uzadıya cavab verir. Bittəb [təbii olaraq], onun dəlil və sübutları ilə müvafiqət edəmməyir [razılaşa bilmir]. Bu xüsusda ayrı bir vaxt.

*M. Ə. Rəsulzadə*

### TELEQRAF XƏBƏRLƏRİ

*(Royter acentəliyindən)*

**Şərqi Qaliçədə**
Şərqi Qaliçədə Polşa əsgərləri bir çox əsir və külli miqdarda qənaimi-hərbiyyə [hərbi qənimət] almışlardır.

**Kolçakın hücumu**
Omskdan Kolçakın verdiyi teleqrafa görə, Vyatka tərəfə hücum davam etməkdədir. Perm dəmiryolundan şimala tərəf olan əsgərlər bir neçə bolşevik dəstəsini pərişan etmişlər.

**General Foş**
Almanların sülh müahidənaməsini [sazişini] imza və ya mütarikəni qət etmək [atəşkəsə son vermək] niyyətində olmaqları cavabını gözləməkdən ötrü fransız generalı Foş Lüksemburqdan Parisə dəvət edilmişdir.

- İstanbulda, Yıldız sarayında vaqe olan yanğından Sultan həzrətlərinə məxsus olan saray yanıb məhv olmuşdur.

- Bolşevik əleyhinə olan qüvvə Krasnaya Qorka tabyasını [istehkamını] işğal etmişlərdir. Bu yer Fin boğazında Kronştadtın rubərusundadır [üzbəüzündədir].

- Dabravollar tərəfindən Lumbun ilə Kuları işğal edilmişdir. Düşmənlər cənub tərəfinə püskürdülmüşlərdir. Ümumi ricət [geri çəkilmə] nişanələri müşahidə edilir.

- Petroqrad üzərinə hücum davam edir. Petroqradın 45 ağac cənub-qərbində vaqe Volosovo mövqifi [stansiyası] işğal edilmişdir. Bolşeviklərin 8-ci və 16-cı alayları məhv edilmişdir.

- Katçində bolşeviklər ciddi həmləyə hazırlaşırlar.

- Bu yaxınlarda Parisdə əmələlərin [fəhlələrinin] işə başlayacaqları gözlənir. Zira dəmiryolunda əhval yaxşılaşmışdır. Kömür mədənlərində olan əmələlər ümumi tətil etməyə qərar vermişlərdir.

- Qaradağda getdikcə üsyan vüsətlənir [genişlənir]. Üsyançılar Serbistanın istila qoşunlarına hücum edirlər. Bunlar arasında qızğın müharibə olur.

- Bolşeviklər Feodosiya şəhərini tərk etdiklərini elan edirlər. Müharibə Feodosiyanın 50 verst qərbində vaqe olmaqdadır.

Yekaterinodar - İngilislər tərəfindən ərəb hökuməti təşkil edilməsi ərəblərin köhnə cahangirlik məqsədini irəliyə sürdüyünə və Məkkədə xilafət təşkil etmək istədiklərinə bais olub, bu işlər Misirdə ingilis hökmranlığına zərbə endirəcəyi üçün Türkiyənin Müttəfiqlər arasında təqsim edilməsi [bölünməsi] layihəsi rədd edilmişdir. Həman layihəyə görə, Türkiyənin əlində Bursa və Samsun xətti qalırdı ki, bu yerlərin əhalisi türklərdən ibarət idi. Sultanın Bursaya göndərilməsi qərarı da təbdil edilmişdir [dəyişdirilmişdir]. Sultan İstanbulda qalacaqdır.

Yekaterinodar – [Damad] Fərid paşa tərəfindən yeni təşkil edilmiş Kabinə istefa vermişdir. Bu istefaya səbəb İzmir vilayətinin istila edilməsidir.

- Şura hökumətinin simsiz teleqrafı xəbər verir ki, bolşeviklərin aeroplanları Uralsk şəhərini bombardman edir.

- İyun ayının 22-də cəbhə barəsində verilən məlumatdan anlaşılır ki, bütün cəbhələrdən Şura qoşunları ricət edirlər [geri çəkilirlər]. Şərq cəbhəsində admiral Kolçakın güclü qüvvəsi irəliləməyə başlamışdır. Xarkov dairəsində qırmızı qoşun nəfəratı [əsgərləri] ricət edir.

### SÜLH ƏTRAFINDA

İstanbul qəzetələri yazırlar ki, Türkiyə mürəxxəslərinə [nümayəndələrinə] böylə düsturüləməl [təlimatnamə] verilmişdir:
1) Türkiyə hökuməti Türkiyənin mandat üzərinə idarə edilməsi prinsipinə etiraz edir və tələb edir ki, Türkiyə tam müstəqil yaşasın.
2) Türkiyə hökuməti Amerika rəisicümhuru Vilsonun sülh əsaslarına istinadla bu tələbdə özünü haqlı görür.

* İstanbuldan xəbər verilir ki, Babi-ali Etilaf [Antanta] dövlətlərinə məlum eyləmişdir ki, Türkiyə hökuməti şərqi vilayətlərə mükəmməl muxtariyyət verir. Hələlik Müttəfiqlərdən cavab alınmamışdır.

**İmza etmək istəyirlər**
Noske, Erzberqer sülh müahidənaməsinin imzalanması tərəfdarıdırlar. Bu xəbər Parisdə böyük şadlığa bais olmuşdur.

Lion - General Foş Müttəfiqlər qoşunlarının, o cümlədən Lehistan [Polşa], Romaniya və Çex-slovak qoşunlarının başında duracaqdır. Hərgah düşənbə [bazar ertəsi] gününədək almanlar sülh müahidənaməsini imza edəcəklərinə razılıqlarını verməsələr, dərhal nemeslərə qarşı hərbi və iqtisadi tədbirlər ittixaz ediləcəkdir [tədbirlər görüləcəkdir].

**Almaniya hökuməti sülh barəsində**
Almaniya hökuməti müttəhid [birgə] mətbuat nümayəndələrini vəkil etmişdir məlum edə ki, Almaniya Müttəfiqlərin sülh müahidənaməsini imza etməkdən ona görə imtina edir ki, bu sülh Almaniyanın iqtisadi dağılmasına, şərəfsiz siyasətinə və bir çox nəsillərin əxlaqən məhv edilməsi deməkdir. Bu müahidənamə Vilsonun 14 maddəli məramnaməsinə müvafiqət etməyir [uyğun gəlmir]. Amerika gərək bu işə müdaxilə eyləsin və yaxud bəyan etməlidir ki, bu işi etməkdən acizdir.

### QƏZETƏLƏRDƏN

**Tsaritsına kömək**
"Volna" qəzetəsi xəbər verir ki, 15 iyunda Yekaterinodardan çıxmış olan şəxslər xəbər verirlər ki, mərkəzi Rusiyadan və Hacı-Tərxandan Tsaritsına bolşeviklər üçün külli imdadiyyə gəlmişdir. Tsaritsın altında Qırmızı ordunun halı möhkəmdir.

**Yaponlar qərq edilən gəmilərin pulunu istəyirlər**
Yaponiyanın sülh mürəxxəsləri [nü-

mayəndələri] müharibə zamanında qərq edilən paroxodlarının parasını tələb edirlər.

**Versal vahid cəbhəsi**

İyunun 19-da Versaldan xəbər verirlər ki, Nazirlər Şurası çexlər ilə ukraynalılar arasında olan ixtilafı bərtərəf eyləməyə [aradan qaldırmağa] çalışır, tainki almanlar sülh müahidənaməsini imza etməkdən imtina etdikləri təqdirdə, şərqdə almanlar əleyhinə vahid cəbhə vücuda gətirilsin. Müttəfiqlərə lazımdır ki, mərkəzdə, Avropada bolşevizm əleyhinə olan qüvvələri yerləşdirsinlər, tainki bununla da bunların biri ilə Almaniyaya birləşmək imkanı verməsinlər.

**Rusiya**

Fin cəbhəsi boyu müharibə şiddətlənmişdir.

**Bolşeviklərin məğlubiyyəti**

Yekaterinodardan xəbər verirlər ki, Berdyansk-Çornı Yar cəbhəsində 9-cu, 13-cü və 2-ci Ukrayna orduları pərişan edilmişdir. Tsaritsın yolunu mühafizə edən 10-cu ordu artıq dərəcədə məğlub olmuşdur.

**Estonların hücumu**

Estonlular Pskovu və Volmarı işğal edib hücuma davam edirlər.

**Kiyevdə üsyan**

Kiyev üsyanı gəldikcə şiddətlənməkdədir. Meydanlarda top və pulemyot qoyulmuşdur. Küçələrdə səngərlər yapılıb, əhali dükanları dağıdıb qarət etdiklərindən, nizamsızlıqdır. Kəndlilər Şulyavki tərəfdən müharibə başlamışlardır. Kiyevdən gələn qaçqınlar Kiyev hadisələri haqqında dəhşətlər söyləyirlər. Şəhər üzərində tüstü vardır. Şəhər bir çox yerlərdən yanır. Ümdə küçələr dağılmışdır. Tramvay vaqonları səngər halına salınmışdır. Çin əsgərləri kefləri istədiklərini edirlər. Arvadlara təcavüz edib, uşaqları öldürürlər. Kiyev-Poltava dəmiryol hərəkatı dayanmışdır.

**Krımda**

Yaltadan Batuma gələn balıqçılar nəql edirlər ki, üç nəfər keşişdən başqa "Fransa" adlı mehmanxananın sahibi də güllələnmişdir. Mehmanxana sahibi müqəssir edilirmiş ki, guya onun evində Dabravol ordusunun teleqraf acentəliyi varmış. Müsəlmanlar bitərəfliyə istinadən əsgərliyə getməyirlər. Bir çoxları şəhərdən çıxıb dağlara getmişlərdir. Yalta və Simferopol tərəfdə əsgər cəm edilməsi işləri pərişandır. Perekop üzərində almanlar və müsəlmanlar fürsət tapdıqca dabravollar tərəfinə keçirlər. Bir dəstə müsəlman axtarılarkən pulemyot tapıldıqda 12 nəfəri güllələnmişdir. Feodosiyadan xəbər verirlər ki, Qışlaq koloniyasında olan bolqarlar bolşeviklər tərəfinə keçmişlərdir.

Müsəlman əhalisi bitərəfdir. Onların başçılarından bir neçə nəfər türklər müsəlmanlar arasında bolşeviklərin tərəfini saxlayırlar. Baxçasarayda "Yeni dünya" adında türk dilində bolşevik qəzetəsi nəşr edilir. Bu qəzetədən Krım kəndlərinin hamısına, hətta Türkiyəyə göndərilir. Oraya hər bir münasib zamanda silah dəxi yollayırlar. Tüfəngin qiyməti 2 min rublədir. Baxçasarayda bolşeviklər bir çox müsəlman mitinqləri tərtib edirlər.





**Benderə hücum**

Novorossiyskə xəbər verirlər ki, bolşevik dəstələri Benderə hücum etmişlərdir. Romaniya əsgərlərinə qoşulan fransız qarnizonu düşməni Dnestrdən ətrafa atıb əhvalı düzəltmişdir.

**Təkzib**

Soçidən xəbər verirlər ki, Abxaziyanın Rusiyaya yapışması haqqında Dabrovol ordusu komandanlığı yanına istidadan [xahişdən] ötrü Abxaziya heyəti göndərilməsi şayiələri yalandır.

## TÜRKÜSTANDA

- Mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərdən aşkar olmuşdur ki, Aleksandrovsk fortu yanında bolşeviklər tərəfindən başlanan əməliyyat Əfqanıstan və Hindistan iğtişaşı ilə sıxı bir surətdə əlaqədardır. Moskvadan verilən əmrə görə, Hacı-Tərxan bolşevikləri ingilislərlə mübarizədə bulunan və bolşeviklərə hüsntəvəccöh bəsləyən təzə əfqan əmirinin köməyinə göndərilmişlərdir.

- Alınan məlumata görə, Türküstan oblastı əhvalı xeyli ciddiləşmişdir. Bolşeviklər qəti hücuma keçib Mərv şəhərini, Kuşka körpüsünü işğal etmişlər. Belə ki, Aşqabad təhlükə altındadır. Türküstan əhvalının bu cür ciddi olması ingilisləri oraya qüvvə göndərməyə məcbur etmişdir. Türküstan əsgərlərinin köməyinə Dabravol dəstələri və zirehli avtomobillər də göndərilmişdir. Türküstandan xəbər verirlər ki, mayın 27-də bolşevik dəstələri Əfqanıstana daxil olmaq üçün Kuşkaya çatmışlardır.

**Türküstanda bolşeviklər**

Türküstanda bolşeviklər Qəhqədə dayanmışdırlar. Oradan irəliyə yürüş etməyib, Məşhəd tərəfindən cinahlarının çevrilməsindən ehtiyat edirlər. Krasnovodskda ingilislərin müxtəsər qüvvələri vardır ki, şəhərin 6 verstliyində xəndəklərə girmişlərdir. Bolşeviklər cərgəsindən qaçanları böyük qiymətlə gizləyirlər. Matroslar əvvəla onları həbsxanalara doldurub, sonra 3500 rublə mükafatla Bakıya göndərirlər. Aşqabadda qara çörəyin girvənkəsi 7 manatdır.

**Türküstandan son məlumat**

Türküstandan alınan son məlumata görə, Duşak altında bolşeviklərin qabaq səfləri pərakəndə edilmişlərdir. Bolşeviklər 300 nəfər tələfat və 100 nəfər əsir vermişlərdir. Dabravollar onlardan 2 top, 29 pulemyot və 300-dək tüfəng qənimət almışlardır.

**Əfqanıstanda**

- “Krasnovodsk” qəzetəsi xəbər verir ki, şayiata görə əfqanlar buxaralılarla birləşib bolşeviklərin arxasında böyük üsyan qaldırmışlardır. Bolşeviklərin macar dəstələri tərk-silah edilmişdir. Bu münasibətlə Daşkənddə halət həyəcanlıdır. Deyirlər ki, orada da üsyan qalxmışdır. Fərqanə də öz növbəsində Əndican xətti ilə bolşeviklər üzərinə hücuma başlamışdır.

- Türküstan bolşevikləri ilə mübarizədə bulunan Türküstan hökuməti əsgərləri türkmən süvariləri, zabit bölüyü, könüllü dəstələri və Qafqaziya cəbhəsində olan sabiq Tersk dabravol naçalniki pol-

kovnik Litvinovun təşəbbüsatı ilə Şimali Qafqaziyadan Türküstana gətirilmiş nizami dabravol dəstələrindən ibarətdir. Türküstan Müdafiə Komitəsi siyasi təsəvvürata görə öz əsgərlərinin komandanlığını türkmən general Uraz Sərdara vermişdir.

## HACI-TƏRXANIN SON DƏQİQƏLƏRİ

Bu günlərdə Hacı-Tərxandan [Həştərxandan] balıqçı qayığı ilə Bakıya varid olanların [gələnlərin] dediyinə görə, oranın əhvalı zeyldəki [aşağıdakı] qərar üzrədir:

İyunun 15-dən başlayaraq 17-nə qədər Biryuçaya Kosa deyilən yerdə 20-25 dənə gəmi dayanmışdı. Gəmilər dabravollar qoşunları ilə yüklü idilər. Gəmilərin qabağında saatda 32 uzla məsafə yol gedən lodkalar [qayıqlar] var idi. Bu lodkalarda kiçik toplar var idi. Ayın 15-dən başlayaraq Şura qoşunları Biryuçaya Kosadan yavaş-yavaş Hacı-Tərxana tərəf çəkilib özləri ilə bərabər batareyaları da aparırlardı. İyunun 17-də səngərlərdə 1000 nəfərə qədər qırmızı qoşun qalmışdı. Bunlara kömək gələcəyi vəd edilmişdisə də, gəlmədi.

İyunun 17-də axşam saat 8-də Krasnı Yar tərəfdən qaçan əsgərlər gəlib oranın dabravollar tərəfindən işğal edilməsini xəbər vermişlərdir. Buna görə də qaçmaq lazım olduğunu söyləmişlərdir. Dabravollar oranın bolşeviklər tərəfindən təxliyə edilməsini bilməyib, bir saat 45 dəqiqə zərfində oranı bombardman etmişlərsə də, cavab alammamışlardır. Sonra vəkillər göndəriblər, vəkilləri orada heç kəs görməyib geri qayıtmışlardır. Bundan sonra dabravollar oranı işğal etmişlərdir. Bolşeviklər oradan Hacı-Tərxana getməyib, Maniç tərəfinə çəkilmişlərdir. Onlar Kuban kazaklarından qorxaraq Don tərəfinə getmək istəyirlər. Hal-hazırda Hacı-Tərxan heç kəs tərəfindən işğal edilməmişdir.

"Volnaya Kuban" qəzetəsi 19 iyun tarixli nömrəsində yazır ki, alınan xəbərlərə görə, bolşeviklər bilkülliyyə [tamamən] Hacı-Tərxanı boşaltmışlardır. Bolşevik donanması Volqa yuxarı getmişdir. Bolşevik əsgərləri də dəmiryol və paroxodlarla getməkdədirlər. Xəzər dənizində olan hamı mayaklar Serebryakov körpüsündən başlamış Hacı-Tərxana qədər bolşeviklər tərəfindən xarab edilmişdir. Volqanın dənizə qarışan yerində bir çox barjalar qərq edilmişdir. Ural kazakları şərqdən, İngiltərə-rus donanması dənizdən Hacı-Tərxana yaxınlaşmaqdadır.

## ŞİMALİ QAFQAZİYADA

İnquşistan hakimi general Malsaqov təhti-idarəsində [idarəsi altında] olan yerdə qarətgərlik və oğurluqla mübarizə etməkdən ötrü xüsusi alay təşkil etmişdir. Alay öz vəzifəsi ifasına başlamışdır.

**Çeçenlərin yığıncağı**

Dağılmış olan çeçen kəndləri nümayəndələrinin yığıncağı iyunun 14-də Qroznıda açılmışdır. Yığıncağın məqsədi Çeçenistanda xarab edilən kəndləri bərpa etmək üçün ümumi plan hazırlamaq məsələsini müzakirə etməkdir.





## NƏZARƏTLƏRDƏ

**Azərbaycan və Ermənistan**

Ermənistan Xariciyyə nazirinə bu məzmunda bir teleqraf göndərilmişdir:

*"Zaqafqaziya millətlərinin cümhuriyyəti elan edildikdən sonra Ermənistan və Azərbaycan cümhuriyyətləri daxilində qanlı müsadimələr [toqquşmalar] vaqe olmuşdur ki, qayət fəna nəticələr vermişdir. Keçən il müsəlman və erməni kəndlərinin dağılması, müsəlmanlarla ermənilər arasında olan qətl-qarət tərk edilmədi. Bunların həpsinin nəticəsi o oldu ki, bu cümhuriyyətlər daxilində külli müsəlman və erməni fərariləri [qaçqınları] yığıldı. Ona görə də müsəlmanlarla ermənilər arasında mübahisə və gərginlik başlandı. Ən ibtida [ən başda], Zaqafqaziya cümhuriyyətləri elan edildikdə, bu cümhuriyyətlər üçün qayə və əsas qonşular arasında hüsn-rəftar sanılmışdı. Məəttəəssüf [təəssüf ki], yuxarıda zikr edilən səbəblərə görə, bu hüsn-əlaqəni bərpa etmək olmayır. Bu hadisələri ədalətə müvafiq və tərəfgirlik etmədən təhqiq eyləmək və bu cür hadisələr təkrar olmamaq üçün lazım gələn tədbirlər ittixaz etmək [tədbirlər görmək], hakəza [həmçinin] ən kəskin hal kəsb edən qaçqın məsələsini islah etmək adi gözəl əlaqənin başlanmasına yeganə bir vasitə olardı. Buna görə Azərbaycan hökuməti Ermənistan hökumətinə təklif edir ki, yuxarıda zikr olunan məqsədlə Ermənistan, Azərbaycan hökumət və Parlaman üzvlərindən ibarət bir komisyon təşkil edilsin. Azərbaycan hökuməti ermənilər lazım görsələr, mədəni Avropa və Amerika nümayəndələrinin də həman komisyona daxil olmalarına heç bir vəch ilə mane deyildir.*

*Xariciyyə naziri əvəzi:*
*Adil xan Ziyadxan"*

## DAŞNAKLARIN MÜFƏTTİNLİYİ

Xunxar [qaniçən] və dünya üzünə gələndən bu günədək məzlum demokratiya [xalq] qanı tökməkdə olan daşnaklar gecə-gündüz müfəttinlik [fitnəkarlıq], iftiraguluq [iftiraçılıq] yapıb müsəlmanları, xüsusən türkləri olmazın xəyanətlərdə ittiham etməyə, onların arasında hərdənbir müşahidə edilən hərəkata əksinqilab və ittihadi-islam [islam birliyi] rəngi verib Yevropa nəzərindən salmağa çalışırlar, qəzetələrinin bir nömrəsini fitnə və böhtanla dolu məqaləsiz keçirməyirlər. Nümunə üçün "Aşxatavor"un 126[-cı] nömrəsinin "Şərqin əksinqilabçılığı" sərlövhəsində baş məqaləni götürəlim:

*"Düvəli-müttəfiqənin [Müttəfiq dövlətlərin, Antanta dövlətlərinin] İstanbula daxil olub Yeni türklərin məğlubiyyətlərinin əvvəl günlərindən "Aşxatavor" şərqdə, müsəlman aləmində müxtəlif qara qüvvələrin əksinqilab hərəkatında bulunmaqlarını hamıya bildirməyə çalışır. Bunu göstərmək üçün lazım idi müvəffəqiyyətsiz bir hərəkat. İndi isə ona ehtiyac qalmayıbdır. Çünki həman hərəkat öylə halət kəsb edib [elə vəziyyət alıb] və bütün Yaxın Şərqin başı üstə öylə bir təhlükə asıbdır, hamı onu görüb-duya bilir. Mədəniyyət, siyasət və zəhmətkeş sinifinin əleyhinə nəhayət dərəcədə böyük və təhlükəli bir əksinqilab iğvası [oyunu, hiyləsi] hazırlanıb nizama salınmaqdadır. Bu öylə möh-*

*lik [ölümcül] təhlükədir ki, nəinki Qərbdə inqilab hərəkatını yox edə bilər, hətta bütün Şərqi sirayət [yayılma] təhdidi altına ala bilər.*

*Yeni türklərin səyləri açıq və aşkardır – hazırkı mütərəddid [qeyri-stabil] halətdən istifadə etmək. Bu qəsdlə ki, bəlkə özünə bir şey hasil ola və məqsədlərinə nail olmaq üçün pişəzvəqt [qabaqcadan] hazırladıqları proqramları üzrə iş görməyə [nail olalar]. İnqilabçılar tərəfindən meydana çıxarılmış tayfaların müqəddəratı kəndi ixtiyarlarına verilmək şüarı ilə istifadə edərək Jön türklər bir taqım cümhuriyyətlər təşkilinə şüru edirlər [girişirlər] ki, gələcəkdə əksinqilab hərəkatı başlandıqda özləri üçün hazır istinadgah olsun. Odur ki, Tələt, Ənvər binagüzarlığı [sərəncamı] ilə Azərbaycan, Axısxa, Qars, Naxçıvan, Araz, Ərzurum və Trabzon cümhuriyyətləri meydana gəlirlər ki, lazım olan vaxtda özlərinin qara fikirlərini yerinə yetirsinlər.*

*Digər tərəfdən də bolşevik hərəkatına bürünüb etilafçı hökumətlər [Antanta] əleyhinə camaat arasında narazılıq törədib, onların zəifliklərini, özlərinin müntəzəm olmaqlarını sübuta çalışmaqdadır. Hələbdə, İstanbulda, Trabzonda, İzmirdə olan qətliam hazırlıqları buna böyük bir dəlildir. O biri yandan da ittihadi-islam hərəkatı meydana gətirməyə çalışırlar. Bu yolda onlar avam camaatın fanatizmasını əllərində bir vəsilə edib də kamali-müvəffəqiyyətə nail olurlar. Əfqanıstan, Misir, Konya, Hindistan hadisatı Yeni türklərin bu siyasəti nəticələridir.*

*Hər yerdə vaxtında hazırlanmış böyük ittihadi-islam hərəkati-kəbirəsi [böyük hərəkatı] Ermənistandan tutmuş Qarabağa, Qarabağdan Misirə, Misirdən İstanbuladək bütün islam aləmində gördüyümüz hərəkat yeni türklərin həman bu səylərinin nəticəsidir ki, var. Şərqdə əlan [indi] müşahidə edilən hərəkat öylə bir böyük əksinqilab hərəkatıdır ki, onun müqabilində qeyri xırda hərəkatlar əhəmiyyətlərini itirirlər. O cəhətə, lazım gəlir ki, inqilabçı siniflər pişəzvəqt lazım tədbirlər ittixaz etməlidirlər ki, paşaların həmin əksinqilab hərəkatının önünü alsınlar. Yoxsa həmin hərəkat nəinki Şərqdə olan cüzi inqilabiyyunları, ola bilər hətta bütün mədəniyyəti nüfuzdan salar. İnqilabçılar bu hərəkatla şiddətli mübarizə başlayıb türklərin tükənməz zülüm iştahalarına birdəfəlik intəha verməlidir.”*

İştə fitnə, iştə provokasiya!

Erməni Milli Komitəsinin “Naşe vremya” qəzetəsi “erməni dilini bilmiş olsaydı” bizə eylədiyi töhmətləri geri götürüb “Aşxatavor”ların üzərinə yüklərdi.

## MƏTBUAT

Erməni siyasətçilər əskidən bəri adət etmiş olduqları həyasızlıqlarından əl çəkməyirlər. Türk millətinin yamanlığına sərf etdikləri hümməti bu vaxtadək özlərinin yaxşılığına işlətmiş olsaydılar, bəlkə çoxdan bəri rahi-nicata [qurtuluş yoluna] çıxmışdılar. Amma siyasətçilikdən vaz keçməyirlər. Bütün erməni demokratiyası [xalqı] həman bir neçə siyasətçinin intriqası qurbanı olaraq xoş günə həsrətdirlər. Əzcümlə [o cümlədən] Qarabağ erməniləri dinc, farağat yaşamaq arzularına rəğmən, intriqa fədası olub nəhayət dinc qonşuları olan türk əhalisi ilə qanlı toqquşmaya belə vardılar. Şimdi erməni hökuməti öz siyasətlərinin nəticəsi olan Qarabağ hadisəsindən istifadə edərək Azərbaycan hökumətinə bir protesto notası təqdim etmişdir. Rus dilində nəşr olunan “Azərbaycan” rəfiqimiz həman protestonun əsassız və erməni hökuməti məlumatının həqiqətdən uzaq olduğunu göstərərək yazır ki:

*“Fəqət erməni mütəassib [mürtəce] mətbuatı və erməni siyasi dairələrinin Qarabağ məsələsi ətrafında qaldırdıqları bunca səs-küy onun üçün deyil ki, mühüm bir hadisə vaqe olmuşdur, onun üçün deyil ki, bir dənə erməni kəndi talan edilmişdir, onun üçün deyil ki, İrəvan erməni camaatı həqiqi tədbirlərlə Qarabağ ermənilərinin əhvalını yaxşılaşdırmaq istəyirlər. Məqsəd və plan ancaq Azərbaycan hökumətini rüsvay edib Qarabağ məsələsi haqqında İngilis Komandanlığının fikirini dəyişməyə çalışmaqdır. Əgər Qarabağ ermənilərinin “vəliyyünnemətləri” bəzi “xadim”lərin siyasətçiliyi sayəsində mahalın sair qismindən ayrı düşmüş və bundan dolayı fəlakətə uğramış olan qardaşları üçün doğrudan da adi bir həyat şəraiti hasil etməyə çalışırsalar, başqa tədbirlər görməlidirlər. Onlar hadisatı təhqiq edər və görərlərdi ki, dağlıq hissə erməniləri səhrasız dolana bilməzlər və Qarabağda sülh və müsalimət [əmin-amanlıq] bərpası üçün tədbirlər görərlərdi. Fəqət bu vaxtadək bunu etməmişlərdir. Biləks [əksinə], general-qubernatorun hər növ sülhcuyanə [sülhpərvər] təşəbbüsləri (buna dəlil-sübutlar var) erməni başçılarının şiddətli etirazına məruz qalmışdır. İrəvan siyasətçilərinin bütün böylə rəftarı Qarabağda milli ehtirasatı alovlandırmış və ermənilərin iqtisadi əhvalını daha da fənalaşdırmışdır. Qarabağda erməni kəndliləri və şəhər burjuaziyası Azərbaycan hökuməti ilə mübarizənin nahaq və mənasız olduğunu anlayıb mübarizədən yorulmuş və siyasətlərini dəyişmişlərdir. Məclisi-Məbusan heyətinin təhqiqat və istintaqından anlaşıldığı üzrə, onlar dərk etmişlərdir ki, Azərbaycan hökumətini qəbul etmədikcə nizam və asayiş və vadi ilə əlaqə hüsulu mümkün olmayacaqdır. Qarabağda bizim tədrici, azar və əziyyətsiz fəaliyyətimiz nəticəsində Qarabağ məsələsinin qurtarması yaxınlaşmışdı. Fəqət birdən-birə Qarabağda tam asayiş bərpa edilmiş, möhkəm və mütəşəkkil hökumət idarəsi vətəndaşlara tam səlamət və əmin-amanlıq təmin etdiyi bir zamanda, erməni kəndliləri maddi və iqtisadi rifah hallarının tamamilə vadi ilə sıxı əlaqə hüsulu ilə mərbut [bağlı] olduğunu və bunun da ancaq hökumət idarəsi altında əmələ gələ biləcəyini anladığı halda, İrəvan agentlərinin təəssüb sərməstliyindən ayılmış olan Qarabağ erməniləri bütün erməni həyatında Qarabağın biyaban içində bir vahə kimi qaldığını, bu da Azərbaycan hökuməti tərəfindən saxlandığını gördükləri bir zamanda, böylə bir zamanda erməni hökuməti haqsız notası və mütəşəkkil gurultuları ilə Qarabağda erməni-türk münasibatında sönmək üzrə olan ehtirasata bir də od vurur."*

Rəfiqimiz pək haqlı olaraq erməni hökumət və məsuliyyətli siyasi dairələrinin böylə xətti-hərəkətinin ermənilər üçün pək ağır nəticələr verə biləcəyini qeydlə, iki cümhuriyyət və millətin sülh

və müsalimətlə yaşaya bilməsi üçün ədalətli rəftar və hadisati-siyasiyyəyə [siyasi hadisələrə] haqq və ədalətlə baxmaq lüzumunu göstərərək, axırda bu məsələdə Azərbaycan hökumət və siyasilərinin rəftarına keçərək yazır ki:

*"Azərbaycan hökuməti və siyasi dairələri Qarabağ haqqında möhkəm və müəyyən bir vəziyyət almışlardır və öz xətti-hərəkətlərini sülhcuyanə və hüquq əsası ilə davam etdirəcəklərdir. Qarabağ məsələsində özlərinin haqlı olduqlarını dərk və Qarabağın səadət və rifah halını bütün Azərbaycanın səadət və rifah halı hesab edərək biz Qarabağ məsələsi ətrafında rəsmi və qeyri-rəsmi agentlərin fəaliyyətinə qarşı laqeyd qala bil[m]əriz."*

## BAKI XƏBƏRLƏRİ

### Denikin casusları

Yalama mövqifinin [stansiyasının] sərhəd naçalniki Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinə məlum etmişdir ki, gecə o, bir nəfər minik tövqif [həbs] etmişdir ki, onda bir dənə də əks götürən makina, topoqrafiya alatı [alətləri] tapılmışdır. Yalama və Xaçmaz mövqiflərində miniklərin vəsiqələrini təhqiq etmək üçün xüsusi məmurlar qonulmuşdur.

## AZƏRBAYCANDA

### Lənkəranda

Lənkərandan Bank təriqi [yolu] ilə Bakıya gələnlər xəbər verirlər ki, hərçənd əhalinin əksəri Lənkəran Şura hökumətinə meyil və məhəbbət bəsləməyirlərsə də, lakin Lənkəran asudəlikdir. Şura hökumətinə Privolnoye və Qriqoryevo nam [adlı] iki kənd müavinət edir. İcra komitəsinin başında Tituşkin dayanmışdır. Bolşeviklər orada hələlik heç bir ciddi tədbir göstərməmişlərdir. Yalnız bir çox həbs və edamda bulunmuşlardır. O cümlədən Sentrodomun [Mərkəzi Ev Komitəsinin] nümayəndəsi Kuznetsovu atmaqla qətl etmişlərdir. Burjuaziyadan təzminati-hərbiyyə almağa hazırlanırlar. Lənkəranlıların əlində paroxod yoxdur. Yalnız balıq və motor lodkalarından istifadə edirlər. Bunlarla Banka göyərti gətirib oradan paroxoda verirlər. Sara cəzirəsində [adasında] vaqe balıq mədəni dayanmışdır. Əmələlər ərzaq almadığına görə aclığa mübtəla olmuşlardır. Külli göyərti ki, daima Bakı ondan istifadə edirdi, şimdi dəyilməmiş qalmaqdadır.

## ERMƏNİSTANDA

### Türkiyə ermənileri və Parlaman seçkiləri

Türkiyə ermənilərinin Erməni Parlamanı seçkilərində nə cür vəziyyət alacaqları məsələsini aşkar etmək qəsdi ilə iyunun 12-də Aleksandropolda [Gümrüdə] qərb rayonu ermənilərinin bələdiyyə idarəsi salonunda ümumi iclasları olmuşdur. Qarabet Qaraxanyan sədarət etmişdir. Bir çox nitqlərdən sonra müttəhidülqövl [yekdilliklə] aşağıdakı qətnamə qəbul edilmişdir:

1) Poqos Nubar paşa Kabinəsi təbrik edilsin.





2) İrəvan, yəni Erməni Qərbi Şurasının üsulsuz tərzi-hərəkəti əleyhinə protesto edilsin.

3) Ararat hökumətinə müraciətən təklif edilsin ki, hökumət özünü müvəqqəti elan eyləsin. Bu da belə edilməlidir ki, həqiqi hökumət Poqos Nubarın Kabinəsindən ibarətdir.

4) Hərgah Ararat hökuməti mayın 28-də istiqlaliyyət haqqında elan etdiyi əqdnaməni – ki bu əqdnamə ilə hökumət özünü müttəhid [vahid, birləşmiş] Ermənistan və daimi hökumət elan edir – dəyişməsə qərbi (Türkiyə) erməniləri seçkilərdə iştirak etməyəcəklərdir.

### Qars və İğdır dəstələrinin məlumatı

Diqor icmasına mütəəlliq [aid] olan Sakop kürdləri Arğaca hücum etmişlərdir. Qorxanda olan qara-mal qovulub aparılmışdır. Hücum edənlərdən biri tutulmuşdur. Alınan xəbərlərə görə, Əlimirzə Xarababazar dərəsindədir. Belə görünür ki, Əlimirzə köçəriləri Simaxa müşayiət etmək fikrindən daşınmışdır. Mərdənək səmtində üç nəfərdən ibarət kürd dəstəsi iyunun 15-də Muzaret kəndinə hücum etmişdir. Erməni dəstələrinin köməyi ilə hücum dəf edilmişdir. Dördkilisə və ona yaxın rayonlarda min nəfərdən ibarət kürd dəstəsi olduğu kəşf edilmişdir.

### İğdır dəstəsinin məlumatı

Erməni komandanlığının tələbatına baxmayaraq, kürdlər dinc əhali üzərinə hücum və əhalini qarət etməkdə olduqlarından, cəza dəstəsi göndərilmişdir. Kürdlərin quldur dəstələri dağıdılmışdır.

### Amerika Səfarətini qarət

Müsəlləh [silahlı] müsəlmanlar Urmiyədə Amerika heyəti binasına hücum etmişlərdir. Burada Amerika heyəti ilə qayıtmış olan erməni və assuri qaçqınları yaşayırmış. Üç yüz nəfər ölüb, yüz əlli nəfər yaralanmışdır. Amerika heyəti sədrinin oğlu yaralanmışdır. Sədrin arvadına təcavüz olmuşdur. Şayiata görə, Amerika konsulu və Urmiyə sabiq general-qubernatoru Urmiyəyə azim olmuşlardır [getmişlər].

### Davidxanyan

Erməni hökumətinin Ümuri-Xeyriyyə Nəzarəti [Sosial Təminat Nazirliyi] Bakı erməni məhəlli [yerli] əhalisinin halını öyrənib Azərbaycanda nümayəndə təyin edilməsi haqqında müzakiratda bulunmaqdan ötrü Tiflisdə olan nümayəndəsi Davidxanyanın Bakıya əzimət etməsi [yola düşməsi] binagüzarlığını [sərəncamını] vermişdir.

### Kürdlər Ermənistana göndərilir

Türkiyə hökumətinin təşəbbüsatına görə, 10 min nəfərdən ibarət birinci kürd karvanı şərqi vilayətlərə göndərilir. Türkiyə hökuməti yolda onlara hər cür müavinət olunması üçün tədbirlər ittixaz etmişdir [tədbirlər görmüşdür].

**Corab maşını**

Hər bir əşyası ilə nömrə 14, qrammofon plastinkaları ilə, köhnə işlənmiş simli skripka və telefon aparatı satılır. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Kamenski küçə, nömrə 52. Səhər saat 10-dan 6-ya qədər.

*10254 1*

**Diş həkimi R. S. Fuks**

Qəbul edir: 9-dan 10-a dək; 5-dən 7-yə dək. Ünvan: Mariinski, nömrə 18. Ferdinandın aptekası ilə bərabər. Telefon nömrə 34-15.

*10202*

**Berlin Darülfünunu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Petroqraddan gəlmiş doktor İshaq Avetisoviç Atayans (professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*8798*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti "Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**"Səddi-İskəndər"**

səh. 451. "Səddi-İskəndər": rəvayətə görə, İskəndər Zülqərneynin "yəcuc" və "məcuc" adlı qövmlərin fitnəsindən qorunmaq məqsədi ilə çəkdirdiyi möhkəm sədd.

**İran-Azərbaycan**

səh. 452. "İran qəzetəsinin tərəfindən": qəzetdə "tərəfindən" yerinə "tərəfimdən" getmişdir.

səh. 453. "Füstel de Kulanj": qəzetdə təhrif edilmişdir.

"Bustanüs-səyahət": Azərbaycan səyyahı və coğrafiyaşünası Hacı Zeynalabdin Şirvaninin əsəri.

"Həmdullah": XIV əsrdə yaşamış iranlı tarixçi və coğrafiyaşünas Həmdullah Müstəvfi nəzərdə tutulur; qəzetdə bu ad təhrif edilmişdir.

"Məsələyi-Şərqiyyə": Krayblisin "Rusiyanın Şərq siyasəti və vilayəti-şərqiyyə məsələsi" adlı əsəri nəzərdə tutulur. Bu kitab 1913 və 1916-cı illərdə İstanbulda çap edilmişdir.

səh. 455. "Milləti-Türk": Vamberinin 1885-ci ildə Leypsiqdə nəşr edilən "Das Türkenvolk" adlı əsəri nəzərdə tutulur.

"Mətinüssəltənə": İranlı qəzet naşiri Əbdülhəmid Səqafinin ləqəbi idi.

"Kamil": ərəb tarixçisi İbnül-Əsir İzzəddin əl-Cəzərinin ümumi tarix kitabı "əl-Kamil fit-tarix" nəzərdə tutulur.

"Fateh, Səlim, Süleyman": Osmanlı hökmdarları Fateh Sultan Məhməd (II Məhməd), Yavuz Sultan Səlim (I Səlim), Qanuni Sultan Süleyman (I Süleyman) nəzərdə tutulur.

"Rəşid və Məmun zamanlarında": Abbasi xəlifələri Harun ər-Rəşid və Məmun nəzərdə tutulur.

səh. 456. "Cüstaniyan": VIII əsrin axırlarından XI əsrin əvvəllərinə qədər müasir İranın Deyləm bölgəsində hökm sürmüş Cüstanilər xanədanı nəzərdə tutulur.

"Deyləmilər": İranın Deyləm vilayətində (dağlıq Gilanda) yaşamış tayfa.

"Qaani-əzəm": Monqol hökmdarı Məngü xan nəzərdə tutulur.

"Elxani-əzəm": Hülakü xan nəzərdə tutulur.

səh. 457. "Təzkireyi-Sadiq": Sadiq bəy Əfşarın Səfəvilər dövrü şair, rəssam və xəttatları haqqında biblioqrafik əsəri olan "Məcməül-xəvas" nəzərdə tutulur.

"Töhfeyi-Sami": Şah İsmayıl Xətainin oğlu Sam Mirzənin Səfəvi şairləri haqqında biblioqrafik əsəri nəzərdə tutulur.

**Sülh ətrafında**

səh. 459. "Babi-ali" (hərfən "uca qapı"): Osmanlı dövlətində Sədrəzəmin (Baş nazirin) sarayına verilən ad; beynəlxalq münasibətlərdə "Osmanlı hökuməti" mənasında işlədilirdi.

**Türküstanda**

səh. 461. "Aleksandrovsk fortu": Qazaxıstanın Mangistau (Manqışlaq) vilayətində yerləşən Fort-Şevçenko şəhəri.

**Hacı-Tərxanın son dəqiqələri**

səh. 462. "uzla" (uzel): saatda 1 dəniz milinə (1852 metrə) bərabər sürət ölçüsü.

"bir saat 45 dəqiqə": qəzetdə "1 saat 45 saat" getmişdir.

**Daşnakların müfəttinliyi**

səh. 463. "Yeni türklər": Osmanlı imperiyasında sultan II Əbdülhəmidə müxalif gənc ziyalılar nəslinin meydana gətirdiyi siyasi hərəkat olan "Jön türklər" (yaxud "Gənc türklər") hərəkatı nəzərdə tutulur.

**Mətbuat**

səh. 465. "vəliyyünnemət": birini bəsləyib böyüdən, saxlayan şəxs.

**Azərbaycanda**

səh. 466. "Bank": indiki Neftçala rayonunun Bankə qəsəbəsi nəzərdə tutulur.


آذربایجان

*“Azərbaycan” qəzetinin 213-cü nömrəsinin 1-ci səhifəsi*





**Cümə, 27 iyun 1919-cu il, nömrə 213**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 28 ramazanül-mübarək sənə 1337. 27 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## BAKI TİCARƏT VƏ SƏNAYE İTTİFAQI

Düyü, səbzə, pambıq və neft istehsalatı [neft məhsulları], ticarət və qeyriləri ilə maraqlananları cümə günü həziran ayının 27-sində axşam saat 5-də Birjanın salonunda (Qorçakovski, nömrə 1) vaqe olacaq iclasa dəvət edir. Ticarət, Sənaye və Ərzaq nazirinin binagüzarlığına binaən [sərəncamına əsasən] həll ediləcək məsələlər:

1) Kuban ilə mal dəyişilməsi barəsində;

2) Padşahlıq [dövlət] pullarının kursu artması barəsində.

*T-156*

Bakı Şəhər İdarəsi elan edir ki, təmmuz [iyul] ayının 1-də, səhər saat 11-də, Mixaylovski bağda (Krasnokrestovski və Nikolayevski küçələrin küncündə) olan kioskanı icarəyə verməkdən ötrü Təsərrüfat şöbəsi dəftərxanasında torq [hərrac] olacaqdır. Təfsilatı Təsərrüfat şöbəsi dəftərxanasında oxumaq olar.

*T-159*

Bakı Şəhər İdarəsi bununla elan edir ki, təmmuz ayının 5-də, səhər saat 11-də, Təsərrüfat şöbəsi dəftərxanasında şəhər kioskalarını icarəyə verməkdən ötrü torq olacaqdır. Kioskaların [yerləri]:

1) Bulvarda körpü ilə qarşı;

2) Bulvarda kupalnı [dəniz hamamı] ilə qarşı;

3) Azadlıq meydanında (Bolşoy Morskoy və Birjevoy meydanının küncündə).

Təfsilatı Təsərrüfat şöbəsi dəftərxanasında oxumaq olar.

*T-158*

Hökumət Teatrosunda
axşam tamaşası
**OPERETTA**
Zülfüqar bəy və Üzeyir bəy
Hacıbəyli müdiriyyəti
Cümə günü ramazanül-mübarək
ayının 28-də 1337 sənəsi
(iyun ayının 27-də 1919-cu ildə)
şükuhlu [təntənəli] bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır
Üzeyir bəyin
**“Arşın mal alan”** operettası
Soltan bəy – Ələkbər Hüseynzadə,
Əsgər – Sarabski, Vəli – Rza Darablı.
Biletlər teatrın kassasında
satılmaqdadır.
Tamaşa başlanacaq
iftardan sonra.

**MÜSƏLMAN ZİYALILAR İTTİFAQINDA**

Cümə günü həziran ayının 27-də, axşam saat 8-də Müsəlman Ziyalılar İttifaqının idarəsində (Voznesenski nömrə 3) səhiyyə kursu açılacaqdır. Yazılanlardan və xahiş edənlərdən rica olunur ki, təyin olunmuş vaxtda idarəyə təşrif gətirsinlər.

*10255*

**MƏŞİXƏTDƏN**

"Yə eyyühəlləzinə amənu in tənsurullahə yənsurkum və yusəbbit əqdaməkum". Sureyi-"Muhəmməd".

"Ey möminlər! Əgər siz Allaha nüsrət [kömək] edərsəniz, o da sizə nüsrət [zəfər] bəxş edər və müharibə meydanında sizin qədəmlərinizi sabit qılar." Allaha nüsrət – Quranı, islamiyyəti müdafiə üçün həyatını, övladını, malını, bütün mövcudiyyətini fəda etməkdir. Hər kəs canını fəda etsə, bütün cənnət həyatını qazanar və əbədi nemətə nail olar.

*Aşiq oldur kim, fəda canın qılar cananına,*

*Meyli-canan etməsin ol kim ki, qıymaz canına.*

Biləks [əksinə], hər gün gözümüzün bərabərində hüdus edən məsaibi-dəhridən [meydana gələn dünya fəlakətlərindən] ibrət almayanlar düşmənin qurşunu [gülləsi] ilə gələcək ölümdən qorxaraq övladını əsgər verməyib, məmləkəti ə'dayidin və vətənə [vətən və din düşmənlərinə] təslim etmək xəyalında olanlar və öz vücuduna və şərəfinə məbada bir asib [bəla] və ihanət yetişsin deyə camaat işlərindən mütləq özlərini kənara çəkənlər dünyada ən müdhiş bir ölümlə öləcəkləri kimi, Pərvərdigari-aləmiyan [aləmləri bəsləyən və yetişdirən Allah] hüzurunda böylə əməlləri cəhətə rəzil və rüsvay olaraq ən böyük cəzaya giriftar olacaqlar.

"Qul innəl-mevtəlləzi təfirrunə minhu fəinnəhu mülaqikum." Sureyi-"Cümə".

"Ya Məhəmməd! Onlara de ki, fərar etdiniz ölümdən, hərgiz xilas olası deyilsiniz, zira ölüm sizi əlbəttə mülaqat edəcəkdir [tapacaq, görəcək, sizinlə görüşəcək]." (Ölümdən qaçsan da, o, səni təqib edəsidir.)

*Negəhdar forsət ke aləm dəmist*

*Dəmi biş dana beh əz aləmist*

Məgər dünyada bir millətin namusu, istiqlalı, şəxsiyyəti-mənəviyyəsi pərişan olmaq qədər bir ölüm təsəvvür olunarmı?

Namus[u], istiqlalı məhv olduqdan sonra yaşamaqdansa, ölmək daha layiqdir. Həyati-həqiqiyyə ancaq düşmənin təcavüzündən məhfuz olan həyati-milliyyədir. [Həqiqi həyat ancaq düşmən təcavüzündən qorunmuş milli həyatdır.] Buna binaən [buna görə], həqiqətən yaşamaq istəyənlər həyati-milliyyələrini mühafizə üçün həyati-şəxsiyyələrini istehqar edərlər [heçə sayarlar] (necə ki, əshabi-kiram və əimmeyi-əthar [böyük səhabələr və pak imamlar] böylə yaşadılar və böylə də həyati-əbədiyyə qazandılar) və onun yolunda malını, övladını, həyatını fəda etməkdən çəkinməzlər.

Qardaşlar, huşyar [ayıq-sayıq] olun! Düşmən əvvəla məmləkəti məhv etməyə çalışır, bir kərə bu məqsədə nail olduqdan sonra, tədricən "dini" də ayaqlar altına alacağı şübhəsizdir. Buna görə, mərdanəliklə müdafiə üçün hazırlaşmaq lazımdır və belədə Denikinlər fasid [pozğun] olan niyyətindən nadim [peşman] olub fərara məcbur olacaqdır. Çünki, "Kolux əndazra padaşe səng əst", necə ki, böylə də oldu. Zira, Azərbaycan hökumətinin səbat və qərarını hiss etdiyindən sonra arzusu qəlbində qalıb, izhar etməyə də iqtidarı olmadı.

İştə, Azərbaycan hökumətini mühafizə etməkdə qövlən və feilən [sözlə və əməllə] ciddü-cəhd etməliyiz və bu təklif bütün əfradi-millətə [millətin bütün fərdlərinə] fərz və vacibdir. Və bu babdakı fərziyyəti [bunun fərz, lazım, vacib olduğunu] hər kəsdən əvvəl üləma [alimlər] bilir. Və indəllah [Allah yanında], indənnas [insanlar yanında] hər kəsdən əvvəl onlar məsuldur. Çünki vəzifeyi-təbliğ [təbliğat işi] onlara aid olduğu kimi, əlbəttə pişva olmaq [rəhbərlik etmək, başçı olmaq] da onların vəzifeyi-mühimməsidir.

Bihəmdülillah [Allaha şükür olsun], üləmayi-kiram [böyük alimlər] bu mətləbə kəmayənbəqi mültəfit olub da [lazımi dərəcədə əhəmiyyət verib də] bu əyyami-mütəbərrikədə [bu mübarək günlərdə], hər gün mənabirdə [minbərlərdə], ayat və əhadis mövcibincə [Quran ayələrinə və Peyğəmbər hədislərinə uyğun olaraq] xalqa təbliğatda bulunurlar və böyük əsər və fayda dəxi verir. Məəttəəssüf [təəssüf ki], camaatın əksəri məsaciddən rugərdan olub [məscidlərdən üz çevirib] ticarətə məşğul olmaqla məvaizi-bəliğəni istema etməkdən [bəlağətli moizələrə qulaq asmaqdan] məhrumdurlar.

"Qul ma indəllahi xeyrun minəl-ləhvi və minət-ticarəti vəllahu xeyrur-raziqin." Sureyi-"Cümə".

"Ya Məhəmməd! O[n]lara de ki, Allahtaala yanında olan əcr və cəza məşğul olduğunuz bica [boş, faydasız] işlərdən və hətta ticarətdən də yaxşıraqdır. Allahtaala ruzi verənlərin xeyirlisidir."

*Hər şəb əz əfğane mən bidar xəlq əmma çe sud*

*Anke bayəd naleyi mən beşnəvəd bidar nist*

Camaat! Bəsdir yatdınız, qəflət uyqusundan oyanıb keçmiş əsarət günlərinizi yada salınız və sonra indiki hürriyyət və istiqlaliyyət aləmi ilə bir müvazinə ediniz.

"Zərəbəl-lahu məsələn əbdən məmlukən lə yəqdiru əla şeyin və mən rəzəqnahu minna rizqən həsənən fəhuvə yunfiqu minhu sirrən vəcəhraən həl yəstəvunəl-həmduli-llahi bəl əksəruhum lə yələmunə". Sureyi-"ən-Nəhl".

"Allahtaala məsəl [v]urur: bir şeyə malik olmayan əbdi-məmluk [başqasının malı olan qul] ilə bizdən ona gözəl ruzi verilib, əvvəl dəxi gizli və aşkar ol malı infaq edən [xərcləyən, başqaları üçün xərcləyən] sahibi-iqtidar bərabər olarmı?! Həmdin [şükürün] təmamisi Allahtaalaya məxsusdur, lakin xalqın əksəri onu bilməzlər."

Pəs [elə isə], madam ki, əsarətlə hürriyyət aləminə fərq verib, hürriyyət və istiqlaliyyətin nə dərəcədə böyük səadət olmağını düşündünüz, dəxi mürgüləməyi buraxıb zövq, şövq və hümməti-təmam ilə Azərbaycan hökumətini himayə etməklə çalışınız. Zira, "İnnal-lahə lə yuqəyyiru ma biqövmin hətta yuqəyyiru ma bianfüsihim". Sureyi "Ər-rəd". "Allahtaala afiyət [sağlamlıq] və nemətdə olan bir camaatın nemətini təğəyyür etməz [dəyişdirməz], ta o camaat nəfsindəki əhvali-cəmiləni [gözəl halları] fəna və şayəstə olmayan [çirkin] əxlaqa təğəyyür və təbdil etməyincə [dəyişdirməyincə]."

İştə böylə neməti-qeyri-mütərəqqəbə [gözlənilməz bir nemət] olan hökuməti-islamiyyə qədir və qiymətini bilməzsək,

əl-iyazibillah [Allah eləməsin], əlimizdən gedər və o surətdə gələcək nəsillərimiz iləlabəd [sonsuzadək] bizlərə lənət oxumaqları mühəqqəq [şübhəsiz] və lənətlər də bizlərə şamil olasıdır.

Oyanınız, yoxsa dünya və axirət rüsvalığına düçar olmağızda şübhə yoxdur.

*Xab bəs ey xüftə, şəb bəsər-aməd,*
*Xiz ki, sübhəst, afitab bər-aməd.*

*Azərbaycan Cümhuriyyətinin*
*şeyxülislamı*
*Axund Ağa Ağaəlizadə*

**TELEQRAF XƏBƏRLƏRİ**

**Müharibə bitdi**

Bakıdakı ingilis ərkani-hərbinə [qərargahına] simsiz teleqrafla xəbər verirlər ki, Almaniya heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] Müttəfiqlərin sülh şəraitini qəbul ilə sülh müahidənaməsini [müqaviləsini] imza etmişdir. Bu münasibətlə mötəlif məmləkətlərdə [Antanta ölkələrində] böyük şadlıqdır. İngiltərədə üç gün bayram edirlər. Məhəlli [yerli] İngiltərə Komandanlığı Bakıda da bayram tərtib vermək fikrindədir.

Tiflis - İngilis ordusu ərkani-hərb naçalniki polkovnik Sanders İrana əzimət edir [yola düşür].

- Zaqafqaziyaya 75 min nəfər İtaliya qoşunu gəlir.

Lion - Romadan buraya xəbər verildiyinə görə, Orlando Kabinəsi istefa vermişdir.

- Son məlumata görə, Almaniya Kabinəsi istefa vermişdir.

**SÜLH ƏTRAFINDA**

London - İngiltərə hökuməti özünün Türkiyə siyasətini dəyişdirmişdir. İngiltərə Asiya cəhətində bulunan yerlərin Türkiyəyə verilməsinə razıdır. Fransa İngiltərənin bu siyasətinə tərəfdardır və ümid edir ki, bu yol ilə Türkiyədə siyasi və mali [maliyyə] nüfuza malik olacaqdır.

**Serbiya və Yunanıstan**

İyunun 23-də Liondan xəbər verirlər ki, Sülh Konfransı Serbiya ilə Yunanıstanın Sülh Konfransına çağırılacağı məsələsini müzakirə edib, sülh müahidənaməsinin [sazişinin] Almaniya tərəfindən imza edilməsini gözləməyi qərara almışdır.

**Sülh Konfransında xırda millətlər**

İyunun 23-də Liondan xəbər verirlər ki, Müttəfiqlər arasında nifaq davam etdikcə, hamı xırda millətlər beş müəzzəm [böyük] dövlət əleyhinə olaraq birləşirlər. Bratianu başda olmaq üzrə bu ittihadın [birliyin] məqsədi odur ki, Yunanıstan, Polşa, Romaniya, Serbiya və Gürcüstan Sülh Konfransından qəti-əlaqə edib [əlaqəni kəsib], beş müəzzəm dövlət əleyhinə blok təşkil etsinlər. Hərgah, onlara müəyyən pay verilməsi lazım olduğu təqdirdə Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] əleyhinə olsunlar. Venizelos olmasaydı, bu müttəhid [birgə] çıxış üç həftə bundan əvvəl ola bilərdi. Ancaq Venizelos bir qədər müddət gözlənilməsini tələb etmişdir.





İtaliyanın Cənubi Slav əleyhinə çıxışı nəticəsi olaraq böhran yaxınlaşmaqdadır.

**XƏZƏR DƏRYASINDA BOLŞEVİKLƏRİN HƏRBİ QÜVVƏSİ**

Xəzər dəryasında olan bolşevik qüvvəsi barəsində zeyldəki [aşağıdakı] müfəssəl məlumat verilir:

"1-ci ranqa kruvazeri" adlanılan böyük gəmiləri sabiq "Okean" paroxodudur ki, "Üçüncü İnternasional" namı [adı] verilmişdir. Bu gəmidə 4 ədəd 125 millimetrlik top, bir ədəd 47 millimetrlik və 1 zenitni top vardır. Sabiq "Bambaq" paroxoduna şimdi "İliç" namı verilmiş. Bunda 4 ədəd 100 millimetrlik və 1 ədəd zenitni top vardır. Sabiq "Kolumna", şimdi "Krasnaya znamya" paroxodunda 3 ədəd 100 millimetrlik, 1 ədəd 47 millimetrlik və 1 zenitni top vardır.

2-ci ranqa 2 kruvazer vardır. Sabiq "1-ci Makarov" paroxodu "Proletariya" namına çevrilərək 2 ədəd 100 millimetrlik və 2 pulemyot vardır. Baltik dənizində olan "Demosfen" paroxodu Fort-Aleksandvskda qərq edilmişdir.

2 turbalı [turbinli] eskadron minonos sabiq "Əmiri-Buxara" paroxodu "Yakov Sverdlov", sabiq "Fin" paroxodu "Karl Libknext" namına çevrilib, bunların hər birində 3 ədəd mina aparatı, birər zenitni top vardır. Bunların da birisi Fort-Aleksandrovskda qərq edilmişdir.

6 ədəd də 4 turbalı torpedoları vardır. Bunların hər birisində 2 mina aparatı vardır. Bunların da 3-ü Hacı-Tərxanda [Həştərxanda] təmir edilir.

Bunlardan əlavə, bolşeviklərin "Makrel" və "Pinyuqa" adında 2 sualtı qayıqları vardır. Bunların birisi də xarab olmuşdur. 3-cü sualtı qayığı hal-hazırda Saratov yanındadır.

12 ədəd Baltik dənizində[n] gətirilmiş müxrib gəmilər [destroyer] vardır. Hər birində 1 ədəd 47 millimetrlik bir zenitni top, 2 də pulemyot vardır.

"Kaspi" lodkasında 100 millimetrlik iki top vardır.

8 ədəd xırda barkaslar vardır ki, bunlar 75 millimetrlik toplarla təchiz edilmişdir.

Sualtı qayıqlarının üssülhərəkəsi [bazası] sabiq "Tsareviç Nikolay" paroxodudur ki, Fort-Aleksndrovsk altında məhv edilmişdir.

Müxrib gəmilərin üssülhərəkəsi "Tamara" paroxodudur. Hidroplanların üssülhərəkəsi isə sabiq "Ağasəlim" – "Roza Lüksemburq" paroxodudur.

Bundan əlavə, flot komandanının ştabası və iki batareya barjı [yük gəmisi] vardır.

O ki qaldı dəniz aeroplanına, bolşeviklərin bir neçə hidroplanları vardır ki, çox az teyr edirlər [uçurlar].

**VÜKƏLA ŞURASINDA**
**[NAZİRLƏR KABİNETİNDƏ]**

- Maliyyə nazirinin Dövləti Bank [Dövlət Bankı] nizamnaməsi əlavəsi haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Məruzə təsviblə [bəyənilməklə], təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

- Maliyyə nazirinin, Maliyyə Nəzarətinin Gürcüstanda güşad edilən [açılan] acentəliyinə bu vaxtadək siyasi nümayəndə hesabati-cariyyəsində olan məbləği verilməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maliyyə nazirinə tapşırılsın ki, Tiflisdəki Dövləti Banka bundan sonra hesabati-cariyyə üzrə fəqət Gürcüstandakı siyasi nümayəndə, Maliyyə Nəzarəti acentəsi və hesabdarının imzası ilə para buraxacağını elam etsin [bildirsin].

- Maarif nazirinin türk lisanında kitablar təlif edəcək [yazacaq] komisyon üçün 20 milyonluq fonddan 152.000 buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyonluq fonddan həman Təlifat Komisyonu məxaricatı üçün 152.000 rublə buraxılsın.

- Hərbiyyə nazirinin Məhəmməd Nağı oğlu, Əjdər Əbdürrəhim oğlu nam [adlı] əsgərlərə maddi müavinətdə bulunmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyonluq fonddan məzkur [adı çəkilən] əsgərlərə birdəfəlik verilmək üçün 5000 rublə buraxılsın ki, hər əsgərə 2500 rublə verilsin.

- Maliyyə nazirinin Bakı Xəzinəsinin xidmətçilərini müvəqqəti artırmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maliyyə nazirinə müvəqqəti olaraq Bakı Xəzinəsi xidmətçilərini artırmaq tapşırılsın. Bundan ötrü də 2 milyonluq fonddan 16.302 rublə 94 qəpik buraxılsın.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Maarif Nəzarəti sair nəzarətlərə müraciətən məlum etmişdir ki, höku-mətin mürəvvici-əfkarı [fikirlərini yayan orqanı] türkcə "Azərbaycan" qəzetəsi olduğu üçün nəzarət müəssisələri və məmurin [məmurlar] onun intişarı [nəşr edilməsi, yayılması] üçün həman qəzetəyə abunə yazdırmaq barəsində lazımi binagüzarlıqda bulunulsun [göstəriş verilsin].

Məsai [Əmək] naziri bütün təhti-ixtiyarındakı [tabeçiliyindəki] müəssisə və məmurlara xəbər vermişdir ki, türkcə "Azərbaycan" qəzetəsi yazdırmalıdırlar.

- Pokrovka, Nikolayevka və digər kəndlərin əhalisi Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] müraciətən rica etmişdir ki, öz ərazi hissələrindən istifadə etmək üçün onlara şəhadətnamə verilsin. Ümuri-Xeyriyyə və Nafiə nəzarəti Ərazi Nəzarəti nəzdində bu barədə təşəbbüsatda bulunmuşdur.

- Vükəla Şurasının [Nazirlər Kabinetinin] 16 iyundakı iclasında qət edilmişdir ki, Daxiliyyə və Hərbiyyə Nəzarətləri etilafı [razılığı] ilə Morul kəndindən üşr toplanmış 624 pud buğda, 300 pud arpa o kəndin füqəra əhalisinə paylamaq üçün Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə təhvil verilsin. Bu barədə nahiyə müfəttişinə məlumat verilmişdir.

- Quba qəzasının Şabran köyünün Dağıstan, Kuban və Terek nahiyələrində yaşayan 21 külfət[i] Ümuri-Xeyriyyə və Nafiə Nəzarətindən öz yerlərinə köçməyə müsaidə [icazə] istəmişlərdir.





Ümuri-Xeyriyyə və Nafiə Şurasında onlara müsaidə verilmək haqqında təşəbbüsatda bulun[ul]muşdur.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti təhti-ixtiyarında [tabeçiliyində] hal-hazırda başqa-başqa millətlərə mənsub 700-dən ziyadə ətfal [uşaq] olmaq üzrə bir qaç darüleytam [yetimxana] mövcuddur ki, uşaqlar üçün əlbisəlik 7000 arşınmalı lazım gəlir. Hal-hazırda bu qədər mal almaq üçün 500 min rublə lazımdır. Binaənileyh [ona görə], Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Vükəla Şurası [Nazirlər Kabineti] nəzdində malın və yaxud məbləğin təxsisi [ayrılması] haqqında təşəbbüsatda bulunmuşdur.

- Şamaxını təcdid[ə] [bərpa etməyə] Beynəlidarə Komisyona [İdarələrarası Komissiyaya] Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən məşhur mühəndis Abramoviç dəvət edilmişdir. Həman komisyonun əzası [üzvü] ən yaxın zamanda bir çox işlərdən ötrü Şamaxıya azim olacaqdır [yola düşəcək].

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Vükəla Şurasına müraciətən məlum etmişdir ki, qaçqınlar məsələsini nizama salmaqdan ötrü təcili surətdə qaçqınlara toxum və ziraət, fəllahət [əkinçilik, kənd təsərrüfatı] alətləri verilməlidir. Bundan ötrü 1 milyon 500 min rublədən az olmamaq şərti ilə bir məbləğ təxsis edilməlidir. Buğda, taxıl bitdikdən sonra qaytarılmalıdır. Makinalar isə siyahı üzrə saxlanılmalıdır.

- Məsai Nəzarəti [Əmək Nazirliyi] bütün müəssisələrə məlum etmişdir ki, 13 iyun nümayişlərində iştirak etmiş fəhlələrin günü üzrü hesab olunaraq maaşları verilməlidir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Şamaxı Nahiyə müfəttişinə müraciətən rica etmişdir ki, təcili surətdə Şamaxı qəzası və Şamaxı şəhərinin əhalisinin əhvalını yaxşılaşdırmaqdan ötrü öz nəzəriyyatını xəbər versin. Bununla bərabər, oradakı darüleytam [yetimxana], iaşə məntəqələrinə dair məlumat versin.

- Şamaxı qəzası qaçqınlar müvəkkili Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə məlum etmişdir ki, Naftluqi mövqifində [stansiyasında] Şamaxı qəzası qaçqınlarından 700-dək adam toplanmışdır ki, icazələri olmadığından cümhuriyyət daxilinə gələmməyirlər. Bunlar öz əvvəlki yerlərinə qayıtdıqları üçün yerli əhaliyə heç ziyanları olmayacaqdır. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti bu barədə Rəisi-vükəla nəzdində təşəbbüsatda bulunmuşdur.

## MÜLKİYYƏ MÜFƏTTİŞLİYİ

Rusiya istibdad idarəsi zamanında nəzarət [nazirlik] məmurlarının cümləsi üzərində yaxşı-yaman "revizor", "inspektor" adları ilə birər təftişçi vardı.

Bunlar məmurların rəftar və hərəkətləri ilə gördükləri işlərin qanuna müvafiq olub-olmadıqlarını daima təhti-nəzarətdə [nəzarət altında] bulundururlardı. Prokurorlar (müddəiyi-ümumilər) təqsirləndirdiyi məmurları işdən kənar və ya həbs edirlərdi. Bu kənar və həbsdən heç bir məmur qurtula bilməzdi. Heç bir elm,

heç bir ixtisas, heç bir fəzilət sahibini istisna edəmməzdi. Ən kiçik müəllimdən, əczaçıdan, müstəntiqdən ən böyük professor, həkim və advokata varıncaya qədər hər kəs bu ümumi qanuna itaət edirdi.

Əvət, böyük-kiçik, alim-cahil hər kəs prokurorun – bu "ədalət" məmurunun qərarı qarşısında baş əyirdi. Hər kəs məmuriyyəti başında bəlli-başlı birər "münkir-nəkir" durduğunu hiss edirdi. Lakin...

Lakin bir cür məmuriyyət vardı ki, o, hər dürlü sorğu-sual zəhmətindən, münkir-nəkir dərdindən azad idi. İştə o, Daxiliyyə Nəzarəti məmuriyyəti idi. Bu Nəzarətdəki məmurlar, yəni qubernatorlar, naçalniklər, pristavlar, məmləkətin ən lüzumlu, ən əhəmiyyətli, ən məsuliyyətli, ən nüfuzlu məmurları olduqları və hər kəsdən ziyadə bunlar qanuni-ədalətə tabe tutulacaqları yerdə, hamıdan artıq bunlar azad və müstəsna buraxılmışlardı. Məmləkətin bütün ictimai, ürfani, iqtisadi və sihhi [səhiyyə] həyatını əllərində tutan bu məmurlar hamıdan ziyadə keyfəmayəşa [özbaşına] hərəkət edirlərdi. Ən alim bir müəllimi, ən hörmətli bir doktoru, ən adlı bir hüquqşünası, ən zəhmətkeş bir aqronomu həbs etməyə ixtiyarı olan prokuror adi, cahil, rüşvətxor, müstəbid bir pristavı həbs etmək deyil, təkdir [məzəmmət] belə edəmməzdi.

Çünki onların bu keyfəmayəşalığına bir maddeyi-qanuniyyə [qanun maddəsi] ilə haqq verilmişdi. Aşkar haqsızlığa, aydın qanunsuzluğa "qanun" adı qoyulmuşdu və bu, çox da qəribə bir hal deyildi. Çünki qanunu yapanlar, kiçik keyfəmayəşalara yol verənlər böyük keyfəmayəşaçı idilər. Zatən istibdad vaxtındakı qanunların çoxu mühitin, zamanın, ehtiyacati-ümumiyyənin tələbindən artıq başdakı ağaların əfkari-məxsusələrini [şəxsi fikirlərini] tətmin və təmin idi. Buna görə, yalnız daxiliyyə məmurlarına azadlıq və hürriyyət bəxş edən 788-ci maddeyi-qanuniyyə vaxtilə çox da təəccüblü görünməyirdi.

Lakin son vaxtlarda oyanan əfkari-aliyyə əshabı [yüksək fikir sahibləri] bu maddənin büsbütün aşkar və gözəbatan bir qara ləkə olduğunu göstərib qışqırmağa başladılar. Lakin bunlar, bu qışqırıqlar ancaq birər "çax-çax" olmaqdan fəzlə bir iş görəmmədi. Dəyirman yenə öz bildiyini eyləyirdi.

Doğru, dəyirman öz bildiyini eyləyirdi, lakin çax-çaxlar da boş durmayırdı, onlar da səslərini, şiddətlərini artırdıqca artırırlardı. Axırda o dərəcə artırdılar ki, dəyirmanın boğazını toz-torpaqla doldurdular.

Günün birində, 1917 fevralın inqilabı ilə dəyirmanı, o böyük Rusiya dövri-səltənəsini dayandırdılar.

"Çax-çax baş ağrıdar, dəyirman öz bildiyini eylər" məsəlini dəyişdirdilər: "Dəyirman hərlənə-hərlənə sərsəmlənər, çax-çax səslənə-səslənə ayılır" halına qoydular.

İştə, bu ayıqlıq, zamanının qəhrəmanı olan Kerenskini meydana atdı. Onun əli ilə 788-ci maddeyi-qanuniyyəni kökündən dəyişdirdi. Onun yerinə: "Hər məmur cümhuriyyət qanunu nəzərində müsavidir [bərabərdir]. Müfəttiş və prokuror hər kəsi, hər məmuru həbs edə bilər. Bundan heç kəs müstəsna olammaz." düsturunu qoydu.





Bu dəyişmədən, bu neməti-hürriyyətdən hər kəsdən əvvəl Gürcüstan istifadə etməyə başladı. Digər nəzarət məmurlarının üstündə olan inspektorlar kimi, Daxiliyyə Nəzarətinə tabe qubernatorlar, naçalniklər, pristavların üzərinə də müfəttişlər təyin etdi və bu surətlə çoxdan Avropa məşrutə hökumətlərində cari olan bu üsulu əski Rusiya qanunlarına və üsuluna baxmayaraq qəbul etdi.

Cavan Azərbaycan vükəlası da [nazirləri də] bunun lüzumunu hiss etməkdə gecikmədi. Bu günlərdə bütün Daxiliyyə Nəzarəti məmurlarını, xüsusilə qubernatorları, naçalnikləri, pristavları, əxzi-əsgər [hərbi çağırış] idarələrini, polisə məmurlarını həmişə təhti-nəzarətdə bulundurmaq üzrə "Mülkiyyə Müfəttişliyi" namı [adı] ilə bir təftiş heyəti təşkil etdi.

Bu təzə idarənin müfəttiş və məmurlar ştatı ilə smetasını da qəbul etdi. İmdilik heyətin rəisi təyin edilmiş, müfəttişlərlə katiblərin təyinləri düşünülməkdədir. Təftiş heyəti əzasının [üzvlərinin] yaxında tamam olub işə başlayacağı ümid olunur.

Bu təzə idarənin bütün dəftərləri, yazıları, müxabirələri [məktubları, yazışmaları] yalnız türkcə olacaqdır.

## "GAVUR ARXI" VƏ QAÇQINLAR

Rusların Qafqazda yürütdükləri ümdə politikaları əhalini ruslaşdırmaq, bu da mümkün olmadığı təqdirdə ənvai məhdudat [müxtəlif məhdudiyyətlər] ilə yerlilərin güzəranını bir hala salmaq ki, daha yaşamağa qadir olammayıb Qafqazdan müzməhil [yox] olsunlar, ta ki yerlərini rus mühacirləri tutaraq Qafqazı xalis bir rus məmləkətinə döndərsinlər. Odur ki, Qafqazda öylə bir müəssisə bina olunmadı ki, əhalinin güzəranını asanlaşdırsın. Ali bir məktəb açılmadı ki, qafqazlılar onun vasitəsilə öz müqəddəratlarını əllərinə alsınlar. Yollar viran oldu, su arxları dolduruldu, məhz sövqül-ceyş [strateji] və Bakı neftindən mədaxil mülahizəsi ilə dəmiryollar çəkildi. Bir neçə yüz xaxolların mənafeyi üçün Muğan çöllərindəki kanallara yüz milyonlarla xəzinə pulları sərf olundu. Xülasə, hər nə yapıldısa, rusların xeyrinə və qafqazlıların şərinə yapıldı.

Hələ Azərbaycanın xanlıqlar dövründə bir çox arxları vardı ki, Kür və Araz çaylarından su gətirib Mil düzünü və Muğan çöllərini suvarırdı. Əhalinin əkin yerləri susuz qalmayırdı. Qafqazda yapılmış müharibələrin sayəsində bu arxların çoxu uçuruldu, torpaqla dolduruldu. Aradan bir az vaxt keçdi arxların halı unuduldu, bunları təzələmək fikiri hökumətin heç fikirinə də gəlmədi. Abad və münbit yerlər müruri-zamanla [vaxt keçdikcə] xarabalaşıb ilan-çayan yataqları oldu. İştə, bunun nəticəsidir ki, bu gün Azərbaycanın Muğan, Mil, Peyğəmbər və Şirvan kimi bir çox faydasız və bəzən müzirr [zərərli] səhraları mövcuddur ki, hərgah köhnə arxları sabiqki qərar üzrə təzələnərsə, oranın məhsulatı ilə Azərbaycandan əlavə Qafqazın sair millətləri də faydamənd ola bilərlər.

Xaraba qalmış arxlar çoxdur. Bunlardan ən məşhuru Gavur arxıdır ki, dəhnəsi [başlanğıcı] Arazdan götürülür, yüz verstlərlə böyük bir vadi sulayaraq Ağcabədi ətrafından keçib Kür çayına tö-

külür. Bu arxın indiyə qədər bir çox əlamətləri baqidir [qalmışdır]. Həştadıncı illərdə mərhum Əhməd bəy Cavanşir həman arxı təzələmək üçün bir çox pul və əmək sərf etmişdir. Arxın bir hissəsini də düzəldə bilmişdir ki, bu vaxt işin dayandırılması üçün Bakı qubernatorundan bir hökm almışdır. Biçarə Əhməd bəy hərçi [hər nə qədər] çalışdı sübut etdi ki, bu arxdan əhali ilə bərabər hökumət xəzinəsi də az mənfəət götürməyəcəkdir lakin rusluq politikasına mübtəla olmuş qubernator razı olmadı. Arx yenə yarımçıq qaldı. Əhməd bəyin də bir bu qədər çəkdiyi cəfa və əziyyəti hədərə getdi.

Bu gün Zəngəzur mahalında 40 minə qədər İrəvan qaçqınları toplaşmışlar ki, əsil vətənlərinə qayıtmaq istəməyirlər. Bunları neçə müddətdir ki, Azərbaycan xəzinəsindən çörəkləyib bəsləyirlər. Lakin 40 min camaatı parça-tikə loğmaları ilə doyurmaq mümkün deyil. Lazımdır ki, onların həmişəlik güzəranı üçün bir vəsilə aransın. Bu vəsilə də ancaq yeni bir yurddan ibarətdir ki, Azərbaycan ətrafında onlara verilsin gərək. Söz yoxdur ki, münbit yerləri vermək olmaz. Çünki onların sahibləri yersizlikdən şikayət edib hələ özlərinə daha yer istəyirlər. Binaənileyh [buna görə], qaçqınlara yer vermək lazım gələrsə, məzkur [deyilən] səhralara su çıxarıb oraları ziraət və fəllahətə [əkinçiliyə və kənd təsərrüfatına] qabil bir hala gətirməli ki, orada yaşamaq mümkün olsun. Bu da ancaq köhnə, məfluk [dağılmış] arxları təmir etməklə əncampəzir olar [həllini tapar].

Birinci növbədə Gavur arxını təmir etməlidir. Çünki bunun bir çox asar [izləri] və əlaməti qaldığı kimi, bəzi yerləri də mərhum Əhməd bəyin hümməti ilə tərtib verilmişdir. Bir az hümmətə və bir dəstə əmələ və fəhləyə ehtiyac vardır ki, az bir vaxtda həman arx təzələnib yüz illərcə tərk etmiş yerləri yenə də əvvəlki kimi suvarsın. Əmələ cəhətdən heç bir korluq çəkilənməz, zira qaçqınların həmısı canu-dil ilə bu işə qatlaşıb ən böyük ciddü-cəhd ilə çalışacaqlar zənnindəyəm. Nə üçün də çalışmasınlar ki, bu arx onların gələcək zindəganlığı [dolanışığı] üçün təmir olunur.

Əhli-xibrənin [mütəxəssislərin] də bu işdə fədakarlığı məmuldur [arzuediləndir]. Bu işdə ən böyük hümməti Əhməd bəyin qızı möhtərəmə Həmidə xanımdan gözləməlidir. Zira həman arxın planları və sair müfid [faydalı] məlumatları atasından irsən ona çatmışdır. Şübhəsiz ki, bu arxın təmiratını Azərbaycan hökuməti öhdəsinə götürmüş olarsa, xanım əfəndi də kamali-şövq və zövqlə ixtiyarında bulunduğu məlumatı hökumətə təqdim edəcəkdir.

Məsarifə gəldikdə, hökumətin bir qərardadı da qaçqınların məxarici üçün 18 milyon manat təxsis etməkdir. İştə bu puldan bir qədər bu işə sərf olunsun ki, qaçqınlar üçün əbədilik bir yurd təsis edilsin. Ümuri-Nafiə və Xeyriyyə [Sosial Təminat] idarəsinin də mülahizəsi budur.

Bu günlərdə Qarabağ vəkili teleqrafla Nəzarətə müraciət edərək vəsatət edir ki, Gavur arxının təmirinə izin verilsin. Əlbəttə bu izin gərək millət naminə verilsin. Çünki bu təşəbbüs tamam Azərbaycanın zəngin bir ölkə olmasına bais olacaqdır.

Bu arxın təmiratından sonra sairlərinin qeydinə qalmalıdır ki, vətənimizin abadlığı gündən-günə artsın.

*Fərhad Ağazadə*





## BAKI XƏBƏRLƏRİ

Ən yaxın zamanda Bələdiyyə İdarəsi bütün Şollar su kəməri xəttini təmirə şüru edəcəkdir [başlayacaqdır]. Lazımi materialların oğurlanacağı ehtimalına görə, Bələdiyyə İdarəsi Bakı valisinə müraciətən rica etmişdir ki, kəmər əşyasını mühafizə etməkdən ötrü 8 nəfər müsəlləh [silahlı] süvari, bir nəfər uryadnik təyini barəsində lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün]. Süvarilər Bakıdan Xudat mövqifinədək [stansiyasınadək] kəmər əşyasını mühafizə edəcəkdir.

### Qabbanın vüruduna dair

Aldığımız məlumati-mövsuqəyə [mötəbər məlumata] görə, Qabba bu gün Parisdən Bakıya varid olacaqdır [gələcəkdir].

### Kəndlilərin ricası

Bakı qəzası Ağdərə, Əmbizlər və Dabaqun kəndləri əhalisi qubernatora müraciətən onlardan alınmış olan 54 dənə vintovka tüfənglərin qaytarılmasını rica etmişlərdir. Onlar qaçaqların əziyyət etdiklərini göstərmişlərdir. Qubernator kəndlilərin ərizəsini təhqiqat üçün Balaxanı-Sabunçu qalabəyisinə [komendantına] göndərmişdir.

### Pambıqçıların ictiması

İyul ayının ortasında Bakıda pambıqçı, qoyunçu, ipəkçi və qeyri bu növ işlər sahiblərinin ictiması [yığıncağı] vaqe olub, bir çox mühüm məsələlər müzakirə və həll ediləcəkdir. İctimanın mütəşəbbisi [təşəbbüskarı] mühəndis Pekarsidir. Heyəti-mütəşəbbisə hal-hazırda işə şüru etmişdir [başlamışdır].

### Həbslər

* Bakı qubernatorunun binagüzarlığı [sərəncamı] ilə Qusar uçastoku sakinləri Abbas Cəlil oğlu, Abbas Qabaş oğlu, Həsən Ağaşərif oğlu, Sultan Fərzəli oğlu, Nəsrulla Molla Şahbaba oğlu və Mətləb Osman oğlu asayişi-ümumini pozmaqda müttəhim edilərək bir ay müddətinə həbsə alınmışlardır.

* Nügədi kəndi əhli Murtuza Əbdülxalıq oğlu müzirr [zərərli] şəxs olduğu üçün bir ay müddətinə həbs edilmişdir.

* Taxıl zaye edən həşərat ilə mübarizə edən komitənin müəllimi Georgi Spaqarov, Vasili Dorişov müzirr şəxslər olduqları üçün 3 ay müddətinə məhbus edilmişlərdir.

### Biçeraxovdan qalan mallar

Təhərri [axtarış] polis müdiri qradonaçalnikə məlum etmişdir ki, sabiq Biçeraxov dəstəsindən qalan əşya şəhərdə 5 dənə anbarda saxlanmaqdadır. Bu anbarlardan əvvəlincisi 4-cü uçastok dairəsində, qalanı isə 7-ci uçastokdadır. Bu anbarlar qıfıl ilə bağlanıb yanında qarovul qonulmuşdur.

### Dəvaxanalar açılması

Səhhəti-Ümumiyyə Nəzarətinin Səhiyyə şöbəsi Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə müraciətən rus və erməni təşkilatları tərəfindən həman məhəllələrdə dəvaxanalar [apteklər] açılmasından ötrü ərizələr verildiyini göstərərək, müsəlman hissəsində böylə dəvaxananın açılmasını tövsiyə etmiş və lazım olarsa, tezliklə bu barədə məzkur [adı çəkilən] şöbəyə ərizə verilməsini rica etmişdir.

**Ticarət naziri müavininin vürudu**

Neçə vaxt bundan əqdəm [qabaq] xidmət işlərindən dolayı Batuma getmiş olan Ticarət naziri müavini [Yusifəli] Əliyev və Nəzarət Dəftərxana müdiri [Abbasəli bəy] Makinski dünən Bakıya övdət etmişlərdir [qayıtmışdır].

**Bələdiyyə İdarəsində**

Bələdiyyə İdarəsinin Sihhiyyə [Gigiyena] Təbibləri Şurası Bakı qalabəyisinə müraciətən ümumi hovuzları olan hamamların qapadılmasını rica etmişdir. Böylə hamamlar bəzi müsri [yoluxucu] xəstəliklərin artmasına səbəb olurlar.

**Hökumətin binagüzarlığı**

Hökumət tərəfindən Tiflis Dövlət Bankına məlum edilmişdir ki, Azərbaycan hökuməti hesabına pul buraxıldıqda ancaq Gürcüstanda Azərbaycan siyasi nümayəndəsi, maliyyə acenti və acentəliyin hesabdarı imzaları ilə buraxılsın.

**Azərbaycan İctimaiyyuni-İnqilabiyyun [Sosialist İnqilabçılar] firqəsi**

Əzalarının [üzvlərinin] ümumi iclası cümə günü 27 həziran 1919-da axşam saat 5-də Fəhlə Klubu binasında vaqe olacaqdır. Müzakirə ediləcək məsələlər:

1) Əhvali-hazirə;
2) Komitənin bəyanatı;
3) Yeni komitə seçkisi;
4) Qəzetə və sair cari məsələlər.

Ümum yoldaşların vaxtında gəlməsi rica olunur.

*Bakı Komitəsi*

- Vaxtilə Bələdiyyə İdarəsi hökumətə müraciətən rica etmişdi ki, rus və digər Bakıda olmuş qoşunlar üçün şəhər su kəmərindən buraxılmış suyun 451.862 rublə 67 qəpik miqdarında pulu verilsin. Hökumət məsələni müzakirədən sonra Bələdiyyə İdarəsinin işbu təşəbbüsatını rədd etmişdir.

- Bələdiyyə İdarəsi bütün cəmiyyətlər və hökumətə xəbər vermişdir ki, heç bir halda məktəb binaları həcz [müsadirə] edilə bilməzlər. Zira, həcz edilmiş binalar hifzüssihhə [gigiyena] nöqteyi-nəzərindən ətfal [uşaqlar] üçün qayət zərərli bir hala gətirilir ki, tədrisat sənəsində həman evlərdə təlim etmək qeyri-qabil olur.

**Müəllimlər İttifaqında**

Bu gün Müsəlman Müəllimləri İttifaqı idarəsinin saat 10 tamamda 9-cu ibtidai məktəbdə iclası təyin edilmişdir. Məsələlər mühüm olduğundan, əzanın [üzvlərin] vaxtında gəlmələri mətlubdur [tələb olunur].

* Azərbaycan Cümhuriyyətinin Kuban siyasi nümayəndəsi dünəndən etibarən Don siyasi nümayəndəliyinə də təyin və təsdiq edilmişdir.

## ÇƏNBƏRƏKƏNDİNDƏ

Keçən cümə günü axşam saat 5-də Çənbərəkənd Qrajdanski Komitənin [Camaat Komitəsinin] iclası Məhəmmədhəsən Həsənov cənablarının təhti-sədarətində [sədrliyi altında] vaqe olmuşdur və bu qərarlar ittixaz olmuşdur [çıxarılmışdır]:





1) Çənbərəkənd məscidinin həyəti təzədən qəbiristanlıq olmuşdur və qəssalxana dürüst eyləmişlərdir [düzəltmişlər]. Bunların tərk olmasına iqdamat [təşəbbüs] olunsun, tərk olunması Hökumətə ittila [xəbər] verilsin;

2) Könüllü orduları düzəlir; məscidin həyətində düşənbə [bazar ertəsi] günündən məşqlər başlansın;

3) Yay zamanıdır. Üfunəti və naxoşluğu rəf etməkdən [aradan qaldırmaqdan] ötrü, küçələrin və həyətlərin zibillərini aparmaqdan ötrü Bələdiyyə İdarəsinə rücu [müraciət] olunsun və tezliklə təmizlənməsi xahiş ol[un]sun;

4) Böyük Çənbərəkənd küçəsində bir lampa (fanar) yoxdur. Laməhalə [lazımdır ki], fanarların əvəzində elektrik işığı çəkilsin;

5) Ağaqədir Qədirov məscidə elektrik çəkir öz xərci ilə, Komitə ona camaat dilindən izhari-təşəkkür edir;

6) Ağabala Şükür oğlu "Səfa" mədrəsəsinin zamoklarını çıxardıb aparıbdır və təklif də olunubdur, nəinki verməyir, hətta etina da etməyir. Bu barədə Hökumətə rücu [müraciət] olunsun;

7) Məscidin pullarını bu vaxta qədər kim alırsa, zəhmət çəkib nəqibə [camaatın rəhbərinə; vəqf, cəmiyyət kimi qurumların başçısına] haqq-hesab versin və minbəd [bundan sonra] məscidin dükanlarından bir kimsənin ixtiyarı yoxdur kirayə almağa, nəqib Mirhəsənovdan başqa;

9) Əxzi-əsgəriyyədən [hərbi çağırışdan] qaçanların, siyahıya daxil olmayanların, İran təbəəsi və qeyri təbəəyə daxil olanların siyahısın[ı] tərtib verməkdən ötrü və bunları bir dəfə olaraq təmiz və dürüst etmək üçün sədr Həsənov cənabları bir layihə tərtib veribdir. Hökumətə rücu edibdir ki, icazə hasil olsa, onları arastə etmək [qaydaya salmaq] və işin sərkeşliyini [rəhbərliyini] öz öhdəsinə götürmüşdür;

10) Kasıb və fəqirlərin siyahısı itmama yetmişdir [tamamlanmışdır]. Onları Müsəlman Xeyriyyə İdarəsinə təqdim etmək qərara alınmışdır;

11) Məhəllədə yaşayan bikar adamlara təklif olunmuşdur özlərinə sənət tapsınlar, vəilla [yoxsa] oğurluğa və qeyri işlərə mübaşir olsalar [girişsələr], hökumətə ittila [xəbər] veriləcəkdir;

12) Neçə nəfər kənd əhllərindən əxzi-əsgəriyyədən qaçıb Çənbərəkəndində pünhan olmuşdurlar. Məhəllə pristavına ittila bu barədə verilmişdir.

## SENTRODOM "FƏQƏRƏSİ" [ƏHVALATI]

İyunun 22-də Sentrodomun [Mərkəzi Ev Komitəsinin] ümumi iclası vaqe olaraq Lənkəran əməliyyatı haqqındakı məsələ müzakirə edilmiş və məzkur [adı çəkilən] müəssisənin orada göstərmiş olduğu fəaliyyəti barəsində məruzəyə qulaq asılmışdır.

Məruzədən məlum olur ki, cəmiyyət bu vaxta qədər Lənkəranda taxıl almaqdan ötrü 5 milyon manat pul xərcləmiş, əvəzində ancaq 1200 pud taxıl ala bilmişdir.

Sentrodom və Təftiş Komissiyasının üzvləri böylə hərəkəti tənqid edərək izahat istədikdə, Sentrodom rəisi Leontyeviç tənqidə cavabən ağlar gözlə Sentro-

dom üzvü Kuznetsovun Lənkəranda bolşeviklər tərəfindən qətl edilməsinə izhari-təəssüf etmiş və öz nitqində məqtulun "dövləti adam" [dövlət adamı] olduğu üçün neçə milyonlarla əvəz edilməyəcəyini söyləmişdir.

Bir vaxt [Murtuza] Muxtarovun Sentrodom üzvü [Miron Yakovleviç] Şoru təhqir etməsindən ötrü çığır-bağır salıb qaraçılıq edən Leontyeviç öz nitqində Sentrodomun fəaliyyətini tənqid edənlərdən çox narazı qaldığını bəyanla, onları hətta hədələmişdir. Böylə ki, ümum iclas tərəfindən müttəfiqül-qövl [yekdilliklə] seçilib izhari-etimad edilmiş olan Təftiş Komissiyası rəisi İsmayılovun hərəkətini təhərri [araşdırma] hərəkəti və özünü "casus" adlandırmışdır. Təbiidir ki, onun böylə qaba hərəkəti müsəlman üzvlərinin protestosuna səbəb olmuş və qeyri-müsəlmanlar isə məsələni başqa bir vaxta buraxmağı təklif etmişlərdir.

Leontyeviç gözünün yaşı ilə Kuznetsovun vəfatını xəbər verib onun ideya yolunda ölməyi ilə 5 milyon manatın həzmi-rabedən keçməsini [yeyilməsini; mənimsənilməsini] "ört-basdır" eyləmək istəmişdir və bu barədə atçot istəyən Hənifə Tağıyevi "tərtib" [qayda, nizam] gözləməyə dəvət etmişdir. Böyləliklə, məsələ hələ "üstüaçıq" qalmışdır.

Öz nitqində Leontyeviç Şimali Qafqaziyada gördükləri xarabazarları üzvlərin nəzərindən keçirib bolşeviklərə çoxlu nifrin və lənət oxumuşdur.

Lənkəran "məsələsinin" də böylə "zərərli" olmasına bolşevikləri göstərmişdir. Amma bunu da əlavə edir ki, bir vaxt məşhur "sosialist" Suxorokov və Çurayevə dəxil düşmüşdür [sığınmış, onlardan kömək istəmişdir].

Şayani-qeyd və əhəmiyyət orasıdır ki, Leontyeviç Lənkəranda çarpışmaqda olan iki qüvvəni – İlyaşeviç ilə [V. D.] Suxorokov dəstələrini birləşdirmək qəsdi ilə hər iki tərəfdən onlara doğru "hərəkət" etmişdir.

Amma nədənsə bununla onlara üçüncü bir qüvvəni dəxi əlavə etmişdir ki, o da "dövlət kişisi" olan Kuznetsovdur.

Bu kişi şəhərin ən "fəqir" hissəsi üçün azuqə gətirmək qəsdi ilə iqtisadi bir vəzifə üçün oraya gedib də "siyasiyyata" qarışdığından, "dövlət nöqteyi-nəzərindən" canını Leontyeviçə fəda etmişdir. Əlbəttə, bu "dövlətin" Azərbaycan olmadığı da sizə gözəl məlumdur.

O ki, qaldı "barj" [yük gəmisi] məsələsi, o da bir dərəcə "aydın" bir "məsələ"dir ki, bu nə üçün alınmışdır.

Nə isə, "məsələ" hələ müəlləq [havada, qeyri-məlum] qalmaqdadır.

Deyirlər ki, Sentrodom hökumət tərəfindən təftiş ediləcəkdir. Allah eyləsin!

Amma müfəttiş cənablar bir qədər ehtiyatla davranmalıdır ki, onu Leontyeviç "dövlət nöqteyi-nəzərindən" İsmayılov kimi "casus" adlandırmasın. İsmayılov bu sözün cavabında bir söz deməyib, onu heç bir adla yad etməyib üzr istəməsini tələb etmiş və Leontyeviç də təəssüf izhar etmişdir.

Biz isək belə cavab verərdik:

Əvət, sizin kimi xainlər və nəməkbəharam [nankor] "diplomat" hariflərin hökumət əleyhinə olan hərəkat və siyasiyyatına qarşı biz həmişə "casus" olacağız.

*P. M.-də*





## DƏMİRYOLUNDA

### Kəndlilərin ricası

Suraxanı uçastok dairəsində olan kənd lərin əhalisi Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Bakı Komitəsinə bir ərizə verərək Suraxanı-Sabunçu arasında dayanmaqda olan minik qatarlarının müsəlman qadınları rahatlığı üçün məzkur [deyilən] yerdə bir platforma təmir edilməsini rica və arzu etmişlərdir. Komitə həmin ərizəni Türüq və Məabir Nəzarətinə [Nəqliyyat və Rabitə Nazirliyinə] göndərərək kəndi tövsiyəsini əlavə etmişdir.

### Dəmiryol qulluqçularına

Rəisi-vükəla [Baş nazir] və Daxiliyyə naziri Yusifbəyli tərəfindən ümum Azərbaycan dəmiryol müdirlərinə, Ağstafa, Yevlax, Hacıqabul, Biləcəri və Bakı mövqifləri [stansiyaları] xidmətçilərinə, Türüq-Məabir vəziri [Nəqliyyat və Rabitə naziri] və mayor Andersona zeyldəki [aşağıdakı] məzmunda bir məktub göndərilmişdir:

*"Gəncə mövqifi müdirlərinə təklif edirəm bütün qulluqçulara, əmələ və ustalara məlum edəsiniz ki, Gəncə mövqifində yol əmələləri tərəfindən 6 nəfər ingilis hərbi təyyarəçiləri tövqif [həbs] edilmişlərdir. Onların tezliklə azad və böylə hərəkətdən naşi [ötrü] izhari-təəssüf edilməsini [təəssüf bildirilməsini, üzr istənməsini] rica edirəm. Böylə bir hərəkət ümumi siyasi əhvalı ciddiləşdirib və məmləkətin demokratiyası arzularına müxalifət göstərmiş olur.*

*Rəisi-vükəla: Yusifbəyli"*

*"Bunu elan edərək ciddi tədbirlər ittixaz edilib [tədbirlər görülüb] və bundan sonra böylə hərəkətlərə mürtəkib olanlara [qarışanlara, dəxli olanlara] ağır cəzalar verilməsini əmr edirəm.*

*Türüq və Məabir naziri:*
*[Xudadad bəy] Məlikaslanov"*

*"Ümum dəmiryol mövqifləri müdirlərinə və agentlərə və İngiltərə Komandanlığı nümayəndəsi mayor Andersona.*

*İngiltərə Komandanlığı məmurlarına dəmiryol qulluqçuları tərəfindən qəbahət və bəd müamilə [pis rəftar] göstərildiyi üçün əmr edirəm ki, bundan sonra onlara lazımeyi-ehtiram edilib heç bir təhqiramiz sözlər denilməsin. Dəmiryol mühafizəsi məmurlarına əmr edirəm ki, əmrimin əməl edilməsini gözləyərək bir kəs tərəfindən etinasızlıq göstərildiyi vaxt tezliklə mənə məlumat və bəratülqövl [protokol] təqdim etsinlər. Sərhesab edirəm [xəbərdar edirəm] ki, əmrlərimə əməl etməyənlər ən şiddətli cəzaya düçar olacaqlardır.*

*Türüq və Məabir naziri:*
*[Xudadad bəy] Məlikaslanov"*

## AZƏRBAYCANDA

### Salyan və Ətrafının Müəllimlər İttifaqı

Həmin həziran ayının 14-də Salyanda realnı və edadiyyə məktəbində bütün Salyan və ətraf müəllimlərinin ümumi iclası olur. Məclisə sədr Yusif Qasımov cənabları və katibliyə Məhəmmədəli Şükürbəyli intixab olunur [seçilir].

Sədr məclisi açır və ictimadan [iclasdan] məqsəd Salyanda Müəllimlər İttifaqı düzəltmək olmasını bəyan edir. Ha-

mılıqla böylə bir ittifaqın düzəlməsi artıq vacib və lazım görülür.

Aşağıda adları yazılan 7 nəfərdən ibarət bir İdarə Heyəti seçilir:

1) Edadiyyə məktəbi müdiri Məhəmməd Əmin bəy Əfəndizadə;
2) Əlinağı Qasımov;
3) Əli bəy Qasımov;
4) Məhəmmədəli Şükürbəyli;
5) Molla Əziz Babazadə;
6) Mirzə İsmayıl Hüseynzadə;
7) Mina xanım Axundzadə.

Bunlara namizədlər:

1) Zeynalabdin Hüseynbəyov;
2) Mirzə Məhəmməd Zeynalov;
3) Zəbihulla Mollazadə.

Müəllimlərimizdən çoxunun üsuli-tədrisdən və təlim və tərbiyə elmindən nəhayət bixəbər, qayət zəif olub bunun da məktəb həyatına, çocuqlarımız ruhuna artıq fəna təsirbəxş olacağını nəzərə alıb qərar qoyulur ki, 3 ay yay tətilini müəllimlərimiz nümunə dərsləri desinlər və təcrübəli və bacarıqlı müəllimlər tərəfindən mühazirələr oxunsun. Cavan müəllimlərimizin bilik və təcrübəsini ucaltmaq və artırmaq və onları məclisə və mühazirəyə aşina etməkdən ötrü hələlik iki leksiya (mühazirə) oxunması qərara alınır.

Leksiya oxuyanlar Qazax Darülmüəllimin müəllimlərindən Yusif Qasımov cənabları və Salyan Birinci türk məktəbi naziri [müdiri] Əlinağı Qasımov olur.

Təyin olunmuş gündə leksiya oxunur. Yusif Qasımov cənabları təfsiri qiraətdən və üsuli-tədrisdən, Əlinağı Qasımov "məsələlərin həlli üsulundan" mühazirələr oxuyurlar.

Əvvəlinci mühazirə təfsiri qiraətdən mübahisəsiz keçir. İkinci mühazirədə mübahisələr vaqe olur. Ən maraqlı və qeyri-məkşuf [cavabı tapılmamış] mübahisə hesabda yazının soldan sağa və ya sağdan sola yazılmaq məsələsi olur. Bu məsələ üstündə çox mühavirə [danışıq] və mübahisədən sonra məclis hesabın soldan sağa yazılmaq tərəfdarı olur və qət edir ki, bu məsələni gözəlcəsinə həll və təfsir etməkdən ötrü mətbuat vasitəsilə ümum müəllim arxadaşlarımız nəzəri-im'anlarına [nəzər-diqqətlərinə] verilsin və əbədi olaraq bir qanun tərtib edilsin.

Əlavə, küçələrdə avara və sərgərdan gəzən yetim və biçiz [yoxsul] uşaqlar üçün 20 həziranda kurs açılması qərara alınır və kursa iki müəllim təyin olunur. Müəllimlər: Məhəmmədəli Şükürbəyli və Mirzə Əlinağı Qasımov. Kursa yazılan çocuqların bu halda əsamisi 40-ı mütəcavizdir [keçmişdir]. Bu çocuqların çoxu lüt və üryan olmaqla bərabər, qətiyyən təlim görməyənlərdir.

Ümumi bir qiraətxana açılmaq məsələsi də keçir və qəzetələr siyahı olunur.

*Əlinağı Qasımov*

## LƏNKƏRANDA

Bizim bədbəxt vətənimizin ən son hadisəsi – kəndi istiqlaliyyətləri uğrunda vətənlərini gələri ünsürlərdən qavramaq üçün cansiparənə [canla-başla] mübarizə edən astaralı müsəlman qardaşlarımızla bolşeviklərin müharibəsidir.

Müsəlmanların başçıları bunlardır: Hüseyn, İbrahim Xəlil və Hacı Osman.





Hacı Osman bu mahalın ən dövlətli adamlarından idi. Fəqət keçən il aprelin 25-də bolşeviklər Putəsər kəndini yandıranda onun bütün var-yoxu yandı və kəndisi də yalnız nağd pulunu alıb bu atəşdən can qurtara bilmişdi. Onlar burada 800 dükanlı böyük bazarı yandırmışdılar. Hacı Osman bu hadisədən sonra İran quldurlarının başçısı Ramazan oğlu Hüseynlə birləşdi. Məqsədi bolşeviklərdən intiqam almaqdı. Bu üç müsəlman başçılarının müsəlman əhalisi arasında çox nüfuzları vardır. Fəqət bolşeviklərin məğlubiyyətinə birinci səbəb (bilafərqi-dinümillət [din və millət fərqi olmadan]) bilümum [ümumiyyətlə] əhalinin kəndilərinə nifrətləridir.

Bolşevikliyi bir müsəlmanlar təqbih etməyir [pisləməyir], malakan, xaxol və qeyrədən başqa bu yaxınlaradək bolşeviklərin ümdə pənahları olan Muğan otryadı dəxi bolşeviklərdən üz çevirmişdir. Onlara kömək edən fəqət [sadəcə] Privolnı kəndinin camaatı – subbotniklərdir. Böyləliklə, Zaqafqaziyada sonuncu bolşevik sovdepiyasının [bolşevik hökumətinin] ömrünün tamamına çox az qalmışdır.

Axırıncı davada Hüseyn bolşeviklərdən bir araba güllə, 3 pulemyot alıbdır. Bolşeviklər 60 nəfər ölü buraxmışdırlar. Hüseyn Astaranı alandan sonra Azərbaycan Cümhuriyyətinə 3 nəfər nümayəndə göndərib Cümhuriyyətin nizam və qanun bərpasına kəndi məmurlarını göndərməsini rica edir. Əgər hökumət bu ricanı isaf [qəbul] etməzsə, münqəriz olmağa [dağılmağa] başlayan bolşevik hökuməti yenə möhkəmlənər.

Bolşeviklər Lənkəranı təxliyə və Sarı cəzirəsinə [adasına] köçmək məcburiyyətində bulunduqları zamanda əhalini Lənkəranı yandırıb tərk etməklə təhdid edirlər. Yenə hökumətə keçən məşhur intriqaçı və dövlət xəzinəsini oğurlayan [V. D.] Suxorukov müsəlmanlardan 6 min əsgər və 8 milyon təzminati-hərbiyyə istəyir. Bu, xalqın bədbəxtliyində kəndi səadətini görməyə alışan "hürriyyət qəhrəmanı" müsəlman xalqı arasındakı iğtişaş əfkarını təyid etmək [gücləndirmək] üçün 60 nəfər müsəlman ağsaqqallarını həbs etmişdir.

Denikin tərəfdarlığı ilə müttəhim edilib həbs edilmiş rus zabitləri bu vaxtadək həbsdən buraxılmamışdırlar. Şayiata görə, onların bir qismi bu yaxınlarda edam ediləcəkdirlər.

*Lənkəranlı*

## GÜRCÜSTANDA

### Gürcüstandan nəfy

Öz evlərində həbsdə saxlanan Zaqafqaziya Rus Cəmiyyəti üzvlərindən doktor Yerofeyev, mühəndis Antonov, Kəndçilər Bankının Zaqafqaziya şöbəsi müdiri İqnatyev, müəllim Şamov və keşiş Çepelyev Gürcüstandan nəfy [sürgün] edilmişlərdir. Mühəndis Antonov Batuma, qalanları Bakıya azim olmuşlardır [yollanmışlar].

### Dolu yağmışdır

İyulun 8-də Başkoy və Livadi kəndlərinə yumurta yekəlikdə dolu yağmışdır. Dolu bütün əkinləri xarab etmişdir. Başkoy kəndinin qaramalı doludan qaçıb dərələrə tökülüb tələf olmuşdur. Hər iki kənddən bir çox inək, qoyun, öküz tələf

olmuşdur. İki arvad və 3 uşaq suda boğulmuşdur. Dolu gündüz saat 1-də başlayıb, axşam saat 9-da kəsmişdir. Həman kəndlərə kömək olmasa, aclığa məhkum olacaqlardır.

**İtibdir**

Rüstəm Rza oğlunun Buxara hökumətindən aldığı 219 nömrəli birillik pasportu itibdir. Etibardan saqitdir [etibarsızdır].

*10255*

**Şağanda**

Buzovna yolu üstə Hacı Seyid Tağıyevin bağı icarəyə verilir. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Aziatski küçə, dalan nömrə 11, ev nömrə 1.

*10258*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş ibıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*10257*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*





**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Məşixətdən**

səh. 472. "Yə eyyühəlləzinə...": "Quran"-ın "Muhəmməd" surəsinin 7-ci ayəsi.

"bütün cənnət həyatını qazanar": qəzetdə "cənnət" yerinə "ümmət" getmişdir.

"Aşiq oldur kim...": beyit Füzulinin qəzəlindəndir.

"Qul innəl-mevtəlləzi...": "Quran"ın "Cümə" surəsinin 8-ci ayəsinin bir hissəsi.

"Negəhdar forsət ke aləm dəmist / Dəmi biş dana beh əz aləmist": "Firsəti gözlə ki, dünya bir dəmdir / Bir dəmi artıq bilmək dünyadan yaxşıdır" (farsca)

"bir millətin namusu, istiqlalı": qəzetdə belə getmişdir: "bir millətin hamusu istiqlalı".

səh. 473. "Kolux əndazra padaşe səng əst": "Sənə palçıq atanın cavabı daşdır" (farsca)

"Qul ma indəllahi...": "Quran"ın "Cümə" surəsinin 11-ci ayəsinin bir hissəsi.

"Hər şəb əz əfğane mən bidar xəlq əmma çe sud / Anke bayəd naleyi mən beşnəvəd bidar nist": "Hər gecə mənim əfğanımdan xalq oyanır, ancaq nə faydası var / Mənim naləmi eşidəcək oyaq deyil" (farsca)

"Zərəbəl-lahu məsələn əbdən məmlukən...": "Quran"ın "Nəhl" surəsinin 75-ci ayəsi.

"İnnal-lahə lə yuqəyyiru ma biqövmin hətta yuqəyyiru ma bianfüsihim": "Quran"ın "Rəd" surəsinin 11-ci ayəsinin bir hissəsi.

səh. 474. "Xab bəs ey xüftə, şəb bəsər-aməd, / Xiz ki, sübhəst, afitab bər-aməd": "Ey yatan, yuxu bəsdir, gecə bitdi / Qalx ki, sabahdır, günəş çıxıb" (farsca)

**Xəzər dəryasında**
**bolşeviklərin hərbi qüvvəsi**

səh. 475. "Fort-Aleksandrovsk": İndiki Qazaxıstanın Mangistau (Manqışlaq) vila-

yətində yerləşən Fort-Şevçenko şəhəri 1857-1924-cü illərdə Aleksandrovsk (Fort-Aleksandrovsk) adlanmışdır.

"barkas": kiçik ölçülü gəmi.

**Nəzarətlərdə**

səh. 476. "Pokrovka": Sabirabad rayonunun Qaratəpə kəndi.

"Nikolayevka": Saatlı rayonunun Qara Nuru kəndi.

"üşr": kənd təsərrüfatı məhsullarından onda bir miqdarında alınan dini vergi.

səh. 477. "Naftluqi": Şərqi Gürcüstanda mühüm dəmiryolu qovşağı olan stansiya.

**Mülkiyyə müfəttişliyi**

səh. 478. "münkir-nəkir" (yaxud "inkir-minkir"): dini etiqada görə, qəbirdə ölünü sorğu-sual edən iki mələk.

**"Gavur arxı" və qaçqınlar**

səh. 480. "Həmidə xanım": Əhməd bəy Cavanşirin qızı və Cəlil Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanım Cavanşir (Məmmədquluzadə) nəzərdə tutulur.

**Bakı xəbərləri**

səh. 481. "uryadnik": kiçik rütbəli polis.

"Ağdərə, Əmbizlər və Dabaqun": Xızı rayonunun kəndləri.

**Çənbərəkəndində**

səh. 483. "9) Əxzi-əsgəriyyədən qaçanların...": qəzetdə 8-ci bənd buraxılmışdır.

**Lənkəranda**

səh. 487. "Putəsər": Astara rayonunun kəndi; indiki Pensər kəndi.

"Privolnı" (yaxud Privolnoye): Cəlilabad rayonunun kəndi. XIX əsrin I yarısında çar hökuməti tərəfindən bura köçürülən subbotniklər tərəfindən əsası qoyulmuşdur.

"Subbotniklər": XVIII əsrin axırlarında ruslar arasında meydana gələn, iudaizm yönümlü cərəyana mənsub olanlar. Subbotniklər "şabat"a (şənbə günü işləməyə), sünnətə və iudaizmin digər əmrlərinə riayət edirdilər. Zaqafqaziyaya subbotniklər XIX əsrin I yarısında çar hökuməti tərəfindən köçürülmüşdü.

"Sarı adası" (yaxud Sara adası): Xəzər dənizində, Lənkəran şəhərinin şərqində yerləşirdi. 1956-cı ildə torpaq yolla Port İliç (indiki Liman) şəhəri ilə birləşdirildikdən sonra yarımada olmuşdur.

**Gürcüstanda**

səh. 487. "Kəndçilər Bankı": Rusiya imperiyasında kəndlilərə uzunmüddətli borc verən dövlətə məxsus kredit qurumu. 1882-1917-ci illərdə fəaliyyət göstərmişdir.





**Bazar, 29 iyun 1919-cu il, nömrə 214**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 30 ramazanül-mübarək sənə 1337. 29 həziran 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

**BAKI TİCARƏT VƏ SƏNAYE İTTİFAQI**

Düyü, səbzə, pambıq və neft istehsalatı [neft məhsulları], ticarət və qeyriləri ilə maraqlananları cümə günü həziran ayının 27-sində axşam saat 5-də Birjanın salonunda (Qorçakovski, nömrə 1) vaqe olacaq iclasa dəvət edir. Ticarət, Sənaye və Ərzaq nazirinin binagüzarlığına binaən [sərəncamına əsasən] həll ediləcək məsələlər:

1) Kuban ilə mal dəyişilməsi barəsində;

2) Padşahlıq [dövlət] pullarının kursu artması barəsində.

*T-156*

**MÜSƏLMAN MÜƏLLİMƏ VƏ MÜƏLLİMLƏRİ ÜÇÜN İKİ AYLIQ KURSLAR**

İyulun 5-dən etibarən Bakıda müsəlman müəllimə və müəllimləri üçün 100 nəfərlik kurs açılır. Kursa daxil olanlar: 60 müəllimə və müəllimlər Şamaxı və Göyçay uyezdlərindən, 18 müəllimə və müəllimlər Bakı uyezdindən, 32 sentyabr ayından müəllimə və müəllimlik etmək istəyənlər. Kursda oxuyanlara yövmiyyə və xərci-rahı [gündəlik xərclik və yolpulu] veriləcək, bunlar üçün "Svyataya Nina" məktəbində mənzil hazırlanır. Kursda oxuyanlar bir ildən əskik olmayaraq müəllimlik etməyə məcburdurlar. Xahiş edənlər Bakı və həvalisi [ətrafı] məktəb müdirinin dəftərxanasına rücu [müraciət] etsinlər.

Pozenovski küçə, nömrə 15.

Qeyd: Müəllimələr üçün kurs əlahiddə mənzildə olacaqdır.

*10263*

**EYDİ-FİTR [ORUC BAYRAMI] MÜNASİBƏTİLƏ**
**OPERA**

Hökumət Teatrosunda
Axşam tamaşası
Zülfüqar bəy və Üzeyir bəy
Hacıbəyli müdiriyyəti
Düşənbə [bazar ertəsi] günü
şəvvalül-mükərrəm
ayının 1-də 1337 sənəsi
(iyun ayının 30-da 1919-cu ildə)
mütəntən [təntənəli] bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır
Zülfüqar bəyin **AŞIQ QƏRİB** operası.
Biletlər teatrın kassasında
satılmaqdadır.
Tamaşa başlanacaq
axşam saat 8 tamamda.

**SATILIR**

4 dənə gözəl xalçalar. Kamenski küçə, nömrə 197, yuxarı mərtəbə, sağ zəng. Səhər saat 9-dan 12-dək, axşam saat 3-dən 7-dək.

*10261*

**ŞÜHƏDA RUHUNA FATİHƏ RƏSMİ**

Azərbaycan əhalisini canavarlar əlindən xilas, istiqlalımızı bərpa etmək üçün fövqəladə məşəqqətlə gələn türk əsakiri-mənsurəsindən [müzəffər türk ordusundan] şəhid düşən qəhrəmanlar olmuşdur. Bu böyük şəhidləri hər daim yad etmək və ruhlarına fatihə oxumaq biz azərbaycanlıların borcudur. Binaənileyh [ona görə], bu gün saat 4-də Cəmiyyəti-Xeyriyyə tərəfindən köhnə qəbiristanda şühəda [şəhidlər] ruhuna fatihə rəsmi [mərasimi] tərtib və icra ediləcəkdir. Qəbiristanda matəm əlaməti olaraq 4 qara bayraq, bir də Azərbaycan sancağı rəkz olunacaqdır [sancılacaq]. Cəmiyyəti-Xeyriyyə böylə böyük matəmdə bütün əhalini bilümum [hamılıqla] iştiraka dəvət edir.

*Cəmiyyəti-Xeyriyyə*

*10262*

**QİSMİ-RƏSMİ**
**[RƏSMİ HİSSƏ]**

**Məşixət [Şeyxülislamlıq] İdarəsindən elan**

İşbu 1919 sənəsi həziran bazar ertəsi günü eydi-fitr [Oruc bayramı] günü olduğu münasibətilə həman gün səhər saat 9-da Təzəpir məscidində ayini-eyd (bayram mərasimi) icra ediləcəkdir. Ümumən camaati-müslimindən və xüsusən ümərayi-hökumət və əşrafi-məmurindən [hökumət idarələrinin başçılarından və məmurların böyüklərindən] bu məclisdə isbati-vücud [iştirak] etmələri rica və təmənna edilir.

*Məşixət sədri şeyxülislam:*
*[Axund Ağa] Ağaəlizadə*
*Katib: Əfəndizadə*

**BARIŞIQ İMZA EDİLDİ**

1914-cü ildə müharibənin zühurundan [meydana gəlməsindən] üç ay sonra eşidilməsi gözlənən bir xəbər bu gün 5 il sonra eşidilir:

Barışıq imza edildi!

Sülhi-ümumidən bəhs edə-edə hərbi-ümumi atəşinə tutulan aləm, nəhayət, tarixin qeyd eyləmədiyi əzim [böyük] bir fəlakətdən sonra barışıq sözü eşidir.

Barışıq!

Dünyanı söndürəcək, hər yanda fərəhlər doğuracaq bir nida!

Fəqət bu nida dünyanın hər tərəfində böyləmi tələqqi edilir [qiymətləndirilir], yoxsa sevinən yalnız qaliblər, qalib məmləkətlərdir?

Məğlublara isə daha pək əski bir zamandan bəri söylənmişdir:

Vay məğlublara!

Fəqət "sülh peyğəmbəri" Vilsonun 14 maddəlik əsasatı [prinsipləri] elan olunduğu zaman bəşəriyyət, bilxassə "Vay məğlublara!" düsturi-cahangiranəsi qarşısında tiril-tiril titrəyən insaniyyət bir az sakit olmuş, barışıq xəbərini rəna [gözəl] ümidlərlə gözləməyə başlamışdı.

Halbuki nə görürüz?





Barışıq imza edildi xəbəri gəlir. Halbuki nərdə o sevinc, nərdə o qiyamət ki, təsisi-ədalət etsin. Nərdə o əsaslar ki, bizi yeni bir intiqam, binaənileyh yeni bir hərb atəşindən mühafizə eyləsin.

Hərbi-ümumiyə girişən mədəni Avropa millətləri bütün sənət, elm və idraklarına rəğmən heç bir şey öyrənmədiklərini yıxmaq-dağıtmaqdakı qansızlıqları ilə göstərdikləri kimi, beş sənəlik fəlakətəngiz bir hərbi-müdhiş nəticəsində sülhi-ümuminin nə kimi əsaslar üzərinə qurulması lüzumunu dəxi öyrənmiş olmadılar.

Barışıq imza edildi.

Fəqət Vilson prinsipləri nərdə qaldı?

Əgər birinci xəbər alındığı zaman bu ikinci – müəyyən və müsbət bir cavaba malik olmayan, beyin deşən sual olmasaydı, o zaman imza zərurətində qalan Almaniyadan Şeydemanın küfrləri, Türkiyə paytaxtındakı mitinqlərdən əyyuqa qalxan [göyə ucalan] "Allah, Allah" sədaları əvəzinə:

– Əlhəmdüllah, qurtardıq! – sədasını eşidəcəkdik.

Əgər bu cavabsız sual olmasaydı, o zaman təyini-müqəddəratlarını, milli hüquqlarının qaytarılmasını Vilson prinsiplərinin qövldən feilə [sözdən əmələ] keçməsində görən Zaqafqaziya cümhuriyyətləri kimi növ-zühur [yeni yaranmış] hökumətlər daha böyük bir qüvvəti-qəlblə, daha ziyadə bir mətanətlə istiqbala [gələcəyə] baxar, istiqlallarının təsdiqini, Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] qəbul olunacaqlarını daha artıq bir ümidlə gözlərlərdi.

Hər halda, bəşəriyyətin qanlı girdabdan qurtarıb da qarışmış dünya işlərinin düzəlməsinə bir səbəb təşkil edəcək barışıq imzası şayani-qeyd və təqdirdir [qeyd edilməyə və alqışlanmağa layiqdir]. Çünki məşhur məsəl fəhvasınca [mənasına uyğun olaraq]:

Fəna bir barışıq eyi döyüşdən yaxşıdır!

**SAĞ AYAĞIMIZ DA KƏSİLİR**

Hökumətimizin tutduğu məslək alicənabanədir. Qonşularla dostanə keçinmək, hər işi sülh ilə qurtarmaq fikri-insaniyyətpərvəranəsindədir. Hər xüsusda səbr və təənni ilə [yavaş, tələsmədən] hərəkət edib yenidən qan tökmək, yeni qaçqınlar, yeni fəlakətlər hazırlamaq arzu etməyir.

Bütün cahan sülhə doğru getdiyi halda hökumətimiz yenidən dava açmaq töhmətində bulunmaq istəməyir. Mümkün mərtəbə, hər işə müşavirə və həkəm [arbitr] vasitəsilə baxıb, qonşularla qətiyyən pozuşmaq tərəfdarı görünməyir.

Əvət! Hökumətimiz insaniyyətin, fəzilətin, ululuğun, səbr və təhəmmülün [dözümün], sükut və güzəştin bütün mənası ilə hərəkət edib millətimiz başına təzədən bir bəla və müsibət açmaq əsla istəməyir.

O istəyir ki, təzə doğan bir hökumət, doğrudan səbi [körpə uşaq] kimi pak, saf olsun. Təmiz əllərini qana bulaşdırmasın. Təzə hərəkətə gələn qollarını insaniyyətə xidmətə alışdırsın.

İlk düşüncəsi, anasına – insanlığa məhəbbət olsun.

İlk addımı ətrafındakılara şətarət [sevinc] versin. İlk hərəkəti, ilk halı gələcəyi

üçün bir fali-xeyir və səlamət olsun [uğur və salamatlıq vəd etsin].

İştə, cavan Azərbaycan Hökuməti bu kimi insani fikirlərlə indiyədək hər cür təcavüzlərə, həqarətlərə göz yumdu və hələ yumur.

Məmləkətimizdə cavan heç bir hökumətdə görülməyən bir hürriyyət, bir azadlıq var:

Gürcüstandan, Dağıstandan, Ermənistandan, Rusistandan bilməm nə istandan qaçanlar burada səlamət bulurlar.

Hökumətlərindən, anarşiyadan, oğurluq və qarətgərlikdən, aclıqdan, firqəbazlıqdan, yolsuzluqdan... qaçanların həpsi, həpsi buraya, bu gözəl və hürr Azərbaycana, Azərbaycan paytaxtına toplanırlar.

Burası adəta bir şəhri-Babil, bir məcmeyi-əzdad [ziddlərin toplaşdığı yer] olur:

Menşevik, Denikin, daşnak, imperialist, kommunist, bolşevik, anarşist, mömin, kafir, doğru, əyri, sadiq, xain, millətçi, ittihadçı, heççi... həpsi, həpsi burada mövcud, həm kamalı ilə mövcud.

Ox, nə xoşbəxtlik! Nə böyük mədənilik! Nə uca, nə ali azadlıq!

Paytaxtımız bu gün azadlıq və xoş məişətcə mərkəzi-mədəniyyət olan Londonu, Parisi keçməkdədir.

Oh, bizim üçün nə böyük şərəf, nə xoş səadət!

Lakin... lakin bir cəhət var, bir qanunitəbiət var.

İştə bu cəhət, bu qanun məni uzun-uzun düşündürür, qara-qara fikirlərə düşür[ür], qafama qorxunc fikirlər doldurur, qəlbimə yanıqlı hisslər buraxır, gözüm qabağına ciyərsuz [ciyər yandıran, acınacaqlı] mənzərələr, qanlı lövhələr, müdhiş [dəhşətli] səhnələr gətirir.

Həyatım qarşısına fəlakətli uçurumlar, qaranlıq gecələr açır, yolumu aydınladan “hilal”i-istiqlalımı qanlı buludlarla sarır, ümidi-istiqbalımı [gələcək haqqındakı ümidimi] söndürməyə çalışır...

Əvət! O cəhət, o qanun məni hər cəhətlə rahatsız edir.

Məni rahatsız edən bu qanuni-təbiət çox da məşhur deyil. Lakin, nəticəsi, təsiri məşhur qanunlardan da məşhur və qüvvətlidir.

İştə, o:

“Tədbirsiz, səy və qüvvətsiz arxayın olmaq, hər şeyə razı olmaqdır.”

* * *

Vilsonun prinsiplərinə arxayın oldu[q]. Hər məmləkət kəndi müqəddəratına kəndisi sahib olacaq şüarına aldandıq. Böyük bir parça, əksəriyyət təşkil edən bir kütlə, bir millətin vücudundan qoparılıb zorla özgələrin təhti-əsarətinə [əsarəti altına] verilməz zənnində bulunduq.

Axıska, Axalkələk qan selləri axıdılaraq, yüzlərcə kəndlər xarab edilərək zorla təhti-əsarətə alındı.

Qars, Ərdahan, Oltu, Kağızman, Sürməli mahalları – erməni qaçqınlarını yerləşdirmək bəhanəsilə – güc və zülmlə müsəlmanların əlindən alınıb ermənilərə verildi.

Azərbaycanın ayrılmaz birər hissəsi olan gözəl Naxçıvan, məhsuldar Şərur yerləri, başdan-başa daşnak hökumətinin pənceyi-qəhrü-intiqamına keçdi.

Türkiyə ilə rabitəmiz əbədiyyən kəsildi. Bakı-Culfa dəmiryolu planımız yırtıldı, üzümüzə çırpıldı.

Dəmiryolu çəkiləcək yerləri əlimizə gətirmədən, saxlamadan qabaq xülyalara, boş qeyrətlərə qapıldığımızın cəzası verildi. Biz hələ arxayın oturub dururuz.

Əsil məmləkətimiz, türk yerlərimiz birər-birər əlimizdən çıxır. Biz yenə soyuq qanla baxırız.

Naxçıvanın, Şərurun ah və ənini [naləsi] qulaqlarımızdan kəsilmədiyi bir dəqiqədə, özgə yerlərdən, Zəngəzur mahalından qopan fəryad və fəğanlar bizi nə cür yerimizdə rahat otu[r]tduracaq bilməyirəm.

Bu gün Zəngəzur atəş və qan içindədir. İrəvan hökumətindən kömək alan Zəngəzur erməniləri ora müsəlmanlarını yaylaqlara qətiyyən buraxmırlar.

Müsəlmanları hər yandan sarıb [mühasirəyə alıb], bütün mal və heyvanlarını vermək şərti ilə təslimə məcbur, əks halda qətliam etmək fikrindədirlər.

İştə, bu surətlə Zəngəzuru da zorla əlimizdən alıb bizi qonşumuz İrandan da qətiyyən [tamamən] ayırmaq istəyirlər və bu plan ilə ermənilər bizi həm Türkiyədən, həm də İrandan uzaqlaşdırıb, bu tərəfdən Lənkəran ilə bərabər Kaspi [Xəzər] dənizinə, digər tərəfdən Oltu səmti ilə Qara dənizə çıxmaq, aradakı böyük türk yerlərinə heçdən sahib və ağa olmaq fikrini bu gün feilən meydana çıxarırlar. Zəngəzuru almaqla bizim sağ ayağımızı da kəsirlər.

O, öylə; buradakı – Bakıdakı yəcuc-məcucların halı isə istiqlalımız üçün şəkli, qorxulu.

Əcəba bu fəlakətlərə səbr [edəcək] və bu səbrlə hər şeyə razı olacaqmıyız?

Ayağımızın sızısı bizim qəlbimizə heç bir sızı buraxmayacaqmı?

*Ümidvar*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

Cümə günü həziranın 27-si 1335-də [1919-cu ildə] Azərbaycan Məclisi-Məbusanının növbədənxaric iclası təyin edilmişdi. İclas saat 11-də açılacaqdı. Hələ 10 yarımdan məbuslar və tamaşaçılar yığılmağa başlayırlar. Fəqət 11 keçir, 12 olur, Məclis açılmayır. Nəhayət birin yarısında zəng vurulur. Bu gün məbusan demək olar ki, tam heyətlə isbati-vücud [iştirak] edir. Nazirlər və nazir müavinləri dəxi tamamilə buradadırlar. Diplomasi lojada Gürcüstan siyasi nümayəndəsi və nazirləri əyləşmişlərdir. Tamaşaçılar üçün təyin olunmuş yerlərdə ayaq üstə durmağa belə yer yox idi. Xanımlar lojaları dəxi doludurlar. Nəhayət rəis zəngi vurur. İclası şu kəlmələrlə açır:

– Əfəndilər! Bu gün Azərbaycan Məclisi-Məbusanının növbədənxaric iclası dəvət edilməsindən məqsəd əvvəla, Azərbaycan Hökuməti ilə Gürcüstan Hökuməti arasında əqd edilmiş [imzalanmış] olan hərbi tədafüyi əqdnaməni [müdafiə sazişini] təsdiq üçün Məclisə təqdim etməkdir. Bu əqdnamə o qədər mühümdür ki, növbəti iclasları gözləmək olmazdı. Həm də eydi-fitr [Oruc bayramı] münasibətilə bir neçə gün bayram edəcəyimizdən əqdnamənin təsdiqi təxirə uğrardı. Fəqət zamanın və məsələnin əhəmiyyətini nəzərə alaraq, Divani-rəyasət bunu təxirə uğratmamaq üçün növbədənxaric olaraq təqdimə lüzum gördü. Bununla bərabər, Divani-rəyasət yenə məsələnin mühüm olduğunu qeydlə təklif edir ki, bu məsələyə adi qayda ilə baxılmayıb müstəcəl tələqqi [təcili qiymətlən-

dirilsin] və o surətlə də müzakirə və təsdiq edilsin.

Bugünkü iclasın müzakirəsinə vəz ediləcək [qoyulacaq] olan ikinci məsələ də Qarabağ hadiseyi-əxirəsi [son hadisələri] münasibətilə hökumət tərəfindən oraya göndərilmiş olan Parlaman Komisyonunun o xüsusdakı məruzəsi idi. Fəqət məruzə hazır olmadığından və bəzi sair səbəblərdən dolayı bu gün Qarabağ hadisatı haqqında məruzə təqdim edilməsi mümkün olmayacaqdır. Əgər etiraz yoxsa, ikinci məsələni növbədən götürəlim də, ancaq birinci məsələni müzakirə edəlim.

*(Məclisi-Məbusan tərəfindən bu təklifə etiraz edilməyir və bu surətlə, Azərbaycan-Gürcüstan etilafnaməsinin [razılaşmasının] müzakirəsinə keçilərək katib Əhməd Cövdət [Pepinov] əfəndi əqdnaməni oxuyur. Əqdnamə eynilə qəzetəmizin neçə gün əvvəlki nömrəsində dərc edilmiş olduğundan təkrar dərcinə lüzum görməyiriz. Bundan sonra müzakirat açılır.)*

**Məhəmməd Yusif Cəfərov** - (Xariciyyə naziri) alqışlar altında kürsiyi-xitabətə çıxır və etilafnamə əqdi münasibəti ilə bərvəchi-ati [aşağıdakı kimi] bəyanat verir:

– Möhtərəm məbuslar! Bugünkü tarixi gündə mən istərəm Azərbaycan Hökumətinin siyasəti barəsində ümumiyyətlə sizə bir-iki söz deyəm. Ola bilər ki, bu siyasət qəbul edilsin, həmçinin ola bilər ki, qəbul edilməsin də. Bu xüsusda iki nəzər ola bilər. Fəqət bu siyasəti Azərbaycan Hökuməti özü üçün bir rəhbər qəbul etmişdir. Azərbaycan Hökuməti ümum millətlər və dövlətlərlə, xüsusən Mavərayi-Qafqaziyada [Zaqafqaziyada] yaşayan millətlər və cümhuriyyətlərlə həmrəy olmağa çalışmışdır və çalışacaqdır. Hələ oktyabr ayında hökumət mənə bu məzmunda bir məktub yazaraq, bu yolda qonşu millətlərlə müzakirata girişməyi tövsiyə etmişdi. Qonşularımız ilə siyasətimizi birləşdirmək, onlarla həmrəy olmaq həmişə bizim amalımız, idealımızdır. Ona görədir ki, noyabr ayında Qafqaziya Cümhuriyyətləri Konfransı dəvət edilmək istədikdə, hamıdan qabaq Azərbaycan Hökuməti Cənubi Qafqaziya hökumətləri siyasətlərinin birləşdirilməsini proqrama daxil etdi. İndi isə biz həman məsələni qövldən feilə [sözdən işə] çıxardıq və 16 iyun etilafnaməsini bağlamağa müvəffəq olduq. Noyabr və aprel konfranslarında həmişə gürcülər bizimlə həmrəy olmuşlar və birləşmə məsələsində daima bizə müvafiqət etmişlərdir [bizimlə uzlaşmışlar, həmrəy olmuşlar]. Azərbaycan və Gürcüstan hökumətləri həmişə bu rəydə olmuşlardır ki, bizim millətlərin mənafeyi yek-digəri [bir-biri] ilə mərbut [bağlı] olub, xeyirimiz də, fəlakətimiz də ümumidir. Bir təhlükə gələrsə, hər ikimizi eyni dərəcədə təhdid edər. Ona görədir ki, bizim çalışmamız, müdafiəmiz də ümumi, bərabər olmalıdır. Fəqət üçüncü qonşumuz bu fikirə gəlmədi. Noyabr ayında konfrans dəvət edildi. Fəqət onlar gəlmədiklərindən konfrans baş tutmadı. Son konfransda dəxi onlar min dürlü bəhanə ilə bizə yanaşmadılar. Məsələn, onlar birləşmək təklifinə cavab olaraq dedilər ki, torpaq və hüdud məsələləri həll edilmədikcə, birləşmək olmaz. Binaənileyh [ona görə], bir uzlaşma hüsul edə bilmək üçün qabaqca torpaq və hüdud məsələlərini qəti surətdə həll etmək





lazımdır. Biz onların bu fikirinə şərik ola bilmədik. Çünki torpaq və hüdud məsələsi öylə böyük bir işdir ki, uzun vaxt istər və tez həlli mümkün deyildi. Halbuki, o vaxtadək gözləmək də olmazdı. Ona görədir ki, biz onları gözləyə bilmədik və ayrıca "separatno" [təkbaşına] etilafnamə bağlamağa məcbur olduq. Şübhəsizdir ki, Şimali Qafqaziya millətləri də bizim bu etilafnaməmizə şərik olar, iştirak edərlərdi. Fəqət etilafnamə əqd edilən zaman Şimali Qafqaziya Hökuməti yox idi. Çünki o zaman Denikinin qara qüvvələri Dağıstanlılar Cümhuriyyətini məhv etmişdi. *(Skamyalarda tutqun nifrət sədaları)* Lakin, biz əminik ki, bu yoxluq müvəqqətidir. Yəqin şimallı qardaşlarımız məhv olmaz, hüququ yolunda mübarizə edər, nəhayət qalib gələrlər və yenə də bizim ittifaqa daxil olarlar. *(Alqış)* O ki qaldı üçüncü qonşumuza, Azərbaycan Hökuməti yenə əmin olur ki, onlar da səhvlərini anlayaraq bizim tərəfimizə gələrlər və ittifaqa daxil olarlar.

Möhtərəm məbuslar! Bu əqdnamənin Azərbaycan və Gürcüstan üçün böyük əhəmiyyəti vardır. Çünki burası birinci özüldür ki, gələcəkdə bunun üzərində möhkəm bir bina qurulacaqdır. Bu əqdnamə biz iki millətin arasında gələcək rabitəmizi təyin edir. Bəlkə bir gün bu iki millətin ikisi də bir fəlakətə düşər, ola bilər ki, istiqlalını da qeyb edər. Amma şübhəsizdir ki, həmişə bir yerdə qonşu olaraq bahəm yaşayacaqdır. Öylə bir şey olsa da, yenə bu əqdnamənin onda da təsiri olar.

Bir də hamı bu əqidədədir ki, guya Qafqaziya millətləri bahəm yaşaya bilməzlər, onlar həmrəy olmazlar. Biz millətlər guya qurd kimi ancaq yırtmaq, dağıtmaq bilirik. Ancaq qırar, əzərik. Biribirimizlə heç vaxt sazişə gələ bilmərik. Şimdi bu etilafnamə sübut edir ki, bu sözlər iftira, bu fikirlər yanlışdır. Biləks [əksinə], Qafqaziya millətləri yaxşı etilaf ilə dolana bilər və bu mühüm dəqiqələrdə təhlükə qarşısında bir yerdə yaşamaq, bir yerdə ölməyə də hazırız. *(Alqış)*

Bu şərtnamə göstərir ki, Azərbaycan və gürcü millətləri özlərini müdafiəyə hazırdırlar və o xüsusda lazım gələn tədbirlər görməyi bacarırlar. Bu etilafnamə sübut edir ki, biz xırda millət olduğumuz halda, hürr və müstəqil yaşamaq istəyiriz və öz hürriyyətimizi, istiqlalımızı hər növ təhlükəyə qarşı müdafiə, mühafizə etməyə və bu uğurda lazım gələrsə, qan tökməyə hazırız. Bunlardan əlavə, bir də göstərir ki, biz heç millətə, heç dövlətə təcavüz etmək fikrində deyiliz. Yalnız müdafiə vəziyyətində dururuz.

Gürcüstan ilə bağladığımız əhdnamə 3 il müddətinədir. O vaxtadək Cəmiyyəti-Əqvam təşkil olunsa və biz həman Cəmiyyəti-Əqvama daxil olsaq, o zaman bu şərtnaməmiz ləğv olacaqdır. Əgər o ali fikir əmələ gəlməsə belə, etilafnaməni pozmaq istəyən tərəf vəqti-müəyyənə [təyin edilmiş vaxta] bir il qalmış gərək xəbər versin.

Etilafnamənin bir maddəsində denilir ki, ittifaqa daxil olan tərəfeyn [hər iki tərəf] kəndilərinin və yek-digərinin [bir-birinin] hüququnu müdafiə edəcək və hər babda [hər sahədə] dostanə siyasət yürüdəcəkdir. Ona görə də, aramızda olan təyini-hüdud və vaqe ola biləcək hər növ ixtilaflı məsələlər dostanə bir surətdə etilaf, sülh təriqi [yolu] ilə həll edilməlidir.

Bununla da mümkün olmazsa, həkəm (arbitraj) məhkəməsi ilə qət və fəsl ediləcəkdir [qərar veriləcək və ixtilaf sona çatdırılacaq] ki, bu məhkəmənin də qərarı hər iki tərəf üçün məcburidir.

Bir də etilafnamənin digər bir maddəsində iki dövlətin siyasətinin birləşdirilməsindən bəhs olunur. Bundan böylə, Azərbaycan Hökuməti ilə Gürcüstan Hökuməti siyasətlərini birləşdirəcək, bir siyasət aparacaqlardır. İştə, etilafnamənin əsasi maddələri. Mən bu əsasları zikr etməklə nitqimə xitam verərək Hökumət namından bəyan edirəm ki, Azərbaycan Hökuməti əmin olur ki, millət nümayəndəsi olan Məclisi-Məbusan bu etilafnaməni gülərüzlə qəbul edəcək və ona əməl edəcəyini bildirəcəkdir.

*(Sürəkli alqış. Məbuslar ayağa qalxır, diplomasi lojada Gürcüstan nümayəndələrini şiddətlə gurultulu bir surətdə uzun-uzadıya alqışlayırlar. Nümayəndələr ayağa qalxaraq təzim edirlər.)*

**Məhəmməd Əmin Rəsulzadə** - (Müsavat) Bu gün Zaqafqazya tarixində mühüm bir hadisə vaqe olmuşdur. O hadisə də burada təşəkkül etmiş milli hökumətlər arasında birinci dəfə etilafnamə əqdindən ibarətdir. Bu fəqərə [hadisə], millətlər ayılıb da hər kəs öz başına bir milli hökumət təsis etməsini tənqid edənlərə gözəl bir cavabdır.

Əfəndilər! Siz bilirsiniz ki, milli hökumət münəqqidləri [tənqidçiləri] daima deyərlər milli əsasla təşəkkül edən hökumətlər şəxsi mənfəət və qərəz üzərinə təsis olunur və böylə hökumətlərin təşkili demokratiya [xalq] üçün əsla mənfəət deyil, bəlkə zərərdir. Çünki Zaqafqaziyadakı milli hökumətlər daima biri-biri ilə vuruşar, kin və ədavətlə yaşar və heç vaxt yek-digəri ilə uzlaşammaz, hətta müşkül zamanlarda belə birləşməzlər. Böylə qərəzkaranə sözlərin cavabında həmişə milli hökumət tərəfdarları deyərlərdi ki, milli hökumət təşkil etmək demokratiyanı yek-digərinə salışdırmaq üçün deyil, biləks [əksinə], hər millət öz milli hüququnu müdafiə və özü üçün hökumət təşkil edərsə, tez tərəqqi tapar, tezliklə milli idrak hasil edər və bu surətlə də öz xeyir və şərini tez anlar. Böylə hökumətlər, şübhəsizdir ki, həmişəlik birləşməzsə də, mühüm zamanlarda öz millətlərini birləşdirərlər. Bu gün gürcü milləti ilə əqd etdiyimiz etilafnamə sübut edir ki, milli hökumətlər millətləri vuruşdurmazlar. Bəlkə bir təhlükə vaqe olarsa, həman təhlükə milli hökumətlərin və onları təsis edən millətlərin yaxlaşmasına, uzlaşmasına, birləşməsinə daha yaxşı bir vəsilə [vasitə] təşkil edər. Bugünkü müahidənamə iştə Zaqafqaziya hökumətlərinə vurulan töhmətin canlı bir təkzibidir! *(Alqışlar)*

Əfəndilər! Bu şərtnamə, bu birləşmə öylə bir zamanda əqd edilmişdir ki, xaricdən bir qara təhlükə bizi təhdid edirdi. Denikin Zaqafqaziyanın qapısına gələrək bizi əzmək istəyirdi. Fəqət farsda bir şeir var, deyir ki:

*Ədu şəvəd səbəbi-xeyr, əgər Xuda xahəd.*

Yəni əgər Allah istərsə, düşmən xeyirə səbəb olar. İştə Allahın istəyi! Ki bu da camaatın istəyidir. Allah istədi, camaatın istədiyi hasil oldu. Denikin düşmən ikən bu xeyirin hüsuluna səbəb oldu.

Möhtərəm məbuslar! Millətlər arasında əqd olunan hər əhdnamə xalq arasında şayani-qəbul [qəbul edilməyə layiq], təbiri-məxsus ilə [necə deyərlər] "populyarnı" olammaz. Fəqət bu gün təsdiqinizə ərz olunan əqdnamə öylə bir əqdnamədir ki, o yalnız hökumət deyil, həmişə millətcə də məmul [arzuedilən] görülmüşdür. Azərbaycan milləti ilə Gürcüstan milləti daima bu müahidəni [sazişi] arzu etmişlərdir. Gürcüstan ilə bizim aramızda bəzi ixtilaflar vüqusuna [baş verməsinə] rəğmən, bu iki millət arasında həmişə dostluq hissi vardı. Ona görədir ki, bu müahidənaməni yalnız Məclisi-Məbusan deyil, bütün millət alqışlar. Çünki millətimiz həmişə gürcülərdən səmimi bir silah yoldaşlığı, səmimi bir dostluq gözləyir. *(Alqış)*

Etilafnamənin məzmunundan gördünüz ki, onun əqdindən məqsəd yalnız istiqlalımızı, tamamiyyəti-mülkiyyəmizi [torpaq bütövlüyümüzü] xarici qüvvələrə qarşı müdafiədir.

Müdafiə! İştə məqsəd!

Təcavüz yoxdur!

Bizim fikrimizdə heç millətə və dövlətə qarşı təcavüzkarlıq yoxdur. Çünki o millətlər ki, milli hüquq, milli istiqlal elan etmişlər və ancaq onu başqalarından müdafiə edirlər, böylə millətlər heç vaxt özgələrin milli hüququna təcavüz etməzlər. Böylə millətləri təcavüzkarlıqda ittiham edənlər ya qərəzkardırlar, ya axmaq!

Möhtərəm məbuslar! Biz arzu edirdik ki, bu etilafnamənin altında bütün Qafqaziya millətləri nümayəndələrinin imzası olaydı və bu gün gürcülərlə azəri türklər nümayəndələrindən başqalarının imzası olmadığına təəssüf ediriz. Fəqət yenə ümid ediriz ki, Zaqafqaziyanın üçüncü böyük üzvü olan erməni demokratiyası da həmişə bizimlə sülh ilə yaşamaq məcburiyyətində olduğunu anlar. Bu gün o demokratiya bəzi cərəyanlara uyaraq öz vəziyyətini, halını dərk etməmişsə də, yaxında dərk edər, o zaman onlar da bu dostluğa iştirak və müahidənaməni imza edərlər. Buna da imkan buraxılmışdır. Yenə ümidvar oluruz ki, yaxın zamanda erməni demokratiyası kəndi mənafeyini dərk edər, öz müqəddəratını, öz mənafeyini sair millətlərlə birlikdə arar və məsələni də bu yolda həllə qalxışar.

Əfəndilər! Bu gün bu etilafnamənin əqdi mənə bir şeyi xatırladır. Gürcüstan ilə etilafnaməmiz iyun ayının 16-da əqd edilmişdir. Keçən il iyun ayının 16-da Gəncədə birinci Azərbaycan Hökuməti təşəkkül etmişdir. Deməli Azərbaycan Hökumətinin ilk təşəkkülü ilə istiqlalın həqiqi müdafiəsi uğurundakı ilk təşəbbüsü eyni tarixə təsadüf etmişdir. Fəqət müsaidənizlə, əfəndilər, bu işdə yalnız bir tarixi təsadüf deyil, eyni zamanda bir fali-nik [uğurlu bir işarə] dəxi görmək istərəm.

Möhtərəm məbuslar! Bu gün Azərbaycan ilə gürcü milləti arasında əqd olunan etilafnamə bu iki millət demokratiyası arasında əskidən bəriyə müşahid[ə] olunan dostluq hissi və birlik amalının məhsulu olmaqla bərabər, bütün demokratiyanın arzu etdiyi dostluq bünövrəsidir ki, bunun atidə [gələcəkdə] daha da möhkəmləşməsi və genişləməsini arzu ediriz. *(Sürəkli alqış)*

**Yusif Əhmədov** - Möhtərəm məbuslar! Üzərimizə gələn və istiqlalımızı təhdid edən qüvvənin qarşısına çıxmaq və onu yaxşı müdafiə edə bilmək çarəsi ittifaqda görülmüşdür. Hələ ay yarım bundan əvvəl mən burada demişəm, yenə

bu rəydəyəm ki, ümumiyyətlə biz istiqlalımızı müdafiə etmək və bizi təhdid edəcək olan hər dürlü təhlükənin qabağını almaq üçün Qafqaziya millətləri yığışıb birləşməlidirlər, özlərini də birlikdə müdafiə etməlidirlər. Müdafiə böylə ümumi olarsa, kənardan gələn qüvvə də görər ki, biz hüququmuzu tanıyıb-bilib, mühafizəsi üçün də lazım gələn təşəbbüsatda oluruq. Əlbəttə, o halda təcavüzə cəsarət də edə bilməz. Əlhəmdüllah, ay yarım bundan əvvəl bəyan etdiyimiz arzunu indi həqiqət olaraq görürüz. Təşəbbüslərimizin nəticəsi indi göz qabağındadır. Əlbəttə aşkar, vazehdir [açıqdır] ki, böylə etilaf və ittifaqlar yalnız hərb, müdafiə və sairə məsələsində olmayıb, hər barədə, xüsusən ticarət barəsində də lazımdır. Azərbaycan istiqlalı ki, yeni elan edilmişdir, bunun təsdiqinin bir əlaməti də sair dövlətlərlə əlaqə peyda etməsidir. Gürcüstan ilə əqd etmiş olduğumuz bu şərtnamə difaidir [müdafiə xarakterlidir]. Yəni istiqlalımızı, vətənimizi təhdid edən qüvvələrə qarşı ümumi qüvvə ilə mübarizə və müdafiədə bulunmaq üçündür. Yaxşı olardı ki, bu etilafnaməni ümum Zaqafqaziya millətləri imza edəydilər. Lakin hər şeyin ibtidası naqis olar və hər şeyin yaxşılığı ondan ibarətdir gələcəkdə get-gedə təkmil edilsin. Şərtnamənin yaxşılığını isbata hacət yoxdur. Ən böyük məziyyəti budur ki, hökumətimiz lazım gələn vaxtında nə etməyi və necə etməyi gözəl bilmişdir. Binaənileyh, hökumətin bu təşəbbüsünü mən özüm və mənsub olduğum firqə təbrik ediriz. Güman ediriz ki, bu etilafnamə kağız üzərində quru söz olmayıb, əməl olunacaqdır. Bundan sonra bütün Avropadan başlamış cüzi təşkilata qədər hamısı anlasın, hətta cəarət etməsin, istiqlal və hüququnu müdafiə edən bir müstəqil millətin istiqlal və hüququna təcavüz edə bilməz, etməsin də! Mən dübarə bu etilafnamənin əqdi münasibətilə firqəmizin səmimi razılığını hökumətə ərz edirəm. *(Alqış)*

*(yenə var)*

## TELEQRAF XƏBƏRLƏRİ

**Bolşeviklərin məlumatı**

Moskva - Bessarabiyada fransız divani-hərbinin [hərbi məhkəməsinin] qərarına görə, fransız qitəatında [hərbi hissələrində] bolşevik qoşunlarının başçısı olan Delyameş edam edilmişdir. Fransa öz qoşunlarını götürüb, əvəzinə Afrika qoşunları qoyurlar. Fransız saldatları arasında bir çox həbs icra edilmişdir. Qarət və yağma davam edir. Cüzi bir casusluqdan ötrü əhali atılmaqla edam edilirlər. Matrosların sözünə görə, Fransanın Odessa iskələsində duran "Lisqar" nam [adlı] kruvazeri [kreyseri] digər iki paroxod əmələləri ilə bərabər üsyan etmişlərdir. Matroslar qərar qoymuşlar ki, Rusiyadan fransız əsgərlərinin dəvət edilməsini tələb eyləsinlər.

Moskva - "Tayms" qəzetəsi xəbər verir ki, Hindistanda inqilab hərəkatı getdikcə artır. Bolşevizm ruhunda olan bu inqilabda səfərbərliyə alınmış hind-müsəlman əsgərləri iştirak edirlər. Təbliğat hətta hökumət qoşunları arasında qayət müvəffəqiyyətli surətdə keçir. Misir qitəsinin [ərazisinin] bir çox nöqtələrində qanlı müsadimələr [toqquşmalar] vaqe olmuşdur.





Əfqanıstan əmiri mütarikə şəraiti [atəşkəs şərtləri] barəsində Hindistan vits-kralına cavab verdi. Rovalşidə göndərilmiş olan sülh mürəxxəslərinin [nümayəndələrinin] adlarını da əmir yad etmişdir. Hindistan vits-kralı bəyan eyləmişdir ki, bir əfqan saldatı Hindistan torpağında qalıncayadək mütarikə barəsində danışmaq mümkün deyildir. Əmir öz qəbilələrinə qadağan etməlidir ki, bizim qoşunlara təərrüz [hücum] etməsinlər. Saniyən [ikincisi], müharibənin dayandırılmasına əmr verməlidir.

**Macarıstanın ablukası**

Parisdən xəbər verilir ki, Müttəfiq və müttəfiqlərə dost olan hökumətlər qət eyləmişlər ki, Macarıstan hökuməti orada əmin-amanlıq olduğunu isbat edərsə, Macarıstanın ablukası [blokadası] ləğv ediləcəkdir.

İstanbul - Yeni Türkiyə Kabinəsi təşkil edildi. Damad Fərid paşa sədrəzəm [Baş nazir] və Xariciyyə naziri, [Mustafa] Səbri bəy isə şeyxülislam təyin edilmişlərdir.

Kopenhaq - "Lokal-Anzeyqer" qəzetəsinin Libava müxbiri yazır ki, may ayının 26-da Almaniya əsgərləri latış və Baltik qoşunları ilə birlikdə Riqanı işğal etmişlərdir.

**Bolşeviklər Əfqanıstanda**

Bolşeviklərin tutulmuş olan simsiz teleqraf xəbərindən anlaşılır ki, Əfqanıstanla bolşeviklər arasında sıxı bir rabitə vardır. Məşhur bolşevik Braviçin verdiyi xəbərdə denilir ki, əmir tərəfindən göndərilən heyət Türküstana varid olmuşdur [çatmışdır]. Həmin heyət özü ilə bərabər bir çox sənəd gətirib Braviçdən xahiş edir ki, Kabilə getsin. Çünki orada onu gözləyirlər. Xəbərin axırında denilir ki, Braviç təcili surətdə Kabilə azim olacaqdır [yola düşəcəkdir].

**Misirdə təzə Kabinə**

Londondan xəbər verirlər ki, Qahirədən verilən xəbərlərə görə, sabiq Baş nazir Məhəmməd Səid paşa təzə Kabinə təşkil etmişdir.

## SÜLH ƏTRAFINDA

**İngiltərənin məlumati-rəsmiyyəsi**

London - Almanlar sülh müahidənaməsini [sazişini] imza etməyə razılıqlarını vermişlərdir. Əğləbi-ehtimala [qüvvətli ehtimala] görə, iyunun 25-də imza edəcəklərdir.

- Almanlar Parisdə rəsmi surətdə Müttəfiqlərə bildirmişlər ki, onlar sülh müahidənaməsini imza etmək arzusundadırlar. Müttəfiqlər iki gün möhlət verilmək barəsindəki təvəqqeni rədd etmişlərdir. Son verilən məlumatdan anlaşılır ki, Almaniya matrosları öz kruvazer [kreyser] və zirehlilərinin həpsini qərq etmişlərdir. Yalnız "Baden" və digər bir neçə yüngül kruvazer qalmışdır. Almaniya hökumətinin baş komandanı bəyan eyləmişdir ki, paroxodlar özünün əmri üzərinə qərq edilmişdir.

London - Nemeslər sülh müahidənaməsini imza edəcəkləri barəsində verdikləri notada şərəfdən və sülh əqd et-

məkdən çox bəhs edirlər və elan edilir ki, Almaniyada şərqi əyalətlərin ayrılması ilə vaqe ola biləcək hadisələrin məsuliyyətini Almaniya öhdəsinə götürə bilməyəcəkdir. Hətta Almaniya var qüvvəsi ilə çalışsa belə, öhdəsinə aldığı iltizamlara əməl edəmməz.

## QƏZETƏLƏRDƏN

**Türkiyədə**

- Bursada olan yunan əhalisi Sülh Konfransına müraciətlə Bursanın Yunanıstana ilhaqını [birləşdirilməsini] xahiş edirlər.

- Venizelos Yunanıstanın Asiyayi-suğradakı [Kiçik Asiyadakı, Anadoludakı] tələbləri haqqında Sülh Konfransına bir müx-tirə [yazılı xəbərdarlıq] vermişdir.

- Türkiyə Ticarət və Ziraət [Kənd Təsərrüfatı] naziri artıq ehtiyacı olan kəndlərə müavinət göstərməkdən ötrü taxıl alınması üçün 2 milyard piastr göndərmişdir.

- "İqdam" qəzetəsi Atinada [Afinada] olan Türkiyə sabiq səfiri Qalib Kamal bəyin Hökumət Şurasında söylədiyi nitqini dərc etmişdir. Qalib Kamal bəy o cümlədən demişdir ki:

*"Mən müəzzəm [böyük] dövlətlərdən sual edirəm ki, onlar Türkiyədə reforma tətbiq etdikləri zaman onlardan hansı biri bizə bu işdə kömək etmişdir. Qoy onlar səmimi olub əllərini ürəklərinə qoyaraq bizə cavab versinlər. Bizim məmləkətimizə düçar olan bədbəxtlik Rusiyanın və Avstriyanın Yaxın Şərqdə olan daimi intriqalarının nəticəsi olmuşdur. Bu axır vaxt isə İngiltərə ilə Almaniya arasında olan mənafelərin bir-birinə zidd olması səmərəsidir."*

*Sonra Qalib Kamal bəy deyir ki:*

*"Yevropa bilməlidir ki, hərgah Sülh Konfransında qəbul edilən qətnamə qeydsiz və təbəddülatsız [dəyişmədən] Türkiyə həyatına tətbiq edilərsə, bizim xalqımız bir adam kimi bu cür qərarın əleyhinə qalxacaqdır."*

**Misirdə üsyan**

Münhendən Kiyev qəzetələrinə xəbər verirlər ki, Misirdə getdikcə inqilab şiddətlənməkdədir. Məhəlli [yerli] komanda heyəti öz vəzifəsi ifasından imtina etmişdir. Məmurlar hamısı tətil elan edib, İngiltərə hökumətini çıxılmaz bir hala qoymuşlardır. Qahirədə tətil hərəkatını idarə edən məhəlli məmurlar inqilab təşviqatı yapmaqdadırlar. Başqa şəhərlərdə olan tətillər də hökumət işlərini dayandırmışdır. Bir çox mitinq tərtib edənlər əhalini idarə edir. Bolşevizm şüarı altında hərəkat genişlənməkdədir.

**Hindistan Konfransının müraciəti**

İyunun 4-də verilən teleqraf xəbərlərinə görə, ümumi Hindistan Konqresi namından [adından] Lloyd Corca, Monteqyoya və lord Sinxə bir teleqraf göndərilmişdir. Teleqrafda Hindistan əhvalının fövqəladə bir surətdə ciddi və Hindistana nisbət siyasət kursunun dəyişilməsi lazım olduğu göstərilmişdir. Teleqrafda deyilir ki, mütarikə əqdi [atəşkəs imzalanması] zamanından Hindistan arzularına olan nisbət ümumən və tərzi-idarə reformaları artıq dərəcədə təbəddülata [dəyişikliyə] uğramışdır. Bununla belə, bu reformalar lazımdır.

**Kolçak hökumətində təbəddülat**

Omskdan xəbər verirlər ki, amiral [admiral] Kolçak Nazirlər Şurasında bir qədər təbəddülat [dəyişiklik] yapmışdır. Vükəla Şurası [Nazirlər Soveti] rəisi [Pyotr Vasilyeviç] Voloqodski qalmışdır. Qattenberger Daxiliyyə naziri təyin edilmişdir. Vükəla Şurası katibi Aberq Maarif naziri portfelini almışdır. Starınkeviç Ədliyyə naziri təyin edilmişdir. Şukin müvəqqəti olaraq Ticarət və Sənaət [Sənaye] naziri vəzifəsini ifa edəcəkdir.

**Belçika və Amerika**

Nauendən verilən simsiz teleqrafda deyilir ki, Belçika mətbuatı Almaniyanın bir para oblastlarının [əyalətlərinin] işğalı münasibətilə narazılıq izhar edir. Belçika qəzetələri yazırlar ki, biz istəyirik, almanlar bizə vurduqları zərərlərin əvəzini versinlər. Fəqət biz onları heç vaxt sıxmaq arzusunda deyiliz.

**Arvadların konqresi**

Sürixdə vaqe olan Beynəlmiləl Arvad Konqresi Sülh Konfransında iştirak etməkdən ötrü bir heyət intixab etmişdir [seçmişdir]. Bu heyətə Amerikadan, İngiltərədən, Fransadan, İtaliyadan və İsveçrədən xanımlar intixab edilmişdir. Həmin heyət general Pişon tərəfindən qəbul edilmişdir.

**Çində**

İyunun 13-də Tokiodan xəbər verirlər ki, hərbi gəmilər təcili surətdə Kantona azim olmuşlar [yollanmışlar]. Yaponlar əleyhinə təşviqat aparılması müşahidə edilir. Ələlxüsus Şanxay, Hankou və Kantonda olan təşviqat bütün əcnəbilər əleyhinə döndərilmişdir. Boykot münasibətilə Çin limanlarında gəmilər hərəkatı dayandırılmışdır.

- Sülh Konfransının Şantunq haqqındakı qərarına görə, Şantunqda böyük nizamsızlıq başlanıb, hətta əcnəbi polis üzərinə hücum olmuşdur.

**Müttəfiqlərin əmri**

Müttəfiqlər Macarıstana, Romaniyaya və çex-slavlara əmr etmişlər ki, müharibə hərəkatını qət edib [kəsib], Sülh Konfransında göstərilən əvvəlki sərhədərə qayıtsınlar.

**Kommunistlərin qətli**

İyunun 22-də Staraya Russadan xəbər verirlər ki, ağ qvardiya əsgərləri Hamburqa gələn kimi şəhər komendantı podpolkovnik Bibik 39 nəfər kommunisti asdırmışdır.

**Fərari kazaklar**

Saratovdan xəbər verirlər ki, bu axır vaxtlar Aleksandrov-Qay tərəfində dinc əhalidən başqa 123 nəfər kazak bolşeviklər tərəfinə keçmişdir.

**Hindenburqun hərəkəti**

Nauendən verilən simsiz teleqrafda deyilir ki, Dördlər Şurası Almaniya əsgərlərinin Kurlandiyaya hərəkət etmələri məsələsi ilə məşğuldur. Bu hərəkət estonları təhdid edir. Beynəlmüttəfiq [Müttəfiqlərarası] Hərbi Şura müharibə hərəkatını dayandırmaqdan ötrü müdaxilə edilməsi təklifində bulunmuşdur. Çünki Hindenburq əsgərləri Estoniyanı özlərinə tabe etmək istəyirlər.

**Pul tutulması**

Yekaterinodardan xəbər verirlər ki, Moskvadan Kiyevə göndərilən 200 mi-

lyon manat Qomel rayonunda üsyançılar tərəfindən dərdəst edilmişdir [tutulmuşdur].

**Qriqoryev dəstəsinin hərəkəti**

Kremençuqda [Nikifor Aleksandroviç] Qriqoryev dəstəsi bir atanı, iki qardaşı və Kremençuq Şurası sədrinin arvadını güllələmişlər. Qriqoryev dəstəsi hər yerdə yəhudiləri və kommunistləri qırmaqdadır. Yelizavetqradda Qriqoryev adamları İcraiyyə Komitəsi ilə Fövqəladə Komitə üzvlərinin hamısını güllələmişlər. Hər yerdə ki, hökumət Qriqoryev adamları əlinə keçir, bu cür müamilədə [rəftarda] bulunurlar. Znamenka mövqifində [stansiyasında] qatar dayandırılıb 300 nəfər yəhudi və yəhudiyə oxşayan adamlar oradaca güllələnmişdir. Kremençuqda Şura hökumətində iştirak edən 500 yəhudi güllələnmişlər.

**Rusiyada dəmiryol tətilləri**

"Y. V." qəzetəsi xəbər verir ki, Kazan, Nijeqorod, Murom və Şimali dəmiryollar tətil elan etmişlərdir. Tətilçilər siyasi əfviümumi, vətəndaş müharibəsinin dayandırılması ilə hökumət təşkil edilməsini tələb edirlər. Dəmiryol mövqifləri [stansiyaları] Çin və latışlar tərəfindən işğal edilmişdir.

**Finlandiya və bolşeviklər**

Moskvada olan bütün bolşevik mətbuatı Finlandiyanın axırıncı notasını Petroqrad üzərinə şiddətli surətdə hazırlanmaqdan ibarətədd [hesab] edirlər. Bolşevik mətbuatı Finlandiyanın bu çıxışını fitnə adlandırır. Bolşevik qəzetələrindən birisi yazır ki, Rusiya bolşevik hökuməti Finlandiyaya istiqlaliyyət vermişdir. Lakin Finlandiya burjuaziyası onun əleyhinə getməkdədir. General Mannerheym əcnəbi ağ qvardiya əsgərləri başında Petroqrada hücum etməkdədir. Bolşevik hökuməti üzərinə düşmən hamı cəbhədən hücum edir. Bolşevik hökumətinin əhvalı xeyli ciddidir.

**Petroqrada ərzaq**

İngiltərəni ərzaqla təchiz edən nazir müavini Petroqrada ərzaq gətirilməsindən ötrü təcili tədbirlər görməkdədir.

**Petroqradda hazırlıq**

General Yudeniç Petroqradın siyasi təşkilatını çıxış zamanı üçün hazırlamışdır. Bolşevik əsgərləri Krasnoye Selo yanında öz qüvvələrini cəm etməkdədirlər.

**İngilislərin Şimali Rusiyada tələfatı**

İyunun 4-də "Tayms" qəzetəsi yazır ki, lord Çörçill Avamlar Kamerasında suala cavab verərək xəbər vermişdir ki, Şimali Rusiyada ingilislərin tələfatı bu qərar üzrədir: aprelin 28-nə qədər 460 nəfər ölən və yaralanan vardır. Bunların 35 nəfəri zabitdir.

**İngiltərə silahı**

İngiltərə Hərbiyyə nazirinin verdiyi məlumata görə, bolşeviklərlə mübarizə etməkdən ötrü Rusiyaya 300 min təzə rus beşatılan tüfəngi və yarım milyard patron göndərilmişdir.

**Kopenhaqda tətil**

Kopenhaqda port fəhlələrinin tətili başlanmışdır. Məlum olmuşdur ki, bu tətil Almaniya hökuməti xidmətində olan rus bolşeviki Vançem tərəfindən tərtib edilmişdir. Məhəlli [yerli] fəhlə təşkilatları başçıları bolşevik tərzi-hərəkətinə iştirak etməyib, işlərin başlanması üçün tədbirlər görməkdədirlər.

**Bolşevizm əleyhinə**

İstanbuldan verilən məlumata görə, Take İonesku Şərqi Avropada bolşevizm əleyhinə bir cəmiyyət vücuda gətirmək layihəsini hazırlayır. Bu cəmiyyətə Ukrayna, Bessarabiyadan əl çəkmək şərti ilə Çex, Polşa, Serbiya və Romaniya daxil olmalıdırlar.

**Bolqariyada**

İyunun 14-də Odessadan xəbər verirlər ki, Bolqariya qəzetələrinin verdikləri məlumata görə, Müttəfiqlərin Bolqariyadan çıxmış olacağını hiss edib bütün Balkanı atəşə tutdurmaqla Bolqariyanı hər tərəfdən mühasirə edəcəklərdir. Makedoniya üsyanını yatırmaq üçün Səlanikdə fransız əsgərləri paroxodlara yüklənməkdədir. Fransızlar Bolqariya əleyhinə və Ukraynanın Bolqariya inqilabına kömək etmək arzusu əleyhinə hərəkatda bulunmaqdan ötrü Vanı (?)işğal etmişlərdir.

İtalyanlar Rodostokaya gəlmişlərdir. Bunlar Bolqariya kommunistlərinin arzusuna hüsn-təvəccöh göstərirlər.

**Fin xəlicində müharibə**

İngiltərə simsiz teleqrafı xəbər verir ki, Fin Baş ərkani-hərbinin [Baş hərbi qərargahının] məlumatına görə, rus kommunistləri qəflətən Fin xəlicində [körfəzində] duran saldatlara şiddətli atəş açmışlardır. Ağır toplardan güllələr atılmışdır.

**VÜKƏLA ŞURASINDA**
**[NAZİRLƏR KABİNETİNDƏ]**

Tiflisdən Rəisi-vükəla [Baş nazir] namına işbu məzmunda bir teleqram alınmışdır:

"Alınan məlumata görə, Naxçıvan, Şərur, Ordubadda Ermənistan hökuməti tərəfindən müsəlman camaat xadimləri və fəallarını təqib etməklə bərabər, müsəlmanların malları həcz [müsadirə] edilir, təftişlər yapılır. Əlbəttə ki, böylə müamilə [rəftar] müsəlmanların hüquqlarına təcavüz etməkdir. Əlavə, bu günlərdə erməni nizami qüvvələri Naxçıvanın 6 çağırımında vaqe Bulqan nam [adlı] müsəlman köyünü bombardman etmişdir. Əhali xof, dəhşət içində açıq hava altında qalmışdırlar.

Məruzəmlə rica edirəm ki, bizim etirazımızı Ermənistan hökumətinə elam etməklə [bildirməklə], İngiltərə Komandanlığına da əhvalı bildirəsiniz. Bir həftə belə təxir edilərsə, müsəlman kəndləri xarabazara dönəcəkdir."

*İrəvan quberniyası Həmtorpaqlar*
*Cəmiyyəti sədri: Şeyxov*

**NƏZARƏTLƏRDƏ**
**[NAZİRLİKLƏRDƏ]**

**Məsai Nəzarətindən**

"Azərbaycan" ruznaməsinin [qəzetinin] 210-cu nömrəsində Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən əsgərliyə çağırılan hökumət dairələrində bulunan məmurların ailələrinin təmini-məişətləri [dolanışıqlarının təmin edilməsi] barəsində olan məktubu mütaliə edib, bu barədə bir neçə söz yazmağı artıq görməyiriz.

Bu gün vətən və hürriyyətin ağır bir zamanında vətənin qəyur [qeyrətli] balaları istiqlaliyyətləri yolunda hər bir rahatlıqdan keçib canlarını hürriyyət və vətən uğrunda qurban etdikləri bir zamanda vətənin və vətən övladının təmini-istiqbalı üçün öhdələrinə ağır vəzifələr götürüb hökumət məsnədində [işində, vəzifəsində] bulunanlar da hürriyyət və istiqlaliyyət namına əllərindən gələn xidmətləri etməkdən çəkinməyəcəklərdir. Məmurların əhvalı fəramuş edilməyərək [yaddan çıxarılmayaraq], onların və onların ailələrinin təmini-istiqbalları üçün çalışırız. Bu barədə hələ bunu qeyd ediriz ki, əsgərliyə çağırılan məmurların yerləri özlərində qalır. Bu barədə təşkil olunmuş komissiya bir layihə tərtib verib, bu günlərdə hökumətə pişnihad [təqdim] edəcəkdir. Təsdiq olunduqdan sonra əhaliyə elan edəcəyiz.

*Məsai naziri:*
*Aslan Səfikürdlü*

**ORDUBAD MƏKTUBLARI**

Təxminən 300 min nüfusa [əhaliyə] malik olan Vedibasar, Şərur və Naxçıvan mahalı Ermənistana təslim oldular. Erməni rəyasəti altında "asudə" yaşamağa başladılar. Fəqət bir tək Ordubad şəhəri və həvalisi [ətrafı] ermənilərə tabe olmaq istəməyib, Azərbaycan Hökuməti təhtiidarəsində [tabeçiliyində] yaşayacağını bütün cahana elan etdi və haqlı olaraq Ermənistan tərəfindən "təyin olunmuş" Qoxtan diktatoru Aşot Məlik-Movsesyanı protesto edib, Ordubada hakim olmasından vaz keçməsini ona tövsiyə etdi. Necə ki, bu barədə "Azərbaycan"ın 211-ci nömrəsində bildirilmişdir. İştə, bu əhvalat bir çox şəxsləri heyrətdə qoyub şu suala səbəb olur:

Nə üçün böyük Şərur və Naxçıvan mahalı təslim olub da, kiçik Ordubad təslim olmaq istəməyir?

İştə şu suala cavab olaraq deyə bilərəm ki, vətəni mühafizə etmək onun böyük, yaxud kiçik olmağı ilə deyildir. Bəlkə, camaatın hissli, düşüncəli, vətənpərəst, namuslu və qeyrətli olmağından asılıdır.

Ordubad əhalisi bunu yaxşı düşünür ki, Qoxtan ermənilərinin zülmü altında yaşaya bilməyəcəklər. Ermənilərə etdikləri yaxşılıqların əvəzində daima fənalıq və hüquqa təcavüzdən başqa bir şey görməyəcəklər. Necə ki, bildirki həziran hadisatı [iyun hadisələri] bunu isbat edir.

Ordubad müsəlmanları öz qonşu ermənilərini mühafizə etdi, onları saxladı. Heç birinin hüququna təcavüz olunmadı. İran atlılarının onlara qarşı hücumuna və onların köylərinin İran qaçaqları tərəfindən qətl və qarət olunmasına mane oldu. Lakin müsəlmanların bu yaxşılığının mükafatı olaraq Andranik hücum etdiyi zaman həman ermənilər dəstələr düzəldib müsəlmanların köylərini dağıtdılar. Çoluq-çocuğunu qırmağa iktifa [kifayət] etməyib, gözəl xanımlarımızın ismət və namusuna təcavüz etdilər. Nəhayət, təslim olmuş köyləri də yaxıb, camaatı kəsib, daxmalarını xak ilə yeksan [yerlə bir] etdilər.

O cümlədən Yaycı, Üstüpü, Tivi, Bist və sair qəryələrdə [kəndlərdə] 15 mindən ziyadə müsəlman əhalisini tələf etdilər.





Məgər Ordubad müsəlmanları bunu görüb də, bir də ermənilərə bel bağlaya bilərmi? Yox, deyə bilərəm ki, onlar heç vaxt bu işə razı olmazlar. Vətən əzizdir və onu mühafizə etmək vacibdir fikri onların qəlbində oyanmış və onları həyəcana gətirmişdir.

Ordubad şəhəri və həvalisi Ermənistana tabe olmaz və axırıncı qətrə qanlarınadək bu yolda mübarizə edər və vətənin müdafiəsi yolunda tamam var-yoxunu qoyar.

Ordubadı və həvalisini idarə edənlər Dağıstanın Xəlilovları və Naxçıvanların xanları kimi deyildirlər ki, əziz və müqəddəs vətəni satıb, ana və bacılarının namusunu dünya müzəxrəfatına [boş, mənasız dünya malına] bədəl etsinlər. Onlar vətəni yolunda öz canlarını verməyə hazırdırlar.

Qoy ermənilər bilsinlər ki, Ordubad onlara təslim olmayacaqdır. Onlar Ordubadı idarə etməkdən vaz keçsinlər. Tamamilə müsəlmanla məskun olunmuş bu ölkə Ermənistana verilə bilərmi? Hərgah Ermənistan Cümhuriyyəti filhəqiqə [doğrudan da] cümhuriyyət qanununu nəzərə alırsa, nə üçün əhalinin dörddə üç hissəsi Azərbaycana tabe olmaq istədiyi halda, belə bir ölkəni zorla özünə ilhaq etmək [birləşdirmək] istəyir?

Qoy Ermənistan Cümhuriyyəti də, Müttəfiqlər Komandanlığı da, Sülh Konfransı da bilsinlər ki, Ordubad şəhəri və həvalisi Ermənistana tabe olmayacaq və heç qüvvə də onların bu fikrini dəyişdirə bilməyəcəkdir. Ölmək var, Ermənistana tabe olmaq yoxdur.

*Səttar oğlu Əliqulu*

**VƏTƏN MƏHƏBBƏTİ**

*(Bir qəhrəmanın zıyası [itkisi])*

Ali Ticarət məktəbini bitirmiş Qubad Əlibəyov nam [adlı] bir igid Teymurxanşura Parlamanı tərəfindən Teymurxanşura [Buynaksk] ətrafı köylərinə əhalini parlaman məramnaməsi ilə aşina etmək və parlamana üzvlər intixabını [seçilməsini] idarə üçün təyin edilmişdi. Məzkur [adı çəkilən] Əlibəyov bir qaç köyləri dolandıqdan sonra Xunzax nam köyə yetişər-yetişməz Denikin ordusunun Teymurxanşuraya gəlmələri xəbərini eşidir. Və vətənin qəhr edilməsini görmək istəməyərək bir qədər uzaşmış tapançasını çıxarıb öz-özünü vurur (bəzi rəvayətə görə, özünü çaya atır). Bakıya gəldiyim vaqonda mərhumun meyitini Qubaya gətirirdilər. Mərhum Əlibəyov fövqəladə millətpərəst olduğunu mən eyicə bilirəm. Fəqət mərhumun ölməsi, məncə, bicadır [boşunadır]. Zira Dağıstan qəhrəmanı Şeyx Şamil əfəndinin tarixlərdə məstur [yazılmış] igid Dağıstan camaatını məhzun və pərişan halda qoymuş nikolaypərəst, çinpərəst, pulpərəst, əziz Dağıstanı satıb igid dağıstanlıların namını söndürən, zəifləşdirən, ləkələndirən ləin [lənətli] millət xainlərindən birini öldürüb sonra ölsəydi, daha eyi olmazdımı?

*Ş. K. Pişnamazzadə*

**MƏTBUAT**

**Bolşevik qəzetəsi daşnaklar haqqında**

Bolşeviklərin "Nabat" qəzetəsi "Qanlı əllərinizi çəkiniz" sərlövhəli məqaləsində

yazır ki, xuliqanlar və qatillər firqəsi olan daşnakların murdar siyasəti bir gün, bir ay, bir il deyil, onillərdir ki, bədbəxt erməni kəndlisinin yerini arvad, uşaq və qocalar ilə dolmuş qəbiristana döndərmişdir. Bu quldur dəstəsi erməni füqərayi-kasibəsinin [proletariatının] qanı və göz yaşı ilə özünə boş bir qüvvət düzəldib nazir mənsəbləri, nişanlar və medallar almışdır. [Sergey Dmitriyeviç] Sazonov və [İllarion İvanoviç Vorontsov-]Daşkov kimi çar vəzirlərinin əli altında bu erməni dəllal və qatillər dəstəsi bütün Türkiyədə erməni kəndlilərinin qətliamına bais olmuşdur. Günahsız arvad-uşaqların qanı ilə ruhlanmış olan [Mişa] Arzumanov kimi dolandırıcılar [fırıldaqçılar] tipindəki bu quldur dəstəsi hal-hazırda ermənisiz Ermənistanı idarə etməkdədir. Bu özlərini tərifləyən dəstənin əks-inqilabçı olduğu hər bir dərrakəli erməni fəhlə və kəndlisinə hər şeydən aşkardır.

İndi də padşah generalları Rusiya füqərayi-kasibəsinin inqilabını yer üzündən götürməyə əbəs çalışdıqları zaman daşnak bandaları Denikinin çəkmələrini silmək üçün dəstələrlə onun yanına getməkdədirlər. Vaxtilə Nikolay Romanov qarşısında quyruq bulayan əxlaqsız lakeylər indi də Denikin və kompaniyası qarşısında diz çökməkdədirlər. Yalançı siyasət yürüdən şarlatanlar bu axır vaxt öz simalarını bütün açıqlığı ilə göstərdilər. Ərzincandan İrəvana, İrəvandan Qarabağa, Qarabağdan Şamaxıya qədər qəbiristanlar yaradan bu quldur dəstəsi indi də zabit dəstələrinin Zaqafqaziyaya hərəkət eyləmələri münasibətilə öz boş başlarını qaldırmışdır.

Erməni Milli Şurası rus zabitlərinin Zaqafqaziyaya hərəkət eyləmələrinə mümaniət [maneçilik] göstərilməməsini təhti-qərara almışdır. Dro və kompaniyası yenə də silahla iş görməyə başlamışdır.

Denikinin köməyindən ötrü Gürcüstan arxasında cürbəcür ehtiyat alayları təşkil edilməkdədir.

Bu, xəyanətdir, ya qanmamazlıqdır? Erməni daşnakları Denikin ştabında nə eyləyirlər?

Yenə dəmi onlar padşah əsgərləri və sabiq rus müstəbidlərinin üçrəngli bayraqları altında yenə təzədən öz qanlı peşələri olan milli ədavət salmaq və heç bir şeydə günahı olmayan Zaqafqaziya kəndlərini və şəhərlərini qan içində boğmaqmı istəyirlər?

Xeyr, onlar səhv edirlər. Erməni fəhlə və kəndliləri erməni millətinin bu tör-töküntüsü olan nanəciblərin qanlı əllərinin qismətini kifayət qədəri anlamışlardır. Onlar dolandırıcı dəstəsi olan daşnakların ağılsız və insafsız siyasətlərini kifayət qədər öz arxalarında daşımışlardır. Qaçqınlığın hər bir cür cəfasını dadmış olan erməni füqərayi-kasibəsi mauzerçilərin dalıca getməyib, indiki kimi onlara lə'n və nifrin [lənət və qarğış] edir. Erməni fəhlə və kəndliləri hal-hazırda mübarizə etdikləri kimi, erməni daşnaklarının içiboş başları üstündən hər növ əksinqilabla mübarizə edəcəklərdir.

**Menşevik qəzetəsi bolşeviklər haqqında**

Yazıq "İskra"çıların bəxti heç gətirməyir. Nə kontrrevolyusionerlər [əksinqilabçılar] onları hökumət başına buraxırlar, nə də tovarişlər. Bu yazıqların da gah nala, gah mıxa döyməkdən başqa bir çarələri qalmır. Bolşeviklər də bunları dərağuş etmədilər [bağırlarına basmadılar]. Odur ki, indi də dünkü "tovariş"lər bu gün yaman olublar.

"İskra" qəzetəsi Müttəfiqlərin Kolçak hökumətinə kömək etdiklərini Müttəfiq hökumətlərin vəziyyətinin möhkəmləşməsi, Rusiya əksinqilabçıları əhvalının yaxşılaşması və biləks [əksinə], bolşeviklərin kəsbi-zəf etmələri [zəifləmələri] və nəhayət, cahan demokratiyası köməyindən də ümid kəsilməsi kimi tələqqi edərək [qiymətləndirərək], tapır ki, böylə bir zamanda bolşeviklər də köməyi menşevik və eserlərdən gözləyib onlarla birləşməli idilər. Fəqət bununla bərabər, bolşeviklər onları qucaqlarına çəkməyirlər. Doğrudur ki, bolşeviklər cəbhəni düzəltmək və birləşdirməyə söz verirdilər.

*"Amma həqiqətdə böylə olmadı. Şura hökuməti talançı Qriqoryev və Maxno kimi macəraçuların [avantüristlərin], məslək sahibi həqiqi sosialistlərin mübarizə etdikləri çrezvıçaykaların və mənsəblə cib mənfəəti axtaran on minlərcə komissarların əlində əsir oldu.*

*Yəqin ki, bolşevik hökuməti həqiqətihalda böylə adamların əlində olduğundan, onlar heç vaxt müxalifətgir olan [müxalifət edən] sosialist ziyalılar, kəndlilər və füqərayi-kasibənin idraklı qismi ilə birləşməzlər. Çünki həman komissarlar və çrezvıçaykalar bir çoxlarının zənn etdiyi kimi Lenin, yainki Trotskinin bir işarəsi ilə öz mövqelərindən əl çəkməzlər. Onlar kəndilərini xilas etmək üçün İctimaiyyuniamiyyun [Sosial-demokrat] və İnqilabiyyun firqələri müqabilinə şiddətli mübarizə açaraq, üzərlərinə körpü və zavodları partlatmaq kimi böyük töhmətlər atdılar."*

Əgər bu sözləri yazanlar və onların mənsub olduqları firqə, heç olmazsa, bir ay öz sözünün üstündə duran adam olsaydılar, bəlkə biz də onların rəyinə şərik olardıq. Amma hələlik sosialistlərə tövsiyə edərdik, barı bu gün yazdıqlarını xatirlərində saxlasınlar. Çünki gündə bir dəfə Azərbaycan demokratiyasını həman bu adamların bayrağı altına çağıranda, bəlkə yadlarına düşə və utanalar.

Eyni məqaləsində "İskra" qəzetəsi kommunistlərin əksinqilabçılar bəhərkənarə [hər yerdə] sosialistlərlə necə rəftar etdiklərindən şikayətlə yazır ki:

*"Alınan son məlumatdan görülür ki, yoldaşlarımız (yəni sosialistlər) qismən həbsxanalara alınmış, qismən də ziri-zəminlərə [yeraltına] çəkilməyə məcbur olmuşlardır."*

Ona görədir ki sosialist "tovarişlər" Azərbaycanda inqilabın bütün fütuhatından [nailiyyətlərindən] istifadə etdikləri halda, nami-hürriyyətdən sui-istifadə edərək gündə bir dəfə "Yaşasın Şura hökuməti" deyə bizi də, özlərini də "talançı Qriqoryev, Maxno, çrezvıçayka və on minlərlə mənsəb axtaran və mənfəəti-şəxsiyyə güdən komissarlar"ın əlinə vermək istəyirlər!

## BAKI XƏBƏRLƏRİ

**Dəvətnamə**

Bakı şəhərinin sünniməzhəb qazısının sərəncamına binaən [əsasən], şəhərin prixod ruhanisi molla Ələddin əfəndi Qabilov və məscid binası üçün təşkil olunmuş komitənin heyəti-idarəsi yövmi-mübarək [mübarək gün] Oruc bayramının dü-

xulu [daxil olması] münasibətilə Bakıda sükunət edən [yaşayan] əhaliyi-müsliminə və İdilboyu [Volqaboyu] tatar camaatına elan edir ki, inşallahi-taala, səlatieydi-fitri [Oruc bayramı namazını] cəmən [hamılıqla] bir yerdə əda etmək üçün işbu iyun ayının 30-cu günündə səhər saat 9-da Balaxanski və Maqazinni küçələrin küncündə bulunan xüsusi məscid torpağının həyətində camaat hazır olacaqlar.

*Komitənin sədri əvəzində katib:*
*[Ələddin] Sübhanqulov*

**Mavərayi-Bəhri-Xəzərdə azərbaycanlılar**

Mavərayi-Bəhri-Xəzərdəki [Zakaspiyskdəki] Azərbaycan konsulu orada sükunət edən Azərbaycan təbəələrinə məlum etmişdir ki, onlar siyahı edilmək üçün konsuldan şəhadətnamə almalıdırlar. Mavərayi-Bəhri-Xəzərdən Azərbaycan Cümhuriyyəti daxilinə getmək istəyənlər konsulxanadan icazə vəsiqələrini almalıdırlar. İyun ayının 14-dən etibarən Krasnovodskda konsulun naibi təyin edilib, orada sükunət edənlərə şəhadətnamə və qeyri vəsiqələr verilir.

**Zakaspidə azərbaycanlılar**

Zakaspi hökuməti Azərbaycan dövlətinin iqdamatı [təşəbbüsü] nəticəsi olaraq bütün azərbaycanlıları bilafərqi-dinü-milliyyət [din və millət fərqi olmadan] əsgərlikdən azad etmişdir.

**Azərbaycanlı qaçqınlar**

Mərv, Kuşka, Bayraməlidən fərar etmiş 3 minədək azərbaycanlılar İrana getmişdilərsə də, həyatın müşkül olmasından naşi [ötrü] Aşqabada qayıtmaq məcburiyyətində qalmışlardır. Onlar Azərbaycan hökumətindən maddi müavinət istəmişlərdir.

**Azərbaycanlı xanımlar**

Aşqabaddakı azərbaycanlı xanımlar oradakı səfarətimizə müraciətən rica etmişlərdir ki, qadınların namından Azərbaycan Məclisi-Məbusan və fəal hökuməti təbrik edilsin.

- Dünəndən etibarən bu vaxtadək Tiflisdə qalmış Xariciyyə naziri Məhəmməd Yusif Cəfərov həzrətləri öz vəzifəsini ifasına şüru etmişdir [başlamışdır].

**İclas**

İyulun 1-i saat 5-də Fəhlə Klubu salonunda Azərbaycan İctimaiyyuni-inqilabiyyun [Sosialist-inqilabçılar] firqəsinin ümumi iclası təyin edilmişdir. İclas ikinci dəfə olduğu üçün qanuni hesab ediləcəkdir. Yoldaşlardan vaxtında gəlmələri rica olunur.

**Bakı-Tazəşəhər sualtı teleqrafı**

Zakaspi Hökuməti Azərbaycan Hökumətinə müraciətən rica etmişdir ki, Bakı-Tazəşəhər sualtı teleqrafını (kabel) təmir haqqında lazım gələcək tədabir ittixaz edilsin [tədbirlər görülsün].

**Ziraət və fəllahət**

İyunun 22-də Ticarət və Sənaye Nəzarətində camaat təşkilatı nümayəndələrinin iclası vaqe olaraq, 1917-ci ildən tərtib edilmiş olan ziraət və fəllahət [əkinçilik və kənd təsərrüfatı] siyahısından istifadə etmək məsələsi müzakirə edilmişdir. Həmin siyahıda ərazi işləri, heyvanatın miqdarı, taxıl məhsulu, pambıq, yun və qeyriləri haqqında lazımi və müfəssəl məlumat verilmişdir. Bu siyahı köhnə də olsa, bizə mənfəəti vardır. Müzakirədən məlum olmuşdur ki, bu siyahıdan 300 dənə çap edildikdə bir milyon manat xərc edilməlidir. Bu siyahıdan torpaq islahatı işləri vaxtında istifadə etmək üçün Ziraət nazirinə verilir. Bundan əlavə, şəhərə mal gətirilməsi və çıxarılması məsələsi müzakirə edilərək üç maddə qəbul edilmişdir: 1) Şəhərdən aparılması qadağan edilən mallar; 2) Müəyyən şərtlər.

**FƏHLƏ HƏYATI**

**Məsai Nəzarəti-cəliləsinin nəzəri-diqqətlərinə**

23 həziran tarixində düşənbə [bazar ertəsi] günü saat 12 zəvalda [günorta] Nobel 3-cü uçastok [sahə] mədən mühəndisi ilə əmələ miyanında [arasında] nəşət etmiş [meydana gəlmiş] ixtilaf dolayısı ilə qüsur kimdə olduğunu təhqiq üzrə canibi-Nəzarətlərindən [Nazirlik tərəfindən] məmur edilmiş fabrika müfəttişinin təklifinə təbəən [tabe olaraq], Balaxanı mədənlər mərkəzi "Müsavat" idarəsi tərəfindən nümayəndə olaraq idarə üzvü Həmid Paşazadə məiyyəti ilə bəndələri dəxi [Həmid Paşazadə ilə birgə mən də] məhəllitəhqiqatda [təhqiqat yerində] hazır olduq.

Mühəndislər İttifaqı tərəfindən: 1) "Bozin" Sabunçu dairəsi mədən müdiri; 2) Bakı Neft Cəmiyyətinin 15-ci uçastok mədən müdiri müavini; fəhlələr tərəfindən isə üç nəfər mədən komiss[iy]aları dəxi hazır idilər.

Fəhlələrin 18 maddə ilə canibi-Nəzarətlərinə təqdim etmiş olduqları şikayət vərəqəsi müfəttiş əfəndiləri tərəfindən mövqeyi-təhqiqata vəz edilib [təhqiqata qoyularaq], maddələr əksəriyyən yek-digərinə mərbut [bir-birinə bağlı] bulunduqlarından, 9 maddə intixab edildi [seçildi]. Şu maddələrdə müddəi-əleyh [haqqında iddia qaldırılan] və müddəilər [iddiaçılar] istintaq edilərək, tərəfeynin [hər iki tərəfin] təqriratı səbt edildikdən [ifadələri qeyd edildikdən] sonra təhqiqat dairəsindən kənar edildilər.

Şikayət maddələri və tərəfeynin təqriratı tədqiq və mühakimə edilmək üzrə müfəttiş əfəndiləri tərəfindən mövqeyimüzakirəyə vəz edilərək [müzakirəyə qoyularaq], şikayət maddələrinin hər birində mühəndis qüsurlu, yaxud şikayətçilər haqsız olduğu xüsusunda məhakimlərdən [mühakimə edənlərdən] hər kəs kəndi nəzəriyyat və düşüncəsini bəyan etməsi xahiş edildi.

Hər bir maddə xüsusunda əvvəla "Müsavat" nümayəndələrinin, mütəaqibən [onların ardınca] Mühəndislər İttifaqı nümayəndələrinin, daha sonra mədən komissiyalarının nəzəriyyatı səbt [qeyd] edilirdi.

Yüzləri mütəcaviz [keçən] əmələ bir nəfər əleyhinə izhari-təzəllüm etmələri [zülmündən şikayət etmələri] həman bir nəfərin zalım olmasına bürhani-qati [şübhəsiz dəlil] olduğundan maada [əlavə], bütün maddələrdə "Müsavat" nümayəndələri və mədən komissiyaları mühəndisi məntiqi dəlillərlə qüsurlu görürlərdi. Mühəndislər İttifaqı nümayəndələrinə gəldikdə, təbii, sənələr müqəddəmdən [əvvəldən] əmələnin başında amiri-mütləq [mütləq başçı] kəsilərək qatı istibdad yeridə gəldikləri halda, fəqət nüfuz nöqteyi-nəzərindən tam mənası ilə mühən-

disi qüsursuz, şikayətçiləri isə haqsız göstərməyə səy edəcəklərdi. Calibi-diqqət [diqqəti çəkən] nöqtə yalnız burasıdır ki, müfəttiş cənabları hökumət tərəfindən ehqaqi-haqq və təhərriyi-həqiqət üzrə [ədaləti icra etmək və həqiqəti axtarmaq üçün] ezam edilmiş məmur deyil, mühəndisi-məzkurun [adı çəkilən mühəndisin] parası ilə əcir tutulmuş [pulla tutulmuş, günəmuzd işləyən] müdafiəçi vəkil kimi mühəndis[i] tənzih etməkdə [təmizə çıxarmaqda] ciddiyyəti-fövqəladə ilə bəzli-məsai edirdi [cidd-cəhdlə səy göstərirdi].

Mədən komissiyaları müfəttiş əfəndilərinin hərəkatından dilgir [dilxor] olaraq, "Hökumət də zalımlar müdafeyi [müdafiəçisi] olduqda, nerədən ümid gözləməliyiz?" demələrinə qarşı, "Əfəndilər?! Fabrika müfəttişi hökumət deyil, bir nəfər məmurdur. Şikayətinizdə haqlı olduğunuz təhəqqüq edərsə [meydana çıxarsa], Məsai Nəzarəti-cəliləsində haqqınız tam mənası ilə nəzərə alınaraq, ehqaq edilməsinə [hüququnuzun təmin edilməsinə] əmin olunuz!" deyə cavab verdimsə də, fəhlə komissiyalarının kədər və infialına təxfif vermədi [kədər və qəzəbini yüngülləşdirmədi]. Binaənileyh [ona görə], fəhlələrə qənaətbəxş bir üsul ilə ixtilafın bərtərəf edilməsinə [aradan qaldırılmasına] müsaidə buyurulması rica olunur.

*Balaxanı, Sabunçu mədənlər mərkəzi "Müsavat" katibi Yusifzadə Əbdürrəhim*

Balada mühərrər keyfiyyət mütabiqivaqedir [Yuxarıda yazılanlar həqiqətə uyğundur].

*Məşhədi Həmid Paşazadə*

## AZƏRBAYCANDA

### Salyandan

Bakı Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Mərkəzi Komitəsi tərəfindən təşkilat yapmaq üçün Salyana göndərilən Hacı Mirzə Səlim əfəndi [Axundzadə] işbu həziranın 20-də bütün Salyan ürəfa və gənclərini klub salonuna dəvət etmişdi.

Vəqti-müəyyənədə [müəyyən edilmiş vaxtda] dəvət edilən zəvati-möhtərəmə [möhtərəm şəxslər] salona toplandılar. İclasa bir nəfər müvəqqəti sədrlə bir nəfər katibin intixabı [seçilməsi] təklif edildi. Əksəriyyəti-ara [səs çoxluğu] ilə İsmayıl bəy Hüseynzadə sədarətə, Rüstəm İskəndərzadə katibliyə intixab edildilər.

İbtida [əvvəla] Hacı Mirzə Səlim əfəndi firqə xüsusunda və "Müsavat"ın fəaliyyəti babında bəyanat verdi. Salyanda "Müsavat" şöbəsinin təşkili hazirun [iştirakçılar] tərəfindən təsvib edildikdən [bəyənildikdən] sonra mütəallimlərimizdən [tələbələrimizdən] Yaqubov Əbdülhəmid əfəndi məqami-xitabətə keçərək köhnə idarədə çalışmış üzvlərin fəaliyyətsizliyindən və sairədən bəyanat verdikdən sonra bu dəfəki seçkidə isə sabiqdəki vəch üzrə [keçmişdəki kimi] qəflət edilməməsini və intixab olunacaq zatın çalışqan və ləyaqətli zəvatdan olmasını hazirundan rica etdi.

Bədəhu [sonra] seçkiyə şüru edilib [başlanıb], bu adamlar seçildilər:

1) Mehdi Bədəlov;
2) Rüstəm İskəndərzadə;
3) Əbdüssalam Səmədov;
4) Müseyib Məhəmmədov;
5) Əbdülhəmid Yaqubov;
6) Mehdi Tahirov;
7) Molla Hüseyn Qasımov;
8) Əsədulla Yaqubov;
9) İsmayıl bəy Hüseynzadə;
10) Mirzə Məhəmməd Zeynalov;
11) Zəbihulla Mollazadə.

Bunlardan sədr – Əbdüssalam Səmədov; katib – Rüstəm İskəndərzadə; xəzinədar – Mehdi Bədəlov əfəndiləri intixab olundular.

Bu tarixdən etibarən firqə üçün üzvlər yazılmağa başlamışdır. Firqənin gələcək fəaliyyəti babında məlumat veriləcəkdir.

*[Rüstəm] İskəndərzadə*

### Lənkəran əhvalı

"Azərbaycan" qəzetəsinin müxbiri teleqrafla xəbər verir ki, Lənkəranda atılan top səsləri Xanqışlaqda eşidilir. Tacirlər həbsxanaya salınmışlar. Bolşeviklər onları buraxmaq üçün 8 milyon istəyirlər. Bolşeviklər 26 yaşından 45 yaşına qədər müsəlmanları güclə əsgər aparırlar. Şəhərin halı fənadır. Hər tərəfdən şəhər yandırılmışdır. Bolşeviklər ermənilərlə bərabər Sara cəzirəsinə [adasına] cəm olmuşlar. Xanqışlaq əhvalı da qorxuludur.

*Parlaman üzvü:*
*[Hacı Mirzə Səlim] Axundzadə*

### Lənkəranda bolşevik hökuməti dağılmışdır

İdarəmizdə alınan mövsuq [etibarlı] xəbərlərə görə, Lənkəranda olan bolşevik hökuməti Muğan kəndliləri tərəfindən dağıdılmışdır. Əhvalat belə olmuşdur:

Bolşevik hökuməti məhəlli [yerli] dövlətlilərdən 8 milyon manat istəmişdir. Bu məbləğ veriləne kimi 60 nəfərə qədər məhəlli dövlətlilər, o cümlədən Axundov, Əliyev və Abdullayev qardaşları həbsə alınmışlar. Şimali Muğan kəndliləri bu əhvalatdan xəbərdar olub bir para adamların azad edilməsini ultimatumvari tələb etmişlərdir. Bu tələbata əməl edilməmişdir. İyunun 25-də axşam neçə min nəfərdən ibarət muğanlılar Lənkəranı mühasirə etmişlərdir. Müxtəsər bir müharibə olmuşdur. Bolşeviklərin bir hissəsi lodkalarda Sara cəzirəsinə, bir hissəsi Salyana qaçmışdır. Xəbər verirlər ki, bolşevikləri təqib eyləmək üçün adamlar göndərilmişdir. Bolşevik başçılarından 10 nəfəri muğanlılar tərəfindən tutulmuşdur.

## TEATRO VƏ MUSİQİ

Eydi-fitr [Oruc bayramı] münasibətilə düşənbə [bazar ertəsi] günü şəvvalül-mükərrəmin 1-də Hökumət Teatrosunda türk aktyorları tərəfindən gündüz tamaşası olmaq üzrə məzhəkə surətində "Leyli-Məcnun", axşam isə "Aşıq Qərib" operaları mövqeyi-tamaşaya vəz ediləcəklərdir [tamaşaya qoyulacaq]. Gündüz tamaşası günorta saat 1-də, axşam tamaşası isə 8-də başlanacaqdır.

### Axşam tamaşası

Bayram günü eydi-fitr münasibətilə axşam saat 8 yarımda Fəhlə Klubunda İraniyanilər Maarif Cəmiyyəti "Tərəqqi" nin nəfinə [xeyrinə] nümayiş veriləcəkdir. Nümayişdə cəmiyyətin həvəskar üzvləri iştirak edəcəklərdir. Biletlər satılır indidən "Novbahar" lokantasında və Həsən

Möhsünzadənin qənnadı mağazasında. Tamaşa günü kassada cəmiyyətin üzvləri üçün biletlər pulsuz olduğuna görə, üzvlük vərəqələrini özləri ilə gətirməlidirlər.

**Tiflis səyahəti**

Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli qardaşlarının müdiriyyəti öz aktyorları ilə bərabər iyul ayının 1-də Bakıdan Gürcüstan paytaxtı Tiflis şəhərinə əzimət edəcəklərdir [yola düşəcəklər]. Orada Hökumət Teatro binasında Azərbaycan lisanında Azərbaycanda ən məşhur opera, operetta və drama tamaşalarını göstərəcəkdir. Bakıda isə əcalətən [təcili surətdə] axırıncı tamaşa olaraq eydi-fitr münasibətilə düşənbə günü şəvval ayının 1-də Hökumət Teatrosunda məşhur “Aşıq Qərib” operası oynanılacaqdır. Biletlər indidən teatro kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 8-də.

**İtibdir**

Mirvat Mustafazadənin 2-ci polis idarəsindən aldığı pasportu, “Vastoçnı” Cəmiyyətinin 22-ci körpüsündən 520 pud 20 girvənkə dəmir kuporos (38 boçkada) üçün verilən 322251 nömrəli qəbzi itibdir. Etibardan saqitdir [etibarsızdır].

*10260*

**Elan**

Zaqafqazın sünniməzhəb idarəsindən 1913-cü sənədə avqustun 7-də nömrə 1317 ilə Göyçay qəzasının Şahsünni qəryəsinin [kəndinin] əhli Molla Əbdülkərim İsa əfəndi oğluna məscid mollasının ləqəbinə verilən attestatı məfqud [itirilmiş] olduğundan, ləğv və etibardan saqit hesab olunduğu ümuma elan edilir.

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**“Kooperatsiya” müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*





**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş ibıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*10257*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Doktor**
**S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

Diş müalicəxanası və süni diş laboratoriyası. Adres: Sisyanovski (Ləzginski) və Çadrovı küçələrin küncündə nömrə 41. Telefon 22-07. Qəbul edir səhər saat 6-dan 8-ədək; səhər saat 11-dən 2-yədək; axşam saat 4-dən 8-ədək. Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır.

*8779*

**Bakı “Obşestvennı Sobraniyası”**

Düşənbə [bazar ertəsi] günü həziran ayının 30-da “Obşestvenni Sobraniya”nın namizədləri siyahısı səsə qoyulacaqdır. Nizamnamənin 14[-cü] maddəsinə binaən [əsasən], həmin gün namizədlərin iclasa gəlmələri qadağandır.

*T-163*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**“Azərbaycan”**

səh. 491. “29 həziran 1919 sənə”: qəzetdə “29” yerinə səhvən “28” getmişdir.

**Müsəlman müəllimə və müəllimləri üçün iki aylıq kurslar**

səh. 491. Bu elandakı rəqəmlərdə yanlışlıq var; qəzetdə belə getmişdir.

**Barışıq imza edildi**

səh. 493. “qövldən feilə”: qəzetdə “qüvvədən feilə” getmişdir.

**Sağ ayağımız da kəsilir**

səh. 494. “şəhri-Babil”: Babil şəhəri (və xüsusilə Babil qülləsi) klassik ədəbiyyatda qarışıqlığı, hərc-mərcliyi, bir-birinə yad, bir-birini başa düşməyən müxtəlif ünsürlərin toplandığı yeri təmsil edir.

səh. 495. “Yəcuc-məcuc”: dini əfsanələrə görə, yer üzündə fitnə və qarışıqlıq çıxaracaq, qısa boylu və çirkin görünüşlü adamlardan ibarət iki tayfa; burada məcaz kimi işlədilmişdir.

**Qəzetələrdən**

səh. 502. “piastr”: İspan pulu; burada “quruş” nəzərdə tutulur; türk “quruş”una Avropada bəzən “türk piastrı” deyilirdi.

“İqdam”: 1894-1928-ci illərdə İstanbulda türk dilində nəşr edilən gündəlik siyasi və elmi qəzet. 1894-1910-cu illərdə “İqdam”, 1910-1912-ci illərdə “Yeni İqdam”, 1912-ci ildə bir müddət “İqtiham”, 1912-1928-ci illərdə yenə “İqdam” adıyla nəşr edilmişdir.

səh. 503. “Kanton”: Çinin cənubunda yerləşən Quançjou şəhəri keçmişdə Kanton adlanmışdır.

“Staraya Russa”: Rusiyanın Novqorod vilayətində şəhər; qəzetdə “Staraya Rossiya” getmişdir.

“Hindenburq”: qəzetdə “Gindenburq” kimi getmişdir.

Kurlandiya: Latviyanın bir qisminin tarixi adı.

səh. 504. “Yelizavetqrad”: Ukraynanın Kirovoqrad vilayətinin inzibati mərkəzi.

“Hər yerdə ki, hökumət Qriqoryev adamları əlinə keçir...”: qəzetdə “əlinə” yerinə “işə” getmişdir.

“Znamenka mövqifində”: hal-hazırda Ukraynanın Kirovoqrad vilayətində Znamenka şəhəri.

“Y. V.”: “Yekaterinodarskiye vesti” qəzeti nəzərdə tutulur.

“Kazan, Nijeqorod, Murom və Şimali dəmiryollar”: qəzetdə bu adlardan bəziləri təhrif edilmişdir; Moskva-Kazan dəmiryolu, Moskva-Nijeqorod dəmiryolu, Murom dəmiryolu (Vladimir quberniyası ərazisində) və Şimal dəmiryolu nəzərdə tutulur.

“Avamlar Kamerası”: Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

səh. 505. “Vanı (?) işğal etmişlərdir.”: qəzetdə belə getmişdir.

**Ordubad məktubları**

səh. 506. Qoxtan: Ermənilərin Ordubad rayonunun bir qisminə verdikləri ad.

“Dağıstanın Xəlilovları”: Könüllü ordunun Dağıstana rəhbər təyin etdiyi general Mikayıl Xəlilov nəzərdə tutulur.

“mauzerçilər”: silahlı erməni quldurları; əsasən mauzerlə silahlandıqları üçün belə adlanırdılar.

“Qriqoryev və Maxno kimi macəraculaların”: Nikifor Qriqoryev və Nestor Maxno nəzərdə tutulur.

“çrezvıçayka”: Rusiyada “qırmızı terroru” həyata keçirən Əksinqilab və Sabotajla Mübarizə Fövqəladə Komissiyaları nəzərdə tutulur.

“prixod ruhanisi” (yaxud “prixod mollası”): camaatın ianələri hesabına saxlanan ruhani.





“Tazəşəhər”: Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinin bəzi mənbələrdəki adı.

“üç maddə qəbul edilmişdir”: qəzetdə üçüncü maddə buraxılmışdır.

“Məsai Nəzarəti-cəliləsi”: “böyük, uca, cəlallı” mənasına gələn “cəlilə” sözü rəsmi yazışmalarda nazirliklərin adına əlavə edilirdi.

“Fabrika müfəttişi”: sənaye müəssisələrində əmək şəraitinə nəzarət edən dövlət qurumu Fabrik Müfəttişliyinin əməkdaşı.

“Şikayətinizdə haqlı olduğunuz təhəqqüq edərsə...”: qəzetdə “təhəqqüq” yerinə “təhqiq” getmişdir.

“Xanqışlaq”: Salyan qəzasının kəndi.

“Sara adası” (yaxud Sarı adası): Xəzər dənizində, Lənkəran şəhərinin şərqində yerləşirdi. 1956-cı ildə torpaq yolla Port İliç (indiki Liman) şəhəri ilə birləşdirildikdən sonra yarımada olmuşdur.

“dəmir kuporos”: kimyəvi maddə; sulfat turşusunun dəmir duzu; mürəkkəb və boyaq istehsalında, kənd təsərrüfatında ağacların qorunmasında istifadə edilir.

“Şahsünni” (yaxud Şahhüseynli): Zərdab rayonunun kəndi.

# ADLAR GÖSTƏRİCİSİ


A.: Bakıda müəllim olmuşdur. 407

Abaşidze, Abdulla bəy: Müsəlman Zəhmətkeş Ziyalılar İttifaqının; Müsəlman Müəllimlər İttifaqının üzvü olmuşdur. 184, 362

Abbas I (Şah Abbas; 1571-1629): Səfəvi şahı; 1587-1629-cu illərdə hakimiyyətdə olmuşdur. 15, 457

Abbas Cəlil oğlu: Qusar sakini. 481

Abbas xan: İranın Azərbaycandakı konsulu Səidülvüzəranın naibi olmuşdur. 130

Abbas Qabaş oğlu: Qusar sakini. 481

Abbasquluzadə, Əliağa: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131

Abbasov, Əlibaba: Ağdaşda Qaçqınlara Yardım Komitəsinin mühasibi olmuşdur. 132

Abbasov, Hacıağa: bax. Abbaszadə, Hacıağa.

Abbasov, Salman. 386

Abbaszadə, Abbas (Mizə Abbas; yaxud A. Mollazadə; 1870-1920): Azərbaycanlı pedaqoq və folklorşünas. Azərbaycan məktəbləri üçün dərsliklər qələmə almışdır. Bəzi əsərlərində "A. Mollazadə" imzasından istifadə etmişdir. Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin və Gəncə Türk Müəllimləri İttifaqının üzvü olmuşdur. 46, 47, 48, 52, 283

Abbaszadə, Abbas: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131

Abbaszadə, Hacıağa (yaxud Hacıağa Abbasov; 1888-1975): Azərbaycan aktyoru; Kəndçilər İttifaqının sədri. 384, 385

Abbaszadə, Mirzə Abbas: bax. Abbaszadə, Abbas.

Abdinov, İbrahim bəy: Bakıda Mərkəzi Həbsxananın müdiri olmuşdur. 308

Abdulla bin əl-Müqəffe: bax. İbnül-Müqəffe.

Abdulla Şaiq: bax. Talıbzadə, Abdulla Şaiq.

Abdullayev: Bakı sakini; saxta pul kəsməkdə ittiham edilərək tutulmuşdur. 42

Abdullayev: Lənkəran varlılarından. 513

Abdullayev, Müzəffər bəy: Şamaxı qəza rəisinin müavini olmuşdur. 358

Abdullazadə, Ağaməhəmməd: Kürdəmir sakini. 101

Aberq: Ümumrusiya Hökumətinin Maarif naziri (1919) olmuşdur. 503

Abı Məhəmmədəli qızı (Məşhədi Məhəmmədəli qızı): Bakı sakini. 75

Abidinzadə, Yaqub: Bakı Neft Cəmiyyəti fəhlələrinin nümayəndəsi olmuşdur. 20

Abramoviç: mühəndis. 477

Abutalıb Məhəmmədəli oğlu (Məşhədi Abutalıb): Bakının Nardaran kəndinin sakini. 326

Adıgözəlova, Məryəm xanım: Bakıda müəllimə olmuşdur. 407

Adil paşa: Misir vəziri. 6

Ağa Xan III (Sultan Məhəmməd şah; 1877-1957): Müsəlman ismaililərin 48-ci imamı. Hindistanın müstəqilliyi, eləcə də Pakistanın maraqları uğrunda mübarizə aparmışdır. 397, 409

Ağa Məhəmməd xan. 455

Ağababazadə, Dadaş: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131

Ağabala Şükür oğlu: Çənbərəkənd məhəlləsi sakini. 483

Ağaisa: Şamaxıdan "Azərbaycan" qəzetinə yazmışdır. 102

Ağakişizadə, Əbdürrəhim: "Azərbaycan" qəzetinə Şəkidən yazmışdır. 328

Ağalar bəy: Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 183, 184

Ağamalıoğlu, Səməd ağa (yaxud Ağamalızadə; Ağamalıyev; Ağamalov 1867-1930): Azərbaycanın və Sovet İttifaqının dövlət xadimi. Zaqafqaziya Seyminin və Azərbaycan Milli Şurasının üzvü olmuş, Azərbaycan

Cümhuriyyəti Parlamentində Sosialistlər fraksiyasını təmsil etmişdir. Sovet dövründə Azərbaycanın Kənd Təsərrüfatı xalq komissarı vəzifəsini tutmuş, Azərbaycan Sovet Sosialist Respublikası Mərkəzi İcraiyyə Komitəsinin sədri, Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri olmuşdur. 169

Ağaoğlu, Əhməd bəy (1869-1939): Azərbaycanın və Türkiyənin görkəmli ictimai-siyasi xadimi; hüquqşünas, şərqşünas, yazıçı-publisist. Türkçülük hərəkatının ideoloqlarından biri olmuşdur. 5, 120, 183, 184, 185

Ağayev, Abbas bəy Kərim bəy oğlu: Bakı Mərkəzi teleqraf şöbəsinin müdiri olmuşdur. 372

Ağayev, Əhməd bəy: bax. Ağaoğlu, Əhməd bəy.

Ağayev, Əlinağı (Mirzə Əlinağı): Dərbənd Müsəlman Tələbələri Komitəsinin üzvü olmuşdur. 100, 241

Ağayev, Xəlil. 203

Ağayev, Həsən bəy (1875-1920): Azərbaycanın görkəmli dövlət xadimi. Moskva Universitetinin Tibb fakültəsini bitirmişdir. Azərbaycan Milli Şurasının 28 may 1918-ci il tarixli iclası (Azərbaycanın müstəqilliyinin elan edildiyi iclas) Həsən bəy Ağayevin sədrliyi ilə keçirilmişdir. Azərbaycan Parlamenti sədrinin birinci müavini olmuş və Parlamentin sədri Topçubaşov Bakıda olmadığından, Həsən bəy faktiki olaraq Parlamentə rəhbərlik etmişdir. Tiflisdə erməni terroristi tərəfindən qətlə yetirilmişdir. 16, 47, 116, 288, 304, 351

Ağayev, Tofiq Nurəddin: jurnalist, pedaqoq. 37, 70, 177

Ağaəliyev, Əziz: Salyan Realnı məktəbində oxumuşdur. 159

Ağaəlizadə, Axund Ağa (1871-1954): Azərbaycanın dini xadimi. 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyətinin, 1944-1954-cü illərdə Qafqaz müsəlmanlarının şeyxülislamı olmuşdur. 28, 54, 248, 353, 371, 392, 474, 492

Ağazadə: "Ədalət" partiyasının üzvü. 199

Ağazadə: "Hümmət" partiyasının üzvü. 304

Ağazadə: Bakıda Fəhlə Konfransının işində iştirak etmişdir. 15

Ağazadə, Əlinağı: bax. Ağayev, Əlinağı.

Ağazadə, Fərhad Məşhədi Rəhim oğlu (1880-1931): Azərbaycanın görkəmli pedaqoqu və publisisti. Şuşada anadan olmuş, Qori Seminariyasını bitirmiş, Azərbaycanın müxtəlif yerlərində müəllim işləmişdir. Məktəblilər üçün "İkinci il" dərsliyinin müəlliflərindəndir. Dövri mətbuatda çıxış etmiş, həmçinin "Azərbaycan" qəzetinin ən fəal müəlliflərindən olmuşdur. 218, 303, 341, 360, 480

Axıcanlı, Müseyib: bax. Axıcanov, Müseyib.

Axıcanov, Müseyib bəy (1892-1920): Azərbaycanın dövlət xadimi. Kiyevdə Müqəddəs Vladimir Universitetinin Hüquq fakültəsini bitirmişdir. Bakı qubernatorunun müavini, Bakı qubernatoru, Azərbaycan Parlamentinin üzvü olmuşdur. Bolşeviklər tərəfindən güllələnmişdir. 234

Axıskalı: "Azərbaycan" qəzetində imza; çox güman ki, Əhməd Cövdət Pepinova məxsusdur.

Axnazaryan: Türküstandakı könüllülərin komandiri olmuşdur. 274

Axundov: Bakıda 4-cü sahə pristavının müavini olmuşdur. 278, 328, 329

Axundov: Lənkəran varlılarından. 513

Axundov: Ərzaq Nazirliyinin Qarabağdakı vəkili olmuşdur. 384

Axundov, Ağa Əbdülxalıq oğlu (1882-1949): Avropada təhsil almışdır. Müsəlman Zəhmətkeş Ziyalıları İttifaqının üzvü olmuşdur. 184, 221, 222, 258, 361

Axundov, Miribrahim (Hacı Miribrahim): Maştağa kəndinin sakini. 260

Axundov, Şirin Məşhədi Hüseyn oğlu (1878-1927): Azərbaycanlı tarzən. 14





Axundzadə, Ağa: bax. Axundov, Ağa Əbdülxalıq oğlu.

Axundzadə, Cahangir: Salyan Realnı məktəbində oxumuşdur. 159

Axundzadə, Cavad: bax. Əhməd Cavad.

Axundzadə, Ələkbər (Mirzə Ələkbər): Azərbaycan pedaqoqu. 182

Axundzadə, Hacı Mirzə Səlim Mirzə İsmayıl Qasir oğlu (1872-1930): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Aprel işğalından sonra İrana mühacirətə getmişdir. 512, 513

Axundzadə, İdris: Gəncə Türk Müəllimləri İttifaqının sədri olmuşdur. 40, 47, 91

Axundzadə, Məhəmməd Sadıq: bax. Aran, Məhəmməd Sadıq.

Axundzadə, Mina xanım: Salyan Müəllimlər İttifaqı idarə heyətinin üzvü. 486

Axundzadə, Mirzə Hüseyn Axund Nəsir oğlu: müəllim; Müsəlman Müəllimlər İttifaqının üzvü olmuşdur. 153, 182

Axundzadə, Rəşid bəy Hacı Əbdüssalam oğlu (1880-1940): Azərbaycanın ictimai-siyasi xadimi. 1895-1907-ci illərdə Qafqaz müsəlmanlarının Şeyxülislamı olan Axund Hacı Əbdüssalamın oğlu olmuşdur. Kiyevdə hüquq təhsili almışdır. Salyandan Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv seçilmişdir. 1919-cu ilin fevralından avqustunadək Bakının valisi (qubernatoru) vəzifəsini tutmuşdur. Sovet hakimiyyəti dövründə Sibirə sürgün edilmiş və sürgündə ölmüşdür. 99

Axundzadə, Süleyman: maarif xadimi. 407

Axverdov. 340

Aka Gündüz (1885-1958): Türk şairi və yazıçısı. 69

Akçuralı, Yusif (1876-1935): Tatar əsilli yazıçı, publisist və siyasətçi; türk milliyyətçiliyinin ideoloqlarından biri olmuşdur. Simbirskdə (indiki Ulyanovsk) anadan olan Akçuralı Türkiyədə təhsil almışdır. Kazanda "Məhəmmədiyyə" mədrəsəsində dərs demiş, Rusiya müsəlmanlarının siyasi partiyası "İttifaqi-müslimin"in təşkilatçılarından və rəhbərlərindən biri olmuşdur. Yeni Türkiyənin qurulmasında yaxından iştirak etmiş, Türkiyə Böyük Millət Məclisinin deputatı olmuş, Türk Tarix Qurumu elmi cəmiyyətinin qurucuları arasında yer almışdır. 120

Akuşinski, Əli Hacı (1847-1930): XX əsrin əvvəllərində Dağıstanın ictimai-siyasi xadimi və dini lideri olmuşdur. 320

Alişevski, Nikolay. 401

Allenbi, Edmund [Edmund Allenby; 1861-1936]: ingilis feldmarşalı. Birinci Dünya müharibəsindən sonra İngiltərənin Yaxın Şərqdə ali komissarı [High Commissioner] olmuşdur. 6

Alşibaya, Qriqol: Gürcüstanın Azərbaycandakı siyasi nümayəndəsi olmuşdur. 403

Amaspur, Xoren: "Daşnaksutyun" partiyasının üzvü; Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 87

Amet, Jan-Fransua-Şarl [Jean-François-Charles Amet; 1861-1940]: Fransız vitse-admiralı. Mudros sazişindən sonra Fransanın İstanbulda Ali komissarı olmuşdur. 336

Amisayev: Dağıstanlı. 303

Anderson: Qafqazdakı Britaniya zabitlərindən; mayor. 485

Andranik: bax. Ozanyan, Andranik.

Antonov: mühəndis; Zaqafqaziya Rus Cəmiyyətinin üzvü. 487

Apolloni (Perqalı Apolloni; Apollonius): e. ə. III-II əsrlərdə yaşamış qədim yunan riyaziyyatçısı; "Konik kəsiklər" əsərinin müəllifi. 98

Apollonius: bax. Apolloni (Perqalı Apolloni).

Aran, Məhəmməd Sadıq (Axundzadə; 1895-1976): Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü, jurnalist. Cümhuriyyətin süqutundan sonra fəaliyyətini mühacirətdə davam etdirmişdir. 325, 384, 423, 424

Arximed (Arximedes; e. ə. 287-212):

qədim yunan alimi. 98
Arximedes: bax. Arximed.
Aristarxus (e. ə. 310 – e. ə. 230): qədim yunan astronomu və riyaziyyatçısı. 98, 108
Aristotel (yaxud Ərəstu; e. ə. 384-322): qədim yunan filosofu. 94, 97, 108, 150
Artunyans: Ermənistan hökumətində nazir olmuşdur. 447
Arzumanov, Mixail: Ermənistanın Şuşadakı ingilis komandanlığı nəzdindəki siyasi nümayəndəsi olmuşdur. 179, 180, 422
Arzumanov, Mişa: 1918-1920-ci illərdə Qərbi Azərbaycanda və Qarabağda dinc Azərbaycanlı əhaliyə divan tutan daşnak ordularının komandirlərindən olmuşdur. 508
Arzumanyan, Mixail: bax. Arzumanov, Mixail.
Aslanov, Ruhulla Abbas oğlu: Azərbaycan Parlamentinin qasidi olmuş, Poçt və Teleqraf Nazirliyi dəftərxanasında işləmişdir. 352
Asuman Kərim qızı: Ağdaşdakı qaçqınlardan olmuşdur. 132
Aşurbəyli, Bəşir bəy (yaxud Aşurbəyov; 1875-1930): Azərbaycanlı neft sənayeçisi; eyni zamanda "İttihad" partiyasının qurucularından biri olmuşdur. 22
Aşurbəyli, İsa bəy (1878-1938): Azərbaycanın ictimai-siyasi xadimi və xeyriyyəçisi. Bakı Şəhər Dumasının və "Nicat" cəmiyyətinin üzvü olmuşdur. Birinci Dünya müharibəsində əsir düşən türk əsgərlərinə yardım edən komitənin işində fəal iştirak etmişdir. Mətbuatda "Həqqi" təxəllüsü ilə çıxış etmişdir. 1938-ci ildə güllələnmişdir. 22
Aşurbəyov, Bəşir bəy: bax. Aşurbəyli, Bəşir bəy.
Aşurbəyov, İsa bəy: bax. Aşurbəyli, İsa bəy.
Atayans, İshak Avetisoviç: Bakıda həkim olmuşdur. 22, 76, 105, 160, 205, 244, 284, 329, 348, 386, 428, 468
Atilla: V əsrdə Hun türklərinin lideri. 455
Avalov: Bakıda 2-ci sahənin pristavı olmuşdur. 242
Avilov, Tixon: Qusar sakini. 404
Ayn. Əbdül: "Azərbaycan" qəzetindəki imzalardan biri. Bax. Əbdülov, Əbdül.
Ayn. Y.: "Azərbaycan" qəzetində imza. 443
Ayzeks, Rufus; I Redinq markizi [Rufus Isaacs; 1st Marquess dof Reading; 1869-1935]: Britaniyanın dövlət xadimi, hüquqşünas. Ədliyyə sistemində yüksək vəzifələr tutmuş, Birinci Dünya müharibəsi illərində həmçinin diplomat kimi də fəaliyyət göstərmişdir. Daha sonrakı dövrdə Hindistanın general-qubernatoru və Britaniya Xarici İşlər naziri olmuşdur. 398
Baba bəy: Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 184
Babanzadə, İsmayıl Haqqı (1876-1913): Türkiyənin siyasi xadimi, jurnalisti və yazıçısı. 120
Babayev: Bakı sakini. 326
Babayev, Məhəmmədhaşım. 386
Babazadə, Əbülfəzl: Müsəlman Tələbələri İttifaqının üzvü. 71
Babazadə, Əziz (Molla Əziz): Salyan sakini; Salyan Müəllimlər İttifaqı idarə heyətinin üzvü. 486
Bağdadi, Xətib: bax. Xətib Bağdadi.
Bağırzadə, Həsən bəy: Gəncədə müəllim olmuşdur. 47
Bakəhr: Hind alimi. 148
Bakıllani, Əbubəkr (941-1013): müsəlman teoloqu. 150
Balaağa Aslan oğlu: Bakı sakini. 241
Balabəy: Tiflis və Bakıda dərzilik etmişdir. 50, 77, 106, 133
Balabəy Məhəmmədəli bəy oğlu: Zığ kəndinin sakini. 308
Balaqızı Məhəmməd qızı: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
Balayan: Bakıda həkim olmuşdur. 75, 105, 133, 160, 186, 205, 225, 243, 264, 283, 310, 329, 348, 367, 386, 408, 428, 448, 468, 488, 514
Balayev, Şükür (Məşhədi Şükür): Ramana kəndinin sakini; "Müsavat"ın Raman şöbəsinin sədri; Kəndçilər İttifaqı Ramana şöbəsinin üzvü. 242, 263
Balfur, Artur [Arthur Balfour; 1848-1930]: Britaniyanın dövlət xadimi. 1902-1905-ci illərdə Baş Nazir, 1916-1919-cu illərdə Xarici İşlər naziri olmuşdur. 335
Bammatov, Heydər (yaxud Heydər Bammat; 1889-1965): Dağıstanın siyasi xadimi. Sankt-Peterburq Universitetinin Hüquq fakültəsində oxumuşdur. Dağlılar Respublikasının Xarici İşlər naziri olmuş, 1921-ci ildə mühacirətə getmişdir. 110
Basov: Bakıda fəhlə olmuşdur. 1919-cu ilin may ayında ümumi tətildə iştirak etdiyi üçün həbs edilmişdir. 420
Başkeviç, Andrey: Kürdəmir poçt və teleqraf bürosunun müdiri olmuşdur. 352
Batlamyus: bax. Ptolomey.
Batu (yaxud Batı): XIII əsrdə yaşamış monqol hökmdarı; Çingiz xanın nəvəsi. 455
Baydur, Hüseyn Raqib (1890-1955): Türk müəllim və diplomatı. 69, 176, 319
Bayrambəyov, Əziz bəy: kapitan; Göyçay qəza rəisinin müavini, Bakı polismeysterinin müavini kimi vəzifələrdə işləmişdir. 338
Bayraməli bəy: Naxçıvanda, Qənbərəli bəy Bənaniyarskinin xalası oğlu. 82
Bayraməlibəyov, Teymur bəy (yaxud Bayraməlibəyzadə, 1862-1937): Azərbaycanın ictimai-siyasi xadimi, maarifçisi və tarixçisi. Qori müəllimlər seminariyasını bitirmiş, Lənkəranda müəllim işləmişdir. "Müsavat" partiyasının Lənkəran şöbəsinin sədri olmuşdur. 184, 362
Bazikr: hind təbibi. 148
Behbudov: Ağdamdan hökumətə teleqram göndərmişdir. 308
Beker: ABŞ-ın Hərbi İşlər katibi olmuşdur. 398
Belousov, Feodor: Xaçmaz poçt və teleqraf bürosunun müdiri olmuşdur. 333, 352
Bennert: Fransız kapitanı. 336
Bernar, Sara [Sarah Bernhardt; 1844-1923]: fransız aktrisası. 129
Bertlo, Hanri [Henri Berthelot; 1861-1931]: Fransanın hərbi xadimi; general. 1916-cı ildən Rumıniyadakı fransız hərbi missiyasına başçılıq etmiş, 1918-ci ilin noyabrından Dunay ordusunun komandiri, 1919-cu ilin martından Balkan yarımadasında və Cənubi Rusiyadakı Müttəfiq qoşunlarının baş komandanı olmuşdur. 334, 337
Bədəlbəyov: Ağdamdan hökumətə teleqram göndərmişdir. 308
Bədəlov, Mehdi: Salyan sakini; "Müsavat" partiyasının Salyan komitəsinin üzvü. 261, 512, 513
Bəhrambəyov: Bayıl Həbsxanasının və Bakı Mərkəzi Həbsxanasının müdiri olmuşdur. 308
Bəhramov: Bakı sakini. 24
Bəxtişu I. 107
Bəxtişu II. 107
Bəxtişu III. 107
Bəxtişu IV. 107
Bəlazuri Əhməd bin Yəhya (? - 893): tərcüməçi və tarixçi. 95
Bənaniyarski, Əmirəli bəy Şirəli bəy oğlu. 82
Bənaniyarski, Qənbərəli bəy Şirəli bəy oğlu (1890-1937). 82
Bərəkətulla (Məhəmməd Bərəkətulla Bxopali; 1854-1927): Hindistanlı inqilabçı. 1915-1919-cu illərdə sürgündə fəaliyyət göstərən Müvəqqəti Hindistan Hökumətinin Baş naziri olmuşdur. 234
Bəyim Nəcəf qızı: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
Bıç, Luka Lavrentyeviç (1870-1945): Kuban kazaklarının siyasi və ictimai xadimi. Hüquq təhsili almışdır. Bakıda işləyərkən Bakı Şəhər Dumasına üzv seçilmiş, 1912-1917-ci illər arasında Bakı Şəhər İdarəsinin rəisi olmuşdur. 1917-ci ilin Fevral inqilabından sonra Kubana qayıtmış, Kuban Hökumətinin sədri seçilmişdir. Kuban heyətinin başçısı olaraq Paris Sülh Konfransında iştirak

etmiş, Kuban Xalq Respublikası süqut etdikdən sonra mühacirətdə qalmışdır. 112, 134

Bıkadorov, İsaak Fyodoroviç (1882-1957): Rusiyanın hərbi xadimi; general-mayor. Don ordusunun komandirlərindən olmuşdur. 434

Bibik: podpolkovnik; Hamburqun komendantı olmuşdur. 503

Biç: Qafqazdakı ingilis generalı. 103

Biçeraxov, Lazar Fyodoroviç (1882-1952): Rusiyanın hərbi xadimi. İrandakı Rusiya korpusunda xidmət edərkən, təxminən 1000 nəfərlik bir dəstə yaratmış, ingilislərlə əməkdaşlıq etmişdir. Bakı Komissarları da Qafqaz İslam Ordusuna qarşı Biçeraxovun yardımına müraciət etmişdilər, ancaq daha sonra bolşeviklərlə Biçeraxov arasında ixtilaf meydana gəldi və Biçeraxov öz dəstəsi ilə birgə Dağıstana çəkildi. Sentrokaspi Diktaturası Xəzər dənizindəki hərbi donanmanı Biçeraxovun əmrinə verməişdi. 228, 481

"Bir nəfər məmur": "Azərbaycan" qəzetində imza. 424

"Bir sənətçi": "Azərbaycan" qəzetinə Sənaye məktəbi haqqında məktub yazmışdır. 22

Bitriq: Orta əsrlərdə yaşamış tərcüməçi. 95

Blajevski, V. F.: Azərbaycan Cümhuriyyəti Poçt və Teleqraf Nazirliyi dəftərxanasının müdiri olmuşdur. 333

Bolayır, Əli Əkrəm (yaxud Kamalzadə; 1867-1937): Türk şairi və yazıçısı; məşhur türk şairi Namiq Kamalın oğlu. 265

Borisov: Parisdəki rus mühacirlərindən. 272

Borodin: Novoçerkassk Müdafiə Komissiyası sədri. 232

Bortsov: Bakıda fəhlə olmuşdur. 1919-cu ilin may ayında ümumi tətildə iştirak etdiyi üçün həbs edilmişdir. 420

Böyükağa Əli oğlu: Balaxanıda, Moskva-Qafqaz Neft Şirkətində işləmişdir. 74

Böyükxanım Məşhədi qızı: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131

Bratianu, İonel [Ionel Brătianu; 1864-1927]: Rumıniyanın dövlət xadimi. Rumıniya Milli-Liberal Partiyasının lideri olmuşdur. Daxili İşlər, Müdafiə, Xarici İşlər naziri vəzifələrini tutmuş, müxtəlif vaxtlarda beş dəfə (o cümlədən 1914-cü ilin yanvarından 1918-ci ilin fevralına və 1918-ci ilin dekabrından 1919-cu ilin dekabrına qədər) Rumıniyanın Baş naziri olmuşdur. 474

Braun: Bakıdakı ingilis zabitlərindən; polkovnik. 199

Braviç: Türküstan və Əfqanıstanda fəaliyyət göstədmiş bolşevik. 501

Briqqs, Çarlz Ceyms [Sir Charles James Briggs; 1865-1941]: İngilis generalı. 1919-cu ilin fevral-iyun aylarında Cənubi Rusiyadakı ingilis qoşunlarının komandiri olmuşdur. 175, 336

Brokdorf-Rantsau, Ulrix fon [Ulrich von Brockdorff-Rantzau; 1869-1928]: Almaniyanın diplomatı. 1919-cu ildə Xarici İşlər naziri olmuşdur. 7, 86, 173, 174, 295, 356, 432, 436

Bron: Bakıda fəaliyyət göstərmiş uşaq doktoru; eyni zamanda Mərkəzi Ev Komitəsində, Sosial Təminat Nazirliyində işləmişdir. 75, 105, 133, 160, 186, 205, 225, 243, 264, 283, 310, 329, 348, 367, 386, 408, 428, 448, 468, 488, 514

Bubnov: Parisdəki Rus Siyasi Müşavirəsinin üzvü; Könüllü ordunun nümayəndəsi kimi 1919-cu ilin yayında Bakıya gəlmişdir. 74

Bukrat: bax. Hippokrat.

Butayev, Aslambek (yaxud Aslanbek, 1880-1939): Dağlılar Respublikasının Əkinçilik və Dövlət Əmlakı naziri olmuşdur. 319

Buzrar. 397

Bünyadov, Ağa: Bakının Əmirhacıyan kəndində camaat nümayəndəsi olmuşdur. 43

Bünyadzadə, Ağa: bax. Bünyadov, Ağa.





Bürhanəddin: Bakıda müəllim olmuşdur. 407

Cabbarzadə, Bağır (1894-1951): Azərbaycan aktyoru. 162

Cabbarzadə, Qulam: İranlılar Maarif Cəmiyyətinin üzvü olmuşdur. 425

Cahangir Qasım oğlu: Bakı sakini. 326

Cahiz (? - 869): ərəb yazıçısı və alimi. 360, 369

Calinus: bax. Qalen.

Camal paşa: bax. Keşmir, Camal.

Camo bəy: Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 184, 222, 362

Cavad (Hacı Molla Cavad): Bakıda axund olmuşdur. 343

Cavad Ağakişi oğlu: Hövsan kəndi sakini. 404

Cavad xan (1748-1804): Gəncə xanı; 1786-1864-cü illərdə hakimiyyətdə olmuşdur. Gəncə xanlığını işğalçı rus ordusuna qarşı müdafiə edərkən qəhrəmanca şəhid olmuşdur. 15, 248, 457

Cavadov, Qüdrət. 308

Cavanşir, Əhməd bəy (1828-1903): Azərbaycanlı tarixçi və şair; Qarabağ xanlığının banisi Pənahəli xanın nəslindəndir. 480, 490

Cavanşir, Həmidə xanım: Məmmədquluzadə, Həmidə xanım.

Cebe (? - 1224): Çingiz xanın sərkərdələrindən olmuşdur. Qafqaz səfərində Subutay ilə birgə monqol ordularının sərkərdəsi idi. 456

Cəblət bin Salim: Orta əsrlərdə yaşamış tərcüməçi. 148

Cəbrayıl Bəxtişu: Abbasilər dövründə yaşayan xristian həkimlər ailəsinə mənsub alim. 96, 107

Cəbrayıl II. 107

Cəbrayıl III. 107

Cəbrayıl Xudabəxş oğlu: Zəngəzur qəzası sakini. 407

Cəbrayılbəyov, Camo bəy: Müsəlman Müəllimlər İttifaqının üzvü olmuşdur. 258

Cəfərqulu: İranda quldurluqla məşğul olmuşdur. 92, 107

Cəfərqulu xan Naxçıvanski: bax. Naxçıvanski, Cəfərqulu xan Kəlbəli xan oğlu.

Cəfərov: Bakıda göz həkimi olmuşdur. 75, 105, 133, 160, 186, 205, 225, 243, 264, 283, 310, 329, 348, 367, 386, 408, 428, 448, 468, 488, 514

Cəfərov, Məmməd (yaxud Məhəmməd) Yusif (1885-1938): Azərbaycanın dövlət xadimi. Ali hüquq təhsili almışdır. Rusiya Dövlət Dumasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti dövründə müxtəlif tarixlərdə Sənaye və Ticarət naziri, Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi və Xarici İşlər naziri olmuşdur. 41, 143, 394, 395, 403, 405, 496, 510

Cəfərzadə, Əbdülhəmid: "İttihad" partiya-sının Ramana şöbəsinin katibi olmuşdur. 345

Cəlaləddin: Sivas qalabəyisi (komendantı). 59

Cəmillinski, Səməd bəy: Daxili İşlər Nazirliyində işləmişdir. 325

Cəmşid. 132

Cənab Şəhabəddin (1870-1934): Türk şairi və yazıçısı. 69

Cinoridze, Qriqori: jurnalist; "Bakinets" qəzetinin baş redaktoru. 39, 309

Codər: Hind alimi. 148

Corci Zeydan: bax. Zeydan, Corci.

Curcis bin Bəxtişu (yaxud Curcis bin Cəbrayıl; ? - 769): Bəxtişu həkim ailəsinə mənsub məşhur xristian həkimi. 107

Çeqeli. 447

Çemberlen, Nevill [Neville Chamberlain; 1869-1940]: Birtaniyanın siyasi xadimi. 1918-ci ildə Parlamentə seçilmiş, 1920-ci illərdə Səhiyyə naziri, 1920-ci və 1930-cu illərdə Maliyyə naziri olmuşdur. 1937-1940-cı illərdə Britaniyanın Baş naziri vəzifəsini tutmuşdur. 3

Çepelyev: keşiş; Zaqafqaziya Rus Cəmiyyətinin üzvü. 487

Çermoyev, Əbdülməcid Tapa (1882-1936): Şimali Qafqaz dağlılarının siyasi xadimi, azadlıq hərəkatı liderlərindən biri, milliyyətcə çeçendir. Birinci Dünya müharibəsi illərində "Vəhşi diviziya"nın çeçen alayında xidmət etmişdir. Şimali Qafqaz Dağlı Xalqları İttifaqının qurucularından biri və Dağlılar Respublikasının başçısı olmuşdur. 110

Çəmənzəminli, Yusif Vəzir (Vəzirov; 1887-1943): Azərbaycan yazıçısı və diplomatı. 328

"Çər Hüseyn": Lənkəranda müsəlman camaatının rəhbərlərindən olan Hüseyn Ramazan oğlunun ləqəbi; bax. Hüseyn Ramazan oğlu.

Çərkəz Ağakişi bəy qızı: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131

Çərkəz Səfdər qızı (Molla Səfdər qızı): Ağdaşdakı qaçqınlardan olmuşdur. 131

Çingiz xan (1162-1227): Monqol sərkərdəsi və Monqol imperiyasının banisi. Tarixin yetişdirdiyi ən böyük sərkərdələrdən biri olmuşdur. 14, 15, 38, 119, 120, 455

Çxeidze, Nikolay Semyonoviç (1864-1926): Rusiyanın və Gürcüstanın siyasi xadimi. Rusiya Dövlət Dumasının üzvü olmuşdur. Zaqafqaziya Seyminin və Gürcüstan Müəssislər Məclisinin sədri olmuşdur. Gürcüstan tərəfindən Paris Sülh Konfransında iştirak edən nümayəndə heyətinin sədri olmuşdur. Gürcüstanın sovetləşməsindən sonra mühacirətə getmişdir. 224, 282

Çörçill, Uinston [Winston Churchill; 1874-1965]: Britaniyanın görkəmli dövlət xadimi. 293, 333, 378, 398, 504

Çubaryan, Poqos: Daşnaksutyun partiyasının və Bakıdakı Erməni Milli Şurasının, həmçinin Azərbaycan Parlamentinin üzvü olmuşdur. 354, 368

Çubuqçuzadə, Yusif Camal: "Azərbaycan" qəzetində imza. 167, 238, 277, 323

Çurayev, Andrey Yemelyanoviç [1881 - ?]: Fəhlə, menşevik. Bakıda inqilabi fəaliyyətlə məşğul olmuşdur. 1917-ci ildə Bakı Şəhər Dumasının üzvü, 1920-ci ildə qısa müddət Azərbaycan Fövqəladə Komissiyasının sədri olmuşdur. 339, 420, 484

Dadaşov, Ağababa (Hacı Ağababa): Bakı sakini. 189

Dadaşov, Məsum. 308

Dadaşova, Böyükxanım: Bakı sakini. 327

Damad Fərid paşa (1853-1923): Türkiyənin siyasi xadimi. 4 mart – 30 sentyabr 1919-cu il və 5 aprel – 17 oktyabr 1920-ci il tarixlərində Baş nazir olmuşdur. 213, 397, 458, 501

Daniels, Cazefus [Josephus Daniels; 1862-1948]: Amerikanın ictimai-siyasi xadimi və diplomatı. 1913-1921-ci illərdə Hərbi-Dəniz Donanması naziri vəzifəsini tutmuşdur. 1933-1941-ci illərdə ABŞ-ın Meksikadakı səfiri olmuşdur. 273, 285

Danilov: Rusiyanın hərbi xadimi; polkovnik. General Mikayıl Xəlilovun müavini olmuşdur. 444

Darablı, Rza (yaxud Rza Darablinski, Rza Hüseynov; 1883-1942): Azərbaycanın teatr aktyoru. "Nicat", "Səfa", "Hacıbəyov qardaşları müdiriyyəti" truppalarında çıxış etmişdir. Moskvada teatr texnikumunu bitirmişdir. 471

Darvin, Çarlz [Charles Darwin; 1809-1882]: ingilis təbiətşünası. 55

Davidxanyan: Ermənistan Sosial Təminat Nazirliyinin Tiflisdəki nümayəndəsi. 467

Davud: Gəncəli müəllim. 223

Davud: "Azərbaycan" qəzetində imza; Gəncədən yazmışdır. 405

Davud: Ağdamdan hökumətə teleqram göndərmişdir. 308

De-Vitta: İtaliyanın İrandakı səfiri olmuşdur. 18

Delakrua, Leon [Léon Delacroix; 1867-1929]: Belçikanın siyasi xadimi. 1918-1920-ci illərdə Baş nazir olmuşdur. 316

Delyameş: Fransız bolşeviklərinin liderlərindən olmuşdur. 500

Denikin, Anton İvanoviç (1872-1947): Rusiyanın hərbi xadimi, general-leytenant. Ağ qvardiyanın rəhbərlərindən olmuşdur. Birinci Dünya müharibəsində Qərb cəbhəsinin (may-iyul 1917) və Cənub-qərb cəbhəsinin (avqust 1917), Rusiyada Vətəndaş müharibəsi illərində Könüllü ordunun (aprel 1918 – yanvar 1919) və Cənubi Rusiya Silahlı Qüvvələrinin (yanvar 1919 – aprel 1920) komandiri olmuşdur. 1920-ci ildə mühacirətə getmişdir. 18, 28, 29, 38, 39, 43, 44, 56, 72, 74, 89, 90, 91, 110, 111, 116, 137, 138, 141, 142, 143, 144, 145, 153, 164, 166, 169, 170, 171, 172, 174, 175, 176, 180, 184, 200, 201, 202, 209, 210, 227, 245, 247, 249, 250, 258, 259, 260, 269, 271, 272, 275, 276, 278, 289, 290, 291, 292, 296, 297, 299, 303, 304, 305, 306, 309, 321, 322, 328, 334, 336, 341, 342, 344, 357, 374, 375, 378, 380, 381, 382, 393, 394, 403, 404, 406, 418, 439, 443, 444, 466, 472, 487, 494, 497, 498, 507, 508

Denisov, İ. V.: bankir. 24, 50, 77, 133, 134, 161, 187, 205, 219, 220, 226, 229, 230, 233, 244, 284, 311, 330, 349, 368, 387, 408, 428

Deparişvili. 103

Dernburq, Bernhard [Bernhard Dernburg; 1865-1937]: Almaniyanın siyasi xadimi. 1907-1910-cu illərdə Almaniya imperiyasının Müstəmləklər İdarəsinin rəisi olmuşdur. 1919-cu ildə Maliyyə naziri və Baş nazirin müavini vəzifəsini tutmuşdur. 436

D'Esperi, Franşe [Franchet d'Espèrey; 1856-1942]: Fransanın siyasi və hərbi xadimi, marşal. Cənubi Rusiyada Fransanın Ali komissarı olmuşdur. 419

Deytç: doktor; Almaniyada hökumət katibi olmuşdur. 417

Dərviş Ağadadaş. 16

Dərviş Vəhdəti (yaxud Dərviş Lahuti; 1870-1909): Osmanlı imperiyasında II Əbdülhəmidin taxtdan salınması ilə nəticələnən 31 Mart hadisəsinin iştirakçısı olmaqda günahlandırılaraq edam edilmişdir. 388

Dərvişov, Qurbanəli: Göyçayda poçt və teleqraf idarəsinin müdiri olmuşdur. 372

Dəryazov. 132

Dioskorides Anazarbi: I əsrdə yaşamış yunan həkimi və əczaçısı. Müasir Türkiyənin Adana ilində yerləşmiş antik şəhər Anazarbda doğulmuşdur. 98

Dorişov, Vasili. 481

Dorten, Hans Adam [Hans Adam Dorten; 1880-1963]: Alman hüquq doktoru. 1 iyun 1919-cu ildə Reyn Respublikasını elan etmiş və onun prezidenti olmuşdur. Bu "respublika" bir neçə gün yaşamışdır. 376, 388

Dostxanım Məhəmməd qızı: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131

Dratsenko, Daniil Pavloviç (1876-1945): Rusiyanın hərbi xadimi. Dağıstanın Könüllü ordu tərəfindən işğalına rəhbərlik etmişdir. 90, 153, 169

Dro: bax. Kanayan, Drastamat.

Drobışev. 112

Dudarov: Sosial Təminat Nazirliyi tərəfindən Şamaxı qəzasına göndərilmişdir. 221, 222

Durmuş Baxış oğlu: Zığ kəndinin sakini. 308

Dutov, Aleksandr İliç (1879-1921): Rusiyanın hərbi xadimi; general-leytenant. Ağqvardiyaçılar hərəkatının iştirakçısı, Orenburq kazaklarının atamanı olmuşdur. 337

Dündar bəy (1210-1288): Oğuzların Qayı boyunun lideri Süleyman Şahın oğlu. 120

Ebert, Fridrix [Friedrich Ebert; 1871-1925]: Almaniyanın siyasi xadimi; sosial demokrat. 1918-ci ilin noyabrından 1919-cu ilin fevralına qədər Almaniyanın Baş naziri, 1919-cu ilin fevralından 1925-ci ilin fevralına qədər Almaniya Prezidenti olmuşdur. 417

Elgün, Naqiyə (1882-1954): Türk pedaqoqu. Osmanlı və Cümhuriyyət dövrlərində qız uşaqlarının təhsil alması üçün səy göstərmişdir. İstanbulda "Feyziyə" məktəbinin müdirəsi, millət vəkili olmuşdur. 176

Enfiacyan, Artaşes: Ermənistanın siyasi xadimi. 1918-ci ilin noyabrından 1919-cu ilin aprelinə qədər Ermənistan Respublikasının Maliyyə naziri olmuşdur. 447

Erdeli, İvan Georgiyeviç (1870-1939): Rusiyanın hərbi xadimi, general. Könüllü ordunun qurucularından olmuşdur. 1919-cu ilin yanvarından Zaqafqaziya və Şimali Qafqazda fəaliyyət göstərmişdir. 169, 170, 172, 320, 444
Eret, Arnold [Arnold Ehret; 1866-1922]: Alman pedaqoqu və dietoloqu. 64, 65, 66, 67, 68
Erzberqer, Mattias [Matthias Erzberger; 1875-1921]: Alman yazıçısı və siyasətçisi. Birinci Dünya müharibəsi sonunda atşkəs müqaviləsinin imzalanması üçün Almaniya tərəfindən yaradılan komissiyanın başçısı təyin olunmuşdu. Daha sonra Veymar Təsisçilər Məclisinin üzvü olmuş və Maliyyə naziri vəzifəsini tutmuşdur. Suiqəsd nəticəsində öldürülmüşdür. 315, 436, 459
Evklid (yaxud Oklidos): e. ə. IV-III əsrlərdə yaşamış qədim yunan riyaziyyatçısı. 98, 108, 148
Eyqenson: neft mühəndisi, mədən müdiri. 420
Eylenburq, Albert [Albert Eulenburg; 1840-1917]: alman həkim və farmakoloqu. 67, 79
Eyvazbəyov, Uraz Sərdar: türkmən; Mavərayi-Bəhri-Xəzər (Zakaspiysk) hökumətinin üzvü olmuşdur. 462
Eyyub paşa: Kürd silahlı dəstələrinin başçılarından olmuşdur. 406
Ə. Bədi': "Azərbaycan" qəzetində imza; bax. Triniç, Əhməd Bədi'
"Ə. Həmdi": "Al bayraq" qəzetində imza. 49
Əbdizadə, Məhəmmədrza: Ağdaş Qaçqınlara Yardım Cəmiyyətinin üzvü olmuş, "Azərbaycan" qəzetinə Ağdaşdan yazılar göndərmişdir. 346, 366, 405
Əbdülbaqi Abdulla oğlu (Hacı Əbdülbaqi): Bakı sakini. 183
Əbdülbaqi Qədir oğlu (Kərbəlayi Əbdülbaqi Hacı Qədir oğlu): Bakının Nardaran kəndinin sakini. 326
Əbdülhaq Hamid: bax. Tarhan, Əbdülhaq Hamid.
Əbdülhaq Molla (1786-1854): Türk həkimi və şairi. Osmanlı sarayında həkimbaşı olmuşdur. 78
Əbdülhəlim Məhəmməd oğlu: Bakı quberniyasında polis olmuşdur. 217
Əbdülhəmid II [1842, 1918]: Osmanlı sultanı; 1876-1909-cu illərdə hakimiyyətdə olmuşdur. 381, 382, 388, 469
Əbdülhəsən əfəndi (Molla Əbdülhəsən əfəndi): Salyan ruhanilərindən. 158
Əbdülkərim İsa oğlu (Molla Əbdülkərim İsa əfəndi oğlu): Göyçay qəzasının Şahsünni (indiki Zərdab rayonunun Şahhüseynli) kəndinin sakini olmuşdur. 514
Əbdülqadir Hacı: Dağıstanın ictimai-siyasi xadimi. 117
Əbdülməcid (1823-1861): Osmanlı sultanı. 1839-1861-ci illərdə hakimiyyətdə olmuşdur. 285
Əbdülməhəmməd Əbdürrəhman oğlu (Məşhədi Əbdürrəhman oğlu): Zirə sakini. 364
Əbdülmömin Yusif oğlu (Molla Əbdülmömin Molla Yusif oğlu): Qubanın Nügədi kəndinin prixod mollası olmuşdur. 353
Əbdülov, Əbdül: "Azərbaycan" qəzetinin əməkdaşı olmuşdur. 443
Əbdülzadə. 199
Əbdülzadə: tələbə; Müsəlman Tələbələri İttifaqının üzvü. 71
Əbdürrəhim Əbdülbaqi oğlu: Kürdəxanı kəndi sakini. 404
Əbərxus: bax. Hipparx.
Əbilov, İbrahim (1881-1923): Azərbaycanın siyasi xadimi, inqilabçı və diplomat. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Azərbaycan Sovet Sosialist Respublikasının Türkiyədə fövqəladə və səlahiyyətli səfiri vəzifəsini tutmuşdur. 15, 199, 304
Əbilov, Məhəmmədtağı: Göyçay və Ağdaşda poçt və teleqraf idarəsinin müdiri olmuşdur. 372
Əbu Bişr Mətta bin Yunis (? - 940): məntiq alimi və tərcüməçi. 95, 97
Əbu Əli Sina: bax. İbn Sina.
Əbu Osman Dəməşqi: Orta əsrlərdə yaşamış tərcüməçi. 95, 97, 98
Əbubəkr Məhəmməd bin Baccə: bax. İbn Baccə.
Əburuh: Orta əsrlərdə yaşamış tərcüməçi. 97
Əbül-Fəda (? - 1331): tarixçi və coğrafiyaşünas. 151, 453
Əbül-Vəlid Məhəmməd bin ər-Rəşid: müsəlman filosofu. 97
Əbülqasım əfəndi: Ağdaşlı. 346
Əfəndizadə: Məşixət (Şeyxülislamlıq) İdarəsinin katibi olmuşdur. 248, 353, 392, 492
Əfəndizadə, Əhməd (Molla Əhməd): Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
Əfəndizadə, Əhməd: Kürdəmirdə müəllim olmuşdur. 101
Əfəndizadə, Hacı Hüseyn (yaxud Əfəndiyev; 1887-1920): Göyçay qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü seçilmişdir. 223
Əfəndizadə, Məbud: Şəki-Ağdaş Müəllimlər İttifaqının sədri olmuşdur. 40
Əfəndizadə, Məhəmməd Əmin Hacı Molla Əhməd oğlu (1895 - ?): Şamaxıda anadan olmuş, Moskva Kommersiya İnsitutuna daxil olmuş, Salyanda məktəb direktoru və Bakıda fəxri sülh hakimi olmuşdur. 486
Əfəndizadə, Osman (Molla Osman): Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
Əfəndizadə, Şəfiqə (1882-1959): Azərbaycan pedaqoqu və publisisti. 119, 439
Əflatun: bax. Platon.
Əflatun: fəhlə hərəkatının iştirakçısı. 115, 304
Əhməd Adil oğlu (Hacı Adil oğlu): Əmirhacıyan kəndinin sakini. 183
Əhməd bin Musa: Orta əsrlərdə yaşamış astronomiya və həndəsə alimi. 107
Əhməd Cavad (Axundzadə, 1892-1937): Azərbaycanlı şair və ictimai xadim. Azərbaycan Respublikasının Dövlət Himninin sözləri Əhməd Cavada məxsusdur. 47, 48, 91, 127
Əhməd Cavad Əmrə: bax. Əmrə, Əhməd Cavad.
Əhməd Ehsan: bax. Tokgöz, Əhməd Ehsan.
Əhməd Əli oğlu (Hacı Əli oğlu): Ordubad sakini. 401
Əhməd Fərid bəy: Türk Ocağı cəmiyyətinin üzvü; bax. Tək, Əhməd Fərid.
Əhməd Hacıvəli oğlu: Zəngəzur qəzası sakini. 408
Əhməd Hikmət Müftüoğlu: bax. Müftüoğlu, Əhməd Hikmət.
Əhməd İmambəxş oğlu: Suraxanı kəndi sakini. 404
Əhməd Rəfiq (Altınay; 1881-1937): Türk tarixçisi, yazıçısı və şairi. Soyadı qanunundan sonra "Altınay" soyadını qəbul etmişdir. 47, 52
Əhməd Səlahəddin bəy (1878-1920): Türk hüquqşünası, siyasi xadim. İstanbul Universiteti Hüquq fakültəsinin müəllimi olmuş, 1919-cu ildə İstanbuldan millət vəkili seçilmişdir. 317
Əhməd şah Qacar: bax. Sultan Əhməd şah Qacar.
Əhmədbəyov: Bakıda polis minbaşısı olmuşdur. 338
Əhmədov: Ağdamdan hökumətə teleqram göndərmişdir. 308
Əhmədov, Əsədulla Əhməd oğlu (1867-1941): Azərbaycanın ictimai-siyasi xadimi, xeyriyyəçi. Nəşri-Maarif Cəmiyyətinin təsisçilərindən biri idi. Bakı Bələdiyyə Məclisinin, Azərbaycan Cümhuriyyəti Parlamentinin və Müsavat partiyasının üzvü olmuşdur. 118
Əhmədov, Yusif (yaxud Yusifəli Əhmədov; ? - 1938): Ticarət və Sənaye İttifaqının sədri olmuşdur. Azərbaycan Parlamentinin üzvü idi. 499
Əhmədzadə, Qubad (Məşhədi Qubad):

Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
Əhmədzadə, Məhəmmədəli: Gəncədə müəllim olmuşdur. 47
Əhmədzadə, Mirəhməd (Molla Mirəhməd): Ağdaş Qaçqınlara Yardım Cəmiyyətinin üzvü olmuşdur. 131, 132
Əhmədzadə, Sadıq: Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 221, 222
Əjdər Əbdürrəhim oğlu: Azərbaycan ordusunun əsgəri. 476
Əlaəddin Keyqubad I (1192-1237): Anadolu Səlcuqlu dövlətinin hökmdarı; 1220-1237-ci illərdə hakimiyyətdə olmuşdur. 119
Əlaəddin Keyqubad II (1239-1257): Anadolu Səlcuqlu dövlətinin hökmdarı; 1239-1257-ci illərdə hakimiyyətdə olmuşdur. 120
Əlaəddin Keyqubad III (? - 1303): Anadolu Səlcuqlu dövlətinin hökmdarı. 120
Ələkbər (Molla Ələkbər): Xızının mollası olmuşdur. 288, 289
Ələkbər Nəcəf oğlu (Məşhədi Nəcəf oğlu): Bakı sakini. 183, 278
Ələkbərzadə, Ələsgər. 22
Ələkbərzadə, Sabir: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
Əli (Hacı Əli): Balaxanıda, Moskva-Qafqaz Neft Şirkətində işləmişdir. 74
Əli bəy: 1919-cu ildə İstanbulda edam edilmişdir. 5
Əli Hacı Sultanməhəmməd oğlu. 386
Əli ibn Əbu Talib (601-661): İslam xəlifəsi, Məhəmməd peyğəmbərin əmisi oğlu və kürəkəni. 388
Əli Nəcəf oğlu: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
Əli Yusif: bax. Yusifzadə, Əli.
Əliabbas Nəsrulla oğlu: Bakı sakini. 183
Əlibaba Əli oğlu (Hacı Əlibaba): Balaxanıda, Moskva-Qafqaz Neft Şirkətində işləmişdir. 74
Əlibala Əbdüləziz oğlu: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
Əlibala Hacı Paşa oğlu: Bakı sakini. 241
Əlibəyov: Qarabağ nahiyə müfəttişi. 63
Əlibəyov, Qubad. 507
Əlif. Ayn.: "Azərbaycan" qəzetində imza. 129
Əlif. Əlif: "Azərbaycan" qəzetində imza; Kürdəmirdən yazmışdır. 102
Əlif. Əlif.zadə: "Azərbaycan" qəzetində imza; Kürdəmirdən yazmışdır. 101
Əlif. Məhəmmədli: Lənkərandan "Azərbaycan" qəzetinə yazı göndərmişdir. 447
Əliisgəndərov, Səməd bəy. 362
Əlikərimov, Nəsir: Kəndçilər İttifaqı İdarə heyətinin üzvü olmuşdur. 385, 389
Əliqulu Səttar oğlu: Ordubaddan "Azərbaycan" qəzetinə yazmışdır. 507
Əliməhəmməd: Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 184, 222
Əlimirzə bəy: İğdırlı. 467
Əliverdi: Bakı sakini. 18
Əliyev: Bakıda, Suraxanski (indiki Dilarə Əliyeva) küçəsində yaşamışdır. 132
Əliyev: Lənkəran varlılarından. 513
Əliyev, Hacı Əli oğlu: Bakı quberniyasında polis olmuşdur. 217
Əliyev, Yusifəli: Ticarət və Sənaye nazirinin müavini olmuşdur. 25, 51, 77, 482
Əlizadə: Göyçaylı müəllim. 224
Əlizadə, Heydər: İranlılar Maarif Cəmiyyətinin üzvü olmuşdur. 425
Əlizadə, Murad: Bakıda müəllim olmuşdur. 407
Əlizadə, Tağı: Müsəlman Tələbələri İttifaqının üzvü olmuşdur. 241
Əmanulla xan (1892-1960): Əfqanıstan hökmdarı. 1919-1926-cı illərdə Əfqanıstan əmiri, 1926-1929-cu illərdə Əfqanıstan şahı olmuşdur. 34, 265, 388
Əminə Heydər qızı: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
Əminov, Ağa Məşhədi Kərim oğlu (yaxud Əminzadə; 1888-1921): "Müsavat" partiyasının, Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 1919-cu ildə Ticarət və Sənaye naziri vəzifəsini tutmuşdur. 385
Əminov, Əliheydər. 203
Əmir Əli (Seyid Əmir Əli; 1849-1928): Hindistan müsəlmanlarının siyasi liderlərindən. 397, 409
Əmir Xan: bax. Əmir Əli, Seyid.
Əmir Hüseyn: bax. Hüseyn ibn Əli əl-Haşimi.
Əmir Möhtəşəm: Bəxtiyarilərin liderlərindən olmuşdur. 35
Əmiraslan Lütfəli oğlu (Hacı Əmiraslan): Zığ kəndinin sakini. 308
Əmiraslanov. 445
Əmircanov, Lütfəli bəy: Balaxanı-Sabunçu dairəsinin, sonra Bakının polis müdiri (komendantı) olmuşdur. 49, 309, 362
Əmircanova, Səltənət xanım: Əbdüləli bəy Əmircanovun həyat yoldaşı. 438
Əmirov, A.: Bakıda diş həkimi olmuşdur. 23, 50, 76, 104, 133, 159, 186, 205, 225, 348
Əmrə, Əhməd Cavad (1878-1961): Türk yazıçısı, dilçisi və siyasətçisi. 69
Ənvər paşa (1881-1922): Osmanlı dövlətinin hərbi və siyasi xadimi. İttihad və Tərəqqi cəmiyyətinin liderlərindən idi. 1914-1918-ci illərdə Osmanlı dövlətinin Hərbi naziri, Baş Qərargah rəisi olmuşdur. Türk xalqlarını birləşdirmək uğrunda mübarizə aparmışdır. 5, 85, 464
Ərəstu: bax. Aristotel.
Ərtoğrul Qazi (? - 1282): Osmanlı dövlətinin banisi olan I Osmanın atası. 119, 120
Əsədəlizadə, Məşhədi: Ağdaşdakı qaçqınlardan olmuşdur. 132
Əsədullayev, Şəmsi. 62, 263
Əsədullazadə, Məhəmmədəli (yaxud Məhəmmədəli Tabaqçı). 122, 240
Əsgərzadə, Abbasəli: Azərbaycan Parlament İdarəsində mühasib müavini olmuşdur. 287
Əsgərzadə, Cəfər (Mirzə Cəfər): Gəncə Türk Müəllimləri İttifaqının üzvü olmuşdur. 47
Əşrəf ağa (Ağa Seyid Əşrəf ağa): Salyan ruhanilərindən. 158
Əyyub Əsgər oğlu: Xızı rayonunun Tıxlı kəndinin sakini. 445
Əzim Əziz oğlu (Molla Əzim). 366
Əzimzadə, Əzim Aslan oğlu (1880-1943): Azərbaycanlı rəssam. 13
Əzimzadə, Seyidəhməd: Bakıda, Nikolayevski (indiki İstiqlaliyyət) küçəsində dükanı olmuşdur. 50, 77, 106, 133
Faysal I (1885-1933): Hicaz kralı Şərif Hüseynin oğlu idi. 1920-ci ildə Suriya kralı, 1921-1933-cü illərdə İraq kralı olmuşdur. 57, 78, 399
Feyel: Fransız generalı. 86
Fəhmi: "Azərbaycan" qəzetində imza. 90
Fərabi, Əbunəsr (872-950): İslam filosofu və alimi. 150
Fərəc bəy (Ramanalı). 263
Fərəculla (axund Molla Fərəculla): Şəki ruhanilərindən. 156
Fərqani: tarixçi. 151
Fərzəlibəyov: Bakıda üçüncü polis sahəsinin müdiri olmuşdur. 309
Fərzixanov, Yusif (Məşhədi Yusif): dəmirçi; Gəncə Türk Sənətkarları İttifaqının üzvü olmuşdur. 91, 262, 304, 363
Fəzari, İbrahim: VIII əsrdə yaşamış ərəb astronomu. 108
Finkelşteyn, Boris Konstantinoviç (1871-1931): Həkim. Xarkov Universitetinin Tibb Fakültəsini bitirmişdir. Sankt-Peterburq və Batumda fəaliyyət göstərmiş, həmçinin Bakıda Neft Sənayeçiləri Qurultayı Şurasının xəstəxanasında işləmişdir. Bakı Cərrahlar Cəmiyyətinin təsisçisi və sədri olmuşdur. 75, 105, 133, 160, 186, 205, 225, 243, 264, 283, 310, 329, 348, 367, 386, 408, 428, 448, 468, 488, 514
Firdovsi (935-1020): Fars şairi, fars ədəbiyyatının ən böyük nümayəndələrindən biri. 148
Fisaqors: bax. Pifaqor.
Fişer: Alman deputatı. 377
Fon Krim. 151

Ford: ABŞ tərərfindən Paris Sülh Konfransında iştirak etmişdir. 252

Foş, Ferdinand [Ferdinand Foch, 1851-1929]: Fransanın hərbi xadimi, marşal. 173, 315, 376, 398, 432, 458, 459

Fridrix Vilhelm I [Friedrich Wilhelm I; 1688-1740]: 1713-1740-cı illərdə Prussiya kralı olmuşdur. 429

Fuks, R. S.: Bakıda diş həkimi olmuşdur. 23, 76, 105, 160, 204, 244, 284, 330, 348, 386, 428, 468

Füzuli, Məhəmməd (1494-1556): məşhur Azərbaycan şairi. Türkdilli klassik poeziyanın ən böyük şairi kimi qəbul edilir. 17, 37, 457, 489

Fyodorov: Bakıda fəhlə olmuşdur. 1919-cu ilin may ayında ümumi tətildə iştirak etdiyi üçün həbs edilmişdir. 420

Gedevanov, Aleksandr Konstantinoviç (1870 - ?): Knyaz; general-mayor. Qafqazdakı Rusiya hərbi hissələrində, Gürcüstan müstəqil olduqdan sonra bu ölkənin ordusunda xidmət etmişdir. Gürcüstan Hərbi nazirinin müavini olmuşdur. 394, 395

Gegeçkori, Yevgeni Petroviç (1881-1954): Gürcüstanın dövlət xadimi. Menşevik. Hüquq təhsili almışdır. Zaqafqaziya Komissarlığının sədri seçilmişdi. Gürcüstan müstəqilliyini elan etdikdən sonra Xarici İşlər naziri, 1921-ci ildə isə Ədliyyə naziri oldu. Gürcüstanın sovetləşməsinin ardından mühacirət etdi. 141, 144, 406

Gifte, Henrix: alman aktyoru. 66, 394, 395

Gilas Məhəmməd qızı: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131

Gökalp, Ziya (1876-1924): Türk sosioloqu, şairi və siyasətçisi. Türkiyədə milliyyətçiliyin ən böyük ideoloqu olaraq qəbul edilir. 69, 120

H. H.: "Azərbaycan" qəzetində imza; Balaxanı fəhlələrinin həyatından yazmışdır. 75

H. R.: "Azərbaycan" qəzetindəki imzalardan biri: bax. Məhəmmədbəyli, Hüseyn Rza.

H. R.: "Azərbaycan" qəzetinə yazı göndərmişdir. 306

Hacı Əhməd: bax. Kəsmeyi, Hacı Əhməd.

Hacı Mirzə Mehdi: Hacı Cəbrayıl məscidinin axundu. 343

Hacı Osman: Lənkəranda müsəlman camaatının rəhbərlərindən olmuşdur. 486, 487

Hacı Səlim Səyyah: bax. Qasımzadə, Hacı Səlim Səyyah.

Hacı Şeyx Həbib: Kürdəmir axundu. 101

Hacıbababəyli, Mehdi bəy: bax. Hacıbababəyov, Mehdi bəy.

Hacıbəyli, Üzeyir (1885-1948): Azərbaycanlı bəstəkar, musiqişünas, publisist, pedaqoq və ictimai xadim. Azərbaycanın müasir peşəkar musiqi sənətinin və milli operanın banisi. Dövrünün bir sıra qəzet və jurnallarında, o cümlədən "Azərbaycan" qəzetində məqalə, felyeton, hekayə və miniatürlərlə çıxış etmişdir. "Azərbaycan" qəzetinin redaktorlarından biri olmuşdur. Sovet dövründə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Azərbaycan Dövlət Konservatoriyasının rektoru, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü olmuşdur. Azərbaycan SSR-in və Azərbaycan Respublikasının Dövlət himnlərinin musiqisinin müəllifidir. 25, 30, 51, 77, 106, 134, 161, 164, 187, 206, 210, 226, 244, 264, 282, 284, 290, 311, 330, 349, 354, 368, 374, 387, 394, 408, 413, 428, 449, 452, 468, 489, 515

Hacıbəyli, Zülfüqar (1884-1950): Azərbaycanlı bəstəkar. Üzeyir Hacıbəylinin böyük qardaşıdır. 43, 491

Hacıbababəyov, Mehdi bəy (1871-1925): Azərbaycanın ictimai-siyasi xadimi. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 185

Hacıbəyov: Cavanşirdə köç işlərinə baxan şuranın üzvü olmuşdur. 21

Hacıəliyev, Səməd bəy: bax. Hacıəlizadə, Səməd bəy.

Hacıəlizadə, Səməd bəy (yaxud Hacıəliyev): Azərbaycanın maarif xadimi. Müsəlman Zəhmətkeş Ziyalıları İttifaqının üzvü olmuşdur. 362

Hacılətifzadə, Hacıbaba: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131

Hacınski, Camo bəy (1888-1942): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuş, Poçt və Teleqraf naziri vəzifəsini tutmuşdur. Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 1938-ci ildə sürgün edilmiş, həbs düşərgəsində ölmüşdür. 234, 245

Hacıpaşa Ağababa oğlu: Bakı sakini. 183, 278

Hacırzazadə, Abbasəli: Azərbaycan Parlament İdarəsində İcraat şöbəsinin müdiri olmuşdur. 287

Hacıyev, Məhəmməd bəy: Azərbaycan Cümhuriyyətinin Maliyyə nazirliyində işləmişdir. 247

Hacızadə: Dağıstanlı. 199

Hacızadə, Məhəmmədqulu: Bakıda müəllim olmuşdur. 407

Hacızadə, Musa: "Azərbaycan" qəzetində imza. 89

Hadizadə, Əbdürrəhim: Bakı qazısı olmuşdur. 289, 343

Hafiz Şirazi: XIV əsr İran şairi. 453

Haller, Yozef [Józef Haller; 1873-1960]: Avstriya-Macarıstanın və Polşanın hərbi xadimi, general. 1919-cu ilin ortalarında general Hallerin qoşunları Rusiyada Qırmızı orduya qarşı döyüşürdü. 7, 415, 429

Hamburq, S. M.: Bakıda fəaliyyət göstərmiş diş həkimi olmuşdur. 23, 76, 105, 161, 348, 367, 386, 427, 448, 468, 488, 515

Harmsvort [Harmsworth]. 139, 334

Harun ər-Rəşid (? - 809): Abbasi xəlifəsi; 786-809-cu illərdə hakimiyyətdə olmuşdur. 98, 298, 455, 469

Haşım Qafar oğlu: Bakı sakini. 185

Haşımbəyov, Əliyar bəy (1856-1920): Azərbaycanın hərbi xadimi. Rusiya imperiyası ordusunda general-mayor rütbəsinə yüksəlmişdi. Cümhuriyyət dövründə Zaqatala valisi (qubernatoru) olmuşdur. 369

Haşımov, Mirzə: Zabrat sakini. 385

Haşımov, Seyfulla: Bakıda 7-ci sahə pristavının müavini olmuşdur. 385

Haydn, Frans Yozef [Franz Joseph Haydn; 1732-1809]: Avstriya bəstəkarı. Almaniyanın dövlət himninin musiqisi Haydna məxsusdur. 388

Henri. 397

Həbibulla xan (1872-1919): Əfqanıstan əmiri. 1 oktyabr 1901 – 20 fevral 1919-cu il tarixlərində hakimiyyətdə olmuşdur. Suiqəsd nəticəsində öldürülmüşdür. 379

Həbibulla xan: İranın Bakıdakı Konsulluğunun Ədliyyə şöbəsinin rəisi olmuşdur. 155

Həccac bin Mətər: bax. Həccac bin Yusif bin Mətər.

Həccac bin Yusif bin Mətər: Abbasi xəlifəsi Məmun dövründə yaşamış assuriyalı tərcüməçi. 95, 97, 98

Həmdullah Müstəvfi: XIV əsrdə yaşamış iranlı tarixçi və coğrafiyaşünas. 453, 469

Həmdullah Sübhi (Soyadı qanunundan sonra "Tanrıövər" soyadını qəbul etmişdir; 1885-1966): Türk yazıçısı və siyasi xadimi. Osmanlı Məclisi-Məbusanının və Türkiyə Böyük Millət Məclisinin üzvü, Maarfi naziri və səfir olmuşdur. 120, 135

Həmid İbrahim oğlu (Məşhədi Həmid): Balaxanıda, Moskva-Qafqaz Neft Şirkətində işləmişdir. 74

Həmid Paşa oğlu (Məşhədi Həmid): Balaxanıda, Moskva-Qafqaz Neft Şirkətində işləmişdir. 74, 75

Həmzə İsfahani: X əsrdə yaşamış İran tarixçi, dilçi və ədəbiyyatşünası. 151

Həsən Ağaşərif oğlu: Qusar sakini. 481

Həsən Aslan oğlu (Molla Həsən): Bakının Pirşağı kəndinin sakini. 123

Həsən bin Musa: Orta əsrlərdə yaşamış astronomiya və həndəsə alimi. 107

Həsən əfəndi: Kürdəmir vağzalı camaatının ruhanisi olmuşdur. 101

Həsən M. oğlu: “Azərbaycan” qəzetində imza. 121, 255, 281, 300
Həsən Səfər oğlu: Dabaqun kəndinin yüzbaşısı olmuşdur. 157
Həsən Türkman: şair (XVI əsr). 457
Həsənağa (Hacı Şeyx Həsənağa): Şeyxülislamlıq İdarəsinin üzvü olmuşdur. 343
Həsənov, İsgəndər: Bakıda, Aleksandro-Nevski sırada (Pasaj bazarında) dükanı olmuşdur. 24
Həsənov, Məhəmməd ağa: soyğunçuluqda təqsirləndirilərək həbs edilmişdir. 182
Həsənov, Məhəmmədhəsən: Çənbərəkənd Camaat Komitəsinin sədri olmuşdur. 482
Həsənov, Seyid. 132
Həsənzadə, Abdulla: Gəncədə müəllim olmuşdur. 47
Həzrətqulu Ağaqulu oğlu: Mərdəkanlı. 367
Hilal Əsgər oğlu: Xızı rayonunun Tıxlı kəndinin sakini. 445
Himans, Pol [Paul Hymans; 1865-1941]: Belçikanın dövlət xadimi və diplomatı. 1918-1935-ci illər arasında beş dəfə (o cümlədən 1918-1920-ci illərdə) Xarici İşlər naziri olmuşdur. 316
Hindenburq, Paul fon (Paul von Hindenburg, 1847-1934): Almaniyanın hərbi və siyasi xadimi, Birinci Dünya müharibəsinin ən məşhur sərkərdələrindən biri. 1925-1934-cü illərdə Almaniya prezidenti olmuşdur. 503, 516
Hipparx (Hipparxos; e. ə. 190 – e. ə. 120): qədim yunan astronomu. İslam Şərqində Əbərxus və Əbərxuş kimi tanınmışdır. 98
Hippokrat (yaxud İbokrat, Bukrat; e. ə. 460-370): qədim yunan həkimi. 98, 108
Hofman, Avqust Henrix [August Heinrich Hoffmann; 1798-1874]: Alman şairi; Almaniyanın dövlət himninin sözləri Hofmana məxsusdur. 388
Hofmann, İohan [Johannes Hoffmann; 1867-1930]: Almaniyanın siyasi xadimi. 1919-cu ilin martından 1920-ci ilin martına qədər Bavariyanın Baş naziri olmuşdur. 334
Hübeyş bin Asəm Dəməşqi: IX əsrdə yaşamış süryani həkim və tərcüməçisi. 95, 98
Hülakü xan (1217-1265): Elxanilər dövlətinin qurucusu. Çingiz xanın nəvəsi idi. 456, 469
Hüneyn bin İshaq (? - 873): xristian ərəb qəbiləsinə mənsub tərcüməçi və həkim. 96, 97, 98
Hüseyn: Lənkəranda müsəlman camaatının rəhbərlərindən olmuşdur. 486
Hüseyn Bala oğlu: Zığ kəndinin sakini. 308
Hüseyn Cahid (Yalçın; 1875-1957): Türk yazıçısı, publisisti və siyasətçisi. Bir müddət Türkiyənin məşhur ədəbiyyat və incəsənət jurnalı olan “Sərvəti-fünun”un redaktoru olmuş, daha sonra “Tənin” qəzetini qurmuşdur. Birinci Dünya müharibəsindən sonra ingilislər tərəfindən Malta adasına sürgün edilmişdir. Türkiyə Böyük Millət Məclisinin deputatı olmuşdur. Soyadı qanunu çıxdıqdan sonra “Yalçın” soyadını qəbul etmişdir. 69
Hüseyn Cavid: bax. Rasizadə, Hüseyn Cavid.
Hüseyn ibn Əli əl-Haşimi (1854-1931): Məkkə şərifi, Hicaz kralı. 57, 78
Hüseyn Raqib: bax. Baydur, Hüseyn Raqib.
Hüseyn Ramazan oğlu: Lənkəranda müsəlman camaatının rəhbərlərindən olmuşdur. 445, 446, 487
Hüseyn Rəhmi (Gürpınar; 1864-1944): Türk yazıçısı. Soyadı qanunu çıxdıqdan sonra “Gürpınar” soyadını qəbul etmişdir. 69
Hüseynbəyov: Şamaxı Bələdiyyə İdarəsinin rəisi olmuşdur. 88, 358
Hüseynbəyov, Zeynalabdin: Salyan Müəllimlər İttifaqı idarə heyəti üzvlüyünə namizəd. 486
Hüseynov, Balahacı: Bakı sakini. 183
Hüseynov, Mirəlinağı. 27
Hüseynova, Bikə xanım. 27





Hüseynzadə, Ələkbər (1887-1967): teatr və kino aktyoru. Azərbaycan SSR Əməkdar artisti idi. 471
Hüseynzadə, Əliməhəmməd: Salyan sakini; Şeyxülislamlıq İdarəsinin mühasibi olmuşdur. 248
Hüseynzadə, Əmanulla: “Müsavat” partiyasının Ağ şəhər şöbəsinin sədri olmuşdur. 260
Hüseynzadə, İsgəndər: Bakı mədənlərində fəhlə olmuşdur; fəhlə hərəkatının aktiv iştirakçısı olmuşdur. 75
Hüseynzadə, İsmayıl (Mirzə İsmayıl) bəy: “Müsavat” partiyasının Salyan komitəsinin sədri, Salyan Müəllimlər İttifaqı idarə heyətinin üzvü olmuşdur. 486, 512, 513
Hüseynzadə, Məhəmmədqulu: maarif xadimi; Müsəlman Müəllimlər İttifaqının üzvü olmuşdur. 407
Hüseynzadə, Mətləb: Maştağa sakini. 309, 310
Hüseynzadə, Sadıq: Müsəlman Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 184
Hüsniyyə Abbasqulu qızı: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
“X. İ.”: bax. İbrahimov, Xəlil.
Xalid Ziya (Uşaqlıgil; 1866-1945): Türk yazıçısı. 69
Xalidbəyzadə, Ağarəhim: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
Xalidə Ədib (Soyadı qanunundan sonra “Adıvar” soyadını qəbul etmişdir; 1884-1964): Türk yazıçısı və siyasi xadimi. Türk Qurtuluş Savaşında iştirak etmiş, Türkiyə Böyük Millət Məclisinin üzvü olmuşdur. 69, 317
Xarlamov, Nikolay: Bakıda fəhlə olmuşdur. 1919-cu ilin may ayında ümumi tətildə iştirak etdiyi üçün həbs edilmişdir. 420
Xatisov, Aleksandr İvanoviç (1874-1945): Erməni ictimai-siyasi xadim, “Daşnaksutyun” partiyasının üzvü idi. Müxtəlif dövrlərdə Ermənistanın Baş Naziri, Səhiyyə, Daxili İşlər və Xarici İşlər naziri olmuşdur. Ermənistanın sovetləşməsindən sonra Fransa və Portuqaliyada mühacirətdə yaşamışdır. 41, 52, 83, 347, 406
Xeybər (Kərbəlayi Xeybər): Ramana Müstəhliklər Cəmiyyəti dükanının xəzinədarı olmuşdur. 448
Xeyrullazadə, Mahmud: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
Xədicə İsmayıl qızı: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
Xəlil bəy: öz dəstəsi ilə Astarada bolşeviklərə qarşı vuruşmuşdur. 446
Xəlil İbrahim: bax. İbrahimov, Xəlil.
Xəlil paşa (Xəlil Qut; 1882-1957): Osmanlı İmperiyasının hərbi xadimi. İttihad və Tərəqqi cəmiyyətinin üzvü olmuşdur. Ənvər paşanın əmisi (Ənvər paşadan 1 yaş kiçik idi), eyni zamanda Hərbi Akademiyada Mustafa Kamalın (Atatürk) sinif yoldaşı olmuşdur. Birinci Dünya müharibəsində İraq cəbhəsində böyük müvəffəqiyyət qazanmış, Qafqaz İslam Ordusu ilə birgə Bakıya daxil olmuş, Türk Qurtuluş Savaşında iştirak etmişdir. 5
Xəlilov: Muğanda sahə pristavı olmuşdur. 307
Xəlilov, Mikayıl Maqomedoviç (1869-1935): Rusiyanın hərbi xadimi; general-mayor. Lak əsillidir. 1918-ci ilin axırlarından Könüllü orduya qoşulmuşdur. 1918-1920-ci illərdə Dağıstanın hərbi komendantı olmuşdur. Kotsevdən sonra Dağıstan Hökumətinə rəhbərlik etmişdir. Daha sonra Türkiyəyə mühacirətə getmişdir. 141, 142, 172, 173, 203, 231, 233, 269, 277, 285, 320, 322, 374, 381, 382, 444, 507, 516
Xətib Bağdadi (? - 1071): tarixçi. 151
Xoyski: yüzbaşı; Bakıda müfrəzə komandanı olmuşdur. 16
Xoyski, Əmir xan (1888-1954): Azərbaycanın ictimai-siyasi xadimi, milli istiqlal hərəkatının iştirakçısı. Bakı qubernatorunun müavini, eləcə də bir sıra yerlərdə qəza rəisi olmuşdur. 43, 233, 234
Xoyski, Rüstəm xan (1888-1939): Azər-

baycan Cümhuriyyətinin dövlət xadimi. Fətəli xan Xoyskinin qardaşı. Hökumətin İşlər İdarəsinin müdiri, daha sonra Sosial Təminat naziri olmuşdur. 194

Xudaqulu Məhəmməd oğlu (Kərbəlayi Xudaqulu): Bakı sakini. 75

Xudaverdi: Bakı və Ətrafının Müsəlman Zəhmətkeş Ziyalıları İttifaqının üzvü olmuşdur. 184

İbn Baccə (? - 1139): müsəlman filosofu. 97

İbn Dəhn Hindi (yaxud İbn Dəhn əl-Hindi): Abbasilər dövründə hind dilindən ərəb dilinə tərcümələr müəllifi olan alim. 95

İbn Əsakir, Əbül-Qasım (? - 1176): tarixçi. 151

İbn Hud (? - 1046): Əndülüsün bir hissəsində hökm sürmüş Hudilər sülaləsinin banisi. 151

İbn Xəldun, Əbu Zeyd (? - 1406): tarixçi və sosioloq. 151, 162

İbn Naima əl-Himsi: Orta əsrlərdə yaşamış tərcüməçi. 95

İbn Rüşd (1126-1198): ərəb filosofu və alimi. 151, 360

İbn Sina (980-1037): Orta əsrlər dövrünün böyük həkim və filosofu. 97, 150, 359, 360

İbn Tüfeyl (? - 1185): Əndülüslü filosof. 151

İbn Vazeh: bax. Yəqubi, Əbül-Abbas.

İbn Vəhşiyyə: X əsrdə yaşamış tərcüməçi, eyni zamanda astorloq və simyaçı. 95, 148

İbnül-Bitriq: bax. İbnül-Bitriq, Yuhanna

İbnül-Bitriq, Yuhanna: Abbasilər dövründə yaşamış tərcüməçi. 95, 97, 98, 108

İbnül-Əsir İzzəddin əl-Cəzəri: ərəb tarixçisi. 151, 469

İbnül-Müqəffe (? - 759): İranlı tərcüməçi. 95, 148

İbnül-Vərdi, Siracəddin: XV əsrdə yaşamış coğrafiyaşünas. 151

İbnün-Nədim: X əsrdə yaşamış ərəb biblioqrafiya alimi, "Föhrüst" əsərinin müəllifi. 96, 108, 162

İbnüs-Saiğ Əbubəkr bin Baccə (1077-1139): müsəlman filosofu. 151

İbrahim bin Abdullah: Orta əsrlərdə yaşamış tərcüməçi. 97

İbrahim Fəzari: bax. Fəzari, İbrahim.

İbrahim xan (yaxud İbrahim Xəlil xan; 1732-1806): Qarabağ xanı. 457

İbrahim Xəlil: Lənkəranda müsəlman camaatının rəhbərlərindən olmuşdur. 486

İbrahimxəlil xan: bax. İbrahim xan.

İbrahimli, Müqbil: Müsəlman Tələbələri İttifaqının üzvü. 178, 241, 259, 260

İbrahimov: "Hümmət" partiyasının üzvü. 199

İbrahimov, Xəlil (Xəlil İbrahim; Xəlil İbrahimzadə; 1892-1938): Azərbaycanlı müəllim, publisist və tənqidçi. Şuşada anadan olmuşdur. Bakıda müəllim işləmiş, müxtəlif qəzet və jurnallarda, o cümlədən "Azərbaycan" qəzetində yazılar dərc etdirmiş, bir müddət "Azərbaycan" qəzetinin "müvəqqəti müdiri" olmuşdur. 1938-ci ildə həbs edilərək güllələnmişdir. 9, 15, 25, 71, 258

İbrahimzadə: Gəncə tələbələr təşkilatının üzvü. 71, 241

İbrahimzadə, Məhəmməd: Bakıda müəllim olmuşdur. 407

İbrahimzadə, Müqbil: bax. İbrahimli, Müqbil.

İdaşkina, M. S.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 23, 349

İqnatyev: Kəndli Bankının Zaqafqaziya şöbəsinin müdiri; Zaqafqaziya Rus Cəmiyyətinin üzvü. 487

İlyas Əbdül oğlu: Xaçmaz rayonunun Zərgərli (Sərkərli) kəndinin sakini. 289

İlyaşeviç: Muğanda Azərbaycan Cümhuriyyətinin ordusuna qarşı döyüşən qüvvələrin komandirlərindən biri olmuşdur. 484

İmam Nəcməddin: bax. Nəcməddin.

İmam Şamil: bax. Şamil.

İmamverdibəyov, Cəbrayıl: Birinci Bakı Poçt və Teleqraf bürosunda işləmişdir. 352





İmanov, Qeydar: Salyan Realnı məktəbində oxumuşdur. 159

İonesku, Take [Take Ionescu; 1858-1922]: Rumıniyanın siyasi xadimi; müxtəlif dövrlərdə Daxili İşlər naziri, Maliyyə naziri, Xarici İşlər naziri və Baş nazir olmuşdur. 505

İrani Nejad M. Ayn.zadə: "Azərbaycan" qəzetində imza. 199

İretski: polkovnik; Könüllü ordu tərəfindən Petrovskun mülki işlərini idarə etmək üçün təyin edilmişdir. 4

İsa (peyğəmbər). 297, 298

İsa bəy: Türk zabiti; 1919-cu ildə İstanbulda edam edilmişdir. 5

İsa bin Yəhya: Orta əsrlərdə yaşamış tərcüməçi. 98

İsfahani, Həmzə: bax. Həmzə İsfahani.

İshaq bin Hüneyn (? - 910): nəsturi tərcüməçi və həkim. 97, 98

İskəndər (yaxud Makedoniyalı İskəndər). 299, 312

İskəndər Paşa oğlu (Məşhədi Paşa oğlu). 23

İskəndər Zülqərneyn. 469

İskəndərbəyov, Həbib bəy: Qazax qəzasından camaat vəkili. 204

İskəndəri-Rumi: bax. Makedoniyalı İskəndər.

İskəndəriyyəli Teon: bax. Teon (İskəndəriyyəli).

İskəndərzadə, Rüstəm: Salyan sakini, "Müsavat"ın Salyan komitəsinin katibi; "Azərbaycan" qəzetinə yazı göndərmişdir. 158, 159, 261, 512, 513

İsmayıl I (Şah İsmayıl Xətai; 1487-1524): Səfəvilər dövlətinin ilk şahı. 1501-1524-cü illərdə hakimiyyətdə olmuşdur. 457, 469

İsmayıl Fani: bax. İsmayılzadə, Fani.

İsmayıl Güllü oğlu: Kürdəmir sakini. 101

İsmayılov, Həsənağa: Salyan Realnı məktəbində oxumuşdur. 159

İsmayılov, Nağı: Bakı Poçt və Teleqraf bürosunda işləmişdir. 352, 372

İsmayılzadə, Fani: "Yardım alayı" Komitəsinin sədri. 9, 328

İsrafilbəyzadə, Ağa bəy: bax. İsrafilzadə, Ağababa.

İsrafilbəyzadə, Mələk xanım: Bakıda müəllimə olmuşdur. 407

İsrafilov, Əliəşrəf Məhəmmədkərim oğlu. 219

İsrafilov, Məhəmmədkərim: Bakı sakini. 183, 219

İsrafilzadə, Ağababa bəy (yaxud İsrafilbəyli): Azərbaycanın maarif xadimi; dərslik müəllifi. 182, 328, 407

İstaks. 148

İstefan Basil: Orta əsrlərdə yaşamış tərcüməçi. 95

İstəxri, Əbu İshaq: X əsrdə yaşamış ərəb coğrafiyaşünası. 453

İşxanyan: Qarabağdakı Erməni Milli Şurasının sədri olmuşdur. 323, 331

İşxanyan, Baxşı Zaxaryeviç (1879-1921): erməni publisisti. 222, 226

İtkin, S. M.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 75, 105, 133, 160, 186, 205, 225, 243, 264, 283, 310, 329, 348, 367, 386, 408, 428, 448, 468, 488, 514

İvanov: Bakıda asayişi pozmaqda günahlandırılaraq həbs edilmişdir. 42

İvanoviç, Georgi: 2-ci sahədə mədən müdiri olmuşdur. 260

Joxvitski, L. 386

Kafafov: Peterburq Mühafizə şöbəsinin rəisi olmuşdur. 222

Kalatozov: arximandrit. 41

Kanayan, Drastamat (Dro; 1883-1956): Erməni terrorçu və hərbi cinayətkar; Daşnaksutyun üzvü. Şərqi Anadolu və Qafqazda dinc müsəlman-türk əhaliyə divan tutulmasında xüsusi rolu olmuşdur. 365, 508

Karay, Rəfiq Xalid (1888-1965): Türk yazıçısı. 69

Karqareteli: Gürcüstanın hərbi xadimi; polkovnik. 224

Karşteynbaum, E. S.: diş həkimi. 23, 76, 132, 515

Kaspar, Nikolay: Bakıda fəhlə olmuşdur. 1919-cu ilin may ayında ümumi tətildə iştirak etdiyi üçün həbs edilmişdir. 420

Kaşani, Fəxrəddin: Daxili İşlər Nazirliyində polis müfəttişliyi katibi olmuşdur. 420

Katib Çələbi (1609-1657): Türk alimi. 162, 453

Kazakov, İsmayıl: Azərbaycan dövləti əleyhinə cinayət işlədiyi için ölkədən qovulmuşdur. 123

Kazanalipov, Əsildar (1855-1928): Kumık əsilli Dağıstan bəylərindən. Qafqaz canişininin müşaviri olmuşdur. Türkiyəyə mühacirətə getmişdir. 381, 383

Kazım: "Mübarək" yeməkxanasının aşpazı. 313

Kazım bəy: Türküstandakı sovet qoşunlarının komandiri olmuşdur. 234, 274

Kazımoğlu: bax. Seyid Hüseyn Sadiq.

Kazımov, Ağahüseyn (1882-1937): Bakıda fəaliyyət göstərmiş həkim. Azərbaycan SSR-in ilk Səhiyyə komissarı olmuşdur. Stalin rejimi tərəfindən güllələnmişdir. 349

Kazımzadə, Abbasqulu (1882-1947): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 242, 243

Kelxis: rəssam; Bakıda müəllimlik etmişdir. 44

Kepper: Paris Sülh Konfransında Avstriya nümayəndə heyətinin başçısı olmuşdur. 397

Kerenski, Aleksandr Fyodoroviç (1881-1970): Rusiya Müvəqqəti Hökumətinin (1917) başçısı. 112, 478

Kerzon, Corc Nataniel [George Nathaniel Curzon; 1859-1925]: İngiltərənin dövlət xadimi. 1916-1925-ci illərdə Lordlar Palatasının başçısı, 1919-1924-cü illərdə Xarici İşlər naziri olmuşdur. 5

Keşmir, Camal (yaxud Artin Camal; 1862-1949): Türkiynin siyasi xadimi. Osmanlı dövlətinin son dövrlərində Daxili İşlər naziri, Ticarət və Əkinçilik naziri kimi vəzifələr tutmuşdur. 85

Kəlbəli xan Kəngərli (? - 1820): Naxçıvan xanı. 107

Kərimbəyov: Bakıda 4-cü sahənin pristavı olmuşdur. 278, 328, 329

Kərimov, M. M.: Bakıda göz həkimi olmuşdur. 23, 50, 76, 104, 133, 159, 186, 205, 225, 348

Kərimzadə, Mirzəağa: "Müsavat" partiyasının Balaxanı mədənləri ərazisindəki şöbəsinin idarə heyətinin sədri olmuşdur. 19, 115

Kəsmeyi, Hacı Əhməd: İranda Cəngəlilər hərəkatının başçılarından biri olmuşdur. 35, 92

Kiçik xan: bax. Mirzə Kiçik xan.

Kiçikxanov, Bayram Niyazi oğlu (yaxud Kiçikxanlı; 1889-1922): Azərbaycanın siyasi xadimi. Zaqatalada maarif müfəttişi işləmişdir. Zaqataladan Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmiş, eyni zamanda Parlamentin katibi olmuşdur. "Əhrar" partiyasının üzvü idi. 365

Kindi, Tacəddin (? - 1217): ərəb dil və hədis alimi. 97, 108

Kindi, Yaqub bin İshaq: IX əsrdə yaşamış ərəb filosofu. 97, 108, 150

Kinkə əl-Hindi: Hind alimi. 148

Kinq, Leonard Uilyam [Leonard William King; 1869-1919]: ingilis arxeoloqu. 455

Klemanso, Jorj [Georges Clemenceau; 1841-1929]: Fransanın dövlət xadimi. 1906-1909 və 1917-1920-ci illərdə Baş Nazir olmuşdur. 3, 139, 174, 187, 193, 194, 213, 273, 315, 355, 356, 376, 377, 396, 397, 414, 436

Klemm, Eduard [Eduard Klemm; 1838-1926]: Almaniyanın siyasi xadimi. Reyxstaqın üzvü idi. 139

Klenevski, Viktor Viktoroviç (1883 - ?): Milliyyətcə polyak olan Klenevski Slavyan-Rus Cəmiyyətindən Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmiş, 1919-cu ilin mart-dekabr aylarında Sosial Təminat naziri olmuşdur. 399





Klevtsov: bolşevik. Bakıda ticarət limanının komissarı olmuş, sonra Türküstanda bolşeviklərin hərbi dəniz qüvvələrində xidmət etmişdir. 175

Klirkil: hind təbibi. 148

Kolandskaya-Sanuxat, K. S.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 23, 75, 105, 160, 205, 244, 284, 330, 349, 387, 427

Kolçak, Aleksandr Vasilyeviç (1874-1920): Rusiyanın hərbi və siyasi xadimi; admiral. Ağqvardiyaçılar hərəkatının başçısı, Rusiyanın Ali rəhbəri (noyabr 1918 – fevral 1920) və Rus ordusunun Ali Baş komandanı (noyabr 1918 – yanvar 1920) olmuşdur. 4, 74, 89, 94, 212, 213, 214, 232, 272, 293, 294, 315, 320, 334, 337, 356, 376, 377, 413, 416, 418, 442, 458, 459, 502, 503

Kolesnikov, Andrey: Bakı sakini. 326

Kolomitsev: bolşevik. 433

Komar, Qavril: Gəncə poçt və teleqraf idarəsində işləmişdir. 372

Konverni: ingilis deputatı. 378

Kopelioviç, Samuil İzrailoviç: Bakıda fəaliyyət göstərmiş həkim. 23, 50, 77, 106, 133, 160, 186, 205, 225, 244, 264, 284, 311, 330, 349, 428, 448, 468, 488, 515

Kori, Corc Norton [George Norton Cory; 1874-1968]: Birinci Dünya miharibəsindən sonra Qafqazdakı ingilis ordusunun (27-ci diviziyanın) komandiri olmuşdur. 98, 99, 153, 170, 292, 392

Kouan: İngilis admiralı. 354

Koval: Bakıda fəhlə hərəkatının fəal iştirakçısı olmuş bolşevik. 339, 420

Kovalenko: Şimali Qafqazda quldur dəstəsinin başçısı olmuşdur. 296

Kovalski, N. F.: Poçt və Teleqraf Nazirliyində nahiyə müdiri olmuşdur. 372

Kozlov, Porfir: Bakıda teleqraf stansiyasında işləmişdir. 372

Kozlovski, Moisey: Poçt və Teleqraf Nazirliyində işləmişdir. 333

Köçərli, Firidun bəy (1863-1920): Azərbaycanın görkəmli maarif xadimi, ədəbiyyatşünası və yazıçısı. Qori Müəllimlər Seminariyasını bitirmişdir. 1918-ci ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini Qazaxa köçürərək müstəqil bir seminariyaya çevirmiş və bu seminariyanın direktoru olmuşdur. Azərbaycan Milli Şurasının üzvü kimi İstiqlal Bəyannaməsini imzalayanlar arasında yer alan Firidun bəy Köçərlinin Azərbaycan ədəbiyyatı tarixinə dair əsərləri xüsusilə dəyərlidir. Bolşeviklər tərəfindən güllələnmişdir. 21

Köprülüzadə, Məhməd Fuad bəy (1890-1920): Türk ədəbiyyatşünası və türkoloqu. Türk ədəbiyyatı tarixinə dair bir sıra qiymətli əsərlərin müəllifidir. Eyni zamanda siyasətlə də məşğul olmuş, dəfələrlə millət vəkili seçilmiş, 1950-1956-cı illərdə Türkiyə-nin Xarici İşlər naziri olmuşdur. 68

Köytayev: Tovuzlu. 357

Krayblis, Nikerld: Amerika tarixçisi. 453, 454, 469

Kubinski: Lənkəran sakini. 344

Kuk-Kollis, Ceyms [James Cooke-Collis; 1876-1941]: Britaniyanın hərbi xadimi; general-mayor. Birinci Dünya müharibəsindən sonra Batumda general-qubernator olmuşdur. 335

Kulanj, Füstel de [Fustel de Coulanges; 1830-1889]: fransız tarixçisi. 453, 469

Kureyev, İvan Fyodoroviç: Bakı sakini. 362

Kusta bin Luka əl-Bəəlbəki (820-912): ərəb dilində yazan xristian filosofu, riyaziyyatçısı, həkimi və astronomu. 95, 97

Kuznetsov: Bakı Mərkəzi Ev Komitəsinin Lənkərandakı nümayəndəsi; 1919-cu ildə Lənkəranda öldürülmüşdür. 344, 466, 484

Qabba, Melçiade [Melchiade Qabba; 1874-1952]: İtaliyanın hərbi xadimi, general. Birinci Dünya müharibəsindən sonra Zaqafqaziyadakı İtaliya hərbi heyətinin rəhbəri olmuşdur. 36, 406, 481

Qabilov, Ələddin: Bakıda prixod mollası olmuşdur. 509

Qacar, Ağa Məhəmməd şah. 15
Qacar, Hümayun Mirzə: general; şahzadə. 155
Qacar, Sədrəddin Mirzə (1873-1921): Azərbaycanın hərbi xadimi. Bakı nahiyəsi Hərbi çağırış idarəsinin rəisi olmuşdur. 189, 191
Qalabəyov: Cavanşir qəzasında köçərilərin işlərinə baxan vəkil olmuşdur. 21
Qalen (Calinus): II-III əsrlərdə yaşamış qədim yunan həkimi. 97, 98
Qalib Kamali bəy: bax. Söyləməzoğlu, Qalib Kamali.
Qambaşidze, David (? - 1946): Gürcüstanın siyasi xadimi və diplomatı. 1918-ci ilin noyabrından 1921-ci ilin fevralına qədər Gürcüstanın İngiltərədə diplomatik nümayəndəsi olmuşdur. 174
Qanzon: Qarabağdakı ingilis zabitlərindən; kapitan. 214
Qaraağazadə, Əhməd Həmdi (1893-1928): Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 49, 292, 375
Qaraxanyan, Qarabet: Gümrü ermənilərindən. 466
Qaplanov, Rəşid xan (1883-1937): Azərbaycanın və Dağıstanın siyasi xadimi. Kumık əsillidir. Sorbon Universitetinin (Paris) Hüquq fakültəsini bitirmişdir. İstanbulda müxtəlif təhsil qurumlarında, o cümlədən İstanbul Universitetində dərs demişdir. 1918-ci ilin dekabrından 1919-cu ilin martına qədər Dağlılar Respublikasının Daxili İşlər naziri olmuşdur. Dağıstan Denikin qoşunları tərəfindən işğal edildikdən sonra Azərbaycana gəlmiş, əvvəlcə Maarif və Dini Etiqad (aprel-dekabr 1919), sonra Maliyyə (dekabr 1919 – aprel 1920) naziri olmuşdur. 1937-ci ildə güllələnmişdir. 44, 425
Qaraşarov, Rza bəy (yaxud Qaraşarlı; 1891-?): Azərbaycanın siyasi xadimi. Bir sıra məktəblərdə, o cümlədə Gəncə Ruhani Mədrəsəsində müəllimlik etmişdir. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Sovet dövründə repressiyaya məruz qalmışdır. 361
Qardaşov, Aslan bəy (1866-1920): Azərbaycan Cümhuriyyətinin dövlət xadimi. "Əhrar" partiyasının liderlərindən biri, Milli Şuranın və Parlamentin üzvü, Əkinçilik və Dövlət Əmlakı naziri olmuşdur. 2
Qaryağdıoğlu, Cabbar (1861-1944): Azərbaycan xanəndəsi və bəstəkarı. 14
Qasımov, Əli bəy: Salyanda müəllim olmuşdur. 486
Qasımov, Əlinağı: Salyan Müəllimlər İttifaqı idarə heyətinin üzvü. 486
Qasımov, Hacıağa: Azərbaycan ordusunun Bakıdakı zabitlərindən olmuşdur. 326
Qasımov, Heydər (Mirzə Heydər): Bakı quberniyasının Qaraqaşlı kəndinin yüzbaşısı olmuşdur. 157
Qasımov, Hüseyn (Molla Hüseyn): Salyan sakini; "Müsavat" partiyasının Salyan komitəsinin üzvü. 513
Qasımov, Yusif: Salyan Müəllimlər İttifaqı idarə heyətinin üzvü. 485, 486
Qasımzadə, Feyzulla (1898-1976): Azərbaycan alimi, ədəbiyyatşünas və pedaqoq. Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü olmuşdur. 130
Qasımzadə, Hacı Səlim Səyyah (1869-1943): Şair və müəllim. Vilnüs və İstanbulda təhsil almış, bir çox ölkələrə səyahət etmişdir. Bakıda müəllim kimi fəaliyyət göstərmişdir. Zəngin bir ədəbi irs qoymuşdur. 301
Qasımzadə, Həsən: tələbə; "Azərbaycan" qəzetində yazmışdır. 39
Qattenberger, Aleksandr Nikolayeviç (1861-1939): Rusiyanın siyasi xadimi. Tomsk quberniyasının komissarı (1918) və Ümumrusiya Hökumətində Daxili İşlər naziri (1918-1919) olmuşdur. 503
Qaya Alp oğlu Süleyman şah: bax. Süleyman şah.
Qayı xan: Oğuzların Qayı boyunun cəddi; Oğuz xanın oğlu Gün xanın oğlu. 119, 120
Qazan xan: 1295-1304-cü illərdə Elxanlı hökmdarı olmuşdur. 456
Qazıyev, Nurulla: bax. Qazızadə, Nurulla.
Qazızadə, Gövhər xanım. 24, 50, 76, 106, 133, 159, 186, 205, 225, 243, 264, 283, 310, 329, 348, 367, 386, 408, 428, 448, 488, 514
Qazızadə, Nurulla (1876-1938): Zaqatala dairəsində Milli Komitənin və Qırmızı Aypara cəmiyyətinin sədri, şəriət məhkəməsinin üzvü olmuşdur. 365
Qeqamyan: Bakıda göz həkimi olmuşdur. 75, 105, 133, 160, 186, 205, 225, 243, 264, 283, 310, 329, 348, 367, 386, 408, 428, 448, 468, 488, 514
Qəbulov, Abdulla əfəndi (yaxud Qəbulzadə; 1853-1943): Zaqatala nahiyəsindən Azərbaycan Parlamentinin üzvü olmuşdur. 365
Qədirov, Ağaqədir: Çənbərəkənd Camaat Komitəsinin üzvü olmuşdur. 483
Qəmkeş: "Azərbaycan" qəzetində imza. 426
Qəni (Şeyx Qəni): Bakıda axund olmuşdur. 343
Qəniyev: Müsəlman Zəhmətkeş Ziyalılar İttifaqının üzvü. 258
Qənizadə, Sultanməcid Murtuzəli oğlu (1866-1938): Azərbaycanın ictimai-siyasi xadimi; yazıçı, pedaqoq və publisisti. Tiflis Aleksandr Müəllimlər İnstitutunu bitirmişdir. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 258
Qəzzali, Əbu Hamid (1058-1111): müsəlman teoloqu. 150
Qiyasbəyli, Mədinə xanım (yaxud Qiyasbəyzadə; 1889-1937): Azərbaycanlı pedaqoq, jurnalist və tərcüməçi. Anadan olduğu Salahlı kəndində (Qazax) qız məktəbi açmışdır. Maarifçilik fəaliyyətinə Bakıda da davam etmişdir. Sovet rejimi tərəfindən güllələnmişdir. 40
Qiyasbəyzadə, Mədinə xanım: bax. Qiyasbəyli, Mədinə xanım.
Qnesin, F: Zakaspiysk Müvəqqəti Hökumətinin Bakıdakı hərbi nümayəndəsi. 360
Qof, Hubert [Hubert Gough; 1870-1963]: Britaniyanın hərbi xadimi; general. Qafqazda olmuşdur. Paris Sülh Müqaviləsinin imzalandığı dövrdə Müttəfiqlərin Finlandiyada və Baltik ölkələrindəki qoşunlarının komandiri idi. 432, 449
Qoqeberidze: Bakıda fəhlə hərəkatının fəal xadimlərindən. 304
Qolts, Rüdiger fon der [Rüdiger von der Goltz; 1865-1946]: Alman generalı; qraf. Finlandiya və Pribaltikada fəaliyyət göstərmişdir. 432
Qonmeberidze. 199
Qramov: Bakı sakini. 326
Qriqoryev (? - 1919): bolşevik. 509
Qriqoryev, Nikifor Aleksandroviç (1884-1919): Ukraynada Avstriya-Almaniya işğalçılarına, Antanta qoşunlarına və Qızıl orduya qarşı mübarizə aparmışdır. 252, 350, 504, 516
Qubad: V əsrin axırları – VI əsrin əvvəllərində yaşamış Sasani hökmdarı. 299
Qubanov: Bakı sakini. 278
Qudiyev, Quda (1880-1920): 1919-1920-ci illərdə Bakının komendantı (polis rəisi) olmuşdur. Milliyyətcə inquş idi. 110, 362
Qulam bəy: Bakıda 2-ci sahə pristavının müavini olmuşdur. 242
Quliyev: Xaldan poçt və teleqraf şöbəsinin müdiri olmuşdur. 352
Quliyev: Sosial Təminat Nazirliyində işləmişdir. 7
Quliyev, Ağabala (1862-ci ildə doğulmuşdur): Azərbaycanlı sahibkar və xeyriyyəçi. Bakıda və Rusiyanın bir sıra şəhərlərində un dəyirmanlarına və düyü təmizləmə fabriklərinə sahib idi. Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin qurucularından idi. Cümhuriyyətin süqutundan əvvəl İrana gedən Quliyev bir daha Azərbaycana qayıtmamışdır. 278
Quliyev, Məhərrəm: Göyçay Poçt və Teleqraf idarəsi müdirinin müavini olmuşdur. 352
Quliyev, Yusif: Bakı sakini. 241

Quliyev, Yusif: Bakı Poçt və Teleqraf idarəsində işləmişdir. 17
Qulubəyova, Şəhrəbanu xanım. 27
Quluzadə, Ağabala: Balaxanıda fəhlə təşkilatının işində fəal iştirak etmişdir. 260
Lahuti: bax. Dərviş Vəhdəti.
Lansinq, Robert [Robert Lansing; 1864-1928]: ABŞ-ın dövlət xadimi; 1915-1920-ci illərdə Dövlət katibi vəzifəsini tutmuşdur. 335
Lavrentiyev: Bakı sakini. 326
Lazarev: Könüllü ordunun Bakıdakı İngiltərə Komandanlığı nəzdində nümayəndəsi olmuşdur. 153, 169, 170
Lebon, Güstav [Gustave Le Bon; 1841-1931]: Fransız sosioloqu və tarixçisi. 151
Lenin, Vladimir İliç (1870-1924): Rus inqilabçı və marksist. Əsl soyadı Ulyanov idi. Rusiyada 1917-ci il Oktyabr inqilabının təşkilatçısı və rəhbəri, Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) qurucusu və SSRİ Nazirlər Sovetinin ilk sədri olmuşdur. 55, 232, 320, 333, 336, 342, 418, 509
Leontyeviç, Aleksandr Konstantinoviç (? - 1920): Cümhuriyyətdən əvvəl Bakı Şəhər Dumasının üzvü; Mərkəzi Ev Komitəsinin təsisçilərindən biri və rəhbəri olmuşdur. 1920-ci ildə bolşeviklər tərəfindən güllələnmişdir. 444, 483, 484
Levin, B. L.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 488, 515
Lənkəranlı: "Azərbaycan" qəzetində imza. 487
Lətif Mikayıl oğlu: Şuşalı. 366
Lidjet: Fransız generalı. 86
Lijon. 426
Lissen: Qarabağdakı ingilis zabitlərindən; mayor. 214
Litvinov: Tersk könüllülərinin komandiri olmuşdur. 462
Liven, Anatoli Pavloviç (1872-1937): Ağqvardiyaçılar hərəkatının və Latviyanın müstəqilliyi uğrunda hərəkatın iştirakçısı, polkovnik. 432
Lloyd Corc, Devid [David Lloyd George; 1863-1945]: Britaniyalı siyasətçi. 1905-1908-ci illərdə Ticarət naziri, 1908-1915-ci illərdə Maliyyə naziri, 1915-1916-cı illərdə Hərbi nazir olmuşdur. 6 dekabr 1916 – 19 oktyabr 1922 tarixləri arasında Britaniyanın Baş Naziri vəzifəsini tutmuşdur. 3, 86, 139, 174, 187, 213, 273, 295, 315, 317, 356, 376, 435, 436, 502
Loren: fransız generalı. 252
Loris-Məlik Kalantar Aşxarbek. 365, 369
Lou, Bonar [Bonar Law; 1858-1923]: Britaniyanın siyasi xadimi. 1916-1921-ci illərdə Mühafizəkarlar Partiyasının lideri olmuş, 1922-1923-cü illərdə Britaniyanın Baş naziri vəzifəsini tutmuşdur. 86
Lubinko, Kart: Bakıda teleqraf stansiyasında işləmişdir. 372
Lukomski, Aleksandr Sergeyeviç (1868-1939): Rusiyanın hərbi xadimi, general. Ağqvardiyaçılar hərəkatının liderlərindən və Könüllü ordunun qurucularından biri olmuşdur. Ağqvardiyaçıların Vətəndaş müharibəsində məğlubiyyətindən sonra mühacirətə getmişdir. 169
Lüksemburq, Roza [Rosa Luxemburg; 1871-1919]: Almaniyanın polyak əsilli filosofu, iqtisadçısı və publisisti; marksizm nəzəriyyəçisi. 252
Lyaxov, Vladimir Platonoviç (1869-1920): Rusiyanın hərbi xadimi; general-leytenant. 90, 269, 375
Lyubaşevskaya: Bakıda həkim olmuşdur; bakterioloq. 75, 105, 133, 160, 186, 205, 225, 243, 264, 283, 310, 329, 348, 367, 386, 408, 428, 448, 468, 488, 514
Lyubovyev, Nikolay Vasilyeviç: Bakı sakini. 344
Lyutsov: Poçt və Teleqraf Nazirliyində işləmişdir. 333
"M.": "Azərbaycan" qəzetində imza. 10
M. R.: "Azərbaycan" qəzetində imza. 168
Maçavariani, İosif İvanoviç (1877-1938): Gürcüstan Təsisçilər Məclisinin üzvü; sosial-demokrat. 162
Maçavariani, İosif Konstantinoviç (1873-1937): Gürcüstan Təsisçilər Məclisinin üzvü; milliyyətçi-demokrat. 143, 162
Mahmud bəy: Bakıda yaradılan könüllü "Yardım alayı"na mənsub olmuşdur. 305
Mahmud əfəndi: Göyçay qazısı. 223
Mahmudbəyov, Mahmud bəy (1863-1923): Azərbaycanın görkəmli pedaqoqu. Qori Seminariyasını bitirmişdir. Azərbaycanın müxtəlif yerlərində müəllim və məktəb müdiri işləmişdir. "Rəhbər" jurnalının redaktoru olmuşdur. "Yeni əlifba kitabçası", "Birinci il: müsəvvər türk əlifbası və ilk qiraət" (1918-ci ilə qədər 14 çap); "Yeni məktəb" (Abbas Səhhətlə birgə; 1918-ci ilə qədər 8 çap); "Türk ədəbiyyatına ilk qədəm" (Abbas Səhhətlə birgə); "Müntəxəbat: türk ədiblərindən nümunələr" (Abdulla Şaiqlə birgə); "Üçüncü il" kimi dərsliklərin müəllifidir. 182
Mahmudbəyzadə, Mahmud bəy: bax. Mahmudbəyov, Mahmud bəy.
Mahmudzadə: Şəki və Ağdaş məktəbləri müfəttişi olmuşdur. 40
Maxno, Nestor İvanoviç (1888-1934): Ukraynalı anarxist-kommunist. 509, 516
Mak-Kumber: ABŞ Senatının nümayəndəsi. 334
Mak-Mosen: Müttəfiqlərin Qarabağdakı hərbi heyətinin başçısı; mayor. 180
Makazamar. 355
Makedoniyalı İskəndər: bax. İskəndər.
Makino Nobuaki (1861-1949): Yaponiyanın siyasi xadimi. 1913-1914-cü illərdə Xarici İşlər naziri olmuşdur. Paris Sülh Konfransında ölkəsini təmsil etmişdir. 32, 335
Makinski, Abbasəli bəy (1888-1938): Azərbaycanlı hüquqşünas. Kiyev Universitetinin Hüquq fakültəsində təhsil almışdır. Cümhuriyyət dövründə müxtəlif dövlət qurumlarında hüquq məsləhətçisi və xüsusi tapşırıqlar üzrə məmur kimi fəaliyyət göstərmişdir. 1938-ci ildə güllələnmişdir. 482
Makuşinski: Azərbaycan Poçt və Teleqraf Nazirliyinin mühəndisi olmuşdur. 352
Malxazyan, Arşak İoanesoviç (yaxud Malxazov, İvanoviç): "Daşnaksutyun" partiya-sının, Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 47, 354, 368
Malışev: Bakı sakini. 278, 328
Malinovski, Nikolay Stanislaviç: Poçt və Teleqraf Nazirliyi dəftərxanasında kargüzar olmuşdur. 372
Malleson, Uilfrid [Wilfrid Malleson; 1866-1946]: Britaniyanın hərbi xadimi; general-mayor. 1918-1919-cu illərdə Hindistan, Əfqanıstan və Türküstandakı Britaniya ordularının komandiri olmuşdur. 308
Malsaqov, Səfərbek (1868-1944): Rusiyanın hərbi xadimi; general-mayor. Milliyətcə inquş olmuşdur. 462
Mamontov, Konstantin Konstantinoviç (1869-1920): Rusiyanın hərbi xadimi; general-leytenant. Don ordusunun komandirlərindən olmuşdur. 434
Mannerheym, Karl Qustav Emil [Carl Gustaf Emil Mannerheim; 1867-1951]: Rusiyanın və Finlandiyanın siyasi və hərbi xadimi. 504
Marağayi, Məhəmməd Səidülvüzəra: İranın Azərbaycandakı konsulu olmuşdur. 130
Marker: Veymar Respublikasının generalı. 433
Marks, Karl (1818-1883): Alman filosofu, iqtisadçısı və sosioloqu. 55
Marqulis. 357, 379
Masir. 455
Maslov: Batumidəki Rus Milli Şurasının sədri olmuşdur. 374
Maşadu, Bernardinu [Bernardino Machado; 1851-1944]: Portuqaliyanın siyasi xadimi. 1914 və 1921-ci illərdə Baş nazir, 1915-1917, 1925-1926-cı illərdə prezident olmuşdur. 252, 265
Meçnikov, İlya İliç (1845-1916): Rus bioloqu; 1908-ci ildə fiziologiya və tibb sahəsində Nobel mükafatına layiq görülmüşdür. 64

Mehdi (Hacı Mehdi): Cümhuriyyət dövründə Naxçıvandakı qoşun başçılarından olmuşdur. 83
Mehmandarov, Səməd bəy (1856-1931): Azərbaycanın hərbi xadimi. Peterburqda hərbi məktəb bitirmiş, Çar Rusiyası ordusunda xidmət etmiş, Rusiya-Yaponiya müharibəsində göstərdiyi şücaətlərə görə mükafatlandırılmış, Birinci Dünya müharibəsində iştirak etmişdir. 1917-ci ilin fevral inqilabından sonra Rusiya ordusundan istefa vermişdir. Cümhuriyyət dövründə Azərbaycanın Hərbi naziri olmuş, ordu quruculuğu sahəsində böyük işlər görmüşdür. Cümhuriyyətin süqutundan sonra bolşeviklər tərəfindən həbs edilmiş, azadlığa çıxdıqdan sonra müxtəlif vəzifələrdə işləmişdir. 43, 182, 203, 234, 394, 395, 405
Mejebovski: Bakıda həkim olmuşdur. 160, 186, 205, 225, 243, 264, 283, 310, 329, 348, 367, 386, 408, 428, 448, 468, 488, 514
Menelay (İskəndəriyyəli Menelay; 70-140): qədim yunan astronomu və riyaziyyatçısı. 98
Menelik II (1844-1913): 1889-1913-cü illərdə Həbəşistan imperatoru olmuşdur. 414, 429
Merderesku, George [Gheorghe Mărdărescu; 1866-1938]: Rumıniyanın hərbi xadimi; general-mayor. Macarıstan-Rumıniya müharibəsində (1919) Rumıniya ordusunun komandiri, 1922-1926-cı illərdə Rumıniyanın Hərbi naziri olmuşdur. 113, 134
Məcidzadə, Nisbət xanım: Ağdaşda qız məktəbi açmışdır. 405
Məğmumi, C.: "Azərbaycan" qəzetinə Xaçmazdan yazmışdır. 400
Məhəmməd (Molla Məhəmməd): Ağdaşlı. 346
Məhəmməd bin Musa: Orta əsrlərdə yaşamış tərcüməçi. 98
Məhəmməd bin Musa: Orta əsrlərdə yaşamış astronomiya və həndəsə alimi. 107
Məhəmməd Əmin (Molla Məhəmməd Əmin): Bakıda axund olmuşdur. 343
Məhəmməd İsmayıl oğlu (Hacı Məhəmməd Hacı İsmayıl oğlu). 366
Məhəmməd Məşhədi Həbib oğlu. 386
Məhəmməd Nağı oğlu: Azərbaycan ordusunun əsgəri. 476
Məhəmməd Rza: Xəlil paşanın (Xəlil Qut) silahdaşlarından olmuşdur; 1919-cu ildə İstanbulda edam edilmişdir. 5
Məhəmməd Səid paşa (1863-1928): Misirin dövlət xadimi; 1910-1914-cü illərdə və 1919-cu ildə Baş nazir olmuşdur. 501
Məhəmmədbəyli, Hüseyn Rza (yaxud Hüseynağa Məmmədbəyli, Hüseynağa Məmmədbəyov): jurnalist; "Azərbaycan" qəzetinin əməkdaşı olmuşdur. 234, 245
Məhəmmədbəyzadə: Bakıda müəllim olmuşdur. 407
Məhəmmədəfəndizadə: Göyçayda qazı olmuşdur. 40
Məhəmmədəli Bilgəhi (Molla Məhəmmədəli): Bakıda axund olmuşdur. 343
Məhəmmədəli Sadıq oğlu. 262
Məhəmmədəli şah Qacar (1872-1925): Qacarlar sülaləsindən İran şahı; 1907-1909-cu illərdə hakimiyyətdə olmuşdur. 419
Məhəmməd Əmin bəy (Hacı Molla Əhməd oğlu Əfəndizadə). 158, 159
Məhəmmədrəhim Atakişi oğlu: Hövsan kəndinin sakini. 326
Məhəmmədov: Bakı sakini; Melniçni (indiki Ağadadaş Qurbanov) küçəsində yaşamışdır. 23
Məhəmmədov, Abbasəli: bax. Məhəmmədzadə, Abbasəli.
Məhəmmədov, Müseyib: "Müsavat" partiyasının Salyan komitəsinin üzvü. 512
Məhəmmədov, Zeynal: Tiflisdə, İrəvan Həmtorpaqlıları Cəmiyyətinin katibi olmuşdur. 402
Məhəmmədzadə, Abbasəli: Ağdaş sakini. 346
Məhəmmədzadə, Əbdülvahab: bax. Yurdsevər, Əbdülvahab Məmmədzadə.





Məhəmmədzadə, Feyzulla: Qazax Seminariyasında təhsil almışdır. 21
Məhəmmədzadə, Heydər: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
Məhəmmədzadə, Həmid: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
Məhəmmədzadə, Həmid: Birinci Oğlanlar gimnaziyasının tələbəsi, Müsəlman Tələbələri İttifaqı Mərkəzi Komitəsinin sədri olmuşdur. 39, 43, 71, 124, 259
Məhəmmədzadə, Mirdaməd: Ramana fəhlələrinin fəallarından olmuşdur. 242, 263
Məhəmmədzadə, Mirzəbala (1898-1959): Azərbaycanın ictimai-siyasi xadimi, publisist və dramaturq. 1924-cü ildən mühacirətdə yaşamışdır. 71, 100, 124, 125, 199, 216, 299
Məhəmmədzadə, Seyid: Göyçay qazısı olmuşdur. 223
Məhərrəm Fakı oğlu: Bakı quberniyasında polis olmuşdur. 217
Məhməd II (Fateh; 1432-1481): Osmanlı sultanı. 1444-1446 və 1451-1481-ci illərdə hakimiyyətdə olmuşdur. İstanbulu fəth etdiyi üçün "Fateh" adıyla tanınmışdır. 455, 469
Məhməd Asım: bax. Us, Məhməd Asım.
Məhməd Cəlal (1867-1912): Türk şairi və yazıçısı. 69
Məhməd Əbdülhəlim əfəndi (1894-1926): Osmanlı şahzadəsi; şahzadə Süleyman Səlim əfəndinin oğlu; sultan Əbdülməcidin nəvəsi. 275, 285
Məhməd Əmin (Soyadı qanunundan sonra "Yurdaqul" soyadını qəbul etmişdir; 1869-1944): Osmanlı Məclisi-Məbusanının və Türkiyə Böyük Millət Məclisinin üzvü olmuşdur. 69, 120, 245
Məhməd Rauf (1875-1931): Türk yazıçısı. 69
Məqsud Mustafa oğlu: Balaxanıda fəhlə təşkilatının işində fəal iştirak etmişdir. 260
Məlik-Qaragözyan, Gevork (yaxud Georgi Məlik-Karakozov; 1873-1940): Ermənistanın ictimai-siyasi xadimi. Bir sıra qəzet və jurnalların redaktoru, Ermənistanın Maarif naziri olmuşdur. 447
Məlik-Movsesyans, Aşot: Ordubaddakı erməni quldur dəstələrinin başçılarından olmuşdur. 401, 402, 506
Məlik-Yeqanov, Cavad bəy (1878-1937): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 1919-cu ilin avqustundan 1920-ci ilin aprel ayına qədər Lənkəranın general-qubernatoru olmuşdur. 1930-cu ildə Sovet rejimi tərəfindən həbs edilmiş, 1937-ci ildə güllələnmişdir. 43, 115, 199, 243, 303
Məlikaslanov, Xudadad bəy (1879-1935): Azərbaycanın dövlət xadimi. Peterburqda mühəndislik təhsili almışdır. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti hökumətində Nəqliyyat və Rabitə naziri, Poçt və Teleqraf naziri kimi vəzifələr tutmuşdur. Cümhuriyyətin süqutundan sonra da bir sıra vəzifələrdə işləmişdir. Repressiyaya məruz qalmış və həbs düşərgəsində vəfat etmişdir. 242, 243, 263, 269, 485
Məlikheydər Cavad oğlu: Novxanı kəndi sakini. 404
Məlikov, Hüseyn (Məşhədi Hüseyn). 263
Məlikzadə, Məlikməhəmməd: müsəlman tələbə təşkilatlarının işində fəal iştirak etmişdir. 100, 241, 259
Məlikzadə, Süleyman: Müsəlman Tələbələri İttifaqının üzvü. 71, 124, 178, 259
Məmmədquluzadə, Cəlil (1869-1932): Azərbaycan yazıçısı və dramaturqu. 381, 490
Məmmədquluzadə, Həmidə xanım (1873-1955): maarifçi və xeyriyyəçi; Cəlil Məmmədquluzadənin həyat yoldaşı. 480, 490
Məmun (? - 833): Abbasi xəlifəsi; 813-833-cü illərdə hakimiyyətdə olmuşdur. 94, 95, 96, 98, 107, 149, 455, 469
Məngü (yaxud Mönkə): Monqol hökmdarı; Çingiz xanın nəvəsi. 1251-1259-cu illərdə hakimiyyətdə olmuşdur. 469

Məntəşə, Xəlil (1874-1948): Türkiyənin siyasi xadimi. "İttihad və Tərəqqi" partiyasının əsas fiqurlarından olmuşdur. Osmanlı Məclisi-Məbusanının sədri (1912-1915), Xarici İşlər naziri (1915-1917), Ədliyyə naziri (1917-1918) vəzifələrini tutmuşdur. 85
Mərdəkanlı Feyzulla Qasımzadə: bax. Qasımzadə, Feyzulla.
Məsudi, Əli ibn Hüseyn (896-956): Ərəb tarixçi, coğrafiyaşünas və səyyahı. 151
Məşhədi Baba oğlu: Mərdəkan kəndinin sakini. 308
Məşhədi Əliəsgər oğlu: Türkan kəndinin sakini. 308
Məşhədi Məcid Molla qızı: Ağdaşdakı qaçqınlardan olmuşdur. 132
Mətinüssəltənə: bax. Səqafi, Əbdülhəmid.
Mətləb Osman oğlu: Qusar sakini. 481
Mixaylov: tibb professoru. 22, 76, 105, 160, 205, 244, 284, 329, 348, 386, 428, 468
Mikaberidze. 103
Mikaladze. 144
Miller, Yevgeni-Lüdviq Karloviç (1867-1939): Rusiyanın hərbi xadimi. 1919-1920-ci illərdə Şimal vilayətinin general-qubernatoru və Şimal ordusunun Baş komandanı olmuşdur. 294
Miln, Corc [George Milne; 1866-1948]: Britaniyanın hərbi xadimi; feldmarşal. Birinci Dünya müharibəsindən dərhal sonra Balkanlarda və Qara dəniz regionunda Britaniya ordularının baş komandanı olmuşdur. 170
Milner, Alfred [Alfred Milner; 1854-1925]: Britaniyanın dövlət xadimi. Britaniyanın xarici və daxili siyasətinin formalaşmasında böyük rola malik olmuşdur. 316
Milyukov, Pavel Nikolayeviç (1859-1943): Rusiya siyasi xadimi, eyni zamanda tarixçi və publisist. Konstitusion-Demokratik Partiyanın (Kadetlər partiyası) liderlərindən biri idi. Müvəqqəti Hökumətdə (Rusiya) Xarici İşlər naziri olmuşdur. 441
Mirbağırov: Ağdamdan hökumətə teleqram göndərmişdir. 308
Mircəlal: Bakı sakini. 18
Mirəbdülvahab Mirbaba oğlu (Hacı Mirbaba oğlu): Şüvəlan sakini. 385
Mirfəttah: Xızının Qarabulaq kəndinin sakini. 288
Mirhəsən xan: Talış xanı olmuşdur. 457
Mirhəsənov: Çənbərəkənd məscidi vəqfinin sədri. 483
Mirhüseyn Seyid Süleyman oğlu: Maştağa sakini. 385
Miribrahimzadə, Mirmahmudxan: Balaxa-nıda, Moskva-Qafqaz Neft Şirkətində işləmişdir. 74
Miriyev, Mirsəttar: Salyan Realnı məktəbində oxumuşdur. 159
Mirovski, Qepner: tacir. 214
Mirsadıq: Xızının Qarabulaq kəndinin sakini. 288
Mirsəyyabzadə, Şahin: Azərbaycan Parlament İdarəsində məktub xidmətçisi olmuşdur. 288
Miryusif Mirməhəmməd oğlu: Maştağa sakini. 385
Mirzə: Gədəbəy zavodunda fəhlə. 380
Mirzə Cabbar bəy: axund; Cavanşir mahalının qazısı olmuşdur. 261
Mirzə Cəlil: bax. Məmmədquluzadə, Cəlil.
Mirzə Kiçik xan (1880-1921): İranlı inqilabçı və hərbi xadim; Cəngəlilər hərəkatının lideri olmuşdur. 35, 92, 194
Mirzə Mehdi Axund: Bakıda yaradılan könüllü "Yardım alayı"na mənsub olmuşdur. 305
Mirzə Mirhüseyn oğlu: Maştağa sakini. 385
Mirzəağa Mirzəbaba oğlu: Qala kəndi sakini. 404
Mirzəbaba Sultan oğlu (Kərbəlayi Mirzəbaba): Bakı sakini. 189
Mirzəcamalov, Hüseyn bəy Məhəmmədrəfi bəy oğlu (1890-1974): Azərbaycan Cümhuriyyəti Ziraət nazirinin katibi, Parlamentdə Qanun Layihələri şöbəsinin müdiri olmuşdur. Cümhuriyyətin süqutundan sonra maarif sahəsində çalışmış, 1921-1922-ci illərdə Türkiyəyə mühacirətə getmişdir. Türkiyədə "Yanar" soyadını qəbul etmişdir. 351
Mirzoyev, İvan Minayeviç (yaxud Ovanes Minasoviç Mirzoyan; ? - 1880): Erməni əsilli iş adamı. Bakıda neft sənayesinə sərmayə qoymuşdur. 260
Misrixanov, Ağabəy: Bakıda 6-cı sahənin pristavı olmuşdur. 257
Mişel: polkovnik; Bakıdakı İtaliya hərbi heyətinin başçısı olmuşdur. 292, 293
Mitrofanov: Bakı sakini. 163
Mollazadə, Zəbihulla: "Müsavat" partiyasının Salyan komitəsinin, Salyan Müəllimlər İttifaqı idarə heyətinin üzvü. 486, 513
Molyer [Molière; 1622-1673]: fransız dramaturqu; Qərbi Avropa ədə-biyyatında klassik komediya janrının banisi sayılır. Əsl adı Jan-Batist Poklen [Jean-Baptiste Poquelin] idi. 129
Monteqyo, Edvin Semuel [Edwin Samuel Montagu, 1879-1924]: Britaniyalı siyasətçi. 1917-1922-ci illərdə Hindistan İşləri naziri olmuşdur. 502
Morley: ingilis generalı. 252
Movses: Xankəndində yüzbaşı olmuşdur. 384
Möhsünzadə, Ağahəsən: İranlılar Maarif Cəmiyyətinin üzvü; Bakıda qənnadı mağazası olmuşdur. 425, 514
Möhsünzadə, Həsən: bax. Möhsünzadə, Ağahəsən.
Mötəsim (yaxud Mötəsimbillah): Abbasi xəlifəsi; 833-842-ci illərdə hakimiyyətdə olmuşdur. 456
Muxan: Qarabağda uryadnik olmuş erməni. 423, 424
Muxtarov, Murtuza (1855-1920): Azərbaycanlı sahibkar və xeyriyyəçi. 484
Muxtarova, Liza (Yelizaveta Tuqanova): Osetin zadəganlarından Aslanbek Tuqanovun qızı, Murtuza Muxtarovun həyat yoldaşı. 438
Muxtarüssəltənə: Fars qoşunları komandanı. 35
Muradzadə, Məhəmməd. 68
Murt. 148
Murtuza Əbdülxalıq oğlu: Nügədi kəndinin sakini. 481
Murtuzaqulu xan: İsfahan Bəxtiyarilərinin liderlərindən olmuşdur. 35
Musa bin Xalid: Orta əsrlərdə yaşamış tərcüməçi. 95
Musa bin Şakir: Abbasi xəlifəsi Məmun dövründə (IX əsr) yaşamış münəccim. 96, 107
Musabəyov, Süleyman bəy Mehdi bəy oğlu (1866-1949): Bakı qubernatoru dəftərxanasının müdiri; Mərkəzi Hərbi Çağırış İdarəsinin müdiri olmuşdur. 444
Musalayev: Dağlılar Respublikasının Hərbi naziri olmuşdur. 173
Mustafa Dərgahqulu oğlu: Balaxanıda fəhlə təşkilatının işində fəal iştirak etmişdir. 260
Mustafa Kamal paşa. 418
Mustafa Səbri əfəndi (1869-1954): Osmanlı dövlətinin ictimai-siyasi xadimi; "Hürriyyət və Etilaf" partiyasının qurucularından. Məclisi-Məbusan üzvü idi. 1919-1920-ci illərdə Osmanlı şeyxülislamı olmuşdur. 501
Mustafayev, Vəli: "Azərbaycan" qəzetinə Qazaxdan yazmışdır. 204
Mustafazadə, Azaq: Cümhuriyyət dövründə Şəki Bələdiyyə İdarəsinin sədri olmuşdur. 40, 156
Mustafazadə, Əliməhəmməd: maarif xadimi; Müsəlman Müəllimlər İttifaqının üzvü olmuşdur. 407
Mustafazadə, Mirvat. 514
Müəllim Naci (1849-1893): Türk şair və yazıçısı; "Lüğəti-Naci" adlı osmanlıca lüğətinin müəllifi. 69
Müfidə Fərid: bax. Tək, Müfidə Fərid.
Müftüoğlu, Əhməd Hikmət (1870-1927): Türk yazıçısı. 69

Müftüzadə, Səlahəddin: Bakıda müəllim olmuşdur. 407
Mühiddin: XX əsrin əvvəllərində Üsküdar Sultani məktəbində ədəbiyyat və fəlsəfə müəllimi olmuşdur. 69
Müqəddəsi, Şəmsəddin (yaxud Məqdisi): X əsrdə yaşamış ərəb coğrafiyaşünası və səyyahı. 453
Münəkkih: Abbasilər dövründə hind dilindən ərəb dilinə tərcümələrin müəllifi olan alim. 95, 148
Mürsəl paşa (Mürsəl Bakü; 1881-1945): Türkiyənin hərbi və siyasi xa-dimi. Qafqaz İslam Ordusu ilə birlikdə Bakının azad edilməsi hərəkatında iştirak etmişdir. Türk Qurtuluş Savaşında iştirak etmiş, İzmirə daxil olan ilk türk generalı olmuşdur. Müharibədən sonra Türkiyə Böyük Millət Məclisinin üzvü seçilmişdir. Soyadı qanunu çıxdıqdan sonra “Bakü” soyadını qəbul etmişdir. 363
Mürsəlzadə, Piri: “Müsavat” üzvü. 17, 72, 258, 304, 329
Müseyib xan Təkəli: sərkərdə və şair (XVI əsr). 457
Müzəffərov, Hüseyn: Azərbaycanda fəhlə hərəkatının fəal iştirakçılarından olmuşdur. 115, 304
Müznib, Əliabbas (Mütəllibzadə; 1883-1938): Azərbaycan yazıçısı və jurnalisti. Eyni zamanda ədəbiyyatşünas və tərcüməçi kimi də fəaliyyət göstərmişdir. 98, 152
Nadir şah Əfşar (1688-1747): Əfşarlar sülaləsinin banisi və Əfşarlar dövlətinin I şahı; 1736-1747-ci illərdə hakimiyyətdə olmuşdur. 455
Naxçıvanski, Cəfərqulu xan Kəlbəli xan oğlu (1859-1929): Azərbaycanın ictimai-siyasi xadimi. 82, 83, 107
Naxçıvanski, Davud xan Cəfərqulu xan oğlu. 82
Naxçıvanski, Xanlar xan: Azərbaycan Cümhuriyyətinin İrəvandakı hərbi attaşesi olmuşdur. 82
Naxçıvanski, Kəlbəli xan Cəfərqulu xan oğlu (1891-1931): Rusiyanın və Azərbaycanın hərbi xadimi. Araz Türk Cümhuriyyəti ordusunun komandanı olmuşdur. 82, 83, 84, 107
Naibov: Ağdamdan hökumətə teleqram göndərmişdir. 308
Nakaidze. 103
Naqiyə xanım: bax. Elgün, Naqiyə.
Namiq Kamal (1840-1888): Türk şair, dramaturq və ictimai xadimi. “Hürriyyət şairi” kimi tanınmışdır. Türk ədəbiyyatı və siyasi mühiti üzərində böyük təsirə malik olmuşdur. 162
Naneyşvili: Gürcüstanın hərbi xadimi; general. 406
Nanə Məhəmməd qızı: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
Nanə Məhəmməd qızı (Məşhədi Məhəmməd qızı): Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
Nemanzadə, Ömər Faiq (1872-1937): Azərbaycanın publisist və pedaqoqu; ictimai-siyasi xadimi. Milliyyətcə Axıska türküdür. 47, 57, 84, 240, 381, 383, 388, 495
Nəcməddin (Şeyx Nəcməddin): imam; Dağıstanın ictimai-siyasi xadimi. 228, 381
Nəsrulla xan (1874-1920): Əfqanıstan əmiri. 21-28 fevral 1919-cu ildə bir həftə hakimiyyətdə olmuşdur. 34
Nəsrulla Şahbaba oğlu (Molla Şahbaba oğlu): Qusar sakini. 481
Nikolay II (1868-1918): Rusiya imperatoru; 1894-1917-ci illərdə hakimiyyətdə olmuşdur. 10, 38, 82, 116, 118, 121, 202, 203, 288, 310, 375, 382, 508
Nikomaxus (Gerasalı; 60-120): qədim yunan filosofu, riyaziyyatçısı və musiqi nəzəriyyəçisi. 148
Nikomaks Cərəsi (yaxud Nikomaxs Cərəşi): bax. Nikomaxus (Gerasalı).
Nisbət xanım Qəni əfəndi qızı: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
Nodiya, Vasili Georgiyeviç (1891-1924): Gürcüstan Təsisçilər Məclinin üzvü olmuşdur. 141, 142, 145
Norris [David Norris; 1875-1937]: ingilis admiralı; Xəzər dənizindəki ingilis donanmasının komandanı olmuşdur. 44
Noske, Qustav [Gustav Noske; 1868-1946]: Almaniyanın siyasi xadimi; sosial-demokrat. 1919-1920-ci illərdə Müdafiə naziri olmuşdur. 417, 459
Novikov: Qaqra şəhərinin komendantı olmuşdur. 224
Nuhbala, Məlikheydər oğlu: Novxanı kəndi sakini. 404
Nuri, Fəzlullah (yaxud Şeyx Fəzlullah; 1843-1909): İranın ruhani xadimi. İslam dininə zidd olduğu iddiası ilə İranda Məşrutiyyət rejiminə qarşı çıxmışdır. 383, 388
Nuri paşa (Killigil; 1889-1949): Osmanlı ordusunun general-leytenantı. Qafqaz İslam Ordusunun komandanı olmuşdur. 361, 363
Nurməhəmməd əfəndi: Şəki ruhanilərindən. 156
Nuşirəvan (yaxud Ənuşirvan; ? - 579): Sasani hökmdarı; 531-579-cu illərdə hakimiyyətdə olmuşdur. Şərq ədəbiyyatında “Adil Nuşirəvan” kimi tanınmışdır. 299
Nüsrət Həzrətqulu oğlu: Mərdəkanlı. 367
Odişelidze, İlya Zuraboviç (1865-1925): Gürcüstanın hərbi xadimi; general-leytenant. Gürcüstan ordularının Baş komandanı olmuşdur. 394, 395
Oğuz xan: Oğuz türklərinin əcdadı olaraq qəbul edilən, yarı-əfsanəvi türk hökmdarı. 455
Oklidos: bax. Evklid.
Olcaytu xan: 1304-1316-cı illərdə Elxanlı hökmdarı olmuşdur. 456
Oribasius: IV əsrdə yaşamış yunan həkimi. 98
Orlando, Vittorio Emanuele [Vittorio Emanuele Orlando; 1860-1952]: İtaliyanın siyasi xadimi; 1917-1919-cu illərdə Baş nazir olmuşdur. 3, 31, 84, 85, 187, 335, 436, 474
Orlov, K. A. 386
Osipov, Babacan: Bakı sakini. 326
Osman I (Osman Qazi; 1258-1324): 1299-cu ildə Osmanlı dövlətini qurmuşdur. 120
Osman Dəməşqi: bax. Əbu Osman Dəməşqi.
Ozanyan, Andranik (1865-1927): Erməni hərbçi. Daşnaksutyun partiyasının üzvü idi. Başçılıq etdiyi silahlı dəstələr Qarabağda, Zəngəzurdə və Türkiyənin şərqində dinc əhaliyə qarşı törədilən qırğınlarda xüsusilə fəal iştirak etmişdir. 343, 506
Ömər Seyfəddin (1884-1920): Türk yazıçısı. 69
P. M.-də: “Azərbaycan” qəzetində imza. 484
Paşababayev, İbrahim: Poçt və Teleqraf Nazirliyində işləmişdir. 352
Paşabəyov, Fərəc bəy: Qutqaşen Poçt və Teleqraf idarəsinin müdiri olmuşdur. 352
Paşazadə, Camal: Parlament İdarəsində dəftərdar (qeydiyyat məmuru) olmuşdur. 27, 288
Paşazadə, Həmid (Məşhədi Həmid): Bakıda yaşayan İranlılardan, “Müsavat” üzvü. 115, 125, 511, 512
Pekarski: Bakıda işləmiş polyak əsilli mühəndis. 481
Pepinov, Əhməd bəy (yaxud Əhməd Cövdət Pepinov; 1893-1937): Azərbaycanın ictimai-siyasi xadimi; Azərbaycan Parlamentinin üzvü olmuş, Əmək və Əkinçilik naziri vəzifəsini tutmuşdur. Sovet rejimi tərəfindən güllələnmişdir (ayrıca bax: Axıskalı). 210, 248, 303, 351, 496
Pepinov, Zəki: Axıska Müsəlman Tələbələr Komitəsinin sədri olmuşdur. 100, 124, 125, 241, 259
Pernik: Bakıda həkim olmuşdur. 75, 105, 133, 160, 186, 205, 225, 243, 264, 283, 310, 329, 348, 367, 386, 408, 428, 448, 468, 488, 514
Perşinq, Con [John Pershing; 1860-1948]: Amerikanın hərbi xadimi; general. 3
Perşko: Sosial Təminat Nazirliyinin müfət-

tişi olmuşdur. 7
Petlyura, Simon Vasilyeviç (1879-1926): Ukraynanın siyasi və hərbi xadimi. Ukrayna Xalq Respublikası Direktoriyasının rəhbərlərindən olmuşdur. 350
Petrosyan, Vahan. 59
Pənah (Molla Pənah): Xızının mollası olmuşdur. 288
Pifaqor (e. ə. 570 – e. ə. 490): qədim yunan filosofu, riyaziyyatçısı və musiqi nəzəriyyatçısı. 148
Piletski, İvan Andreyeviç: Poçt və Teleqraf Nazirliyi dəftərxanasında işləmişdir. 352
Pines: Bakıda qadın həkimi olmuşdur. 75, 105, 133, 160, 186, 205, 225, 243, 264, 283, 310, 329, 348, 367, 386, 408, 428, 448, 468, 488, 514
Pişnamazzadə, Axund Məhəmməd (1853-1937): din xadimi. Təhsilini Gəncə və Təbrizdə almış, Rusiya əleyhində təbliğatda günahlandırılaraq çar rejimi tərəfindən Türküstana sürgün edilmişdir. 1909-cu ildə Qafqaz müsəlmanlarının şeyxülislamı olmuş (bu vəzifəyə rəsmi olaraq 1915-ci ildə təsdiq edilmişdir) və 10 dekabr 1918-ci ildə səhhətinə görə öz xahişi ilə azad edilənə qədər vəzifədə qalmışdır. Maarifçilik və xeyriyyəçilik sahəsində də xidmətləri olan Pişnamazzadə 1937-ci ildə Gəncədə vəfat etmişdir. 363
Pişnamazzadə, Ş. K. 507
Pişon, Stefan [Stéphen Pichon; 1857-1933]: Fransanın siyasi xadimi. 1906-1911-ci illərdə Xarici İşlər naziri olmuşdur. Birinci Dünya müharibəsinin sonlarında və Paris Sülh Konfransı dövründə aktiv fəaliyyəti ilə diqqəti cəlb etmişdir. 86, 224, 335, 503
Platon: e. ə. V-IV əsrlərdə yaşamış qədim yunan filosofu. 97, 108
Prins Sədrəddin: bax. Qacar, Sədrəddin Mirzə.
Prins Spoleto-de-Savoya: Qafqazdakı İtaliya hərbi heyətinin rəhbəri olmuşdur. 403
Podşibyakin, Mixail Floroviç (1883-1963): Litvada anadan olmuş, Peterburq Universitetinin Tarix-Filoloji və Hüquq fakültələrini bitirmişdir. Bakı məktəblərində işləmiş, mətbuatda çıxış etmişdir. Kadetlər partiyasının üzvü olmuşdur. Cümhuriyyətin süqutundan sonra Azərbaycanı tərk etmişdir. 39
Poqos Nubar paşa (1851-1930): Osmanlı dövlətində yaşayan ermənilərin siyasi təşkilatı olan Erməni Millət Məclisinin və Ümumi Erməni Xeyriyyə İttifaqının sədri olmuşdur. 447, 466, 467
Pol, Liyen: ingilis tarixçisi. 151
Poladzadə, Əbdülhəsən: Müsəlman Tələbələri İttifaqının üzvü olmuşdur. 241
Poladzadə, Əsgər (Axund Hacı Əsgər Hacı Məhəmməd oğlu Poladzadə; 1870-1953): müəllim və ruhani; Gəncə məktəblərində tarix, şəriət, ərəb və fars dili dərsləri vermiş, Zaqafqaziya Şiə Ruhani İdarəsinin üzvü olmuşdur. 47
Popov: Rusiyanın hərbi xadimi; general. 444
Ptolomey: II əsrdə yaşamış astronomiya, riyaziyyat və mexanika alimi. 98
Puankare, Raymon [Raymond Poincaré; 1860-1934]: Fransanın dövlət xadimi. 1912-1913-cü illərdə Baş nazir və Xarici İşlər naziri, 1913-1920-ci illərdə Prezident, 1922-1924-cü illərdə yenidən Baş nazir və Xarici İşlər naziri olmuşdur. 414
Rabinoviç: Bakıda fəaliyyət göstərmiş uşaq doktoru. 75, 105, 133, 160, 186, 205, 225, 243, 264, 283, 310, 329, 348, 367, 386, 408, 428, 448, 468, 488, 514
Rakovski, xristian Georgiyeviç (1873-1941): Ukrayna Xalq Komissarları Sovetinin sədri (1919, 1920-1923), SSRİ-nin Britaniyada (1923-1925) və Fransada (1925-1927) səlahiyyətli nümayəndəsi olmuşdur. 419
Ramanalı: "Azərbaycan" qəzetində imza. 243
Ramazan: öz dəstəsi ilə Lənkəran və ətrafında fəaliyyət göstərmişdir. 425





Ramişvili, Noy Vissarionoviç (1881-1930): Gürcüstanın dövlət xadimi. Menşevik. Ruhani seminariyasını bitirmiş, yarımçıq hüquq təhsili almışdır. Zaqafqaziya Demokratik Federativ Respublikasının Daxili İşlər naziri, Gürcüstan Demokratik Respublikasının Baş Naziri, eyni zamanda Daxili İşlər naziri, daha sonra Xarici İşlər naziri olmuşdur. 103, 144, 394, 395
Rantsau: bax. Brokdorf-Rantsau.
Rasizadə, Hüseyn Cavid (1882-1941): Azərbaycanın görkəmli dramaturqu, yazıçısı və şairi. 187
Rasputin, Qriqori Yefimoviç (1869-1916): Rusiya imperatoru II Nikolayın ailə dostu kimi şöhrət qazanmış Sibir kəndlisi. 383, 388
Rauf bəy: 1919-cu ildə İstanbulda edam edilmişdir. 5
Redinq: bax. Redinq markizi, I.
Redinq markizi, I: bax. Ayzeks, Rufus.
Renner, Karl [Karl Renner; 1870-1950]: Avstriyanın siyasi xadimi. 1918-1920-ci illərdə Avstriya hökumətinin sədri olmuşdur. 193
Reyhan İslam qızı: Bakı sakini; uşaq. 185
Reynelend. 173
Rəcaizadə Əkrəm (Rəcaizadə Mahmud Əkrəm; 1847-1914): Türk şair və yazıçısı. 69
Rəcəbəli: İranda quldurluqla məşğul olmuşdur. 92, 107
Rəcəbli: "Azərbaycan" qəzetində imza. 12
Rəcəbov, Cəfər M. Saleh oğlu. 386
Rəcəbov, Məcid: Salyanda Mal Mübadiləsi Komissiyasının sədri olmuşdur. 261
Rəfibəyli, Cavad bəy Hadı bəy oğlu (1890-1956): Azərbaycanın maarif xadimi. Ölkənin müxtəlif orta və ali məktəblərində dərs demişdir. 62
Rəfibəyli, Xudadad bəy (1877-1920): Azərbaycanın dövlət xadimi. Xarkov Universitetinin Tibb fakültəsini bitirmiş, həkim işləmişdir. Azərbaycan Cümhuriyyəti Hökumətində Xalq Səhiyyə naziri vəzifəsini tutmuşdur. Gəncə qubernatoru olduğu dövrdə erməni quldurlarının dinc əhaliyə qarşı törətdikləri soyqırımın qarşısının alınmasında böyük rol oynamışdır. Cümhuriyyətin süqutundan sonra bolşeviklər tərəfindən güllələnmişdir. 47
Rəfibəyov, Cavad bəy: bax. Rəfibəyli, Cavad bəy.
Rəfibəyov, Əyyub bəy (yaxud Əyyub Sayqın; 1890-1979): Gəncənin pristavı, Şəkinin qəza rəisi olmuşdur. Aprel işğalından sonra Türkiyəyə köçmüşdür. Türkiyədə "Sayqın" soyadını daşımışdır. 156
Rəfiq Xalid: bax. Karay, Rəfiq Xalid.
Rəfiyev, Məşhədi Əli (1886-1948): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi və xeyriyyəçi. "Müsavat" partiyasının Gəncə şöbəsinin sədri, Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin aktiv üzvlərindən olmuşdur. 1920-ci ildə Türkiyəyə mühacirət etmişdir. 40, 363
Rəfiyev, Musa bəy (1888-1938): Azərbaycanın dövlət xadimi. Xarkov Universitetinin Tibb fakültəsini bitirmiş, həkim işləmişdir. Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində portfelsiz nazir, Səhiyyə və Sosial Təminat naziri kimi vəzifələr tutmuşdur. Cümhuriyyətin süqutundan sonra mühacirətə getmişdir. 23, 50, 75, 105, 132, 159, 185, 204, 225, 244, 263, 283, 311, 329, 349, 367, 387
Rəfizadə, Yunis: "Müsavat" üzvü. 115
Rəhim əfəndi: Müsəlman Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 184, 222
Rəhimli, Rəsul: Azərbaycan Cümhuriyyəti Poçt və Teleqraf Nazirliyində kargüzar işləmişdir. 333, 352, 372, 392, 412
Rəsulzadə, Abutalıb: Ramana kəndinin yüzbaşısı; Kəndçilər İttifaqı Ramana şöbəsinin üzvü. 49, 242
Rəsulzadə, Ağa (Molla Ağa): Bakıda axund olmuşdur. 343
Rəsulzadə, Məhəmməd Əmin (1884-

1955): Azərbaycanın görkəmli dövlət xadimi, Cümhuriyyətin qurucularından biri. Azərbaycan Milli Şurasının və "Müsavat" partiyasının sədri; eyni zamanda jurnalist və publisist. 14, 119, 120, 242, 243, 249, 303, 305, 453, 457, 498

Rəşid Akif paşa (1863-1920): Türkiyənin siyasi xadimi. Daxili İşlər naziri, Dövlət Şurası rəisi olmuşdur. 176

Rəşid paşa. 30

Rəşid Nəsrulla oğlu. 427

Rəşidəddin, Fəzlullah (? - 1318): Elxanlıların dövlət xadimi, alimi və tarixçisi. 456

Rodriges, Maria. 66

Romanko-Romanovski, Boris Stefanoviç (1870-1941): Rusiyanın hərbi xadimi; general-mayor. 1909-1916-cı illərdə Batum vilayətinin hərbi qubernatoru olmuşdur. Mühacirətə getmişdir. 141, 346, 374, 375

Ronsil: Nasosnı stansiyasında mühəndis olmuşdur. 240

Rotşild. 125

Rotşild, Layonel [Lionel Rothschild; 1868-1937]: Britaniyalı bankir və siyasətçi. Britaniya yəhudi icmasının nümayəndəsi. 345

Ruben: 1919-cu ildə təxribat məqsədi ilə Ermənistandan Qarabağa göndərilmişdir. 180

Rufus (Efesli Rufus): I əsrdə yaşamış yunan həkimi. 98

Rusov: doktor. 117

Rüstəm Abbas oğlu (Məşhədi Rüstəm): Balaxanıda, Moskva-Qafqaz Neft Şirkətində işləmişdir. 74, 79

Rüstəm Rza oğlu. 488

Rüstəmbəyov, Baxış bəy Əsəd bəy oğlu (1870-1942): Petroqrad Texnologiya İnstitutunu bitirmişdir. Abşeronda neft mədənlərində müdir və mühəndis kimi işləmiş, Azərbaycan Balıq Vətəgələri İdarəsinin müdiri olmuşdur. Cavad qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Sovet dövründə xalq təsərrüfatının müxtəlif sahələrində çalışmışdır. 159

Rüstəmov, Məhəmməd: "Azərbaycan" qəzetinə Zaqataladan yazmışdır. 365

Ryumin: Azərbaycan Cümhuriyyətinin Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində [Sosial Təminat Nazirliyində] işləmişdir. 115

Rza paşa: Türkiyənin hərbi və siyasi xadimi; general. 176

Rzaqulu. 303

Rzaqulu xan Hidayət (Lələbaşı; 1800-1871): İran şairi və tarihçisi. 453

Rzaqulu xan Lələbaşı: bax. Rzaqulu xan Hidayət.

Rzayev Mirəlinağı. 185

S. Nuri: "Azərbaycan" qəzetində imza. 117

Sabikov: Gədəbəy zavodu fəhlə komitəsinin sədri. 379

Sabit bin Qürrə (? - 901): IX əsrdə yaşamış riyaziyyat və astronomiya alimi, həkim və tərcüməçi. 96, 97

Sadıq: Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 184

Sadıq Əmanulla oğlu: Bakının Nardaran kəndinin sakini. 326

Sadıq Qafar oğlu (Hacı Qafar oğlu): Bakı sakini. 183

Sadıqov: Ağdamdan hökumətə teleqram göndərmişdir. 308

Sadıqzadə, Ümmügülsüm Əbdüləziz qızı (1899-1944): Azərbaycanlı şairə. 221

Sadiq bəy Əfşar (1533-1610): Azərbaycan rəssamı və şairi; "Məcməül-xəvas" adlı təzkirənin müəllifi. 457, 469

Saks: bolşevik, gəmi kapitanı. 175

Salar Əşrəf: İranda Rəşt şəhərinin polis müavini olmuşdur. 35

Saleh bin Bəhlə: Hind alimi. 148

Sam Mirzə (1518-1567): Səfəvi şahzadəsi; Şah İsmayıl Xətainin oğlu; "Töhfeyi-Sami" adlı şairlər təzkirəsinin müəllifi. 469

Sami Paşazadə Səzai (1859-1936): Türk yazıçısı. 69

San-Fransua de-Sal [Saint François de Sales; 1567-1622]: əxlaq və mənəviyyat haqqında kitabları ilə tanınmış katolik ruhanisi. 129

Sander: Bakıda həkim olmuşdur. 75, 105, 133, 160, 186, 205, 225, 243, 264, 283, 310, 329, 348, 367, 386, 408, 428, 448, 468, 488, 514

Sanders: Britaniya ordusunun zabiti; polkovnik. 474

Sarablı, Hüseynqulu (yaxud Hüseynqulu Rzayev; 1879-1945): Azərbaycan aktyoru. Azərbaycan Cümhuriyyətinin mədəni həyatında fəal iştirak edən Sarablının, Azərbaycan teatrının, eləcə də musiqisinin inkişafında misilsiz xidmətləri olmuşdur. 15, 16, 471

Sarabski: bax. Sarablı, Hüseynqulu.

Savileviç: Bakıda fəhlə olmuşdur. 1919-cu ilin may ayında ümumi tətildə iştirak etdiyi üçün həbs edilmişdir. 420

Savinkov, Boris Viktoroviç (1879-1925): Rusiyanın siyasi xadimi. Sosialist-İnqilabçılar partiyasının liderlərindən biri olmuşdur. Bolşeviklərə qarşı mübarizədə kömək almaq məqsədi ilə Antanta hökumətləri ilə danışıqlar aparmışdır. 232

Savitski, İppolit Viktoroviç (1863-1941): Rusiyanın hərbi xadimi; general-leytenant. Rusiyada Vətəndaş müharibəsi illərində Cənubi Rusiya Silahlı Qüvvələri tərkibində Türküstan ordusunun komandiri olmuşdur. 220

Says: Oksford Universitetinin professoru. 455

Sazonov, Sergey Dmitriyeviç (1860-1927): Rusiyanın diplomatı. Bir sıra ölkələrdə səfir kimi işləmiş, 1910-1916-cı illərdə Xarici İşlər naziri olmuşdur. Rusiyanın cənubunda Xüsusi Şura Hökumətinin tərkibində yer almışdır. Mühacirətdə ölmüşdür. 441, 508

Serebryakov: Rusiyada Vətəndaş müharibəsi dövründə kabardin dəstələrinin komandiri olmuşdur. 296

Sereteli, İrakli Georgiyeviç (1881-1959): Rusiya və Gürcüstanın siyasi xadimi. Rusiya imperiyası II Dövlət Dumasının üzvü olmuşdur. Gürcüstanın müstəqillik atkını imzalayanlardan biri idi. Gürcüstan Demokratik Respublikasının və Gürcüstan Sosial-Demokrat Partiyasının liderləri arasında yer almışdır. Gürcüstan tərəfindən Paris Sülh Konfransında iştirak edən nümayəndə heyətində olmuşdur. 1921-ci ildən mühacirətdə yaşamışdır. 282

Sergeyev V. A. 367

Sergeyev, Yevgeni: Azərbaycan dövləti əleyhinə cinayət işlədiyi için ölkədən qovulmuşdur. 123

Seyid Hüseyn Sadiq (1887-1938): Azərbaycan yazıçısı, müəllimi, jurnalisti və naşiri. Sovet rejimi tərəfindən güllələnmişdir. 287

Seyidməhəmmədzazdə: Göyçayda qazı olmuşdur. 40

Seyidov, A.: Bakıda həkim olmuşdur. 75, 105, 133, 160, 186, 205, 225, 243, 264, 283, 310, 329, 348, 367, 386, 408, 428, 448, 468, 488, 514

Seyidov, Əli bəy: həkim; Azərbaycan Parlamenti Qorucu bölüyünün həkimi olmuşdur. 287

Seyidov, Seyidəli: doktor; Bakı və Ətrafının Müsəlman Ziyalıları İttifaqının sədri olmuşdur. 258

Seyidova, S.: Bakıda qadın həkimi olmuşdur. 75, 105, 133, 160, 186, 205, 225, 243, 264, 283, 310, 329, 348, 367, 386, 408, 428, 448, 468, 488, 514

Seyidzadə, Bədrəddin (yaxud Mir Bədrəddin Seyidzadə; 1882-1945): Azərbaycan şairi. 441

Sədi Şirazi: XIII əsrdə yaşamış fars şairi. 78

Səfdər bəy: Bakıda fəhlə təşkilatlarının işində fəal iştirak etmişdir. 115

Səftər bəy: Şamaxılı. 366

Səfərəlibəyzadə, Baba bəy: Müsəlman Müəllimlər İttifaqının üzvü olmuşdur. 218

Səfərəlibəyzadə, Mehdi bəy: Bakıda müəllim olmuşdur. 407

Səfərəliyev, Hüseyn (Məşhədi Hüseyn):

Ramanada Şəmsi Əsədullayevin mədənində müdir olmuşdur. 263
Səfikürdlü, Ağalar bəy: bax. Səfikürdski, Ağalar bəy
Səfikürdlü, Aslan bəy: bax. Səfikürdski, Aslan bəy.
Səfikürdski, Ağalar bəy (1890-1966): Gəncə həbsxanasının həkimi; "İttihad" partiyasının Gəncə şöbəsinin qurucularından olmuşdur. 363
Səfikürdski, Aslan bəy (yaxud Səfikürdlü, 1881-1937): Azərbaycanın dövlət xadimi. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının və Azərbaycan Parlamentinin üzvü olmuş, 3-cü hökumət kabinəsində Poçt-Teleqraf və Əmək naziri, 4-cü kabinədə Ədliyyə və Əmək naziri vəzifələrini tutmuşdur. 17, 182, 241, 269, 304, 392, 506
Səhab Solsəttar qızı: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
Səid Zahidulla paşa: Misir vəziri. 6
Səidülvüzəra: bax. Marağayi.
Səkinə Abdulla qızı: Ağdaşdakı qaçqınlardan olmuşdur. 132
Səqafi, Əbdülhəmid (Mətinüssəltənə): İranlı qəzet naşiri; "Əsri-cədid" qəzetinin redaktoru. 455, 469
Səlim I (Yavuz; 1470-1520): Osmanlı sultanı; 1512-1520-ci illərdə hakimiyyətdə olmuşdur. 455, 469
Səmədəfəndizadə, Yusif (Molla Yusif): Kürdəmir sakini. 101
Səmədov, Əbdüssalam: "Müsavat" partiyasının Salyan komitəsinin üzvü. 512, 513
Səncəhl: Hind alimi. 148
Səndbaz: hind təbibi. 148
Sərcis ər-Rəsi: Orta əsrlərdə yaşamış tərcüməçi. 95
Sərdar Əsəd II (Əliqulu xan Bəxtiyari; 1856-1917): Bəxtiyarilərin liderlərindən olmuşdur. 35
Sərdar Zəfər: İsfahan Bəxtiyarilərinin liderlərindən olmuşdur. 35
Səyyadi, Əbülhüda (1850-1909): Rufai təriqəti şeyxi. Özü və yaxın qohumları Osmanlı imperiyasında yüksək vəzifələr və dövlət nişanları ilə mükafatlandırılmışdır. Cadugərlik, falçılıq və s. ilə məşğul olduğu da iddia edilirdi. 383, 388
Səyyah: Nəsrəddin. 346
Sidov, Qriqori: Azərbaycan dövləti əleyhinə cinayət işlədiyi için ölkədən qovulmuşdur. 123
Silikov, Movses Mixayloviç (yaxud Silikyan; 1862-1937): Rus ordusunun general-mayoru, Qafqaz cəbhəsində xidmət etmişdir. Daha sonra Ermənistan ordusunda xidmət etmiş, 1937-ci ildə güllələnmişdir. 196
Simonyan: erməni mühəndisi. 128
Sinha, Satyendra Prasanna [Satyendra Prasanna Sinha; 1863-1928]: Hindistanlı hüquqşünas və dövlət xadimi. Böyük Britaniyanın Hindistan İşləri naziri Monteqyonun müavini (1919-1920) olmuşdur. 502
Siparidze: Ərkivan sakini. 99
Sipol, Alfred Davidoviç: Bakıda riyaziyyat müəllimi, gimnaziya direktoru olmuşdur. 220
Skoropadski, Pavel Petroviç (1873-1945): Rusiya və Ukraynanın hərbi-siyasi xadimi, general-leytenant. Rus ordusunun zabiti kimi Rus-yapon müharibəsində və Birinci Dünya müharibəsində iştirak etmişdir. 1917-ci il inqilabından sonra Ukrayna Mərkəzi Radasının hakimiyyətini qəbul etmiş, 27 aprel 1918-ci ildə bütün Ukraynanın getmanı, yəni Ukrayna Dövlətinin (İkinci Getmanlıq) başçısı seçilmiş və 14 dekabr 1918-ci il tarixinə qədər bu vəzifəni tutmuşdur. Getmanlıq rejiminin aradan qaldırılmasından sonra Almaniyaya mühacirətə getmişdir. 415
Sokolov, Georgi: Quba poçt və teleqraf bürosunun müdiri olmuşdur. 333
Sonnino, Sidney [Sidney Sonnino; 1847-1922]: İtaliyanın siyasi xadimi. 1906-cı ildə və 1909-1910-cu illərdə Baş nazir olmuşdur. 1914-1919-cu illərdə Xarici İşlər naziri idi. 31, 335, 377
Söyləməzoğlu, Qalib Kamali (1873-1960):





Türk diplomatı. 502
Spaqarov, Georgi. 481
Starınkeviç, Sergey Sozontoviç (1874-1933): Rusiyanın siyasi xadimi. Ümumrusiya Hökumətinin Ədliyyə naziri (1918-1919) olmuşdur. 503
Stepanov: Zakaspiysk Hökumətinin Azərbaycandakı siyasi nümayəndəsi olmuşdur. 360
Stepanov: Bakıda asayişi pozmaqda günahlandırılaraq həbs edilmişdir. 42
Subutay (yaxud Sabutay; 1175-1248): Çingiz xanın sərkərdələrindən olmuşdur. Qafqaz səfərində Cebe ilə birgə monqol ordularının sərkərdəsi idi. 456
Suxorukov, V. D.: Muğanda yaradılan diktatura hökumətinin (Beşlər diktaturasının) başçısı olmuşdur. 484, 487
Sulkeviç, Süleyman bəy (Məmməd bəy Sulkeviç; Matvey Aleksandroviç Sulkeviç; 1865-1920): Rusiyanın, Krımın və Azərbaycanın hərbi xadimi. Mənşəcə tatardır. Rus ordusunda xidmət etmiş, Krımda yaradılan Krım-Tatar Hökumətinin sədri olmuş, bu hökumətin Denikin tərəfindən aradan qaldırılmasından sonra Azərbaycana gəlmişdir. Azərbaycan Cümhuriyyəti Ordusunun Baş qərargah rəisi olmuş, milli ordu quruculuğuna böyük töhfə vermişdir. Cümhuriyyətin süqutundan sonra güllələnmişdir. 394, 395
Sultan Əhməd şah Qacar (1898-1930): Qacar nəslindən İran şahı; 1909-1925-ci illərdə hakimiyyətdə olmuşdur. 409
Sultan Fərzəli oğlu: Qusar sakini. 481
Sultan Məşhədi Qara bəy: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
Sultanov: Ticarət və Sənaye Nazirliyinin müvəkkili olmuşdur. 200
Sultanov, Ağabəy (Hacı Ağabəy): Şüvəlan sakini. 132
Sultanov, Əlisultan Mirzəbaba oğlu: Bakı sakini. 189
Sultanov, Harun bəy: Şəki Sosial təminat dairə müfəttişi. 156
Sultanov, Xosrov bəy (1879-1943): Azərbaycan Cümhuriyyətinin siyasi və hərbi xadimi. Azərbaycanın İstiqlal Bəyannaməsini imzalayanlardan biri olan Xosrov bəy Sultanov Cümhuriyyət dövründə Hərbiyyə naziri, Kənd Təsərrüfatı naziri, Qarabağ general-qubernatoru kimi vəzifələr daşımışdır. Sovet işğalından sonra mühacirət etmişdir. 21, 214, 323, 400, 401, 412, 413
Sultanov, İsfəndiyar bəy: Bakıda müəllim olmuşdur. 407
Sultanzadə, Əbdüləhəd xan: Şəkidən "Azərbaycan" qəzetinə məktub yazmışdır. 157
Suşon-Sivkina: Bakıda diş həkimi olmuşdur. 75, 105, 133, 160, 186, 205, 225, 243, 264, 283, 310, 329, 348, 367, 386, 408, 428, 448, 468, 488, 514
Suttoviç, Andrey: İkinci Bakı poçt və teleqraf bürosunda işləmişdir. 352
Sübhanquliyev, Ələddin (yaxud Ələddin Sübhanquluzadə): Qafqaz Şeyxülislamlıq İdarəsinin üzvü olmuşdur. 510
Sübhanqulov, Ələddin: bax. Sübhanquliyev, Ələddin.
Süleyman I (Qanuni; 1494-1566): Osmanlı sultanı; 1520-1566-cı illərdə hakimiyyətdə olmuşdur. 455, 469
Süleyman Nəzif: Azərbaycan Cümhuriyyəti Parlamenti İdarəsində türkcə protokol katibi olmuşdur. 287
Süleyman Nuri: Bakıda fəhlə hərəkatının nümayəndəsi olmuşdur. 15
Süleyman Sadıq oğlu (Məşhədi Süleyman): Balaxanıda, Moskva-Qafqaz Neft Şirkətində işləmişdir. 74
Süleyman Saib. 68
Süleyman Səlim əfəndi (1861-1909): Osmanlı şahzadəsi; sultan Əbdülməcidin oğlu. 275
Süleyman Şah (? - 1227): Oğuzların Qayı boyunun lideri, Osmanlı dövlətinin banisi Osman Qazinin əcdadı. Bəzi mənbələrdə Osman Qazinin babası olduğu deyilir. 119,

120
Süleymanzadə, Əbdülqafur: Göyçaylı müəllim. 224
Süleymanzadə, Əbülqasım: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
Süllәm: "Beytül-hikmә" sahibi (elmi tәdqiqat vә tәrcümә mәrkәzinin rәhbәri) olmuşdur. 95
Sürəyya Yüzbaşıbəy qızı: Ağdaşdakı qaçqınlardan olmuşdur. 131
Şah Abbas: bax. Abbas I.
Şah İsmayıl: bax. İsmayıl I.
Şahbaz: Bakıda yaşayan Dağıstanlı uşaq. 241
Şahmazyan, Arsen Pavloviç (1883-1935): Gorus Erməni Milli Şurasının Qarabağdakı nümayəndəsi olmuşdur. 180
Şahnazaryans (yaxud Şahnazaryan): Qarabağdakı Erməni Milli Şurasının üzvü olmuşdur. 323, 331
Şahnəzər Fətəli qızı: Ağdaşdakı qaçqınlardan olmuşdur. 132
Şahsüvarov, Nurməmməd (yaxud Nurməhəmməd) bəy Adilxan bəy oğlu (1883-1958): Azərbaycanın və Dağıstanın maarif və dövlət xadimi. Azərbaycanın Zəngəzur qəzasında anadan olmuş, Kiyev Universitetinin Hüquq fakültəsində təhsil almışdır. Azərbaycan və Dağıstanda maarif sahəsində işləmişdir. 1918-ci ilin mayından 1919-cu ilin mayına qədər Dağlılar Respublikasının Maarif naziri olmuşdur. Azərbaycan Cümhuriyyətinin Maarif və Dini Etiqad nazirinin müavini, həmçinin nazir (qısa müddət) olmuşdur. Sovet dövründə yenə maarif sahəsində fəaliyyət göstərmiş, repressiyaya məruz qalmış, 1943-cü ildə sürgündən qayıtmışdır. 41, 279, 307, 424
Şahtaxtınski, Heydər bəy: Naxçıvan və Gəncə məhkəmələrində işləmişdir; Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 184
Şahtaxtınski, Həmid bəy (1880-1944): Azərbaycan Cümhuriyyətinin dövlət xadimi. Hüquq təhsili almış, maarif və məhkəmə sistemində işləmişdir. Maarif nazirinin müavini, Maarif naziri, Parlamentin üzvü olmuşdur. Repressiyaya məruz qalmış, sürgündə ölmüşdür. 41, 420
Şahzadə Savoyski: bax. Prins Spoleto-de-Savoya.
Şahtaxtlı, Heydər bəy: bax. Şahtaxtınski, Heydər bəy.
Şahtaxtlı, Həmid bəy: bax. Şahtaxtınski, Həmid bəy.
Şaxnazarov, M. B.: Bakıda həkim olmuşdur. 24, 50, 76, 105, 133, 160, 186, 205, 225, 349
Şaxnazaryan. 422
Şalikaşvili: Gürcüstanda, Ermənistanla sərhədlə dəmiryolu stansiyası rəisi olmuşdur. 103
Şamil (Şeyx Şamil; 1797-1871): Qafqaz dağlılarının rəhbəri, Şimali Qafqazda milli-azadlıq hərəkatının lideri. 15, 30, 38, 89, 233, 302, 507
Şamkoryan, O.: Bakıda həkim olmuşdur. 75, 105, 133, 160, 186, 205, 225, 243, 264, 283, 310, 329, 348, 367, 386, 408, 428, 448, 468, 488, 514
Şamov: müəllim; Zaqafqaziya Rus Cəmiyyətinin üzvü. 487
Şanaq: Hind alimi. 148
Şani Təkəli: XVI əsrin II yarısı – XVII əsrin əvvəllərində yaşamış şair. 457
Şapiro-Rotman: Bakıda qadın həkimi olmuşdur. 75, 105, 133, 160, 186, 205, 225, 243, 264, 283, 310, 329, 348, 367, 386, 408, 428, 448, 468, 488, 514
Şattlvort, Diqbi [Digby Shuttleworth; 1876-1948]: Britaniya Hindistanı Ordusu'nun zabiti; general. 1917-1919-cu illərdə Britaniyanın Qafqazdakı 39-cu piyada briqadasının və Qara dənizdəki 83-cü piyada briqadasının komandiri olmuşdur. 169, 170, 171, 180, 392
Şexter, Z. A.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 24, 50, 76, 105, 132, 160, 186, 205, 225, 244, 263, 283, 311, 330, 349, 367, 387, 408, 427, 448, 468, 489, 515
Şerman: ABŞ Senatının üzvü. 84, 85
Şeydeman, Filipp [Philipp Heinrich Scheidemann] (1865-1939): alman sosial-demokrat, 1919-cu ilin fevral-iyun aylarında Veymar Respublikasının Baş naziri olmuşdur. 377, 378, 417, 493
Şeyx Fəzlullah: bax. Nuri, Fəzlullah.
Şeyx Hüda: bax. Səyyadi, Əbülhüda.
Şeyx Səfi (1252-1334): Səfəvilər sülaləsinin banisi. 457
Şeyx Şamil: bax. Şamil.
Şeyxov: İrəvan Həmtorpaqlılar Cəmiyyətinin sədri olmuşdur. 505
Şəhabəddin Süleyman (1885-1919): Türk yazıçısı və maarifpərvəri. 69
Şəmsəddin Sami (1850-1904): Türk yazıçısı, publisisti və dil alimi. "Təəşşüqi-Tələt və Fitnat" adlı əsəri türk ədəbiyyatında ilk roman olaraq qəbul edilir. Müxtəlif qəzetlərdə baş redaktor olmuş, eləcə də məqalələr yazmışdır. Fransızca və ərəbcə lüğətlər, türk dilinin izahlı lüğətini ("Qamusi-türki") hazırlamışdır. "Qamusül-ə'lam" adlı bioqrafiya, tarix və coğrafiya ensiklopediyasını nəşrə hazırlamışdır. Dram əsərləri, fransız ədəbiyyatından tərcümələri, türk mədəniyyəti və ədəbiyyatı tarixinə dair əsərləri var. 47, 52, 97, 359
Şərif Mürtəza (966-1044): müsəlman teoloqu. 150
Şərifov, Abbas: bax. Şərifzadə, Abbas Mirzə.
Şərifov, Mehdi (Məşhədi Mehdi): "Azərbaycan" qəzetinə Bərdədən yazmışdır. 262
Şərifzadə, Abbas Mirzə (1893-1938): Azərbaycan aktyoru. "Səfa" və "Nicat" cəmiyyətlərinin truppalarında çıxış etmiş, "Hacıbəyli qardaşları müdiriyyəti"nə rejissor kimi dəvət edilmişdir. Azərbaycan teatr sənətinin inkişafında böyük xidmətləri olmuşdur. Sovet rejimi tərəfindən repressiyaya məruz qalmış, güllələnmişdir. 16
Şıxlinski, Əliağa (1863-1943): Azərbaycanın hərbi xadimi. Rusiya imperiyası ordusunda general-leytenant rütbəsinə yüksəlmişdi. Azərbaycan Cümhuriyyəti ordusunun qurulmasında böyük xidmətləri olmuşdur. Azərbaycan Hərbi nazirinin müavini vəzifəsini tutmuşdur. 47, 52
Şirinbəyov, Cəvahir: Bakı sakini, Çənbərəkənd küçəsində yaşamışdır. 123
Şirinbəyov, Ələşrəf Cəvahir oğlu: Bakı sakini, Çənbərəkənd küçəsində yaşamışdır. 123
Şirinzadə, Ceyran xanım: Azərbaycan Parlament İdarəsində telefonçu və məktub xidmətçisi olmuşdur. 287
Şirməhəmməd Məlik oğlu: Bakı sakini. 241
Şirvani, Seyid Əzim. 78
Şirvani, Zeynalabdin (Hacı Zeynalabdin; 1780-1838): Azərbaycan səyyahı, coğrafiyaşünası, tarixçisi və şairi. 469
Şmidt: Nürnberq bolşeviklərinin başçısı olmuşdur. 334
Şmirqeld: Bakıda həkim olmuşdur. 75, 105, 133, 160, 186, 205, 225, 243, 264, 283, 310, 329, 348, 367, 386, 408, 428, 448, 468, 488, 514
Şor, Miron Yakovleviç: Cümhuriyyətdən əvvəl və Cümhuriyyət dövründə Azərbaycanda məhkəmə sistemində işləmiş, Bakı Şəhər Dumasının üzvü olmuşdur. 484
Şukin, N. N.: Ümumrusiya Hökumətinin Ticarət və Sənaye naziri (1919) olmuşdur. 503
Şuljenko, Nikolay Nikolayeviç: Azərbaycan Cümhuriyyəti Ərzaq nazirinin vəkili olmuşdur. 206
Şults: Əmək Nazirliyinin müfəttişi olmuşdur. 339
Şükürbəyli, Məhəmmədəli: Salyan Müəllimlər İttifaqı idarə heyətinin üzvü. 485, 486
Şükürov, Mirzəağa: Bakı Teleqraf İdarəsində işləmişdir. Azərbaycan Poçt və Teleqraf Qulluqçuları İttifaqının üzvü olmuşdur. 17

Şvars: Bakı sakini. 278
Tabaqçı, Məhəmmədəli: bax. Əsədulla-zadə, Məhəmmədəli
Tacəddin əl-Kindi: bax. Kindi, Tacəddin.
Tağıyev, Hənifə. 484
Tağıyev, Seyid (Hacı Seyid): Şağan sakini. 488
Tağıyev, Zeynalabdin: Azərbaycanlı milyonçu və xeyriyyəçi. 45, 122, 236
Tağızadə: Gəncədə cildsaz (cildçi) olmuşdur. 48
Tağızadə, Ələkbər: İranlılar Maarif Cəmiyyətinin üzvü olmuşdur. 425
Tahirov, Mehdi: "Müsavat" partiyasının Salyan komitəsinin üzvü. 513
Tahirzadə, Qəmbər bəy: Bakıda müəllim olmuşdur. 407
Tahirzadə, Rəsul bəy: Bakıda müəllim olmuşdur. 182, 407
Tahirzadə, Yarəli: "İttihad" partiyasının Ramana şöbəsinin sədri olmuşdur. 345
Talıbzadə, Abdulla Şaiq (1881-1959): Azərbaycan şairi, yazıçısı və pedaqoqu. 52, 178, 327, 407
Tarəmi, İsmayıl Əfşar (Azərbaycani): Tehranda nəşr edilən "İran" qəzetində yazmışdır. 452
Tarhan, Əbdülhaq Hamiq (1852-1937): Türk şair və yazıçısı. 69, 270
Tarnoqradski: mühəndis; Poçt və Teleqraf Nazirliyində işləmişdir. 392
Teadoros [Theodoros]: Orta əsrlərdə yaşamış tərcüməçi. 97
Teferi Mekonnın (yaxud Hayle Selassi; 1892-1975): İmperatriçə Zauditu dövründə (1916-1930-cu illərdə) Həbəşistanın səltənət naibi, 1930-1936 cə 1941-1974-cü illərdə Hayle Selassi adıyla Həbəşistan imperatoru olmuşdur. 429
Ter-Akopov, A.: bax. Ter-Akopyan, A.
Ter-Akopyan, A.: Ermənistan Xarici İşlər Nazirliyinin Baş katibi olmuşdur. 179, 180, 188
Ter-Minasyan, Ruben (1882-1951): Ermənistanın siyasi xadimi, Daşnaksutyun partiyasının üzvü. Hərbi nazir, Daxili İşlər naziri olmuşdur. 180, 188
Ter-Saak: keşiş; Şəki ermənilərinin ruhani xadimi. 156
Teoman (yaxud Tuman; Toman): Hun hökmdarı. 455
Teon (İskəndəriyyəli): IV əsrdə yaşamış yunan astronomu və riyaziyyatçısı. 98
Teymur: XIV əsrdə yaşamış görkəmli türk sərkədəsi; Teymurilər dövlətinin banisi. 15, 16, 38, 455, 457
Teymurləng: bax. Teymur.
Tezicer, Frederik [Frederic Thesiger; 1868-1933]: Britaniyanın dövlət xadimi. 1916-1921-ci illərdə Hindistanın vitse-kralı və general-qubernatoru olmuşdur. 388
Təbəri, Məhəmməd İbn Cərir (? - 923): tarixçi və hədis alimi. 151
Təhanəvi: XVIII əsrdə yaşamış alim. 152
Təhsin Fazil bəy. 318
Tək, Əhməd Fərid bəy (1878-1971): Türkiyənin siyasi xadimi. Kütahyadan Parlamentə seçilmiş, Sosial Təminat və Daxili İşlər naziri olmuşdur. 176
Tək, Müfidə Fərid (1892-1971): Türk yazıçısı. 69
Təkinski, Məhəmməd xan (1880-1938): Azərbaycanın siyasi xadimi və diplomatı. Azərbaycan Cümhuriyyətinin Ermənistandakı siyasi nümayəndəsi (səfiri), həmçinin Azərbaycan Xarici İşlər nazirinin müavini olmuşdur. 82, 114, 155
Tələt paşa (1874-1921): Osmanlı dövlət xadimi. İttihad və Tərəqqi cəmiyyətinin liderlərindən biri idi. Daxili İşlər naziri, Poçt və Teleqraf naziri, Baş Nazir vəzifələrini tutmuşdur. Berlində erməni terrorçusu Teyliryan tərəfindən odlu silahla vurularaq öldürülmüşdür. 85, 464
Təmimi, Əli bin Ziyad: Orta əsrlərdə yaşamış tərcüməçi. 148
Tınışbayev, Məhəmmədcan (1879-1937): Qazaxların ictimai xadimi. Rusiya İkinci Dövlət Dumasının üzvü, Türküstan muxtariyyətinin birinci Baş naziri olmuşdur. 432, 449
Tiqranyan, Sirakan Tatesoviç (1875-1947): Ermənistanın siyasi xadimi. Daşnaksutyun partiyasının üzvü. Rusiya imperiyası II Dövlət Dumasının deputatı olmuşdur. 1918-ci ilin noyabrından 1919-cu ilin aprelinə qədər Ermənistan Respublikasının Xarici İşlər naziri vəzifəsini tutmuşdur. Sonrakı dövrdə Maarif naziri, Maarif və Mədəniyyət naziri olmuşdur. 1938-ci ildə həbs edilmiş, sürgündə ölmüşdür. 179, 188, 422
Tituşkin: Lənkəranda bolşeviklərin icra komitəsinin başçısı. 466
Tofiq Fikrət (1867-1915): məşhur türk şairi. Türkiyənin ədəbiyyat və incəsənətinə böyük təsiri olan "Sərvəti-fünun" ("Fənnlərin sərvəti") jurnalının baş redaktoru olmuşdur. 69, 78, 135, 159, 162, 265
Tomson, K. 253
Tomson, Vilyam Montqomeri [William Montgomerie Thomson; 1877-1963]: Britaniya generalı. Bakının general-qubernatoru olmuşdur. 179, 180
Topçubaşov, Əlimərdan bəy (1863-1934): Azərbaycanın siyasi xadimi; Azərbaycan Cümhuriyyətinin banilərindən biri. Tiflisdə anadan olmuş, Peterburq Universitetinin Hüquq fakültəsini bitirmişdir. Rusiya müsəlmanlarının təşkilatlanmasında və siyasi həyatında müstəsna xidmətləri olmuşdur. Rusyia Dövlət Dumasının üzvü, Dumada Müsəlman fraksiyasının sədri, "Kaspi" qəzetinin redaktoru olmuşdur. Azərbaycan Cümhuriyyəti Parlamentinin sədri, Azərbaycan Hökumətində portfelsiz nazir və Xarici İşlər naziri vəzifələrini tutmuş, Azərbaycan Cümhuriyyətinin Fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula ezam edilmişdir. Paris Sülh konfransına göndərilən Azərbaycan nümayəndə heyətinin sədri idi. Cümhuriyyətin süqutundan sonra mühacirətdə qalmış, siyasi fəaliyyətini davam etdirmişdir. Parisdə vəfat etmişdir. 110
Topçubaşova, Pəri xanım (yaxud Topçubaşzadə; 1873-1947): Həsən bəy Zərdabinin qızı, Əlimərdan bəy Topçubaşovun həyat yoldaşı. 438
Tokgöz, Əhməd Ehsan (1867-1942): Türk jurnalisti, tərcüməçisi və siyasətçisi. 69
Tredelyan, Çarlz: İngilis Sülh Şurası rəisi. 86, 111, 295
Triniç, Əhməd Bədi' (yaxud Ə. Bədi'; 1893-1936): "İttihad" partiyası Mərkəzi Komitəsinin Gəncədəki vəkili olmuşdur. 257, 363
Trotski, Lev Davidoviç (1879-1930): Rus inqilabçı, dövlət xadimi. Petroqrad Fəhlə və Əsgər Deputatları Soveti icraiyyə komitəsinin sədri, Sovet Rusiya-sının Xarici İşlər naziri, Rusiya və SSRİ-nin Hərbi İnqilab Sovetinin sədri və Hərbi Komissarı olmuşdur. 57, 333, 334, 509
Tsentner: Bakıda qadın həkimi olmuşdur. 24, 50, 76, 106, 133, 159, 186, 205, 225, 243, 264, 283, 310, 329, 348, 367, 386, 408, 428, 448, 488, 514
Tuma: Orta əsrlərdə yaşamış tərcüməçi. 98
Tuman: Hun hökmdarı. Bax. Teoman.
Tumanyans. 420
Tunik, O. L.: əczaçı. 371
Uraz Sərdar: bax. Eyvazbəyov, Uraz Sərdar.
Us, Məhməd Asım (1884-1967): Türk yazıçısı, jurnalisti və siyasi xadimi. 68
Übeydulla I. 107
Übeydulla II. 107
Ümidvar: "Azərbaycan" qəzetində Ömər Faiq Nemanzadəyə məxsus imza; bax. Nemanzadə, Ömər Faiq.
Ümmügülsüm: bax. Sadıqzadə, Ümmügülsüm Əbdüləziz qızı.
Ümmüxanım Cabbar qızı (Kərbəlayi Cabbar qızı): Ağdaşdakı qaçqınlardan olmuşdur. 132
Vahab Abbas oğlu (Hacı Vahab Hacı Abbas oğlu): Bakı sakini. 123, 326

Vahab Əli oğlu: Mərdəkan kəndinin sakini. 308
Vamberi, Herman (yaxud Armin Vamberi) [Armin Vambery; Hermann Vambery; 1832-1913]: Macar əsilli şərqşünas və səyyah. 455, 469
Vançem: rus bolşeviki; Almaniya hökumətinə xidmət etmişdir. 505
Vasserman: Bakıda mama-feldşer olmuşdur. 24, 50, 76, 106, 133, 159, 186, 205, 225, 243, 264, 283, 310, 329, 348, 367, 386, 408, 428, 448, 488, 514
Vekerle, Şandor [Sándor Wekerle; 1848-1921]: Macarıstanın dövlət xadimi. 1892-1895, 1906-1910 və 1917-1918-ci illərdə Macarıstan Krallığının Baş Naziri olmuşdur. 30
Vella, Arturo [Arturo Vella; 1886-1943]: İtaliyanın siyasi xadimi; sosialist. 111
Venizelos, Elefterios (1864-1936): Yunanıstanın siyasi xadimi. 1910-cu ildən 1933-cü ilə qədər dəfələrlə (o cümlədən 1917-1920-ci illərdə) Baş nazir vəzifəsini tutmuşdur. 474, 502
Vermişev, Xristofor Avvakumoviç (yaxud Vermişyants; 1863-1933): erməni ictimai xadimi. Tiflis Bələdiyyə İdarəsində bir sıra vəzifələr tutmuşdur. Bakıda rus dilində nəşr olunan "Baku" qəzetinin redaktoru olmuşdur. Ermənistanın Ərzaq naziri olmuşdur. 447
Vern, Jül [Jules Verne; 1828-1905]: fransız yazıçısı. 69
Vert, Henrik [Henrik Werth; 1881-1952]: Macarıstanın hərbi xadimi, general-polkovnik. Rumın işğal ordusu ilə sülh müzakirələrini aparmaq Vertə tapşırılmışdı. 113
Vəcihi: bax. Vəcihi Məhməd.
Vəcihi Məhməd (1869-1904): Türk şairi və yazıçısı. 69
Vəkilov: Sosial Təminat Nazirliyinin baş məmuru olmuşdur. 358
Vəkilov: Parlament İdarəsinin vəkili olmuşdur. 27
Vəkilov, Faris bəy İbrahim ağa oğlu (1886-1978): mühəndis, diplomat. Azərbaycan Cümhuriyyətinin Gürcüstanda siyasi nümayəndəsi olmuşdur. 405
Vəkilov, Rəhim bəy (1898-1934): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. Sovet rejiminin təqibləri üzündən intihar etmişdir. 199
Vəlibəyov, Əbdüləli bəy Qasım bəy oğlu: pedaqoq. Şuşada anadan olmuş, Qori Müəllimlər Seminariyasını bitirmiş, müəllim və məktəb müdiri olmuşdur. Maarif mövzusunda yazıları ilə mətbuatda çıxış etmişdir. 182
Vəlibəyzadə, Əbdüləli bəy: bax. Vəlibəyov, Əbdüləli bəy.
Vəlixanlı, Abbasqulu: Müsəlman Zəhmətkeş Ziyalılar İttifaqının; Müsəlman Müəllimlər İttifaqının üzvü olmuşdur. 407
Vəlixanzadə, Abbasqulu: bax. Vəlixanlı, Abbasqulu.
Vəliməhəmməd Əbdüssalam oğlu (Hacı Əbdüssalam oğlu): Pirşağı sakini. 326
Vəlizadə, Böyükağa: Ramana kəndinin sakini; "Müsavat"ın Raman şöbəsinin katibi; Kəndçilər İttifaqı Ramana şöbəsinin üzvü. 242, 263
Vəlizadə, Mirzəağa. 201
Vəzirov, Bəhlul bəy: Azərbaycan Poçt İdarəsinin baş müdiri olmuşdur. 372
Vəzirov, Bəhram bəy: Bakı Poçt İdarəsinin müdiri olmuşdur. 372
Vəzirov, Cəmil bəy: mühəndis; Müsəlman Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 184, 352, 392
Vəzirov, Yusif: bax. Çəmənzəminli, Yusif Vəzir.
Vilhelm II (Wilhelm II, 1859-1941): Almaniya imperatoru, 1888-1918-ci illərdə hakimiyyətdə olmuşdur. 113, 315, 331, 368, 435
Vilson, Lesli [Leslie Wilson; 1876-1955]: Britaniyanın siyasi xadimi. 1919-cu ilin





yanvarından 1921-ci ilin martına qədər Gəmiçilik Nazirliyinin Parlament katibi olmuşdur. 1923-1926-cı illərdə Bombeyin qubernatoru olmuşdur. 355
Vilson, Vudro (Woodrow Wilson; 1856-1924): ABŞ-ın 28-ci prezidenti (1913-1921). I Dünya müharibəsinə son qoymaq üçün sülh müqaviləsi layihəsini (Vilson prinsiplərini) işləyib hazırlamışdır. 3, 31, 32, 34, 48, 51, 55, 84, 85, 86, 110, 111, 113, 139, 187, 193, 213, 273, 293, 294, 295, 315, 316, 317, 335, 355, 356, 376, 377, 378, 397, 398, 435, 436, 459, 492, 493, 494
Voloqodski, Pyotr Vasilyeviç (1863-1925): Rusiyanın ictimai-siyasi xadimi. 1918-ci ilin iyun-noyabr aylarında Müvəqqəti Sibir Hökumətinin sədri, 1918-ci ilin noyabrından 1919-cu ilin noyabrına qədər Rusiya Nazirlər Sovetinin sədri olmuşdur. 432, 503
Vorontsov-Daşkov, İllarion İvanoviç (1837-1916): Rusiyanın dövlət xadimi. 1905-1915-ci illərdə Qafqaz canişini olmuşdur. Ermənilərə xüsusi rəğbəti ilə seçilmişdir. 216, 508
Voskresenski. 445
Vüsuqüddövlə, Mirzə Həsən xan Mirzə İbrahim xan oğlu (1868-1951): İran dövlət xadimi. 1916-1917 və 1918-1920-ci illərdə Baş nazir olmuşdur. 91
Yaqub bin İshaq əl-Kindi: bax. Kindi, Yaqub
Yaqubov, Əbdülhəmid: Salyan Realnı məktəbində oxumuşdur; "Müsavat" partiyasının Salyan komitəsinin üzvü olmuşdur. 159, 512
Yaqubov, Əsədulla: Salyan sakini; "Müsavat" partiyasının Salyan komitəsinin üzvü. 513
Yaqut: bax. Yaqut əl-Həməvi.
Yaqut əl-Həməvi (? - 1229): Müsəlman tarixçi və coğrafiyaşünas alimi, səyyah. 453
Yavər paşa: Osmanlı sarayınca baş mabeynçi olmuşdur. 319
Yeqorov, Vladimir: Tiflis Aleksandro-Nevski kilsəsinin keşişi olmuşdur. 346, 406
Yerofeyev: Zaqafqaziya Rus Cəmiyyətinin üzvü. 487
Yetər Əhməd qızı: Ağdaşdakı qaçqınlardan olmuşdur. 132
Yəhya bin Ədi (? - 975): xristian ərəb filosofu, alimi və tərcüməçisi. 95, 97
Yəhya bin əl-Bitriq: bax. İbnül-Bitriq, Yuhanna.
Yəqubi, Əbül-Abbas İbn Vazeh: IX əsrdə yaşamış tarixçi, coğrafiyaşünas və səyyah. 151
Yudeniç, Nikolay Nikolayev (1862-1933): Rusiyanın hərbi xadimi; general. Birinci Dünya müharibəsində Qafqaz ordusunun qərargah rəisi, Rusiyada Vətəndaş müharibəsində Şimal-Qərb ordusunun komandiri olmuşdur. 212, 272, 504
Yuhanna bin Bəxtişu (yaxud Yəhya bin Bəxtişu): Orta əsrlərdə yaşamış tərcüməçi və alim. 95, 107
Yunis. 303
Yurdaqul, Məhməd Əmin: bax. Məhməd Əmin.
Yurdsevər, Əbdülvahab Məmmədzadə (yaxud Məhəmmədzadə; 1898-1976): publisist və siyasi xadim; Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakçısı. Siyasi və ədəbi fəaliyyətini mühacirətdə davam etdirmişdir. 39, 72, 199, 241
Yusif Hacı: Çeçenlərin ictimai-siyasi xadimi; Dağlılar Respublikası Parlamentinin üzvü olmuşdur. 117
Yusif Qarabaği: Azərbaycan şairi (XVI əsr). 457
Yusifbəyli, Nəsib bəy (1881-1920): Azərbaycanın dövlət xadimi, Azərbaycan Cümhuriyyətinin qurucularından biri. Odessa Universitetinin Hüquq fakültəsində təhsil almışdır. 1917-ci ildə Gəncədə Türk Ədəmi-Mərkəziyyət Partiyasını qurmuşdur. Zaqafqaziya Seyminin yaradılmasında yaxından iştirak etmiş, Zaqafqaziya Demokratik Federativ Respublikası Hökumətində Maarif naziri

olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində Maliyyə və Xalq Maarifi naziri, Xalq Maarifi və Dini Etiqad naziri, Daxili İşlər naziri və Baş Nazir vəzifələrini tutmuşdur. Cümhuriyyətin süqutundan sonra qətlə yetirilmişdir. 47, 81, 115, 137, 153, 167, 169, 182, 241, 269, 292, 303, 304, 353, 392, 485

Yusifbəyov, Əhməd bəy: Şəki Əxzi-əsgər [Hərbi çağırış] idarəsinin rəisi; yüzbaşı. 156

Yusifxanlı, Həsən ağa: bax. Yusifxanov, Həsənağa.

Yusifxanov, Həsənağa: Maliyyə Nazirliyinin dəftərxanasında işləmiş, Bakı qazısının katibi olmuşdur. 289

Yusifov, İbrahim ağa (yaxud Usubov; 1872-1920): Rusiyanın və Azərbaycanın hərbi xadimi; general-mayor. 16

Yusifzadə, Abbasqulu: Bakıda müəllim olmuşdur. 407

Yusifzadə, Əbdürrəhim: "Müsavat" partiyasının Balaxanı mədənləri ərazisindəki şöbəsinin katibi olmuşdur. 125, 512

Yusifzadə, Əli (1900-1937): Azərbaycanlı şair, publisist və mütəfəkkir. Şuşada doğulmuşdur. Cümhuriyyət Hökuməti tərəfindən xaricə təhsilə göndərilmişdir. 1937-ci ildə Sovet rejimi tərəfindən güllələnmişdir. 71, 272

Yusifzadə, Əziz: Balaxanıdakı ordubadlılardan. 126

Zaki Məcid oğlu (Kərbəlayi Məcid oğlu): "Müsavat" partiyasının Nardaran şöbəsi sədrinin müavini olmuşdur. 260

Zaks, S. İ.: Bakıda həkim olmuşdur. 23, 76, 161, 204, 244, 284, 330, 349, 368, 387, 408, 427, 449, 468, 489, 515

Zaqunov: Bakıda fəhlə olmuşdur. 1919-cu ilin may ayında ümumi tətildə iştirak etdiyi üçün həbs edilmişdir. 420

Zalsman: Bakı komendantının müavini olmuşdur. 362

Zauditu (1876-1930): 1916-1930-cu illərdə Həbəşistan imperatriçəsi olmuşdur. 429

Zeydan, Corci (1861-1914): ərəb yazıçısı və publisisti. 149, 162

Zeynalov, Məhəmməd (Mirzə Məhəmməd): bax. Zeynalzadə, Məhəmməd (Mirzə Məhəmməd)

Zeynalzadə, Həcər xanım: Azərbaycan Parlament İdarəsində telefonçu və məktub xidmətçisi olmuşdur. 288

Zeynalzadə, Məhəmməd (Mirzə Məhəmməd): Cavad qəzasında Süleymankənd (indiki Salyan rayonunun Çuxanlı kəndi) məktəbinin müəllimi; "Müsavat" partiyasının Salyan komitəsinin üzvü. 486, 513

Zeynalzadə, Paşa Mahmud oğlu (Kərbəlayi Mahmud oğlu; ? - 1919): "Müsavat" partiyasının Nardaran şöbəsi sədrinin müavini olmuşdur. 260

Zəhir Rəhman oğlu: Ərkivan sakini. 99

Zəməxşəri (1075-1144): ərəb dili və ədəbiyyatı mütəxəssisi. 150

Zərgərli, İsmayıl: Salyan Realnı məktəbində oxumuşdur. 159

Zinovyev, Qriqori Yevseyeviç (1883-1936): Rus inqilabçı, SSRİ-nin dövlət xadimi. Rusiya Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü olmuşdur. 1934-cü ildə həbs edilmiş və 1936-cı ildə güllələnmişdir. 213

Zivər bəy: Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 185

Ziyadxani, İsmayıl xan: bax. Ziyadxanov, İsmayıl xan.

Ziyadxanov, Adil xan (yaxud Ədil xan; 1877-1957): Azərbaycanın dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Cümhuriyyət dövründə Xarici İşlər nazirliyində işləmiş, Azərbaycanın İranda diplomatik nümayəndəsi təyin edilmişdir. Cümhuriyyətin süqutundan sonra bir müddət İranda, daha sonra Türkiyədə yaşamışdır. 262, 338, 463

Ziyadxanov, İsmayıl xan (1861-1920): Azərbaycanın dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Rusiya





Dövlət Dumasının üzvü olmuşdur. Dinc əhaliyə qarşı soyqırım törədən erməni quldurlarıyla mübarizə aparmışdır. Azərbaycan Cümhuriyyətinin İranda səfiri təyin edilmişdir. Cümhuriyyətin süqutundan sonra bolşeviklər tərəfindən güllələnmişdir. 155, 402, 436

Zummerov: Bakıda asayişi pozmaqda günahlandırılaraq həbs edilmişdir. 42

Zühdü paşa: Misir vəziri. 6

Zülqədərli, Lütfəli bəy: Şamaxı qəzasının rəisi olmuşdur. 88, 101, 102, 358

Zülqədərov, Lütfəli bəy: bax. Zülqədərli, Lütfəli bəy.

Korrektor: Azad Ağaoğlu
Kitab üzlüyü və tərtib: Fikrət Məlikov

**Nəşriyyat direktoru:** Rəhilə Soltanqızı
**Mətbəənin direktoru:** Zöhrab Vəlibəyli
**Texniki redaktor:** Ruslan Mahmudov

Çapa imzalanmışdır: 30.11.2023
Formatı 70x100 $^{1}/_{16}$. F.ç.v 30.5
Ofset kağızı, Ofset çapı. Səhifə sayı: 576
Tiraj: 300, Bakı-2023

**Hazır materiallar əsasında
GALAXY PRINTING MMC
mətbəəsində çap edilmişdir.**

ISBN 978-9952-8314-5-0
9 789952 831450